*Ümummilli lider Heydər Əliyevin*
*əziz xatirəsinə ithaf olunur*

# DİPLOMATİYA:
## ensiklopedik lüğət

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

«Diplomat» nəşriyyatı
BAKI – 2005

*BAŞ REDAKSİYA ŞURASI*

*Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı Xarici Əlaqələr şöbəsinin müdiri* — ***MƏMMƏDOV N.İ.*** *(Sədr)*

*Bakı Diplomatiya Universitetinin rektoru* — ***HÜSEYNLİ N.Z.*** *( Baş redaktor)*

*Bakı Diplomatiya Universitetinin dosenti* — ***ŞAHMURADOV A.Ş.*** *(Məsul katib)*

*REDAKSİYA ŞURASI:*

*Azərbaycan Respublikası Gömrük Komitəsinin sədri* ***HEYDƏROV K.F.***, *Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı İctimai-Siyasi şöbəsinin müdiri* ***HƏSƏNOV Ə.M.***, *Azərbaycan Respublikasının Macarıstan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri* ***HƏSƏNOV H.Ə.***, *Azərbaycan Respublikası Gənclər və Turizm naziri* ***QARAYEV Ə.M.***, *Azərbaycan Respublikası Milli Təhlükəsizlik naziri* ***MAHMUDOV E.Ə.***, *Azərbaycan Respublikası Vergilər naziri* ***MƏMMƏDOV F.Ə.***, *Azərbaycan Respublikası Xarici İşlər naziri* ***MƏMMƏDYAROV E.M.*** *Azərbaycan Respublikasının ABŞ-da Fövqəladə və Səlahiyyətli səfiri* ***PAŞAYEV H.M.***, *Azərbaycan Respublikası Milli Məclisinin Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin sədri* ***SEYİDOV S.İ.***

*REDAKSİYA HEYƏTİ*

***Əhmədli C.T.*** – Bakı Diplomatiya Universitetinin I prorektoru, f.e.d., professor, əməkdar elm xadimi (Sədr), ***Cəfərova D.N.*** – Bakı Diplomatiya Universitetinin «Humanitar fənlər və jurnalistika» kafedrasının müdiri, fil.e.n. dosent, ***Əlibəyli H.C.*** – AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun şöbə müdiri, t.e.d., professor, ***Əzimov A.B.*** - Azərbaycan Respublikası Xarici İşlər Nazirinin müavini, ***Həsənli Y.H.***- Bakı Diplomatiya Universitetinin «Beynəlxalq hüquq və iqtisadiyyat» kafedrasının müdiri, i.e.n., dosent, ***Hüseynov C.H.*** – Azərbaycan Respublikası Milli Məclisinin deputatı, h.e.n., dosent, ***Xələfov X.A.*** - Azərbaycan Respublikası Xarici İşlər Nazirinin müavini, ***Qasımlı M.C.*** – Bakı Dövlət Universiteti, t.e.d., professor, ***Mehdiyev A.Ş.*** – Azərbaycanın Avropa Şurasındakı daimi nümayəndəsi, t.e.n., dosent, ***Məmmədquliyev M.Ə.*** - Azərbaycan Respublikası Xarici İşlər Nazirinin müavini, ***Orucov R.M.*** – Bakı Diplomatiya Universitetinin «Tərcümə» kafedrasının müdiri, professor, ***Rəhimov H.P.*** – Bakı Diplomatiya Universitetinin «Dillər» kafedrasının müdiri, professor, ***Rüstəmov İ.Ə.*** – Bakı Dövlət Universiteti, kafedra müdiri, f.e.d., professor, ***Rüstəmov Y.M.*** – AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun direktoru, f.e.d., professor, ***Rzayev H.N.*** – Bakı Diplomatiya Universitetinin «Beynəlxalq münasibətlər» kafedrasının müdiri, t.e.n., professor, ***Sadıqov V.İ.*** – Azərbaycan Respublikası Xarici İşlər Nazirinin müavini, t.e.n., professor, ***Zeynalov R.Y.*** – Bakı Diplomatiya Universiteti, t.e.n., professor.

ISBN 9952-8006-5-7

© **Diplomat** 2005

## ÖN SÖZ

«Diplomatiya: ensiklopedik lüğət»inin nəşri həyatın reallığından doğmuşdur. Dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan ictimai-siyasi, sosial-iqtisadi sahələrdə görkəmli nailiyyətlər əldə etmiş, dünya dövlətləri sırasında öz sözünü deyən, beynəlxalq münasibətlər sistemində fəal iştirak edən bir ölkəyə çevrilmişdir.

Beynəlxalq proseslərin inkişafı elə bir yeni keyfiyyət mərhələsinə qədəm qoymuşdur ki, müxtəlif dövlətlərin, millətlərin, regionların qarşılıqlı fəaliyyəti, sıx əlaqəsi obyektiv zərurətə, tərəqqinin çox vacib amilinə çevrilmişdir. Zaman beynəlxalq həyatın bütün sahələrinin yeniləşdirilməsi, ümumbəşəri dəyərlərin bərpa edilməsi, siyasi və hüquqi təsisatların fəaliyyətinin köhnəlmiş prinsiplərindən imtina edilməsi, həmin təsisatların yenidən qurulması zərurətini qarşıya qoymuşdur. Ümumi mədəniyyətin mühüm tərkib hissələrindən biri olan diplomatiya bu proseslərdən kənarda qalmır, baş verən dəyişiklikləri sadəcə əks etdirmir, fəal mövqe tutur və özü də bu prosesdə təkmilləşir, zənginləşir, inkişaf edir, bəşriyyətin ümumi tərəqqisində başlıca amillərdən birinə çevrilir.

Bəşər cəmiyyətinin inkişaf tarixində dövlətin xarici siyasət məsələləri və onun mühüm vasitəsi olan diplomatiya həmişə mühüm yer tutmuşdur. Diplomatiya hər şeydən əvvəl yüksək intellekt, geniş və hərtərəfli bilik, yalnız öz xalqının mənəvi sərvətinə deyil, bəşər mədəniyyətinə dərin bələdlik, analitik ağıl və intizam tələb edir.

«Diplomatiya: ensiklopedik lüğət» bu çətin peşənin sirlərinə yiyələnmək istəyənlər üçün xüsusilə faydalı olacaq. Lüğətdə beynəlxalq münasibətlər və diplomatiya sahəsində ən çox işlənən anlayış və terminlərin izahı verilmişdir. Terminoloji məqalələrin çoxunda anlayışların təhlili nisbətən təfsilatla verilir ki, bu da oxucuda diplomatiya və diplomatik xidmət haqqında aydın təsəvvür yaradır.

Nəşrin ərsəyə gətirilməsində respublikamızın görkəmli diplomatları, tarixçiləri, iqtisadçıları, hüquqşünasları, politoloqları fəal iştirak etmişlər.

Məqalələrin xeyli hissəsi beynəlxalq münasibətlərin strukturunun, funksional və inkişaf sistemlərinin ümumi qanunauyğunluqlarının şərhi məsələlərinə həsr edilmişdir. Diplomatik münasibətlərin yaranmasına, diplomatik protokola, diplomatik korpusun fəaliyyətinə də xeyli yer ayrılmışdır. Kitabda diplomatik kadrların iş sisteminə, xarici əlaqələr orqanlarının fəaliyyətinə, xaricdə diplomatik nümayəndəliklərin işinə, bu nümayəndəliklərin strukturuna, vəzifə və funksiyalarına geniş yer verilmişdir. Oxucular bütün zamanlarda Azərbaycanda yaşayıb dünya tarixində dərin iz buraxmış böyük siyasətçilərin həyatı, fəaliyyəti ilə də ilk dəfə ətraflı tanış ola biləcəklər.

Lüğətdə beynəlxalq hüququn mühüm problemləri haqqında, o cümlədən beynəlxalq təşkilatların fəaliyyəti barədə müfəssəl məlumat verilir,

qloballaşma prosesi ilə əlaqədar dünya ölkələri arasında münasibətlərin genişləndirilməsinə və təkmilləşdirilməsinə, xüsusən təhlükəsizliyin sabit və səmərəli arxitekturasının qurulmasına xüsusi diqqət yetirilir.

Lüğətdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi və həyata keçirdiyi uğurlu xarici siyasət kursu, Prezident İlham Əliyevin ölkənin xarici siyasət strategiyasını gücləndirmək yolunda fəaliyyəti geniş təhlil edilmişdir.

Oxuculara təqdim olunan lüğət beynəlxalq aləmdə cərəyan edən proseslərin nəzəri təhlili əsasında hazırlanmışdır.

Lüğət eyni xarakterli nəşrlərdən bir çox cəhətləri ilə seçilir. Avropa və Rusiyada çap olunmuş ensiklopedik lüğətlərdən fərqi isə onun ən mürəkkəb nəzəriyyə və anlayışlar haqqında verdiyi məlumatların həm elmi, həm də anlaşıqlı bir dildə yazılması, millilik, varislilik, tarixilik, bəşərilik, məntiqilik prinsiplərinə əsaslanmasıdır.

«Diplomatiya: ensiklopedik lüğət» təkcə mütəxəssislərə deyil, geniş oxucu kütləsinə ünvanlanmışdır. Məqalələr əlifba sırası ilə yerləşdirilmiş, kursivlə fərqləndirilən anlayışlar haqqında ayrıca məqalələr verilmişdir.

«Diplomatiya: ensiklopedik lüğət»in ərsəyə gəlməsində dəyərli məsləhətlər vermiş, respublikamızın ictimai-siyasi, dövlət xadimləri olan K.F.Heydərova, Ə.M.Həsənova, Ə.M.Qarayevə, E.Ə.Mahmudova, F.Ə.Məmmədova, N.İ.Məmmədova, E.M.Məmmədyarova, H.M.Paşayevə, S.İ.Seyidova, o cümlədən Redaksiya Şurasının üzvlərinə, texniki işləri həyata keçirmiş əməkdaşlara təşəkkürümüzü bildiririk.

«Diplomatiya: ensiklopedik lüğət» respublikamızda bu qəbildən olan ilk nəşr olduğu üçün oxuculardan kitab haqqında öz qeyd və təkliflərini aşağıdakı ünvana göndərmələrini xahiş edirik: akademik Həsən Əliyev küçəsi 135A. Bu qeyd və təkliflər Bakı Diplomatiya Universitetinin planlaşdırdığı çoxcildli «Diplomatiya Ensiklopediyası»nın yazılması üçün əhəmiyyətli olacaqdır.

Baş redaktor **N.Z.Hüseynli**
Baş redaksiya şurasının sədri
**N.İ.Məmmədov**



# A

**AAHEN KONQRESİ** (1818). *Müqəddəs İttifaqın* yaradılmasından sonra ilk diplomatik konqresdir (*Beynəlxalq konqres*). Konqresdə 1814-1815 illər *Vyana konqresindən* sonra Avropada beynəlxalq münasibətlərə dair bir sıra qərarlar qəbul edildi. Konqresin başlıca iştirakçıları *I Aleksandr* (Rusiya), Metternix (Avstriya-Macarıstan), Keslri (İngiltərə), Qardenberq (Prussiya) və hersoq Rişelye (Fransa) idi. 2.X. tarixində ilk *protokol* imzalandı. 9.X.1818 ildə Rusiya və Fransa arasında (*Beynəlxalq konvensiya*) konvensiya imzalandı. Bu konvensiyaya görə müttəfiqlərin qoşunları 30.XI.1818 il tarixdən gec olmayaraq Fransanı tərk etməli idi. *Təzminat* məbləği 265 milyon frank həcmində müəyyənləşdirildi. 1.XI.1818 ildə Fransada bərqərar olmuş qaydanı silahlı yolla qorumaq məqsədilə *Dördlər İttifaqı* yaradıldı.

15.XI.1818 ildə beş dövlət tərəfindən iki sənəd: protokol və *Bəyannamə* imzalandı. Protokol konqres iştirakçılarının üzərinə Avropada sülhün təmin olunması üçün öhdəlik qoyurdu. 15.XI.1818 il bəyannaməsi *beynəlxalq hüququ*, sakitliyi, əqidə və əxlaqı qorumaq məqsədilə konqres iştirakçılarının həmrəyliyini elan edirdi və nəşr olunmaq üçün nəzərdə tutulmuşdu.

21.XI.1818 ildə Rusiya, İngiltərə, Avstriya və Prussiya nazir-rezident dərəcəsi haqda protokol imzaladılar. Bu dərəcənin *Vyana reqlamentində* nəzərdə tutulmadığını əsas gətirərək A.k. iştirakçıları müəyyən etdilər ki, nazir-rezidentlər ikinci dərəcəli nazirlərlə (diplomatik nüma-yəndələrlə) işlər müvəkkili arasında orta sinif təşkil etsinlər. Səfir və diplomatik nümayəndə ilə bərabər qaydada nazir-rezident dövlət başçısı yanında, işlər müvəkkili isə xarici işlər naziri yanında akkreditə olunurdu. Bu saziş beynəlxalq hüququn və diplomatik etiketin ümümqəbul olunmuş normasına çevrildi. 1961 il Diplomatik Əlaqələrə dair Vyana Konqresi diplomatik sinifləri və dərəcələri müəyyən etdikdən sonra müasir beynəlxalq təcrübədə nazir-rezident dərəcəsi istifadə olunmur.

**AAHEN SÜLH MÜQAVİLƏLƏRİ.** 1) 02.V.1668. İngiltərə və Hollandiyanın vasitəçiliyi ilə İspaniya və Fransa arasında imzalanmış, Fransanın İspan Niderlandı uğrunda İspaniya ilə apardığı 1667-1668 illər müharibəsinə (*Müharibə*) son qoymuşdu. Müqavilənin (*Beynəlxalq müqavilə*) şərtlərinə görə, Fransa işğal etdiyi 11 Belçika şəhərini öz əlində saxladı, Konteni isə İspaniyaya qaytardı.

2) 18.X.1748. İngiltərə və Hollandiya ilə Fransa arasında imzalanmış, bir tərəfdən Bavariya, Fransa, İsveç, İspaniya, Neapol, Saksoniya, Sardiniya, Prussiya və bir sıra xırda alman dövlətləri, digər tərəfdən isə Avstriya, Hollandiya, İngiltərə və Rusiya arasında Avstriya irsi uğrunda gedən 1740-1748 illər müharibəsinə son qoymuşdu. Müqavilənin şərtlərinə görə, Avstriya imperatoru VI Karl Habsburq tərəfindən 1713 ildə imzalanmış, Habsburqların torpaqlarının bölünməzliyini, imperatorun oğlu olmadığı təqdirdə taxt-tacın onun böyük qızına verilməsini nəzərdə tutan Praqmatik sanksiya təmin edildi, Sileziya Prussiyaya verildi, İspaniya və Sardiniya İtaliyada, qismən Avstriya mülkləri hesabına əra-

zilər əldə etdi, Fransa Niderlandda tutduğu torpaqları qaytarmalı, Mədrəsi və Amerikadakı bir sıra kiçik əraziləri İngiltərəyə geri verməli idi. İngiltərə asiento haqqında müqaviləni (ingilis kompaniyalarının Amerikadakı İspaniya müstəmləkələrinə qul gətirmək hüququ) 4 il uzatmağa və Dyunkerk istehkamlarının dağıdılması barədə qərar qəbul edilməsinə nail oldu.

**ABBAS I** (1557–1628). Səfəvilər sülaləsinə məxsus «böyük» ləqəbiylə tanınan 5-ci İran şahıdır. 1587 ildə saray çevrilişi edərək atası Məhəmməd şahı hakimiyyətdən salıb, özünü şah elan edən A.I 43 illik hakimiyyəti dövründə həyata keçirdiyi islahatlar və sərt tədbirlər sayəsində Səfəvi dövlətini yenidən Yaxın və Orta Şərqin ən qüdrətli dövlətlərindən birinə çevirə bilmişdi. Sələfləri dövründə Osmanlı imperiyası ilə aparılan müharibələrdə (*Müharibə*) itirilmiş torpaqları geri qaytarmaq üçün müharibəyə hazırlaşan A.I ordu strukturunda islahatlar aparmaqla, onun döyüş qabiliyyətini artıra bilmiş, özünə müttəfiqlər tapmaq məqsədilə fəal diplomatik tədbirlərə əl ataraq, 1600 ildə öz elçilərini Avropa ölkələrinə göndərmişdi.

Osmanlı imperiyasının Avstriya ilə müharibə aparmasından və Anadolu Cəlalilər xalq hərəkatının başlanmasından istifadə edərək, A.I 1590 il İstanbul sülh müqaviləsini pozmuş və 1602 ildə fəal hərbi əməliyyatlara başlayaraq, osmanlı ordusunu ağır məğlubiyyətlərə uğrada bilmişdi. Təbriz, İrəvan və Qars şəhərləri iranlıların əlinə keçmiş, lakin az sonra Osmanlı ordusu yenidən Təbrizi tutaraq, A.I 1618 il Sərab sülh müqaviləsini bağlamağa məcbur etsə də, o, öz elçisi Qasım bəy vasitəsilə İstanbulda baş verən Yeniçəri qiyamı və sultan II Osmanın öldürülməsi xəbərini alan kimi yenidən müharibəyə başlayaraq Bağdad, Mosul şəhərlərini işğal etmişdi. O, həmin dövrdə Gürcüstanı da zəbt etmişdi.

A.I ingilislərin yardımı ilə Fars körfəzindəki portuqaliyalılara tabe qalaları da ələ keçirərək onları İran sahillərindən qovub çıxardı.

**ABBAS MİRZƏ FƏTƏLİ ŞAH OĞLU QACAR** (1789-1833). Naibüssəltənə (vəliəhd), Azərbaycan valisi (1799), Qacar qoşunlarının komandanı (1803).

Qacarların dövlət işlərində və xarici siyasətinin müəyyənləşməsində mühüm rol oynamışdır.

A.M. fransız və ingilis mütəxəssislərinin köməyi ilə İran ordusunu avropasayağı qurmağa cəhd göstərmişdir.

Rusiya-Qacar (1804-1813; 1826 -1828), Qacar-Osmanlı (1821-1823) müharibələrində (*Müharibə*) Qacar ordusuna komandanlıq etmişdi. Rusiya ilə müharibələrdə İranın məğlubiyyətindən sonra Azərbaycan ərazisini ikiyə bölən, Rusiyanın bütün Qafqazı ələ keçirməsinə gətirib çıxaran 1828 il *Türkmənçay müqaviləsinə* imza atmışdır.

**ABİDİN PAŞA** (1843 - 1903). Sultan II Əbdülhəmid dövründə *vəzir*, milliyyətcə alban olub, cəbbəxana rəisi kimi Osmanlı sarayında xidmətə başlayıb. Bir sıra məsul dövlət vəzifələri tutan A.P. 1879 ildə xarici işlər naziri (*Xarici İşlər İdraəsi*) təyin edilib. 1880 ildə Adana, 1885 ildə Sivas, 1886 ildə Ankara və nəhayət, 1894 ildə Aralıq dənizindəki adalara vali təyin edilib.

**ABO SÜLH MÜQAVİLƏSİ** (18.VIII.1743). Finlandiyanın Abo (indi Turku) şəhərində imzalanmış və Rusiya ilə İsveç arasındakı 1741-1743 illər müharibəsinə (*Müharibə*) son qoymuşdu. Sərhəd Kümmene çayı boyunca müəyyənləşdirildi, Finlandiyanın Kümeneqor və Savolak vilayətinin bir hissəsi Rusiyaya keçdi.

**ABŞ ATLANTİKA ŞURASI.** ABŞ-da *«Atlantizm» nəzəriyyəsi* tərəfdarlarını birləşdirməyə xidmət edən çoxməqsədli siyasi-elmi qeyri-hökumət təşkilat; 1961 ildə təsis edilib. Mənzil-qərargahı Vaşinqtondadır. Əsas vəzifəsi xarici siyasət sahəsində elmi-tədqiqat işləri aparmaqdır. Bu tədqiqatlarda Atlantaarası əlaqə məsələlərinə, iqtisadi problemlərə, inkişaf edən ölkələr barədə siyasətə, *beynəlxalq təşkilatların*, o cümlədən *BMT*-nin roluna və «atlantizm» ideyalarının təbliğinə başlıca diqqət yetirilir. A.Ş.-nın tərkibinə ən iri korporasiyaların, siyasi elitanın, hərbi-sənaye komplekslərinin nümayəndələri, görkəmli alim-politoloqlar daxildir. A.Ş.-ı ən iri inhisarlar və fondlar, habelə fərdi və bəzi hallarda isə hökumət dotasiyaları hesabına maliyyələşdirilir.

A.Ş.-nın «Atlantic Community Quartely» jurnalı, «Atlantic Community News» informasiya bülleteni və «Policy Papers» kimi dövri məcmuələri nəşr edilir.

**ABŞ DÖVLƏT KATİBİ.** Xarici işlər naziri (*Xarici İşlər İdarəsi*), vəzifəli şəxs. D.k. ABŞ xarici siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi üçün prezident qarşısında məsuliyyət daşıyır, rəsmi olaraq onun başlıca xarici siyasət müşaviridir, dövlət departamentinə və xarici ölkələr xidmətinə rəhbərlik edir, *ABŞ Milli Təhlükəsizlik Şurasının* tərkibinə daxildir.

**ABŞ-ın BİTƏRƏFLİYİ HAQQINDA QANUN** (bitərəflik haqqında sənəd) 31.VIII.1935 ildə ABŞ konqresinin (*Konqres*) hər iki palatasının birgə qəbul etdikləri sənəd. 1937 ildə daha da genişləndirilərək, *bitərəflik* haqqında daimi qanuna çevrilib.

ABŞ gəmilərinə birbaşa və ya dolayı yolla döyüşən dövlətlər üçün nəzərdə tutulan silah və hərbi ləvazimat daşımaq qadağan olunurdu. ABŞ limanları müharibə aparan dövlətlərin gəmiləri üçün qapalı elan edilirdi. Bununla da ABŞ hakim dairələrinin təcavüzkarla onun qurbanı olan ölkə arasında fərq qoymamaları, əslində, hücuma məruz qalan ölkəni özünümüdafiə üçün ABŞ-dan silah almaq imkanından məhrum edirdi.

Qanun *İkinci dünya müharibəsinə* qədər öz qüvvəsini qoruyub saxladı. 04.XI.1939 ildə ABŞ Konqresi Almaniya ilə müharibə vəziyyətində olan dövlətlərə silah satılmasına icazə verdi.

**ABŞ MİLLİ TƏHLÜKƏSİZLİK ŞURASI (MTŞ).** ABŞ prezidenti nəzdində xarici və hərbi siyasət məsələlərini əlaqələndirən başlıca orqan; 1947 ildə təsis edilib.

MTŞ-in sədri - ABŞ prezidentidir; üzvləri - vitse-prezident, dövlət katibi və müdafiə naziridir. «Rəsmi müşavirlər» adı altında Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru və Hərbi Qərargahlar Komitəsinin rəisi də buraya daxildirlər. 100 nəfərdən artıq işçisi olan MTŞ-ə prezidentin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi başçılıq edir.

80 illərin əvvəllərindən MTŞ-in fəaliyyətində əsaslı dəyişikliklər baş verib. Bu orqan nəinki xariclə bağlı siyasi və hərbi orqanların fəaliyyətini əlaqələndirməyə, həm də milli təhlükəsizlik məsələlərinə dair mühüm qərarların

hazırlanması və qəbuluna dair işlərin icrasına da cavabdehdir. MTŞ nəzdində idarələrarası 3 əsas bölmə - xarici siyasət məsələləri, müdafiə və kəşfiyyat sahəsində orqanlar yaradılıb.

MTŞ-in iclasları həftədə bir dəfə Ağ evdə çağırılır. Müzakirələrin yekunu olaraq prezident tərəfindən qəbul edilən qərarlar «direktiv göstərişlər» adı altında icra olunmaq üçün təşkilat və idarələrə göndərilir.

**ABŞ-VYETNAM MÜHARİBƏSİ** (1964-1973). 1954 il Cenevrə sazişindən sonra Vyetnamın şimalında yaradılmış Vyetnam Demokratik Respublikası ilə cənubunda yaradılmış Vyetnam Respublikasını müdafiə edən ABŞ arasında *müharibə*. VIII.1964 ildə VDR hərbi dəniz qüvvələrinin Tonkin körfəzindəki ABŞ hərbi gəmisinə hücumu ilə başladı. Cavab olaraq ABŞ, VDR-in ərazisini bombardmanlara məruz qoydu. SSRİ-nin yaxından kömək etdiyi VDR-i məğlub etməyin mümkünsüzlüyünü, Amerika və beynəlxalq ictimaiyyətlərinin tələbi ABŞ-ı bombardmanları dayandırmağa məcbur etdi. 27.I.1973 ildə Vyetnamda müharibənin dayandırılması və sülhün bərpa edilməsi haqqında Parisdə saziş imzalandı. ABŞ VDR-ə qarşı hərbi əməliyyatları dayandırmağı və qoşunlarını Cənubi Vyetnamdan çıxarmağı öhdəsinə götürdü.

**AÇESON DİN QUDERCEM** (1893-1971). 1941-1945 illər ABŞ *dövlət katibinin* köməkçisi, 1943-1945 illərdə YUNRRA Şurasında ABŞ nümayəndəsi, Birləşmiş Millətlərin 1944 il Bretton-Vuds konfransında (*Bretton-Vuds sazişləri*) ABŞ nümayəndə heyətinin başçısı; 1945-1947 ABŞ dövlət katibinin müavini olub, «Barruxa planının», «Trumen doktrinasının» və «*Marşal planının*» işlənib hazırlanmasında iştirak edib. 1949-1953 illərdə ABŞ dövlət katibi olub, *NATO*-nun yaradılmasında, «qarşılıqlı təhlükəsizliyin təmin olunması» proqramının həyata keçirilməsində fəal iştirak edib, «*soyuq müharibə*» tərəfdarı kimi tanınıb.

**AÇIQ DƏNİZ.** *Beynəlxalq hüquq* normalarına uyğun olaraq, bütün dövlətlərin azad və bərabər istifadəsində olan dəniz səthi. Heç bir dövlət A.d.-in hər hansı bir hissəsini öz suverenliyinə (*Suverenlik*) tabe edə bilməz və başqa dövlətlərin A.d.-dən istifadəsinə mane ola bilməz.

*BMT*-nin 1982 ildə Dəniz hüququ konvensiyası əslində 1958 il Dəniz hüququ üzrə Cenevrə konvensiyasının (*Dəniz hüququna dair Cenevrə konvensiyaları*) bütün müddəalarını əks etdirir.

Hərbi gəmilər, eləcə də dövlət qulluğunda olan qeyri-ticarət gəmiləri A.d.-də bayrağını (*Dövlət bayrağı*) daşıdığı dövlətlərdən savayı qalan bütün dövlətlərdən immuniteti vardır.

**AÇIQ QAPILAR SİYASƏTİ.** 1899 ildə ABŞ-ın *dövlət katibi* C.Heyin Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, Rusiya və Yaponiya hökumətlərinə göndərdiyi notalarda (*Diplomatik nota*) irəli sürülmüşdü. Çində azad ticarət və bərabər imkanlar prinsipinin həyata keçirilməsini tələb edirdi. 20.III.1900 ildə C.Hey nota göndərərək ölkələrin bu prinsiplərə qoşulduqlarını elan etdi. A.q.s. iri dövlətlərin əlində rəqibləri sıxışdırmaq aləti idi.

**AÇIQ ŞƏHƏR.** *Müharibə* aparan dövlətlərin biri tərəfindən dağıntı və insan tələfatının qarşısının alınması üçün qorunan elan edilmiş şəhər.





A.ş.-də hərbi obyektlər, qoşunlar və müdafiə vasitələri olmur. 1907 il Haaqa konvensiyasının (*Haaqa konfransları 1899 və 1907*) 25-ci bəndi A.ş.-i hər hansı yolla olursa-olsun bombalamağı və bu şəhərə hər hansı bir hərbi müdaxiləni qadağan edir. *İkinci dünya müharibəsi* zamanı Paris və Roma A.ş. elan edilmişdi.

**AÇIQ VƏRƏQ** (lat. *laisser – passer* – buraxılma, gəlməyə, getməyə görə icazə). Diplomatik üstünlüklərdən və toxunulmazlıqlardan istifadə edən əcnəbiyə, yaxud ölkənin qonağı olan şəxsə *xarici işlər idarəsi*, yaxud *diplomatik nümayəndəlik* tərəfindən verilən sənəd; sənəddə gömrük və sərhəd müdafiə xidmətinə ünvanlanan belə bir xahiş ifadə olunur ki, onu təqdim edən şəxsə sərhədi keçərkən hər cür kömək göstərilsin. Adətən, A.v. malik olan şəxs gömrük yoxlamasından azad edilir.

A.v. ilə nəzərdə tutulan üstünlüklər onun sahibində *diplomatik viza* qeyd edilən diplomatik pasport olduğu üçün bir çox ölkələr A.v. verilməsini təcrübədə tətbiq etmirlər.

**ADALAR REJİMİ.** *BMT*-nin Dəniz hüququna dair 1982 il konvensiyasına uyğun olaraq, adalar su əhatəsində təbii surətdə yaranan və su axarı zamanı ondan yüksəkdə qərar tutan quru hissə kimi səciyyələnir. Adaların *ərazi suları*, bitişik zonası, iqtisadi zonası və *kontinental şelfi* Konvensiyanın başqa quru ərazilərə tətbiq edilən müddəaları ilə müəyyən olunur. A.r. insan həyatını və onun müstəqil təsərrüfat fəaliyyətini tənzimləməkdə işə yaramayan qayalara və iqtisadi zonalara, kontinental şelfə aid edilmir. Göstərilən rejim süni adalara şamil olunmur.

**ADANA KONFRANSI** (1943). 30-31.I. Böyük Britaniyanın baş naziri U.Çörçill (*Çörçill Uinston Leonard Spenser*) və Türkiyə respublikasının prezidenti İ.İnönünün iştirakı ilə keçirilmişdir. Böyük Britaniya Balkan siyasətində Türkiyəni öz təsir dairəsinə salmağa, *müharibədə* onun neytrallığına (*Neytral dövlətlər*) nail olmağa çalışırdı. Türkiyənin maraqlarına uyğun gələrsə, onun, Almaniyanın məğlubiyyətinə qədər müharibəyə girməsi mümkün sayılırdı. A.k.-da Türkiyə aerodromlarından Ploeşti (Ruminiya) bombardman etmək üçün istifadə etmək məsələsi qaldırılsa da Türkiyə buna razı olmadı.

**ADENAUER KONRAD** (1876-1976). AFR-in siyasi dövlət xadimidir. 1945-1963 illərdə AFR-in federal kansleri və eyni zamanda 1951-1955 illərdə xarici işlər naziri vəzifələrində çalışmışdır. Hitler hakimiyyətə gələnə qədər Köln şəhərinin oberburqomistri olmuşdur. Ölkədə faşizm rejimi bərqərar olandan sonra həbs olunmuşdur. *İkinci dünya müharibədən* sonrakı dövrdə Almaniyanın beynəlxalq təcriddən xilas olması istiqamətində uğurlu siyasət aparmışdır. 1951 ildə gələcək Avropa Birliyinin (*Avropa Birlikləri*) ilkin variantı olan *Avropa daş kömür və Polad birliyinin* yaranmasının təşəbbüskarı olmuşdur. Kommunist ideologiyasına qarşı qatı düşmən olmasına baxmayaraq, SSRİ ilə *diplomatik münasibətlər* yaratmışdır. Bütün ömrü boyu alman torpaqlarının yenidən birləşməsi uğrunda mübarizə aparmışdır.

**Ad HOC** (lat. Hazırkı hal üçün, müəyyən məqsəd üçün, məxsusi). *Diplomatiyada* müvəqqəti hal daşıyan, qarşıya qoyulan məxsusi məsələləri yerinə yetirmək üçün nəzərdə tutulan

*diplomatik missiyaların*, xüsusi nümayəndələrin, məxsusi təşkilatların, komitələrin və işçi qrupların fəaliyyətini tənzimləyən normalardır. A.H. *arbitrajına*, yaxud A. H. münsiflər məhkəməsinə müraciət edərkən tərəflər hər bir konkret halda, onlar arasında baş verən mübahisəni həll etmək üçün arbitrac, ya da məhkəmə orqanı yaradırlar. Belə yolla yaradılan məhkəmə qərar çıxardıqdan sonra öz fəaliyyətini dayandırır.

**AD İNTERİM, *par interim*** (lat. müvəqqəti; adətən a.i., və ya p.i. şəklində). Gördükləri işə daha böyük əhəmiyyət vermək xatirinə A.İ. missiyasını hətta prezidentlər və baş nazirlər də yerinə yetirə bilər. Sənədi imzalayan diplomatik şəxsin bu vəzifəni müvəqqəti icra etdiyini göstərir. *Diplomatik nümayəndəliyin* başçısını (*Diplomatik başçılıq*) müvəqqəti əvəz edən (xəstəlik, məzuniyyət və s. ilə əlaqədar) *işlər müvəkkili* **charde daffaires ad interim** (müvəqqəti işlər vəkili) adlanır.

**AD REFERENDUM** (lat. – son qərara-dək). Ali instansiyanın təqdiri şərtilə deməkdir. Belə qeyd-şərt danışıqlar aparan şəxs tərəfindən hər-hansı sazişin, aktın, layihənin və ya təklifin imzalanması zamanı onun imzasının şərti xarakter daşıdığını və hökumətinin təqdirinə ehtiyacı olduğunu göstərmək üçün istifadə edilir.

**AFİNA SÜLH MÜQAVİLƏSİ** (1913). 14.XI. İkinci Balkan müharibəsindən sonra Türkiyə ilə Yunanıstan arasında bağlanıb. Diplomatik və konsulluq əlaqələrinin (*Diplomatik münasibətlər, konsul münasibətləri*) bərpasını, optantlar (vətəndaşlığı seçən şəxslər) üçün mülkiyyət hüququnun, dəmir yolları üzərində hüquq və vəzifələrin Yunanıstan hökumətinə verilməsini nəzərdə tuturdu. A.s.m. Egey adaları üstündə az qala Türkiyə ilə Yunanıstan arasında başlanacaq yeni müharibənin qarşısını aldı və bu adaların kimə məxsus olduğunu həll etmək üçün həmin məsələnin iri dövlətlərin müzakirəsinə verilməsinə dair 1913 il *London sülh müqaviləsinin* 5-ci maddəsini təsdiq etdi.

**AFRİKA BİRLİYİ TƏŞKİLATI (ABT).** Hökumətlərarası beynəlxalq regional təşkilat: (*Beynəlxalq hökumətlərarası təşkilat*); 1964 ildə Afrikanın müstəqil ölkələrinin hökumət və dövlət başçılarının (*Hökumət başçısı, Dövlət başçısı*) Əddis-Əbəbə konfransında (*Beynəlxalq konfranslar*) təsis edilib. Elə həmin konfransda Afrikanın 51 dövləti ABT-in üzvlüyündə təmsil olunub. CAR ABT-ə daxil deyildir. Mərakeş isə 12.XI.1984 ildə ABT Məclisinin 20-ci sessiyasında Səhara Ərəb Demokratik Respublikasının ABT sıralarına qəbul edilməsinə etiraz əlaməti olaraq təşkilatdan çıxdığını elan edib. ABT-in təsis günü - 25 may hər il Afrikanın Azadlığı Günü kimi qeyd olunur.

ABT xartiyasına görə bu təşkilatın əsas məramı Afrika ölkələri arasında hərtərəfli siyasi və iqtisadi əməkdaşlığı inkişaf etdirmək və «Afrika xalqlarını daha yaxşı həyatla təmin etmək» üçün beynəlxalq sahədə onların həmrəyliyini möhkəmləndirməkdən ibarətdir. ABT-in ali orqanı - dövlət və hökumət başçılarının Məclisidir. Məclis ildə bir dəfə sessiya zamanı toplanır. Ali icra orqanı - ildə 2 dəfə sessiya zamanı toplanan Nazirlər Şurasından, daimi inzibati orqan isə - Baş katiblikdən ibarətdir. ABT orqanlarının qərarları tövsiyə xarakteri daşıyır.





ABT qərargahı Əddis-Əbəbədə yerləşir. ABT *BMT*-də və onun ixtisaslaşdırılmış idarələrində müşahidəçi statusuna malikdir. Bu idarələrlə əlaqələr Nyu-Yorkda və Cenevrədəki bürolar vasitəsilə həyata keçirilir.

**AFRİKA İNKİŞAF BANKI (AfİB).** 1964 ilin sentyabrında BMT İqtisadiyyat Komissiyasının IV sessiyasının Afrika üçün nəzərdə tutulan qərarına əsasən yaradılıb; 1967 ildən fəaliyyət göstərir. AfİB səhmdar cəmiyyət kimi təsis edilib, 5,5 mlrd. dollara yaxın nizamnamə kapitalına malikdir.

AfİB-in rəsmi funksiyaları üzv dövlətlərin sosial-iqtisadi inkişafına vəsait ayırmaq, investisiya ayırmazdan əvvəl tədqiqat işləri aparmaq, daxili və xarici maliyyə vəsaitləri səfərbər etmək və texniki yardım göstərməkdir. 1972 ildə AfİB nəzdində əlverişli şərtlərlə kredit verən Afrika İnkişaf Fondu (AfİF) yaradılıb.

AfİB-in ali orqanı – ona üzv olan hər bir ölkə tərəfindən təyin edilən Direktorlar Şurasıdır.

Baş qərargahı Abidcandadır (Fil Dişi Sahili).

**AĞAMƏHƏMMƏD ŞAH QACAR.** (1742–1797). Qacarlar sülaləsinin nümayəndəsi.

Kiçik yaşlarında Nadir şahın qardaşı oğlu Adil şah tərəfindən uzun müddət Şirazda Kərim xan Zəndin sarayında nəzarət altında saxlanmış, 1779 ildə Kərim xan öləndən sonra qaçaraq, onun xələfləri ilə hakimiyyət uğrunda mübarizə aparmışdır. 1785 ildə İranın mərkəzi və şimal rayonlarını öz hakimiyyəti altına alaraq, Tehranı ölkənin paytaxtı etmişdir. 1794 ildə Zəndlərin müqavimətini qıraraq İranda mərkəzi hakimiyyəti möhkəmləndirəndən sonra Şimali Azərbaycan xanlıqlarına qarşı iki dəfə hərbi yürüş edib. 1795 ildə Gürcüstanı işğal edərək burada Qacar hakimiyyətini bərpa etmişdir. 1797 ildə Qarabağ xanlığına hücum edərək Şuşanı ələ keçirmiş, lakin suiqəsd nəticəsində elə orada öldürülmüşdür.

**AĞAMOĞLANOV VENİAMİN ŞABAN oğlu** (1935-1994). Sovet *diplomatı*. Azərbaycan Neft Akademiyasını, Moskvada İctimai Elmlər Akademiyasını bitirib. 1976 ildə diplomatik işə keçib. 1976-1977 Somalidə, 1977-1982 Həbəşistanda, 1983-1986 ildə Zambiyada sovet səfirliklərində müşavir vəzifəsində çalışıb. Sovet İttifaqı dağılandan sonra Rusiya *XİN*-də (*Xarici İşlər İdarəsi*) diplomatik fəaliyyətini davam etdirib. 1993-1994 illərdə Rusiyanın Uqandadakı səfirliyinin müşaviri olub.

**AĞAOĞLU AĞAYEV ƏHMƏD.** (1868-1939). İctimai və elm xadimi.

Hələ Parisdə təhsil alarkən İttihad və Tərəqqi cəmiyyətinin üzvləri ilə yaxınlıq etmiş, Tiflisə qayıdandan sonra İsmayıl Qaspiralı, Əlibəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov (*Topçübaşov Əlimərdan bəy Ələkbər oğlu*), Həsən bəy Zərdabi və Məhəmmədağa Şahtaxtinski ilə birlikdə Azərbaycanda millətçilik ideyalarının təbliğində iştirak etmişdir. O, Zərdabi ilə birlikdə «Həyat» qəzetini nəşr etdirmiş, az sonra «Tərəqqi» və «Füyuzat» qəzetlərini buraxmışdır. Azərbaycan türklərinin hüquqlarını müdafiə edən «Difai» siyasi dərnəyini yaradıb. 1909 ildə Tiflisə gedərək, Maarif müdirliyində müfəttiş işləmiş, İttihad və Tərəqqi cəmiyyətinə daxil olmuş, Ziya Göyalp, Yusif Akçura və Məhəmməd Əmin Yurdaqul ilə birlikdə türkçülük ideyalarını təbliğ etmiş-

dir. «Türk Yurdu» jurnalını çıxarmış, «Türk Ocağı» ilə əməkdaşlıq etməklə bərabər, universitetdə türk-moğol tarixindən dərs demiş, 1912 ildə İttihad və Tərəqqi cəmiyyətinin idarə heyəti və Osmanlı parlamentinin üzvü seçilmişdir. 1918 ildə İttihad və Tərəqqinin digər rəhbərləri kimi Malta adasına sürgün edilmişdir. 1921 ildə Maltadan qayıdandan sonra Ankarada ümummətbuat müdiri və millət vəkili olub. 1925 ildə Sərbəst Cümhuriyyət partiyasına girmiş, partiya dağılandan sonra (1930), siyasi həyatdan çəkilərək «Akın» qəzetini çıxarmışdır.

**AĞAOĞLU (SƏMƏD)** (1909-?). Azərbaycanın və Türkiyənin siyasi xadimi və yazıçı.

1933 ildə dövlət işlərinə cəlb olunaraq, müxtəlif nazirliklərdə məsul vəzifələrdə işləyib. Demokrat Partiyasına üzv olaraq, fəal siyasi həyata atılmış və üç dəfə Türkiyə Böyük Millət Məclisinə deputat seçilmişdir (1950, 1954 və 1957). Demokrat Partiyası hakimiyyətdə olarkən (1950-1960) bir neçə dəfə nazir vəzifəsində işləyib. 1960 il hərbi çevrilişindən sonra siyasi həyatdan uzaqlaşıb. Bir sıra elmi və bədii əsərlərin müəllifidir.

**AĞAYEV HƏSƏN BƏY MƏŞƏDİ HÜSEYN BƏY OĞLU** (1875-1920). Gəncə klassik gimnaziyasında təhsil almış, 1901 ildə H.Z.Tağıyevin təqaüdü ilə Moskva Universitetinin tibb fakültəsini bitirmişdir. 1906-1907 illərdə Güney Azərbaycanda yaşamışdır. 1907 ildə Bakıda keçirilən Qafqaz müsəlman müəllimləri qurultayı mərkəzi komitəsinin sədri seçilmişdir.

1911-1912 illərdə Gəncədə «Yujnı Kavkaz» («Cənubi Qafqaz») qəzetini buraxmışdır. 1911 ildə müsəlmanlar arasında maarif yayan cəmiyyətin sədri seçilmişdir. 1914 ildə Gəncədə Xudadad bəy Rəfibəyovla birgə tibb cəmiyyəti yaratmışdır.

III.1917 ildə Türk Ədəmi-mərkəziyyət Firqəsini yaradanlardan biridir. Bu partiya IX.1917 ildə Müsavatla birləşəndən sonra onun Mərkəzi Komitəsinin üzvü seçilmişdir. XII.1917 ildə Zaqafqaziya Seyminin üzvü olmuşdur.

28.V.1918 ildə Azərbaycanın müstəqilliyini elan etmiş Milli Şura sədri M.Ə.Rəsulzadənin (*Rəsulzadə Məmməd Əmin Ağa oğlu*) müavini olmuşdur.

1918-1920 illərdə Azərbaycan Dəmiryolu İdarəsinin baş həkimi, Parlament sədrinin müavini işləmişdir. Tiflisdə erməni qatilin gülləsi ilə şəhid olmuşdur.

**AĞAYEV SƏFVƏT ƏFƏNDİ.** 1919-1920 illərdə Mahmud bəy Əfəndiyevin rəhbərliyi ilə fəaliyyət göstərmiş, Azərbaycanın Batumdakı konsulluğunda çalışmışdır.

**AĞ EV.** Vaşinqton şəhərində ABŞ prezidentin iqamətgahı və dəftərxanası yerləşən binadır. 1800-ci ildə tikilmişdir.

**AKİF ƏFƏNDİ, ƏHMƏD (KOSA).** 1850 ildə vəfat edib – tənzimlənmə dövrünün türk səfirlərindəndir *(Səfir)*. Saray dəftərxanasında katib kimi xidmətə başlayaraq, sonralar bir sıra vəzifələrdə çalışıb. 1843 – Bosniyanın sərhədlərini dəqiqləşdirən komissiyaya başçılıq etmiş, 1837 – Mülkiyyət nəzarətinin katibi, 1840 – təzə yaradılan Məclisi Mühasibənin sədri təyin edilib. 1841 – Osmanlı imperiyasının Vyanada fövqəladə və səlahiyyətli səfiri və bir ildən sonra yenidən Məclisi Mühasibənin sədri olub.





**AKİF PAŞA MƏHƏMMƏD** (1787-1845). Türk dövlət xadimi, diplomatı; Osmanlı imperiyasında sonuncu dəftərxana rəisi (rəisül-katibi) daxili işlər naziri olub. Dövlət işlərinə 1813 ildə cəlb olunub. Mühüm dövlət vəzifələrində çalışdıqdan sonra 1832 ildə dəftərxana rəisi təyin edilib. 1836 ildə dəftərxana Xarici İşlər Nazirliyinə *(Xarici İşlər İdarəsi)* çevrildikdən sonra marşal rütbəsində A. P. «əfəndi» dərəcəsi ilə osmanlı imperiyasının ilk xarici işlər naziri olub. 1837 ildə rəqibi mülkiyə naziri Pertev Paşanın saray intriqasının nəticəsi olaraq vəzifəsindən istefa verib.

**AKİXİTO** (1933). Yaponiyanın 125-ci imperatoru; 1940-1952 illərdə perlər məktəbində və Qakusyuin ali oğlanlar məktəbində oxuyub. 1956 ildə Qakusyuin Universitetinin siyasi-iqtisad fakültəsini bitirib. 10 noyabr 1952 ildə, 18 yaşında ikən varis - şahzadə elan edilib. 22.IX.1988 – 7.I.1989 - tarixdə atasının xəstəliyilə əlaqədar imperatorun səlahiyyətlərini yerinə yetirib. 7 yanvar 1989 ildə taxta çıxıb.

**AKİNO KORASON** (1933). Filippin Respublikasının prezidenti. Nyu-Yorkda hüquq təhsili alıb. Görüşləri əri B.Akinonun təsiri altında formalaşıb. 80-ci illərin əvvəllərindən fəal siyasi həyata qoşulub. F.Marks rejiminə qarşı tənqidi çıxışlar edib. 7 fevral 1986 ildə, vaxtından əvvəl keçirilən seçkilərdə K.A. seçicilərin əksər səsini qazanıb. 25 fevral 1986 ildə F.Markos *prezident* səlahiyyətlərindən imtina edərək ölkədən gedən günü K.A. prezident elan edilmiş və hökumətə başçılıq etmişdir.

**AKKERMAN KONVENSİYASI** (1826). 1812 il Buxarest sülhünə *(Buxarest sülh müqavilələri)* əlavə olaraq, 07.X. Rusiya ilə Türkiyə arasında imzalanmışdır. Türkiyə Buxarest sülhü ilə Moldaviya, Valaxiya və Serbiyaya verilmiş imtiyazları təmin etməyi öhdəsinə götürdü, Rusiya Türkiyənin ərazisində və sularında sərbəst ticarət aparmaq hüququ aldı.

**AKKLAMASİYA** (lat. *occlamationida*). *Beynəlxalq təşkilatların* və konfransların (*Beynəlxalq konfranslar*) təcrübəsində iştirakçıların nidaları, sürəkli alqışları fonunda səsvermədən qəbul olunan qərarlar.

**AKKREDİTƏ ETMƏK** (lat. *accredere* – etibar etmək). Diplomatik nümayəndənin təyinolunma prosesi; A. dövlətin daxili aktı olub, nəzərdə tutulan şəxsin səlahiyyətli orqan tərəfindən dövlətin diplomatik nümayəndəsi təyin olunduğunu bildirir və bundan ötrü qəbul edən dövlətin razılığını tələb edir. A. prosesinin yekunu olaraq, diplomatik nümayəndə öz *etimadnaməsini* qəbul edən dövlətin başçısına *(dövlət başçısı)* təqdim edir və həmin andan onun rəsmi fəaliyyəti başlanır. Jurnalistlərin barəsində də akkreditə təcrübəsi mövcuddur.

**AQREMAN** (fr. *agrzer* – təqdir etmək). Bir dövlətin başqa dövlət tərəfindən onun ölkəsində müəyyən bir şəxsin diplomatik nümayəndə kimi təyin olunmasına verdiyi razılıqdır. A. Xarici işlər nazirliyi vasitəsilə, adətən diplomatik nümayəndə təyin edən ölkənin *diplomatik nümayəndəliyi* tərəfindən tələb olunur. A. sorğusu zamanı vəzifəyə namizəd şəxs haqqında xarici işlər nazirliyinə *(Xarici İşlər İdarəsi)* bəzi bioqrafiq məlumatlar (anadan olduğu il, ailə, vəziyyəti, təhsili, vəzifəsi və ya

rütbəsi, elmi dərəcəsi, xidməti fəaliyyətinin başlıca mərhələləri) verilir. Bu məlumatlar bir vərəq kağızda imza, tarix və möhür olmadan yazılır.

Bəzi hallarda A. sorğusu nazirlik tərəfindən verbal nota gön dərilməklə yerinə yetirilir. A. sorğusuna cavab da bu yolla verilir (şifahi və ya yazılı nota şəklində). A. tələb olunan *səfir* diplomatik münasibətlər yaradılan ölkəyə ilk dəfə gedirsə, onda belə sorğu üçüncü ölkədəki *səfirlik* vasitəsilə edilir.

Beynəlxalq təcrübə həm A. sorğusu faktını, eləcə də A.-dan ehtimal olunan imtina faktını sirr olaraq saxlamağı tələb edir. A. sorğusuna mümkün qədər tez cavab verilməlidir. A.-nın hansı müddətə alındığına da diqqət verilir. A.-a cavab müddəti – sorğudan A. alınanadək – bir növ iki ölkə arasında münasibətlərin göstəricisidir. A.-a cavabı gecikdirən dövlətə də eyni ilə cavab verilir.

A. alınan zaman namizəd *persona grata* – arzu olunan şəxs olur və onun təyin olunması haqda rəsmi məlumat dərc olunur. Mənfi cavab alınarsa, o *persona non grata* adlanır və təyinat baş vermir. A. ancaq diplomatik nümayəndələr üçün (səfirlər, diplomatik nümayəndə, *işlər müvəkkili*) tələb olunur. Digər diplomatik işçilərin təyin olunmasına A. tələb olunmur.

A. sorğusuna rəsmi imtina şəklində mənfi cavab vermək qəbul edilməmişdir. Cavabın gecikdirilməsi hökumətin həmin şəxsin səfir kimi qəbul etmək istəməməsinə dəlalət edir, bir qayda olaraq bu şəxsin namizədliyi geri götürülür. Belə halda hökumət retorsiya *(Retorsiyalar)* qaydasında səfir vəzifəsini uzun müddətə boş saxlayır və səfirliyə müvəqqəti işlər müvəkkili *(Müvəqqəti işlər Vəkilləri )* başçılıq edir vki, bu da dövlətlər arasında münasibətlərin zəifləməsi hesab olunur.

A. verməli olan dövlət A. tələb edən dövlətə A.-dan imtina səbəbləri haqda məlumat verməli deyil. Müvafiq ölkənin diplomatik nümayəndəliyinə diplomatik işçinin təyin olunduğu ölkəyə getməsi üçün viza verilməsi xahişi ilə nota göndərir. Onun alınması kifayətdir ki, diplomatik işçi təyinat yerinə gələ və təyin olunduğu ölkədə işləyə bilsin.

Ayrı-ayrı ölkələrin təcrübəsi hərbi, hərbi-dəniz və hərbi-hava *attaşesinin* təyfin olunması ilə əlaqədar olaraq müvafiq diplomatik nümayəndəliyin təyinat haqda xəbərlə, təyin olunmuş şəxs haqqında bioqrafik məlumatlarla, hərbi ştatın təyin olunması haqda xəbərdarlıq xahişi və ölkəyə gəlmək üçün *vizanın* verilməsi xahişi ilə xarici işlər nazirliyinə nota *(Diplomatik nota)* göndərilməsini tələb edir.

Müvəqqəti işlər müvəkkilinin təyin olunması üçün diplomatik nümayəndənin xarici işlər nazirinin adına şəxsi məktubu göndərilir. Müvəqqəti işlər müvəkkilinin təyin olunmasına A. tələb olunmur.

*Diplomatiya* tarixində A. verilməməsi faktları olmuşdur. Məsələn, I Nikolay ingilis diplomatı ser Stretford-Kanniqi Peterburqda ingilis səfiri olaraq qəbul etməkdən imtina etmişdir. Kuveyt ABŞ diplomatı B.Qrouva A. vermədən imtina etmişdir (1983).

**«ALABAMA»** İngiltərə-Amerika münaqişəsi; İngiltərə tərəfindən ABŞ ticarətinə vurulan maddi ziyanın ödənilməsi ilə bağlı yaranıb. 1861-1865 illərdə Amerikada vətəndaş *müharibəsi* zamanı cənubluların İngiltərədə inşa etdirdikləri və ya oradan aldıqları hərbi gəmilər, o cümlədən «Alabama» kreyseri 60-dan çox Amerika mülki gəmisini məhv etmiş, ABŞ ticarətinə ziyan vurmuşdu.

Tarixə «Alabama iddiaları» adı ilə daxil olan bu münaqişə bir neçə il davam etmişdir. 1871 ildə tərəflər işi *arbitraja* vermək barədə razılığa gəlmişlər. 1872 ildə arbitaj məhkəməsi ABŞ-ın nəfinə İngiltərədən 15,5 mln.dol. tutulması barədə qərar çıxardı. İngiltərə hökuməti həmin məbləği ödəməli oldu.





**ALAND KONQRESİ** (1718-1719). 1700-1721 il Şimal *müharibəsi* zamanı Aland arxipelaqının Sumdşera adasında keçirilib. Aland konqresində *(Beynəlxalq konqres)* Rusiya və İsveç arasında sülh danışıqları aparılıb. Rusiya müvəkkillərinin təklif etdikləri sülh müqaviləsi layihəsinə əsasən, rus ordusu tərəfindən zəbt edilmiş bütün torpaqlar (Finlandiya istisna olmaqla), İnqriya, Kareliya, Riqa qarışıq Liflandiya və Revellə birlikdə Estlandiya, habelə Vıborq Rusiyaya birləşdirilirdi. Rusiya hökuməti İsveçə məxsus olmuş Bremen və Verden hersoqlarını ələ keçirən Hannoverə qarşı hərbi əməliyyat üçün İsveçə 20 min əsgər verməyi öhdəyə götürürdü. A.K-i fasilələrlə keçirilmiş və İsveçin Liflandiyanı Rusiyaya vermək istəməməsi üzündən nəticəsiz qalmışdır. Rusiya ilə İsveç arasında ərazi məsələlərinə 1721 ildə Niştad sülhü ilə qəti olaraq son qoyuldu.

**ALAND KONVENSİYALARI.** 1) 30.III.1856 il Paris müqaviləsinə əlavə edilmiş konvensiya *(Beynəlxalq konvensiya)*. Rusiyanın idarəçiliyində olan Aland adalarının silahsızlaşdırılmasını nəzərdə tuturdu. Rusiya adalarda hərbi istehkamlar tikməməyi öhdəsinə götürmüşdü.

2) 20.X.1921 ildə Finlandiyanın idarəçiliyinə keçmiş Aland adalarının silahsızlaşdırılması və neytrallaşdırılması haqqında Almaniya, Böyük Britaniya, Danimarka, Estoniya, Finlandiya, Fransa, İtaliya, Polşa və İsveçin nümayəndələri tərəfindən imzalanmışdır.

**ALATAS ALİ** (1932). İndoneziya Respublikasının xarici işlər naziri. Cakarta Beynəlxalq Münasibətlər Akademiyası və «İndoneziya» Univeristetində təhsil alıb. İxtisasca hüquqşünasdır. 1952-53 illərdə jurnalistika ilə məşğul olub. 1954 ildən *diplomatiya* sahəsində çalışır. Tailand və ABŞ səfirliklərində, xarici işlər nazirliyində, *BMT Katibliyində* işləyib. 1976-1978-*BMT*-nin Cenevrədə daimi nümayəndəsi, 1978-1982 ölkə daimi nümayəndəsi, 1978-1982 ölkə vitse-prezidentinin katibi, 1982-1988 - BMT-də daimi nümayəndə olub. 1988 ilin martında xarici işlər naziri vəzifəsinə təyin edilib.

**ALBANİYA-BOLQARISTAN MÜQAVİLƏSİ** (1947). Dostluq, əməkdaşlıq və qarşılıqlı yardıma dair; Kriçimdə (Bolqarıstan) 20 il müddətinə 16.XII. bağlanıb. Tərəflər bütün mühüm beynəlxalq məsələlərə dair məşvərət keçirmək, qarşılıqlı təhlükəsizliyi təmin etmək üçün birgə tədbirlər görmək, bir-birinin müstəqilliyinə və ərazi bütövlüyünə hörmət etməyi, tərəflərdən birinə qarşı hərbi müdaxilə olduqda ona təxirəsalınmaz hərbi və digər yardım göstərmək, habelə onlardan birinə qarşı yönələn hər hansı ittifaqa girməmək barədə təəhhüd götürürdülər. Albaniya ilə Bolqarıstanın müxtəlif iqtisadi və mədəni sahələrdə sıx əməkdaşlığı da nəzərdə tutulurdu.

**ALBANİYA-İTALİYA MÜQAVİLƏLƏRİ VƏ SAZİŞLƏRİ.** İtaliyada Mussolini rejimi ilə 1924 ilin dekabrında xarici dövlətlərin köməyi ilə Albaniyada hakimiyyəti ələ keçirən diktator Əhməd Zoqu (1.IX.1928 ildən Albaniya kralı) arasında bağlanan və əslində Albaniyanı faşist İtaliyasının qeyri-məhdud nəzarəti altına salan qeyri-bərabər hüquqlu sənədlərdir.

1) 1925 il məxfi «müdafiə» müqaviləsi *(Beynəlxalq müqavilə)*; - 26.VIII. Tiranada imzalanıb. Albaniyaya onun müstəqilliyinə və ərazi bütövlüyünə təhlükə yarandığı halda hərbi «köməklik» göstərilməsinin şərtlərini təsbit edirdi. Birgə hərəkətlər zamanı alban ordusu İtaliya ordusunun Baş qərargahına tabe olmalı idi. Albaniya İtaliyanın iştirakı olmadan digər dövlətlərlə hər hansı hərbi müqavilə və ittifaq bağlamamaq barədə təəhhüd götürürdü.

2) 1926 il «dostluq və təhlükəsizlik» müqaviləsi («Tirana paktı») 5 il müddətinə 27.XI imzalanıb. Albaniyanın siyasi, hüquqi və ərazi *status-kvosunun* pozulmasının razılaşan tərəflərin siyasi maraqlarına zidd olduğunu təsbit edirdi. Tərəflər onlardan birinin maraqlarına zidd olan siyasi və hərbi sazişlər imzalamamaq barədə öhdəlik götürürdülər. İtaliya Əhməd Zoqunun diktator rejimini qoruyub saxlamağın qarantı kimi çıxış edir, həm də Albaniyanın digər ölkələrlə müqavilə və s. münasibətlərinin inkişafı yolunda əngəllər yaradırdı.

3) 1927 il «müdafiə ittifaqı» müqaviləsi (Tirana paktı), 20 il müddətinə 22.XI. imzalanıb. Hər iki dövlətin onlardan birinə qarşı müharibə olduğu təqdirdə əlbir çıxış etməyi hərbi, müttəfiq, hər cür hərbi, maliyyə və s. yardım göstərilməsini nəzərdə tuturdu. İtaliyanın Albaniyadakı elçisi Solanın məktubunda, bu isə müqavilənin ayrılmaz tərkib hissəsi sayılırdı, hərbi əməliyyatlara rəhbərliyin və müttəfiq ərazilərdən istifadənin prinsipləri müəyyən edilirdi. Üçüncü dövlətə qarşı hərbi əməliyyatlar aparmaq təşəbbüsü bütünlüklə İtaliyaya verilirdi. Bunun ardınca bir ildən sonra sözügedən müqaviləyə əlavə kimi hərbi konvensiyalar imzalandı. Konvensiyalarda tərəflərin müharibə şəraitində hərəkətlərinin tam reqlamentasiyası verilir, Alban ordusunun təşkilati baxımdan İtaliya Baş qərargahına tabeliyi nəzərdə tutulurdu.

4) 1936 il sazişi (məxfi) və onunla eyni vaxtda (19.III) bağlanan iqtisadi xarakterli 8 sazişi; İtaliyanın Albaniyaya 9 mln. alban frankı məbləğdə kredit vermək barədə öhdəliyini təsbit edirdi. Əvəzində İtaliya Kuçovo şəhəri rayonunda bir sıra yeni neft konsenssiyaları *(Beynəlxalq konsessiya)* alır, İtaliyanın rəhbərliyi altında Albaniyanın k/t bankını yaradılır, Vlyörü şəhəri rayonunda bir sıra hərbi istehkamlar inşa etmək və Durres şəhərində liman tikintisini sürətləndirmək hüququ əldə edilir. İtaliya həmçinin hər il Albaniyaya 3,5 mln. alban fr. Məbləğdə kredit verməyi vəd edirdi, bir şərtlə ki, alban ordusu 6675 əsgər və zabitdən çox olmayacaq və bütün xarici müşavirlər və təlimatçılar bu ordudan kənarlaşdırılacaq və onların yerini italyanlar tutacaqlar; İtalyan təbəələrinə maneəsiz Albaniyada yaşamaq icazəsi verilirdi. Saziş faşist İtaliyasının Albaniyanın bütün həyati sahələrində qəti şəkildə təmsil olunmasına imkan verdi və ölkənin 1939 ildə İtaliya qoşunları tərəfindən işğalına şərait yaratdı.

**ALEXSİRAS KONFRANSI** (1906).15.I-7.V ildə Alxesirasda (İspaniya) Almaniyanın təşəbbüsü ilə keçirilib. Mərakeşdə möhkəmlənməyə çalışan Almaniya bu ərazidə Fransa protektoratının bərqərar olmasına maneə olmağa çalışırdı. Mərakeşdə Fransa-Almaniya rəqabəti 1905 ildə Mərakeş böhranına gətirib çıxarmış və bu da 11 Avropa dövlətinin (Almaniya, Fransa, İngiltərə, Avstriya-Macarıstan; Rusiya, İtaliya, İspaniya, Belçika, Niderland, Portuqaliya və İsveç) və eləcə də ABŞ və Mərakeşin iştirakı ilə A.k.-nın çağrılmasına səbəb oldu. A.k. formal olaraq Mərakeş sultanının müstəqilliyini, "onun dövlətinin bütövlüyünü" və eləcə də Mərakeşin "iqtisadi münasibətlərində" bütün millətlər üçün "tam bərabərlik və sərbəstlik" elan edirdi. Lakin A.k.-da qərara alındı ki, İngiltərə, Almaniya, İspaniya və Fransanın nəzarəti altında Mərakeş dövlət bankı yaradılacaq, Mərakeş polisinə rəhbərlik isə Fransa və İspaniyaya həvalə olunacaqdır. Mərakeş kömrükxanaları üzərində beynəlxalq nəzarət yaradılırdı. Bununla da Almaniyaya Mərakeşdə öz mövqelərini gücləndirmək nəsib olmadı.





**ALEKSANDR I**(1777-1825).12.III.1801 ildən Rusiya imperatoru; hakimiyyətin ilk günlərindən Avropada hökmranlıq uğrunda vuruşan İngiltərə və Fransa ilə dostluq və əməkdaşlıq əlaqələri yaratmağa cəhd göstərib. Həmin məqsədlə də 1801 ildə onlarla sülh müqaviləsi *(Beynəlxalq müqavilə)* imzalayıb. Sonradan I Napoleonun *(Napoleon I Bonapart)* təcavüzkar siyasəti üzündən Rusiya-Fransa münasibətləri xeyli kəskinləşdikdə, rus çarı 1805-1807 illərdə Fransaya qarşı III və IV *koalisiyalarda* iştirak edib. Koalisiyaların hərbi məğlubiyyətləri *müharibənin* qurtarmasına və 1807 il Tilzit sülh müqaviləsinin bağlanmasına gətirib çıxarıb. Rusiyanın İngiltərə-Fransa *müharibəsində bitərəfliyi* və A. I -in *kontinental blokada* rejimini möhkəmləndirməkdən imtina etməsi Rusiya-Fransa münasibətlərini pisləşdirmiş və 181 2 il müharibəsinə gətirib çıxarmışdı. Fransa ordusunun Rusiyadan qovulmasından sonra A. I M.İ.Kutuzov və digər dövlət xadimlərinin rəyinə rəğmən, başqa ölkələrin ərazisində hərbi əməliyyatları davam etdirməkdə israrlı olmuşdur. Napoleon üzərində qazanılan qələbə ilə xeyli dərəcədə nüfuzu artan Rusiya beynəlxalq siyasətə ciddi təsir göstərmək imkanı əldə etmişdi.

A. I 1814-1815 illər *Vyana konqresində* iştirak etmişdir. *Müqəddəs İttifaqın* yaradıcılarından biri kimi, bütün konqreslərdə *(Beynəlxalq konqreslərdə)* aparıcı rol oynayıb. Çarlığının son illərində Balkan məsələsinə böyük diqqət yetirib. Bu məsələ 1821 ildə yunanların Osman imperatorluğuna qarşı üsyanı nəticəsində daha da kəskinləşmişdi.

A.I-ın dövründə Rusiya-Amerika münasibətlərinin əsası qoyulub. 1809 ildə ABŞ ilə Rusiya arasında *elçilər* səviyyəsində nümayəndə heyətlərinin mübadiləsi olub.

A. I Şərqlə bağlı qatı müstəmləkə siyasəti aparıb. İstilaçı xəttin bir qolu Qafqaz istiqamətində həyata keçirilib. Gürcüstan Rusiyaya zorla qatılandan sonra, A. I-ın əmrilə rus silahlı qüvvələri Azərbaycana yönəldilib. Bu istilaçı siyasətin nəticəsi olaraq, ilk Rusiya – İran müharibəsi başlanmış və 1813 ildə *Gülüstan müqaviləsi* ilə başa çatmışdır. Bununla da, Azərbaycanın ikiyə parçalanması kimi milli faciənin başlanğıcı qoyulmuşdu.

**ALEKSANDR III** (1845-1894). 01.III.1881 ildən Rusiya imperatoru;



İŞLƏR İDARƏSİNİN
KİTABXANASI
3377

onun çarlığı dövründə Rusiyanın xarici siyasəti ehtiyatlı tərpənmək və daxili ziddiyyətləri kəskinləşdirə biləcək xarici münaqişələrdən uzaq olmaq cəhdləri ilə səciyyələnib. A. III Almaniya və Avstriya-Macarıstanla yaxınlığa hazır olduğunu nümayiş etdirirdi. 1881 ildə Rusiya-Almaniya-Avstriya Üç imperatorun ittifaqını imzaladılar; saziş formal olaraq 1884 ilədək uzadıldı, lakin 1882 ildə Almaniya, Astriya-Macarıstan və İtaliya təcavüzkar *Üçlər ittifaqının* yaradılması ilə öz dəyərini itirdi. Balkanlarda vəziyyətlə bağlı Avstriya-Macarıstanla münasibətlərin kəskinləşməsi və A.III-ın Almaniyanın dünya ağalığı iddiaları ilə razı olmaması onu Fransa ilə ittifaqa sövq etdi və bu ittifaq 1891-1993 illərdə son olaraq qəti şəkildə formalaşdı.

A.III-ın çarlığı dövründə diplomatik təcrübədə bəzi islahatlar həyata keçirildi. Çarın əmrilə XİN-in yazışmalarında fransız dili rus dili ilə əvəz edildi. Lakin bununla belə fransız dilində keçirilmiş danışıqlar haqqında məlumat verdikdə fransız dilindən istifadəyə də icazə verilirdi. 1888-ildə XİN *(Xarici İşlər İdarəsi)* ilə *səfirliklər* arasında təcili kuryer *(Diplomatik kuryer)* əlaqələri təsis edildi. Xarici dövlətlərlə, ələlxüsus yeni missiyalar *(Diplomatik missiya)* yaratmaqla əlaqələr xeyli genişləndi.

**ALEKSEYENKO BORİS QRİQORYEVİÇ** (1941). 1961-1962 illərdə maşınqayırma zavodunda mühəndis-texnoloq, zavod komitəsinin sədri işləmişdir. 1983-1986 illərdə Azərbaycan Kommunist Partiyası MK-nin Ticarət və məişət xidməti şöbəsinin müavini, 1989-1992 illərdə Azərbaycan SSR Nazirlər Soveti İşlər İdarəsinin müdir müavini işləmişdir. 1992-1993 illərdə Ukraynada MDB *(Azərbaycan Müstəqil Dövlətlər Birliyində)* ölkələri ilə əlaqədar şöbədə baş mütəxəssis işləmişdir. 1996 ildə Ukraynanın Azərbaycanda səfirliyində *müvəqqəti işlər vəkili* təyin olunmuşdur. 1997 ildə Ukrayna Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli *səfir* təyin olunmuşdur.

**ALESSANDRO FALLO VOLİTA** (1946). 1970 ildə Florensiya Universitetinin Siyasi elmlər fakultəsini bitirmişdir. 1972 ildə diplomatik xidmətə qəbul olunmuşdur. 1983-1984 illərdə İtaliya Respublikasının İzmirdə (Türkiyə) *konsulu* olmuşdur. 1988-1989 illərdə İtaliya Respublikasının *Avropa İqtisadi Birliyi* nəzdində Daimi nümayəndəliyində işləmişdir. 1992-1994 illərdə İtaliya Respublikasının Misirdəki *səfirliyində* I müşavir rütbəsində çalışmışdır. 1995 ildə İtaliya Respublikasının Xarici İşlər Nazirliyində *(Xarici İşlər İdarəsi)* İqtisadi məsələlər üzrə Baş müdirin yardımçı və maliyyə sahəsinin koordinatçısı vəzifəsində çalışmışdır. 1997-2001 illərdə İtaliya Respublikasının Azərbaycan Respublikasında *səfiri* olmuşdur.

**ALFANERVE CAN-ŞARL**(1907-1989). Fransız iqtisadçısı və diplomatı; 1933 ildə – Maliyyə naziri kabinetinin rəis müavini, 1935-1936 – rəisi; 1934 – Fransanın Türkiyədə *diplomatik nümayəndəliyində* işləyib; 1936 – Fransanın SSRİ-də *səfirliyinin* maliyyə məsələləri üzrə müşaviri; 1936-1937 – ticarət naziri kabinetinin rəisi; 1937-1938 – Ticarət Nazirliyi Ticarət Sövdələşmələri İdarəsinin rəisi; 1938-1940 – Milli İqtisadiyyat Nazirliyinin baş katibi; 1940-1941 – Fransanın ABŞ-da səfirliyinin maliyyə məsələləri üzrə müşaviri; 1941-1944 – Fransanın Milli Qurtuluş Komitəsinin iqtisadiyyat və maliyyə





məsələləri şöbəsinin rəisi; 1944-1948 – Fransanın XİN İqtisadi və maliyyə məsələləri idarəsinin baş direktoru; 1948-1950 – Fransa Avropa İqtisadi Əməkdaşlıq Təşkilatında nümayəndəsi; 1950-1951 – Fransanın *NATO* Şurası nəzdində nümayəndəsinin müavini; 1951-1954 – daimi nümayəndəsi; 1955-1956 – Fransanın *BMT* nəzdində daimi nümayəndəsi; 1956-1965 – Fransanın ABŞ-da səfiri; 1965-1972 – Fransa XİN-in *(Xarici İşlər İdarəsi)* Baş katibi və eyni vaxtda 1965-1973 – Atom Enerjisi üzrə Komitənin üzvü olub. 1974 ildən istefaya çıxıb.

**ALFAN ŞARL – ERVE** (1879-1942). Fransız diplomatı; 1902 ildən diplomatik xidmətdə olub. 1917-1918 – işğal edilmiş ölkələrdə, sonralar Rusiya və Rumıniyada şəxsi mülkiyyət və mənafelər Bürosunun rəisi, SSRİ ilə danışıqlarda Fransa nümayəndə heyətinin üzvü olub. 1926-1930 – Fransanın İrlandiyada *elçisi*; 1932-1933 – Xarici İşlər Naziriliyi *(Xarici İşlər İdarəsi)* işlər idarəsinin müdiri; 1933-1936 – Fransanın SSRİ-də *səfiri* işləyib. 1935 – *Qarşılıqlı yardıma dair* Sovet-Fransa müqaviləsinin *(Beynəlxalq müqavilə)* hazırlanmasında fəal iştırak edib. 1940 ilin mayında Fransanın İsveçrədə səfiri vəzifəsindən imtina edib, diplomatik işdən uzaqlaşıb.

**ALFONSUN RAUL RİKARDO** (1926). Argentinanın dövlət və siyasi xadimi. Atası – İspaniya *mühaciri*, anası – İrlandiya mühacirinin qızıdır. Əvvəlcə hərbi litsey, 1950 ildə isə La-Plata Milli Universitetinin hüquq fakültəsini bitirib. Vəkil, hüquq doktorudur.

Əmək fəaliyyətinə jurnalist kimi başlayıb. 1945 ildə Radikal Vətəndaş ittifaqına üzv olub. 1958-1962 – Buenos-Ayres əyalətinin qanunvericilik məclisinin deputatı, 1963-1966 və 1973-1976 – Milli Konqresin deputatı olub. 1967 – Buenos-Ayres əyalətinin valisi vəzifəsinə namizədliyi irəli sürülüb.

1972 ildə Radikal Vətəndaş İttifaqının mütərəqqi qanadının rəhbərlərindən biri, («Yenilik və dəyişikliklər hərəkatı») elə həmin ildə də İnsan hüquqlarının mühafizəsi assambleyası sədrinin müavini vəzifələrində çalışıb. 1983 ildə Radikal Vətəndaş İttifaqı, Milli Komitəsinin sədri işləyib, 30.X.1983 ildə prezident seçkilərində namizədliyi irəli sürülüb.

10.XII.1983-8.VII.1989 illərdə Argentinanın *prezidenti* olub.

**ALİ DİPLOMATİYA KOLLECİ.** Ali Diplomatiya Kolleci (ADK) çoxpilləli tədris prosesində *xarici siyasət* və *beynəlxalq hüququn* əsaslarına yiyələnməklə respublikanın xarici ölkələrdəki *səfirlik* və konsulluqlarında *(Konsul idarəsi)*, digər təmsiledici strukturlarda və *beynəlxalq təşkilatlarda* fəaliyyət göstərən regionlar üzrə *diplomat*, iqtisadçı, hüquqşünas, jurnalist, sinxron tərcüməçilər hazırlayan ixtisaslaşmış qeyri-dövlət ali təhsil müəssisəsi kimi 1992 ildən fəaliyyətə başlamışdır. Dövlət statusuna malikdir. Təsisçisi və rektoru fəlsəfə elmləri doktoru, professor Nazim Ziyad oğlu Hüseynlidir.

*Beynəlxalq münasibətlər, Diplomatiya*, Beynəlxalq hüquq, Beynəlxalq iqtisadi münasibətlər, Beynəlxalq jurnalistika, Jurnalistika, Hüquqşünaslıq, Regionşünaslıq (Regionlar üzrə), Gömrük işinin təşkili, Sinxron tərcümə (Dillər üzrə), Tərcümə (Dillər üzrə), Xarici dil (Dillər üzrə) ixtisasları üzrə bakalavr və magistr pillərində kadr hazırlığını aparır.

Tədris prosesi dünyanın qabaqcıl ali təhsil müəssisələrinin tədris təcrübəsi ənənələrinə və milli təhsil siyasətinə uyğun təşkil olunmuş, müasir beynəlxalq təhsil standartları üzərində qurulmuşdur. Geniş və müasir maddi-texniki bazaya malikdir.

ADK 4 beynəlxalq təşkilatın: Dünya Diplomatiya Akademiyaları və Beynəlxalq Münasibətlər Universitetləri Birliyinin (Ankara, İstambul 24.IX.1996); Mərkəzi və Şərqi Avropa Beynəlxalq Tədqiqatlar Birliyinin (Budapeşt, 06-07.II.1998); MDB (*Azərbaycan Müstəqil Dövlətlər Birliyində*) ölkələri Beynəlxalq münasibətlər Universitetləri Assosiasiyasının (Moskva, 25.I.1999) və Qara Dəniz Hövzəsi Universitetləri Birliyinin (26.IV.2004) üzvüdür.

ADK tələbə, müəllim və təcrübə mübadiləsi sahəsində dünyanın bir sıra qabaqcıl ali təhsil müəssisələri – Moskva Dövlət Beynəlxalq Münasibətlər Universiteti, Türkiyənin Süleyman Dəmirəl Universiteti, Şimali Kipr Türk Cümhuriyyətinin Kipr Beynəlxalq Universiteti, Kirne Amerikan Universiteti, Şərqi Aralıq Dənizi Universiteti, Gürcüstan Diplomatiya Akademiyası, Rumıniyanın «Ovidius» Universiteti ilə müqavilələr bağlanmışdır. ADK ABŞ, Türkiyə, Rusiya, Gürcüstan, Avstriya, Böyük Britaniya, İsveçrə, Ukrayna, Səudiyyə Ərəbistanı, Fransa, Kanada, Malta, İordaniya, Argentina, Estoniya, Quzey Kıbrıs Türk Cümhuriyyəti və s. ölkələrin institutları, universitetləri ilə elmi-mədəni əməkdaşlıq əlaqələri saxlayır.

ADK-da «Dünyaya baxış» elmi jurnalı nəşr edilir.

VIII.2005 ildən *Bakı Diplomatiya Universiteti* adlanır.

**ALİ KOMİSSAR.** Qismən inzibati, qismən də diplomatik funksiyaları yerinə yetirən yüksək dərəcəli şəxslərə verilən rütbə; A.k., adətən, asılı, himayəyə götürülən və ya işğal altında olan ölkələrə təyin edilirdi. 1919 il *Versal sülh müqaviləsinə* əsasən, *Millətlər Cəmiyyətinin* Dansiqdə (Qdansk) geniş səlahiyyətlərə malik A.k. vəzifəsi təsis olunmuşdu.

«Ali komissar» istilahı *BMT* sistemində tətbiq edilir.

**ALMANİYA – BOLQARISTAN İTTİFAQI** (1915). Bolqarıstanın Almaniya-Avstriya blokunda *Birinci Dünya müharibəsinə* qatılmasını rəsmiləşdirib. Avstriya-Macarıstanın və Almaniyanın Bolqarıstanda nüfuzunun möhkəmlənməsinə çar Ferdinand Koburqun almanpərəst siyasət yeritməsi habelə Bolqarıstanın Almaniya və Avstriya kapitalından asılılığı səbəb olmuşdu. Avstriya-alman *diplomatiyası* Bolqarıstan hökumətinə onun Makedoniyaya olan ərazi tələblərini təmin edəcəyini və Türkiyə *ilə sərhədlərin təshih olunacağını vəd* edirdi.

06.IX.1915 ildə Sofiyada aşağıdakı sənədlər imzalanmışdır:

Bolqarıstan və Almaniya arasında dostluq və ittifaqa dair müqavilə (*Beynəlxalq müqavilə*); Almaniya Bolqarıstanın siyasi müstəqilliyinə və ərazi bütövlüyünə təminat verir, Bolqarıstan isə «onunla həmsərhəd dövlətlər» Almaniyaya hücum edərsə, *almanlara* kömək etməyi öhdəyə götürürdü.

Bolqarıstan və Almaniya arasında məxfi razılaşma; Almaniya Bolqarıstana onun Serbiyaya qarşı çıxacağı təqdirdə Vardar Makedoniyasını, habelə Morova çayı boyu Serbiya ərazisinin bir hissəsini ələ keçirməsinə təminat verirdi. Rumıniya və Yunanıstanın Antanta tərəfinə keçdiyi halda Almaniya Bolqarıstanın Dobrucanı və Yunanıstanın 1913 il Buxarest sülh müqaviləsilə (*Buxarest sülh müqavilələri*) aldığı ərazini, o cümlədən, Kavallanı tutmasına razılıq verirdi. Almaniya Avstriya-Macarıstanla birlikdə Bolqarıstana hərbi borc verirdi.

Almaniya, Avstriya-Macarıstan və Bolqarıstan arasında hərbi konvensiya (*Beynəlxalq konvensiya*); Serbiyaya qarşı hərbi əməliyyatların başlanma vaxtını və çıxarılacaq diviziyaların sayını müəyyənləşdirirdi.

Elə həmin gün ayrıca Bolqarıstan-Türkiyə müqaviləsi imzalandı və bu *sənəd dördtərəfli Alman-Avstriya-*Bolqarıstan-Türkiyə ittifaqının yaradılmasını başa çatdırdı.

14.X.1915 ildə Bolqarıstan Serbiyaya hücum etdi və bununla da Almaniya bloku tərəfində *Birinci Dünya müharibəsinə* qoşuldu. 1918 ildə Almaniya və onun müttəfiqlərinin məğlubiyyəti A.b.i.-na son qoydu.

**ALMANİYA-ÇİN MÜQAVİLƏSİ** (1898). İki alman missionerinin öldürülməsindən sonra Almaniya hərbi desantının Çinə çıxarılması nəticəsində Çin Almaniyanın tələblərinə əməl etməyə məcbur oldu. Almaniya qonşularına Tyançjou körfəzi sahilində 50 km. enində zolaqdan sərbəst keçməyə və bu rayonda hərbi istehkamlar tikməyə icazə verildi. Çin bu ərazini 99 il müddətinə Almaniyaya icarəyə verməyi və icarə müddətində bu ərazidə özünün ali hakimiyyətindən imtina etməyi öhdəyə götürdü. Həmin ərazidə Çin qoşunları yalnız Almaniyanın razılığı ilə qala bilərdi. Çin gəmilərinə Tyançjou körfəzinə Almaniyaya dost olan ölkələrin gəmiləri kimi daxil olmaq hüququ verildi. Müqaviləyə (*Beynəlxalq müqavilə*) görə, Almaniyaya Tyançjoudan Şandun vilayətinin sərhədinə qədər və Tyançjoudan Tesaniyə qədər dəmiryolu çəkməyə icazə verildi. Bunlarla yanaşı Almaniya təbəələrinə dəmiryolu boyunca 30 km. enində zolaqda dağmədən sənayesində xüsusi mülkiyyətə sahib olmaq hüququ verildi.

Müqavilə faktiki olaraq Tsin Çininin ərazisinin bir hissəsini icarə adı ilə Almaniyanın ixtiyarına verirdi. Müqaviləyə əsasən, Almaniya Tsindaoda hərbi-dəniz bazası yaradır, Şandun Almaniyanın «təsir dairəsinə» keçirdi.

1898 ildə Almaniya tərəfindən icarəyə götürülmüş torpaq sahələri, mədənlər, əmlak və Almaniyanın Çindəki bütün mülkləri 1919 il *Versal sülh müqaviləsinə* əsasən Yaponiyaya verildi. Lakin Çin nümayəndəliyi ictimaiyyətin imperializmə qarşı hərəkatının təsiri altında bu müqaviləni imzalamaqdan imtina etdi.

**ALMANİYA-DANİMARKA MÜQAVİLƏSİ** (1939). Hücum etməməyə dair; 31.V. Berlində imzalanıb. Hitler hökumətinin təzyiqi altında 10 il müddətinə bağlanıb. Tərəflər *müharibəyə* əl atmamaq və qarşılıqlı mübahisələrin həllində gücdən istifadə etməmək barədə öhdəlik götürdülər. İki dövlətdən birinə silahlı təcavüz olduqda, digər tərəf təcavüzkara kömək etməməyi öhdəyə götürürdü.

09.IV.1940 ildə faşist Almaniyası öz üzərinə götürdüyü öhdəlikləri kobudcasına pozdu, Dinimarkanı işğal etdi.

**ALMANİYA-FRANSA BƏYANNAMƏSİ** (1938). Fransanın xarici işlər naziri J.Bonne və onun almaniyalı həmkarı İ.Ribbentrop tərəfindən 06.XII.Parisdə

imzalanıb; *Münxen sövdələşməsindən* sonra Fransa hökuməti Hitler Almaniyası ilə antimilli yaxınlaşma siyasəti yeritməkdə davam edir, bununla da təcavüzü öz sərhədlərindən kənarlaşdırmağa, onu Şərqə, SSRİ-yə qarşı yönəltməyə cəhd göstərirdi.

*Bəyannamədə* göstərilirdi ki, hər iki hökumət iki ölkə arasında dinc və mehriban qonşuluq münasibətlərini inkişaf etdirmək, onların maraqlarına toxunan bütün məsələlər üzrə məşvərət keçirmək üçün hər cür tədbirlər görməyi öhdəyə götürür. Qeyd edilirdi ki, Fransa ilə Almaniya arasında heç bir ərazi mübahisəsi yoxdur və onlar arasında mövcud sərhədlər dəyişməzdir. Bəyannamə Fransanın Avropada sülhü qorumaq və faşist təcavüzünü dəf etmək işində SSRİ ilə əməkdaşlıqdan imtina etməsi demək idi. Münxen sazişi ilə birlikdə Bəyənnamə əslində qarşılıqlı yardım haqqında 1935 il Sovet-Fransa müqaviləsinin *(Beynəlxalq müqavilə)* üstündən xətt çəkdi.

**ALMANİYA-İRAN MÜQAVİLƏLƏRİ.** 1) 1873 il müqaviləsi (*Beynəlxalq müqavilə*); dostluq, ticarət və dənizçiliyə dair, Almaniya *səfiri* şahzadə Rays və İran elçisi Mirzə Əbdül Rəhim (Səid-əl-Mülk) tərəfindən 11.VI. Peterburqda imzalanıb; Almaniya ilə İran arasında birbaşa əlaqələrin başlanğıcını qoyub. Almaniyaya azad ticarət və gəmiçilik hüququ, *kapitulyasiya* imtiyazları, habelə Tehranda, Təbrizdə və Bəndər Buşəhrdə konsulluqlar (*Konsul idarəsi*) açmaq hüququ verilirdi. İranla hər hansı üçüncü dövlət arasında münaqişə baş verdikdə Almaniyanın *vasitəçilik* edəcəyi nəzərdə tutulurdu.

2) 1929 il müqaviləsi; dostluğa dair, 17.II. Tehranda imzalanıb. Qarşılıqlı münasibətlərə dair 16.V.1928 il Almaniya-İran müvəqqəti sazişini əvəz edib. İranın gömrük muxtariyyətinin və kapitulyasiya rejiminin ləğvinin Almaniya tərəfindən son olaraq tanınmasın təsdiq edib; *diplomatik nümayəndəlik* və *konsulluq korpusu* üçün ən əlverişli rejim müəyyən etmiş, adi diplomatik yolla həlli mümkün ola bilməyən məsələlərə dair mübahisələr üzrə tərəflərin *arbitraja* müraciət etmələri nəzərdə tutulub. Müqavilə ilə eyni vaxtda imzalanan məskunlaşma, ticarət və dənizçiliyə dair konvensiya (*Beynəlxalq konvensiya*) hər iki ölkənin təbəələrinə qarşılıqlı və tam bərabərlik şərtlərilə digər tərəfin ərazisinə girmək, orada qalmaq və məskən salmaq hüququ verilirdi. Müqavilə və konvensiya Almaniyanın İrana iqtisadi və siyasi daxili olmasını asanlaşdırdı, Yaxın və Orta Şərqdə alman ekspansiyasına əlverişli imkan yaratdı.

**ALMANİYA-İSVEÇ SAZİŞİ** (1940). İsveçdən Norveçə və Finlandiyaya tranzitə dair; İsveç və Almaniya arasında 08.VII. tarixli *notalar mübadiləsi* şəklində tərtib edilib. İsveç hökumətinin dərc etdiyi rəsmi *bəyanatda* alman hərbi materiallarının İsveç dəmir yolu ilə tranzitinə *razılıq* verildiyi təsdiq edildirdi. Bu sənəd İsveç *bitərəfliyinin* pozulması demək idi. 1941-1942 illərdə İsveç ərazisindən 3 alman diviziyası buraxılmışdı. İsveç dəmir yolu ilə alman hərbi sursatı keçirilirdi. Stokholmda və digər məntəqələrdə alman nəqliyyat kamendaturaları yaradılmışdı. *İkinci Dünya müharibəsi* cəbhələrində baş verən hadisələrin təsiri altında İsveç hökuməti 05.VIII.1943 ildə sazişin ləğv olunduğunu bəyan etdi.

**ALMANİYA-İTALİYA MÜDAXİLƏSİ (İspaniyaya)** – (1936-1939). İspaniyada respublikaçı Xalq Cəbhəsi hökumətini devirmək üçün general Frankonun başçılıq etdiyi millətçi qüvvələrin qaldırdığı üsyana yardım məqsədilə Almaniya və İtaliyanın faşist hökumətləri tərəfindən təşkil edilmişdi. Respublikaçıları dənizdən blokadaya almış Almaniya və İtaliya, millətçilərin köməyinə 300 mindən çox əsgər və zabit göndərmişdi. Müdaxilə nəticəsində Xalq Cəbhəsi hökuməti devrilmiş və general Frankonun hərbi rejimi yaradılmışdı.

**ALMANİYA-İTALİYA MÜQAVİLƏSİ** (1939). 22.V. Almaniyanın xarici işlər naziri İ.Ribbentrop və İtaliyanın xarici işlər naziri Q.Çiano arasında «Polad pakt» adı altında Berlində, 10 il müddətinə imzalanmışdır. Bununla Almaniya-İtaliya hərbi faşist blokunun yaranması başa çatdı.

**ALMANİYANIN MƏĞLUB OLMASI VƏ ABŞ, BÖYÜK BRİTANİYA, SSRİ HÖKUMƏTLƏRİNİN VƏ FRANSANIN MÜVƏQQƏTİ HÖKUMƏTİNİN ALMANİYADA ALİ HAKİMİYYƏTİ ƏLƏ ALMALARI BARƏDƏ BƏYANNAMƏ** (1945). 05.VI. Almaniyanın qeyd-şərtsiz məğlub olduğu və onun ali hakimiyyətinin 4 müttəfiq ölkə hökumətlərinin əlinə keçdiyi bildirilirdi. *Bəyannaməyə* uyğun olaraq, Almaniya silahlı qüvvələrinin və silah daşıyan yardımçı təşkilatlarının şəxsi heyəti hərbi əsir (*Hərbi əsirlər*) elan edilmiş, silah və sursatı müttəfiqlərin hökumətlərinə verilmişdi. Faşist liderləri və hərbi cinayət törətməkdə günahkar bilinənlərin həmısı həbs olunmalı idi. Almaniyanın idarə olunması, işğal zonaları üzrə, amerikan, ingilis, fransız və sovet işğal qoşunlarının baş komandanları tərəfindən həyata keçirilirdi.



**ALMANİYA MƏSƏLƏSİ.** 21.IX.1949 ABŞ, Böyük Britaniya və Fransanın Almaniyadakı işğal zonası ərazisində, Almaniya Federativ Respublikası, 07.X.1949 sovet işğal zonası ərazisində isə Almaniya Demokratik Respublikası yaradıldı. 27.X.-16.XI 1955 ABŞ, Böyük Britaniya, Fransa və SSRİ xarici işlər nazirlərinin Cenevrə müşavirəsində irəli sürülmüş və ADR-in AFR-ə birləşdirilməsini nəzərdə tutan «İden planı» SSRİ tərəfindən qəbul edilmədi. 27.VI.1957 ADR hökumətinin ADR və AFR-dən ibarət Almaniya konfederasiyası yaratmaq planını da həyata keçirmək mümkün olmadı 11V.-20.VI. və 13.VII-5.VIII 1959 ABŞ, ADR, AFR, Böyük Britaniya, Fransa, və SSRİ xarici işlər nazirlərinin, iki mərhələdən ibarət *Cenevrə müşavirəsində* Almaniya məsələsi müzakirə olunsa da, hər hansı nəticə əldə olunmadı.

13.VIII.1961. ADR əhalisinin AFR-ə mühacirətinin qarşısını almaq üçün *Varşava Müqavilsi Təşkilatının* üzvü olan dövlətlərin qərarı ilə Berlinin şərq hissəsini qərb hissəsindən ayıran «Berlin səddi»nin çəkilməsi iki alman dövləti arasındakı münasibətləri kəskinləşdirdi. 21.XII.1972 ADR və AFR arasında, bir-birinin ərazi bütövlüyünə və müstəqilliyinə hörmət etmək barədə müqavilə (*Beynəlxalq müqavilə*) imzalandı. Şərqi Avropada kommunist rejiminin dağılması Almaniyanın birləşdirilməsi üçün şərait yaratdı. 9.XI.1989 «Berlin səddi» söküldü. 12.IX.1990 Moskvada ABŞ, ADR, AFR, Böyük Britaniya, Fransa və SSRİ-nin xarici işlər nazirləri tərəfindən Almaniya ilə münasibətlərin qəti nizama salınması haqqında Müqavilə imzalandı. Müqavilə ADR və AFR sərhədlərini vahid Almaniyanın xarici sərhədləri kimi müəyyənləşdirdi və onların qəti xarak-

terini təsdiq etdi. 3.X.1990 ADR və AFR birləşdirildi və vahid alman dövlətinin yaranması elan edildi.

**ALMANİYA-POLŞA BƏYANNAMƏSİ** (1934). Zor işlətməməyə dair; 26.I. Berlində 10 il müddətinə imzalanıb, 24.II. qüvvəyə minib. Tərəflər sülh məramlı olduqlarını bəyan edərək öz aralarında siyasi münasibətlərdə "yeni dövr açmaq" istəyini ifadə edir, mübahisəli məsələləri həll etməkdən ötrü heç bir halda zor işlətməmə yi öhdəyə götürürdülər. *Bəyannamənin* imzalanması *İkinci Dünya müharibəsinə* gedən yolda həqiqətən ciddi mərhələlərdən biri oldu. Polşanın mürtəce hakim dairələri ilə sövdələşmədən öz təcavüzkar planlarını gerçəkləşdirməkdə istifadə edən Hitler Almaniyası 29.IV.1939 ildə Bəyannaməni qüvvədən düşmüş elan etdi, sentyabrın 1-də isə Polşaya hücum etməklə İkinci Dünya müharibəsinə rəvac verdi.

**ALMANİYA-TÜRKİYƏ MÜQAVİLƏLƏRİ.** 02.VIII.1914. Böyük vəzir Səid Həlim Paşa və alman *səfiri* fon Vahenkeyn tərəfindən İstambulda imzalanmışdı. Rusiya Avstriya-Macarıstana qarşı çıxacağı təqdirdə, Türkiyə Almaniya tərəfində *müharibəyə* qoşulmalı idi.

1) 18.VI.1941. Türkiyə xarici işlər naziri Ş.Saracoğlu və alman səfiri fon Papen arasında Ankarada imzalanmışdı. Tərəflər bir-birinin ərazi bütövlüyünə və toxunulmazlığına hörmət etməyi və qarşı tərəfin əleyhinə çıxış etməməyi öhdələrinə götürdülər.

**ALMANİYA ÜZRƏ NƏZARƏT ŞURASI.** İşğal dövründə Almaniyanı idarə etmək üçün 1945 ildə yaradılmış və amerikan, fransız, ingilis və sovet işğal zonalarındakı işğal qoşunlarının baş komandanlarının daxil olduqları orqan. Məsələlər yekdillik prinsipi əsasında həll edilirdi. Denasifikasiya, inhisarsızlaşdırma, alman militarizminin kökünü kəsmək və s. haqqında qanunlar vermişdi. 1948 ildə Almaniya məsələsində müttəfiqlər arasındakı ziddiyyətlər üzündən fəaliyyəti dayandırıldı.

**ALP ARSLAN** (1033-1072). Böyük səlcuq hökmdarı. Tası Çağrı bəyin ölümündən sonra Xorasan hakimi olub; 1063 ildə əmisi, Böyük səlcuq sultanı Toğrul bəyin vəfatı ilə əlaqədar Səlcuq sultanı elan edilib. 1064 ildə Bizansa qarşı hərbi yürüşə başlayan A.A. Gürcüstanı, Ani və Kars şəhərlərini ələ keçirib. 1065 ildə Orta Asiyanı öz hakimiyyəti altında birləşdirəndən sonra Bizans üzərində qəti qələbə çalmaq məqsədilə 1070 ildə Azərbaycana gəlib və buradan hərəkət edərək Malazgird və Uraf qalalarını ələ keçirərək Bizans ərazisinə daxil olub. Bizans imperatoru Roman Diogenin 150 minlik ordusu ilə 26.VII.1071 ildə Malazgird altında üzbəüz gələn 55 minlik səlcuq ordusu A.A-nın sərkərdəliyi altında parlaq qələbə çalaraq Bizans imperatorunu əsir götürüb. Türk və islam tarixinin ən mühüm hadisələrindən olan Malazgird qələbəsi Anadolunu türklərin yeni vətəni etməklə bərabər A.A-na da dünya şöhrəti qazandırdı. Onun hakimiyyəti dövründə səlcuq dövləti Orta Asiyadan başlayaraq Aralıq dənizinə qədər uzanan qüdrətli bir imperiyaya çevrildi. A.A 1072 ildə həlak olandan sonra Səlcuq imperiası çox keçməmiş kiçik dövlətlərə parçalandı.

**ALTERNAT** (lat. *alternus* - növbələmək). *Beynəlxalq hüquq* norması; müəyyən razılığa gələn tərəflər üçün nəzərdə tutulmuş *beynəlxalq müqavilənin* əsl nüsxəsində tərəflərin adlarının, səlahiyyətli şəxslərin imzalarının, möhürlərinin, danışığa gələn tərəflərin dilində müqavilə mətninin özünün birinci yerdə yerləşdirilməsi qaydasıdır. İmza üçün verilən birinci ən fəxri yer müqavilənin mətni altında sol tərəfdə, ya da, əgər imzalar alt-alta yazılırsa, yuxarı yer hesab olunur. A. istifadə edilməsi danışığa gələn tərəflərin bərabərliyini qeyd edir.

A.-a bir qayda olaraq hazırda iki dildə hazırlanan ikitərəfli müqavilələrdə ciddi əməl olunur. Çoxtərəfli müqavilələrdə A. nadir hallarda praktik olaraq hər bir iştirakçı üçün müqavilənin əsl nüsxəsi hazırlandıqda istifadə olunurdu (XIX əsrin ortalarından müqavilə praktikasında). XIX əsrin II yarısından başlayaraq çoxtərəfli müqavilələr bir qayda olaraq bir və ya bir neçə dildə yeganə əsl nüsxədə tərtib olunur, bu zaman danışığa gələn tərəflərin (dövlətlərin, hökumətlərin) adları müqavilədə əlifba qaydası ilə sadalanır (hansı əlifbaya əsaslanmağı iştirakçılar özləri həll edirlər). Səlahiyyətli şəxslər müqaviləni həmin əlifba qaydasında da imzalayırlar. Bu qaydadan bəzi kənara çıxmalar da baş verməşdir. Belə ki, *BMT Nizamnaməsinin* imzalanması dövlətlərin ingiliscə adlandırması qaydasında həyata keçirilmişdir, ancaq birinci yerdə *San-Fransisko konfransına* «dəvətli» olan dövlətlərin – Çinin, SSRİ-nin, Böyük Britaniyanın və ABŞ-ın imzaları dururdu, sonra isə Fransanın imzası və nəhayət digər iştirakçıların imzaları gəlirdi.

A.-a eləcə də az sayda iştirakçılı (3-4) olan çoxtərəfli müqavilələrdə, əgər müqavilənin əsli bir nüsxədə, hazırlanarsa, əməl oluna bilər.

Müqavilənin imzalanmasından sonra onun tərəflərindən birində qalan nüsxəsi də A. adlanır.

**ALYENDE QOSSENS SALVADOR** (1908-1973). 3 noyabr 1970 – Çili prezidenti. Santyaqodakı Çili Universitetinin tibb fakultəsini bitirib; 1933 ildə Sosialist partiyasının yaradılmasında iştirak edib; 1937-1941 – Milli Konqresin deputatı; 1939-1942 – səhiyyə naziri; 1945-1970 – senator olub; 1966-1969 – senatın sədri seçilib. Yanvar 1970-«Xalq birliyi» blokundan *prezidentliyə* namizəd irəli sürülüb. Ümumdünya Sülh Şurasına üzv seçilib. «Çilidə tibb-sosial problemləri» adlı elmi əsərin və digər kitabların müəllifidir. 1973 ildə dövlət çevrilişi nəticəsində qətlə yetirilib.

**AMANQALİYEV İBRAHİM ACEYEVİÇ** (1935). 1959 ildə Ufa Neft İnstitutunu, 1969 ildə SSRİ Xarici İşlər Nazirliyinin (*Xarici İşlər İdarəsi*) Diplomatik Məktəbini bitirmişdir. 1969-1974 illərdə SSRİ-nin İndoneziyadakı *səfirliyində* II, I katib olmuşdur. 1984-1990 illərdə SSRİ-nin Əlcazairdəki səfirliyində müşavir, 1990-1992 illərdə SSRİ-nin və Rusiya Federasiyasının İndoneziyadakı səfirliyinin müşaviri olmuşdur. Fövqəladə və Səlahiyyətli *səfir* dərəcəsinə malikdir. 1993-1998 illərdə Qazaxıstan Respublikasının Azərbaycan Respublikasında səfiri işləmişdir.

**AMASİYA SÜLH MÜQAVİLƏSİ** (1555). 29.V. Səfəvi və Osmanlı dövlətləri arasında Amasiyada imzalanmış və 1514-1555 illərin Səfəvi-Osmanlı *müharibəsini* başa çatdırmışdı. Sülhün şərtlərinə görə Bağdadla Ərəb İraqı Türkiyənin əlinə keçdi. Ermənistan və Gürcüstan bölündü. Qərbi Ermənistan

və Gürcüstanın qərb vilayətləri - Meqreliya, İmeretiya və Quriya osmanlıların, Şərqi Ermənistan və Gürcüstanın şərq vilayətləri - Mesxiya, Kartli və Kaxetiya Səfəvilərin ixtiyarına verildi.

**AMAZON PAKTI.** Latın Amerikasında subregional qruplaşma. Pakta Boliviya, Braziliya, Venesuela, Qayana, Kolumbiya, Peru, Surinam və Ekvador daxildirlər. A.p. *Braziliyanın təşəbbüsü ilə* yaradılıb. Əsas sənədi 3.VII.1978 ildə Braziliya şəhərində imzalanan Amazoniya əməkdaşlığına dair müqavilədir (*Beynəlxalq müqavilə*). Müqavilə su ehtiyatlarından istifadə, çay gəmiçiliyi üçün əlverişli şərait, bitki və heyvanlar aləmindən bəhrələnmə, ekoloji tarazlığı qorumaq və s. sahələrdə əməkdaşlığı nəzərdə tutur. Paktın iştirakçıları Amazon çayında və onun qollarında, özlərinə məxsus sərhədlər hüdudunda sərbəst gəmiçiliklə məşğul olmaq barədə razılığa gəlmişdilər. Lakin bu halda yerli qanunların tələbləri mütləq gözlənilməli idi. Müqavilə digər Latın Amerikası Birlikləri ilə əməkdaşlıq edilməsini də nəzərdə tuturdu.

A.p.-nın ali orqanı – Xarici İşlər Nazirlərinin Müşavirəsi, icra orqanı isə Amazon Əməkdaşlıq Şurasıdır.

**AMBROZİNO KONTARİNİ.** Hələ IX-X əsrlərdən Venetsiyada çox məşhur olan bir nəslin nümayəndəsi, Venetsiya senatının Ağqoyunlu dövlətinə ezam etdiyi 3-cü səfir.

04.VIII.1474 ildə Təbrizə yetişib. 04.XI. *Uzun Həsənin* qəbulunda olub. Səfər ərəfəsində A.K.-yə verilmiş təlimatnamələrdə əsasən Uzun Həsəni osmanlılarla yenidən *müharibəyə* sövq etmək, ona Avropa dövlətləri, o cümlədən Venetsiyanın hərbi-dəniz qüvvələrinin köməyini vəd etmək, məqsədə çatmaq üçün Uzun Həsənin zövcəsi Dəspinə xatundan, şahın oğlanlarından və Kiçik Asiyanın osmanlılar tərəfindən hakimiyyətdən uzaqlaşdırılan sabiq hakimlərindən istifadə etmək və s. siyasi məsələlər öz əksini tapmışdı.

Təlimatnamənin Venetsiyanın mənafeyini əks etdirən maddəsində deyilirdi ki, əgər Ağqoyunlu hökmdar Türkiyə ilə sülh bağlamaq niyyətinə düşərsə, A.k. *bu işi pozmağa çalışmalı*, əgər bu siyasət baş tutmazsa, o, Venetsiyanı da Türkiyə ilə bağlanılacaq sülh müqaviləsinə qatmalı idi.

Uzun Həsənin bu *səfirə* münasibəti yaxşı olmamış, dəfələrlə ona qayıtmaq əmri verilmiş və o, 1477 ilin aprelində öz ölkəsinə geri dönmüşdü.

**AMERİKA-ALMANİYA MÜQAVİLƏSİ** (1921). 25.VIII Berlində imzalanıb; 11.XI qüvvəyə minib. ABŞ-ı təmin edən 1919 il *Versal sülh müqaviləsinin* bir çox maddələrini təkrarlayan bu *separat sülh* müqaviləsinə *Millətlər Cəmiyyətinə*, ərazi dəyişikliklərinə və müstəmləkələrə dair hissələr daxil edilməmişdi.

Müqavilənin (*Beynəlxalq müqavilə*) birinci hissəsində ABŞ *Konqresinin* Xüsusi qətnaməsinin bölmələri təkrar qeyd olunurdu. Göstərilirdi ki, ABŞ və onun vətəndaşları Almaniya ilə 11.XI.1918 il barışığının şərtlərinə, Versal sülh müqaviləsinə, habelə ABŞ Konqresinin qərarlarına əsasən əldə etdikləri hüquqları, imtiyazları, ödəncləri, *reparasiyaları* və faydaları, onların icbari qaydada həyata keçirilməsi hüququ da daxil olmaqla, özlərində saxlayırlar. Bu qətnaməyə müvafiq olaraq, ABŞ *müharibə* illərində sekvestrə edilmiş 800 mln. dollar məbləğində alman mülkiyyətini özündə saxlayırdı.

Müqavilənin ikinci hissəsində ABŞ-ın hüquq və imtiyazları göstərilir





və xüsusi olaraq qeyd olunurdu ki, ABŞ-ın hüquqları Millətlər Cəmiyyətinin *Nizamnaməsi və onun fəaliyyəti ilə* uzlaşdırılmayacaq və ABŞ özü istədikdə, müstəsna hallarda öz hərəkətlərini Millətlər Cəmiyyəti ilə əlaqələndirəcəkdir. Müqavilə *Birinci Dünya müharibəsindən* sonra ABŞ ilə *Antanta* dövlətləri arasında ziddiyyətlərin gücləndiyini əks etdirirdi.

**AMERİKAARASI KONFRANSLAR.** ABŞ və Latın Amerikası dövlətləri nümayəndələrinin konfransları (*Beynəlxalq konfranslar*), 1889-1954 illərdə çağrılıb; 1948 ilədək rəsmi olaraq Amerika Dövlətlərinin Beynəlxalq Konfransları, bəzən də Panamerikan Konfransları adlandırılıb.

ABŞ Latın Amerikası ölkələrini öz təsiri altına salmaq ümidilə XIX əsrin 80 illərində Amerika dövlətlərinin konfranslarını çağırmaq sahəsində fəal iş aparırdı. İlk A.k. Vaşinqtonda (1889-1990), ikinci Mexikoda (22.XI.1901-31.01.1902), üçüncü Rio-de Janeyroda (23.VII-27.VIII.1906), dördüncü Buenos-Ayresdə (12.VII-30.VIII.1910) keçirilib.

Dördüncü A.k. Panamerikan ittifaqının yaradılmasını başa çatdırdı. ABŞ həmin ittifaqda aparıcı rol oynamağa can atırdı. A.k. bu ittifaqın ali orqanı oldu.

*İkinci Dünya müharibəsi* (1939-1945) başlananadək növbəti 5-8-ci A.k., habelə «sülhün qorunmasına dair» A.k. çağırılıb.

İkinci Dünya müharibəsinin başlanması ilə A.k.-ın funksiyaları əslində Latın Amerikası ölkələri və ABŞ-ın xarici işlər nazirlərinin Məşvərət Şurasına həvalə olunub. 1945 ildə «müharibə və sülh məsələlərinə dair A.k. keçirildi. Onun qərarlarına uyğun olaraq, «qitədə sülh və təhlükəsizliyi təmin etmək üzrə» 1947 il konfransı çağırılmışdı. Doqquzuncu A.k. Amerika ölkələrinin regional hərbi-siyasi qruplaşmasının – *Amerika Dövlətləri Təşkilatının* (ADT) yaradılmasını başa çatdırdı. ADT-nin burada qəbul olunan nizamnaməsinə uyğun olaraq, A.k. bu təşkilatın müntəzəm çağırılan ali orqanı olmalı idi, lakin əslində yalnız növbəti 10-cu A.k. çağırıldı. Bütün mühüm siyasi məsələlərə isə ADT Xarici İşlər Nazirlərinin (*Xarici işlər idarəsi*) Məsləhət Müşavirələrində və Şurasında baxılırdı.

1-3 fövqəladə A.k.-ların qərarlarına müvafiq olaraq, ADT Nizamnaməsinə yenidən baxıldıqdan sonra (1964-1967), 1971 ildən başlayaraq ADT-in ali orqanı funksiyası hər il xüsusi sessiyalarını çağıran Baş Məclisə həvalə edildi. Amerikaararası sistem çərçivəsində xarici işlər nazirlərinin məsləhət müşavirələri, habelə iqtisadi, elmi, mədəni və s. məsələlərə dair konfranslar keçirməkdə davam etdirilir.

**AMERİKA-ÇİN MÜQAVİLƏLƏRİ, SAZİŞLƏRİ VƏ BİRGƏ BƏYANATI.** 1) 1844 il müqaviləsi (*Beynəlxalq müqavilə*); ticarətə dair, Vansyada (Aomın (Makao)) yaxınlığında 3.VII imzalanıb. ABŞ-ın Tsin Çini ilk müqaviləsidir. 1842 ildə İngiltərə ilə Nankin müqaviləsini bağladıqdan sonra, ABŞ Tsin imperiyasından eyni mahiyyətli imtiyazlar almaq qərarına gəldi. Çin hökuməti hücum təhlükəsi altında müqaviləni imzalamağa məcbur oldu.

Müqavilə İngiltərədən ötrü açıq olan beş limanı (Quançjou, Syamın, Fuçjou, Ninbo və Şanxay) amerkanlılar üçün də açıq elan etdi. Amerikanlılara bu şəhərlərdə ticarət müəssisələrinə, qəbristanlıqlara, kilsələrə və xəstəxanalara malik olmaq icazəsi verilirdi.

ABŞ *eksterritoriallıq* hüququ və bir sıra əlavə güzəştlər əldə etdi. Çin özünün gömrük hüququnu itirir, amerikalılar bir açıq limandan o birinə yükləri rüsum ödəmədən daşımaq hüququ əldə edirdilər. Müqaviləyə yenidən baxılması 12 ildən sonra mümkün ola bilərdi.

2) 1868 il müqaviləsi (Tyanszin müqaviləsinə əlavə); 28.VII imzalanıb; ABŞ-a Çində yeni üstünlüklər, Çin vətəndaşlarına ABŞ-a mühacirət sərbəstliyi verirdi.

3) 1943 il müqaviləsi; ABŞ-ın Çində eksterritoriallıq hüququndan imtina etməsinə dair; 11.I. Vaşinqtonda imzalanıb. 14.I.1939, 11.VII.1940 və 11.VI.1941 illərdə ABŞ Uzaq Şərqdə hərbi əməliyyatların başa çatması ilə eksterritoriallıq hüququnun ləğvi barədə Çinlə danışıqlar aparmağa hazır olduğunu bəyan etmişdir.

Müqavilə ABŞ vətəndaşlarına Çində konsulluq yurisdiksiyası verən bütün Amerika-Çin müqavilə və sazişlərini qüvvədən saldı və onların üzərində Çin hökumətinin yurisdiksiyasını təsbit etdi. ABŞ 1901 il Yekun protokolu ilə («Boksyor protokolu») ona verilən hüquqlardan imtina etdi və qəbul etdi ki, Pekindəki diplomatik məhəllə Çin hökumətinin nəzarəti altında olmalı, Şanxay və Syamındakı beynəlxalq *settlmentlər* Çinə qaytarılmalıdır. Bununla belə müqavilə amerikalılara bütün Çin ərazisində sərbəst hərəkət etmək və ticarətlə məşğul olmaq hüququ verməklə Çinin iqtisadi asılılığını daha da artırırdı.

4) 1946 il müqaviləsi; dostluq, ticarət və dənizçiliyə dair, 4.XI. Nankində imzalanıb. Müqavilə formal olaraq «bərabər hüquq və eyni imkanlar» prinsipi əsasında qurulsa da, əslində qeyri-bərabər xarakter daşıyır. Amerikalılara binaları, torpaq sahələrini icarəyə götürmək, əldə etmək, Çinə sərbəst gəlmək, orada yaşamaq və onun bütün ərazisində sərbəst hərəkət etmək hüququ verilirdi. Amerika inhisarları öz kapitallarını Çinin sənaye və ticarət müəssisələrinə, kampaniyalarına qoymaq hüququ əldə edir, müxtəlif kontraktlar bağlamaqda, ABŞ mallarını satın almaqda ən əlverişli fəaliyyət rejiminə malik olurdular. Vergi qoyulması məsələsində isə ABŞ vətəndaşlarına milli rejim tətbiq olunurdu. Maliyyə razılaşmaları və ödəncləri üzərində Çin hökumətinin hər hansı nəzarəti ABŞ-ın başqa dövlətlərlə rəqabət mübarizəsinə zərər vurmamalı idi.

5) 1947 il (Nankin) sazişi; ABŞ-ın Çinə «yardım» göstərməsinə dair, 27.X imzalanıb.

Qomindan Çini hökumətinə Amerika köməyinin göndərilməsi şərtlərini ehtiva edir. Mətndəki bəzi qeyd-şərtlər Qomindan rejiminin ABŞ tərəfindən bilavasitə müdafiə edilməsini ört-basdır etməli idi. Bu, Qomindan rejiminə təkcə ərzaq, dərman preparatları verilməsini deyil, həm də maliyyə yardımını nəzərdə tuturdu. Lakin bu vəsaitdən yalnız ABŞ-ın razılığı ilə istifadə oluna bilərdi. Sazişin şərtlərinə görə, Qomindan hökuməti ABŞ-ı öz siyasəti barədə məlumatlandırmalı idi. ABŞ Çinə öz xüsusi nümayəndələrini (*Xüsusi missiyalar*) göndərmək hüququ əldə edir və həmin nümayəndələrə *diplomatik imtiyaz və toxunulmazlıq hüququ* verilirdi.

Beləliklə, sazış Qomindan hökumətinə olduqca az miqdarda köməklik göstərilməsini (27,7mln. dollar) qanuniləşdirməklə ABŞ-a bu hökumət üzərində nəzarət etməyə və Çinə təsir göstərməyə leqal imkan verirdi.

6) 1948 il sazişi; Çinə 400 mln. dollar məbləğdə Amerika «yardım»





fondundan istifadəyə dair, 3.VII Nankində imzalanıb.

Nəzərdə tutulurdu ki, Amerika «yardımı»nın həyata keçirilməsi ABŞ Konqresinin Qomindan Çininə «yardım» barədə müəyyən etdiyi şərtlərə müvafiq aparılmalıdır. Əsas diqqət ABŞ üçün zəruri olan strateji materialların çıxarılmasına, Tayvanın, Xaynanın və Cənubi Çinin «mənimsənilməsinə» kapital qoyuluşunu stimullaşdırmağa verilirdi. Bu ərazilər faktiki olaraq 1948 ildə Amerika «iqtisadi yardım» administrasiyasının nəzarəti altına keçmişdi.

Saziş 1946-1948 illərdə bağlanan digər müqavilə və sazişlərlə birlikdə Çan-Kayşi Çinində iqtisadi və siyasi həyatı bütünlükdə Amerikanın tabeliyinə keçirirdi.

1949 ilin oktyabrında Çin Xalq Respublikasının yaradılması ilə Çinlə ABŞ *arasında bağlanmış müqavilə* və sazişlər ləğv olundu.

1) 1972 il Birgə *Bəyanatı* (Şanxay Birgə bəyanatı); ABŞ *prezidenti* R.Niksonun ÇXR-ə səfərinin (21-28.II) yekunları üzrə *28.II* Şanxayda imzalanıb.

Hind-Çində vəziyyətlə əlaqədar Amerika tərəfi bildirirdi ki, ABŞ-ın daimi məqsədi Vyetnam problemini danışıqlar yolu ilə həll etməkdir və ABŞ Cənubi Vyetnamla birgə irəli sürülən 27.I.1972 təkliflərini əvvəlkitək dəstəkləyir (VDR bu təklifləri Cənubi Vyetnam oyuncaq rejiminin saxlanmasına yönələn qəsd kimi rədd etmişdi). Amerika tərəfi ABŞ-ın gələcəkdə Cənubi Koreya ilə sıx əlaqələr və Yaponiya ilə dostluq münasibətləri saxlayacağı barədə müddəaları sözügedən Birgə bəyanata daxil etmişdi.

ÇXR-nin Hind-Çin barədə mövqeyi bu regionun xalqlarını «möhkəm müdafiə etməyə» yönəlmişdi. ÇXR Koreyanı birləşdirmək, *BMT*-nin Koreyanı birləşdirmək və bərpa etmək üzrə komissiyasını buraxmaq, habelə Yapon militarizminin dirçəldilməsinə və onun ölkə hüdudlarından kənara ekspansiyasına mane olmaq mövqeyindən çıxış edirdi.

Çin tərəfi bəyan edirdi ki, Amerika-Çin münasibətlərinin qaydaya düşməsinə Tayvan problemi mane olur və ABŞ-ın Tayvandakı bütün qüvvələri oradan çıxarılmalıdır. Çin hökuməti «bir Çin, bir Tayvan», «bir Çin, iki hökumət», «iki Çin», «müstəqil Tayvan» yaradılması ideyalarına qarşı çıxır, habelə «Tayvanın statusunu hələ müəyyənləşdirmək lazımdır» deyən bəyanatlarla razılaşmırdı.

Amerika tərəfi bunu qeyd etməklə kifayətlənirdi ki, «Tayvan boğazının hər iki tərəfindəki çinlilər belə hesab edirlər ki, yalnız bir Çin vardır, «Tayvan isə Çinin tərkib hissəsidir». Tərəflər bildirdilər ki, Tayvan problemi hərbi qarşıdurma üçün səbəb olmamalıdır. ÇXR ABŞ ilə münasibətləri inkişaf etdirməkdən ötrü amerikalıların təcili Tayvandan çıxıb getmələrini və Taybey hakimiyyəti ilə əlaqələrini kəsmələrini şərt kimi irəli sürmürdü. ABŞ isə 1954 il «qarşılıqlı müdafiə» *müqaviləsi* (*Beynəlxalq müqavilə*) ilə Tayvan qarşısında götürdüyü öhdəlikləri təsdiq etmədi. Birgə bəyanatda tərəflərin əməkdaşlığı inkişaf etdirmək, elm, texnika, mədəniyyət, idman, mətbuat və ticarət sahələrində əməli mübadilə aparmaq istəkləri ifadə olunurdu.

2) 1973 il Birgə Bəyanatı – ABŞ prezidentinin təhlükəsizlik məsələləri üzrə köməkçisi T.Kissincerin (*Kissincer Henri Alfred*) ÇXR-ə səfərinin (15-19.II) yekunlarına dair. Tərəflər münasibətlərin qaydaya salınmasını sürətləndirmək üçün «münasib məqamın» yarandığını

bəyan edir və bildirdilər ki, ABŞ ilə Çin arasında hər iki dövlətin paytaxtlarında *diplomatik münasibətlər* missiyalarının (*Diplomatik missiya*) yaradılması barədə razılıq əldə edilib. Diplomatik münasibətlər yoluna düşənədək (01.1. 1979) rəsmi Amerika-Çin əlaqələri bu missiyalar vasitəsilə həyata keçirilməli idi.

3) 1978 il Birgə Bəyanatı; ÇXR ilə ABŞ arasında diplomatik münasibətlərin yaradılmasına dair, 16.XII dərc edilib. Tərəflər 01.1.1979 ildən etibarən bir-birini rəsmən tanımaq və diplomatik münasibətlər yaratmaq, 01.III.1979 ildən səfir mübadiləsi etmək barədə razılığa gəldilər. ABŞ ÇXR hökumətini Çinin yeganə qanuni hökuməti kimi tanıdı. Birgə Bəyanatda deyilirdi: «Bu kontekstdə Birləşmiş Ştatların xalqı Tayvan xalqı ilə mədəni, ticarət-iqtisadi və digər qeyri-rəsmi əlaqələr saxlayacaqdır». Tərəflər 1972 il birgə Bəyanatında razılaşdırdıqları prinsipləri bir daha təsdiq etdilər.

ABŞ hökumətinin 16 dekabr bəyanatında deyilirdi ki, ABŞ 01.1.1979 ildən etibarən Tayvanla diplomatik münasibətləri kəsəcək, «Qarşılıqlı müdafiə»yə dair 1954 il Amerika-Tayvan müqaviləsini ləğv edəcək və Amerika hərbi heyəti dörd ay ərzində adadan çıxarılacaqdır.

ÇXR hökumətinin bu məsələ ilə bağlı bəyanatında göstərilirdi ki, «Tayvanın vətənə qovuşması və ölkənin birləşdirilməsinin başa çatdırılması yolları Çinin sırf daxili işidir». ABŞ ilə ÇXR arasında diplomatik münasibətlərin yaradılmasına dair müqavilə, o cümlədən Tayvan məsələsində, qarşılıqlı güzəştlərə əsaslanırdı. Hərçənd ABŞ formal olaraq Çinin əvvəlcə irəli sürdüyü şərtləri qəbul edirdi, lakin Vaşinqtonun güzəştləri əslində Çin rəhbərliyinin o vaxtadək ABŞ ilə Tayvan arasında mövcud olan iqtisadi, mədəni və digər əlaqələrin saxlanmasına razılığı ilə müşayət olunurdu.

4) 1979 il Birgə Bəyanatı; ÇXR Dövlət Şurası Sədrinin müavini Den Syaopinin – Çinin yüksək səviyyəli nümayəndəsinin ABŞ-a ilk səfərinin yekunları üzrə 01.II Vaşinqtonda imzalanıb. Bəyanatda qeyd edilirdi ki, bir çox sahələrdə tərəflərin ümumi maraqları var və onlar eyni mövqelərdən çıxış edirlər. Bildirilirdi ki, «ictimai sistemlərin müxtəlifliyi ABŞ ilə ÇXR arasında dostluq münasibətlərinin möhkəmlənməsinə və əməkdaşlığa mane olmamalıdır». Qeyd edilirdi ki, səfər zamanı ABŞ ilə ÇXR arasında elm və texnika, mədəniyyət, təhsil, kənd təsərrüfatı, kosmik fəzanın mənimsənilməsi, yüksək enerjilər fizikası sahəsində əməkdaşlığa dair sazişlər imzalanmış, konsulluq münasibətlərinin yaradılmasına dair razılaşmalar əldə edilmişdir.

ABŞ və ÇXR ticarət, hava rabitəsi və dəniz daşımalarına dair sazişlər bağlamağa hazır olduqlarını bildirirdilər.

5) 1979 il sazişi; ticarətə dair, 07.VIII Pekində imzalanıb. Tərəflər iki ölkə arasında uzunmüddətli iqtisadi və ticarət münasibətlərinin möhkəmləndirilməsinə əlverişli şərait yaratmaq üzrə hər cür tədbir görmək barədə təəhhüd götürürdülər.

Saziş şirkətlər, korporasiyalar və ticarət təşkilatları arasında qarşılıqlı əlaqələr yaratmaq nəzərdə tuturdu.

Saziş ticarət-texniki sərgilərin, seminarların, yarmarkaların təşkilini, habelə ən güzəştli şərtlərlə ixracat kreditlərinin verilməsinin sadələşdirilmiş tərzini, maliyyə, valyuta və bank əməliyyatlarının güzəştli qaydalarını nəzərdə tuturdu.

Saziş 24.I.1980 ildə Amerika Konqresi tərəfindən *ratifikasiya* edilib.





Bununla da ABŞ ÇXR ilə ticarət-iqtisadi əlaqələri genişləndirməyə yol açmış, bu işə Çinə münasibətdə öz strateji planlarının bir hissəsi kimi baxmışdır. ÇXR ABŞ ilə ticarət və siyasi əlaqələrin inkişafında maraqlı olduğunu nümayiş etdirərək hələ VII.1979 ildə müştərək kompaniyalar haqqında qanun qəbul etmiş və Çində xarici biznesin fəaliyyətinə şərait yaradan bir sıra tədbirlər həyata keçirmişdir.

6) 1982 il Birgə Bəyanatı; Tayvana Amerika silahının göndərilməsi ilə əlaqədar 17.VIII dərc edilib. ABŞ tərəfindən Tayvana silah satılması məsələsi açıq olaraq qaldı. Lakin ABŞ və ÇXR hökumətləri bəyan etdilər ki, bu problemin təmamilə nizama salınması və lazımi şərait yaradılması üçün səy göstərəcəklər.

ABŞ hökuməti bəyan etdi ki, Tayvana Amerika silahının satılması «nə keyfiyyət, nə də kəmiyyətcə son illərdəki səviyyədən yuxarı qalxmayacaq və ümumiyyətlə, Tayvana silah satışı tədricən azaldılacaqdır». ABŞ prezidenti həmçinin bəyan etdi ki, Vaşinqton Çinin «Tayvan problemi Çin tərəfindən dinc yolla həll ediləcəkdir» bəyanatını nəzərə alır.

**AMERİKA DÖVLƏTLƏRARASI İNKİŞAF BANKI (ADİB).** *Amerika Dövlətləri Təşkilatına* üzv ölkələr arasında bağlanmış 8.IV.1959 il sazişi əsasında yaradılıb. Bank öz əməliyyatlarına 1960 il oktyabrın 1-dən başlayıb. ABŞ, Latın Amerikası və Karib hövzəsindən 25 ölkə, 17 digər dövlət, o cümlədən Böyük Britaniya, İtaliya, Kanada, Fransa, Almaniya, Yaponiya ADİB-in aparıcı üzvləridirlər.

Bankın əsas məqsədi – Latın Amerikasında inkişaf layihələrini maliyyələşdirmək, region ölkələrinə dövlət və xüsusi sərm ayəni cəlb olunmasına və iştirakçı ölkələrin iqtisadi inteqrasiyasına və xarici ticarətinin inkişafına kömək göstərməkdir.

ADİB-in rəhbər orqanları – Direktorlar Şurasından və Direktoratdan ibarətdir; Direktorlar şurasında səslər bankın ümumi sərmayəsindəki səhmlərə münasib qaydada bölüşdürülür. ADİB-in təsis edilməsinə dair sazişə müvafiq olaraq, Direktorlar şurasında səsləri ən azı 34,5%-nə malik olan ABŞ əslində bütün mühüm qərarların Şura tərəfindən qəbulu zamanı səslərin 2/3-ni tələb edən veto hüququna malikdir.

Qərargahı Vaşinqtondadır.

**AMERİKA DÖVLƏTLƏRİ TƏŞKİLATI.** 30.IV.1948 Boqota konfransında (*Beynəlxalq konfranslar*) yaradılmış təşkilat. ABŞ və Latın Amerikasının 31 ölkəsi daxildir. Şimali və Cənubi Amerika ölkələri arasında əlaqələri möhkəmləndirmək, Qərb Yarım kürəsində sülhü və təhlükəsizliyi təmin etmək, üzv dövlətlər arasındakı mübahisələri nizama salmaq, təcavüzkara qarşı birgə çıxış etmək, siyasi, iqtisadi, sosial, elmi-texniki və mədəni sahələrdə əməkdaşlığı inkişaf etdirmək təşkilatın əsas məqsədləri sırasına daxildir. Təşkilatın ali orqanı üzv ölkələrin xarici işlər nazirlərinin hər il toplandıqları Baş Məclisdir. İcraedici orqan Vaşinqtonda fəaliyyət göstərən Daimi Şuradır. Təxirə salınması mümkün olmayan işlərə baxmaq üçün xarici işlər nazirlərinin məsləhət müşavirəsini çağırır. Mənzil-qərargahı Vaşinqtonda olan Müdafiə Şurası təşkilatın ali hərbi orqanıdır.

**AMERİKA-FİLİPPİN MÜQAVİLƏLƏRİ VƏ SAZİŞLƏRİ.** 1) 1946 il müqaviləsi (*Beynəlxalq müqavilə*); qarşılıqlı müna-

sibətlərin əsaslarına dair, 4.VII Manilada imzalanıb. Filippin hökumətinin ölkə ərazisi üzərində suveren hakimiyyətinin (*Dövlət suverenliyi*) bərqərar olmasını nəzərdə tuturdu, o şərtlə ki, Amerika hərbi bazaları 2 il ərzind ə onların statusu haqqında xüsusi saziş bağlanandan sonra da ABŞ-ın mülkiyyətində qalırdı; habelə Filippinin xaricdə *diplomatik nümayəndəlikləri* yaradılanadək, ABŞ bu ölkəni təmsil etmək barədə öhdəlik götürürdü.

2) 1947 il sazişi; «hərbi bazalar»a dair, 14.III Manilada 99 ilə bağlanıb. Filippin ərazisində hərbi *bazalar* yaratmaqdan ötrü ABŞ-ın sərəncamına 23 sahə verilmişdi. ABŞ Filippinin bütün su və hava hüdudları sahələrindən hərbi məqsədlər üçün istifadə hüququ əldə edirdi. Sazişə görə, ABŞ bazalarının ərazisində yerləşən filippinlilər Amerika hərbi tribunalların yurisdiksiyası altına keçir, Amerika hərbçiləri isə hətta Filippin vətəndaşlarına qarşı işlətdikləri cinayətlərə görə belə (əgər bu cinayətlər «xidməti vəzifəni yerinə yetirərkən» baş veribsə) Filippin tərəfdən məsuliyyətə cəlb edilə bilməzdilər. 16.XI.1966 ildə Filippinin təkidilə sazişin müddəti qısaldılmış və 1991 ildə bitmişdir.

07.I.1979 il razılaşmasına müvafiq olaraq, ABŞ Filippinin Amerika bazaları tərəfindən zəbt olunan əraziyə suveren hüququnu və orada öz bayrağını (*Dövlət bayrağı*) qaldırmaq hüququnu tanıdı, Amerika komandanı ilə yanaşı Filippin komandanının da təyin olunması nəzərdə tutulurdu; bazalar üçün ayrılmış ərazinin həcmi azaldıldı. Bazaların xarici təhlükəsizliyinin təmin edilməsi Filippinə həvalə edildi. Lakin ABŞ əvvəlkitək hərbi bazalardan müdafiə məqsədlərilə" maneəsiz istifadə hüququnu özündə saxladı. Digər məqsədlər üçün istifadə isə Filippin tərəfilə məşvərət qaydasında olmalı idi. Razılaşmaya əsasən, saziş hər 5 ildən bir yenidən nəzərdən keçirilməli idi.

VI.1983 ildə ABŞ və Filippin Manilada sazişə bir sıra düzəlişlər və əlavələr *nəzərdə tutan memorandum* imzaladılar. ABŞ-ın Filippinə onun ərazisindəki hərbi obyektlərdən istifadəyə görə verdiyi kompensasiyanın" 500 mln.-dan 900 mln. dollaradək artırılması nəzərdə tutulurdu. Ödənilməsi 5 ilə nəzərdə tutulan bu məbləğin xeyli hissəsini *filippinlilərin* Amerika hərbi texnikası almaları üçün verilən kreditlər təşkil edirdi.

3) 1951 il müqaviləsi; qarşılıqlı *müdafiə*"yə dair, 30.VIII Vaşinqtonda imzalanıb. ABŞ-ın 1951 ildə Avstraliya və Yeni Zelandiya ilə bağladığı sazişin (*ANZÜS*) mətninin eynidir. Sakit okean rayonunda *müharibə* olduğu halda ABŞ-ın hərbi müdaxiləsini nəzərdə tutur. V.1983 ildə bu müqaviləyə müvafiq olaraq, Filippinin «birgə müdafiə planı» imzalanmışdır.

**AMERİKA - FRANSA MÜQAVİLƏLƏRİ.** 1778 il müqaviləsi (*Beynəlxalq müqavilə*); ittifaqa dair, 6.II Parisdə imzalanıb. M.-yə əsasən, Fransa ABŞ-ın azadlığını, müstəqilliyini və suverenliyini müdafiə etməyi öhdəyə götürür, ABŞ isə *Fransanın Amerikadakı* mülklərinin toxunulmazlığına təminat verirdi. Fransa Britaniyanın Vest-Hinddəki, ABŞ isə Şimali Amerika qitəsində və Bermud adalarındakı mülklərinə iddiaçı olmaq hüququ əldə edirdilər; onlar qarşılıqlı razılıq olmadan İngiltərə ilə barışığa getməmək barədə təəhhüd götürürdülər. M.-də xüsusi şərt kimi göstərilirdi ki, hər iki tərəf İngiltərə ilə o





vaxt sülh bağlayacaqdır ki, bu ölkə ABŞ-ın müstəqilliyini tanımış olsun.

Eyni vaxtda ticarət haqqında müqavilə, habelə İspaniyanın Fransa-Amerika ittifaqına qoşulmasını nəzərdə tutan məxfi *protokol* imzalandı. M.-ni imzalamaq Fransa üçün İngiltərə ilə *müharibəyə* qoşulmaq demək idi. ABŞ öz müttəfiqinin xəbəri və razılığı olmadan İngiltərə ilə sülh bağlamamaq barədə təəhhüd götürməsinə baxmayaraq, İngiltərə ilə separat sülh imzaladı. 1794 ildə İngiltərə-Fransa müqaviləsinin bağlanması və Fransa əleyhinə birinci *koalisiya* dövlətlərinin müharibəsində ABŞ-ın *bitərəflik* siyasəti qəbul etməsilə müqavilə öz qüvvəsini itirdi.

2) 1800 il müqaviləsi; 30.IX Morfontendə imzalanıb; Fransanın ABŞ-ın bitərəfliliyini pozması və bu halın 1798 ildə artıq müharibəyə gətirib çıxarması ilə əlaqədar iki dövlət arasında uzun müddət davam edən münaqişəyə, Fransa donanmasının Amerika gəmilərinə həmlə etmələrinə son qoymuşdur. İngiltərə ilə uğurlu mübarizə aparmaqdan ötrü Fransanın ABŞ-la dostluq münasibətlərinə ehtiyac olduğunu nəzərə alan I Napoleonun (*Napoleon I Bonapart*) hakimiyyətə gəlməsi bu mübahisəli məsələlərin dinc həllini sürətləndirdi. Morfonten müqaviləsinə əsasən, tərəflər ələ keçirilmiş, lakin hələ satılmayan gəmiləri geri qaytarmaq barədə razılaşdılar, ticarəti sıxışdıran qaydaları və gəmilərdə zorla axtarış aparılmasını ləğv etdilər, «hərbi qaçaqmalçılıq» anlayışını məhdudlaşdırdılar, neytral bayraq altında üzən gəmilərdə daşınan yüklərin toxunulmazlığını tanıdılar, bir-birinə öz limanlarında imtiyazlar verməyi vəd etdilər. Müqavilə 21.XII.1801 ildə qüvvəyə mindi. Vurulmuş ziyanın ödənilməsi məsələləri yalnız 1803 ildə, Napoleonun ABŞ-a 3750 min dollar verməyə razı olmasından sonra həll edildi.

**AMERİKA - FRANSA SAZİŞLƏRİ** (*İkinci Dünya Müharibəsindən* sonra). 1) 1946 il maliyyə sazişləri; 28.V Vaşinqtonda imzalanıb; *müharibə* zamanı verilmiş kreditlər üçün borcların son olaraq tənzimlənməsinə dair *memorandum*, ticarət siyasəti məsələlərinə dair Fransa və ABŞ hökumətlərinin birgə *bəyanatları* və s. sənədlər bu sazişlərə daxildir. Tərəflər *lendliz* və qarşılıqlı yardıma dair məsələlərin son *olaraq tənzimlənməsi*, habelə ABŞ-ın Fransada və «dənizarxası ərazilərdə» yerləşən quru və hərbi-dəniz qüvvələrinə Fransanın sahib çıxması barədə tam razılığa gəldilər. Bu məqsədlə Fransaya 720 mln. dollar məbləğdə kredit verildi. Fransa iqtisadiyyatının bərpası və sonrakı *inkişafı məqsədilə* ABŞ-ın İxrac-idxal bankı Fransa üçün 6580 mln. dollarlıq kredit açdı. ABŞ hökuməti Almaniyadan fasiləsiz və kifayət qədər daş kömür gətirilməsində Fransaya köməklik göstərməyə *hazır* olduğunu bildirdi. Tərəflər həmçinin beynəlxalq ticarətin liberallaşdırılmasının ümumi prinsiplərinə və inkişafına dair razılıq əldə etdilər.

2) Qarşılıqlı müdafiə sahəsində köməkliyə dair 1950 il sazişi; 27.I Vaşinqtonda imzalanıb. Tərəflər «Şimali Atlantika zonasının inteqrasiyalı müdafiəsini inkişaf etdirmək məqsədilə və *NATO*-nun müdafiə planına müvafiq olaraq bir-birinə hərbi avadanlıq, material göndərmək, xidmət və başqa hərbi köməklik göstərmək» barədə razılığa gəldilər. Fransa göndərilən silahlardan *razılaşdırılmış yerlərdən və məqsədlərdən* kənar istifadə etməməyi öhdəyə götürür, habelə ABŞ hökumətinə onun ehtiyac duya biləcəyi xammal və yarım-

fabrikatların verilməsində köməklik göstərməyə razı oldu. Hər iki tərəf bir-birinə ötürülən informasiya və xidmətlərin məxfiliyini qorumağı, habelə hazırki sazişə aidiyyəti olan bütün məsələlər üzrə məsləhətləşməyi öhdəyə götürürdülər.

3) 1957 il sazişi; müdafiə sahəsində patentlər və texniki informasiya mübadiləsinə dair, 12.III. Parisdə imzalanıb, 28.V-10.VII.1959 il notaları (*Diplomatik nota*) ilə tamamlanıb və dəqiqləşdirilib.

4) 1959 il sazişi; atom enerjisindən müdafiə məqsədlərilə qarşılıqlı istifadəyə dair, 07.V Vaşinqtonda imzalanıb. Saziş sualtı nüvə qayığı mühərrikinin istismarı məqsədilə ABŞ tərəfindən Fransaya 10 il ərzində zənginləşmiş uran satışını, habelə nüvə yanacağı emalını və sualtı nüvə qayığının tikintisində köməklik göstərilməsini nəzərdə tuturdu.

5) 1960 il sazişi; silah istehsalı proqoramına dair 19.IX Parisdə bağlanıb. ABŞ Fransaya hərbi avadanlıq, material və informasiya göndərməyi öhdəyə alır, həm də qeyd olunurdu ki, bu kömək istər sırf Fransa hökuməti tərəfindən qəbul olunan layihələrin həyata keçirilməsində, istərsə də NATO üzvlərinin hərbi istehsalını əlaqələndirən birgə proqramların icrasında tətbiq oluna bilər. Bunun müqabilində Fransa ABŞ hökumətinə birgə müdafiə məqsədilə mövcud hərbi obyektlərin inkişafı, yaxud yenilərinin tikilməsi üçün torpaq sahələri, binalar, avadanlıq və material verməyi öhdəyə götürürdü.

6) 1961 il sazişi; birgə müdafiə məqsədilə nüvə silahından istifadə sahəsində əməkdaşlığa dair, 27.VII Parisdə imzalanıb, 9.X.1965 ildə qüvvəyə minib. Tərəflər informasiya mübadiləsi aparmaq, habelə bir-birinə atom silahı sisteminin qeyri-nüvə hissələrini göndərmək (müdafiənin planlaşdırılmasına və şəxsi heyətin atom silahından istifadə metodu ilə təlim keçməsi və atom bombasından müdafiəyə dair məxfi informasiya mübadiləsi də daxil olmaqla) barədə razılığa gəlmişlər. Sazişə müvafiq olaraq, Fransaya nüvə silahı vermək, qeyri-nüvə hissələri və xüsusi nüvə materialları da daxil olmaqla, qadağan edilirdi.

**AMERİKA-İNGİLTƏRƏ MÜQAVİLƏSİ.** (1794). Dostluq, ticarət və dənizçiliyə dair; ABŞ-ın xüsusi müvəkkili C.Cey ilə Britaniya *xarici* işlər *naziri* lord Qrenvil arasında 19.XI. Londonda imzalanıb. Müqavilə (*Beynəlxalq müqavilə*) 1783 il Versal sülh müqaviləsinin bir sıra maddələrini tərəflərin yerinə yetirməməsi ilə bağlı İngiltərə ilə ABŞ arasında yaranmış köhnə mübahisələri, habelə İngiltərə-Fransa müharibəsinin doğurduğu münaqişələri tənzimləməli idi. Müqavilə ABŞ üçün heç də tam bərabər hüquqlu deyildi. ABŞ və Böyük Britaniya limanları arasında daşımaları həyata keçirən hər iki tərəfin gəmiləri üçün eyni rejim müəyyən edilsə də, Vest-Hind ilə ticarət edən Amerika gəmilərinin tonnajı məhdudlaşdırılırdı. Bu gəmilərin Vest-Hinddən ancaq ABŞ-a yük daşımaq hüququ vardı, oradan pambıq, şəkər, qəhvə, kakao daşımaq qadağan edilirdi. Amerika gəmilərinin şəxsi heyətlərinin ingilislər tərəfindən zəbt olunması məsələsi açıq qalırdı. Amerika-Kanada sərhədində xəz dəri ticarətinə icazə verilir və hər iki tərəfin gəmilərinin Missisipi çayında üzmək hüququ təsdiq edilirdi. İngiltərə 1783 il Versal sülh müqaviləsi ilə ABŞ-a keçən ərazilərdə sərhədyanı istehkamları 01.VI.1796 ilə qədər boşaltmağı öhdəyə götürürdü.





Müqavilə ABŞ-ın Kanada ilə sərhədlərini dəqiqləşdirmək üzrə qarışıq Amerika-İngiltərə komissiyalarının yaradılmasını nəzərdə tuturdu. Komissiyalar ABŞ vətəndaşlarının ingilislərə borclarının məbləğini, ingilis taxt-tacı tərəfdarlarının əmlaklarının istiqlaliyyət uğrunda mübarizə zamanı Birləşmiş Ştatlar tərəfindən müsadirə olunması nəticəsində dəyən zərərin həcmini, həmçinin ingilis hərb gəmilərinin hərəkətlərilə amerikalılara vurulan ziyanı müəyyənləşdirməli idi.

Müqaviləni ABŞ senatı 24.VI.1795 ildə ratifikasiya etmişdir.

Vest-Hind ilə ticarətə dair mübahisəli məsələ ABŞ-ın xeyrinə son olaraq 1830 ildə, Amerika-Kanada sərhədinin dəqiqləşdirilməsi isə yalnız 1842 ildə tənzimləndi (*Vebster-Aşberton müqaviləsi*).

**AMERİKA-İNGİLTƏRƏ SAZİŞLƏRİ.** (*İkinci Dünya müharibəsindən* sonra). 1950 ildən yüksək səviyyədə aparılan danışıqların gedişində əldə edilən və ingilis-amerikan «xüsusi münasibətlərinin» mühüm aspektini təşkil edən sənədlər; onların əksər hallarda şifahi razılaşma xarakteri daşımasına və ikitərəfli rəsmi sənədlər kimi tərtib olunmasına baxmayaraq, qərb ölkələrinin xarici siyasətlərinin formalaşmasına güclü təsir göstərmişdir.

Belə ki, Böyük Britaniyanın baş naziri K.Ettli və ABŞ prezidenti H.Trumen arasında 4-8.XII.1950 il görüşü zamanı *NATO* ölkələrinin yenidən silahlanması, Avropada NATO silahlı qüvvələrinin Baş Komandanı vəzifəsinin təsis edilməsi, strateji xammal ehtiyatlarının yaradılması, Koreyada *müharibəni* davam etdirmək üçün konkret tədbirlərin hazırlanması barədə razılıq əldə edildi, «strateji materialların» qərb ölkələrindən sosialist ölkələrinə ixracına maneə yaradılması qərara alındı.

ABŞ-İngiltərə münasibətlərində 1957 il Bermud müşavirəsi mühüm yer tutur. Böyük Britaniyanın baş naziri Q.Makmillan və ABŞ *prezidenti* D.Eyzenhauerin 23-25.X.1957 ildə apardıqları danışıqlar nticəsində qəbul olunan ümumi məqsədlərə dair bəyannamədə «qarşılıqlı asılılıq» doktransı qəbul edilib, Qərbin hərbi hazırlıq proqramının sürətləndirilməsi ideyası irəli sürülüb. Bu proqramda qərb ölkələri arasında, ələlxüsus Amerika ilə İngiltərə arasında müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi, bütün beynəlxalq məsələlərdə onların siyasətlərinin əlaqələndirilməsi, qarşılıqlı münasibətlərdə ümumi mövqedən çıxış edilməsi, silahlanmanın, xüsusən də nüvə və raket silahları istehsalının artırılması nəzərdə tutulurdu. Danışıqlarda həmçinin Avropada Amerika nüvə silahlarının yerləşdirilməsi, orta mənzilli raketlərin NATO komandanlığının ixtiyarına verilməsi planlaşdırıldı. NATO-nun belə yenidən qurulması bu blok içərisində bir növ Amerika-İngiltərə direktoriyasının yaradılmasını nəzərdə tuturdu ki, bu da Fransa, AFR və digər blok iştirakçılarının ciddi narazılığına gətirib çıxardı. Eyzenhauer Makmillana vəd edirdi ki, Amerikanın nüvə silahlarına aid gizli məlumatlarla İngiltərənin tanış olmasından ötrü Amerika qanunvericiliyində dəyişikliklər edilməsinə səy göstərəcəkdir (1958 ilin avqustunda Amerika *Konqresi* bu barədə müvafiq qanun qəbul etdi).

Eyzenhauerlə Makmillan arasında 19-24.III 1959 ildə aparılan danışıqlar nəticəsində ABŞ, Böyük Britaniya və Fransa dövlətlərinin Sovet hökumətinə veriləcək 26.III.1959 il nota-

sının mətni razılaşdırıldı. Notada birgə müşavirə keçirmək barədə təklifilə razılaşdıqlarını bildirdilər.

28-29.III.1960 ildə Amerika prezidentinin Böyük Britaniyanın baş naziri ilə görüşündə Eyzenhauer İngiltərəyə «Skaybolt» raketlərinin satılmasına razılıq verdi. Bu razılaşma ilə bağlı 1960 ilin iyununda saziş imzalandı. Öz növbəsində Makmillan Amerikanın «Polaris» raketləri ilə silahlanan atom sualtı qayıqlarının Şotlandiyanın Xolilox hərbi-dəniz bazasından istifadə etməsinə razılıq verdi.

21-22.XII.1961 ildə aparılan danışıqlar zamanı ABŞ prezidenti C.Kennedi Makmillana məlumat verdi ki, ABŞ atmosferdə atom bombasının sınağına yenidən başlamaq fikrindədir və bu məqsədlə o vaxtlar Britaniyanın Sakit okeandakı müstəmləkəsi olan Rojdestvo adasından (1979 ildən bu ada Kiribati dövlətinin tərkibindədir) istifadə etmək üçün Makmillanın prinsipial razılığını aldı.

Nüvə sahəsində ABŞ, İngiltərə və başqa dövlətlər arasında perspektivdə əməkdaşlıq 1962 il Nassau müşavirəsində, habelə Kennedi ilə Makmillan arasında 29-30.VI.1963 il və L.Consonla H.Vilson arasında 7-8.XIII.1964 il danışıqlarında da əsas yer tutmuşdur.

Amerika prezidenti R.Niksonla Böyük Britaniyanın baş naziri E.Hit arasında 17-18.XII.1970 il danışıqları zamanı ABŞ Britaniya dövlətinin silahlı qüvvələrinin bir hissəsinin 1971 il müdafiə haqqında beştərəfli müqavilə (*Beynəlxalq müqavilə*) əsasında Malayziya və Sinqapurda saxlanmasını dəstəklədi. E.Hit Amerika tərəfinə Süveyş kanalından şərqə, o cümlədən İran körfəzinə aid bəzi öhdəliklərin dəyişdiriləcəyi barədə məlumat verərək Afrika və Hind okeanı hövzəsinin strateji əhəmiyyətini xüsusi olaraq qeyd etdi. Dieqo-Qarsia adasında ingilis-amerikan hərbi-dəniz bazasının və rabitə mərkəzinin tikiləcəyi barədə məlumat verildi. Nikson öz növbəsində Hitə söz verdi ki, ABŞ Avropada yerləşdirdiyi hərbi qüvvələrini ixtisar etməyəcək və orada özünün mövcud hərbi gücünü saxlayacaqdır.

14-18.XII.1979 ildə ABŞ prezidenti C.Karterlə Böyük Britaniyanın baş naziri M.Tetçerin görüşü zamanı M.Tetçer bildirdi ki, İngiltərə NATO-nun orta mənzilli «Perşinq-2» və qanadlı Amerika raketlərinin qərbi Avropada, o cümlədən Böyük Britaniya ərazisində yerləşdirilməsi haqqında razılaşmanı bir daha təsdiq edir.

Böyük Britaniyaya onun atom sualtı qayıqları üçün yeni «Traydent-1» raketləri göndərmək barədə razılaşma əldə edildi və sonralar (10.XII.1980) bu razılaşma məktublar mübadiləsilə təsbit edildi.

**AMERİKA-İRAN ARBİTRAJ MÜQAVİLƏSİ.** 1914 ildə İranın xarici işlər naziri Mirzə Həsən Xan Vüsuqəddövlə və Amerikanın İrandakı *səfiri* Çarlz Velz Rasel tərəfindən Tehranda imzalanıb.

Müqaviləni (*Beynəlxalq müqavilə*) imzalayan tərəflər razılığa gəliblər ki, öz aralarında baş verən bütün ixtilafları diplomatik yolla həll edə bilmədikdə, hazırkı sənədlə təşkil olunması nəzərdə tutulan beynəlxalq komissiyaya müraciət etsinlər və komissiyanın müvafiq məsələ ilə məşğul olduğu müddətdə *müharibəyə* əl atmasınlar, düşmənçilik yolu tutmasınlar.

Komissiya 5 nəfərdən təşkil olunurdu. Buraya razılaşan tərəflərin hər birindən 1 nəfər üzv, onların hərəsinin ayrı-ayrılıqda 3-cü dövlətdən təyin etdikləri 1 üzv və iki dövlətin müştərək razılığı ilə seçilən 1 üzv daxil edilirdi.





**AMERİKA-İRAN MÜQAVİLƏLƏRİ VƏ SAZİŞLƏRİ.** 1) 1856 il müqaviləsi (*Beynəlxalq müqavilə*); dostluq və ticarətə dair, Herat üstündə baş vermiş İngiltərə-İran *müharibəsi* zamanı 13.XII İstanbulda imzalanıb. ABŞ-la İran arasında normal *diplomatik münasibətlərin* başlanğıcını qoydu.

2) 1943 il ticarət müqaviləsi; 8.IV Vaşinqtonda imzalanıb. Müqavilədə gömrük rüsumlarının və vergilərin tutulmasına münasibətdə ən əlverişli şərait yaradılmasının qeyd-şərtsiz prinsipi nəzərdə tutulur.

3) 1947 il sazişi; İranda Amerika hərbi missiyasına dair, 6.X. Tehranda imzalanıb. Sazişə görə, Baş qərargahın və hərbi nazirliyin bütün departamentlərinin işinin əsasları ilə tanış olmaqdan ötrü ABŞ İrana hərbi missiya göndərmək hüququ əldə edirdi. Üstəlik hərbi missiyanın başçısı və üzvləri İran ordusunun istənilən müəssisəsində ola və orada təftiş apara bilərdilər.

4) 1950 il sazişi; müdafiə məqsədilə qarşılıqlı yardıma dair; 23.V., Vaşinqtonda imzalanıb. ABŞ hökuməti İrana hərbi sursat və ləvazimatla maddi yardım göstərməyi, İran hökuməti isə sazişdə nəzərdə tutulan tədbirləri həyata keçirmək üçün ABŞ-dan gələn texniki heyəti qəbul etməyi öhdəyə götürürdülər.

5) 1955 il müqaviləsi; dostluq, iqtisadi münasibətlər və konsulluq hüquqlarına dair; 15.VII Tehranda imzalanıb. Konsulluq nümayəndələrilə mübadiləni, sərbəst ticarəti və gəmiçiliyi nəzərdə tuturdu.

6) 1959 il sazişi (Ankara hərbi razılaşması); 15.III Ankarada imzalanıb İrana qarşı təcavüz baş verdiyi halda ABŞ-ın köməyə gələcəyini və «bütün zəruri addımları atacağını, hətta silahlı qüvvələrdən belə istifadə edəcəyini» nəzərdə tuturdu. Saziş ABŞ-ın İrana hərbi və iqtisadi kömək göstərməyə və birgə hərbi-strateji tədbirlər həyata keçirməyə hazır olduğunu təsdiq edirdi. Eyni məzmunlu sazişlər Türkiyə və Pakistanla da imzalanıb.

7) 1961 il sazişi; ABŞ və İran hökumətləri arasında iqtisadi və texniki əməkdaşlığa dair ümumi razılaşma; 21.XII Tehranda imzalanıb. Sazişin həyata keçirilməsi üzrə Amerika missiyasına (*Diplomatik missiya*) diplomatik toxunulmazlıq (*Diplomatik imtiyazlar və toxunulmazlıq hüquqları*) hüququ verilməsini və İrana gətirilən ABŞ mallarının gömrük rüsumu və vergilərdən azad edilməsini nəzərdə tuturdu. Saziş ABŞ-ın İranda mövqeyinin möhkəmlənməsinə geniş imkan yaradırdı.

1978-1979 illər inqilabı nəticəsində İranda şahlıq üsuli-idarəsinin devrilməsi ilə ABŞ-ın İrandakı mövqeyinə güclü zərbə vuruldu. İran İslam Respublikası hökuməti əvvəllər ABŞ-la *imzalanmış* bir çox müqavilə və sazişlərin, o cümlədən 15.III.1959 ildə Ankara hərbi sazişinin ləğv olunduğunu elan etdi.

**AMERİKA-İSPANİYA SAZİŞLƏRİ VƏ MÜQAVİLƏSİ.** 1) 1953 il sazişləri; «iqtisadi yardım», «qarşılıqlı müdafiə məqsədləri ilə yardım» barədə, 26.IX. Madriddə imzalanıb.

«Müdafiəyə dair» sazişə əsasən, ABŞ İspaniya ərazisində 3 hərbi-hava, 1 hərbi dəniz bazası tikib istifadə etmək hüququ əldə etdi. *Müharibə* olduğu halda və dinc şəraitdə ABŞ «nəzarəti» altında olan bu bazalar İspaniya hökumətinin razılığı ilə rəsmi olaraq Amerika komandanlığına verilə bilərdi.

ABŞ İspaniya ordusunu müasir silahlarla təchiz etməyi də öhdəyə götürürdü.

S. 26.IX.1963 ildə 5 il müddətinə uzadılıb. Eyni zamanda müdafiə məsələləri üzrə daimi məşvərət komitəsinin yaradılması barədə qərar qəbul edilmişdi. İspaniya hökuməti 1966 ildə nüvə silahı daşıyan Amerika təyyarələrinin İspaniyanın hava məkanından istifadə etməsinə qadağa qoydu.

«İqtisadi yardım» sazişi İspaniyada Franko rejiminə iqtisadi yardım göstərilməsinin şərtlərini müəyyənləşdirirdi.

2) 1970 il sazişi; bazalara dair, 6.VIII Vaşinqtonda imzalanıb. İspaniya ABŞ-ın bazalardan istifadə etməkdə sərbəstliyini nisbətən məhdudlaşdırdı və onların icarə haqqını artırmağa nail oldu. Məşvərət Komitəsini Müdafiə Məsələləri üzrə Birgə Əlaqələndirmə Komitəsinə çevirmək barədə qərar qəbul edildi. ABŞ İspaniyaya Amerika hərbi texnikasını almaq üçün 120 mln. dollar məbləğdə kredit verməyi öhdəyə götürdü.

3) 1976 il müqaviləsi *(Beynəlxalq müqavilə)*; dostluğa dair, 24.I Madriddə 5 il müddətinə imzalanıb. M.-yə əsasən, ABŞ hərbi bazalardan istifadə hüququnu özündə saxlayır, əvəzində İspaniyaya 5 il ərzində 1250 mln. dollar məbləğində hərbi-iqtisadi yardım göstərməyi öhdəyə götürürdü. Bundan əlavə, ABŞ 1.VII.1979 ilədək Rotdakı hərbi-dəniz bazasından nüvə silahı yüklənən sualtı qayıqları çıxarmağı da öhdəyə götürürdü. İspaniyanın rəsmi məlumatlarına görə, ABŞ bu öhdəliyə əməl edib.

X.1976 ildə M.-nin şərtlərinə uyğun olaraq, İspaniya-Amerika Şurası təşkil edildi. Şuranın tərkibində Birləşmiş Hərbi Komitə və Hərbi siyasi və hərbi-inzibati problemlər üzrə komitə, II.1977 ildə isə ABŞ və İspaniyanın *NATO* ilə Qərbin «müdafiəsi» üzrə birgə səylərini əlaqələndirən Xüsusi Komissiya yaradıldı.

4) 1982 il sazişi; dostluq, müdafiə və əməkdaşlığa dair, 2.VII Madriddə imzalanıb. 14.V.1983 ildə qüvvəyə minib, 5 il müddətinə bağlanıb. Saziş ABŞ hərbi qüvvələrinin İspaniya ərazisindəki 3 HHQ və 1 HDQ bazalarından İspaniyanın Şimali Atlantika Müqaviləsi Təşkilatının üzvü olarkən müəyyənləşdirilən şərtlərlə istifadə etmək hüququnu təsdiq etdi. Əvəzində ABŞ İspaniyaya 2 mlrd. dollar məbləğdə hərbi-iqtisadi yardım göstərməyi öhdəyə götürdü. Sazişə əlavə olunan 24.II.1983 il protokoluna əsasən, İspaniyanın NATO-ya üzvülüyünə Şimali Atlantika Blokunun siyasi təşkilatına mənsubluğu kimi baxılmalı, İspaniyanın NATO ilə münasibətlərində baş verə biləcək hər hansı dəyişiklik isə sazişə bütövlükdə yenidən baxılması ilə nəticələnməli idi.

**AMERİKA - İSRAİL SAZİŞLƏRİ.** 1)1975 il sazişi; ABŞ senatının xarici işlər üzrə komissiyasının qərarına əsasən, IX.1975 ildə imzalanıb və «ABŞ-İsrail və ABŞ-Misir arasında qarşılıqlı anlaşma *Memorandumu*» adı ilə tanınan bəzi sazişlərə açıqlama verirdi. Bu sənədlər aşağıdakıları ehtiva edirdi:

a) ABŞ – İsrail sazişi; sənəddə ABŞ Sinay yarımadasının bir sıra rayonlarından İsrail ordularının geri çəkilməsinə dair 1975 ildə bağlanan İsrail-Misir sazişini dəstəklədiyini bildirir, İsrailin tam və uzun müddətə müasir hərbi texnikaya olan tələbatını ödəyəcəyini və ona iqtisadi, xüsusilə də energetika sahəsində yardım göstərəcəyi barədə öhdəlik götürürdü. Saziş qoşunların aralanması barədə razılaşmanın Misir tərəfindən pozulduğu təqdirdə tərəflərin məsləhətləşmələr keçirməsini nəzərdə tutur və sazişin yerinə yetirilməsinə mənfi təsir göstərə biləcək *BMT Təhlükəsizlik Şurasının* istənilən qərarına ABŞ-ın *veto* qoymaq öhdəliyini təsdiqləyirdi;

b) Hərbi iqtisadi yardıma dair qoşma sənəd; ABŞ hökumətinin İsrailə yardım göstərməkdə qərarlı olduğunu və bu niyyətin təsdiq olunması üçün hər il ABŞ *Konqresinə* təkliflər vermək barədə vədini əks etdirir;

v) Cenevrə sülh konfransına aid təminatlar; Yaxın Şərqə dair yeni sülh konfransının *(Beynəlxalq konfranslar)* çağırılması vaxtının ABŞ ilə İsrail arasında razılaşdırılacağı bildirilirdi. ABŞ öhdəyə götürürdü ki, Fələstin Azadlıq Təşkilatını tanımamaq və onun konfransda iştirakına yol verməmək siyasətini davam etdirəcək və konfransda mühüm məsələlərə dair danışıqların ikitərəfli əsasda, yəni İsrail ilə ayrı-ayrı qonşu ölkələr arasında aparılması üçün bütün imkanlardan istifadə etməyə çalışacaqdır;

c) ABŞ-ın Misir qarşısında öhdəlikləri; ABŞ Suriya ilə İsrail arasında danışıqların təşkilinə kömək etməyə hazır olduğunu bildirir, qoşunları ayırmağa dair İsrail-Misir sazişinin İsrail tərəfindən pozulduğu təqdirdə ona qarşı tədbirlər görməyi, habelə erkən xəbərdarlıq sisteminin yaradılmasında Misirə texniki yardım göstərməyi öhdəyə götürürdü.

2) İsrailin təhlükəsizliyinə dair 1979 il memorandumu; 1979 il Misir-İsrail «sülh» müqaviləsinin bağlanması ilə əlaqədar 26.III. Vaşinqtonda imzalanıb. ABŞ bir daha təsdiq edirdi ki, «sülh» müqaviləsinə riayət olunması üzrə lazımi tədbirlər görəcək və razılaşma pozulduqda, yaxud pozulmasına təhlükə yarandıqda diplomatik, iqtisadi və hərbi tədbirlərə əl atacaqdır.

3) 1981 il sazişi; 30.XI. Vaşinqtonda ABŞ və İsrail arasında hərbi əməkdaşlığın çərçivəsini xeyli dərəcədə genişləndirən «Qarşılıqlı anlaşma Memorandumu» imzalanıb. Bu S.-lə yaradılması nəzərdə tutulan Əlaqələndirmə Şurasına və İşçi qruplarına birgə hərbi manevrlər hazırlayıb həyata keçirmək (xüsusən Şərqi Aralıq dənizində), «döyüş hazırlığını təmin etmək üzrə birgə tədbirlər» işləyib hazırlamaq, habelə İsrail ərazisində ağır Amerika silahı yerləşdirmək tapşırıldı. Bu isə əslində İsrail hərbi bazalarının ABŞ-ın «çevik əməliyyat qüvvələrinin» istifadəsinə verilməsi demək idi.

**AMERİKA-İTALİYA MÜQAVİLƏSİ VƏ SAZİŞLƏRİ.** 1) 1947 il sazişi; yardım göstərilməsinə dair, 4.VII Romada imzalanıb. ABŞ hökuməti İtaliyaya ərzaq, dərman preparatları, parça, toxum, gübrə, yanacaq göndərilməsini maliyyələşdirməyi öhdəyə götürürdü. ABŞ, yardımı dərhal dayandırmaq hüququnu özündə saxlayırdı. S.-in yerinə yetirilməsinə nəzarət üçün Romada Amerika İqtisadi Missiyası təsis edilirdi. ABŞ bu S.-dən İtaliyaya iqtisadi və siyasi təzyiq vasitəsi kimi istifadə etdi və onu yalnız italyan kommunistləri hökumətin tərkibindən çıxarıldıqdan sonra imzaladı.

2) 1947 il sazişi; qarşılıqlı hesablaşmalara dair, 14.VIII Vaşinqtonda imzalanıb. ABŞ ilə İtaliya arasında *İkinci Dünya müharibəsi* nəticəsində yaranan əmlak və maliyyə ixtilaflarına dair qarşılıqlı iddiaları nizama salırdı. ABŞ tərəfindən İtaliya aktivlərinin sərbəst elan edilir, zəbt edilmiş italyan mülkiyyəti sərbəst buraxılır, sekvestrlər ləğv edilir, İtalyan mülklərinə dəyən

zərər ödənilir, *müharibə* zamanı saxlanılan İtaliya ticarət gəmiləri qaytarılır, ABŞ-da İtaliya *hərbi əsirlərinin* əmək haqları ödənilirdi. İtaliya hərbi ziyanların ödənilməsi, ərazisində *qaçqınlar* və köçkünlər *(Köçürülmüş şəxslər)* üçün düşərgələrin yerləşdirilməsi ilə bağlı xərclərin verilməsi tələblərindən əl çəkdi, Amerikaya məxsus mülkiyyət geri qaytarıldı.

ABŞ İtaliyaya özünə sərfəli olan bir sıra şərtlər qəbul etdirməyə müvəffəq oldu. Belə ki, İtaliya mülkiyyətindən istifadə olunmasından əldə etdiyi pul vəsaitini İtaliyaya qaytarmaqdan vaz keçdi, İtaliyanın faşist partiyasına və müharibə canilərinə *(Hərbi canilər)* məxsus əmlakın qaytarılması barədə İtaliyanın tələbini rədd etdi. Bundan başqa İtaliya ABŞ-ın tələbinə görə, Amerika vətəndaşlarının iddialarını ödəmək üçün 5 mln. dollar verməyi öhdəyə götürdü. İtaliya əvvəlki faşist hökumətinin müharibəyə qədərki bütün iqtisadi, maliyyə təəhhüdlərinin qüvvədə qalması ilə razılaşdı.

3) 1948 il sazişi; İtaliyaya fövqəladə yardıma dair, 03.1. Romada imzalanıb. İtaliyaya bəzi məhsulların göndərilməsini və yalnız ABŞ-dan məhsul almaqdan ötrü istifadə şərtilə kiçik məbləğdə kreditlərin verilməsini nəzərdə tutudu. İtaliyada alınan yardımdan istifadə olunması üzrə xüsusi təsisat yaradıldı. ABŞ həm də yardımı dərhal dayandırmaq hüququnu özündə saxlayırdı.

ABŞ S.-dən İtaliyaya iqtisadi və siyasi təsir göstərməkdə, onun daxili işlərinə qarışmaqda, parlamentə seçkilər zamanı sağ partiyalara maliyyə yardımı göstərməkdə istifadə etdi. Bundan başqa saziş İtaliyanın *Marşall planına* cəlb olunmasına şərait yaratdı.

4) 1948 il müqaviləsi *(Beynəlxalq müqavilə)*; ticarət və dənizçiliyə dair, 02.11 Romada imzalanıb; qeyri-müəyyən müddətə bağlanıb və hər iki tərəf üçün ən əlverişli şərtlər nəzərdə tutur. Bu da Amerika inhisar dairələri üçün iqtisadi cəhətdən zəifləmiş İtaliyada əlavə imkanlar açır, Amerika və İtaliya vətəndaşlarına başqa ölkəyə sərbəst gedib-gəlmək, orada yaşamaq və hərəkət etmək hüququ verirdi. M.-də tərəflərə geoloji axtarış aparmaq, mineral ehtiyatlardan istifadə etmək və «sərbəst informasiya mübadiləsi» aparmaq hüququ verilirdi. M.-yə görə, bir tərəfin gəmiləri digər tərəfin *ərazi sularında* həmin ölkənin gəmiləri ilə eyni hüququ malik olurdu. Tərəflərdən hər biri yalnız digər tərəfin razılığı olduqda üçüncü tərəflə gömrük ittifaqına girə bilərdi.

5) 1948 il sazişi; iqtisadi əməkdaşlığa dair, 28.VI bağlanıb (bax. *Marşall planı).*

6) 1950 il sazişi; müdafiə məqsədi ilə qarşılıqlı yardıma dair, 27.1. Vaşinqtonda qeyri-müəyyən müddətə imzalanıb. İtaliyaya ABŞ hərbi yardımından *NATO* planlarına müvafiq olaraq istifadə olunmasını nəzərdə tuturdu; İtaliya xammal və hərbi materiallar istehsalında və onların ABŞ-a verilməsində yardımçı olmağı öhdəyə götürürdü. S.-in icrası ilə bağlı ABŞ-ın İtaliyada çəkəcəyi inzibati xərcləri İtaliya hökuməti ödəməli idi. İtaliya tərəfi hərbi təchizatla əlaqədar informasiyalar yaymamağı öhdəyə götürür, hərbi yardımdan istifadəyə nəzarət etmək üçün Amerika mütəxəssislərini qəbul etməyə razılıq verirdi. İtaliyanın bir sıra hərbi-dəniz bazaları və təyyarə meydanları (Neapol, Livorno və Focda) ABŞ komandanlığının sərəncamına verilirdi.





7) 1952 il sazişi; qarşılıqlı tühlükəsizliyə dair, 07.1 Romada bağlanıb; İtaliyanı NATO planlarının həyata keçirilməsinə getdikcə daha çox cəlb olunmasına xidmət edir. S.-şə görə, İtaliya hərbi məsələlərə başlıca diqqət yetirməyi, bu məqsədlə ölkənin təbii sərvətlərindən, işçi qüvvəsindən və iqtisdi imkanlarından istifadə etməyi öhdəyə götürürdü.

S.-ə görə, İtaliya ABŞ-ın göndərdiyi hərbi və iqtisadi kömәkdən səmərəli istifadə olunması üçün bütün zəruri tədbirlər görməli idi. İtaliya hökuməti tərəfindən alınan, lakin istifadə olunmayan materiallar və silah ABŞ-a qaytarılmalı idi. İtaliya hökuməti ABŞ ilə əvvəllər bağladığı sazişlərin bütün hərbi maddələrini yerinə yetirmək barədə götürmüş olduğu öhdəliklərə, habelə Şimali Atlantika müqaviləsindən irəli gələn təəhhüdlərə əməl etməyə borclu olduğunu təsdiq edirdi.

8) 1959 il sazişi; raket bazalarına dair, 29.III. Romada, NATO Şurasının Paris (1957) sessiyasının qərarı ilə əlaqədar bağlanıb. ABŞ-dan gətiriləcək orta radiuslu raketləri İtaliya ərazisində yerləşdirmək üçün bazalar yaradılmasını nəzərdə tutur. Bazaların şəxsi heyəti ilkin olaraq amerikalı təlimatçıların rəhbərliyi altında italyan hərbçilərdən təşkil olunmalı idi. Raketlərin nüvə başlıqları İtaliya ərazisində yerləşdirilən ABŞ silahlı qüvvələrinin ixtiyarında qalırdı.

**AMERİKA-KANADA HƏRBİ SAZİŞLƏRİ.** ABŞ və Kanadanın 12.II.1947 ildə yaydıqları Birgə *Bəyanatda* Kanada ərazisində hərbi, hərbi-dəniz və hərbi-hava bazaları və digər hərbi tikililər salınmasını, silahların standartlaşdırılması və unifikasiyası hərbi sazişlər üçün hüquqi əsas oldu. 28-30.IV.1952 ildə bağlanan sazişə əsasən, ABŞ təyyarələri Kanada ərazisində yerləşən bütün hərbi baza və aerodromlardan maneəsiz istifadə edə bilərdilər. V.1959 ildə bağlanan əməkdaşlıq və atom enerjisindən hərbi məqsədlər üçün istifadəyə dair saziş ABŞ-a Kanada ərazisində nüvə silahları yerləşdirmək hüququ verdi.

1951-1959 illərdə silsilə sazişlər (01.VIII.1951, 05.V, 13 və 15.VI.1955, 13.IV və 13.VII.1959) bağlandı və 60-70 illərdə dəfələrlə dəqiqləşdirildi. Onlara əsasən, ABŞ Kanada ərazisində erkən xəbərdarlıq üçün radar sistemləri yaratmaq hüququ əldə etdi. 12.V.1958 ildə Şimali Amerika Birləşmiş Aviasiya Komandanlığının (NORAD) təsis olunmasına dair saziş bağlandı. Saziş nüvə silahı daşıyan Amerika bombardmançı təyyarələrinin Kanada ərazisi üzərində maneəsiz uçmasına icazə verirdi. ABŞ-ın 02.X.1981 ildə elan edilən «Strateji modernləşdirmə proqramı» NORAD sistemi çərçivəsində ən azı 6 əlavə AVAKS təyyarələrinin geniş tətbiqini, habelə 5 qırıcı-tutucu eskadrilyanın «F-15» təyyarələri ilə təchiz olunmasını nəzərdə tuturdu.

II.1983 ildə 5 il müddətinə və sonradan onun həmin müddətə uzadılması imkanını nəzərdə tutan saziş bağlandı. S. ABŞ hərbi komandanlığına Kanadanın ərazisində, onun hava məkanından müxtəlif silah növlərinin, o cümlədən qanadlı raketlərin sınaqdan keçirilməsi üçün istifadə etmək imkanı verdi.

50-60 illərdə də bir sıra sazişlər (27.III.1951, 08.XI.1960, 15.XI.1963, 08.VII.1967) bağlanmışdır. Bu sənədlər «mülki müdafiə» planlarını əlaqələndirməyi və müvafiq informasiya mübadiləsi aparmağı nəzərdə tutur.

Sazişlər ABŞ və Kanadanın hərbi-strateji *planlarının sıx* əlaqələndirilməsini təmin edir.

**AMERİKA-KOLUMBİYA MÜQAVİLƏLƏRİ.** 1) 1846 il müqaviləsi *(Beynəlxalq müqavilə)*; sülh, dostluq, naviqasiya və ticarət əlaqələrinə dair, 12.XII. Kolumbiyanın (o *zaman* Yeni Qrenada adlandırdı) paytaxtı Boqotada imzalanıb. M.-ə əsasən, ABŞ Panama *bərzəxindən salınması lahiyələşdirilən* tranzit yoldan (dəmiryolu və ya kanal olacağından asılı olmayaraq) Yeni Qrenada ilə bərabər qaydada istifadə etmək hüququ əldə edirdi. ABŞ bu yolun onun üçün həmişə açıq olacağı əvəzində Yeni Qrenadanın bərzəx üzərində suveren hüquqlarını *(Suverenlik)* təmin edəcəyini öhdəyə götürürdü.

ABŞ müqavilə bağlamaqda *təsir* və *bununla da* İngiltərə və Fransanı qabaqlamağa çalışırdı, çünki həmin dövrdə bu iki ölkə Nikaraqua ilə *onun ərazisindən keçəcək* okeanlararası kanal çəkmək barədə danışıqlar aparırdı.

Kanal çəkilməsi üstündə ABŞ ilə İngiltərə *arasında gedən* diplomatik mücadilə iki tərəfin 1850 il kompromis müqavilə bağlaması ilə nəticələndi.

2) 1914 il *müqaviləsi*; 06.IV Boqotoda imzalanıb. Kolumbiyanın daxili işlərinə ABŞ-ın qarışması («Panama inqilabı» deyilən üsyanı təxribat yolu ilə təşkil etməsi) və faktiki olaraq 1903 il Panama kanalı zonasını işğal etməsi nəticəsində iki ölkə arasında yaranan *münaqişəni nizama saldı.*

1906 ildə ABŞ Kolumbiya hökumətinə ABŞ, Kolumbiya və Panama *arasında protokol* imzalamağı təklif etdi. Protokola görə, Kolumbiya Pananı müstəqil dövlət kimi tanıyırsa, ABŞ kanal zonasının əvəzi kimi Panamaya ödəyəcəyi pul kompensasiyasının bir hissəsini Kolumbiyaya verəcək, üstəlik Kolumbiya kanaldan ticarət və ya öz qoşunlarının yerləşdirməsini həyata keçirmək məqsədilə istifadə edərkən *gömrük rüsumu* ödəməyəcəkdi. Protokol 17.VII.1907 ildə imzalanıb. Protokol ABŞ Senatı tərəfindən təsdiq edilsə də, *Kolumbiya Konqresi* onu rədd etmişdi.

ABŞ 1913 ildə Kolumbiyaya yeni *variantda* saziş bağlamağı təklif etdi. Bu varianta görə, Kolumbiya 10 mln. dollar məbləğdə pul almalı və Panamanın müstəqilliyini və sərhədlərini tanımalı idi. Kolumbiya həmçinin San-Andres limanında və «Qarabasma» zonasındakı bazaları ABŞ-a verməli və öz *ərazisində, Artita* çayı rayonunda ABŞ-a daha bir okeanlararası kanal çəkmək hüququ verməli idi. Kolumbiya bu «variantı» rədd etdi.

M.-ə görə, Kolumbiya Panamanın müstəqilliyini tanıyır və buna əvəz olaraq öz qoşunlarını, hərbi sursat və döyüş gəmilərini gömrük rüsumu ödəmədən kanaldan keçirmək hüququ əldə edirdi. Kanal zonasında kolumbiyalılar ABŞ vətəndaşları ilə bərabər hüquqlara malik olurdular; kanal vasitəsi ilə daşınan Kolumbiya mallarına ABŞ malları üçün müəyyən edilmiş rejim qoyulurdu. ABŞ öhdəyə götürürdü ki, Kolumbiyaya 25 mln. dollar qızıl pul ödəyəcək və Kolumbiya ilə *Panama arasında «sülh və dostluq»* müqaviləsinin bağlanmasnı təmin edəcəkdir. T.Ruzvelt *(Ruzvelt Teodor) və onun tərəfdarları* M.-nin ratifikasiyasına mane oldular.

ABŞ Senatı M.-ni ancaq 20.IV.1921 ildə *ratifikasiya* etdi. Qızğın *daxili siyasi mübarizədən* sonra 01.III.1922 ildə Kolumbiya M.-ni ratifikasiya etdi





**AMERİKA-KOREYA İNSİDENTLƏRİ.** 1) 1866 il insidenti – Pxenyan rayonunda kral qəbirlərində qazıntı işləri aparmaq bəhanəsi ilə ABŞ-ın «General Şerman» silahlı gəmisinin Koreyaya müdaxiləsi; Koreyanın məhəlli sularını *(Ərazi suları)* tərk etmək *barədə şəhər* administrasiyasının tələblərinə baxmayaraq, Amerika əsgərləri sahilə çıxaraq, dinc *əhaliyə divan tutmuşlar.* Gəmi yerli qarnizon tərəfindən batırılmışdır.

Amerika tərəfi Koreya hökumətinə təzyiq göstərməyə çalışaraq, «General Şerman» gəmisi ilə bağlı insidentdən bəhanə kimi istifadə edib, 1867-68-ci *illərdə* Koreyaya daha iki hərbi gəmi göndərmişdir.

2) V.1868 il insidenti – Amerikanın «Çayna» və «*Qreta*» hərbi *gəmilərinin* iki dəfə Koreyanın məhəlli sularına soxulması; sahilə desant çıxarılması hərbi toqquşmalarla müşayiət olundu. Müdaxiləçilər elə həmin ayda Koreya ərazisindən qovuldular.

3) 1871 il insidenti – ABŞ hərbi-*dəniz eskadrasının* Koreyaya müdaxiləsi; 1866 il insidentinin araşdırılması hərbi ekspedisiyanın göndərilməsinə rəsmi *bəhanə oldu. Beş gəmidən* üçünün sıradan çıxmasından sonra Amerika eskadrası geri oturmalı oldu.

Hərbi ekspedisiyalar və müdaxilə Koreyanı qeyri-bərabər hüquqlu ticarət müqavilələri bağlamaq və onun təbii sərvətlərini istismar etməkdən ötrü *limanları açmağa sövq etmək məqsədilə* həyata keçirilirdi.

**AMERİKA-KOREYA MÜQAVİLƏSİ** (1882). «Dostluq və ticarət»ə dair, 22.V. İnçxonda (Çemulpo) imzalanıb; Koreya üçün köləlik xarakteri daşıyıb, onun *dövlət suverenliyini* məhdudlaşdırır və Amerika kapitalına geniş imtiyazlar verirdi. Müqaviləyə *(Beynəlxalq müqavilə)* əsasən, ABŞ ilə Koreya arasında *diplomatik münasibətlər* yaradılırdı.

1876 il Koreya-Yaponiya müqaviləsi ilə ticarət, sənaye, dənizçilik və vətəndaşların hüquqi statusu üzrə Koreyanın Yaponiyaya verməyə məcbur olduğu əlverişli şərtlər müqaviləyə görə, həm də *ABŞ-a şamil edilirdi.* ABŞ ilə ticarət aparmaq üçün Pusan, İnçxon və Vonsan limanları açıq elan edilirdi.

Müqavilədə ABŞ üçün idxal rüsumlarının məhdudlaşdırılması (malın dəyərinin 10%) və Amerika vətəndaşları üçün konsulluq yurisdiksiya hüququ, Koreyada torpaq icarəyə götürmək, evlər tikmək və açıq limanlarda müəssisələr yaratmaq hüququ nəzərdə tuturdu. ABŞ müqaviləyə «Koreyanın müstəqilliyini qorumağa təminat» verən maddələr əlavə etmişdi. Lakin 1905 *ildə gizli saziş bağlamaqla* ABŞ Koreyanın Yaponiya tərəfindən *ilhaqını* əslində təqdir etdi.

**AMERİKA-OMAN SAZİŞİ** (1980). 04.VI qüvvəyə minib; ABŞ ilə Oman arasında müdafiə, iqtisadiyyat və ticarət *sahəsində* əməkdaşlığa hüquqi əsas yaradıb. ABŞ silahlı qüvvələri Oman ərazisindəki hərbi bazalardan, o *cümlədən,* Əs-Sib, Mərkəz-Təmarid və Masiradakı hərbi-hava qüvvələri bazalarından, Masqat və Hasabaddakı hərbi-dəniz *qüvvələrinin yerləşdiyi* məntəqələrdən istifadə etmək hüququ əldə etdi. ABŞ Omanı hərbi sursat və silahla təchiz etməyi öhdəyə götürürdü. VI.1981 ildə Oman hökuməti ABŞ ilə hərbi əməkdaşlığı genişləndirmək barədə yeni saziş bağladı. Oman öz ərazisində *yerləşdirilən* Amerika hava və digər hərbi texnikanın sayca artırılmasına, habelə Hörmüz boğazı bağlanar-

sa mülki və hərbi gəmilərin keçməsindən ötrü Fars və Oman körfəzləri arasından kanal çəkilməsinə razılıq verdi.

**AMERİKA-PAKİSTAN HƏRBİ SAZİŞLƏRİ.** 1) 1954 il sazişi; müdafiə məqsədi ilə qarşılıqlı yardıma dair, 19.V. Kəraçidə qeyri-məhdud müddətə bağlanıb və imzalandığı gündən qüvvəyə minib. S.-in şərtlərinə görə, ABŞ Pakistana hərbi avadanlıq, material və başqa yardımlar göstərməyi öhdəyə götürür, Pakistan isə bu yardımdan özünün daxili təhlükəsizliyi və özünümüdafiə üçün istifadə etməli idi. S.-in 1-ci maddəsinə əsasən, Pakistan bu yardımdan regionun müdafiəsi" üçün istifadə etmək hüququna da malikdir. Tərəflər bir-birinə hərbi xarakterli texniki məlumatlar verməyi də razılaşdırmışlar. Pakistan öhdəyə götürmüşdür ki, S.-in yerinə yetirilməsinə nəzarət etmək üçün ABŞ-ın hərbi nümayəndəliyini qəbul edəcək, bununla bağlı xərcləri özü çəkəcəkdir. ABŞ nümayəndəliyinə *diplomatik imtiyazlar və toxunulmazlıq hüququ* verilirdi. S.-in şərtlərinə görə, Pakistan hökuməti ABŞ-ın ehtiyac hiss etdiyi xammal və yarımfabrikatlar verməyi, ümumsülhə təhlükə olan" ölkələrlə ticarət aparılmasına nəzarət etmək üçün lazımi tədbirlər görməyi öhdəyə götürürdü. 1954 il sazişi 15.IV.1956 il sazişi ilə tamamlanıb. Əlavə saziş Pakistana verilən avadanlıq və materialların üçüncü ölkəyə göçürülməsinin mümkünlüyünü nəzərdə tutur.

2) 1981 il sazişi; hərbi yardıma dair, 15.VI İslamabadda imzalanıb. S. ABŞ-ın 1982-1987 illərdə Pakistana 3,2 mlrd.dollar məbləğdə (30 il müddətinə) faizsiz borclar və kreditlər şəklində hərbi-iqtisadi yardım göstərməsini nəzərdə tutur. Bu yardımın 2 mlrd. dolları silah alınmasına xərclənməli idi. 1981 ildə ABŞ hökuməti Pakistana ümumi dəyəri 1,1 mlrd. dollar olan 40 «F-16» tipli ən yeni qırıcı-bombardmançı təyyarə satmağa icazə verdi. Vaşinqtonda 22.XII. imzalanan sazişə görə, Pakistana ümumi dəyəri 450 mln. dollar olan müasir Amerika silahları, o cümlədən «M-60» tankları, hərbi vertalyotlar, qaubitsalar və raket qurğuları verilməsi nəzərdə tutulur. Pakistan öz ərazisində ABŞ «Çevik əməliyyat qüvvələrinin» yerləşdirilməsi üçün hərbi-dəniz və hərbi-hava bazaları verməyi öhdəyə götürür.

**AMERİKA-PANAMA MÜQAVİLƏLƏRİ** (kanala dair). Panama kanalının və ona bitişik Panama kanalı zonasının hüquqi statusunu, habelə iki ölkənin kanal və zona ilə bağlı hüquq və vəzifələrini müəyyənləşdirir.

Amerika-Panama müqavilələrindən *(Beynəlxalq müqavilə)* əvvəl ABŞ ilə İngiltərə və ABŞ ilə Kolumbiya arasında (Panama 1903 ilədək Kolumbiyanın tərkibinə daxil idi) müqavilələr bağlanmışdı.

Kolumbiya Hey-Erran müqaviləsini təsdiqdən imtina etdikdən sonra ABŞ təhrik yolu ilə Panama bərzəxində «üsyan» törətdi. 03.XI.1903 ildə Panama müstəqil respublika elan edildi və ABŞ tərəfindən dərhal tanındı. ABŞ-ın əlaltısı F.Byuno-Varilya və *ABŞ Dövlət Katibi* C.Xey tərəfindən müqaviləyə əsasən, ABŞ Panama Respublikasının müstəqilliyinə təminat verirdi. Panama isə öz ərazisində kanal boyu onun hər tərəfində 5 mil enində sahənin ABŞ tərəfindən tutulmasına razı olurdu. Sözügedən bölgədə ABŞ qeyri-məhdud müddətə tam hüquq və hakimiyyətə malik olurdu. ABŞ burada polis, quru və dəniz qüvvələrinin gücündən istifadə edə, istehkamlar tikə bilərdi. Əvəzində Panama ABŞ-dan əvvəlcə birdəfə üçün 10 mln. dollar, müqavilənin təsdiqindən 10 il sonra isə hər il 250 min dollar məbləğdə pul almalı, habelə öz gəmilərini, qoşunlarını və hərbi materiallarını pul ödəmədən kanaldan keçirmək hüququ əldə edirdi.





Kanalla bağlı ikinci müqaviləyə görə, ABŞ Panamanın hər hansı torpaq hissəsi və sularından kanalın tikintisi, istismarı və müdafiəsi məqsədi ilə istifadə etmək hüququndan formal olaraq imtina edir, Panama vətəndaşlarına kanal zonasında ticarətlə məşğul olmaq, Panama hökumətinə bu zona hüdudunda gömrük və liman rüsumları yığmaq hüququ verirdi. M. Panama və Kolop şəhərlərində və onlara bitişik ərazilərdə ABŞ-ın «ictimai asayişi saxlamaq» adı ilə müdaxilə hüququnu ləğv etdi, ABŞ-ın Panamaya illik ödənc məbləğini 430 min dollara qədər artırıldı.

*İkinci dünya müharibəsi* dövründə ABŞ Panamanı hərbi bazalar yaratmaq üçün öz ərazilərində 10 sahə ayırmağa məcbur etdi. 1947 ildə isə Panama bu bazalardan bəzilərinin icarə müddətini uzatmağa dair saziş bağlamağa məcbur edildi.

1955 il müqaviləsi (Remon-Eyzenhauer müqaviləsi) – 25.I. imzalanıb. ABŞ Panamaya verəcəyi məbləği hər il 1.930 min dollaradək artırmaq barədə öhdəlik götürürdü. Panama bərzəxində ABŞ-a avtomobil və dəmir yolları çəkilməsinə dair inhisarçı hüququ verən bundan əvvəlki sazişlərin maddələri qüvvədən düşürdü. Panama kanalı şirkəti tərəfindən əvvəllər tutulmuş torpaqların bir hissəsi Panamaya qaytarılırdı. Lakin bununla yanaşı ABŞ Panama ərazisində 15 il müddətinə yeni torpaq sahələrindən hərbi məqsədlərlə istifadə etmək hüququ əldə etdi. M. Panamaya kanalın ABŞ vətəndaşı olmayan qulluqçularından vergi tutmaq hüququ verirdi.

1968 ildə Panamada general O.Torrikos başda olmaqla sol millətçi hökumətin hakimiyyətə gəlməsi ilə ölkənin xarici siyasətində ABŞ ilə qeyri-bərabər sazişlərə yenidən baxılması və kanal üzərində Panamanın suverenliyini *(Suverenlik)* təmin etmək məsələsi əsas yer tutdu. ABŞ Panamanın 1964 ildə başlanan danışıqları davam etdirmək barədə haqlı tələblərinə məhəl qoymadığından Panama hökuməti *BMT*-yə müraciət etməli oldu. 15-21.III.1973 ildə Panamada keçirilən *BMT Təhlükəsizlik Şurasının* səyyar sessiyasında Latın Amerikası ölkələrinin böyük əksəriyyəti, SSRİ və digər sosialist ölkələri, Asiya və Afrika ölkələri ABŞ-ın Panamaya və bütövlükdə Qərb yarımkürəsinə münasibət siyasətini pislədilər.

Panama xalqının ciddi mübarizəsi nəticəsində ABŞ güzəştə getməyə məcbur oldu. 07.IX.1977 ildə ABŞ *prezidenti* C.Karter və Panama *hökumət başçısı* O.Torrixos Vaşinqtonda iki müqavilə – «Panama kanalına dair» və «Panama kanalının və onun idarəçiliyinin daimi *bitərəfliyinə* dair» sənəd imzaladılar.

Kanalın statusuna dair 1977 il müqaviləsi kanalla bağlı imzalanmış 1903, 1936 və 1955 il müqavilələrini və bütün digər sazişləri «tamamlayır və təshih edirdi». Nəzərdə tutulurdu ki, kanal üzərində nəzarət, onun idarə olunması, mühafizəsi və müdafiəsi də daxil olmaqla, tədricən Panamanın ixtiyarına verilsin və bu iş 31.XII.1999 ilədək – M.-nin fəaliyyətinin sona çatması gününədək başa çatdırılsın. M.-nin qüvvəyə minməsi ilə Panama hökuməti kanal zonasında polis, məhkə-

mə, gömrük və bir sıra başqa funksiyaları öz üzərinə götürür, üstəlik Panamanın cinayət və mülki qanunvericiliyinin maddələri kanal zonasına da şamil edilirdi.

Əsrin axırına kimi kanalı ABŞ hökuməti tərəfindən təyin edilən Komissiyanın idarə edəcəyi nəzərdə tuturdu. Bu Komissiyanın rəhbər şurası 5 Amerika və 4 Panama vətəndaşından ibarət olacaqdı. M. kanalın mühafizəsi və müdafiəsi məsələlərində ABŞ və Panamanın əməkdaşlıq edəcəklərini nəzərdə tuturdu. Özü də bu işlərdə Panamanın iştirakı getdikcə genişlənəcəkdi. Kanaldan istifadəyə görə ABŞ-ın illik ödəncləri xeyli məbləğdə artırılırdı.

«Kanalın və onun idarəçiliyinin daimi bitərəfliyinə dair» 1977 il müqaviləsinə əsasən, bu kanal sülh və müharibə dövrlərində bütün ölkələrin gəmilərinin dinc məqsədlərlə keçməsi üçün açıq elan olunurdu. Bu məsələdə bütün ölkələrə bərabər hüquq verilir və onların heç birinə ayrı-seçkilik tətbiq oluna bilməzdi. ABŞ və Panama öhdəsinə götürdü ki, iki ölkə arasında bağlanan hər hansı müqavilənin vaxtının qurtarmasından asılı olmayaraq, kanal "həmişə bitərəf" qalacaqdır. ABŞ və Panamanın bütün hərbi və köməkçi gəmiləri maneəsiz kanaldan keçmək hüququna malik olurdular.

ABŞ Panama kanalının daimi bitərəfliliyinə dair müqavilənin müddəalarının guya ona "kanalın təhlükəsizliyi və bitərəfliyini təmin etmək üçün həmişəlik intervensiya hüququ" verməsi kimi təfsir etməyə cəhd göstərdiyinə görə, 14.X.1977 ildə «Şərhə dair Birgə *Bəyanat*» dərc edildi. Bəyanatda qeyd edilirdi ki, «Kanala hər hansı hücum olarsa və ya təhlükəyə məruz qalarsa», ABŞ və Panamanın lazımi tədbirlər görmək, bu iki ölkənin hərbi gəmilərinin kanaldan «mümkün qədər tez, hər hansı mənea olmadan» keçmək, «zərurət olduqda, müstəsna hallarda» kanaldan ilk növbədə keçmək hüququ vardır.

Müqavilələr 23.X.1997 ildə keçirilən ümumxalq sorğusu ilə bəyənildi və onun ardınca Panama tərəfindən *ratifikasiya* edildi. ABŞ Senatı tərəfindən «Panama kanalının və onun idarəçiliyinin daimi bitərəfliyinə dair» müqavilələr ratifikasiya olunarkən bu sənədlərə düzəlişlər edildi. Bu düzəlişlər kanalı gəmiçilik üçün açıq saxlamağı nəzərdə tutur.

**AMERİKA-SƏUDİYYƏ SAZİŞLƏRİ** (hərbi-strateji). Amerika-Səudiyyə hərbi-strateji əməkdaşlığının bünövrəsi 14.II.1945 ildə Səudiyyə kralı Əbdül *Əziz ibn Səudun* ABŞ və *İngiltərəyə* Fars körfəzindəki limanlardan və həmçinin Dəhrandakı HHQ məxsus bazalardan istifadə etməyə razılıq verməsi ilə qoyulub. Dəhrandakı hərbi-hava bazasından istifadə etmək üçün onun 5 il müddətinə ABŞ-a icarəyə verilməsi haqqında 18.VI.1951 ildə saziş imzalandı və həmin S.-in müddəti 02.IV.1957 ildə yenidən 5 ilə uzadıldı. İcarənin müddəti 1962 ildə başa çatdıqdan sonra S.-in müddəti bir daha uzadılmadı. 1951 ildə ingilis hərbi missiyası ölkədən çıxarıldıqdan sonra Səudiyyə ordusunun təlim-tərbiyə işlərini Amerikanın hərbi müşavirləri tamamilə öz öhdələrinə götürdülər.

24.V-05.VI.1965 ildəki *notalar mübadiləsinə* görə, Səudiyyə Ərəbistanı ərazisində hərbi obyektlərin tikilməsi, 11.XI.1965 ildə bağlanan sazişə görə isə ABŞ və İngiltərədən 400 mln.dollar dəyərində hərbi texnika gətirilməsi nəzərdə tutulurdu. 19.III.1973 ildə Qarşılıqlı anlaşma *Memorondumuna* əsasən, Səudiyyə Ərəbistanı 200 «Fantom» qırıcı təyyarəsi ilə birlikdə Amerika silahları da alacaqdı. Hərbi və *iqtisadi* əməkdaşlıq haqqında 08.VI.1974 il sazişinə əsasən, iki komissiya yaradıldı: iqtisadi əməkdaşlıq və hərbi məsələlər üzrə, bunun davamı olaraq 4.I.1975 ildə Səudiyyə Ərəbistanına 766 mln.dollar dəyərində qırıcı təyyarələr satılması və Səudiyyə hərbi təyyarəçilərinin ABŞ-da hazırlanması haqqında saziş imzalandı. Bu iki saziş Amerika-Səudiyyə hərbi-strateji əməkdaşlığında yeni mərhələnin başlanğıcını qoymuşdur ki, bu da Amerika hərbi texnikasının daha iri həcmdə alınması ilə (1950-1972 illərdə 1,2 mlrd.dollar, 1973-1980 illərdə isə 34 mlrd.dollar) xarakterizə olunur.

1979 ildə İranda inqilab baş verdikdən sonra ABŞ planlarında Səudiyyə Ərəbistanının rolu daha da artdı. ABŞ «Karter doktirinası» adlanan siyasəti həyata keçirərkən Səudiyyə Ərəbistanında Amerikanın hərbi iştirakına bilavasitə nail olmağa və buranı «çevik əməliyyat qüvvələrinin» dayaq məntəqələrindən birinə çevirməyə inadla çalışırdı. X.1981 *ildə* ABŞ *Konqresi* Səudiyyə Ərəbistanına 8,5 mlrd. dollar dəyərində silah və eləcə də AVAKS tipli 5 təyyarə, 177 «Sayduinder» raketi, 8 yanacaq daşıyan təyyarə və digər hərbi texnikanın satılmasını nəzərdə tutan kontraktın bağlanmasına icazə verdi. II.1982 ildə bağlanan sazişə əsasən, AVAKS tipli təyyarələrin Səudiyyə Ərəbistanına verilməsinə 1985 ildən başlamalı idi.

**AMERİKA-SOMALİ SAZİŞİ** (1980). 21.VIII qüvvəyə minib; hər iki ölkə arasında hərbi sahədə əməkdaşlığın hüquqi əsasını qoyub.

ABŞ hərbi qüvvələri Somalinin aerodromlarından və limanlarından və eləcə də Berber və Moqadiş daxil olmaqla digər yerlərdəki tikililərindən istifadə etmək *hüququ* qazanırdı. Amerika tərəfi öz üzərinə Somaliyə silah və hərbi texnika vermək, Somali üçün hərbi mütəxəssislər hazırlamaq və iqtisadi yardım göstərmək kimi öhdəliklər götürürdü.

**AMERİKA-TAİLAND SAZİŞİ VƏ MÜQAVİLƏSİ.** 1) 1950 *il* sazişi; hərbi yardıma dair, 17.X Banqkokda imzalanıb. Tailanda Amerika avadanlığı və materiallarının verilməsini nəzərdə tutur. S. üzrə «yardımın» həcmi hər il üçün ayrıca müəyyənləşdirilir, onun verilməsi Tailanddan xammal və yarımfabrikatların gətirilməsi ilə şərtləndirilirdi. S. əslində ABŞ hərbi müşavirlərinə Tailand hərbi qüvvələrinə nəzarət etmək imkanı verirdi. S.-in həyata keçirilməsi ilə bağlı xərcləri Tailand öz üzərinə götürürdü.

2) 1966 il müqaviləsi *(Beynəlxalq müqavilə)*; dostluq və iqstiadi münasibətlərə dair, 29.V Banqkokda imzalanıb. 8.VI.1968 ildə qüvvəyə minib. Tərəflər öz ərazilərində müqabil *tərəfin vətəndaşlarına* və şirkətlərinə bütün sahibkarlıq fəaliyyəti sahələrində milli rejim tətbiq etməyi, digər tərəfə zərər vura biləcək tədbirlər görməməyi öhdələrinə götürürdülər. Nəzərdə tutulurdu ki, xarici mülkiyyət müvafiq ödənişsiz alına bilməz. Digər tərəfin vətəndaşlırının yaratdıqları müəssisələrə «kifayət qədər əsas olmadan» müdaxilə etməyə yol verilmirdi.

**AMERİKA - TAYVAN SAZİŞLƏRİ.** Amerika-Tayvan *diplomatik münasibətlərinin* kəsilməsi və 01.1.1979 ildə ABŞ ilə ÇXR arasında diplomatik münasibətlərin yaradılması əslində Amerika-

Tayvan münasibətlərinin müqavilə əsaslarına o qədər də təsir etmədi. ABŞ yalnız «qarşılıqlı müdafiə haqqında» 1954 il müqaviləsini *(Beynəlxalq müqavuilə)* pozdu. Qalan 50-dən çox ikitərəfli sazişlər isə etibarlı sayılırdı. Əvvəllər bağlanan Amerika-Tayvan sazişlərinə münasibətin dəyişmədiyini təsdiq edən ABŞ hökuməti XII.1978 ildə xüsusi *Memorandumla* dövlət müəssisələrinə göstəriş verdi ki, Tayvanla əlaqədar bütün proqramları, layihələri, öhdəlikləri yerinə yetirməkdə davam etsinlər.

Tayvanla əlaqələr saxlamaqdan ötrü Vaşinqton «qeyri-dövlət» orqanı – Tayvan üzrə Amerika İnstitutu yaratdı. Tayvan rəhbərliyi isə eyni məqsədlə Şimali Amerika məsələləri üzrə Əlaqələndirmə Şurası təsis etdi.

10.IV.1979 ildə ABŞ *Konqresi* Tayvanla münasibətlərə dair qanun qəbul etdi. Göstərilirdi ki, ABŞ siyasəti Tayvan xalqı ilə «geniş və dostcasına münasibətlər» saxlamağı nəzərdə tutur; ABŞ Tayvan problemini hər hansı qeyri-dinc yolla həll etmək cəhdinə Sakit okeanın qərb hissəsində sülh və təhlükəsizlik üçün təhlükə kimi qiymət verəcəkdir.

Qanun Amerikanın rəsmi idarələri, şirkətləri, bankları və xüsusi şəxslərinin Tayvanla ticarət-iqtisadi, mədəni və digər əlaqələrini davam etdirmək və genişləndirmək hüquqlarını möhkəmləndirdi. Tayvana Amerika silahlarının satılmasına dair uzun müddətli proqramlar öz qüvvəsində qaldı.

02.X.1980 ildə Vaşinqtonda Tayvan üzrə Amerika İnstitutu ilə Şimali Amerika İşlərini Əlaqələndirmə Şurası arasında saziş imzalandı. Sazişdə adları çəkilən müəssisələrə, onların nümayəndələrinə və əməkdaşlarına qarşılıqlı olaraq tam həcmdə *diplomatik imtiyazların və toxunulmazlıq hüquqlarının* şamil olunması nəzərdə tutulur.

**AMERİKA - TÜRKİYƏ SAZİŞİ** (1980). Hərbi və iqtisadi sahələrdə əməkdaşlığa dair, 29.V Ankarada imzalanıb. S. 5 il müddətinə bağlanıb və bu müddət başa çatdıqdan sonra tərəflərin razılığı ilə hər il uzadıla bilər. S. əməkdaşlığın prinsiplərini müəyyən edən bir əsas və üç əlavə razılaşmadan ibarətdir. Əlavə razılaşmalarda Türkiyəyə göstəriləcək hərbi və iqtisadi yardımların şərtləri, hərbi istehsal sahəsində tərəflərin əməkdaşlığı, Türkiyə ərazisində Amerika bazalarının *(Hərbi bazalar)* statusu və eləcə də bir sıra gizli *protokollar* öz əksini tapıb.

S. ABŞ-ın Türkiyədə hərbi məqsədlərlə mövcudluğuna hüquqi-müqavilə əsasları verir, ABŞ-ın hərbi bazalardan və obyektlərdən, o cümlədən İncirlikdəki HHQ bazasından istifadəsini təsbit edirdi.

ABŞ S.-lə, həmçinin Türkiyə silahlı qüvvələrinə məxsus olduğu təsdiq edilən və hər iki ölkənin «yalnız *NATO* üzrə öhdəlikləri çərçivəsində» istifadə edə biləcəkləri bir sıra hərbi bazalardan istifadə etmək hüququ da əldə etdi. Həmin bazalara komandanlıq Türkiyə tərəfindən həyata keçirilsə də, bu hal yalnız inzibati funksiyalar və bazaların qorunması məsələləri ilə məhdudlaşırdı. Saziş kəşfiyyat materiallarından birgə istifadə etməyi də nəzərdə tuturdu.

**AMERİKA - YAPONİYA MÜQAVİLƏLƏRİ VƏ SAZİŞLƏRİ.** 1) 1919 il sazişi; Şərqi Çin dəmiryolu və Sibir dəmiryolu üzərində nəzarətə dair, 09.I. Tokioda imzalanıb.

1918 ildə xarici müdaxiləçilərin və ağqvardiyaçıların müvəqqəti hərbi uğurları nəticəsində ŞÇDY və Sibir





dəmiryolu ABŞ, Yaponiya, İngiltərə, Fransa və s. ölkələr tərəfindən zəbt edilmişdi. S.-ə əsasən, müttəfiq ordularının fəaliyyət zonasında nəzarət işi Sibirdə və Uzaq Şərqdə bu ölkələrin təmsilçilərindən yaradılan Xüsusi İttifaqarası Komitə tərəfindən həyata keçirilməli idi.

Dəmir yollarının mühafizəsi müttəfiq qoşunlara tapşırılırdı. S. bütün «maraqlı dövlətlərin» (ABŞ, Yaponiya, İngiltərə, Fransa və İtaliya) nümayəndələri tərəfindən bəyənildikdən sonra 14.III.1919 ildə Kolçak hökuməti də ona qoşuldu.

S.-in iştirakçıları IV.1919 ildə ŞÇDY və Sibir dəmiryolu üzərində hərbi nəzarət hüdudlarını ABŞ, Yaponiya və Çin qoşunları arasında bölüşdürdülər. Razılaşmanın arxasında əslində Yaponiya dayanırdı. Sibir dəmiryolu Baykaldan Omskadək olan sahədə *Antantanın* göstərişləri ilə hərəkət edən Çexoslovakiya qoşunlarının nəzarəti altında qalırdı.

Saziş Sibirdə və Uzaq Şərqdə xarici müdaxilənin və əksinqilabın darmadağın edilməsi ilə qüvvədən düşdü.

2) 1951 il müqaviləsi; təhlükəsizliyə dair, 08.IX. San-Fransiskoda qeyri-müəyyən müddətə imzalanıb. Sülh müqaviləsi bağlamaq şərti ilə Yaponiyaya zorla qəbul etdirilib. 28.IV.1952 ildə qüvvəyə minib.

ABŞ-ın Yaponiya ilə hərbi-siyasi ittifaqını rəsmiləşdirib. ABŞ Yaponiyanın hərbi işğalı dövründə olduğu kimi, onun ərazisində hərbi qüvvələr saxlamaq və bu qüvvələrdən istədiyi zaman Uzaq Şərqin hər hansı rayonunda hərbi əməliyyat aparmaq və Yaponiyanın daxilində baş verə biləcək ixtişaşları yatırmaq üçün istifadə etmək hüququ qazandı.

Yaponiya öhdəyə götürdü ki, ABŞ ilə irəlicədən razılaşdırmadan üçüncü dövlətə öz ərazisində baza yaratmağa və silahlı qüvvələr saxlamağa icazə verməyəcəkdir.

Müqavilə 1960 il M. imzalanması ilə əlaqədar qüvvədən düşdü.

3) 1952 il sazişi; inzibati idarəçiliyə dair, 28.11 Tokioda imzalanıb. S. Amerika ordusuna Yaponiya ərazisində tutduğu bütün hərbi obyektlərdən istədiyi kimi istifadə etmək, istədiyi zaman Yaponiya ərazisinə daxil olmaq, ölkə ərazisində sərbəst hərəkət etmək və zəruri hallarda ölkəni tərk etmək hüququ verirdi. *Hərbi bazalar*, rabitə vasitələri, kommunal xidmətlər və s. əvəzsiz qaydada ABŞ-ın istifadəsinə verilirdi. Yaponiya ABŞ-a 155 mln. dollar ödəməyi öhdəyə götürürdü. 29.IX.1953 il protokoluna əsasən, Yaponiya hökuməti onun ərazisindəki ABŞ hərbi qulluqçuları üzərində məhdud həcmdə yurisdiksiyaya malik olurdu.

4) 1953 il müqaviləsi; dostluq, ticarət və dənizçiliyə dair, 02.IV Tokioda 10 il müddətinə imzalanıb. Tərəflərin razılığı ilə bu müddət uzadıla da bilər. M. 30.X.1953 ildə qüvvəyə minib. Hər iki tərəfin vətəndaşlarına və şirkətlərinə müqabil tərəfin ərazisində sahibkarlığın bütün növləri ilə məşğul olmaq hüququ, habelə elmi, maarif və xeyriyyə fəaliyyətində *milli rejim* imtiyazı verilirdi.

5) 1954 il sazişləri; 08.III Tokioda imzalanıb. S.-lər toplusuna qarşılıqlı müdafiəni təmin etməkdə yardım; hərbi ləvazimat və materialların qaytarılması; sərmayə qoyuluşuna təminat; kənd təsərrüfatı məhsullarının alınmasına dair sənədlər daxildir. Birinci sazişdə Yaponiyaya Amerika hərbi yardımının göstərilməsi dəqiqləşdirilirdi. Yaponiya öhdəyə götürdü ki, bu yardımdan ölkə-

nin müdafiə qüdrətinin artırılması üçün səmərəli istifadə olunmasını təmin edəcəkdir.

S. Yaponiya ordusunu yenidən yaratmaq üçün əsas oldu.

6) 1960 il müqaviləsi; qarşılıqlı əməkdaşlıq və təhlükəsizlik təminatlarına dair, 19.I. Vaşinqtonda 10 il müddətinə imzalanıb, 1969 ildə qeyri-müəyyən müddətə uzadılıb.

M. ABŞ-a Yaponiya ərazisində quru, hərbi-hava, hərbi-dəniz qüvvələri saxlamaq, hərbi bazalar yaratmaq hüququ verirdi. Yaponiya öhdəyə götürürdü ki, öz hərbi potensialını artıracaq və Yaponiyanın idarəçiliyi altında olan ərazilərdə «ümumi təhlükəni dəf etmək üçün» tədbirlər görəcəkdir.

M. ilə eyni vaxtda imzalanan ayrıca razılaşmada Yaponiya ərazisində yerləşən ABŞ hərbi qüvvələrinin statusu müəyyənləşdirilirdi.

7) 1971 il sazişi, Rükyu və Dayto adalarına dair, eyni vaxtda 17.VI Vaşinqtonda və Tokioda imzalanıb və 15.V.1972 ildə qüvvəyə minib. ABŞ 1951 il San-Fransisko konfransında *(Beynəlxalq konfranslar)* imzalanmış sülh müqaviləsinin 3-cü maddəsində nəzərdə tutulan bütün hüquqlardan Yaponiyanın nəfinə imtina edir, Yaponiya tərəfi isə Rükyu və Dayto adalarının ərazisinə və sakinlərinə münasibətdə inzibati, qanunvericilik və məhkəmə hakimiyyətlərini həyata keçirmək üzrə tam məsuliyyət və səlahiyyəti öz üzərinə götürürdü. Eyni zamanda tərəflər təsdiq etdilər ki, Yaponiya ilə ABŞ arasında 1960 ildə bağlanan qarşılıqlı əməkdaşlıq və təhlükəsizlik təminatına dair müqavilə bu əraziyə də şamil olunur.

S.-şə görə, Yaponiya ABŞ-a Rükyu və Dayto adalarındakı tikililərdən və torpaq sahələrindən istifadə etmək hüququ verirdi. Yaponiya Okinava adasındakı ötürücü stansiyadan «Amerikanın səsi» radiostansiyasının yayımı üçün ABŞ-ın bundan sonra da istifadə etməsinə razılıq verirdi.

**AMERİKA - YUNANISTAN SAZİŞLƏRİ.** 1) 1953 il sazişi; 12.X. Afinada 3 il müddətinə bağlanıb. Dəfələrlə müddəti uzadılıb; 1976 ildən müvəqqəti əsaslarla qüvvədə olub. 1983 ildə yeni sazişlə əvəz edilib.

ABŞ-a Yunanıstan ərazisində *hərbi bazalara* malik olmaq hüququ verirdi. S.-şə görə, Amerikanın hərbi qüvvələri sərbəst olaraq ölkəyə daxil olmaq, yer dəyişmək, onun hüdudlarını tərk etmək, su əraziləri üzərində uçmaq hüququ əldə edirdi. 1956 ildən etibarən bazaların hərbi və mülki heyəti toxunulmazlıq və bir sıra digər imtiyazlardan istifadə edirdi.

2) 1983 il sazişi; müdafiə və iqtisadi əməkdaşlığa dair, 08.IX Afinada imzalanıb. S. 31.XII.1983 ildə 5 il müddətinə bağlanıb. Mahiyyətcə 1953 il sazişini əvəz edib.

S. «qarşılıqlı fayda, *suverenliyə*, müstəqilliyə və maraqlara tam hörmət» əsasında tərəflərin hərbi və iqtisadi əməkdaşlığını yenidən qurmaq məqsədi daşıyır. S. Yunanıstan ərazisində ABŞ-ın mövcud hərbi bazalarının saxlanılmasını (rəsmi məlumatlar əsasən, ABŞ orada iri və 12 yardımçı obyektlərə malikdir) nəzərdə tutur. S.-in fəaliyyət dövrü bitdikdən sonra Amerika tərəfi onları 17 ay ərzində köçürməyi öhdəyə götürürdü. Yunanıstan tərəfi formal olaraq bazaların fəaliyyətinə nəzarət etmək, onu fövqəladə hallarda, ölkənin milli təhlükəsizliyinin həyati maraqlarını təmin etmək üçün məhdudlaşdırmaq hüququna malik olurdu. Bazaların Amerika vətəndaşlarından ibarət hərbi və mülki heyətinin *eksterritoriallıq* hüququ ləğv edilirdi.

S.-ə görə, ABŞ Yunanıstanın hərbi-iqtisadi potensialını möhkəmləndirməyi, ona yardımın həcmini 1984 maliyyə ilində 500 mln. dollaradək artırmağı və bununla da yardımın həcmini Türkiyəyə edilən yardımla müqayisədə 7:10 nisbətdə saxlamağı öhdəyə götürürdü.





**AMXERST MİSSİYASI** (1816). Britaniya hökumətinin Çinə rəsmi missiyası *(Diplomatik missiya)*; özündən əvvəlki Makartney missiyasında (1793) olduğu kimi Tsin hökumətini Çinin «qapılarını» ingilis mallarının üzünə «açmağa» məcbur etmək məqsədi daşıyıb. Həmin dövrdə Çin-İngiltərə münasibətlərinin pisləşməsi onunla əlaqədar idi ki, İngiltərənin 1814 ildə ABŞ əleyhinə hərbi əməliyyatlar apardığı vaxt ingilis hərb gəmiləri Tsin hökumətinin icazəsi olmadan Çinin məhəlli sularına daxil olmuş və Quançjouya (Kanton) gedən bir neçə Amerika gəmisini ələ keçirmişdi. A.m. da Makartney missiyası kimi hörmətlə qarşılansa da müvəffəqiyyətsizliyə uğradı. Tsin hökuməti Çini ətraf aləmdən təcrid vəziyyətdə saxlamaqla ölkədə öz hökmranlığının təhlükəsizliyinə təminat yaratdığını güman edir və buna görə də İngiltərənin Çinə girməsinə mane olmağa çalışırdı. Missiyanın başçısı lord Amxerstin Tsin sarayında mövcud olan mərasimləri yerinə yetirməkdən imtina etdiyini bəhanə gətirən Boqdıxan hökuməti onu ölkədən çıxardı. Çox keçmədən əcnəbilərə Pekində görünməyi qadağan edən imperator fərmanı verildi.

**AMO BƏYANATI** (1934). Yaponiyanın Çində siyasəti barədə *Bəyanatı*; *Millətlər Cəmiyyəti* tərəfindən Çinə göstəriləcək «texniki yardım» və habelə xarici firmaların (əsasən Amerika) Çinə hərbi avadanlıq göndərəcəkləri barədə məlumat dərc olunandan sonra Yaponiya Xarici İşlər Nazirliyi *(Xarici İşlər İdarəsi)* Mətbuat şöbəsinin müdiri Amo tərəfindən 17.IV verilib.

A.B.-da deyilirdi ki, Yaponiya digər dövlətlərin Çində fəallaşmasına biganə qala bilməz, zira «Şərqi Asiyada sülhün qorunması üçün xüsusi məsuliyyət daşıyır» və yol verməz ki, Çin yardım üçün Yaponiyaya deyil, başqa dövlətlərə müraciət etsin. A.B. ABŞ, Çin və İngiltərə tərəfindən narazılıqla qarşılandı və bu səbəbdən Yaponiyanın xarici işlər naziri K.Xirotu aprelin 25-də xüsusi izahatla çıxış etməli oldu. Nazir bildirdi ki, mövcud *beynəlxalq müqavilələri*, «açıq qapılar» siyasətini və Çinin müstəqilliyini tanımaqla bərabər, Yaponiya başqa dövlətlərin Çindən «öz xudpəsənd, məqsədləri üçün» istifadə etmələrinə yol verə bilməz. Cavab olaraq, ABŞ 29.IV tarixli xüsusi nota *(Diplomatik nota)* ilə Yaponiyanı xəbərdar etdi ki, onun fikrincə «heç bir dövlətin haqqı yoxdur ki, digər suveren dövlətlərin *(Dövlətin suverenliyi)* hüquqları, öhdəlikləri və qanuni maraqlarının toxunulduğu situasiyalar həll olunarkən son söz demək səlahiyyətini özünə götürsün». Fransa hökumətinin 03.V verdiyi nota da eyni məzmun daşıyırdı. Eyni vaxtda Britaniyanın Tokida *səfiri* də Yaponiyaya müvafiq təqdimat göndərdi.

A.B. və sonrakı yapon izahatları bəzən «Xirota doktrinası» kimi də adlanır. A.B.-nın dərc edilməsi Çində rəqabət uğrunda mübarizənin güclənməsilə bağlı Yaponiya-Amerika münasibətlərinin pisləşməsinin təzahürü idi.

**AMSTERDAM MÜQAVİLƏSİ.** (1717). Rusiya, Fransa və Prussiya arasında 04.VIII bağlanıb. Şərqi Pribaltikada tutulan ərazilərin Rusiyanın hesabında qalması şərtilə sülh bağlanmasına böyük dövlətlərin dəstək verəcəyinə bel bağlamağa çalışan I Pyotr *(Pyotr I)* 1716 ildə xaricə səfər etdi. Prusiya kralı ilə müqavilə bağlayan *(Beynəlxalq müqavilə)* I Pyotr Fransa nümayəndələrilə danışıqlara başladı, onlara dostluq və qarşılıqlı müdafiə barədə müqavilə bağlamağı təklif etdi. Fransa Rusiyanın Pribaltikada güclənməsini istəməyən İngiltərə və Hollandiyanın narazı qalacağından ehtiyatlanaraq bundan çəkinirdi. Danışıqlar müqavilə bağlanması ilə başa çatdı və Rusiya müvəkkilləri *(İşlər müvəkkili)* Qolovkin, Kurakin və Şafirov, Fransanın Hollandiyadakı *səfiri* Şantonef və Prusiya müvəkkili Knipqauzen tərəfindən imzalandı.

M. mülklərin mənsubluğuna qarşılıqlı təminat verilməsini nəzərdə tuturdu: Rusiya və Prussiya *İspan varisliyi* üstündə baş verən müharibəni dayandıran 1713 il Utrext sülh müqaviləsini və 1714 il Raştat sülh müqaviləsini tanıdılar. Fransa isə Rusiya-İsveç sülh müqaviləsinin şərtlərini tanımağa qabaqcadan razılıq vermişdi.

Tərəflər onlardan hər hansı birinə həmlə edildikdə, qarşılıqlı kömək göstərməyi öhdəyə alırdılar. I Pyotr və Prussiya kralı İsveçlə sülh müqaviləsi bağlamaqda Fransanın *vasitəçiliyini* qəbul edirdilər. Bununla da A.m. Şimal *müharibəsinin* yekun mərhələsində Rusiya üçün Fransanın *bitərəfliyini* təmin etdi, rus *diplomatiyasının* böyük uğuru oldu.

**AMSTERDAM MÜQAVİLƏSİ.** (1997). 02.X imzalanmış və Maastrixt Müqaviləsinin *(Beynəlxalq müqavilə)* şərtlərinə qismən yenidən baxılmışdı. A.m. demokratiya, əsas hüquq və azadlıqlara əməl olunmasını, *Şengen razılaşması* ölkələrinin ümumi vahid hüquqi sisteminin yaradılmasını, əməkdaşlığın inkişaf etdirilməsi şəraitində dövlətlərin müstəqilliklərinin qorunmasını özündə təsbit edir. A.m. Avropa İttifaqında Avropa parlamentinin qanunvericilik funksiyasının, Avropa İttifaqı Komissiyasının rolunun artırılmasını, Avropa İttifaqı ölklərinin dövlətlərarası əməkdaşlığının daha da inkişaf etdirilməsini nəzərdə tuturdu.

**AMYEN SÜLH MÜQAVİLƏSİ.** (1802). 27.III. Fransa və müttəfiqləri ilə İngiltərə arasında Amyendə imzalanmış və 2-ci antifransız *koalisiyasının* dağılmasını başa çatdırmışdır. Tərəflər müstəmləkələr uğrunda gedən *müharibədə* ələ keçirdikləri bəzi əraziləri geri qaytarmağı öhdəyə götürdülər. M. IV.1802 ildə ratifikasiya olunmuşdur. 13.V. Türkiyə də M.-ə qoşuldu İngilis-fransız ziddiyyətləri üzündən M.-ni həyata keçirmək mümkün olmadı və *22.V.1803* ildə onlar arasında yeni müharibə başladı.

**AND QRUPU (AND PAKTI).** Subregional iqtisadi qruplaşma; Latın Amerikası Azad Ticarət Assosiasiyası (LAATA) çərçivəsində yaradılıb. Boliviya, Kolumbiya, Peru, Çili və Ekvadorun iştirakı ilə A.q. yaradılması haqqında müqavilə *(Beynəlxalq müqavilə)*, Kartaxen müqaviləsi adı ilə 26.V.1969 Boqotoda imzalanıb. 1973 ildə Venesuela da bu qrupa daxil olmuşdur. Çili hərbi xuntası A.q.-nun ən mühüm qərarlarını pozduğundan 1976 ildə üzvlükdən çıxarılmışdır.

A.q.-nun məqsədi üzv dövlətlərin subregional ümumi bazarını yaratmaq, sənayenin, infrastrukturanın və kənd təsərrüfatı istehsalının inkişafına dair birgə proqramlar həyata keçirmək, sənayeləşdirmə prosesinin sürətini artırmaq, maliyyə tədbirlərini əlaqələndirmək və s.-dən ibarətdir. A.q.-nun ali orqanları: Komissiyalar, Şura və And tribunalı Lima (Peru) şəhərində yerləşir.

A.q.-nun bir sıra *beynəlxalq təşkilatlarla*, o cümlədən *Avropa İqtisadi Birliyi* və bəzi Latın Amerikası ölkələri ilə əməkdaşlığa dair razılaşmaları vardır.

A.q. Latın Amerikasında ilk dövlətlərarası birlik olaraq öz qarşısına *xarici kapitalın region dövlətlərinin iqtisadiyyatına* diktə etməsinə qarşı mübarizə aparmaq məqsədi qoymuşdur 30.VI.1971. A.q. dövlətlərində xarici şirkətlərin fəaliyyətinin məhdudlaşdırılması və onların fəaliyyəti üzərində nəzarət qoyulması barədə qərar qüvvəyə mindi. 11.IX.1980 Ekvador, Venesuela, Kolumbiya və Peru Riobambedə (Ekvador) Davranış Kodeksi adlanan sənəd qəbul etdilər. Sənəddə subregiona daxil olan dövlətlərin «kollektiv iqtisadi təhlükəsizliyi» təmin etmək naminə «istənilən xarici təhlükə və iqtisadi təzyiqə qarşı» yekdil hərəkət etməyə hazır olduqları qeyd edilirdi.

**ANDROPOV YURİ VLADİMİROVİÇ** (1914-1984). Sov.İKP və sovet dövlətinin xadimi, diplomat, fövqəladə və səlahiyyətli *səfir* rütbəsi daşıyıb. 1953 ildən diplomatik işdə olub, 1953 ildə SSRİ XİN *(Xarici İşlər İdarəsi)* IV Avropa şöbəsinin müdiri, 1954-1957 ildə SSRİ-nin Macarıstanda səfiri işləyib. 1967-1982 ildə Dövlət Təhlükəsizlik Komitəsinin sədri olub. V-XI.1982 ildə Sov.İKP MK-nın katibi, XI.1982 ildən Sov.İKP MK-nın Baş katibi; VI.1983 ildən, eyni zamanda SSRİ Ali Soveti Rəyasət heyətinin sədri, SSRİ Müdafiə Şurasının sədri olub.

**ANDRUSOV MÜQAVİLƏSİ.** (1667). Rusiya ilə Reç Pospolita arasında 13,5 il müddətinə əldə edilən barışıq; 20.I. Smolensk yaxınlığındakı Andrusovo kəndinlə imzalanıb. Müqavilə *(Beynəlxalq müqavilə)* 1609-1611 illərdə Polşanın işğal etmiş olduğu rus torpaqlarını geri qaytarmağa və Ukraynanın Rusiyaya birləşdirilməsinə Polşanın razı olmaması üzündən onlar arasında 1654 ildən başlanan *müharibəyə* son qoymuşdur.

M.-yə əsasən, Smolensk voevodalığı qəza və şəhərləri ilə birlikdə Rusiyaya qaytarılırdı. Sol sahil Ukraynası ilə birlikdə Çerniqov voevodalığı və Kiyev şəhəri də Rusiyaya birləşdirildi. M. Rusiya ilə Pospolita arasında uzun müddət davam edən düşmənçiliyə son qoymuş, Osmanlı imperiyasına, az sonra isə İsveçə qarşı mübarizədə onların yaxınlaşmasına şərait yaratmışdır.

**ANKLAV** (fr. *enclave* – yad ölkənin içərisinə daxil olan torpaq sahəsi). Dövlətin hər tərəfdən digər və ya başqa dövlətlərin əraziləri ilə əhatə olunmuş torpaq sahəsidir.

A. tamamilə quru əraziləri ilə əhatə olunmuş və dənizə çıxışı olmayan *«qapalı yer» olduqda yaranır.* Məs., Lesota krallığı tamamilə CAR ilə əhatə olunub. İspan şəhəri Aliviya fransız departamenti Şərqi Prineyanın içərisində yerləşir. Hindistanda Çandernaqor 1952 llədək Fransaya məxsus olduğundan A. vaziyyətində idi.

Dəniz sahili olduqda yarımanklav yaranır. Məs., yarımanklav kimi 1919-1939 illərdə Şərqi Prussiya, Zair

körfəzi ilə ayrılmış Kabinde ətrafı; Anqoladan kənarda yerləşən Kişasa və b. göstərmək olar.

A. mövcudluğu bir sıra hüquqi problemlər doğurur, belə ki, A. zamanı ona getməyi təmin etmək, dənizlə və ya «bu qapalı ərazinin» məxsus olduğu dövlətin digər hissələri ilə A.-ın əlaqəsinə imkan yaratmaq problemi meydana çıxır. A.-la bağlı məsələlər maraqlı olan dövlətlər tərəfindən müqavilə *(Beynəlxalq müqavilə)* əsasında həll edilir.

**ANQARİYA** (fr. *angarie*, yunanca *angareia* – qədim fars dövlətində atlı qasid). Dövlət tərəfindən (çox vaxt döyüşən) digər dövlətlərə (bitərəf) məxsus nəqliyyat vasitələrinin hərbi məqsədlər üçün istifadə olunmaq məqsədilə ələ keçirilməsi. 1907 il V Haaqa konvensiyası *(Haaqa konfransları)* bitərəf ölkədən *(Bitərəflik)* gələn bütün dəmiryol vasitələrinin hamısına münasibətdə A.-nı bu şərtlə qanunauyğun hesab etmişdir ki, bu cür vasitələrdən istifadə olunmasına ancaq ən zəruri hallarda yol verilsin. *Birinci dünya müharibəsi* zamanı ABŞ və İngiltərə A.-ya əl atmışlar. Xüsusən III.1918 ildə ABŞ və İngiltərə, limanlarında olan bütün Holland yük gəmilərini Holland hökumətinin kəskin etirazına baxmayaraq müsadirə etmişlər. VI.1941 ildə, yəni ABŞ *İkinci dünya müharibəsinə* qoşulmazdan öncə ABŞ-da *prezidentə* limanlarında yerləşən xarici ticarət gəmilərindən istifadə etmək hüququ verilmişdir. Bu qanun başlıca olaraq milli müdafiə maraqları ilə əsaslandırılmışdır.

**ANNEKSİYA** (lat. *annexus*-birləşdirmə). Bir dövlətin başqa dövlətə aid ərazini qeyri-hüquqi yolla (işğal, zorla qoparma) özünə birləşdirməsi.

A. feodal və kapitalist dövlətlərin beynəlxalq təcrübəsində geniş yayılıb. A.-dan daha çox müstəmləkə ekspansiyası vasitəsi kimi istifadə edilird. (məs. Çar Rusiyasının 1804-1813 və 1826-1828 illərdə Şimali Azərbaycanı, Ermənistanın 1989-1994 illərdə Dağlıq Qarabağı, Avstriya-Macarıstanın 1908 ildə Bosniya və Hersoqovinanı, Böyük Britaniyanın 1900 ildə Bur respublikalarını və Kipr adasını, XIX əsrin sonunda ABŞ-ın Havay adalarını zəbt və işğal etmələri). *İkinci Dünya müharibəsi* dövründə hitlerçilər və yapon işğalçıları tutduqları əraziləri a. edirdilər.

A. müasir *beynəlxalq hüququn* kobud şəkildə pozulmasıdır. Nürnberq hərbi tribunalının 01.X.1946 qərarı A. yolu ilə ərazilərin tutulmasını qeyri-hüquqi hesab edir. Bundan əlavə bir sıra beynəlxalq sənədlər, o cümlədən *BMT Nizamnaməsi*, dövlətlərin daxili işlərinə qarışmanın yolverilməzliyi, onların *suverenliyi* və müstəqilliyini qorumağa dair 1970 il qətnaməsi və s. A.-nın yolverilməzliyini təsdiq edir. *Avropada Təhlükəsizlik və Əməkdaşlığa dair Müşavirənin Yekun Aktında* da A. yolverilməz hərəkət kimi qiymətləndirilib.

**ANSEY MÜQAVİLƏLƏRİ** (1854-1858). Qeyri-bərabər hüquqlu beynəlxalq müqavilələrin *(Beynəlxalq müqavilə)* adı; Ansey illərində («sabitlik» mənasında imperator Komeyin hakimiyyət illərinin (1854-1860) rəsmi adlandırılması) ABŞ və Avropa dövlətləri tərəfindən Yaponiyaya silahlı müdaxilə hədə-qorxusu altında qəbul etdirilib.

A.m-nin ilk silsiləsi 1854-1855 illərdə bağlanıb. Onlardan ən mühümləri: Amerika-Yaponiya müqaviləsi (31.III.1854) Kanaqavada (İokaqama); əlavə maddələr (21.VII.1854) Simodada; İngiltərə-Yaponiya müqaviləsi (14.X.1854) Naqasakidə və *ratifikasiya* fərmanlarının mübadiləsi zamanı bir qədər zahiri dəyişikliyə uğrayan varianti (19.X.1855) Simoda və Hollandiya-Yaponiya müqaviləsi (30.I.1856) Naqasakidə imzalanıb.

A.m.-lə Yaponiya öhdəyə götürürdü ki, ölkəni təcrid etmək siyasətindən imtina edəcək, qərb dövlətləri ilə əlaqələr yaradacaq, onlara daha üstün və əlverişli şərait təmin edəcək və tam toxunulmazlıq hüququ verəcək; Naqasaki, Simoda və Xakodat limanlarını xarici gəmilər üçün açıq elan edəcək, yapon məmurlarının *vasitəçiliyi* ilə məhdud həcmdə ticarətə icazə verəcək, müqavilənin imzalanmasından 18 ay sonra bu limanlardan birində *konsulların* qalmasına imkan yaradacaqdır. A.m. Yaponiyanın qərb dövlətlərindən asılılığının əsasını qoymuşdur.

A.m. arasında 26.I.1855 ildə Simodada imzalanan Rusiya-Yaponiya müqaviləsi xüsusi yer tutur; digərlərindən fərqli olaraq bu sənəd Rusiya tərəfindən heç bir təzyiq olmadan imzalanmışdır.

A.m.-nin ikinci silsiləsi – 1857-1858 illər müqavilələridir; 17.VI.1857 ildə Simodada ABŞ ilə Yaponiya arasında amerikalılara əlavə hüquqlar verən konvensiya *(Beynəlxalq konvensiya)* (açıq limanlarda daimi yaşayış yeri, toxunulmazlıq, dolların yapon valyutası ilə əlverişli mübadilə məzənnəsi), 29.VII.1858 ildə isə qeyri-bərabər hüquqlu ticarət müqaviləsi imzalanmışdır. Sonuncu müqavilə 1859-63 illər ərzində yeni liman və şəhərlərin (Naqasaki, Kanaqava, Niiqata, Xeqo, Osaka, Edo) ABŞ vətəndaşları üçün açıq elan olunmasını, Yaponiyada Amerika vətəndaşları üçün daimi yaşayış və toxunulmazlıq hüququnu, yapon məmurlarının vasitəçiliyi olmadan amerikalılara qeyri-məhdud ticarət aparmaq imkanlarını və s. nəzərdə tuturdu. Müqavilədə Yaponiya ilə hər hansı Avropa ölkəsi arasında münaqişə təhlükəsi yarandığı halda ABŞ *prezidentinin* «dost kimi vasitəçi» olmağa hazır olduğunu bildirən A.m. silsiləsinə həmçinin Yaponiyanın 18.VIII.1858 ildə Niderland, 19.VIII Rusiya, 26.VIII Böyük Britaniya və 09.X. Fransa ilə bağladığı ticarət sazişləri də daxildir.

**ANŞLÜSS** (al. *Anschluss* - birləşdirmə). Avstriyanın zorla Almaniyanın tərkibinə qatılması.

Avropada güclü alman dövləti yaratmaq məqsədilə Avstriyanı *ilhaq* etmək ideyası Almaniyanın hakim dairələri tərəfindən hələ XIX əsrin ikinci yarısından irəli atılıb. Almaniyanın güclənməsindən ehtiyat edən Fransa bu ilhaq əleyhinə kəskin çıxış edirdi. Fransanın baş naziri C.Klemansonun təkidilə *Versal sülh müqaviləsinə* A.-lə bağlı xüsusi maddə daxil edilmişdi. Maddədə Avstriyanın müstəqilliyinə Almaniyanın hörmət etməsi tələb olunurdu. Lakin Veymar (Almaniya) Konstitusiyasının 61-ci maddəsi ilhaqı mümkün və məqbul sayırdı. Hitlerçilər hakimiyyətə gəldikdən sonra bu yöndə əməli addımlar atıldı. 11.III.1936 ildə Almaniya ilə Avstriya rasında imzalanan müqavilədə Avstriya tərəfi almanpərəst siyasət yeritməyi öhdəyə götürdü. Lakin bununla kifayətlənməyən faşist dövləti 11.III.1938 ildə Avstriyanı işğal etdi. 13.III. Avstriya hökuməti ilhaq barədə qərar qəbul etdi, 15.III. isə Hitler ilhaqın baş tutduğunu rəsmən bəyan etdi. Avstriyanın Almaniyaya qatılması ilə Avropada sərhədlərin təftiş prosesi başlandı. SSRİ XİN-in *(Xarici İşlər İdarəsi)*

17.III.1938 il *Bəyanatında* Hitler Almaniyasının bu hərəkəti pislənildi. ABŞ və Fransa məsələnin üstündən sükutla keçdi. Yalnız İngiltərə hökuməti 02.III.1938 il ilhaqı bəyənmək barədə Bəyanatla çıxış etdi.

**ANTANTA** (fr.*Entente*-razılıq). Fransa, İngiltərə və Rusiyadan ibarət hərbi blok. 1904-1907 illərdə formalaşmış və *Birinci Dünya müharibəsinin* gedişində 25 dövləti birləşdirmişdi. Avstriya-Macarıstan, Almaniya və İtaliyadan ibarət digər hərbi bloka, *«Üçlər ittifaqı»na* qarşı durmaq üçün yaradılmış və Birinci Dünya müharibəsində qalib gəlmişdi. Oktyabr inqilabından sonra Rusiya A.-dan çıxmışdır.

**ANTİHİTLER KOALİSİYASI.** *İkinci dünya müharibəsində* Almaniya, İtaliya, Yaponiya və onların satelitlərinə qarşı vuruşan dövlətlərin və xalqların hərbi-siyasi ittifaqı. Onun əsasını ABŞ, İngiltərə və SSRİ hökumətlərinin qarşılıqlı yardım haqqında *bəyanatları* təşkil edirdi. A.k.-nın möhkəmləndirilməsi və genişləndirilməsində 01.I.1942 ildə Vaşinqtonda keçirilmiş müşavirəsi mühüm rol oynadı. 1945 ildə A.k.-na 50-dən çox dövlət daxil idi. İştirakçı dövlətlər arasında bəzi məsələlərə münasibətdə ziddiyyətlərin olmasına baxmayaraq, A.k. tam qələbəyədək varlığını saxlamışdı.

**ANTİKOMİNTERN PAKTI** (1936). 25.XI. Faşist Almaniyası ilə militarist Yaponiyası arasında Berlində imzalanmış və 5 il müddətinə nəzərdə tutulmuşdu. Kommunist İnternasionalına qarşı mübarizə aparan bu *pakta* 6.XI.1937 ildə İtaliya, 24.II.1939 ildə Macarıstan və Mançjou Qo, 27.III.1939 ildə İspaniya qoşuldu. 25.XI.1941 ildə pakt daha 5 ilə uzadılmış və bir sıra Avropa dövlətləri də ona qoşulmuşdu.

**ANZAM.** Böyük Britaniya, Avstraliya, Yeni Zelandiya və Malayziyanın 1949-50 illərdə təşəkkül tapmış hərbi-siyasi qruplaşması; Britaniyanın Malayya müstəmləkəsi (1957 ildən müstəsna Malayya Federasiyası, 1963 - Malayziya Federasiyası) və 1965 ildən isə Sinqapur ANZAM-ın təsir dairəsinə daxil olub. 1971 ildə Londonda müdafiəyə dair beştərəfli yeni saziş imzalanmışdır.

**ANZÜS.** ABŞ, Avstraliya və Yeni Zelandiyadan ibarət hərbi-siyasi blok. ANZÜS-ün fəaliyyətinin əsasını qoyan «təhlükəsizlik müqaviləsi» 01.IX.1951 ildə qeyri-məhdud müddətə imzalanıb, 22.IV.1952 ildə qüvvəyə minib. ANZÜS ABŞ-ın təşəbbüsü ilə Cənub-Şərqi Asiya və Sakit Okean hövzəsi ölkələrini *NATO* tipli geniş hərbi ittifaqda öz himayəsi altında birləşdirmək məqsədilə yaradılıb. ANZÜS-ün ali orqanı - xarici işlər nazirləri, yaxud onların müavinləri səviyyəsində üzv ölkələrdən birində növbə ilə ildə bir dəfə çağırılan Şuradır. 1952 ildə blokun Şura üçün tövsiyələr hazırlayan hərbi müşavirlər bloku, məşvərət qrupu yaradılıb. Mənzil - qərargahı yoxdur. ANZÜS 70 illərin 2-ci yarısından etibarən özünün fəaliyyət dairəsini, xüsusilə də Hind okeanında genişləndirmək üçün daha çox cəhd göstərmişdi. Blok çərçivəsində silahlı qüvvələrin ardıcıl hərbi təlim məşqləri keçirilir, hərbi xərclər artırılır. ABŞ hərbi-nüvə gəmilərinin iştirakçı ölkələrin limanlarına daxil olmasına, *aerodrom* və bazalardan istifadə edilməsinə onların razılığını almışdır.





**APARTEİD** (burların dilində, *Apartheid* – ayrı yaşama). CAR rejimi tərəfindən köklü afrikalılara və avropalı olmayan əhaliyə münasibətdə həyata keçirilən irqi fərq, ayrı-seçkilik, əsarət və zülm siyasəti; A. CAR-da dövlət siyasəti həddində olub. A. BMT BM, *Afrika Birliyi Təşkilatı* və Qoşulmamaq Hərəkatının *(Qoşulmamaq siyasəti)* bir çox qərarlarında bəşəriyyətə qarşı cinayət kimi qiymətləndirilib.

A. siyasətinin əsas istiqamətlərindən biri milyonlarla afrikalını xüsusi rayonlara - bantustanlara köçürməkdir. Bu tədbir zənciləri süni olaraq ölkənin qalan əhalisindən ayırmağa və onları torpaq hüququndan məhrum etməyə yönəlmişdir.

A. siyasətinə dair məsələ 1946 ildən baxılmaq üçün BMT-nin gündəliyinə dəfələrlə salınıb. BMT Baş Məclisinin 1962 il qərarı ilə təsis edilən A. əleyhinə xüsusi komitə A.-in ləğv edilməsi uğrunda mübarizədə BMT üzvü olan dövlətlərin səylərini birləşdirməkdə böyük iş görüb.

Dünyanın bir çox dövlətlərinin bu siyasətə qarşı fəal çıxışları 1973 ildə BMT BM tərəfindən A.-in bir cinayət olaraq qarşısının alınmasına və bu cinayətə görə cəzalandırılmaya dair konvensiya *(Beynəlxalq konvensiya)* qəbul edilməsilə nəticələnmişdir.

**ARALIQ DƏNİZİ ANTANTASI (ADA)** (1887). İngiltərə, Avstriya-Macarıstan və İtaliya arasında rəsmi şəkildə formalaşan ittifaq; Aralıq dənizinin şərq hissəsində *status-kvonu* saxlamağa xidmət edib.

Müstəmləkə məsələlərində İngiltərə-Fransa ziddiyyətləri və Balkanlarda Rusiyanın möhkəmlənməsinə yol verməmək cəhdləri İngiltərəni *Üçlər İttifaqı* ölkələri ilə yaxınlaşdırdı. Yaxın Şərqdə İngiltərə-Rusiya ziddiyyətlərinin kəskinləşməsində maraqlı olan Almaniya *kansleri* O.Bismark Britaniya hökumətini üstüörtülü şəkildə başa saldı ki, əgər saziş imzalanmazsa, Almaniya Misir məsələsində İngiltərəyə dəstək verməyəcəkdir. R.Solsberi güzəştə getməli olsa da, sazişin mətnində bir sıra düzəlişlər apardı.

İtaliya ilə saziş 12.11.1887 ildə Solsberi ilə İtaliyanın Londondakı *səfiri* Korti arasında *notalar mübadiləsi* şəklində bağlandı. Tərəflər öhdəyə götürürdülər ki, Aralıq, Adriatik, Egey və Qara dənizlərdəki status-kvonu saxlamağı və onun pozulmasına səbəb ola biləcək hər cür dəyişmələrə yol verməməyi öhdəyə götürürdülər. Status-kvonu saxlamaq mümkün olmayacağı təqdirdə İngiltərə ilə İtaliya öz aralarında xüsusi saziş bağlamağı nəzərdə tuturdular. İngiltərənin notasında *(Diplomatik notma)* qeyd olunurdu ki, «birlikdə fəaliyyət göstərməyin xarakteri hər bir hadisənin törəmə şəraitindən asılı olaraq ona ehtiyac duyulan vaxt müəyyən ediləcəkdir». Bu şərt İngiltərənin İtaliyaya hərbi yardım göstərməkdən yayınmasına imkan yaradırdı. 24.III.1887 ildə Avstriya-Macarıstan da A.D.A.-na qoşuldu.

12.XII.1887 ildə Londonda Solsberi ilə Avstriya-Macarıstanın səfiri Karoli arasında notalar mübadiləsi şəklində İngiltərə-Avstriya sazişi bağlandı. İtaliya 16.XII.1887 ildə sazişə qoşuldu. Yeni saziş Türkiyəyə münasibətdə hər üç dövlətin əvvəlki sazişdə nəzərdə tutulan mövqelərini dəqiqləşdirirdi. Avstriya-Macarıstan, İngiltərə və İtaliya Şərqdə status-kvonu saxlamağı öhdəyə götürrüdülər.

Bismarkın İngiltərəni Rusiya və Fransa ilə hərbi münaqişəyə cəlb et-

mək üçün ADA-nın köməyinə bəslədiyi ümidlər özünü doğrultmadı.

XIX əsrin axırlarında Britaniyanın müstəmləkə qüdrətinə qarşı Almaniyanın təhlükə törətməsi Britaniyanın əvvəlcə Fransa, sonra isə Rusiya ilə yaxınlaşmasına gətirib çıxardı ki, bunun da nəticəsində A.D.A. öz əhəmiyyətini itirdi.

**ARASLI ELMAN HƏMİD OĞLU** (1933). 1956 ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. 1962-1964 illərdə Misirdə, 1967-1969 illərdə isə İraqdakı müxtəlif Sovet Cəmiyyətlərinin nümayəndəliklərində çalışmışdır. 1969-1974 illərdə SSRİ-nin İraqdakı *səfirliyində* birinci katib, sonra isə müşavir, 1980-1984 illərdə İordaniyadakı səfirliyində müşavir, 1989-1992 illərdə isə Yəmən Respublikasındakı səfirliyində müşavir vəzifəsində çalışmışdır. 1993 ildə Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı Fövqəladə və Səlahiyyətli *səfiri* vəzifəsinə təyin olunmuşdur.

Fövqəladə və Səlahiyyətli səfir diplomatik rütbəsinə *(Diplomatik adlar və rütbələr)* malikdir.

**ARBİTRAJ** (*xarici ticarət üzrə*). Tərəflər arasında razılaşdırılmış, yaxud müəyyən olunmuş qaydada təyin olunan tretey məhkəməsi, yəni arbitrlər tərəfindən xarici ticarət razılaşmaları üzrə mübahisələri həll edən orqan.

Xarici ticarət A.-nın iki növü vardır: daimi fəaliyyət göstərən və müvəqqəti. Daimi fəaliyyət göstərən tretey (arbitraj) orqanları geniş səlahiyyətə malik olan, yəni xarici ticarət üzrə istənilən razılaşmalarda ortaya çıxan mübahisələri baxılmaq üçün qəbul edən məhkəmələrə və yalnız müəyyən hüquqi münasibətdən irəli gələn mübahisələrin həlli üzrə ixtisaslaşan məhkəmələrə bölünürlər. Onlar müvafiq nizamnamələr əsasında fəaliyyət göstərir, özlərinin prosedur qaydaları və katiblikləri olur (Xarici Ticarət Arbitraj Komissiyası - XAK).

Müvəqqəti xarici ticarət A.-na müraciət edərkən tərəflər hər bir konkret halda yaranmış mübahisəni həll etmək üçün A. orqanı yaradırlar. Xarici fərdlə hüquqi münasibətə dair mübahisələrə baxan A. məhkəmələri ilə ölkədaxili təsərrüfat təşkilatlarının mübahisələrinə baxan dövlət A.-nı eyni tutmaq olmaz.

**ARBİTRAJ** (Beynəlxalq məsələlər üzrə). Mübahisə edən tərəflərin könüllü razılığı əsasında vahid arbitr, yaxud arbitrlər tərəfindən beynəlxalq mübahisəni araşdıran orqan. A. mübahisə edən tərəflərdən ötrü onun qərarlarının mütləq hüquqi qüvvə daşıması və arbitrin, yaxud arbitrlərin mübahisə edən tərəflərin özləri tərəfindən seçilib təyin olunmaları ilə səciyyələnir.

İki növ A. mövcuddur: a) konkret mübahisə üzrə yaradılan və b) beynəlxalq müqavilələrin icrası gedişində ortaya çıxa biləcək mübahisələrin həlli üçün nəzərdə tutulan.

A. orta əsrlərdən məlumdur. Lakin daha çox XVIII əsrin sonunda və XIX əsrin əvvəlində geniş yayılıb. A. haqqında Əsasnamə beynəlxalq ixtilafların dinc həllinə dair 1899 və 1907 il Haaqa Konvensiyasında *(Haaqa konfransları 1899-1907)* əks olunub. A.-ın tətbiqi beynəlxalq mübahisələrin dinc həllinin mümkün vasitələrindən biri kimi *BMT Nizamnaməsində*, bir çox digər sazişlərdə nəzərdə tutulur.

**ARBİTRAJA DAİR MÜQAVİLƏ** (1915). İştirakçıların - Argentina, Braziliya və Çili ölkələrinin baş hərflərilə adlandırılır, 25.V.1915 ildə Buenos-Ayresdə imzalanıb. Müqavilə *(Beynəlxalq müqavilə)* onun iştirakçısı olan dövlətlərin Latın Amerikasında ABŞ-ın nüfuzunu zəiflətməyə yönəldilən növbəti cəhdlərindən biri idi. M.-ə görə, tərəflər arasında baş verə biləcək ziddiyyətləri dinc yolla həll etməkdən ötrü həmin məsələ ölkələrin hər birində bir nümayəndəsi olan daimi komissiyanın arbitrajına verilməlidir. M.-ni ancaq Braziliya yazılı şəkildə rəsmən təsdiq etmişdir.

**ARBİTRAJ QEYDİ.** Dövlətlərin arbitraj məhkəməsinə və arbitraj istintaq üsuluna müraciət qaydalarını tənzimləyən və müqavilənin izahı və onun müddəalarının tətbiqi prosesində *beynəlxalq müqavilə* iştirakçıları arasında yarana bilən mübahisələrin tənzimlənməsi qaydalarını müəyyənləşdirən beynəlxalq hüquq norması.

A.q. müqavilənin bir maddəsi kimi, ona əlavə və ya əsas müqaviləyə dair ayrıca müqavilə kimi tətbiq oluna bilər.

**ARGENTİNA-ÇİLİ ƏRAZİ MÜBAHİSƏSİ.** Biql körfəzində dəniz sərhədinin *delimitasiyası* və sərhəd rayonunda bir neçə adanın mənsubluğu məsələsi ilə bağlı baş verib (Biql körfəz münaqişəsi adlanır). Argentina ilə Çili arasında həmin məsələ ilə bağlı ixtilaf XIX əsrin əvvəllərində yaranıb. İki ölkə arasında 1826, 1855, 1881, 1893 və 1902 illərdə bağlanan müqavilələr *(Beynəlxalq müqavilə)* bu ixtilafı son olaraq tənzimləyə bilməmişdir. Belə ki, 1881 il müqaviləsi təkcə bunu müəyyənləşdirirdi ki, Argentinanın suveren *(Suverenlik)* hüquqları Biql körfəzindən şimalda və şərqdə yerləşən adalara, Çilininki isə Biqldən cənubdakılara şamil edilməlidir. 1855 və 1902 il müqavilələrilə nəzərdə tutulurdu ki, ərazi mübahisələrini həll etməkdən ötrü tərəflər *arbitaja* müraciət etməlidirlər.

1960 illərin axırlarında bu rayonda xeyli balıq, neft və qaz ehtiyatlarının aşkara çıxarılması ilə ərazi mübahisəsi daha da kəskinləşdi. 1967 ildə Çili iddianı baxılmaq üçün birtərəfli qaydada Böyük Britaniya hökumətinin arbitrajına verdi. 22.VII.1971 ildə İngiltərə, Argentina və Çili arbitaj məhkəməsinin təsis olunması barədə razılığa gələ bildilər. Məhkəmənin 02.V.1977 il qərarına əsasən, Argentinanın suverenliyi Biql boğazının şimal hissəsinə, Çilinin suverenliyi isə boğazın cənubuna və mübahisəli Pikton, Lenkton, Lenmoks və Nueva adalarına şamil edilirdi. Argentina hökuməti bu qərarı rədd etdi və Çili hökumətinə təklif etdi ki, ikitərəfli danışıqlar aparılsın və Cənubi Atlantikada vəziyyəti gərginləşdirməmək barədə qarşılıqlı təəhhüd götürülsün. Lakin Çili xuntası iki ölkə arasında münasibətləri daha da gərginləşdirmək yolunu tutdu.

«Puerto-Mont protokolu» (20.II.1978) mübahisəni həll etmək üçün danışıqlar aparmağı nəzərdə tuturdu, lakin qitənin cənub hissəsində yurisdiksiyaya *(Dövlətin yurisdiksiyası)* qəti hədd qoyulması ilə bağlı qarşıq komissiyanın işi düyünə düşdü. 1978 ilin dekabrında tərəflər Vatikanın *vasitəçiliyindən* istifadə etmək barədə razılığa gəldilər və bu xüsusda 08.I.1979 ildə saziş imzalandı. Hər iki tərəf 23.I1984 ildə bir daha təsdiq etdi ki, mübahisəni dinc yolla həll etmək niyyətindədirlər.

**ARXİPELAQ SULARI.** BMT-nin Dəniz hüququna dair 1982 il Konvensiyasında (*BMT-nin Dəniz hüququ Konvensiy-*

*ası 1982)* nəzərdə tutulan *beynəlxalq dəniz hüququ* təsisatı;

Konvensiyaya uyğun olaraq, A.s. dedikdə, arxipelaq-dövlətin, daha doğrusu, tamamilə bir və ya bir neçə arxipelaqda yerləşən və digər adaları da özündə ehtiva edə bilən *dövlətin suverenliyi* altında olan dəniz suları başa düşülür. Arxipelaq bir-biri ilə sıx qarşılıqlı əlaqədə olaraq vahid coğrafi, iqtisadi və siyasi bütövlük təşkil edən və ya tarixən belə hesab edilən adalar qrupu (adaların hissələri də daxil olmaqla), onları birləşdirən sular və digər təbii qurumlar (qayalar, riflər) kimi müəyyən edilir.

A.s.-ın coğrafi sərhədləri müstəqil arxipelaq çıxış xətləri çəkilməklə müəyyən edilir. Bu xətlər daha çox uzaqda olan adaların və arxipelaqın quruyan riflərinin dənizdə daha çox görünən nöqtələrini birləşdirir.

Arxipelaq dövlətin ərazi sularının, bitişik zonanın (xüsusi zonalar), iqtisadi zonanın və kontinental şelfin eni arxipelaq çıxış xətlərindən başlanmaqla hesablanır.

Arxipelaq dövlətin suverenliyi A.s. üzərindəki hava məkanına, habelə bu suların dəniz təkinə və *onun dibindəki* ehtiyatlara şamil edilir.

**ARXİVLƏRİN DƏYİRMİ MASASI.** Arxivçilərin beynəlxalq konfransı *(Beynəlxalq konfranslar)*; 1954 ildən etibarən Beynəlxalq Arxivlər Şurasının nizamnaməsinə uyğun olaraq, arxivlər sahəsində beynəlxalq əməli əməkdaşlıq məsələlərini nəzərdən keçirmək üçün ildə bir dəfə çağırılır. Dəyirmi masada Beynəlxalq Arxivlər Şurasının üzvü olan ölkələrin, AŞ İcraiyyə Komitəsinin üzvləri, beynəlxalq təşkilatların arxiv xidməti rəhbərləri iştirak edirlər.

**ARİFİ PAŞA ƏHMƏD** (1830-1895). Türk siyasi və elm xadimi, diplomat. Peşəkar diplomat ailəsində doğulub; 1845 ildə, on beş yaşında ikən sultan divanına katib götürülüb. 1855 ildə baş katib qismində Əli Paşa ilə birlikdə *Vyana konfransında* iştirak edib. Bir il sonra yenə də baş katib kimi Əli Paşanın rəhbərlik etdiyi Osmanlı hökuməti nümayəndə heyətinin tərkibində Paris konfransında *(Paris sülhü 1856)* iştirak edib. Hökumət və sonra da saray tərcüməçisi olub. Xarici İşlər Nazirliyində *(Xarici İşlər İdarəsi)* müşavir kimi çalışdıqdan sonra Avstriyada (Vyana) Osmanlı dövlətinin *elçisi* təyin olunub. Sonra Xarici İşlər, Maarif və Ədliyyə nazirliklərində işləyib. Birinci Məşrutiyyət dövründə (1876) əyanlar Məclisinə üzv seçilib, 1879 ildə qısa müddətə sədr-əzəm və Dövlət Şurasının sədri olub. İkinci dəfə Osmanlı dövlətinin Avstriyada *səfiri* işləyib, daha sonra xarici işlər naziri və Dövlət Şurasının sədri təyin olunub.

**ARIKAN SAFFET.** (1888-1947). Türk siyasi və hərbi xadimi, diplomat. 1910 ildə Hərbi Akademiyanı bitirəndən sonra *Osmanlı ordusunda xidmət edib. Birinci Dünya müharibəsinin* iştirakçısı olub. Dardanel və bir sıra digər hərbi əməliyyatların gedişində fərqlənib. 1918 ildə Azərbaycana gələn türk hərbi hissələri sırasında Bakını erməni daşnaklardan təmizlənməsində iştirak edib. İsmət İnönü ilə birlikdə Ankaraya gələrək, milli-azadlıq hərəkatına qoşulub, 1921 ilin sonlarında Türkiyənin RSFSR-də hərbi *attaşesi* təyin edilib. 6 dəfə Türkiyə Böyük Millət Məclisinə deputat seçilib. 1925-1931 illərdə Respublika Xalq Partiyasının baş katibi. 1935-1938 illərdə milli maarif naziri, 1940-1941 illərdə milli müdafiə naziri,





1942-1944 illərdə Almaniyada Türkiyənin fövqəladə və səlahiyyətli *səfiri* işləyib. Türkiyənin *İkinci Dünya müharibəsində bitərəfliyinin* qorunub saxlanmasında bir diplomat kimi böyük bacarıq nümayiş etdirib.

**ARİTA-KREYQİ SAZİŞİ.** (1939). Yaponiyanın xarici işlər naziri Britanın Tokiodakı ingilis səfiri R.Kreyqi ilə danışıqlarının nəticəsi kimi 22.VII tarixli *notalar mübadiləsi* yolu ilə tərtib edilmiş İngiltərə-Yaponiya sazişi; danışıqlara səbəb Çinin işğal olunmuş hissəsində Yaponiyanın hərbi hakim dairələrinin antiingilis hərəkətləri (Britaniyanın hərbi attaşesi Spiranın həbs edilməsi, Tyanszində ingilis *konsessiyasının* blokadası və Qulans yarımadasına beynəlxalq settlment (əhali köçürülməsi) olmuşdur. Danışıqlar İngiltərənin «Şərqi Asiyada yeni qaydaları» formal olaraq bəyan etməkdən imtina edilməsi halında Çində antiingilis hərəkətlərlə hədələyən Yaponiyanın getdikcə artan tələblər irəli sürməsi şəraitində keçirdi.

Britaniya hökuməti Yaponiyaya güzəştə getməklə Çinlə mövqeyini yaxınlaşdırmağa ümid edərək bildirdi ki, Çində yaranmış vəziyyəti və yapon silahlı qüvvələrinin «xüsusi ehtiyaclarını» etiraf edir və bu səbəbdən «bu ehtiyacları təmin etməkdə yapon silahlı qüvvələrinə maneə törədən» hər hansı hərəkəti yaxud tədbiri dəstəkləməməyi öhdəyə götürür.

**ARKADİ MİLMAN.** 1976-1980 illərdə Tel-Əviv Universitetinin siyasi elmlər fakultəsini bitirmişdir. 1984-1987 illərdə Qüdsdəki İbri Universitetində rus və sovet tarixi üzrə ixtisaslaşma və 1986-1990 illərdə həmin Universitetdə çalışmışdır. 1989-1990 illərdə Niderlandda İsrailin rəsmi diplomatik qrupunun başçı müavini işləmişdir. 1992 ildə İsrailin Qazaxıstan Respublikasındakı *səfirliyində müvəqqəti işlər vəkili*, 1993-1995 illərdə İsrailin Rusiyadakı səfirliyində müşavir işləmiş, 1995-1996 illərdə İsrail Xarici İşlər Nazirliyində *(Xarici İşlər İdarəsi)* I Qərbi Avropa İdarəsində başçı müavini olmuşdur. 1997-2001 illərdə İsrail dövlətinin Azərbaycan Respublikasında Fövqəladə və səlahiyyətli *səfiri* işləmişdir.

**ARKTİKA.** Coğrafi mərkəzi Şimal qütbü olan region. Buraya Avropanın, Asiyanın və Şimali Amerikanın şimal hissələri və çoxsaylı adaları və arxipelaqları ilə birlikdə Şimal Buzlu okeanı daxildir. A. üçün məqbul sayılan ümumi coğrafi sərhədlər müəyyən olunmuşdur.

Rusiya, ABŞ, Kanada, Norveç və Danimarka A. dövlətləri hesab olunurlar.

A.-nın hüquqi rejimi *beynəlxalq hüququn* normaları və A. dövlətlərinin milli qanunvericilik aktları ilə müəyyənləşdirilir.

Rusiyanın sahil boyu yerləşən A. rayonlarına hüquqları varisi olduğu SSRİ MİK-in (15.IV.1926) qərarı ilə təsbit edilib. Bu qərara əsasən, Şimal Buzlu okeanında Şimal qütbünədək 32004I35II ş.u. və 168049030I! q.u. meridianları arasındakı hüdudlarda yerləşən «istər kəşf edilən və istərsə də bundan sonra kəşf oluna bilən bütün torpaqlar və adalar» Rusiyanın ərazisi hesab olunur. İstisna yalnız 320 və 350 ş.u. arasında yerləşən Şpisbergen arxipelaqının şərq adaları üçün müəyyən edilib.

1925 ildə Kanadada şimal-qərb torpaqları haqqında qanuna «Əlavə» qəbul edilib. «Əlavə» Kanada hökumətinin xüsusi razılığı olmadan xarici döv-

lətlərə Kanadanın A. torpaqlarında və adalarında hər hansı bir fəaliyyətlə məşğul olmağı qadağan edir. Bu qaydalar 1926 ildə kral fərmanı ilə təsdiq edilmişdir.

Digər A. dövlətləri onların ərazilərinə bitişik A. rayonlarına dair xüsusi sənəd qəbul etməmişlər. Lakin onların *kontinental şelf*, iqtisadi və ya balıqçılıq zonaları haqqında qanunvericilik aktları bu rayonlara da şamil edilir.

1933 ildə *Beynəlxalq Məhkəmənin* Daimi Palatasının qəbul etdiyi qərara əsasən, Qrenlandiya üzərində Danimarkanın hüququ tanınmışdır.

Şpisbergenə dair 1920 il müqaviləsinə əsasən, Şpisbergen üzərində Norveçin hüququ tanınmışdır.

Arktika dövlətlərinin xüsusi hüquqlarının tanınması *BMT-nin Dəniz hüququ konvensiyasında (1982)* öz əksini tapıb.

**ASA** (CƏNUB-ŞƏRQİ ASİYA ASSOSİASİYASI). Malayziya, Tailand, Filippin tərəfindən 1961 ildə yaradılmış subregional qruplaşma; ABŞ və hərbi-siyasi SEATO bloku ilə sıx əlaqədə olub. Regionda mövcud olan hakim rejimlərin qorunub saxlanmasını təmin etmək, öz sıralarına yeni dövlətlər cəlb etmək məqsədi güdüb. Lakin Cənubi-Şərqi Asiya ölkələrinin əksəriyyəti bu qruplaşmada iştirakdan açıq imtina etmişlər. ASA ölkələrinin xarici işlər nazirlərinin 1967 il Kuala-Lumpur sessiyası ASA-nın fəaliyyətini dayandırmaq, həyata keçirilməkdə olan və ya əməl olunması nəzərdə tutulan layihələri Cənubi-Şərqi Asiya dövlətlərinin Assosiasiyasına *(ASEAN)* vermək barədə qərar qəbul etmişdir.

**ASEAN** (CƏNUB-ŞƏRQİ ASİYA DÖVLƏTLƏRİNİN ASSOSİASİYASI). Subregional siyasi-iqtisadi təşkilat; Bruney, İndoneziya, Malayziya, Sinqapur, Tailand və Filippini öz tərkibində birləşdirir. Assosiasiya Banqkok, 7-8.VIII.1967 ildə 5 ölkənin xarici işlər nazirlərinin konfransında *(Beynəlxalq konfrans)* təsis edilib. Onun rəsmən bəyan edilmiş məqsədləri - üzv ölkələrin iqtisadi, sosial, mədəni və digər əməkdaşlıq sahələrini inkişaf etdirmək, Cənub-Şərqi Asiyada «sülh və sabitliyin» bərqərar olmasına yardım göstərməkdir. Bütün bunlar 1976 ildə Bali adasında imzalanmış sənədlərdə Cənub-Şərqi Asiyada dostluq və əməkdaşlıq haqqında müqavilədə və ASEAN razılaşması Bəyannaməsində təsbit edilib. ASEAN-ın rəhbər orqanı - iştirakçı ölkələrdə xarici işlər nazirlərinin hər il keçirilən sessiyalarıdır. Sessiyalararası müddətdə isə növbəti sessiyanın keçirilməsi nəzərdə tutulan ölkənin xarici işlər nazirinin sədrliyi altında Daimi Komitə fəaliyyət göstərir. Xüsusi sessiyaların keçirilməsi də baş verir. 1976 ildən başlayaraq iştirakçı ölkələrin dövlət və hökumət başçılarının *(Dövlət başçısı; Hökumət başçısı)* müşavirələri keçirilir. Bundan başqa üzv ölkələrin müəyyən sahələrdə (iqtisadiyyat, əmək, sosial təminat, təhsil, informasiya) nazirlərinin görüşləri də təşkil edilir. 1970 illərin sonlarından etibarən forumlar sistemi fəaliyyət göstərir.

Assosiasiyanın işçi orqanları: katiblik (iqamətgahı - Cakartadır), 11 sahə komitəsi (ticarət, sənaye, kənd təsərrüfatı, nəqliyyat, maliyyə və s. üzrə) fəaliyyət göstərir.

**ASİYA İNKİŞAF BANKI.** (AsİB). *BMT-nin* İqtisadiyyat və Sosial Komissiyasının XXI sessiyasının qərarı ilə Asiya və Sakit okean hövzəsi (ASOİSK) üçün nəzərdə tutulub; 1966 ildə təsis edilib.





Kredit fəaliyyətinə II.1968 ildə başlayıb. ASOİSK və BMT-nin ixtisaslaşmış təşkilatlarının üzvü olan ölkələr AsİB-in iştirakçıları ola bilərlər.

AsİB səhmdar cəmiyyət kimi yaradılıb; maliyyə ehtiyatları nizamnamə kapitalından və kreditlərdən toplanır. AsİB öz ehtiyatlarını səfərbər etmək məqsədilə Amerika və Qərbi Avropa pul bazarlarına qiymətli kağızlar çıxarır. Rəsmi olaraq məqsədləri inkişaf etməkdə olan ölkələrin Asiya iqtisadi və xarici ticarətinin tərəqqisinə kömək etmək, habelə onlara maliyyə, texniki və iqtisadi yardım göstərməkdir.

Bankda səslərin 80%-i səhm kapitalı üçün keçirilən üzvlük haqqına mütənasib qaydada bölüşdürülür və bu səbəbdən bütün səslərin 65%-i inkişaf etmiş kapitalist ölkələrinin payına düşür.

AsİB müxtəlif obyektlərin tikilməsini birgə maliyyələşdirmək üçün beynəlxalq və milli kredit təşkilatları (həm dövlət və həm də özəl) ilə əməkdaşlıq edir. Bankda iki ixtisaslaşdırılmış fond fəaliyyət göstərir: Asiya İnkişaf Fondu və Özəl Texniki Yardım Fondu.

AsİB-in ali orqanı Müdirlər Şurasıdır. Mənzil-qərargahı Manila (Filippin) şəhərində yerləşir.

**ASİYA KONFRANSI.** (1955). 17 dövlətin nümayəndələrinin iştirakı ilə 6-10.VI. Dehlidə keçirilmişdir. Beynəlxalq gərginliyi zəiflətmək *(Beynəlxalq gərginliyin zəiflədilməsi)* üçün Asiya xalqlarını həmrəyliyə çağırmış, xalqların azad yaşamaq hüququnu müdafiə etmişdi. Asiya ölkələrindəki xarici *hərbi bazaların* ləğv olunmasını, Tayvanın Çinə, Qoanın Hindistana, Qərbi İrianın İndoneziyaya, Okinavanın Yaponiyaya qaytarılmasını tələb edirdi. Nüvə, bioloji və kimyəvi silahların qadağan olunmasını və onların sınaqlarının dayandırılmasını tələb edən qətnamə qəbul etmişdi.

**ASİYA-SAKİT OKEAN İQTİSADİ ƏMƏKDAŞLIĞI – APEC.** (1989). Avstraliyanın təşəbbüsü ilə yaradılıb. 19 dövlət-Avstraliya, Bruney, Honkonq, Kanada, Çin, Kiribati, Malayziya, Marşal adaları, Yeni-Zelandiya, Papua-Yeni Qvinea, Koreya Respublikası, Rusiya Federasiyası (1997-ildən), Sinqapur, ABŞ, Tailand, Tayvan, Flippin, Çili daxildir. Qərarlar konsensus əsasında qəbul edilir və məsləhətçi statusa malikdir. APEC-in əsas məqsədi region ölkələri arasında intisadi əməkdaşlığı inkişaf etdirmək, bütün üzv ölkələrin iqtisadi inkişafına nail olmaq, açıq, çoxtrefli beynəlxalq ticarət sistemini möhkəmləndirmək, ticarətin liberallaşmasının və Asiya-Sakit okean regionuna sərmayə qoyuluşu səviyyəsini yüksəltmək, iqtisadiyyatın qeyri-dövlət sektorunu gücləndirməkdən ibarətdir. APEC-in strukturunu vəzifəli şəxslərin illik görüşləri, Sakit okean işgüzar forumu, ticarət və sərmayələr üzrə Komitə, iqtisadi Komitə, büdcə-inzibati Komitə, işçi qruplar və katiblik təşkil edir. APEC-in fəaliyyət istiqamətini işçi qruplar müəyyənləşdirir. Aşağıdakı işçi qruplar var: energetika üzrə regional əməkdaşlıq qrupu, insan resurslarının inkişafı qrupu, sənaye və texnika qrupu, turizm qrupu, telekommunikasiya qrupu, ticarət investisiya statistikası qrupu, ticarətə yardım qrupu, dəniz ehtiyatlarının qorunması qrupu. Bu qruplardan bəziləri komitələrə çevrilir. İnkişaf etmiş ölkələr üçün 2010 ildə, az inkişaf etmiş ölkələr üçün isə 2020 ildə azad mübadilə zonaları yaradılması planlaşdırılır.

**ASİYA-SAKİT OKEAN ŞURASI** (ASPAK). Regional siyasi-iqtisadi təşkilat; hakimiyyət strukturlarının mövqelərini möhkəmləndirmək üçün siyasi məşvərət və əməkdaşlıq orqanı kimi Avstraliya, Malayziya, Yeni Zelandiya, Tailand, Yaponiya, Cənubi Koreya, Cənubi Vyetnam və Tayvan tərəfindən 1966 ildə yaradılıb. ABŞ-ın xəttini həyata keçirən bəzi üzv ölkələrdəki rejimlər ASPAK-ı antikommunist hərbi-siyasi bloka çevirməyə çağırırdılar. Avstraliya, Yeni Zelandiya və Yaponiya Asiya - Sakit okean regionunda öz siyasi və iqtisadi nüfuzlarını artırmaq planlarını ASPAK-la bağlayırdılar. Hind-Çində milli-azadlıq hərəkatının qələbəsi ilə imperializmin Cənub-Şərqi Asiyada və Sakit okean regionunda yaranan hərbi-siyasi strategiya böhranı ASPAK-da daxili ziddiyyətləri kəskinləşdirdi. 1973 ildə Malayziya bu təşkilatdan çıxdı. Şuranın növbəti sessiyasını «qeyri-müəyyən vaxtadək» təxirə salmaq barədə 1973 il qərarı əslində ASPAK-ın fəaliyyətinin dayandırılması kimi qəbul edildi. 1975 ildə Yeni Zelandiya və Tailand ASPAK-dan öz təmsilçilərini geri çağırdılar.

**ASMA ANİSA** (1949). 1974 ildə Pakistan Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) fəaliyyətə başlamışdır. 1978-1980 illərdə Pakistan İslam Respublikasının Fransadakı *səfirliyində*, 1985-1988 illərdə Tunisdəki səfirliyində, 1988-1992 illərdə Çin Xalq Respublikasındakı səfirliyində işləmiş, 1995-1997 illərdə Pakistan İslam Respublikasının Los-Ancelesdəki (ABŞ) Baş konsulluğunda (*Konsul idarəsi*) çalışmışdır. 1997 ildə Pakistan İslam Respublikasının Fransadakı səfirliyində səlahiyyətli nazir vəzifəsində çalışmışdır. 1999-2000 illərdə Pakistan İslam Respublikasının Azərbaycan Respublikasında *səfiri* işləmişdir.

**ATATÜRK MUSTAFA KAMAL** (1881-1938). Türkiyənin hərbi, siyasi və dövlət xadimi. 1902 ildə hərbi məktəbi bitirdikdən sonra orduda müxtəlif vəzifələr tutub. 1913 ildə Türkiyənin Sofiyada (Bolqarıstan) hərbi *attaşesi* olub A.M.K. *Birinci Dünya müharibəsində* osmanlı ordusunda öz sərkərdəlik bacarığına görə ən çox nəzərə çarpan generallardan olub. Onun rəhbərlik etdiyi hərbi hissələr İstanbulu ələ keçirmək üçün Kelibolu yarımadasına çıxarılan ingilis-fransız qoşunlarını 1915-1916 illərdə məşhur Çanaqqala əməliyyatında ağır məğlubiyyətə uğradıb.

Türkiyə Birinci Dünya müharibəsində məğlub olandan sonra, 1919 ildə Anadoluya gələn A. burada başlayan milli-azadlıq hərəkatına rəhbərlik edib. A.-ün yaratdığı yeni türk ordusu 1921-1922 illər ingilis-yunan müdaxiləçilərini məğlub edərək, ölkədən qovandan sonra Türkiyəni parçalamağı planlaşdıran Sevr müqaviləsi (*Sevr sülh müqaviləsi 1920*) öz əhəmiyyətini itirmişdir. Türkiyə Böyük Millət Məclisi (TBMM) bu qələbəyə görə Atatürkə marşal rütbəsi və qazi (qalib) fəxri ləqəbini verib.

Atatürk 1920-1933 illərdə onun özü tərəfindən yaradılmış TBMM-in sədri, 1923-1938 ildə isə Türkiyə Respublikasının *prezidenti* olub. Türkiyəni orta əsr cəhalətindən xilas edərək, onu dünyanın müasir sivil dövlətləri səviyyəsinə qaldırmaq məqsədilə Atatürk 20-30 illərdə Türkiyə tarixinə «Mədəni inqilab» adı ilə daxil olan sosial-iqtisadi, siyasi və mədəni-maarif sahələrində bir sıra islahatlar həyata keçirib. Türkiyənin milli istiqlaliyyəti və suverenliyinin





möhkəmləndirilməsində misilsiz xidmət göstərib.

Atatürk Türkiyə-Azərbaycan əlaqələrinin yaradılmasını və inkişafını öz xarici siyasətində ön plana çəkib. 1921 ildə Ankarada Azərbaycan Respublikasının *səfirliyinin* açılması mərasimində şəxsən iştirak edərək, *səfir* İbrahim Əbilovu (*Əbilov İbrahim Məhərrəm oğlu*) türk xalqı adından salamlayıb.

**ATƏŞKƏS.** Döyüşən tərəflər arasında atəşin müvvəqəti və ya daimi kəsilməsi; *BMT Təhlükəsizlik Şurası* döyüşən tərəflərdən A. haqda razılaşma bağlanmasını tələb edə bilər. A.-ə dair beynəlxalq-hüquqi normalar əsasən 1907 il Haaqa konfransında (*Haaqa konfransları 1899-1907*) əks olunub. Bu qaydalara görə əgər A.-in müddəti müəyyən olunmayıbsa, tərəflərdən biri döyüş əməliyyatlarına başlaya bilər. A. ümumi və yerli ola bilər.

**ATƏT** (bax. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi).

**ATİF SEYİT MƏHƏMMƏD OĞLU** (1399-1469). Krım xanlığında ərsəyə çatan elm və siyasi xadim, diplomat. Krımla Misir arasında kəsilən *diplomatik əlaqələri* bərpa etmək məqsədilə 1427 ildə *elçi* kimi Qahirəyə göndərilib. 1428 ildə Hacı Girey Krım xanı olandan sonra Atif onun müşaviri təyin edilib. Polşa və Rusiya ilə sülh şəraitində yaşamağa çalışan Krım xanı A.S.M.-i Polşaya elçi göndərmiş və venetsiyalılarla, genuyalıları Krımdan qovmağı və Krımı güclü bir dövlətə çevirməyi götürqoy edərkən A.S.M.-in məsləhət və xidmətlərindən faydalanıb. Qara dənizin Şimal-Qərb sahillərində köçəri həyat tərzi yaşayan tatarların və noqayların Krım xanlığı ətrafında birləşməsində A.S.M.-in böyük xidmətləri olub. Həmin dövrdə İstanbula elçilər göndərməklə Krım-osmanlı əlaqələrinin yaranması, Osmanlı donanmasının genuyalıları Krımdan qovmaq üçün həmlələri və eləcə də tatar gənclərinin təhsil üçün İstanbula göndərilmələri bir diplomat kimi A.S.M.-in uğurlu xidmətidir.

**ATİLLA** (*təxm. 400-453*). Qərbi Hun imperiyasının hökmdarı. Hakimiyyətinin 1-ci dövründə (434-444) imperiyanı böyük qardaşı Bledlə birlikdə idarə edib. İmperiyada daxili sabitliyi bərpa etmək məqsədilə hunların hakimiyyətinə qarşı baş qaldıran qəbilələrin müqavimətini qırmış, Bizans imperiyası ilə Marqus sülh müqaviləsi bağlayaraq (434), onu əvvəllər olduğu kimi, Hun imperiyasına hər il 700 librə bac-xərac verməyə məcbur etmişdir. Atilla 441 ildən başlayaraq, o dövrün ən qüdrətli dövlətləri olan Roma imperiyası və Bizans üçün təhlükəli rəqib idi. 441 ildə böyük bir ordu ilə Dunayı keçərək, Egey dənizi sahillərinə qədər torpaqları ələ keçirmiş, 442 ildə bağlanan sülhə görə, Bizansı ödənən bac-xəracın miqdarını 2100 librəyədək artırmağa məcbur edib. 445 ildə qardaşı Bledi öldürməklə, Hun imperiyasının şəriksiz hökmdarı olan A.Bizansla bağladığı sülh müqaviləsini pozaraq, 447 ildə Dunayı keçməklə, Konstantinopola qədər irəliləyib. 448 ildə A. Bizansa növbəti zərbə endirərək, bütün Frakiyanı ələ keçirmişdir.

451 ildə 500 minlik ordu ilə Qərbi Roma imperiyasına zərbə endirən A. Qalliyaya həmlə etmişdir. O, romalıların müttəfiqi vestqotların paytaxtı Orleanı mühasirə etsə də, şəhəri ala bilməmişdir.

A. 452 ildə Alp dağlarını keçərək, Romaya hücum etmişdir. Papa

Leonun xahişinə əməl edən A. müdafiəsiz qalan şəhərə girməyərək İtaliyanı tərk etmişdir. A. 453 ildə müəmmalı şəkildə vəfat edib. Avropa xalqlarının əfsanələrində A. «Allahın qamçısı» kimi anılır. A. cəsur sərkərdə olmaqla yanaşı, həm də mahir diplomat idi. Öz məqsədinə çatmaqda güc tətbiqi ilə bərabər, diplomatik gedişlərdən də məharətlə istifadə etmişdi.

**ATLANTİKA XARTİYASI** (1941). 14.VIII. qəbul olunmuş ABŞ və Böyük Britaniyanın hökumət başçılarının *Bəyannaməsi.* Ərazi işğallarından imtina etməyə, xalqların idarə formasını müstəqil seçmək hüququnu tanımağa çağırırdı. Nasist ağalığını məhv etməyə, təcavüzkarı tərksilah etməyi tələb edirdi. 24.IX. 1941 ildə SSRİ A.x.-nın əsas prinsiplərini qəbul etdi.

**«ATLANTİZM» NƏZƏRİYYƏSİ.** Amerikanın xarici siyasət nəzəriyyəsi; *müharibədən* sonrakı ilk illərdə ortaya çıxıb. Əsasını belə bir tezis təşkil edir ki, Şimali Amerika və Qərbi Avropanın kapitalist dövlətlərinin hərbi-siyasi və *iqtisadi birliyinin bir sistem kimi* yaşamasına və Şərqi Avropaya qarşıdurmasına təminatdır.

İlk əvvəl «Atlantika ittifaqı» adlanan ideya milli hökumətlərin başı üstündən idarə olunacaq «fövqəldövlət» deyilən qurumun yaradılmasını nəzərdə tuturdu.

60 illərdə yeni istiqamət alan A.n. – «Atlantika Birliyinin» tərəfdarları siyasi əlaqələrə istinadən belə hesab edirdilər ki, bu əlaqələr iqtisadi və siyasi münasibətlərə sabitlik verilməsində və Qərbi Avropa ölkələrinin daha sıx assosiasiyasının yaradılmasında bünövrə rolunu oynayacaqdır.

70 illər ərəfəsində imperialistlərarası rəqabətdə Qərbi Almaniyanın ön plana çıxması ilə ABŞ Atlantika regionunda daha çox iqtisadi «tərəfdaşlığa» təkid etməyə başladı. R.Niksonun *prezidentliyi* dövründə işlənib hazırlanmış «yetkin tərəfdaşlıq» doktrinası siyasətdə Qərbi Avropalı müttəfiqlərin də mənafeləri nəzərə alınmaqla, çevik koordinasiya sisteminin yaradılmasına əsaslanırdı. Əslində həmin doktrina vasitəsi ilə ABŞ öz hərbi xərclərinin bir hissəsini *NATO* ölkələrinin çiyninə yükləməyə çalışırdı.

70 illərin ortalarında ABŞ-da daha çox «üçtərəfli inkişaf» konsepsiyası rəvac tapmağa başladı ki, bu da Yaponiyanın Atlantikarası münasibətlərə cəlb olunmasını nəzərdə tuturdu.

Hazırda qərb politoloqları arasında «atlantizm»in həm tərəfdarları, həm də əleyhdarları var: birincilər hesab edirlər ki, bu qərb ittifaqının hərbi qüdrətini möhkəmləndirir, ikincilərin fikrincə isə, Şərqdən təhlükə xeyli zəifədiyi üçün ABŞ-ın hakimliyi milli suverenliyi sıxışdırır.

**«ATOM DİPLOMATİYASI».** *İkinci Dünya müharibəsindən* sonra digər ölkələrə təsir vasitəsi kimi atom bombasına malik dövlətlərin xarici siyasət metodlarını səciyyələndirən istilah; ABŞ müharibədən sonrakı ilk illərdə atom silahına malik yeganə ölkə olmuşdur. Hazırda atom silahına malik ölkələrin siyahısı artıb. «Birinci nüvə zərbəsi», «Məhdud nüvə müharibəsi», «Davamlı nüvə müharibəsi» - hərbi-strateji doktrinanın üstünlük qazanmağa istiqamətlənən konsepsiyalarıdır.

**ATOM ENERJİSİ ÜZRƏ AVROPA BİRLİYİ** (ABROATOM). *Avropa İqtisadi Birliyinə (AİB)* daxil olan 10 Qərbi Avropa ölkəsinin dövlət inhisarçı təşkilatı; atom enerjinin istehsalı və istifadə olunması sahəsində bu ölkələrin fəaliyyətlərini əlaqələndirmək və maliyyələşdirmək məqsədilə yaradılıb. Birliyin təsis müqaviləsi *(Beynəlxalq müqavilə)* Belçika, İtaliya, Lüksemburq, Niderland, Fransa və Almaniyanın iştirakı ilə 25.III.1957 ildə Romada imzalanıb; 11.1958 ildə qüvvəyə minib. 01.1.1973 ildən Böyük Britaniya, İrlandiya, Danimarka, 01.I.1981 ildən isə Yunanıstan bu birliyə daxil olub.

ABROATOM-un fəaliyyəti əsasən, parçalanan materialların idxalına, onların emalına, habelə nüvə elektrik stansiyalarına dair iştirakçı ölkələrdən ötrü vahid qaydaların işlənib hazırlanmasını əhatə edir. Birlik, iştirakçı ölkələr tərəfindən, onlardan hər biri üçün müəyyən edilən kvotaya müvafiq maliyyələşdirilir. 1967 ildən təşkilatın ali orqanlarının funksiyaları AİB-in rəhbər orqanlarına həvalə olunub. Təşkilat Birləşmiş tədqiqat mərkəzinə malikdir.

**ATOM ENERJİSİ ÜZRƏ BEYNƏLXALQ AGENTLİK** (MAQATE). Hökumətlərarası beynəlxalq təşkilat *(Beynəlxalq hökumətlərarası təşkilatlar)*; *BMT Baş Məclisinin* 03.XII.1955 il qərarına uyğun olaraq, atom enerjindən dinc məqsədlərlə istifadə sahəsində beynəlxalq əməkdaşlığı inkişaf etdirmək məqsədilə yaradılıb.

AEBA Nizamnaməsi 23.X.1956 ildə Nyu-Yorkda keçirilən təsis konfransında təsdiq edilib; 29.VII.1957 ildə qüvvəyə minib. *BMT*-yə xüsusi sazişlə bağlıdır; hər il BMT BM-ə, zəruri hallarda isə *BMT Təhlükəsizlik Şurasına* öz işi barədə məruzələr təqdim edir.

AEBA.-nın ali orqanı - hər il sessiyaya toplaşan Baş Konfransdır. Təşkilatın əməli fəaliyyətinə Baş Konfrans qarşısında hesabat verən 35 üzvdən ibarət Müdirlər Şurası rəhbərlik edir. Cari işlər ilə Baş direktor tərəfindən idarə olunan Katiblik məşğul olur. Baş direktor Müdirlər Şurası tərəfindən 4 illik müddətə təyin edilir və Baş Konfransda təsdiq olunur.

Mənzil-qərargahı Vyanadadır. A.-in fəaliyyətində nəzarət funksiyaları birinci dərəcəli əhəmiyyət daşıyır. Məqsəd nüvə silahına malik olmayan ölkələrdə dinc məqsədlər üçün nəzərdə tutulan atom enerjindən nüvə silahı yaradılmasına, nüvə partladıcı qurğusunun *istehsalına və ya başqa hərbi* məqsədlərə keçilməsinə yol verməməkdir.

**ATOM SİLAHININ YAYILMAMASI HAQQINDA MÜQAVİLƏ** (1968). 01.VII. ABŞ, Böyük Britaniya, SSRİ və digər ölkələr tərəfindən imzalanmışdır. Nüvə dövlətləri qeyri-nüvə dövlətlərinə bu silahı verməməyi, onun istehsalında və əldə olunmasında onlara yardım etməməyi öhdələrinə götürürdülər. Qeyri-nüvə dövlətləri nüvə silahını qəbul və istehsal etmək, onun sınağını keçirməmək və bu məqsədlərlə kiminsə köməyinə nail olmağa cəhd etməmək, nüvə silahının yayılmasına nəzarət edən *AEBA* ilə müqavilə *(Beynəlxalq müqavilə)* bağlamaq haqqında öhdəlik götürmüşdülər. Nüvə enerjisindən dinc məqsədlərlə istifadə olunmasına məhdudiyyət qoyulmurdu. Müqavilə 5.III.1970 ildə qüvvəyə mindi.

**ATOM SÜLH ÜÇÜN.** Atom enerjisindən istifadə olunması problemlərinin həllinə dair Amerika planı; XII.1953 ildə *BMT*-də baxılmaq üçün ABŞ *prezidenti* D.Eyzenhauer tərəfindən təqdim edilib. Planın ortaya çıxması atom enerjisindən hərbi istifadə sahəsində inhisarçı-

lığı əldən verən ABŞ-ın atom siyasətinin «yeni xəttini» irəli sürmək cəhdləri ilə izah olunur. Bu plana əsasən, BMT-nin *qəyyumluğu* altında beynəlxalq orqan yaradılması nəzərdə tutulurdu. Dövlətlər özlərinin atom materiallarının bir qismini «bəşəriyyətin dinc fəaliyyəti» üçün həmin orqanın istifadəsinə verə bilərdilər. Planda atom silahının qadağan edilməsi məsələsinə toxunulmurdu. Əslində, nüvə materiallarının əsas hissəsinin hərbi ehtiyaclara istiqamətlənəcəyi nəzərdə tutulurdu.

1954-1955 illərdə SSRİ ilə ABŞ arasında atom enerjisindən istifadə problemləri üzrə məxfi danışıqdar aparıldı. Danışıqlar *Atom Enerjisi Üzrə Beynəlxalq Agentliyin MAQATE* nizamnaməsinin işlənib hazırlanmasına dair konfransın çağırılması ilə nəticələndi.

1959 ildə ABŞ planın yeni variantı ilə çıxış etdi ki, bu da nüvə materiallarının, habelə atom enerjisi sahəsində zəruri bilik və anlayışlara malik olan dövlətlər tərəfindən hissələrə bölünən materialların beynəlxalq fondunun təsis olunmasına gətirib çıxardı.

**ATTAŞE** (fr. *Attache* – təhkim olunmuş). Diplomatik işçinin vəzifəsi, yaxud rütbəsidir. Beynəlxalq təcrübədə aşağıdakı attaşe dərəcələri tanınır:

*1) Hərbi, hərbi dəniz, hərbi hava attaşeləri* – qəbul edən ölkədəki hərbi idarənin nəzdində göndərən ölkənin hərbi idarəsinin təmsilçiləri. Onlar, eyni zamanda diplomatik nümayəndənin hərbi məsələlər üzrə müşavirləridirlər.

*2) Xüsusi attaşelər* – öz ölkəsinin sənaye, kənd təsərrüfatı, əmək, maliyyə, ticarət, mədəniyyət, elm və s. üzrə müxtəlif idarələrinin təmsilçiləri. Belələri, adətən, peşəkar mütəxəssislər olub, qəbul edən ölkədə öz sahələri üzrə məsələləri öyrənmək, təmsil etdikləri idarələrlə əlaqələr saxlamaq və onları inkişaf etdirməklə məşğuldurlar.

*3) Mətbuat məsələləri üzrə attaşe (press-attaşe) – diplomatik nümayəndəlikdə* mətbuat və informasiya məsələləri ilə məşğul olan məsul işçi. M.a. qəbul edən ölkənin dövri mətbuatının müvafiq xülasəsini hazırlayır, mərkəzə göndərir, ayrı-ayrı aktual və cari məsələlərə dair mətbuat konfransları keçirir, ikitərəfli əlaqələrə dair mövqe açıqlamaları ilə çıxış edir, diplomatik nümayəndəliyin xüsusi dövri bülletenini buraxır.

*4) Diplomatik attaşe – Xarici İşlər İdarəsinin* mərkəzi aparatının, yaxud diplomatik nümayəndəliyin kiçik diplomatik işçisidir.

*5) Fəxri attaşe* – diplomatik karyera yolunu seçən, lakin hələ ştata keçirilməyən və məvacib almayan şəxs. Bəzi xarici dövlətlərin təcrübəsində F.a.-lər diplomatik nümayəndəlikdə təcrübə keçmək hüququna malik olur, təcrübədən sonra ştata götürülə bilərlər.

Bütün qismdən olan attaşelər *diplomatik korpusun* üzvləri tərkibinə daxil edilir, *diplomatik imtiyazlardan və toxunulmazlıq hüquqlarından* bəhrələnirlər.

**AUTENT MƏTN** (yun. *Authentlikos* – əsl, ilk mənbədən doğan). Hər hansı sənədin orijinal mətni. *Beynəlxalq hüquqda beynəlxalq müqavilənin* mətninin son olaraq elan olunma prosedurası mətnin autentliyinin müəyyən edilməsi deməkdir.

Müqavilə iki və ya bir neçə dildə tərtib edildikdə, bir qayda olaraq, onun son maddələrində göstərilir ki, bütün mətnlər «eyni qüvvəyə malikdir», yəni





autent olub, eyni dərəcədə orijinal hesab edilir.

**AVANTÜRA** (fr. *aventure* - sərgüzəşt). Real imkanları nəzərə almadan təsadüfi müvəffəqiyyətə ümid ilə edilən və məğlubiyyətə düçar olan riskli, təhlükəli hərəkət.

**AVROPA AZAD TİCARƏT ASSOSİASİYASI** (AATA). Avropanın bir sıra dövlətlərinin ticarət-iqtisadi təşkilatı; Böyük Britaniyanın təşəbbüsü ilə yaradılıb. AATA-nı təsis etmək barədə konvensiya Danimarka, Norveç, Portuqaliya, İsveçrə və İsveç tərəfindən Stokholmda imzalanıb; 3.V.1960 ildən qüvvəyə minib. 27.III.1961 ildən Finlandiya, 01.III.1970 ildən isə İslandiya AATA üzvləridirlər. *Avropa İqtisadi Birliyinə* daxil olmaqla əlaqədar Böyük Britaniya və Danimarka AATA-dan çıxmışlar.

AATA AİB-in əksinə olaraq gömrük rüsumlarını və kəmiyyət məhdudiyyətlərini tədriclə ixtisara salmaqla iştirakçı ölkələr arasında sənaye mallarının azad ticarətini təmin etmək üçün yaradılıb. Formalaşması 1967 ildə başa çatan Azad Ticarət Zonası AATA ölkələri arasında mal mübadiləsinin artmasına kömək etdi, lakin başlıca məqsədə - AİB-lə rəqabətə nail olmadı.

22.VII.1972 ildə AİB AATA üzvü olan ölkələr və Finlandiya ilə qarşılıqlı ticarətin prinsiplərinə dair bir sıra saziş imzaladı. Bu sazişlərin əsasında AİB və AATA ölkələrini əhatə edən azad sənaye malları ticarət zonası yaradıldı. Lakin bu zona ölkələri arasında əsas ticarət-iqtisadi ixtilafları aradan qaldırmadı.

AATA-nın rəhbər orqanı - Nazirlər Soveti - iştirakçı ölkələrdən ötrü məcburi olan sazişlərin və qərarların icrasına nəzarət edir. Katibliyi Cenevrədədir.

**AVROPA BİRLİKLƏRİ.** *Avropa İqtisadi Birliyi (AİB), Avropa Kömür və Polad Birliyi (AKPB)* və *Atom Enerji Üzrə Avropa Birliyi (AEAB)* çox vaxt Avropa Birliyi adı ilə ifadə edilir.

AB aşağıdakı ümumi rəhbər orqanlara malikdir:

*Avropa Şurası*; Nazirlər Şurası; *Avropa Birlikləri Komissiyası*; *Avropa Parlamenti* - bunların hamısına daha çox 10 Qərbi Avropa dövlətinin vahid inteqrasiya kompleksi kimi baxılır.

AB üzvü olan dövlətlər iqtisadi inteqrasiyanı siyasi inteqrasiya ilə tamamlamağa cəhd göstərirlər.

AB-in rəhbər orqanlarının iclasları Brüsseldə (Belçika), Lüksemburqda və Strasburqda (Fransa) keçirilir.

**AVROPA BİRLİKLƏRİ KOMİSSİYASI** (ABK). *Avropa Birliklərinin* icraedici orqanı 8.IV.1965 ildə Brüsseldə imzalanan müqaviləyə *(Beynəlxalq müqavilə)* əsasən yaradılıb, 01.VII.1967 ildə fəaliyyətə başlayıb.

ABK-nın funksiyaları aşağıdakılardan ibarətdir: *Avropa Şurasının* qərar layihələrini işləyib hazırlamaq; *Avropa İqtisadi Birliyi, Atom Enerjisi Üzrə Atom Birliyi* və s. yaradılmasına dair müqavilələrin və Şuranın qərarlarının həyata keçirilməsinə nəzarət etmək; müqavilələrdə və ya Şura tərəfindən verilmiş səlahiyyətlər çərçivəsində ABK tərəfindən nəzərdə tutulan məsələlər üzrə qərarlar qəbul etmək və s.

ABK üzvlərindən bir sıra daimi qruplar (xarici əlaqələr, iqtisadi, maliyyə və s. məsələlər üzrə) və onun köməkçi orqanları olan katiblik, ümumi xidmət və İnformasiya Büroları yaradılmışdır.

ABK üzvləri bu təşkilatın üzvü olan dövlətlər tərəfindən ümumi razılığa əsasən təyin edilir və onlar öz vəzifələrindən ancaq Avropa Birliyinin orqanlarından biri olan xüsusi məhkəmə (**Cour de justice**) tərəfindən kənarlaşdırıla bilərlər. ABK qərarları ümumi səs çoxluğu ilə qəbul edilir. ABK nəzdində ona üzv dövlətlərdən akkreditə *(Akkreditə etmək)* olunan diplomatlar fəaliyyət göstərirlər.

ABK qərargahı Brüsseldə yerləşir.

**AVROPADA ETİMAD, TƏHLÜKƏSİZLİK VƏ TƏRKSİLAH TƏDBİRLƏRİNƏ DAİR STOKHOLM KONFRANSI** (1984). *Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin* üzvü olan dövlətlərin nümayəndələrinin 1983 ilin sonlarında baş vermiş Madrid görüşünün qərarına müvafiq olaraq 17.1.1984-19.IX.1986 keçirilib.

S.k. işinin ilkin mərhələsində «Avropada təhlükənin və hərbi qarşıdurmanın azaldılmasına yönəldilən etimadın möhkəmləndirilməsi sahəsində qarşılıqlı əlavə tədbirlərin müzakirə olunması və qəbul edilməsi» nəzərdə tutulurdu. Birinci mərhələnin keçirilməsi ilə bağlı konfransın *(Beynəlxalq konfranslar)* gündəliyi, iş cədvəli və digər təşkilati məsələlər 25.X-11.XI.1983 ildə Helsinkidə keçirilən hazırlıq görüşündə razılaşdırıldı.

S.k. xarici işlər nazirləri səviyyəsində işə başlayıb. Konfransın açılması beynəlxalq vəziyyətin gərginləşməsi dövrünə təsadüf edir. Belə ki, 1983 ilin sonlarında ABŞ-ın «MX» və qanadlı raketlərinin Qərbi Avropa ölkələrində və SSRİ-nin SS-20 raketlərinin ADR-də və Çexoslovakiyada yerləşdirilməsi Avropada hərbi-strateci tarazlığın pozulmasına gətirib çıxarmışdı.

1984 və 1985 illərdə S.k.-nın 4 sessiyası keçirilmişdi.

S.k. birinci mərhələsi konfrans iştirakçısı olan dövlətlərin 19.IX.1986 ildə Stokholmda Yekun sənədini qəbul etmələrilə başa çatdı.

**AVROPADA SÜLH VƏ TƏHLÜKƏSİZLİYİ MÖHKƏMLƏNDİRMƏYƏ DAİR BƏYANNAMƏ** (1966). 5.VII. *Varşava müqaviləsi təşkilatı* dövlət-lərinin iştirakı ilə Buxarestdə qəbul edilib. Avropa ölkələri arasında mehriban qonşuluq prinsipi, *İkinci dünya müharibəsindən* sonra yaranmış sərhədlərin vacibliyi, Avropada beynəlxalq gərginliyin zəifədilməsi, mübahisəli məsələlərin dinc yolla nizama salınması haqqında təkliflər *Bəyannamədə* öz əksini tapmışdır. Avropada gərginliyin zəiflədilməsi istiqamətində ilk addım kimi hərbi blokların buraxılması təklif olunurdu.

**AVROPA DAŞ KÖMÜR VƏ POLAD BİRLİYİ** (AKPB). *Avropa İqtisadi Birliyinə (AİB)* daxil olan 10 Qərbi Avropa ölkəsinin təşkilatı *(Beynəlxalq təşkilatlar)*; onların metallurgiya, dağ-mədən və daş kömür sənayelərini birləşdirir. Belçika, İtaliya, Lüksemburq, Niderland, Fransa və AFR arasında 18.IV.1951 ildə Parisdə 50 il müddətinə bağlanmış müqavilə *(Beynəlxalq müqavilə)* əsasında təsis edilib, 25.VII.1952 ildən rəsmi fəaliyyətdədir. 1957 ildən *AİB* tərkib hissəsidir.

AKPB Fransanın xarici işlər naziri R.Şumanın təşəbbüsü ilə yaradılmışdır; Qərbi Avropanın altı ölkəsinin iqtisadiyyatını stimullaşdırmaq, onların digər inkişaf etmiş kapitalist dövlətləri arasında mövqelərini möhkəmləndirmək məqsədi daşıyır.

AKPB-i hərbi-siyasi təşkilata çevirmək cəhdləri baş tutmayıb. Ümumi





kömür və polad bazarı tədricən 1952-1957 illər ərzində yaradılıb. 1967 ildə AKPB ali orqanlarının səlahiyyətləri AİB-in rəhbər orqanlarına verilmişdir.

**AVROPADA TƏHLÜKƏSİZLİK VƏ ƏMƏKDAŞLIQ MÜŞAVİRƏSİ** (ATƏM, 1994 İLDƏN AVROPADA TƏHLÜKƏSİZLİK VƏ ƏMƏKDAŞLIQ TƏŞKİLATI - ATƏT). *Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Yekun aktı* VIII.1975 il-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 ölkəsi, ABŞ və Kanadanın dövlət və hökumət başçıları *(Dövlət başçısı; Hökumət başçısı)* tərəfindən imzalanmışdır. Bu sənəd *beynəlxalq gərginliyin zəifədilməsi*, xalqların yaxınlaşması, Avropada əməkdaşlığın inkişafının uzunmüddətli proqramı kimi mühüm əhəmiyyətə malikdir.

1990 ildə Yeni Avropa üçün Paris Xartiyasının imzalanması və bir sıra yeni institutların yaradılması ilə *ATƏM*-in fəaliyyətində yeni dövr başladı. Berlində (1991), Praqada (1992), Stokholmda (1992), Romada (1993), Budapeştdə (1994), Lissabonda (1996) keçirilmiş görüşlər, qəbul olunmuş sənədlər ATƏM-in fəaliyyətində əsaslı dönüşə səbəb oldu.

Budapeşt samitində ATƏM ATƏT adlandırılmışdır.

ATƏT-in *Birləşmiş Millətlər Təşkilatı* ilə əməkdaşlığı *BMT Katibliyi* ilə çərçivə müqaviləsinin bağlanmasına və BMT *Baş Məclisində* müşahidəçi statusuna əsaslanır. 1992 il Helsinki *Bəyannaməsində* üzv dövlətlər ATƏM-i *BMT Nizamnaməsinin* VII fəslinə uyğun olan regional saziş elan etdilər.

1975 il Helsinki Yekun aktında *(Avropada Təhlükəsizlik və Əməkdaşlığa dair Müşavirənin Yekun Aktı)* ATƏM üzvü olan dövlətlər qarşılıqlı münasibətlər üçün əsas kimi 10 prinsip qəbul etmişdir: dövlətlərin suveren *(Dövlətin suverenliyi)* bərabərliyi; zor etməmə və zor tətbiq etməklə hədələməmə; sərhədlərin toxunulmazlığı; dövlətlərin ərazi bütövlüyü; mübahisələrin sülh yolu ilə həlli; daxili işlərə qarışmamaq; fikir, vicdan, dini və etiqad azadlığı daxil olmaqla insan hüquq və əsas azadlıqlarına hörmət; bərabərlik və xalqların öz müqəddəratını həll etmək hüququ; beynəlxalq hüquqi öhdəliklərin vicdanla yerinə yetirilməsi.

ATƏT-in məqsədləri: qarşılıqlı münasibətlərin yaxşılaşdırılması və uzunmüddətli sülhün təmini üçün şəraitin yaradılmasına yardım etmək; *beynəlxalq gərginliyin zəifədilməsinə* yardım etmək; Avropada təhlükəsizliyin bölünməzliyini, həmçinin üzv dövlətlər arasında əməkdaşlığın inkişafını qəbul etmək; Avropada və bütün dünyada sülh və təhlükəsizliyin qarşılıqlı asılılığını etiraf etmək; insan hüquqlarına riayət olunmasına, iqtisadi və sosial tərəqqinin, bütün xalqların rifahının yüksəlməsinə töhfələr vermək.

ATƏT-in Ali məclisi dövlət və hökumət başçılarının müşavirəsidir. Xarici İşlər Nazirləri Şurası mərkəzi icraedici və sərəncamverici orqandır. Yüksək Vəzifəli Şəxslər Komitəsi ATƏT-in fəaliyyətini müşahidə edir, idarə edir və əlaqələndirir; cari siyasi məsələlər üzrə məsləhətləşmələr keçirir; ümumi siyasi direktivlər hazırlayır; Şura iclaslararası dövrdə qərarlar qəbul edir. Daimi komitə gündəlik əməli məsələləri həll edir. Milli azlıqlar işi üzrə Ali Komissar bu sahəyə dair operativ tədbirlər keçirir. Bundan başqa ATƏT-in təhlükəsizlik sahəsində əməkdaşlıq Forumu, Demokratik institutlar və İnsan hüquqları üzrə Büro və Parlament məclisi fəaliyyət göstərir.

ATƏT-in Katibliyi Vyanada (Avstriya) yerləşir. Onun işinə Baş katib rəhbərlik edir. Katibliyin 4 departamenti vardır. Baş katib Yüksək Vəzifəli Şəxslər Komitəsinin təklifi ilə ATƏT Şurası tərəfindən üç il müddətinə seçilir.

Azərbaycan Respublikası 20.I.1992 ildən ATƏT-in üzvüdür, VII.1992-də isə Helsinki Yekun aktını imzalamışdır.

**AVROPADA TƏHLÜKƏSİZLİK VƏ ƏMƏKDAŞLIĞA DAİR MÜŞAVİRƏNİN YEKUN AKTI** (HELSİNKİ AKTI) (1975). Helsinkidə 33 Avropa ölkəsinin, habelə ABŞ və Kanadanın *dövlət başçıları* tərəfindən 01.VIII.1975 imzalanıb. Yekun Aktında dövlətlər arasında əməkdaşlığı inkişaf etdirmək və *beynəlxalq gərginliyin zəiflədilməsi* sahəsində mühüm rol oynamış Avropada təhlükəsizlik və əməkdaşlığa dair razılaşmalar təsbit edilmişdir.

Dövlətlər arasında qarşılıqlı münasibətlərin prinsiplərinə dair *Bəyannamə* Yekun Aktının özəyini təşkil edir. Müşavirənin iştirakçıları qarşılıqlı münasibətlərdə suveren bərabərlik *(Suverenlik)* prinsiplərini əldə rəhbər tutacaqları, bir-birinə qarşı güc işlətməyəcəkləri, zor işlətməklə hədələməyəcəkləri, sərhədlərin toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə ehtiramla yanaşacaqları, mübahisəli məsələləri sülh yolu ilə həll edəcəkləri, bir-birinin daxili işlərinə qarışmayacaqları, insan haqlarına hörmət edəcəkləri, hüquq bərabərliyi və xalqların öz müqəddəratını təyin etmək hüququna əməl edəcəkləri, dövlətlərarası əməkdaşlığı *beynəlxalq hüquqa* uyğun quracaqları barədə öhdəlik götürmüşlər.

Yekun Aktında təsbit olunan etimadı möhkəmləndirmək tədbirlərinə dair razılaşmalar Avropada sülhün və təhlükəsizliyin möhkəmlənməsində mühüm rol oynayır. Bu razılaşmalar, əlalxüsus, irimiqyaslı hərbi təlimlər barədə qabaqcadan xəbər verilməsini, təlimlərə nəzarətçi qismində müşahidəçilər dəvət olunmasını və s. ehtiva edir. Siyasi gərginliyin azaldılmasını hərbi gərginliyin aradan qaldırılması ilə tamamlayan bu tədbirlər dövlətlər arasında etimadın və qarşılıqlı anlaşmanın möhkəmlənməsi yolunda mühüm addım oldu.

**AVROPA İQTİSADİ BİRLİYİ (AİB)**, «ümumi bazar» (Avropa Birliyi) (AB). Qərbi Avropanın 15 ölkəsinin təşkilatı; AİB-in təsisinə dair müqavilə *(Beynəlxalq müqavilə)* 25.III.1957 ildə Romada imzalanıb; müqavilə qeyri-müəyyən müddətə bağlanıb, 01.I.1958 ildə qüvvəyə minib. Belçika, İtaliya, Lüksemburq, Niderland, Fransa, AFR (təsis olan vaxtdan), Böyük Britaniya, Danimarka, İrlandiya (1973) və Yunanıstan (1981), İspaniya, Portuqaliya (1986), Avstriya, Finlandiya, İsveç (1995) ABŞ üzv ölkələridir. 1982 ildə Qrenlandiya əhalisi (Qrenlandiyanın statusu) AİB-dən çıxmaq istədiyini bəyan etdi. 20.II.1984 ildə AİB çərçivəsində 01.I.1985 ildən etibarən Qrenlandiyanın AİB-də tam üzvlüyünün dayandırılması barədə kompleks razılaşmalar təsdiq edildi.

AİB-in əsas vəzifəsi - üzv ölkələr arasında malların idxal-ixracı üçün gömrük rüsumları və kəmiyyət məhdudiyyətlərini tədricən ləğv etmək; ümumi gömrük tarifi və üçüncü ölkələr barədə razılaşdırılmış ticarət siyasəti müəyyənləşdirmək; işçi qüvvəsi, sərmayə və *xidmətlərin azad yerdəyişməsi üçün* şərait yaratmaq; kənd təsərrüfatı və nəqliyyat sahəsində vahid siyasət yürütmək; iqtisadi, sosial, valyuta və investisiya siyasətini əlaqələndirib uzlaşdırmaq yolu ilə «ümumi bazar» yaratmaqdır.

AİB-in başlıca orqanları: *Avropa Şurası*, Nazirlər Şurası, *Avropa Birlikləri Komissiyası*, *Avropa Parlamenti* – 1967 ildən etibarən Avropa Birliklərinin vahid rəhbər orqanlarıdır. AİB *Birləşmiş Millətlər Təşkilatında*, BMT-nin Ticarət və İnkişaf üzrə Konfransında (YUNKTAD), habelə BMT-nin bir sıra xüsusi təsisatlarında *(Beynəlxalq hökumətlərarası təşkilatlar)* müşahidəçi *(Müşahidəçilər)* statusuna malikdir; dünyanın 40-a yaxın dövləti ilə assosiasiyalar, gömrük ittifaqı və ticarətə dair razılaşmalar bağlayıb. AİB nəzdində 120-ə yaxın ölkənin nümayəndələri akkreditə olunmuşlar.

Hal-hazırda *Avropa Birliyi (AB)* adlanır. 1999 ildən A.B.-in vahid valyutası – avro – dövriyyəyə buraxılmışdır.

**AVROPA KOSMİK AGENTLİYİ** (AKA). Qərbi Avropa ölkələrinin kosmik tədqiqatlar və dinc məqsədlərlə kosmik texnikanın işlənib hazırlanması üzrə hökumətlərarası əməkdaşlıq təşkilatı *(Beynəlxalq hökumətlərarası təşkilatlar)*; AKA-nın tərkibi (31.VI.1975) onun yaradılmasına dair konvensiya *(Beynəlxalq konvensiya)* imzalamış 11 dövlətdən (Belçika, Böyük Britaniya, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Niderland, Almaniya, İsveç, İsveçrə) ibarətdir. Təşkilata yeni üzvlük yalnız onun ilkin üzvlərinin razılığı ilə mümkündür. AKA-nın bəzi proqramlarında Avstriya, Norveç və Kanada da iştirak edirlər. AKA-nın rəhbər orqanı - üzv dövlətlərin nümayəndələrindən ibarət Şuradır. Təşkilatda əsas baş aparıcı vəzifəli şəxs və onun hüquqi nümayəndəsi - Baş direktordur.

Qərargahı Parisdədir.

**AVROPA MƏSLƏHƏT KOMİSSİYASI** (1943-1945). *Antihitler koalisiyası* iştirakçılarının daimi orqanı. 1943 il Moskva konfransının *(Moskva konfransları)* qərarı ilə yaradılmışdır. Avropada hərbi əməliyyatların başa çatması ilə bağlı meydana çıxacaq məsələlərə baxmaq və tövsiyələr vermək onun vəzifələrinə daxil idi. 14.I.1944 ilk rəsmi iclası keçirilmişdir. 6.IX.1945 sonuncu iclasını keçirən komissiya, *Berlin (Potsdam) Konfransının* qərarı ilə özünü buraxmaq haqqında qərar qəbul etdi.

**AVROPA MÜDAFİƏ BİRLİYİ** (AMB). Qərbi Avropa ölkələrinin hərbi bloku; Layihəsi Fransanın baş naziri R.Pleven tərəfindən 24.X.1950 ildə irəli sürülüb. R.Pleven daha çox AFR-in iştirakı ilə «Müdafiə Nazirlərinin Avropa Komitəsi»ni yaratmağı və «Avropa Ordusu»nu formalaşdırmağı təklif edirdi. Bu plan ABŞ, Böyük Britaniya və Fransanın xarici işlər nazirləri tərəfindən 1951 il Vaşinqton Müşavirəsində bəyənilmişdir.

27.V.1952 ildə Fransa, İtaliya, AFR, Belçika, Hollandiya və Lüksemburqun xarici işlər nazirləri AMB yaradılmasına dair Parisdə 50 il müddətinə müqavilə *(Beynəlxalq müqavilə)* bağlamışlar. Müqaviləyə, habelə bir sıra əlavə protokollara və məxfi sazişlərə müvafiq olaraq, AMB ümumi idarəetmə orqanlarına, birləşmiş hərbi qüvvələrə və ümumi büdcəyə malik «fövqəlmilli» hərbi təşkilat kimi layihələşdirilirdi.

AMB-ə dair müqavilə AFR-in yenidən hərbiləşdirilməsini açıq şəkildə həyata keçirmək və onu sürətləndirmək *cəhdi idi. Qərb dövlətləri* AMB-ə əlavə kimi Avropa Siyasi Birliyinin layihəsini işləyib hazırladılar və AMB Baş Məclisi onu 10.III.1953 ildə təsdiq etdi.

Qərbi Avropada siyasi ittifaq yaratmaq təşəbbüsləri AMB müqaviləsini imzalayan bəzi ölkələrin parlamentlərində *müqavimətilə üzləşərək* müvəffəqiyyətsizliyə uğradı.

**AVROPA PARLAMENTİ.** *Avropa Birliklərinin* orqanlarından biri; 1957 il Roma sazişinə *(Avropa İqtisadi Birliyi)* əsasən yaradılıb. AP 1979 ilədək Avropa Birliklərinin üzvü olan dövlətlərin milli parlamentlərinin tərkibindən təyin edilən nümayəndələrdən təşkil edilmişdi. VI.1979 ildə AB üzvü olan dövlətlərdə ilk dəfə olaraq AP-yə ümumi və birbaşa seçkilər keçirilmişdir.

AP 5 il müddətinə seçilir, fraksiyalar partiya prinsipi üzrə formalaşır.

AP məşvərətçi funksiyaya malikdir; ümumsiyasi məsələlərə dair tövsiyələr verir, *Avropa Birliklərinin Komissiyalarının* illik hesabatlarını nəzərdən keçirir. AP qanunvericilik təşəbbüsü hüququna malik deyil, Avropa Birliklərinin ali orqanlarını təyin etmir, onlara nəzarət etmək hüququ yoxdur.

Avropa Birliklərinin üzvü olan bir çox dövlətlər inteqrasiya prosesinin sürətlənməsi planlarını AP-in fəaliyyəti ilə bağlayırlar. Bəzi hallarda AP-in səlahiyyətlərinin genişləndirilməsinə, ona «fövqəlmilli xarakter» verilməsinə səy göstərilir.

AP-in sessiyalarında siyasi əməkdaşlıq, hərbi-siyasi inteqrasiya və beynəlxalq aktual problemlərin müzakirəsinə böyük diqqət verilir.

AP müxtəlif dövlətlərlə parlamentlərarası əlaqələr qurur, əməkdaşlıq yaradır. AP-in sessiyaları Strasburqda (Fransa) və Lüksemburqda keçirilir.

Katibliyi Lüksemburqdadır.

**AVROPA ŞURASI.** 1949 ildə Qərbi Avropanın 10 dövləti - Belçika, Danimarka, Fransa, İrlandiya, İtaliya, Lüksemburq, Hollandiya, Norveç, İsveç və Böyük Britaniya arasında imzalanan müqavilə (Beynəlxalq müqavilə) əsasında təsis edilmişdir. Az sonra Türkiyə, İslandiya, AFR, Avstriya, Kipr, İsveçrə, Malta, Lixtenşteyn, Portuqaliya və İspaniya bu şuranın üzvü oldular. Hazırda 44 ölkə Avropa Şurasının üzvüdür.

A.ş.-nın başlıca məqsədləri Qərb sivilizasiyasına və demokratiyasına, habelə iqtisadi və sosial tərəqqiyə yönələn ümumi prinsiplər və ideallar əsasında üzv dövlətlərin birliyinə və onlar arasında yüksək səviyyəli razılaşmaya nail olmaqdır. Bu məqsədlə iştirakçı dövlətlər Avropa Şurası orqanlarının köməyi ilə iqtisadi, sosial, mədəni, elmi, hüquqi, inzibati sahələrdə, həmçinin insan hüquqlarının və əsas azadlıqların inkişaf etdirilməsində birgə fəaliyyət göstərməlidir.

A.ş.-nın başlıca orqanları Nazirlər Komitəsi və Məsləhət Məclisidir. Nazirlər Komitəsi iştirakçı dövlətlərin xarici işlər nazirləri müavinlərindən, həmçinin onların digər nümayəndələrindən təşkil edilir. Nazirlər Şurası Məsləhət Məclisinin tövsiyəsi və ya öz təşəbbüsü *ilə A.ş.-nın məqsədləri üçün* zəruri olan aksiyaların, *Bəyannamə* və müqavilələrin imzalanmasını, konkret məsələlərə dair hökumətlərlə razılaşdırılmış siyasət keçirməyi və s. məsələləri həll etmək səlahiyyətinə malikdir. Qərarlar iştirakçı dövlətlər üçün tövsiyə xarakteri daşıyır. Komitə A.ş.-nın daxili təşkilatına aid olan çoxsaylı məsələləri həll edir. Bu məqsədlə o, hökumət nümayəndələrinin və mütəxəssislərin təmsil olunduğu bir neçə köməkçi orqan təsis etmişdir.





Nazirlər Komitəsi cari məsələlərlə bağlı qərarları yekdilliklə, prosedura və təşkilatı məsələlərlə bağlı - sadə səs çoxluğu və ya üçdə iki səs çoxluğu ilə qəbul edir. Nazirlər komitəsinin iclasları A.ş.-nın əsas iqamətgahında və bağlı qapılar arxasında keçirilir. Komitə ildə iki dəfə toplaşır. Onun gündəliyini nazir müavinləri komitəsi hazırlayır. Məsləhət Məclisi özünəməxsus tərkibə malikdir: *onun tərkibinə 20 üzv dövlətdən 143* nümayəndə daxildir. Lakin üzv dövlətlər Məclisdə bərabərsaylı nümayəndələrə malik deyillər. Fransa, AFR, İtaliya və Böyük Britaniya - 18 nümayəndə; Türkiyə və İspaniya - 12; Belçika, Portuqaliya, Hollandiya - 7; İsveç, İsveçrə və Avstriya - 6; Danimarka və Norveç - 5; İrlandiya - 4; İslandiya, Lüksemburq, Kipr və Malta - 3; Lixtenşteyn - 2. 24-28.VI.1996 iyunun A.Ş.-da Azərbaycan xüsusi dəvət olunmuş qonaq statusu aldı; 2001 ildə isə tam hüquqlu üzv oldu. A.ş. Parlament Məclisində Azərbaycanın 6 yeri vardır.

Məsləhət Məclisi A.ş.-nın orqanı olub, bu təşkilatın *(Beynəlxalq təşkilatlar)* məqsədlərinə aid məsələləri müzakirə etmək, öz yekun sənədini tövsiyə formasında Nazirlər Komitəsinə təqdim etmək hüququna malikdir. Məsləhət Məclisinin qərarları üçdə iki səs çoxluğu ilə qəbul edilir. Şuranın vəzifəli şəxslərinin, komitə və komissiyaların üzvlərinin təyin edilməsində və ya gündəliyinin təsdiqinə dair qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Məsləhət Məclisinin sessiyası açıq keçirilir. Nazirlər Komitəsi Məsləhət Məclisinin fövqəladə iclasını çağıra bilər. Şuranın rəsmi dili fransız və ingilis dilləridir. İqamətgahı Strasburqdadır.

**AVROPA TƏHLÜKƏSİZLİYİ.** Avropada dinc yanaşı yaşamaq prinsipləri əsasında qarşılıqlı əməkdaşlıq, *tərksilah*, sülh və s. məsələlərə dair dövlətlərin qəbul etdikləri kompleks tədbirlər və öhdəliklərin məcmusunu ehtiva edir.

A.t. məsələsi 1954 və 1955 illərdə SSRİ, ABŞ, Böyük Britaniya və Fransa xarici işlər nazirlərinin müşavirələrində, müzakirə edilmişdir.

A.t.-nin təmin edilməsi uğrunda mübarizənin mühüm mərhələsi 70-80 *illərə təsadüf edir:*

1975 ilin avqustunda Helsinkidə keçirilən *Avropada Təhlükəsizlik və Əməkdaşlığa dair Müşavirə*; 1984 ildə Stokholmda keçirilən Avropada etimad, təhlükəsizlik və tərksilah tədbirlərə dair konfrans; 1980 ildə Avropada nüvə silahlarının məhdudlaşdırılmasına dair Cenevrədə SSRİ-ABŞ danışıqları; 1985 ildə nüvə və kosmik silahlara dair Cenevrədə SSRİ-ABŞ danışıqları və s. bu məqsədlərə xidmət edirdi.

**AVROPANIN TƏHLÜKƏSİZLİYİ VƏ ƏMƏKDAŞLIĞI ÜZRƏ BEYNƏLXALQ KOMİTƏ.** *Beynəlxalq qeyri-hökumət təşkilatı*; Avropada təhlükəsizliyin təmin olunması və əməkdaşlığa dair ictimai qüvvələrin 1972 ildə keçirdikləri I Assambleya (Brüssel) tərəfindən yaradılıb. Məqsədi – Avropa dövlətlərinin müxtəlif siyasi və ictimai qüvvələrini qarşılıqlı *dialoqa və əməkdaşlığa* cəlb etməkdir.

K. *Avropada Təhlükəsizlik və Əməkdaşlığa Müşavirəsinin* yekun sənədlərinin həyata keçirilməsi ilə bağlı aktual mövzularda assambleyalar, konfranslar *(Beynəlxalq konfranslar)* və forumlar keçirir. K.-nin təşəbbüsü ilə X.1973 ildə Belçikada Avropa ictimaiyyətinin təhlükəsizlik və əməkdaşlığa dair forumu və XI.1980 ildə Madrid görüşü ilə əlaqədar Avropa ictimaiyyətinin dialoqu keçirilmişdir. K. III.1982

ildə ATƏT üzvü olan dövlətlərin hökumət rəhbərlərinə müraciət edərək, onları silahlanmanın qarşısını almağa çağırdı. I.1984 ildə Avropada qarşılıqlı etimad və təhlükəsizliyin təmin olunması və *tərksilah* məsələlərinə dair konfrans keçirilərkən K. onun iştirakçılarına müraciət edərək, onları Avropa ərazisindən nüvə silahlarının bütün növlərinin çıxarılmasına kömək etməyə, nüvə silahından azad zonalar yaratmağa, adi silahları əhəmiyyətli dərəcədə azaltmağa və s. bu kimi tədbirləri həyata keçirməyə çağırdı. K. II.1984 ildə «Avropada *müharibə* təhlükəsini aradan qaldırmaq yolları» mövzusunda Vyanada geniş nümayəndəli konfransın keçirilməsi üçün aparılan hazırlıq işlərində yaxından iştirak etmişdir.

K.-nin *BMT-nin İqtisadi və Sosial Şurası* və *YUNESKO* yanında məşvərətçi statusu vardır.

**AVROPA VALYUTA SİSTEMİ** *(AVS). Avropa Şurasının* qərarı ilə *Avropa İqtisadi Birliyi* çərçivəsində yaradılan regional valyuta sistemi; 13.III.1979 ildə fəaliyyətə başlayıb. AVS bir sıra Qərbi Avropa dövlətlərinin «Valyuta planları» adı ilə tanınan sistemin varisidir. Bu sistem valyuta kurslarının ABŞ dollarına nisbətinin əlaqəli şəkildə tənzimlənməsinə xidmət edir.

Özündən əvvəlki valyuta sistemindən fərqli olaraq AVS təşkilati baxımdan AİB ilə sıx bağlıdır.

AVS-in fəaliyyətə başlaması Qərbi Almaniya markasının revalvasiyası ilə müşayiət olunurdu.

AVS-in təsis edilməsi Qərbi Avropada yeni «valyuta mərkəzinin» yaradılması demək idi və ABŞ-la AİB dövlətləri arasında rəqabətdə irəliyə doğru daha bir addım hesab olunurdu.

01.I.1999 ildən AVS-yə daxil olan ölkələr üçün ümumi valyuta - avro dövriyyəyə buraxılıb.

**AVSTRİYA ÜZRƏ MÜTTƏFİQLƏR KOMİSSİYASI.** Dörd dövlətin: SSRİ, ABŞ, Böyük Britaniya və Fransanın nəzarət mexanizmi. Avstriya üzərində müttəfiq nəzarətinə dair 4.VII.1945 və 28.VI.1946 il sazişlərinə uyğun olaraq yaradılıb.

K.-nın əsas vəzifəsi - Almaniyanın məğlubiyyəti haqqında 5.VI.1945 il *Bəyanatının* şərtlərinə Avstriyada əməl olunmasını təmin etmək, Avstriyanın Almaniyadan ayrılmasını başa çatdırmaq, Avstriya dövlətinin müstəqil mövcudluğunu və bütövlüyünü dəstəkləmək və onun sərhədləri qəti müəyyən edilənədək 31.XII.1937 il üçün mövcud olmuş şəkildə onların toxunulmazlığını təmin etmək; ölkədə nasizm və militarizm qalıqlarını kökündən yox etməklə, demokratik qayda-qanunları möhkəmlətmək üçün Avstriya hökumətinə möhkəm siyasi, iqtisadi və mədəni baza yaratmaqda kömək göstərmək idi.

K.-nın orqanları: qalib dövlətlərin hökumətləri tərəfindən təyin olunan 4 ali komissarın daxil olduğu Müttəfiqlər Şurasından, İcraiyyə Komitəsindən, Direktoratlardan və s. ibarət idi.

11.X.1945 ildə fəaliyyətə başlamış Müttəfiqlər Şurası Avstriyada ali hakimiyyət vəzifəsini yerinə yetirərək, yalnız ölkəyə aid məsələlərə baxırdı. Müvafiq işğal məntəqələrində komissiyanın qərarlarına əməl edilməsinə, Avstriyanın mərkəzi hökumət orqanlarının sərəncamlarının həmin məntəqələrdə yerinə yetirilməsinə və yerli hakimiyyət orqanlarının fəaliyyətinə nəzarət - dörd dövlətin ali komissarlarına həvalə olunmuşdu.





K. Avstriya dövlətçiliyinin bərpasında və ölkənin demokratikləşməsində böyük işlər görüb.

K.-nın fəaliyyətinin dayandırılması barədə qərar müstəqil və demokratik Avstriyanın bərpasına dair 1955 il Dövlət Qanununun qüvvəyə minməsi ilə bağlı Müttəfiqlər Şurasının 27.VII.1955 il, 249-cu iclasında qəbul olunub.

**AZAD OLUNMUŞ ÖLKƏLƏR.** Asiya, Afrika, Latın Amerikası və Okeaniya dövlətləri; bunlar *İkinci dünya müharibəsində* faşist və militarist qüvvələrin darmadağın edilməsi və milli-azadlıq hərəkatlarının yüksəlişi nəticəsində imperializmin müstəmləkə sisteminin dağılması ilə öz dövlət müstəqilliyini əldə etmiş ölkələrdir.

Sosial-iqtisadi inkişafın səviyyəsinə görə A.o.ö. *inkişaf etməkdə olan dövlətlərə* aid edilirlər və bu tipli dövlətlərə həm də üçüncü dünya dövlətləri deyilir. İstiqlaliyyət əldə etmək, onu möhkəmləndirmək, öz müqəddəratını təyin etmək hüququnu həyata keçirmək, iqtisadi dirçəlişə nail olmaq - müstəmləkə və asılılıq zülmündən azad olmuş ölkələr üçün ən başlıca məsələdir. Bu problemin həlli inkişaf etməkdə olan ölkələri beynəlxalq aləmdə mötəbər antiimperialist qüvvəyə, sülh və əmin-amanlıq uğrunda mübarizədə mühüm amilə çevirməkdə başlıca şərtdir.

A.o.ö.-in, demək olar, hamısı hərbi-siyasi bloklarda iştirakdan imtina edərək *bitərəflik* hərəkatına qoşulmuşlar; inkişaf etməkdə olan digər dövlətlərlə birlikdə onlar *BMT*-də əksəriyyət təşkil etməklə, bu mötəbər beynəlxalq təşkilatda *(Beynəlxalq təşkilatlar)* qüvvələr nisbətinin dəyişməsinə səbəb olmuşlar.

A.o.ö.-in əksəriyyəti öz inkişafının bazar iqtisadiyyatı yolunu seçib. Bu ölkələrin bərabərhüquqlu səmərəli beynəlxalq əməkdaşlığa, möhkəm sülhə və əmin-amanlığa ehtiyacı vardır. Onların çoxu öz müstəqilliyinin möhkəmləndirilməsini bərabərlik prinsipi üzərində qurulan *beynəlxalq münasibətlər* sisteminin yaradılmasında görür.

A.o.ö.-in inkişafında mövcud sosial-iqtisadi çətinlik və ziddiyyətlərdən bəzi dövlətlər özlərinin siyasi, iqtisadi və hərbi-strateci məqsədləri üçün istifadə etməyə çalışırlar. Məhz bu qüvvələrin həmin ölkələrin daxili işlərinə müdaxilə və təhrikləri nəticəsində İkinci dünya müharibəsindən ötən dövr ərzində Asiya, Afrika və Latın Amerikasında çoxsaylı regional münaqişələr baş verib.

**AZAD ŞƏHƏR.** Siyasi müstəqillik almaqla xüsusi beynəlxalq rejimə malik olan və adətən, *demilitarizasiya* edilərək neytrallaşdırılan şəhər (bəzən ətrafı ilə birlikdə); vaxtilə Krakov (1815-1846) və Qdansk (Dansiq) (1920-1939) şəhərləri azad şəhər statuslarına malik olmuşlar.

*1919 il Versal sülh müqaviləsinə* əsasən, Dansiq öz konstitusiyası, hakimiyyət və idarə orqanları (folstaq, senat) və eləcə də vətəndaşlıq qeydiyyatı olan «azad dövlətə» çevrilirdi. Dansiqi öz himayəsinə götürən *Millətlər Cəmiyyəti* onun konstitusiyasına təminat verirdi. A.ş. olan Dansiqdə hərbi xarakterli fəaliyyətlərə yol verilməsi onun statusunun pozulması kimi qiymətləndirilirdi.

İtaliya ilə 1947 ildə bağlanmış sülh müqaviləsinə əsasən, Triest o qədər də böyük olmayan ətrafı ilə birlikdə «Azad Triest ərazisi» elan edilir və ona özünün konstitusiyasını, qa-

nunvericilik, məhkəmə və idarə orqanlarını yaratmaq hüququ verilirdi. Lakin Triestdə azad ərazi rejimi həyata keçirilmədi və 1954 il London *Memorandumuna* əsasən, «Azad Triest ərazisi» İtaliya ilə Yuqoslaviya arasında bölüşdürüldü.

A.ş. statusuna yaxın olan rejim Tancerdə (1923-1949; 1945-1956) və Saarda (1919-1935; 1945-1955) mövcud olub. Oxşar rejimi Qüdsdə yaratmaq barədə *BMT Baş Məclisi* 26.XI.1947 ildə qətnamə qəbul etmişdir.

3.IX.1971 ildə bağlanmış dördtərəfli sazişə əsasən, *Qərbi Berlin* üçün xüsusi status müəyyən edilmişdir.

**AZƏRBAYCAN - ABŞ DİPLOMATİK MÜNASİBƏTLƏRİ.** İlk dəfə Azərbaycan-ABŞ *diplomatik əlaqələri* 28.V.1919 ildə Parisdə yaranıb. Həmin gün ABŞ nümayəndə heyətinin başçısı *prezident* V.Vilson (*Vilson Vudro*) və nümayəndə heyətinin üzvü diplomat Q.Morqentau *Paris sülh konfrasında* Azərbaycan Demokratik Respublikasının nümayəndə heyyətinin başçısı Ə.Topçubaşovu (*Topçubaşov Əlimərdan bəy Ələkbər oğlu*) qəbul edib.

Azərbaycan SSR zamanı bu əlaqələr kəsilib. Azərbaycan dövlət müstəqilliyinin elan edilməsi ilə bu münasibətlər yenidən bərpa edilib.

25.XII.1991 ildə ABŞ Azərbaycan Respublikasının müstəqilliyini rəsmən tanıdı (*De yure tanıma*). 17.III.1992 ildə Bakıda ABŞ *səfirliyi* açıldı.

Azərbaycan-ABŞ münasibətləri tarixində ən anlaşılmaz və ziddiyyətli məsələ 24.X.1992 ildə *Konqresin* 102-ci çağırış, 2-ci sessiyasının qəbul etdiyi və keçmiş SSRİ-nin Azərbaycandan savayı digər respublikalarına demokratiyanın inkişafı və bazar iqtisadiyyatına keçid məqsədilə 460 milyon ABŞ dolları həcmdə yardımı nəzərdə tutan «Azadlığı Müdafiə Aktı» və ona «907-ci Əlavə»nin qəbul edilməsi oldu. «Əlavə» Azərbaycanı dövlət səviyyəsində hər cür ABŞ yardımından məhrum etdi. Bu sənəd bəzən «Əlavə»nin müəllifi erməni seçicilərinin sayca çox olduğu Massaçusets ştatından olan senator Con Kerrinin adı ilə «Kerri düzəlişi» də adlandırılır.

Bu düzəlişin ABŞ-Azərbaycan münasibətlərində müəyyən problemlər yaratmasına baxmayaraq, Azərbaycanın xarici siyasət istiqamətlərinin təyinatında Qərbə, ABŞ-a prioritet verildi. ABŞ Konqresi isə əvvəlki mövqeyində qalırdı.

17.II.1993 ildə Konqresin nümayəndələr palatası «Dağlıq Qarabağ (*Dağlıq Qarabağ problemi*) ətrafında mübahisələrə dair» adlı 86 saylı qətnamə qəbul etdi. Bu sənəddə Azərbaycan Ermənistanı və Dağlıq Qarabağı blokadada saxlamaqda günahlandırılır və «907-ci əlavə»nin qüvvədə saxlanılmasının zəruriliyi «əsaslandırılırdı».

Azərbaycana qadağa tətbiq edildiyi halda Konqres təcavüzkar Ermənistan dövlətinə maddi, siyasi və mənəvi yardım göstərirdi. 1992-1996 illərdə ABŞ-ın Qafqaz ölkələrinə yardım adı ilə ayırdığı 1,1 milyard ABŞ dolları məbləğdə maliyyə vəsaitindən 600 milyon ABŞ dolları Ermənistanın payına düşmüşdü. Bundan əlavə qondarma «Dağlıq Qarabağ Respublikasına» Vaşinqton tərəfindən birbaşa maliyyə yardımı göstərilirdi.

Ermənistan-Azərbaycan münaqişəsinin başlandığı 1988 ildən ta III.1992 ilədək, yeni problemin dinc vasitələrlə həlli məqsədilə *ATƏT-in* (*Avropada Təhlükəsizlik Əməkdaşlıq müşa-*





*virəsi*) *Minsk qrupu /MQ/* yaradılanadək ABŞ böhranın nizamlanması ilə bağlı fərdi şəkildə fəaliyyət göstərirdisə, səlahiyyətli qurum yaradıldıqdan sonra onun tərkibində əməli addımlar atmağa başladı. Cozef Pressel ABŞ-ın MQ-da ilk xüsusi səlahiyyətli *səfiri* oldu.

IV.1993 ildə Vaşinqtonda Azərbaycan Respublikasının səfirliyi açıldı.

4.V.1994 ildə Azərbaycan Respublikası nümayəndə heyəti Brüsseldə keçirilən *NATO* Şurasının iclasında ABŞ-ın xarici siyasət təşəbbüsü olan *Sülh naminə tərəfdaşlıq proqramına* qoşulduğunu bəyan etdi və müvafiq sənədi imzaladı.

1994 ildə ilk dəfə olaraq Konqres daxilində Azərbaycanın mövqeyini müdafiə baxımından müəyyən təşəbbüslər göstərildi:

01.I.1994 ilə nümayəndələr palatasının xarici məsələlər üzrə Komitə başçısı Li Hamilton «907-ci əlavə»nin ləğvini nəzərdə tutan qanun layihəsi ilə çıxış etdi;

V.1994 ildə konqresmen T.Lenni nümayəndələr palatasında *Bəyanatla* çıxış edərək «907-ci əlavə»yə mənfi münasibət bildirdi;

05.V.1994 ildə senatorlar Q.Reyd və P.Saymon Konqresə 218 saylı qətnamə layihəsi təqdim etdi. Qətnamədə ilk dəfə olaraq Ermənistan münaqişənin iştirakçısı kimi göstərilir və ABŞ-ın regionla bağlı siyasətində dəyişikliklərin zəruriliyi fikri irəli sürülürdü;

16.VI.1994 ildə senator P.Lehi Dövlət Departamentinin təklifi və himayəsi ilə xarici ölkələrə 1995 maliyyə ili üçün yardım büdcəsini müəyyənləşdirən komitədə «əlavə»nin humanitar yardımlara aid edilməsini nəzərdə tutan layihə verdi. Nəhayət, 20.VI.1994 ildə konqresmen T.Penni 907 «əlavə»nin ləğvi haqqında qanun layihəsini müzakirə üçün konqresə təqdim etdi.

Azərbaycan dövlətinin ilk beynəlxalq neft müqaviləsində - «Əsrin müqaviləsi»ndə (*Azərbaycan Beynəlxalq neft müqavilələrində*) ABŞ şirkətlərini ən çox payla (40%) təmin etməsi ikitərəfli siyasi münasibətlərin intensivləşməsinə səbəb oldu. Bu öz nəticəsini ATƏM-in Budapeşt zirvə görüşündə verdi. Bu görüşdə ilk dəfə olaraq Dağlıq Qarabağ problemi xüsusi bir məsələ kimi gündəliyə salındı və müzakirə olundu. ABŞ-ın yaxından köməyi nəticəsində Budapeşt sammitinin qəbul etdiyi qətnamədə Avropanın müxtəlif bölgələrində baş verən münaqişələrin, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsi ayrı-ayrı dövlətlərin inhisarından çıxarılıb, birbaşa ATƏM-in ixtiyarına verildi. Münaqişə zonalarında, o cümlədən Dağlıq Qarabağ ətrafında baş verən problemin həllində ATƏM-in sülhməramlı qüvvələrindən istifadə edilməsi qərara alındı.

V.1995 ildə ABŞ Konqresində Azərbaycana göstəriləcək yardımın istiqamətlərini əks etdirən «Xelms-Luqar layihəsi» müzakirə olundu. Senatorlar Xelms və Luqarın irəli sürdük-ləri yeni qanunvericilik sənədi «907-ci əlavə»nin bir sıra sahələr üzrə məhdudiyyətlərinin aradan götürülməsini nəzərdə tuturdu. Layihəyə görə məhdudiyyətlər qaçqın (*Qaçqınlar*) və köçkün-lərə humanitar yardım göstərilməsi və demokratik təsisatların inkişafı kimi sahələrə aid edilməməli idi. Konqresdə səs çoxluğu ilə bu layihə də rədd edildi.

Azərbaycan - ABŞ münasibətlərində hər iki dövlətin rəsmi şəxslərinin qarşılıqlı səfərləri mühüm rol oynadı.

İlk belə təmas ABŞ-ın *dövlət katibi* Ceyms Beykerin II.1992 ildə Bakıya

səfərilə yarandı. Bu və bundan əlavə təşkil olunmuş səfərlərdə əsas məqsəd hər iki tərəfin maraq dairəsində olan beynəlxalq məsələlərdə Azərbaycan hökumətinin mövqeyilə tanışlıq olsa da, bu görüşlər əsnasında keçirilmiş müzakirə və fikir mübadiləsi ikitərəfli əlaqələrin inkişafında təsirsiz qalmadı. Azərbaycan prezidenti H.Əliyevin (*Əliyev Heydər Əlirza oğlu*) *BMT*-nin 50 illik yubiley tədbirləri ilə əlaqədar Nyu-Yorka səfər etdi. ATƏT-in MQ-da ABŞ-ın xüsusi səlahiyyətli səfiri Cozef Pressel, ABŞ Milli Demokratiya İnstitutunun direktoru Nelson Letski, ABŞ-ın energetika naziri xanım OLiri, konqresmen Qreq Laflin, tanınmış siyasi xadimlər Zbiqnev Bjezinski və Henri Kissincer (*Kissincer Henri Alfred*), ABŞ Dövlət katibinin yeni müstəqil dövlətlər üzrə müşaviri Ceyms Kollinz və b. Azərbaycana səfər etdilər.

26.I.1996 ildə Konqres Azərbaycana birbaşa humanitar yardım göstərilməsini nəzərdə tutan qanun layihəsini (konqresmen Çarlz Vilsonun düzəlişi) təsdiq etdi. «Vilson düzəlişi»nədək Azərbaycana yalnız qeyri-hökumət təşkilatlarının (*Beynəlxalq qeyri-hökumət təşkilatları*) xətti ilə yardım göstərilməsi mümkün idi. «Vilson düzəlişi»nə görə qeyri-hökumət təşkilatları tərəfindən Azərbaycana göndərilən humanitar yardımın qaçqın və məcburi köçkünlərin ehtiyaclarını qənaətbəxş səviyyədə ödəmədiyi halda prezidentə əlavə yardım tədbirləri görmək hüququ verilirdi. Bu sənəd «907-ci əlavə»nin ləğvi istiqamətində ABŞ Konqresinin 1992 ildən bəri ilk uğurlu addımı kimi qiymətlidir.

ABŞ Konqresinin nümayəndələr palatası 11.VI.1996 ildə növbəti dəfə Azərbaycan əleyhinə qanunvericilik aktı - «Porter əlavəsi»ni qəbul etdi. Konqresmen Con Porterin əlavəsində ayrı-ayrılıqda həm Azərbaycanın, həm də Dağlıq Qarabağın qaçqın və köçkün düşmüş əhalisinə müvafiq olaraq 7:1 nisbətində humanitar yardım göstərilməsi nəzərdə tutulurdu. Sənəddə Dağlıq Qarabağ Azərbaycan Respublikasının tərkib hissəsi kimi deyil, müstəqil subyekt kimi təqdim edilir və beləliklə də bərabərhüquqlu iki müxtəlif subyektə müxtəlif yardımlar təklif olunurdu.

Azərbaycan Respublikası hökumətinin və ABŞ Dövlət Departamentinin kəskin etirazları nəticəsində 26.VII.1996 ildə Senat xarici dövlətlərə yardım haqqında qanun layihəsini müzakirə edərkən onu «Porter əlavəsi» nəzərə alınmadan qəbul etdi. «Əlavə» nümayəndələr palatası və senatın əlaqələndirmə komissiyasının 17.IX.1996 ildə keçirilmiş iclasında qəti olaraq rədd edildi.

XII.1996 ildə Dağlıq Qarabağ probleminin də geniş müzakirə olunduğu ATƏT-in Lissabon sammiti keçirildi. ATƏT-in sədri F.Kottinin bəyanatında əks olunmuş və Ermənistan-Azərbaycan münaqişəsini üç prinsip əsasında tənzimləməyi nəzərdə tutan təklif Ermənistandan savayı, bütün iştirakçı dövlətlər, o cümlədən ABŞ tərəfindən qəbul edildi.

1997 ildə təhlükəsizlik sahəsində Azərbaycan-ABŞ münasibətləri inkişaf etdirildi. 12-13.III.1997 ildə Bakıda Azərbaycan və ABŞ arasında təhlükəsizlik və silahlara nəzarət məsələlərinə dair xarici işlər nazirləri səviyyəsində ikitərəfli məsləhətləşmələr aparıldı.

V.1997 ildə Azərbaycan Respublikası Avropada Adi Silahlar haqqında Müqavilənin Cinah Sazişinə qoşuldu. 15.V.1997 ildə Azərbaycan və





ABŞ hökumətləri «Cinah Sazişi» ilə bağlı birgə bəyanatla çıxış etdilər. Sənəddə hər iki tərəf «Müqavilə» çərçivəsində olan adi silahlar və hərbi texnikanın *qeydiyyatı və nəzarəti ilə bağlı* mövcud problemlərdən böyük narahatlıq keçirdiklərini bildirdilər.

20.VI.1997 ildə ABŞ prezidenti B.Klinton, Fransa prezidenti C.Şirak və Rusiya prezidenti B.Yeltsin Dağlıq Qarabağ problemi ilə bağlı birgə bəyanat imzaladılar. Sənəddə hər üç dövlətin prezidentləri Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə nizamlanmasına kömək etmək üçün sıx işləmək niyyətində olduqlarını bildirdilər.

Azərbaycan-ABŞ münasibətlərinin inkişafı istiqamətində növbəti addım prezident H.Əliyevin ABŞ-a ilk rəsmi səfəri zamanı atıldı. Səfər gedişində (27.VII-07.VIII.1997) beş mühüm hüquqi-normativ sənəd imzalandı: 1. Amerika-Azərbaycan münasibətlərinə dair birgə bəyanat; 2. Sərmayə qoyuluşunun qarşılıqlı qorunması və təşviq edilməsinə dair Azərbaycan Respublikası hökuməti ilə Amerika Birləşmiş Ştatları hökuməti arasında müqavilə; 3.Birləşmiş Ştatlar ilə Azərbaycan arasında müdafiə və hərbi sahələrdəki gələcək münasibətlərə dair Birgə bəyanat; 4.Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında energetikanın inkişafı üzrə ikitərəfli dialoq yaratmaq niyyətləri haqqında bəyanat; 5.Layihələrin təşviqinə dair Baş saziş.

Azərbaycan Respublika Dövlət *Neft Şirkəti (ARDNŞ)* və ABŞ-ın «Şevron», «Ekson», «Mobil», «Amoko» şirkətləri arasında dəyəri 8 milyard ABŞ dolları dəyəri olan 4 neft müqaviləsi imzalandı.

Azərbaycan prezidenti iki dövlət arasında əməkdaşlıq əlaqələrinin hərtərəfli və səmərəli inkişafını təmin etmək məqsədilə 02.IX.1997 ildə «Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında partnyorluq münasibətlərinin genişləndirilməsi tədbirləri haqqında» sərəncam imzaladı.

İkitərəfli ticarət-iqtisadi əlaqələrind artım təmayülləri özünü göstərməkdədir:

28.01.2002 ildən ABŞ prezidenti C.Buşun fərmanı ilə «907-ci əlavə» müvəqqəti olaraq aradan qaldırdı.

**AZƏRBAYCAN - ALMANİYA MÜNASİBƏTLƏRİ.** Azərbaycan istiqlaliyyət qazanandan sonra yeni mərhələyə daxil olub. 20.II.1992 ildə hər iki dövlət arasında *diplomatik əlaqələr*, qarşılıqlı qaydada *səfirlik* səviyyəsində *diplomatik nümayəndəliklər* yaradılıb. XII.1993 ildə AFR Bundestaqının Qafqaz üzrə komissiyasının sədri Villi Vimmer Bakıda respublika rəhbərliyilə görüşüb. Almaniyanın mövqeyini açıqlayaraq, ölkəsinin sərhədlərin toxunulmazlığına dair *Avropada Təhlükəsizlik Əməkdaşlıq Müşavirəsinin* prinsipini əsas götürdüyünü və münaqişənin həlli üçün qüvvələrini bu təşkilat çərçivəsində əsirgəməyəcəyini bildirib.

*28.I.1995 ildə* İsveçrənin *Davos* şəhərində Azərbaycan Respublikaının *prezidenti* H.Əliyevlə (*Əliyev Heydər Əlirza oğlu*) AFR prezidenti Roman Hersoqun görüşü keçirildi. Hər iki tərəfi maraqlandıran məsələlər barəsində müzakirələr oldu. 07.V. H.Əliyevin AFR xarici işlər naziri K.Kinkel ilə Londonda görüşündə tərəfləri maraqlandıran məsələlər ətrafında söhbət getdi. AFR-in iqtisadi əməkdaşlıq və inkişaf üzrə federal naziri K.Sirangerin başçılıq etdiyi nümayəndə heyətinin V.1995 ildə Bakıya gəlişi iki ölkə arasında əməkdaşlığın geniş vüsət almasına təkan verdi.

Ermənistan-Azərbaycan münaqişəsi yüksək səviyyəli Almaniya-Azərbaycan görüşlərində həmişə müzakirə mövzusu olub. 21.VIII.1995 ildə H.Əliyev ATƏT-in *Minsk qrupunda-kı* . AFR nümayəndəsi səfir F.Lambaxla, 22.VIII. AFR Bundestaqının Qafqaz qrupunun rəhbəri, ATƏT-in Parlament məclisinin vitse-prezidenti V.Vimmerlə görüşündə sözügedən mövzu ətrafında geniş fikir mübadiləsi apardı.

AFR xarici işlər nazirinin Bakıya səfəri zamanı «Azərbaycan-Almaniya qarşılıqlı münasibətlərinin əsaslarına dair birgə bəyanat», «Azərbaycan və AFR hökumətləri arasında mədəni əməkdaşlıq haqqında saziş», «Azərbaycan və AFR hökumətləri arasında əsgər məzarlarının yaxşı vəziyyətdə saxlanılması haqqında saziş», «AR və AFR arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında müqavilə», «Azərbaycan və AFR arasında maliyyə əməkdaşlığı haqqında *Memorandum*» və s. sənədlər imzalandı.

Almaniya Azərbaycana ən fəal humanitar və texniki yardım göstərən ölkələrdən biridir: Bərdə, İmişli və Naftalan rayonlarının ərazisində məcburi köçkünlər üçün bir neçə şəhərcik tikilib istifadəyə verilib. Almaniya həmçinin Azərbaycanda beynəlxalq aeroportun tikintisinin başa çatdırılması və uçuşların təhlükəsizliyinin etibarlı sisteminin yaradılması üçün 40 il müddətinə 10 milyon alman markası məbləğində güzəştli kredit, müvafiq kadrların hazırlanması məqsədi ilə Azərbaycana əvəzsiz 11,4 mln. alman markası ayırdı. Bundan başqa, AFR hökuməti Avropa İttifaqı, o cümlədən TASİS proqramı çərçivəsində də AR-ə humanitar yardım göstərilməsi məqsədilə konkret layihələrin və texniki yeniləşmələrin həyata keçirilməsi üçün daha 20 mln. alman markası ayırıb.

01.-04.VII.1996 ildə H.Əliyevin AFR-ə rəsmi səfəri zamanı aşağıdakı sənədlər: «Tədqiqatlar və mütəxəssislər fondu yaradılması haqqında» saziş, «SSRİ ilə AFR arasında bağlanmış müqavilələrin (*Beynəlxalq müqavilələr*) qüvvədə qalması haqqında» protokol, «Təcili yardım - Bakı hava limanı» layihəsi üzrə maliyyə əməkdaşlığı haqqında» saziş imzalandı. Bundan əlavə, Azərbaycan Respublikası Milli Bankı ilə AFR-in Doyçe Bankı arasında maliyyə əməkdaşlığına dair memorandum, Azərbaycan Beynəlxalq Bankı ilə AFR Banklar Konsorsiumu arasında kredit xətti açılmasına dair saziş imzalandı. Perspektivdə Almaniyanın kənd təsərrüfatı sənayesi, avtomobil, dəmiryolu və hava nəqliyyatı sahəsində təcrübəsindən və qabaqcıl texnoloji imkanlarından Azərbaycanın bəhrələnməsi üçün hər cür imkan yaradılması nəzərdə tutulub.

**AZƏRBAYCAN – ATƏT.** 30.I.1992 ildə Azərbaycan Respublikası *Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin* üzvlüyünə qəbul olundu və 08.VII. ATƏM-in Helsinkidə keçirilən Zirvə toplantısında bu təşkilatın sənədlərini imzaladı.

II.1992 ildən başlayaraq *Dağlıq Qarabağ problemi* bu təşkilatın (*Beynəlxalq təşkilatlar*) gündəliyinə daxil oldu və ATƏM-in xüsusi missiyası (*Diplomatik missiya*) Azərbaycana səfər etdi. 27-28.II. ATƏM-in Yüksək Vəzifəli Şəxslər Komitəsinin (YVŞK) Praqada keçirilən 7-ci iclasında münaqişə bölgəsində olan missiya məruzə ilə çıxış etdi. Bu sənəddə sərhədlərin toxunulmazlığı və münaqişənin danışıqlar yolu ilə həll edilməsi tövsiyə edildi.





YVŞK-nın 13-14.III. Helsinkidə keçirilən 8-ci iclasında Dağlıq Qarabağ problemi bir daha müzakirə olundu. Bu sahədə növbəti addım 19-23.III. YVŞK-nın sədri Yan Kubiş başda olmaqla nümayəndə heyətinin münaqişə bölgəsinə yeni səfəri oldu.

23-24.III.1992 ildə Helsinkidə YVŞK-nın 9-cu iclasında atəşin dayandırılması və bu problemlə bağlı sülh konfransının (*Beynəlxalq konfranslar*) keçirilməsi təklif olundu.

ATƏM Xarici İşlər Nazirləri Şurasının 24.III. keçirilən yığıncağında münaqişənin dinc vasitələrlə həlli yollarını müəyyən etmək üçün sülh konfransı çağırılması qərara alındı. 07.V.1992 ildə ATƏM-in Dağlıq Qarabağa dair Minsk Konfransının sədri M.Rafaelli Bakıda olarkən sülh konfransının çağırılması məsələləri müzakirə olundu. Azərbaycan tərəfi konfransın çağırılmasına razı olmaqla, Dağlıq Qarabağ nümayəndələrinin Azərbaycan nümayəndə heyətinin tərkibində təmsil olunmasını tələb etdi.

Şuşa və Laçının Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi Minsk sülh Konfransının keçirilməsinə imkan vermədi.

18-21.V. Helsinkidə YVŞK-nın 11-ci görüşündə Azərbaycan Ermənistanın təcavüzkar bir dövlət kimi pislənilməsini və ona qarşı sanksiyaların tətbiq olunmasını tələb etdi. Ermənistanın mövqeyi üzündən ATƏM çərçivəsində aparılan danışıqlar bu dəfə də müsbət nəticə vermədi. 15-20.VI. *Minsk Qrupunun* Romada keçirilən konfransında Laçın və Şuşa ilə yanaşı, ermənilər Goranboy və Ağdərəni tələb etməklə, müxtəlif bəhanələr gətirməklə münaqişənin dinc vasitələrlə nizama salınmasına süni maneələr yaradıqdılar. 27.VIII. Qazaxıstan Respublikasının təşəbbüsü ilə Azərbaycan, Ermənistan və Qazaxıstan nümayəndələri problemi müzakirə edərək imzaladıqları birgə *Memoranduma* görə 01.IX. etibarən *münaqişədə iştirak edən tərəflər hərbi* əməliyyatları dayandırmalı idilər. 03.IX. memorandumun yerinə yetirilməsini nəzərdə tutan İcevan *protokolu* imzalandı. 14-16.IX. Alma-Atada Azərbaycan və Ermənistan arasında keçirilən danışıqlarda erməni tərəfi Azərbaycan və Qazaxıstan nümayəndə heyətlərinin qəbul etdikləri bəyannamə layihəsini rədd etdiyindən görüş nəticəsiz sona çatdı.

ATƏM çərçivəsində 11 dövlətin iştirakı ilə II-III.1993 ildə Romada Minsk Qrupunun növbəti danışıqlarında münaqişə zonasına müşahidəçilər qrupunun göndərilməsi barədə saziş imzalandı. Ermənistan bu dəfə də hərbi əməliyyatları genişləndirməklə sazişin yerinə yetirilməsinə mane oldu.

3-6.IV. Ermənistan silahlı qüvvələri Azərbaycanın Kəlbəcər rayonunu işğal etdiyinə görə, münaqişənin həlli yeni müstəviyə keçdi. Kəlbəcərin işğalı Ermənistanı təcavüzkar bir dövlət kimi dünya birliyinə tanıtdı. Hərbi təcavüzə məruz qalan Azərbaycan dövləti bir sıra xarici ölkələrin dövlət və hökumət başçılarına, o cümlədən *BMT Baş Katibinə*, ATƏM-in sədrinə müraciət etməli olub. 26-29.IV. Praqada Azərbaycanın xahişi ilə YVŞK-nın fövqəladə iclası çağırılıb. Konfrans tərəfindən münaqişənin tezliklə həll olunmasını nəzərdə tutan əsaslı addım atılmadı, təcavüzün genişlənməsinin qarşısını alan qərar qəbul edilmədi.

ATƏM üzvü olan 9 ölkənin (ABŞ, Rusiya, Fransa, Türkiyə, İtaliya, Almaniya, Çexiya, İsveç və Belarus) nümayəndələrinin 3-4.VI. Romada keçirilən görüşündə problemin dinc vasi-

tələrlə nizama salınmasını nəzərdə tutan növbəti sənəd Azərbaycan tərəfindən qəbul olunsa da, ermənilər onunla razı olmadıqlarını bəyan etdilər.

Beləliklə, Ermənistan və ATƏM-in *Minsk Qrupunun* üzvü olan 9 ölkənin Romada irəli sürdükləri «Təxirəsalınmaz tədbirlər cədvəli»nin icrası Ermənistan tərəfindən pozulub.

X.1993 ildə Ermənistan ordusu hərbi əməliyyatları genişləndirib Zəngilan rayonunu işğal edəndən sonra ATƏM-in sədri ərazi məsələlərinin həllində zordan istifadə etməyi pisləyən *Bəyanatla* kifayətləndi.

2-8.XI. Vyanada keçirilən növbəti toplantı zamanı ATƏM-in Minsk Qrupunun üzvü olan 9 dövlət Dağlıq Qarabağ münaqişəsi ilə bağlı növbəti bəyanatla çıxış edərək, hərbi əməliyyatların dərhal dayandırılmasını tələb etdi, münaqişənin həllində gücdən istifadə olunmasını qətiyyətlə pislədi və erməni silahlı qüvvələrinin Azərbaycan ərazilərini işğal etməsi ilə əlaqədar *BMT Təhlükəsizlik Şurası* tərəfindən qəbul olunmuş 822, 853, 874 və 884 saylı qətnamələrin yerinə yetirilməsini tövsiyə etdi, işğal olunmuş Horadiz və Zəngilan rayonlarından erməni silahlı qüvvələrinin dərhal çıxarılması tələb olundu. Erməni tərəfi irəli sürülmüş tələbləri qəbul etmədi. Bəyanatda qeyd edilirdi ki, Dağlıq Qarabağın statusu atəş dayandırıldıqdan, işğal olunmuş ərazilərdən erməni silahlı qüvvələrinin qeyd-şərtsiz çıxarılmasından sonra çağırılacaq Minsk Konfrasında müzakirə oluna bilər.

Münaqişənin nizama salınması məqsədilə bölgədə beynəlxalq sülhyaratma qüvvələrinin yerləşdirilməsi məsələsində Rusiya öz silahlı qüvvələrinin yerləşdirilməsi təklifini irəli sürərək, ATƏM tərəfindən irəli sürülən çoxtərəfli beynəlxalq *vasitəçiliyi* rədd etdi. Bu məsələ ilə əlaqədar ATƏM-in digər üzvlərilə Rusiya arasında yaranan fikir ayrılığı, Minsk Qrupunun yeni sədri Andres Byurnerin münaqişədə iştirakçı ölkələrə səfər etməsinə səbəb oldu. Bu səfər əsnasında Azərbaycanın çoxtərəfli beynəlxalq vasitəçiliyi qəbul etməsinə baxmayaraq, erməni tərəfi rus variantını bəyəndi, beləliklə problemin tezliklə həll olunmasını qeyri-mümkür etdi. Bununla da Minsk Konfrasının iki həmsədrinin təyin edilməsinin vacibliyi ortaya çıxdı. Rusiya Ermənistan (Azərbaycan münaqişəsində maraqlı tərəf olduğu üçün Minsk Konfransında və Minsk Qrupunda həmsədrlik Rusiya və Finlandiyaya həvalə edildi. Bu düzəliş elə bir dəyişiklik yaratmadı. Rusiyanın təklifilə 06-11.II.1995 ildə Moskvada Azərbaycan, Ermənistan nümayəndələri arasında növbəti danışıqlar başlandı. Moskva görüşləri əsnasında Rusiya Dağlıq Qarabağın erməni icması nümayəndələrinin də danışıqlar prosesində iştirak etməsini irəli sürdü. Bu təklif Dağlıq Qarabağ ermənilərinin tərəf kimi qəbul edilməsini nəzərdə tuturdu. Moskva danışıqlarında Şuşa və Laçının azad edilməsi və Dağlıq Qarabağın gələcək statusu məsələsi gündəliyə çıxarıldı. Ermənistan Laçın və Şuşanın azad edilməsini Dağlıq Qarabağa status verildikdən sonra müzakirə etmək təklifini irəli sürdü və Laçın dəhlizini yalnız öz nəzarəti altında saxlayacağını iddia etdi. Azərbaycan tərəfi bu şərtlərlə razılaşmayaraq Laçın dəhlizinin beynəlxalq qüvvələrin nəzarəti altında olmasına, Dağlıq Qarabağın statusuna isə Şuşa və Laçının azad olmasından sonra baxılacağını bildirdi.

6-7.IV. Stohkolmda Minsk Qrupunun Dağlıq Qarabağla əlaqədar keçirilən yeni görüşündə münaqişə ilə bağlı növbəti bəyanat qəbul edilərək, təkcə atəşkəs rejiminin vacibliyi bildirildi. ATƏT-in bu mövqeyi əslində təcavüzkar dövlətin işğal etdiyi Azərbaycan torpaqlarında vaxt qazanaraq möhkəmlənməsinə şərait yaratdı.

01-05.IV.1997 ildə Moskvada Minsk Qrupu çərçivəsində keçirilən danışıqların növbəti mərhələsinin birinci hissəsində silahlı münaqişənin dayandırılması haqqında razılaşma layihəsi hazırlandı, ikinci hissədə isə Azərbaycan, Ermənistan və Dağlıq Qarabağın erməni icmasının və azərbaycanlı əhalisinin nümayəndələrinin iştirakı ilə iclaslar keçirildi. Azərbaycan nümayəndə heyəti Rusiyanın MDB (*Azərbaycan Müstəqil Dövlətlər Birliyində*) ölkələri üzrə əməkdaşlıq naziri A.Tuleyevə istinad edərək bu ölkədən Ermənistana gizli olaraq 1 mlrd. ABŞ dolları məbləğində silah ötürülməsini bəyan etdi.

23.IX. Minsk Qrupunun həmsədrləri təkliflər planı ilə regiona səfər etdilər. Bu plana görə birinci mərhələdə Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları erməni silahlı qüvvələrindən azad edilməli, ikinci mərhələdə isə Laçın və Şuşanın işğalçılardan azad olunması ilə yanaşı, Dağlıq Qarabağın statusu müəyyən edilməli idi. Azərbaycan tərəfi bu təklifə razı olduğunu bəyan etdi. Ermənistan təklifi rədd etdi və taktiki gedişlə problemin həllinin Dağlıq Qarabağdan asılı olduğunu bildirdi.

Ümumiyyətlə, 1992-1999 ildən hal-hazıradək Ermənistan-Azərbaycan münaqişəsinin diplomatik vasitələrlə nizama salınması barədə Minsk Qrupu çərçivəsində göstərilən səylər real nəticə verməyib.

Problemin nizama salınması Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən qeyd-şərtsiz çıxarılması, Azərbaycan Respublikasının dövlət sərhədlərinin və ərazi bütövlüyünün bərpası, Dağlıq Qarabağda yaşayan əhalinin təhlükəsizliyinin təmini və Dağlıq Qarabağa mədəni status verilməsi, məcburi qaçqınların öz yerlərinə qaytarılması şərtilə mümkündür.

**AZƏRBAYCAN-BELÇİKA MÜNASİBƏTLƏRİ.** 19.II.1992 ildə Azərbaycan Respublikası Baş nazirinin Belçikaya səfəri zamanı bu ölkənin baş naziri ilə qarşılıqlı müstəqim əlaqələrin inkişafı barədə fikir mübadiləsi aparılıb, diplomatik və konsulluq münasibətləri (*Diplomatik münasibətlər, Konsulluq münasibətləri*) yaradılması barədə saziş imzalanmışdır. Həmin sənəddə hər iki tərəf SSRİ ilə Belçika Krallığı arasında hələ də qüvvədə olan ikitərəfli sənədləri tanıdıqlarını və iki ölkə arasında qarşılıqlı münasibətləri tənzimləyən hüquqi-normativ sənədlər imzalananadək onları əsas götürəcəklərini qeyd etdilər. 1993 ilin ikinci yarısından sonra ikitərəfli münasibətlərdə hissediləcək dönüş yarandı. 3-5.V. 1994 ildə Azərbaycan Respublikasının *prezidenti* H.Əliyev (*Əliyev Heydər Əlirza oğlu*) Belçikaya səfər etdi. 4.V. Belçika Krallığının baş naziri ilə dostluq və əməkdaşlıq haqqında saziş imzalandı.

23.II.1995 ildə Krallığının Azərbaycanda fövqəladə və səlahiyyətli *səfiri* təyin edildi.

Azərbaycan Respublikasının prezidenti H.Əliyev 22-23.IV.1996 ildə bu ölkəyə ikinci səfər etdi. Səfər gedişində prezident *NATO* və *Avropa Birliyi* qərargahlarında olub, Şimali Atlantika Blokunun sədri H.Solana, AB komissiya sədri C.Sinterlə, təşkilatın komissarı Van den Brukla görüşüb, tərəfləri

maraqlandıran məsələlər barəsində fikir mübadiləsi aparıb.

**AZƏRBAYCAN BELORUSİYA MÜNASİBƏTLƏRİ.** İki ölkə arasında *diplomatik əlaqələri* 11.VI.1993 ildə yaradılıb. Tərəflər arasında «İkili vergidən qaçılması, gəlirlərə və əmlaka görə vergiləri ödəməkdən yayınmanın qarşısının alınmasına dair Konvensiya» (*Beynəlxalq Konvensiya*) və «malların (işlərin, xidmətlərin) idxalı və ixracı zamanı vasitəli vergilərin tutulması prinsiplərinə dair Saziş» layihələri razılaşdırılmış və bununla bağlı 1998 ildə *Memorandum* və protokol imzalanmışdır. V.1998 ildə Belorusun ədliyyə naziri Bakıda səfərdə olarkən iki ölkənin ədliyyə nazirlikləri arasında da əməkdaşlığa dair saziş imzalandı.

**AZƏRBAYCAN BEYNƏLXALQ NEFT MÜQAVİLƏLƏRİNDƏ.** Azərbaycan müstəqilliyini elan edəndən sonra neft sənayesinə xarici kapitalı cəlb etməklə neft hasilatı və emalının artırılması, nəqli və onun beynəlxalq bazarda dünya qiymətlərinə uyğun satılması zərurəti meydana gəldi.

Bu məqsədlə Azərbaycan hökuməti xarici neft şirkətləri ilə əməkdaşlığın daha optimal variantı kimi I.1991 ildə elan etdi.

20.IX.1994 ildə Bakıda «Gülüstan» sarayında Xəzər dənizi Azərbaycan sektorunun «Azəri», «Çıraq» və «Günəşli» yataqlarında neftin birgə işlənilməsi və pay bölgüsü haqqında ilk beynəlxalq neft müqaviləsi (*Beynəlxalq neft müqaviləsi*) imzalandı. *«Əsrin müqaviləsi»* adlandırılan bu kontraktda 8 ölkəni təmsil edən 12 kompaniya iştirak edirdi.

İmzalanmış müqavilədə ARDNŞ-in ilkin payı 20% idi. 1995 ildə 5% Ekson şirkətinə (buna qədər Ekson müqavilədə iştirak etmirdi), 5% isə TPAO şirkətinə (ilkin olaraq TPAO-nun müqavilədə iştirak payı 1,75% idi) güzəşt edildi. ARDNŞ-nin 10%-lik güzəştinin əsas səbəbi kimi öz payını maliyyələşdirməyə vəsaitinin olmaması faktı göstərildi. EKSON və TPAO 173,2 milyon ABŞ dolları məbləğində bonusu Azərbaycana verilmək və ARDNŞ-in 10%-lik payını maliyyələşdirilməsini öz üzərlərinə götürdülər. Bundan savayı, İtoçu kompaniyası Mak-Dermottun (ABŞ) 2,45%-lik payını aldı və konsorsiumda onun yerini tutdu. Penzoylun satdığı 5%-lik paydan 1,4705%-ni alan İtoçunun müqavilədə ümumi payı 3,9205%-ə çatdı. Eyni zamanda Penzoylun satdığı 5% payda Ekson şirkəti 3,006%, Yunokal isə 0,5289% aldılar.

Konsorsium üzvləri arasında imzalanan «Əməliyyatların birgə aparılması haqqında razılaşmaya» müvafiq olaraq, I.1995 ildə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) yaradıldı.

«Əsrin müqaviləsi» 12.XII.1994 ildə qüvvəyə mindi. İlk beynəlxalq neft müqaviləsindən sonra ARDNŞ Azərbaycanın Xəzər şelfində və quruda yerləşən digər neft yataqları və perspektiv strukturlarının da birgə istismarı ilə bağlı xarici enerci kompaniyaları ilə kontraktlar imzaladı.

10.XI.1995 ildə «Qarabağ» perspektiv strukturunun işlənilməsi üzrə 4 xarici şirkətlə 25 il müddətinə müqavilə imzalandı.

04.VI.1996 ildə «Şahdəniz» layihəsi üzrə müqavilə imzalandı. Müqavilə Bi-Pi Eksploreyşn LTD kompaniyası tərəfindən həyata keçirilir.

Müqavilə 17.X.1996 ildə qüvvəyə minib.





Dan Ulduzu (Əşrəfi) layihələri üzrə hasilat bölgüsü müqaviləsi 14.XII.1996 ildə imzalanıb və müqavilə Abşeron Şimal Əməliyyat Şirkəti (AŞƏŞ) tərəfindən həyata keçirilir.

Dan Ulduzu (Əşrəfi) neft yataqlarının istifadə olunması üçün 1992 ildə ABŞ-ın Amoko və Yunokal şirkətləri ilə danışıqlara başlanıldı. 1996 ildə danışıqlar prosesi başa çatdı. İmzalanan müqavilədə ABŞ şirkətlərindən savayı, Yaponiya və Səudiyyə Ərəbistanının şirkətləri də iştirak edir.

Azərbaycanın Xəzər neftinin hasil edilməsi üzrə 4-cü beynəlxalq müqavilə 07.III.1997 ildə qüvvəyə minib.

13.I.1997 ildə Parisdə Yelisey sarayında Fransa prezidenti Jak Şirakın və Azərbaycan *prezidenti* H.Əliyevin (*Əliyev Heydər Əlirza oğlu*) iştirakı ilə Xəzərin Azərbaycan sektorundakı Lənkəran-dəniz və Talış dəniz yataqlarının kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haqqında ARDNŞ ilə Fransanın «Elf Akiten» və «Total» şirkətləri arasında müqavilə imzalandı.

03.VII.1997 ildə Azərbaycan prezidenti H.Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri zamanı Xəzərin Azərbaycan sektoruna mənsub «Yalama (D-222)» perspektiv strukturu ilə bağlı ARDNŞ və Lukoyl şirkəti arasında neft müqaviləsi imzalandı. Sayca 6-cı olan bu müqavilənin imzalanmasından az sonra Lukoyl bilavasitə öz maraqlarını Luk Arko şirkətinə (Rusiya-ABŞ) güzəştə getdi. Luk Arko-Rusiyanın Lukoyl və ABŞ-ın Arko şirkətləri bazasında yaradılan birgə kompaniyadır. Əmlakın 54%-i Lukoyla, 46%-i isə Arko-ya məxsusdur.

Layihənin reallaşması üçün 2 milyard ABŞ dolları həcmində investisiya qoyuluşu nəzərdə tutulmuşdu.

01.VIII.1997 ildə Azərbaycan prezidenti H.Əliyevin ABŞ-a rəsmi səfəri zamanı Vaşinqtonda Abşeron, Oğuz və Naxçıvan strukturlarının birgə işlənilməsi üzrə üç Azərbaycan-Amerika neft kontraktı imzalandı.

Hər üç müqavilə 05.XII.1997 ildə qüvvəyə mindi.

02.VI.1998 ildə Bakının «Gülüstan» sarayında /5-ci beynəlxalq «Xəzərneftqaz» sərgisi keçirildiyi vaxtda/ Xəzərin Azərbaycan sektorundakı «Kürdaşı» dəniz blokunun və qurudakı «Cənub-Qərbi Qobustan» və «Kürsəngi-qarabağlı» bloklarının birgə işlənilməsi haqqında ARDNŞ ilə İtaliyanın «Acip», Yaponiyanın «Mitsui», Türkiyənin «TPAO», Böyük Britaniya və Kanadanın «Komonvels oyl ənd qaz», ABŞ-ın «Frontera Resourses», «Amiroda Hess», «Yunion Teksas», Səudiyyə Ərəbistanının «Delta» şirkətləri arasında müqavilələr imzalandı.

ARDNŞ-in xarici enerci şirkətləri ilə bağladığı növbəti üç neft müqaviləsi Azərbaycan prezidenti H.Əliyevin 21.VII.1998 ildə Böyük Britaniyaya rəsmi səfəri zamanı imzalanıb. Bu müqavilələr Xəzərin Azərbaycan sektoruna aid olan «İnam», «Araz, Şərq» və «Muradxanlı» perspektiv strukturlarını əhatə edir.

H.Əliyevin 27.IV.1999 ildə NATO-nun 50 illik yubiley tədbirləri ilə bağlı ABŞ-a rəsmi səfəri zamanı daha üç beynəlxalq neft müqaviləsi imzalanıb.

Bu müqavilələr Azərbaycanın Xəzər şelfindəki Zəfər-Məşəl və Lerik bloklarını, habelə quruda yerləşən Padar yatağını əhatə edir.

Beləliklə, 1994-1999 illər ərzində ARDNŞ dünyanın 14 ölkəsinin (ABŞ, Böyük Britaniya, Fransa, Norveç, Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Yaponiya, Rusiya, İtaliya, İspaniya, Belçika, Almaniya, Kanada) 31 şirkəti ilə (Yunokal, Ekson, Penzoyl, Frontera Resourses, Şevron, Mobil, Luk-Arko, Delta-Hess, Monkrif oyl, Bi-Pi, Amoko, Ramko, Komonvels oyl, Monyument, Elf Akiten, Total, Statoyl, TPAO, OİES, İtoçu, Capan Petroleum, İndoneziya Petroleum, Teykoku, Mitsui, Lukoyl, Lukacip, Sentral Fyuel, Acip, Repsol, Petrofina, Vinterşel və Alberta Enerci) neft şirkətlərilə 19 beynəlxalq neft müqaviləsi imzalayıb. Bu müqavilələr üzrə Azərbaycanın neft sənayesinə 50 milyard ABŞ dolları həcmində investisiya qoyulması nəzərdə tutulub.

Bütövlükdə 1994-1998 illərdə neft sənayesinə 2 milyard 253 milyon ABŞ dolları həcmində investisiya qoyulub ki, bu da ölkə iqtisadiyyatına qoyulan bütün xarici sərmayələrin 64%-ni təşkil edir.

«Əsrin müqaviləsi» üzrə «Çıraq-1» platformasından ilkin neft XI.1997 ildə Bakı-Novorossiysk marşrutu üzrə Qara dənizə daşınıb və burada 24.III.1998 ildə ilk tanker Azərbaycan nefti ilə yüklənib. İlkin neftin daşındığı digər marşrut Bakı-Supsa boru-kəməri isə 17.IV.1999 ildə istismara verilib.

**AZƏRBAYCAN BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATINDA.** Azərbaycan Respublikası 02.III.1992 ildə *BMT* üzvlüyünə qəbul edildi.

Ermənistan-Azərbaycan münaqişəsinin gərginləşməsi və Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsilə əlaqədar BMT dörd qətnamə qəbul edib və yeddi bəyanat verib. 06.IV.1993 ildə *BMT Təhlükəsizlik Şurası* sədri *Bəyanatla* çıxış edərək, «BMT TŞ Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsindən ciddi təşviş keçirdiyini» bildirdi.

30.IV.1993 ildə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Kəlbəcər rayonu işğal edildikdən sonra BMT TŞ 822 saylı ilk *Qətnamə* qəbul etdi.

29.VII.1993 ildə erməni silahlı qüvvələri tərəfindən Ağdam rayonu tutulduqdan sonra BMT TŞ 853 saylı Qətnamə qəbul etdi. Qətnamədə qəti surətdə tələb olunurdu ki, münaqişənin geniş miqyas almasına və ərazi işğalının davam etdirilməsinə gətirib çıxara bilən hər cür silah və hərbi sursat təchizatı dayandırılsın və işğalçı qüvvələr bu ərazilərdən çıxarılsın. TŞ həmçinin Ermənistan hökumətini DQ erməniləri tərəfindən 822 (1993) və 853 (1993) Qətnamələrinin müddəalarına riayət olunmasını təmin etməkdə öz nüfuzundan istifadə etməyə çağırdı.

18.VIII.1993 ildə BMT TŞ sədri Bəyanat yaydı. Burada işğal olunmuş bütün rayonlardan işğalçı qüvvələrin dərhal, tamamilə və sözsüz çıxarılması tələb edilirdi. Bu tələbin yerinə yetirilməsi üçün Ermənistan hökuməti bütün imkanlarını işə salmağa çağırılırdı.

14.X.1993 ildə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Qubadlı rayonu tutulduqdan sonra BMT TŞ 874 saylı Qətnamə qəbul etdi. 12.XI.1993 ildə Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən Azərbaycanın Zəngilan rayonu və Horadiz şəhəri tutulduqdan sonra BMT TŞ 884 saylı Qətnamə qəbul etdi. Qətnamədə belə bir ciddi narahatlıq ifadə olunurdu ki, Ermənistan Azərbaycan arasında münasibətlərdə gərginliyin





davam etməsi regionda sülh və təhlükəsizlik üçün təhlükə ola bilər. Hərbi əməliyyatların geniş miqyas almasını xüsusi vurğulayan TŞ Zəngilan və Horadizin işğal olunmasını, dinc əhaliyə həmlə edilməsini və Azərbaycan ərazisinin atəşə tutulmasını pisləmiş, Ermənistan hökumətini DQ ermənilərini 822, 853, 874 və 884 saylı Qətnamələrə əməl etmələri üçün öz nüfuzundan istifadə etməyə və silahlı qüvvələrin bütün işğal edilmiş ərazilərdən çıxarılmasına çağırmışdır.

Ermənistan V.1992 ildə Laçın rayonunu ələ keçirərək, humanitar dəhliz adlandırdığı bu yol ilə DQ-yə müntəzəm olaraq silah, hərbi sursat və canlı qüvvə keçirməyə başlamışdı. BMT TŞ-nin 30.VII.1993 il 853 və 11.XI.1993 il 884 saylı qətnaməsində, habelə BMT TŞ sədrinin 18.VIII.1993 il bəyanatında Azərbaycan Respublikası ərazisinin işğal olunmasını davam etdirə bilən hər cür silah və hərbi sursat göndərilməsindən çəkinmək barədə çağırışlar səslənib.

BMT TŞ-nin bütün qətnamələrində və TŞ sədrinin bəyanatlarında Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı qeyd olunur, ərazi ələ keçirilməsi üçün güc tətbiq olunmasının yolverilməzliyi göstərilir. BMT TŞ-nin adı çəkilən qətnamələrində və digər beynəlxalq sənədlərdəki faktlar Ermənistan tərəfindən Azərbaycan Respublikasına qarşı təcavüzün təşkil olunub həyata keçirilməsindən xəbər verir. Belə ki, Azərbaycan Respublikası ərazisində *müharibə* Ermənistan silahlı qüvvələri tərəfindən aparılır və bu işdə DQ bölgəsinin separatçı qüvvələrindən istifadə olunur. Ermənistan Azərbaycan Respublikası ərazisində ATƏT (*Avropada təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi*) Müqaviləsilə qadağan edilən ağır silahlardan istifadə edir.

İnsan haqlarına dair BMT Komissiyasının Cenevrədə 23.II.1994 ildə qəbul etdiyi Qətnaməsində Azərbaycan və Ermənistan arasında gərginliyin davam etməsi və nəticədə kütləvi ölüm hallarının olması qeyd olunur.

BMT xəttilə qəbul edilən 4 qətnamə tövsiyə mahiyyəti daşıdığından icra mexanizminə və təsir gücünə malik deyil. *BMT Nizamnaməsinin* müəyyən müddəaları Ermənistan tərəfindən kobudcasına pozulub və bu təşkilatın üzvü olan Azərbaycan Respublikasının 11 rayonu silahlı qüvvələrdən istifadə olunmaqla işğal edilib. Lakin hər hansı təcavüzə əsaslı hüquqi-siyasi qiymət verilməsi, təcavüzkar dövlətə qarşı BMT TŞ sanksiyası işə düşməmişdir.

BMT-nin Azərbaycan Respublikasında nümayəndəliyi XI.1992 ildə fəaliyyət göstərir.

Azərbaycan Respublikası *beynəlxalq hüququn* subyekti kimi BMT-nin mərkəzi orqanları və çoxlu sayda strukturları ilə öz əlaqələrini davam etdirir.

**AZƏRBAYCAN - BOLQARISTAN MÜNASİBƏTLƏRİ.** Bolqarıstan Azərbaycanın müstəqilliyini 1992 ildən tanıyıb və hər iki ölkə arasında rəsmi *diplomatik əlaqələr* yaradılıb. IX.1993 ildə Bolqarıstan hökumət nümayəndə heyəti Bakıya səfər edib. 06.XII.1994 ildə iki ölkə başçılarının (*Dövlət başçısı*) Budapeşt görüşündə Azərbaycan Bolqarıstan münasibətlərinin formalaşması və inkişaf etdirilməsinin əsas istiqamətləri müzakirə olunmuşdur.

Azərbaycan və Bolqarıstan *prezidentlərinin* növbəti görüşü 11.III.1995 ildə Kopenhagendə, V.1995 ildə Parisdə olub.

Azərbaycan Respublikasının prezidenti H.Əliyev (*Əliyev Heydər Əlirza oğlu*) 29.VI.1995 ildə Bolqarıstana rəsmi səfər edib. «Dostluq münasibətləri və əməkdaşlıq barədə müqavilə» (*Beynəlxalq müqavilə*), «Ticarət, iqtisadi və elmi-texniki yardım haqqında saziş» imzalanıb.

**AZƏRBAYCAN - BÖYÜK BRİTANİYA MÜNASİBƏTLƏRİ.** 31.XII.1991 ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyi Böyük Britaniya tərəfindən tanındı. 12.III.1992 ildə Böyük Britaniya Xarici işlər naziri D.Hoqqun və bu ölkənin Moskvadakı *səfiri* R.Breytveytin Bakıya rəsmi səfəri zamanı iki ölkə arasında *diplomatik münasibətlərin* yaradılması haqqında *protokol* imzalandı. 15.VI.1992 ildə Bakıda Böyük Britaniyanın *səfirliyi* fəaliyyətə başladı. X.1993 ildə D.Hoqqun Bakıya növbəti səfəri zamanı hər iki ölkə vətəndaşlarının sərbəst yerdəyişməsi haqqında *Memorandum*, ardıcıl siyasi məsləhətləşmələr aparılmasına dair *Bəyanat* paraflandı (*Paraflama*). 22-25.II.1994 ildə Azərbaycan *prezidenti* H.Əliyevin (*Əliyev Heydər Əlirza oğlu*) Böyük Britaniyaya səfəri zamanı Azərbaycan Respublikası və Böyük Britaniya arasında dostluq və əməkdaşlıq haqqında birgə *Bəyannamə*, təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlıq haqqında saziş, hava daşımaları haqqında saziş, energetika sahəsində Memorandum, ikili vergidən qaçılması, əmlak və kapitaldan əldə olunan gəlirlərdən vergilər ödənilməsindən yayınmanın qarşısının alınması haqqında Konvensiya (*Beynəlxalq Konvensiya*), *xarici siyasət* idarələrinin əməkdaşlığı haqqında Memorandum, rabitə sahəsində qarşılıqlı anlaşma haqqında Memorandum, vətəndaşların qeyri məhdud yerdəyişməsi haqqında Memorandum imzalanmışdı. 1995 ildə Azərbaycan-Britaniya ticarət-iqtisadi Şurası yaradıldı. 1997 ildə Londonda Azərbaycanın xaricdə ilk mədəniyyət mərkəzi açıldı. 19-24.VII.1998 ildə H.Əliyevin Londona növbəti səfəri zamanı Azərbaycan-Böyük Britaniya arasında dostluq münasibətləri və tərəfdaşlığa dair birgə Bəyanat, Azərbaycanın neft-qaz ehtiyatlarının istismarında Britaniya şirkətlərinin iştirakına dair sazişlər, Bakıda Sahil parkında mehmanxana-ofis kompleksinin tikintisinə dair saziş imzalandı.

Rəsmi London Qarabağ münaqişəsinə münasibətdə Azərbaycanın əraizi bütövlüyünü tanıdığını dəfələrlə bəyan etmişdir.

IX.1998 ildə H.Əliyev "Böyük Britaniya ilə tərəfdaşlıq əlaqələrinin genişlədirilməsi tədbirləri haqqında" sərəncam imzaladı. 2001 ildə Azərbaycanda 1 mld. ABŞ dolları sərmayə qoyan 200 Britaniya kompaniyası fəaliyyət göstərirdi. Tərəflər arasında mal dövriyyəsi 89 mln 405 min ABŞ dolları təşkil edirdi.

**AZƏRBAYCAN - ÇİN MÜNASİBƏTLƏRİ.** 02.IV.1992 ildə Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında *diplomatik münasibətlər* yaradılmışdı. 16.III.1993 ildə Pekində Azərbaycan-Çin hökümətlərarası saziş imzalandı. Saziş ölkələr arasıda ticarət-iqtisadi əlaqələrin inkişafını nəzərdə tuturdu. Eyni zamanda Çinin Azərbaycana dövlət əmtəə krediti verməsi haqqında saziş, qarşılıqlı ticarət haqqında *Memorandum* da imzalandı. 07-11.III.1994 ildə Azərbaycan *Prezidenti* H.Əliyev (*Əliyev Heydər Əlirza oğlu*) Çinə rəsmi səfər etdi. Səfər zamanı ikitərəfli münasibətlərin inkişafı ilə əlaqədar sənədlər imzalandı.





**AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASI – AVROPA DÖVLƏTLƏRİ.** Osmanlı imperiyasının imzaladığı *Mudros barışığına* əsasən, Azərbaycan Respublikası nəinki türk ordusunun yardımından məhrum edildi, həm də Türkiyə Bakının *Antanta* qüvvələri tərəfindən tutulması və Transqafqaz dəmir yollarını nəzarətə götürməsilə razılaşdı. Beynəlxalq vəziyyətin Antantanın xeyrinə dəyişməsi ilə Azərbaycan Respublikasının taleyi İngiltərə, Fransa və ABŞ-ın tutacaqları mövqedən asılı oldu.

XI.1918 Azərbaycan hökuməti ingilislərlə danışıqlar aparmaq üçün Ənzəliyə (İran) nümayəndə heyəti göndərdi. Danışıqlar zamanı Azərbaycan Respublikasının müstəqilliyini tanımaqdan imtina edən ingilis generalı Tomson bildirdi ki, ABŞ, Fransa və İngiltərə nümayəndələri Azərbaycan hökuməti ilə *de-fakto* əlaqə yaradacaq, onun özü isə Bakının general qubernatoru kimi şəhər polisinə və şəhərin təhlükəsizlik işlərinə rəhbərlik edəcəkdir. Tomson həmçinin bildirdi ki, Azərbaycanın milli müstəqillik məsələsi *Paris Sülh konfransında* həll olunacaqdır.

16.XI. çağırılan Milli Şura Azərbaycanın müstəqilliyinin tanınması haqda bütün dünya dövlətlərinə müraciət qəbul etdi.

17.XI. Bakıya gələn general Tomson elə ilk çıxışında qeyd etdi ki, müttəfiq qoşunların komandanı kimi nə indi, nə də gələcəkdə Azərbaycanın daxili işlərinə qarışmayacaqdır, 28.XII. isə Azərbaycan hökumətini tanıdığını bəyan etdi.

Növbəti mərhələ Azərbaycan Respublikasının *beynəlxalq hüququn* subyekti kimi Paris Sülh konfransında iştirakını təmin etmək, müstəqilliyinin və suverenliyinin (*Dövlətin suverenliyi*) dünya dövlətləri tərəfindən tanınmasına nail olmaq idi. Azərbaycan hökuməti 28.XII.1918 ildə Paris sülh konfransına gedəcək nümayəndə heyətinin tərkibini və statusunu müəyyən etdi.

28.V.1919 ildə Azərbaycan nümayəndə heyəti ABŞ prezidenti V.Vilsonla (*Vilson Vudro*)görüşə bildi.

Görüş zamanı V.Vilson Azərbaycanın müstəqilliyi məsələsini açıq saxlayaraq, *konfederasiya* yaradılması ideyasını irəli sürdü və Azərbaycan nümayəndələrinə də ona qoşulmağı məsləhət gördü.

Azərbaycan nümayəndə heyəti «Qafqaz Azərbaycanı Respublikasının nümayəndələrinin Paris Sülh konfransına *Memorandumu*» adlı sənədi Sülh konfransının katibliyinə təqdim etdi. Memorandumda aşağıdakı şərtlər irəli sürülürdü:

1.Sülh konfransı Qafqaz Azərbaycanının Rusiya imperiyasından ayrılmasını bəyənsin. Azərbaycan tamamilə müstəqil dövlət olmaqla, Azərbaycan Demokratik Respublikası adlansın və sərhədləri memoranduma əlavə edilən xəritədəki kimi müəyyənləşdirilsin.

2.Azərbaycan Respublikası nümayəndə heyətinin üzvləri Sülh konfransının və onun komissiyalarının işinə cəlb edilsin.

3.Azərbaycan Respublikası *Millətlər Cəmiyyətinin* üzvlüyünə qəbul edilsin.

Azərbaycanı beynəlxalq aləmdə tanıtmaq və ermənilərin iftiralarını dəf etmək üçün nümayəndə heyəti bir sıra səmərəli tədbirlər həyata keçirdi. Memorandumun materialları ingilis və fransız dillərində kitabça şəklində çap edilərək, Avropa ölkələrinə və ABŞ-a göndərildi. Nümayəndə heyəti, həmçinin fransız dilində informasiya bülleteni

nəşr edərək, orada Azərbaycana aid materialları təbliğ edirdi.

Antanta *dövlət başçıları* 26.V.1919 ildə admiral A.Kolçakın Omskda yaratdığı hökuməti bütün Rusiya hökuməti kimi tanıdıqlarını bəyan etdilər. Müttəfiqlərin Kolçak hökumətini ümumrusiya hökuməti kimi tanımalarına yeni yaranan respublikalar arasında ilk olaraq Azərbaycan nümayəndə heyəti öz etirazını bildirdi. Bu məsələ ilə əlaqədar, 17.VI. Azərbaycan, Gürcüstan və Dağlılar respublikası nümayəndələri Sülh konfransına birgə etiraz notası (*Diplomatik nota*) göndərdilər. Notada deyilirdi ki, Qafqaz respublikaları öz müstəqilliklərini elan etmişlər və yenidən Rusiyaya birləşməyə heç vaxt razı olmayacaqlar. Etiraz notasında, həmçinin, Antanta dövlətlərindən yardım alan Denikinin könüllülər ordusunun işğal etdiyi ərazilərdən çıxarılması və Sülh konfransında Qafqaz respublikaları ilə bağlı bütün məsələlərin müzakirə olunmazdan əvvəl müvafiq respublikaların hökumətləri, yaxud da onların Parisdəki nümayəndələri ilə razılaşdırılması tələb olunurdu.

Denikin təhlükəsinin getdikcə daha çox qorxulu olduğunu nəzərə alan Azərbaycan və Gürcüstanın 23.VI.1919 ildə öz aralarında hərbi xarakterli *pakt* imzaladılar.

Müttəfiqlər VIII.1919 ildə öz qoşunlarını Qafqazdan çıxararkən, ingilislər Xəzər hərbi donanmasının bir hissəsini Denikinə verməklə onun birbaşa dənizdən Bakını hədələməsinə imkan yaratdılar. Lakin X.1919 ildə könüllü ordu bolşeviklər tərəfindən darmadağın ediləndən sonra Denikinə olan ümidlərini itirmiş müttəfiqlərin Azərbaycana münasibəti dəyişdi. 11.I.1920 ildə Paris Sülh konfransının Ali Şurası Azərbaycanın müstəqilliyini de-fakto tanıdığını elan etdi. 19.I. Azərbaycan nümayəndə heyəti Sülh konfransının Ali Şurasının iclasına dəvət edildi. Antanta dövlətləri Azərbaycanı rəsmi tanımaqla onu xarici təcavüzdən qorumaq barədə təəhhüd götürdülər.

Azərbaycan Respublikası Sülh konfransında Antanta dövlətləri tərəfindən tanınandan sonra Azərbaycan Xarici İşlər Nazirliyi (*Xarici İşlər İdarəsi*) Avropa və Amerikanın altı dövlətində - İngiltərə, Fransa, ABŞ, İtaliya, İsveçrə və Polşada *diplomatik nümayəndəliklərin* açılmasına dair layihə hazırladı və parlamentin müzakirəsinə verdi. Polşada yaradılacaq diplomatik nümayəndəlik, eyni zamanda, Latviya, Litva, Estoniya, Finlandiya və Ukrayna ilə də rəsmi əlaqələr saxlamalı, bu ölkələrin hökumətləri ilə *diplomatik münasibətlərdə* Azərbaycan hökumətini təmsil etməli idi. Lakin Azərbaycanın XI Ordu tərəfindən işğalı onun müstəqilliyinə son qoydu və bunun nəticəsi olaraq Avropa ölkələri ilə *diplomatik əlaqələrin* kəsilməsinə gətirib çıxardı.

**AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASI - ERMƏNİSTAN MÜNASİBƏTLƏRİ.** ADR yarandığı ilk gündən onun qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın müstəqilliyinin Avropa dövlətləri tərəfindən hüquqi baxımdan rəsmən tanınmasına nail olmaq və yeni yaranmış qonşu respublikalarla qarşılıqlı münasibətləri *dinc yanaşı yaşamaq* prinsipləri əsasında nizama salmaqdan ibarət idi. Azərbaycan hökuməti Ermənistan respublikası ilə bütün mübahisəli məsələləri danışıqlar yolu ilə həll etməyə çalışır, mübahisəli ərazilərlə bağlı məsələləri həll etmək üçün Ermənistan və eləcə də Gürcüstan hökumətlərinə müraciət edərək müştərək komissiya





yaratmağı və hər üç respublikanın nümayəndələrinin iştirakı ilə müşavirə keçirməyi təklif edirdi.

Ermənistan Azərbaycan torpaqları hesabına öz ərazisini genişləndirməyə can atırdı. VII.1918 ildə İstanbul konfransında iştirak edən Ermənistan nümayəndələri Türkiyənin hərbi naziri Ənvər Paşaya öz hökumətləri adından layihə təqdim edərək, guya əhalisinin 70%-i ermənilər olan Sürməli, Naxçıvan, Ordubad, Qazax, Qarabağ və Zəngəzur qəzalarının Ermənistana verilməsini tələb etdilər. İstanbuldakı Azərbaycan nümayəndə heyəti ermənilərin bu uydurma layihəsinə qarşı çıxaraq Azərbaycan Respublikasının hüdudlarını dəqiqliklə göstərən sənədi Almaniya və Türkiyə nümayəndələrinə təqdim etdi.

Ermənistan Azərbaycan torpaqlarını ələ keçirmək üçün diplomatik vasitələrlə yanaşı zorakı, açıq təcavüz metodundan da istifadə edirdi. İranda gizlənən Andronik Ermənistan hökumətinin təşviqi ilə 1918 ilin yayında Zəngəzur və Qarabağa soxularaq, silahlı dəstələri ilə onlarla kəndi dağıdıb, dinc əhaliyə divan tutdu. Azərbaycan hökumətinin Andronikə qarşı Qarabağa hərbi hissələr göndərməsinə etiraz edən İstanbuldakı Ermənistan nümayəndələrinin başçısı Aqaronyan Azərbaycanın oradakı fövqəladə və səlahiyyətli nümayəndəsi Ə.M.Topçubaşova (*Topçubaşov Əlimərdan bəy Ələkbər oğlu*) məktubla müraciət edərək, guya Azərbaycan ordusunun Qarabağa göndərilməsi ilə bu problemin danışıqlar yolu ilə həll olunmasının qeyri-mümkünlüyünü bildirdi. 27.X.1918 ildə Türkiyənin xarici işlər naziri Nəbi bəylə görüşən Ə.M.Topçubaşov Aqaronyanın məktubuna cavab olaraq qeyd etdi ki, Cavanşir, Cəbrayıl və Zəngəzur Azərbaycan ərazisi olduğuna görə, biz öz ordumuzu ora göndərməkdə tam sərbəstik. Ermənistanın Tiflisdəki nümayəndəsi Camalyan da bu məsələ ilə əlaqədar Almaniya və Türkiyənin *diplomatik nümayəndəliklərinə* müraciət etdikdə ona Azərbaycanın nümayəndəsi M.H.Cəfərovla görüşməyi məsləhət gördülər.

Ermənistan hökuməti türk ordusunun Azərbaycanı tərk etməsi və ingilislərin Bakıya gəlməsini Qarabağ və Zəngəzuru işğal etmək üçün yaranmış əlverişli tarixi fürsət kimi qiymətləndirdi. Andronikin yaraqlı dəstələri yenidən fəallaşaraq Azərbaycan kəndlərini dağıtmağa və dinc əhaliyə divan tutmağa başladılar. Azərbaycan Fövqəladə İstintaq Komissiyasının hesabatına görə, təkcə Zəngəzur qəzasında ermənilər 100 Azərbaycan kəndini dağıdaraq 50 min adamı didərgin salmışdılar. Azərbaycan *hökumət başçısı* F.X.Xoyski (*Xoyski Fətəli xan İsgəndər xan oğlu*) bu haqda 01.XII.1918 ildə Bakıda ingilis qoşunlarının komandanı general Tomsona məktubla müraciət etdi. Tomson Andronik və digər erməni quldur dəstələri başçılarından dərhal hərbi əməliyyatları dayandırmağı tələb etdi. Andronik bu əmrə tabe oldu. Gərgin keçən danışıqlardan sonra Zaqafqaziya respublikaları arasında XI.1918 ildə Tiflisdə konfrans keçirmək haqda razılıq əldə edilsə də, Ermənistan nümayəndələri konfransda iştirak etməkdən imtina etdilər. General Tomson Qarabağ və Zəngəzurun Azərbaycanın idarəsi altına verildiyini bildirdi. Azərbaycan hökuməti doktor Xosrov Sultanovu həmin ərazilərin general-qubernatoru təyin etdi. Ermənistan hökuməti I.1919 ildə Azərbaycan hökumətinə etiraz notası göndərdi. Ermənistanın xarici işlər naziri Tiqranyan öz

hökuməti adından bu məsələ ilə əlaqədar 11.III.1919 ildə general Tomsona etiraz məktubu ilə müraciət etdi.

Azərbaycan hökuməti Avropa dövlətləri tərəfindən Azərbaycanın müstəqilliyinin tanınmasına nail olmaq üçün *Paris Sülh konfransında* Azərbaycan nümayəndələrinin iştirakını vacib sayırdı. Paris konfransına gedən Azərbaycan nümayəndə heyəti 12.I.1919 ildə Batumda Ermənistan nümayəndələri ilə görüşərək mübahisəli ərazi iddiaları ilə bağlı məsələlərin növbəti dəfə danışıqlar yolu ilə nizama salınmasına cəhd göstərdi. Lakin Azərbaycan və digər qonşu ölkələr hesabına «Böyük Ermənistan» yaratmaq proqramı ilə Paris Sülh konfransına gedən Ermənistan nümayəndələri ilə aparılan danışıqlar nəticəsiz qaldı. Ermənilər Azərbaycan nümayəndə heyətinin Paris Sülh konfransında iştirakına mane olmaq üçün geniş təbliğat kampaniyasına başlayıb, onun 3 ay İstanbulda ləngiməsinə nail oldular. Paris sülh konfransında Ermənistan nümayəndələri Azərbaycana qarşı ciddi ərazi iddiaları irəli sürdülər.

Ermənilərin ərazi tələblərinə bütün Qərbi Azərbaycan torpaqları daxil edilmişdi. Sülh konfransı 14.V.1919 ildə ABŞ-ın Ermənistan və Qara dəniz boğazları üzərində mandatı haqda qətnamə qəbul etdi. Mandata «Qara dənizdən Aralıq dənizinə qədər Böyük Ermənistanın» daxil olacağı nəzərdə tutulmuşdu. 1919 ilin yayında ingilislərin tələbi ilə Azərbaycandan qovulan Andronik Parisə gələrək Qarabağın Ermənistana verilməsi üçün Avropanın bir sıra dövlət xadimlərinə «qədim erməni milləti» adından müraciətlər etdi. Ermənilərin təbliğatının təsirinə qapılan müttəfiqlərin Paris Sülh konfransında iştirak edən nümayəndələri Azərbaycan nümayəndələri ilə görüşlərdə ermənilərə güzəştə getməyi təklif edirdilər. Ermənistan nümayəndəliyinin başçısı Aqaryan Sülh konfransının sədrinə Azərbaycana qarşı yönəlmiş *Memorandumla* müraciət edərək müttəfiqlərə bütün türk və azərbaycanlıları erməni torpaqlarından çıxarmağı məsləhət görürdü. Azərbaycan nümayəndəliyi bu memorandumla əlaqədar bəyanatla çıxış etdi. Eyni vaxtda Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (*Xarici İşlər İdarəsi*) Ermənistan hökumətinə qəti etiraz notası göndərdi. Azərbaycan hökuməti ermənilərin saxtakar xarakterli memorandumunu ifşa etmək üçün Xarici İşlər Nazirliyinə Ermənistanda yaşayan müsəlmanların həqiqi vəziyyətini Avropada doğru və hərtərəfli işıqlandırmaq üçün azərbaycanlı, erməni və avropalılardan ibarət birgə komissiya yaratmağı təklif etdi. Azərbaycanın Ermənistan Respublikasında diplomatik nümayəndəsi İrəvan müsəlman Milli Şurası ilə birlikdə İrəvan qəzasında yaşayan azərbaycanlıların ağır vəziyyəti haqqında məlumat hazırlayıb Sülh konfransı iştirakçılarına çatdırıldı. Məlumatda İrəvan qəzasından qovularaq evsiz və aclıq çəkən 150 min müsəlman haqqında dünya ictimaiyyətinin məlumatsız olduğu vurğulanırdı.

Ermənistan hökuməti Paris sülh konfransı iştirakçılarının nəzər-diqqətini erməni məsələsindən yayınmasına yol verməmək və onun həllini sürətləndirmək məqsədilə 04-05.VI.1919 ildə erməni Milli Şurasının əli ilə Qarabağda təxribat törətdi. General-qubernator X.Sultanov təcili tədbirlər görərək, təxribatın qarşısını aldı. Ermənistan hökuməti dərhal Azərbaycan hökumətinə nota (*Diplomatik nota*) göndərərək X.Sultanovun və Azərbaycan ordusunun Qarabağdan çıxarılmasını tələb etdi. Azərbaycan xarici işlər nazirliyi öz hökuməti adından tələbi rədd etdi.

Sülh konfransına gələn Azərbaycan nümayəndəliyi Ermənistan nümayəndəliyi ilə normal münasibətlər yaratmağa çalışırdı. Erməni-Azərbaycan münaqişəsini tədqiq etmək üçün dəfələrlə beynəlxalq istintaq komissiyası yaratmaq təklifi ermənilər tərəfindən qəbul edilmirdi. Qərb dövlətlərinin yardımına arxalanan Ermənistan nümayəndələri bir qayda olaraq, onların ərazi tələbləri müsbət həll olunmayınca əməkdaşlıq etməyəcəklərini bildirirdilər. Konfransda Ermənistan nümayəndələrinin Azərbaycan əleyhinə apardığı geniş təbliğat kampaniyası *Antanta* dövlətlərinin bir çoxu tərəfindən açıq şəkildə müdafiə olunsa da, Azərbaycan nümayəndə heyəti və xüsusilə də onun rəhbəri Ə.M.Topçubaşov ərazi iddialarını dəf edə bildi. Azərbaycan nümayəndəliyinin Sülh konfrasına təqdim etdiyi təkzibolunmaz tarixi sənədlərdə ermənilərin məkrli siması ifşa olundu. Konfransda iştirak edən Qafqaz respublikalarının (Azərbaycan, Gürcüstan və Dağlılar Respublikası) nümayəndələri ermənilərə qarşı birləşdilər.

Ermənistan Qarabağ və Zəngəzuru siyasi və diplomatik vasitələrlə Azərbaycandan qopara bilmədiyinə görə yenidən hərbi vasitəyə əl atdı. 1919 ilin yayında Ermənistan ordusunun hissələri Zəngəzura soxularaq bu ərazidə etnik təmizləməyə başladı. Ermənistan ordusu, həmçinin İrəvan qəzasının Azərbaycan kəndlərinə hücumlar edərək VIII-IX.1919 ildə 200-dən çox kəndi dağıtdı. Ermənistan Azərbaycana qarşı tədbirlərdə Dağıstanı işğal edərək, Azərbaycan sərhədlərinə yaxınlaşan ağqvardiyaçı Denikin ordusunun köməyindən də istifadə etmək istəyirdi. Azərbaycan və Gürcüstan 27.VI.1919 ildə Denikin təhlükəsinə qarşı hərbi pakt bağlayarkən Ermənistan ona qoşulmadı. Əksinə Denikinlə gizli sövdələşmə apararaq Qarabağ və Zəngəzurun ona verilməsi şərti ilə ağqvardiyaçı orduların Azərbaycanı işğal etməsində onlara kömək edəcəyini bildirdi. Azərbaycan hökuməti Ermənistanın hərbi təcavüzünün qarşısını almaq üçün bir sıra diplomatik addımlar atdı.

23.XI.1919 ildə Tiflisdə Ermənistanla Azərbaycan arasında sülh sazişi imzalandı. Beş bənddən ibarət olan həmin sazişə görə Ermənistan və Azərbaycan hərbi əməliyyatları dayandıraraq bir daha silaha əl atmayacaqları, mübahisəli məsələləri sülh yolu ilə həll edəcəkləri haqda öz üzərlərinə təəhhüd götürürdülər. Lakin Ermənistanla bağlanan saziş kağız üzərində qaldı. Ermənistan Azərbaycana qarşı özünün ərazi iddialarından əl çəkmirdi.

11.I.1920 ildə Paris Sülh konfransının Ali Şurası Azərbaycan Respublikasının istiqlaliyyətini rəsmən tanıdı. 1920 ilin yazında bolşevik təcavüzü qarşısında qalan Azərbaycan hökuməti bu təhlükəyə qarşı öz qüvvələrini səfərbər etmək üçün Ermənistanla Azərbaycan arasında mövcud olan münaqişələri danışıqlar yolu ilə aradan qaldırmaq üçün növbəti dəfə cəhd etdi. 23.II.1920 ildə Tiflisdə Azərbaycan və Ermənistan nümayəndələrinin müşavirəsi keçirildi. Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi Ə.Haqverdiyev müşavirədə çıxış edərək, azərbaycanlı-erməni münaqişəsinə son qoymaq üçün mübahisəli məsələlərlə bağlı sülh konfransı (*Beynəlxalq konfranslar*) çağırmağı təklif etdi və bildirdi ki, konfrans çağırılana qədər hər iki tərəf Zəngəzur və Qarabağdan öz

ordularını çıxarsınlar. Ermənistan nümayəndələri bu təklifləri qəbul etmədilər. Ermənistan hökuməti Azərbaycana qarşı ərazi iddiaları və sərhəd məsələlərinin London sülh konfransında onun xeyrinə həll olacağına inanırdı. London konfransında Ermənistan nümayəndəliyinin başçısı A.Aqaronyan Transqafqaz respublikalarının sərhədlərini Avropada müttəfiqlər tərəfindən müəyyənləşdirilməsini təklif etdi. Azərbaycan və Gürcüstan nümayəndə heyətləri bu təklifi rədd edərək bildirdilər ki, bu məsələni onlar həll etməlidirlər. Konfrans qərara aldı ki, sərhəd məsələlərini üç respublikanın birgə yaradacağı arbitrac komissiyası həll edəcəkdir.

20.III.1920 ildə Qarabağda ermənilər qiyam qaldırdılar. Qiyamçılarla eyni vaxtda hərbi əməliyyatlara başlayan Ermənistan ordusu Azərbaycan ərazisinə soxulmasına haqq qazandırmaq üçün Avropa ölkələrində şaiələr yaymağa başladı ki, guya Azərbaycanla Türkiyə arasında gizli hərbi saziş bağlanmışdır. Ermənilər Azərbaycanın başı üstünü alan şimal təhlükəsinin getdikcə artdığı bir vaxtda onu müttəfiqlərin göstərəcəyi yardımdan məhrum etməyə çalışırdılar. Avropada olan erməni nümayəndələri guya Azərbaycana etibar etmədikləri üçün XI.1919 ildə Azərbaycan ilə Ermənistan arasında bağlanan müqavilənin (*Beynəlxalq müqavilə*) qüvvədən düşdüyünü bildirdilər. Ə.M.Topçubaşov öz hökuməti adından Parisdə müttəfiq dövlətlərin səlahiyyətli nümayəndələrinə nota təqdim edərək ermənilərin yaydıqları şaiələri qətiyyətlə rədd etdi. Azərbaycanın xarici işlər naziri F.X.Xoyski Ermənistan hökumətinə göndərdiyi etiraz notasında təxribat xarakterli belə şaiələrin yayılmasının ancaq hər iki respublika arasında münasibətlərin daha da gərginləşməsinə xidmət etdiyini bildirdi.

19-26.IV.1918 ildə keçirilən San-Remo konfransında erməni məsələsi yenidən gündəliyə daxil edildi. Qarabağda ermənilərin qiyamına istinad edən konfrans iştirakçısı olan bir sıra Avropa dövlətləri Azərbaycan-Ermənistan sərhəd münaqişələrini ancaq Antanta Ali Şurasında həll edilə biləcəyini iddia etsələr də, Azərbaycan nümayəndələri ona qarşı çıxdılar. Konfrans qərara aldı ki, Transqafqazda sülh və əmin-amanlıq bərqərar olmayana qədər buradakı respublikalara heç bir yardım göstərməsin. Bu qərar ermənilərin qiyamını yatırmaq üçün Azərbaycan ordusunu Qarabağa yollamağa məcbur olan *ADR* hökumətinin *XI Ordunun* müdaxiləsi ərəfəsində düşdüyü çətin vəziyyəti daha ağırlaşdırdı. Ermənilər Azərbaycan xalqının azadlığını boğmaqda sovet Rusiyasına kömək etdilər. 28.IV.1920 ildə XI Qızıl Ordu Azərbaycana soxularaq Bakını işğal etdi.

**AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASI – GÜRCÜSTAN MÜNASİBƏTLƏRİ.** 26.V.1918 ildə Gürcüstan müstəqilliyini elan etdi. Yeni yaradılmış hökumətin ilk xarici siyasi addımı 28.V. Almaniya ilə əvvəlcədən hazırlanmış sazişi imzalamaq oldu; Gürcüstan Almaniya *qəyyumluğunu* qəbul etdi.

04.VI. Türkiyə, Gürcüstan, Azərbaycan və Ermənistan arasında bağlanmış «sülh və dostluq müqavilələrinə» (*Beynəlxalq müqavilə*) əlavə kimi 2 saziş imzalandı. Birinci saziş Bakı-Batum neft kəmərinə, ikinci saziş dəmir yollarına aid idi. Azərbaycan hökuməti və Milli Şura Tiflisdə 18 günlük fəaliyyətdən sonra 16.VI. Gəncəyə köçdü. Milli Şura qonşu Gürcüstan hökumətilə xoş münasibətlər saxlamağa



AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASI – GÜRCÜSTAN MÜNASİBƏTLƏRİ

çalışırdı. 07.XII.1918 ildə Azərbaycan parlamentinin açılışında Gürcüstan respublikasının nümayəndəsi Korçevidze də iştirak edirdi. 16.XII. Azərbaycanın İstanbulda səlahiyyətli nümayəndəsi Ə.M.Topçubaşov (*Topçubaşov Əlimərdan bəy Ələkbər oğlu*) Qafqazın Rusiya əsarətindən azad olması və gələcəkdə yenidən Rusiyanın əsarətinə düşməməsi üçün erməni və gürcü nümayəndələri ilə *Paris sülh konfransında* vahid nümayəndəlikdə birləşməsi təklifini irəli sürdü. Danışıqlar nəticəsində Qafqaz respublikalarının siyasi-iqtisadi ittifaqının yaradılması qərara alınmışdı. Gürcülər və dağlılar ermənilərdən fərqli olaraq bu ittifaqda birləşməyə tərəddüdsüz razı oldular.

«Vahid və bölünməz Rusiya» ideyası istiqamətində atılmış real diplomatik addımlarla üzləşən yeni dövlətlərin əksəriyyətinin nümayəndələri narahatlıq bildirərək yeni yaranmış respublikalar adından müttəfiqlərə və sülh konfransının sədrinə ünvanlanan *bəyannamə* imzaladılar. Bəyannamə Azərbaycan, Estoniya, Gürcüstan, Latviya, Şimali Qafqaz, Belorusiya və Ukrayna nümayəndələri tərəfindən imzalanmışdı.

ABŞ-da ADR-in mənafelərini müdafiə edən Valter Çandlerə həm Azərbaycan, həm də Gürcüstan nümayəndə heyətləri hər iki respublikanın müstəqilliyini de-fakto tanıtmaq istiqamətində görülən işlər üçün ona 50 min dollar pul vermək barədə müqavilə imzalamışdılar.

1919 ilin payızında Gürcüstan və Azərbaycan nümayəndələri sülh konfransında Qafqaz məsələsinin həll edilməsini sürətləndirmək məqsədilə konfransın sədrinə müxtəlif formalarda müraciət etmişdilər. Hər iki nümayəndəlik 17.IX. Qafqaz işləri üzrə xüsusi komissiyanın yaradılması barədə konfransın sədrinə, 20.IX. *Antanta* dövlətlərinin konfransında olan nümayəndələrinə müraciət etdilər. Gürcüstan və Azərbaycan nümayəndələri Qafqaza aid bütün məsələləri ilk növbədə isə siyasi məsələləri müzakirə etmiş, bu barədə Antanta Ali Şurasına nota (*Diplomatik nota*) vermək qərarına gəlmişdilər. Notada yeni respublikaların maddi və mənəvi, ilk növbədə isə hərbi yardıma ciddi ehtiyacları olduğu göstərilir, bunun üçün onları *beynəlxalq hüququn* subyekti kimi tanımağın zəruriliyi qeyd edilirdi.

Bu notadan az sonra, 29.X. Fransa müstəmləkə cəmiyyətinin xarici siyasət bölməsində Azərbaycan və Gürcüstan nümayəndələrinin müraciəti əsasında Transqafqaz məsələsi müzakirə edilmişdi.

Sovet Rusiyası ilə münasibətlərdə də Gürcüstan və Azərbaycan respublikaları eyni mövqedən çıxış edirdilər. Hər iki respublika qarşılıqlı münasibətləri qaydaya salmaq üçün Sovet Rusiyası ilə danışıqlar aparılmasını qərara almış, Denikinlə mübarizəyə gəldikdə isə Rusiyada gedən vətəndaş müharibəsinə Azərbaycan və Gürcüstanın müdaxilə etməsinin yolverilməz olduğu göstərilirdi.

Azərbaycan hökuməti bu fikirdə idi ki, respublikanın qərb ölkələrilə ticarət əlaqələrini inkişaf etdirmək üçün Gürcüstan ərazisindən azad tranzit kimi istifadə edilməsi *Versal sülh müqaviləsinin* 89-cu paraqrafı ilə tənzimlənməlidir. Azərbaycanın dənizə çıxış yolu isə Batumdan təmin edilməli idi, çünki Batum Avropa və Amerika bazarlarına yeganə çıxış yolu idi. Gürcüstan hökuməti Batum ona birləşdirildiyi təqdirdə Azərbaycanın bu əsas

çıxış limanına olan maraq və mənafeyini təmin edəcəyini bildirirdi.

Azərbaycanla Gürcüstan arasında 5.II.1919 ildə imzalanmış 5 maddədən ibarət olan müqavilədə hər iki respublika arasında yük daşımalarına sərbəst tranzit axını, rüsumsuz gömrük keçidi, Azərbaycanın Gürcüstana neft satması (ildə 16 milyon puddan çox olmayaraq) və s. ticarət məsələlərini nəzərdən keçirmək üçün müştərək komissiya yaradılması nəzərdə tutulurdu. Bunun müqabilində Gürcüstan tərəfi Azərbaycana daş kömür, meşə və başqa materiallar, dəmir yolu üçün lazım olan avadanlıq göndərməyi öhdəyə götürürdü. Müqavilə 1 il müddətinə bağlanmış və hər iki respublikanın parlamentləri tərəfindən ratifikasiya olunmadığı təqdirdə öz qüvvəsini itirməli idi.

Gürcüstanın *hökumət başçısı* Ramişvilinin Azərbaycanla Gürcüstanın sərhədlərinin keçmiş Yelizavetpol və Tiflis quberniyalarının ərazisi üzrə müəyyən olunması haqqında *Bəyanatına* uyğun olaraq gürcü hökuməti VI.1919 ildə Borçalı mahalına gürcü və alman hərbi dəstələri göndərdi, eyni zamanda bu dəstələrə Poylu körpüsünə qədər dəmiryol xətti boyu ərazini tutmaq əmri verdi. Borçalıya daxil olan hərbi hissələrin köməkliyi ilə gürcü məmurları 23 idarə strukturu təsis etməklə yanaşı, burada taxıl məhsullarını müsadirə edir, yerli əhalini incidərək, onları öz yurdlarını tərk etməyə məcbur edirdilər. Yerli əhali öz yığıncaqlarında qəbul etdikləri qətnamələrdə Azərbaycan hökumətinə müraciət edir, bu torpaqların Azərbaycan torpaqları hesab edilməsini, yeni yaranmış ADR hakimiyyətini öz səlahiyyətlərini Borçalıda tətbiq etməsini tələb edirdi. 14.VI. Azərbaycan hökumətinin xarici işlər naziri öz notasında Borçalı, Qarayazı və Sığnax mahallarına gürcü-alman hərbi hissələrinin yeridilməsilə buranın Gürcüstana qatılmasına qəti etirazını bildirib, bu problemin siyasi yolla həllinə tərəfdar olduğunu göstərdi.

20.VI.1918 ildə Gürcüstan hökuməti Qarayazıda olan Azərbaycan hərbi hissələrini 24 saat müddətində buradan çıxarmaq haqqında *ultimatum* verdi. Almaniya və Türkiyənin Qafqazdakı nümayəndələrinin təzyiqi altında avqust ayının sonunda gürcü hökuməti mübahisəli ərazi məsələləri üzrə arbitrac komissiyasının yaradılmasına razılığını bildirdi. Komissiyaya Azərbaycan, Gürcüstan və bitərəf dövlətlərdən birinin nümayəndəsi daxil olmalı idi. Lakin sonra iki ölkə arasında ərazi məsələlərini İstanbulda keçirilməsi nəzərdə tutulan *beynəlxalq konqresdə* müzakirə etmək qərara alındı. Konqresin açılmasını gözləyən hər iki nümayəndə heyəti özlərinin ərazi iddialarını əsaslandırmaqdan ötrü İstanbulun dövri mətbuatında geniş təbliğat kompaniyasına başladılar. Azərbaycan nümayəndə heyəti Borçalı, Tiflis və Sığnax mahallarının, keçmiş Yelizavetpol quberniyasına bitişik ərazilərin Azərbaycan Respublikası tərkibində olmasını, bu ərazinin yerli əhalisinin azərbaycanlılardan ibarət olması, onların mütləq Azərbaycan Respublikasına birləşmək arzusu, beləliklə bu rayonlara münasibətdə təyinat hüququnun tanınması ilə əsaslandırırdı. Gürcü nümayəndələri öz iddialarını tarixilik prinsipi ilə əsaslandıraraq bu iddianın tam əksinə çıxış edirdilər.

III.1919 ildə *Zaqafqaziya konfransının* (*Beynəlxalq konfranslar*) ərazi komissiyasının iclası keçirildi. Mübahisəli ərazi məsələlərinin dinc yolla həll edilməsində razılıq əldə edildi.





27.VI.1919 ildə Azərbaycanla Gürcüstan arasında belə bir müqavilə imzalandı.

Zaqatala məsələsi münaqişəsiz həll edildi. Əhalisinin 91,9%-i müsəlmanlardan ibarət olan Zaqatala camaatı ADR yaranan kimi onun hakimiyyətini tanıdı və Azərbaycanın tərkibində qalmaqda qərarlı olduğunu bildirdi. Denikin ordularının Şimali Qafqaz ərazisindən Azərbaycan və Gürcüstana soxulmaq təhlükəsinin qarşısını almaq məqsədilə 16.VI.1919 ildə Tiflisdə müqavilə bağlandı. Üç il müddətinə bağlanmış hərbi müdafiə *paktına* görə, Azərbaycan və Gürcüstan demokratik respublikalarının suverenliyi (*Dövlətin suverenliyi*) və ərazi bütövlüyünə hər hansı bir dövlət tərəfindən təcavüz olunduğu təqdirdə paktı imzalayan ölkələr bir-birinə hərtərəfli yardım göstərməyi öhdəyə götürürdü.

Ermənistan bu pakta qoşulmadı, general Denikinlə əlbir hərəkət etmək xətti götürdü.

Paktın imzalanmasından az sonra Azərbaycan ordusuna gürcü zabitləri göndərilməsi, azərbaycanlı zabit və əsgərlərin Gürcüstandakı hərbi məktəblərdə təlim keçmələri üçün ezam olunmaları haqqında məxfi müqavilə imzalandı. Azərbaycan tərəfi bununla bağlı xərclərin əvəzini neft və neft məhsulları ilə ödəməyi öhdəyə götürürdü. Müqavilənin şərtlərinə uyğun olaraq Azərbaycan hökumətinin hərbi nümayəndə heyəti Gürcüstandan 12 kiçik top, 12 dağ topu və lazımi qədər mərmi, 3000 beşaçılan tüfəng, 211 topçu və süvari qılıncı, 795 nizə, 24 «Maksim» pulemyotu, səyyar hərbi mətbəx və başqa ləvazimat almışdı.

Bir sıra mübahisəli məsələlərin mövcud olmasına baxmayaraq, ADR-Gürcüstan münasibətləri dostluq və mehriban qonşuluq prinsipləri üzərində qurularaq inkişaf etmişdir.

Azərbaycan və Gürcüstan sovetləşdirildikdən sonra onlar SSRİ tərkibinə daxil oldu. Onların münasibətləri İttifaq müqaviləsi əsasında qurulurdu. Yalnız SSRİ-nin dağılması ilə hər iki respublika arasında münasibətlər yeni mərhələyə qədəm qoydu.

**AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASI – İRAN MÜNASİBƏTLƏRİ.** ADR ilə İran arasındakı siyasi münasibətlər *Birinci Dünya müharibəsinin* qurtarması ilə meydana gələn yeni beynəlxalq şəraitlə müəyyən edilirdi.

ADR-in İranla yaxınlaşmasında Böyük Britaniya maraqlı idi. Bu, hər şeydən əvvəl Bakı nefti ilə bağlı idi.

Ə.M.Topçubaşov (*Topçubaşov Əlimərdan bəy Ələkbər oğlu*) 09.I.1919 ildə İstanbulda İranın xarici işlər naziri Əliqulu xan Ənsari ilə, Parisdə olarkən isə X.1919 ildə İranın o vaxt yeni təyin olunmuş xarici işlər naziri şahzadə Nüsrətüddövlə Firuz Mirzə ilə danışıqlar apardı.

ADR VIII.1919 ildə İranla yaxınlaşmaq istiqamətində yeni addımlar atmış və bu məqsədlə Azərbaycan nümayəndə heyəti Tehranda səfərdə olmuşdu.

1919 ilin payızında İranın fövqəladə *elçisi*, İran nümayəndə heyətinin başçısı Seyid Ziya-əd-din Təbatəbaninin başçılıq etdiyi nümayəndə heyəti Bakıda oldu, İranın Azərbaycan Respublikası ilə «mehriban qonşuluq» münasibətləri yaratmağa çalışdığını bildirmiş, siyasi və hüquqi, gömrük, ticarət və tranzit, poçt, teleqraf məsələləri müzakirə edilmişdi.

Müzakirəyə çıxarılan məsələlərin həlli ilə məşğul olmaq üçün 3 ko-

missiya yaradılıb. 20.III.1920 ildə iki ölkənin münasibətlərini tənzimləyən 6 sənəd imzalandı. Həmin sənədlərdə İran ADR-i rəsmən tanıdığını və onunla *səfirlik* səviyyəsində *diplomatik əlaqələr* yaratmağı bəyan edir, hər iki tərəf sabit dostluq münasibətləri yaratmaq məqsədilə və iqtisadi əlaqələri bərpa etməkdən ötrü ticarət, gömrük sazişləri, *konsul konvensiyası*, poçt, teleqraf və s. məsələlərə dair sazişlər imzalamaq qərarına gəldiklərini bildirilir, iki ölkə arasında birbaşa poçt rabitəsi yaradılır. Hər iki tərəfin *diplomatik nümayəndəliklərinin* akkreditə olunduqları yerdə *beynəlxalq hüquq* normaları ilə müəyyən olunmuş bütün hüquq və imtiyazlardan istifadə etmək hüququna malik olduqları bəyan edilirdi.

Siyasi münasibətlərin yaradılması və genişləndirilməsi aşağıdakı tədbirlərin həyata keçirilməsini nəzərdə tuturdu: 01.IV.1920 ildən etibarən Tehranda Azərbaycanın səfirliyi açılmalı, Təbrizdə baş konsulluq, Rəştdə, Xoyda və Əhərdə konsulluq, Ənzəlidə və Məşhəddə vitse-konsulluq təsis olunmalı idi. Tehrandakı səfirlikdə işləmək üçün 18 nəfərdən ibarət ştat cədvəli və İranın 6 şəhərində konsulluqların (*Konsul idarəsi*) təsis olunması proqramı və nəzərdə tutulan 60 nəfərdən ibarət ümumi ştat cədvəli hökumət tərəfindən təsdiq olundu.

21.III.1920 ildə ADR-in Tehrandakı missiyasının (*Diplomatik missiya*) rəsmi açılışı oldu. 09.IV. Azərbaycan səfirliyində keçirilən görüşdə ADR nümayəndəliyi İranda yaşayan azərbaycanlılar üçün ana dilində məktəb açmaq, kitab və qəzet nəşr etmək təşəbbüsü ilə çıxış etdi.

XI Qızıl Ordunun Azərbaycanı zəbt etməsilə vəziyyət dəyişdi. İranla yenidən hərtərəfli siyasi, iqtisadi və mədəni əlaqələr yaradılması Azərbaycanın müstəqilliyini elan etməsindən sonra mümkün oldu.

**AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASININ XARİCİ SİYASƏTİ.** ADR-in qarşısında duran mühüm məsələlərdən biri, onun dünya birliyinə qəbul olunması və xarici dövlətlərlə *diplomatik əlaqələrin* yaradılması idi. «Milli müstəqil xarici siyasət xətti» adlandırılan konsepsiya əsasında respublikanın xarici siyasət prinsipləri müəyyən olundu. Beynəlxalq aləmdə Azərbaycanın taktiki gedişlərini müəyyən edən bu prinsiplər ölkənin müstəqilliyinin və *dövlətin suverenliyinin* qorunub saxlanılmasını nəzərdə tuturdu. *Beynəlxalq hüquq* normaları əsasında və o dövr beynəlxalq münasibətlərin reallıqları nəzərdə tutulmaqla hazırlanan bu prinsiplər xarici dövlətlərlə münasibətləri qarşılıqlı hörmət, ərazi bütövlüyünə və suverenliyə təcavüz etməmək, daxili işlərə qarışmamaq, mövcud problemləri dinc vasitələrlə nizama salmaq, iqtisadi əlaqələri qarşılıqlı faydalanmaq əsasında qurmaq, *beynəlxalq münasibətlərdə* zor işlətməkdən imtina etməkdən ibarət idi. Azərbaycanın dövlət quruluşunun mahiyyətindən doğan bu siyasət, bütün dövlətlərlə, ələlxüsus həmsərhəd qonşu ölkələrlə əlaqələrin mehriban qonşuluq prinsipi əsasında qurulması və inkişafı üçün geniş imkanlar yaradırdı.

Xarici dövlətlərlə əlaqələrin normal icrası məqsədilə XİN strukturu yaradılmışdı. Nazirliyə Fətəli Xan Xoyski (*Xoyski Fətəli xan İsgəndər xan oğlu*), Ə.M.Topçubaşov (*Topçubaşov Əlimərdan bəy Ələkbər oğlu*), M.Y.Cəfərov (*Cəfərov Məmmədyusif Hacıbala oğlu*) və M.H.Hacınski (*Hacınski Məmmədhəsən Cəfərqulu*





*oğlu*) başçılıq etmişlər. Xarici siyasətin həyata keçirilməsində və Ə.M.Topçubaşovun müstəsna xidmətləri olmuşdur. Xarici İşlər Nazirliyinin (*Xarici İşlər İdarəsi*) aşağıdakı strukturu olmuşdur: nazir, siyasi şöbə, informasiya bürosu, tərcümə şöbəsi, departament, ümumi şöbə, təsərrüfat şöbəsi, arxiv, qeydiyyat şöbəsi.

**AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASI PARİS SÜLH KONFRANSINDA.** *Birinci Dünya müharibəsinin* yekunlarına həsr edilən və dünyanı yenidən bölüşdürmək məqsədi daşıyan *Paris sülh konfransı* fasilələrlə 18.I.1919-21.I.1920 ildə keçirilmişdir.

26.XII.1918 ildə F.X.Xoyskinin (*Xoyski Fətəli xan İsgəndər xan oğlu*) təşkil etdiyi hökumətin ilk tədbiri Paris sülh konfransına göndəriləcək nümayəndə heyətinin tərkibini və statusunu müəyyən etmək oldu.

ADR hökuməti Paris sülh konfransı ərəfəsində qarşısına aşağıdakı vəzifələri qoymuşdu:

1. Böyük Britaniya, ABŞ, Fransa və İtaliya müttəfiq hökumətlərin, habelə İsveçrə, Hollandiya kimi neytral dövlətlərin nümayəndələri ilə danışıqlar aparıb, Azərbaycanın müstəqilliyinin tanınmasına nail olmaq, bütün digər iştirakçılarla birlikdə Paris sülh konfransında Azərbaycan Respublikasının bərabər hüquqda iştirakını təmin etmək;

2.Müttəfiq dövlətlərin nümayəndələri, tanınmış ictimai xadimlər, sosialist hərəkatı liderləri, beynəlmiləl təşkilatların başçıları ilə görüşmək, onların diqqətini Azərbaycana cəlb etmək;

3. İctimai fikri Azərbaycan haqqında məlumatlandırmaq, onun gələcəkdə dünya birliyində oynaya biləcəyi rolu və mənafeyi ilə bağlı məsələləri yerli mətbuatda işıqlandırmaq;

4. Yerli ticarət-sənaye dairələri ilə ticarət əlaqələrinə girib Azərbaycanın gələcəyi üçün zəruri olan materiallar toplamaq (bütün bunlar üçün nümayəndəliyə 2,5 milyon manat pul ayrılmışdı).

Dekabrın sonlarında diplomatik heyətin tərkibi müəyyənləşdirildi: Ə.M.Topçubaşov (*Topçubaşov Əlimərdan bəy Ələkbər oğlu*) - nümayəndə heyətinin başçısı; M.H.Hacınski (*Hacınski Məmmədhəsən Cəfərqulu oğlu*) - müavin; Ə.Ağayev (*Ağaoğlu Ağayev Əhməd*) və Ə.Şeyxülislamov - üzvlər. Üç nəfər - M.Mehdiyev, C.Hacıbəyli və M.Məhərrəmov məsləhətçi kimi heyətə daxil edildilər.

Azərbaycan nümayəndə heyətinin tam tərkibdə Parisə gedib çıxması üçün istər *Antanta* dövlətləri (xüsusilə Fransa) və istərsə də erməni nümayəndəlikləri müxtəlif manelər yaratmışlar.

Yaranmış vəziyyətlə əlaqədar Azərbaycan nümayəndə heyəti Paris sülh konfransı sədrinin, ABŞ, İngiltərə, Fransa və İtaliya hökumət başçılarının adına qısa məktubla müraciət etməyi qərara aldı.

Nümayəndə heyətinə Paris sülh konfransının açılışında iştirak etmək müyəssər olmadı. Yalnız ABŞ *prezidenti* V.Vilsonun (*Vilson Vudro*) rəsmi şəkildə Versal sülh konfransında (*Paris sülh konfransı*) Azərbaycan məsələsini qoymasına bir neçə gün qalmış təcili şəkildə Azərbaycan nümayəndələrini Parisə dəvət etdilər.

02.V. isə ABŞ prezidenti V.Vilsonun təşəbbüsü ilə ilk dəfə Azərbaycan məsələsi ABŞ, Böyük Britaniya, Fransa və İtaliya hökumət başçılarından ibarət Dördlər Şurasının iclasında müzakirə edildi.

28.V. Azərbaycan nümayəndə heyəti prezident V.Vilson tərəfindən qəbul edildi.

Ə.M.Topçubaşov Qafqaz Azərbaycan Respublikası nümayəndələrinin *Memorandumunu* Amerika prezidentinə təqdim etdi. 6 bənddən ibarət olan bu sənəddə ABŞ prezidentindən Azərbaycanın müstəqilliyinin tanınması; Vilsonun prinsiplərinin (*V.Vilsonun «on dörd bəndi»*) Azərbaycana da şamil edilməsi; Azərbaycan nümayəndələrinin sülh konfransına (*Beynəlxalq konfranslar*) buraxılması; Azərbaycanın *Millətlər Cəmiyyətinə* qəbul edilməsi; ABŞ hərbi departamentliyinin Azərbaycana hərbi yardım göstərməsi; xahiş olunurdu.

Azərbaycan nümayəndə heyəti 26.IX.1919 ildə prezidenti V. Vilsona məktubla bərabər aşağıdakı sənədlər təqdim edilmişdi:

1) Qafqaz Azərbaycanının müstəqilliyi haqqında, onun sərhədlərini xüsusi yerdə əks etdirən xəritə də daxil olmaqla, Memorandum.

2) Azərbaycanın iqtisadi vəziyyəti haqqında maaliyyə imkanlarını əks etdirən iqtisadi xəritə də daxil olmaqla, Memorandum.

3) Azərbaycanın etnik tərkibi haqqında, diaqramlar və etnoqrafik xəritə də daxil olmaqla Memorandum.

11.I.1920 ildə Ali Şuranın üzvləri və birlik ölkələri tərəfindən Azərbaycanın de-fakto tanınması barədə Paris Sülh konfransının rəsmi qərarı Ə.M.Topçubaşova təqdim edildi.

Bu, Paris sülh konfransında ADR-in de-fakto tanınması, Azərbaycan nümayəndələrinin böyük qələbəsi idi.

**AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASI-RUSİYA MÜNASİBƏTLƏRİ.** Azərbaycan Rusiya əlaqələri tarixi mürəkkəb yol keçmişdir. 1813 il Gülüstan (*Gülüstan müqaviləsi 1813*) və 1828 il Türkmənçay (*Türkmənçay müqaviləsi 1928*) müqavilələri (*Beynəlxalq müqavilə*) ilə Şimali Azərbaycan torpaqlarının işğalı təsdiq edilmişdi. Azərbaycan Demokratik Respublikası yarandıqdan sonra bu münasibətlər yeni mərhələyə qədəm qoymuşdu. Bu münasibətlər *Birinci dünya müharibəsinin* sonunda yaranan geosiyasi şəraitlə müəyyən edildi.

Müttəfiqlərin Kolçak hakimiyyətini ümumrusiya hökuməti kimi tanımalarına etiraz olaraq yeni yaranmış respublikaların Parisdəki nümayəndələri arasında Azərbaycan nümayəndə heyəti birinci çıxış etdi. Ə.M.Topçubaşov (*Topçubaşov Əlimərdan bəy Ələkbər oğlu*) nümayəndəlik adından *Bəyanat* verib bildirdi ki, admiral Kolçak hökumətinin dağılmış Rusiya imperiyasının bütün ərazisində tanınmasının mümkünlüyü barədə Paris mətbuatında yayılmış xəbərlər, keçmiş Rusiya imperiyası ərazisindən ayrılmış yeni respublikalarla yanaşı, Qafqaz Azərbaycanının da həyati mənafeyinə toxunur. Azərbaycan xalqının Rusiyada hər hansı ad altında bərpa edilən hökuməti tanımayacağı bəyan edilir, bildirilirdi ki, Qafqaz Azərbaycanının ərazisi gələcək Rusiya dövlətinin ərazisinə daxil edilməyəcəkdir.

Yaranmış vəziyyətlə əlaqədar olaraq Azərbaycan hökuməti ölkə daxilində denikinçilərin hərbi-siyasi fəaliyyətini məhdudlaşdıran bir sıra tədbirlər gördü. 18.II.1919 ildə parlamentin iclasında baş nazir F.Xoyskinin fövqəladə bəyanatı oxundu. Əməli tədbir olaraq rusların Xəzər donanması *tərksilah* edildi və onun fəaliyyəti hökumətin nəzarəti altına keçdi. Azərbaycan ərazisində yaşayan malakanlar





arasında təbliğat işi aparmaqla Denikin ordusu üçün əsgər səfərbərliyi təcili olaraq dayandırıldı, bu işə rəhbərlik edən general Prjevalski Xoyskinin tələbilə Azərbaycan ərazisini tərk etdi. Azərbaycanda Denikin siyasətinin aparıcısı olan Biçeraxovun da dəstəsi zərərsizləşdirildi. O, Azərbaycanda qanuni hakimiyyəti devirmək məqsədilə Qafqaz-Xəzər hökuməti yaratmışdı. 1919 ilin yayında müttəfiqlərin, ilk növbədə ingilislərin Qafqazdan çıxmaq xəbəri Azərbaycan hökumətinin narahatlığına səbəb oldu. Bu hal Qafqazın yenidən Rusiyaya birləşdirilməsi ehtimalı kimi qiymətləndirilirdi. Cənubi Rusiya Silahlı Qüvvələri Baş Komandanlığının ADR hökumətinə ünvanladığı 27.X.1919 il notasında (*Diplomatik nota*) Azərbaycan donanmasına milli bayraqla (*Dövlət bayrağı*) üzmək qadağan olunurdu. Notadakı bu tələb 1828 il Türk-mənçay müqaviləsilə əsaslandırılırdı. Azərbaycan hökuməti bu iddianı rədd etdi. Bu problemlə bağlı Azərbaycan Respublikası Dövlət Müdafiə Komitəsinin 28.X.1919 il qərarında deyilirdi ki, 1) Türkmənçay müqaviləsi Rusiya ilə İran arasında bağlanmış müahidə kimi yeni yaranmış dövlətlər üçün yox, yalnız Rusiya və İran üçün məcburi ola bilər; 2) Xəzər dənizi sahilində yerləşən ölkə kimi Azərbaycanın limanları və ticarət donanması vardır və bu donanma Azərbaycan bayrağı altında üzəcəkdir. Dövlət Müdafiə Komitəsi Cənubi Rusiya Silahlı Qüvvələri Baş Komandanlığının bu tələbini respublikaların suveren (*Suverenlik*) hüquqlarına qarşı yönələn akt hesab edirdi. Qərarda XİN-ə etiraz notası ilə çıxış etmək tapşırılırdı. Azərbaycan Parlamenti 05.V.1919 il tarixli iclasında Denikinə etirazını bildirdi.

M.Ə.Rəsulzadənin (*Rəsulzadə Məmməd Əmin Ağa oğlu*) Brest-Litovsk müqaviləsilə (*Brest-Litovsk (Brest) sülh müqaviləsi 1918*) bağlı Qafqazdakı alman nümayəndə heyəti və İstanbuldakı alman konsulluğu (*Konsul idarəsi*) ilə yazışmalarında deyilirdi ki, sovet Rusiyası ilə Almaniya arasında bağlanmış əlavə müqavilənin maddələrinə uyğun olaraq, Bakının Rusiya əsarəti altına keçməsinə Almaniyanın razılıq verməsi Azərbaycan hökumətini son dərəcə hiddətləndirmişdir. Rusiya-Almaniya əlavə müqaviləsi Azərbaycanın həyati maraqlarına ziddir və bu, Azərbaycanı öz qanuni hüquqlarından əsla məhrum edə bilməz.

06.I.1920 ildə Azərbaycanın Tiflisdəki *diplomatik nümayəndəliyi* sovet Rusiyasından Denikinə qarşı mübarizə aparmaq üçün hərbi saziş bağlamaq barədə danışığa başlamaq haqqında teleqram aldı.

Xarici işlər naziri G.Çiçerinin (*Çiçerin Georgi Vasilyeviç*) imzası ilə Azərbaycan Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) eyni məzmunlu teleqram almışdı. ADR xarici işlər naziri Xoyskinin cavab teleqramında deyilirdi ki, hökumət çar generalı Denikinlə onun Azərbaycan xalqının müstəqilliyinə qarşı müntəzəm cəhdlərinə görə inadlı mübarizə aparmış və bu mübarizənin uğurlu olmasından ötrü qonşu Gürcüstan hökumətilə hərbi-müdafiə ittifaqı yaratmışdır. Azərbaycan hökumətinin qəbul etdiyi, yuxarıda göstərilən xarici siyasət xətti bizi Azərbaycanla digər xalqlar arasında mehriban munasibətlər qurmağa vadar edir. Odur ki, Azərbaycan Respublikası hökuməti iki suveren dövlət prinsipindən çıxış etməklə danışıqlar yolu ilə rus və Azərbaycan xalqları arasında qarşılıqlı

mehriban qonşuluq münasibətləri yaratmağa hazırdır. Çiçerinin teleqramına münasibət məsələsi Azərbaycan Respublikası Dövlət Müdafiə Komitəsinin 6.I.1920 il qərarında öz əksini tapdı. Qərarda Rusiyanın təklifinə cavab olaraq, Gürcüstanla ilkin əlaqə yaratdıqdan sonra Azərbaycan Respublikası hökumətinin sovet Rusiyası ilə qarşılıqlı əlaqələr qurmaq barədə danışıqlara getməyə hazır olduğu bildirildi.

III.1920 ildə Qızıl Ordu artıq Azərbaycanın sərhədlərinə yaxınlaşmış, Azərbaycan hökumətinin tərkibində yaranmış təhlükə ilə bağlı müxtəlif fikirlər meydana çıxmışdı. Sovet Rusiyasının xarici işlər komissarlığı Azərbaycanın istiqlaliyyətini tanımaq məsələsini müzakirə edərkən müstəqil Azərbaycan Respublikasını tanımaqdan qəti surətdə imtina etmişdi. Azərbaycan Respublikasına münasibətdə siyasi mülahizələrlə yanaşı, həm də iqtisadi amillər rol oynayırdı. Rusiyada təsərrüfat həyatının bərpası ilk növbədə neft məsələsi ilə bağlı idi. V.İ.Lenin 17.III.1920 il Qafqaz cəbhəsinin hərbi inqilab şurasına göndərdiyi teleqramda Bakının işğal edilməsi məsələsi açıq-aydın göstərilirdi. Teleqramda deyilirdi: «Bakını almaq bizə olduqca və olduqca zəruridir. Bütün səylərinizi buna verin...».

Qızıl Ordunun Bakıya yaxınlaşdığı məqamda aprelin 27.IV.1920 il saat 4-də Azərbaycan bolşevikləri respublika parlamentinə hakimiyyəti təhvil vermək haqqında ultimatum təqdim etdilər. Elə həmin gün Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsi Azərbaycanda sovet hakimiyyətinin elan edildiyini V.İ.Leninə xəbər verdi.

**AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASI – TÜRKİYƏ MÜNASİBƏTLƏRİ.** ADR yaradılandan sonra onun siyasi, iqtisadi və hərbi sahələrdə əlaqələr yaratdığı ilk dövlət Osmanlı Türkiyəsi olmuşdur. ADR Xarici İşlər Nazirliyi (*Xarici İşlər İdarəsi*) 28.V.1918 ildə Osmanlı hökumətinin Xarici işlər naziri vəzifəsini ifa edən, Batumda sülh danışıqlarında Türkiyə nümayəndə heyətinin başçısı olmuş Xəlil bəyə Azərbaycan Milli Şurasının yaradılması barədə məlumat verdi. 30.V. radioteleqrafla İstanbula respublikanın yaradılması barədə məlumat verən ADR hökuməti Türkiyə hökumətindən *diplomatik əlaqələr* saxladığı ölkələrdə Azərbaycanı da təmsil etməyi xahiş etmişdi. 4.VI.1918 ildə ADR ilə Osmanlı hökuməti arasında «Sülh və Dostluq» müqaviləsi (*Beynəlxalq müqavilə*) imzalandı.. Müqavilənin 1-ci maddəsi Osmanlı imperiyası ilə ADR arasında sülh və dostluğun bərqərar olduğunu təsdiq edirdi. 2-ci maddə Osmanlı imperiyası ilə Azərbaycan və digər Transqafqaz respublikaları arasında sərhəd xəttinin müəyyən edilməsinə aid idi. 3-cü maddəyə əsasən, Azərbaycan, Gürcüstan və Ermənistan qısa müddətdə öz aralarında sərhədləri müəyyən edən *protokol* imzlayaraq, bu barədə Osmanlı dövlətinə məlumat verməli və həmin protokollar müqavilənin mətninə əlavə olunmalı idi. Müqavilənin Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən 4-cü maddəsinə əsasən, Osmanlı imperiyası ADR-in təhlükəsizliyini və ərazi bütövlüyünü təmin etməyi öz üzərinə götürürdü. 5-ci maddədə qeyd edilirdi ki, Azərbaycan hökuməti respublikanın sərhədyanı ərazilərində yaradılmış silahlı quldur dəstələrini öz qüvvələri ilə tərksilah edərək zərərsizləşdirəcəkdir. 6-cı mad-



AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASI – TÜRKİYƏ MÜNASİBƏTLƏRİ

dədə nəqliyyatla əlaqədar məsələlər və dəmir yol daşımaları ilə bağlı tərəflərin üzərinə düşən vəzifələrdən bəhs edilirdi. 7-ci maddədə *konsul konvensiyası*, ticarət müqaviləsi və digər aktların işlənib hazırlanması, 8-ci maddədə hər iki ölkə arasında sərbəst gediş-gəlişin təmin olunması, 9-cu maddədə Azərbaycan beynəlxalq poçt-teleqraf ittifaqının üzvü olana qədər bu sahədə iki ölkə arasında əlaqələrin yaradılması, 10-cu maddədə hazırki müqaviləyə zidd olmayan *Brest-Litovsk (Brest) müqaviləsinin* tərəflər arasında qüvvədə qalması və nəhayət, 11-ci maddədə müqavilənin bir ay ərzində *ratifikasiyası* və həmin mətnlərin tərəflər arasında İstanbulda mübadiləsi nəzərdə tutulurdu. Müqavilə ADR-in xarici dövlətlərlə imzaladığı ilk hüquqi diplomatik sənəd olub, qonşu Türkiyə ilə əlaqələrin inkişafına hüquqi zəmin yaratdı. ADR hökuməti həmin müqaviləyə istinadən Osmanlı hökumətindən hərbi yardım istədi. Osmanlı hökuməti *Antanta* ordularına qarşı döyüşən türk ordusunun düşdüyü ağır vəziyyətə baxmayaraq bir neçə seçmə diviziyasını Azərbaycana göndərməyi qərara aldı. Almaniya türk ordusunun Azərbaycana göndərilməsinin qarşısını almaq üçün Osmanlı hökumətinə təzyiq göstərməyə başladı. Sovet Rusiyasının və «müttəfiq» Almaniyanın etirazlarına baxmayaraq, Nuru paşanın rəhbərlik etdiyi ordu hissələrinin ilk dəstələri Azərbaycan ərazisinə daxil oldu. Gəncədə cəmləşən azərbaycanlı könüllülərlə birləşən türk hərbi hissələri «İslam ordusu» adlandırıldı.

Nuru paşa özünü bitərəf, siyasi hadisələrə müdaxilə etməyəcəyini bəyan etsə də, Azərbaycanın Türkiyəyə *ilhaq* edilməsi tərəfdarı olan qüvvələri müdafiə etməklə, ADR-Türkiyə əlaqələrinin gələcək inkişafını ləngidə biləcək böhranlı vəziyyət yaratmışdı. Lakin ADR hökumətinin M.Ə.Rəsulzadə (*Rəsulzadə Məmməd Əmin Ağa oğlu*), F.X.Xoyski (*Xoyski Fətəli xan İsgəndər xan oğlu*) və M.H.Hacınski (*Hacınski Məmmədhəsən Cəfərqulu oğlu*) kimi görkəmli dövlət xadimlərinin səyi sayəsində böhran dərinləşmədən qarşısı alındı. Həmin qüvvələrin təzyiqi altında Azərbaycan Milli Şurası 17.VI.1918 il iclasında müvəqqəti olaraq özünün buraxıldığını elan etsə də, F.X.Xoyskinin təşkil etdiyi yeni hökumət kabineti ADR-Türkiyə əlaqələrinin genişləndirilməsi prinsiplərinin dəyişməz qaldığını bildirdi.

Sovet Rusiyası tərəfindən istiqamətləndirilən bolşevik Bakı Soveti hökuməti yeni yaradılan ADR-in möhkəmlənməsinə imkan vermədən onu devirmək üçün iyunda 50 min nəfərlik bolşevik-daşnak ordusu ilə Gəncə üzərinə hərbi yürüş təşkil etdi. Yaranmış təhlükəli vəziyyətlə əlaqədar ADR xarici işlər naziri M.H.Hacınski 12.VI.1918 il Batumdakı Türkiyə nümayəndə heyətinin başçısı Xəlil bəyə müraciət edərək, öz hökuməti adından Türkiyənin Azərbaycana göstərdiyi hərbi yardımı genişləndirməyi xahiş etdi. 14.VI. Batumda 4.VI. tarixli «Sülh və Dostluq» müqaviləsinə əlavə kimi ADR ilə Türkiyə arasında iki saziş imzalandı. Birinci sazişdə Türkiyə öz müttəfiqləri Almaniya və Avstriya-Macarıstanın Azərbaycanın müstəqilliyini tanıyacaqları haqda təminat verirdi. İkinci sazişə görə, Azərbaycan hökuməti Dördlər ittifaqına qarşı vuruşan dövlətlərin hərbi və mülki məmurlarını respublikanın ərazisindən çıxarmalı və onları hərbi mütəxəssis kimi öz ordusunda xidmətə götürməməli idi. Saziş həmçinin Azərbaycan dəmir yollarından Türkiyənin

sərbəst istifadə etməsinə imkan yaradırdı.

ADR hökuməti Mərkəz (Almaniya, Avstriya-Macarıstan, Türkiyə və Bolqarıstan) və Qafqaz (Gürcüstan, Ermənistan, Azərbaycan və Dağlılar İttifaqı) dövlətlərinin İstanbulda keçiriləcək konfransında (*Beynəlxalq konfranslar*) iştirak etməyin Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edəcəyini nəzərə alaraq M.Ə.Rəsulzadənin iştirakı ilə oraya nümayəndə heyəti göndərməyi qərara aldı. 24.VI.1918 ildə İstanbula gələn Azərbaycan nümayəndələri Ənvər paşaya ADR hökumətinin məktubunu təqdim etdilər. Məktubda Azərbaycanda baş verən hadisələr, gürcü və ermənilərin Almaniya ilə separat danışıqları haqda ətraflı məlumat verilməklə bərabər, Türkiyənin Azərbaycana göstərdiyi maddi və hərbi yardımın sürətləndirilməsinin zəruriliyi də qeyd olunmuşdu. Azərbaycan nümayəndələri respublikanın hüdudları barədə hazırladıqları sənədi Almaniya və Türkiyə nümayəndələrinə təqdim edərək ermənilərin ərazi iddialarını rədd etdilər.

İstanbul konfransı ərəfəsində ADR hökuməti Gəncə istiqamətində irəliləyən bolşevik-daşnak ordusunun qarşısını almaq üçün təcili hərbi hazırlıq işləri aparırdı.

Türkiyə özünün məhdud imkanlarına baxmayaraq Azərbaycan milli ordusunun yaradılması işində ADR-ə hərtərəfli yardım göstərirdi. Osmanlı hökuməti Bakını düşməndən azad etmək üçün «İslam ordusunun» köməyinə Rumıniyə cəbhəsindən çağırılmış 15-ci diviziyanı göndərdi. «İslam ordusu» 28-30.VI.1918 ildə Göyçay altında sayca onu bir neçə dəfə üstələyən bolşevik-daşnak ordusunu ağır məğlubiyyətə uğratdı. 13.VIII. «İslam ordusu» tərkibində döyüşən azərbaycanlı könüllülərin də iştirakı ilə Azərbaycan milli ordusunun yaradılması barədə əmr verildi.

Bakı Soveti hökuməti hakimiyyətdən çəkiləndən sonra onu əvəz etmiş eser, menşevik və daşnaklardan ibarət Sentrokaspi hökuməti hərbi yardım üçün İrandakı ingilis qoşunlarının komandanlığına müraciət edəndən sonra 16-17.VIII.1918 ildə general Denstervilin rəhbərliyi altında təxminən 1000 nəfərdən ibarət ingilis hərbi hissələri İrandan Bakıya gəldi.

ADR hökuməti Bakını azad etmək üçün hərbi hazırlıqla yanaşı diplomatik tədbirlər də görürdü. Ə.M.Topçuşabov (*Topçubaşov Əlimərdan bəy Ələkbər oğlu*) ADR hökumətinin fövqəladə və səlahiyyətli nümayəndəsi kimi İstanbula göndərildi. Ona Beynəlxalq İstanbul konfransında Azərbaycan nümayəndə heyətinin üzvü kimi iştirak etmək hüququ da verilmişdi. Azərbaycan nümayəndə heyəti Bakı neftinə can atan Almaniya ilə Rusiya arasında 27.VIII.1918 ildə bağlanmış gizli sazişin ləğv edilməsinə çalışırdı. Bu sahədə ilk addım olaraq 27.VIII. sazişi ilə əlaqədar ADR hökumətinin etiraz notası (*Diplomatik nota*) İstanbuldakı Almaniya səfirinə təqdim edildi. Həmin notanın surəti Türkiyənin Xarici İşlər Nazırlıyinə (*Xarici İşlər İdarəsi*), Avstriya-Macarıstan və Bolqarıstan səfirliklərinə və eləcə də bitərəf (*Bitərəflik*) dövlətlərin İstanbuldakı diplomatik nümayəndəliklərinə təqdim edildi. Azərbaycan nümayəndəliyi osmanlı sədr-əzəmi Tələt paşaya müraciət edərək 27.VIII. gizli sazişinin ləğv edilməsinə yardım etməsini istədi. Az sonra Berlinə gedən Tələt paşa burada Almaniya hökumətindən rəsmən 27.VIII. sazişindən imtina etməsini tələb etdi.





Türkiyənin qətiyyətlə Azərbaycanı müdafiə etməsi və cəbhələrdəki uğursuzluqlar Almaniyanın 23.IX.1918 ildə Rusiya ilə bağladığı 27.VIII. sazişindən rəsmən imtina etməsi ilə nəticələndi. Azərbaycan Ordusu 15.IX.1918 ildə qəti hücumla Bakını ələ keçirdi. 17.IX. ADR hökuməti Bakıya köçdü. Düşmənin 50 minlik ordusunun qalıqları ingilis gəmilərində İrana geri çəkildi. Azərbaycanın və ələlxüsus Bakının bolşevik-daşnak ordusundan təmizlənməsində türk ordusu 3000 əsgər və zabitini şəhid vermişdi.

Bolqarıstanın 29.IX.1918 ildə Antanta qarşısında təslim olmasından sonra Türkiyə dərin siyasi böhrana məruz qaldı. Belə bir şəraitdə Ə.M.Topçubaşov Türkiyənin rəsmi dairələri ilə bir sıra görüşlər keçirdi. 02.X. Ə.M.Topçubaşovla görüşən Tələt paşa qeyd etdi ki, Azərbaycan dövlətinin yaradılması Türkiyənin çoxdankı arzusu idi. Bununla belə onun bütün cəhdlərinə baxmayaraq nə Almaniya, nə də Avstriya-Macarıstan müstəqil Azərbaycan dövlətini tanımaq istəmirdilər. Ə.M.Topçubaşov Azərbaycan hökumətinin ona verdiyi fövqəladə nazir mandatını 02.X. Türkiyənin xarici işlər nazirliyinə təqdim etdi.

Türkiyədə tez-tez baş verən hökumət böhranları Azərbaycanla Türkiyə arasında sabit münasibətlərin bərqərar olmasına çətinliklər törədirdi. Buna baxmayaraq Ə.M.Topçubaşovun İstanbulda apardığı danışıqlar ADR-in beynəlxalq aləmdə tanınmasında mühüm rol oynadı. 30.X.1918 ildə Türkiyə həm özü, həm də ADR üçün son dərəcə ağır olan *Mudros barışığını* imzaladı. Barışıq sənədinə görə, müttəfiqlərə Bakını işğal etmək hüququ verilir və Türkiyə buna etiraz etməməli idi. ADR hökuməti və onun İstanbuldakı *diplomatik nümayəndəliyi* dərhal Azərbaycan məsələsinin Mudros barışığına salınmasına öz etirazını bildirdi. 03.XI. Ə.M.Topçubaşov Mudros barışığını Osmanlı hökuməti adından imzalamış Rauf bəylə görüşərək Azərbaycan nümayəndəsinin iştirakı olmadan Bakı və Azərbaycan dəmir yolu haqda Mudros barışıq sənədinə bəndlər daxil edilməsinə etiraz etdi. Bir gün sonra, 04.XI. Ə.M.Topçubaşov Mudros barışığının Azərbaycanla əlaqədar bəndlərinə qarşı Osmanlı hökumətinin xarici işlər nazirliyinə ADR hökuməti adından etiraz notası verdi. Notada deyilirdi ki, Osmanlı hökuməti ADR-i tanımasına baxmayaraq, Azərbaycanın paytaxtı Bakı şəhəri barədə maddənin Mudros barışığına daxil edilməsi beynəlxalq hüquq normalarına zidd olub, Azərbaycanın ingilislər tərəfindən işğal edilməsini təmin edir. Notada həmçinin qeyd olunurdu ki, Azərbaycanla bağlı maddələr ADR hökumətinə aydınlaşdırılmalıdır... İstanbuldakı Azərbaycan diplomatik nümayəndəliyi 15.XI. məktubla ADR hökumətinə müraciət edərək bildirdi ki, Antanta qoşunları Bakını işğal edərkən Türkiyə onlara mane olmayacağı barədə öhdəlik götürmüşdür.

XI.1918 ildə türk ordusunu Azərbaycan xalqı ehtiramla yola saldı.

İngilislər Bakını işğal edəndən sonra Türkiyə ilə ADR arasında rəsmi əlaqələrdə durğunluq yarandı. İngilislər süni maneələr yaratmaqla ADR hökumətinin Türkiyə ilə əlaqələr saxlamasına imkan vermirdilər. Lakin ingilislərin və onlarla əlbir olan digər qüvvələrin bütün səylərinə baxmayaraq, ADR-Türkiyə əlaqələri xalq diplomatiyası səviyyəsində qalmaqda idi. Türk xalqı

1919 ildə Mustafa Kamal Paşanın (*Atatürk Mustafa Kamal*) rəhbərliyi altında yadelli işğalçılara qarşı milli-azadlıq mübarizəsinə qalxarkən ona ilk maddi və mənəvi yardım göstərən Azərbaycan vətənpərvərləri oldu. Döyüşən türk xalqını ərzaq və hərbi sursatla təmin etmək üçün minlərlə azərbaycanlı qeyri-rəsmi şəkildə vəsait toplayaraq Türkiyəyə göndərir, türklərin haqq işini müdafiə edirdilər.

**AZƏRBAYCAN DİPLOMATİYASI JURNALI.** 1993 ildə çıxmışdır və ona əlavə olaraq «Xarici iqtisadi əlaqələr» adlı xüsusi buraxılışı nəşr olunmuşdur. Burada *diplomatiya* tarixi, Azərbaycan-Türkiyə, Azərbaycan-Rusiya münasibətləri, görkəmli şəxsiyyətlər, tanınmış diplomatlar və s. haqqında məqalə və sənədlər öz əksini tapmışdır. Jurnala əlavədə Azərbaycanın Almaniya Federativ respublikası, Belarus Respublikası, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Çin Xalq Respublikası, Küveyt hökuməti, Qvineya-Bisau respublikası, Latviya respublikası, Litva respublikası, Rumuniya hökuməti, Səudiyyə Ərəbstanı və Türkiyə Cümhuriyyəti ilə imzalanan bir sıra iqtisadi xarakterli saziş və müqavilələr (*Beynəlxalq müqavilələr*) toplanmışdır.

**AZƏRBAYCAN – FRANSA MÜNASİBƏTLƏRİ.** 3.I.1992 ildə Fransa Azərbaycanın müstəqilliyini tanıdı, 21.II. isə *diplomatik münasibətlər* qurdu.

Fransa hökuməti Qarabağ probleminin həllində Azərbaycanın ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərini əsas götürürdü. V.1993 ildə Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişləndiyi bir dövrdə Fransa *prezidenti* F.Mitteran göndərdiyi məktubda «Dağlıq Qarabağ ətrafında hərbi əməliyyatların genişləndirilməsindən Fransanın çox narahat olduğunu» bildirir və qeyd edirdi ki, «Fransa hökuməti erməni qüvvələrinin Kəlbəcərdən çıxması tələbi ilə müxtəlif səviyyələrdə çıxış etmişdir». F.Mitteran öz məktubunda Azərbaycan rəhbərliyini münaqişəni *Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Minsk qrupu* çərçivəsində nizamlamaq yollarının axtarışını davam etdirməyə çağırırdı.

1993 ilin 2-ci yarısından başlayaraq Fransa-Azərbaycan münasibətlərində xeyli dəyişiklik baş verdi. 13.VIII. Fransanın səfiri Azərbaycan prezidentinin səlahiyyətlərini yerinə yetirən H.Əliyev (*Əliyev Heydər Əlirza oğlu*) tərəfindən qəbul olundu. Səfir Fransa nümayəndəsinin Avropa Bankının sədri seçilməsində də xüsusi təşəbbüs göstərməsinə görə Fransanın baş nazirinin təşəkkür məktubunu təqdim etdi. 19-21.XII.1993 ildə Azərbaycan prezidentinin Fransaya ilk rəsmi səfəri oldu. Yelisey sarayında iki ölkə arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında müqavilə imzalandı. Bu səfər gedişində *«Paris Xartiyası»* adlı daha bir sənəd imzalandı. Bu sənədə qoşulmaqla Azərbaycan rəsmi şəkildə *BMT Nizamnaməsinə*, təhlükəsizlik və əməkdaşlıq haqqında beynəlxalq normalara və prinsiplərə dönmədən əməl edəcəyini təsdiqləməklə bərabər, həm də öz təhlükəsizlik və ərazi toxunulmazlığı problemlərini dünyanın ümumi təhlükəsizliyilə sıx bağladı.

1995-1996 illərdə Azərbaycan prezidenti H.Əliyev üç dəfə Fransa respublikasında səfərdə oldu: V.1995 ildə faşizm üzərində qələbənin 50 illiyi yubiley tədbirlərində, XII.1995 ildə Parisdə Ümumdünya Bankının təşkil etdiyi «Azərbaycan üçün investisiyalar» mövzusunda *beynəlxalq konfransda* və 1996 ildə Fransa prezidenti F.Mitteranın vəfatı ilə bağlı. Sonuncu səfər zamanı həmçinin Fransanın «Elf-Akiten» kompaniyasının Xəzər dənizində neft yataqlarının istismarında Azərbaycanla əməkdaşlıq etməsi barədə razılıq əldə edildi.

11.X.1996 ildə Fransanın xarici işlər naziri Bakıda səfərdə oldu.

**AZƏRBAYCAN - GÜRCÜSTAN MÜNASİBƏTLƏRİ.** 18.11.1992 ildə Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında *diplomatik münasibətlər* yarandı. 03.II.1993 ildə Gürcüstan Respublikası parlamentinin sədri, *dövlət başçısı* E.Şevardnadze Azərbaycana rəsmi səfər etdi. Səfər zamanı tərəflər arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəzislik haqqında müqavilə (*Beynəlxalq müqavilə*) imzalandı. Sənəd hər iki respublikada milli azlıqların hüquqlarının müdafiəsini nəzərdə tuturdu. 1996 ildə Azərbaycan *Prezidenti* H.Əliyevin (*Əliyev Heydər Əlirza oğlu*) Gürcüstana rəsmi səfəri zamanı iki ölkə arasında dostluq və əməkdaşlığa dair sənəd imzalanmışdı. İstər bu səfər, istər də növbəti səfərlər zamanı H.Əliyevin Gürcüstan prezidenti E.Şevardnadze ilə apardığı danışıqlar ikitərəfli əlaqələrin genişlənməsinə xidmət etməklə yanaşı, Gürcüstanda yaşayan azərbaycanlılara qarşı münasibətin yaxşılaşmasına müsbət təsir göstərmişdi. Belə ki, 1990 illərin əvvəllərində Gürcüstanda K.Qamsaxurdiyanın prezidentliyi dövründə azərbaycanlıların sıxışdırılması siyasəti aparılmışdı.

Azərbaycan-Gürcüstan münasibətlərində neft-qaz sahəsindəki əməkdaşlıq xüsusi yer tutur. Fəaliyyətdə olan Bakı-Sursa neft kəməri, *Bakı-Tbilisi-Ceyhan neft kəmərinin* tikintisi və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisinin lahiyələşdirilməsi ikitərəfli əlaqələrin inkişafı üçün böyük iqtisadi-siyasi əhəmiyyətə malikdir.

Ərazi bütövlüyü pozulmuş hər iki dövlət separatizmə qarşı çıxdıqlarını dəfələrlə bəyan etmişlər.

Azərbaycan-Gürcüstan münasibətlərinin inkişafı İ.Əliyev (*Əliyev İlham Heydər oğlu*) və M.Saakaşvilinin prezidentlikləri dövründə də uğurla inkişaf etdirilir.

**AZƏRBAYCAN-İRAN MÜNASİBƏTLƏRİ.** XII.1989 ildə Azərbaycan hələ SSRİ tərkibində olduğu dövrdə Azərbaycan-İran sərhəddinin (*Dövlət sərhədləri*) Naxçıvan bölməsi əhali tərəfindən söküldü. 15.II.1990 ildə SSRİ və İran İslam Respublikası arasında sərhəd rayonları əhalisi üçün sərhəd keçidini sadələşdirmək haqqında qarşılıqlı anlaşma *Memorandumu* imzalandı.

25.XII.1991 ildə İran İslam Respublikası Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı. VIII.1991 ildə Tehranda yüksək səviyyədə aparılmış İran-Azərbaycan danışıqları mövqelərin yaxınlaşmasında mühüm mərhələ oldu. XII.1991 ildə İranın Xarici İşlər Naziri Ə.Ə.Vilayətinin Bakıya səfəri zamanı ölkələr arasındakı siyasi, iqtisadi, elmi və mədəni əməkdaşlığın prinsipləri haqqında razılaşma imzalandı. 24.VIII.1992 ildə Naxçıvan Muxtar Respublikası məclisinin sədri H.Əliyev (*Əliyev Heydər Əlirza oğlu*) Tehrana səfər etdi və Naxçıvan ilə İran arasında iqtisadi-mədəni əməkdaşlıq haqqında *protokol* imzalandı. 26-28.X.1993 ildə İran *Prezidenti* Ə.H.Rəfsəncaninin Azərbaycana rəsmi səfəri zamanı keçirdiyi görüşlərdə iki-

tərəfli münasibətlərin möhkəmləndirilməsinə tərəfdar olduğunu bəyan etdi.

İranın ermənipərəst siyasəti, onun Azərbaycanın imzaladığı müqavilələrdən kənarda qalması tərəflər arasındakı münasibətlərdə müəyyən soyuqluq yaratmışdı. Xəzər dənizinin hüquqi statusunun (*Xəzərin statusu*) müəyyənləşdirilməsi sahəsində də fikir ayrılığı qalmaqdadır.

X.2000 ildə İran yaranmış borcları əsas gətirərək Naxçıvana enerji verilməsini dayandırdı (1994-cü ildən İran Naxçıvana hər il 5 mvt. elektrik enerjisi verirdi).

23.VII.2001 ildə İran patrul gəmisinin Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Araz-Alov-Şərq" yatağında kəşfiyyat işləri aparan "Geofizik 3" gəmisinə hərbi təzyiq göstərməsi ilə bağlı insident baş verdi.

18-20.V.2002 ildə Azərbaycan prezidenti H.Əliyev İrana rəsmi səfər etdi. Səfər zamanı iki ölkə prezidentlərinin birgə *Bəyanatı*; dövlətlər arasında dostluq və əməkdaşlıq prinsiplərinə dair müqavilə (*Beynəlxalq müqavilə*); mədəniyyət, təhsil, elmi-tədqiqat, idman, standartlaşma, vetrinar xidməti, bitkilərin karantini, avtomobil və hava yükdaşımaları, gömrük xidməti haqqında razılaşmalar imzalandı.

Azərbaycan Respublikasının Tehrandakı *səfirliyi* ilə yanaşı, Təbriz şəhərində Konsulluğu (*Konsul idarəsi*) da fəaliyyət göstərir. 20.IV.1992 Azərbaycan və İran hökümətləri arasında konsulluq məsələləri üzrə əməkdaşlıq barədə Memorandum ildə imzalanmışdı.

**AZƏRBAYCAN – İSLAM KONFRANSI TƏŞKİLATI** (İKT). Azərbaycanın *İslam Konfransı Təşkilatı* ilə ilk əlaqələri 1986 ilə təsadüf edir. 01.X.1986 ildə bu təşkilatın xəttilə Bakıda «Müsəlmanlar sülh uğrunda mübarizədə» adı altında *beynəlxalq konfrans* keçirildi. Konfransda dünyanın 60 ölkəsindən gəlmiş 600-dən artıq nümayəndə iştirak edirdi. Toplantı bütün dünya xalqlarına müraciət edərək, onları beynəlxalq sülhün və əmin-amanlığın qorunmasında əzmlə iştirak etməyə çağırdı.

V.1991 ildə İKT və Ümumdünya İslam Cəmiyyətinin birgə nümayəndə heyəti Bakıya səfər edərək, Qafqaz Müsəlmanları İdarəsində İslam dünyasının müqəddəs məkanlarına ziyarət etmək, Azərbaycanın İslam ölkələrilə əlaqələrini genişləndirmək, dini təhsil məsələlərini araşdırmaq barədə fikir mübadiləsi apardı. VI.1991 ildə Qafqaz Müsəlmanları İdarəsinin sədri A.Paşazadə Səudiyyə Ərəbistanına Həcc ziyarəti zamanı kral Fəhd ibn Əbdül Əzizlə, İKT rəhbərlərilə görüşüb, İslam dünyası ilə bağlı məsələləri müzakirə etmişdir. VIII.1991 ildə İKT xarici işlər nazirlərinin İstanbulda keçirilmiş konfransında Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi Ermənistanın işğal hərəkətini pislədi.

08.XII.1991 ildə Azərbaycan İKT-na qəbul edildi.

IX.1992 ildə Nyu-Yorkda *BMT Baş Məclisinin* növbəti sessiyası zamanı İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin əlaqələndirmə yığıncağı keçirildi və burada qəbul edilmiş yekun sənəddə beynəlxalq aləmdə tanınmış sərhədlərin toxunulmazlığı və ölkələrin ərazi bütövlüyü prisipinin Ermənistan tərəfindən kobudcasına pozulduğu qeyd edildi.

IV.1993 ildə İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin Kəraçidə çağırılmış növbəti XXI konfransında qəbul edilmiş qətnamədə Ermənistanın işğalçılıq siyasəti pislənilir, təcavüzkar qüvvələrin Azərbaycan torpaqlarından dərhal çıxarılması tələb edilir, azərbaycanlı qaçqınlara humanitar yardım göstərilməsinin vacibliyi bir daha qeyd edilirdi. XI.1994 ildə İKT-nin Baş katibi Həmid əl-Qabid Bakıya səfəri zamanı bildirdi ki, problem *Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi* xəttilə nizama salınmazsa, İKT Ermənistana qarşı sanksiyalara əl atacaqdır. Təşkilatın XII.1994 ildə Kasablankada keçirilmiş VII Zirvə toplantısında Ermənistan-Azərbaycan münaqişəsilə bağlı iki *qətnamə* qəbul edilib. Birinci sənəddə Ermənistanın hərbi təcavüzü pislənilir, zor gücünə sərhədlərin dəyişdirməsi yolverilməz hesab edilir, təcavüzkar ordunun işğal olunmuş ərazilərdən çıxarılması tələb olunurdu. *Beynəlxalq təşkilatlardan* birinci olaraq İKT Ermənistanın Azərbaycana qarşı apardığı siyasəti təcavüzkarlıq kimi qiymətləndirib. İkinci qətnamədə isə erməni təcavüzü nəticəsində doğma yerlərindən didərgin düşən insanlara humanitar yardım göstərməyin zəruriliyi vurğulandı. Toplantıda qəbul edilən yekun *Bəyannaməsində* Azərbaycan torpaqlarının qeyd-şərtsiz dərhal azad olunması bir daha təsbit edilirdi.

XII.1996 ildə Cakartada İKT xarici işlər nazirlərinin növbəti konfransında Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə hüquqi qiymət verilib, qəbul olunan sənəddə *BMT Təhlükəsizlik Şurasının* qətnamələrinin həyata keçirilməsinin zəruriliyi qeyd edilib, erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən qeyd-şərtsiz çıxarılması və Ermənistana hərbi sursat, silah satışının dayandırılması təkidlə tələb edilib.

III.1997 ilin martında İslamabadda İKT-nin növbədənkənar sessiyasında qəbul edilən bəyannamədə də Ermənistanın qəsbkar siyasəti pislənilir, təcavüzkar ordunun Azərbaycan torpaqlarından tezliklə çıxması tələb edilirdi.

Bu probleme XII.1997 ildə Tehranda keçirilmiş VIII Zirvə toplantısında bir daha toxunulmuşdur. 55 ölkənin dövlət və hökumət başçılarının (*Dövlət başçısı, Hökumət başçısı*) və BMT *Baş katibi* Kofi Annanın iştirakı ilə çağırılan bu yığıncaqda Azərbaycan müdafiə edilib və qəbul edilən üç sənəddə Ermənistanın işğalçılıq siyasəti bir daha pislənilir, bu siyasətin beynəlxalq sülh və təhlükəsizliyə qorxu törətməsi vurğulanır, Azərbaycanın ərazi bütövlüyünün bərpası tələb edilir, beynəlxalq birlik tərəfindən qəbul edilən dövlət sərhədlərinin zorla dəyişdirilməsinin qeyri-mümkünlüyü bildirilir və münaqişənin ancaq danışıqlar yolu ilə həll olunmasında təkid edilirdi.

İKT xəttilə Azərbaycana humanitar yardım da göstərilir. Belə ki, 1992 ildə İslam İnkişaf Bankı xəttilə 1,9 milyon ABŞ dolları məbləğində təmənnasız yardım, VI.1994 ildə Mil-Muğan kanalının tikintisi üçün 9,8 milyon ABŞ dolları məbləğdə imtiyazlı kredit, 1995 ildə «Azərbalıq» Dövlət şirkəti üçün 5 balıqtutan gəminin alınması məqsədilə 5 milyon ABŞ dolları kredit, 1997 ildə isə Ələt-Hacıqabul avtomobil yolunun tikintisi üçün 13,144 milyon ABŞ dolları məbləğdə maliyyə yardımı ayrılıb.



**AZƏRBAYCAN-İSRAİL MÜNASİBƏTLƏRİ.** 25.XII.1991 ildə İsrail Azərbaycanın dövlət müstəqilliyini tanıdı. 07.IV.1992 ildə ölkələr arasında *diplomatik münasibətlər* yarandı. İsrail-Azərbaycan münasibətləri siyasi, iqtisadi, mədəni, humanitar, elmi-texniki sahələri əhatə edir. 1991 ildə Azər-

baycan Respublikası Təhsil Nazirliyi nəzdində «Soxnut» ümumdünya yəhudi agentliyinin şöbəsi yaradıldı. 25.II.1990 ildən fəaliyyət göstərən Azərbaycan-İsrail Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti xalq *diplomatiyası* imkanlarından istifadə edərək iki ölkə xalqları arasındakı əlaqələrin inkişaf etdirilməsi istiqamətində fəaliyyət göstərir. 1999 ildə İsraildə Azərbaycan mədəniyyəti günlərinin keçirilməsi də ikitərəfli əlaqələrin inkişafına müsbət təsir göstərmişdir.

**AZƏRBAYCANLILARIN QƏRBİ AZƏRBAYCAN** (hazırda Ermənistan respublikası ərazisinə daxildir) **TORPAQLARINDAN DEPORTASİYASI.** Bu proses XIX əsrin başlanğıcında çar Rusiyasının Azərbaycanı ələ keçirmək məqsədilə İrana qarşı apardığı işğalçılıq *müharibələri* dövründə genişlənmişdi. 1801 ildə çar Rusiyası Şərqi Gürcüstanı Rusiyaya ilhaq etməklə Şəmşəddin və Loru-Pəmbək məntəqələrini ələ keçirmiş, Pəmbəkin 14 kəndindən 5-6 min nəfər azərbaycanlı doğma yerlərindən didərgin salınaraq qonşu İrəvan xanlığına köçürülmüşdü. 1805 ildə rus qoşunları Şörəyel sultanlığını ələ keçirdi. Həmin ilin sonuna kimi sultanlığın 170-ə qədər kəndində cəmi 524 ailə qalmış, əhalisi qovulmuş, kəndlər xarabazara çevrilmişdi. Rusiya boşaldılmış Azərbaycan kəndlərinə Türkiyədən gətirilən erməniləri yerləşdirdi. 1804-1813 Rusiya-İran müharibəsindən sonra isə Şörəyel əyalətində cəmi 250 azərbaycanlı ailəsi qalmışdı. Ruslar tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarından əhalinin İran və Türkiyəyə miqrasiyası adi hal almışdı. Rusiya-İran müharibələri dövründə rus ordusu sıralarında döyüşən erməni könüllü quldur dəstələri yüzlərlə azərbaycanlı kəndlərini talan edib dağıtmışlar. Aparılan hesablamalara görə, Rusiyanın işğalına qədər İrəvan və Naxçıvan xanlıqlarında 752 kənd olmuş, onların 359-u müharibələr dövrü dağıdılmış, əhalisi qovulmuşdu. İşğaldan əvvəl xanlıqların əhalisi təxminən 118 min nəfər təşkil etmiş, onun 81 mini azərbaycanlı, 25 mini isə erməni olmuşdu. Qovulan azərbaycanlıların yaşamış olduqları kəndlərdə gətirilmə ermənilərin yerləşdirilməsi ilə xanlıqların əhalisinin 24 faizini təşkil edən ermənilərin sayı sürətlə artaraq 1830 ildə 43 faizə çatmışdır.

İrəvan və Naxçıvan xanlıqlarının əraziləri 1828 ildə çar I Nikolayın fərmanına əsasən, «Erməni vilayəti» adlandırılmışdır. XX əsrin 30-70 illərində azərbaycanlıların doğma yerlərdən *deportasiyası* davam etdirilmişdir.

1877-1878 illər Rusiya-Türkiyə müharibəsi nəticəsində Şərqi Anadolunun Qars vilayəti Rusiya tərəfindən işğal edildikdən sonra erməni millətçiləri Osmanlı imperiyasını bölüşdürmək üstündə mübarizə aparan Qərb dövlətlərinin köməyi ilə «erməni məsələsini» diplomatik danışıqlarda beynəlxalq problem səviyyəsinə qaldıra bilmişlər. Şərqi Anadolunun 6 vilayətində ermənilər üçün muxtariyyət əldə etmək və gələcəkdə onu müstəqil Ermənistan dövlətinə çevirmək arzusu ilə yaşayan erməni millətçilərinin qarşısında duran əsas vəzifə həmin vilayətlərdə ermənilərin say üstünlüyünə nail olmaq idi. Erməni millətçiləri Türkiyənin bütün vilayətlərində ermənilərin sayca azlıqda qaldıqlarını bilirdilər. *Beynəlxalq münasibətlərdə* ermənipərəstliyi ilə seçilən Fransanın rəsmi dairələri də 1897 ildə rəsmən bu tarixi faktı təsdiq etmişdilər. Şərqi Anadolu vilayətlərini erməniləşdirmək üçün erməni siyasi təşkilatları





arasında ifrat davakarlığı ilə seçilən «Daşnaksütyun» partiyası iğtişaşlar törədərək türklərin kütləvi qırğınını həyata keçirməyi planlaşdırmışdı. Ermənilər ümid edirdilər ki, Osmanlı hökuməti Avropa dövlətlərinin müdaxiləsindən çəkinərək, onların özbaşınalıqlarına göz yumacaqdır. Lakin Türkiyədə 1894-1896 illərdə ermənilərin ixtişaşları başlayan kimi sultan II Əbdülhəmid sərt tədbirlərlə bu özbaşınalıqların qarşısını aldı. Nəticədə qaçmağa məcbur olan daşnak liderləri ilə birlikdə Zeytun, Beyburd və s. yerlərdə toqquşmalar baş vermiş, 400 min erməni Rusiyanın himayəsinə, Zaqafqaziya ərazisinə gəlmişdi. Ermənilərin Zaqafqaziyaya bu yeni köç dalğası təkcə həmin regionda erməni etnosunun sayca artması (1896 ildə 900 min olduğu halda, 1908 ildə 1,3 mln. çatmışdı) ilə qalmadı. Daşnaklar Türkiyədə törətdikləri qanlı cinayətləri Zaqafqaziyanın Tiflis, Bakı, Gəncə, Naxçıvan, Şuşa, İrəvan və s. şəhər və rayonlarında davam etdirdilər. 1905 ildə başlanan I rus inqilabının mərkəzlərindən biri - Bakıda bu inqilabın geniş vüsət almasından ehtiyatlanan çar hakimiyyət orqanları onun qarşısını almaq üçün etnik tərkibi mürəkkəb olan Zaqafqaziyada milli ədavəti qızışdıraraq, erməni daşnaklarının azərbaycanlılara qarşı qanlı cinayətlər törətmələrinə rəvac verir, onları silah və hərbi sursatla təmin edirdilər. Ermənilər silahlanmış iri quldur dəstələri yaradaraq, 1905 ilin martından etibarən demək olar ki, bütün Zaqafqaziya ərazisində azərbaycanlılara hücumlar etməklə minlərlə günahsız insanı qətlə yetirdilər. 1905-1906 illərin erməni-müsəlman qırğını adlanan bu qarşıdurma zamanı daşnaklar yüzlərlə Azərbaycan kəndlərini yerlə yeksan etdilər. Ermənilərin İrəvan və onun ətraf kəndlərində, Naxçıvan və Qarabağda törətdikləri qanlı cinayətlər daha geniş şəkil aldı. Nəyin bahasına olursa-olsun Zaqafqaziyada erməni əhalisinin sayca çoxluğunu təmin etməyi planlaşdıran daşnaklar (Zaqafqaziyanın 54 qəzasından ancaq 5-də ermənilər üstünlük təşkil edirdilər) V-VI.1905 ildə Eçmiədzin (Üç kilsə) rayonunda 10, Şuşa qəzasında 12, Cavanşir qəzasında 15, Cəbrayıl qəzasında 5, Zəngəzur qəzasında 43 müsəlman kəndini dağıdaraq onların əhalisinin bir hissəsini qətlə yetirdilər, bir hissəsi isə mühacirət etməli oldu. Bütövlükdə 1905-1906 illər ərzində ermənilər Gəncə və İrəvan quberniyaları ərazisində 200-dən artıq Azərbaycan kəndini dağıdaraq viran qoydular. Ermənilərin törətdikləri özbaşınalıqlar o dərəcədə geniş miqyas almışdı ki, bu ixtişaşların bütün Qafqaza yayıla biləcəyindən ehtiyat edən çar hökuməti 1906 ildə erməni-müsəlman qırğınının qarşısını almaq üçün bir sıra təşəbbüslər göstərdi. Qafqaz canişini knyaz Vorontsov-Daşkov Tiflisdə erməni və müsəlmanların nümayəndələrinin iştirakı ilə konfrans keçirərkən daşnak liderlərinin davakar çıxışlarından məlum oldu ki, ermənilər öz bədxah əməllərindən əl çəkməyəcəklər.

Şərqi Anadolunu, eləcə də İstanbulu və boğazları ələ keçirməyi planlaşdıran çar hökuməti Türkiyə ilə müharibədə yenə də ermənilərdən istifadə etmək fikrində idi. XII.1915 ildə Qafqaz cəbhəsində vəziyyətlə tanış olmağa gələn Çar II Nikolay katolikos V Gevorkla görüşündə onu əmin etdi ki, Şərqi Anadolunun 6 vilayətində (Ərzurum, Ərzincan, Van, Bitlis, Xarput, Sivas) erməni dövlətinin yaradılmasına kömək edəcəkdir. «Böyük Ermənistan» dövləti yaratmaq xəyalı ilə yaşayan erməni millətçiləri Rusiyanın Türkiyə

üzərində qələbəsini təmin etmək üçün dəridən-qabıqdan çıxırdılar.

Qafqaz cəbhəsində rus ordusunun tərkibində hərbi təlim görmüş çoxsaylı erməni əsgərləri döyüşürdü. Bunu nəzərə alaraq daşnak liderləri cəbhədə ayrıca erməni silahlı dəstələrinin yaradılması haqda məsələ qaldırmışdılar. Onların tələbinə əsasən, 1917 ildə iki erməni atıcı briqadası yaradıldı. 1918-1920 illərdə Azərbaycan ərazisində yüz minlərlə azərbaycanlının həyatına qəsd hesabına başa gələn *soyqırım* tədbirlərini həmin briqadalar həyata keçirmişdilər.

XII.1917 ildən başlayaraq rus ordusunun hissələri özbaşına Qafqaz cəbhəsini tərk etməyə və geri çəkilərkən yolüstü rast gəldikləri kəndləri talan, əhalisini isə qətlə yetirməyə başladılar. Bundan istifadə edən ermənilər müsəlman kəndlərinə hücumlar edirdilər. XII.1917 ildə Türkiyə ilə Rusiya arasında sülh barışığını imzalayan 3-cü türk ordusunun komandanı Mehmed-Vehib Paşanın dəfələrlə xəbərdarlıq etməsinə baxmayaraq, rus ordusunun nəzarətində olan Şərqi Anadolu vilayətlərində müsəlman əhaliyə qarşı törədilən ağlasığmaz vəhşiliklərə ara verilmədi. Cəbhədən çəkilən rus ordusuna məxsus cəbbəxananın əsas hissəsinə yiyələnən ermənilər əvvəlki kimi kənd və qəsəbələri dağıdır, dinc əhalini qırırdılar. Məcburiyyət qarşısında qalan türk ordusu II.1918 ildə cəbhədə hücuma keçməli oldu. Geri çəkilən ermənilər böyüklü-kiçikli heç kimə aman verməmədən qarşılarına çıxan müsəlmanları qətlə yetirdilər. Ərzurum və Qarsda ermənilərin törətdikləri *soyqırımlar* nəticəsində bu iki şəhərdə və ətraf kəndlərdə müsəlman əhalidən kimsə sağ qalmadı. Erməni daşnakları İrəvan quberniyasında qırğınları davam etdirdilər. Onlar az bir vaxtda Qarsda 82, İrəvan quberniyasınca isə 211 müsəlman kəndini dağıdaraq dinc əhaliyə amansız divan tutdular. Təkcə İrəvan quberniyasından didərgin düşənlərin sayı 80 min nəfərdən çox idi. Ermənilər türk ordusu gələnə kimi İrəvan quberniyası ərazisində azərbaycanlıların qırğınını başa çatdırmağa çalışırdılar. 1918 ilin yayında türk ordusu Arpa çayını keçəndən sonra ermənilərin törətdikləri cinayətlərin qarşısı alınsa da, İrəvan quberniyasında çox az azərbaycanlı əhali qalmışdı. Birinci Dünya müharibəsi dövründə Şərqi Anadolu və Zaqafqaziyadan üst-üstə 1,2 mln. müsəlman qaçqın düşmüşdü ki, onların da əksəriyyəti azəri türkləri idi. Nə Zaqafqaziya seymi, nə də onun IV.1918 ildə yaratdığı Demokratik Federativ Respublika hökuməti ermənilər tərəfindən azərbaycanlıların soyqırımı və Azərbaycandan deportasiyasının qarşısını ala bilmədi.

Ermənilər nəinki Qərbi Azərbaycanda, həmçinin *Bakıda* və digər yerlərdə III-IV.1918 ildə soyqırımı törətdilər.

1918 ilin mayında Zaqafqaziyada Gürcüstan, Azərbaycan və Ermənistan dövlətləri yaradılandan sonra 4.VI.1918 ildə bu dövlətlərin sərhədlərini (*Dövlət sərhədləri*) müəyyən edən müqavilə (*Beynəlxalq müqavilə*) imzalansa da, mübahisəli ərazi iddiaları qalmaqda idi. Ermənistana verilmiş ərazilərin əhalisi yenə də əksərən azərbaycanlılar idi. Ermənistan hökuməti Naxçıvan, Zəngəzur, Göyçə və Qarabağı da ələ keçirmək istəyirdi. Şərqi Anadoluda ağlasığmaz qanlı cinayətlər törətmiş Andronik «paşa» öz cinayətkar dəstəsi ilə Ermənistan hökumətinin göstərişini yerinə yetirərək bu ərazilərdə azərbaycanlıları məhv





edirdi. Onun həmin ərazilərdə törətdiyi kütləvi qırğınlar nəticəsində yüzlərlə azərbaycanlı kəndləri dağıdılmış, xilas ola bilənlər qaçaraq didərgin düşmüşdülər. Azərbaycan hökumətinin bu özbaşınalıqların qarşısının alınması haqda dəfələrlə xəbərdarlıq etməsinə baxmayaraq, Ermənistan hökuməti öz mənfur əməllərini davam etdirməkdən əl çəkmirdi. Ermənilər Bakı quberniyasında 229, İrəvan quberniyasında 211, Qars vilayətində 82 yaşayış məntəqəsini dağıdaraq yüz minlərlə günahsız insanı qətlə yetirdilər. Didərgin düşənlərin sayı 1 mln.-dan çox idi.

Osmanlı imperiyasının *Birinci Dünya müharibəsində* məğlub olması ilə bağlı türk ordusu Azərbaycandan çəkiləndən sonra *Antanta* dövlətlərinin himayəsinə sığınan Ermənistan hökuməti Azərbaycana qarşı qəsbkarlıq planlarını genişləndirməyə çalışırdı. Zəngəzura soxularaq buranı işğal edən ermənilər I.1920 ildə 51 azərbaycanlı kəndini dağıdaraq onların əhalisini soyqırıma məruz qoydular. Ermənilər eyni vaxtda Ermənistan ərazisində qalan azərbaycanlılara da divan tuturdular. 1919 ildə erməni ordusunun Yeni Bəyazid, Eçmiədzin və İrəvan qəzalarında həyata keçirdikləri cəza tədbirləri nəticəsində evləri dağılaraq didərgin düşən azərbaycanlıların sayı 200 minə çatırdı. 1918 ilin əvvəllərində Ermənistan ərazisində yaşayan 600 minə yaxın azərbaycanlı əhalisindən 1920 ildə cəmi 10 mini qalmışdı. Ermənistan sovetləşəndən sonra didərgin düşmüş azərbaycanlılardan 1922 ilədək ancaq 100 mini öz ata-baba yurduna qayıda bilmişdi.

Ermənistandan azərbaycanlıların qovulması Sovet hakimiyyəti dövründə də davam edirdi. 1920-1930 illərdə həyata keçirilən repressiya qurbanları arasında azərbaycanlılar üstünlük təşkil edirdi. 1939 ildəki siyahıyaalmanın nəticələrinə görə Ermənistanda cəmi 130 min azərbaycanlı qalmışdı. SSR-in mərkəzi hakimiyyət orqanlarında özlərinə yer etmiş erməni millətçiləri başda A.Mikoyan olmaqla azərbaycanlıların Ermənistandan qovulmasını dövlət siyasəti səviyyəsinə qaldıra bildilər. 27.XII.1947 ildə SSRİ Nazirlər Soveti Ermənistanda yaşayan azərbaycanlıların Azərbaycan SSRİ-nin Kür-Araz ovalığına köçürülməsi haqda 754 saylı qərar qəbul etdi. Həmin qərara əsasən 1948-1953 illər ərzində 150 minə yaxın azərbaycanlı köçürüldü. Onların xeyli hissəsi yerli iqlimə uyğunlaşmayaraq qısa müddətdə tələf oldu, bir hissəsi isə ermənilərin törətdikləri manеələrə baxmayaraq, əvvəlki yaşayış yerlərinə qayıtdılar. Azərbaycalıların Ermənistandan sıxışdırılıb çıxarılması qeyri-rəsmi şəkildə 1960-1970 illərdə də davam edirdi. Həmin dövrdə on minlərlə azərbaycanlı, xüsusilə də iş tapmayan *ziyalılar* Ermənistandan həmişəlik köçməli olurdular. 1979 ildə əhalinin Ümumittifaq siyahıya alınmasının nəticələri göstərdi ki, Ermənistanda köçürmə və təqiblərə baxmayaraq 160 mindən çox azərbaycanlı yaşayır. Əslində Ermənistanda 200 mindən çox azərbaycanlı yaşayırdı. Ermənistan hökuməti azərbaycanlıların sayını qəsdən azaltmaqla onları ermənilərlə müqayisədə çox kiçik etnik qrup kimi təqdim etmək istəyirdi. Bununla yanaşı azərbaycanlılar arasında təbii artımın ermənilərlə müqayisədə çox yüksək olmasından narahatlıq keçirən erməni millətçiləri azərbaycanlıların Ermənistandan tamamilə qovulmasını başa çatdırmağı planlaşdırmışdılar. Sov. İKP MK Baş Katibi M.Qorbaçovun 1985 ildə SSRİ-də yenidənqurma siyasətini

ortaya atması erməni millətçilərinin baş qaldırmasına təkan verdi. 1987 ilin payızında Dağlıq Qarabağ ermənilərinin separatçı çıxışları ilə başlayan Ermənistan-Azərbaycan qarşıdurmasında Moskva tərəfindən açıq şəkildə dəstəklənən Ermənistan hökuməti 24.XI.1988 ildən başlayaraq Ermənistanda yaşayan azərbaycanlıların kütləvi şəkildə öz ata-baba yurdlarından qovulması aksiyasını həyata keçirdi. Sovet hərbi hissələrinin də iştirak etdikləri həmin aksiya həyata keçirilərkən erməni quldurları onlarla günahsız insanı ağlasığmaz vəhşiliklərlə məhv etdilər. XXI əsrin astanasında ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırıma dünya birliyi reaksiya vermədi. 1988-1989 illər ərzində Ermənistandan 200 mindən artıq azərbaycanlı qovuldu. Ermənilər azərbaycanlılara məxsus 170 milli, 94 qarışıq yaşayış məntəqəsini zəbt etdilər. Qərbi Azərbaycanda həyata keçirilən etnik təmizləmə siyasəti insan hüquqlarına dair qəbul edilmiş bütün beynəlxalq aktların pozulması deməkdir.

**AZƏRBAYCAN - MOLDOVA MÜNASİBƏTLƏRİ.** İki ölkə arasında *diplomatik əlaqələrin* yaradılması barədə protokol 18.V.1992 ildə imzalanıb. İki ölkə münasibətlərinin səmərəli və məqsədyönlü mahiyyət kəsb etməsində 10.X.1997 ildə dörd ölkənin - Azərbaycan, Gürcüstan, Ukrayna və Moldovanın iştirakı ilə *GUAM* təşkilatının yaradılması haqqında razılaşma mühüm əhəmiyyətə malik oldu. İki ölkə arasında siyasi münasibətlər V.1997 ildə «Azərbaycan Respublikası və Moldova Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə» və Xarici İşlər Nazirliklərinin (*Xarici İşlər İdarəsi*) əməkdaşlığı barədə *Protokolla* tənzimlənir.

Müxtəlif səviyyələrdə keçirilən rəsmi səfər və görüşlər ikitərəfli əlaqələrin inkişafına səbəb olub. Moldova *prezidenti* P.Luçinskinin XI.1997 ildə Bakıya rəsmi səfəri zamanı hər iki tərəfin maraq dairəsində olan regional və qlobal məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb, bir sıra sənədlər imzalanıb. Xarici işlər nazirlərinin görüşləri zamanı ikitərəfli əməkdaşlıq məsələləri, Ermənistan-Azərbaycan və Dnestryanı münaqişələrdən doğan problemlərin danışıqlar yolu ilə həll edilməsi, iqtisadi əməkdaşlıq, GUAM-ın təşkilat kimi formalaşması və fəaliyyətini canlandırmaq, hər iki tərəfin maraq dairəsində olan regional və beynəlxalq məsələlər müzakirə edilib.

**AZƏRBAYCAN MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNDƏ.** SSRİ-nin dağılması ilə öz müstəqilliklərini elan edən ittifaq respublikaları arasında siyasi, iqtisadi, hərbi-strateji inteqrasiya əlaqələrini yeni şəraitdə bərqərar etmək məqsədilə bir qurum - Müstəqil Dövlətlər Birliyi təsis edildi. Birliyin hüquqi əsasını Rusiya, Ukrayna və Belorusiyanın dövlət başçıları (*Dövlət başçısı*) tərəfindən 08.XII.1991 ildə imzalanmış Beloveşsk sazişi təşkil etdi. Sazişin iştirakçıları SSRİ-nin ittifaq dövləti olaraq öz mövcudluğuna son qoyduğunu və ona daxil olan müttəfiq respublikaların bundan belə müstəqil suveren dövlətlər (*Dövlətin suverenliyi*) olduğunu bəyan edir, bir-birinin daxili işlərinə qarışmamaq (*Qarışmamaq prinsipi*), əvvəlki sərhədlər çərçivəsində ərazi bütövlüyünü tanımaq (V maddə) barədə təəhhüd götürürdülər. Sazişin XIII maddəsində digər respublikaların da bu quruma daxil olmalarının





mümkünlüyü qeyd edilirdi. Sazişlə, eyni vaxtda üç dövlət başçısının imzaladığı daha bir sənəd - Birgə *Bəyanat* qəbul edildi. Bəyanatda sazişə qoşulan dövlətlər sülhün və əmin-amanlığın qorunmasını özlərinin xarici siyasətində prioritet xətt olaraq götürəcəklərini elan edirdilər. MDB-nin yaradılması istiqamətində sonrakı addım Beloveşsk sazişinə əlavə kimi qəbul edilən 21.XII.1991 il Alma-Ata Protokolu oldu. Sənədi Azərbaycan, Belorusiya, Ukrayna, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan, Moldova, Türkmənistan respublikalarının və Rusiya Federasiyasının dövlət başçıları imzaladılar. Həmin sənədlə eyni vaxtda Alma-Ata *Bəyannaməsi* də qəbul edilirdi. Bəyannamədə sazişə qoşulan dövlətlər arasında qarşılıqlı münasibətlərin suveren bərabərlik prinsipləri əsasında qurulması, yaranan münaqişələrin və mübahisəli problemlərin dinc yolla həll olunması lüzumu təsbit edilirdi. Azərbaycan Respublikası 24.IX.1993 ildə Alma-Ata Protokoluna və Alma-Ata Bəyannaməsinə qoşulduğunu təsdiq etdi. MDB-yə tam hüquqlu üzv olmaqla Azərbaycan Ermənistan Respublikasından savayı (məlum təcavüz üzündən) keçmiş SSRİ respublikaları ilə ikitərəfli və çoxtərəfli müqavilələr (*Beynəlxalq müqavilələr*) və sazişlər əsasında siyasi münasibətlər və iqtisadi əlaqələr yaratdı.

**AZƏRBAYCAN-NORVEÇ MÜNASİBƏTLƏRİ.** Azərbaycan-Norveç əlaqələrinin yaradılması başlanğıcını X.1994 ildə parlament nümayəndə heyətinin Norveçə, XI.1994 ildə isə həmin ölkənin sənaye və energetika nazirinin birinci müavini Q.Murvanqın başçılıq etdiyi nümayəndə heyətinin Bakıya səfərlərindən götürüb. Bu görüşlər iki ölkə arasında siyasi-iqtisadi, elmi və mədəni əlaqələrin yaradılmasına təkan verdi. Azərbaycan-Norveç iqtisadi əlaqələrinin daşıyıcısı «Statoyl» neft şirkətidir. 24-26.IV.1996 ildə Azərbaycan *prezidenti* H.Əliyevin (*Əliyev Heydər Əlirza oğlu*) Norveçə səfəri zamanı, ikitərəfli əlaqələrin bərqərar olub inkişaf etdirilməsi üçün dövlət başçıları (*Dövlət başçısı*) səviyyəsində bir sıra sazişlər imzalanmışdı.

XI.1996 ildə Azərbaycan Böyük Britaniyadakı fövqəladə və səlahiyyətli *səfirinin*, eyni zamanda, Norveçdə səfir təyin olunması qərara alındı.

**AZƏRBAYCAN-ÖZBƏKİSTAN MÜNASİBƏTLƏRİ.** Azərbaycan ilə Özbəkistan arasında *diplomatik əlaqələr* 02.X.1995 ildə yaradılıb. Azərbaycan Respublikasının Orta Asiya regionunda ilk *səfirliyi* X.1996 ildə Daşkənddə açıldı. X.1998 ildə Özbəkistanın Bakıda fövqəladə və səlahiyyətli *səfiri* fəaliyyətə başladı.

26-27.V.1996 ildə Özbəkistan Respublikasının *prezidenti* İslam Kərimovun Azərbaycana rəsmi səfəri zamanı hər iki ölkənin siyasi, iqtisadi və mədəni sahələrə dair əlaqələrini tənzimləyən 20 saziş, müqavilə (*Beynəlxalq müqavilə*) və *protokol* imzalanmışdı.

Azərbaycan Respublikası prezidentinin 18-19VI.1997 ildə Özbəkistana rəsmi səfəri zamanı qarşılıqlı əlaqələri tənzimləyən 20 sənəd imzalandı.

*TRASEKA* proqramı çərçivəsində 7-8.IX.1998 ildə Bakıda keçirilmiş Tarixi İpək yolunun bərpasına dair *Beynəlxalq konfransda* Özbəkistan prezidenti də iştirak etmişdir. 9-10.VI.1998 ildə türkdilli dövlətlərin V Astana Zirvə toplantısında, Türkiyə Respublikasının 75 illiyi ilə əlaqədar 20

zamanı Rusiya-Azərbaycan münasibətləri, erməni-azərbaycan münaqişəsinin həlli yolları müzakirə edilmiş, nəticədə hərbi əsirlərin və girovların dəyişdirilməsi baş tutmuşdur.

Y.Lujkovun VI.1997 və III.1999 illərdə başçılıq etdiyi Moskva şəhər nümayəndə heyətinin, VII.1998 ildə, D.Ayatskovun, VIII.1998 ildə F.Yakovlevin rəhbərlik etdikləri Saratov vilayəti və Sankt-Peterburq şəhər nümayəndə heyətlərinin səfərləri zamanı Azərbaycanın və Rusiya Federasiyasının subyektləri arasında imzalanan bir sıra müqavilə və protokollar qarşılıqlı münasibətlərin daha da genişlənməsinə və dərinləşməsinə gətirib çıxardı.

H.Əliyev Rusiya Federasiyası prezidentinin dəvəti ilə 02-04.VII.1997 ildə Moskvaya rəsmi səfər etmişdir.

Ermənistan-Azərbaycan münaqişəsinin həlli yolları barədə geniş müzakirə aparan prezidentlər ATƏT-in (*Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi*) üzvü olan ölkələrin dövlət və hökumət başçılarının XII.1996 ildə Lissabonda keçirilən Zirvə görüşündə qəbul edilmiş əsas prinsiplərin bu münaqişənin sülh yolu ilə aradan qaldırılmasında mühüm rol oynadığını nəzərə çatdırdılar.

Səfər zamanı valyuta və ixrac nəzarəti sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında saziş, Xəzər dənizindəki perspektiv D-222 Azərbaycan blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay şəklində bölüşdürülməsi haqqında saziş, Rusiya Federasiyası və Azərbaycan Respublikası vətəndaşlarının vizasız (*Viza*) gəlişgedişləri haqqında saziş, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə imzalandı.

Bundan əlavə, səfər zamanı köçkünlərin miqrasiya prosesini tənzimləmək və onların hüquqlarını müdafiə etmək haqqında saziş, hərbi sahədə əməkdaşlıq haqqında Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında protokol, ticarət əlaqələrini tənzimləyən əsas prinsipləri, Xəzər dənizinin Azərbaycana aid sektorunda neft-kəşfiyyat işlərinin aparılması, hasil edilmiş neftin pay şəklində bölüşdürülməsi barədə müddəaları əhatə edən müqavilə də imzalandı.

İki ölkənin xarici işlər nazirliklərinin (*Xarici İşlər İdarəsi*) xətti ilə aparılan məsləhətləşmələr müntəzəm xarakter almışdır.

X.1998 ildə RF xarici işlər naziri İ.İvanovun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan prezidentinin andiçmə mərasimində iştirak etdi. Səfər zamanı ikitərəfli münasibətlərin aktual məsələləri müzakirə edilmiş, onların inkişaf perspektivlərinə toxunulmuşdu.

22-24.XII.1998 ildə Azərbaycan Respublikasının xarici işlər nazirinin Moskvaya səfəri zamanı RF Dövlət Duması beynəlxalq işlər üzrə komitənin sədri V.Lukin, MDB və həmvətənlərlə əlaqələr komitəsinin sədri Q.Tixonov, Rusiya xarici işlər nazirinin müavini Y.Proşin, xüsusi tapşırıqlar üzrə səfir, Rusiya prezidentinin Dağlıq-Qarabağ münaqişəsinin nizama salınması üzrə təmsilçisi Y.Yukalov, Rusiya Federasiyası hökuməti sədrinin müavini V.Bulqak, MDB işləri üzrə nazir B.Pastuxov arasında keçirilən görüşlərdə Rusiya-Azərbaycan münasibətləri, Ermənistan-Azərbaycan münaqişəsinin dinc yolla həll edilməsi, Rusiyanın Ermənistana silah verməsi, Azərbaycan gəmilərinin Rusiyanın *daxili sularında* hərəkəti, Dağıstan respublikası və Azərbaycan arasında sərhədyanı əməkdaşlıq, Xəzər dənizinin statusu məsələləri müzakirə edilib.

1999 ildə Azərbaycan-Rusiya münasibətlərinin inkişafı yüksələn xətt üzrə davam edib.

03.IV.1999 ildə MDB dövlətləri başçılarının növbəti sammitindən sonra H.Əliyevin RF hökumətinin sədri Y.Primakovla görüşündə iqtisadi əməkdaşlıq məsələləri, Ermənistan-Azərbaycan münaqişəsinin həlli yolları müzakirə edilib.

İki ölkə arasında münasibətlərdə bəzi problemlər Rusiyanın Ermənistana qeyri-qanuni olaraq 1 milyard ABŞ dolları məbləğində silah verməsi və s. qalmaqdadır.

Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında hərtərəfli əlaqələri hal-hazırda müsbət istiqamətdə inkişaf edir.





**AZƏRBAYCAN RESPUBLİKASI-TÜRKİYƏ MÜNASİBƏTLƏRİ.** Türkiyə Respublikası 09.XI.1991 ildə Azərbaycanın dövlət müstəqilliyini birinci tanımış və 14.I.1992 ildə *diplomatik əlaqələr* yaratmışdır. Hər iki dövlət arasında münasibətlər *beynəlxalq hüquq* normaları prinsipləri əsasında qurularaq inkişaf edir. Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında hər iki ölkənin dövlət başçılarının (*Dövlət başçısı*) vaxtaşırı qarşılıqlı rəsmi və işgüzar səfərləri mühüm rol oynayır. Həmin səfərlər zamanı iki ölkə münasibətlərinin cari inkişafına yekun vurulur, regional və qlobal problemlər ətrafında fikir mübadiləsi aparılır, ikitərəfli əlaqələrin perspektiv inkişafı üçün yeni istiqamətlər müəyyən edilir və müxtəlif sahələrə aid sənədlər imzalanır.

Türkiyə Respublikasının ilk rəsmi hökumət nümayəndəsi kimi I.1992 ildə xarici işlər naziri Hikmət Çətin Bakıya gəldi. 14.I. «Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında diplomatik əlaqələrin yenidən qurulmasına dair *protokol*» imzalandı. Azərbaycan Respublikasının prezidenti Türkiyədə dostluq səfərində oldu. 24.I. Ankarada «Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında dostluq, əməkdaşlıq və mehriban qonşuluğa dair saziş» imzalandı. Bu sənəd iki dövlət arasında əlaqələrin qurulması və inkişafı üçün əsaslı hüquqi zəmin yaratdı. II.1992 ildə xarici işlər naziri Hikmət Çətin Bakıya növbəti səfər etdi. 28.II. «Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında vizaların (*Viza*) ləğvinə dair saziş» imzalandı. Həmin sənəd iki ölkə arasında gedişgəlişi asanlaşdırdı. 11.VIII. Ankarada «Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında konsulluq sövdələşməsi» imzalandı ki, bu da iki ölkə arasında əlaqələrin genişləndirilməsinə əlverişli şərait yaratdı.

01-05.XI.1992 ildə Azərbaycan Respublikasının *prezidenti* Ə.Elçibəy (*Elçibəy Əbülfəz*) Türkiyə Respublikasında rəsmi dostluq səfərində oldu. 02.XI. «Birgə *Bəyanat*» və «Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında əməkdaşlıq və yekdilliyə dair saziş» imzalandı. 13-15.IV.1993 ildə Türkiyə Respublikasının prezidenti T.Ozal Bakıda oldu. T.Ozalın Bakıya gəlişi Azərbaycan-Türkiyə əlaqələrinin inkişafına müsbət təsir göstərdi.

Azərbaycan Respublikasının prezidenti H.Əliyev (*Əliyev Heydər Əlirza oğlu*) 08-11.II.1994 ildə Türkiyə Respublikasına rəsmi səfər etdi. 09.II. «Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında dostluğun və hərtərəfli əməkdaşlığın inkişaf etdirilməsinə dair saziş» və «Azərbaycan

Respublikası ilə Türkiyə Respublikası arasında siyasi dialoqlara dair saziş» imzalandı. Hər iki sənəd Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında keyfiyyətcə yeni bir mərhələnin hüquqi əsasını təşkil edir. 5-05-08.V.1997 ildə H.Əliyev Türkiyə Respublikasına növbəti dostluq səfəri etdi. 5.V. «Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında strateji əməkdaşlığın dərinləşdirilməsinə dair *Bəyannamə*» və «Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında sərhəd məsələlərinin tənzimlənməsinə dair» razılaşma imzalandı. 08.V. isə «Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi (*Xarici İşlər İdarəsi*) ilə Türkiyə Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq və siyasi dialoqlara dair saziş» imzalandı.

Azərbaycanla Türkiyə arasında siyasi münasibətlər sonrakı illərdə də uğurla inkişaf etmiş və hər iki ölkənin beynəlxalq regional və qlobal problemlərə eyni mövqedən yanaşması ilə səciyyələnir.

**AZƏRBAYCAN - RUMINİYA MÜNASİBƏTLƏRİ.** Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra 11.XII.1991 ildə onu rəsmən tanıyan ilk Avropa dövləti Ruminiya olub. İki ölkə başçıları (*Dövlət başçısı*) arasında ilk rəsmi görüş XII.1994 ildə *Avropada Təhlükəsizlik və məkdaşlıq Əməkdaşlıq Müşavirəsinin* Budapeşt Zirvə toplantısında olub. Azərbaycan və Ruminiya *prezidentlərinin* ikinci görüşü 12.III.1995 ildə Kopenhagendə keçirilib. IV.1995 ildə Ruminiyanın xarici işər naziri Bakıya gəlib. Azərbaycan prezidenti H.Əliyevlə (*Əliyev Heydər Əlirza oğlu*) görüşündə o, Ruminiyanın Bakıda *səfirliyinin* açılmasını məqsədəmüvafiq sayıb. 30.VI.1995 ildə Azərbaycan prezidenti Buxarestə gəlib. Hər iki dövlət başçısının görüşündə iqtisadi, siyasi, mədəni sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub və bir sıra dövlətlərarası sazişlər imzalanıb: «Azərbaycan və Ruminiya arasında dostluq və əməkdaşlıq haqqında *Bəyannamə*», «Ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında» hökumətlərarası saziş, «Elm, təhsil, mədəniyyət və idman sahəsində» saziş.

III.1996 ildə Ruminiyanın prezidenti Bakıya gəlib. Səfər zamanı iki ölkə arasında iqtisadi əməkdaşlığı tənzimləyən sənədlər imzalanıb: «Beynəlxalq avtomobil nəqliyyatı haqqında». «Dəniz ticarət gəmiçiliyi haqqında». «Hava nəqliyyatı haqqında», «Turizm sahəsində əməkdaşlıq» və s.

**AZƏRBAYCAN SOVET SOSİALİST RESPUBLİKASININ XARİCİ SİYASƏTİ** (1920-1922 illər). 28.IV.1920 ildə Azərbaycanda sovet hakimiyyəti qurulan vaxtdan bütün sahələrdə təşkilati cəhətdən dəyişikliklər baş verdi. İşğaldan dərhal sonra Xarici İşlər Nazirliyi (*Xarici İşlər İdarəsi*) ləğv edildi, onun yerinə Xalq Xarici İşlər Komissarlığı (XXİK) yaradıldı. Kadrlar arasında təmizləmə aparıldı. ADR dövründə Xarici İşlər Nazirliyində işləyən azərbaycanlı diplomatlar 1920-1922 illərdə ixtisar adı altında XXİK-dan kənarlaşdırıldılar, bu da XXİK aparatının qısa müddətdə ruslaşdırılması ilə nəticələndi.

XXİK qarşısında Azərbaycanın qonşuları və Avropa dövlətləri ilə siyasi və iqtisadi xarakterli müqavilə (*Beynəlxalq müqavilə*) və sazişlər bağlamaq; xarici ölkələrin dövri mətbuatının alınmasını təşkil etmək; Qara dənizə çıxışı təmin etmək; İran və Türkiyə ilə mehriban münasibətlər qurmaq və s. kimi vəzifələr qoyuldu.

Sovet Rusiyası xarici siyasət sahəsində mərkəzləşdirmə prinsipinə söykənərək, Azərbaycana təzyiq göstərirdi. Rusiya Sovet Federativ Sosialist Respublikasının (RSFSR) Xalq Komissarları Soveti (XKS) 30.VI.1920 ildə «RSFSR Fəhlə-Kəndli hökuməti yanında akkreditə (*Akkreditə etmək*) olunmuş *diplomatik nümayəndəliklər* haqqında əsasnamə» qəbul etdi. Yeni qaydalara görə diplomatik heyətlər (*Diplomatik korpus*) sovet müəssisələri ilə əlaqələri birbaşa deyil, XXİK vasitəsi ilə həyata keçirməli idi. Bununla da xarici nümayəndəliklərin fəaliyyəti xeyli məhdudlaşdırıldı. Təlimatlar və əsasnamələr əməl olunmaq üçün Azərbaycana da göndərildi. Həmçinin RSFSR XXİK xaricilərə *viza* verilməsi şərtləri barədə Azərbaycana göstəriş verdi. Sovet Rusiyası Azərbaycanın digər sovet respublikalarında konsulluqlar (*Konsul idarəsi*) açmasına da mane olurdu. RK (b) P MK-nın II.1922 il «RSFSR-in digər sovet respublikaları ilə qarşılıqlı münasibətləri haqqında məsələyə dair» *qətnaməsində* göstərilirdi ki, sovet respublikalarında vahid *vətəndaşlıq* olduğuna və eyni hüquqlardan istifadə edildiyinə görə, qarşılıqlı qaydada konsulluqların təsis edilməsinə lüzum yoxdur. Konsulluqlar ancaq respublikalar arasında xüsusi saziş olduqda yaradıla bilərdi.

Sovet Rusiyası həmçinin Zaqafqaziya Respublikalarının xarici siyasət fəaliyyətini mərkəzləşdirmək adı altında Azərbaycanın xarici ölkələrdəki nümayəndəliklərini tədricən ləğv etməyə çalışırdı. RSFSR-in təşəbbüsü ilə Azərbaycan, Ermənistan və Gürcüstan I.1922 ildə Zaqafqaziya respublikalarının *Federasiyasını* yaratdılar. Federasiya XII.1922 ildə Zaqafqaziya Federativ Sosialist Respublikası (ZSFSR) adını aldı.

21.VIII.1922 ildə İttifaq Şurasının dekretinə əsasən, respublikalarda xarici əlaqələr üzrə katiblik yaradılırdı. Katiblik öz respublikasının xarici dövlətlərlə qarşılıqlı münasibətləri ilə bağlı cari işləri görməli idi. Cəmi üç nəfər əməkdaşı olan katibliyin xaricdəki nümayəndəliklərlə heç bir əlaqəsi yox idi, yalnız xaricilərlə əlaqədar məsələlərlə məşğul olurdu. İttifaq Şurası «Zaqafqaziya Respublikalarına xaricdən gələn şəxslər haqqında» dekreti ilə sovet respublikaları arasında viza rejimini ləğv etdi.

Xarici dövlətlərin Bakıdakı nümayəndəlikləri tədricən bağlandı. İşğaldan əvvəl isə Bakıda 14 dövlətin diplomatik nümayəndəliyi fəaliyyət göstərirdi. Bakı tutulan kimi İngiltərənin buradakı vitse-konsulu həbs edildi. Yeni hökumət ancaq İtaliya, Ermənistan və Gürcüstanın diplomatik nümayəndəlikləri və konsulluqlarını tanıdığını bildirdi. Belə olduqda xarici dövlətlərin Azərbaycandakı nümayəndəliklərinin korpusu XXİK-dan xaricilərin hüquq və vəzifələri barədə izahat verilməsi məqsədilə bir neçə dəfə müraciət etsə də, cavab alınmadı. Nəhayət, III.1921 ildə XXİK «Xaricilərin hüquq və vəzifələri haqqında» bəyanatla çıxış etdi. Bəyanatda deyilirdi ki, diplomatik nümayəndələr, konsullar (*Konsul*), agentlər və kuryerlər (*Diplomatik kuryer*) toxunulmaz olsalar da, onlara Azərbaycan vətəndaşlarının hüquqlarından üstün heç bir hüquq verilməyəcəkdir. Bolşevik hökuməti xarici nümayəndəliklərin Bakıda fəaliyyətini çətinləşdirən səbəbləri bilərəkdən yaradırdı; hər hansı bir dövlətlə əlaqələrin qurulmasında ilkin şərt kimi həmin ölkənin Azər-

baycan Sovet Sosialist Respublikasını tanımasında təkid edirdi.

RK(b)P MK II.1922 ildə «RSFSR-in digər sovet respublikaları ilə qarşılıqlı münasibətləri haqqında» qətnamə qəbul etdi. Qətnaməyə görə, ancaq sovet respublikaları ilə müqavilə bağlamış xarici dövlətlərin nümayəndələri həmin respublikaların ərazisinə buraxıla bilərdilər. Müqaviləsiz onları ancaq RSFSR XXİK-nın razılığına əsasən buraxmaq olardı. Əslində bu qətnamə xarici nümayəndəliklərin Azərbaycandan çıxarılmasına xəbərdarlıq olduğu üçün Xarici nümayəndəliklərin korpusu ölkəni tərk etmələri barədə məktubla hökumətə müraciət etdi. Azərbaycan Fövqəladə Komissiyası (AFK) 18.IV. XXİK-na məktub göndərərək xarici nümayəndəlikləri Azərbaycan ərazisindən çıxarmaq barədə göstəriş verdi. İran və Türkiyə nümayəndəliklərindən başqa digər xarici nümayəndəliklər Azərbaycanı tərk etdilər.

Azərbaycan SSR xarici siyasətini RSFSR-in maraqlarına uyğunlaşdırmaq məcburiyyətində qalsa da, qonşu dövlətlər - Ermənistan, Gürcüstan, İran və Türkiyə ilə münasibətlərdə nisbətən müstəqil hərəkət etmək meyllərini qoruyub saxlaya bilmişdi. İlk növbədə Ermənistanın əsassız ərazi iddialarının dəf edilməsinə, mübahisəli məsələlərin danışıqlar yolu ilə həllinə cəhd edilirdi. Bakı XI ordu tərəfindən tutulan kimi Ermənistanın hərbi hissələri yaranmış vəziyyətdən istifadə edərək Dağlıq Qarabağ, Zəngəzur və Qazax ətrafı ərazilərə soxulub yüzlərlə Azərbaycan kəndlərini dağıdaraq kütləvi qırğınlar törətdilər. Gürcüstan da Azərbaycanın qərb rayonlarına ordu hissələri yeritdi. Azərbaycan XXİK M.Hüseynov 30.IV.1920 ildə Ermənistan və Gürcüstan hökumətlərinə *nota* verərək işğal olunmuş ərazilərdən öz ordularını dərhal çıxarmağı tələb etdi. Ermənistan Respublikasının xarici işlər naziri Ohancanyan 03.V. verdiyi cavab notasında Dağlıq Qarabağın və Zəngəzurun Ermənistana aid olduğunu qeyd edərək həmin ərazilərdən daşnak ordusunun deyil, Azərbaycan hərbi hissələrinin çıxarılmasını tələb etdi. Ermənistan hökuməti Azərbaycanla ərazi mübahisələrini guya sülh yolu ilə həll etmək üçün RSFSR hökumətindən vasitəç (*Vasitəçilik*) olmağı xahiş etdi. Ermənistan hökuməti həmçinin Azərbaycan XXİK-na Ermənistan-Azərbaycan konfransını (*Beynəlxalq konfranslar*) çağırmağı təklif etdi. Azərbaycan XXİK 11.VII.1920 ildə belə bir konfransın çağırılmasına razı olduğunu bildirdi. Lakin daşnak hərbi hissələrinin hücumları davam etdirməsi göstərdi ki, Ermənistan hökuməti əslində konfransın baş tutmasında maraqlı deyil, işğal etdiyi ərazilərdə möhkəmlənmək üçün vaxt qazanmağa çalışır.

RSFSR XXİK Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasında öz hökumətinin vasitəçilik etməyə hazır olduğunu barədə hər iki tərəfə bildirdikdən sonra bu məsələ dəfələrlə RK(b)P Qafqaz Bürosunun Zaqafqaziya Diyar Komitəsinin və AK(b)P MK-nın iclaslarında müzakirə olundu.

29.XI.1920 ildə Ermənistanda sovet hakimiyyəti qurulsa da, erməni bolşevikləri Azərbaycana ərazi iddialarından nəinki əl çəkmədilər, əksinə onu yeni səviyyəyə qaldırdılar. Bu məsələdə onların ən yaxın müttəfiqi Azərbaycana münasibətdə çar Rusiyasının siyasətini davam etdirən, onu yalnız formaca dəyişdirən sovet Rusiyası idi.

Gürcüstan Demokratik Respublikası da Azərbaycana münasibətdə





ərazi iddiasında idi. Bakı işğal olan kimi gürcü ordusu yaranmış əlverişli vəziyyətdən istifadə etdi, Azərbaycanın dövlət sərhədini pozaraq Ağstafaya qədər irəlilədi. 30.IV.1920 ildə Azərbaycan XXİK Gürcüstana nota verərək öz qoşunlarını əvvəlki mövqelərə çəkməyi tələb etdi. Gürcüstan hökuməti öz qoşunlarını geri çəkməyə tələsmirdi. Yaranmış vəziyyəti nəzərə alaraq Azərbaycan XXİK M.Hüseynov 3.V. GDR xarici işlər nazirinə növbəti nota verərək «iki xalq arasında uçurum yaratmamaq üçün qoşunları əvvəlki sərhədlərə çəkməyi tələb etdi».

GDR ilə Azərbaycan Respublikası arasında bir-birini ittiham edən *notalar mübadiləsi* sərhəd münaqişələrini aradan qaldırmaq əvəzinə mövcud gərginliyi daha da artırdı. GDR ilə RSFSR arasında 7.V.1920 ildə saziş, 13.V. isə sülh müqaviləsi imzalandı. Müqaviləyə əsasən Gürcüstanın müstəqilliyini tanıyan Rusiya, eyni zamanda Gürcüstanla Azərbaycan arasında gedən hərbi əməliyyatları dayandırmağı öz üzərinə götürürdü.

GDR ilə Azərbaycan Respublikası arasında gedən hərbi əməliyyatların dayandırılmasına yönəldilmiş diplomatik danışıqlar, nəhayət 12.VII.1920 ildə Ağstafa sülh müqaviləsinin bağlanması ilə nəticələndi. On səkkiz maddədən ibarət sülh müqaviləsi və ona əlavə edilmiş sazişin şərtlərinə görə, iki respublika arasında hərbi əməliyyatlar dayandırılır, əvvəlki sərhədlər bərpa olunur, tərəfləri ayıran bitərəf zonalar yaradılır və hər iki tərəf bir-birinin müstəqilliyini qeyd-şərtsiz tanıyırdılar. Müqavilə bağlanandan dərhal sonra tərəflər öz aralarında diplomatik və konsulluq münasibətləri (*Diplomatik münasibətlər, Konsulluq münasibətlər*) qurur, hər iki tərəf üçün əlverişli ticarət əlaqələri yaradır, öz ərazilərində Gürcüstan və Azərbaycan hökumətləri üçün təhlükə törədə biləcək düşmən qrup və təşkilatların fəaliyyətinə yol vermirdilər və s.

Ağstafa müqaviləsinin imzalanması iki ölkə arasında mübahisələri nizama salmaq əvəzinə daha da gərginləşdirdi. Hər iki tərəf bir-birini Ağstafa müqaviləsini pozmaqda və düşmənçilik təbliğatı aparmaqda günahlandırırdı. GDR hökuməti XI Ordu hissələrinin onun sərhədlərində cəmləşməsindən narahat olduğunu bildirir və Azərbaycan hökumətindən Gürcüstan ərazisində mövcud rejimə qarşı təbliğat kompaniyasına son qoyulmasını tələb edirdi.

Gürcüstanın neft məhsullarına və ərzağa ehtiyacını nəzərə alaraq RSFSR hökuməti Azərbaycanın əli ilə Gürcüstanı iqtisadi blokadaya almağa çalışırdı. Rusiya Ağstafa müqaviləsindən Gürcüstana təzyiq vasitəsi kimi istifadə edirdi. 11.XII.1920 ildə RSFSR hökuməti Gürcüstan XİN-ə nota verərək «Azərbaycan və RSFSR-in Ermənistanla əlaqələrinə mane olduğuna görə, Gürcüstana neft verilməsini dayandırdığını» bildirdi.

RSFSR 21.II.1921 ildə Gürcüstanda sovet hakimiyyətinin qurulmasına nail oldu.

Bakı-Batum neft kəməri yenidən açıldı və iki respublika arasında gömrük xidməti ləğv edildi. 15.XI.1921 ildə Azərbaycanla Gürcüstan arasında sərhəd məsələlərini tənzimləyən yeni saziş imzalandı.

Azərbaycan respublikasının 1920-1922 illərdə siyasi, iqtisadi və diplomatik əlaqələr qurduğu ölkələrdən biri də İran idi. 30.V.1920 ildə İran hökuməti Azərbaycan respublikasını tanıdı və onunla diplomatik münasbətlər

yaratmağa hazır olduğunu bildirdi. 27.VIII. İranın Xarici İşlər Nazirliyi nota verərək Azərbaycan respublikası ilə bilavasitə diplomatik əlaqələr qurmaq istədiyini və tezliklə öz nümayəndəsini göndərəcəyini elan etdi. Azərbaycan tərəfi buna öz razılığını bildirdi.

Azərabycan-İran münasibətlərində müzakirələr obyektinə çevrilən bir çox mübahisəli məsələlər mövcud idi. Bu, ilk növbədə, iki ölkə arasında tez-tez baş verən sərhəd pozulması halları idi. Azərbaycan tərəfi İran hökumətini sərhəd pozulmalarını törədən əksinqilabi qüvvələrə öz ərazisində sığınacaq verməkdə günahlandırır və onların ölkədən çıxarılmasını tələb edirdi. 06.VIII.1920 ildə Azərbaycan XXİK-in İrana təqdim etdiyi notada İran ərazisindən Azərbaycan SSR-ə edilən hücumlara son qoyulması tələb olunurdu. Sərhəd *pozulması halları ilə əlaqədar* Azərbaycan XXİK bir neçə dəfə İran XİN-nə etiraz etsə də, vəziyyətin dəyişməməsi iki ölkə arasında siyasi gərginliyi daha da artırdı.

Azərbaycan-İran münasibətlərində mübahisə doğuran məsələlərdən biri də Gilan hadisələri və Azərbaycan hərbi hissələrinin burada olması idi.

Azərbaycan ordusunu İran ərazisində saxlamaqla Rusiya həmin qüvvələrdən İranda möhkəmlənmiş ingilislərə qarşı təzyiq vasitəsi kimi istifadə edirdi.

RSFSR hökumətinin göstərişi ilə Bakıdan göndərilən bolşeviklər 1920 ilin ortalarında Gilanda respublika yaradılmasında yaxından iştirak etdilər. Azərbaycanın İranla yaxınlaşmasına mane olmağa çalışan G.Çiçerin (*Çiçerin Georgi Vasilyeviç*) Gilan hadisələrini Azərbaycanın adı ilə bağlamaq məqsədilə 25.X.1920 ildə İranın xarici işlər nazirinə bildirdi ki, Gilanda rus əsgəri yoxdur, Rusiya hökuməti Gilan hökumətinə kömək etmir və İranın daxili işlərinə qarışmır.

Rusiya İrandakı daxili siyasi gərginlikdən istifadə edərək onu 1919 il İngiltərə-İran sazişini (*İngiltərə-İran müqavilələri və sazişləri*) ləğv etməyə, 26.II.1921 il Rusiya-İran müqaviləsini bağlamağa təhrik etdi. İngilis qoşunları İranı tərk edəndən sonra Azərbaycan ordusu X.1921 ildə İrandan çıxarıldı. Rusiya-İran yaxınlaşması Gilan respublikasının ləğv edilməsi ilə nəticələndi. Rusiya ingilis qoşunlarının İrandan çıxarılmasına nail olandan sonra XI.1921 ildə Azərbaycanın İrandakı nümayəndəliyi bağlandı. IV.1922 ildə ZSFSR İttifaq Şurası Azərbaycanın Təbriz və Ənzəlidəki konsulluqlarını ləğv etmək haqqında qərar verdi. Azərbaycan vətəndaşlarının hüquqlarını qorumaq işi *Rusiyanın İrandakı konsulluqlarına* keçdi.

**AZƏRBAYCAN SSR-RUSİYA MÜNASİBƏTLƏRİ.** 28.IV.1920 ildə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Rusiya onun daxili işlərinə fəal qarışmağa başladı. Buna hüquqi-siyasi don geyindirmək məqsədilə IX.1920 ildə hərbi ittifaq barədə müqavilələr (*Beynəlxalq müqavilələr*) imzalandı. SSRİ-nin yaranmasından sonra münasibətlər «İttifaq müqaviləsi» daxilində quruldu.

**AZƏRBAYCAN-TACİKİSTAN MÜNASİBƏTLƏRİ.** Azərbaycan və Tacikistan bir-birinin dövlət müstəqilliyini 21.XII.1991 ildə Almatı *Bəyannaməsilə* tanıyıb. *Diplomatik əlaqələrin* yaradılmamasına baxmayaraq, iki ölkənin rəsmi dairələri arasında *beynəlxalq təşkilatlar* xəttilə keçirilən toplantılarda görüş və söhbətlər keçirilirdi. MDB daxilində keçirilən toplantılar zamanı Azərbaycan-Tacikistan əlaqələrinin inkişafı və regional problemlər barədə fikir mübadiləsi aparılırdı. 30.IX.1999 ildə iki ölkənin milli təhlükəsizlik nazirlikləri arasında «əməkdaşlıq haqqında saziş» imzalandı. Bu, iki ölkə arasında imzalanmış ilk sənəddir. Ölkələr arasında iqtisadi-ticarət əlaqələri mövcuddur.





**AZƏRBAYCAN - TÜRKMƏNİSTAN MÜNASİBƏTLƏRİ.** Azərbaycan Respublikası ilə Türkmənistan Respublikası arasında *diplomatik əlaqələr* 09.VI.1992 ildə yaradılıb. 23-24.XII.1993 ildə Azərbaycan Respublikasının *prezidenti* H.Əliyevin (*Əliyev Heydər Əlirza oğlu*) Türkmənistana ilk rəsmi səfəri zamanı Aşqabad Zirvə toplantısı çərçivəsində iki *dövlət başçısının* danışıqları olmuş, qarşılıqlı əlaqələrin inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparılmışdı. 14.V.1997 ildə İqtisadi Əməkdaşlıq Təşkilatının Aşqabadda keçirilən Zirvə toplantısında hər iki dövlət başçısı ikitərəfli əlaqələrin inkişaf perspektivlərini müzakirə etmiş, qarşılıqlı qaydada hüquqi-müqavilə bazasının yaradılmasının zəruriliyini bildirmişlər. İki ölkənin çoxsahəli əlaqələrinin hüquqi-müqavilə bazası Türkmənistan prezidentinin 18-19.III.1996 ildə Bakıya rəsmi səfəri zamanı imzalanan 26 saziş və müqavilədə öz əksini tapıb.

13.XII.1996 ildə *İslam Konfransı Təşkilatının* Tehran Zirvə toplantısı çərçivəsində iki dövlət başçısının görüşündə Xəzər dənizində neft yataqlarının istismarının sektor mübahisələrilə bağlı fikir mübadiləsi olub, bu məsələlərin həlli üçün iki ölkə arasında ekspertlər qrupunun yaradılması barədə razılıq əldə edilib. Hər iki tərəfdən yaradılan ekspert qruplarının ilk iclası xarici işlər nazirləri səviyyəsində 05.II.1998 ildə Aşqabadda keçirilib. Danışıqlar zamanı *Xəzərin statusunun müəyyən edilməsinə dair tərəflərin* mövqeləri açıqlanıb, bu barədə beş sahilyanı dövlətin ümumi razılığa gəlməsinin zəruriliyi vurğulanıb, Xəzərin Azərbaycan və Türkmənistana aid hissələrinin orta xəttinin *beynəlxalq hüquq* normaları əsasında müəyyənləşdirilməsi haqqında razılıq əldə edilib, yekun aktı olaraq birgə *bəyanat* imzalanıb.

30.III.1998 ildə hər iki ölkə ekspertlərinin Bakıdakı 2-ci iclasında Türkmənistanın xarici işlər naziri iştirak edib. Tərəflər 5.II. Aşqabad Birgə Bəyanatını bir daha təsdiq edərək, Xəzərin ekologiyasının qorunması, Xəzərdən yalnız dinc məqsədlər üçün istifadə olunması haqqında razılığa gəlmişlər. İclasın yekunu olaraq Birgə bəyanat qəbul edilib.

09-10.VI.1998 ildə Astana şəhərində Azərbaycan Respublikasının prezidenti ilə Türkmənistan Milli Məclisinin sədri arasında türkdilli dövlət başçılarının 5-ci Zirvə toplantısı çərçivəsində görüşü keçirilib.

3.VIII.1999 ildə Azərbaycanla Türkmənistan arasında vətəndaşların sərbəst gəliş-gedişi haqqında saziş imzalanıb.

18.XI. ATƏT-in (*Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi*) İstanbul Zirvə Toplantısında Türkiyə, Gürcüstan, Azərbaycan və Türkmənistan respublikalarının prezidentləri «Transxəzər qaz boru xəttinə dair hökumətlərarası *Bəyannamə*» imzalayıblar. Azərbaycan Respublikası və Türkmənistan Respublikasının siyasi münasibətləri 18.III.1996 ildə imzalanmış aşağıdakı saziş və müqavilələrlə (*Beynəlxalq müqavilə*) tənzimlənir:

Azərbaycan Respublikası və Türkmənistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə; Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi (*Xarici İşlər İdarəsi*) ilə Türkmənistan Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında saziş; Azərbaycan Respublikası ilə Türkmənistan Respublikası arasında *Konsul Konvensiyası*; Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi və Türkmənistan Respublikası Milli Təhlükəsizlik Komitəsi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında saziş; Azərbaycan Respublikası hökuməti və Türkmənistan hökuməti arasında hüquqi informasiya mübadiləsi haqqında saziş.

Azərbaycan Respublikası ilə Türkmənistan Respublikası arasında siyasi münasibətlərdə əsasən Xəzər dənizinin hüquqi statusunun təyin olunması, Xəzər dənizində bir sıra yataqların mənsubiyyəti və MDB məkanı üçün qəbul edilən kollektiv müdafiə tədbirləri ilə bağlı hələlik bəzi fikir ayrılıqları qalmaqdadır.

**AZƏRBAYCAN - UKRAYNA MÜNASİBƏTLƏRİ.** İki dövlət arasında *diplomatik münasibətlər* 31.I.1992 ildə yaradılıb. Bu məsələ ilə bağlı imzalanan *protokolda* suverenliyə (*Suverenlik*) hörmət, ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığı, bir-birinin daxili işlərinə qarışmamaq və insan hüquqlarının qorunması prinsipləri münasibətlərin inkişafı üçün əsas götürülüb. Kiyevdə və Bakıda iki ölkənin *səfirliklərinin* açılması haqqında 28.VII.1995 ildə imzalanmış protokola uyğun olaraq, 1996 ildə Ukraynanın Azərbaycanda, 1997 ildə isə Azərbaycanın Ukraynada səfirliyi açılıb. Azərbaycan Respublikası və Ukrayna Xarici İşlər Nazirlikləri (*Xarici İşlər İdarəsi*) arasında 28.VII.1995 ildə siyasi məsləhətləşmələr haqqında Protokol imzalanıb. 24.III.1997 ildə iki ölkə arasında *Konsul Konvensiyası* bağlandı. Bu sənədlər ikitərəfli əməkdaşlığın müqavilə-hüquqi bazasını yaratdı. Regional təhlükəsizlik problemləri, MDB çərçivəsində qurulan münasibətlər, Avropa strukturlarına inteqrasiya və s. məsələlər üzrə iki dövlət arasında səmərəli əməkdaşlığın yaradılması Azərbaycan-Ukrayna münasibətlərini strateji səviyyəyə qaldırıb. İmzalanmış çoxsaylı sənədlər iki ölkənin strateji əməkdaşlığı üçün əsaslı hüquqi zəmin yaradıb. Bu baxımdan iki ölkənin müdafiə nazirləri arasında Hərbi sahədə əməkdaşlıq haqqında saziş (24.III.1997), Hərbi-texniki əməkdaşlıq haqqında saziş (24.III.1997), Hərbi təhsil müəssisələrində hərbi kadrların hazırlanması barədə saziş (24.III.1997), Dövlət sərhədlərinin qorunmasında əməkdaşlıq haqqında saziş (30.VII.1997) və Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Ukrayna Təhlükəsizlik Xidməti arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında saziş (28.VII.1995) və s. göstərmək olar.

İki dövlət arasında əlaqələrin inkişafında qarşılıqlı rəsmi səfərlər mühüm rol oynayıb. *Prezidentlər*, baş nazirlər və nazirlər səviyyəsində təşkil edilən səfərlər səmərəli olub. Ukrayna prezidenti L.Kuçma 27-28.VII.1995 ildə Bakıda rəsmi səfərdə olarkən ikitərəfli əlaqələrin inkişafı və bir sıra beynəlxalq problemlər ətrafında geniş fikir mübadiləsi aparılıb, bir sıra sənədlər, o cümlədən hava nəqliyyatı əlaqəsi sahəsində əməkdaşlıq haqqında müqavilə, siyasi məsləhətləşmələr barəsində protokol, vətəndaşların təqaüd təminatı, azad ticarət, səfirliklərin açılması, ticarət-iqtisadi əməkdaşlıq haqqında sazişlər





bağlanıb. Bu səfər zamanı L.Kuçma Ukraynanın ATƏT-in (*Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi*) Qarabağdakı sülhməramlı missiyasında iştirak etməyə, münaqişə bölgəsinə hərbi müşahidəçiləri göndərməyə, münaqişə edən tərəflər arasında görüş və danışıqların keçirilməsi üçün Ukrayna ərazisindən istifadə etməyə razılığını bildirib.

24-25.III.1997 ildə Azərbaycan Respublikasının prezidenti H.Əliyev (*Əliyev Heydər Əlirza oğlu*) Kiyevdə rəsmi səfərdə olub. Səfər zamanı iki ölkə arasında münasibətlərin dərinləşməsi barədə birgə *Bəyannamə* və bir sıra başqa sənədlər imzalanıb. IX.1998 ildə Bakıda tarixi İpək yolunun bərpasına həsr olunan beynəlxalq konfransda (*Beynəlxalq konfranslar*) L.Kuçma da iştirak edib. Rəsmi səfərlər zamanı iki dövlət arasında imzalanmış sənədlərin icrası nəzərdən keçirilib, əlaqələrin perspektiv inkişaf istiqamətləri müəyyən edilib.

B

**BABAYEV QULAMRZA.** 1920 ildə ADR-in İrandakı diplomatik nümayəndəliyində *diplomatik kuryer* işləmişdir.

**BABİ-ALİ** (Avropa ölkələrində «Porta» deyilir) (hərfi mənası – böyük qapı, darvaza). *Diplomatiya* və *beynəlxalq münasibətlər* tarixində Osmanlı imperiyası hökumətinin, bəzən də imperiyanın özünün qəbul olunan adıdır.

«Ali Porta», «Parlaq Porta» variantları da olub. Sultan Süleymanın I Fransiskə məktubunda «Porta» terminini işlədib.

**BAĞDAD DƏMİR YOLU.** Bosfor boğazı ilə fars körfəzini birləşdirən, 2400 km uzunluğunda olan dəmiryol xəttinə verilə ad. 1903 Türkiyə B.d.y.-nun tikintisinə dair konsessiyanı *(Beynəlxalq konsessiya)* Almaniyaya verdi. Bu dəmiryol vasitəsilə Almaniya Osmanlı imperiyasını nəzarətdə saxlamağa, ingilislərin Hindistan və Misirdəki, rusların Qafqazdakı mövqelərini zərbə altına almağa çalışırdı. *Birinci dünya müharibəsindən* sonra B.d.y. hissələrə bölündü: Konyadan Bozantaya qədər olan hissə Türkiyəyə verildi, Bozantadan Nusaybinə qədər olan hissə fransız şirkətinə konsesiyaya, Bağdaddan Samirəyədək olan hissə İraq dəmir yollarına daxil edildi. Yolun tikintisi 1934-1941 illərdə başa çatdırıldı.

**BAKI-CEYHAN NEFT KƏMƏRİ.** *«Əsrin müqaviləsi»* və Azərbaycanın bağladığı bir sıra başqa müqailələr *(Beynəlxalq müqavilə)* nəticəsində əldə ediləcək, həmçinin Xəzəryanı ölkələrdə hasil olunan neftin dünya bazarlarına çıxarılması üçün nəzərdə tutulan əsas neft kəməri. Bakıdan başlayan B.-C.n.k. Gürcüstanın ərazisindən keçərək Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına qədər 1730 km məsafəni əhatə edir. Layihənin dəyəri 2,4 mlrd ABŞ dolları, buraxılış qabiliyyəti ildə 50-60 mln. ton nəzərdə tutulub.

29.X.1998 ildə Azərbaycan *prezidenti* H.Əliyev *(Əliyev Heydər Əlirza oğlu)*, Gürcüstan prezidenti E.Şevardnadze, Qazaxıstan prezidenti N.Nazar-

bayev, Türkiyə prezidenti S.Dəmirəl *(Dəmirəl Süleyman)* Özbəkistan prezidenti İ.Kərimov və şahid kimi ABŞ-ın enerji məsələləri üzrə katibi B.Riçardson tərəfindən əsas *ixrac kəmərinin* inşası haqqında Ankara *Bəyannaməsi* imzalamışdır.

**BAKI DİPLOMATİYA UNİVERSİTETİ** (bax: Ali Diplomatiya Kolleci).

**BALHAUSPLAS** (al. Balhaus platz). Vyanada Avstriya Xarici İşlər Nazirliyinin binası yerləşən meydandır. *Birinci Dünya müharibəsinədək* Avstriya-Macarıstanın XİN-i olmuşdur. Hazırda Avstriya XİN-ni *(Xarici İşlər İdarəsi)* bildirmək üçün işlədilir.

**BANDUNQ KONFRANSI** (1955). 18-24.IV. Bandunqda keçirilib; Təşəbbüskarları - İndoneziya, Birma, Hindistan, Pakistan və Seylon (1972 ildən - Şri-Lanka) olub. Bandunq konfransında Asiya və Afrikanın 29 dövlət və ərazi nümayəndələri iştirak etmişlər.

B.k-da əsas diqqət sosial-iqtisadi və siyasi quruluşlarından asılı olmayaraq, Asiya və Afrika dövlətlərinin *dinc yanaşı yaşamalarını* və əməkdaşlıqlarını təmin edəcək əməli proqramın hazırlanmasına verilmişdi.

**«BARBAROSS PLANI».** 1941 ildə Faşist Almaniyasının SSRİ üzərinə hücumunun kodlaşdırılmış adı. «B.p.» «Müqəddəs Roma imperiyasının» imperatoru I Fridrix Barbarossanın adını daşıyır.

**BARIŞIQ.** Vuruşan tərəflər arasında hərbi əməliyyatların razılaşma əsasında müvəqqəti dayandırılması və ya ləğv edilməsi. *BMT Təhlükəsizlik Şurası* vuruşan tərəflərdən B. tələb etmək hüququna malikdir. B.-la əlaqədar *beynəlxalq hüquq* normaları hamı tərəfindən qəbul edilən bir sıra sənədlərdə, *xüsusilə 1907-ci il IV Haaqa konvensiyasında (Haaqa konfransları 1899 və 1907)* öz əksini tapıb. Bu sənədlər əsasında B. hərbi əməliyyatları müəyyən vaxta qədər dayandırır. B.-ın müddəti müəyyənləşdirilmədikdə vuruşan tərəflərin istənilən vaxt düşmənin əvvəlcədən xəbərdarlıq edilməsi şərtilə hərbi əməliyyatları yenidən başlamaq hüquqları vardır. Tərəflərdən birinin B.-ğı pozması digər tərəfə B.-dan imtina etmək və hərbi əməliyyatları yenidən başlamaq da daxil olmaqla tədbirlər görmək hüququ verir.

B. ümumi və xüsusi (yerli) xarakter daşıya bilər. Ümumi B. hökumətlərinin səlahiyyətlərini alan hərbi baş komandanlar tərəfindən imzalanır və bu zaman sülh müqaviləsinin bağlanmasının başlanğıcı kimi *müharibə* meydanında bütün hərbi əməliyyatlar dayandırılır. Vuruşan tərəflərdən birinin ümumi B.-ı ciddi şəkildə pozması təcavüz aktı kimi qiymətləndirilir. Xüsusi B. zamanı hərbi əməliyyatlar müvəqqəti olaraq cəbhənin müəyyən hissəsində dayandırılır.

**BAŞSAĞLIĞI** (diplomatiya təcrübəsində). Ölkəyə üz vermiş bədbəxt hadisə: *dövlət başçısının, hökumət başçısının* və digər görkəmli şəxsiyyətlərin ölümü, böyük dağıntılara və insan tələfatına gətirib çıxaran təbii fəlakət və qəza ilə əlaqədar təəssüf hissinin rəsmi şəkildə ifadəsi; B. teleqramlar, məktublar, müraciətlər formasında göndərilir.

Dövlət başçısının ölümü ilə bağlı başsağlığı göndərməklə bərabər, matəm mərasimlərində (o cümlədən dini ayinlərdə) xarici dövlətlərin xüsusi olaraq gəlmiş nümayəndələri iştirak edirlər. Onlar ölkə rəhbərliyinə şifahi şəkildə başsağlığı verirlər. B.-nı matəm elan edən ölkəyə *diplomatik korpus* bəyan edir. *Diplomatik nümayəndəliklərin* başçıları *(Diplomatik başçılıq)* (hərə ayrılıqda, yaxud diplomatik korpus adından – *diplomatik koprusun duayeni*) Xarici İşlər Nazirliyinə *(Xarici İşlər İdarəsi)* müvafiq notalar *(diplomatik nota)* (şəxsi, verbal), aşağı sol küncündə «p.c» (pour condoleance) yazılmış *vizit kartları* göndərirlər. Nümayəndə heyətləri və diplomatik korpus mərhumun tabutu üstünə əklil qoyurlar.

*Səfirliklərin* binasına sancılmış *dövlət bayraqları* matəm günləri yarıya qədər endirilir.

Matəm elan edən ölkənin diplomatik nümayəndəliyi nota ilə (şəxsi, verbal), hökumətə, diplomatik korpusa *baş vermiş hadisə* barədə, B.-ı kitabının açılması vaxtı və yeri barədə məlumat verir, öz səfirliyinin binasında sancılan bayrağı yarı endirir, nümayəndələrin və diplomatların B. vermək üçün qəbulunu təşkil edir.

**BENİLYÜKS.** Belçika, Niderland və Lüksemburqun iqtisadi ittifaqı, əsası üç ölkə hökumətləri arasında valyuta sazişi (1943), gömrük Konvensiyası (1944) *(Beynəlxalq Konvensiya)* və gömrük ittifaqı müqaviləsi (1947) *(Beynəlxalq müqavilə)* bağlanmaqla qoyulub. 1949 il keçid dövrü sazişinə əsasən, tərəflər sənaye malları ilə ticarətdə kəmiyyət məhdudiyyətini ləğv etmək və 3-cü ölkələrə münasibətdə ticarət və maliyyə siyasətini əlaqələndirmək barədə öhdəlik götürürlər.

B. yaradılması 3.II.1958 ildə Haaqada iqtisadi ittifaqa dair müqavilə imzalanması ilə (50 il müddətinə, hər dəfə 10 il uzadılmaq imkanı ilə, başa çatdı. 1.XI.1960 ildə qüvvəyə minib. İttifaq üç ölkənin *Avropa İqtisadi Birliyində* öz mövqelərini möhkəmləndirmək cəhdlərinin ifadəsi idi. B. ölkələri 01.X.1958 ildə Avropa İqtisadi Birliyinə daxil olmuşlar.

B.-ün rəhbər orqanları: nazirlər komitəsi, parlamentlərarası məşvərət şurası, iqtisadi ittifaq şurası, bir neçə ümumi və xüsusi komitələr, baş katiblik, arbitraj kollegiyası, məhkəmə palatası, iqtisadi və sosial məsələlər üzrə məşvərət şurası. Mənzil qərargahı Brüsseldədir. Rəsmi nəşrləri: **«Benelux Textes de Base», «Benelux guarterly», «Bulletin Benelux».**

**BERLİN KONQRESİ** (1878). 13.VI-13.VII. Avstriya-Macarıstan, Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, Rusiya və Türkiyənin iştirakı ilə keçirilmiş və *San-Stefano sülh müqaviləsinin* şərtlərinə yenidən baxılmışdır. 13.VII. imzalan-mış Berlin traktına görə Bolqarıstan Türkiyə sultanının təsdiq etdiyi knyaz tərəfindən idarə olunan və ona vergi ödəyən muxtar dövlət statusu aldı. Balkan dağlarından cənubdakı ərazilərdən, Türkiyə sultanının siyasi və hərbi hakimiyyəti altında olan və inzibati muxtariyyətə malik şərqi Rumeliya vilayəti təşkil olundu, Albaniya, Frakiya, Makedoniya Türkiyənin hakimiyyəti altında qaldı, Çernoqoriya, Rumıniya, Serbiya müstəqillik qazandı, Batum, Ərdəhan, Qars Rusiyaya keçdi, yeni rus-türk sərhədi *(dövlət sərhədləri)* müəyyənləşdirildi. Paris sülh müqaviləsinin *(Paris sülhü 1856)* və London konvensiyasının *(London konvensiyaları)* Qara dəniz boğazları haqqında yeni razılaşmanın toxunmadığı maddələri təsdiq olundu.

**BERLİN MEMORANDUMU** (1876). 13.V. Avstriya-Macarıstan, Almaniya, Fransa, İtaliya və Rusiya tərəfindən Bosniya-Herseqovinyada baş verən üsyanla əlaqədar təqdim edilmişdir. Türkiyə hökumətindən üsyançılarla iki aylıq *barışıq* əldə etmək, türk qoşunlarını müəyyənləşdirilmiş məntəqələrdə saxlamaq, dağıdılmış evlərin, təsərrüfatların bərpasında üsyançılara yardım etmək, üsyançıların silah saxlamaq hüquqlarını qəbul etmək tələb olunurdu. Üsyançılara qarşı mübarizədə Türkiyənin tərəfini saxlayan İngiltərə Berlin *Memorandumunu* qəbul etmədi. 30.VI.Serbiya və Çernoqoriyanın Türkiyəyə qarşı müharibəyə başlamaları ilə B.M. öz mənasını itirdi.

**BERLİN (POTSDAM) KONFRANSI** (1945). 17.VII-2.VIII. ABŞ, Böyük Britaniya və SSRİ dövlət rəhbərlərinin iştirakı ilə Potsdamda (Berlin yaxınlığında) keçirilmişdir. Konfransın *(Beynəlxalq konfrans)* işində əsas məsələ Almaniyanın denasifikasiyası, *demilitarizasiyası* və demokratikləşdirilməsindən ibarət idi. Almaniyada ali hakimiyyətin ABŞ, Böyük Britaniya, Fransa və SSRİ işğal qoşunlarının baş komandanları tərəfindən (hərə öz işğal zonasında və *Almaniya üzrə nəzarət şurasının* həyata keçirilməsi haqqında qərar qəbul edildi. Almaniyanın işğalının aşağıdakı məqsədləri elan edildi: onun tam *tərksilah* edilməsi və demilitarizasiyası, siyasi həyatın denasifikasiyası və demokratikləşməsi, nasional sosialist partiyasının ləğv olunması, bütün nasist qanunlarının ləğv edilməsi, hərbi cinayətkarların cəzalandırılması, nasistlərin cəmiyyətdə və müəsisələrdə məsul vəzifələrdən uzaqlaşdırılması, antifaşist partiyaların fəaliyyətinə yardım edilməsi, təhsil sisteminin, məhkəmənin və yerli idarəetmənin demokratikləşdirilməsi. *Alman təcavüzünə məruz* qalmış xalqların *təzminat* hüququ konfrans iştirakçıları tərəfindən təsdiq edildi. Almaniya hərbi və ticarət donanmasının ABŞ, Böyük Britaniya və SSRİ arasında bərabər bölüşdürülməsi haqqında qərar qəbul edildi.

B.k.-da ərazi məsələlərinə baxıldı. Polşanın qərb sərhəddi *(dövlət sərhədləri)* Oder - Neyse çayları boyu müəyyənləşdirildi. Şərqi Prussiyanın bir hissəsi və Dansiq (Qdansk) Polşaya verildi. Köniqsberq şəhəri (4.VII.1946-dan Kaliningrad) və Şərqi Prussiyanın ona bitişik əraziləri SSRİ-yə verildi.

Almaniya və onun keçmiş müttəfiqləri ilə sülh müqavilələri hazırlamaq üçün xarici işlər nazirlərinin şurası yaradıldı. Əsas *hərbi canilərin* beynəlxalq hərbi tribunala verilməsi qərara alındı.

B.k.-ın *qərarları, onlara qoşulmaq* təklifi ilə Fransa Hökumətinə göndərildi. Fransa təklifi qəbul etdi.

**BERLİN-ROMA OXU** (1936). 25.X. Almaniya və İtaliya faşist dövlətləri arasında Berlində formalaşmış hərbi-siyasi ittifaq. Həbəşistanın İtaliya tərəfindən işğalını Almaniya tanıdı. İspaniyadakı vətəndaş müharibəsinə münasibətdə Almaniya-İtaliya əməkdaşlığının prinsipləri müəyyənləşdirildi.

**BERN KONVENSİYASI** (1886). Ədəbi və bədii əsərlərin qorunmasına dair. 1886 ildə Berndə qəbul edilib. Dəfələrlə: 1896 ildə Parisdə, 1908 ildə Berlində, 1914 ildə Berndə, 1928 ildə Romada, 1948 ildə Brüsseldə, 1967 ildə Stokholmda və 1971 ildə Parisdə yenidən baxılmış, *dəyişdirilmiş və əlavələr* edilmişdi. B.k. ədəbi və bədii mülkiyyəti qoruyub saxlamaq üçün beynəlxalq büroya malik Beynəlxalq İttifaq təsis etmişdir. Beynəlxalq büro 1893 ildən başlayaraq *intellektual mülkiyyətin* qorunması üzrə Beynəlxalq Büronun (İMBB) tərkibinə daxil edilib. 1967 ildən İMBB-nin funksiyalarını Ümum-dünya İntellektual Mülkiyyət Təşkilatı həyata keçirir.

B.k.-nın mahiyyəti müəlliflərin - ittifaqın üzvü olan ölkələrdən birində öz əsərlərini çap etdirmiş ittifaq ölkələrinin birinin vətəndaşının əsərlərini ittifaqın digər ölkələrində qorumaqdır. Müəllif öz əsərini ittifaqın bütün ölkələrində tərcümə etdirmək yaxud təkrar çap etdirmək kimi müstəsna hüquqa malikdir. Əsər bu ölkələrdə müəllifə yaxud naşirə müvafiq qonorar verilmədən buraxıla bilməz. Əsərin radio, televiziya, mexaniki yazılma yolu ilə yenidən yayımı müəllifin müstəsna hüququdur. B.k. müəllifin ölümündən sonra ən azı *50 il müddətinə müəlliflik hüququnu* qoruyub saxlayır.

**BETTL QANUNU** (1951) (qarşılıqlı müdafiə məqsədilə edilən yardıma nəzarət qanunu). ABŞ *Konqresi* tərəfindən 28.VIII qəbul olunub və layihənin müəllifi senator Bettlin adını daşıyır. Qanun «Amerika yardımını» alan ölkələrə ABŞ-ın təzyiqinə haqq qazandırırdı.

Müəyyən edilirdi ki, ABŞ «onun təhlükəsizliyinə qorxu törədən» istənilən ölkəyə, yaxud ölkələr qrupuna silah, hərbi sursat, müharibə ləvazimatı və atom enerjisi, neft, nəqliyyat vasitələri istehsalında strateji əhəmiyyət daşıyan məhsullar aparılmasına *embarqo* qoya bilər. Qanun həmçinin bu ölkələrə ABŞ ixracatını da tənzimləməyi nəzərdə tuturdu. Qanunda deyilirdi ki, istənilən Amerika köməyi yalnız o ölkələrə ediləcəkdir ki, onlar SSRİ ilə ticarətdə eyni qadağalar qoymuş olsunlar.

B.q. ABŞ *prezidentinə* tövsiyə edirdi ki, bütün ölkələrin sosialist ölkələrinə ixracatlarını «tənzimləməkdə» ABŞ-la əməkdaşlıq etmələrinə nail olsun.

**BEYNƏLXALQ ARBİTRAJ.** Mübahisə edən tərəflərin könüllü razılığı ilə bir və ya bir neçə arbitr, tərəfindən beynəlxalq mübahisələrə baxılması; A.-ın xarakterik cəhətləri bunlardır: onun qərarları mübahisə edən tərəflər üçün məcburi hüquqi qüvvəyə malikdir; arbitr və ya arbitrlər mübahisə edən tərəflərin özü tərəfindən seçilir.

A.-ın iki növü vardır: a) konkret mübahisə üzrə yaradılan; b) *beynəlxalq müqavilələrdə* onların icrası zamanı yarana biləcək mübahisələrin həlli üçün nəzərdə tutulan (belə müqavilə normasını tretey (münsiflər) yazısı adlandırırlar).

A. orta əsrlərdə məşhur olmuş, lakin daha geniş şəkildə XVIII əsrin axırları və XIX əsrin əvvəllərində yayılmışdır. Beynəlxalq toqquşmaların sülh yolu ilə həll edilməsinə dair 1899, 1907 illər Haaqa konvensiyalarını *(Haaqa konfransları, 1899 və 1907)* misal göstərmək olar.

Beynəlxalq mübahisələrin dinc yolla həll edilməsinin mümkün vasitələrindən biri kimi arbitrajın tətbiqi *BMT Nizamnaməsində* və digər sazişlərdə nəzərdə tutulur.

A.-dan ingilis və rus *diplomatiyası* Şərqlə bağlı müstəmləkə siyasətinin həyata keçirilməsində geniş istifadə etmişdir. Məs: Yaxın və Orta Şərq regionunda baş qaldıran ərazi məsələlərinin nizama salınmasında arbitr kimi çıxış edən ingilis və rus diplomatiyası öncə öz dövlətlərinin maraqları baxımından çıxış edirdilər. Bu prosesdə münaqişədə iştirak edən tərəflərin İng-

iltərə və Rusiya ilə münasibətləri əsas götürüldüyündən, problemin nizama salınmasına heç də bitərəf arbitr kimi yanaşılmadığından, gələcək toqquşmalar üçün zəmin yaradılmışdı.

Asiya, Afrika və Latın Amerikasında müstəmləkəçi dövlətlərin iştirakı ilə sərhəd məsələlərinin *(dövlət sərhədləri)* «həlli» bu prosesin tərkib hissəsi kimi təzahür etmişdir ki, bunun nəticəsində də etnik sərhədlər əvəzində çox vaxt «siyasi sərhədlər» yaradılmışdı.

**BEYNƏLXALQ ARXİVLƏR ŞURASI.** *Beynəlxalq qeyri-hökumət təşkilatı;* 1950 ildə yaradılıb; dünyanın müxtəlif dövlətlərinin mərkəzi arxiv müəssisələrini, arxivçilərin milli assosiasiyalarını və regional birliklərini özündə birləşdirir.

B.a.ş. vəzifəsi – bütün ölkələrin arxivçiləri, dövlət və fərdi arxiv müəssisələri arasında əlaqələr yaratmaq, onları qoruyub möhkəmləndirmək, arxiv işinin inkişafına kömək etmək, arxivçi kadrlar hazırlamaq və sairədir.

Qərargahı - Parisdədir.

Ali rəhbər orqanı - 4 ildən bir çağırılan Baş Məclisdir. BM-in sessiyaları arasındakı dövrdə Şuraya İcraiyyə Komitəsi rəhbərlik edir. Arxiv işləri sahəsində beynəlxalq əməkdaşlığın praktiki məsələlərini müzakirə etmək üçün hər il *Arxivlərin dəyirmi masası* keçirilir. Mətbu orqanı - «Arxivum» jurnalı nəşr edilir.

**BEYNƏLXALQ ÇAYLAR.** Beynəl-xalq xarakterli daxili su yolları, başqa sözlə, bir neçə dövlətin ərazisindən keçən və beynəlxalq gəmiçilik üçün istifadə olunan çaylar, süni su birləşmələri. B.ç.-a dünyanın 200-ə yaxın ən iri çay (qolları ilə birlikdə) daxildir. Onlardan 52-si üç və daha çox dövlətin ərazisindən axır. Bunlar - Dunay, Reyn, Elba, Amazon, Volta, Zambezi, Konqo, Niger, Qanq, Mekonq və s.-dir.

B.ç.-ın hüquqi rejimi, bir qayda olaraq, sahilyanı dövlətlər və bəzi hallarda maraqlı olan digər dövlətlər arasında bağlanan sazişlərlə müəyyən edilir. B.ç.-ın ayrı-ayrı sahələri müvafiq sahilyanı dövlətin ərazisi tərkibinə daxil olub və onun suverenliyi *(dövlətin suverenliyi)* altındadır.

B.ç.-dan təsərrüfat məqsədilə istifadə olunması məsələləri qonşu ölkələr, yaxud çayın müəyyən hövzəsinə bitişik ölkələr arasında sazişlərlə tənzimlənir.

İki dövlətin sərhəd xətti olan çayların rejimi onlar arasında bağlanan sazişlə müəyyən edilir *(Sərhəd çayları)*.

1) Dunayın beynəlxalq-hüquqi rejimi *(Dunay çayında gəmiçiliyə dair Konvensiyası 1948)*.

2) Reynin beynəlxalq-hüquqi rejimi. 1866 il Mannheym Aktı Reyn çayı boyu yerləşən bütün ölkələr üçün azad gəmiçilik elan etmişdir. Lakin sənəddə dəqiqləşdirilib ki, qeyri-sahil dövlətləri yalnız dayanmaqla azad tranzit hüququna malikdirlər. Akta müvafiq qaydada fəaliyyət göstərmiş Mərkəzi Reyn Gəmiçilik Komissiyası yalnız sahilyanı dövlətlərin nümayəndələrindən təşkil olunmuşdu.

1919 il *Versal sülh müqaviləsilə (Beynəlxalq müqavilə)* komissiyanın tərkibinə Almaniyanın, Niderlandın, üç qeyri-sahilyanı ölkənin (Böyük Britaniya, İtaliya, Belçika, habelə Fransanın nümayəndələri daxil olmuşdular. XI.1936 ildə su yollarına dair Versal sülh müqaviləsinin qərarı Hitler Almaniyası tərəfindən ləğv olunmuşdu.

*İkinci Dünya müharibəsi* qurtarandan sonra Almaniyanın üç işğal zonasının hakim dairələri – Amerika, Britaniya və Fransanın idarəetmə orqanları, Reyn çayında gəmiçiliyin beynəlxalq rejiminin bütün Almaniyaya şamil edilməsinə baxmayaraq, Reyndə daşımalar üzrə müvəqqəti separat komitə yaratmış və 1945 ildən etibarən Reyndə gəmiçilik üzrə Mərkəzi Komissiyanın fəaliyyətinə yenidən rəvac vermişdilər; üstəlik onun tərkibinə ABŞ, 1945 ildən isə AFR daxil edilmişdi. Mannheym Aktının iştirakçısı olan dövlətlər 1979 ildə bu *paktda* iştirak etməyən ölkələrin gəmiçilik təşkilatları üçün Reyn çayı ilə yük daşıyarkən kommersiya əməliyyatları sərbəstliyinə məhdudiyyət qoyulmasını nəzərdə tutan Əlavə *protokol* imzaladılar.

3) Şimali və Cənubi Amerika çaylarının beynəlxalq hüquqi rejimi. Şimali Amerikada B.ç.-a münasibətdə sahilyanı ölkələr üçün azad gəmiçilik prinsipi tətbiq olunur. Belə rejim Şimali Lavrentiya çayında (1871 il Amerika-İngiltərə və 1911 il Amerika-İngiltərə müqavilələrilə), Kolorado və Rio-Qrande çaylarında (1848 və 1853 illər ABŞ-Meksika müqavilələrilə) müəyyən edilib.

Cənubi Amerikanın Amazonka və La-Plata beynəlxalq çaylarında azad gəmiçilik rejimi qeyri-sahil ölkələrə, o cümlədən ABŞ-a da aid edilir. La-Plata çayının hövzəsindən təsərrüfat işləri üçün istifadə olunması La-Plata qrupu ölkələri - Argentina, Boliviya, Braziliya, Paraqvay və Uraqvay arasında sazişlərlə tənzimlənir.

4) Afrika və Asiya çaylarının beynəlxalq-hüquqi rejimi. Niger çayı hövzəsində sahilyanı ölkələr sayılan doqquz Afrika dövləti (Fil Dişi Sahili, Yuxarı Volta, Qvineya, Daqomeya, Kamerun, Mali, Niger, Nigeriya və Çad) istiqlaliyyət qazandıqdan sonra, X.1963 ildə, Niger çayı hövzəsində gəmiçiliyə və iqtisadi əməkdaşlığa dair Niamey aktını qəbul etdilər. Niger çayında naviqasiya və nəqliyyat üzrə komissiyaya yalnız sahilyanı dövlətlər daxildirlər.

Konqo çayında da eyni rejim bərqərar oldu; Nil çayının hüquqi rejimi Misir və Sudan arasında bağlanan sazişlə müəyyən edilir. Asiyanın iri B.ç.-da hüquqi rejimlər sahilyanı dövlətlərin sazişləri ilə təsbit edildi.

Məs., Hind çayından istifadə olunması Hindistanla Pakistan arasında 1960 il sazişi ilə tənzimlənir. Şətt-ül-Ərəb çayından gəmiçilik və təsərrüfat məqsədləri üçün istifadə olunması İraqla İran arasında 1975 ildə imzalanmış Əlcəzair sazişilə tənzimlənir.

**BEYNƏLXALQ DEMOKRAT HÜQUQŞÜNASLAR ASSOSİASİYASI**(BDHA). *Beynəlxalq qeyri-hökumət təşkilatı;* Müqavimət hərəkatının iştirakçıları - fransız hüquqşünaslarının təşəbbüsü ilə alman-faşist qəsbkarları ilə mübarizə iştirakçıları olan hüquqşünasların 1946 il *Beynəlxalq konfransında* yaradılıb.

BDHA-nın qayəsi - xalqlar arasında qarşılıqlı anlaşma ruhunu möhkəmlətmək məqsədilə müxtəlif ölkələrin hüquqşünasları arasında əlaqələri inkişaf etdirməkdir. Hüquqşünasların istənilən (milli və ya beynəlxalq) assosiasiyas hüquqşünas peşəsinə, hüquqşünas vəzifəsinə malik olan və ya hüquqşünaslıq sahəsində tədqiqatla, əməli işlə ya da tədrislə məşğul olan, assosiasiyanın məqsəd və vəzifələrini tanıyıb qəbul edən hər bir şəxs BDHA üzvü ola bilər. BDHA dünyanın 85 ölkəsinin hüquqşünaslarını özündə birləşdirir (1985). BDHA *BMT-nin iqtisadi və sosial şurası* və *YUNESKO* nəzdində məsləhətçi statusuna malikdir.

BDHA-nın ali orqanı - Konqresdir. Konqreslərarası müddətdə rəhbər orqan ildə bir dəfə keçirilən BDHA Məclisidir.

BDHA sülh uğrunda mübarizədə fəal iştirak edir, demokratik hüquq və azadlıqların müdafiəsinə qalxır, xalqların müstəqilliyini məhdudlaşdırmaq cəhdlərinə, müstəmləkə zülmünün bütün formalarına qarşı çıxır, demokratik prinsiplərin öyrənilməsinə və onların beynəlxalq münasibətlərdə tətbiqinə yardım göstərir. BDHA «Müasir hüquqşünaslığın icmalı» jurnalını buraxır. Qərargahı Brüsseldədir.

**BEYNƏLXALQ DƏNİZ DİBİ ORQANI.** *Beynəlxalq hökumətlərarası təşkilat*; 1982 il *BMT-nin Dəniz hüququ Konvensiyasına (Beynəlxalq konvensiya)* müvafiq olaraq yaradılıb. Əsas vəzifəsi - *Beynəlxalq dəniz dibi rayonunun* ehtiyatlarının kəşfi və işlənməsi üzrə fəaliyyətini həyata keçirmək, təşkilati və nəzarət işləri aparmaqdır. 1982 il Konvensiysına uyğun olaraq, B.d.d.o. təkcə dövlətlərin siyasi əməkdaşlığı sahəsində deyil, təsərrüfat sahəsində də geniş səlahiyyətlərə malikdir.

1982 il Konvensiyasına müvafiq olaraq, B.d.d.o. dövlətlərlə bərabər, dənizin dibindəki ehtiyatları işləmək; resurs siyasəti və dərinlikli polimetal konkresiyalardan illik metal istehsalı limiti müəyyənləşdirmək hüququna malikdir. B.d.d.o. habelə dənizin dibindəki ehtiyatların işlənməsi üzrə sifarişləri nəzərdən keçirir və müqavilələr *(Beynəlxalq müqavilə)* bağlayır; dənizin ətraf mühiti ciddi çirkləndikdə və s. hallarda tədbirlər görür. B.d.d.o.-nın dəniz dibindəki ehtiyatların işlənməsi, oradan çıxarılan faydalı qazıntıların daşınması, emalı və satışı ilə bilavasitə məşğul ola bilməsi üçün Konvensiyada xüsusi beynəlxalq təsisat yaradılması nəzərdə tutulub.

B.d.d.o.-nın başlıca orqanları - Məclis, Şura və Katiblikdir. Şura konsensus qaydasında normalar, qaydalar və prosedurlara dair daha mürəkkəb məsələlər üzrə qərarlar çıxarır. Mühüm əhəmiyyətli məsələlər üzrə qərarlar səslərin 3/4 çoxluğu, daha az əhəmiyyətli məsələlər üzrə isə 2/3 səs çoxluğu ilə qəbul edilir.

**BEYNƏLXALQ DƏNİZ DİBİ RAYONU.** 1982 il *BMT-nin Dəniz hüququ Konvensiyasına (Beynəlxalq Konvensiya)* müvafiq olaraq, milli hüquqi səlahiyyət (yurisdiksiya) hüdudlarından kənar dəniz və okean dibini və onun təkini əhatə edir.

*BMT Təhlükəsizlik Şurası* tərəfindən 17.XII.1970 ildə qəbul edilən milli yurisdiksiyadan kənar dəniz və okeanların dibinə dair rejimi tənzimləyən prinsiplər haqqında *Qətnaməni* inkişaf etdirən 1982 il Kovensiyası B.d.d.r və onun ehtiyatlarını «bəşəriyyətin ümumi mirası» elan edir və rayon adından fəaliyyət göstərən dəniz dibinə dair beynəlxalq orqandır. B.d.d.r.-nun beynəlxalq-hüquqi statusunu belə bir prinsip təşkil edir ki, heç bir dövlət B.d.d.r.-nun hər hansı hissəsi və onun ehtiyatları barəsində *suverenlik*, yaxud suveren hüquqlar iddiası ilə çıxış edə, yaxud onu həyata keçirə bilməz; heç bir dövlət, fiziki, yaxud hüquqi şəxs onların hər hansı hissəsini mənimsəyə bilməz. Dövlətlərin B.d.d.r. barəsində ümumi hərəkəti 1982 il Konvensiyasının müddəaları, *BMT Nizamnaməsinin* prinsipləri və digər beynəlxalq hüquq normaları ilə müəyyən olunur. B.d.d.r.-da istənilən fəaliyyət bu rayonu örtən açıq dəniz sularının, yaxud hava məkanının hüquqi statusuna toxunmamalıdır. 1982 il Konvensiyası dənizlərin və okeanların dibində və təkində nüvə silahlarının və kütləvi qırğın silahlarının digər növlərinin yerləşdirilməsini qadağan etməyə dair müqaviləni *(beynəlxalq müqavilə)* tamamlayır. Bütün dövlətlər üçün B.d.d.r.-dan yalnız dinc məqsədlərlə istifadə etmək prinsipi müəyyənləşdirilib.

1982 il Konvensiyasına müvafiq olaraq, dənizdə elmi tədqiqat işlərilə məşğul olmaq hüququ həm dövlətlərə, həm də Dəniz dibinə dair *beynəlxalq təşkilata* məxsusdur. B.d.d.r.-nun ehtiyatlarını mənimsəmək qaydaları elə həyata keçirilməlidir ki, dünya iqtisadiyyatının sağlam inkişafına, beynəlxalq ticarətin tarazlaşdırılmış artımına və bütün ölkələrin, ələlxüsus də *inkişaf etməkdə olan ölkələrin* hərtərəfli tərəqqisinə kömək etsin.

**BEYNƏLXALQ DƏNİZ HÜQUQU.** Dənizlərdən, okeanlardan və onların ehtiyatlarından, bir çox hallarda isə dəniz rayonları üzərində hava məkanından (məs., *açıq dənizlər* üzərində) dövlətlərin, *beynəlxalq təşkilatların* istifadəsi ilə bağlı qarşılıqlı münasibətlərini tənzimləyən hüquqi prinsip və normalar məcmuyu. *Beynəlxalq hüququn* ən vacib sahələrindən biri olan B.d.h.-nun spesifik normaları və prinsipləri aşağıdakılardır: gəmilərin açıq dənizdə sərbəst hərəkəti və bu dəniz üzərində sərbəst uçuş, xarici gəmilərin məhəlli dənizdən dinc keçid hüququ, gəmilərin beynəlxalq boğazlardan tranzit keçidi və uçan aparataların bu boğazlar üzərindən tranzit üçüşü hüququ. Beynəlxalq dəniz hüququnun əsas mənbəyi dəniz hüququ üzrə BMT-nin 1982 ildə qəbul etdiyi konvensiyasıdır *(BMT-nin Dəniz Hüququ Konvensiyası 1982)*.

**BEYNƏLXALQ DƏNİZ TƏŞKİLATI** (İMO). *Beynəlxalq hökumətlərarası təşkilat*, *BMT*-nin ixtisaslaşdırılmış təsisatı; beynəlxalq hökumətlərarası hərbi dəniz məşvərət təşkilatı haqqında konvensiyaya *(Beynəlxalq Konvensiya)* uyğun olaraq 1958 ildə yaradılıb. 1982 ildən İMO adlanır. İMO-nun məqsədləri: beynəlxalq ticarət gəmiçiliyilə bağlı müxtəlif texniki məsələlərin həllində dövlətlərarası əməkdaşlığı təmin etmək; dənizdə təhlükəsizliyin və gəmiçiliyin səmərəliliyinin təmin olunması üçün mümkün əməli normaların qəbul olunmasına kömək göstərmək; ayrı-ayrı hökumətlər və gəmiçilik şirkətləri tərəfindən ticarətə qoyulan müxtəlif formalı ayrı-seçkiliyi aradan qaldırmaq; dəniz və okeanların çirklənməsinin qarşısını almaq və müvafiq nəzarət aparmaq.

İMO-nun fəaliyyəti əsasən məsləhət və məşvərət xarakteri daşıyır. İMO çərçivəsində müvafiq beynəlxalq sazişlərin layihələri işlənib hazırlanır, *beynəlxalq konfranslar* və müşavirələr çağırılır.

İMO-nun ali orqanı 2 ildə bir çağırılan Baş Məclisdir. Məclis İMO-nun rəhbər orqanı - Şuranı seçir, onun məruzələrini nəzərdən keçirir, büdcəsini təsdiq edir, İMO öz üzvlərinə dənizdə təhlükəsizliyə dair təlimatlar tövsiyə edir. Baş Məclisin sessiyaları arasında fəaliyyət göstərən Şuranın tərkibinə beynəlxalq ticarət gəmiçiliyində daha çox maraqlı olan ölkələrin təmsilçiləri daxil olurlar.

İMO çərçivəsində 4 komitə: dənizdə təhlükəsizlik, hüquqi məsələlər, dənizin ətraf mühitinin mühafizəsi və texniki əməkdaşlıq komitələri fəaliyyət göstərir.

Mənzil qərargahı Londondadır.

**BEYNƏLXALQ DİPLOMATİYA AKADEMİYASI.** *Beynəlxalq qeyri-hökumət təşkilatı*; 1926 ildə Parisdə təsis edilib.

B.D.A.-nın məqsədi - müxtəlif ölkələrin dövlət xadimləri və diplomatik xidmət əməkdaşları tərəfindən beynəlxalq problemlər üzrə birgə tədqiqatlar aparılmasına şərait yaratmaqdır. Hökumətlər, *hökumət başçıları*, xarici işlər idarələrinin rəhbərləri, *səfirlər* və müşavir-elçilər akademiyaya üzvlüyə qəbul olunurlar. B.D.A.-nın 90-dan çox ölkədən 700-ə yaxın üzvü vardır. B.D.A.-ya Baş katib və İcraiyyə Komitəsi rəhbərlik edir. Büdcəsi - üzv ölkələrin illik ödəncləri hesabına formalaşır.

B.D.A. aylıq plenar sessiyalar keçirir. Sessiyalarda müxtəlif beynəlxalq problemlər müzakirə edilir; diplomatik lüğət buraxılır, plenar sessiyalar haqqında məlumatlar və beynəlxalq problemlər üzrə tədqiqatlar nəşr edilir.

**BEYNƏLXALQ ENERJİ AGENTLİYİ** (BEA). *Beynəlxalq hökumətlərarası təşkilat*; neft idxal edən inkişaf etmiş kapitalist ölkələrini birləşdirir; 1974 ildə ABŞ-ın təşəbbüsü ilə *Neft İxrac Edən Ölkələr Təşkilatına* alternativ olaraq *İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı* çərçivəsində muxtar təşkilat qismində təsis edilib. Agentliyə 31 ölkə daxildir (1985).

BEA-nın əsas məqsədi - başqa ölkələr barəsində razılaşdırılmış enerji siyasəti işləyib hazırlamaq və həyata keçirmək, iştirakçı ölkələrin xarici təchizat mənbələrindən enerji-xammal asılılığını azaltmaq üzrə tədbirlər görmək; neft tədarükünə təminat yaratmaq məqsədilə neft istehsalçısı və idxalçısı olan ölkələrlə təmasda olmaq; dünya neft bazarında vəziyyətə dair informasiya sistemi yaratmaq, əlavə neft ehtiyatları yığıb toplamaq və onu *OPEK* tərəfindən neftlə təchizatda ixtilaf yarandıqda bölüşdürmək, alternativ enerci mənbələri axtarıb tapmaqda elmi-texniki tədqiqatları əlaqələndirmək və s.-dir.

BEA-nın ali orqanı - *nazirlər* səviyyəsində toplaşan Müdirlər Şurasıdır. Qərargahı Parisdədir.

**BEYNƏLXALQ ƏDALƏT MƏHKƏMƏSİNİN DAİMİ PALATASI.** 1922-1940 illərdə *Millətlər Cəmiyyəti* nəzdində fəaliyyət göstərmiş beynəlxalq məhkəmə orqanı; formal olaraq 1946 ildə öz fəaliyyətini dayandırıb; Haaqada yerləşib. P. Millətlər Cəmiyyətinin Şurası və Məclisi tərəfindən 9 ilə seçilən əvvəlcə 11, sonradan 15 hakimdən ibarət olub. P.-nın fəaliyyəti onun 16.XII.1920 il Statutu və reqlamenti ilə tənzimlənmişdir. Beynəlxalq mübahisələrə dair qərarlar çıxarmaqla yanaşı, P. Millətlər Cəmiyyətinin xahişilə hüquq məsələləri üzrə məşvərət rəyləri də verə bilirdi. Mövcud olduğu illər ərzində P. 37 mübahisəyə baxmış, 28 məşvərət rəyi çıxarmışdır.

P.-ya müraciət könüllü olmuşdur, lakin dövlətlər özləri lazım bildikləri halda P.-nın hüquq məsələləri üzrə mütləq hüquqi səlahiyyətini (yurisdiksiyasını) tanıdıqlarını əvvəlcədən elan edə bilərdilər. P. beynəlxalq mübahisələrin tənzimlənməsində hər hansı həlledici rol oynamamış və öz təcrübəsində Millətlər Cəmiyyətində hakim mövqe tutan dövlətlərin maraqlarını dəstəkləmişdir.

**BEYNƏLXALQ ƏMƏK TƏŞKİLATI** (BƏT). *Beynəlxalq hökumətlərarası təşkilat*; 1919 ildə *Millətlər Cəmiyyəti* nəzdində özünü idarə edən təşkilat kimi yaranıb; 1946 ildən *Birləşmiş Millətlər Təşkilatının* ixtisaslaşmış təsisatıdır.





Sosial və əmək problemlərinin geniş dairəsi - məşğulluq, iş şəraitinin yaxşılaşdırılması, həmkarlar ittifaqlarının fəaliyyəti, peşə təlimi, peşə xəstəlikləri ilə mübarizə, ayrı-ayrı zəhmətkeş qrupların (dənizçilər, mühacir fəhlələr, qadınlar və s.) vəziyyəti, sosial təminat və digər problemlər üzrə beynəlxalq əməkdaşlığı inkişaf etdirmək - BƏT-in fəaliyyət predmetləridir. BƏT bu sahələr üzrə beynəlxalq normalar işləyib hazırlayır və onları konvensiya *(Beynəlxalq konvensiya)* və tövsiyələr şəklində qəbul edir; konvensiyalar üzv dövlətlər tərəfindən *ratifikasiya* olunmalıdır. Bu normaların həyata keçirilməsi üzrə əməli fəaliyyət BƏT üzvlərinə texniki yardımın göstərilməsi, seminar və simpoziumların keçirilməsi, tədqiqat və təlimatların hazırlanıb nəşr edilməsi və s. kimi məsələləri əhatə edir.

BƏT-in əsas orqanları - hər il çağırılan Baş konfrans, İnzibati Şura, habelə Beynəlxalq Əmək Bürosu və BƏT-in daimi Katibliyidir. BƏT-in bir sıra ölkə paytaxtlarında şöbələri var. Qərargahı Cenevrədədir.

**BEYNƏLXALQ GƏMİÇİLİKDƏ İSTİFADƏ OLUNAN BOĞAZLAR.** Təbii dəniz daralmaları; onlardan üzüb keçmək, üzərindən uçub getmək *beynəlxalq hüququn* prinsip və normaları ilə tənzimlənir. Bu halda keçmə rejimi boğazları əmələ gətirən suların hüquqi statusuna və belə sulara, onların üzərindəki hava məkanına, dibinə və təkinə münasibətdə sahilyanı *dövlətlərin suverenliyinə* və hüquqi səlahiyyətinə toxunmur. Bu və ya digər boğazlar kateqoriyasına aid edilmədə əsas meyar onun dünya dəniz nəqliyyatı yolları sisteminin mühüm qollarından biri kimi fəaliyyət göstərməsi götürülür. Boğazlara ayrı-ayrı okeanları, dənizləri və onların bu və ya digər hissələrini vahid *Dünya okeanına* birləşdirən yeganə, yaxud ən qısa kommunikasiyalar kimi baxılır. Boğazlardan dəniz və hava naviqasiyası məqsədlərilə maneəsiz və eyni hüquqla istifadə olunması dünyanın əksər dövlətlərinin iqtisadi və siyasi maraqlarının təmin olunmasında çox mühüm əhəmiyyət kəsb edir.

Bütün ölkələrə məxsus gəmilərin boğazlardan keçmək hüququ XIX əsrdə tanınmış və bir sıra sazişlərdə təsbit olunmuşdur. Lakin XX əsrin ortalarınadək onların hüquqi rejiminin formalaşmasında 1958 il *Dəniz hüququna dair Cenevrə konvensiyalarında (Beynəlxalq konvensiya)* qismən öz əksini tapan beynəlxalq ənənə əsas rol oynamışdır. 1982 il *BMT-nin Dəniz hüququ Konvensiyasının* qəbul olunması ilə boğazlar təsisatı haqqındakı müqavilə tərtibatı baxımından daha da təkmilləşdirilmiş və inkişaf etdirilmişdir. Konvensiyaya müvafiq olaraq, boğazların sahillərində yerləşən dövlətlərin *ərazi sularından* keçən gəmiçilik üçün hüquqi rejimin 3 fərqli növü müəyyən edilir:

1) Çoxdan mövcud olan və öz qüvvəsində qalan beynəlxalq konvensiyalarla tam, yaxud qismən müəyyən edilən keçmə rejimi. Bu konvensiyalar xüsusi olaraq ayrı-ayrı boğazlara aiddir. Baltik boğazlarından, Qara dəniz boğazlarından, Atlantik və Sakit okeanları birləşdirən Magellan boğazından keçmə rejimləri bu müxtəlifliyə aiddir.

2) Ticarət və hərbi gəmilər üçün dinc keçmə rejimi *(Ərazi sularından dinc keçmə)*. Bu keçmə sahilyanı dövlət tərəfindən saxlanıla bilməz və boğazların 2 fərqli növünə şamil edilir. Birinci fərqli rejim növünü dövlətin kontinental hissəsinin və həmin dövlətə məxsus olan adanın yaratdığı boğazlar təşkil edir (məs. İtaliyanın kontinental

hissəsilə Siciliya adası arasında yerləşən Messin boğazı). Adalararası boğazlara (məs. Egey dənizindəki boğazlara) dinc keçmə qaydaları tətbiq olunmur; onlar üçün tranzit keçmə qaydaları qüvvədədir.

Dinc və saxlanılmayan keçmə rejimli boğazlar dedikdə, *açıq dənizdən* bu boğazlarla həmsahil olmayan dövlətlərin ərazi sularına gedib çıxan boğazlar başa düşülür (məs., Hind okeanında Pemba boğazı; Qırmızı dənizi Akab körfəzilə birləşdirən Tiran boğazı).

3) Tranzit keçmə rejimi açıq dənizin 2 hissəsini birləşdirən boğazların 2 fərqli növünə tətbiq olunur. Birinciyə sahilyanı dövlətlərin ərazi suları ilə örtülən boğazlar (məs., Hibraltar, Malak və Egey dənizindəki adalararası boğazlar), ikinciyə açıq dəniz suları zolağına malik boğazlar aiddir. Bu zolaqdakı naviqasiya yolu ərazi dənizi zonasındakı ilə müqayisədə daha az münasibdir (məs., Pa-de-Kale boğazı).

Tranzit keçmə 1982 il Konvensiyasında «gəmiçiliyin və uçuşun boğazdan yalnız fasiləsiz və tez tranzit məqsədi ilə sərbəst həyata keçirilməsi» kimi müəyyən olunub. Bu hüquqdan bütün ticarət gəmiləri və hərbi gəmilər, habelə uçan aparatlar bəhrələnirlər. Tranzit keçmə zamanı gəmilər və uçan aparatlar sahilyanı ölkələrin suverenliyinə *(dövlətin suverenliyi)*, ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı zorla hədələməkdən və ya zor tətbiq etməkdən çəkinməlidirlər.

**BEYNƏLXALQ GƏRGİNLİYİN ZƏİFLƏDİLMƏSİ.** Müxtəlif ictimai quruluşa malik dövlətlər arasında gərginliyi aradan qaldırmaq və münasibətləri normal hala salmaq, *beynəlxalq münasibətləri* bütövlükdə *dinc yanaşı yaşamaq* əsasında yenidən qurmaq prosesi; Qərbin 70-ci illər siyasi terminologiyasında gərginliyin zəifədilməsi mənasında «detant» istilahı (fr. **detent**) işlədilirdi.

B.g.z. dedikdə aşağıdakılar nəzərdə tutulur: nüvə və kosmik dövrün tələblərinə uyğun yeni siyasi təfəkkürün təşəkkülü, beynəlxalq miqyaslı işlərdə realizm və məsuliyyət, güc işlətməmək, hər bir ölkənin suverenliyinə hörmət, bir-birinin daxili işlərinə qarışmamaq *(Qarışmamaq prinsipi)*, sürətlə silahlanmanın qarşısını almağa və *tərksilaha* can atmaq, *beynəlxalq təhlükəsizliyi* və etimadı möhkəmləndirmək, bütün dövlətlər üçün *beynəlxalq hüququn* normalarına əməl etmək. Gərginliyin zəifədilməsi prosesinin uğurlu keçməsi üçün siyasi gərginliyin zəifədilməsi hərbi gərginliyin zəifədilməsilə paralel aparılmalı, bu proses bütün dünya bölgələrinə yayılmalıdır.

B.g.z. təsir edən əsas amillərdən biri - beynəlxalq səhnədə qüvvələr nisbətinin sülh, demokratiya və milli-azadlıq hərəkatlarının xeyrinə dəyişməsidir. *Soyuq müharibə* dövrünün başa çatması B.g.z.-də mühüm rol oynamışdır.

Beynəlxalq gərginlik özünü *İkinci Dünya müharibəsindən* sonra başlanan soyuq müharibənin tərkib hissəsi kimi təzahür etdirmişdir. B.g.z. prosesi istiqamətində atılan ilk addımlardan biri - 1966 ildə Moskvada imzalanmış Sovet-Fransa *Bəyannaməsi* olub. Tərəflər həmin bəyannamədə sosialist və kapitalist dövlətləri arasında mövcud gərginliyi zəiflətməyin konkret yolları barədə öz səmərəli fikirlərini bildirmişlər.

70 illərin əvvəllərində gərginliyin zəifədilməsi özünün beynəlxalq-hüquqi təsbitini, hər şeydən əvvəl, SSRİ-nin ABŞ, Fransa, AFR və digər inkişaf etmiş kapitalist dövlətləri ilə qarşılıqlı münasibətlərində tapdı. B.g.z. işinə İkinci Dünya müharibəsi və bu müharibədən sonrakı inkişaf nəticəsində Avropada yaranmış siyasi və ərazi reallıqlarının tanınıb etiraf olunması böyük təkan verdi. Sosialist ölkələri ilə AFR arasında bir sıra müqavilələrin, habelə Qərbi Berlin üzrə dördtərəfli 1971 il sazişinin *(Qərbi Berlin)* bağlanması B.g.z. kömək etmişdir.

B.g.z. prosesinin irəliləyişində *Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi* ən mühüm mərhələ oldu. ATƏM-in yekun sənədində müşavirə iştirakçısı olan dövlətlər «gərginliyin azaldılması işini fasiləsiz, həm də daha həyati və əhatəli etmək, onu ümumi bir prosesə çevirmək üçün səylərin» göstərilməsinin vacibliyini qeyd etdilər.

B.g.z. prosesində beynəlxalq təhlükəsizliyin maddi təminatlarını yaratmaq üçün kompleks tədbirlər görülməyə başlandı. *Müharibə* təhlükəsini azaltmaq, sürətlə silahlanmanı cilovlamaq məqsədilə bir sıra sazişlər bağlandı. Bu baxımdan Strateji hücum silahlarının məhdudlaşdırılması haqqında Sovet-Amerika sazişlərin, prinsipial əhəmiyyət daşıyır.

Sovet İttifaqının dağılması ilə beynəlxalq gərginlikdə nisbi zəifləmə özünü göstərsə də, onun tamamilə aradan qaldırılması mümkün olmayıb. Sürətlə silahlanma və qızğın silah alveri ayrı-ayrı regionlarda etnik toqquşmaların qızışdırılmasına, münaqişələrin alovlanmasına rəvac verir. B.g.z. – hədsiz silahlanmış dünyada beynəlxalq təhlükəsizliyin etibarlı və əhatəli sisteminə keçilməsini, silahsız və müharibəsiz bir dünya yaradılmasını zəruri edir.

**BEYNƏLXALQ GÜNLƏR VƏ HƏFTƏLƏR.** Bəşəriyyətin ən mühüm problemlərinə diqqəti cəlb etmək və bu problemlərin daha uğurla həlli üçün beynəlxalq əməkdaşlığı fəallaşdırmaq məqsədilə dünya birliyinin həyatında baş vermiş müəyyən hadisələrin hər il təntənəli surətdə qeyd edilir, beynəlxalq hökumət və qeyri-hökumət forumlarında elan olunur; *BMT* və onun ixtisaslaşmış qurumları onların təşkilində fəal rol oynayır.

Demokratik və mütərəqqi təşkilatların qeyd etdikləri B.g.v.h. əsasən aşağıdakılardan ibarətdir:

8 mart - Beynəlxalq Qadınlar Günü;

17 mart - Ümumdünya Dəniz Nəqliyyatı Günü;

7 aprel- Ümumdünya Sağlamlıq Günü;

12 aprel - Ümumdünya Aviasiya və Kosmonavtika Günü;

24 aprel - Gənclərin Beynəlxalq Həmrəylik Günü;

Aprelin son bazar günü - Ümumdünya Qardaşlaşmış Şəhərlər Günü;

1 may - Zəhmətkeşlərin Beynəlxalq Həmrəyliyi Günü;

18 may - Beynəlxalq Muzeylər Günü;

24 may - Afrikanın Qurtuluş Günü;

1 iyun - Uşaqları Beynəlxalq Müdafiə Günü;

5 iyun - Ətraf Mühitin Ümumdünya Mühafizəsi Günü;

İyulun 1-ci şənbə günü - Beynəlxalq Kooperasiya Günü;

8 sentyabr - Jurnalistlərin Beynəlxalq Həmrəyliyi Günü;

Sentyabrın 3-cü çərşənbə axşamı - Beynəlxalq Sülh Günü;

24 oktyabr - Beynəlxalq BMT Günü;

10 noyabr - Ümumdünya Gənclər Günü;

17 noyabr - Beynəlxalq Tələbələr Günü;

10 dekabr - İnsan Haqları Günü;

**BEYNƏLXALQ HAVA HÜQUQU.** *Beynəlxalq hüququn* hava nəqliyyat əlaqələrinin yaradılması, həyata keçirilməsi və inkişafı prosesində meydana çıxan dövlətlərarası münasibətləri nizamlayan prinsiplər və normalar məcmusundan ibarət sahəsi, fəzadan istifadənin hüququ rejimi.

**BEYNƏLXALQ HESABLAŞMALAR BANKI** (BHB). Dövlətlərarası bank; mərkəzi banklar üçün kommersiya əməliyyatları aparır və beynəlxalq valyuta əməkdaşlığında iştirak edir. Avropanın 30 ölkəsinin, habelə ABŞ, Kanada, Yaponiya, Avstraliya və CAR-ın mərkəzi bankları BHB-nin üzvləridirlər. BHB daha çox Avropa təşkilatı olsa da, ABŞ-ın federal ehtiyatlar sistemi vasitəsilə amerikan pul bazarı ilə sıx əlaqələr saxlayır.

BHB-in funksiyaları ilk olaraq *Birinci Dünya müharibəsindən* sonra Almaniyanın *təzminat* öhdəliklərini və müttəfiqlərarası borclarını tənzimləmək üçün *Yunq planında*, 20.I.1930 il Haaqa beynəlxalq konfransında razılaşdırılmış sazişlərdə təsbit edilmişdi. Faktiki olaraq, bank kapitalist ölkələrinin ən iri banklarının fəaliyyətini əlaqələndirmək və *İkinci Dünya müharibəsi* ərəfəsində Almaniyanın hərbi sənayesini maliyyələşdirmək sahəsində daha geniş iş aparıb.

1960-1970 illərdə BHB beynəlxalq kapitalist valyuta sistemində islahatlar aparılması üzrə *Beynəlxalq Valyuta Fondu* orqanlarının, habelə *Avropa İqtisadi Birliyinin, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının* valyuta-maliyyə komissiyalarının çərçivəsində iştirak edib. BHB-nin ali orqanı – ona üzv bankların rəhbərlərinin Ümumi iclasıdır. Bankın cari işlərinə Direktorlar Şurası rəhbərlik edir. Baş qərargahı Bazeldə (İsveçrə) yerləşir.

**BEYNƏLXALQ HƏMKARLAR İTTİFAQLARI FEDERASİYASI.** Həmkarlar ittifaqlarında birləşən zəhmətkeşlərin beynəlxalq demokratik təşkilatı. 1945 ildə Həmkarlar İttifaqlarının Parisdə keçirilən I Ümumdünya konqresində (*Beynəlxalq konqres*) yaradılıb. *YUNESKO* yanında qeyri-hökumət məşvərətçi təşkilat statusuna malikdir. B.h.i.f. irqi mənsubiyyətindən, dini və siyasi əqidəsindən asılı olmayaraq, zəhmətkeşlərin sosial-iqtisadi maraqlarının və onların demokratik hüquqlarının müdafiəsi uğrunda həmkarlar ittifaqlarının birliyinə çağırır.

B.h.i.f.-nin rəhbər orqanı - Həmkarlar İttifaqlarının Ümumdünya Konqresidir. Digər orqanların - Baş Şura, Büro və Katibliyin mənzil qərargahı Praqadadır.

**BEYNƏLXALQ HÖKUMƏTLƏRARASI TƏŞKİLATLAR.** Dövlətlərin müəyyən məqsədləri həyata keçirmək üçün çoxtərəfli *beynəlxalq müqavilələr* və *beynəlxalq hüquq* əsasında müvafiq qaydada yaradılan birlikləri.

B.h.t.-ın üzvləri suveren dövlətlər (*dövlətin suverenliyi*) olduğundan, bu təşkilatların səlahiyyət və fəaliyyəti bir qayda olaraq fövqəlmilli səciyyə daşıya bilməz. Müasir B.h.t.-ın əksəriyyəti onların nizamnamələrində nəzərdə tutulan müəyyən beynəlxalq hüquqi - subyekt tutumuna malikdir. İstər B.h.t., istərsə də onların işçi heyətləri *beynəlxalq təşkilatlara* aid imtiyaz və toxunulmazlıqlardan bəhrələnirlər.

B.h.t. öz fəaliyyət istiqamətlərinə (sülh və təhlükəsizlik, iqtisadiyyat, mədəniyyət, səhiyyə, nəqliyyat və s.), üzvlərinin tərkibinə (universal, regional, subregional), səlahiyyətlərinin tutumuna və s. görə fərqlənirlər.

İqtisadi, sosial, mədəni, təhsil, səhiyyə və s. sahələrdə beynəlxalq əməkdaşlığı inkişaf etdirmək məqsədilə yaradılan *beynəlxalq hökumətlərarası təşkilatlar BMT*-nin ixtisaslaşmış təsisatları adlanır. Məs.: Ümumdünya Meteorologiya Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, Ümumdünya İntellektual Mülkiyyət Təşkilatı, Ümumdünya Poçt Birliyi, *Beynəlxalq İnkişaf Assosiasiyası, Beynəlxalq Dəniz Təşkilatı, Beynəlxalq Mülki Aviasiya Təşkilatı, Beynəlxalq Əmək Təşkilatı, Beynəlxalq Maliyyə Korporasiyası, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı; Beynəlxalq Valyuta Fondu*, Beynəxalq Elektrik Rabitə İttifaqı, *Beynəlxalq Kənd Təsərrüfatı İnkişaf Fondu, Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilat*, Sənaye İnkişaf Təşkilatı, *BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı*.

Atom enerjisindən dinc məqsədlərlə istifadə məsələsi ilə əlaqədar beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsində *Atom Enerjisi üzrə Beynəlxalq Agentlik* mühüm rol oynayır.

**BEYNƏLXALQ HÜQUQ.** 1) Dövlətlər arasında münasibətləri tənzimləyən, qarşılıqlı hüquq və vəzifələri müəyyənləşdirən hüquqi prinsip və normalar sistemi; 2) yurisprudensiyanın bir sahəsi.

*Beynəlxalq hüquq* tarixən dövlətin yaranması ilə meydana gəlib. XVI əsrdə ispan hüquqşünası F. de Vitoriya «xalqlar arasında hüquq» (lat. jus inter gentes) istilahını ilk dəfə tətbiq edib; istilah öz mənşəyini Roma hüququnda mövcud olmuş «adamların hüququ» (lat.**jus gentium**) anlamından götürür.

B.h. normaları B.h.-un bir-birindən asılı olmayan bərabər subyektləri - suveren dövlətlər (*dövlətin suverenliyi*) arasında razılaşma nəticəsində yaranır və dövlətlərarası müqavilələrdə (*Beynəlxalq müqavilə*) əks etdirilir, həm də beynəlxalq adətlər şəklində təşəkkül tapır. Müqavilə və adət beynəlxalq hüququn əsas mənbələridir.

B.h.-un ən mühüm vəzifəsi - beynəlxalq münasibətlərin müxtəlif sahələrində - siyasi, iqtisadi, mədəni və s. sahələrdə dövlətlərin fəaliyyəti üçün ümumi meyarlar müəyyən etməkdir.

B.h. prinsip və normalarının məzmunu *beynəlxalq münasibətlərin* müxtəlif inkişaf mərhələlərində vəziyyətini əks etdirir. B.h. öz növbəsində beynəlxalq münasibətlərə fəal təsir göstərdiyindən, dövlətlər arasında təkcə əməkdaşlıq yaratmaqla kifayətlənmir, həm də bu və ya digər beynəlxalq hüquqi norma və prinsiplərin qəbul olunmasına, onların konkret məzmun kəsb etməsinə xidmət edir.

B.h. sisteminin əsasını hamılıqla qəbul olunmuş bir sıra prinsiplər təşkil edir ki, onlara riayət etməmək yolverilməz sayılır (*Beynəlxalq hüququn əsas prinsipləri*). Bu prinsiplər beynəlxalq hüququn müxtəlif sahələri üçün vahid özül olub, xüsusi sahə prinsiplərinə malikdir (Hava hüququ, *Kosmos hüququ, Beynəlxalq müqavilələr hüququ, Beynəlxalq dəniz hüququ*).

Son onilliklərdə B.h. elmi-texniki tərəqqinin xeyli dərəcədə təsirinə məruz qalıb; bu tərəqqi obyektiv olaraq dövlətlərin yeni fəaliyyət növlərinin (atom enerjisindən istifadə, kosmik

fəzanın mənimsənilməsi, *Dünya okeanının* dibindəki ehtiyatlardan istifadə və s.) beynəlxalq-hüquqi tənzimlənməsi zərurətini ortaya çıxarır. B.h.-a əsaslanmadan bəşəriyyət qarşısında duran qlobal problemlərin (ümumi və tam *tərksilah*, ətraf mühitin mühafizəsi və i.a.) həlli qeyri-mümkündür.

**BEYNƏLXALQ HÜQUQ AKADEMİYASI.** Qeyri dövlət təşkilatı; bir qrup beynəlxalq hüquqşünasın təşəbbüsü ilə 1914 ildə yaradılıb. Məqsədi beynəlxalq ümumi və xüsusi hüququ və birbirinə çox yaxın olan elmləri öyrənməkdir. B.h.a.-nın qərargahı Haaqada yerləşir. Akademiya, əsasən, xüsusi təşkilatların (məs. Karnegi və Rokfeller fondları) yardımı ilə fəaliyyət göstərir. B.h.a. çərçivəsində hər il keçirilən kurs və seminarlara 12 nəfər beynəlxalqhüquqşünasdan ibarət Kuratorium rəhbərlik edir. B.h.a-na İnzibati və Qəyyumluq Şuraları rəhbərlik edirlər. 1957 ildən başlayaraq B.h.a. nəzdində *beynəlxalq hüquq* və *beynəlxalq münasibətlər* üzrə elmi-tədqiqat mərkəzi fəaliyyət göstərir. B.h.a. ingilis və fransız dillərində oxunmuş mühazirələrdən ibarət illik jurnal nəşr edir.

**BEYNƏLXALQ HÜQUQ ASSOSİASİYASI.** Qeyri-hökumət təşkilatı; 1873 ildə Brüsseldə yaradılıb; *BMT-nin İqtisadi və Sosial Şurası* və *YUNESKO* yanında məşvərətçi statusa malikdir. Nizamnaməyə uyğun olaraq, B.h.a. *beynəlxalq hüququn* inkişafına, onun düzgün tətbiqinə, hüququn unifikasiyasına və qanunlardan yayınmaların aradan qaldırılmasına, habelə beynəlxalq qarşılıqlı anlaşmanın və xoş niyyətin möhkəmləndirilməsinə kömək edir.

Beynəlxalq hüquq sahəsində çalışan 5000-ə yaxın siyasi xadim, müxtəlif ölkələrin diplomatları B.h.a.-nın üzvüdürlər; 50-dən artıq ölkənin milli assosiasiyaları ona kollektiv üzvdür.

B.h.a.-nın ali orqanı - iki ildən bir çağırılan konfransdır. Konfranslararası dövrdə rəhbər orqan İcra Şurasıdır. İcra Şurasına iki il müddətinə seçilən prezident başçılıq edir. B.h.a.-nın cari işləri *ilə* Baş katib məşğul olur. Assosiasiya. yanında 10 daimi komitə fəaliyyət göstərir. Mənzil-qərargahı Londondadır.

**BEYNƏLXALQ HÜQUQDA FƏRDİ ÖZÜNÜQORUMA.** Digər dövlətlərin hərbi müdaxiləsi nəticəsində siyasi müstəqiliyi, ərazi bütövlüyü və toxunulmazlığı pozulmuş dövlətin onları bərpa etmək üçün həyata keçirildiyi silahlı cavab əməliyyatları.

**BEYNƏLXALQ HÜQUQDA KOLLEKTİV ÖZÜNÜQORUMA.** *Beynəl-xalq hüququda* iki və daha artıq dövlətin silahlı hücuma məruz qalmış dövlətlərlə ədaləti bərpa etmək üçün keçirdikləri silahlı cavab əməliyyatları.

**BEYNƏLXAL HÜQUQDA ÖZÜNÜMÜDAFİƏ.** Digər dövlətin güc tətbiq olunmasını və güclə təhdid etməyi qadağan edən prinsiplə ziddiyyət təşkil edən, lakin silahlı hücum olmayan fəaliyyəti nəticəsində siyasi müstəqillik, ərazi bütövlüyünü və toxunulmazlığını bərpa etmək üçün dövlətin cavab fəaliyyəti: özünü qorumadan fərqli olaraq özünümüdafiəni hüquq pozuntusuna yol vermiş dövlətin ərazisinə keçirmək olmaz. Özünümüdafiə hərbi xarakter daşıya bilər və əvvəlcədən həyata keçirilən sülh proseduraşı ilə bağlı deyil. Bu bir tərəfdən onu özünüqorumaya bənzədir, digər tərəfdən *repressalilərdən* fərqləndirir.





**BEYNƏLXALQ HÜQUQDA SANKSİYALAR.** *Beynəlxalq hüquq* təlimində və praktikasında: a) beynəlxalq qanunları pozan dövlətin fəaliyyətinin arzu olunmaz nəticələrə gətirib çıxara biləcəyini göstərən beynəlxalq hüquq normasının struktur elementi; b) *beynəlxalq təşkilatlar*, ilk növbədə *BMT* tərəfindən həyata keçirilən məcburi tədbirlər; s) beynəlxalq cinayətin nəticəsi kimi meydana gələn beynəlxalq hüquqi cavabdehliyin xüsusi siyasi forması; ç) beynəlxalq hüququn pozulmasına cavab olan fərdi və kollektiv məcburi tədbirlər; d) beynəlxalq hüquq normalarını pozmaqla bağlı hər hansı bir dövlətin daşıdığı məsuliyyətdən yayınmasına görə həyata keçirilən məcburi tədbirlər. Kollektiv tədbirlər də beynəlxalq sanksiya xarakterinə malikdirlər.

**BEYNƏLXALQ HÜQUQ ELMLƏRİ ASSOSİASİYASI.** *Beynəlxalq qeyri-hökumət təşkilatı*; 1955 ildə Parisdə təsis edilib. 1950 ildə Londonda təşkil olunmuş Beynəlxalq Müqayisəli Hüquqşünaslıq Komitəsinin əsasında yaradılıb. *YUNESKO* yanında məşvərətçi statusa malikdir. Milli komitələr B.h.e.a.-ya üzv, beynəlxalq elmi təşkilatlar isə assosiativ üzvlər ola bilərlər.

Dünya hüquq elminin inkişafına, xarici hüququn öyrənilməsinə və müqayisəli metodun tətbiqinə, hüquqi sənəd nəşrlərindən istifadə olunmasına, hüquqşünaslar arasında geniş əlaqələrin yaradılmasına kömək etmək; xarici və müqayisəli hüquqları öyrənən institutların yaradılmasına yardım göstərmək B.h.e.a.-nın əsas qayəsidir.

B.h.e.a.-nın orqanları: Milli Komitələrin Nümayəndələr Şurası və İcraiyyə Komitəsidir (Beynəlxalq Müqayisəli Hüquqşünaslıq Komitəsi), Sonuncu assosiasiyanın prezidentini və onun 2 müavinini seçir (2 il müddətinə).

B.h.e.a. konfranslar, kollokviumlar, «dəyirmi masa» iclasları keçirir, beynəlxalq müqayisəli hüquqa dair informasiya bülleteni və dünyadakı hüquqi sənədləşmələrə dair mənbələrin kataloqunu nəşr edir.

**BEYNƏLXALQ HÜQUQİ İCARƏ.** Bir dövlətin müqavilə əsasında müəy-yən məqsədlərlə və müəyyən müddətə öz ərazisinin bir hissəsini başqa bir dövlətin istifadəsinə verməsi. İcarəçi dövlət icarəyə verdiyi ərazi üzərində öz *suverenliyini* saxlasa da, icarə haqqında müqaviləyə əsasən qəti müəyyən edilmiş qaydada onun həmin ərazi üzərində bir sıra hüquqları məhdudlaşdırılır və həmin hüquqlardan icarəyə götürən dövlətin xeyrinə güzəştə gedilir.

İcarə haqqında müqavilələr təcrübədə geniş miqyaslı tikinti işlərində və nəqliyyat yollarından istifadə olunmasında (kanallar, boru kəmərləri), elmi-tədqiqat stansiyalarının yerləşdirilməsində, limanlarda sərbəst zonaların müəyyən edilməsində və s. tətbiq olunur. İcarənin digər formalarına icarəçi dövlətlərlə *beynəlxalq təşkilatlar* arasında bağlanan müqavilələrə uyğun olaraq xarici ərazilərdən həmin təşkilatların istifadə etmələri, xarici nümayəndəliklərin torpaq sahəsi, bina, tikinti, qurğu və s. icarəyə götürmələri aiddir.

**BEYNƏLXALQ HÜQUQİ MƏSULİYYƏT.** *Beynəlxalq hüququn* subyekti tərəfindən digər subyektə vurulan ziyanın aradan qaldırılmasını (əgər məsuliyyətdən azad edən amillər yoxdursa), habelə zərər çəkən tərəfin zərər vuran tərəfdən gördüyü ziyanın ödənilməsini tələb etmək hüququnu nəzərdə tutur.

B.h.m. bir qayda olaraq, beynəlxalq prinsip və normaların pozulması və bu səbəbdən təqsirləndirmə nəticəsində ortaya çıxır. B.h.m.-in iki: siyasi və maddi formaları olur.

Siyasi məsuliyyət hüquq pozuntularının xarakterindən və ağırlıq dərəcəsindən asılı olaraq, zərərçəkən tərəfə təminat verilməsində (məs., təəssüf, üzrxahlıq bildirmək, xüsusi şərəf ifadə etmək, vəzifəli şəxslərin, yaxud vətəndaşların cəzalandırılması) və bəzən də hüquq pozuntusuna yol vermiş dövlət barəsində məcburi tədbirlər görülməsində təzahür edə bilər. Belə ki, təcavüz baş verdiyi halda siyasi məsuliyyət təcavüzkar *dövlətin suverenliyini* müvəqqəti məhdudlaşdırmağı, onun ərazisini zəbt etməyi, onun siyasi partiyalarının, hökumət və hərbi idarələrinin cinayətkar xarakterli olduğunu tanımağı nəzərdə tuta bilər. Siyasi məsuliyyət bu şəkildə faşist Almaniyasına və militarist Yaponiyasına aid edilmişdir. Müvafiq beynəlxalq sanksiyalar *BMT Nizamnaməsində* nəzərdə tutulub (*BMT Nizamnaməsi üzrə icbari tədbirlər*).

Maddi məsuliyyət beynəlxalq hüququn subyekti tərəfindən maddi zərərlə nəticələnən hüquqa zidd hərəkətlərə yol verildikdə ortaya çıxır və *reparasiya* (*təzminat*) və *restitusiya* (pozulmuş hüququ bərpa etmə) formasında ifadə oluna bilər. Vurulan maddi ziyanın (təqsirdən asılı olmayaraq) müqavilə öhdəliyi əsasında ödənilməsini nəzərdə tutan mütləq məsuliyyət və təqsirə (təsdiq olunmuş hüquqazidd hərəkətə) əsaslanan məhdud məsuliyyət maddi məsuliyyətin formaları hesab olunur.

B.h.m.-in həyata keçirilməsi həm adi yolla, həm də bu müqavilə normaları nəzərə alınmaqla aparılır. B.h.m. tənzimləyən xüsusi müqaviləyə kosmik obyektlərin vurduğu ziyana görə beynəlxalq məsuliyyət haqqında 1972 il Konvensiyası misal ola bilər. Dövlətlərin B.h.m. haqqında normaların kodlaşdırılması *Beynəlxalq hüquq komissiyasında* həyata keçirilir.

**BEYNƏLXALQ HÜQUQ İNSTİTUTU.** 1873 ildə Kent şəhərində (Belçika) *beynəlxalq hüququ* öyrənmək və onu kodlaşdırmağa kömək məqsədilə təsis edilib. İnstituta prezidentin başçılıq etdiyi Büro rəhbərlik edir. İnstitutun tərkibinə prezident tərəfindən seçilən həqiqi üzvlər (80-dən artıq olmayaraq) və müxbir üzvlər (72-dən çox olmayaraq) daxildirlər. 40 ölkənin görkəmli beynəlxalq hüquqşünası B.h.i.-nun üzvüdür.

İki ildən bir çağırılan sessiyalarda həqiqi üzvlər və müxbir üzvlər (ömürlük), prezident, 3 vitse-prezident və baş katib seçilir, beynəlxalq hüququn aktual məsələləri, müvafiq komissiyalar tərəfindən işlənib hazırlanan konvensiya layihələri nəzərdən keçirilir.

İnstitutun mənzil - qərargahı Brüsseldədir.

**BEYNƏLXALQ HÜQUQİ TANIMA.** Rəsmi və ya qeyri-rəsmi, tam və ya natamam, daimi və ya müvəqqəti münasibətlər qurmaq məqsədilə yeni dövlətlərin və ya hökumətlərin, yaxud digər tanınma subyektlərinin dövlətlər tərəfindən tanınması; müxtəlif ünvanlara şamil edilir: dövlətə, hökumətə, üsyan edən, yaxud döyüşən tərəfə, milli-azadlıq orqanlarına, müqavimət hərəkatı orqanlarına və s.

Rəsmi tanınmanın ən geniş yayılmış üsulu - mövcud dövlətin yeni yaranan dövlətlə *diplomatik münasibətlər* qurması və ya qurmağa razılıq verməsidir. B.h.t.-nın ənənəvi olaraq iki forması var; *de-yure* və *de-fakto*; de-yure qəti şəkildə rəsmi tanınmadır, yəni tanıyan dövlət tanınan tərəflə tam həcmdə *diplomatik əlaqələr* qurmağa hazır olduğunu bildirir. De-fakto tanınma da həmçinin rəsmi xarakter daşıyır, lakin de-yüredən siyasi və iqtisadi münasibətlərin məhdud səviyyəsi və həcmi ilə fərqlənir, yəni de-fakto tanınma, o hallarda tətbiq edilir ki, tanıyan dövlət tanınan tərəfin həyati qabiliyyətinə və səmərəliliyinə tam əmin olmur.

Bir ölkə hökumətinin onun tərəfindən rəsmən tanınmayan digər ölkənin hökuməti ilə bu və ya digər şəkildə əlaqə yaratması qeyri-rəsmi tanınma deməkdir.

**BEYNƏLXALQ HÜQUQ KOMİSSİYASI.** *BMT Baş Məclisinin* köməkçi orqanı; *beynəlxalq hüququn* mütərəqqi inkişafını daha da yüksəltmək və onu kodifikasiya etmək məqsədilə BMT Baş Məclisinin 21.XI.1947 il 174 saylı qətnaməsinə müvafiq olaraq təsis edilib (*Beynəlxalq hüququn kodifikasiyası*). B.h.k-nın vəzifələri BMT BM-nin qəbul etdiyi B.h.k.-sı barədə Əsasnamə ilə müəyyən edilir.

B.h.k. 34 üzvdən ibarətdir; onlar bilavasitə iş icraçılarıdır. B.h.k. üzvləri BMT BM tərəfindən BMT-yə üzv olan ölkələrin hökumətləri tərəfindən irəli sürülən namizədlər arasından 5 il müddətinə seçilir.

B.h.k. hər il Cenevrədə sessiyaya toplaşır; BMT BM-nin təklif etdiyi məsələlər üzrə çoxtərəfli Konvensiya (*Beynəlxalq konvensiyası*) layihələri işləyib hazırlayır. Komissiyanın hazırladığı layihələr əsasında beynəlxalq hüququn *diplomatiya*, konsulluq, müqavilə, dəniz və s. sahələrinə dair bir sıra konvensiyalar qəbul olunmuşdur.

**BEYNƏLXALQ HÜQUQUN ƏSAS PRİNSİPLƏRİ.** Müəyyən tarixi mərhələdə beynəlxalq həyatın ən mühüm məsələlərində *beynəlxalq münasibətlərin* subyektlərinin hamılıqla tanınan rəftar normalarını yığcam və ümumiləşdirilmiş şəkildə ifadə edən hüquqi prinsiplərdir. Əsas prinsiplərin beynəlxalq münasibətlərdə özünü göstərən başlıca problemlərin həllində və ilk növbədə dövlətlər arasında sülh və əməkdaşlığın təmin olunmasında böyük əhəmiyyəti vardır.

B.h.ə.p.-nin çoxu *BMT Nizamnaməsində* öz əksini tapıb və Nizamnaməyə uyğun qaydada dövlətlərarası dostluq və əməkdaşlığın beynəlxalq hüquq prinsiplərinə dair 1970 il Bəyannaməsində, *Avropada Təhlükəsizlik və Əməkdaşlığa dair Müşavirənin Yekun Aktı* təsbit edilib.

Əsas prinsiplər aşağıdakıları ehtiva edir: beynəlxalq münasibətlərdə zor işlətməmək; beynəlxalq mübahisələri dinc yolla həll etmək; hər hansı dövlətin səlahiyyətinə aid işlərə qarışmamaq; dövlətlərin suveren bərabərliyinə (*Dövlətin suverenliyi*) və *beynəlxalq müqavilələrdən* irəli gələn öhdəliklərə vicdanla əməl etmək və s.

**BEYNƏLXALQ HÜQUQUN KODİFİKASİYASI** (lat. *codificatio*). *Beynəlxalq hüququn* qüvvədə olan normalarının tənzimlənməsi; bu iş beynəlxalq hüququn müxtəlif mənbələrini öyrənmək və nəzərə almaq, hüquq normalarını bir-birilə uyğunlaşdırmaq, onlar arasında fikir ayrılığını aradan qaldırmaq və köhnəlmiş müddəalardan sərf-nəzər etməklə aparılır. B.h.k. müasir beynəlxalq

hüququn mütərəqqi inkişafı ilə kompleks halda həyata keçirilir.

B.h.k. dövlətlər tərəfindən aparılan rəsmi və milli, yaxud beynəlxalq elmi təsisatlar (məs., *Beynəlxalq Hüquq İnstitutu, Beynəlxalq Hüquq Assosiasiyası*) və ya ayrı-ayrı alimlər tərəfindən aparılan qeyri-rəsmi (elmi) qruplara bölünür.

XIX əsrin axırları – XX əsrin əvvəllərində B.h.k. rəsmi xüsusi olaraq bu iş üçün çağırılan dövlətlərarası böyük konfranslar çərçivəsində həyata keçirilməyə başlayıb (*məs., Haaqa konfransları 1899 və 1907*).

*BMT Nizamnaməsi* beynəlxalq hüququn mütərəqqi inkişafına və onun kodifikasiyasına kömək göstərilməsinə bu təşkilatın fəaliyyətinin istiqamətlərindən biri kimi baxır. Bu məqsədlə 1947 ildə *Beynəlxalq Hüquq Komissiyası* yaradıldı; Komissiya B.h.k.-a dəyərli kömək göstərdi. Hüququn ayrı-ayrı sahələrinin kodifikasiyası ilə *BMT*-nin ixtisaslaşmış təsisatları da məşğul olurlar.

**BEYNƏLXALQ HÜQUQUN MƏNBƏLƏRİ.** *Beynəlxalq hüquq* normala-rının yaranma üsullarını, eləcə də bu normaların təsbit olunma formalarını ifadə edən istilah.

Beynəlxalq hüququn əsas mənbələri - *beynəlxalq müqavilələr* və beynəlxalq adətlərdir. Beynəlxalq müqavilə, ələlxüsus müxtəlif sosial-iqtisadi sistemlərin mövcudluğu şəraitində əsas tutulur. Xüsusi çəkisinə görə müqavilə normaları müasir beynəlxalq hüquqda üstünlük təşkil edir.

Beynəlxalq adət keçmişdə B.h.m. arasında üstün mövqe tuturdu. Adət norması uzunmüddətli təcrübə nəticəsində yaranır və bu zaman hüququn subyektləri həmin normanın icbari hüquqi xarakter daşıdığını qəbul edirlər.

Köməkçi B.h.m.-ə *beynəlxalq təşkilatların* müəyyən qətnamələrini, beynəlxalq məhkəmələrin (*Beynəlxalq Məhkəmə*) və arbitraj tribunallarının (*Beynəlxalq Arbitraj*) qərarlarını, milli qanunvericilik normalarını və milli məhkəmə instansiyalarının qərarlarını, müxtəlif *beynəlxalq qeyri-hökumət təşkilatlarının* rəylərini və qətnamələrini, peşəkar hüquqşünasların *araşdırmalarını* aid etmək olar.

Milli qanunvericilik və milli məhkəmələrin *qərarları o mənada köməkçi* B.h.m. sayılırlar ki, onlardan beynəlxalq hüququn bu və ya digər normasının mövcudluğunu müəyyən etməkdə vasitə kimi istifadə olunsun.

Beynəlxalq hüquq mütəxəssislərinin araşdırmaları da müxtəlif ictimai təşkilataların (beynəlxalq və milli) rəy və qətnamələri kimi beynəlxalq hüquq normalarını müəyyənləşdirən köməkçi vasitə ola bilər.

**BEYNƏLXALQ HÜQUQUN PRİNSİPLƏRİ HAQQINDA BƏYANNAMƏ** (*1970*). *BMT Nizamnaməsi* əsasında işlənib hazırlanmış dövlətlərarası dostluq münasibətlərinə və əməkdaşlığa dair sənəd; *BMT Baş Məclisinin* 24.X sessiyasında qəbul olunub. *Bəyannamə* aşağıdakı 7 prinsipi əhatə edir: zor işlətməmək, yaxud güc işlətməklə hədələməmək; beynəlxalq mübahisələri dinc yolla həll etmək; dövlətin səlahiyyətinə aid işlərə qarışmamaq (*Qarışmamaq prinsipi*); dövlətlər tərəfindən BMT Nizamnaməsinə müvafiq qaydada bir-birilə əməkdaşlıq prinsipinə əməl olunması; xalqların hüquq bərabərliyi və öz müqəddəratlarını həll etmələri; dövlətlərin suveren bərabərliyi (*Dövlətin suverenliyi*); dövlətlərin BMT





Nizamnaməsinə müvafiq olaraq qəbul etdikləri öhdəlikləri vicdanla yerinə yetirmələri.

**BEYNƏLXALQ HÜQUQUN SUBYEKTLƏRİ.** *Beynəlxalq hüquq* üzrə hüquq və vəzifələrin daşıyıcıları sayılan *beynəlxalq münasibətlərin* iştirakçıları; beynəlxalq hüququn suveren subyektləri millətlərin və xalqların müstəqilliyi uğrunda mübarizə aparan dövlətlər hesab olunur. Dövlətin B.h.s.-i kimi statusu onun *suverenlik* adlanan siyasi hüquqi mahiyyətinə əsaslanır.

*Dövlətin suverenliyinə* hörmət prinsipi beynəlxalq hüququn danılmaz meyarıdır. Müstəqillik uğrunda mübarizə aparan millətlərin və xalqların B.h.s.-i olmalarının siyasi hüquqi əsasını hələlik öz dövlətçiliyinə malik olmayan və suveren dövlət yaratmaq yolu ilə, yaxud da könüllü olaraq, hər hansı dövlətin tərkibinə daxil olmaq şəklində öz müqəddəratını təyin etmək hüququnu gerçəkləşdirən millətlərin və xalqların milli suverenlik hüququ təşkil edir. *Beynəlxalq hökumətlərarası təşkilatlar*, habelə *azad şəhərlər* tipli xüsusi *siyasi vahidlər beynəlxalq hüququn* qeyri-suveren subyektləri sayılırlar. Onların beynəlxalq hüquqi statusu suverenliyə deyil (onların belə hüququ yoxdur), suveren dövlətlərin imzaladıqları sazişlərə əsaslanır.

Fərdlər (fiziki şəxslər) beynəlxalq hüququn subyekti deyil.

**BEYNƏLXALQ XÜSUSİ HÜQUQ.** Beynəlxalq xarakter daşıyan (xarici elementlər) mülki-hüquqi münasibətləri nizamlayan hüquq normalarının məcmusudur. Mülki-hüquqi münasibətlər, bu münasibətlərdə xaricilər, xarici-hüquqi şəxslər və dövlətlər iştirak etdikdə, onlar bir və ya bir neçə dövlətin ərazisi ilə əlaqədar olduqda, belə hüquqi münasibətlərin obyekti xaricdə olan əşya olduqda meydana çıxır. B.x.h.-da «mülki-hüquqi münasibətlər» xüsusi əhəmiyyət kəsb edir. Bu münasibətlər əmlak və ya onunla bağlı qeyri-əmlak münasibətləridir, həm də ailə, əmək və prosessual hüquqla nizamlanan münasibətlərdir.

B.x.h. sahəsinə xarici vətəndaşların (*Xaricilər*), xarici hüquqi şəxslərin və qarışıq cəmiyyətlərin mülki-hüquqi məsələləri, mülkiyyət hüququ, öhdəlik hüquqları (xarici ticarət sövdələşmələri, dəniz, dəmiryol və hava daşınmalarına dair müqavilələri, kredit-hesab münasibətləri), müəllif və ixtira hüquqları, ailə və vərəsəlik hüquqları, beynəlxalq mülki prosesin əmək münasibətləri (xarici vətəndaşların və xarici hüquqi şəxslərin məhkəmədə və ya *arbitrajda* hüquqlarının qorunması ilə bağlı olan prosessual xarakterli qaydaların məcmusu) aiddir.

B.x.h-un mənbələri *beynəlxalq müqavilələr* və daxili qanunvericilik aktlarıdır.

B.x.h.-a iki növ norma daxildir: birinci halda hüquq və öhdəlikləri müəyyən edən birbaşa (bilavasitə və ya bilavasitə nizamlama normaları) qaydadan ibarətdir. Digər halda B.x.h. ancaq hər hansı dövlətin hüququna istinad etməkdən ibarət olur, yəni müəyyən bir məsələni müstəqil deyil, bu normaların istinad etdiyi milli qanunvericiliklə birlikdə həll edir (məs., şəxsin vətəndaşlığı qanunana istinad (lat. lex partiae), əşyaların yerləşdiyi yerin qanununa istinad (lat. lex zei sitae), nigahın bağlandığı yerin qanununa istinad (lat. lex loci celebrationis) və s.). Belə *kollizion norma* məsələni həll edir, lakin bu müstəqil şəkildə deyil, onun istinad etdiyi ölkənin qanunve-

ricíliyinin məcmusuna müvafiq qaydada baş verir. B.x.h.-un normalarının əksəriyyəti kolliziondurlar və buna görə də kollizion normalar adlandırılırlar. B.x.h. normalarına həmçinin dövlət tərəfindən xarici iqtisadi münasibətlərin və elmi-texniki, ya da mədəni əməkdaşlığa dair münasibətlərin nizamlanması üçün müəyyən olunmuş xüsusi normalar da aiddir. B.x.h.-un bir sıra normaları bilavasitə *beynəlxalq hüququn* ümumi başlanğıcından irəli gəlir, məsələn, dövlətin birbaşa razılığı olmadan digər dövlətlərin məhkəmələrinə cəlb olunmaması norması.

B.x.h. ikili xarakterə malikdir: bir sıra B.x.h. normaları dövlətin daxili qanunvericilik aktlarına, digər B.x.h. normaları beynəlxalq müqavilələrə və bəzi beynəlxalq adətlərə daxildir. B.x.h. normaları həm ikitərəfli, həm də çoxtərəfli beynəlxalq müqavilələrə aiddirlər. B.x.h. beynəlxalq ictimai hüquqdan başlıca olaraq ona görə fərqlənir ki, B.x.h.-un subyektləri dövlətlərlə yanaşı, həm də hüquqi şəxslərdir.

**BEYNƏLXALQ İQTİSADİ ƏMƏKDAŞLIQ BANKI** (BİƏB). Sosialist birliyi ölkələrinin kollektiv bankı; BİƏB-in yaradılması haqqında saziş 22.X.1963 ildə imzalanıb; saziş 01.I.1964 ildə qüvvəyə minib. Üzvləri - Bolqarıstan, Macarıstan, ADR, Monqolustan, Polşa, Rumıniya, SSRİ, Çexoslavakiya, 1974 ildən Kuba olub; 1977 ildə BİƏB ilə Yuqoslaviya Xalq Bankı arasında əməkdaşlıq haqqında saziş imzalanıb. BİƏB – açıq bir təşkilat olub; onun məqsəd və prinsiplərinə tərəfdar çıxan hər bir ölkə ona üzv ola bilərdi.

BİƏB 60-cı illərin əvvəllərində sosialist ölkələri arasında hesablaşmalarda ikitərəfli klirinq sazişlərindən keyfiyyətcə yeni, çoxtərəfli sistemə – *Qarşılıqlı İqtisadi Yardım Şurasına* üzv ölkələrin kollektiv valyutasına – dönər rubla əsaslanan sistemə keçilməsindən sonra yaranmışdı.

BİƏB təxminən 300 xarici tərəfdaşla maliyyə əməliyyatları aparırdı.

Bankın ali orqanı – BİƏB Şurası idi, iqamətgahı - Moskvada yerləşirdi SSRİ dağıldıqdan sonra öz fəaliyyətin dayandırmışdır.

**BEYNƏLXALQ İNKİŞAF ASSOSİASİYASI** (BİA). *Beynəlxalq hökumətlərarası təşkilat*, *BMT*-nin ixtisaslaşdırılmış təsisatı; *Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının* filialı kimi IX.1960 ildə yaradılıb. BİA üzvlüyünə, yalnız BYİB iştirakçıları götürülə bilərlər.

Rəsmi şəkildə BİA-nın məqsədi inkişaf etməkdə olan dövlətlərə güzəştli kreditlər verməklə, onların iqtisadi inkişafına və həyat səviyyəsinin yüksəlməsinə kömək göstərməkdir.

BİA-nın maliyyə ehtiyatları ona üzv olan dövlətlərin üzvlük haqları, inkişaf etmiş kapitalist dövlətlərinin dotasiyaları və BYİB-in subsidiyaları hesabına yaranır. Kredit alan ölkə mütləq BİA-nın tövsiyələrinə əməl etməli, kreditdən istifadə olunması barədə hesabat verməlidir. Bu şərtlər inkişaf etmiş və maliyyə imkanlarına malik olan dövlətlərə imkan verir ki, onlar kredit alan ölkələrə siyasi və iqtisadi təzyiq göstərsinlər, habelə xarici kapitalın inkişaf etməkdə olan ölkələrə ayaq açmasını təmin edən ayrı-ayrı proqramların maliyyələşdirilməsində özlərinə əlverişli «investisiya şəraiti» yaratsınlar.

BİA-nın xüsusi rəhbər orqanı yoxdur; bu rolu BYİB-in müvafiq orqanları həyata keçirir.

Baş qərargahı Vaşinqtonda yerləşir.





**BEYNƏLXALQ KANALLAR.** Süni su yolları olaraq, beynəlxalq gəmiçilikdə istifadə edilir. Süveyş, Panama, Kil və Karinor kanalları bu qəbildəndir.

1) Süveyş kanalı. 1854-1869 ildə çəkilib, gəmiçilik üçün 1869 ildə açılıb. Aralıq və Qırmızı dənizləri birləşdirir. Atlantik və Hind okeanlarındakı dəniz limanları arasında ən qısa su yolu olaraq, ticarət nəqliyyatı və strateji baxımdan mühüm əhəmiyyət kəsb edir. Kanalın ümumi uzunluğu 161 km; minimum eni 120 m; yenidənqurma işlərinin birinci mərhələsi başa çatandan sonra farvaterin dərinliyi 16,2 m-dir. Kanal 150 min t.-a qədər su tutumu olan gəmilərin keçidini təmin edir. Giriş limanları: Aralıq dənizindən - Port Səid, Qırmızı dənizdən – Süveyşdir. 1956 ilə qədər kanalı Ümumsüveyş Dənizçilik Şirkəti idarə edib. Şirkət Böyük Britaniya və Fransanın maliyyə dairələrinin nəzarəti altında idi.

Süveyş kanalında sərbəst üzməyə dair konvensiya (Süveyş kanalı barədə İstambul konvensiyası, 1888) «həm dinc, həm də müharibə dövründə, bayraq aidiyyətindən asılı olmayaraq, bütün kommersiya və hərbi gəmilər» üçün kanalda sərbəst naviqasiya prinsipini bərqərar etdi. Konvensiya (*Beynəlxalq Konvensiya*) müəyyən etdi ki, «kanalda və onun giriş limanlarında sərbəst üzməyə mane olacaq nə müharibə, nə də hər hansı bir düşmənçilik qəsdlərindən irəli gələn hərəkətlərə yol verilməyəcək və bu hal limanlardan üç dəniz mili məsafəsində olan rayona da şamil ediləcəkdir.

Kanal Misir *prezidentinin* 26.VII.1956 il dekretilə milliləşdirilmiş (*Milliləşdirmə*) və bildirilmişdir ki, Misir 1888 il Konvensiyasına uyğun olaraq, kanalda sərbəst gəmiçiliyə riayət edəcəkdir.

Kanal şirkətinin milliləşdirilməsi hüquqi əsasa söykənsə də (1854 ildə təsis edildiyi andan Misir səhmdar cəmiyyətidir), Böyük Britaniya, Fransa və ABŞ Misirin bu hərəkətini «özbaşınalıq» və «birtərəfli» qəsd kimi qiymətləndirmiş və bu məsələni «beynəlmiləlləşdirmək» cəhdi ilə 1956 ildə Londonda Süveyş kanalı məsələsinə dair 22 dövlətin nümayəndələrinin iştirakı ilə konfrans (*Beynəlxalq konfranslar*) keçirmişlər. Misir həmin konfransda iştirakdan imtina etmişdir.

Sonradan *BMT Təhlükəsizlik Şurası* kanal üzərində Misirin suveren hüquqlarını təsdiq etsə də, Böyük Britaniya və Fransa kanalda gəmiçiliyi pozmaq üçün bir sıra tədbirlərə əl atmış və X.1956 ildə İsraili də müttəfiq kimi özlərinə qoşaraq, Misirə qarşı hərbi müdaxilə həyata keçirmişlər (*Süveyş böhranı*). Bu təcavüz nəticəsində kanal xeyli dağıntıya məruz qalmış və orada gəmilərin hərəkəti yalnız IV.1957 ildə bərpa olunmuşdu.

Kanalın idarə olunmasını tənzimləyən qanunvericilik aktları: 26.VII.1956 il dekretilə bərabər 18.III.1957 il Misir *Memorandumu*, 27.IV.1957 il *Bəyannaməsi*, 10.VII. 1957 il Qanunu və 18.VII.1957 il Bəyannamələri *beynəlxalq hüquq* normaları nəzərə alınmaqla (əlxüsus, 1888 Konvensiyası) Kanal üzərində Misirin suveren hüquqlarını (*Suverenlik*) möhkəmləndirir, kanalın idarə olunması, istismarı, qorunub saxlanması və təkmilləşdirilməsi üzrə Misir təşkilatının fəaliyyət prinsiplərini ehtiva edir.

1967 il İsrail-ərəb müharibəsi nəticəsində kanalda gəmiçilik dayandırıldı. 1975 ildə kanalda naviqasiya bərpa ediləndən sonra onun yenidən qurulması işlərinə başlanmış və işlərin ilkin mərhələsi 1980 ildə başa çatmış-

dır. Kanalın məcrası genişləndirilmiş, farvater 45% dərinləşdirilmiş, Port-Səiddə yeni dolama kanal tikilmişdir ki, bu da kanalda gəmilərin hərəkətini xeyli asanlaşdırmışdır. Naviqasiyanın təhlükəsizliyini təmin etmək üçün səmərəli tədbirlər görülmüşdür. İqtisadi baxımdan kanaldan keçmə səmərəli olduğuna görə onun əhəmiyyəti artdıqca, Misirin kanaldan əldə etdiyi valyuta gəliri də artır. Kanal rayonu Süveyş yarımadasının inkişafı, Süveyş körfəzi və Qırmızı dənizdəki neft yataqlarının mənimsənilməsində bir növ dayaq məntəqəsi rolunu oynayır.

İsraillə Misir arasında 1979 ildə bağlanan *separat sülh* müqaviləsi (*Beynəlxalq müqavilə*) İsrail gəmilərinə və eləcə də hərbi gəmilərə kanaldan sərbəst keçmək hüququ verdi.

2) Panama kanalı Şimali və Cənubi Amerika arasındakı boğazda yerləşir, Sakit və Atlantik okeanları birləşdirir. Gəmiçilik üçün 1914 ildə açılıb. Kanalın uzunluğu 65,2 km; ən ensiz yeri 91,5 m; minimum dərinliyi (şlyüzlarda) 12,5 m-dir. Kanaldan su tutumu 40 min. ton olan gəmilər keçə bilər. Kanalın gəmiçilik üzrə iş rejimi uzun müddət birtərəfli şəkildə faktiki olaraq ABŞ tərəfindən tənzimlənib. 1977 ildə ABŞ ilə Panama arasında kanalın statusu məsələlərini nizama salan və 31.XII.1999 ilə qədər onu ətraf rayonu ilə birlikdə Panamanın suverenliyi altına verilməsini nəzərdə tutan 2 müqavilə bağlanıb.

3) Kil kanalı Baltik və Şimal dənizləri arasında ən qısa yoldur. Almaniya tərəfindən 1887-1895 illərdə tikilmiş, gəmiçilik üçün 1896 ildə açılıb. Uzunluğu - 98,7 km; suyun səthüstü eni - 102 m (dibində isə 42m); farvaterin dərinliyi 11,3 m-dir.

*Birinci Dünya müharibəsinədək* kanalı Almaniya özünün daxili sularına aid edirdi. 1919 il *Versal sülh müqaviləsi* kanal üzərində beynəlxalq hüquqi-rejim müəyyən etmiş, onu Almaniya ilə sülh şəraitində olan bütün dövlətlərin hərbi və ticarət gəmiləri üçün tamamilə bərabər qaydada açıq elan etmişdir. Almaniya kanal zonasında istehkam işləri görməməyi öhdəsinə götürdü. Lakin *İkinci Dünya müharibəsi* ərəfəsində birtərəfli şəkildə həmin məhdudiyyətləri pozdu və 1935 il İngiltərə-Almaniya müqaviləsindən (*İngiltərə-Almaniya müqaviləsi 1935*) istifadə edərək kanal zonasını möhkəmləndirdi. İkinci Dünya müharibəsi başa çatdıqdan sonra kanalın rejimi maraqlı olan tərəflər arasında və ilk növbədə Baltik dövlətləri arasında hər hansı müqavilə ilə müəyyənləşdirilmədi. Hazırda kanalda gəmiçilik AFR hökuməti tərəfindən birtərəfli qaydada qəbul edilmiş «Kil kanalında üzməyin qaydaları» ilə tənzimlənir və bu əsasda kanal bütün dövlətlərin ticarət gəmiləri üçün açıqdır. Hərbi gəmilərin hərəkətinə gəldikdə isə, bundan ötrü icazəalma qaydaları mövcuddur.

4) Körinf kanalı. Egey dənizini Adriatik və İonik dənizləri ilə birləşdirir. 1881-1893 illərdə Körinf boğazından qazılmaqla tikilib və 1893 ildə gəmiçilik üçün açılıb. Uzunluğu - 6,3 km; dərinliyi 8m; eni isə 24,6 m-dir. Ondan su tutumu 5 min t. olan gəmilər keçə bilər. Kanalın rejimi Yunanıstanın milli qanunvericiliyi ilə müəyyən edilir və ona müvafiq olaraq bütün dövlətlərin ticarət gəmiləri sərbəst şəkildə kanaldan keçə bilərlər; hərbi gəmilərin keçməsi üçün icazə alma qaydaları müəyyən edilib.

**BEYNƏLXALQ KƏND TƏSƏRRÜFATI İNKİŞAF FONDU (İFAD).** *Beynəlxalq hökumətlərarası təşkilat*; *BMT*-nin ixtisaslaşmış təsisatı; 1974 il Ümumdünya ərzaq konfransının (*Beynəlxalq konfranslar*) qərarı və BMT səlahiyyətli nümayəndələrinin 13.VI.1976 il Konfransındakı razılaşmasına uyğun olaraq yaradılıb.

İFAD üzvləri 3 qrupa bölünür: inkişaf etmiş donor dövlətlər (iqtisadi əməkdaşlıq və tərəqqi təşkilatlarının üzvləri); inkişaf etməkdə olan donor dövlətlər (o cümlədən *OPEK* üzvləri); və yardım alan *inkişaf etməkdə olan dövlətlər*.

İFAD-ın məqsədi - vəsaitləri səfərbər etmək və onları imtiyazlı şərtlərlə 3-cü qrup dövlətlərə verməkdir. İFAD-ın ən çox yayılan yardım forması, əsasən, məxsusi borclardır (50 il müddətinə verilir, ödənməsi 10 ildən sonra başlanır və 1%-li xidmət haqqı tutulur).

İFAD-ın ali orqanı - Müdirlər Şurasıdır; buraya bütün üzv ölkələrin təmsilçiləri daxildir. Qərargahı Romadadır.

**BEYNƏLXALQ KONFRANSLAR** (lat. *confero* – bir yerə toplayıram). Dövlətlərin, beynəlxalq hökumətlərarası və beynəlxalq qeyri-hökumət təşkilatlarının (*Beynəlxalq hökumətlərarası təşkilatlar; Beynəlxalq qeyri-hökumət təşkilatları*) ümayəndələrinin bu və ya digər məsələni müzakirə etmək və qərarlar (tövsiyələr) qəbul etmək üçün toplantısı. B.k. müxtəlif cür (konfranslar, konqreslər (*Beynəlxalq konqres*), müşavirələr, kollekviumlar, forumlar və s.) adlanır.

B.k. hökumətlərarası və qeyri-hökumət, universal (ümumdünya) və regional konfranslara ayrılır; bir, bir neçə dövlət və ya *beynəlxalq təşkilatlar* tərəfindən çağırılır. B.k.-ı adətən, qəbul edən dövlətin və ya onu çağıran təşkilatın nümayəndəsi açır.

Təşkilati məsələlər (prosedur qaydaları, maliyyələşdirmə, işçi və rəsmi dillər, katibliyin işi və s.) B.k. özü tərəfindən həll edilir. B.k. qərarları ya səs çoxluğu, ya da *konsensus, akklamasiya* yolu ilə qəbul olunur. *BMT* sistemi çərçivəsində çağırılan B.k. adətən, *BMT Baş Məclisinin* prosedur qaydalarını rəhbər tutur.

**BEYNƏLXALQ KONQRES** (lat. *congressus* – görüş, toplantı). XVII-XIX əsrlərdə *dövlət başçılarının*, xarici işlər nazirlərinin, *diplomatların* mühüm siyasi məsələləri, ilk növbədə sülh bağlanması və ərazi problemlərini həll etmək üçün çağırılan toplantıları bu istilahla adlandırılırdı. (məs.,1814-15 illər *Vyana Konqresi*, 1856 il Paris Konqresi, 1878 il *Berlin Konqresi*). XX əsrdə bu istilah daha çox qeyri-hökumət xarakterli konfranslara: beynəlxalq elmi qurultaylara (memarlar konqresi, həkimlər konqresi və s.), sülh tərəfdarları hərəkatı forumuna (məs.: sülhpərvər qüvvələrin 1973 il Ümumdünya konqresi), beynəlxalq ictimai təşkilatların nümayəndələrinin forumuna və s. aid edilirdi.

**BEYNƏLXALQ KONSESSİYA** (lat. *consessio* – icazə, güzəşt). Dövlət tərəfindən xüsusi müqaviləyə (konsessiya) əsasən onun ərazisində konkret iqtisadi-istehsal fəaliyyəti ilə məşğul olmaq istəyən xarici vətəndaşlara (*Xaricilər*), firmalara verilən hüquq.

Xarici vətəndaşa (firmaya) verilmiş konsessiya onu verən dövlətin qanunvericiliyi ilə tənzim olunur. Azərbaycan müstəqil dövlət kimi istiqlaliyyətini bərpa edəndən sonra milli iqtisadiyyatı inkişaf etdirməkdə daxili maliyyə imkanlarının məhdudluğunu nəzərə alaraq, neft sənayesini 20.IX.1994 ildə *«Əsrin müqaviləsi»* adlı Konse-

siya sövdələşməsi əsasında müvəqqəti olaraq, bir sıra xarici neft şirkətlərinə vermişdir. Həmin konsessiyanın fəaliyyəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzim olunur.

**BEYNƏLXALQ KONVENSİYALAR** (lat. *conventio* - saziş). *Beynəlxalq müqavilələrin* geniş yayılmış adlarından biridir. B.k.-nın digər müqavilə və sazişlərdən əsaslı fərqi yoxdur. Onların öhdəlik qüvvəsi (adından və məzmunundan asılı olmayaraq) iştirakçılar üçün eynidir. B.k. praktikada çox vaxt tərəflər arasında əsasən artıq mövcud olan razılaşmanı qeydə alır. Məs., poçt rabitəsi və onun həyata keçirilməsinin beynəlxalq şərtləri 1874 ilədək, Berndə ilk dəfə Ümumi Poçt Konvensiyası bağlananadək mövcud olmuşdur. B.k. *beynəlxalq münasibətlərin* müxtəlif sahələrinə aid ola bilər. Onların əksəriyyəti iqtisadi, texniki, hüquqi və ya humanitar xarakterli xüsusi məsələlərə dair bağlanır. Məs., 1926 il Beynəlxalq sanitar konvensiyası; 1929 il saxta pul nişanları ilə mübarizəyə dair konvensiya; silahlı münaqişələr zamanı mədəni dəyərlərin müdafiəsinə dair 1954 il konvensiya və b.

B.k. çoxtərəfli və ikitərəfli olurlar.

**BEYNƏLXALQ QARANTLAR.** *Beynəlxalq hüquq* normalarına əməl olunmasını və beynəlxalq öhdəliklərin yerinə yetirilməsini təmin edən vasitələrdən biri; *beynəlxalq münasibətlərdə* mövcud olan və ya qarant müqavilələri ilə təsbit edilən vəziyyətin saxlanılmasına, yaxud dövlətlər arasında bağlanmış müqavilələrə (*Beynəlxalq müqavilələr*) müvafiq tərəflərin əməl etmələrinin təmin olunmasına dair qarant müqavilələri, məs., İsveçrənin daimi *bitərəfliyini* tanımağa və ona təminat verilməsinə dair 08.XI.1815 ildə Rusiya, Böyük Britaniya, Fransa, Avstriya, Prussiya və Portuqaliya arasında imzalanan sənəd.

B.q. kollektiv (bir neçə dövlət tərəfindən), yaxud birtərəfli (ələlxüsus, kreditlə bağlı müqavilələr üzrə) ola bilər.

**BEYNƏLXALQ QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARI.** *BMT-nin İqtisadi və Sosial Şurasının* 27.II.1950 il 288(X) saylı *qətnaməsinə* görə, «qeyri-hökumət sazişi əsasında təsis edilən hər hansı *beynəlxalq təşkilat*» Beynəlxalq qeyri-hökumət təşkilatı sayılır.

Beynəlxalq Assosiasiyalar İttifaqı tərəfindən B.q.h.t. dair hazırlanan müqavilə (*Beynəlxalq müqavilə*) layihəsi B.q.h.t. anlamını konkretləşdirərək, onun aşağıdakı əsas cəhətlərini şərtləndirir: gəlir götürmək niyyətində olmaması; ən azı bir dövlət tərəfindən tanınması və ya *beynəlxalq hökumətlərarası təşkilatların* nəzdində məşvərətçi statusa malik olması; birdən artıq ölkədən pul vəsaiti almaması.

B.q.h.t.-na milli ictimai təşkilatlar, ayrı-ayrı şəxslər və şəhərlər, həm də elmi müəssisələr üzv ola bilərlər.

Hər cür gizli təşkilatlara, qapalı klublara və başqa bu kimi «birliklər»ə B.q.h.t. kimi baxmaq olmaz.

B.q.h.t. yaradılarkən onun nizamnaməsi qəbul olunur; öz hüquqi mahiyyətinə görə nizamnamə beynəlxalq müqavilə deyildir. B.q.h.t. *beynəlxalq hüququn subyekti* hesab olunmurlar; onlar - milli hüququn subyektləridir. Bəzi dövlətlərdə (məsələn, Belçikada) B.q.h.t.-nı hüquqi vəziyyətini müəyyənləşdirən xüsusi qanunlar mövcuddur. Digər ölkələrdə bu məsələlər milli qeyri-hökumət təşkilatlarının hüquqi vəziyyətinə dair ümumi qanunlarla tənzimlənir.

B.q.h.t. işçi qüvvəsi tutmaq barədə müqavilələr bağlaya, daşınan və daşınmaz əmlaka sahib ola, məhkəmə və arbitraj orqanlarında iddia ilə çıxış edə bilərlər.

B.q.h.t. böyük bir qismi beynəlxalq hökumətlərarası təşkilatlarla sıx əlaqə saxlayır. BMT-nin İqtisadi və Sosial Şurası və bir sıra başqa təsisatları nəzdində B.q.h.t. məşvərətçi statusa malik ola bilərlər. BMT-nin İqtisadi və Sosial Şurasının məşvərətçi münasibətlərin hüquqi reqlamentasiyasını verən «Qeyri-hökumət təşkilatları ilə məşvərət tədbirləri» sənədinə müvafiq olaraq, məşvərətçi statusun iki dərəcəsi müəyyən edilib: I dərəcə (ümumi məşvərətçi status) və II dərəcə (xüsusi məşvərətçi status).

I dərəcəli məşvərətçi status elə B.q.h.t.-na verilir ki, onlar BMT-nin İqtisadi və Sosial Şurasının fəaliyyətinin əksər növləri ilə bağlıdırlar və *BMT*-nin işinə daimi və əhəmiyyətli dərəcədə fayda verə bilərlər; üstəlik bu təşkilatların üzvlük tərkibi əksər ölkələrin əhalisinin əsas təbəqələrini təmsil edir (onların sırasında - Beynəlxalq Demokratik Qadınlar Federasiyası, *Parlamentlərarası İttifaq*, Ümumdünya Müharibə Veteranları Federasiyası və s.).

II dərəcəli məşvərətçi status o təşkilatlara verilir ki, onlar İSŞ işinin yalnız bəzi sahələrində xüsusi səlahiyyətlərə malikdirlər (onların arasında Ümumdünya Demokratik Gənclər Federasiyası, *Beynəlxalq Demokrat Hüquqşünaslar Assosiasiyası*, Beynəlxalq Jurnalistlər Təşkilatı və s.).

Məşvərətçi statuslu B.q.h.t. bir sıra hüquq və vəzifələrə malikdir. Onlar *BMT-nin İqtisadi və Sosial Şurasının* fəaliyyətinə dair təkliflər irəli sürə bilər, onların nümayəndələri isə *BMT-nin İqtisadi və Sosial Şurasının* iclaslarında otura, yazılı ərizələr verə və *BMT-nin İqtisadi və Sosial Şurası* Məclisində şifahi bəyanat və s. ilə çıxış edə bilərlər.

BMT-nin 6 ixtisaslaşmış təsisatı da (*YUNESKO*, *Beynəlxalq Əmək Təşkilatı*, Ümumdünya Səhiyyə Təşkilatı, *BMT-nin Ərzaq və Kənd Təsərrüfatı*, *Beynəlxalş Mülki Aviasiya Təşkilatı*, *Beynəlxalq Dəniz Təşkilatı*) B.q.h.t.-na məşvərətçi status verə bilər; bu status da bir neçə kateqoriyaya bölünür. Ona malik olmağın şərtləri *BMT-nin İqtisadi və Sosial Şurasının* müəyyən etdiyi şərtlərlə eynidir.

B.q.h.t. xalqların səmərəli əməkdaşlığının inkişafında, habelə dünya ictimaiyyətinin diqqətini sülhün qorunmasına, *beynəlxalq gərginliyin zəiflədilməsi* və *tərksilah* uğrunda, təcavüz, irqi və milli əsarətə qarşı mübarizəyə səfərbər etməkdə mühüm rol oynayırlar.

Dünyada 3 mindən artıq B.q.h.t. mövcuddur.

**BEYNƏLXALQ QƏYYUMLUQ SİSTEMİ.** Əvvəllər mandat sistemində mövcud olmuş, yaxud *İkinci dünya müharibəsi* nəticəsində düşmən dövlətlərdən qoparılmış əraziləri idarə etmək üçün *BMT* tərəfindən yaradılan qurum. *Qəyyumluqdakı* ərazilərə dair BMT funksiyalarının yerinə yetirilməsinə nəzarət *BMT-nin Təhlükəsizlik Şurası* və *BMT-nin Baş Məclisi* tərəfindən həyata keçirilir.

Böyük Britaniya, Fransa, Avstraliya, Belçika, Yeni Zelandiya, ABŞ və İtaliyanın 1946-1950 illərdə BMT ilə qəyyumluq haqqında tərtib etdikləri sazişlər bu dövlətlərə qəyyumluq altın-

da olan ərazilərə əslində öz müstəmləkə mülkü kimi baxmaq imkanı yaratdı.

1975 ilədək qəyyumluğa götürülmüş bütün ərazilər (1947 ildən ABŞ-ın qəyyumluğunda olan Mikroneziyadan savayı) imperializmin müstəmləkə sisteminin dağılması (*Müstəmləkə sistemi və onun dağılması*) ilə müstəqillik əldə etdilər.

**BEYNƏLXALQ QIRMIZI XAÇ CƏMİYYƏTİ** (BQXC). Qırmızı Xaç, Beynəlxalq Qırmızı Xaç Komitəsi və Qırmızı Xaç Cəmiyyətləri Liqasının milli təşkilatlarının (müsəlman ölkələrində - Qırmızı Aypara, Qızıl Şir və Günəş) birliyi; BQXC-ə daxil olan təşkilatların vəzifəsi - silahlı münaqişələr zamanı yaralananlara, xəstələrə və hərbi əsirlərə yardım etmək, təbii fəlakət qurbanlarına kömək göstərməkdir.

İsveçrənin ictimai xadimi A.Dünanın təşəbbüsü ilə 1863 ildə təsis edilən BQX 25 nəfər İsveçrə vətəndaşından ibarət olub, silahlı münaqişələr zamanı bitərəf vasitəçi rolunu yerinə yetirirdi.

Qırmızı Xaç Cəmiyyətləri Liqası (QXCL) 135 milli cəmiyyəti özündə birləşdirir. 250 mln.-dan çox adamı əhatə edir.

1965 il Nizamnaməsinə görə, BQXC-nin ali orqanı 4 ildən bir keçirilən konfransdır. Konfransda Qırmızı Xaç, QXCL və BQXK-nin milli cəmiyyətləri, habelə 1949 il *müharibə* qurbanlarının müdafiəsinə dair Cenevrə konvensiyalarının iştirakçısı olan dövlətlərin hökumətləri iştirak edirlər. Konfranslararası dövrdə BQX-nin fəaliyyətinə 9 nəfərdən ibarət Daimi komissiya rəhbərlik edir.

**BEYNƏLXALQ MALİYYƏ KORPORASİYASI.** *Beynəlxalq hökumətlərarası təşkilat*; *BMT*-nin ixtisaslaşmış təsisatı; *Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı* Müdirlər Şurasının qərarı ilə 1956 ildə yaradılıb. B.m.k-ya yalnız BYİB iştirakçıları üzv ola bilərlər.

BMK-nın rəsmi məqsədi - üzv ölkələrin özəl müəssisələrini maliyyələşdirmək yolu ilə iqtisadi inkişafına kömək göstərmək, xüsusən də inkişaf edən dövlətlərdə istehsal bölməsinə xüsusi sərmayənin axınını təmin etmək.

B.m.k.-da idarəetmə və səsvermə sistemi BYİB-də olduğunun eynidir. B.m.k.-ın prezidenti və müdirləri bankın müvafiq vəzifəli şəxslərindən təyin olunurlar. B.m.k.-nın Müdirlər Şurasının üzvləri eyni zamanda B.m.k.-ya daxil olan dövlətlərin BYİB-in Müdirlər Şurasındakı nümayəndələridirlər.

B.m.k. qərargahı Vaşinqtondadır.

**BEYNƏLXALQ MƏHKƏMƏ.** *BMT*-nin başlıca orqanlarından biri; *BMT Nizamnaməsi*, *Beynəlxalq Məhkəmənin* Statusu və reqlamentinə müvafiq fəaliyyət göstərir. B.m. Statutu BMT Nizamnaməsinin ayrılmaz hissəsidir, odur ki, BMT-nin bütün üzvləri, eyni zamanda, Statutun iştirakçıları sayılırlar. BMT üzvü olmayan dövlətlərin Statut iştirakçıları olmaları hər bir ayrıca halda *BMT Təhlükəsizlik Şurasının* tövsiyəsilə *BMT Baş Məclisi* tərəfindən müəyyənləşdirilir. İsveçrə, Lixtenşteyn və San-Marino belə iştirakçı dövlətlər sayılırlar.

B.m. 15 hakimdən təşkil olunur. Onlar fərdi qaydada çıxış edir və haranın vətəndaşı (*Vətəndaşlıq*) olmasından asılı olmayaraq seçilirlər. Lakin bir dövlətin iki vətəndaşı eyni vaxtda B.m.-nin tərkibinə seçilmir. B.m.-nin statutuna uyğun olaraq, məhkəmələrin tərkibi «sivilizasiyanın başlıca formalarını və





dünyanın əsas hüquqi sistemlərinin» təmsilçiliyini təmin etməlidir. B.m.-nin üzvləri BMT BM və BMT TŞ tərəfindən əksər səs çoxluğu ilə 9 ilə seçilirlər. Namizədlər Daimi Palatanın Tretey məhkəməsi tərəfindən irəli sürülür. Onlar beynəlxalq münaqişələrin dinc həllinə dair Haaqa Konvensiyasının (*Haaqa konfransları, 1899 və 1907*) üzvü olan ölkələrə, habelə bu konvensiyanın iştirakçısı olmayan ölkələrin hökumətləri tərəfindən xüsusi olaraq təyin edilən qruplara mənsub olurlar. B.m.-nin tərkibi 1/3 qaydada hər 3 ildən bir dəyişilir. Onlar eyni müddətə yenidən seçilə bilərlər. B.m. 3 ilə (habelə yenidən seçilmək hüququ ilə) sədr və sədrin müavinini seçir.

Dövlətlər arasında mübahisələri həll etməkdən başqa, BMT Nizamnaməsi BMT BM və BMT TŞ, habelə BMT Nizamnaməsi ilə səlahiyyətli olan istənilən digər BMT orqanı və təsisatının sorğusu üzrə hüquqi məsələlərə dair məşvərət rəyi çıxarmağı da B.m.-yə həvalə edir. Prinsip etibarilə bu rəy məcburi xarakter daşımır, hərçənd bir sıra *beynəlxalq təşkilatlar* və onların orqanları (xüsusən *BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı*, *YUNESKO*, *Beynəlxalq Əmək Təşkilatının* İnzibati tribunalı) BM-in məşvərət rəyini özləri üçün məcburi sayırlar.

B.m.-in rəsmi dilləri - fransız və ingilis dilləridir. Fəaliyyət yeri - Haaqadır.

**BEYNƏLXALQ MÜBAHİSƏLƏRİ DİNC YOLLA HƏLL ETMƏK PRİNSİPİ.** *BMT Nizamnaməsinin* 2-ci maddəsinin 3-cü bəndində birbaşa ifadəsini tapmış müasir *beynəlxalq hüququn* əsas prinsiplərindən biridir. Bu prinsipinin məzmunu dövlətlərin aşağıdakı hüquq və öhdəliklərində öz ifadəsini tapır: 1) dövlətlər öz mübahisələrini, onların xarakterindən və mənşəyindən asılı olmayaraq, yalnız və yalnız dinc vasitələrlə həll etməlidirlər; 2) dövlətlər öz mübahisələrini həll edərkən dinc vasitələrdən hər hansı birini seçmək hüququna malikdirlər; 3) dövlətlər öz aralarında olan mübahisəni həll olunmaq üçün hər hansı üçüncü tərəfə təqdim etməyə məcbur edilə bilməzlər (beynəlxalq sülhə və təhlükəsizliyə təhlükə yarada bilən mübahisələr istisna olmaqla); 4) dövlətlər aralarında olan mübahisənin kəskinləşməsinə səbəb ola bilən hərəkətlərdən çəkinməlidirlər; 5) dövlətlər öz mübahisələrini beynəlxalq hüquq və ədalət əsasında həll etməlidirlər. Bu prinsip BMT Nizamnaməsinə uyğun olaraq dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa aid beynəlxalq hüquq prinsipləri haqqında 1970 il *Bəyannaməsində* öz əksini tapmışdır.

**BEYNƏLXALQ MÜQAVİLƏ.** Xarici dövlətə (və ya dövlətlərlə) və ya *beynəlxalq təşkilatlarla* və ya beynəlxalq hüququn digər subyektləri *(Beynəlxalq hüququn subyektləri)* ilə beynəlxalq hüquqla nizamlanan və yazılı formada imzalanan beynəlxalq sənəddir. B.m. iştirakçıların və *beynəlxalq münasibətlərin* müxtəlif məsələlərinə dair imzalanır və tərəflər üçün hüquq və öhdəlikləri müəyyən edir. B.m. beynəlxalq hüququn başlıca mənbəyidir. B.m.-ni imzalayan orqanların növlərindən asılı olmayaraq B.m.-lər dövlətlərarası, hökumətlərarası, idarələrarası və digər müqavilələrə *(Beynəlxalq müqavilə)* bölünürlər. B.m. çox vaxt «saziş» kimi ümumi terminlə ifadə olunur. B.m. müxtəlif cür adlandırılır: müqavilə; saziş; konvensiya *(Beynəlxalq konvensiya)*; *protokol*; *nota mübadiləsi*; *Bəy-*

*annamə*; *centlemen sazişi* və s. bu və ya digər müqavilə adının qəti müəyyən olunmuş mənası yoxdur. Necə adlanmasından asılı olmayaraq bütün B.m.-lər eyni hüquqi qüvvəyə malikdirlər. İştirakçılarının sayına görə B.m. ikitərəfli və çoxtərəfli, regional və ya universal müqavilələrə bölünürlər. Əgər B.m.-də maraqlanan istənilən dövlət iştirak edə bilərsə, belə müqavilələr açıq müqavilələr adlanır. Müqavilə imzalanan zaman tərəflər daha sabit mövqe barədə razılığa gələ bilmədikdə, müqavilə müvəqqəti xarakter daşıdıqda, onu adətən *modus vivendi* adlandırırlar. Lakin bu qeyd barədə aktın özündə gös-tərilir.

**BEYNƏLXALQ MÜQAVİLƏLƏR HÜQUQU.** *Beynəlxalq müqavilələrin* bağlanmasına, icrasına və qüvvədən düşməsinə aid beynəlxalq-hüquqi prinsip və normalar sistemi. Bu hüquqa, həmçinin beynəlxalq müqavilələrə münasibətdə dövlətlərin və beynəlxalq hüququn digər subyektlərinin *(Beynəlxalq hüququn subyektləri)* hüquqi varisliyinin tənzimlənməsi də aiddir.

B.m.h. üçün əsas mənbə beynəlxalq adətdir. B.m.h.-nun bir çox normaları 1969 il *Beynəlxalq müqavilələr hüququna dair Vyana Konvensiyasında*, habelə müqavilələrə münasibətdə 1978 il Dövlətlərin Hüquqi Varisliyinə dair Vyana Kovnensiyasında *(Vyana Konvensiyası 1978)* əks olunub.

**BEYNƏLXALQ MÜQAVİLƏLƏR HÜQUQUNA DAİR VYANA KONVENSİYASI** (1969). 23.V. *BMT* tərəfindən qəbul olunub. 27.I.1980 ildə qüvvəyə minib. 50-dən çox dövlət Vyana Konvensiyasının *(Beynəlxalq konvensiya)* iştirakçılarıdır.

V.k. müqavilələrin *(Beynəlxalq müqavilə)* hüququna dair adi *beynəlxalq hüquq* normalarını ümumiləşdirir, habelə hazırda beynəlxalq aləmdə mövcud olan təcrübə və ənənələrdən irəli gələn bir sıra yeni normaları ehtiva edir.

V.k.-da müqavilə hüququnun ən müxtəlif məsələləri – müqavilənin bağlanma qaydaları, üçüncü ölkələr üçün beynəlxalq müqavilələrin əhəmiyyəti, ümumi beynəlxalq hüququn imperativ norması ilə ziddiyyət təşkil edən müqavilənin qeyri-qanuniliyi, müqavilə bağlanarkən mövcud olmuş şəraitin kökündən dəyişməsinin həmin müqavilənin qanuniliyinə təsiri *(Rebus sic stantibus)*, çoxtərəfli müqavilələrə düzəliş hüququ, müqavilənin qüvvədən düşdüyünü təsdiq edən şərtlər *(Qeyri-bərabər hüquqlu müqavilələr)*, iştirakçılardan biri tərəfindən müqavilənin pozulması ilə bağlı yaranan mübahisələr, çoxtərəfli müqavilənin depozitariya *(depozitar)* funksiyaları öz əksini tapır.

**BEYNƏLXALQ MÜQAVİLƏLƏRİN QEYDİYYATI.** *Beynəlxalq hökumətlərarası təşkilat* tərəfindən tərtib edilən xüsusi *beynəlxalq müqavilə* siyahısına salınma; qeydə alındıqdan sonra müqavilə bağlayan tərəflərin haqqı vardır ki, belə təşkilatın orqanlarında öz hüquqlarını əsaslandırarkən həmin sənədə istinad etsinlər. Qeydiyyat *BMT*, *Beynəlxalq Mülki Aviasiya Təşkilatı* və digər beynəlxalq təşkilatların katibliklərində aparılır. BMT-də qeydiyyata alınan müqavilələr xüsusi məcmuələrdə **(United Nations Treaty Series - UNTS)** nəşr edilir və bu yolla da bütün beynəlxalq birliyin nəzərinə çatdırılır.

**BEYNƏLXALQ MÜLKİ AVİASİYA TƏŞKİLATI (İKAO).** *Beynəlxalq hökumətlərarası təşkilat*, *BMT*-nin ixtisaslaşdırılmış idarəsi. 1944 ildə Çikaqoda *beynəlxalq konfransda* təsis edilib. Konfransda beynəlxalq mülki aviasiya haqqında konvensiya *(beynəlxalq konvensiya)* işlənib hazırlanıb. Həmin konvensiya təşkilatın nizamnamə müddəalarını ehtiva edir. Dövlətin Çikaqo konvensiyasında iştirakı onun eyni zamanda İKAO-ya üzvlüyünü təsdiq edir. Konvensiya qüvvəyə minənədək (4.IV.1947) Beynəlxalq müvəqqəti mülki aviasiya təşkilatı (PİKAO) fəaliyyət göstərmişdir.

Azərbaycan Respublikası 1993 ildən bu təşkilatın üzvüdür.

İKAO-nun vəzifəsi - hava nəqliyyatının təhlükəsiz, müntəzəm və qənaətli istismarını təmin etməklə, beynəlxalq mülki aviasiyanın inkişafına yardım göstərməkdir. İKAO mülki aviasiya sahəsindəki dünya təcrübəsini ümumiləşdirir; xüsusilə uçuş və onların idarə olunması qaydalarına, təyyarə və aerodromların təchizatına, radionaviqasiyaya, metereoloji və axtarış - xilasetmə xidmətlərinə, habelə uçuş heyətlərinə şəhadətnamələrin verilməsinə dair standartlar və tövsiyələr işləyib hazırlayır. Standartlar və tövsiyələr Çikaqo Konvensiyasına əlavələr kimi qəbul olunur.

İKAO-nun ali orqanı - üç ildən bir çağırılan Məclis, daimi orqanı isə 33 ölkənin nümayəndələrindən ibarət Şuradır. İKAO-nun Avropa (Paris), Yaxın və Orta Şərq və Şimali Afrika (Qahirə), Uzaq Şərq və Sakit okean (Banqkok), Cənubi Amerika (Lima), Şimali Amerika və Karib dənizi hövzəsi (Mexiko), Qərbi Afrika (Dakar) və Şərqi Afrika (Nayrobi) üzrə 7 regional bölməsi vardır.

Qərargahı Monrealdadır.

**BEYNƏLXALQ MÜLKİ HÜQUQ.** Məzmununda xarici amil deyilən ünsür olan mülki-hüquqi münasibətləri tənzimləyən normalar məcmusu; mülki-hüquqi münasibətlər dedikdə, əmlak və onunla bağlı qeyri-əmlak münasibətləri, habelə ailə və əmək hüquq normaları ilə tənzimlənən münasibətlər başa düşülür. Xarici amil, başqa sözlə, bu münasibətlərin beynəlxalq xarakter daşıması *(beynəlxalq münasibətlər)* o vaxt özünü təzahür etdirir ki, onlarda xarici fiziki və hüquqi şəxslər, bəzən isə dövlətlər də iştirak etsin, həmin münasibətlər iki, yaxud bir neçə dövlətin ərazisi ilə bağlı olsun və belə hüquqi münasibətlərin obyekti ölkə sərhədindən kənarda yerləşsin.

*Xaricilərin*, xarici hüquqi şəxslərin və müştərək cəmiyyətlərin mülki-hüquqi vəziyyəti, mülkiyyət hüququ, təəhhüd hüququ (xarici ticarət müamilələri, dəniz, dəmiryolu və hava daşımaları, kredit-hesablaşma münasibətləri), müəllif və ixtira hüququ, ailə və varislik hüququ, beynəlxalq proses deyilən əmək münasibətləri – B.m.h. predmetləridir.

*Beynəlxalq müqavilə*, daxili qanunvericilik, məhkəmə və *arbitraj* praktikası, beynəlxalq adətlər B.m.h. mənbələridir.

B.m.h. bir neçə növ normaları ehtiva edir. Bir qisim hallarda, dövlətin müqavilə qaydasında qəbul etdiyi norma hüquq və vəzifələri təsbit edən qaydanı əsas götürür. Bir başqa halda isə B.m.h.-i norma yalnız hansı dövlətinsə qaydasına istinad etməklə, yəni hər hansı məsələni bu normanın istinad etdiyi milli qanunvericilik kontekstində həll edir; məsələn, şəxsin *vətəndaşlığına* dair qanuna (lat. **lex patriae**), müqavilənin bağlandığı yerin qanununa (lat. **lex loci contractus**), əşya-

nın mövcud olduğu yerin qanununa (lat. **lex rei sitae**), nigahın bağlandığı yerin qanununa (lat. **lex loci celebrationis**) və s. istinad olunur. Bu kimi normalar yalnız B.m.h. üçün səciyyəvidir. Xarici iqtisadi münasibətləri yaxud da elmi-texniki və ya mədəni əməkdaşlıq sahəsində münasibətləri tənzimləmək üçün dövlətin qoyduğu mülki normalar da B.m.h. normalara aid edilir.

B.m.h. məsələləri üzrə çoxtərəfli beynəlxalq müqavilələrin işlənib hazırlanmasında *BMT-nin Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyası*, B.m.h. üzrə Haaqa konfransı, Ümumdünya zehni mülkiyyət təşkilatı, Mülki hüququn unifikasiyası üzrə Roma institutu və s. *beynəlxalq təşkilat* və orqanlar mühüm rol oynamışdır.

**BEYNƏLXALQ MÜLKİ XİDMƏT.** *Beynəlxalq hökumətlərarası təşkilatların* katiblikləri olub, müvafiq təşkilatların nizamnamələri, onların rəhbər orqanlarının qərarları və daxili qaydaları əsasında təşkil edilir və fəaliyyət göstərirlər.

B.m.x. sistemindəki təşkilatların katibliklərinin inzibati qaydaları həmin təşkilatlar tərəfindən *BMT Baş Məclisinin* tövsiyələri əsasında işlənib hazırlanır.

Son zamanlar BMT Baş Məclisi ədalətli coğrafi təmsilçilik prinispinin ardıcıl həyata keçirilməsinə və müddətli kontraktlar əsasında işləyən əməkdaşların sayının artırılmasına yönəldilən bir sıra qərarlar qəbul edib. B.m.x. sistemində olan təşkilatların katibliklərində işçilərin sayı 50 min nəfərdən çoxdur. Təkcə BMT Katibliyində 16 min işçi çalışır.

**BEYNƏLXALQ MÜNAQİŞƏLƏRİN SÜLH YOLU İLƏ HƏLL EDİLMƏSİ.** *Beynəlxalq hüququn* əsas prinsiplərindən biridir. Bu prinsipə əsasən, beynəlxalq sülhə, təhlükəsizliyə və ədalətə zərər vurulması üçün dövlətlər arasında yaranmış münaqişələr sülh yolu ilə həll edilməlidir. Bu, prinsipin əks olduğu ilk çoxtərəfli müqavilə 1928 ildə qəbul olunmuş, milli siyasəti həyata keçirmək üçün müharibələrdən istifadə etməmək haqqında Paris paktı oldu. *İkinci dünya müharibəsindən* sonra bu prinsip bir sıra beynəlxalq sənədlərdə: *BMT-nin Nizamnaməsində*, Beynəlxalq hüququn prinsipləri haqda bəyannamədə və s. əks olunmuşdur. Bu gün üçün əsas sənəd 1982 ildə *BMT Baş Məclisi* tərəfindən qəbul olunmuş *Bəyannamədir*.

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR.** Dövlətlər və dövlətlər sistemi arasında, habelə beynəlxalq səhnədə fəaliyyət göstərən ictimai, iqtisadi, siyasi qüvvələr, təşkilatlar və hərəkatlar arasında iqtisadi, siyasi, ideoloji, hüquqi, diplomatik, hərbi və s. əlaqələr və qarşılıqlı münasibətlər məcmusu. B.m.-də aparıcı istiqamət dövlətlərarası münasibətlərdir.

Bu və ya digər ölkənin, yaxud ölkələr qrupunun B.m. sistemində mövqeyi müəyyən edilərkən, ilk növbədə, dövlətlərin *xarici siyasət* və *diplomatiyasında* öz ifadəsini tapan daxili iqtisadi və sosial proseslər əsas götürülür.

Müasir B.m. əsas məzmununu müxtəlif ictimai sivilizasiyaların münasibəti və yanaşı yaşaması təşkil edir.

Müasir B.m. yüksək dinamikliyi ilə səciyyəvidir: demokratik hərəkatların, cəmiyyətin geniş kütlələrinin fəallığı artır, müxtəlif beynəlxalq hökumətlərarası və beynəlxalq qeyri-hökumət təşkilatlarının *(Beynəlxalq hökumətlərarası təşkilatlar; Beynəlxalq qeyri-hökumət təşkilatları)* fəaliyyəti güclənir. Bütün bunlar B.m.-in demokratikləşməsinə təsir göstərir, onların yeniləşməsinə kömək edir.

**BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ ZOR İŞLƏTMƏMƏK.** *BMT Nizamnaməsində* və bir sıra *beynəlxalq müqavilə* və sənədlərdə təsbit olunan *beynəlxalq hüququn* əsas prinsiplərindən biri. BMT Nizamnaməsi, nəzərdə tutur ki, *Birləşmiş Millətlər Təşkilatının* bütün üzvləri «öz *beynəlxalq münasibətlərində* hər hansı dövlətin istər ərazi toxunulmazlığına, yaxud siyasi müstəqilliyinə qarşı, istərsə də Birləşmiş Millətlərin məramları ilə bir araya sığmayan tərzdə zor işlətməkdən və ya zor tətbiq etməklə hədələməkdən çəkinməlidirlər». *BMT Baş Məclisinin* XXXI və XXXII sessiyalarında gedən müzakirələr nəticəsində 1977 ildə B.m.z.i. prinsiplərinin təsir gücünü artırmaq üzrə Xüsusi Komitə təsis edildi. Komitə 35 dövlətin nümayəndələrindən təşkil edildi. Nümayəndələr ədalətli coğrafi bölgü və dünyanın əsas hüquq sistemlərinin təqdimatı əsasında seçildi. Komitə ildə bir dəfə sessiya keçirir.

Beynəlxlaq münasibətlərdə gücdən istifadənin və hədə-qorxu gəlməyin qarşısını alan məcburi təsir qüvvəsinə malik sənəd qəbul edilmədiyindən, hal-hazırda bir sıra dövlətlər mübahisəli məsələlərin həllində silahlı qüvvələrdən istifadə edir, bəzi dövlətlər isə belə problemlərin həllini danışıqlar əvəzinə, hədə-qorxu müstəvisinə keçirirlər. Məs. Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinin 20%-ni işğal etməsi, İraqın Küveytə hərbi təcavüzü, Folklend (Malvin) adaları probleminin həllində İngiltərənin güc tətbiq etməsi və s. Mübahisəli beynəlxalq problemlərin həllində hədə-qorxu və zor tətbiqinə yol verilməsi beynəlxalq münasibətlər sistemi strukturunun mükəmməl olmamasına dəlalət edir.

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR NƏZƏRİYYƏSİ.** Elmi anlayışların dialektik sistemi kimi çıxış etməyə istiqamətlənib. Bu sistem *beynəlxalq münasibətlər* sisteminin strukturunu, habelə bu münasibətlərin dərinləşməsi və inkişaf etməsinin əsas elementlərini, amillərini, hərəkətverici qüvvələrini, obyektiv inkişaf qanunauyğunluqlarını əks etdirir.

B.m.n.-nin predmeti beynəlxalq münasibətlərin strukturlarının, funksional və inkişaf sistemlərinin ümumi qanunauyğunluqlarının öyrənilməsindən ibarətdir. Beynəlxalq münasibətlərdə elmi fənn kimi müvafiq istiqamətlər mövcuddur: beynəlxalq münasibətlər sistemi, xarici siyasət maraqları və məqsədləri, xarici siyasət potensialı, beynəlxalq səhnədə qüvvələr nisbəti, beynəlxalq münasibətlərin amilləri, *xarici siyasətin* təzyiq vasitələri, beynəlxalq münaqişə, beynəlxalq böhran, beynəlxalq əməkdaşlıq və s.

Dövlətin xarici siyasət təcrübəsində B.m.n. beynəlxalq vəziyyətin, konkret xarici siyasət situasiyalarının təhlili, qiymətləndirilməsi və proqnozlaşdırılmasında, habelə xarici siyasətin strategiya və taktikasının işlənib hazırlanmasında nəzəri baza kimi çıxış edir.

**BEYNƏLXALQ NƏZAKƏT.** Xarici dövlətlərə və onların vətəndaşlarına mehriban qonşuluq, səmimi dostluq, qonaqpərvərlik, ehtiram göstərmək, habelə rəsmiyyətdən yan keçərək imtiyaz və üstünlüklər vermək aktı. Bu

hərəkət *beynəlxalq hüquq* normalarının tələblərindən irəli gəlmir, sadəcə olaraq, dövlətin xoş niyyət və məramını ifadə edir.

B.n. aktları analoji cavab tələb etmir və birbaşa qarşılıqlı zəruriyyət doğurmur, lakin çox vaxt belə hərəkətlər qarşılıqlı olur və yerinə düşür.

B.n. aktlarına riayət olunmaması qeyri-səmimi hərəkət kimi yozula bilər, lakin beynəlxalq öhdəliklərin pozulması hesab olunmur və dövlətin üzərinə məsuliyyət qoymur (*Beynəlxalq hüquqi məsuliyyət*).

**BEYNƏLXALQ NOBEL MÜKAFATLARI.** Məşhur İsveç sənayeçisi və ixtiraçısı Alfred Bernhard Nobelin təşəbbüsü ilə 1901 ildə təsis edilmişdir. Mükafatların təqdim edilməsi hər il onun ölüm günü 10.XII. keçirilir. Onun vəsiyyətinə görə fizika və kimya üzrə mükafat İsveç Elmlər Akademiyası, fiziologiya və tibb elmləri üzrə Stokholmdakı Karomen institutu, ədəbiyyat üzrə Stokholmdakı Akademiya, Sülh üzrə isə Norveç Stortinqi tərəfindən verilir. Mükafat böyük pul məbləğindən ibarətdir. 2001 ildə onun həcmi 975 min ABŞ dolları təşkil etmişdi. Nobellər nəslinin Bakı neft biznesində payı olmuşdur. Alfred Nobelin vəfatı ərəfəsində onun Bakıdakı kapitalı 2 mln. manat (3,8 mln. isveç kronu), digər əmlakı isə 2,5 mln. manat həcmində qiymətləndirilmişdi. Ümumiyyətlə, N.m. fondunda Bakı neftindən gələn gəlirin məbləği 12,4% təşkil edirdi.

**BEYNƏLXALQ PRAKTİKADA SALAM ATƏŞİ** (lat. *salus* – salamlamaq, təbrik etmək). Artilleriya və yaylım atəşləri ilə, bayraqlarla və başqa şəkildə təntənəli salamlama və etiram göstərmə forması.

S.a.-nın tətbiqi bir sıra *beynəlxalq müqavilə* normaları ilə: 21.XI.1818 ildə *Aahen konqresində* qəbul olunmuş *protokolla*, beynəlxalq ənənələrlə həmçinin bəzi dövlətlərin (məs. Böyük Britaniya) milli qaydaları ilə müəyyən olunur.

*Dövlət başçısının* rəsmi səfərlərə, xarici gəmiylə limana və ya hərbi-dəniz bazalarına rəsmi görüşlərə getdiyi zaman və digər hallarda «Millətlər salyutu» (21 yaylım atəşi) açılır.

**BEYNƏLXALQ SERVİTUTLAR** (lat. *servitus* – öhdəlik, təhəddüd). *Beynəlxalq hüquq* elmində və bəzi hallarda diplomatik praktikada istifadə olunan termindir; dövlətin öz ərazisinin müəyyən hissəsinə olan hüquqlarının digər dövlətin xeyrinə məhdudlaşdırılması deməkdir və bu zaman ərazi başqa dövlətə keçərsə, bu məhdudiyyətlərin ərazinin yeni sahibinə aid olması da nəzərdə tutulur. B.s. anlayışı *beynəlxalq münasibətlərə* Roma hüququ kateqoriyalarının daxil edilməsi nəticəsində meydana gəlmişdir; B.s. dedikdə mülkiyyətçinin digər şəxsin xeyrinə hüquqlarının məhdudlaşdırılması başa düşülür (məsələn; qonşunun ərazisindən keçmək hüququ). B.s. mülkiyyət hüququna keçdikdə də saxlanılır. Müstəmləkə ekspansiyasının güclənməsi və kapitalist ölkələrinin mühüm strateji məntəqələrinin, beynəlxalq rabitə yollarının və s. rəqiblərindən qorumaq cəhdləri ilə bağlı olaraq XIX əsrdə B.s. anlayışı geniş şərh olunmağa başladı. XIX əsrin sonu XX əsrin əvvəllərində isə amerikan, fransız, qismən də alman beynəlxalq hüquq doktrinaları onu inadla beynəlxalq münasibətlərə daxil etməyə başladılar. Yad ərazilərin müvəqqəti tutulma formaları (liman və dəniz bazalarının icarəsi, Uzaq Şərqdə





settlmentlər (Çində xaricilərin yaşadığı xüsusi məhəllələr) və «*konsessiyalar*», tranzit üçün yad ərazilərdən istifadə olunması (Süveyş və Kil kanallarından keçməklə) B.s. adlandırılmışdır. Beynəlxalq qaydada müəyyən olunmuş ərazilərin bəzi hissələrinin möhkəmləndirilməməsi öhdəliyi B.s. adlanır (məsələn, Yuxarı Savoyya İsveçrənin xeyrinə «Vyana konqresinin Yekun aktı»na (*Beynəlxalq konqres, Yekun Akt*) uyğun olaraq bitərəfləşdirilmişdir).

Atlantik okeanın şimal hissəsində balıqçılıq haqda ingilis-amerikan mübahisəsində ABŞ 1910 ildə öz xeyrinə B.s.-ra əsaslanaraq İngiltərəyə məxsus ərazilərdə balıqçılıq iddiası irəli sürdü. Ancaq artıq bu dövrdə bir çox hüquqşünas siyasətçilər B.s. anlayışına mənfi yanaşırdılar. Onlar bu anlayışın həddən artıq yayılmasını, xüsusilə bir çox hallarda ancaq siyasi xarakterli öhdəlikləri bildirmək üçün tətbiq olunduğunu (məs., *demilitarizasiya* sahəsində öhdəliklər) göstərirdilər. *Beynəlxalq məhkəmə* praktikası da bu anlayışdan imtina etdi. Balıqçılığa dair yuxarıda adı çəkilən ingilis-amerikan mübahisəsində Beynəlxalq münsiflər məhkəməsi ABŞ-ın iddialarını rədd etdi, göstərdi ki, B.s. doktrinası suveren dövlətlərin (*Dövlətlərin suverenliyi*) *suverenlik* prinsipinə və müasir beynəlxalq münasibətlərə ziddir.

Beynəlxalq hüquqda geniş qəbul olunmayan, az hallarda rast gəlinən B.s. anlayışı hazırda yoxa çıxmaqdadır. Müasir *diplomatiyada* ona nadir hallarda müraciət edilir.

**BEYNƏLXALQ SİYASİ ELM ASSOSİASİYASI.** 1949 ildə *BMT*-nin elm, təhsil və mədəniyyət məsələlərinə (*YUNESKO*) dair qərarına əsasən dünyada siyasi elmin inkişafına kömək göstərmək məqsədilə yaradılıb. 60-dan çox ölkənin kollektiv (siyasi elm üzrə milli assosiasiyalar), əlaqəli (kitabxanalar, tədqiqat mərkəzləri) və fərdi üzvlərini birləşdirir. B.s.e.a.-nın başlıca orqanları - Ümumdünya Konqresi (3 ildən bir çağırılır), İcraiyyə Komitəsi və Katiblikdir (Ottavada yerləşir).

*Beynəlxalq konqreslər* və illik «dəyirmi masa» iclasları təşkil etmək, habelə milli assosiasiyalara, universitetlərə, kitabxanalara və s. məlumat və informasiya xidməti göstərmək BSEA-nın əsas fəaliyyət istiqamətləridir.

**BEYNƏLXALQ TERRORİZM.** Beynəlxalq miqyasda ictimai-təhlükəli proses; onun nəticəsində mənasız insan tələfatı baş verir, dövlətlərin normal diplomatik fəaliyyət göstərməsinə əngəllər yaranır, beynəlxalq əlaqələrin inkişafı yolunda ciddi maneələr törənir, ölkələr arasında nəqliyyatın normal ahəngi pozulur, çətinliklər ortaya çıxır. Terrorizm *beynəlxalq münasibətlərin* normal axarını pozan ciddi amillərdən biri olduğundan beynəlxalq ictimaiyyət bu amansız hala qarşı laqeyd qalmır, onunla mübarizəni əlaqələndirməkdən ötrü birgə proqram işləyib hazırlayır. *Terrorizm Aktlarının qarşısının alınması və onlara görə cəza haqqında Beynəlxalq Konvensiya (1937)*, Hava gəmilərinin zəbt edilməsinə qarşı mübarizə Konvensiyası (1970), Mülki təyyarələrin təhlükəsizliyinə qarşı yönəlmiş qeyri-qanuni əməllərlə mübarizə Konvensiyası (1971), Toxunulmazlıq hüququ olan şəxslərin və diplomatik nümayəndələrin girov götürülməsi və ya onlara qarşı törədilmiş cinayətlərin qarşısının alınmasına dair Konvensiya və s. kimi beynəlxalq səviyyədə hazırlanmış sənədlər qəbul olunub.

Ermənistan B.t.-in göstərilən istiqamətləri üzrə öz fəaliyyətini dövlət siyasəti səviyyəsinə qaldırıb. Erməni terroristləri tərəfindən Azərbaycan ərazisində müxtəlif vaxtlarda həyata keçirilən qəsdlər, Moskvada metronun, Parisdə aeroportun partladılması, türk diplomatlarına qarşı törədilən terror əməliyyatları tutarlı dəlillər kimi terrorizmə qarşı beynəlxalq səviyyədə kəskin tədbir görülməsini tələb edir.

11.IX.2001 ildə ABŞ-da törətdilmiş terror əməliyyatı nəticəsində Nyu-Yorkda ticarət mərkəzinin 2 binası və Vaşinqtonda Pentaqonun binasının bir hissəsinin dağılması nəticəsində çoxsaylı insan tələfatı baş verdi. ABŞ başda olmaqla bir çox dövlətlər antiterror mübarizəsinə başladı və bu işdə Azərbaycan Respublikası da fəal iştirak edir.

**BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK.** Ümumi sülhün, yaxud xalqların təhlükəsizliyi naminə *beynəlxalq münasibətlər* durumu.

Son onilliklər ərzində beynəlxalq təhlükəsizliyin təmin edilməsi dünyada baş vermiş mühüm hadisə və dəyişikliklər sayəsində mümkün olub. *İkinci Dünya müharibəsində* faşist Almaniyasının darmadağın edilməsi, militarist Yaponiyanın məğlubiyyəti, müharibədən sonrakı dünyanın yenidən qurulmasına dair Yalta və Potsdam sazişləri (*Yalta (Krım) konfransı 1945; Berlin (Potsdam) konfransları 1945*) beynəlxalq durumun sülh və tərəqqi xeyrinə getdikcə dəyişilməsi B.t.-in təmin olunması üçün real imkanlar yaradıb.

Sülhü və B.t.-i qoruyub saxlamaq üçün *Birləşmiş Millətlər Təşkilatı* təsis edilib. *BMT Nizamnaməsi* və onun digər sənədləri B.t.-in əsas prinsiplərini ehtiva edir, sülh üçün yaranmış təhlükəni aradan qaldırmağı, təcavüzkar hərəkətləri və sülh əleyhinə digər pozuntuları dəf etmək üçün kollektiv tədbirlərin görülməsini, hər hansı tərzdə güc işlədilməsini, güclə hədəqorxu gəlməkdən çəkinməyi, beynəlxalq mübahisələri dinc yollarla həll etməyi (*Beynəlxalq münaqişələrin sülh yolu ilə həll edilməsi*), xalqların hüquq bərabərliyinə, öz müqəddəratını təyin etmə haqlarına hörmət əsasında dövlətlər arasında dostluq münasibətlərin inkişaf etdirməyi, iqtisadi, sosial, mədəni, humanitar və s. istiqamətli problemlərin həllində beynəlxalq əməkdaşlığı nəzərdə tutur.

BMT *Nizamnaməsinə uyğun* olaraq beynəlxalq sülhün və əmin-amanlığın qorunmasında əsas məsuliyyət *BMT Təhlükəsizlik Şurasına* həvalə edilib.

**BEYNƏLXALQ TƏŞKİLATIN NİZAMNAMƏSİ.** *Beynəlxalq təşkilatın* məqsəd və prinsiplərini, iş qaydalarını və təşkilati fəaliyyət formalarını, habelə üzvlük şərtlərini, maliyyələşdirmə qaydalarını və s. müəyyən edən sənəd.

B.t.n. özlüyündə beynəlxalq müqavilədir. Nizamnamə, bir qayda olaraq, həm də həmin təşkilatın təsis sənədidir. Bəzən Nizamnamənin təşkilat təsis edildikdən sonra işlənib hazırlanması və qəbul olunması halları da olur. Məs., *Amerika Dövlətləri Təşkilatının* əsası 1889 ildə qoyulsa da, Nizamnaməsi 1948 ildə təsdiqlənib. *İslam Konfransı Təşkilatının* yaradılması haqqında razılığın 1969 ildə əldə olunmasına baxmayaraq, təşkilatın Nizamnaməsi 1972 ildə qəbul olunub.

B.t.n.-nin qüvvəyə minməsi qaydası nizamnamənin özündə nəzərdə tutulur. Belə ki, B.m.t. Nizamnaməsinin qüvvəyə minməsindən ötrü onun *BMT Təhlükəsizlik Şurasındakı* üzvlərinin hamısı və Nizamnaməni imzalayan digər dövlətlərin əksəriyyəti tərəfindən *ratifikasiyası* lazımdır.

**BEYNƏLXALQ TƏŞKİLATLAR.** Beynəlxalq sənədlər (nizamnamə, statut və ya təsis sənədi), çoxtərəfli müqavilələr əsasında və müəyyən məqsədlərin həyata keçirilməsi məqsədilə *beynəlxalq hüquqa* müvafiq olaraq yaradılan dövlət birlikləridir. B.t. üçün təsis sənədinin mövcudluğu, nizamlama strukturu, təşkilatın başlıca məqsəd və istiqamətləri, daimi və ya münətəzəm fəaliyyət xarakteri, çoxtərəfli danışıqlar və problemlərin müzakirəsindən fəaliyyətinin başlıca metodu kimi istifadə edilməsi, səsvermə və ya *konsensus* yolu ilə qərar qəbul edilməsi xarakterikdir. B.t. hökumətlərarası təşkilatlara və beynəlxalq qeyri-hökumət təşkilatlarına (*Beynəlxalq hökumətlərarası təşkilatlar; Beynəlxalq qeyri-hökumət təşkilatları*), eləcə də ümümdünya və regional təşkilatlara bölünürlər.

*Hökumətlərarası təşkilatlar* müasir *beynəlxalq münasibətlərdə* mühüm rol oynayır. Beynəlxalq əlaqələrin genişlənməsi və inkişafı ilə əlaqədar olaraq B.t.-ın vəzifə və səlahiyyətləri də genişlənir. Müasir B.t.-ın əksəriyyəti onların nizamnamələrində nəzərdə tutulan müəyyən həcmdə beynəlxalq hüquqi subyektlərdir.

B.t. fəaliyyət istiqamətlərinə (*sülh və beynəlxalq təhlükəsizlik*, iqtisadiyyat, mədəniyyət, səhiyyə, nəqliyyat və s.), iştirakçılarının tərkibinə (universal, regional), səlahiyyətlərinin həcminə görə bir-birindən fərqlənirlər.

Həm milli ictimai təşkilatlar, ayrı-ayrı şəxslər, eləcə də şəhərlər, elmi müəssisələr B.t.ın üzvü ola bilərlər.

Hər hansı gizli təşkilatlar, qapalı klublar və s. «birliklər» B.t. kimi nəzərdə keçirilə bilməz. B.t. yaradılarkən hüquqi təbiətinə görə *beynəlxalq müqavilə* hesab edilməyən nizamnaməsi qəbul edilir. B.t. *beynəlxalq hüququn subyektləri* deyillər: onlar milli hüququn subyektləridirlər.

**BEYNƏLXALQ TƏŞKİLATLARIN İMTİYAZLARI VƏ TOXUNULMAZLIQLARI.** *Beynəlxalq hökumətlərarası təşkilatlara*, onların işçi heyətlərinə, habelə üzv dövlətlərin bu təşkilatların nəzdindəki nümayəndəliklərinə və onların əməkdaşlarına qəbul edən dövlətlərin ərazilərində verilən xüsusi hüquq və üstünlüklər.

*Beynəlxalq təşkilatı* təsis edən müqavilədə (*Beynəlxalq müqavilə*) (nizamnamə, konvensiya (*Beynəlxalq Konvensiya*), statut və s.) bir qayda olaraq, belə bir ümumi müddəa verilir ki, həmin təşkilat imtiyazlara və toxunulmazlıqlara malikdir. Həmin müddəaya əsaslanaraq üzv dövlətlər çoxtərəfli *müqavilə* bağlayırlar; müqavilədə təşkilatın imtiyazları və toxunulmazlıqları ətraflı müəyyən edilir. Belə ki, *BMT Nizamnaməsinin* 104 və 105-ci maddələrində göstərilir ki, *BMT* ona üzv olan hər bir ölkənin ərazisində (*Dövlətin ərazisi*) «bu təşkilatın vəzifələrini yerinə yetirilməsi və məqsədlərinə çatılması üçün zəruri ola bilən» hüquqlara malikdir. 1946 ildə Birləşmiş Millətlər Təşkilatının imtiyaz və toxunulmazlığına dair Konvensiya qəbul edildi. Burada həm Təşkilatın özünün, üzv dövlətlərin nümayəndələrinin, BMT-nin vəzifəli şəxslərinin, həm də BMT-nin tapşırıqlarını yerinə yetirən ekspertlərin imtiyaz və toxunulmazlığı müəyyən olunub. 1947 ildə isə BMT-nin ixtisaslaşmış

təsisatlarının imtiyaz və toxunulmazlığına dair Konvensiya qəbul olunub.

**BEYNƏLXALQ TİCARƏT MƏRKƏZLƏRİ ASSOSİASİYASI.** *Beynəlxalq qeyri-hökumət təşkilatı* olub dövlətlərarası ticarət-iqtisadi əməkdaşlığın inkişafına kömək göstərmək məqsədilə 1968 ildə təsis edilib.

**BEYNƏLXALQ TİCARƏT PALATASI.** *Beynəlxalq qeyri-hökumət təşkilatıdır.* 1919 il beynəlxalq ticarət konfransının (*Beynəlxalq konfranslar*) qərarına uyğun olaraq 1920 ildə Parisdə yaradılıb. 100-ə yaxın ölkənin işgüzar dairələrinin nümayəndələrini birləşdirir.

B.t.p.-ın fəaliyyəti başlıca olaraq, ən iri kapitalist ölkələrinin mənafeyinə xidmət edir və inkişaf etməkdə olan dövlətlərdə xarici sərmayə qoyulması üçün «əlverişli ab-hava» yaratmağa çalışır.

Rəhbər orqanları - adətən 2 ildən bir keçirilən Konqres və Şuradır.

Qərargahı Parisdədir; Nyu-Yorkda, Cenevrədə və Banqkokda şöbələri var.

**BEYNƏLXALQ TRANZİT** (lat. *transitus* – keçid, keçmə deməkdir). Xarici vətəndaşların (*Xaricilər*), həmçinin, xarici yüklərin, baqajların, nəqliyyat vasitələrinin və poçt göndərişlərinin hər hansı bir dövlətin ərazisindən keçməsi. Tranzit dövlətin ərazisi onların istiqamətlərinin tam marşrutunun yalnız bir hissəsini təşkil edir.

**BEYNƏLXALQ VALYUTA FONDU** (BVF). *Hökumətlərarası beynəlxalq təşkilat, BMT*-nin ixtisaslaşdırılmış təsisatı; Birləşmiş Millətlərin 1944 il Bretton-Vuds Konfransının (*Bretton-Vuds sazişləri*) qərarına uyğun olaraq 1945 ildə yaradılıb. BVF-in rəsmi funksiyası beynəlxalq valyuta əməkdaşlığına və ticarətə kömək göstərməkdir. Fondun fəaliyyəti bu sahədəki beynəlxalq sazişlərə riayət olunmasına nəzarət etmək, tədiyyə balanslarını tarazlaşdırmaqdan ötrü ölkələrə qısamüddətli kreditlər vermək, valyuta hesablaşmalarının çoxtərəfli sistemini yaratmağa kömək göstərmək yolu ilə həyata keçirilir.

BVF-in vəsaitləri üzv-ölkələrin ödənilən kvotaları hesabına formalaşır və 90 mlrd. ABŞ dolları təşkil edir. SDR (ing. **Special Drawing Rights** - xüsusi borcalma hüquqları) - 92 mlrd.-a yaxındır. SDR son vaxtlar BVF-in aparıcı hesablaşma vahididir, lakin real təminata malik deyil; SDR-in dəyəri Qərbin 5 aparıcı ölkəsinin valyutalarını ehtiva edən valyutalar «səbəti» bazasında gündəlik hesablanır. Üzv ölkənin BVF kapitalında kvotası ölkə əhalisinin hər nəfərinə düşən ümumi milli məhsulun, xarici ticarətin həcmi və digər iqtisadi göstəricilərlə hesablanır.

Ali orqanı - hər il öz sessiyasına toplaşan Müdirlər Şurasıdır. Daimi orqanı - İcraçı Direktorlar Şurasıdır. BVF-də qərarlar «ölçülü» səsvermə ilə qəbul olunur (hər dövlət ödədiyi maliyyə haqqına uyğun sayda səsə malikdir).

BVF-in mənzil qərargahı Vaşinqtondadır. BVF-də aparıcı rolu «onlar qrupu» deyilən dəstə - inkişaf etmiş ölkələr, ilk növbədə, BVF kapitalında 20% maliyyə-ödənc kvotasına malik ABŞ oynayır. Birləşmiş Ştatlar BVF-də həlledici səs çoxluğuna malik olub, onun valyuta siyasətini təyin edir. BVF-in kredit fəaliyyəti açıq siyasi xarakter daşıyır. Kreditlər o şərtlə verilir ki, onu alan ölkə BVF-in nöqteyi-nəzərincə məqbul sayılan iqtisadi siyasət yeritsin. BVF-in borclu ölkənin iqtisadi və maliyyə vəziyyətini təftiş etməyə haqqı var və öz üzvlərinə müfəssəl maliyyə statistikası təqdim etmək tapşırığı verir. Kreditlər adətən 3-5 il müddətinə verilir. Kreditlər üzrə faiz həddi 8-10%-dir.

**BEYNƏLXALQ YENİDƏNQURMA VƏ İNKİŞAF BANKI** (BYİB). *Beynəxalq hökumətlərarası təşkilat; BMT*-nin ixtisaslaşmış təsisatı; Birləşmiş Millətlərin 1944 il Bretton-Vuds konfransının (*Bretton-Vuds sazişləri*) qərarı ilə 1945 ildə təsis edilib; *Beynəlxalq İnkişaf Assosiasiyası* və *Beynəlxalq Maliyyə Korporasiyası* ilə birlikdə Dünya Bankı (**World Bank**) deyilən qrupu təşkil edir.

BYİB-ə yalnız *Beynəlxalq Valyuta Fondunun* iştirakçıları üzv ola bilərlər.

BYİB-in rəsmi məqsədi öz iştirakçılarına iqtisadiyyatı yenidən qurmaq və inkişaf etdirməkdə maliyyə yardımı və texniki kömək göstərmək, xarici özəl sərmayə qoyuluşları üçün stimul yaratmaq və onların ödənc balansında tarazlığı saxlamaqdır.

BYİB-in ali orqanı - Müdirlər Şurasıdır; ildə bir dəfə BVF-nin Müdirlər Şurası ilə birlikdə sessiyaya keçirir. Bankın opreativ fəaliyyətini başda BYİB prezidenti olmaqla direktorat həyata keçirir.

BYİB əsasən inkişaf etməkdə olan dövlətlərə kredit verir. BYİB daxilində ölkənin malik olduğu səslərin sayı onun BYİB kapitalındakı payı ilə müəyyən olunur. Nəticə etibarilə, başda ABŞ olmaqla, inkişaf etmiş ölkələr BYİB-də səs çoxluğuna malikdir.

BYİB-in qərargahı - Vaşinqtondadır; 37 ölkədə bölmələri vardır.

**BEYNƏLXALQ ZONA.** Maraqlı dövlətlər tərəfindən xüsusi beynəlxalq idarə rejiminin müəyyən olunduğu ərazi, bir qayda olaraq silahsızlaşdırılmış və bitərəfləşdirilmiş ərazilərdir (*Bitərəflik*).

**BƏRABƏRLİK VƏ BƏRABƏR TƏHLÜKƏSİZLİK PRİNSİPİ.** Əsasən nüvə silahlarının məhdudlaşdırılması və ixtisarına həsr edilmiş sovet-amerikan danışıqlarında tətbiq edilən prinsip.

Bu prinsipə görə hər hansı bir tərəfin üstünlük qazanmasını istisna edən qərarlar qəbul edilməlidir. Onun həyata keçirilməsində strateji vəziyyəti və tərəflərin təhlükəsizliyinə təsir göstərən amillər (nüvə silahlarının tərkibi, coğrafi vəziyyətin xüsusiyyətləri, strateji silahların inkişaf yolları və s.) nəzərə alınmalıdır.

**BƏST** (farscadır). İranda sığınacağın köhnə ənənələrə əsaslanan toxunulmazlıq hüququdur. İlk vaxtlar B. daha çox müqəddəs hesab olunan dini yerlərə (məscidlərə, türbələrə, ali ruhanilərin evlərinə) aid edilirdi. XIX əsrdən etibarən bəzi hallarda B. üçün xarici *səfirliklərin* və *diplomatik missiyaların* binaları da istifadə olunmağa başladı.

**BƏYANAT** (lat. *declaro* – elan edirəm). Dövlətin daxili və *xarici siyasət* prinsiplərini elan etdiyi və yaxud konkret məsələlərə dair öz mövqeyini bildirdiyi birtərəfli, ikitərəfli və ya çoxtərəfli sənəd. Əksər hallarda ikitərəfli və çoxtərəfli B. imzalanır, lakin iştirakçıların istəyi ilə imzalanmadan da qəbul edilə bilər. Bir neçə dövlət və hökumət başçılarının (*Dövlət başçısı, hökumət başçısı*), xarici işlər nazirləri və digər rəsmi dövlət xadimlərinin, o cümlədən *beynəlxalq təşkilatlar* çərçivəsində birgə *bəyanat* ilə çıxış etmək praktikası mövcuddur. Dövlət və hökumətlərin tanınması da bəyanat formasında həyata keçirilə bilər. Praktikada *beynəlxalq*

*müqavilələrin* də B. formasıyla bağlanmasına rast gəlinir.

**BƏYANNAMƏ.** Birtərəfli, ikitərəfli və ya çoxtərəfli *bəyanat* olub, dövlətlər adından onların daxili və *xarici siyasətinin* əsas prinsiplərini ifadə edir, yaxud konkret məsələyə dair münasibətlərini əks etdirir. B. əksər hallarda imzalanır, lakin iştirakçıların arzusundan asılı olaraq imzasız da qəbul edilə bilər.

Dünya təcrübəsində bir neçə dövlət və hökumət başçılarının (*Dövlət başçısı, hökumət başçısı*), xarici işlər nazirlərinin, digər rəsmi dövlət nümayəndələrinin birgə B. ilə çıxış etmə halları mövcuddur. Dövlətlərin və hökumətlərin tanınması (*Beynəlxalq hüquqi tanınma*) B. formasında həyata keçirilə bilər. Təcrübədə *beynəlxalq müqavilələrin* B. formasında bağlanması hallarına rast gəlinir.

**BƏYAZİD I İLDIRIM** (1360-1403). Osmanlı sultanı, görgəmli sərkərdə və dövlət xadimi.

Atası I Muradın sağlığında bir sıra Anadolu səlcuq bəyliklərini ələ keçirmiş, onları Osmanlı dövlətinin tərkibinə qatmışdır. I Murad 1389 ildə Kosovo döyüşündə həlak olduqdan sonra Bəyazid sultanlıq taxt-tacına sahib olmuş, ordunun mübariz ruhunu qoruyub saxlamışdır. Cəsarətinə və çevikliyinə görə ona İldırım ləqəbi verilmişdi.

O, Konstantinopolu (İstanbul) ələ keçirmək məqsədilə 1394 ildə onu mühasirəyə aldı. Macarıstan və Venetsiyanın təşəbbüsü ilə bir sıra Avropa dövlətləri Osmanlı dövlətinə qarşı səlib yürüşü təşkil etmişlər. 1396 ildə Nikopol altında o, səlib ordusunu darmadağın etdi. Bolqarıstan tamamilə türklərin əlinə keçdi. 1397 ildə Anadoluda osmanlıların ən qorxulu rəqibi olan Karaman bəyliyi də bir vilayət kimi *osmanlı dövlətinə qatıldı*. 1399 ildə Əmir Teymur (Teymurləng) Anadoluya soxularkən, torpaqlarını itirən Anadolu səlcuq bəyləri dərhal ona qoşuldular. 1402 ildə Teymur ilə Bəyazid arasında Ankara altında qanlı döyüş baş verdi, məğlub olaraq əsir düşdü, və 1403 ildə əsirlikdə ikən özünü zəhərləyib öldürdü.

**BHUTTO BİNƏZİR** (1953). XII.1988 ildə Pakistan İslam Respublikasının Baş naziri və maliyyə naziri olub. Pakistanın sabiq baş naziri Zülfüqar Əli Buhuttonun qızıdır. Təhsilini Kəraçidəki missioner məktəbində alıb, sonradan ABŞ-ın Radkliff Universitetində və B.Britaniyanın Oksford Universitetində oxuyub, siyasət, fəlsəfə və iqtisadiyyat üzrə ixtisaslaşıb. 1979 ildən fəal siyasətdədir, dəfələrlə həbs edilib. 1982 ildən faktiki olaraq Pakistan Xalq Partiyasının lideridir, 1986 ildən isə PXP-nin həmsədridir. 1984-86 illərdə Londonda mühacirətdə (*Mühacir*) yaşayıb. IV.1986 ildə vətənə qayıdıb. 16.XI.1988 ildə Parlamentin Milli Assambleyasında (aşağı palata) PXP daha çox deputat mandatı əldə etdiyindən Binəzir Bhutto islam dünyasında ilk qadın - baş nazir olmuşdu.

**BHUTTO ZÜLFÜQARƏLİ** (1928-1969). XII.1971-IV.1972 illərdə Pakistanın baş naziri, habelə xarici işlər naziri və müdafiə naziri; IV.1972 ildə Pakistan Milli Assambleyasının sədri olub. ABŞ-ın Kaliforniya Universitetində və B.Britaniyanın Oksford Universitetində hüquq təhsili alıb. 1958-1960 illərdə ticarət naziri, 1960-1962 illərdə informasiya və radioverilişləri naziri, yanacaq, energetika və təbii ehtiyatlar naziri, 1963-1966 illərdə xarici işlər naziri, III.1965-XII.1966 illərdə Pakistan Müsəlman Cəmiyyətinin Baş katibi olub. 1967 ildə Pakistan Xalq Partiyasını yaradıb. XI.1968 ildə «dövlətin təhlükəsizliyinə qarşı fəaliyyət göstərmək» ittihamı ilə həbs olunmuş, sonradan edam edilmişdi.

**«BİLDERBERQ KLUBU».** Aparıcı dövlətlərinin sənaye və maliyyə dairələri nümayənədələrinin, nüfuzlu dövlət və siyasi xadimlərinin təşkil etdikləri təsisat. «Bilderberq klubu»nun ilk iclası 29-31.V.1954 ildə Osterbek (Niderland) yaxınlığındakı «Bilderberq» mehmanxanasında gizli şəraitdə keçirilib. Klubun iclaslarında siyasi, hərbi və iqtisadi məsələlər müzakirə edilir, aparıcı dövlətlərin mövqelərini qoruyub saxlamaqdan ötrü yeni tədbirlər hazırlanır. Klubun rəhbər komitəsi 25-30 nəfərdən ibarətdir. Klubun işində iştirakı zəruri sayılan şəxsləri komitə gündəlikdə duran məsələdən asılı olaraq dəvət edir.

**BİRİNCİ DÜNYA MÜHARİBƏSİ** (1914-1918). *«Üçlər İttifaqı»* ilə *Antanta* ölkələri arasında təsir dairəsi, xammal mənbələri, dünya ağalığı uğrunda aparılan *müharibə*. Müharibənin əsas günahkarı, Böyük Britaniya, Fransa və Rusiyanın yeni müstəmləkələr işğal etmək planlarını silah gücünə pozmaq və onlara tabe əraziləri ələ keçirməyə çalışan Almaniya olmuşdu.

28.VII.1914 ildə Avstriya-Macarıstan taxt-tacının vəliəhdi Frans Ferdinandın «Mlada Bosna» serb milli təşkilatının üzvü Qavrilo Prinsip tərəfindən öldürülməsindən bəhanə kimi istifadə edən Avstriya-Macarıstan, Almaniyanın təzyiqi altında, Serbiyaya müharibə elan etdi. 01.VIII.1914 ildə Almaniya Rusiyaya, 03.VIII. Fransaya, 04.VIII. Böyük-Britaniya Almaniyaya müharibə elan etdi. 23.VIII. Yaponiya Antanta tərəfdən müharibəyə qoşuldu. 29.X. Türkiyə alman bloku tərəfdən müharibəyə qoşuldu. 23.V.1915 ildə İtaliya Antantaya daxil oldu. 14.X. Bolqarıstan Almaniyanın müttəfiqi kimi müharibəyə daxil oldu. 27.VIII.1916 ildə Rumıniya Antanta tərəfdən müharibəyə qoşuldu. 06.VI.1917 ildə ABŞ Almaniya-Avstriya blokuna qarşı müharibəyə daxil oldu. Ümumilikdə müharibəyə 1,5 mld. nəfər əhalini təmsil edən 38 dövlət cəlb olunmuşdu.

X.1917 il inqilabından sonra Rusiya müharibədən çıxdığını elan etdi və Almaniya ilə Brest-Litovsk (*Brest) sülh müqaviləsini* imzalamağa məcbur oldu.

Müharibə Almaniya-Avstriya blokunun tam məğlubiyyəti ilə nəticələndi. 29.IX.1918 ildə Bolqarıstan, 30.X. Türkiyə, 3.XI. Avstriya-Macarıstan, 11.XI. Almaniya təslim oldu. Almaniya və onun müttəfiqləri ilə sülh müqavilələrinin şərtləri 1919-1920 illər *Paris sülh konfransında* işlənib hazırlandı.

4 il 3 ay 10 gün davam etmiş birinci dünya müharibəsində 9,5 mln. nəfər həlak olmuş, 20 mln. nəfər yaralanmışdı.

**BİRLƏŞMİŞ MİLLƏTLƏRİN ELM, TƏHSİL VƏ MƏDƏNİYYƏT ÜZRƏ TƏŞKİLATI** (YUNESKO). *Beynəlxalq hökumətlərarası təşkilat*; *BMT*-nin ixtisaslaşmış təsisatı; 1945 ilin noyabrında Londonda 44 ölkə nümayəndələrinin konfransında (*Beynəlxalq konfranslar*) təsis edilib. YUNESKO Nizamnaməsi 4.XI. 1946 ildə qüvvəyə minib, 31.XII.1984 ildə ABŞ YUNESKO-dan çıxıb.

YUNESKO-nun qarşısında duran əsas vəzifə xalqların təhsil, elm, mədəniyyət və informasiya sahələrində

əməkdaşlığını genişləndirmək yolu ilə sülh və *beynəlxalq təhlükəsizliyin* möhkəmlənməsinə kömək etməkdir.

YUNESKO-nun ali orqanı Baş konfransdır; üzv dövlətlərin nümayəndələrinin iştirakı ilə 2 ildən bir sessiya keçirilir. Baş konfransın qəbul etdiyi proqram və planların yerinə yetirilməsinə konfransın 4 il müddətinə seçdiyi 51 nəfərdən ibarət İcra Şurası məsuldur. YUNESKO-nun daimi işçi orqanı - Katiblikdir.

Baş direktor İcra Şurasının təqdimatı ilə Baş Konfrans tərəfindən 6 il müddətinə təyin olunur. YUNESKO-nun mənzil qərargahı Parisdədir.

YUNESKO öz işini 2 illik proqramlar və ortamüddətli (6 illik) planlar əsasında qurur.

Təşkilatın Nizamnaməsinə uyğun olaraq, üzv dövlətlər YUNESKO işləri üzrə milli komissiyalar yaradırlar.

**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI** (BMT). Sülhü və *beynəlxalq təhlükəsizliyi* qoruyub möhkəmlətmək və suveren dövlətlər (*Dövlətlərin suverenliyi*) arasında əməkdaşlığı inkişaf etdirmək məqsədilə bu dövlətlərin səylərini könüllü birləşdirmək əsasında *antihitler koalisiyanın* başlıca iştirakçılarının təşəbbüsü ilə yaradılmış *beynəlxalq təşkilat*; faşizm üzərində qazanılan böyük qələbə sayəsində meydana gəlmişdi.

BMT-nin yaradılması yolunda ilk addım 12.VI.1941 ildə atılıb. Həmin gün Londonda ABŞ və Böyük Britaniya «başqa azad xalqlarla həm *müharibə*, həm də sülh dövründə birgə çıxış etmək» adlı İttifaq *Bəyannaməsi* imzaladılar. 14.VIII.1941 ildə ABŞ *prezidenti* F.D.Ruzvelt (*Ruzvelt Franklin Delano*) və Böyük Britaniyanın baş naziri U.Çörçill (*Çörçill Uinston Leonard Spenser*) beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasına dair *Atlantik Xartiyası* adlı sənəd imzaladılar. 01.I.1942 ildə faşizmə qarşı vuruşan 26 dövlətin nümayəndələri Atlantik Xartiyası sənədinə qoşularaq «Birləşmiş Millətlərin Bəyannaməsi» adlı sənəd qəbul etdilər və bu sənəddə Ruzveltin təklifi ilə ilk dəfə olaraq «Birləşmiş Millətlər» ifadəsi işlədildi. Növbəti addım 30.X.1943 ildə SSRİ, ABŞ, Böyük Britaniya və Çin nümayəndələrinin Moskva görüşündə atıldı. Burada imzalanan bəyannamədə beynəlxalq sülhün və təhlükəsizliyin qorunması naminə universal beynəlxalq bir təşkilatın tezliklə yaradılmasının zəruriliyi qeyd edildi. Həmin qərar XII.1943 ildə ABŞ, İngiltərə və SSRİ-nin *hökumət başçılarının* konfransında bir daha təsdiq edildi. BMT-nin ilk layihəsi Vaşinqtonda *Dumbarton Oks konfransında (Beynəlxalq konfransda)* hazırlandı. Burada IX-X.1944 ildə SSRİ, İngiltərə, ABŞ və Çin nümayəndələrinin iştirakı ilə keçirilən toplantıda BMT-nin məqsədləri, strukturu və vəzifələri müəyyən edildi. 11.II.1945 ildə Yalta Konfransında F.Ruzvelt, U.Çörçil və İ.Stalin (*Stalin İosif Vissarionoviç*) «sülh və təhlükəsizliyin qorunması məqsədilə baş beynəlxalq təşkilatın» təsis olunduğunu bəyan etdilər. 25.IV.1945 ildə 50 ölkə nümayəndələrinin iştirakı ilə Birləşmiş Millətlərin *San-Fransisko konfransı* çağırıldı. 26.VI. San-Fransisko şəhərinin veteranlara məxsus Memorial Holl salonunda *BMT-nin Nizamnaməsi* 50 dövlətin nümayəndələri tərəfindən imzalandı.

Beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq, sülh üçün yaranan təhlükənin qarşısını alıb, onu aradan qaldırmaq, təcavüz hərəkətlərini boğmaq, əmin-amanlığın pozulmasına gətirib çıxara biləcək beynəlxalq mübahisələri, yaxud halları dinc yollarla sahmana salmaq və ya həll etmək (*Beynəlxalq münaqişələrin cülh yolu ilə həll edilməsi*); xalqların hüquq bərabərliyi və müqəddəratını təyin etmək prinsipinə hörmət əsasında millətlər arasında dostluq münasibətlərini inkişaf etdirmək; iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həllinə mötədil mövqedən yanaşmaq; insan hüquqlarına, irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq hamı üçün əsas azadlıqlara hörmətlə yanaşmaqla beynəlxalq əməkdaşlıq əlaqələri yaratmaq; dövlətlərin bu məqsədlərə çatmaq yolunda tədbirlərini əlaqələndirmək - BMT Nizamnaməsində təsbit edilən vəzifələrdir.

BMT üzvləri aşağıdakı prinsiplərə uyğun hərəkət etməyi öhdəyə götürürlər: dövlətlərin suveren bərabərliyi; Nizamnamə üzrə qəbul olunmuş öhdəliklərin vicdanla yerinə yetirilməsi; beynəlxalq mübahisələrin dinc vasitələrlə həlli - elə həlli ki, beynəlxalq sülh, təhlükəsizlik və ədalət təhlükə altına düşməsin; *beynəlxalq münasibətlərdə*, istər hər hansı dövlətin ərazi toxunulmazlığına ya da siyasi müstəqilliyinə qarşı yönələn, istərsə də BMT qayələri ilə bir araya sığmayan hər hansı bir tərzdə qüvvə ilə hədə-qorxu gəlməkdən, yaxud qüvvə tətbiq etməklə qorxutmaqdan çəkinmək; BMT-yə onun Nizamnaməsinə uyğun qaydada gördüyü işlərdə hər cür kömək göstərmək və barəsində BMT-nin preventiv, yaxud icbari hərəkətlərə əl atdığı hər hansı dövlətə yardım göstərməkdən imtina etmək.

Azərbaycan Respublikası 02.III.1992 ildən BMT-nin üzvüdür.

BMT-nin başlıca orqanları – Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Qəyyumluq Şurası, *Beynəlxalq Məhkəmə* və Katiblikdir (*BMT Baş Məclisi, BMT Təhlükəsizlik Şurası, BMT-nin İqtisadi və Sosial Şurası, BMT Katibliyi, BMT Qəyyumluq Şurası*). Zərurət yarandıqda Nizamnaməyə uyğun olaraq əlavə orqanlar da təsis edilir.

Qərargahı Nyu-Yorkdadır. Cenevrə və Vyanada BMT filialları fəaliyyət göstərir.

İqtisadi, sosial və digər sahələrdə dövlətlər arasında əməkdaşlığı inkişaf etdirmək məqsədilə BMT-in ixtisaslaşmış təsisatları fəaliyyət göstərir (*Beynəlxalq hökumətlərarası təşkilatlar*).

BMT fəaliyyətində əsas tarixi mərhələlər aşağıdakılardır:

24.X.1945 il. Nizamnamə üzv dövlətlər tərəfindən ratifikasiya edildiyindən Birləşmiş Millətlər Təşkilatının yaradılması rəsmən elan olunub.

10.I.1946 il. Üzv dövlətlərin nümayəndələrinin iştirakı ilə Londonda Vestminsternin Mərkəzi salonunda BMT Baş Məclisinin ilk iclası çağırılıb.

**BİRLİK** (ing. – *Communwealth*). Britaniya müstəmləkə imperiyasının böhranı və dağılması nəticəsində Böyük Britaniyanın və onun əksər dominionları, müstəmləkələri, eləcə də asılı ərazilərində yaranan dövlətlər arasındakı birlik.

B.-ə 49 ölkə daxildir. B.-ə üzv ölkələrin müstəqil dövlətlər kimi statusu və onlar arasında qarşılıqlı münasibətlərin prinsipləri ilk dəfə 1926 və 1930 illərdə imperiya konfranslarında müəyyən edilib. Britaniya Parlamenti tərəfindən 1931 ildə qəbul edilən Vestminister statutu 6 özünüidarə dominionunun (Avstraliya, Yeni Zelandiya, Cənubi Afrika İttifaqı, Kanada, Nyufaundlend və İrlandiya) Böyük Bri-

taniyaya münasibətdə yuridik hüquq bərabərliyini təsdiq etdi. İngiltərə ilə birlikdə Britaniya Millətlər Birliyinə daxil olan bu ölkələr Britaniya monarxını təkcə B.-in deyil, həm də hər bir müvafiq dominion dövlətin başçısı kimi qəbul etdilər.

Hindistan, Pakistan (1947), Seylon (1948) və digər Britaniya mülkləri dövlət müstəqilliyi əldə etdikdən və respublika idarəçiliyi formasına keçdikdən sonra B.-in konstitusion əsaslarında dəyişikliklər edildi.

B.-in ali orqanı *hökumət başçılarının* iki ildən bir çağırılan konfransıdır. B iştirakçıları bir-birinin paytaxtlarında ali komissarlar təsis etməklə təmsil olunurlar. 1965 ildə Londonda B.-in daimi Katibliyi yaradılıb. İnkişaf etməkdə olan ölkələrə texniki yardım göstərmək üçün Birləşmiş Fond təsis edilib.

**BİRMA-HİNDİSTAN MÜQAVİLƏSİ VƏ SAZİŞİ.** 1) 1951 il müqaviləsi (*Beynəlxalq müqavilə*); dostluğa dair; 5 il müddətinə, 7.II. Ranqunda imzalanıb. Tərəflərdən biri onu ləğv etmədikdə, öz-özünə, daha 5 il müddətinə uzadıla bilərdi. Hər iki dövlət bir-birinin müstəqilliyini və hüquqlarını tanıyıb ona hörmət etdiklərini, əbədi sülh və sarsılmaz dostluq prinsiplərinə əsaslanaraq, «hər iki ölkənin xalqları arasında mövcud olan səmimi münasibətlərin möhkəmlənməsi üçün» var qüvvələrini sərf edəcəklərini bildirmişlər. Tərəflər ticarət, poçt-teleqraf, vətəndaşların mühacirəti, köçürülməsi və eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında danışıqlara başlayıb saziş bağlamaq barədə razılığa gəlmişlər.

2) 1967 il sazişi; sərhədlərə dair (*Dövlət sərhədləri*); 10.III. ildə Ranqunda imzalandı və 30.V təsdiq edildi.

S. Birma ilə Hindistan arasında sərhədin təsvirini verir; sərhədin şimal qurtaracağının dəqiq yeri son *demarkasiyayadək* şərti olaraq qalır. S. imzalanarkən Birma tərəfi bildirib ki, üç dövlətin – ÇXR, Hindistan və Birmanın təmas xəttində ən şimal sahənin müəyyən edilməsi Çinlə Hindistan arasında müvafiq saziş bağlanandək şərti qalacaqdır. S. əslində bütün Hindistan-Birma sərhədlərinin demarkasiyası üzrə qarışıq sərhəd komissiyasının yaradılmasını nəzərdə tuturdu.

**BİRTƏRƏFLİ AKT.** Hər hansı dövlətin beynəlxalq planda müəyyən hüquqi nəticələrin əldə edilməsinə yönəlmiş iradəsinin ifadəsidir. Dövlət B.a. yolu ilə digər dövlətlərin diqqətini hər hansı bir fakta, situasiyaya, fəaliyyət formasına və s. cəlb edir. B.a.-nın əsas növləri aşağıdakılardır: hər hansı tələblərin, fakt və situasiyaların qanunauyğunluğunun tanınması, dövlətin hüquq və maraqlarına təhlükə və ya onların pozulması ilə əlaqədar etiraz, münasibətlərdə müəyyən davranış qaydalarına əməl olunmasına hər hansı vəd vermək və ya əmin etmək hüququndan istifadə etməkdən imtina. Bəzən notifikasiyanı da B.a. aid edirlər. Ümumi qaydaya görə gövlət tərəfindən B.a.-ın qəbul edilməsi digər dövlətin razılığından asılı olmur və onların üzərinə beynəlxalq öhdəliklər qoymur. Bununla belə bu digər dövlətlər üçün də *beynəlxalq hüquq* normalarına uyğun olaraq qəbul olunmuş B.a.-dan irəli gələn hüquqi nəticələrin meydana gəlməsi mümkünlüyünü istisna etmir.

**BİSMARK OTTO EDUARD LEOPOLD FON ŞÖNHAUZEN** (1815-1898). Knyaz, Almaniyanın dövlət xadimi və *diplomatı*. 1851-1859 illərdə Frankfurt-





Maynda Almaniya İttifaqının bundestaqında Prussiyanın təmsilçisi; 1859-1862 illərdə Prusiyanın Rusiyada, 1862 ildə Fransada *səfiri*, 1862-1867 illərdə Prussiyanın Baş naziri və xarici işlər naziri olub. Almaniyanın Prussiya hegemonluğu altında birləşməsini başa çatdırıb. Şimali Almaniya İttifaqı yaradıldıqdan sonra, 1867-1871 illərdə bundes kansler, Fransa-Prussiya *müharibəsində* qələbədən sonra 1871-1890 illərdə Almaniya imperiyasının reyxskansleri olub. 1871 il Paris Kommunasını çökdürənlərdən biridir. Fransa qisasçılığına və antialman *koalisiyasının* yaranmasına yol verməməyə çalışaraq, üç imperatorun İttifaqını yaratmağın (1873-1887), Avstriya-Macarıstanla ittifaq müqaviləsi (*Beynəlxalq müqavilə*) bağlamağın (1879), habelə 1882 ildə Avropanı iki düşmən koalisiyaya parçalamağın əsasını qoymuş, *Üçlər İttifaqını* yaratmağın təşəbbüsçüsü olmuşdur. 1887 ildə Rusiya ilə «özünü sığortalama» deyilən müqavilə imzalayıb. Rusiya ilə döyüşlərin Almaniya üçün təhlükəli olduğu qənaətinə gələrək, alman hərbi dairələrinin Rusiya ilə preventiv müharibəyə başlamaq niyyətinə qarşı çıxmışdır. Lakin onun atdığı əməli addımlar Rusiya-Almaniya münasibətlərinin pisləşməsinə gətirib çıxarmışdır. 1890 ildə istefaya göndərilib.

**BİTƏRƏFLİK.** Dövlətin xüsusi beynəlxalq hüquqi statusu. *Beynəlxalq hüquq* iki cür bitərəflik tanıyır: *müharibə* zamanı bitərəflik (eventual) və daimi bitərəflik.

Eventual bitərəflik dedikdə müharibə baş verdiyi halda həmin müharibədə müəyyən bir dövlətin döyüşən dövlətlərdən hər hansı birinin tərəfində iştirak etməməsi haqqında *bəyanatı* başa düşülür.

Daimi bitərəflik dedikdə müəyyən bir dövlətin beynəlxalq-hüquqi statusu ona başqa dövlətlər arasında baş verə bilən silahlı münaqişələrdə iştirak etməməyi, hərbi-siyasi ittifaq və bloklara girməməyi, öz ərazisini xarici qoşun və hərbi bazaların istifadəsinə verməməyi nəzərdə tutulur. Daimi bitərəflik qarantsız və ya hansısa dövlətlər (məs., böyük dövlətlər) tərəfindən qarantlı ola bilər. Hal-hazırda daimi bitərəf dövlət statusuna İsveçrə, Avstriya, Malta ölkələri malikdirlər.

İsveç də bitərəflik siyasəti yürüdür. Lakin onun bitərəfliyi haqqında müddəa nə ölkənin konstitusiya aktlarında, nə də hər hansı *beynəlxalq müqavilədə* təsbit edilməyib. Ona görə də İsveçin yalnız ənənəvi bitərəfliyindən söhbət gedə bilər.

Öz bitərəfliyini bəyan edən ölkənin suveren iradəsinə başqa dövlətlər hörmət etməlidirlər. Buna baxmayaraq, bəzən bitərəf dövlətlərin hüquqları müəyyən dövlətlər tərəfindən pozulur. Belə ki, *Birinci Dünya müharibəsi* zamanı Belçika və Lüksemburqun, İranın, *İkinci Dünya müharibəsi* zamanı isə Belçikanın və Hollandiyanın, Lüksemburqun və İranın bitərəfliyi kobudcasına pozmuşdu.

Beynəlxalq hüquqda habelə döyüşməyən dövlət məfhumu da mövcuddur. Belə ki, ikinci dünya müharibəsi zamanı bir sıra dövlətlər bəyan etdilər ki, onlar bitərəfliyə riayət etməyəcək, lakin bununla belə hərbi əməliyyatlarda iştirak da etməyəcəklər.

Vuruşmayan dövlətin statusu hüquqazidd məqsədlərə (təcavüzkara kömək) xidmət etməməlidir, çünki bu beynəlxalq hüququn prinsip və normalarının pozulması deməkdir.

**BJEZİNSKİ ZBİQNEV** (1928). Alim-politoloq, ABŞ dövlət xadimi.

1953-1960 illərdə Harvard Universitetində (Rus Tədqiqatları Mərkəzində və eyni zamanda 1956-1960 illərdə Beynəlxalq Problemlər Mərkəzində) elmi-tədqiqat işlərində çalışıb. 1962-1977 illərdə professor, eyni zamanda kommunizm Problemləri İnstitutunun direktoru işləyib. 1962 ildən ABŞ Dövlət Departamentinin məsləhətçisi, 1966-1968 illərdən Dövlət Departamentinin siyasətini planlaşdırma şurasının üzvü, 1973-1976 illərdə Üçtərəfli komissiyasının direktoru işləyib. 1977-1981 illərdə ABŞ *prezidentinin* Milli Təhlükəsizlik üzrə köməkçisi, ABŞ Milli Təhlükəsizlik Şurasının üzvü olub. 1981 ildən «**Din, Uitter, Reynolds ink.**» şirkətinin məsləhətçisi, Corctaun Universiteti Strateci Araşdırmalar Mərkəzinin böyük müşaviri, Kolumbiya Universitetinin professoru vəzifələrində çalışmışdır.

«Böyük şahmat taxtası» əsərinin müəllifidir.

**BLEER TONİ** (1953). Oksford universitetində hüquq ixtisası üzrə təhsil almışdır. 1975 ildə Leyboristlər partiyasına daxil olmuş, 1994 ildə onun lideri seçilmişdir.

1997 ilin parlament seçkilərində «Yeni leyboristlər» şüarı altında çıxış etmiş, Leyboristlər partiyasının qələbəsindən sonra baş *nazir* vəzifəsini tutmuşdur. Şimali İrlandiya və Şin feyn (İrlandiya respublikaçılar ordusunun siyasi orqanı) ilə danışıqlarda konstruktiv mövqe nümayiş etdirərək sülh müqaviləsinin imzalanmasına nail olmuşdur.

Yaxın Şərqdə və Balkanlarda gedən proseslərdə ABŞ-ın müttəfiqi kimi çıxış etmişdir. XII.1998 ildə ölkənin hərbi hava qüvvələrinin İraqa qarşı, III.1999 ildə isə Yuqoslaviyaya qarşı aksiyalarda iştirakına razılıq vermişdir.

2005 ilin parlament seçkilərində onun başçılıq etdiyi Leyboristlər partiyası yenidən qalib gəlmişdir.

**BLOXİN ALEKSANDR VİKTOROVİÇ** (1951). 1974 ildə İvanovo Energetika İnstitutunu bitirmişdir. 1974-1990 illərdə İvanovo və Moskva vilayətlərində müxtəlif təşkilatlarda mühəndis, 1990-1993 illərdə Rusiya Ali Sovetinin deputatı olmuşdur. 1993-1995 illərdə Rusiya Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) rəis işləmişdir. I sinif Fövqəladə və Səlahiyyətli *elçi*, I sinif diplomatik müşavir dərəcəsinə malikdir. 1995-2000 illərdə Rusiya Federasiyasının Azərbaycan Respublikasında *səfiri* işləmişdir.

**BLOKLARA QOŞULMAYAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ KONFRANSLARI.** *Qoşulmamaq siyasətinin* yüksək forumları; bu toplantılarda hərəkatın əsas fəaliyyət istiqamətləri müəyyən olunur, müasir dövrün başlıca problemləri üzrə iştirakçı ölkələrin razılaşdırılmış mövqelərini təsbit edən proqram sənədlər işlənib hazırlanır və qəbul edilir. 1970 ildən K.-lar təxminən 3 ildən bir keçirilir.

K.-lar sülhün və *beynəlxalq təhlükəsizliyin* təmin olunması, sürətlə silahlanmanın cilovlanması, tam və ümumi tərk-silah, digər demokratik-mütərəqqi dövlət və hərəkatlarla geniş əməkdaşlıq uğrunda çıxış edir.

K.-ın sənədlərində təcavüzkarlıq, zor işlətmək və güc tətbiqi ilə hədə-qorxu gəlmək siyasəti qəti şəkildə pislənilir, Yaxın Şərq probleminin (*Ərəb-İsrail müharibələri; Yaxın Şərq müharibəsi 1967*) ədalətli və hərtərəfli tənzimlənməsi uğrunda mübarizəsi dəstəklənir, aparıcı dövlətlərdən təcavüzün qarşısını almaq tələb olunur.

K.-ın qərarlarında müstəmləkəçiliyi və yeni müstəmləkəçiliyi, *irqçiliyi* və *aparteidi* pisləyən çağırışlar aparıcı xətt təşkil edir.

05-09.IX.1973 il IV K.-dan başlayaraq bu toplantılarda müntəzəm olaraq qoşulmayan ölkələr arasında xammal, maliyyə, texnologiya və digər sahələr üzrə iqtisadi əməkdaşlığın «Hərəkət proqramları» qəbul olunur.

**BMT BAŞ KATİBİ.** *Birləşmiş Millətlər Təşkilatının* başlıca inzibati vəzifəli şəxsi; B.k. *BMT Nizamnaməsinə* uyğun olaraq *BMT Katibliyinin* bütün bölmələrinə ümumi direktiv göstərişlər verir, təşkilatın fəaliyyətini əlaqələndirir, işçi heyətinə rəhbərlik edir, BMT-nin başlıca orqanları tərəfindən ona həvalə edilən digər vəzifələri yerinə yetirir. Baş katib «onun fikrincə, beynəlxalq sülh və təhlükəsizlik üçün təhlükə ola bilən» bütün məsələləri *BMT Təhlükəsizlik Şurasının* nəzərinə çatdırmaq hüququna malikdir. BMT *Baş Məclisinə* BMT-nin işi barədə illik hesabat və BM-i maraqlandıran digər məsələlərə dair əlavə məruzələr verir. B.k. Təhlükəsizlik Şurasının tövsiyəsi ilə BMT BM tərəfindən 5 il müddətinə seçilir və eyni müddətə ikinci dəfə seçilmək hüququna malikdir.

B.k. vəzifəsini Li Tryüqve (Norveç) II.1946–IV.1953; Daq Hammarşeld (İsveç) – IV.1953-IX.1961; U.Tan (Birma) – XI.1961-XI.1971; K.Valdhaym (Avstriya) – XII.1971-XII.1981; X.Peres de Kuelyar (Peru) XII.1981 – XII.1991; Butros Qali (Misir) XII.1991-XII.1996 tutublar. XII.1996 ildən Baş Katib vəzifəsinə Kofi Anan (Nigeriya) seçilib.

**BMT BAŞ MƏCLİSİ.** *Birləşmiş Millətlər Təşkilatının* başlıca orqanlarından biri; BMT-nin bütün üzvlərindən təşkil edilir. *BMT Nizamnaməsinə* görə, BM beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq işində beynəlxalq əməkdaşlığın ümumi prinsiplərini, o cümlədən *tərksilah* və silahlanmanı müəyyən edən prinsipləri, nəzərdən keçirmək və bu məsələlərə dair tövsiyələr vermək hüququna malikdir. Haqqında tədbir görülməsi lazım bilinən məsələ BM tərəfindən *BMT Təhlükəsizlik Şurasına* verilir. BMT büdcəsinin təsdiqi də BM-in funksiyasına daxildir. BMT BM hər il özünün növbəti sessiyalarına toplaşır.

Növbəti sessiyalarda ümumi siyasi diskussiyalar aparılır. Gündəliyin ayrı-ayrı məsələləri, onlara dair qətnamə və qərarların müzakirəsi B.M.-in plenar iclaslarında və ya 7 başlıca komitəsində aparılır. Qərarlar B.M.-in plenar iclaslarında qəbul olunur.

B.M.-in hər üzvü bir səsə malikdir. Mühüm məsələlərə dair B.M.-in qərarları 2/3 səs çoxluğu, digər məsələlər üzrə isə BMT-nin sessiyada olan və səsvermədə iştirak edən üzvlərinin səs çoxluğu ilə qəbul olunur.

B.M.-in iclasları, əsasən, Nyu-Yorkda, nadir hallarda isə, qəbul olunan qərara əsasən, başqa yerlərdə keçirilir.

**BMT KATİBLİYİ.** *Birləşmiş Millətlər Təşkilatının* altı başlıca orqanından biri; BMT-nin inzibati-təşkilati funksiyalarını yerinə yetirməkdən ötrü təsis edilib. B.k. *beynəlxalq müqavilələrin* qeydiyyatını aparır və onları nəşr etdirir. B.k. Baş katibdən və işçi heyətindən ibarətdir. İşçi heyəti *BMT Nizamnaməsinin* 97-101 maddələrinə uyğun olaraq Baş katib tərəfindən və *BMT Baş Məclisinin* müəyyən etdiyi qaydalar

əsasında təyin edilir. BMT Nizamnaməsi işçi heyətin mümkün qədər daha geniş coğrafi əsasda seçilməsini tövsiyə edir.

B.k. Nyu-Yorkda yerləşir, departamentlərdən, mərkəzlərdən, bürolardan və şöbələrdən ibarətdir; Cenevrədə, Vyanada və BMT orqanlarının fəaliyyət göstərdiyi digər yerlərdə bölmələri var.

**BMT QƏYYUMLUQ ŞURASI.** *Birləşmiş Millətlər Təşkilatının* altı başlıca orqanından biri; *BMT Baş Məclisinin* rəhbərliyi altında, qəyyumluğa götürülmüş əraziləri idarə edən dövlətlər tərəfindən *beynəlxalq qəyyumluq sisteminə* dair əsas vəzifələrə riayət olunmasına nəzarət edir.

Q.ş. *BMT Nizamnaməsinin* 86-91 maddələrinə uyğun fəaliyyət göstərir. 86-cı maddəyə müvafiq olaraq Q.ş.-na aşağıdakılar daxildir: BMT üzvləri, *qəyyumluq* altında olan ərazilərin idarəçiləri, qəyyumluğunda ərazilər olmayan *BMT Təhlükəsizlik Şurasının* üzvləri.

Hazırda Q.ş.-nın fəaliyyəti məhdudlaşdırılıb, belə ki, qəyyumluq altındakı ərazilər, (Mikroneziyadan başqa), müstəqillik əldə edib.

**BMT-nin BEYNƏLXALQ TERRORİZM ÜZRƏ XÜSUSİ KOMİTƏSİ.** *BMT Baş Məclisinin* köməkçi orqanı; BMT BM-in 3034 saylı *qətnaməsinə* müvafiq olaraq 1972 ildə təsis edilib. X.k.-nin fəaliyyəti *konsensus* əsasında həyata keçirilir.

X.k. *beynəlxalq terrorizm* anlayışının müəyyənləşdirilməsi, bu təzahürün əsas səbəblərinin öyrənilməsi və onunla mübarizəyə dair tövsiyələrin işlənib hazırlanması ilə məşğul olur. X.k.-nin qəbul etdiyi tövsiyələr, başqa tədbirlərlə yanaşı, *BMT* üzvü olan ölkələrin daha geniş dairəsinin mübarizəyə dair möv-cud beynəlxalq sazişlərə qoşulmasını nəzərdə tutur.

**BMT-nin BEYNƏLXALQ TİCARƏT HÜQUQU ÜZRƏ KOMİSSİYASI.** *BMT Baş Məclisinin* 17.XI.1966 il 2205 (XXI)) saylı *qətnaməsi* əsasında beynəlxalq ticarət hüququnun mütərəqqi inkişafına kömək və hüququn bu sahəsinin unifikasiyası məqsədilə təsis edilib. K.-aya 36 dövlət üzvdür; üzvlər BMT Baş Məclisi tərəfindən 6 il müddətinə ədalətli coğrafi bölgü əsasında seçilir.

K.-nın əsas vəzifəsi: beynəlxalq mal dövriyyəsi, tədiyələr, kommersiya - ticarət arbitrajı, dəniz daşımaları və s. bu kimi sahələrdə münasibətləri tənzimləyən yeni konvensiyalar (*Beynəlxalq konvensiya*), birtipli qanun və əsasnamələr işləyib hazırlamaq; dövlətləri mövcud beynəlxalq sazişlərdə iştiraka təşviq etmək, sazişlərin vahid şəkildə şərhinə kömək etmək; beynəlxalq ticarət hüququ məsələləri ilə məşğul olan *beynəlxalq təşkilatların* işini əlaqələndirmək; hüququn bu sahəsində milli qanunvericilik haqqında informasiya toplayıb yaymaqdır.

K.-nın sessiyaları ildə bir dəfə keçirilir. K. hər il BMT Baş Məclisinə və *BMT-nin Ticarət və İnkişaf Konfransına* öz işi barədə məruzələr təqdim edir. K. katibliyinin vəzifələrini *BMT Katibliyinin* Beynəlxalq Ticarət hüququ bölməsi yerinə yetirir. Bölmə Vyana şəhərində yerləşir.

**BMT-nin DƏNİZ HÜQUQU KONVENSİYASI** (1982). BMT-nin Dəniz hüququna dair 10.XII.1982 il konfransında (*Beynəlxalq konfranslar*) işlənib hazırlanıb (*BMT-nin dəniz hüququna dair*





*konfransları*); Monteqo-Beydə (Yamayka) imzalanmaq üçün açıq elan edilib. D.h.k.-nı 150-dən artıq dövlət imzalayıb.

D.h.k. *Dünya okeanından* istifadə etmənin əsas problemləri üzrə qarşılıqlı qəbul edilən kompleks kompromislərdən ibarətdir.

D.h.k. dəniz dibinin beynəlxalq nahiyəsinin rejimini müəyyən edir; dəniz dibinin ehtiyatlarını mənimsəmək sahəsində geniş siyasi və təsərrüfat səlahiyyətlərinə malik olan yeni tipli beynəlxalq təşkilatın yaradılmasını nəzərdə tutur.

**BMT-nin DƏNİZ HÜQUQUNA DAİR KONFRANSLARI.** I konfrans 27.IV. 1958 Cenevrədə keçirilib. *BMT* üzvü olan 79 dövlətin iştirak etdiyi bu konfransda dəniz hüququna dair 4 Cenevrə konvensiyası (*Beynəlxalq konvensiyası*) işlənib hazırlanmış və qəbul olunmuşdur.

II konfrans 16.III-26.IV.1960 Cenevrədə keçirilib; *ərazi sularının* və balıqçılıq zonalarının eni ilə bağlı məsələlərə yenidən baxılması üçün çağırılmışdır. 84 dövlət iştirak edib.

III konfrans; 150 dövlət iştirak edib, ən mühüm *beynəlxalq konfranslardan* biri hesab olunur. 1973-1982 illərdə konfransın 12 sessiyası keçirilib.

Konfransın XII.1982 ildə Monteqo-Beydə (Yamayka) keçirilən yekun sessiyasında 117 dövlət *BMT-nin dəniz hüququ Konvensiyasını* imzaladı.

**BMT-nin ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATI** (FAO). *Beynəlxalq hökumətlərarası təşkilat, Birləşmiş Millətlər Təşkilatının* ixtisaslaşmış təsisatı; 16.X.1945 Kvebekdə keçirilən konfransda (*Beynəlxalq konfranslar*) təsis edilib.

FAO-nun məqsədi üzv ölkələrin əhalisinin qidalanma və ümumi həyat səviyyəsini qaldırmaq; istehsalın səmərəliliyini, ərzaq və digər kənd təsərrüfatı məhsullarının bölüşdürülməsini artırmaq; informasiya toplanması, təhlil edib hazırlanması və yayılması, milli və beynəlxalq miqyasda qida, ərzaq və kənd təsərrüfatı məsələləri ilə bağlı elmi, texnoloji, sosial və iqtisadi tədqiqatlar aparılmasına kömək göstərilməsi yolu ilə kənd əhalisinin həyat səviyyəsini yaxşılaşdırmaq, habelə inkişaf edən dövlətlərə k/təsərrüfatı, meşə və balıqçılıq təsərrüfatı sahələrində yardım göstərməkdən ibarətdir.

FAO-nun ali orqanı - iki ildən bir keçirilən Baş Konfransdır. FAO-nun cari fəaliyyətinə 49 üzv ölkənin nümayəndələrindən ibarət Şura rəhbərlik edir. Qərargahı Romadadır.

FAO-nun Asiya və Uzaq Şərq (Banqkok), Afrika (Akkra), Yaxın Şərq (Qahirə), Latın Amerikası (Santyaqo, Çili) və Avropa (Cenevrə) üzrə regional büroları, Şimali Amerika (Vaşinqton) ilə əlaqə missiyası və BMT-də (Nyu-York) mənzil-qərargahı vardır.

FAO BMT ilə birlikdə *Dünya Ərzaq Proqramını* həyata keçirir.

**BMT-nin HİND OKEANI ÜZRƏ XÜSUSİ KOMİTƏSİ.** *BMT Baş Məclisinin* köməkçi orqanı; BMT BM-in 1972 il Hind okeanını *sülh zonası* elan edən 2992 saylı *Qətnaməsinin* həyata keçirilməsi üzrə əməli tədbirlər görmək üçün təsis edilib. X.k.-nin tərkibinə ilkin olaraq 15 dövlət: Avstraliya, Zambiya, Hindistan, İndoneziya, İraq, İran, ÇXR, Mavrikiya, Madaqaskar, Malayziya, YXDR, Pakistan, Tanzaniya, Şri Lanka, Yaponiya daxil idilər. Sonralar tərkibi artmışdır. 1980 ildə SSRİ, Bolqarıstan, Fransa, ABŞ, Böyük Britaniya və Hind

okeanı sularından geniş istifadə edən bir sıra sahilyanı və qeyri-sahilyanı dövlətlər bu komitəyə daxil olmuşlar. İsveçrə komitənin işində müşahidəçi (*Müşahidəçilər*) qismində iştirak edir.

**BMT-nin İQTİSADİ KOMİSSİYALARI.** *BMT*-nin Asiya və Sakit okean (ESKATO), Afrika (EKA), Avropa (YEK), Qərbi Asiya (EKZA) və Latın Amerikası (EKLA) üçün İqtisadi Komissiyaları. *BMT-nin İqtisadi və Sosial Şurasının (EKOSOS)* qərarı ilə bu regionların sosial-iqtisadi inkişafına kömək göstərmək, region ölkələrinin bir-birilə və digər dünya ölkələrilə əməkdaşlığını genişləndirməkdən ötrü yaradılıb.

1) BMT-nin Asiya və Sakit okean üçün iqtisadi və sosial komissiyası (ESKATO) - EKOSOS-un 37 saylı, 28.III.1947 il *Qətnaməsinə* müvafiq olaraq yaradılıb.

ESKATO Katibliyi Banqkokdadır (Tailand).

2) BMT-in Afrika üçün İqtisadi Komissiyası (EKA) - EKOSOS-un 671 saylı 29.IV.1958 il qətnaməsinə müvafiq olaraq yaradılıb. 51 Afrika dövlətini birləşdirir.

Katibliyi Əddis-Əbəbədədir.

3) BMT-nin Qərbi Asiya üçün İqtisadi Komissiyası (EKZA) - EKOSOS-un 1818 (LV) saylı 9.VIII.1973 il qətnaməsinə müvafiq olaraq yaradılıb. 13 ərəb ölkəsi və Fələstin Azadlıq Təşkilatı K.-nin üzvləridirlər.

Katibliyi Bağdaddadır.

4) BMT-nin Latın Amerikası üçün İqtisadi Komissiyası (EKLA) - EKOSOS-un 106 (VI) saylı 25.II.1948 il tarixli qətnaməsinə müvafiq olaraq yaradılıb.

Latın Amerikasının 32 ölkəsindən əlavə İngiltərə, Hollandiya, İspaniya, Kanada, Portuqaliya, ABŞ və Fransa K-nın üzvləridir. Onun fəaliyyətində AFR və İsveçrə məşvərətçi qismində iştirak edirlər.

Katibliyi Santyaqodadır.

**BMT-nin İQTİSADİ VƏ SOSİAL ŞURASI** (EKOSOS). *Birləşmiş Millətlər Təşkilatının* 6 başlıca orqanından biri: Şuranın tərkibi *BMT Baş Məclisi* tərəfindən 3 il müddətinə seçilir. Şura üzvlərinin üçdə biri hər il təzələnir. EKOSOS-a Afrikadan - 14, Asiya və Okeaniyadan - 11, Latın Amerikasından - 10, Qərbi Avropadan -13, Şərqi Avropadan - 6 dövlət daxildir.

*BMT Nizamnaməsinin* 61-72 maddələrinə uyğun olaraq, EKOSOS-un səlahiyyətinə iqtisadi, sosial, mədəniyyət, təhsil, səhiyyə və digər sahələr üzrə tədqiqatlar aparmaq və məruzələr hazırlamaq, onların hər birinə dair BMT Baş Məclisinə tövsiyələr vermək, Baş Məclisin razılığı ilə bu orqanlarla razılaşmalar əldə etmək və onlardan məruzələr almaq, *BMT Təhlükəsizlik Şurasına* müvafiq informasiya təqdim etmək daxildir.

EKOSOS müxtəlif sosial-iqtisadi məsələlərlə məşğul olan 6 funksional, 5 regional komissiyaya, həmçinin 8 daimi komitə və komissiyaya rəhbərlik edir.

**BMT-nin İNKİŞAF PROQRAMI** (BMTİP). *BMT Baş Məclisinin* orqanı: *BMT İqtisadi və Sosial Şurasının* rəhbərliyi altında fəaliyyət göstərir; BMT BM-in 1965 il 2029(XX) *Qətnaməsinə* müvafiq olaraq Xüsusi fond ilə, Geniş Texniki Yardım Proqramını birləşdirmək yolu ilə yaradılıb.

BMT BM-in 11.XII.1970 il, 2688 (XXV) saylı Qətnaməsilə müəyyən edilən İ.p.-nın məqsəd və vəzifələri - *inkişaf etməkdə olan dövlətlərin* iqtisadi və





sosial inkişafını sürətləndirməyə kömək göstərməkdir. Bu yardım onlara təbii ehtiyatların öyrənilməsində texniki kömək göstərmək, sənayedə və k/təsərrüfatında yeni texniki metodları tətbiq etmək, tədris müəssisələri və tədqiqat mərkəzləri açmaq və s. yollarla həyata keçirilməlidir.

İ.p. 140-dan artıq ölkədə 5 mindən çox müxtəlif proqram layihələri həyata keçirir. İ.p.-nın maliyyə vəsaitləri *BMT*-yə üzv ölkələrin və BMT sistemində layihə icraçısı olan müəssisələrin könüllü ödəncləri hesabına yaranır. İ.p.-nın rəhbər orqanı - Direktorlar Şurasıdır; onun tərkibinə 48 dövlətin nümayəndələri daxildir ki, bunlar da EKOSOS tərəfindən BMT-yə üzv dövlətlərdən, onun ixtisaslaşmış müəssisələrindən və ya *MAQATE*-dən 3 il müddətinə seçilirlər; operativ icraçı orqan vəzifəsini İ.p.-nın Katibliyi yerinə yetirir.

**BMT-nin MÜSTƏMLƏKƏ ÖLKƏLƏRİNƏ VƏ XALQLARINA MÜSTƏQİLLİK VERİLMƏSİNƏ DAİR QƏTNAMƏNİN İCRASI ÜZRƏ XÜSUSİ KOMİTƏSİ** (24-lər Komitəsi). *BMT Baş Məclisinin* köməkçi orqanı; müstəmləkə ölkələrinə və xalqlarına müstəqillik verilməsinə dair *Bəyannamənin* həyata keçirilməsinə nəzarətin icrası üçün 1961 ildə təsis edilib. X.k. BMT Baş Məclisinin sessiyası üçün müstəmləkə problemləri üzrə tövsiyələr və qətnamə layihələri işləyib hazırlayır; *BMT Təhlükəsizlik Şurasına* müstəmləkə ərazilərində sülh və təhlükəsizlik üçün təhlükə törədə bilən hadisələr barədə məlumat verir; BMT BM-in təqdir etməsilə, Bəyannaməsinin hansı ərazilərə şamil olunmasını müəyyənləşdirir.

**BMT-nin SÜLHÜ QORUMA ƏMƏLİYYATLARI ÜZRƏ XÜSUSİ KOMİTƏSİ** (33-lər Komitəsi). *BMT Baş Məclisinin* köməkçi orqanı; BMT BM-in 1965 il 2006 saylı *Qətnaməsinə* uyğun olaraq təsis edilib. Tərkibinə 33 dövlət, o cümlədən, ABŞ, Böyük Britaniya, Rusiya, Fransa daxildirlər. X.k.-yə sülhü qoruyub saxlamaq üzrə əməliyyatlara dair məsələləri hərtərəfli nəzərdən keçirmək həvalə olunub.

Son illər X.k. BMT BM-in tapşırığı ilə BMT-nin sülhü qoruyub saxlama əməliyyatlarının keçirilməsinə dair razılaşdırılmış rəhbər prinsiplərin işlənib hazırlanması ilə məşğuldur. Lakin son vaxtlar *NATO*-nun birtərəfli cəhdləri komitənin uğurlu fəaliyyət göstərməsinə əngəl törədir.

**BMT-nin TƏRKSİLAH ÜZRƏ KOMİSSİYASI.** *BMT Baş Məclisinə* tabe olan məşvərətçi orqan; 1952 ildə Baş Məclisin qərarı ilə yaradılıb; 1978 ilə qədər *BMT Təhlükəsizlik Şurasının* tabeliyində olub. İlk əvvəl 12 dövlətdən təşkil edilib, 1959 ildən isə BMT-yə üzv olan bütün dövlətlər bura daxildir.

K.-nın işinin əsas istiqamətləri: *tərksilahın* müxtəlif problemləri üzrə tövsiyələr işləyib hazırlamaq və BMT Baş Məclisinin tərksilah üzrə xüsusi sessiyalarının çıxardığı qərarların yerinə yetirilməsinə nəzarət etmək, başlıca olaraq tərksilah üzrə ümumi proqramın elementlərini nəzərdən keçirmək, BMT Baş Məclisinə, onun vasitəsilə Tərksilah üzrə konfransa (1984 ilə kimi Tərksilah üzrə komitə) müvafiq tövsiyələr təqdim etmək; nüvə və adi silahlar sahəsində tərksilah üzrə danışıqlara ümumi mövqedən yanaşmaq, habelə etimadı möhkəmlətmək yolunda tədbirlər üçün rəhbər prinsiplər işləyib hazırlamaqdır.

**BMT-nin TİCARƏT VƏ İNKİŞAF KONFRANSI** (YUNKAD). *BMT Baş Məclisinin* orqanı; BMT BM-in 30.XII.1964 il, 1995 (XIX) saylı qətnaməsinə uyğun olaraq yaradılıb. *BMT* üzvü olan bütün dövlətlər, eləcə də BMT üzvü olmayan, lakin BMT-nin ixtisaslaşdırılmış təşkilatlarına, yaxud *MAQATE*-yə üzv olan dövlətlər onun tərkibinə daxildirlər.

YUNKAD-nın vəzifələri beynəlxalq ticarətin inkişafına yardım etmək, beynəlxalq ticarət və iqtisadiyyat üzrə BMT sisteminin digər idarələrinin fəaliyyətini əlaqələndirmək, beynəlxalq ticarətin hüquqi bazasını işləyib hazırlamaqdır.

Ali rəhbər orqanı 4 ildən bir çağırılan sessiyadır. Sessiyalararası müddətdə konfransın fəaliyyətinə ticarət və inkişaf üzrə Şura rəhbərlik edir.

Mənzil qərargahı Cenevrədə yerləşir.

**BMT NİZAMNAMƏSİ.** *Birləşmiş Millətlər Təşkilatının* və onun başlıca orqanlarının məqsədlərini, prinsiplərini, üzvlük və strukturunu, fəaliyyətinin forma və qaydalarını müəyyən edən *beynəlxalq müqavilə*.

N. *Dumbarton - Oks konfransında (1944), Yalta (Krım) konfransında (1945), San-Fransisko konfransında (1945)* işlənib hazırlanmış və sonuncu konfransda 26.VI.1945 ildə 50 dövlətin nümayəndələri tərəfindən imzalanmışdır. N. 24.X.1945 ildə qüvvəyə minib. 1948 ildən etibarən 24.X. hər il BMT Günü kimi qeyd edilir.

N. işlənib hazırlanarkən *İkinci Dünya müharibəsinin* qarşısını almağa qadir olmayan *Millətlər Cəmiyyətinin* yarıtmaz təcrübəsi nəzərə alınmış və faşizmə qarşı xalqların birgə mübarizəsinin çıxarılan nəticələrindən istifadə olunmuşdur.

**BMT NİZAMNAMƏSİ ÜZRƏ İCBARİ TƏDBİRLƏR.** *BMT Təhlükəsizlik Şurasının* qərarı əsasında sülhü və *beynəlxalq təhlükəsizliyi* saxlamaq və ya bərpa etmək məqsədilə *BMT*-yə üzv dövlətlərin həyata keçirdiyi kollektiv tədbirlər.

*BMT Nizamnaməsinin* 41-ci maddəsinə əsasən, müvafiq qərarların yerinə yetirilməsi üçün TŞ.-na silahlı qüvvələrdən istifadə ilə bağlı olmayan tədbirlər görmək həvalə olunur.

Nizamnamənin 42-ci maddəsi beynəlxalq asayişi qoruyub saxlamaq və ya bərpa etmək naminə zəruri olduqda TŞ.-na «hava, dəniz və ya quru qüvvələrinin köməyiindən istifadə etmək» səlahiyyəti verir.

*Preventiv yaxud icbari tədbirlərin (Preventiv tədbirlər)* tətbiqi TŞ.-nın müstəsna səlahiyyətidir; TŞ. yeri gəldikdə regional sazişlərdən, yaxud məcburi tədbirləri həyata keçirən orqanlardan özü bildiyi kimi istifadə edir.

**BMT NİZAMNAMƏSİ VƏ TƏŞKİLATIN ROLUNU GÜCLƏNDİRMƏK ÜZRƏ XÜSUSİ KOMİTƏ.** *BMT Baş Məclisinin* yardımçı orqanı; BMT BM 1974 il 3349 (XXIX) saylı *Qətnaməsinə* əsasən yaradılıb. 1975 ilədək *BMT Nizamnaməsi* üzrə Xüsusi Komitə adlanıb. X.k-nin əsas vəzifəsi *BMT*-nin iş qabiliyyətinin yüksəldilməsinə yönəldilən irad və tövsiyələri dəqiqliyi ilə müzakirə etməkdir.

Son zamanlar BMT-yə üzv olan bir sıra ölkələr Nizamnaməyə yenidən baxmağı, onda bəzi dəyişikliklərin edilməsini zəruri sayır. *BMT Təhlükəsizlik Şurasının* fəaliyyətini demokratikləşdirmək məqsədilə onun tərkibini





genişləndirmək təklif olunur. *Veto* hüququna malik olan daimi üzvlər isə hesab edirlər ki, bu orqanda daimi üzvlərin sayının artırılması operativliyə mənfi təsir göstərər, zəruri və təcili hallarda təcili qərar çıxarılmasına əngəl törədə bilər.

Qeyd edilməlidir ki, TŞ.-nin hazırkı fəaliyyətində nöqsanlar az deyil, beynəlxalq hadisələrə, baş verən regional münaqişələrə ikili mövqedən yanaşılır, operativ müdaxilə hiss olunmur.

**BMT ONİLLİKLƏRİ.** Dünya ictimaiyyətinin diqqətini bu və ya digər beynəlxalq problemin həlli üçün tədbirlər görülməsinin zəruriliyinə cəlb etmək məqsədilə *BMT* tərəfindən bəyan edilir.

1) İnkişaf onillikləri; 60-cı illərdən başlayaraq beynəlxalq iqtisadi əməkdaşlığı genişləndirmək və *inkişaf etməkdə olan dövlətlərdə* iqtisadi geriliyi aradan qaldırmağa kömək göstərmək məqsədilə bəyan edilir.

2) *Tərksilah* O.-ləri; *BMT Baş Məclisinin* XXIV sessiyası 1970 illər üçün Tərksilah O.-nin elan olunduğunu bəyan etmişdir. Bu məsələyə dair qəbul olunan qətnamədə təsdiq edilirdi ki, son məqsəd ümumi və tam tərksilaha nail olmaqdır və bu istiqamətdə danışıqları fəallaşdırmaq lazımdır.

3) *İrqçilik* və irqi ayrı-seçkiliyə qarşı mübarizə (*İrqə və irqi cinayətlərə dair 1978 il Bəyannaməsi; İrqi ayrı-seçkiliyin bütün formalarda ləğvinə dair beynəlxalq Konvensiya 1966; İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvinə dair Bəyannamə 1963; İrqi ayrı-seçkiliyin ləğvi üzrə Komitə*) O.; BMT BM XXVII sessiyasında bəyan edilib. O.-in proqramının həyata keçirilməsinə XII.1973 ildə, *İnsan haqqlarına dair Ümumi Bəyannamənin (1948)* qəbul olunmasının 25 illiyi şərəfinə başlanılıb.

4) Qadın O.; BMT BM XXX sessiyasında 1976-1985 illər üçün «Bərabərlik, inkişaf və sülh» şüarı altında bəyan edilib. Proqramın başlıca məqsədləri qadınların siyasi, iqtisadi, sosial və mədəni sahələrdə iştirakını genişləndirməyə, təhsil və peşə hazırlığı almağa bərabər imkanlar yaratmağa, qadınların digər sahələrdə hüquqlarını təmin etməyə yönəldilmişdir.

Göstərilənlərdən əlavə, BMT BM tərəfindən digər O. də bəyan edilib: Okeonoqrafiya Tədqiqatları (1970 illər), Afrikada Nəqliyyat və Rabitə (1978-88 illər), İçməli Su və Sanitariya Təminatları (80 illər) O.-ləri bu qəbildəndir.

**BMT SÜLHÜ MÜDAFİƏ ƏMƏLİYYATLARI.** *BMT Təhlükəsizlik Şurası* tərəfindən *BMT*-yə üzv dövlətlərin silahlı qüvvələrindən və ya hərbi müşahidəçilərindən istifadə etməklə sülhü və *beynəlxalq təhlükəsizliyi* qorumaq məqsədilə görülən tədbirlər;

Bu əməliyyatlara keçən əsrin 60-cı illərindən etibarən müstəqillik qazanan dövlətlər də qoşulmuşdur.

**BMT TƏHLÜKƏSİZLİK ŞURASI (TŞ).** *Birləşmiş Millətlər Təşkilatının* 6 başlıca orqanından biri. *BMT Nizamnaməsinə* uyğun olaraq (23-32 maddələr), BMT Təhlükəsizlik Şurası sülhü və *beynəlxalq təhlükəsizliyi* qoruyub saxlamaq üçün məsuliyyət daşıyır. TŞ BMT üzvləri adından çıxış edir, üzvlər də TŞ qərarlarına tabe olmağa və onları yerinə yetirməyə razılıq verirlər.

TŞ BMT-nin sülh üçün yaranan hər bir təhlükəni müəyyən edib araşdıran, beynəlxalq sülhün və təhlükəsizliyin saxlanması və bərpa olunması üçün tədbirlər görülməsi barədə tövsiyələr verən yeganə orqanıdır.

Yalnız TŞ-nın tövsiyələrini əsas götürməklə, *BMT-nin Baş Məclisi* yeni üzvlərin BMT-yə qəbulu, BMT üzvlüyündən xaric olunması, BMT üzvlərinin hüquq və imtiyazlarının dayandırılması barədə qərarlar çıxara bilər.

TŞ daimi fəaliyyət göstərir, özü üçün prosedura qaydaları müəyyən edir, müvafiq funksiyaları yerinə yetirmək üçün yardımçı orqanlar təsis edə bilir. TŞ-nın hər üzvü 1 səsə malikdir. TŞ-nın prosedura üzrə qərarları şuranın 9 üzvü ona səs verdikdə qəbul olunur. Bütün digər məsələlərə dair qərarlar o vaxt qəbul olunur ki, TŞ-nın 9 üzvü, onun bütün daimi üzvləri – Rusiya, ABŞ, Böyük Britaniya, Fransa və Çinin üst-üstə düşən səsləri də daxil olmaqla, onların lehinə səs vermiş olsun. 1966-cı ildən TŞ BMT-nin 15 üzvündən (buna qədər 11 olub), o cümlədən 5 daimi və 10 qeyri-daimi üzvündən təşkil olunur və BMT BM tərəfindən 2 il müddətinə seçilir. T.Ş.-nın qeyri-daimi üzvləri aşağıdakı kvota üzrə seçilirlər: Şərqi Avropa – 1, Asiya və Afrika - 5, Latın Amerikası - 2, Qərbi Avropa və s. dövlətlər -2.

**BMT UŞAQ FONDU** (YUNİSEF). *BMT*-nin orqanı; müharibə zamanı zərər çəkmiş Avropa ölkələri uşaqlarına yardım göstərmək üçün *BMT Baş Məclisinin* 11.XII.1946 qərarı ilə BMT-nin müvəqqəti təşkilatı kimi yaradılmışdır.

1950 ildən etibarən YUNİSEF-in fəaliyyətində əsas istiqamət *inkişaf etməkdə olan dövlətlərə* uşaqların və gənclərin maddi və sosial şəraitini yaxşılaşdırmaq işində yardım göstərmək olmuşdur. YUNİSEF-in maliyyə ehtiyatları üzv ölkələrin hökumətlərinin, BMT təsisatlarının, ictimai təşkilatların, fərdi şəxslərin və başqa mənbələrin pay ödəmələri hesabına yaranır.

YUNİSEF inkişaf etməkdə olan dövlətlərdə uşaqlara dayəlik edən mərkəzlər üçün yerli əhalidən kadrlar hazırlanmasına təqaüdlər ayırır. YUNİSEF uşaq əməyindən istifadənin qadağan olunmasında, uşaqları gələcək əməyə hazırlamağa yönəldilən layihələrin həyata keçirilməsində *Beynəlxalq Əmək Təşkilatı* ilə əməkdaşlıq edir. 1978 ildə YUNİSEF Ümumdünya Səhiyyə Təşkilatı ilə birlikdə Alma-Atada ilkin tibbi-sanitar yardım haqqında beynəlxalq konfrans keçirib. 1979 il Beynəlxalq Uşaq İlinin hazırlanmasında və keçirilməsində BMT sistemində başlıca əlaqələndirici orqan olub.

Rəhbər orqanı - ildə bir dəfə çağırılan İdarə Heyətidir. YUNİSEF-in milli komitələri 40-dan çox ölkədə yaradılıb. Katibliyi Nyu-Yorkdadır, regional şöbələri Cenevrədə, Nayrobi, Laqos, Əlcəzair, Abican, Hərarə, Boqota, Banqkok, Beyrut, Pekin, Sidney və Tokioda yerləşir.

**BOĞAZLARA DAİR LONDON KONVENSİYALARI.** 1) 1841 il konvensiyası (*Beynəlxalq konvensiya*) – Rusiya, Böyük Britaniya, Avstriya, Fransa, Prusiya və Türkiyə tərəfindən 01.VII imzalanıb. Qara dəniz boğazlarının rejimini tənzimləyib. K.-yaya uyğun olaraq, Bosfor və Dardanel boğazları dinc vaxtlarda bütün ölkələrin hərbi gəmilərinin girişi üçün bağlı elan olunurdu. Sultan dost ölkələrin səfirliklərinin sərəncamında olan yüngül gəmilərin boğazlardan keçmələrinə icazə vermək hüququnu özündə saxlayırdı.

K.-nın imzalanması ilə Rusiya 1833 il Ünkər-İskeley müqaviləsi ilə boğazlardakı üstün vəziyyətini tam olaraq itirdi. K. imzalananadək Qara dəniz əslində sahilyanı dövlətlərin (Rusiya və Türkiyənin) qapalı dənizi hesab olunur və gəmilərin boğazlardan keçmələri rus-türk sazişlərilə tənzimlənirdi.

3) 1871 il konvensiyası – «1856 il *Paris sülhünün* bəzi maddələrinin dəyişdirilməsinə dair müqavilə» (*Beynəlxalq müqavilə*); Rusiya, Türkiyə, Almaniya, Avstriya-Macarıstan, Böyük Britaniya, İtaliya və Fransa tərəfindən 1870 il Qorçakov sirkulyarı ilə bağlı 1871 ildə çağırılan konfransın (*Beynəlxalq konfranslar*) sonunda bağlanıb.

K. Qara dənizin «neytrallaşdırılması» deyilən statusu ləğv edib. Rusiyaya və Türkiyəyə Qara dənizdə qeyri-məhdud sayda hərbi gəmilər saxlamağa icazə verdi. Rusiyanın Qara dənizdə suveren (*Dövlətin suverenliyi*) hüquqları tamamilə bərpa olundu.

1871 il K.-sı boğazlar rejimini *Birinci Dünya müharibəsinədək* tənzimləyib.

**BOQOTA BƏYANNAMƏSİ** (1973). Latın Amerikası ölkələri xarici işlər nazirlərinin 16.XI. Boqoto (Kolumbiya) müşavirəsində qəbul edilib. Müşavirə H.Kissincerin (*Kissincer Henri Alfred*) irəli sürdüyü «yeni dialoq» çərçivəsində ABŞ ilə aparılacaq danışıqlarda vahid mövqe işləyib hazırlamaqdan ötrü çağırılıb.

Braziliya, Uruqvay və Çili Kuba əleyhinə sanksiyaların ləğvini, istənilən dövlətin öz daxili rejimini seçməkdə və ictimai-siyasi quruluşundan asılı olmayaraq, bütün ölkələrlə münasibətlər saxlamaqda haqlı olduğunu təsdiqləyən müddəanın müqaviləyə salınmasına mane ola bildilər. Bununla belə, müşavirə iştirakçıları ümumi platforma işləyib hazırladılar və ABŞ ilə sonrakı danışıqlarda ondan çıxış etdilər.

B.b.-də ticarətə və maliyyəyə, Latın Amerikası ölkələrinin dünya valyuta sisteminin tənzimlənməsi tədbirlərində onların iştirakına, qitənin daha az inkişaf etmiş ölkələrinə iqtisadi yardım göstərilməsinə, Latın Amerikası ölkələrinə xarici inhisarlardan asılılığını azaltmaq üçün əlverişli kommersiya şərtləri ilə müasir sənaye texnologiyasının verilməsinə dair bir sıra sazişlərə yenidən baxılması tələbləri irəli sürüldü. Bunlarla bərabər B.b. xarici şirkətlərə müstəqil ölkələrin daxili işlərinə qarışmalarının, iqtisadi sahələrdə onlara təzyiq göstərmələrinin yol verilməzliyini qeyd edib göstərirdi ki, ölkələrə kredit verərkən müxtəlif mənafe güdən şərtlər qoyulmamalı, Panamanın Panama kanalı üzərində suveren (*Suverenlik*) hüququ tanınmalı, Amerika ölkələri arasında münasibətlər yeni əsaslar üzərində qurulmalı, ABŞ ilə Latın Amerikası ölkələri arasında münasibətlərdə gərginliyin azaldılması rolu üstünlük təşkil etməlidir.

**BOQOTA KONFRANSI** (1948). (9-cu Amerikaarası Konfransı). Nikaraquadan başqa bütün Latın Amerikası ölkələrinin və ABŞ-ın iştirakı ilə 30.IV-1.VI Boqotada (Kolumbiya) keçirilib.

K. *Amerika Dövlətləri Təşkilatının* (ADT) nizamnaməsini qəbul etmiş və bununla da Amerika ölkələrinin regional hərbi-siyasi qruplaşmasının yaradılmasını başa çatdırmışdır. İmzalanmadan dərhal sonra ABŞ nümayəndə heyəti «Amerikada demokratiyanın saxlanmasına və qorunmasına» dair *Bəyannamənin* qəbuluna nail oldu. Sənəd bütün Amerika dövlətlərinə bir vəzifə olaraq tapşırdı ki, Qərb yarımkürəsində «kommunist fəaliyyəti» barədə bir-biri ilə informasiya mübadiləsi aparsınlar; ADT «kommunist təhlükəsinə

qarşı» mübarizə aparmaq üçün həmin dövlətlərin daxili işlərinə qarışmaq hüququ əldə etdi.

ADT-nin antikommunist istiqaməti IV.1951 ildə ABŞ və Latın Amerikası ölkələri xarici işlər nazirlərinin 4-cü məşvərət müşavirəsində daha qabarıq şəkildə özünü göstərdi. Müşavirədə qərara alındı ki, iştirakçı ölkələr «amerikaarası həmrəylik» göstərməklə «kommunist təhlükəsilə» birgə mübarizə aparması» və eyni zamanda öz qanunvericiliklərinə kommunist partiyalarının fəaliyyətini və onlara «rəğbət» bəsləyənlərin gediş-gəlişini məhdudlaşdırmaq barədə müvafiq müddəalar salsınlar. Müşavirədə həmçinin Qərb yarımkürəsi ölkələrinin hərbi hazırlığını artırmaq və dünyanın müxtəlif rayonlarında ABŞ-ın hərbi əməliyyatlarını dəstəkləmək üçün Latın Amerikası ölkələrinin hərbi qüvvələrindən istifadə etmək barədə ümumi razılıq əldə edildi.

K.-da habelə Amerika dövlətləri arasında mübahisələri dinc yolla həll etmək haqqında müqavilə qəbul edildi.

Amerikaarası iqtisadi əməkdaşlıq məsələsi müzakirə edilərkən ABŞ konfransı «bərabər» imkanlar prinsipi» adı altında Latın Amerikası ölkələrinin iqtisadiyyatı üzərində ABŞ nəzarətini təmin edən əlverişli qərarlar qəbul etməyə vadar etdi. Amerikaarası iqtisadi əməkdaşlığa dair konfransda imzalanmış sazişə əsasən, Latın Amerikası dövlətlərinin hökumətləri öz ölkələrində xarici kapitalın fəaliyyətini məhdudlaşdırmamaq barədə öhdəlik götürdülər.

**BOLİVAR-PALASİOS SİMON XOSE ANTONİO** (1783-1830). Cənubi Amerikada İspaniya müstəmləkələrinin müstəqillik uğrunda apardığı müharibənin rəhbərlərindən biri. 1819 ildə Yeni Qrenada (Kolumbiya), Venesuela və Ekvadorun daxil olduğu Böyük Kolumbiya Respublikasını elan edərək onun *prezidenti* olub. 1825 ildə Yuxarı Peruda yaradılan və onun şərəfinə adlandırılan Boliviya Respublikasına başçılıq edib. Peru, Meksika, Mərkəzi Amerika və Rio-de-la-Plata hövzəsi Birləşmiş əyalətləri ilə Kolumbiya arasında ittifaq müqaviləsi bağlandıqdan sonra 1826 ildə Panama konqresini (*Beynəlxalq konqres*) hazırlayıb çağırmışdır. Lakin onun *konfederasiya*, yaxud *federasiya* yaratmaq yolu ilə bütün ispan Amerikasını birləşdirmək səyləri uğurla nəticələnmədi. Başlanan separatçı çıxışlar Peru və Boliviyada B. hakimiyyətini devirdi. V.1830 ildə Avropaya getmək qərarına gəlmiş, lakin xəstələndiyindən səfəri təxirə salmış və XII.1930 ildə dekabrda vəfat etmişdi.

**BOLQARISTAN-ANQOLA MÜQAVİLƏSİ** (1978). Dostluq və əməkdaşlığa dair, 21.X. Londonda imzalanıb; 20 il müddətinə bağlanan müqavilə (*Beynəlxalq müqavilə*) tərəflərin razılığı əsasında vaxtı başa çatdıqdan sonra hər dəfə 5 il müddətinə uzadıla bilərdi.

Tərəflər *razılığa* gəlirdilər ki, beynəlxalq aləmdə sülh və təhlükəsizliyin təmin olunmasına yönəldilən tədbirlərdə fəal şəkildə iştirak edəcək, müstəmləkəçiliyi, yeni müstəmləkəçiliyi və aparteidi tamamilə aradan qaldıranadək imperialist qüvvələrinə qarşı ardıcıl mübarizə aparacaq, Bolqarıstan ilə Anqola arasında iqtisadi və mədəni əlaqələri genişləndirməyə çalışacaqlar.

**BOLQARISTAN - ƏFQANISTAN MÜQAVİLƏSİ** (1981). Dostluq və əməkdaşlığa dair 22.XII. Sofiyada imzalanıb. Müqavilə (*Beynəlxalq müqavilə*) tərəflərin razılığına əsasən, daha sonrakı 10 illik dövrlər üçün uzadılmaqla, 25 il müddətinə bağlandı.

Tərəflər dostluq, həmrəylik və hərtərəfli əməkdaşlıq əlaqələrini daha da inkişaf etdirmək, sosial-iqtisadi, elmi-texniki və digər sahələrdə qarşılıqlı faydalanmaq barədə öhdəlik götürdülər. Müqavilədə tərəflər irticaya, ekspansionizmə, *irqçiliyə* və *yeni müstəmləkəçiliyə* qarşı ardıcıl mübarizə aparacaqlarını bildirdilər.

**BOLQARISTAN - MACARISTAN MÜQAVİLƏLƏRİ.** 1) 1948 il müqaviləsi (*Beynəlxalq müqavilə*); dostluq, əməkdaşlıq və qarşılıqlı yardıma dair, 16.VII. Sofiyada 20 il müddətinə bağlanıb.

Ümumi sülhün qorunub saxlanmasına və möhkəmlənməsinə çalışan tərəflər Almaniya tərəfindən yenidən baş verə biləcək təcavüzdən öz xalqlarının təhlükəsizliyini birgə qorumağı qərara aldılar. Tərəflərdən biri Almaniyaya qarşı, yaxud ona qoşulan hər hansı dövlət əleyhinə müharibə cəlb edildiyi halda, o biri tərəf ona dərhal hərbi və digər kömək göstərməyi öhdəyə götürürdü. Tərəflər sülhün və təhlükəsizliyin təmin olunmasına yönəldilən bütün beynəlxalq aktlara qoşulmağı öhdəyə alırdılar. Müqavilədə qarşılıqlı iqtisadi və mədəni əlaqələrin genişləndirilməsi nəzərdə tutulurdu.

2) 1969 il müqaviləsi; dostluq, əməkdaşlıq və qarşılıqlı yardıma dair 10.VII Sofiyada 20 il müddətinə imzalanıb. Tərəflər 1955 il *Varşava Müqaviləsi Təşkilatı* iştirakçısı ölkələrinin sərhədlərinin (*Dövlət sərhədləri*) toxunulmazlığını təmin etmək barədə qəti qərara gəldilər. Tərəflərdən birinə təcavüz olduğu halda o biri tərəf dərhal hər cür, hərbi də daxil olmaqla, kömək göstərməyi öhdəyə aldı. Tərəflər iqtisadi və elmi-texniki əməkdaşlığı inkişaf etdirib möhkəmləndirmək barədə razılığa gəldilər.

**BOLQARISTAN-POLŞA MÜQAVİLƏLƏRİ.** 1) 1948 il müqaviləsi (*Beynəlxalq müqavilə*); - dostluq, əməkdaşlıq və qarşılıqlı yardıma dair, 29.V. Varşavada 20 il müddətinə imzalanıb.

Tərəflər ümumi sülhün qorunub saxlanmasına və möhkəmlənməsinə cəhd göstərərək, Almaniya, yaxud onunla birləşən hər hansı dövlət tərəfindən törədilən təcavüzü aradan qaldırmaq üçün bütün mümkün tədbirləri həyata keçirəcəklərini öhdəyə götürdülər. Tərəflərdən biri Almaniya, yaxud onunla birləşən hər hansı dövlət tərəfindən törədilən təcavüzkar hərəkətlərin obyekti olduqda, o biri tərəf ona dərhal hərbi və hər cür digər kömək göstərməyi öhdəyə aldı. Tərəflər onlardan birinə qarşı yönəldilən ittifaqa girməmək və təcavüzkar əməllərdə iştirak etməmək barədə təəhhüd götürür, bütün mümkün beynəlxalq məsələlərə dair məsləhətləşmələr aparmağı qərara alırdılar. Müqavilədə qarşılıqlı iqtisadi və mədəni əlaqələri genişləndirmək nəzərdə tutulurdu.

2) 1967 il müqaviləsi; dostluq, əməkdaşlıq və qarşılıqlı yardıma dair, 6.IV Sofiyada 20 il müddətinə imzalanıb. Tərəflər ardıcıl olaraq *dinc yanaşı yaşamaq* siyasəti yeritmək, *Avropa təhlükəsizliyinin* səmərəli sistemini yaratmaq, ümumi və tam *tərksilaha* nail olmaq, müstəmləkəçilik və *yeni müstəmləkəçilik* siyasətinə birdəfəlik son qoymaq yolunda səyləri davam etdirməyə hazır olduqlarını bildirirdilər.

Tərəflər öz sərhədlərinin (*Dövlət sərhədləri*) toxunulmazlığını *Varşava Müqaviləsi Təşkilatı* çərçivəsində təmin etmək, onlardan birinə silahlı basqın olduqda dərhal hər cür, o cümlədən

hərbi kömək göstərmək barədə öhdəlik götürürdülər.

**BOLQARISTAN - RUMINİYA MÜQAVİLƏLƏRİ.** 1) 1948 il müqaviləsi (*Beynəlxalq müqavilə*); dostluq, əməkdaşlıq və qarşılıqlı yardıma dair; 16.I Buxarestdə 20 il müddətinə imzalanıb.

İki ölkə arasında dostluq əlaqələrinin genişlənməsinə və beynəlxalq aləmdə, xüsusilə də Balkanlarda və Dunay hövzəsində, sülhün möhkəmlənməsində maraqlı olduqlarını ifadə edən tərəflər, onların xalqlarının taleyi ilə bağlı bütün sahələrdə əməkdaşlıq etməyə hazır olduqlarını bildirdilər. Tərəflər ölkələrinin milli müstəqilliyi və ərazi bütövlüyünü qorumaq üçün hər cür tədbir görəcəklərini bəyan etdilər. Almaniya və ya digər dövlət tərəfindən onlardan birinə hücum olduğu təqdirdə digər tərəf dərhal ona hərbi və başqa sahələrdə hər cür yardım göstərməyi öhdəyə götürdülər.

Tərəflər onlardan hər hansı birinə qarşı yönəldilən ittifaq və digər hərəkətlərdə iştirak etməyəcəklərini öhdəyə götürdülər.

2) 1970 il müqaviləsi; dostluq, əməkdaşlıq və qarşılıqlı yardıma dair. 19.IX Sofiyada 20 il müddətinə imzalanıb. Bu müddət başa çatdıqdan sonra tərəflərin razılığına əsasən müqavilənin müddəti hər dəfə 5 ilə uzaldıla bilərdi.

Tərəflər *beynəlxalq gərginliyin* aradan qaldırılmasına (*Beynəlxalq gərginliyin zəiflədilməsi*) və sülhün təmin olunmasına, Avropada təhlükəsizliyi təmin edəcək təsirli sistemin yaradılmasına, Balkanlarda qarşılıqlı anlaşma şəraitinin bərqərar olmasına, müstəmləkə sisteminin (*Müstəmləkə sistemi və onun dağılması*) və ya *yeni müstəmləkəçiliyin* ləğvinə tərəfdar olduqlarını bildirdilər.

Bolqarıstan və Rumıniya 1955 il *Varşava Müqaviləsi Təşkilatına* üzv olan digər ölkələrlə birlikdə onların sərhədlərinin (*Dövlət sərhədləri*) toxunulmazlığını təmin etməyi, militarist və qisasçı qüvvələr tərəfindən gözlənilən hər hansı təcavüzün qarşısını almaq üçün bütün lazımi tədbirləri həyata keçirməyi öhdəyə götürürdülər. Tərəflərdən biri *silahlı hücuma məruz qaldığı* təqdirdə digər tərəf ona hərbi yardım da daxil olmaqla hər cür köməklik göstərməli idi.

Müqavilə iki ölkə arasında siyasi, iqtisadi, ictimai, elmi, mədəni və digər sahələrdə əlaqə və əməkdaşlığı genişləndirməyi, ikitərəfli münasibətlər və beynəlxalq problemlər ətrafında məsləhətləşmələr keçirməyi nəzərdə tuturdu.

**BOLQARISTAN - YUQOSLAVİYA PAKTI** (1937). 24.I. «Əbədi dostluq» haqqında Belqradda imzalanıb. *Pakt* Bolqarıstanla Yuqoslaviya arasında sarsılmaz sülh, səmimi və əbədi dostluq olacağına təminat verirdi.

Yuqoslaviyanın hakim dairələri hesab edirdilər ki, pakt Bolqarıstanın ərazi iddialarından imtina etdiyini və İtaliya-Yuqoslaviya münaqişəsi olduğu halda Bolqarıstanın *bitərəfliyinin* təminatını təmin edir. Bolqarıstan *diplomatiyası* isə paktın bağlanmasını Balkan Antantası ölkələrinin *mühasirəsini yarmaq* və onun 1919 il Ney sülh müqaviləsi ilə müəyyən olunan sərhədlərinə yenidən baxılması imkanı kimi qiymətləndirirdi.

P.-ın bağlanmasına faşist Almaniyası dəstək verdi. Almaniya Yuqoslaviyanın Balkan Antantasından uzaqlaşmasında maraqlı idi; Hitlerçilər Antantanı Balkanda öz geosiyası məqsədlərinə maneə sayırdılar. P. və iki ay sonra bitərəflik haqqında bağlanan İtaliya-Yuqoslaviya müqaviləsi Yuqoslaviyanı Avropada fransız müqavilələri sistemindən çıxarır, Kiçik Antantanı, Balkan Antantasını pozur və faşist dövlətləri tərəfindən *İkinci Dünya müharibəsinə* diplomatik hazırlaşmanın tərkib hissəsini təşkil edirdi.





**BOLQARISTAN - YUQOSLAVİYA SAZİŞİ** (1944). 05.X. Hitlerçi işğalçılara qarşı hərbi əməkdaşlığa dair imzalanıb.

IX.1944 ildə Bolqarıstanda monarxiya üsul-idarəsi devrildikdən sonra ölkədə bolqar və yuqoslav xalqları arasında mehriban qonşuluq və dostluq münasibətlərinin yaranması sahəsində addımlar atıldı. X.1944 ildə Bolqarıstan Vətən Cəbhəsi hökuməti ilə Yuqoslaviya Milli Azadlıq Komitəsi nümayəndələri arasında gedən danışıqlar nəticəsində Yuqoslaviya ərazisində ümumi düşmən olan alman-faşist işğalçılarına qarşı mübarizə üçün birgə əməkdaşlıq və fəaliyyət haqqında ümumi razılıq əldə edildi. S. iki ölkə xalqları arasında əmələ gələ bilən problemləri ümumi maraq və əməkdaşlıq ruhunda həll etməyi nəzərdə tuturdu.

S.-ə uyğun olaraq, bolqar ordu hissələri Sovet silahlı qüvvələri və Yuqoslaviya Xalq-Azadlıq Ordusu ilə birlikdə Yuqoslaviyanı faşist işğalçılardan azad etmək üçün aparılan döyüşlərdə iştirak etdilər.

**BOLQARISTAN-YUNANISTAN SAZİŞLƏRİ VƏ BƏYANNAMƏSİ.** 1)1964 il sazişləri 19.IX. VII Afinada imzalanıb; uzun bir dövr ərzində qarşılıqlı iradların mövzusu olan maliyyə və mülkiyyət məsələlərini nizama saldı. Sazişlər sərhədyanı rayonların ehtiyatlarından birgə istifadənin öyrənilməsini, iki ölkə arasında mal mübadiləsinin artırılmasını, tranzit daşımalar və ambarlaşdırmada qarşılıqlı güzəştlərin tətbiqini, gömrük qeydiyyatlarının sadələşdirilməsini, dənizçilik, turizm, elmi-mədəni sahələrdə əməkdaşlığın genişləndirilməsini, birbaşa avtomobil, dəmir və hava yollarının, telefon və teleqraf rabitəsinin bərpasını nəzərdə tuturdu. İki ölkənin *diplomatik nümayəndəliyi səfirlik* səviyyəsinə qaldırılırdı.

2) 1973 il *Bəyannaməsi*; mehriban qonşuluq, qarşılıqlı anlaşma və əməkdaşlığa dair, 31.V Afinada imzalanıb. Tərəflər qarşılıqlı maraq, hörmət və fayda əsasında münasibətləri inkişaf etdirməyə hazır olduqlarını bildirir və qeyd edilir ki, bütün Balkan dövlətləri arasında dinc münasibətlərin inkişafı onlar arasında etimadın möhkəmlənməsində, Balkan yarımadasının qarşılıqlı anlaşma və əməkdaşlıq zonasına çevrilməsində mühüm amildir. Bolqarıstan və Yunanıstan gələcəkdə də qarşılıqlı maraq doğuran məsələlər üzrə məsləhətləşmək barədə razılığa gəldilər.

Sonrakı illərdə Bolqarıstan və Yunanıstan onların siyast, iqtisadi, mədəni və s. sahələrdə qarşılıqlı münasibətlərinin inkişafına təkan verən bir sıra ikitərəfli sənədlər imzaladılar.

**BONN MÜQAVİLƏSİ («Ümumi müqavilə»)** (1952). 26.V. Bir tərəfdən ABŞ, Böyük Britaniya və Fransa, digər tərəfdən AFR arasında imzalanmışdı. Qərbi Almaniyada işğal rejimini ləğv etdi. AFR-in qərb dövlətlərinin hərbi bloklarına cəlb olunmasına imkan yaratdı. Müqavilə (*Beynəlxalq müqavilə*) bəzi dəyişikliklərlə 1954 il Paris sazişinə daxil edildi.

**BOSNİYA BÖHRANLARI.** 1)1875-1878. 1875 - Bosniya və Herseqovina-

nın slavyan vilayətlərində Türkiyəyə qarşı üsyanlar başladı. Rusiya üsyançılara muxtariyyət verilməsini tələb edirdi. Avstriya-Macarıstan bu tələbin slavyan vilayətlərində inzibati islahatlar keçirilməsi ilə əvəz edilməsinə nail oldu. Sonuncu tələb 1856 il *Paris sülhünü* imzalamış dövlətlər tərəfindən *diplomatik nota* şəklində Türkiyəyə təqdim edildi. Türkiyənin notanı qəbul etməsinə baxmayaraq, üsyançılar silahı yerə qoymadılar. 13.V.1876 ildə Avstriya-Macarıstan, Almaniya və Rusiya Türkiyəyə təqdim etmək üçün *Berlin Memorandumunu* hazırladılar. İngiltərənin etirazı və 30.V. Türkiyədə dövlət çevrilişi Berlin Memorandumunun həyata keçirilməsinə mane oldu. 30.VI.Serbiya və Çernoqoriya Türkiyəyə qarşı *müharibə* elan etdilər və məğlub oldular. 8.VII. Bosniya böhranını diplomatik yolla həll etmək üçün İstanbulda toplanmış *beynəlxalq konfrans* nəticəsiz qurtardı. 24.IV.1877 Rusiya-Türkiyəyə müharibə etdi. Müharibə 3.III.1878 *San-Stefano sülh müqaviləsi* ilə bitdi. Müqavilənin şərtlərinə yenidən baxan 1878 il *Berlin konqresinin* qərarına görə Bosniya-Hertsoqovinanı Avstriya-Macarıstan qoşunları işğal etdi.

2) 1908-1909. 7.X.1908 ildə Avstriya-Macarıstan Bosniya və Herseqovinanın *ilhaq* edildiyini elan etdi. Osmanlı imperiyası, Rusiya və Serbiya ilhaqa qarşı çıxdılar. Lakin 26.II.1909 ildə Türkiyə ilhaqı qəbul etdi. Avstriya-Macarıstan bunun əvəzində öz qoşunlarını Yeni Bazar sancağından çıxartdı və Türkiyəyə 2,5 mln.f.st. kompensasiya ödədi. Rusiya məsələ ilə bağlı beynəlxalq konfrans çağırmağı tələb edirdi. Lakin Avstriya-Macarıstanı müdafiə edən Almaniyanın təzyiqi nəticəsində Rusiya öz tələbini geri götürdü və Bosniya və Herseqovinanın ilhaqını tanıdı. Rusiyanın ardınca Serbiya da güzəştə getdi.

**BOYKOT** (Ç.K.Boykotun – *Boycott* - adı ilə bağlıdır). 1880-cı ildə ilk dəfə olaraq irland icarədarları tərəfindən istifadə olunmuşdur. Ayrı-ayrı şəxslərlə, təşkilatlarla və dövlətlərlə münasibətlərin tam və ya qismən kəsilməsindən ibarət siyasi və iqtisadi mübarizə formasıdır. *Beynəlxalq münasibətlər* sahəsində B. hər hansı dövlətlə münasibətlər qurmaqdan və saxlamaqdan, iqtisadiyyat sahəsində B. müəyyən ölkələrlə ticarət və ya maliyyə əlaqələri saxlamaqdan imtina etməkdir.

Hər hansı dövlət və ya dövlət qrupu tərəfindən B.-un həyata keçirilməsi konkret şəraitdən asılı olaraq müxtəlif hüquqi xarakterə malik ola bilər. B. silahlı qüvvələrdən imtina edən *beynəlxalq təşkilatlar* çərçivəsində sülhü qorumaq üçün həyata keçirilən mümkün vasitə kimi nəzərdən keçirilir. *BMT Nizamnaməsinin* 41-ci maddəsinə görə belə tədbirlərə iqtisadi münasibətlərin, dəmiryolu, dəniz, hava, poçt, teleqraf, radio və digər əlaqə vasitələrinin tam və ya qismən kəsilməsi, eləcə də *diplomatik münasibətlərin kəsilməsi* daxildir. Bundan başqa B. hansısa dövlət tərəfindən həyata keçirilən təzyiq tədbirləri vasitəsi ola bilər. Bir çox hallarda B. dövlətlər tərəfindən qanunsuz məqsədlərə nail olmaq üçün vasitə kimi istifadə olunmuşdur. *Beynəlxalq hüquq* nöqteyi-nəzərindən B. bir halda qanuni, digər halda isə qeyri-qanuni hərəkət kimi nəzərdən keçirilir.

B. həm də böyük dövlətlərin iqtisadi cəhətdən zəif inkişaf etmiş dövlətlərə təzyiq vasitəsidir. 1951-1953 illərdə İran hökuməti tərəfindən İngilis-İran neft şirkətinin milliləşdirilməsi (*Milliləşdirmə*) haqda qanun verdikdən sonra İngiltərə İran neftinə B. elan etmişdi. Misir tərəfindən Suveyş kanalının milliləşdirilməsindən sonra ona qarşı Fransa və İngiltərə B. elan etmişdilər.

Eyni zamanda B. asılı və yarımasılı xalqların istismarçılara qarşı mübarizə vasitəsi kimi də istifadə olunmuşdur. 1905 ildə ABŞ-ın siyasətinə cavab olaraq Çində ABŞ malları almaqdan və ABŞ tacirləri ilə əlaqəyə girməkdən imtina formasında kütləvi B. elan olunmuşdu.





**«BÖYÜK DƏYƏNƏK» SİYASƏTİ.** ABŞ-ın Latın Amerikası ölkələrinin daxili işlərinə istər silahlı müdaxilə istərsə də ərazilərini işğal etmək, yaxud onlar üzərində iqtisadi və siyasi nəzarət qoymaq formasında gerçəkləşən açıq müdaxilə anlamı; «B.d.» s. T.Ruzveltin (*Ruzvelt Teodor*) 1904-1905 illərdəki bir sıra çıxışlarında əsaslandırılmış və ona müvafiq olaraq, ABŞ əslində Qərb yarımkürəsində jandarm rolunu özü üçün mənimsəmişdi. Bu siyasətin əməli həyata keçirilməsi ABŞ-ın Kubaya (1906-1909), Nikaraquaya (1909), Dominikan Respublikasına (1912) və s. ölkələrə hərbi müdaxiləsində özünü təzahür etdirmişdi. «B.d.» s. «dollar diplomatiyası» kimi, ABŞ *xarici siyasətinin* ayrılmaz tərkib hissəsi olmuşdu. 1933 ildə *prezident* F.D.Ruzvelt (*Ruzvelt Franklin Delano*) «B.d.» s.-dən imtina olunduğunu elan etmiş və «mehriban qonşuluq» siyasətinə keçildiyini bildirmişdi.

**BÖYÜK DÖVLƏTLƏR.** *Beynəlxalq münasibətlərdə* aparıcı rol oynayan, sülhün və *beynəlxalq təhlükəsizliyin* qorunub saxlanılmasında xüsusi məsuliyyət daşıyan dövlətləri adlandırmaq üçün qəbul olunmuş istilah.

1815 il *Vyana konqresi* 5 böyük dövlətin - Rusiya, Böyük Britaniya, Prussiya, Avstriya və Fransanın mövcudluğunu təsdiq etmişdir. XIX əsrin sonu, XX əsrin əvvəlində digər dövlətlərin rolu artmağa başladı. 1898 il İspaniya-Amerika *müharibəsindən* sonra ABŞ, XIX əsrin sonunda İtaliya, 1905 il rus-yapon müharibəsindən sonra Yaponiya B.d. kimi tanınmışlar.

1945 il *San-Fransisko konfransından* başlayaraq 5 dövləti: SSRİ, ABŞ, Çin, Fransa və Böyük Britaniyanı B.d. adlandırmaq qəbul olundu. Bu dövlətlər *BMT Nizamnaməsinə* uyğun olaraq, *BMT Təhlükəsizlik Şurasının* daimi üzvləri oldular. BMT Nizamnaməsi TŞ-nin daimi üzvləri olan böyük dövlətlərin üzərinə beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq və qərarların çıxarılmasında *yekdil səs prinsipilə* hərəkət etməyi bir vəzifə olaraqmüəyyənləşdirdi.

**BÖYÜK ELÇİLİK** (1697-1698). 01.III.1697 ildə I Pyotrun (*Pyotr I*) Qərbi Avropaya göndərdiyi rus *diplomatik missiyası*; Qara dənizin şimal sahilləri uğrunda Türkiyə ilə mübarizədə Rusiyanın bir sıra Qərbi Avropa dövlətləri ilə ittifaqını möhkəmləndirmək və genişləndirmək məqsədi daşıyırdı. B.e. hərbi, dənizçilik, mühəndislik işləri ilə tanış olmalı, təcrübəli dənizçilər və topçular axtarıb tapmalı, gəmiqayırma üçün ləvazimat və materiallar almalı idi.

Böyük *səfir* kimi F.Y.Lefort, F.A.Qolovin və P.B.Voznisin təyin edilmişdilər. *Səfirliyin* tərkibinə peşə və hərbi elmləri öyrənmək üçün 35 könüllü də qatılmışdı ki, onların arasında Pyotr Mixaylov adı ilə I Pyotr da var idi. Pyotr Kurlandiyada Hersoq Fridrix Kazimirlə danışıqlar apardı, sonradan Köniqsbergə gələrək Brandenburq kurfürsti

(nüfuzlu knyaz) ilə ittifaq bağladı. VIII.1697 ildə B.e. Hollandiyaya gəlir və borc almaq üçün uğursuz cəhdlər göstərəndən sonra öz puluna ləvazimat alır, mütəxəssislər tutur. I Pyotr səfirliyin bir qrup üzvü ilə 3 aylığa Hollandiyadan İngiltərəyə gedərək orada III Vilhelm ilə görüşür, gəmiqayırma işləri ilə tanış olur. VI.1698 ildən B.e. Vyanada antitürk koalisiyası üzrə öz keçmiş müttəfiqləri ilə danışıqlar apardı, lakin Avstriyanın Türkiyə ilə sülh bağlamasının qarşısını almağa müvəffəq olmadı. Streleslərin qiyamı ilə bağlı təcili olaraq Moskvaya qayıtmaq lazım gəldiyindən 25.VIII.1698 ildə Venetsiyaya nəzərdə tutulan səfər baş tutmadı. Rusiyaya qayıdarkən I Pyotr yolüstü 31.VII Rave-Russkidə Polşa kralı II Avqustla görüşdü, onunla gələcəkdə İsveçə qarşı ittifaqın əsasını qoyan danışıqlar apardı.

B.e. birbaşa məqsədə çata bilmədi Rusiya Türkiyə ilə mübarizə aparmaq fikrindən daşınmalı oldu, lakin missiya Pribaltika uğrunda mübarizə üçün zəmin yaratdı.

**BÖYÜK PYOTRUN VƏSİYYƏTİ.** I Pyotrun adı ilə bağlı işğallar və rus nüfuzunun genişləndirilməsi planı; rus sovet tarixçiləri belə bir vəsiyyətin əslində mövcud olmadığını, onun guya düşmənçilik niyyətlərilə düzülüb qoşulduğunu iddia edirdilər.

I Pyotrun özü tərəfindən yazılmış vəsiyyətin sənəd kimi mövcud olduğunu ilk dəfə fransız tarixçisi Ş.Lezür özünün 1812 ildə Parisdə çıxan və Fransa hökumətinin sifarişilə yazılan «Rusiya dövlətinin yarandığı vaxtdan XIX əsrin əvvəllərinədək artan qüdrəti haqqında» adlı kitabında bildirib. Fransız tarixçisinə görə, rus çarı aşağıdakıları vəsiyyət edib: ordunu və xalqı möhkəmlədib bərkitmək, onları daim döyüşə hazır vəziyyətdə saxlamaq üçün fasiləsiz müharibələr aparmaq; hər cür mümkün vasitələrlə dövlətin şimalda və cənubda hüdudlarını genişləndirmək; Avropadan türkləri qovub çıxarmaqda Avstriyanı maraqlı etmək; İngiltərədə, Danimarkada və Brandenburqda İsveçə qarşı qərəzli münasibət formalaşdırmaq; Polşada hakimiyyət böhranını dəstəkləmək və onu parçalayıb zəbt etmək; Avstriya ilə Fransa arasında müharibə törətmək və bundan sonra İtaliyaya, İspaniyaya, Fransaya nizami qoşunlar və «Asiya orduları» yeritmək və s.

I Pyotrun işğalçılıq planları onun xələfləri tərəfindən dönmədən həyata keçirilmiş, Rusiyanın özgə ərazilərini işğal etməsində və işğalçı *müharibələr* aparmasında mühüm rol oynamışdır.

**BÖYÜK YEDDİLƏR MÜŞAVİRƏSİ.** Yeddi inkişaf etmiş sənaye ölkəsinin (ABŞ, Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, Kanada və Yaponiya) dövlət və hökumət başçılarının (*Dövlət başçısı. Hökumət başçısı*) iqtisadi və *xarici siyasət* məsələlərinə həsr olunmuş illik yığıncağı. 1975 ildə Rambuyedə (Paris yaxınlığı) ilk müşavirə keçirildi. Son vaxtlar müşavirələrə 8-ci üzv kimi Rusiya da dəvət edilir.

**BRANDT VİLLİ** (1913-1992) **(əsl adı və familiyası FRAM HERBERT ERNST KARL).** Almaniyanın siyasi xadimi və *diplomatı*.

1933-1945 illərdə Norveçdə mühacirətdə (*Mühacir*) olub, 1940-1945 illərdə Müqavimət Hərəkatında iştirak edib. 1955-1957 illərdə deputatlar palatasının sədri; 1957-1966 illərdə Qərbi Berlinin burqomistri işləyib. 1964 ildən Almaniya Sosial-Demokrat partiyasının sədri, 1966-1969 illərdə AFR-in vitse-*kansleri* və xarici işlər naziri; 1969-1974 illərdə AFR-in federal kansleri olmuş, Almaniyanın birləşməsi naminə gərginliyin aradan qaldırılması, SSRİ ilə dostluq münasibətləri saxlamaq siyasəti yeritmiş, SSRİ - AFR (1970), PXR-AFR (1970), ADR-AFR (1972), ÇSSR-AFR (1973) müqavilələrinin (*Beynəlxalq müqavilə*) bağlanmasında fəal iştirak etmişdi. 1976 ildə Sosialist İnternasionalının, 1977 ildən isə Beynəlxalq inkişaf məsələləri üzrə Müstəqil Komissiyanın sədri; 1979-1984 illərdə *Avropa Parlamentinin* üzvü olub.

1971 ildə *Beynəlxalq Nobel mükafatı* laureatı adına layiq görülüb.

**BRAYAN-ÇAMORRO MÜQAVİLƏSİ** (1914). 5.VIII. ABŞ dövlət katibi U.C.Brayan və Nikaraquanın diplomatik nümayəndəsi E.Çamorro arasında imzalanmışdı. Nikaraqua hökuməti 3 mln. ABŞ dolları müqabilində ABŞ-a Nikaraqua ərazisində okeanlararası kanalın çəkilməsi və istismarında «əbədi müddətə» əlahiddə hüquqlar verir, habelə 99 il müddətinə Foneska körfəzindəki dəniz bazasına və Karib dənizindəki Qret-Korn və Litl-Korn adalarına Vaşinqtonun sahiblik hüququnu tanıyırdı. M.-də göstərilən 99 ildən sonra ABŞ M.-ni əvvəlki müddətə bərpa edə bilərdi. M. qüvvədə olduğu müddətdə göstərilən ərazilər üzərində ABŞ *suverenliyi* bərqərar olurdu. M. 22.VI.1916 ildə qüvvəyə mindi.

Nikaraquanın müstəqilliyinə qarşı qəsd olan bu M. Mərkəzi Amerikanın digər respublikaları üçün də təhlükə törədir, onların hüquqlarını pozurdu. Salvador və Kosta-Rika Mərkəzi Amerika Respublikalarının tribunalına etirazla müraciət etdilər. Tribunal özünün 1917 il qərarında Kosta-Rika və Salvadorun hüquqlarının pozulduğunu bildirsə də, M.-nin etibarlı olmadığını bəyan etməkdən çəkindi və bildirdi ki, M. iştirakçılarından biri (ABŞ) elə bir dövlətdir ki, tribunalın səlahiyyəti ona şamil olunmur. M. qüvvədə qaldı. Nikaraqua ərazisində kanal çəkilməsə də, ABŞ ondan özünün Mərkəzi Amerikadakı siyasətində vasitə kimi istifadə etdi. M. 1970 ildə Manaquada imzalanan Konvensiyaya (*Beynəlxalq Konvensiya*) əsasən ləğv edildi.

**BREJNEV LEONİD İLİÇ** (1906-1982). SSRİ-nin partiya və dövlət xadimi. 1937-1941 illərdə Dneprodzercinsk və Dnepropetrovskda sovet və partiya orqanlarında çalışıb. 1941-1945 illərdə döyüşən orduda, 1945-1946 - Prikarpat hərbi dairəsində siyasi işlərdə olub; 1946-1947 illərdə Zaporojye, 1947-1950 illərdə Dnepropetrovsk Vilayət Partiya Komitəsinin birinci katibi vəzifələrində işləyib; 1952-1953 illərdə Moldaviya KP MK-nın birinci katibi, 1953-1954 illərdə Sovet Ordusu və Hərbi Dəniz Donanması Baş Siyasi İdarəsi rəisinin müavini olub. 1954-1955 illərdə Qazaxıstan KP.MK-nın ikinci, 1955-1956 illərdə isə birinci katibi vəzifələrini tutub. 1956-1960 illərdə Sov.İKP MK katibi seçilib; 1960-1964 illərdə SSRİ Ali Sovetinin Sədri, 1963-1964 illərdə Sov.İKP MK-nın katibi və eyni zamanda 1958-1964 illərdə RSFSR üzrə Sov. İKP MK Siyasi Bürosunun sədri vəzifələrində işləyib. 1966 ildən etibarən Sov. İKP MK-nın birinci katibi, həm də 1965-1977 illərdə SSRİ Ali Soveti Rəyasət Heyətinin üzvü olmuşdur.

Sosialist Əməyi qəhrəmanı (1961), dörd dəfə Sovet İttifaqı qəhrəmanı (1966, 1976, 1978, 1981).

«Dünyada xalqlar arasında sülhü möhkəmləndirmək» üzrə Beynəlxalq Lenin mükafatı laureatı (1973) və s. fəxri adlara layiq görülüb.

**BREST-LİTOVSK (BREST) SÜLH MÜQAVİLƏSİ** (1918). 3.III. Rusiya ilə Avstriya-Macarıstan, Almaniya, Bolqarıstan və Türkiyə arasında imzalanmışdı. Sovet Rusiyasının çətin vəziyyətindən istifadə edən Almaniya Polşanı, Pribaltikanı, Belorusiyanın bir hissəsini ələ keçirdi. Sovet qoşunları Aland adalarını, Finlandiyanı, Ukraynanı tərk etməli idilər. Rusiya-Ukrayna Mərkəzi Radasının Almaniya və müttəfiqləri ilə bağladığı müqavilələri (*Beynəlxalq müqavilə*) tanımalı, özü Rada ilə sülh müqaviləsi bağlamalı idi.

Rusiya 6 mld. marka *təzminat* ödəməli idi. B.-L.m-nin *ratifikasiyasından* sonra Rusiya ilə Almaniya və onun müttəfiqləri arasında *diplomatik münasibətlərin* və *konsulluq münasibətlərinin* yaradılması nəzərdə tutulurdu.

B.-L.m.-nə görə Batum, Ərdəhan, Qars Türkiyəyə verilməli, 1877-1878 illər rus-türk *müharibəsinə* qədərki sərhəd xətti bərpa edilməli, Türkiyə ərazisindəki erməni silahlı birləşmələri *tərksilah* olunmalı idi.

B.-L.m. Sovet Rusiyasının *birinci dünya müharibəsindən* çıxmasını təmin etdi. 13.11.1918 ildə Sovet hökuməti tərəfindən ləğv edilmişdi.

**BRETTON-VUDS SAZİŞLƏRİ** (1944). 01-23.VII Bretton-Vuds şəhərində (ABŞ) 44 ölkənin iştirakı ilə maliyyə-iqtisadi məsələlərin müzakirəsinin həyata keçirildiyi konfransda (*Beynəlxalq konfranslar*) imzalanmışdır. B.-V.s.-ləri beynəlxalq maliyyə sisteminin stabilləşməsi istiqamətində mühüm addım olmuşdu. Pul sisteminin sabitləşməsi üzv ölkələr arasında ticarətin inkişafına təkan verdi. Maliyyə sisteminin stabilliyini qızıla sərbəst konversiya olunan ABŞ dolları əsasında müəyyənləşdirilmiş mübadilə kursları təşkil edirdi. 35 ABŞ dolları bir unsiya qızıla bərabər tutulurdu. ABŞ qızılın alınıb-satılmasını müəyyənləşdirilmiş qiymətlərlə həyata keçirməli idi. Kapitalların hərəkətini təmin etmək üçün Beynəlxalq Valyuta Fondu və Beynəlxalq İnkişaf və Yenidənqurma Bankı yaradıldı.

ABŞ dollarının müəyyənləşdirilmiş kursla mübadilə olunması ticarət rəqabətinin və inflyasiyanın artdığı şəraitdə ABŞ maliyyə itkilərinə məruz qaldığı üçün 1971 ildə birtərəfli qaydada B.-V.s.-ni ləğv etdi. I.1971 ildə Kinqstonda (Yamayka) Beynəlxalq Valyuta Fondu haqqındakı sazişə əlavələr edildi və ABŞ dollarının sərbəst kursu müəyyənləşdirildi.

**BRİAN ARİSTİD** (1862-1932). Fransanın dövlət və siyasi xadimi, *diplomat*.

1902 ildən parlamentin deputatı; 1909-1911, 1913, 1915-1917, 1921-1922 və 1927-1929 illərdə baş nazir; 1915-1917, 1921-1922, 1925-1926 və 1926-1932 illərdə xarici işlər naziri; 1908-1909, 1912-1913 və 1914-1915 illərdə ədliyyə naziri; 1909-1911 və 1913 illərdə daxili işlər naziri; 1906-1908 illərdə maarif naziri, 1906-1911 illərdə mədəniyyət naziri olmuşdu.

Fransanın Avropada hegemonluğunu bərqərar etmək məqsədilə Almaniyanın *Birinci Dünya müharibəsində* məğlubiyyətindən bəhrələnməyə çalışıb. 1925 il Lokarna müqavilələrinin, 1928 il *Brian-Kelloq paktının* bağlanmasının təşəbbüskarlarından biri olub. 1930 ildə Avropa Federal birliyinin yaradılması təklifilə çıxış edib. Birliyin əsas vəzifəsi Lokarnoda əldə edilmiş





sülhün qorunmasına qarant almaq, Avropada «ümumi bazar» yaratmaq idi. Avropanın yeniləşməsini nəzərdə tutan bu birlikdə Sovet İttifaqı və Türkiyədən başqa qitənin digər ölkələri iştirak edə bilərdilər. Lakin Avropanın bir sıra ölkələrində milli maraqlar üstün gəldiyindən B.A.-ın «Pan-Avropa» yaratmaq layihəsi baş tutmadı. Xalqlar arasında yaxınlaşma və sülhün qorunmasında xidmətlərini nəzərə alaraq Brian 1926 ildə *Beynəlxalq Nobel mükafatına* layiq görüldü.

**BRİAN-KELLOQ PAKTI** (1928). *Müharibədən* milli siyasətin üsulu kimi imtina etmək barədə müqavilə; təşəbbüsçülərinin - Fransanın xarici işlər naziri *A.Brianın* və ABŞ dövlət katibi *F.Kelloqun* adları ilə adlandırılıb. 27.VIII. ABŞ, Fransa, Böyük Britaniya, Almaniya, İtaliya, Belçika, Kanada, Avstraliya, Yeni Zelandiya, CAR, İrlandiya, Hindistan, Polşa, Çexoslovakiya və Yaponiya nümayəndələri tərəfindən Parisdə imzalanıb.

İmzalanma günü ABŞ 48 dövlətə nota (*Diplomatik nota*) ünvanlayaraq, onları Brian-Kelloq *paktına* qoşulmağa çağırdı. Həmin dövlətlərin hamısı müxtəlif vaxtlarda bu müahidəyə qoşuldu.

Bunun ardınca Polşa, Litva, Finlandiya, Estoniya, Latviya və Rumıniyaya müraciət edərək, onlara müahidənin ümumi təsdiqini gözləmədən onun qüvvəyə minməsi barədə *protokol* imzalamağı təklif etdi. Belə bir protokol 9.XI..1929 Moskvada imzalandı.

Brian-Kelloq Paktı 24.VII.1929 ildə qüvvəyə mindi.

**BRÜSSEL KONFRANSLARI.** 1)1921 il konfransı (*Beynəlxalq konfranslar*). Rusiyaya «yardıma» dair; Belçika, Böyük Britaniya, Almaniya, Danimarka, İspaniya, İtaliya, Çin, Latviya, Hollandiya, Polşa, Rumıniya, Fransa, Çexoslavakiya, İsveç, İsveçrə, Estoniya və Yaponiya nümayəndələrinin iştirakı ilə 6.X. Brüsseldə keçirilib. Konfransda *Beynəlxalq Qırmızı Xaç* Cəmiyyətinin və Amerika Yardım Administrasiyasının nümayəndələri də təmsil olunmuşdular.

B.k.-nın çağırılmasında məqsəd Rusiyadakı aclıqdan əzab çəkənlərə (1921 il məhsul qıtlığından sonra) yardım göstərmək olub. B.k.-ın qərarında deyilirdi ki, Sovet Rusiyasına kreditlər yalnız «mövcud olan borcların Rusiya hökuməti tərəfindən tanınması» şərtilə verilə bilər. Yardım «geniş nəzarət təzminatlarının» alınması və Sovet Rusiyasının iqtisadi vəziyyətinin «öyrənilməsi» üçün ekspertlər komissiyasının göndərilməsi ilə şərtləndirilirdi.

B.k. «aclığın miqyası haqqında dəqiq məlumatların olmadığını» əsas tutaraq hər hansı əməli qərar qəbul etməmişdi. Həmin yardımı təşkil edərək, B.k.-ın edərək, sovet hökumətini çar borcları və əcnəbilərin mülkiyyətini qaytarmağa razı salmağa çalışırdı. RSFSR hökumətinin 28.X.1921 il notasında (*Diplomatik nota*) B.k-nın qərarlarına müvafiq qiymət verilmişdi.

2) 1937 il konfransı: *Millətlər Cəmiyyətinin* qərarına əsasən, 3-24.XI keçirilib. B.k.-da Yaponiyanın Çinə təcavüzü müzakirə olunmuşdu. Yaponiya və Almaniya konfransda (*Beynəlxalq konfranslar*) iştirak etməmişdilər.

Qərb dövlətlərinin tutduğu mövqe üzündən B.k. SSRİ-nin Millətlər Cəmiyyətinin Nizamnaməsinin 16-cı maddəsinə əsasən, Yaponiyaya qarşı kollektiv sanksiyaların tətbiqi barədə təklifini rədd etmiş və yalnız Yaponiyanın qeyri-qanuni hərəkətlərə yer verməsini qeyd edən *Qətnamə* ilə kifayət-

lənmişdi. B.k. belə bir ümid ifadə etmişdir ki, gələcəkdə münaqişəni nizama salmaq üçün əlverişli imkan yaranacaqdır. Bununla da B.k. öz fəaliyyətini dayandırmış və bir daha toplanmamışdır.

**BRÜSSEL MÜQAVİLƏLƏRİ.** 1) 1948 il müqaviləsi (*Beynəlxalq müqavilə*) Rəsmi olaraq iqtisadi, sosial, mədəni əməkdaşlığa və kollektiv özünümüdafiəyə dair müqavilə (*Beynəlxalq müqavilə*) adlanır.

17.III Qərbi Avropa ölkələrinin hərbi qruplaşmasının yaradılması barədə Böyük Britaniya, Fransa, Belçika, Hollandiya və Lüksenburq tərəfindən 50 il müddətinə bağlanıb və bütün iştirakçı ölkələr tərəfindən *ratifikasiya* edildikdən sonra 25.VIII qüvvəyə minib.

B.m. Avropada *müharibə* baş verdiyi və iştirakçıların heç olmazsa birinin ona cəlb olunduğu halda müqavilə iştirakçılarının birgə fəaliyyətinə dair öhdəlikləri müəyyən edib. Öhdəliklərin qəbul edilməsi əslində Avropada müharibədən sonrakı dövrdə ilk qapalı hərbi qruplaşmanın – Qərb İttifaqının yaranması demək idi.

B.m. 1949 ildə *Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO)* yaranması üçün hazırlıq mərhələsi oldu. NATO-nun meydana gəlməsi ilə qərb ittifaqı müəyyən vaxtadək öz müstəqil əhəmiyyətini itirdi, çünki əslində o, NATO-nun tərkibinə qatılmış oldu. Lakin 1954 ildə *Avropa Müdafiə Birliyinin* yaradılması planları puça çıxdıqdan sonra yenidən dirçəldi. 23.X 1954 ildə Paris razılaşmaları deyilən çərçivədə B.m.-ə dəyişikliklər və əlavələr barədə *protokollar* imzalandı və onlara müvafiq olaraq AFR ilə İtaliya İttifaq iştirakçılarının sırasına daxil edildilər. Yeni hərbi blok *Qərbi Avropa İttifaqı* adı ilə tanındı.

2) 1972 il müqaviləsi. İngiltərə, Danimarka, İrlandiya və Norveçin *Avropa İqtisadi Birliyinə, Atom Enerji üzrə Avropa Birliyi və Avropa Kömür və Polad Birliyinə* daxil olmaları barədə sənəd; 01.I.1973 ildə qüvvəyə minib. Yalnız Norveçin Avropa Birliyinə daxil olması baş tutmadı, çünki 24-25.IX.1972 il *referendumu* zamanı ölkə əhalisi öz hökumətinin planlarını bəyənmədi. B.m.-nin iştirakçısı olan ölkələr 1957 il Roma müqaviləsinin (*Avropa İqtisadi Birliyi*) qərarlarını və AİB-in sonrakı qərarlarını, o cümlədən üçüncü ölkələr və *beynəlxalq təşkilatlarla* bağlanan sazişləri yerinə yetirmək barədə öhdəlik götürmüşdülər.

**BUDAPEŞT KONVENSİYASI** (1877). 15.I. Rusiya ilə Avstriya-Macarıstan arasında Budapeştdə imzalanmışdır. B.k. rus-türk *müharibəsinin* başlayacağı təqdirdə Avstriya-Macarıstanın neytral (*Neytral dövlətlər*) qalmasını nəzərdə tuturdu. Bunun əvəzində kompensasiya olaraq, Rusiya Bosniya və Herseqovinanın Avstriya-Macarıstan tərəfindən işğal olunmasına razılıq verdi. Avstriya-Macarıstan öz hərbi əməliyyatlarını Bolqarıstan, Çernoqoriya, Rumıniya və Serbiyaya, Rusiya isə Bosniya, Çernoqoriya, Herseqovina və Serbiyaya yaymamağı öhdəyə götürdülər.

**BUDAPEŞT MÜŞAVİRƏSİ** (1967). 11-12.VII. Sosialist ölkələri başçılarının (*Dövlət başçısı, Hökumət başçısı*) Yaxın Şərqdə vəziyyətə dair Budapeştdə keçirilən toplantısı. M.-də Bolqarıstan, Macarıstan, ADR, Polşa, Sovet İttifaqı, Çexoslavakiya və Yuqoslaviya təmsil olunmuşdu. İştirakçılar İsrailin ərəb torpaqlarını işğal etməsini onun *BMT Nizamnaməsinin* əsas prinsiplərinə





məhəl qoymaması və ərəb dövlətlərinin müstəqilliyi və ərazi bütövlüyünə qəsd etməsi kimi qiymətləndirmişlər.

Qeyd edilmişdir ki, B.m.-si ərəb dövlətlərini İsrail təcavüzünün ağır nəticələrini aradan qaldırmaqda və ilk növbədə İsrail qoşunlarının işğal olunan ərazilərdən dərhal çıxarılmasında ərəb dövlətlərini qətiyyətlə dəstəkləyir, təcavüzə qarşı mübarizədə mümkün olan daha təsirli vasitələrdən tam şəkildə istifadə etməklə Yaxın Şərqdə sülhün bərpa olunmasına səy göstərəcəkdir.

İştirakçı dövlətlərin ərəb dövlətlərinə göstərdiyi siyasi və iqtisadi yardımlar barədə məlumatlar vermişdi. Qeyd edilmişdir ki, iştirakçılar Yaxın Şərq məsələsində gələcəkdə də birgə hərəkət etmək üçün bir-biri ilə sıx əlaqə saxlayacaqlar.

**BUENOS - AYRES KONFRANSI** (1936). Sülhün qorunmasına dair Amerikaarası fövqəladə konfransı (*beynəlxalq konfranslar*); 01-23.XII ABŞ-ın təşəbbüsü ilə keçirilib. B.-A.k.-nın işində ABŞ və Latın Amerikası ölkələri iştirak ediblər. B.-A.k.-da ilk dəfə olaraq *prezidentin* təmsilçiliyilə iştirak edən ABŞ nümayəndə heyəti dünya *müharibəsi* başlandığı təqdirdə «Qərb yarımkürəsində sülh və *beynəlxalq təhlükəsizliyin* təmin edilməsi» bayrağı altında Latın Amerikası ölkələrini ABŞ *xarici siyasət* xəttinə bağlamağa və Amerikaarası sistemdən digər dövlətlərə və eləcə də Latın Amerikası xalqlarının inqilabi-demokratik hərəkatlarına qarşı mübarizədə istifadə etməyə çalışırdı. Həmin məqsədlə ABŞ Panamerikanizmin «əsası» kimi belə bir şərt qoymağı təklif etdi ki, «bir Amerika dövlətinin təhlükəsizliyinin qorxu altına alınması digər Amerika dövlətlərinin təhlükəsizliyi üçün qorxu kimi qiymətləndirilsin».

ABŞ həmçinin sülhə qarşı hər cür təhlükə törənəcəyi təqdirdə mütləq şəkildə məşvərət keçirməyi və xarici işlər nazirlərindən ibarət Amerikaarası Məşvərət Komitəsi yaratmağı təklif etdi.

Argentina və bir sıra dövlətlərin əks mövqe tutmaları nəticəsində ABŞ-ın təklifləri qəbul edilmədi. Konfrans yalnız belə bir qərarla kifayətləndi ki, Qərb yarımkürəsi ölkələri üçün hər dəfə «hər hansı bir təhlükə törəndiyi» təqdirdə müşavirə keçirilsin.

**BUXAREST SÜLH MÜQAVİLƏLƏRİ.** 1) 28.V.1812.1806-1812 il rus-türk *müharibəsinə* son qoymuşdu. Bessarabiya Rusiyaya verildi. Rusiya Asiyada işğal etdiyi əraziləri Türkiyəyə qaytardı. Arpaçay, Acar dağı və Qara dəniz arasındakı ərazilər Rusiyada qaldı. Türkiyə Anapanı özünə qaytardı. B.m.-nin məxfi maddəsinə görə Qara dənizin 30-40 verst uzunluğunda sahil xətti *Rusiyaya verilmişdi. Rusiya Dunay çayı* boyu ticarət gəmiçiliyi, Prut çayının mənbəyinə qədər isə hərbi gəmiçilik hüququ almışdı. Moldaviya və Valaxiya Türkiyəyə qaytarıldı. *Yassı sülh müqaviləsilə* onlara verilmiş imtiyazlar təsdiq edildi. Serbiya daxili özünüidarəetmə hüququ qazandı.

2) 10.XIII.1913 Bolqarıstan ilə Çernoqoriya, Rumıniya, Serbiya və Yunanıstan arasında imzalanmış və İkinci Balkan müharibəsinə son qoymuşdu. Cənubi Dobruca Bolqarıstandan alınıb Rumıniyaya verildi. Bolqarıstan Rumıniya ilə sərhəddəki (*Dövlət sərhədləri*) qalaları 2 ilə *tərksilah* etməyi və yenilərin tikməməyi öhdəsinə götürdü. Osmanlıların tabeliyindən azad edilmiş Makedoniya Bolqarıstan,

Serbiya və Yunanıstan arasında bölüşdürüldü

3) 7.V.1918 Almaniya, Avstriya-Macarıstan, Bolqarıstan və Türkiyə ilə Rumıniya arasında mübarizəyə son qoydu. Cənubi Doburcanı Bolqarıstana qaytardı. Şimali Doburca üzərində *Dördlər ittifaqının kondominiumu* bərqərar edildi.

Rumıniya faktiki olaraq Avstriya-alman müstəmləkəsinə çevrilirdi. Digər tərəfdən alman bloku Rumıniya tərəfindən Bessarabiyanın işğalına rəvac verdi.

**BULLİT MİSSİYASI.** 1919 ilin martında ABŞ *prezidenti* V.Vilsonun (*Vilson Vudro*) və Böyük Britaniyanın Baş naziri Lloyd Corcun (*Lloyd Devid Corc*) təvsiyəsilə Rusiyada hərbi əməliyyatları dayandırmaq təklifi ilə sovet Rusiyasına U.Bullitin (*Bullit Uilyam Kristian*) başçılığı ilə göndərilən diplomatik heyət.

Sovet hökuməti bəzi şərtləri qəbul etməyə razılıq versə də, Lenin həmin şərtlərə Rusiyada kapitalizmi bərpa etmək cəhdlərini heçə endirən ciddi düzəlişlər etdi.

Əldə edilən razılığa baxmayaraq, layihə sovet hökumətinə rəsmi olaraq göndərilmədi. B.m.-nın nəticələri faktiki olaraq, ört-basdır edildi. U.Bullitin gətirdiyi saziş layihəsini dərc etməmək tapşırığını verdi, Lloyd Corc isə sovet hökuməti ilə danışıqların təşkilində iştirak etməkdən açıq-aydın yayındı.

**BULLİT UİLYAM KRİSTİAN** (1891-1967). ABŞ *diplomatı*. 1917 ildən diplomatik xidmətdə olub. ABŞ Dövlət Departamentinin Mərkəzi Avropa Ölkələri üzrə İnformasiya Bürosuna başçılıq edib. 1919-1920 illərdə *Paris sülh konfransında* ABŞ nümayəndə heyətinin üzvü olub. *Prezident* V.Vilsonun (*Vilson Vudro*) göstərişi ilə Sovet Rusiyasına göndərilən xüsusi nümayəndə heyətinə başçılıq edib. ABŞ-ın 1919 il *Versal sülh müqaviləsini* imzalaması və *Millətlər Cəmiyyətinə* üzv olmasına qarşı çıxıb. 1933 illərdə ABŞ dövlət katibinin xüsusi köməkçisi olub. 1933-1936 illərdə ABŞ-ın SSRİ-də ilk *səfiri* olub; 1936-1940 illərdə ABŞ-ın Fransada səfiri vəzifəsində çalışıb. Faşist təcavüzkarlarının «cilovlanması» tərəfdarı olsa da, SSRİ-yə münasibətdə düşmənçilik mövqeyindən çıxış edib. 1940-1942 illərdə xüsusi tapşırıqlar üzrə səfir, eyni zamanda 1941-1942 illərdə ABŞ prezidenti F.D.Ruzveltin (*Ruzvelt Franklin Delano*) Yaxın Şərqdə xüsusi nümayəndəsi; 1942-1944 - ABŞ hərbi-hava qüvvələri nazirinin xüsusi köməkçisi olub; 1944 ildə Fransa Müqavimət hərəkatına qoşulub.

**BULON KONFRANSI** (1920). İngiltərə, Fransa, İtaliya, Belçika və Yaponiya nümayəndələrinin təmsil olunduqları *Antanta* Ali Şurasının müşavirəsi: 21-22.VI Bulon-syür-Mer (Fransa) şəhərində keçirilib.

Bulon konfransının (*Beynəlxalq konfranslar*) gündəliyinə Almaniyanın ödəyəcəyi *təzminat*, Almaniyanın *tərksilah* edilməsi, Türkiyədə vəziyyət və «rus məsələsi» daxil edilmişdi.

B.k.-nın qərarına görə, Almaniya nəzərdə tutulan təzminatı 37 il müddətinə ödəməli idi. Cəza tədbiri kimi nəzərdə tutulurdu ki, əgər Almaniya təzminatı ödəməkdən imtina edərsə, müttəfiq qoşunları alman torpaqlarının bir hissəsini işğal edəcəkdir. Bu qərar həmin dövrdə dərc edilməmişdi.

Müttəfiq dövlətlər 22.VI tələb etdilər ki, xüsusi alman hərbi birləşmələri 3 ay müddətində buraxılsın və 1919 il *Versal sülh müqaviləsinin* aviasiyaya aid və 10.VII.1920 ilədək alman ordusunun sayca 100 min nəfərə endirmək barədə maddələri yerinə yetirilsin. Lakin Almaniya hökumətinin kommunist təhlükəsinə istinadını əsas tutaraq müttəfiqlər alman polisinin sayını 80 mindən 150 min nəfərədək artırmağa icazə verdilər. B.k.-da Türkiyədə milli-azadlıq hərəkatını yatırmaq barədə qərar qəbul edildi. Yunan ordusu ingilis donanmasının köməyi ilə 22.VI kamalçılar üzərinə hücuma keçdi.

B.k. «Londonda rus iqtisadi nümayəndəliyi ilə başlanan iqtisadi xarakterli danışıqları davam etdirməyi qərara aldı və bununla da nəzərə çatdırıldı ki, sovet hökumətinin siyasi tanınması gündəmdə durmur.

**BURAXILIŞNAMƏ.** Bir sıra ölkələrdə diplomatik nümayəndə akkreditə olunduğu (*Akkreditə etmək*) ölkədən gedəndən sonra, həmin nümayəndənin akkreditə olunduğu ölkənin başçısı (*Dövlət başçısı, Hökumət başçısı*) diplomatik nümayəndəni akkreditə etmiş ölkə başçısına buraxılışnamə adlanan sənəd göndərir.

Adətən B.-nin *preambulasında* diplomatik nümayəndənin iki ölkə arasında *diplomatik əlaqələrin* möhkəmləndirilməsində və inkişafında rolu qeyd olunur; bəzən B. dövlət başçısının diplomatik nümayəndəni «buraxdığı» haqqında cümlə ilə bitir. B-lər diplomatik yolla göndərilir. B-yə cavab vermək qəbul olunmamışdır. Buraxılışnamə də *Etimadnamə* və *geri çağırılma sənədi* kimi dövlət gerb nişanı olan xüsusi blankda çap olunur; B.-yə möhür vurulmur. Dövlətlərin adı Konstitusiyaya müvafiq yazılır (İran İslam Respublikası, Rusiya Federasiyası və s.), ölkə başçılarının adı, soyadı və atasının adı həmin ölkədə qəbul olunmuş ənənəvi qaydaya riayət olunmaqla yazılır. Dövlətlərin rəsmi orqanlarının adlarının yazılmasında da bu tələblərə riayət olunur. Bəzi dillərdə bu sənədin adı cəm halında olsa da (məs: rus dilində «otpusknıe qramotı») əslində təkdir və ondan bir dənə yazılır.

**BUŞ CORC HERBERT UOKER (Ata)** (1924). 1989-1993 ildə ABŞ *prezidenti* seçilib. Fillips hərbi məktəbini və Yel universitetini bitirib. *İkinci Dünya müharibəsində* dəniz aviasiyasında xidmət edib. 1954-1964 *illərdə* «Sanata petroleum korp» və «Sanata ofşor kompani» (Texas ştatı) kompaniyalarının prezidenti olub. 1964-1966 illərdə həmin kompaniyaların direktorlar şurasının sədri; 1970-1973 illərdə ABŞ-ın *BMT*-də daimi nümayəndəsi, 1973-1983 illərdə Respublikaçılar Partiyası Milli Komitəsinin sədri, 1974-1975 illərdə ABŞ-ın Pekində əlaqələndirmə qrupunun sədri, 1975-1977 illərdə MKİ-nin direktoru olub. 1977-1980 illərdə iki Texas bankının və Viskoniya ştatındakı «Eli-Lili» kimya-əczaçılıq kompaniyası idarə heyətlərinin üzvü olub. 1981-1989 illərdə Reyqan hökumətində vitse-prezident vəzifəsini tutub. 1989-1993 illərdə ABŞ prezidenti olub.

**BUŞ CORC UOKER (oğul)** (1946). Fillips akademiyasında, Uell universitetində, Harvard biznes məktəbində təhsil almış, idarəçilik magistridir.

Atası Corc Buşun seçki kompaniyalarında fəal iştirak etmişdir. 1994 ildə Texas ştatının qubernatoru, 2001 ildə ABŞ *prezidenti* seçilmişdir.

Yeritdiyi siyasət vergilərin azaldılması, vətəndaşlıq məsuliyyətinin

artırılması, beynəlxalq terrorizmə qarşı barışmaz mübarizəsi ilə fərqlənir.

2004 ildə ikinci dəfə ABŞ prezidenti seçilmişdir.

**BUTROS BUTROS QALİ** (1922). Misir Ərəb Respublikasının ictimai və siyasi xadimi. Qahirə və Paris universitetlərini bitirib. Fəlsəfə elmləri doktorudur. 1954-1955 illərdə Kolumbiya Universitetində (ABŞ) elmi-tədqiqatla məşğul olmuş, 1965 ildə «Əl-əhrəm əl-İqtisadi» jurnalının redaktoru işləyib. 1967-1969 illərdə Haaqa Beynəlxalq Hüquq Akademiyasının (Hollandiya) elmi-tədqiqat mərkəzinə rəhbərlik etmişdir. 1975-1977 illərdə Ərəb Sosialist İttifaqının müvəqqəti baş katibliyinin, 1984 ildən hakimiyyətdə olan Milli-demokratik partiyanın üzvü seçilib. 1979 ildə hökumət qəzeti «Əl-Əhramın» siyasi və strateji tədqiqatlar mərkəzinin rəhbəri təyin olunub, 1979 ildə Vaşinqtonda İsraillə bağlanacaq sülh müqaviləsinin (*Beynəlxalq müqavilə*) hazırlanması üçün aparılan danışıqlarda Misir nümayəndə heyətinin tərkibində iştirak edib. 1993-1997 illərdə *BMT Baş katibi* vəzifəsində çalışıb.

**BÜLENT ECEVİT** (1925). Türkiyənin ictimai-siyasi və dövlət xadimi.

1944 ildə Mətbuat Nazirliyində tərcüməçi kimi əmək fəaliyyətinə başlayıb; 1946-1950 illərdə İngiltərədə Türkiyənin mətbuat *attaşesi* işləmiş; jurnalist və naşir kimi uzun müddət Türkiyənin bir sıra aparıcı qəzet və jurnalları ilə əməkdaşlıq etmişdir; 1959 ildə Cümhuriyyət Xalq Partiyasından millət məclisinə deputat seçilib; 1966 ildə CXP – nın Baş katibi, 1972 ildə isə 1972 ildə isə sədri seçilib; 1961-1965 illərdə İsmət İnönü (*İnönü İsmət*) hökumətində əmək naziri olub; 1974 ildə *koalisiyalı* hökumətdə baş nazir olarkən yunan millətçilərinin Kıprdə türk icmasına qarşı törətdikləri qanlı cinayətlərin qarşısını almaq məqsədi ilə adaya türk qoşunlarının çıxarılmasını həyata keçirmişdir. 1978 ildə koalisiyalı hökumət qurmuş, 21 ay baş nazir olmuşdu. 1980 ildə hərbi çevrilişdən sonra siyasi partiyaların fəaliyyətinin qadağan olunması ilə bağlı pedaqoji işə keçmiş, Avropa və ABŞ-ın bir sıra ali məktəblərində dərs demişdir; 1997 ildə Demokratik Sol Partiyanın sədri seçilmiş; 1997 ildə Məsud Yılmazın rəhbərlik etdiyi koalisiyalı hökumətdə baş nazirin köməkçisi olmuş; 1998-1999 illərdə keçid hökumətində Baş nazir olmuş; 1999 illərdə DSP parlament seçkilərində qalib gələndən sonra koalisiyalı hökumət yaradaraq Baş nazir vəzifəsini tutmuşdu.

## C

**CAVANŞİR BEHBUD BƏY AZAD XAN OĞLU** (1886-1921). 1890-1898 illərdə Tiflis real məktəbində orta təhsil almış, 1902-1906 illərdə Almaniyanın Frayberq şəhərindəki Dağ-Mədən Akademiyasını fərqlənmə ilə bitirmiş, 1906-1907 illərdə İngiltərədə təkmilləşdirmə kursları keçmişdir. 1907 ildə Bakıda Şibayevin neft mədənlərində baş mühəndis işləmişdir.

Müsəlman Xeyriyyə Cəmiyyəti rəhbərliyinin, 1905 ildə yaradılmış gizli





«Difai» firqəsi Mərkəzi Komitəsinin, «Nicat» maarif cəmiyyətinin və Rus Texniki Cəmiyyəti Bakı şöbəsinin üzvü olmuşdur.

1917 ildə yaradılmış Müsəlman Milli Şurası Müvəqqəti İcraiyyə Komitəsinin üzvü seçilmişdir. III.1918 ildə Bakıda erməni-müsəlman qırğını vaxtı barışdırıcı komitədə iştirak etmişdir.

1918 ildə ADR Daxili İşlər, Ticarət və Sənaye Naziri işləmiş, Parlamentin üzvü seçilmişdir. VII.1919 ildə «Dəyanət» özəl xarici ticarət birliyinin yaradıcılarından olmuşdur.

1920-1921 illərdə Azərbaycan neft sənayesində, 1921 ildə Azərbaycanın Türkiyədəki nümayəndəliyində məsul vəzifədə çalışmış və 08.VIII. İstambulda «Daşnaksütyun» partiyasının üzvü Misak Terlakyan tərəfindən qətlə yetirilmişdir.

**CENTELMEN SAZİŞİ** (ing. gentlemen's agreement). Beynəlxalq təcrübədə şifahi formada əldə olunmuş saziş. C.s.-nin şifahi formada bağlanması tərəflərin üzərinə götürdükləri öhdəliklərin hüquqi əhəmiyyətini azaltmır.

**CƏFƏROV MƏMMƏDYUSİF HACIBALA OĞLU** (1885-1938). Azərbaycanın tanınmış siyasi-ictimai xadimi, 1912 ildə Moskva Dövlət Universitetinin hüquq fakültəsini bitirmiş, həmin ildə Yelizavetpol-İrəvan quberniyalarının müsəlman əhalisi tərəfindən IV Dövlət Dumasına deputat seçilmiş, 09.III.1917 ildə müvəqqəti hökumətinin təşəbbüsü ilə yaradılmış IV Dövlət Dumasının xüsusi Zaqafqaziya Komitəsində sənaye və ticarət işlərinə rəhbərlik etmiş, 15.XI.1917 ildə Müstəqil Zaqafqaziya hökuməti – Zaqafqaziya Komissarlığında ticarət və sənaye naziri, müstəqil Azərbaycanın ilk hökumətinin tərkibində ticarət və sənaye naziri, VI.1918 ilin axırlarından III.1919 ilə qədər Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstan Respublikasında diplomatik nümayəndəsi olmuşdur. 14.IV.1919 ildə təşkil edilmiş hökumətdə xarici işlər naziri vəzifəsində çalışmışdır. Bu dövrdə o, Gürcüstan və Azərbaycan Respublikaları arasında hərbi-müdafiə müqaviləsinin (*Beynəlxalq müqavilə*) bağlanması, müsəlmanların vəhşicəsinə qırılması əleyhinə Ermənistan XİN-ə, Respublikanın ərazi bütövlüyü, əmlakının qorunması barədə Böyük Britaniyanın Cənubi Qafqazdakı və Bakıdakı qoşunlarının komandanlarına notalar (*Diplomatik notalar*) göndərilməsində təşəbbüskarlıq göstərmişdir. 02.II.1920 ildə Azərbaycan parlamentinin sədrinin müavini seçilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradıqdan sonra Azərbaycan pambıqçılıq və şərabçılıq trestlərində hüquq məsləhətçisi vəzifəsində çalışmış, 15.V.1938 ildə Bakıda vəfat etmişdir.

**CİNAYƏTKARLIĞIN QARŞISININ ALINMASI VƏ CİNAYƏTKARLARLA RƏFTAR ÜZRƏ BMT-nin KONQRESLƏRİ.** *BMT* Baş Assambleyasının 1950 ildə qəbul etdiyi qərara əsasən, hər beş ildən bir keçirilir. Bu K.-də son beş il ərzində sözü gedən sahədə dövlətlərin əməkdaşlığının nəticələri təhlil edilir, sonrakı dövr üçün fəaliyyət istiqamətləri və konkret tədbirlər müəyyən edilir. Aşağıdakı məsələlər son dövrlərdə keçirilmiş K.-in diqqət mərkəzində olmuşdur: inkişaf kontekstində cinayətkarlığın qarşısının alınması və cinayətə qarşı ədalət mühakiməsi; *beynəlxalq terrorizm*, mütəşəkkil cinayətkarlıq, pulların yuyulması kimi cinayətlərlə birgə mübarizə; yetkinlik yaşına çatmamış şəxslər tərəfindən

törətdilən cinayətlərin qarşısının alınması və bu şəxslərə qarşı ədalət mühakiməsinin həyata keçirilməsi və s.

## Ç

**ÇANTASIZ NAZİR** (Portfelsiz nazir). Nazirliyə və ya dövlətin digər idarə orqanlarına birbaşa rəhbərlik etməyən hökumət üzvü. Bir sıra ölkələrdə Ç.n. vəzifəsi bir qayda olaraq parlamentdə partiyalarının üzvü olan deputatlar tərəfindən hökumətin müdafiə olunmasını təmin edə biləcək siyasi xadimlərdən seçilir. Bəzən Ç.n. siyasi müşavir kimi hökumətə daxil edilir.

**ÇANTURİYA GEORGİ** (1957). 1985 ildə Tiflis Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. 1974-1979 illərdə Tiflis Aviasiya birliyində çalışıb. 1994 ildən *səfir* təyin olunduğu müddətədək *dövlət başçısı* aparatı yanında baş dövlət müşaviri vəzifəsində çalışmışdır. 1995-1997 illərdə Gürcüstan Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri işləmişdir.

**ÇEXOSLOVAKİYA HADİSƏLƏRİ** («PRAQA BAHARI») (1968). 20-21. VIII. *Varşava Müqaviləsi Təşkilatının* üzvü olan ADR, Bolqarıstan, Macarıstan, Polşa və SSRİ-nin Çexoslovakiyaya hərbi müdaxiləsi. Müdaxiləyə səbəb Çexoslovakiyanın partiya və dövlət rəhbərləri (*Dövlət başçısı*) A.Dubçek, O.Çernik, L.Svoboda, Y.Smrkovski, F.Kriql və başqaları tərəfindən həyata keçirilən və senzuranın ləğv olunmasını, ictimai quruluşun demokratikləşdirilməsini, repressiya qurbanlarına bəraət verilməsini, «sosialist bazar iqtisadiyyatı»nın tətbiq olunmasını, dövlətin federativ əsaslarının (*Federasiya*) yenidən qurulmasını özündə ehtiva edən radikal dəyişikliklər idi. Hərbi müdaxilə dəyişiklərə son qoydu.

**ÇİÇERİN GEORGİ VASİLYEVİÇ** (1872-1936). Sovet *diplomatıdır.* Sovet nümayəndə heyəti tərkibində *Brest-Litovsk (Brest) sülh müqaviləsini* imzalamışdır. 1918-1930 illərdə əvvəl RSFSR-in, sonralar SSRİ-nin xaric işlər üzrə xalq komissarı olmuşdur. 1922 ildə *Genuya konfransında* sovet nümayəndə heyətinə başlıq etmiş və SSRİ-nin beynəlxalq təcriddən çıxması siyasətini uğurla həyata keçirmişdir. Bu məqsədlə 1922 ildə Almaniya ilə *Rapallo müqaviləsini* imzalamışdı.

**ÇYAN QOTSYAN** (1940). Çin Xalq Respublikasının Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) müxtəlif işlərdə çalışmışdır. 1982-1984 illərdə CXR-nın Loas Xalq Demokratik Respublikasındakı səfirliyində III, II katib işləmişdir. 1988-90 illərdə ÇXR-nın Torontoda (Kanada) baş Konsulluğunda (*Konsul idarəsi*) *konsul*. 1990-1994 illərdə Los-Ancelesdə vitse-konsul olmuşdur. 1994 ildən ÇXR XİN-də Mərkəzi aparatda Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üzrə müşavir işləmişdir. 1998-2002 illərdə Çin Xalq Respublikasının Azərbaycan Respublikasında *səfiri* işləmişdir.

**ÇYAN SİYUN** (1955). Ali təhsillidir. 1976-1982 illərdə Çin Xalq Respublikası Xarici İşlər Nazirliyinin (*Xarici İşlər İdarəsi*) SSRİ və Şərqi Avropa ölkələri departamentinin əməkdaşı olmuşdur. 1982-1992 illərdə ÇXR-nin Rusiyadakı *səfirliyində* III, I katib vəzifələrində çalışmışdır. 1995-1997 illərdə XİN-də şöbə müdiri, müfəttiş və başqa vəzifələrdə çalışmışdır. 1997-2000 illərdə ÇXR-nın Rusiyadakı səfirliyində müşavir-elçi kimi diplomatik fəaliyyət göstərmişdir. 2002 ildə Çin Xalq Respublikasının Azərbaycan Respublikasında *səfiri* təyin olunmuşdur.

**ÇOXTƏRƏFLİ DİPLOMATİYA.** Bir neçə dövlətin nümayəndələrinin *beynəlxalq hökumətlərarası təşkilatların* və konfransların (*Beynəlxalq konfranslar*) işləri ilə əlaqədar, danışıqların və məsləhətləşmələrin keçirilməsi və s. ilə bağlı diplomatik fəaliyyəti. *İkinci dünya müharibəsindən* sonra *Birləşmiş Millətlər Təşkilatının* və *BMT*-nin ixtisaslaşdırılmış idarələrinin, bir sıra *beynəlxalq təşkilatların* və hökumətlərarası qurumların yaradılması nəticəsində Ç.d.-nın əhəmiyyəti daha çox artmışdır.

Ç.d.-nın genişlənməsi ilk növbədə dövlətlərarsı ünsiyyətin intensivləşməsi ilə bağlıdır. *Müharibədən* sonrakı dövrdə siyasət, sosial və iqtisadiyyat sahələrindəki böyük irəliləyişlər əsas etibarı ilə, qlobal problemlərin həlli üçün bütün dövlətlərin səylərini birləşdirməyin obyektiv zərurətini doğuran elmi-texniki inqilabın sürətlənməsi ilə şərtlənmişdir.

**ÇÖRÇİLL UİNSTON LEONARD SPENSER** (1874-1965). Böyük Britaniyanın siyasi dövlət xadimidir. 1940-1945 və 1951-1955 illərdə baş nazir olmuşdur. *Birinci dünya müharibəsi* dövründə hərbi-dəniz nazirliyinə başçılıq etmişdir. 1917 il Rus inqilabından sonra «14 cahangirin» Rusiyaya qarşı müdaxiləsinin ilhamçısı və təşkilatçısı olmuşdur. *İkinci dünya müharibəsi* dövründə ABŞ, SSRİ və İngiltərədən ibarət «Böyük üçlük»ün formalaşması və alman faşist işğalçılarının məhv edilməsində əvəzsiz xidmətləri olmuşdur. F.Ruzvelt (*Ruzvelt Franklin Delano*) və İ.Stalinlə (*Stalin İosif Vissarionoviç*) yanaşı Tehran və Yalta konfranslarının (*Tehran Konfransı 1943, Yalta (Krım) Konfransı 1945; Beynəlxalq Konfranslar*) iştirakçısı olmuş və *müharibədən* sonra dünyanın təsir dairələrinə bölünməsi prosesində iştirak etmişdir. Müharibədən sonrakı dövrdə ingilis millətinin mənafeyini və Böyük Britaniya imperiyasının vəhdətini qoruyub saxlamağa çalışmışdı. 1946 ildə ABŞ-ın Fulton şəhərində SSRİ ilə Qərb dövlətləri arasında *«soyuq müharibə»*nin başlanmasını bəyan etmiş və ilk dəfə olaraq «dəmir pərdə» anlayışını müharibədən sonrakı dövrdə əsas prinsip kimi irəli sürmüşdür. Elə həmin il İsveçrənin Sürix şəhərində «Avropa şurası» ideyasının tərəfdarı və təşəbbüskarı kimi çıxış etmişdir. Çerçill ədəbiyyat üzrə *Beynəlxalq Nobel mükafatına* layiq görülmüşdür.

## D

**DAĞLIQ QARABAĞ PROBLEMİ.** Bu problem çar Rusiyasının Azərbaycan torpaqlarını işğal və bu zəmində həyata keçirilən Rusiya-erməni əməkdaşlığı

əsasında təşəkkül tapıb. Rusiyanın hərtərəfli dəstəyinə söykənməklə «Böyük Ermənistan» dövlətini yaratmağa cəhd edən erməni millətçiləri əzəli Azərbaycan torpaqları olan İrəvan və Naxçıvan xanlıqlarının böyük bir hissəsini özününkü etdikdən sonra bu istiqamətdə mərhələlərlə addım-addım irəliləmiş və Qarabağın «qədim erməni torpağı» olduğunu iddia edərək, bu torpaqları da Ermənistan Respublikasına birləşdirmək üçün bütün vasitələrə, o cümlədən hərbi təcavüzə əl atmışlar.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın və eləcə də onun dağlıq hissəsinin yerli əhalisi gəlmə ermənilərdən fərqli olaraq mənşə, dil və mədəniyyət baxımından qədim zamanlardan bəri Böyük Qafqaz sıra dağları ilə Araz çayı arasında yaşamış yerli etnik qruplarla sıx bağlı olmuşdur. Burada iri etnik kütlə utilər adı ilə hələ antik dövrün yunan tarixçisi Herodota məlum olan və bir sıra digər tayfalardan (qarqarlar, qellər, leqlər, udilər, kaspilər, didurlar, tsavderlər, qardmanlar, İpinlər, çilblər) ibarət olmuşdur. Utilər adlanan alban tayfaları Kür-Araz çayları arasındakı ərazinin böyük bir hissəsini tutmaqla Uti və Artsax (indiki Dağlıq Qarabağ) əyalətlərinin əsas əhalisini təşkil etmişlər. Bu tarixi həqiqəti «erməni tarixinin atası» sayılan Movses Xorenatsi də etiraf edərək deyir ki, albanların əfsanəvi sərkərdəsi Aranın nəsilləri «bizim vətənimizin (yəni Ermənistanın) şimal tərəfində yaşamışlar». Aran adlanan bu ərazi Kür-Araz çayları arası torpaqları əhatə edirdi. Xorenatsiyə görə, «Araz çayından başlayaraq Xnarakert qalasına qədər (Kürün Xrami ilə qovuşduğu yer) ərazi Alban düzənliyi və onun dağlıq hissəsi adlanırdı. Aranın əhalisi albanlarla vahid mənşəyə malik olan utilərdən, qarqarlardan və teodlardan (Artsaxda yaşamış etnik qrup) ibarət idi. Eramızın V əsrində yaradılan 52 hərfdən ibarət alban əlifbası qarqar dilində idi. İncil tərcümə edilmiş, sonra isə alban kilsə ədəbiyyatı yaranmışdı. Alban knyazlığının paytaxtı olan Partav (Bərdə) da Uti ərazisində yerləşirdi. Orta əsr ərəb mənbələrinə görə Aranda (Albaniyada) X əsrə qədər yerli əhali qədim alban (udi) dilində danışmışdır. Ağdərə yaxınlığındakı Seysulan kəndinin əhalisi XIX əsrin axırlarına qədər udi dilində danışaraq onu qoruyub saxlamışdı. Antik mənbələr Artsaxda ermənilərin yaşadığını qeydə almamışdır; Uti və Artsaxın erməniliyi haqqında müasir erməni millətçilərinin irəli sürdükləri uydurmaların Albaniyadakı həqiqi etnik proseslərlə heç bir əlaqəsi yoxdur.

DQ-da alban əhalisinin qriqorianlaşaraq erməniləşdirilməsi 704 ildə çağırılan kilsə məclisindən sonra aftokefal (müstəqil) Alban kilsəsinin erməni kilsəsinə tabe edilməsi və Ərəb xilafəti ilə erməni katolikosluğunun Albaniya barəsində yürütdükləri siyasətlə sıx bağlı olmuşdur. Nəticə etibarilə qriqorianlaşdırma Albaniya əhalisinin monofizitçiliyə riayət edən hissəsinin erməniləşməsinə səbəb oldu. Lakin Qarabağın dağlıq bölgələrinin qriqorianlaşaraq erməniləşmiş əhalisinin etnik cəhətdən assimilyasiyaya uğraması sonralar baş vermişdi.

Ərəb istilasından sonra Uti və Artsax əsrlər boyu Azərbaycanda bir-birini əvəz edən müxtəlif müsəlman dövlətlərinin - Sacilər, Salarilər, Şəddadilər, Rəvvadilər, Atabəylər, Elxanilər, Qaraqoyunlular, Ağqoyunlular və Səfəvilər dövlətlərinin tərkibində olmuşdu. Səfəvilər dövləti dövründə Qarabağ ilk dəfə ayrıca inzibati-ərazi vahidi kimi bəylərbəylik olub Araz çayından Borçalıya qədər ərazini əhatə edirdi. Qarabağ bəylərbəyliyinin mərkəzi Gəncə şəhəri olduğuna görə, ona bəzən Gəncə bəylərbəyliyi də deyilirdi. XVIII əsrin ortalarından başlayaraq XIX əsrin əvvəllərinə qədər DQ əhalisinin əsas hissəsi azərbaycanlılar olan Qarabağ xanlığının tərkibində olmuşdur. 1810 ilin rəsmi məlumatlara görə, «Qarabağ vilayətində» yaşayan 12 min ailədən cəmi 2500 ailə erməni (erməniləşmiş alban) idi.

DQ məlikləri mənşəcə alban feodalları olub, heç birinin soy adlarının əsilzadə erməni nəsilləri ilə əlaqəsi yox idi. Təsadüfi deyil ki, çar I Pyotra (*Pyotr I*) məktub yazan DQ məlikləri özlərinin aqvan (alban) olduqlarını qeyd etmişlər. DQ Rusiyaya erməni torpağı kimi deyil, 1805 il Kürəkçay müqaviləsinə əsasən Azərbaycan xanlığı olan Qarabağ xanlığının ayrılmaz bir hissəsi olaraq birləşdirilmişdi.

Ermənilərin DQ-da sayca xeyli dərəcədə artması sonralar baş verib. 1823 ildə tərtib olunmuş «Qarabağ əyalətinin təsviri» məlumatlarına görə, Qarabağ xanlığının 90 min əhalisi, bir şəhəri və 600-dən çox kəndi olmuşdur ki, bunlardan da cəmi 150-si erməni kəndi idi. Şuşada yaşayan 1048 şəhər sakinindən 474-i, kəndlərdə isə 12902 ailədən 4311-i erməni ailəsi idi. İran şahı Nadirin XVIII əsrin 30 illərində Qarabağ ərazisinə həmlə edərkən ona inadlı müqavimət göstərmiş yerli köçəri elatları Xorasana sürgün etməsindən əvvəl bu ərazidə yaşayan ermənilərlə müqayisədə azərbaycanlıların sayı daha yüksək olmuşdur. DQ-ın alban mənşəli məlikləri I Pyotru Cənubi Qafqaza cəlb etmək üçün 1717 ildə ona yazdıqları məktubda göstərmişlər ki, guya Qandzasar katolikosunun sərəncamında doqquz yüz kənd var. Onlar başqa bir məktubda Rusiya imperatoruna yazırdılar ki, Qarabağda ermənilərin «altmış minə qədər qoşunu var». Halbuki Qarabağda erməni əhalisinin xeyli dərəcədə çoxalması ancaq Cənubi Qafqaz Rusiya tərəfindən işğal olunandan sonra baş vermişdi.

1826-1828 illər rus-iran və 1828-1829 illər rus-osmanlı *müharibələri* Rusiyanın qələbəsi ilə başa çatdıqdan sonra Cənubi Qafqaz vilayətlərinə İran və Osmanlı imperiyasından on minlərlə erməni köçürüldü ki, bu da Rusiya ilə İran arasında 1828 ildə bağlanmış *Türkmənçay müqaviləsinin* 15-ci maddəsində və Osmanlı dövləti ilə bağlanmış *Ədirnə sülh müqaviləsində* əks etdirilib. Müharibə zamanı təbəələri (*Təbəəlik*) olduqları İrana xəyanət edərək rus ordusuna kömək etmiş erməniləri layiq olduqları cəzadan xilas etmək üçün və özünə dayaq yaratmaq məqsədilə çar hökuməti onları işğal etdiyi Cənubi Qafqaz vilayətlərinə kütləvi şəkildə köçürməyə başladı. Beləliklə, ermənilərin Cənubi Qafqaza köçürülməsi əsasən Rusiyanın bu regionda İran və osmanlılara qarşı Qara dənizdən Xəzərə qədər xristian səddi yaratmaq məqsədinə xidmət edirdi. Çar I Nikolayın 21.03.1828 ildə verdiyi fərmana əsasən, Azərbaycanın qərb torpaqları olan İrəvan və Naxçıvan xanlıqları ləğv edilərək «Erməni vilayəti» adı altında bir inzibati vahiddə birləşdirildi. Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsinin əsas təşəbbüskarlarından biri sayılan və sonralar Rusiyanın Tehranda *səfiri*, qatı ermənipərəst A.S.Qriboyedov idi. O, rus-iran müharibəsinin «qəhrəmanı» general İ.F.Paskeviç-İrəvanskinin tərtib etdiyi plana əsasən ermənilərin Azərbaycana köçürülməsində fəal iştirak edirdi.

İ.F.Paskeviç ermənilərin köçürülməsini sürətləndirmək məqsədilə rus ordusunda xidmət edən erməni mənşəli zabitlərdən istifadə edirdi. Polkovnik X.B.Lazarev (Lazaryan) köçürülən ermənilərin «Erməni vilayəti» ilə yanaşı Qarabağa köçürülməsinə də çalışırdı. Bu işdə ona erməni katolikosu Nerses Əştərəkli yaxından kömək edirdi. İ.F.Paskeviç göstəriş vermişdi ki, ermənilər «başlıca olaraq» «erməni vilayətində və qismən Qarabağda» yerləşdirilsin, «bir sıra müsəlman kəndləri dindaşlarının ən çox məskunlaşdıqları yerlərə köçürülsün» və həmin yerlər ermənilərə verilsin. Bu sərəncam əslində azərbaycanlıların öz dədə-baba yurdlarından sıxışdırılmağının genişləndirilməsi demək idi. Paskeviç həmçinin göstəriş vermişdi ki, «köçkünlərin böyük hissəsini, xüsusilə ən kasıblarını Qarabağa getməyə təhrik etsinlər». III.1828 ildə 5 min erməni ailəsi Araza yaxınlaşarkən «Erməni vilayəti» hökuməti çörək qıtlığını bəhanə edərək onların DQ-da məskunlaşmasına nail oldu.

1828-1829 illərdə Azərbaycan vilayətlərinə, xüsusilə DQ-a ən sadə hesablamalara görə 130 mindən çox erməni köçürülmüşdü, köçürülən ermənilərin sayı əslində 200 mindən çox idi. İ.F.Paskeviçin göstərişinə əsasən köç-künlər ancaq dövlət torpaqlarında yerləşdirilməli idilər.

Köçkün ermənilər bununla da kifayətlənməyib azərbaycanlılara aid edilən mülkədar torpaqlarını zəbt etməyə başladılar.

1830 ildə osmanlı torpaqlarından köçürülən 84 min ermənin bir hissəsi DQ-da məskunlaşdı. Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi sonrakı dövrlərdə də davam etmişdi. 1877-1878 illər Rusiya-Osmanlı müharibəsindən sonra və eləcə də XIX əsrin 90-cı illərində Osmanlı dövlətində baş verən erməni qiyamlarından sonra 400 minə yaxın erməni Cənubi Qafqaza köçüb gəlmişdi. Rusiyanın hakim dairələri əvvəllər olduğu kimi təzə gələn erməniləri də Azərbaycan torpaqlarında və eləcə də DQ-da yerləşdirdilər. Artıq XX əsrin əvvəllərində Cənubi Qafqazda 1,3 mln. erməni yaşayırdı ki, onların da 1 mln. köçürülüb gətirilən ermənilər idi.

Faktlardan göründüyü kimi, hazırda DQ-ın tərkibinə daxil olan ərazidə XIX əsrdə baş vermiş köçürməyə qədər erməni etnik kütləsinin sayı cüzi olduğu halda köçürmədən sonra onlar yerli (azərbaycanlı) əhalini sayca üstələməyə başladılar. Erməni millətçiləri yaranmış əlverişli vəziyyətdən istifadə edərək Qarabağı, xüsusilə də onun dağlıq hissəsini Azərbaycandan qoparaq gələcəkdə Böyük Ermənistan dövlətinə qatmaq üçün cəhdlər göstərməyə başladılar. Onlar azərbaycanlıları DQ ərazisindən qovub çıxarmaq üçün 1905 ildə Şuşa şəhəri və onun ətraf kəndlərində minlərlə insanın qanı axıdılan erməni-azərbaycanlı qarşıdurmasını törətdilər. Çarizmin devrilməsindən sonra Cənubi Qafqazda V.1918 ildə üç müstəqil dövlətin - Gürcüstan, Azərbaycan və Ermənistan respublikaları yarananda sonra erməni millətçiləri DQ-ı Ermənistana birləşdirməyə cəhd göstərərək dəfələrlə Azərbaycana qarşı hərbi münaqişə törətdilər. 1918-1920 illərdə daşnak generalları Andranik və Dronun silahlı dəstələri DQ-da yüzlərlə Azərbaycan kəndini yerlə yeksan edərək onların sakinlərinə qanlı divan tutdular. Müstəqil Azərbaycan Respublikasını işğal etməyə hazırlaşan Sovet Rusiyası ilə əlbir hərəkət edən erməni daşnakları 1920 ilin əvvəllərində Dağlıq Qarabağda qiyam qaldırmaqla Azərbaycan ordusunun əsas qüvvəsini özlərinə cəlb edərək XI Qızıl Ordunun asanlıqla Bakını işğal etməsinə kömək etdilər. Ermənilər ümid edirdilər ki, bu xidmətlərinə cavab olaraq Sovet Rusiyası DQ-ı Daşnak Ermənistanına güzəştə gedəcəkdir. Lakin DQ iqtisadi və mədəni baxımdan həmişə Bakı ilə bağlı olduğundan Qarabağ erməniləri daşnakların bütün cəhdlərinə baxmayaraq 1919 ildə özlərinin VI qurultayında Ermənistana deyil, Azərbaycana qoşulmağı qərara aldılar. Qarabağ kommunistləri də VIII.1919 ildə Azərbaycanın tərkibində qalmaq barədə qərar qəbul etdilər.

Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra DQ problemi dəfələrlə RK(b) P Qafqaz bürosunda və Azərbaycan Sovet hökuməti tərəfindən müzakirə olunmuşdu. Ermənistanda Sovet hakimiyyəti bərqərar olandan dərhal sonra Azərbaycan Xalq Komissarları Sovetinin sədri N.Nərimanov 01.12.1920 ildə bəyanat verərək bildirdi ki, «...DQ-ın zəhmətkeş kəndlilərinə tam özünütəyinetmə hüququ verilir». Nəhayət, RK(b)P MK-nın Qafqaz bürosunun 05.VII.1921 ildə keçirilən plenumu qərara aldı ki, «...DQ Azərbaycanın hüdudları daxilində saxlanılsın, ... inzibati mərkəzi Şuşa şəhəri olmaqla ona geniş vilayət muxtariyyəti verilsin». DQ işləri üzrə xüsusi Komitə yaradıldı. Erməni A.Karakozovun rəhbərlik etdiyi Komitə Qarabağ məsələsinin həll edilməsinin layihəsini hazırladı. Layihəni nəzərdən keçirən AKP(b) MK-nın Rəyasət Heyəti 20.06.1923 ildə qərara aldı ki, «istər dağlıq və istərsə düzən olsun, Qarabağın bir inzibati vahid şəklində ayrılması zəruri sayılsın».

07.VII.1923 ildə Azərbaycan MİK «DQ Muxtar Vilayətinin (DQMV) yaradılması haqqında dekret qəbul etdi. Kommunist cildinə girmiş daşnaklar axır ki, ermənilərin çoxluq təşkil etdikləri DQ-ğa muxtariyyət verilməsinə nail oldular. Şübhəsiz, Qarabağa bütövlükdə muxtariyyət verilsəydi, həmin inzibati vahid daxilində ermənilər azlıq təşkil edərdilər.

DQMV-nin yaradılması erməni millətçilərinin Azərbaycana qarşı olan torpaq iddialarına son qoymadı. SSRİ yaradılandan sonra «Qarabağ məsələsi» dəfələrlə kənardan: xaricdə yaşayan erməni *diasporası* və Ermənistan SSR tərəfindən qaldırılmışdır. Ermənistan SSR ərazisində yaşayan azərbaycanlılar sayca bir neçə dəfə DQMV yaşayan ermənilərı üstələdikləri halda onlara muxtariyyət verilmədi, əksinə, onların 1948-1953 illərdə Ermənistan SSR ərazisindən deportasiyası rəsmiləşdirildi.

Sovet hakimiyyəti dövründə Azərbaycan hökumətinin qətiyyətsizliyindən məharətlə istifadə edən erməni millətçiləri DQMV ərazisində yaşayan azərbaycanlıları sıxışdırmaqda davam edirdilər. Nəhayət, 1980 illərin ortalarında SSRİ-də yenidənqurma proqramı qəbul ediləndən sonra erməni millətçiləri DQMV-nin Ermənistana birləşdirilməsi məsələsini yenidən ortaya atdılar. 1988 ildə vilayətin mərkəzi Xankəndində erməni millətçiləri tərəfindən təşkil edilən mitinqlər artaraq Ermənistan-Azərbaycan qarşıdurması ilə nəticələndi. Erməni millətçiləri 1988 ildən başlayaraq tədricən DQMV ərazisində yaşayan azərbaycanlıları silah gücünə qovaraq vilayətin ərazisindən çıxardılar.

Erməni millətçiləri vilayətdə yerləşən rus hərbiçilərinin köməyinə arxa-

lanaraq 26-27.II.1992 ildə Xocalıda azərbaycanlılara qarşı *soyqırım* törətdilər. Rusiyanın hərbi yardımına arxalanan Ermənistanın silahlı birləşmələri açıq şəkildə Azərbaycana qarşı təcavüzə keçərək 1992-1993 illərdə DQMV ilə yanaşı Azərbaycanın altı rayonunu işğal etdi və bir milyona yaxın azərbaycanlı ata-baba yurdlarından didərgin düşdü.

Erməni millətçiləri DQ problemi-nin Ermənistanın xeyrinə həll olunmasına çalışaraq ilk növbədə Rusiyanın himayəsindən bəhrələnirlər. Onlar Ermənistan-Azərbaycan qarşıdurması ilə nəticələnən DQ böhranının lap əvvəlindən ona konfessiyalararası münaqişə kimi don geyindirməyə cəhd göstərirlər. Ermənistanı Qafqaz bölgəsində Rusiyanın strateji müttəfiqi kimi qələmə verərək Rusiya rəhbərliyini islam xofu ilə qorxudurdular. Ümumiyyətlə, erməni millətçiləri DQ problemi ilə bağlı münaqişəni xristian-islam qarşıdurmasının təzahürü kimi qələmə verməklə dünya ictimaiyyətinin nəzər-diqqətini Azərbaycana qarşı təcavüzkar siyasətlərindən yayındırmağa çalışırlar. Artıq neçə ildir ki, Ermənistan Rusiya və eləcə də bir sıra qərb dövlətlərinin hərbi və maliyyə yardımlarına arxalanaraq suveren dövlətlərin ərazi (*Dövlətin suverenliyi; Dövlətin ərazisi*) bütövlüyünün toxunulmamazlığı haqqında *beynəlxalq hüquq* normalarına və *BMT Nizamnaməsinin* müddəalarına məhəl qoymadan, Azərbaycanın iyirmi faizdən çox ərazisini işğal altında saxlayır. DQ münaqişəsinin həll edilməsi məsuliyyətini 1992 ildə öz üzərinə götürmüş ATƏT-in (*Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi) Minsk qrupunun* fəaliyyəti uğurla nəticələnməyib. Ermənistanın təcavüzkar siyasəti Cənubi Qafqaz regionunda mövcud siyasi gərginliyi daha da artırır. Azərbaycan beynəlxalq hüquq normalarına uyğun olaraq özünün ərazi bütövlüyü, *suverenliyi* uğrunda mübarizə aparır. Bu isə Ermənistan silahlı qüvvələrinin qeyd-şərtsiz geri çağırılması, DQ əhalisinin təhlükəsizliyinin təmin olunması şəraitində mümkündür.

**DAHA AZ İNKİŞAF ETMİŞ ÖLKƏLƏR.** *BMT Baş Məclisinin* 1971 ildə qəbul etdiyi meyarlara müvafiq olaraq (sənəd [1]E/4990), daha az inkişaf etmiş ölkələr qisminə inkişaf etməkdə olan elə dövlətlər aid edilir ki, onlarda ümumi milli məhsul adambaşına 100 dollardan çox düşmür, ümumi milli məhsulda (ÜMM) emal sənayesinin payı 10%-dən və əhalinin (15 yaşdan yuxarı) savad səviyyəsi 20%-dən artıq olmur.

D.a.i.e.ö.-ə dair *BMT*-nin 1-ci konfransında (*Beynəlxalq konfranslar*) (Paris 1981) belə ölkələrin xeyrinə «80-ci illər üçün əsas yeni fəaliyyət proqramı» qəbul olunmuşdur. Proqramda bu ölkələrin müstəqil nail olacağı göstəricilər, habelə beynəlxalq yardım tədbirləri nəzərdə tutulurdu.

**DAHA ƏLVERİŞLİ REJİM.** Beynəlxalq hüquqi rejim; bu rejimə müvafiq olaraq razılaşan tərəflərdən hər biri müqabil tərəfə, onun fiziki və hüquqi şəxslərinə iqtisadi, ticarət və digər əlaqələr sahəsində yaratdığı və ya gələcəkdə yaradacağı daha əlverişli şərait təmin etməyi öhdəyə götürür.

D.ə.r. gömrük güzəştlərini, habelə istehsala, emala və idxal mallarına qoyulan daxili vergilərdə və rüsum tutulmalarında üstünlükləri ehtiva edir. D.ə.r. haqqında qeyd-şərtlər, yəni belə rejimin qarşılıqlı şəkildə tətbiqi barədə müddəalar, adətən, dövlətlərarası ticarət-iqtisadi müqavilələrin mətninə daxil edilir. Belə rejimdə istənilən istisnalar rejimin özü kimi müqavilə qaydasında müəyyən olunur. Bu qəbildən olan daha tipik istisna-sərhədyanı ticarəti tənzimləməyin xüsusi qaydasını nəzərdə tutan müddəadır.

Ticarət və inkişafa dair *BMT*-nin 1964 il Cenevrə konfransının (*Beynəlxalq konfranslar*) 1-ci sessiyasının prinsipinə əsasən» beynəlxalq ticarət qarşılıqlı faydaya əsaslanmalı və daha əlverişli rejim əsasında aparılmalıdır»... D.ə. r.-in əhəmiyyəti *Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Yekun aktında (Yekun Aktı)* da qeyd olunub. Bu rejimə aid edilən qaydaların kodlaşdırılmasına BMT çərçivəsində xüsusi fikir verildiyindən *Beynəlxalq Hüquq Komissiyası* tərəfindən D.ə.r. ilə bağlı müvafiq maddələr layihəsi hazırlanmış və qüvvəyə minmişdir.

**DAXİLİ SULAR.** Dövlətin məhəlli suları istisna olunmaqla onun bütün su ərazisi. *1982 il BMT-nin Dəniz hüququ konvensiyasına uyğun* olaraq, D.s.-ın tərkibinə *ərazi sularının* enini hesablamaqdan ötrü qəbul olunmuş çıxış xətləri deyilən xətlərdən sahilə tərəf yerləşən sular daxildir. Arxipelaq dövlətin D.s.-nın onun arxipelaq su hüdudlarında *delimitasiyası* 1982 il Konvensiyasının 9-11 maddələrinə müvafiq olaraq həyata keçirilir. Ərazi sularının enini hesablamaqdan ötrü müstəqim çıxış xəttinin qoyulması bunadək D.s. rayonları kimi nəzərdə tutulmayan məntəqələrin də *daxili sular* tərkibinə salınmasına gətirib çıxara bilər. Belə halda bu sularda dinc keçmə hüququ tətbiq edilir (*Ərazi sularından dinc keçmə*).

Dövlətin D.s.-da gəmiçilik və istənilən digər fəaliyyət rejimi (xarici qeyri-hərbi və hərbi gəmilərin buraxılması məsələsi də daxil olmaqla) həmin dövlətin milli qanunvericiliyi ilə tənzimlənir.

**DALADYE EDUARD** (1884-1970). Fransanın siyasi və dövlət xadimi, *diplomat*.

Faşist Almaniyasını «ram etmək» siyasətinin tərəfdarı olub. 1938 ildə *Münhen sövdələşməsinin* təşkilində və imzalanmasında fəal iştirak etmişdi; 1939 ildə SSRİ, İngiltərə və Fransa arasında keçirilən Moskva danışıqlarının nəticəsiz qalmasının əsas səbəbkarlarından biri olub. 03.IX.1939 ildə faşist Almaniyasına *müharibə* elan edən Daladye hökuməti «qəribə müharibə» taktikasını seçmiş və bununla da Fransanın məğlubiyyətini tezləşdirmişdi. 1940 ildə *«Vişi» hökuməti* tərəfindən həbs olunmuş, 1943 ildə Almaniyaya köçürülmüşdü. 1945 ildə müttəfiqlərin qələbəsindən sonra azad edilmişdi. 1946 ildə Müəssislər Məclisinin üzvü seçilib, 1946-1958 illərdə Milli Məclisin deputatı olub. 1947-1954 illərdə Sol respublikaçılar birliyinə başçılıq edib. 1956-1958 illərdə Milli Məclisin radikallar və radikal-sosialistlər fraksiyasının lideri olub, 1957-1958 illərdə Radikallar partiyasının sədri seçilib. Fransanın müstəmləkə müharibələrini pisləmiş və Avropa Müdafiə Birliyinin yaranmasına qarşı çıxmışdır. 1958 ildən siyasi fəaliyyətdən uzaqlaşmışdı.

**DALLES CON FOSTER** (1888-1959). ABŞ-ın siyasi və dövlət xadimi. 1953-1959 illərdə ABŞ-ın *dövlət katibi* olmuşdur. *NATO*-nun və SEATO-nun yaranmasında fəal iştirak etmişdir. Yaponiya ilə sülh müqaviləsi (*Beynəlxalq müqavilə*) bağlanmasının təşəbbüskarıdır. Onun Avstraliya, Yeni Zelandiya, Filippin, Yaponiya ilə bağladığı hərbi müqavilələr dünyada *«soyuq mühari-*

*bə*» prinsiplərinin bərqərar olmasına xidmət etmişdi.

**«DAUES PLANI»** (1925). Amerika siyasətçisi və maliyyəçisi Daues tərəfindən hazırlanmış. 16.VIII. *birinci dünya müharibəsində* qalib dövlətlərin və Almaniyanın iştirakı ilə keçirilmiş London konfransında (*Beynəlxalq konfranslar*) təsdiq edilmişdir. Plana görə Almaniya ilk 5 ildə, birinci il 1,75 mlrd. marka, sonrakı illərdə isə hər il 2,5 mlrd. marka *təzminat* ödəməli idi. Təzminatın ümumi məbləği müəyyənləşdirilməmişdi. Təzminatın ödənilməsinin təminatı kimi Almaniyanın bankları və dəmir yolları üzərində beynəlxalq nəzarət qoyuldu. Almaniyaya 200 mln. dollar kredit verildi. Rur vilayətindən Fransa-Belçika qoşunlarının çıxarılması haqqında razılıq əldə edildi.

**DAUNİNQ STRİT.** Londonda bərpa dövrü ingilis *diplomatı* və dövlət xadimi C.Dauninqin şərəfinə adandırılan mərkəzi küçə. Dauninq stritdə Böyük Britaniyanın Baş naziri və maliyyə nazirinin rəsmi iqamətgahları, Xarici İşlər və Birlik İşləri üzrə Nazirliyi (*Xarici İşlər İdarəsi*) yerləşir. Nazirlər kabineti Dauninq stritdə Baş nazirin iqamətgahında yerləşir. Məcazi mənada Dauninq strit dedikdə bütövlükdə Britaniya hökuməti başa düşülür.

**DE-FAKTO TANIMA.** Beynəlxalq Hüquqi Tanınmanın bir növü olub rəsmi xarakter daşıyır və *De-yure tanınmadan* siyasi və iqtisadi münasibətlərin məhdud səviyyəsi və həcmi ilə fərqlənir. D.-f.t. çox zaman tanınan dövlətin həyat qabiliyyətinə, gələcəyinə tam inamın olmadığı şəraitdə tətbiq edilir.

**DELİMİTASİYA** (*lat. delimitatio*-müəyyənləşdirmə). Dövlətlər arasında sərhəd (*Dövlət sərhədləri*) xəttinin ümum istiqamətinin danışıqlar yolu ilə müəyyənləşdirilməsi. D. barədə qərarlar, adətən, dövlət sərhədinin müəyyənləşdirilməsinə və ya dəyişdirilməsinə dair sülh danışıqlarının, yaxud xüsusi razılaşmaların tərkib hissəsi olur. D gedişində razılaşan tərəflər sərhəd xəttinin keçmə təsvirini (bir qayda olaraq xəritədə) tərtib edir və bu hal müqavilənin özündə, yaxud ona əlavədə ayrıca maddə kimi verilə bilər. Bu xüsusda materiallar sərhədin sonrakı müəyyənləşdirilmə mərhələsi - nəzərdə tutulan yerdə çəkilməsi üçün əsas ola bilər (*Demarkasiya*).

**DEMARKASİYA** (*lat. demarcatio - ayırma*). *Dövlət sərhədinin* nəzərdə tutulan yerdə xüsusi nişan və əlamətlərlə çəkilməsi. Demarkasiya *delimitasiya* sənədləri (müqavilə (*Beynəlxalq müqavilə*), xəritə, sərhədin təsviri) əsasında və paritet əsaslarla yaradılan birgə komissiyalar tərəfindən həyata keçirilir. Bu vaxt nəzərdə tutulan yerin topoqrafik çəkilişi, yaxud aerofoto çəkilişi aparılır və onun əsasında sərhəd zolağının iri miqyaslı topoqrafik xəritəsi tərtib edilir, sərhəd nişanları qoyulur və onların koordinatları müəyyənləşdirilir.

**DEMARŞ** (*fr. demarche* - çıxış). Hökumət, *Xarici İşlər İdarəsi* və ya *diplomatik nümayəndəlik* tərəfindən digər dövlətlərin hökumətləri qarşısında edilən diplomatik çıxışdır. D. öz formasına (*Diplomatik nota, Memorandum*, bildiriş və b.) və məzmununa görə müxtəlif (xahiş, xəbərdarlıq, etiraz, hədə-qorxu və s.) ola bilər. *Beynəlxalq hüquq* normalarına uyğun olaraq D.-da zorla hədə-qorxu gəlmək olmaz, çünki *BMT Nizamnaməsi* ilə belə hədə-qorxudan istifadə olunması qadağandır.

**DEMİLİTARİZASİYA** (hərbsizləşdirmə). Müəyyən ərazinin beynəlxalq hüquqi rejimi; dinc dövrdə həmin ərazidən hərbi məqsədlərlə istifadəni qadağan edir. D. çox vaxt ərazidən hərbi əməliyyatlar meydanı kimi istifadə etməyi və ya belə hərəkətlər üçün bazaya çevirməyi mümkünsüz edən neytrallaşdırma ilə birlikdə tətbiq olunur. D. tam və qismən olur. Məlum ərazidə tam D. tətbiq edilərkən orada hərbi istehkamlar və tikililər salınmasına yol verilmir, istənilən növdən olan silah yerləşdirilməsi, hərbi qüvvələr saxlanılması, yaxud manevrlər keçirilməsi və hər hansı hərbi fəaliyyət göstərilməsi qadağan edilir. Qismən D.-da ya silahlı fəaliyyətin müəyyən növlərinə qadağa qoyulur, ya da artırılması yolverilməz sayılan silahlar üçün məhdud səviyyə müəyyənləşdirilir.

D. adətən, sərhədyanı zonalara, müvəqqəti *demarkasiya* xətlərinə və onun uzunu boyu yerləşən ərazilərə şamil edilir. D.-nın ən çox yayılmış üsulu potensial düşmən sayılan tərəfləri bir-birindən ayırmaq və onlar arasında hərbi münaqişəni aradan qaldırmaq məqsədilə sərhədyanı D. zonaları yaratmaqdır.

D. həmçinin, beynəlxalq boğazlara, adalara, regionlara və qitələrə şamil edilə bilər. Antarktidaya dair 1959 il müqaviləsi (*Beynəlxalq müqavilə*) bu rayonun tam D.-nı nəzərdə tutur. Aland və Şpitsbergen arxipelaqları D. edilmiş məntəqələr hesab olunurlar.

**DENKTAŞ RAUF** (1924). Kipr Türk Respublikasının *prezidenti olmuş*, siyasi dövlət xadimi, hüquqşünas.



1954 ildə yunan generalı Qrivasın Kiprə gəlişi ilə başlanan və 1955 ildə *beynəlxalq terrora* çevrilən enossis (birləşmə) hadisələrində təhdid və təqiblərə məruz qalmışdır. 1958 ildə Kipr Türk Təşkilatları Federasiyasının sədri seçilmiş; 1958 ildə «Xalqın səsi» qəzetini ingiliscə nəşr etmişdir. 1959 ildə Kiprə dair Sürix müqaviləsi (*Beynəlxalq müqavilə*) bağlanarkən orada türklərin hüquq və statuslarını müəyyən edən maddələrin həmin sənədə salınmasına nail olmuş, 1969 il müqavilələri və konstitusiya mətninin hazırlanmasında iştirak etmiş, Afina və London konfranslarında (*Beynəlxalq konfranslar*) Kipr türklərinin hüquqlarını qorumuşdur; 1960 ildə Türk camaatı Məclisinə və İcraiyyə Komitəsinə sədr seçilmişdir; 1967 ildə yunan məmurları tərəfindən həbs edilərək Kiprdən çıxarılmışdır. 1968 ildə Kiprə qayıdaraq Camaat Məclisinin sədri və Türk İdarəçiliyi sədr müavini olmuşdur; 1968-1974 illərdə türk icmasının nümayəndəsi kimi yunanlarla ikitərəfli danışıqlar aparmışdır; 1970 ildə yenidən Kipr Türk Camaat Məclisinin sədri seçilmişdir; 1973 ildə Kipr prezidentinin müavini və Kipr Türk İdarəçiliyinin rəhbəri təyin olunmuşdur; 1974 ildə türk qoşunları adaya çıxarılandan sonra 13.III.1975 ildə Kıpr Türk Federal Dövləti yaradılanda onun başçısı (*Dövlət başçısı*) və Məclisin sədri seçilmişdir; 1976 ildə Kiprin türk icması arasında ilk dəfə keçirilən ümumi seçkilərdə Kipr Türk Federativ Respublikasının sədri seçilmiş və həmin ildə yaratdığı Milli Birlik Partiyasının (MBP) sədri vəzifəsindən istefa vermişdir. 1985 il Konstitusiyasına uyğun olaraq 1990 və 1995 illər seçkilərində prezident seçilmişdir.

**DENONSASİYA** (*fr. denoncer* – elan etmək, ləğv etmək). Bağlanmış *beynəlxalq müqavilədən* lazımi qaydada rəsmi imtina edilməsi beynəlxalq müqavilənin qanunauyğun şəkildə qüvvədən salınmasının ən çox yayılmış üsuludur. Beynəlxalq müqavilə öhdəliklərinin pozulmasının digər üsullarından fərqli olaraq, D. hüququ müqavilənin özündə nəzərdə tutulmalıdır. D. müqavilənin ciddi şəkildə müəyyən etdiyi qaydada baş verir və bu qaydaya riayət edilməməsi D.-nı mübahisəli hesab etməyə əsas verir.

İkitərəfli müqavilələrin qüvvədən salınmasının formalarından biri dövlətin bağlamış olduğu müqavilədən imtina etməsidir. Belə halda, müqavilənin pozulması onun şərtlərinə riayət olunmadan baş verir və birtərəfli xarakter daşıyır. Ləğvetmənin qanunauyğunluğu tutarlı siyasi-hüquqi əsaslara söykənməli (məs. kontragent tərəfindən müqavilənin ciddi şəkildə pozulması; hüquqi cəhətdən etibarsız olması və s.) və beynəlxalq təcrübədə təşəkkül tapmış prosedurlara (digər iştirakçıların irəlicədən yazılı şəkildə xəbərdar edilməsi) uyğun gəlməlidir.

**DEPOZİTARİ** (fr. *depositare* – mühafizə üçün verilən şey). Müqavilə iştirakçılıranan razılığı ilə çoxtərəfli *beynəlxalq müqavilənin* həqiqi mətnini qoruyub saxlamaq məqsədilə onun arxivlərinə verildiyi dövlət, hökumət, *beynəlxalq təşkilat* və ya başlıca vəzifəli şəxsidir. Adətən D. ərazisində müqavilə imzalanan *dövlət olur. Lakin real olaraq* ancaq dövlət və təşkilat D. ola bilər, onların orqanları D. ola bilməz.

D. funksiyası beynəlxalq xarakter daşıyır və qərəzsiz şəkildə əməl olunmalıdır. D. və hər hansı dövlət arasında birincinin öz funksiyalarını yerinə yetirməsinə dair fikir ayrılıqları baş verdikdə, D. bu məsələni bütün iştirakçıların diqqətinə çatdırır. D.-ın başlıca vəzifələri danışığa gələn tərəflərə müqavilənin təsdiq olunmuş surətini göndərməkdən, sənədin əslini, müqaviləyə qoşulmaq haqda sənədləri və ratifakasiya fərmanlarını qoruyub saxlamaqdan, müqavilə iştirakçılarına müqavilənin qüvvəyə minməsi haqda, *ratifikasiya* fərmanlarının müddətləri və bu zaman edilən əlavələr haqda nota *(Diplomatik nota)* verməkdən, *protokolun* surəti əlavə edilməklə sənədin saxlanılmağa verilməsindən, müqaviləyə qoşulmaq haqda, müqavilənin *denonsasiyası* və ondan imtina zamanı məlumat verməkdən, müqaviləni qeydiyyata salmaqdan ibarətdir. Müqavilənin şərtlərinə uyğun olaraq D. müqaviləyə yenidən baxmaq üçün konfrans *(Beynəlxalq konfranslar)* çağıra bilər.

*«Soyuq müharibə»* illərində bir sıra böyük əhəmiyyətli ümumi müqavilələrdə siyasi çətinlikləri aradan qaldırmaq məqsədilə bir neçə D. təyin edilmişdi. 1963 il nüvə silahının yayılması haqda müqavilə D. olaraq SSRİ-ni, Böyük Britaniyanı və ABŞ-ı göstərmişdi. Müqaviləyə aid olan sənədi onlardan birinə vermək kifayətdir.

**DEPOZİTƏ VERMƏK** (*lat. depositum* – saxlamağa verilən əşya). *Beynəlxalq müqavilənin, ratifikasiya* fərmanlarının müqaviləyə qoşulmaq haqda sənədlərin və ya onun *denonsasiya* olunması haqda sənədlərin əslinin depozitora *(Depozitar) saxlamağa* verilməsi.

**DE-YURE TANIMA** (lat. *dejure*- hüquqi). *Beynəlxalq hüquqda* dövlətin və hökumətin tam, yekun olaraq və rəsmən tanınma formasıdır. D.y.t. dövlətin tanıdığı dövlətlə lazımi səviyyədə *diplomatik münasibətlər* yaratmağa hazır olduğunu ifadə edir.

**DEYVİD TOCER TOMAS** (1945). 1969 ildə Böyük Britaniya Krallığı Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) işə qəbul olunmuşdur. 1971-1974 illərdə Böyük Britaniyanın Misirdə, 1974-1978 illərdə Belçikada, 1978-1982 illərdə Türkiyədəki *səfirliyində* işləmişdir. 1986-1990 illərdə Böyük Britaniyanın Franfukrtdakı (Almaniya) Baş Konsulluğunda (*Konsul idarəsi*) işləmiş, 1993-1997 illərdə Böyük Britaniya XİN-nin mərkəzi aparatında Uzaq Şərq və Sakit Okean İdarəsinin müdiri olmuşdur. 1997-2000 illərdə Böyük Britaniya Krallığı və Şimali İrlandiyanın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli *səfiri* işləmişdir.

**DEZAVUİRƏ OLUNMA.** *Diplomatik* nümayəndənin və ya rəsmi səlahiyyətli şəxsin lazımi qaydada tapşırıq almadan, səlahiyyət həddini aşaraq atdığı addımı əks etdirir; dövlətin yaxud onun hər hansı digər səlahiyyətli orqanının qəbul etdiyi qərar. Bu qərar, adətən, D. olunan diplomatik nümayəndənin, yaxud rəsmi səlahiyyətli şəxsin geri çağırılması ilə nəticələnir.

Bəzi dövlətlər çox vaxt hər hansı dövlətə qarşı qeyri-xeyirxah hərəkətlərdə əli olduğunu ört-basdır etməkdən ötrü həmin əməlin iştirakçısı olan rəsmi nümayəndə barəsində D.o tədbirinə əl atırlar.

**DƏMİRƏL SÜLEYMAN** (1924). Türkiyə Respublikasının *prezidenti* olub. 1962 ildə Ədalət Partiyasına daxil olmaqla siyasi fəaliyyətə başlayıb. 1965 ildə Ədalət Partiyasının sədri seçilmiş və həmin il parlament seçkilərində qalib gələrək baş nazir olmuşdur; 1969 ildə Ədalət Partiyası seçkilərdə qalib gəlmiş və ikinci dəfə baş nazir olmuşdu. 1971 ildə hərbi çevriliş nəticəsində hakimiyyətdən uzaqlaşdırılmışdır. 1975, 1977 və 1979 illərdə üç dəfə baş nazir vəzifəsini tutub. 1980 il hərbi çevrilişindən sonra hakimiyyətdən kənarlaşdırılmışdır. 1987 ildə Doğru Yol Partiyasının sədri və millət vəkili seçilmişdir; 1991 ildə koalisiyalı hökumətdə baş nazir olmuş, 1993-2000 illərdə Türkiyə Böyük Millət Məclisi tərəfindən Türkiyənin 9-cu prezidenti seçilmişdir. Türkiyə-Azərbaycan əlaqələrinin genişlənib möhkəmlənməsində müstəsna rol oynamışdır.

**DƏNİZ BLOKADASI.** Hər hansı dövlətin dəniz vasitəsilə xarici əlaqəsini kəsmək və onun hərbi-dəniz qüvvələrinin blokada zonasından kənara çıxmasının *qarşısını almaq üçün limanlarının* və sahilyanı zonalarının təcridi. D.b. qaydaları 1909 ildə Londonda qəbul edilmiş dəniz *müharibələri Bəyannaməsində* əks olunmuşdur. Bu Bəyannamə qüvvəyə minməsə də, mühüm beynəlxalq hüquqi sənəd hesab olunur. Bu sənədə görə blokada yalnız düşmən limanlarına aid edilə bilər, neytral limanlar blokadaya alına bilinməz. D.b.-dan başqa quru və hava blokadaları da məlumdur. Bundan başqa ümumi blokada termini də mövcuddur ki, bu da müxtəlif iqtisadi və siyasi təcrid üçün xarakterikdir.

**DƏNİZ HÜQUQUNA DAİR CENEVRƏ KONVENSİYALARI** (1958). 29.IV. 1958 ildə *BMT*-nin dəniz hüququna dair I konfransında *(Beynəlxalq konfranslar)* imzalanıb. Cenevrə konvensiyalarında *(Beynəlxalq konvensiyalar)* dəniz hüququnun çoxəsrlik inkişaf tarixi daha çox adi hüquq kimi və müqavilə

(*Beynəlxalq müqavilə*) qaydasında yekunlaşdırılaraq *ərazi sularının, kontinental şelfin* və *açıq dənizin* beynəlxalq-hüquqi rejiminə dair müddəalar təsbit olunmuşdur.

1) Məhəlli dənizə və ona bitişik zonaya dair konvensiya (10.IX.1964). Sahil dövlətlərinin onlara məxsus ərazi sulara, bu sular üzərindəki hava məkanına, habelə həmin suların üst səthinə və dibinə *suverenliyini* təsdiq edir, məhəlli sulardan dinc keçmənin hüquq və şərtlərini müəyyənləşdirir, belə sularda cinayət və mülki yurisdiksiyaya dair müddəaları özündə ehtiva edir. K.-da bitişik zonada gömrük, üzüb keçmə və sanitariya qaydalarının pozulmasına yol verməmək üçün sahilyanı dövlətin lazımi nəzarət hüququ təsbit edilir.

2) Açıq dənizə dair konvensiya (30.IX.1962). Açıq dənizi «hər hansı dövlətin nə məhəlli dənizinə, nə də *daxili sularına* aidiyyəti olmayan dəniz vahidi» kimi müəyyənləşdirir, bütün dövlətlər üçün hamılıqla tanınan açıq dəniz prinsipini (ələlxüsus, gəmiçilik, balıq ovu, sualtı kabel xətti, boru kəmərləri çəkilişini və dəniz üzərindən təyyarə uçuşları sərbəstliyi və s.), habelə açıq dənizin hər hansı bir hissəsini heç bir dövlətin öz suverenliyinə tabe etdirməyə hüququ olmaması prinsipini təsbit edir. K.-da, həmçinin, dənizə çıxışı olmayan dövlətlərin sərbəst şəkildə həmin dənizə çıxmaq hüququ, dövlət qeyri-kommersiya xidmətində olan hərbi gəmilərin və qayıqların toxunulmazlıq prinsipi, dəniz quldurluğuna, dənizin ətraf mühitinin qorunmasına dair müddəalar öz əksini tapmışdır.

3) Kontinental şelfə dair konvensiya (10.VI.1964). Sahilyanı dövlətin şelfdəki ehtiyatları kəşf etməyə və onlardan istifadəyə dair hüquqlarını təsdiq edir və müəyyənləşdirir ki, bu hüquqlar həmin rayonu örtən açıq dənizin və hava məkanının statusuna zidd gəlməməlidir.

4) Balıq ovuna və açıq dənizin *canlı ehtiyatlarını qorumağa dair konvensiya.* Açıq dənizdə istənilən dövlətin vətəndaşlarına (*Vətəndaşlıq*) balıq ovlamaq hüququ verir. Konvensiya sahilyanı dövlətə açıq dənizin onun məhəlli sularına bitişik rayonlarında canlı ehtiyatların qorunub saxlanması (*Dənizin canlı ehtiyatlarının mühafizəsi*) üzrə birtərəfli tədbirlər görmək hüququ verir. Lakin belə tədbirlər o halda qanuni sayılır ki, lazımınca elmi rəylərə söykənsin, həyata keçirilməsi zəruri olsun, xarici balıqçılara münasibətdə ayrı-seçkilik yaratmasın.

**DƏNİZİN CANLI EHTİYATLARININ MÜHAFİZƏSİ.** Balıq və digər dəniz canlılarının ovunun rasional aparılması, sabit qaydaya, səmərəli ovlamalara nail olunması, dənizin canlı ehtiyatlarından vəhşicəsinə istifadə olunmasının qarşısının alınması məqsədilə dövlətlər tərəfindən həyata keçirilən kompleks tədbirləri ehtiva edir.

D.c.e.m. beynəlxalq-hüquqi tənzimləmə yolu ilə həyata keçirilir. Dənizdə balıq ehtiyatlarının mühafizəsi işi də beynəlxalq-hüquqi əsasda aparılır. Hazırda balıq ovuna dair 100-dən artıq *beynəlxalq müqavilə* qüvvədədir.

Mühafizə məsələsində 1982 il *BMT-nin dəniz hüququ Konvensiyası* mühüm rol oynayır. Konvensiya sahilyanı dövlətlərə iqtisadi və *kontinental şelf* zonalarında dənizin canlı ehtiyatlarını qoruyub saxlamaq üzrə tədbirlər görmək hüququ verir.

**DƏNİZ KÖRFƏZLƏRİ.** 1982 il *BMT Dəniz hüququ Konvensiyasına* uyğun olaraq, D.k. dedikdə, dəniz və gölün tərkib hissəsi olan və əsas su hövzəsi ilə sərbəst su mübadiləsində olan hissə başa düşülür. D.k.-in hidroloci və hidrokimyəvi xüsusiyyətləri, adətən, mənsub olduğu hövzənin xüsusiyyətlərinə oxşar olur. *Dünya okeanının* bəzi hissələri hidroloci xüsusiyyətləri baxımından dəniz olmasına baxmayaraq, körfəz adlandırılır (məs. Meksika körfəzi, Hudzon körfəzi, Fars körfəzi).

D.k. sahil dövlətin *daxili sularına* aid edilir, bir şərtlə ki, körfəzin eni ən çox çəkilmə əlaməti üzrə 24 dəniz milindən artıq olmasın və bu körfəzlərin sahilləri bir dövlətə mənsub olsun.

Tarixi körfəzlər deyilən körfəzlər, bir qayda olaraq, daxili sulara dair hüquqi rejimə malikdirlər. İngilterədə - Mori-Fert və Bristol, Kanadada - Hudzon və Fandi, Amerikada Çesapik körfəzləri tarixi körfəzlərə aid edilir.

**DƏNİZ QULDURLUĞU.** Beynəlxalq xarakterli cinayət; 1982 il *BMT-nin Dəniz hüququ konvensiyasının,* habelə Açıq dənizə dair 1958 il Cenevrə konvensiyasının (*Dəniz hüququna dair Cenevrə konvensiyaları (1958)*) müddəalarına uyğun olaraq, dəniz quldurluğuna aşağıdakı hallar aid edilir: şəxsi mülkiyyətdə olan hər hansı gəminin və uçan cihazın heyəti, yaxud sərnişinləri tərəfindən açıq dənizdə şəxsi məqsədlərlə başqa bir gəmiyə və ya uçan cihaza qarşı yaxud onların göyərtəsindəki şəxslərə və əmlaka qarşı yönəldilən istənilən formada zorakılıq, tutulub saxlanma və ya qarət; hər hansı bir *dövlətin yurisdiksiyasından* kənar törədilən eyni hərəkətlər; göstərilən qeyri-hüquqi hərəkətləri yerinə yetirmək məqsədilə hər hansı gəmidən və ya uçan cihazdan istifadədə könüllü və şüurlu iştirak, təhrik və yardım; bu xarakterli istənilən hər hansı digər hərəkət.

Şəxsi heyəti qiyam qaldırmaqla nəzarəti öz əlinə alan hərbi gəmilərin, dövlət *qayıqlarının* və ya uçan cihazların eyni hərəkətləri də quldurluq əməlləri sayılır.

*Beynəlxalq hüququn* qəbul olunmuş prinsip və normalarına görə, quldur gəmilərə, uçan cihazlara və onların heyətlərinə heç bir dövlət himayədarlıq etməməlidir. Bayrağın (*Dövlət bayrağı*) mənsubiyyətindən və şəxsi heyətin milli tərkibindən asılı olmayaraq, quldur gəmini hərbi gəmilər və ya uçan cihazlar, yaxud da hər hansı ölkənin dövlət xidmətində olan və bu iş üçün səlahiyyəti olan gəmi və uçan cihazlar zəbt edə bilərlər. Quldur gəmini və ya uçan cihazı ələ keçirib saxlayan dövlətin məhkəmə orqanları onlar barəsində müvafiq cəza tədbiri görməkdə gəmilərə, uçan cihazlara, yaxud onlardakı əmlaka münasibətdə özü bildiyi kimi hərəkət etməkdə səlahiyyətlidir.

**DƏNİZ MÜHARİBƏSİ.** Hərbi münasibətlərdə olan tərəflərin hər növ hərbi-dəniz əməliyyatları. Hərbi-dəniz əməliyyatları yalnız *müharibə* edən tərəflərin hərbi-dəniz qüvvələri tərəfindən həyata keçirilə bilər. Bu əməliyyatlar yalnız açıq dənizdə, ərazi sularında və onların üstündəki səmada keçirilə bilər. *Neytral dövlətlərin* daxili və ərazi suları (*Daxili sular və ərazi suları*), eləcə də beynəlxalq gəmiçilikdə istifadə olunan boğazlar, kanallar və çaylar bu məqsədlər üçün istifadə oluna bilməz. Hərbi-dəniz qüvvələri tərəfindən qorunmayan limanların, şəhərlərin, kəndlərin bombalanması qadağandır, lakin bu qadağa hərbi anbarlara aid edilmir. 1949 il Cenevrə konvensiyasına görə

yaralılar, xəstələr və hospital gəmiləri toxunulmazdır.

**DƏNİZ MÜHİTİNİN MÜDAFİƏSİ VƏ QORUNMASI.** *Dünya okeanı* ehtiyatlarından bəşəriyyətin ehtiyacı üçün istifadə olunması ilə bağlı qlobal problemlərdən biri.

*İkinci dünya müharibəsindən* sonrakı dövrdə bu problemin müxtəlif aspektləri üzrə bir sıra konvensiyalar (*Beynəlxalq konvensiya*) işlənib hazırlanmışdır. Dənizin neftlə çirklənməsinin qarşısını almağa dair 1954 il Konvensiyası; neftlə çirklənməyə gətirib çıxaran qəza hallarında *açıq dənizdə* nisbi müdaxiləyə dair 1969 il Konvensiyası; neftlə çirklənmədən dəyən ziyana görə mülki məsuliyyətə dair 1969 il Konvensiyası; tullantılar və s. materiallar atılması hesabına dənizin çirklənməsinin qarşısını almağa dair 1972 il Konvensiyası; gəmilərin törətdiyi çirklənmənin aradan qaldırılmasına dair 1973 il Konvensiyası bu qəbildəndir.

D.m.m.q.-na dair beynəlxalq-hüquqi normalar Açıq dəniz haqqında Cenevrə konvensiyasında (*Dəniz hüququna dair Cenevrə konvensiyaları (1958)*, habelə *1982 il BMT-nin Dəniz hüququ Konvensiyasında* təsbit edilib.

**DİASPORA** (*yunan. diaspora*– dağılmaq, səpələnmək). Bu termin daha çox qədim yəhudilərə aid işlədilir. VIII əsrdə Assuriya çarı II Sarqon tərəfindən İzrail çarlığının paytaxtı Samariya işğal olduqdan sonra yaranmışdı. Qədim yəhudilərin xüsusilə böyük miqyasda D.-sı e.ə. VI əsrdə, 586 ildə İuda çarlığının paytaxtının Yeni Babil padşahlığının padşahı II Navuxodonosor tərəfindən tutulub dağılmasından sonra baş vermişdi. Yəhudilər isə Babilə sürgün olunmuşdular. Yəhudi *müharibəsindən* (66-70 illər) və romalılar tərəfindən Yerusəlimin dağılmasından sonra Fələstinin yəhudi əhalisinin əsas hissəsi bir çox ölkələrin ərazisinə səpələndi.

Sonralar bu termin öz ərazilərini məcburi şəkildə tərk edən digər dini və etnik qruplara da aid edilməyə başladı.

**DİKTAT** (*al. Diktat* – diktə edirəm, yazıram). *Beynəlxalq hüquqda* güclü dövlətin ona nisbətən zəif dövləti onun iradəsinə ziddi olaraq müəyyən məsələdə öhdəliklərə və şərtlərə məcbur etmə; siyasi və iqtisadi təzyiq və hərbi hədəqorxuların köməyi ilə vadar etmə siyasətidir. Danışığa gələn tərəflərdən birinin məcburən imzaladığı qeyri-bərabər *beynəlxalq müqavilədir*.

**DİKTATOR** (lat. *diktator* – qeyri-məhdud hakimiyyətə malik olan və ölkəni təkbaşına idarə edən şəxs). İlk dəfə qədim Romada senatın qərarı ilə müstəsna hallarda (*müharibələr* zamanı, üsyanları yatırtmaq üçün) *konsullar* tərəfindən təyin olunmuş və tam dövlət hakimiyyətinə malik vəzifəli şəxslər idilər. D.-un qərarlarına xalq tribunu *veto* qoya bilməzdi. D.-un səlahiyyət müddəti altı aydan çox olmamalı idi. İlk vaxtlar D. vəzifəsi ancaq patrisilərin arasından seçilirdi. Plebeylər arasından ilk D. e.ə. 356 ildə təyin olunmuşdu. Yuli Sezarın ölümündən sonra Antoninin qanununa əsasən D. vəzifəsi rəsmi olaraq ləğv olunmuşdu.

**DİLMANC** (fr.*dragoman*, tərcüman ərəb sözündən götürülmüşdür). Köhnəlmiş sözdür. Şərq ölkələrində *diplomatik nümayəndəliklər* yanında şərq dilləri üzrə mütəxəssis – rəsmi tərcüməçi deməkdir. Bu ölkələrdə müəyyən olunmuş adətlərə uyğun olaraq D. Diplomatik immunitetlərdən (*Diplomatik imtiyazlar və toxunulmazlıq hüququ*) istifadə edir və *diplomatik korpusun* tərkibinə daxildir, halbuki Avropa və Amerika ölkələrində *səfirliklərdəki* və nümayəndəliklərdəki tərcüməçilər belə hüquqlardan istifadə etmirlər.





**DİNC YANAŞI YAŞAMA.** Müxtəlif ictimai quruluşa malik dövlətlərin qarşılıqlı münasibətlərinin əsas prinsipləri. D.y.y. hər şeydən əvvəl sülh şəraitində *müharibə* olmadan yaşamaq deməkdir. D.y.y. dövlətlər arasında sülhü və dostluq münasibətlərini təmin etmək üçün bir sıra şərtələr irəli sürür. Beynəlxalq mübahisələrin həll olunmasında müharibədən bir vasitə kimi imtina etmək, bütün dövlətlərin ərazi bütövlüyünə və *suverenliyinə* hörmət etmək, bir-birinin daxili işlərinə qarışmamaq (*Qarışmamaq prinsipi*), dövlətlərin tam bərabərliyi prinsipi əsasında münasibətləri inkişaf etdirmək D.y.y.-ya aid edilir. D.y.y.-nın beş prinsipi - «pança-şila» - geniş yayılmışdır: ərazi toxunulmazlığına və suverenitetə qarşılıqlı hörmət, *hücum etməmək*, bir-birinin daxili işlərinə qarışmamaq, qarşılıqlı səmərə və bərabərlik, dinc yanaşı yaşamaq. D.y.y. və onunla ayrılmaz şəkildə bağlı olan prinsiplər bir çox *beynəlxalq hüquq* aktlarında, o cümlədən *BMT Nizamnaməsində*, BMT Nizamnaməsinə uyğun olaraq dövlətlər arasında dostluq münasibətləri və əməkdaşlığa dair beynəlxalq hüquq prinsipləri haqqında 1970-ci il Bəyannaməsində (*Beynəlxalq Hüququn Prinsipləri Haqqında Bəyannamə*), 1975-ci il *Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Yekun aktında* (*Yekun akt*) təsbit edilmişdir.

**DİNKAR XULLAR** (1954). 1980-1982 illərdə Hindistan Respublikasının Rusiyadakı *səfirliyində* II katib işləmişdir. 1982-1984 illərdə Hindistan Respublikası Xarici İşlər Nazirliyinin (*Xarici İşlər İdarəsi*) mərkəzi aparatda katib müavini, 1985-1989 illərdə Hindistan Respublikasının İtaliyadakı səfirliyində I katib olmuşdur. 1992-1995 illərdə Baş Nazirin kabinetində xüsusi məsələlər üzrə İdarə başçısı olmuşdur. 1995 ildən *səfir* təyin olunanadək Cənubi Koreyada Hindistan səfirliyində müşavir olmuşdur. 2000 ildə Hindistan Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri təyin olmuşdur.

**DİPLOMAT** (*fr. diplomate*). Müəyyən dövlətin digər xarici dövlətlərdə rəsmi siyasi əlaqələrini həyata keçirən xarici işlər idarəsinin əməkdaşı olan vəzifəli şəxsdir.

Hər bir dövlətdə gündəlik xarici əlaqələrin aparılması *xarici işlər idarəsinə* və xaricdəki xüsusi olaraq seçilmiş və təhsil almış diplomatik heyətdən təşkil olunmuş *diplomatik nümayəndəliyə* həvalə olunur. Diplomatik heyət dedikdə müəyyən dövlətin diplomatik xidmətində duran və beynəlxalq danışıqların aparılmasına, *beynəlxalq müqavilələrin* imzalanmasına dair işləri yerinə yetirən şəxslərin məcmusu nəzərdə tutulur.

Diplomatik heyət *diplomatik korpusu* üzvlərinə verilmiş *diplomatik imtiyazlar və toxunulmazlıq hüquqlarından* istifadə edir.

Hər bir dövlət müstəqil olaraq daxili qanunvericiliyində diplomatik xidmətə qəbul olma qaydalarını müəyyən edir. Bu zaman namizədin diplomatik vəzifəyə təyin olunması üçün müəyyən rəsmi tələblərə cavab verməsi nəzərə alınır (yaşı, ali təhsilli, xarici dil bilməsi, xüsusi müsabiqə imtahanlarının veril-

məsi və s.). müxtəlif ölkələrdə bu tələblərin bir-birindən fərqlənməsinə baxmayaraq onların mahiyyəti eynidir: dövlətin nöqteyi-nəzərincə diplomatik kadrların düzgün seçilməsini təmin etmək. Lakin bu ümumi qaydalar xüsusi qaydada rəhbər diplomatik vəzifəyə təyin olunmuş qeyri-peşəkar diplomatlara aid edilmir. Xarici işlər naziri, xarici işlər nazirinin müavinləri, nazirliyin baş katibi, idarə və şöbə başçıları və b. bu qaydada təyin edilir. Lakin bir çox dövlətlərdə bu vəzifələrdən bəziləri xüsusi hazırlığı olan və müntəzəm olaraq diplomatik xidmət mərhələlərini keçmiş şəxslər sırasından müsabiqə əsasında təyin olunur. Belə diplomatik işçilər kateqoriyası «**diplomate de carriÜre**», yəni peşəkar diplomat adlandırılır.

Dünyanın inkişaf etmiş ölkələrində D.-ların hazırlanması məqsədi ilə xüsusi təhsil müəssisələri fəaliyyət göstərirlər. Məs., ABŞ-nı Harvard, Yel və Prinston universitetləri yanında Xarici Xidmət İnstitutlarını; Fransa Milli Administrativ Məktəb və Şərq dilləri məktəbini; İngiltərədə Harrou kolleclərini, Oksford və Kembric universitetlərini göstərmək olar. D. seçilməyə namizəd olan şəxs hər şeydən əvvəl müsabiqə imtahanlarına buraxılmaq icazəsi almalıdır. Bu icazə xarici işlər nazirliyi və ya xüsusi dövlət komissiyası tərəfindən siyasi etibarlığın yoxlanılması əsasında verilir. Dövlət seçki və müsabiqə komissiyaları bu imtahanları diqqətlə izləyirlər.

D.-ın həm xidməti işlərdə, həm də *diplomatik dərəcələr* haqda sənəd üzrə irəliləməsi xüsusi reqlamentlə nizamlanır.

**DİPLOMATİK ADLAR VƏ RÜTBƏLƏR.** Diplomatik nümayəndələrin başçılıq etdikləri (*Diplomatik başçılıq*) *diplomatik nümayəndəliklərin* səviyyəsinə uyğun gələn və onların gəldikləri ölkədə diplomatik nümayəndələr arasında mövqeyini müəyyən edən, diplomatik təcrübədə meydana gəlmiş və *beynəlxalq hüquqla* təsdiq olunmuş adlarıdır.

1961-ci il Diplomatik Əlaqələrə dair *Vyana konvensiyasına (Beynəlxalq konvensiya)* görə diplomatik nümayəndəlik başçıları üç sinfə bölünürlər: *səfirlər* və *nunsilər* sinfi, diplomatik nümayəndə və internunsilər sinfi; onlar *dövlət başçısı* yanında akkreditə olunurlar (*Akkreditə etmək*). Üçüncü sinif işlər müvəkkili (daimi və müvəqqəti *işlər müvəkkili*); xarici işlər nazirləri yanında akkreditə olunurlar. Müasir beynəlxalq təcrübədə diplomatik nümayəndəlik başçılarının qəbul olunmuş tam rəsmi adları aşağıdakı kimidir:

Səfir və nunsi – fövqəladə və səlahiyyətli səfir; sadəcə səfir və ya nunsilər;

Diplomatik nümayəndə və internunsi – fövqəladə diplomatik nümayəndə və səlahiyyətli nazir; qısaldılmış şəkildə – səlahiyyətli nazir və nazir; fövqəladə və səlahiyyətli elçi;

Daimi işlər müvəkkili – işlər müvəkkili. Diplomatik nümayəndəlik başçısını müvəqqəti işlər müvəkkili sinfindən fərqləndirmək üçün daimi işlər müvəkkilinin ünvanına göndərilən sənədlərdə (ümumiyyətlə sənədlərdə) onun fransız adı – **Chargy d'Affaires avec lettres** istifadə olunur;

*Müvəqqəti işlər vəkkilləri.* Onun fransızca ümumi qəbul olunmuş adı - **Chargy d'Affaires ad interim** və ya **Chargy d'Affaires a.i.**

Diplomatik nümayəndəlik başçıları üçün siniflərin müəyyən olunması onların səlahiyyətlərinin həcminə və məzmununa müvafiq olur.





1961-ci il Vyana Konvensiyası nəzərdə tutur ki, birincilik və etiketə münasibətdə diplomatik nümayəndəlik başçıları arasında onların bu və ya digər sinfə mənsubluğuna dair heç bir fərq qoyulmamalıdır. Konvensiyaya uyğun olaraq nümayəndəlik başçısının məxsus olduğu sinif dövlətlər arasında razılaşmaya əsasən müəyyən olunur; nümayəndəlik başçılarının qəbulu zamanı hər bir dövlətdə diplomatik nümayəndələrə aid riayət edilən qaydalar hər bir sinfə münasibətdə eyni olmalıdır. Bir qayda olaraq dövlətlər eyni sinifli diplomatik nümayəndələrlə mübadilə edirlər.

**DİPLOMATİK AGENT** (lat. *agens*-*hərəkət edən*). *Diplomatik nümayəndəliyin* başçısı (*Diplomatik başçılıq*) və ya nümayəndəliyin diplomatik heyətinin üzvü. *Beynəlxalq hüquqda* və diplomatik praktikada bu termindən dövlətin diplomatik nümayəndələrini (*səfirləri*, diplomatik nümayəndələri, işlər müvəkkılini), *səfirlik* və missiyaların (*Diplomatik missiyalar*) diplomatik heyət üzvlərinin ümumi adı kimi istifadə olunur.

1815 il *Vyana reqlamentində* D.a. ancaq diplomatik nümayəndə başçılarına aid edilirdi. Beynəlxalq hüquqda və praktikada belə nöqteyi-nəzər möhkəmlənmişdi ki, bir halda ki, səfirlik və missiyaların diplomatik heyətinin üzvləri səfir və ya elçinin məiyyəti yox (necə ki, XIX əsrdə onları bu cür hesab edirdilər), dövlət müəssisələrinin əməkdaşlarıdırlar, göstərilən şəxslər dairəsi D.a. kimi nəzərdə keçirilməyə başlandı. *BMT*-nin 1958 ildə Beynəlxalq hüquq komissiyası tərəfindən hazırlanan *diplomatik əlaqələr* və diplomatik immunitetlər (*Diplomatik imtiyazlar və toxunulmazlıq hüququ*) haqda maddələri bu ümumi mövqedən çıxış edir. 1928 il diplomatik məmurlar haqda Havana konvensiyası (*Beynəlxalq konvensiya*) səfirlik və missiya başçılarını və diplomatik heyəti, eləcə də *beynəlxalq konfranslarda* dövlətin rəsmi nümayəndələrini, həmçinin bir dövlət tərəfindən xüsusi missiya ilə digərinə göndərilən nümayəndəlik başçıları və üzvlərini də D.a.-lərə aid etmişdir. 1961 il diplomatik əlaqələr haqda *Vyana konvensiyasına* görə D.a. nümayəndəliyin başçısı və ya diplomatik heyətin üzvüdür.

D.a.-ın şəxsiyyəti toxunulmazdır. O hər hansı formada həbs edilə və tutulub saxlanıla bilməz. D.a.-ın gəldiyi dövlət ona lazımi hörmətlə yanaşmalı, onun şəxsiyyətinə, azadlığına və ya ləyaqətinə hörmət etməli, ona qarşı edilən hər hansı qəsdin qarşısını almaq üçün bütün zəruri tədbirləri görməlidir. D.a.-ın şəxsi iqamətgahı nümayəndəliyin binası kimi toxunulmazdır və qorunur. D.a. ölkənin cinayət yurisdiksiyasından toxunulmazlıq hüququna malikdir. O, həmçinin mülki və inzibati yurisdiksiya *immunitetlərindən də istifadə* edir. D.a şahid sifətilə ifadə verə bilməz. D.a-ın olduğu ölkənin yurisdiksiyasından immuniteti onu akkreditə edən (*Akkreditə etmək*) *dövlətin yurisdiksiyasından* azad etmir.

**DİPLOMATİK ARXİV.** *Xarici işlər idarəsinin* və onun xaricdəki nümayəndəliklərinin fəaliyyəti nəticəsində toplanıb yığılan sənədli materialların məcmusu. Beynəlxalq təcrübədə D.a. anlayışı, başlıca olaraq, *diplomatik nümayəndəliyin* və *konsul idarəsini* arxivlərinə aid edilir. *Diplomatik münasibətlərə* dair 1961 il *Vyana konvensiyasına* uyğun olaraq, diplomatik nümayəndəliklərin arxiv və sənədləri istənilən vaxt və sax-

landığı yerdən asılı olmayaraq toxunulmazdır. Əksər ölkələrdə D.a. *xarici siyasət* idarəsinin bir bölməsi sayılır.

**DİPLOMATİK AUDİENSİYA.** *Dövlət başçısı, hökumət başçısı,* xarici işlər naziri və ya hökumətin digər üzvü tərəfindən diplomatik nümayəndənin qəbulu.

Yerli protokol qaydalarından, diplomatik nümayəndənin dərəcəsindən (*Diplomatik dərəcələr; diplomatik adlar və rütbələr*) və audiensiyanın xarakterindən asılı olaraq qəbul təntənəli şəraitdə və ya protokol mərasimləri olmadan keçirilə bilər.

D.a. öz *Etimadnaməsini* təqdim edən xarici diplomatik nümayəndəyə dövlət başçısı tərəfindən verilir.

**DİPLOMATİK BAŞÇILIQ.** Kütləvi tədbirlərə dəvət olunan *diplomatik korpusun* kollektiv *başçılığına, diplomatik nümayəndəlik* başçıları arasında başçılığa, diplomatik nümayəndəliklərlə gəldiyi ölkənin hakimiyyət dairələri arasında başçılığa, diplomatik nümayəndəlik daxilində diplomatik başçılığa münasibətdə və s. əməl olunan mərasimin mühüm qaydalarından biridir. Rəsmi kütləvi tədbirlərə, mərasimlərə dəvət olunan diplomatik korpusa bu tədbir və ya mərasimlərdə iştirak edən dövlət və hökumət başçısının yanında birinci fəxri yer verilir. Diplomatik korpusun bütövlüyünə hörmət edilməlidir və buna görə də onu *səfirlərə*, diplomatik nümayəndələrə və *işlər müvəkkilinə* bölmək olmaz (müxtəlif yerlərdə yerləşdirmək olmaz).

D.b.-ğı nizamlamağa hələ XIX əsrin əvvəllərində cəhdlər edilmişdir. 19.III.1815 ildə 19 martda Vyana konqresində Avropa dövlətlərinin nümayəndəlikləri xüsusi reqlament qəbul etdilər. Bu reqlamentə 21.XI.1818 ildə Aahen protokolu ilə əlavələr edildi. *Diplomatik dərəcələr:* səfirlər (leqat (*Papa və Apostol leqatı*) və *nunsilər*), diplomatik nümayəndələr, səlahiyyətli nazirlər, nazir-rezident, işlər müvəkkili müəyyən edildi. Öz sinfi daxilində diplomatik nümayəndəlik başçılarının D.b.-ğı yerli praktikadan və ya diplomatik nümayəndənin ölkəyə gəlmə tarixindən, ya da etimadnamə sənədini təqdim etməsi vaxtından asılı olaraq müəyyən olunur. *Vyana konqresinin* (1815) V və VI maddələrinə görə «hər bir dövlətdə hər bir sinfə aid *diplomatik agentlərin* qəbul olunmasının vahid qaydası müəyyən olunmalıdır və saraylar arasında qohumluq və ya ailə əlaqələrinin mövcudluğu onların diplomatik agentləri üçün dərəcədə heç bir üstünlük yaratmır». Bu o deməkdir ki, təcrübədə bu maddələrin həyata keçirilməsi zamanı diplomatik nümayəndələr arasında mövcud olan D.b.-ğa əməl etmək lazımdır və hər hansı təsəvvürlərə görə digər diplomatik nümayəndənin D.b.-na zidd olaraq bu və ya digər diplomatik nümayəndəyə D.b. verilməlidir. Bu mühüm qaydanın pozulması diplomatik nümayəndənin ləyaqətinə zərər vuraraq qanunların pozulmasına əsas verir və ölkənin hakimiyyət dairələri ilə diplomatik korpus arasında münasibətlərdə ciddi gərginlik yarada bilər. Bəzi katolik ölkələrində *Vatikanın* səfiri (nunsi) olduğu ölkəyə gəlməsindən və ya etimadnaməsini təqdim etmək vaxtından asılı olmayaraq digər səfirlər qarşısında D.b.-ğa malikdir. Elə buna görə də bu ölkələrdə nunsilər diplomatik korpusun *duayeni* olurlar. Əgər diplomatik nümayəndəlik başçısı suverenin dəyişməsi yolu ilə və ya ölməsi ilə bağlı, dövlətin siyasi quruluşunun dəyişməsi ilə əlaqədar olaraq təkrarən *Etimadnamə* təqdim edirsə, onun əvvəlki D.b.-ğı saxlanılır. Diplomatik nümayəndələr və onların gəldikləri ölkənin hakimiyyət dairələri arasında başçılıq məsələsinə dair beynəlxalq təcrübədə müəyyən olunmuş qaydaya görə öz dövlətlərinin nümayəndəsi kimi xarici səfirlər bilavasitə *dövlət başçısından* sonra gəlirlər. Ancaq nəzakət xatirinə xarici səfirlər könüllü olaraq öz yerlərini baş nazirə və xarici işlər nazirinə güzəştə gedirlər.





**DİPLOMATİK DANIŞIQLAR.** Dövlət nümayəndələri tərəfindən ikitərəfli və çoxtərəfli münasibətlərin siyasi, iqtisadi və digər məsələlərinin xarici siyasət strategiyasını, taktikasını və ya müvafiq diplomatik aksiyalarını, fikir mübadilələrini, qarşılıqlı informasiya mübadilələrini, müqavilələrin (*Beynəlxalq müqavilə*) hazırlanması və imzalanmasını, mübahisəli məsələlərin nizamlanmasını razılaşdırmaq məqsədilə rəsmi müzakirə.

D.d. dövlətlər arasında meydana çıxan mübahisə və münaqişələrin dinc yolla həll etməyin (*Beynəlxalq münaqişələrin sülh yolu ilə həll edilməsi*) başlıca vasitəsidir, *beynəlxalq hüquqda* dövlətlər arasında münasibətlərin inkişaf etdirilməsi və dərinləşdirilməsinin ən geniş yayılmış və təsdiq olunmuş metodlarından biridir.

D.d.- iştirakçılarını səviyyəsi (*dövlət başçıları, hökumət başçıları,* xarici işlər nazirləri və b.) müzakirə olunan problemin əhəmiyyəti ilə müəyyən olunur. Ümumqəbul olunmuş qaydaya əsasən dövlət başçısı, hökumət başçısı, xarici işlər naziri D.d. aparmaq və imzalamaq üçün lazımi qaydada tərtib olunmuş səlahiyyətlərə malik olmalıdır.

D.d. onların iştirakçıları ilə şəxsi görüşlər yolu ilə və ya yazılı şəkildə – *diplomatik yazışma* vasitəsilə həyata keçirilir. Çox vaxt danışıqların şifahi və yazılı formaları paralel olaraq istifadə edilir. D.d. bir qayda olaraq nümayəndələrin mövqeyinin öyrənilməsindən, layihələrin və yekun sənədlərinin hazırlanmasından ibarət böyük hazırlaq işindən sonra başlayır.

**DİPLOMATİK DƏRƏCƏLƏR.** *Xarici işlər idarəsinin* və xaricdəki *diplomatik nümayəndəliyin* diplomatik heyətinə verilən xüsusi xidməti adlardır. D.d. diplomatın *diplomatik korpusda* mövqeyini və gəldiyi ölkənin hakimiyyət orqanları ilə əlaqələrinin mümkünlüyünü müəyyən edir. D.d. bir növ diplomatik nümayəndənin fəaliyyətini müəyyən edir. hər bir dövlətin öz diplomatik dərəcələr sistemi vardır və daxili qanunvericiliklə müəyyən olunur. Əksər dövlətlərin qanunvericiliyi aşağıdakı D.d. dərəcələri müəyyən etmişdir: *attaşe*, birinci katib, ikinci katib, üçüncü katib, müşavir, diplomatik nümayəndə və *səfir*. Bu zaman diplomatların xidməti adları bir qayda olaraq onların eyni adlı vəzifələrinə uyğun gəlir. Bəzi ölkələrdə attaşe kiçik diplomatik dərəcədir, digərlərində kiçik dərəcə – katib – arxivistdir. Bundan başqa göstərilən diplomatik heyətin qradasiyası (birinci və ya ikinci sinif müşavir və s.) mövcud ola bilər.

Fövqəladə və səlahiyyətli səfir və diplomatik nümayəndə adətən dövlətin konstitusiyasından, qanunlarından, siyasi quruluşundan asılı olaraq ya qanunverici orqan, ya da *dövlət başçısı* tərəfindən, yerdə qalanlar isə xarici işlər idarəsi (nazirlik, şöbə, komitə və s.) rəhbərinin göstərişi ilə verilir.

Azərbaycan Respublikası *prezidentinin* Fərmanı ilə Azərbaycan Respublikasının xaricdəki səfirlikləri və missiyalarının (*diplomatik missiya*) diplomatik işçiləri üçün birinci və ikinci dərəcəli müşavirlər, 2 dərəcədən olan birinci katiblər, 2 dərəcədən olan ikinci katiblər, üçüncü katib və attaşe rütbələri müəyyən edilmişdir.

**DİPLOMATİK DİL.** Üç müxtəlif anlayışı bildirmək üçün istifadə olunur: birincisi – diplomatlar tərəfindən *beynəlxalq müqavilələrin* hazırlanmasında və imzalanmasında, rəsmi *diplomatik danışıqlarda* şifahi olaraq istifadə olunan dil (məs; latın, fransız, ingilis və s.) ikincisi, əsrlər boyu ümumi diplomatik lüğətin tərkibinə çevrilən texniki terminlər və ifadələr; üçüncüsü, diplomatlara, siyasi xadimlərə, nazirlərə bir-birilə ən kəskin sözləri *yumşaq və mədəni şəkildə* söyləməyə imkan verən ehtiyatlı ifadələr başa düşülür.

XVIII əsrə qədər ümumi D.d. latın dili idi. Diplomatlar nəinki latın dilində yazırdılar, həm də latınca danışırdılar. 1648 il *Vestfal sülhü*, 1670 il ingilis-danimarka və 1674 il ingilis-hollanda müqavilələri də latınca yazılmış və imzalanmışdır, çünki ümumi qayda belə idi. XVIII əsrdə fransızlar dəfələrlə öz dillərini rəsmi diplomatik dil kimi qəbul etdirməyə cəhd göstərsələr də, başqa dövlətlərin güclü müqavimətinə rast gəlmişdilər. Lakin buna baxmayaraq 1748 il Eks-la Şapel müqaviləsi fransızca tərtib olunmuşdu, bu müqaviləyə xüsusi paraqraf əlavə edilmişdi. Burada deyilirdi ki, belə hallar *presedent* yaratmamalıdır (təkrar olunmamalıdır). Belə qeydlər 1763 il Paris müqaviləsinə, 1783 il Versal müqaviləsinə, eləcə də *Vyana konqresinin Yekun aktına* da digər imza atan dövlətlərin təkidi ilə əlavə olunmuşdu.

Bu qeydlərə baxmayaraq, XVII' əsrin ortalarına yaxın fransız dili rəsmi D.d. kimi bərqərar oldu. 1815 il Vyana konqresinin, 1856 il Paris konqresinin (*Paris sülhü 1856*) bütün işi ancaq fransız dilində aparıldı. Təkcə 1919 il *Paris sülh konfransında* ingilis dili fransız dili ilə yanaşı işlədildi. *Versal sülh müqaviləsinin ratifikasiya* haqda maddədə deyilir: «Bu müqavilə – fransız və ingilis mətnlərində etibarlıdır». Məhz bu maddə ilə fransızların onların dilinin bütün diplomatik danışıqların rəsmi dili olması iddiasına son qoyuldu.

1946 il Paris sülh konfransında rus, fransız, ingilis dilləri rəsmi dil kimi təsdiq olundular. *Beynəlxalq Məhkəmə* istina olunmaqla (onun rəsmi dili ingilis və fransız dilidir), *BMT*-nin bütün orqanlarında rəsmən beş dil: ingilis, fransız, çin, rus, ispan dilləri qəbul olunmuşdur. Tədricən *beynəlxalq münasibətlərin* praktikasında dillərin bərabərhüquqluluq prinsipi bərqərar olmuşdu. *Diplomatiyanın* bir, iki və daha çox rəsmi dil sistemi heç vaxt tam əhatəli olmamışdır. Dövlətlərin xarici əlaqə orqanları yazışmaları, xüsusilə də rəsmi aktlarla mübadilələri öz milli dillərində aparırlar. İkitərəfli beynəlxalq müqavilələr və sazişlər ümumi qaydaya əsasən kontragentlərin dillərində tərtib olunur. *Beynəlxalq konfransların* prosedur qaydaları adətən nəzərdə tutur ki, bütün diplomatik sənədlər, *protokollar* və yekun aktları konfransın rəsmi dillərində redaktə olunmalıdır. Bundan əlavə, müzakirələrin aparıldığı, məruzələrin, layihələrin və sənədlərin tərtib olunduğu işçi dillər də müəyyən olunur.

Yuxarıda deyildiyi kimi, D.d. dedikdə həm də ümümqəbul olunmuş diplomatik lüğəti təşkil edən xüsusi terminlər və ifadələrin məcmusu başa düşülür. Belə terminlərə və ifadələrə *aqreman, Etimadnamə, attaşe, Kazus belli, Kazus federis, müvəqqəti işlər vəkkilləri* və başqalının misal gətirmək olar.

Üçünci mənada D.d. kimi mürəkkəb situasiyalarda istifadə edilən ehtiyatlı, nəzakətli ifadələri göstərmək olar, məsələn, əgər siyasi xadim və ya diplomat digər hökumətə bildirsə ki, onun hökuməti hər hansı beynəlxalq münaqişəyə «etinasız yanaşa bilməz», onda bu o deməkdir ki, onun hökuməti mütləq bu münaqişəyə qoşulacaqdır. Əgər diplomat nitqində və ya notada (*Diplomatik nota*) «onun hökuməti narahatçılıqla baxır» və ya «çox böyük narahatçılıqla baxır» kimi sözlər işlədirsə, bu onu göstərir ki, onun hökuməti hər hansı məsələyə münasibətdə qəti mövqe tutmaq niyyətindədir. Belə ehtiyatlı ifadələrin köməyi ilə siyasi xadimlər birbaşa hədə-qorxu etmədən ciddi xəbərdarlıq etmək imkanına malik olurlar. Əgər bu xəbərdarlıqlara diqqət yetirilməzsə, diplomat nəzakətli və barışdırıcı tonu saxlayaraq digər ifadələrdən istifadə edir. Əgər o, desə «bu halda onun hökuməti öz mövqeyinə yenidən baxmağa məcburdur», bununla o, işarə edir ki, dostluq istənilən an düşmənçiliyə çevrilə bilər. Diplomat «mənim hökumətimin ixtiyarı çatır ki,...» deyirsə o elan edir ki, onun hökuməti «imkan verməyəcək». Bu halda «mənim hökumətim öz xüsusi maraqlarını qorumaq məcburiyyətində qalacaq» və ya «hərəkət etməkdə sərbəstdir» ifadələri diplomatik əlaqələrin kəsilməsini nəzərdə tutur. Əgər diplomat xarici hökuməti xəbərdarlıq edirsə ki, onun tərəfindən müəyyən hərəkətlər «düşmən hərəkət» kimi nəzərdən keçiriləcək, bu ifadələr müharibə təhlükəsini bildirir. Əgər o, deyirsə, «nəticələr üçün o cavabdeh deyil» bu o deməkdir ki, o müharibəyə səbəb olacaq hadisə törətməyə hazırdır. Əgər diplomat ən nəzakətli tonda belə «25-i tarixdə axşam saat 6-ya» cavab tələb edirsə, bu artıq ultimatutdur. Bu D.d.-in üstün cəhəti ondan ibarətdir ki, siyasi xadimlərə bir-birilərinə xəbərdarlıq etmək imkanı verir və sakitliyi qoruyub saxlayır.

**DİPLOMATİK ƏLAQƏLƏR.** Dövlətlərin rəhbər işçiləri və xüsusi səlahiyyətli şəxsləri arasında şəxsi əlaqə. D.ə.-i *dövlət başçıları, hökumət başçıları*, xarici işlər nazirləri, *diplomatik nümayəndəliklər* və digər rəsmi nümayəndəliklər qoruyub saxlayırlar. Praktikada D.ə. diplomatik konfransların (*Beynəlxalq konfranslar*), vizitlərin (*Diplomatik vizitlər*), danışıqların (*Diplomatik danışıqlar*), *diplomatik qəbulların* və s. gedişatında vaxtaşırı görüşlər yolu ilə həyata keçirilir.

Ölkələrarası qarşılıqlı anlamın və əməkdaşlığın inkişafında əsas yeri yüksək səviyyədə görüşlər tutur. Bu cür görüşlərin nəticələri çox zaman ikitərəfli münasibət çərçivəsindən kənara çıxır və beynəlxalq şəraitə müsbət təsir göstərir.

**DİPLOMATİK FORMA.** *Diplomatların* qəbullar zamanı geyim formaları aşağıdakılardır: parad paltarı, smokinq, frak və adi kostyum. Hansı paltar formasında gəlmək dəvət edən tərəfindən təyin olunur. Belə halda, adətən, dəvətnamənin sağ tərəfinin aşağı küncündə xüsusi qeyd olunur:

«Black tie» - «qara qalstuk», yəni «smokinq» - atlas yaxalıqlı faldsız pencək, yanlardan ipək tesma tikilmiş şalvar, qara cilet, kraxmallı ağ, yaxud yaxası yuxarıya qatlanmış xüsusi yum-

şaq köynək, qara kəpənək (qalstuk) və qara lak ayaqqabı.

«White tie» - «ağ qalstuk», yəni «frak» - xüsusi tikilmiş, kostyumdur, - faldlı pencək, ipək tesmalı şalvar (smokinqdə olduğu kimi). Frakda yaxası yuxarı qatlanmış frak köynəyi geyilir, ağ kəpənək (qalstuk) taxılır; ağ cilet və qara lak ayaqqabıda.

*Diplomatik qəbullarda* ən çox «smokinq» formasından istifadə olunur. «Frak» formasına az rast gəlinir.

Diplomatın xarici görkəmi də etiketin vacib elementlərindəndir.

**DİPLOMATİK GÖRÜŞLƏR.** Qəbul edən ölkənin rəsmi, ictimai, işgüzar dairələrinin nümayəndələrinin bu ölkədəki *diplomatik korpusla* əlaqələr yaradıb saxlamağın və inkişaf etdirməyin mühüm vasitəsi; rəsmi xarakter daşıyan və icrası məcburi olan görüşlərə diplomatik nü-mayəndənin *Etimadnaməni* təqdim etməzdən qabaq və sonrakı görüşləri aid edilir. Qəbul edən ölkəyə yeni gələn diplomatik nümayəndə Xarici İşlər Nazirliyi (*Xarici İşlər İdarəsi*) *Protokol* idarəsinin rəisilə görüşündə akkreditə (*Akkreditə etmək*) qaydasını və yerli protokol praktikasını özü üçün aydınlaşdırır. Xarici işlər nazirinin görüşündə olarkən diplomatik nümayəndə öz etimadnaməsinin, özündən əvvəlki nümayəndənin geri çağırılma fərmanının surətlərini ona təqdim edir və etimadnaməni təqdim etməkdən ötrü *dövlət başçısı* tərəfindən qəbul olunmasını (*Diplomatik audiensiya*) xahiş edir, söyləyəcəyi nitqin mətnini təqdim edir. *Diplomatik korpusun duayeni* ilə mümkün ola bilən görüşdə diplomatik nümayəndə yerli protokol qaydalarını özü üçün aydınlaşdırır.

Etimadnamənin təqdim olunmasından və bu fakt barədə diplomatik korpusla lazımi nota (*Diplomatik nota*) yazışmasından sonra diplomatik nümayəndə, yerli Protokola uyğun olaraq, qəbul edən ölkənin rəsmilərinin və *diplomatik nümayəndəliklərin* başçılarının (*Diplomatik başçılıq*) görüşünə gedir. Rəsmi görüşlərdən sonra diplomatik nümayəndə ictimaiyyətin, işgüzar dairələrin, mətbuatın, elm və mədəniyyətin tanınmış nümayəndələrinin görüşünə gedir.

Diplomatik nümayəndə missiyası (*Diplomatik missiya*) başa çatmazdan qabaq, adətən, Protokol idarəsinə görüşə gedir, vida görüşlərinin keçirilmə qaydalarını aydınlaşdırır, ölkədən getməsilə bağlı tədbirlərlə tanış olur, qəbul edən ölkənin rəsmiləri ilə rəsmi vida görüşləri keçirir.

**DİPLOMATİK İMTİYAZLAR VƏ TOXUNULMAZLIQ HÜQUQLARI** (immunitetləri). Xarici *diplomatik nümayəndəliklərə, diplomatik missiyalara,* bu nümayəndəliklərin başçılarına (*Diplomatik başçılıq*) və əməkdaşlarına, *beynəlxalq hökumətlərarası təşkilatlar* yanında dövlət nümayəndəliklərinə verilən hüquqlar və imtiyazlardır. D.i. və t.h. xarici dövlətlərin diplomatik nümayəndəliklərinin və ya *beynəlxalq təşkilatlarının beynəlxalq hüquqla* nəzərdə tutulmuş vəzifələrinin onların olduqları dövlətdə səmərəli həyata keçirilməsini təmin etmək üçün verilir.

D.i. və t.h. müxtəlif tarixi dövrlərdə müəyyən sənədlərdə təsbit olunmuşdur. 19.III.1815 il *Vyana konqresinin* (*Beynəlxalq konqres*) və 21.XI.1818 il *Aahen konqresinin protokolları* ilə müəyyən olunmuş qaydalar uzun müddət beynəlxalq hüququn adi ümumi qəbul olunmuş normaları olmuşlar. XIX əsrin II yarısından D.i. və t.h.-na dair normaların ayrı-ayrı şəxslər





və beynəlxalq təşkilatlar tərəfindən kodifikasiyasına (*Beynəlxalq hüququn kodifikasiyası*) çoxlu cəhdlər olunmuşdur. Bunlara misal olaraq 1868 ildə Blyuntqli, 1890 ildə Fiore, 1926 ildə Ştruppun kodekslər layihələrini, 1895 ildə *Beynəlxalq Hüquq İnstitutu* tərəfindən Diplomatik imtiyazlar haqda Reqlamenti, 1929 ildə diplomatik immunitetlər haqda *Qətnaməni,* 1932 ildə Harvard universiteti tərəfindən hazırlanmış diplomatik imtiyazlar və immunitetlər haqda konvensiya (*Beynəlxalq konvensiya*) layihəsini göstərmək olar.

*Millətlər Cəmiyyəti* çərçivəsində 1925-1927 illər dövründə *səfirlik* hüququnun rəsmi kodifikasiyasına hazırlıq üzrə bəzi işlərə başlanılsa da, bu iş davam etdirilmədi. 20.II.1928 ildə Havanada 14 Latın Amerikası dövləti lokal xarakterli diplomatik məmurlara dair konvensiya qəbul etdi. 1958 ildə *BMT*-nin Beynəlxalq hüquq komissiyası beynəlxalq hüquq sahəsində kodifikasiya ilə məşğul olaraq diplomatik əlaqələr və immunitetlər haqda konvensiya layihəsini işləyib BMT-nin Baş Assambleyasının sərəncamına verdi. 18.IV. 1961 ildə *diplomatik əlaqələrə* dair *Vyana konvensiyasında* və 1975-ci ildə dövlətlərin universal xarakterli beynəlxalq təşkilatlarla münasibətlərində təmsil olunması haqda Vyana konvensiyasında qəti olaraq diplomatik imtiyazlar və immunitetlər müəyyən olundu.

Beynəlxalq təşkilatların nizamnamələrində, bir sıra çoxtərəfli konvensiyalarda və ikitərəfli sazişlərdə beynəlxalq təşkilatların imtiyaz və immunitetləri, ikitərəfli konsul konvensiyalarında isə adətən konsul imtiyaz və immunitetləri müəyyən olunmuşdur. Müasir dövrdə D.i. və t.h. bu sənədlər əsasında tənzimlənir.

Dövlətlər arasında münasibətləri nizamlayan bütün beynəlxalq hüquqi sənədlər aşağıdakı mühakimələrə əsaslanır:

- D.i. və t.h. şəxsi mənafe üçün deyil, *diplomat* və diplomatik nümayəndəliklərə onların funksiyalarını səmərəli həyata keçirilməsini təmin etmək üçün verilir;
- D.i. və t.h. hamıya eyni dərəcədə, qarşılıqlılıq prinsipi əsasında, ayrı-seçkilik edilmədən verilir.

D.i. və t.h. iki qrupa bölünür: diplomatik nümayəndəliklərin imtiyaz və immunitetləri və diplomatik nümayəndəlik başçılarının (*Diplomatik başçılıq*) və heyətinin şəxsi toxunulmazlıq hüquqları və imtiyazları.

Diplomatik nümayəndəliyin binası toxunulmazdır. Nümayəndəlik yerləşən dövlətin hakimiyyət orqanları ancaq diplomatik nümayəndəlik başçısının razılığı olduqdan sonra binaya daxil ola bilərlər. Eyni zamanda onlar nümayəndəlik binasının müdaxilədən və ya zərərli hallardan qorunması üçün normal şəraiti təmin etməlidirlər. Toxunulmazlıq hüquqi nəqliyyat vasitələrinə-gəmilərə, avtomobillərə, təyyarələrə də aiddir. Onlar təftiş edilə, axtarışa, həbsə və məcburi hərəkətlərə məruz qala bilməz. Bu avtomüfəttişliyin yol hərəkət qaydalarını pozma hallarını qeyd etmək və onlar haqda xarici işlər nazirliyinə məlumat vermək hüququnu istisna etmir. Nəqliyyat vasitələrinin toxunulmazlığı hüququ, sürücüyə əgər o, diplomat olmazsa, aid olunmur.

Nümayəndəliyin arxivləri (*Diplomatik arxiv*) və sənədləri yerləşmə yerindən asılı olmayaraq, onların müvəqqəti saxlanılma yerləri də daxil olmaqla toxunulmazdır. Bu qayda diplomatik əlaqələr pozulduğu hallarda da qüvvəsini itirmir.

Diplomatik nümayəndəlik bina ilə bağlı bütün vergilərdən azad olunur (fiskal immunitet), lakin istismar xərclərindən elektrik enerjisi, su təchizatı və s.) azad olunmur. Nümayəndəlik rəsmi istifadə üçün nəzərdə tutulmuş əşyalara gömrük vergisindən azad olunur (gömrük immuniteti).

Diplomatik nümayəndəliyin dövlət gerbindən və bayrağından (*Dövlət bayrağı*), telefon və teleqraf əlaqəsindən istifadə etmək hüququ vardır. Nümayəndəlik rəsmi məqsədlər üçün şifrələrdən istifadə daxil olmaqla öz əlaqələrində azaddır. *Diplomatik poçt* açıla bilməz, onu müşayət edən *diplomatik kuryerlər* şəxsi toxunulmazlıq hüququna malikdirlər.

Nümayəndəlik personalına immunitetlərin verilməsi bu personalın hansı əməkdaşlır kateqoriyasına aid olmasından asılıdır. Diplomat dərəcəsinə malik şəxslər tam diplomatik immunitetlərdən istifadə edirlər. Onlar şəxsi toxunulmazlıq hüququna malikdirlər və həbs oluna tutulub saxlanıla bilməzlər. Diplomatın olduğu ölkə onun təhlükəsizliyini təmin edir. Diplomatın yerləşdiyi bina, hətta müvəqqəti olaraq yerləşdiyi yer, əmlakı toxunulmazdır.

Diplomat olduğu dövlətin cinayət, inzibati və mülki yurisdiksiyasından (*Dövlətin yurisdiksiyası*) immunitetə malikdir. Diplomat rəsmi şəxs kimi çıxış etmədikdə mülki yurisdiksiyadan toxunulmazlıq hüququ məhdudlaşır. Bu aşağıdakı hallarda baş verir: diplomatın xüsusi daşınmaz əmlakına dair mülkiyyət iddiaları baş verdikdə; diplomatın vəsiyyət icraçısı, miras əmlak, varis üzərində qəyyum kimi xüsusi şəxs olaraq çıxış etdiyi vərəsəliyə dair iddiaları olduqda; diplomatın şəxsi məqsədlər üçün peşə və kommersiya fəaliyyəti ilə məşğul olmasına dair iddialar olduqda.

Diplomat şahid sifətində məhkəmədə ifadə verə bilməz. Diplomatın olduğu ölkənin yurisdiksiyasından toxunulmazlıq hüququ onu akkreditə edən (*Akkreditə etmək*) dövlətin yurisdiksiyasından azad etmir.

Diplomat bütün şəxsi, əmlak, dövlət, rayon, bələdiyyə vergilərindən və rüsumlarından azaddır. Lakin diplomat xidmətin və malların qiymətinə daxil olan dolayı vergiləri, olduğu dövlətdə əgər xüsusi gəliri olarsa, bu gəlirə aid vergiləri ödəməlidir. Diplomat gömrük immunitetindən istifadə edir. Onun şəxsi istifadəsi üçün nəzərdə tutulmuş əşyalara və şəxsi baqajına baxış keçirilə bilməz. Əgər şəxsi baqajda ölkəyə gətirilməsi və aparılması qadağan olan əşyaların olmasına ciddi əsas olarsa, diplomatın iştirakı ilə bağlı baqaj açıla bilər.

Diplomatik nümayəndəliyin ikinci dərəcəli əməkdaşları sırasına inzibati texniki heyət daxildir. Bu heyət mühasiblərdən, şifrəçilərdən, dəftərxana işçilərindən, tərcüməçilərdən ibarətdir. Vyana konvensiyası inzibati-texniki heyət və onun ailə üzvlərini bəzi vacib istisnalar olmaqla diplomatik heyətlə eyni səviyyədə tutur. Xidməti işlə bağlı olmayan hərəkətlərə mülki və inzibati yurisdiksiyadan toxunulmazlıq hüququ aid edilmir. Bu heyət əşyaları gömrüksüz ölkəyə gətirə bilərlər, lakin gömrük nəzarətindən azad olunmurlar.

Üçüncü kateqoriyanı xidməti heyət təşkil edir ki, bura aşbazlar, bağbanlar, mühafizəçilər, sürücülər və s. daxildirlər. Bu heyət üzvləri öz xidməti vəzifələrinin icrası zamanı immunitetlərdən istifadə edə bilərlər və əgər olduqları ölkənin vətəndaşları deyillərsə, əmək haqqına olan vergilərdən azad olunurlar.





**DİPLOMATİK KORPUS.** Məlum ölkədə akkreditə olunmuş (*Akkreditə etmək*) xarici diplomatik nümayəndə başçılarının (*Diplomatik başçılıq*) məcmusudur. Bunlar *səfirlər, elçilər*, daimi *işlər müvəkkili, müvəqqəti işlər vəkkilləri*; eləcə də *Vatikanın diplomatik nümayəndəliklərinin* başçıları olan *nunsilər* və internunsilərdir. D.k. anlayışı çox vaxt daha geniş mənada istifadə olunur. D.k. dedikdə diplomatik nümayəndəlik başçılarından başqa diplomatik nümayəndəliklərə daxil olan bütün diplomatik işçilər, yəni müşavirlər, birinci, ikinci və üçüncü katiblər, *səfirlik* və missiya (*Diplomatik missiya*) *attaşeləri*; ticarət nümayəndələri və onların müavinləri, hərbi, hərbi-dəniz və hərbi-hava attaşeləri və bu attaşelərin köməkçiləri; xüsusi müşavirlər və xüsusi attaşelər (sənaye, kənd təsərrüfatı, iqtisadi, ticarət, maliyyə, mətbuat, mədəniyyət, elm, əmək işləri üzrə) nəzərdə tutulur. D.k.-a diplomatik işçilərin ailə üzvləri – həyat yoldaşları, ərdə olmayan qızları və yetkinlik yaşına çatmamış oğulları da aiddir. Yerləşdiyi ölkə hökuməti tərəfindən *diplomat* kimi tanınmasının təsdiqi olaraq həmin ölkənin xarici işlər idarəsi diplomatik işçilər və onların ailə üzvlərinə diplomat kartoçkası verir. Təbiidir ki, diplomatı diplomatik işçi kimi hər şeydən əvvəl aid olduğu dövlətin hökuməti ona diplomatik pasport verməklə tanımalıdır. Əgər diplomatik işçinin vəzifəsi diplomatik işçilərin ümumi qəbul edilmiş nomenklaturasına və ya D.k.-da ənənəyə görə mövcud olan işlər nomenklaturasına uyğun gəlməzsə, diplomatik nümayəndənin gəldiyi ölkənin *Xarici İşlər İdarəsi* bu şəxsləri diplomat kimi tanımaqdan imtina edə bilər. Xarici işlər idarəsi müntəzəm olaraq D.k.-un məlumat kitabçasını nəşr edir. Burada müvafiq səfirlik və diplomatik missiyalarda qruplaşmış diplomatik işçilərin soyadları, ünvanları, xidməti və ev telefonları göstərilir.

D.k. *beynəlxalq hüququn* hər hansı normasına əsaslanan qurum, eləcə də hüquqi şəxs statusuna malik siyasi birlik və təşkilat deyildir.

D.k. dövlətlərin diplomatik nümayəndələrinin müvəffəqiyyətli fəaliyyətini, onlar arasında qarşılıqlı anlaşmanı təmin edən vasitədir.

D.k.-un yerləşdiyi dövlətin daxili işlərinə qarışmaq hüququ yoxdur. Diplomatik praktika tarixində elə hallar olmuşdur ki, D.k. olduğu dövlətin hökuməti qarşısında özünə birlik kimi kollektiv çıxış etmək hüququ vermişdi. Hal-hazırda heç kim D.k.-un, onun yerləşdiyi ölkənin hökuməti qarşısında dövlətin səlahiyyətlərinə aid məsələlərə dair kollektiv çıxış etmək hüququna iddia etmir. Beynəlxalq praktika mərasim (*protokol*) məsələləri ilə bağlı: təbrik etdikdə, *başsağlığı* verdikdə və b. hallarda D.k.-un kollektiv çıxışlarına yol verir. D.k. adından adətən *Diplomatik korpusun duayeni* çıxış edir. Duayen bir qayda olaraq öz çıxışlarını diplomatik nümayəndəliklərin başçıları ilə razılaşdırır. Bəzi hallarda diplomatik nümayəndə başçısı D.k-un bu və ya digər mərasim (protokol) məsələlərinə dair kollektiv çıxışında iştiraka razılıq vermədən öncə öz hökumətinin göstərişini almalıdır.

*Konsullar* və tərcüməçilər diplomatik korpusun üzvü hesab olunmurlar.

**DİPLOMATİK KORPUSUN DUAYENİ** *(fr. doyen - öncül).* Qəbul edən ölkədə *diplomatik korpus* üzrə həmkarları ara-

sında *Etimadnaməsini* hamıdan əvvəl təqdim etmiş *diplomatik nümayəndəliyin* başçısı (*Diplomatik başçılıq*); D bir qayda olaraq, həmişə yüksək dərəcəli diplomatik nümayəndə olur.

D-nin funksiyaları, hər şeydən əvvəl protokol xarakteri daşıyır. O, diplomatik korpus adından milli günlər münasibətilə *dövlət başçısını* və ya digər rəsmi şəxsləri təbrik edir, bədbəxt hadisələrlə bağlı *başsağlığı* verir, keçirilən müxtəlif mərasimlərdə diplomatik korpusa başçılıq edərək, onun adından çıxış edir, Xarici İşlər Nazirliyi (*Xarici İşlər İdarəsi*) aparatı ilə daimi əlaqə saxlayır, diplomatik korpusun fəaliyyət göstərdiyi ölkənin *protokol* qaydaları, adət-ənənələri və s. məsələlər barəsində həmkarlarına məlumat və məsləhət verir.

Diplomatik korpusun üzvlərindən hər hansı birinin dövləti ilə D.-nin təmsilçisi olduğu dövlət arasında *diplomatik əlaqələr* mövcud olmadıqda, D.-in icra etdiyi vəzifələrlə bağlı hər hansı əlaqə duayendən sonra gələn ikinci şəxslə, məs. D.-in müavinilə saxlanılır.

D. istilahı *konsul korpusuna* münasibətdə də işlədilir. Belə halda D. (dekan) rütbəcə həmkarları arasında böyük olan və *ekzekvaturanı* tarix etibarilə birinci alan, yaxud birinci tanınan konsulluq başçısı hesab olunur. Əgər ekzekvaturanı, yaxud tanınmanı iki və daha artıq konsul eyni vaxtda alıblarsa, onların arasında öncüllük *konsul patentinin* verilmə tarixi ilə müəyyən edilir.

**DİPLOMATİK KURYER.** *Diplomatik poçtu* çatdırmaq tapşırığı alan şəxs. Diplomatik münasibətlərə dair 1961 il *Vyana Konvensiyasına* müvafiq olaraq, D.k. kuryer şəxsi toxunulmazlıq hüququna malikdir. O, nə həbs edilə, nə də hər hansı şəkildə tutulub saxlanıla bilər. Şəxsin D.k. statusunun tanınmasından ötrü ona rəsmi sənəd verilir. Bu sənəd D.k.-i göndərən təşkilat tərəfindən lazımi qaydada tərtib edilir və zəruri hallarda mənsub olduğu dövlətin səlahiyyətli hakimiyyət orqanları tərəfindən imzalanır. Akkreditə edən (*Akkreditə etmək*) dövlət, yaxud *diplomatik nümayəndəlik* hər diplomatik poçt üçün ayrıca müvəqqəti D.k. təyin edə bilər; müvəqqəti D.k.-ə verilən toxunulmazlıq hüququ diplomatik poçtun təyinatı üzrə çatdırıldığı anadək qüvvədə olur.

Diplomatik poçt təyyarə heyətinin komandirinə həvalə oluna bilər; belə halda heyətin komandirinə rəsmi sənəd verilməlidir. Həmin sənəddə poçt təşkil edən yerlərin sayı göstərilir, ancaq komandir D.k. hesab olunmur.

Qəbul edən ölkənin müvafiq orqanları D.k.-ə təyinat yerlərinə maneəsiz getməkdə və apardıqları diplomatik poçtu qorumaqda hərtərəfli kömək göstərirlər.

**DİPLOMATİK QƏBUL** (lat. *audientia* – qulaq asmaq). *Dövlət başçısı, diplomatik nümayəndəlik* başçısı (*Diplomatik başçılıq*), xarici işlər naziri və ya digər hökumət üzvləri tərəfindən diplomatik nümayəndənin qəbul olunmasıdır.

Yerli *protokol* qaydalarından, diplomatik nümayəndənin dərəcəsindən (*Diplomatik dərəcələr*) və xarakterindən asılı olaraq D.q. təntənəli şəraitdə və ya protokol xarakterli mərasimlər olmadan keçirilə bilər. Təntənəli şəraitdəə dövlət başçısı öz *Etimadnaməsini* təqdim edən xarici diplomatik nümayəndəni qəbul edir.

**DİPLOMATİK QƏBULLAR.** Mühüm hadisələrin və yubiley günlərinin qeyd edilməsi, qəbul edən dövlətin rəhbər





şəxslərinə, diplomatik nümayəndələrə, yaxud ölkəyə gələn xarici nümayəndə heyətlərinə ehtiram, yaxud qonaqpərvərlik əlaməti göstərmək, habelə *diplomatik nümayəndəliyin* funksiyalarını yerinə yetirməklə bağlı keçirilən rəsmi tədbirlərdir.

D.q.-ın növləri: «şampan bokalı» - saat 12.00 ilə 13.00 arasında, miz arxasında ayaq üstə keçirilir; səhər yeməyi (lanç) - miz arxasında oturmaqla saat 12.00 ilə 15.00 arasında; çay - saat 16.00 ilə 18.00 arasında, oturmaq qeyri-məcburi, sərbəstdir (bir qayda olaraq yalnız qadınlar üçün təşkil olunur); «kokteyl», yaxud «a lya furşet» - 17.00 ilə 18.00 arasında başlayıb təxminən 2 saat, miz arxasında ayaq üstə davam edir; nahar - qəbulun ən ehtiramlı növüdür, adətən 19.00 ilə 21.00 arasında başlanır və əsas qonaq gedənədək 2-2,5 saat davam edir, miz arxasında oturmaqla keçir; nahar-bufet - naharın bir növüdür, ayrı-ayrı mizlər arxasında 4-5 adamın oturması ilə keçirilir; şam yeməyi saat 21.00-da başlayır və əsas qonaq gedənədək oturaq vəziyyətdə keçir.

D.q.-un variantı onun hansı səbəbə görə keçirilməsindən asılı olaraq seçilir.

Bəzən D.q.-da qarşılıqlı razılaşmaya əsasən müraciət və tost mübadiləsi nəzərdə tutulur.

Ayaqüstü keçən diplomatik ziyafətlərə gəlmək və getmək sərbəstdir, lakin oturaq qəbullara gecikmək nəzakətsizlikdir.

**DİPLOMATİK MİSSİYA** (lat. *missio* – tapşırıq, göndəriş). Diplomatik nümayəndə və ya daimi *işlər müvəkkili* tərəfindən başçılıq edilən (*Diplomatik başçılıq*) daimi *diplomatik nümayəndəlikdir.* Həmçinin hər hansı bir ölkəyə ayrıca bir şəxsin və ya nümayənliyin öz hökumətinin hər hansı xüsusi birdəfəlik tapşırığını yerinə yetirmək üçün göndərilməsi də diplomatik missiya adlanır.

XIX əsrdə əsasən kiçik dövlətlərdə təsis olunmuşdu. 1961-ci il *diplomatik əlaqələr* dair *Vyana konvensiyası* diplomatik missiyalarla *səfirlik* arasında *diplomatik imtiyazlar və toxunulmazlıq hüquqlarına* münasibətdə heç bir fərq qoymur.

**DİPLOMATİK MÜNASİBƏTLƏR.** *Beynəlxalq hüququn* normalarına və beynəlxalq ünsiyyət praktikasına müvafiq olaraq, dövlətlər arasında rəsmi münasibətlərin saxlanmasının əsas forması.

D.m. dövlətlər arasında dostluq əlaqələrinin inkişafına, sülhün və *beynəlxalq təhlükəsizliyin* saxlanmasına xidmət etməlidir.

*Diplomatik əlaqələrə* dair 1961 il *Vyana konvensiyasına* müvafiq olaraq, dövlətlər arasında D.m. qarşılıqlı razılıq əsasında həyata keçirilir. Bu istiqamətdə ilk addım, bir qayda olaraq bu və ya digər dövlətin və onun hökumətinin başqa dövlət tərəfindən tam, yaxud *de-yure tanınmasıdır* (*Beynəlxalq-hüquqi tanınma*). D.m.-in qurulması bu işdə maraqlı olan dövlətlərin arasında bilavasitə aparılan danışıqlar yolu ilə, yaxud üçüncü dövlətin diplomatik nümayəndələri vasitəsilə həyata keçirilir, *dövlət başçıları* və *hökumət başçıları*, xarici işlər nazirləri, yaxud xüsusi səlahiyyətli şəxslər arasında müraciətlər, teleqramlar, məktublar, notalar (*Diplomatik nota*) şəklində təsdiq edilir. Tərəflər D.m.-in qurulması, *diplomatik nümayəndəliklərin* səviyyəsi (*səfirlik* və s.), sazişin qüvvəyə minmə tarixi, onun dərc olunma vaxtı və qaydası barədə razılığa gəlirlər.

**DİPLOMATİK MÜNASİBƏTLƏRİN KƏSİLMƏSİ.** Hər hansı dövlətin təşəbbüsü ilə həyata keçirilən və digər dövlətlə diplomatik kanallar vasitəsilə birbaşa əlaqələrin qarşılıqlı şəkildə *səfirlik* və ya *diplomatik missiyaların* geri çağırılması ilə müşayət olunan rəsmi aktıdır.

*Diplomatik münasibətlər müharibə* vəziyyəti yarandıqda, bir dövlətin digər dövlətə qarşı düşmənçilik siyasəti, *diplomatik nümayəndəliyin* normal fəaliyyətinə mane olan har hansı hərəkətlərin baş verməsi üzündən və ya başqa səbəblər olduqda kəsilə bilər. Diplomatik nümayəndəliyin geri çağırılması faktı öz-özlüyündə, əgər bu barədə geri çağıran dövlətin müraciətində birbaşa heç nə deyilmirsə, D.m.k. demək deyil. Dövlətlər arasında müharibə vəziyyətinin yaranması nəticəsində diplomatik münasibətlər mütləq kəsilir. D.m.k həmişə diplomatik nümayəndəliyin geri çağırılması ilə müşayət olunur. Diplomatik nümayəndəliyin yerləşdiyi dövlət *diplomatik imtiyaz və toxunulmazlıq hüququndan* istifadə edən və bu dövlətin vətəndaşı (*Vətəndaşlıq*) olmayan səfirlik və ya missiya əməkdaşlarını, eləcə də bu şəxslərin vətəndaşlığından asılı olmayaraq ailə üzvlərinin mümkün qədər tez ölkədən getməsi üçün zəruri olan köməyi göstərməlidir. 1961 il *Vyana konvensiyasına* görə diplomatik nümayəndəliyin yerləşdiyi ölkə lazım gəldikdə nümayəndəlik üzvlərinin sərəncamına onlar və onların əmlakı üçün tələb olunan daşıma vasitələri verməlidir.

D.m.k. öz aralarında diplomatik münasibətləri kəsmiş ölkələri beynəlxalq praktikada «himayəçi dövlət» adlanan hər hansı üçüncü ölkənin diplomatik nümayəndəliyi vasitəsilə bəzi, adətən cari məsələlərə dair əlaqə saxlamaq imkanlarından məhrum etmir. Dövlət öz maraqlarını və vətəndaşlarının maraqlarını belə üçüncü dövlətə etibar edə bilər. D.m.k. zamanı səfirlik və ya missiya, onların əmlakı və arxivləri ilə birlikdə üçüncü dövlətə etibar oluna bilər. Diplomatik nümayəndəliyin yerləşdiyi dövlət öz tərəfindən üçüncü – himayəçi dövlətin üzərinə götürdüyü vəzifələrdən asılı olmayaraq, D.m.k. zamanı geri çağırılan (*Diplomatik nümayəndənin geri çağırılması*) nümayəndəliyin binasını, onun əmlakı və arxivləri ilə birlikdə qorumağa və hörmət etməyə borcludur. D.m.k. özlüyündə maraqlı olan dövlətlər arasında müqavilələrin fəaliyyətinə toxunmur. D.m.k-dən sonra diplomatik münasibətlərin bərpa olunması maraqlı olan dövlətlərin razılığı əsasında həyata keçirilir.

Müasir beynəlxalq təcrübədə d.m.k. qeyri-hərbi sanksiya növlərindən biri ola bilər. *BMT Nizamnaməsinin* 41-ci maddəsinə görə *BMT Təhlükəsizlik Şurası* öz hərəkətləri ilə sülhü pozan və sülhə təhlükə yaradan dövlətə qarşı bu metoddan istifadə etmək hüququna malikdir.

Konsul əlaqələrinə dair 1963-cü il *Vyana Konvensiyasına* görə də D.m.k. faktı müharibə vəziyyəti istisna olunmaqla konsul münasibətlərinin kəsilməsinə səbəb olmur.

**DİPLOMATİK MÜŞAHİDƏÇİLƏR.** Dövlət və ya *beynəlxalq təşkilatlar* tərəfindən *beynəlxalq konfransların*, təşkilatların və orqanların işinə, eləcə də beynəlxalq təşkilatların qərarlarının və müqavilələrin yerinə yetirilməsinə nəzarət etmək üçün göndərilən şəxslərdir. D.m. səlahiyyətləri prosedur qaydaları ilə müəyyən olunur. *Beynəlxalq münasibətlərdə* ABŞ tərəfindən *birinci dünya müharibəsindən* sonra





tətbiq edilməyə başlamışdır. Dövlətlər bu və ya digər prinsipial mövqe baxımından və ya hər hansı məsələdə cavabdehlik daşımaq istəmədikdə beynəlxalq konfrans və toplantılarda rəsmi şəkildə iştirak etmir və *müşahidəçilər* göndərirlər. Müşahidəçilərin olması göstərir ki, onu göndərən dövlət müzakirə olunan məsələ ilə maraqlanır, ona dair qərara təsir göstərmək və ya bilavasitə informasiya almaq istəyir. D.m. tamhüquqlu iştirakçılardan fərqli olaraq qərarların qəbul olunmasında, işçi orqanların təşkili və fəaliyyətində və s. iştirak edə bilmir. Lakin onlara bir qayda olaraq müzakirə olunan məsələlər üzrə çıxış etmək və təkliflər vermək imkanı verilir. Hər hansı bir təşkilatın üzvü olmadan bir sıra təşkilatlar və o cümlədən *BMT* yanında onun işinə nəzarət etmək arzusunda olan dövlətlərin praktik tələbatına görə daimi nəzarətçilər qurumu yaradılmışdır.

**DİPLOMATİK NOTA** (lat. *nota* – yazılı işarə). *Diplomatik yazışma* sənədinin bir növüdür. *Diplomatik nümayəndəlik* və ya *Xarici İşlər İdarəsi* başçılarının öz adından, hökumətləri adından, bəzən isə *dövlət başçıları* adından göndərdikləri və beynəlxalq sənəd hesab olunan rəsmi yazılı sənəddir. *Hökumət başçıları* və ya dövlət başçıları tərəfindən imzalanmış müraciət D.n. deyil namə və ya məktub adlanır. İki cür D.n. vardır: şəxsi (imzalanmış) və *verbal nota*.

Şəxsi N. diplomatik nümayəndəlik başçısı (*Diplomatik başçılıq*) tərəfindən xarici işlər idarəsindən ya da xarici işlər idarəsinin başçısı tərəfindən xarici *səfirliyə* göndərildikdə imzalanır. Şəxsi N. adətən mühüm və prinsipial əhəmiyyətli məsələlərə aid olur və ya hər hansı hadisə ilə bağlı rəsmi informasiya qaydasında, eləcə də diplomatik nümayəndəliyin yerləşdiyi ölkədə *diplomatik protokolun* müəyyən olunmuş tələblərinə uyğun şəkildə və ya şəxsi N.-ya cavab olaraq göndərilir. Belə N. imza edən şəxsin adından tərtib olunmuş məktub formasında olur, N. blankında çap edilir, üstündə ünvan göstərilir, möhür qoyulur.

Diplomatik pratikada çox vaxt verbal nota istifadə olunur. Verbal nota o qədər də rəsmi xarakter daşımır və nisbətən ikinci dərəcəli məsələləri əhatə edir.

**DİPLOMATİK NÜMAYƏNDƏLİK.** Bir dövlətin digər dövlətlə *diplomatik münasibətlər* qurması məqsədi ilə yaradılan, diplomatik nümayəndə tərəfindən rəhbərlik edilən *səfirlik* və ya *diplomatik missiyadır.* D.n.-in bu iki növünə papa nümayəndəlikləri: nunsiaturalar və internunsiaturalar uyğun gəlir. D.n. maraqlı dövlətlər tərəfindən onlar arasında razılığa əsasən diplomatik münasibətlərin yaradılması nəticəsində təsis edilir. Elə bu şəkildə də dövlətlərin təsis etdikləri *diplomatik nümayəndəliklərin* səviyyəsi müəyyən olunur.

*İşlər müvəkkilinin* təyin olunması o qədər də normal olmayan diplomatik münasibətlərdən xəbər verir. Qarşılıqlı məhdud siyasi, iqtisadi və digər maraqlara malik dövlətlər işlər müvəkkili səviyyəsində mübadilə edirlər. Lakin bəzən siyasi motivlər üzündən müvafiq ölkə ilə daha yüksək səviyyədə diplomatik münasibətlər qurmaq istəməyən bəzi dövlətlər işlər müvəkkili səviyyəsində D.n. təyin edirlər. Səfirlik, dərəcəsinə görə yüksək D.n. hesab olunur.

*Səfir* tərəfindən rəhbərlik edilən D.n. səfirlik adlanır, diplomatik nümayəndə və daimi işlər müvəkkili tərəfindən başçılıq (*Diplomatik başçılıq*) edi-

lən D.n. missiya adlanır. *Birinci dünya müharibəsinədək* ancaq böyük dövlətlər səfirlik səviyyəsində D.n.-lərlə mübadilə edə bilərdilər. Hazırda suveren (*Dövlətin suverenliyi*) bərabərlik prinsipinə müvafiq olaraq bütün dövlətlər səfirlik səviyyəsində mübadilə edə bilərlər. Bununla belə, müxtəlif səbəblərə görə daha aşağı dərəcəli missiya adlanan nümayəndəliklər də saxlanılır. D.n.-lər arasındakı fərqlər hüquqi deyil, *protokol* xarakteri daşıyır.

Daimi D.n. institutu XVI-XVIII əsrlərdə mərkəzləşdirilmiş dövlətlərin yaranması və inkişafı ilə bağlı olaraq Avropada meydana gəlmişdir və o vaxtdan beynəlxalq təcrübədə mühüm yer tutur. *Diplomatik əlaqələrə* dair 1961-ci il *Vyana konvensiyasının* əsasən D.n.-yin başlıca vəzifələri aşağıdakılardan ibarətdir:

a) dövlətini akkreditə olunduğu (*Akkreditə etmək*) dövlətdə təmsil etmək;

b) akkreditə edən dövlətin və onun vətəndaşlarının *beynəlxalq hüquq* çərçivəsində maraqlarını müdafiə etmək;

c) diplomatik nümayəndəliyi qəbul edən dövlətin hökuməti ilə danışıqlar aparmaq;

d) bütün qanuni vasitələrlə akkreditə olunduğu dövlətin həyatı və hadisələri haqda infolrmasiya toplamaq və onlar haqqında akkreditə edən dövlətə məlumat vermək;

e) akkreditə edən dövlətlə qəbul edən dövlət arasında iqtisadi, mədəni və elmi əlaqələri, dostluq münasibətlərini inkişaf etdirmək.

Başqa sözlə deyilsə, D.n.-in başlıca vəzifəsi akkreditə edən dövləti aakreditə olunduğu dövlətdə bütün məsələlərdə təmsil etməkdir və bu dövlətlər arasında diplomatik münasibətlərin başlıca kanalıdır. Bu vəzifələr D.n. başçısının rəhbərliyi altında nümayəndəliyin diplomatik heyəti tərəfindən həyata keçirilir. D.n.-yin zəruri inzibati-texniki (dəftərxana müdiri, mühasib və s.) və xidməti heyəti (sürücülər və b.) vardır.

D.n.-yin yerləşdiyi ölkənin rəsmi idarələri və təsisatları ilə əlaqələri bir qayda olaraq bu ölkənin Xarici İşlər Nazirliyi (*Xarici İşlər İdarəsi*) vasitəsilə müəyyən olunur və həyata keçirilir. D.n.-yin bütün fəaliyyətinə ona başçılıq edən səfir, diplomatik nümayəndə və ya işlər müvəkkili rəhbərlik edir. Bu şəxslərin heç biri olmadıqda diplomatik heyətin vəzifəcə yüksək əməkdaşı müvəqqəti işlər müvəkkili kimi müvəqqəti olaraq səfirliyə rəhbərlik edə bilər. Onun adı gəldiyi ölkənin Xarici İşlər Nazirliyinə rəsmi şəkildə bildirilir. D.n. *diplomatik imtiyazlar və toxunulmazlıq hüququndan* (nümayəndəlik binalarının toxunulmazlığı, ümumdövlət və yerli vergilərdən azad olmaq, gömrük güzəştləri və s.), eləcə də onu qəbul edən dövlət tərəfindən xüsusi müdafiə (qorunma) hüququndan istifadə edir.

*Beynəlxalq münasibətlər* təcrübəsində D.n.-yin bir səviyyəsindən digərinə daha geniş münasibətlərin yaradılması ilə əlaqədar missiyadan səfirliyə və qarşılıqlı münasibətlərin pisləşməsi nəticəsində əksinə səfirlikdən missiyaya keçməsi halları mümkündür. Missiyanın səfirliyə çevrilməsi hər iki dövlətin hökumətləri arasında ikitərəfli danışıqlar nəticəsində baş verir. Əldə olunmuş razılaşma, müvafiq missiya və bu missiyanın yerləşdiyi dövlətin XİN arasında *notalar mübadiləsi* yolu ilə rəsmiləşdirilir. Eyni zamanda diplomatik nümayəndələrin dərəcələri artırılır, yəni diplomatik nümayəndələr səfir dərəcəsinə yüksəlirlər.





D.n. bağlandıqda, d.n.-yi akkreditə edən dövlət onu geri çağırdıqda, diplomatik münasibətlər kəsildikdə və ya akkreditə edən dövlətlə nümayəndəliyi qəbul edən dövlət arasında *müharibə vəziyyəti yarandıqda* öz fəaliyyətini dayandırır. Diplomatik münasibətlərin kəsildiyi halda (*Diplomatik münasibətlərin kəsilməsi*), D.n.-bağlandıqda və ya diplomatik nümayəndə geri çağırıldıqda (*Diplomatik nümayəndənin geri çağırılması*) D.n.-yi qəbul edən dövlət, hətta silahlı münaqişə baş verdikdə belə D.n. binasına onun əmlakı və arxivi (*Diplomatik arxiv*) ilə birlikdə hörmətlə yanaşmalı və qorumalıdır. Akkreditə edən dövlət D.n.-in binasını, onun əmlakını və arxivlərini nümayəndəliyin yerləşdiyi dövlət üçün məqbul olan hər hansı digər dövlətin diplomatik nümayəndəliyinə həvalə edə bilər. Bütün bu hallarda D.n.-in yerləşdiyi dövlət D.n.-in heyət üzvlərinin onların ailələri və əmlakları ilə birlikdə maneəsiz çıxıb getməsi üçün zəruri imkanlar yaratmalıdır, o cümlədən onları vacib olan nəqliyyat vasitələri ilə təmin etməlidir.

Beynəlxalq təcrübədə D.n.-yin digər növlərinə də rast gəlinir. Məs., Liviya Sosialist Xalq Ərəb Camahiri ənənəvi diplomatik institutlardan imtina etmişdir. XİN ləğv olunmuş, əvəzində xarici əlaqələr üzrə Xalq Bürosu yaradılmış, səfirliklərin əvəzinə katiblər başda olmaqla «xalq komitələri» təşkil olunmuşdur. *Etimadnamələr, diplomatik dərəcələr*, diplomatik pasport ləğv olunmuşdu.

Bəzi ölkələrdə «maraq şöbələri» (maraq büroları) təsis olunmuşdu. Mahiyyətinə görə onlar dövlətlər arasında rəsmi diplomatik münasibətlər olmadıqda D.n forması kimi çıxış edirlər. 1970 illərdə Kuba-Amerika münasibətləri kəsildikdən sonra Havanada İsveçrə səfirliyi yanında ABŞ-ın «maraq şöbəsi» açması haqda razılaşma əldə olundu. Eyni zamanda Kubanın maraqlarını təmsil edən analoji şöbə də ABŞ-da Çexoslovakiya (indiki Çexiya) səfirliyi yanında açıldı. 1999 il Yuqoslaviya böhranı dövründə Belqradın ABŞ-da və digər Avropa dövlətlərində maraqlarını Rusiya təmsil edirdi.

Şöbələr (bürolar) əvvəllər səfirlik yerləşmiş binalarda, eləcə də üzərinə diplomatik nümayəndəlik funksiyalarını götürən ölkələrin D.n-də yerləşə bilər. Onları səfirlikdən zahiri əlamətlər ayırır: binalarda lövhələr və *dövlət bayraqları*, eləcə də şöbələrə rəhbərlik edən şəxslərin adları olmur. Yerdə qalan hallarda, o cümlədən gəldiyi ölkənin rəsmi orqanları və şəxsləri ilə birbaşa əlaqələr hüququna münasibətdə onların vəzifələri adi D.n.-lərin vəzifələrindən fərqlənmir.

**DİPLOMATİK NÜMAYƏNDƏNİN GERİ ÇAĞIRILMASI.** Diplomatik nümayəndə aşağıdakı hallarda geri çağırıla bilər: a) diplomatik nümayəndənin digər vəzifəyə keçirilməsi ilə, xəstəliyi, istefaya getməsi ilə əlaqədar olaraq öz hökumətinin təşəbbüsü ilə; diplomatik nümayəndəni qəbul edən ölkənin təşəbbüsü ilə diplomatik nümayəndə *persona non qrata* elan edildikdə; *diplomatik münasibətlər* pozulduqda və ya müvəqqəti olaraq kəsildikdə (*Diplomatik münasibətlərin kəsilməsi*).

Diplomatik münasibətlər pozulmadıqda və ya müvəqqəti olaraq kəsilmədikdə, eləcə də diplomatik nümayəndə persona non qrata elan edilmədikdə, D.n.g.ç. *dövlət başçısına* geri çağırılma sənədi təqdim etmək yolu ilə rəsmiləşdirilir, daimi *işlər müvəkkilinin* geri çağırılması isə diplo-

matik nümayəndənin olduğu ölkənin xarici işlər nazirinə öz dövlətinin xarici işlər nazirinin müvafiq məktubunu təqdim etməklə rəsmiləşdirilir.

Diplomatik nümayəndənin persona non qrata elan edilməsi qaydasında praktikada az hallarda rast gəlinir, belə ki, bu müvafiq dövlətlər arasında ciddi çətinliklərə səbəb olur. Adətən diplomatik nümayəndənin persona non qrata elan edilməsi haqda diplomatik nümayəndə təyin edən dövlətin xarici işlər nazirliyinə şifahi şəkildə məlumat verilir.

**DİPLOMATİK ÖNCÜLLÜK.** *Diplomatik protokolun* ən mühüm qaydalarından biridir. Açıq keçirilən tədbirlərə dəvət alan *diplomatik korpusun* kollektiv öncüllüyünə, *diplomatik nümayəndəliklərin* başçıları (*Diplomatik başçılıq*) arasında öncüllüyə, qəbul edən ölkənin diplomatik nümayəndələri və rəsmiləri arasında öncüllüyə, həmin diplomatik nümayəndəliyin *diplomatları* arasında öncüllüyə münasibətdə bu qaydaya riayət edilir.

Rəsmi açıq tədbir və mərasimə dəvət olunan diplomatik korpusa həmin tədbirdə, yaxud mərasimdə iştirak edən *dövlət başçısının* və ya *hökumət başçısının* bilavasitə yaxınlığında fəxri yer ayrılır. Diplomatik nümayəndəliklərin hər hansı dərəcədən olan başçıları arasında öncül təyin edilməsində yerli təcrübədən asılı olaraq diplomatik nümayəndənin qəbul edən ölkəyə gəlmə tarixi, yaxud *Etimadnaməsinin* təqdim olunma tarixi əsas götürülür.

*Diplomatik əlaqələrə* dair 1961 il *Vyana konvensiyasının* 14-cü maddəsinin 2-ci bəndində deyilir: «Nümayəndəlik başçıları arasında rütbə böyüklüyü və etiketdən başqa, bu və ya digər sinfə mənsub olduğuna görə heç bir fərq qoyulmamalıdır». Bu mühüm qaydanın pozulması diplomatik nümayəndələrin ləyaqətinə toxuna bilər və ayrı-seçkilikdə ittiham üçün əsas olar. Bəzi ölkələrdə *nunsi* (papa *səfiri*) ənənəyə görə digər səfirlərdən əvvəl öncül olur. Bu mənada o, xristian (katolik) ölkələrdə diplomatik korpusun daimi duayeni (*Diplomatik korpusun duayeni*) sayılır.

Diplomatik nümayəndələr ilə qəbul edən ölkənin dövlət rəsmiləri arasında öncüllük məsələsində beynəxalq təcrübəyə əsasən belə bir qayda gözlənilir ki, diplomatik nümayəndəliklərin başçıları *protokol* tədbirlərində öz dövlət başçılarının təmsilçiləri olduqlarından bilavasitə qəbul edən dövlətin başçısının ardınca gəlirlər. Beynəlxalq nəzakət ənənələrinə görə, xarici səfirlər öz yerlərini baş nazirə və xarici işlər nazirinə könüllü güzəştə gedirlər.

Nəzərdə tutulan diplomatik nümayəndəliyin işçi heyəti üzvlərinin öncüllüyü müvafiq ölkənin qaydaları ilə müəyyən edilir. *Diplomatik dərəcələr* nəzərə alınmaqla, *səfirlik* işçilərinin öncüllüyü müvafiq olaraq səfir, müşavir-elçi, hərbi *attaşe*, birinci katib, ikinci katib, üçüncü katib, attaşe rütbələri ilə müəyyən olunub.

**DİPLOMATİK POÇT.** Dövlətlə (adətən, *xarici işlər idarəsi* vasitəsilə) onun xaricdəki *diplomatik nümayəndəlikləri* arasında ən mühüm və geniş yayılan rabitə növlərindən biri. Barəsində xüsusi rejim müəyyən edilən D.p. vasitəsilə rəsmi məktublaşmalar, sənədlər və xidməti istifadə üçün nəzərdə tutulan əşyalar çatdırılır. Onlar ağzı bağlı, surğuc möhürlü, yaxud da müəyyən olunmuş qaydada plomblanan zahirən görünən təyinat əlamətlərinə malik tutarlarda (çanta, kisə, paket, konvert və s.) - diplomatik valizada (fr. valise - çemodan) qablaşdırılır. Hər valiza D.p.-da ayrıca yer tutur və istər bu iş üçün xüsusi müvəkkil olunan şəxsin müşayiətilə, istərsə də müşayiətsiz, adi rabitə kanalları ilə çatdırıla bilər.

D.p. açıla və tutulub saxlanıla bilməz, bütün növ rüsumlardan azaddır.

D.p. və *diplomatik kuryer* barədə bu və ya digər mühüm müddəalar diplomatik əlaqələrə dair 1961 il *Vyana konvensiyasında* təsbit edilib.

**DİPLOMATİK PROTOKOL.** Hökumətlərin, xarici işlər nazirliklərinin (*Xarici İşlər İdarəsi*), *diplomatik nümayəndəliklərin*, diplomatik işçilərin və digər rəsmi şəxslərin beynəlxalq əlaqələrin əməli olaraq gerçəkləşməsi zamanı riayət etdikləri qayda, ənənə və şərtlərin məcmusu. *Diplomatik yazışmalar*, rəsmi görüşlər, *diplomatik qəbullar*, xarici ölkənin dövlət və hökumət başçısının (*Dövlət başçısı; Hökumət başçısı*) qarşılanması, *beynəlxalq təşkilatlar* xəttilə təşkil olunan toplantılar D.p. tələbləri çərçivəsində əməli xarakter alır.

D.p.-un qəbul olunmuş ümumi müddəaları *Diplomatik əlaqələrə* dair 1961 il *Vyana konvensiyasında* təsbit edilib. Bununla bərabər hər ölkənin öz D.p. xüsusiyyətləri də vardır; bu xüsusiyyətlər həmin dövlətin milli adət və ənənələrindən irəli gəlir.

D.p.-la əməl etmək zəruridir; ondan yayınmaq, yaxud qaydaları pozmaq müqabil dövlətin, yaxud onun rəsmi nümayəndəsinin şərəf və ləyaqətinə toxuna və bununla da iki dövlət arasında münasibətlərin mürəkkəbləşməsinə və arzuolunmaz siyasi nəticələrə gətirib çıxara bilər. Müvafiq ölkə ilə *diplomatik münasibətlərin* durumundan asılı olaraq D.p.-a müxtəlif incəliklər (daha çox və ya daha az təntənəlilik, ayrı-ayrı tədbirlərin keçirilməsində yüksək və ya aşağı səviyyəlilik) əlavə oluna bilər.

D.p. - *diplomatiyanın* mühüm siyasi vəsiləsidir; Onun tətbiqindən doğan nəticələr dövlətlərarası münasibətlərə bu və ya digər dərəcədə təsir göstərir.

**DİPLOMATİK SIĞINACAQ.** *Diplomatik nümayəndəliklərin* və *konsul idarələrinin* binalarında sığınacaq (*Diplomatik sığınacaq*) verilməsi XVI-XVII əsrlərdə dövlətlərin təcrübəsində müşahidə olunub. Məs., İranda şahlıq rejimindən narazı və müxalifətdə olan qüvvələr təqib və repressiyadan qorunmaqdan ötrü İngiltərənin və Rusiyanın Tehrandakı *səfirliklərinə* yığışırdılar (buna İranda «bəstə oturma» (*Bəst*) deyilirdi). Sığınacaq hüququndan hətta İran şahı da bəhrələnib. 1905-11 il inqilabçılarından qorunmaq üçün İran şahı Məhəmməd Əli Rusiya konsulluğunda sığınacaq tapmışdı.

Latın Amerikası ölkələri istisna olmaqla, əksər dövlətlər diplomatik nümayəndəliklərin binalarından sığınacaq kimi istifadəni qəbul etmirlər. Latın Amerikasında bu məsələ ilə bağlı normativ aktlar qəbul olunsa da, onlardan istifadədə ziddiyyətli situasiyalar üzə çıxır. Universal xarakterli *beynəlxalq müqavilə* və sənədlərdə D.s. məfhumu ümumiyyətlə tanınmır. 1961 il *Vyana konvensiyasında* qeyd edilir ki, diplomatik nümayəndəliyin binalarından *diplomatik münasibətlərə* aidiyyəti olmayan məqsədlər üçün istifadə olunması yolverilməzdir. Azərbaycan Respublikası D.s.-ı qəbul etmir.

**DİPLOMATİK TƏMASLAR.** Dövlətlərin rəhbər xadimləri, yaxud xüsusi səlahiyyətlərə malik şəxsləri arasında

fərdi əlaqələr; D.t. *dövlət başçıları, hökumət başçıları*, xarici işlər nazirləri, diplomatik və digər rəsmi şəxslər arasında saxlanılır. Təcrübədə D.t. dövri görüşlər, *diplomatik konfranslar*, səfərlər, danışıqlar və *diplomatik qəbullar* yolu ilə həyata keçirilir.

**DİPLOMATİK UNİFORMA.** *Diplomatların* daha təntənəli mərasimlərdə (*Etimadnamənin* təqdim olunması, milli bayramlar münasibətilə qəbullar keçirilməsi, *dövlət başçısının* audiensiyası (*Diplomatik audiensiya*) və s.) istifadə etdikləri xüsusi geyim forması.

*Diplomatiyanın* özü kimi D.u.-nın da qədim tarixi vardır. Hər ölkənin özünəməxsus diplomatik geyim növü olmuşdur. Orta əsrlərdə xarici ölkələrə göndərilən *səfirlər* təmsil etdikləri ölkənin qüdrətini və zənginliyini nümayiş etdirmək üçün bərbəzəkli libaslar geyər, hətta zinət əşyalarından da geniş istifadə edərdilər. Feodalizm dövründə dəbdə olan belə diplomatik geyim formalarında, həm də milli kolorit büruzə verilərdi. Keçmiş SSRİ-də də diplomatlar xüsusi formadan istifadə edirdilər. Bu geyimdən əsasən etimadnamənin təqdim edilməsində, milli bayramların keçirilməsində, mühüm görüşlərdə istifadə edilirdi. Bir sıra Afrika və Asiya ölkələrində D.u. kimi milli geyimlərdən indi də istifadə olunur. İranda İslam inqilabının qələbəsindən sonra bu ölkənin diplomatları yaxalıqlı köynək və qalstukdan imtina etmişlər. Hind diplomatları D.u. kimi öz milli geyimlərindən (kişilər uzun ağ köynək, qadınlar saridən) istifadə edirlər. Özbək və tacik diplomatları rəsmi mərasimlərə milli təsəkdə və çəpəndə gəlirlər.

**DİPLOMATİK VİZA.** Xarici işlər nazirliyinin (*Xarici İşlər İdarəsi*) müvafiq idarəsi, *diplomatik nümayəndəlik* və *konsul idarəsi* tərəfindən diplomatik şəxs olduqları təsdiq olunan şəxslərin pasportlarında edilən xüsusi qeyd. Hökumətin üzvləri və yüksək vəzifəli dövlət adamları, *beynəlxalq konfranslara* gedən nümayəndələr, fövqəladə *diplomatik missiya* ilə göndərilən şəxslər, xarici işlər idarəsinin rəsmi məqsədlər üçün ezam edilən *diplomatları, diplomatik kuryerlər* və s. diplomatik şəxslər hesab olunurlar. D.v. almaq hüququ olanlar şəxsi işləri ilə əlaqədar xaricə getmək istədikdə, beynəlxalq nəzakət qaydalarına uyğun olaraq D.v. verilir. Bəzən diplomatik pasportu olmayanlara da lütfkarlıq əlaməti kimi diplomatik viza verilir (*Xarici pasport*).

**DİPLOMATİK VİZİTLƏR.** *Diplomatın* gəldiyi ölkənin rəsmi, ictimai və işgüzar djairələrinin nümayəndələri ilə, eləcə də *diplomatik korpusla* şəxsi əlaqələrin yaradılması vasitəsidir. D.v. diplomatik işin fəal formasıdır və müvəffəqiyyətini təmin edir. D.v.-in mahiyyəti diplomatın gəldiyi ölkədə öz ölkəsinin maraqlarını təmsil etməkdən və qorumaqdan, ölkələr arasında dostluq münasibətlərini inkişaf etdirmək vəzifələrindən irəli gəlir. Diplomatın gəldiyi ölkənin səmərəli şəkildə öyrənilməsi, onun siyasi, iqtisadi və mədəni həyatını dərindən bilməsi müxtəlif yerli dairələrin nümayəndələri tərəfindən görüşlər və D.v. vasitəsilə həyata keçirilən gündəlik və daimi əlaqələr olmadan qeyri-mümkündür. Digər tərəfdən öz hökumətinin daxili və *xarici siyasət* məsələlərinə aydınlıq gətirmək də D.v.-in məqsədinə aiddir.

*Səfirdən attaşeyədək səfirliyin* bütün diplomatik işçilərinin vizitləri mühüm əhəmiyyət kəsb edir. Diplomatın hər bir viziti siyasi xarakter daşıyır. Müzakirə olunan məsələnin xarakterindən asılı olaraq hər bir diplomatik nümayəndə öz hökumətinə D.v. və onun nəticələri haqda müəyyən olunmuş qaydada məlumat verməlidir.

D.v. *protokol* və işgüzar vizitlərə bölünürlər. Bəzi D.v.-lər diplomatik işçi üçün *məcburidirlər və rəsmi vizitlər* hesab olunurlar. Onlar yerli protokol qaydalar və beynəlxalq praktika ilə müəyyən olunur.

Protokol vizitləri səfirlərin etimadnamələrini təqdim etdikdən sonra və *diplomatik nümayəndəliklərin* diplomatik əməkdaşlarının təyin olunduqları ölkəyə gəlişindən sonrakı vizitləri hesab olunur. *Etimadnamə* təqdim etdikdən sonra səfir birinci olaraq ölkənin rəsmi şəxslərinə, eləcə də *diplomatik korpusun* onun dövləti ilə *diplomatik münasibətlər* saxladığı ölkələrin diplomatik nümayəndəlik başçılarına vizitlər edir. *Dövlət başçısı* və xarici işlər nazirinə vizitlərlə yanaşı səfir, bir qayda olaraq *hökumət başçısına, parlamentə*, nazirlərə, ictimai xadimlərə vizitlər edir. Bəzi ölkələrdə təzə gəlmiş səfirin görüşəcəyi rəsmi şəxslərin siyahısı və görüşlərin ardıcıllığı müəyyən olunmuşdur. Bu siyahı haqda yerli protokol tərəfindən səfirliyə məlumat verilir. Səfirin görüşmək istədiyi şəxslərin siyahısı onun göstərişi ilə səfirliyin protokol xidməti tərəfindən tərtib olunur və səfirliyin akkreditə (*Akkreditə etmək*) olunduğu ölkənin xarici işlər nazirliyinin (*Xarici İşlər İdarəsi*) protokol şöbəsinə göndərilir. Nazirlik bu vizitlərin təşkil olunmasında səfirə lazımi köməklik göstərir.

Diplomatik korpusda D.v.-i səfir bir qayda olaraq duayenin (*Diplomatik korpusun duayeni*) görüşünə getməklə başlayır. Digər həmkarları ilə D.v.-in növbəsini müəyyən edərkən səfir mütləq birinciliyi, yəni ya etimadnamənin verilməsi vaxtını, ya da diplomatik nümayəndənin ölkəyə gəldiyi vaxtı nəzərə almalıdır. Lakin nəzərə almaq lazımdır ki, bu məsələdə ciddi qayda yoxdur. Diplomatik korpusda səfirlər birinci olaraq öz siniflərinə bərabər diplomatik *nümayəndəlik başçılarına (Diplomatik başçılıq)*, yeni səfirlərə vizitlər edirlər. Bu ölkəyə akkreditə olunmuş nümayəndələr, daimi və müvəqqəti işlər müvəkkilləri yeni gəlmiş xarici səfirin onlara etimadnaməsini təqdim etməsi haqda şəxsi notasını (*Diplomatik nota*) alan kimi birinci olaraq səfirə vizit edirlər. Səfir də onlara cavab vizitlər edir.

Ölkənin rəsmi şəxslərinə və diplomatik nümayəndəlik başçılarına protokol vizitləri edilərkən görüşlərdəki ardıcıllığa riayət etmək, yəni əvvəlcə rəsmi şəxslərə, bundan sonra diplomatik nümayəndəlik başçılarına vizitlər məcburi deyil. Diplomatik korpusda *həmkarları ilə vizitləri səfir rəsmi şəxslərə* vizitlərlə, gündə bir-üç vizit etməklə növbələşdirir.

Bəzi ölkələrdə diplomatik korpus böyük olduğundan yeni gəlmiş səfir müəyyən müddətə bütün diplomatik nümayənədə başçılarına D.v.lər edə bilmir. Belə olan halda onlar hər hansı bir region səfirlərinin duayeni ilə görüşməklə kifayətlənirlər. Protokol vizitlərini təkcə səfirlər deyil, *ekzekvaturaya* görə öz öhdəliklərinin icrasına buraxılmış *konsul idarələrinin* başçıları da edirlər.

Etimadnamələrini təqdim etmiş diplomatik nümayəndəlik başçıları və ölkəyə yeni gəlmiş diplomatik işçi diplomatik korpusda protokol vizitləri etdikdən sonra diplomatik nümayəndəlik başçısına və diplomatik əməkdaşa

diplomatik korpusdakı həmkarları cavab protokol vizitləri edirlər.

Artıq akkreditə olunmuş yeni gəlmiş səfir, öz növbəsində ondan sonra gələn digər həmkarlarından onların etimadnamələrini təqdim etməsi haqda şəxsi notalar alır. Bu halda məlumatı alması haqda gecikdirilmədən cavab (şəxsi) nota göndərilir və ona protokol vizitləri etdikdən sonra onun həmkarı ona cavab vizitləri edir. Protokol viziti bir qayda olaraq 15-20 dəqiqə çəkir. Vizitlərin aparılma qaydasına uyğun səfirlərin ölkədən getməsi ilə bağlı «Vida görüşləri» də saxlanılır.

İşgüzar vizitlər həm səfirin, həm də ölkə nümayəndəsinin təşəbbüsü ilə edilə bilər. Diplomatik işgüzar vizitlər üçün vaxt məhdudiyyəti qoyulmur. Səfirliyin diplomatik əməkdaşları onların üzərinə düşən öhdəliklərə görə hökumətinin tapşırığını yerinə yetirmək və səfirliyə lazım olan informasiyanı almaq üçün idarə və nazirliklərə vizitlər edir. Bu halda diplomatik işçi öz dövlətinin *xarici siyasət* kursunu həyata keçirir. Rəsmi şəxslərə vizitlərlə eyni vaxtda və ya bu vizitlərdən sonra diplomatik nümayəndə görkəmli ictimai xadimlərlə, elm, mədəniyyət, mətbuat nümayəndələrinə vizitlər edir. Diplomatik nümayəndəliyin digər işçilərinə və onların həyat yoldaşlarına da vizitlər edirlər. Bəzən diplomatik nümayəndələrin həyat yoldaşları gündə bir dəfə, müəyyən olunmuş vaxtda adətən 17.00-dan 19.00-dək, ya da 16.00-dan 18.00-dək **jour fixe** təşkil edirlər. Bu **jour fixe**-lərə dəvətnamələr payızın əvvəlində göndərilir və onlar **jour fixe**-in dayandırılması haqda xüsusi məlumat verilməyənədək qüvvədə qalırlar.

Diplomatik nümayəndənin tanışlıq məqsədi ilə və ya protokol qaydaları ilə müəyyən olunmayan vizitləri xüsusi vizitlər hesab olunur. Diplomatik nümayəndənin rəsmi mövqeyini nəzərə alsaq, onun rəsmi və xüsusi vizitləri arasında fərq qoymaq çox çətindir. D.v.-lər zamanı rəsmi və xüsusi olmalarına baxmayaraq vizitlərin vaxtına və ya geyimlərinə dair yerli protokol qaydalarına əməl olunur. D.v.-lər dəqiq müəyyən olunmuş vaxtda keçirilir. Gecikmək etiketin pozulması hesab olunur və D.v. edilən şəxsə hörmətsizlik kimi qiymətləndirilir. D.v.-in bitirilməsi təşəbbüsü qonağa məxsusdur, lakin dövlət başçısına edilən vizitdə dövlət başçısı birinci olaraq D.v.-in bitdiyinə işarə edir.

**DİPLOMATİK YAZIŞMA.** Diplomatik fəaliyyətin bir növüdür. Xarici işlər nazirliyinin (*Xarici İşlər İdarəsi*) ölkəyə akkreditə (*Akkreditə etmək*) olunmuş *diplomatika missiya* və *səfirlikləri* ilə, missiya və səfirliklərin xarici işlər nazirliyi ilə, olduğu ölkənin digər idarə və ayrı-ayrı şəxsləri, eləcə də bu ölkədəki *diplomatik korpusla* yazışmalarıdır.

D.y.-nın ən geniş yayılmış növləri bunlardır: şəxsi nota (*Diplomatik nota*), *verbal nota*, yaddaş qeydi, *Memorandum*, şəxsi məktub (yarırəsmi xarakterli). Bu yazışma növləri öz məzmununa, təyinatına və formal (*protokol*) əlamətlərinə görə bir-birindən fərqlənirlər. Səfirliyin başçısı (*Diplomatik başçılıq*) və ya diplomatik işçisi tərəfindən göndərildiyindən şəxsi məktubun «yarırəsmi» sənəd kimi xarakterizə olunması rəsmilik keyfiyyətini azaltmır. Hər bir konkret hadisəyə uyğun gələn sənəd növünü düzgün seçmək vacibdir, eləcə də nəzərə almaq lazımdır ki, şəxsi notaya şəxsi nota ilə, verbal notaya verbal nota ilə cavab vermək lazımdır.

Rəsmi olaraq nazirlik və səfirlik D.y.-nı öz ölkəsinin dilində aparmaq





hüququna malikdir. Ancaq bəzən bu sənəd onu alan tərəfdə tərcümə ilə bağlı çətinliklərə səbəb olur və nəticədə D.y.-da qoyulmuş məsələlərin nəzərdə keçirilməsini çətinləşdirir. Bunu aradan qaldırmaq məqsədilə:

1) xarici işlər idarəsi və ya səfirliklə razılaşmaya əsasən yazışmanı hansısa üçüncü bir dildə aparmaq;

2) yazışmanı hər bir sənədə onun qeyri-rəsmi tərcüməsi əlavə olunmaqla aparmaq olar.

Səfirliklə D.y.-nın diplomatın gəldiyi ölkənin dilində aparılması səhv hesab olunmur. Ancaq səfirlik, əgər onun yerləşdiyi ölkənin bir yox, iki və ya bir neçə rəsmi dili olarsa, ehtiyatlılıq göstərməlidir. Yazışmanın ancaq bu dillərin birində aparılması qarşılıqlı münasibətləri mürəkkəbləşdirə bilər.

D.y.-da nəzakət və ədəb qaydalarına əməl etmək, kəskin ifadələrdən, diplomatik sənədin göndərildiyi ölkənin ləyaqətinə toxunan və onun rəsmi nümayəndələri üçün təhqiredici sözlərdən qaçmaq tələb olunur.

Belə bir protokol qaydası mövcuddur: **«Chaque lettre demande ryponse»** - «Hər bir məktub cavab tələb edir». Ona görə də əgər xüsusi, ayrıca səbəb olmadıqda məktuba, notaya və digər diplomatik sənədə cavab gecikdirilməməlidir, imkan daxilində ən qısa müddətdə cavab verilməlidir.

D.y. sənədləri yaxşı, əziyi olmayan, təmiz, gözəl zahiri görünüşü olan kağızda çap olunmalıdır, mətn yaxşı yerləşdirilməlidir. Diplomatik sənədlərdə düzəlişlər etmək, pozmaq yol verilməzdir. Sənədlərin göndərilməsi üçün keyfiyyətli və formalı, sənədin ölçüsünə uyğun gələn zərflər seçmək lazımdır.

D.y. sənədələri ya şəxsən təqdim olunmalıdır, ya da *diplomatik kuryerlə* göndərilir; onları poçtla (*Diplomatik poçt*) göndərmək olmaz.

**DİPLOMATİYA.** Dövlət, hökumət və xarici əlaqə orqanları başçılarının (*Dövlət başçısı; Hökumət başçısı*) danışıqlar, yazışmalar (*Diplomatik danışıqlar, Diplomatik yazışmalar*) və başqa dinc vasitələrlə dövlətin *xarici siyasət* məqsədləri və məsələlərinin həyata keçirilməsində, eləcə də dövlətin xaricdə maraqlarının və hüquqlarının qorunmasında rəsmi fəaliyyətidir.

«Diplomatiya» sözü yunan sözu «diplomadan» törəmişdir. Qədim Yunanıstanda *elçilərə* onların səlahiyyətlərini təsdiq edən *Etimadnamə* və sənəd kimi təqdim olunan yazılı ikiqat lövhələr diploma adlanırdılar. Xarici əlaqələr sahəsində dövlət fəaliyyəti mənasında «diplomatiya» XVIII əsrin sonunda Qərbi Avropada işlədilməyə başlanmışdı.

D. dövlətin xarici siyasətinin mühüm vasitəsidir. Bəzən «D.» və «xarici siyasət» sözləri eyni mənada işlədilir. Lakin bunlar eyni anlayışlar deyillər. Xarici siyasət anlayışı beynəlxalq sahədə dövlətin fəaliyyət istiqamətlərini müəyyən edən məqsəd və maraqlarını, eləcə də bu fəaliyyətin formalarını, metod və vasitələrini əhatə edir. *Beynəlxalq münasibətlərdə* dövlətin məqsədləri və maraqları hər şeydən əvvəl hökumətlər arasında rəsmi əlaqələr vasitəsilə, eyni zamanda həm dövlət orqanları, həm də ictimai və xüsusi idarə və korporasiyalarla (banklar, ticarət firmaları, elmi təşkilat, dini cəmiyyətlər) həyata keçirilir. Nəhayət bu məqsəd və maraqlar silahlı qüvvədən istifadə etməklə də həyata keçirilir. Bu qüvvə dövlətin quruluşundan və onun xarici siyasətinin xarakterindən asılı olaraq həm təcavüzkar məqsədlərə, həm də

təcavüzdən müdafiə məqsədlərinə xidmət edə bilər.

D. dövlətin xarici siyasət vasitələri içərisində xüsusi yer tutur. D.-ın yeganə vəzifəsi dövlətin xarici siyasət məqsədlərini həyata keçirməkdən və bunun üçün cavab olan üsul və yolların müəyyən olunmasından ibarətdir. D.-nın vəzifəsi təkcə hökumətlər arasında rəsmi əlaqə formalarından məharətlə istifadə etməkdən və bu çərçivəsində xarici dövlətlərə lazımi siyasi təsir göstərməkdən ibarət deyil, həm də bu formaları dövlətin qarşıya qoyduğu xarici siyasət məqsədlərinə nail olmaq üçün xarici siyasət vasitələri ilə uyğunlaşdırmaqdır. Diplomatik fəaliyyətin başlıca formaları aşağıdakılardır: 1) konfranslar, konqreslər *(Beynəlxalq konfranslar və Beynəlxalq konqres)* və müşavirələr, yəni dövlət, hökumət başçıları və ya xarici işlər nazirindən tutmuş müxtəlif dərəcəli diplomatik əməkdaşlar arasından seçilmiş xüsusi səlahiyyətli şəxslərədək, dövlət nümayəndələrinin mütəmadi görüşləri; 2) müraciət, məktub, nota *(Diplomatik nota), memorandum* və s. vasitəsilə *diplomatik yazışma*; 3) dövlətlərarası münasibətlərin ən müxtəlif məsələlərini nizamlayan ikitərəfli və çoxtərəfli *beynəlxalq müqavilə* və sazişlərin hazırlanması və imzalanması; 4) xaricdə dövlətin onun *səfirlikləri* və *diplomatik missiyaları* tərəfindən gündəlik təmsil olunması və onların gəldikləri ölkənin diplomatik idarəsi ilə siyasi və digər danışıqların aparılması; 5) dövlət nümayəndələrinin ümümi missiyası və xüsusi, regional *beynəlxalq təşkilatların* fəaliyyətində iştirakı; 6) bu və ya digər xarici siyasət məsələsinə dair hökumətinin mövqeyinin mətbuatda işıqlandırılması; 7) mühüm beynəlxalq hadisələr haqda rəsmi məlumatın nəşr olunması, beynəlxalq akt və sənədlərin rəsmi şəkildə dərci edilməsi.

Diplomatik fəaliyyətə ümumi rəhbərlik hökumət tərəfindən, bilavasitə rəhbərlik isə hökumətin məsul üzvünün (xarici işlər naziri) rəhbərlik etdiyi xüsusi *Xarici İşlər İdarəsi* tərəfindən həyata keçirilir.

Müəyyən xarici siyasət məsələlərinə nail olmaq üçün D.-nın istifadə etdiyi metodlar, yəni hökumətə, rəsmi nümayəndədələrə, eləcə də nüfuzlu siyasi dairələr və xarici dövlətlərin ictimaiyyətinə təsir vasitələri o qədər müxtəlifdir ki, onlar hər-hansı qəti müəyyən olunmuş təsnifata sığmırlar. Diplomatik metodların konkret xarakteri zamandan, məkandan və şəraitdən asılıdır. Diplomatik fəaliyyət metodları mövcud vəziyyətin dəyişilməsi ilə bağlı müəyyən məqsədlərə nail olmağa yönəlib və daima dəyişkən şəraitdə tətbiq olunur. Onlar heç də standart qaydalar yaratmırlar, çünki bu metodların köməyi ilə D.-nın qarşıya qoyduğu xarici siyasət məqsədlərinə nail olması müəyyən dərəcədə metodları tətbiq edən şəxslərin konkret hərəkət tərzlərindən də asılıdır. Uzun tarixi təcrübə nəticəsində istifadə olunan diplomatik metodlar şəraitin dəyişilməsi ilə bağlı olaraq zənginləşir və təkmilləşir.

Diplomatik dərsliklərdə və diplomatiya tarixinə dair kitablarda D. çox vaxt gah «beynəlxalq münasibətlər haqqında elm», gah da «danışıqlar sənəti» kimi müəyyən olunur. Bəzən D.-ya bir elm kimi də yanaşılır. Məs., alman siyasətçi - hüquqşünası Q.Martens D.-aya belə tərif vermişdir: «Diplomatiya xarici əlaqələr və ya dövlətlərin xarici işləri haqqında elmdir, daha dar mənada isə danışıqlar elmi və sənətidir». Fransız diplomatı Q.Qarden isə demişdir: «diplomatiya – bu terminin geniş mənasında dövlətlərin qarşılıqlı münasibətləri və maraqları haqqında elmdir və ya xalqların maraqlarını qarşılıqlı şəkildə razılaşdırmaq sənətidir, daha dəqiq mənada isə – danışıqlar elmi və ya sənətidir». «Siyasi realizm» məktəbinin banisi H.Morqentau hesab edir ki, D. elmi dörd elementdən ibarətdir: 1) D. həqiqətən və potensial olaraq sərəncamında olan qüvvəni nəzərə almaqla öz məqsədlərini müəyyən etməlidir; 2) D. digər ölkələrin məqsədlərini və bu məqsədləri həyata keçirmək üçün həqiqətən və potensial olaraq malik olduğu qüvvəni nəzərə almalıdır; 3) D. müəyyən etməlidir ki, bu müxtəlif məqsədlər hansı səviyyədə bir-biri ilə uyğunlaşa bilərlər; 4) D. bu məqsədlərin həyata keçirilməsi üçün münasib vasitələrdən istifadə etməlidir. H.Morqentaunun fikrincə D.-nın sərəncamında üç vasitə vardır: inandırma, kompromis və hədə-qorxu. O, yazır: «Diplomatiya sənəti ondan ibarətdir ki, hər bir konrket şəraitdə sərəncamında olan bu üç vasitənin hər-hansı birindən istifadə edə bilsin».

Diplomatik fəaliyyət bir sıra elmlərə: beynəlxalq münasibətlər tarixinə, ayrı-ayrı ölkələr tarixinə, dünya təsərrüfatı və ayrı-ayrı ölkələrin iqtisadiyyatının öyrənilməsi ilə bağlı olan iqtisadi elmlərə, *beynəlxalq hüquqa* və ayrı-ayrı ölkələrin dövlət hüququna və müxtəlif ölkələrin daxili həyatının ayrı-ayrı hadisələrini və beynəlxalq həyatın ümumi durumunu qiymətləndirmə üçün zəruri olan digər biliklərə əsaslanmalıdır. Çünki belə qiymətləndirmə olmadan D. dövlətin xarici siyasət məqsədlərini həyata keçirməyə nail ola bilməz.

Diplomatik fəaliyyət bir sənətdir, buna görə də o elmi dəlillərə əsaslanmalıdır. Diplomatın xarici əlaqələrdə tətbiq olunan forma və metodlardan istifadə etmək bacarığı diplomatik fəaliyyətinin müvəffəqiyyətinin mühüm şərtidir.

**DIVIDE ET IMPERA** (lat. «parçala və hökmranlıq et»). Qədim Roma qəsbkarlarının prinsipi; müstəmləkə işğalları və yarımmüstəmləkə ölkələrinin nüfuz dairələrinə bölüşdürülməsi dövründə istilaçı dövlətlərin praktikasında istifadə olunub. İmperialist dövlətlərin hakim dairələri milli azadlıq qüvvələrini parçalamaq məqsədilə bu prinsipi tətbiq edir, *azad olmuş ölkələrə* qarşı yeni müstəmləkəçilik siyasəti yürüdürlər.

**DİYEQO-QARSİYA.** Hind okeanının mərkəzi hissəsində yerləşən Çaqos arxipelaqında ada; Mavrikiyə məxsus olmasına baxmayaraq, Böyük Britaniya 1965 ildə adanı öz ərazisi elan etmişdir. 1966 ildə onu ABŞ-a 50 illik icarəyə verib. O vaxtdan ABŞ Diyeqo-Qarsiyanı Hind okeanında özünün ən iri *hərbi bazasına* çevirmişdir.

1982 ilin iyulunda Mavriki parlamenti Diyeqo-Qarsiya adasını ölkənin ayrılmaz hissəsi elan edən qanun layihəsini bəyənib.

**DİZRAELİ BENJAMİN (LORD BİKONSFİLD)** (1804-1881). Böyük Britaniyanın dövlət xadimi və yazıçısıdır. Hal-hazırda da ölkədə ən nüfuzlu siyasi qurumlardan biri olan mühavizəkarlar partiyasının yaradıcılarından biridir. 1874-1880 illərdə Böyük Britaniyanın baş naziri vəzifəsində çalışmışdır. Gizli *diplomatiyanın* ən böyük ustalarından biri hesab olunan Dizraili 1875 ildə Süveyş kanalının aksiyalarının 40%-ni Misirdən ala bilmiş və dünyanın ən məşhur su arteriyalarından biri olan bu kanalı nəzarətdə saxlamışdır. Osmanlı

dövlətinin parçalanması hesabına Böyük Britaniya imperiyasının genişlənməsində son dərəcə böyük rol oynamışdır.

**DMİTROV GEORGİ MİXAYLOVİÇ** (1882-1949). Beynəlxalq kommunist və fəhlə hərəkatının liderlərindən biri, Bolqarıstan Xalq Respublikasının partiya və dövlət xadimi.

1902 ildə Bolqarıstan Fəhlə Sosial-Demokrat Partiyasına daxil olmuş, onun inqilabi-marksist qanadına qoşulmuşdur.

Böyük Oktyabr sosialist inqilabından sonra sovet respublikasının müdafiəçisi kimi çıxış etmişdir. 1921 ildə Kominternin III Konqresinin işində iştirak edib. IX.1922 ildə antifaşist silahlı üsyana başçılıq etmiş, üsyan yatırılandan sonra xaricə getmişdir.

1933 ildə reystaqın yandırılması üzrə saxta ittihamla Berlində həbs olunmuşdur. 1934-1945 illərdə SSRİ-də yaşayıb.

1942 ildə Bolqarıstan Vətən cəbhəsi *yaradılmasının* təşəbbüsçüsü və başçısı olmuş, faşist qəsbkarları əleyhinə mübarizədə və 1944 il inqilabının qələbəsində mühüm rol oynamışdı. 1946 ildə Nazirlər Sovetinin sədri, 1948 ildə BKP MK-nın Baş katibi olmuşdur. 1948 ildə dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında sovet-bolqar müqaviləsini (*Beynəlxalq müqavilə*) imzalamışdır.

**«DOMİNO» NƏZƏRİYYƏSİ.** *«Soyuq müharibə»* dövründə meydana gəlib. İstənilən bir ölkədə siyasi rejimin süqut etməsi, qonşu ölkələrdəki oxşar rejimlərin iflasa uğramasına səbəb olacağını nəzərdə tuturdu. Keçən əsrin 70 illərində bir sıra ABŞ siyasətçiləri və elm xadimləri, beynəlxalq aləmdəki dəyişiklikləri nəzərə alaraq «domino» nəzəriyyəsinin öz əhəmiyyətini itirdiyini və mövcud reallıqlara cavab vermədiyini bildirdilər.

**DÖRDLƏR İTTİFAQI.** Avstriya-Macarıstan, Almaniya, Bolqarıstan və Türkiyənin daxil olduğu hərbi *koalisiya*. *Birinci dünya müharibəsində Antantaya* qarşı durmuşdu. *Müharibənin* sonuna qədər mövcud olmuş və üzv dövlətlərin məğlub olması ilə əlaqələr dağılmışdı.

**DÖVLƏT BAŞÇISI.** Dövlətin idarə olunmasında daxili qayda funksiyaları ilə yanaşı, dövlətin xarici əlaqələr sahəsində yüksək səviyyədə təmsil olunmasını həyata keçirən şəxsdir. Xarici əlaqələr sahəsində D.b.-nın səlahiyyətləri – diplomatik nümayəndələri təyin etməkdən *(akkreditə etmək)* və qəbul etməkdən, *beynəlxalq müqavilələri ratifikasiya* və *denosasiya* etməkdən, *müharibə* və ya müharibə vəziyyətinin elan olunmasından və s. ibarətdir. Xarici əlaqələr sahəsində D.b.-nın *səlahiyyətləri dövlətin daxili qanunvericiliyi* ilə, hər şeydən əvvəl konstitusiyası ilə müəyyən olunur. Bu səlahiyyətlərin bir çoxu parlamentin ilkin razılığı ilə həyata keçirilir. Müxtəlif ölkələrdə D.b. dövlətin siyasi quruluşunun xüsusiy yətlərindən, onun tarixi inkişafından, ənənələrindən asılı olaraq bu və ya digər dərəcədə bu səlahiyyətlərə malikdir.

Bir çox ölkələrdə D.b.-nın (*prezident*, kral və s.) səlahiyyətlərinə bir sıra məhdudiyyətlər qoyulmuşdur. Məs., ABŞ konsitusiyasına görə D.b.-prezident senatın razılığı və məsləhəti ilə *səfir* və *konsul* təyin etmək, beynəlxalq müqavilələr imzalamaq hüququna malikdir. Bu sənədləri senat ratifikasiya edir. Lakin prezident ona verilən ratifikasiyaya ehtiyacı olmayan icraedici sazişlər imzalamaq hüququndan geniş istifadə edir. Müharibə elan etmək hüququ rəsmən *Konqresin* əlindədir, lakin Amerika prezidentləri dəfələrlə öz qoşunlarını konqresin sanksiyası olmadan müxtəlif ölkələrdə hərbi əməliyyatlara göndərmişlər. Eyni zamanda konqresin bir sıra *qətnamələri* ilə prezidentə xaricdə əməliyyat məqsədilə amerikan qoşunlarından istifadə etmək hüququ verilmişdir. ABŞ prezidenti xarici əlaqələr sahəsində olduqca geniş səlahiyyətlərə və imkanlara malikdir.

Böyük Britaniyada D.b. monarx hesab olunur. Lakin daxili siyasətdə olduğu kimi, *xarici siyasətdə* də monarx onun adından dövləti idarə edən hökumətin və parlamentin razılığı olmadan heç bir addım ata bilməz. Parlament sülh və müharibə məsələlərinə dair qanunlar qəbul edir, bütün vacib müqavilələri və sazişləri monarxın ratifikasiyasından əvvəl təsdiq edir. Monarxın parlament tərəfindən qəbul olunmuş qanun layihəsini qəbul etməmək kimi müstəqil səlahiyyət hüququ saxlanılsa da, bu hüquqdan artıq çoxdandır ki, istifadə olunmur. Axırıncı dəfə monarx 1704-cü ildə bu hüquqdan istifadə etmişdi.

D.b. beynəlxalq məsələlərə dair digər dövlət başçıları ilə şəxsən görüşə, əlaqə yarada və danışığa girə bilər. Özünün xarici siyasət addımlarında və çıxışlarında o **ex officio dum in officio** (vəzifəcə və vəzifədə olduğu müddətdə) nümayəndəsi olaraq xüsusi səlahiyyətlərə ehtiyac duymur. D.b. və D.b. vəzifələrini yerinə yetirən kollegial orqan xarici *dövlətin ərazisində* olarkən bütün *diplomatik imtiyaz və toxunulmazlıq hüququndan* istifadə edir. Ona adətən xüsusi ehtiram göstərilir. D.b.-nı müşayət edən şəxslər də diplomatik immunitet və imtiyazlardan istifadə edirlər.



**DÖVLƏT BAYRAĞI.** *Dövlətin suverenlik* simvolu. Dövlət bayrağının etiketi tələb edir ki, onun ölçüsü və forması qanunda şərh edilmiş parametrlərə tam uyğun olsun. D.b. xarici ölkələrdəki *diplomatik nümayəndəliklərin* binaları üzərində və həmçinin nümayəndəliklərin başçılarının *(Diplomatik başçılıq)* xidməti nəqliyyat vasitələrinə sancılır. Bayraq sutka ərzində qaldırılmış vəziyyətdə olarsa, gecələr mütləq işıqlandırılmalıdır. D.b.-dan istifadə müəyyən *protokol* qaydaları çərçivəsində icra olunur ki, onlara ciddi riayət edilməlidir. Yüksək səviyyəli xarici qonaq rəsmi görüşə gələrkən onun şərəfinə D.b.-ları qaldırılır. Qonağın təmsil etdiyi ölkənin D.b.-ı sağ tərəfdə, ev sahibinin D.b.-ı isə sol tərəfdə sancılır. Bir neçə D.b. eyni vaxtda qaldırılarsa, D.b.-nın və bayraq ağaclarının ölçüsü bərabər olmalıdır. D.b.-lar ölkələrin adlarına uyğun olaraq, sağdan sola əlifba üzrə sancılmalıdır. D.b.-lar sıra ilə yerləşdirilir, onların üst-üstə sancılması məqbul deyil. Matəm günlərində D.b. axıradək qaldırılıb, sonra yavaş-yavaş yarıyadək endirilir. Qaldırılmış halda D.b. yerə, divara və evin damına toxunmamalıdır. D.b.-ın zahiri görünüşü səliqəli olmalı, onun parçası saf, qırışsız və ləkəsiz olmalıdır, üzərinə kənar *şey sancılmamalıdır*.

D.b.-na ehtiram göstərilir. Təntənəli mərasimlərdə D.b. hərbçilərin yanından keçiriləndə, ona əsgəri salam verilir, mərasimdə iştirak edən mülki şəxslər isə papaqlarını çıxarırlar. Mərasim binanın daxilində keçiriləndə D.b. gətirilərkən və çıxarılarkən ehtiram əlaməti olaraq hamı ayağa qalxır.

D.b.-nın təhqir olunması dövlətlərarası münasibətlərin gərginləşməsinə və hətta *diplomatik münasibətlərin kəsilməsinə* gətirib çıxara bilər.

**DÖVLƏT DƏNİZ TİCARƏT GƏMİLƏRİNİN TOXUNULMAZLIĞI.** Suveren dövlətin *(Dövlətin suverenliyi)* ona məxsus dəniz gəmilərinə münasibətdə hüququna hörmət edilməsi ilə bağlı *beynəlxalq dəniz hüququnun* prinsipi; bu prinsip nəzərdə tutur ki, bayrağın *(Dövlət bayrağı)* mənsub olduğu dövlətin razılığı olmadan həmin gəmilərə münasibətdə heç bir icbari tədbirə (ələlxüsus da iddianı təmin etmək, yaxud məhkəmə qərarının icbari icrası qaydasında) əl atmaq olmaz.

**DÖVLƏTİN ƏRAZİSİ.** Nəzərdə tutulan *dövlət sərhədləri* hüdudunda yerləşən və onun *suverenliyi* altında olan Yer kürəsi səthinin bir hissəsi.

Öz tərkibinə görə dövlət ərazisi quru, su və hava məkanlarına bölünür. Dövlətin quru ərazisi həmin dövlətin suverenliyi altında olan bütün quru sahəni (ayrı-ayrı hissələrinin harada yerləşməsindən asılı olmayaraq) əhatə edir.

Dövlətin su ərazisi həmin dövlətin *daxili suların* və *ərazi sularını* (arxipelaq-dövlətdə - onun arxipelaq sularını) ehtiva edir.

Dövlətin öz quru və su əraziləri üzərindəki hava məkanı həmin dövlətin hava ərazisi sayılır (*Kosmos hüququ*).

D.ə.-nin bəzi hissələrində *beynəlxalq müqavilə* əsasında xüsusi beynəlxalq hüquqi rejim qoyula bilər.

D.ə. toxunulmazdır. Ərazi toxunulmazlığının prinsipləri bütövlükdə bir çox beynəlxalq sənədlərdə, o cümlədən, *BMT Nizamnaməsində*, *BMT Nizamnaməsinə* uyğun olaraq, dövlətlərarası dostluq münasibətləri və əməkdaşlığa dair *beynəlxalq hüququn* prinsipləri barədə *Bəyannamədə* (1970) təsbit olunmuşdur.

**DÖVLƏT GÖRÜŞLƏRİ.** *Beynəlxalq münasibətlərin* inkişafına, kəskin və mürəkkəb məsələlərin təcili nüfuzlu həllinə kömək edən dövlətlərarası siyasi fəaliyyətin mühüm formalarından biri. *Dövlət başçıları və hökumət başçılarının*, yüksək səviyyəli rəsmi nümayəndə heyətlərinin görüşləri bu qəbildəndir. *Diplomatik protokola* uyğun olaraq, D.g. təsnifatlandırılır, müvafiq keçirilmə qaydalarına və mərasim tərzinə malik olur.

**DÖVLƏT İMMUNİTETİ.** Bir dövlətin digər xarici *dövlətin yurisdiksiyasından* immuniteti. *Beynəlxalq hüququn* ümumi qəbul olunmuş prinsipidir. D.i. bütün dövlətlərin bərabərliyi və *dövlət suverenliyi* prinsiplərindən irəli gəlir. D.i. xarici dövlətə və ona məxsus əmlaka edilir. Beynəlxalq hüquq nəzəriyyəsində və beynəlxalq təcrübədə adətən bir neçə növ D.i. vardır. Məhkəmə D.i. *ondan ibarətdir ki, dövlət, birbaşa razılıq* verməsi istisna olunmaqla cavabdeh kimi digər dövlətin məhkəməsinə cəlb edilə bilməz. İddianın ilkin təmin olunmasından D.i. ondan ibarətdir ki, dövlət əmlakı iddianın təmin olunma vasitəsi ola bilməz. İcradan D.i. ondan ibarətdir ki, dövlət əmlakı məhkəmə və ya *arbitraj* qərarının məcburi icra edilməsi qaydasında müsadirə edilə bilməz. Eyni qaydada dövlət dəniz gəmilərinə məcburi tədbirlər tətbiq edilə bilməz (o cümlədən, iddianın təmin olunması qaydasında və ya artıq verilmiş məhkəmə qərarlarının məcburi yerinə yetirilməsi qaydasında həbs oluna bilməz).





**DÖVLƏTİN XARİCİ YURİSDİKSİYA TOXUNULMAZLIĞI.** *Beynəlxalq hüququn* hamılıqla tanınan prinsipi; *dövlətlərin suverenliyinə* və suveren bərabərliyinə dair *BMT Nizamnaməsində* təsbit olunmuş prinsipdən irəli gəlir. Dövlətlərin suveren bərabərliyi və müstəqilliyi onların barəsində hər hansı dövlətə öz hakimiyyətini diqtə etməyə yol vermir. D.x.y.t. prinsipi həm xarici dövlətə, həm də onun əmlakına şamil edilir. Xarici dövlət, onun öz razılığı olduğu hallardan başqa, cavabdeh qismində digər dövlətin məhkəməsinə cəlb edilə bilməz.

Xarici dövlət iddiaçı ola bilər. Lakin xarici dövlətə - iddiaçıya onun razılığı olmadan müqabil iddia irəli sürülə bilməz. D.x.y.t. o deməkdir ki, xarici dövlətin əmlakı iddianın təmin edilməsi və ya xarici məhkəmə qərarının məcburi yerinə yetirilməsi qaydasında heç bir zorakı tədbirlərə (həbs, zəbt) məruz qala bilməz. Bu cür tədbirlər yalnız əmlak sahibi olan dövlətin razılığı ilə həyata keçirilə bilər. D.x.y.t. *onun xarici ölkələrdə fəaliyyət göstərən* ticarət nümayəndəlikləri, ticarət gəmiləri və s. dövlət strukturları da bəhrələnirlər.

**DÖVLƏTİN SUVERENLİYİ.** Dövlətin öz ərazisində tam qanunvericilik, icra və məhkəmə hakimiyyəti; D.s. hər cür xarici hakimiyyətin təsirini rədd edir. *Suverenlik* dedikdə, dövlətin *beynəlxalq münasibətlərdə* xarici dövlətin rəsmilərinə tabe olmaması başa düşülür. (Əlbəttə, dövlətin öz suverenliyini *(Dövlətin suverenliyi)* məhdudlaşdırmaq barədə açıq və könüllü şəkildə razılığı yoxdursa). Prinsip etibarilə D.s. həmişə bütöv və qəti xarakter daşıyır. Suverenlik - dövlətçiliyin ayrılmaz xassələrindən biridir.

D.s. anlayışı *beynəlxalq hüququn* hamı tərəfindən tanınmış prinsiplərinə, o cümlədən dövlətlərin suveren bərabərliyi prinsipinə, dövlətlərin suveren bərabərliyinə qarşılıqlı hörmət prinsipinə, dövlətlərin bir-birinin daxili işlərinə *qarışmamaq prinsipinə* əsaslanır.

D.s.-i anlayışı suveren hüquqlar anlayışı ilə sıx bağlıdır. Dövlətin suveren hüquqları dedikdə, suverenliyin mahiyyətindən irəli gələn konkret dövlət hüquqları, yəni dövlətin nəinki öz milli ərazi hüdudlarında, həm də ondan kənarda fiziki və hüquqi obyektlərə və şəxslərə öz hakimiyyətini şamil etməsi başa düşülür. Sonuncu halda dövlətlərin suveren hüquqları *beynəlxalq müqavilələrlə* təsbit edilir. Dövlətin konkret suveren hüquqlarından biri onun yurisdiksiya (hüquqi səlahiyyət) təminatıdır (məs. milli ərazi hüdudlarından kənarda özünəməxsus dəniz və hava gəmilərinə, kosmik obyektlərinə münasibətdə).

**DÖVLƏTİN YURİSDİKSİYASI.** Faktlara *hüquqi qiymət verməkdə, sanksiyalar* tətbiq etməkdə, hüquqi mübahisələrin həllini tapmaqda, hər hansı hüquqi məsələni yoluna qoymaqda dövlət orqanlarına verilən səlahiyyət; bu istilah həm də səlahiyyətli olmanı, məhkəmə aidiyyətini, nəzarətə götürməni, mühafizəni, işi və sahə dairəsini müəyyənləşdirməkdə istifadə olunur. Dövlət özünün ərazi hüdudlarında *(Dövlətin ərazisi)* öz yurisdiksiyasını (müvafiq *beynəlxalq müqavilələrlə* başqa cür nəzərdə tutulan hallardan savayı) tam həcmdə həyata keçirir. Dövlət öz ərazisinin hüdudlarından kənarda yerləşən

bəzi rayonlarda məhdud və dar yurisdiksiya hüququna malik ola bilər.

**DÖVLƏT KATİBİ** *(in. Secretery of state).* Amerika və Avropanın bir sıra dövlətlərində yüksək vəzifəli dövlət məmuru. Bəzi ölkələrdə, xüsusilə də ABŞ-da dövlət departamentinin başçısı, xarici işlər nazirinə uyğun gələn vəzifəli şəxsdir. ABŞ- D.k.-nin vəzifələrinə xarici siyasət məsələlərinə rəhbərliklə yanaşı qanunlarının nəşr edilməsi də daxildir. Yeni *prezident* seçkilərinədək prezident yeri – əgər prezident ölərsə, bu və ya digər səbəbdən prezident və vitse-prezident istefaya gedərsə – boş qaldıqda D.k. konstitusiya qanunlarına müvafiq olaraq avtomatik ABŞ prezidenti olur. D.k. senatın razılığı ilə prezident tərəfindən təyin edilir. O, hökumətin digər üzvləri kimi nə nümayəndələr palatasının üzvü, nə də senator ola bilməz. D.k. *Konqres* qarşısında deyil, prezident qarşısında məsuliyyət daşıyır.

İngiltərədə D.k.-ləri (statssecretar) Britaniya Birliyi üzrə nazir, aviasiya naziri, xarici işlər naziri, daxili işlər naziri, Şotlandiya işləri üzrə nazir, hərbi nazirdir.

**DÖVLƏTLƏRİN DAXİLİ İŞLƏRİNƏ QARIŞMANIN, ONLARIN MÜSTƏQİLLİYİNİ VƏ SUVERENLİYİNİ MƏHDUDLAŞDIRMANIN YOLVERİLMƏZLİYİNƏ DAİR BMT BƏYANNAMƏSİ** (1965). *BMT Baş Məclisinin* XX sessiyasında, SSRİ-nin təşəbbüsü ilə 21.XII qəbul edilib; *Bəyannamə qarışmamaq prinsipini* həm dövlətlər arasında münasibətlərə, həm də dövlətlərlə öz müqəddəratını təyin etmək hüququnu həyata keçirən millətlər və xalqlar arasında münasibətlərə şamil etməklə möhkəmləndirir və inkişaf etdirir. B ölkələrin, ələlxüsus müstəmləkəçilikdən yeni *azad olunmuş ölkələrin* müstəqil, sərbəst, normal-siyasi, iqtisadi, sosial və mədəni inkişafına şərait yaradılmasını zəruri hesab edir, bütün dövlətlərin, öncə *inkişaf etməkdə olan dövlətlərin* xaricdən təzyiq və məcburiyyət olmadan özlərinə xüsusi siyasi, iqtisadi və sosial təsisatlar seçmək hüququnu təsdiq edir.

B. aşağıdakı hərəkətlərə: hans. səbəbdən olursa-olsun başqa dövlətlərin daxili işlərinə qarışmağa: dövlətin hüquqi subyektivliyinə, yaxud onun siyasi, iqtisadi və mədəni elementlərinə zidd hərəkət etməyə; başqa dövlətə qarşı ondan hər hansı üstünlük əldə etmək məqsədilə icbari vasitələrə əl atmağa; zorakılıq yolu ilə başqa dövlətin ictimai quruluşunu dəyişdirməyə yönəldilən terror fəaliyyətini təşkil və ya təşviq etməyə; başqa bir dövlətdə daxili çəkişmələrə qarışmağa; xalqları milli mövcudluq formalarından məhrum etmək üçün onlara qarşı güc işlətməyə yol vermir.

**DÖVLƏTLƏRİN HÜQUQİ VARİSLİYİ.** Hüquq və vəzifələrin bir dövlətdən başqasına keçməsi; D.h.v. məsələsi inqilab nəticəsində, milli-azadlıq mübarizəsi sayəsində yeni müstəqil dövlətlər meydana gəldikdə, sələfin ərazisində bir neçə dövlət yarandıqda və ya iki yaxud daha çox dövlət bir dövlətdə birləşdikdə, habelə bir dövlətin ərazisinin bir hissəsi başqa dövlətə keçdikdə ortaya çıxır.

D.h.v. başlıca olaraq, *beynəlxalq müqavilələr*, dövlət mülkiyyəti, arxiv və borclar məsələsində, həmçinin *beynəlxalq hökumətlərarası təşkilatlara* üzvlük məsələsində həyata keçirilir.





**DÖVLƏTLƏRİN MƏDƏNİ ƏMƏKDAŞLIĞI.** Dövlətlər arasında əlaqə formalarından biri; xalqların müxtəlif mədəniyyət və elm sahələrindəki nailiyyətlərlə qarşılıqlı bəhrələnməsinə xidmət edir. D.m.ə. ifaçılıq və təsviri incəsənəti, kino, televiziya, radio, ədəbiyyat, kitab nəşri və müəllif hüquqlarının qorunmasını, idman və turizm sahələrində mübadiləni, elm, təhsil, səhiyyə, ictimai təminat sahələrində əməkdaşlığı, ictimai təşkilatlar, qardaşlaşmış şəhərlər və s. arasında əlaqələr yaradılmasını ehtiva edir.

**DÖVLƏTLƏRİN SUVEREN BƏRABƏRLİYİ.** *Beynəlxalq hüququn* əsas prinsiplərindən biri; bu prinsipə müvafiq olaraq, bütün dövlətlər eyni hüquq və vəzifələrə malikdir, iqtisadi, sosial və siyasi sistemlərindən asılı olmayaraq, beynəlxalq birliyin bərabərhüquqlu üzvləridirlər. D.s.b. prinsipi *BMT Nizamnaməsində, 1970 il Beynəlxalq hüququn prinsipləri haqqında Bəyannamədə, Avropada Təhlükəsizlik və Əməkdaşlığa dair müşavirənin yekun aktında (Yekun akt)* və s. beynəlxalq sənədlərdə təsbit edilmişdir. D.s.b. prinsipi aşağıdakı cəhətləri özündə ehtiva edir: dövlətlər hüquqi baxımdan bərabərdirlər; hər dövlət tam *dövlət suverenliyinə* xas hüquqlardan istifadə edir; hər dövlət digər dövlətin suveren subyekt olmasına hörmət etməlidir; dövlətin ərazi bütövlüyü və siyasi müstəqilliyi toxunulmazdır; hər dövlət özünün siyasi, sosial, iqtisadi və mədəni sistemini azad surətdə seçmək və inkişaf etdirmək və eynilə də öz qanunlarını və inzibati qaydalarını müəyyənləşdirmək hüququna malikdir; hər dövlət özünün beynəlxalq təəhhüdlərinə tamamilə və vicdanla əməl etməli, başqa dövlətlərlə dinc şəraitdə yaşamalıdır.

**DÖVLƏTLƏRİN SUVEREN BƏRABƏRLİYİ PRİNSİPİ.** *BMT Nizamnaməsinin* 2-ci maddəsinin 1-ci bəndində öz birbaşa ifadəsini tapmış müasir *beynəlxalq hüququn* əsas prinsiplərindən biridir. Bu prinsipinin məzmunu iki ünsürdən ibarətdir: 1) hər bir dövlət tam *dövlət suverenliyinə* malikdir və öz siyasi və iqtisadi sistemini sərbəst və maneəsiz olaraq özü müəyyən edir. Hər bir dövlət bütün digər dövlətlərin suverenliyinə, o cümlədən ərazi bütövlüyünə hörmət etməlidir; 2) bütün dövlətlər ərazisinin *(Dövlətin ərazisi)* miqyasından, əhalisinin sayından, inkişaf səviyyəsindən və hərbi-siyasi potensialından asılı olmayaraq hüquqi cəşətdən bərabərdir. *Beynəlxalq təşkilatlarda*, bir qayda olaraq, hər bir dövlət bir səsə malikdir. Bu prinsip *BMT* Nizamnaməsinə uyğun olaraq dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa aid beynəlxalq hüquq prinsipləri haqqında 1970 il *Bəyannaməsində (Beynəlxalq hüququn prinsipləri haqqında Bəyannamə 1970)* öz əksini tapmışdır.

**DÖVLƏTLƏRİN UNİVERSAL XARAKTERLİ BEYNƏLXALQ TƏŞKİLATLARDA TƏMSİL OLUNMASINA DAİR VYANA KONVENSİYASI** (1975). – 4.II-14.III. Vyanada keçirilən *beynəlxalq konfransda* qəbul edilib. Konfrans həmçinin milli-azadlıq hərəkatlarının müşahidəçisinin *(Müşahidəçilər)* statusuna dair qətnamə və *beynəlxalq təşkilatların* gələcək işinə Vyana konvensiyasının tətbiq etməyə dair qətnamə qəbul etmişdir

Vyana konvensiyası beynəlxalq təşkilatlarda (*BMT*, BMT-nin ixtisaslaş-

dırılmış idarələri, *MAQATE* və s.), yaxud onların himayəsi altında keçirilən konfranslarda və daimi işlək orqanlarda dövlətlərin daimi nümayəndəliklərinin, nümayəndə heyətlərinin və müşahidəçilərinin beynəlxalq-hüquqi statusunu müəyyən edir. Təmsilçilərin imtiyaz və toxunulmazlığının əhatə dairəsi *Diplomatik əlaqələrə* dair 1961 il *Vyana konvensiyasına* əsasən, diplomatik agentlərə *(Diplomatik agentlik)* verilən immunitetlərə və imtiyazlara yaxındır *(Diplomatik imtiyazlar və toxunulmazlıq hüququ)*.

Vyana konvensiyası beynəlxalq təşkilatların orqanlarına və onların çağırdıqları konfranslara dövlətlərin göndərdikləri nümayəndə heyətlərinin başçısının *(Diplomatik başçılıq)* və üzvlərinin toxunulmazlığını, onların yerləşdikləri otaqların toxunulmazlığını, hər cür mükəlləfiyyətdən azad olmalarını nəzərdə tutur. Vyana konvensiyasının mühüm şərtlərindən biri də odur ki, göndərən dövlət qəbul edən dövlətin hər hansı bir formada razılığı tələb olunmadan nümayəndəliyin əməkdaşlarını özü istədiyi kimi təyin edir, nümayəndəliklərin, nümayəndə heyətlərinin poçtları *(Diplomatik poçt)* tam şəkildə toxunulmaz olur.

**DÖVLƏT MÜLKİYYƏTİNİN TOXUNULMAZLIĞI.** Mülkiyyət hüququ subyektinin - suveren dövlətin *(Dövlətin suverenliyi)* xüsusi statusu ilə şərtləndirilən əmlak hüququ rejimi; bu toxunulmazlıq *dövlətin immuniteti* ilə sıx bağlı olub, onun *suverenliyinin* təzahür hallarından biridir. Əmlak sahibi olan dövlətin razılığı olmadan mülkiyyət hər hansı məcburi tədbirə (həbs, məcburi özəlləşdirmə, zəbt və s.) məruz qala bilməz. Bir dövlətin məhkəməsində onun əmlakı ilə bağlı digər dövlətə iddia irəli sürülməsi yolverilməzdir.

Dövlət və ya onun orqanları, digər dövlətin hər hansı konkret əmlaka sahiblik hüququnun olub-olmaması məsələsini təhqiq edə bilməz.

*Dövlət mülkiyyətinin toxunulmazlıq* hüququ həm nəzəri, həm də praktik baxımdan geniş qəbul olunsa da, bəzi dövlətlərin hüquq elmində bu prinsipin məhdudlaşdırılmasına haqq qazandıran müxtəlif konsepsiyalar mövcuddur; məs., «ticarət edən dövlət», «funksional toxunulmazlıq», «məhdud toxunulmazlıq» və s.

**DÖVLƏT SƏRHƏDLƏRİ.** Dövlətin ərazi hüdudlarını *(Dövlətin ərazisi)* müəyyən edən hüquqi əsaslandırılmış şərti xəttlərdir. D.s. bir dövlətin ərazisini digər dövlətin ərazisindən və *açıq dəniz* sularından ayırır. Qonşu dövlətlər arasında sərhədlər müqavilə qaydasında müəyyən olunur; dövlətin dəniz sərhədləri qanunverici qaydada dövlət tərəfindən müəyyən olunur və onun *ərazi sularının* kənarından keçir.

Sərhədlərin keçmə xətləri dəqiqliklə müqavilədə təsvir olunur və xəritəyə köçürülür. Bu mərhələ *delimitasiya* adlanır. D.s.-nin keçməsi təbii zonalar nəzərə alınmaqla və ya alınmadan müəyyən oluna bilər. D.s.-nin keçmə xətlərinin xarakterindən asılı olaraq yer səthində oroqrafik, astronomik və geometrik sərhədlər müəyyən olunmuşdur. Oroqrafik sərhəd – yerin relyefi, dağlar, yüksəliklər, qayalar (yatağın ortası və ya farvaterlə) nəzərə alınmaqla müəyyən olunmuş xəttdir. Astronomik sərhəd meridian üzrə və ya coğrafi xətlər paraleli ilə keçən xətlərdir. Geometrik sərhədlər təbii zona və coğrafi xətlərdən asılı olmayan xətlərdir. Təcrübədə D.s.-nin keçmə xətləri kombinə edilmiş qaydada üstünlük təşkil edir.

D.s.-nin yerlərdə çəkilməsi *demarkasiya* adlanır. Demarkasiya danışığa gələn dövlətlərin nümayəndələrindən ibarət qarışıq komissiyalar tərəfindən həyata keçirilir. Demarkasiya delimitasiya haqda qərarlara müvafiq olaraq sərhəd işarələri ilə (ağac, daş, beton dirəklər, qapayıcı işarələr, dənizdə üzücü nişanlar və s.) qeyd olunur. Hər hansı təbii şəraitlə və ya müəyyən olunmuş yerin əhalisinin sosial-məişət maraqları (məs., D.s. tikililəri kəsib bölə bilməz, əhalini su mənbələrindən ayıra bilməz və s.) ilə əlaqədar istisna olaraq ayrıca delimitasiya mövqelərindən kənara çıxma hallarına yol verilir. D.s. xəttinin yerlərdə aydın işarə olunması mühüm praktik əhəmiyyət daşıyır, buna görə də lazım gəldikdə dövlət D.s.-nin redemarkasiyasını – əvvəllər demarkasiya olunmuş sərhədlərin bərpa olunması və ya pozulmuş sərhəd işarələrini yeniləri ilə əvəz etməklə və əlavə sərhəd işarələri qoymaqla yoxlanılmasını həyata keçirir. Demarkasiya olunmuş D.s.-nin dəyişdirilməsi ancaq dövlətlər arasında razılaşmaya əsasən mümkündür.

Müasir *beynəlxalq hüquq* sərhədlərin dəyişdirilməsinə aşağıdakı əsaslar olduqda yol verir. Birinci bi, xalqlar və millətlərin öz müqəddəratını təyin etmək hüququnu həyata keçirmə prosesi ilə bağlı dövlətlərin və xalqların birləşməsi və ya bölünməsi şəklində baş verir, bu da yeni sərhədlərin meydana çıxmasına və köhnələrinin ləğv olunmasına səbəb olur. İkinci halda sərhəd dövlətləri tərəfindən sərhəd xəttlərinin daha rahat keçməsini müəyyən etmək məqsədilə kiçik torpaq sahələri ilə mübadilə edildikdə mümkündür. Üçüncü halda, kiçik torpaq sahələri dənizi olmayan dövlətə kompensasiya əsasında (üzmək hüququ verildikdə, pul kompensasiyası ödənildikdə) güzəştə gedilə bilər.

Dövlətin ali hakimiyyəti D.s. çərçivəsində həyata keçirilir. D.s. toxunulmazdır. D.s.-nin pozulması suveren dövlətə *(Dövlətin suverenliyi)* qəsd kimi nəzərdən keçirilir və beynəlxalq hüquqla qadağan olunub. D.s-nin pozulması çox vaxt sərhəd münaqişələrinə, konfliktlərə - sərhəd keşikçilərinin və qonşu dövlətin hakimiyyət orqanlarının bəzən böyüyüb diplomatik münaqişəyə çevrilən kiçik toqquşmalarına səbəb olur.

D.s.-nin qorunması məqsədilə sərhəd yerlərində həm dövlətlərin *birtərəfli aktları* ilə, həm də beynəlxalq sazişlərlə xüsusi sərhəd və əhalinin davranışı müəyyən olunur.

D.s. haqda məsələ bütün xalqların və millətlərin onların həyati maraqları və təhlükəsizliyi nəzərə alınmaqla, öz müqəddəratını müəyyən etmək prinsipini tanımaq və hörmət etmək əsasında həll olunmalıdır. D.s.-nin zorakı yolla dəyişdirilməsi *ilhaqın* bir formasıdır və beynəlxalq hüququn kobud şəkildə pozulmasıdır.

**DÖYÜŞƏN TƏRƏF.** *Müharibə* qanunları və qaydalarını müəyyənləşdirən hüquq və vəzifələrin subyekti, müharibə vəziyyətində olan tərəf. D.t. beynəlxalq və daxili münaqişələr baxımından fərqlənir. Birincilərə dövlətlər və milli-azadlıq mübarizəsi aparan xalqlar, ikincilərə vətəndaş müharibəsindəki tərəflər aiddir.

D.t.-in beynəlxalq münaqişədə beynəlxalq-hüquqi statusu müharibənin başlanması ilə, daxili münaqişədə isə tərəflərin vətəndaş müharibəsində döyüşən tərəf kimi beynəlxalq aləmdə tanınmasından sonra meydana çıxır.

D.t.-in və bitərəf dövlətlərin *(Bitərəflik)* müharibə qanunlarına və adətlərinə riayət etmələri məcburidir.

Vətəndaş müharibəsində tərəfin döyüşən tərəf kimi tanınması ona *beynəlxalq münasibətlərdə* D.t.-ə aid edilən bütün hüquqlar kompleksindən istifadə etməyə və eləcə də *beynəlxalq hüququn subyektləri* ilə müqavilə münasibətləri yaratmağa imkan verir.

*İkinci Dünya müharibəsi* zamanı Fransanın D.t. kimi SSRİ və digər *antihitler koalisiyası* dövlətləri tərəfindən tanınması onunla ittifaq müqavilə münasibətləri yaratmağa əsas vermişdir. F.Marti adına Milli Azadlıq Cəbhəsini və Salvador İnqilabi Demokratik Cəbhəsini «səlahiyyətli siyasi qüvvə kimi» tanıyan 1981 *il* Fransa-Meksika Birgə bəyanatı D.t. kimi tanınmanın özünəməxsus təzahürüdür *(Beynəlxalq hüquqi tanınma)*.

**DRAQOMAN.** Şərq ölkələrində *diplomatik nümayəndəliklərdə* və *konsul idarələrində* fəaliyyət göstərən rəsmi tərcüməçi. Bu ölkələrdə qəbul olunmuş qaydalara görə, D *diplomatik korpusun* tərkibinə daxil edilirdi. Hazırda D istilahı beynəlxalq təcrübədə geniş tətbiq olunmur.

**DUAYEN** (*fr. doyen* – dekan, başçı, birinci) . *Diplomatik korpusda* öz həmkarları arasında *Etimadnaməsini* birinci olaraq təqdim edən və diplomatik korpusa başçılıq *(Diplomatik başçılıq)* edən birinci dərəcəli diplomatik nümayəndədir (*səfir* və ya *nunsidir*).

1815-ci *il Vyana konqresi* diplomatik nümayəndələr arasında birincilik məsələsini həll etmiş və «Birinci gələn birincidir» prinsipini müəyyən etmişdi. Bu prinsipə əsasən diplomatik nümayəndənin başçılığı onun təmsil etdiyi dövlətin böyüklüyündən və gücündən deyil, diplomatın bu ölkədə olma müddətindən asılı idi.

D.-nin, eləcə də diplomatik korpusun vəzifələri rəsmi xarakter daşıyır. Bu vəzifələr *Diplomatik əlaqələrə* dair 1961-ci il *Vyana konvensiyasında* nəzərdə tutulmuş məsələlər dairəsindən kənara çıxmamalıdırlar. Təcrübəli *diplomat* kimi D.-nin məsləhətləri yeni gəlmiş diplomatlar üçün çox vacibdir. D., bir qayda olaraq yerli *protokol* məsələlərinə, adətlərə, hakimiyyət orqanlarına, *Xarici İşlər İdarəsi* ilə qarşılıqlı münasibətlərə dair hərtərəfli məlumatlara malik olur. Diplomatik korpusdakı həmkarları ilə razılaşdırılmış qaydada D. olduqları ölkənin hökumətini diplomatik korpus adından təbrik edir, *başsağlığı* verir, lazım gəldikdə müxtəlif mərasimlərdə diplomatik korpusa rəhbərlik edir, yerli protokol praktikasına aid məsələlərə dair öz həmkarlarına məsləhətlər və tövsiyyələr verir, müxtəlif protokol tədbirlərinə, mərasimlərdə iştirak etməyə dair xarici işlər idarəsinin arzu və istəkləri barədə diplomatik korpusa məlumat verir. D. xarici işlər idarəsi və onun protokol şöbəsi ilə daimi əlaqə saxlayır, diplomatik korpusun iştirakı ilə müxtəlif mərasimlərin təfərrüatlarını dəqiqləşdirir. Bəzən *diplomatik korpusun duayeni* diplomatik korpusun prokolla (mərasimlə) əlaqədar hüquq və imtiyazlarının qorunması ilə bağlı çıxışlar edir; məsələn, diplomatik korpus üzvlərinin yerli hakimiyyət orqanları nümayəndələrinə münasibətdə birinciliyi, diplomatik korpusun hər-hansı mərasimlərdə iştirakı, diplomatik korpusun bu mərasimlərdə yeri və s. Ümumi müəyyən olunmuş qaydaya əsasən D. diplomatik korpusun üzvü olan hər-hansı bir *səfirin* ölkədən birdəfəlik getməsi ilə əlaqədar olaraq qəbul təşkil edir və səfərə hazırlaşan səfirə diplomatik nümayəndəlik başçıları adından xatirə suveniri təqdim edir.

D.-nin təmsil etdiyi dövlətlə diplomatik əlaqələrə olmayan ölkələrin diplomatik nümayəndələri D.-nin səlahiyyətlərinə aid olan məsələlərə dair, dərəcəsinə görə D.-dən sonrakı diplomatik nümayəndəlik başçısı ilə əlaqə saxlayırlar.

D. öz çıxışının mətnini həmkarları tərəfindən narazılıq doğurmayacağına əmin olarsa, razılaşdırmaya bilər. Ayrı-ayrı hallarda nəzərdə tutulmuş çıxışın mətni həmkarlarına göndərilə bilər, lakin bu arzuolunmaz və uzun-uzadı mübahisələrə səbəb olduğundan çox az hallarda buna yol verilir. D.-nin olduğu ölkə ondan diplomatlara aid olmayan məlumatların ötürücüsü kimi və ya müxtəlif növ ianə və xeyriyyə yardımı toplamaq məqsədilə istifadə edə bilməz. Yerli protokol ona nə etməsi barədə göstəriş verə bilməz.

İndiyədək bəzi ölkələrdə ancaq Roma papası nümayəndəsinin-nunsilərin D. kimi qəbul etmək ənənəsi qalmaqdadır. Bu dövlətlərdə nunsilər bu ölkəyə gəlmə vaxtından və ya etimadnamələrini təqdim etmə tarixindən asılı olmayaraq digər səfirlər qarşısında diplomatik korpusa başçılıq etmək hüququna malikdirlər. Nunsilər bu gün də Fransa, İtaliya, AFR və b. ölkələrdə diplomatik korpuslarda az rol oynamırlar. Keçmiş Fransa müstəmləkələrində D. həmişə Fransa səfiri olur.

D.-nin tutduğu mövqe çox məsuliyyətli və incədir. O müxtəlif baxışlara malik həmkarlarının fikirlərini ifadə etməlidir, eyni zamanda unutmamalıdır ki, o, öz hökumətini təmsil edir və buna görə də hərəkətlərində dövlətinin *xarici siyasət* prinsiplərini, bu və ya digər konkret hadisəyə dair münasibətini əks etdirməlidir. D.-nin protokol məsələlərindən əlavə diplomatik imtiyazlara (*diplomatik imtiyazlar və toxunulmazlıq hüququ*) aid bütün məsələlərə dair olduğu ölkənin hökuməti qarşısında çıxış edə bilməsi hüququ haqda mülahizə hüquqi cəhətdən əsassızdır, çünki diplomatik korpus hüquqi şəxs və ya yuridik hüquqlara malik siyasi birlik deyildir.

**DUMBARTON OKS KONFRANSI** (1944). 21.VIII-07.X.ABŞ, Böyük Britaniya, Çin və SSRİ-nin iştirakı ilə keçirilmiş və sülhü və *beynəlxalq təhlükəsizliyi* təmin edəcək təşkilatın yaradılması üçün təkliflər hazırlamışdı. Həmin təkliflər *BMT Nizamnaməsinin* əsasını təşkil edir.

**DUNAY ÇAYINDA GƏMİÇİLİYƏ DAİR KONVENSİYA** (1948). Paris sülh konfransının *(Beynəlxalq konfranslar)* (1946) qərarına əsasən çağırılan Beynəlxalq Dunay konfransında işlənib hazırlanmışdır; Bolqarıstan, Macarıstan, Rumıniya, SSRİ, USSR, Çexoslavakiya və Yuqoslaviya tərəfindən 18.VIII Belqradda imzalanıb, 11.V.1949 ildə qüvvəyə minib. Avstriya bu konvensiyaya *(Beynəlxalq konvensiya)* 1960 ildə qoşulub.

D.ç.g.d.k.-ya uyğun olaraq, Dunay çayında gəmiçiliyin hərəkəti bütün dövlətlərin vətəndaşları *(Vətəndaşlıq)*, gəmiləri və malları üçün sərbəst və açıq olmalıdır. Bu hal liman və gəmiçilik rüsumlarına və ticarət gəmiçiliyinin şərtlərinə münasibətdə bərabərliyə əsaslanmalıdır (eyni bir dövlətin limanları arasındakı daşınmalar istisna olmaqla). D.ç.g.d.k.-nın müəyyən etdiyi rejim Dunayın gəmiçilik üçün yararlı olan Ulm (AFR) sahillərindən başlayaraq Sulin kirlosu (qolu) və Sulin kanalı

(Rumıniya) vasitəsilə Qara dənizə qədər uzanan hissəsini əhatə edir.

D.ç.g.d.k.-nın qərarlarının yerinə yetirilməsinə və Dunayda gəmiçiliyə təminat yaratmaqla bağlı müxtəlif məsələlərə nəzarət Dunay Konfransının səlahiyyətlərinə aiddir.

Dunay Konfransı qərarları səs çoxluğu ilə qəbul olunur və ərazisində müəyyən tədbirlərin həyata keçirilməsi nəzərdə tutulan ölkənin razılığı əsasında həyata keçirilir.

**DÜNYA ƏRZAQ PROQRAMI.** *BMT və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO)* digər *beynəlxalq təşkilatlarla* əməkdaşlığı ilə həyata keçirilir. D.ə.p.-in ümumi qaydaları ehtiyacı olan ölkələrin sorğuları əsasında iqtisadi və sosial xarakterli layihələri həyata keçirməkdən ötrü ərzaq və pul vəsaitləri ilə yardım göstərilməsini nəzərdə tutur. Sözügedən layihələr inkişaf etməkdə olan ölkələrin əhalisinin ərzaq vəziyyətini yaxşılaşdırmalı, habelə fövqəladə şəraitlərdə üzə çıxan ərzaq tələbatını təmin etməlidir. Proqramın ehtiyatları ölkələrin kənd təsərrüfatı malları və yeyinti məhsulları, pul vəsaitləri hesabına yaranır. *BMT Baş Məclisi* tərəfindən yaradılmış beynəlxalq fövqəladə ərzaq ehtiyatından istifadə olunması da həmçinin FAO vasitəsilə həyata keçirilir.

D.ə.p. həyata keçirilməsinə Ərzaq Yardımı Siyasəti və Proqramları Komitəsi rəhbərlik edir. Komitə FAO konfransı *(Beynəlxalq konfranns)* və *BMT-nin İqtisadi və Sosial Şurasının* sessiyası tərəfindən seçilən 30 ölkə nümayəndələrindən təşkil olunur.

**DÜNYA OKEANI** (istifadənin beynəlxalq hüquqi aspektləri). Dünya okeanı dedikdə, bütün materikləri və adaları əhatə edən fasiləsiz su örtüyü başa düşülür. D.o.-dan istifadə olunması XX əsrin II yarısında qlobal problemlərdən birinə çevrilmiş, onun həlli ətrafında müxtəlif qrup dövlətlərin gərgin və kəskin mübarizəsi səngimək bilməmişdir. Elmi-texniki inqilab və D.o.-da təsərrüfat fəaliyyətinin gur inkişafı, sülhün və *beynəlxalq təhlükəsizliyin* təmin olunmasında onun xüsusi rolu, dünya iqtisadiyyatında dənizin mineral və bioloji ehtiyatlarının artan əhəmiyyəti, dünya nəqliyyat kommunikasiyalarının təyin və inkişaf zəruriyyəti, ekoloji problemlərin kəskinləşməsi və dəniz mühitinin çirklənməsilə mübarizənin vacibliyi - bütün bunlar D.o.-dan istifadənin hüquqi problemlərini əhatəli və çoxtərəfli saziş çərçivəsində kompleks-beynəlxalq tənzimləməyə obyektiv ehtiyac olduğunu şərtləndirmişdir (*Dəniz hüququna dair Cenevrə konvensiyaları (1958), BMT-nin Dəniz hüququ Konvensiyası (1982), BMT-nin Dəniz hüququna dair konfransları*). Bir sıra ölkələrin D.o.-nın sahilyanı rayonlarının geniş məkanına münasibətdə özbaşına hərəkətləri problemin tənzimlənməsi yolunda ciddi maneə yaradır.

Beynəlxalq gəmiçilikdə istifadə olunan boğazların sahillərində yerləşən ayrı-ayrı dövlətlər mülki və hərbi gəmilərin keçməsinə məhdudiyyət *rejimi* tətbiq etməklə boğazlar üzərində öz nəzarətlərini təmin etməyə cəhd göstərmişlər. 1982 il konvensiyası, dövlətlər arasında mübahisələri tənzimləyir, təkcə geniş səlahiyyətlərə deyil, həm də təsərrüfat funksiyalarına malik olacaq yeni tipli *beynəlxalq təşkilatın* yaradılmasını nəzərdə tutur.

**DÜRAND XƏTTİ.** Əfqanıstan, Pakistan və Hindistan arasında Cəmma ştatı və Kəşmirin şimal sərhədi boyu çəkilən





müasir *dövlət sərhədi*; 12.XI.1893 ildə Kabulda imzalanmış müqaviləyə *(Beynəlxalq müqavilə)* əsasən, Britaniyanın Hindistandakı müstəmləkələri ilə Əfqanıstan arasında müəyyən edilib. Britaniyanın Hindistanda müstəmləkə administrasiyasının xarici işlər katibi M. Dürandın şərəfinə adlandırılıb.

## E

**EDAMURA SUMİO** (1932). 1949-1952 illərdə Kioto Universitetində təhsil almışdır. 1952 ildə Yaponiyanın Xarici İşlər Nazirliyində *(Xarici İşlər İdarəsi)* işləyir. 1979 ildə Yaponiyanın Honq-Konqda Baş *konsulu*, 1984 ildə İspaniyada Fövqəladə və Səlahiyyətli *səfiri* olmuşdur. 1987 ildə İndoneziyada, 1990 ildə SSRİ-də, daha sonra 1992 ildə Rusiya Federasiyasında və eyni zamanda Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfir olmuşdur. 1992-1993 illərdə Yaponiya İmperatorluğunun Azərbaycan Respublikasında iqamətgahı Moskvada olmaqla səfiri olmuşdur.

**EİTAN NAEH** (1963). 1988-1991 ildə Tel-Əviv Universitetinin Yaxın Şərq və siyasi elmlər fakültəsini bitirmişdir. 1991 ildən Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) çalışır. 1991-1993 illərdə XİN-nin diplomatik kurslarını bitirmişdir. 1993-1997 illərdə İsrailin Türkiyədəki *səfirliyində* II katib, daha sonra I katib olmuş, İsrailin ABŞ-kı (Çikaqo) konsulluğunda (*Konsul idarəsi*) *konsul* işləmişdir. 1999 ildən *səfir* təyin olunanadək İsrail XİN-də Qərbi Avropa İdarəsi, Türkiyə-Yunanıstan əlaqələri şöbəsinin müdiri olmuşdur. 2001 ildə İsrail dövlətinin Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli *səfiri* təyin olunmuşdur.

**EKSPATRİASİYA** (*lat. ex* - dan, dən; ratria - vətən). *Vətəndaşlığın* itirilməsi *(Vətəndaşsızlıq)*; bu hal vətəndaşlıqdan çıxdıqda, habelə müvafiq dövlətin ali qanunvericilik, yaxud məhkəmə orqanlarının qərarı ilə məcburi qaydada vətəndaşlıqdan çıxarıldıqda baş verir.

Bəzən vətəndaşlıqdan çıxarılmanın ardınca *deportasiya* (dövlətin hüdudlarından məcburi çıxarılma) tədbiri görülür.

**EKSTERRİTORİALLIQ.** Müstəsna şəkildə yalnız öz ölkəsinin qanunlarına tabe olmaq və xarici *dövlət yurisdiksiyasından* tam immunitet. Müasir *beynəlxalq hüquq* baxımından E. istilahı, dəqiq deyil, beynəlxalq hüquq prinsiplərində və normalarında öz əksini tapmayıb.

Keçmişdə E. istilahı xarici *diplomatın* və *diplomatik nümayəndəliyin*, habelə *kapitulyasiya rejiminin* üstünlüklərindən bəhrələnən *xaricilərin* statusunu, toxunulmazlığını səciyyələndirməkdə istifadə olunurdu.

**EKSTRADİSİYA** (geri qaytarılma). *Beynəlxalq hüquqda* cinayətkarların vətəndaşları olduğu, yaxud ərazisində cinayət əməli törətdikləri dövlətə *(Vətəndaşlıq; Dövlətin ərazisi)* digər dövlət tərəfindən qaytarılması; ekstradisiya dövlətin hüququdur, vəzifəsi deyil. Siyasi əməllərinə görə təqib olunanlar barəsində E tətbiq edilmir. E-ya dair

müqavilələr (*Beynəlxalq müqavilə*) bağlanması XIX əsrin 40-cı illərindən indiyədək geniş tətbiq olunmaqdadır.

**EKZEKVATURA** (lat. *excequare* - aydınlaşdırmaq, müəyyən etmək). *Qəbul edən dövlətin* hökuməti tərəfindən xarici dövlətin *konsulunun* konsul qismində qəbul olunmasına verilən razılıq sənədi.

E.-nın forması qəbul edən dövlətin daxili qanunvericiliyi ilə müəyyən olunur. Adətən, E. *dövlət başçısı* tərəfindən (*hökumət başçısı*, xarici işlər naziri) imzalanır və möhürlənir. Azərbaycanda xarici dövlətlərin konsullarını Azərbaycan dövləti adından Xarici İşlər Nazirliyi (*Xarici İşlər İdarəsi*) qəbul edir. Konsul XİN tərəfindən ona E. veriləndən sonra rəsmən fəaliyyətə başlaya bilər.

E. veriləndək xarici ölkənin konsuluna öz vəzifəsini icra etməkdən ötrü lazım gəldikdə müvəqqəti icazə verilə bilər. E-dan imtina edildikdə E verməkdən imtina edən dövlət, rədd cavabının səbəbləri barədə izahat vermir.

*Diplomatik nümayəndəliyin* konsulluq şöbəsinin müdiri üçün E tələb olunmur; bu vəzifəyə diplomatik nümayəndəliyin və ya *diplomatik missiyanın* üzvlərindən biri təyin olunur.

**ELÇİ.** 1) *Diplomatik əlaqələrə* dair 1961 *il Vyana konvensiyasında* təsbit olunmuş müasir *beynəlxalq hüquqa* müvafiq olaraq, elçi – *diplomatik nümayəndəliyin* ikinci dərəcəli başçısıdır. Gündəlik beynəlxalq təcrübədə onun tam rəsmi adı - Fövqəladə Elçi və ya Səlahiyyətli Nazirdir, (ing. **Envoy Extraordinary and Minister Pienirotentiary**) qısa şəkildə – Səlahiyyətli nazir yaxud nazir. *İşlər müvəkkilindən* fərqli olaraq, E. *səfir* kimi *dövlət başçısının* yanında akkreditə edilir (*Akkreditə etmək*).

2) E. – xarici əlaqələr orqanlarının diplomatik heyətinə verilən diplomatik rütbədir (*Diplomatik adlar və rütbələr*); I və II dərəcəli olur.

E.-lik dövlət təsisatı kimi orta əsrlərdə yaranıb. Diplomatik qaydaların hələ mövcud olmadığı dövrlərdə E.-lər bir sıra imtiyazlara malik olab, toxunulmaz şəxs sayılırdılar. E.-lər mühüm məsələlər ətrafında müzakirələr aparmaq, yaxud sülh və dostluq müqavilələrinin bağlanmasını təmin etmək məqsədilə müvəqqəti olaraq göndərilirdilər. İlk olaraq, daimi E.-ləri XIV əsrdən etibarən, İtaliyanın şəhər dövlətləri olan Venetsiya və Genuya rəsmiləri göndərməyə başlamışlar. XVI əsrdə İspaniya, İngiltərə və Almaniya kimi, iri Avropa dövlətləri də *diplomatik münasibətləri* daimi E.-lər vasitəsilə saxlağama üstünlük verirdilər. Şərqdə ancaq Osmanlı imperiyası XVIII əsrin sonunda sultan III Səlim dövründən başlayaraq daimi E.-lər göndərməyə başlamışdır.

**ELÇİBƏY ƏBÜLFƏZ (Əliyev Əbülfəz Qədirqulu oğlu)** (1938- 2000). 1962 ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirmişdir. 1963-1964 illərdə Misirdə Əsvan bəndinin tikintisində tərcüməçi olmuşdur. 1965-1968 illərdə ADU-nun aspiranturasında təhsil almış 1969 ildə tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. 1968-1975 illərdə ADU-da müəllim və baş müəllim işləmişdir. 1975-1976 illərdə millətçilik və antisovet təbliğatı üstündə Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən həbs edilmişdir.





1976-1992 illərdə Əlyazmalar İnstitutunda kiçik elmi işçi, böyük elmi işçi, şöbə müdiri, aparıcı elmi işçi işləmişdir. 40-dan artıq elmi əsərin müəllifidir.

Sovet quruluşuna qarşı mübarizə aparmış, Azərbaycan Xalq Cəbhəsini yaratmış və ona rəhbərlik etmişdir. 07.VI.1992 Azərbaycan Respublikasının *prezidenti seçilmişdir. Onun prezidentliyi dövründə rus qoşunları Azərbaycan ərazisindən çıxarılmış, Milli valyuta dövriyyəyə buraxılmışdır. Müxtəlif beynəlxalq konfranslar* və görüşlərdə iştirak etmiş, Rusiya, Türkiyə, Ukraynada rəsmi səfərlərdə olmuş, *Avropada Təhlükəsizlik və Əməkdaşlığa dair Müşavirənin Yekun Aktını* və Avropada adi silahların məhdudlaşdırılması haqqında müqaviləni imzalamışdır.

Ölkədə baş verən qarşıdurma nəticəsində 17.VI.1993 ildə Bakını tərk edərək Kələki kəndinə getmiş və Azərbaycan Ali Məclisinin sədri H.Əliyev (*Əliyev Heydər Əlirza oğlu*) Respublika prezidenti səlahiyyətlərini öz üzərinə götürmüşdür.

**EMANUEL SKAMMAKA DEL MUDRO və DEL ANYONE** (1932). 1956 ildə Roma Universitetinin hüquq fakultəsini bitirmişdir. 1957 ildən diplomatik xidmət orqanlarında çalışır. 1977 ildə İtaliya Respublikasının Sürixdə (Almaniya) Baş *konsulu*, 1979 ildə İspaniyada səlahiyyətli naziri olmuşdur. 1983 ildə Fövqəladə və Səlahiyyətli *səfir* dərəcəsi verilmişdir. 1992 ildə İtaliya Respublikasının Belçikada səfiri olmuşdur. 1995 ildə İtaliya Respublikası Xarici İşlər Nazirinin müavini olmuşdur. Fövqəladə və Səlahiyyətli səfir rütbəsinə malikdir. 1996-1997 illərdə İtaliya Respublikasının Azərbaycan Respublikasında səfiri (eyni zamanda Rusiya Federasiyasında) olmuşdur.

**EMBARQO** (*is. embargo* – qadağa qoymaq). Hər hansı ölkəyə müəyyən malların, yaxud valyutanın gətirilməsinə və ölkədən çıxarılmasına, elmi-texniki informasiyanın verilməsinə, müəyyən kommersiya və digər iqtisadi-ticarət fəaliyyətinə qadağa, yaxud məhdudiyyət qoyulması; beynəlxalq təcrübədə iqtisadi və maliyyə təzyiqi vasitəsi kimi tətbiq olunur. *BMT Nizamnaməsinə* uyğun olaraq, *BMT Təhlükəsizlik Şurası BMT* üzvü olan dövlətlərdən beynəlxalq sülh və təhlükəsizlik üçün təhlükə törədən ölkəyə qarşı məcburi tədbir kimi E. qoymağı tələb edə bilər.

**EMİSSAR** (*lat. emissarius* - göndərilmiş). Hər hansı bir dövlətin və ya xüsusi təşkilatın nümayəndəsi kimi xarici ölkələrə müxtəlif xüsusi tapşırıqları yerinə yetirmək üçün göndərilən şəxs. Müasir *beynəlxalq münasibətlərdə* və diplomatik təcrübədə tez-tez istifadə olunur və bir qayda olaraq məxfi səciyyə daşıyır. *Diplomatiya* ilə bağlı təsisatlarda çox vaxt bu missiyanı xüsusi tapşırıqlar üzrə *səfir* həyata keçirir və qeyri-rəsmi mahiyyət daşıdığından onun nəticələri açıq kütləvi informasiya vasitələrində ictimaiyyətə çatdırılmır.

**«EMS DEPEŞASI»** (məlumatı). Boş qalmış İspaniya taxtının tutulması məsələsilə bağlı Prussiya kralı I Vilhelm ilə Fransa *elçisi* V.Benedetti arasında gedən söhbətin (13.VII.1870) teleqrafla verilmiş mətn; Fransa-Prussiya *müharibəsinin* (1870-1871) başlanması üçün bəhanə olub.

**ENDRÜ TAKER** (1955). 1978-1981 illərdə Britaniya Dövlət xidmətində tərcüməçi işləmişdir. 1981 ildən diplomatik işdə fəaliyyət göstərir. 1985-1987 illərdə Nazirlər Kabinetində Baş Nazirin katibinin əməkdaşı olmuş, 1987-1991 illərdə Böyük Britaniyanın Rusiyadakı *səfirliyində* I katib, 1994-1997 illərdə Böyük Britaniyanın Almaniyadakı səfirliyinin əməkdaşı işləmişdir. 1997-2000 illərdə Keniyada Böyük Britaniya Ali Komissarlığında missiya (*Diplomatik missiya*) başçısının müavini, *BMT*-nin Ətraf Mühit Proqramı üzrə nümayəndəsinin müavini olmuşdur. 2000 ildə Böyük Britaniya Krallığı və Şimali İrlandiyanın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli *səfiri* təyin olunmuşdur.

**ETİMADIN MÖHKƏMLƏNDİRİLMƏSİ TƏDBİRLƏRİ.** Dövlətlərin hərbi qarşıdurma və gərginliyin azaldılmasına kömək, həmçinin bir-birinin hərbi fəaliyyətinin qeyri-düzgün qiymətləndirilməsi nəticəsində (hərbi təlimlər, qoşunların irəliləməsi və s.) meydana gələ bilən silahlı toqquşmaların qarşısını almaq məqsədilə həyata keçirdikləri kollektiv və ya birtərəfli aksiyaları.

**ETİMADNAMƏ** (fr. *lettres de cryance* - etimadnamə). *Dövlət başçısının* nümayəndəsi kimi *səfirin* statusunu rəsmi şəkildə təsdiq edən və onu xarici dövlətə akkreditə edən *(Akkreditə etmək)* sənəddir. E. diplomatik nümayəndə təyin edən dövlət başçısı tərəfindən imzalanır və diplomatik nümayəndəni qəbul edən dövlət başçısına ünvanlanır. E. xarici işlər nazirinin imzası ilə təsdiq olunur.

E. səfir göndərilən dövlətin rəsmi, konstitusiyadakı adı ilə başlanır. Sonra səfir qəbul edən dövlət başçısının tam titulu gəlir. Yeni səfirin təyin edilməsi ilə iki ölkə arasında münasibətlərin bundan sonrakı inkişafına və dəyişməsinə kömək etmək arzusu ifadə olunur. Daha sonra səfirin adı, atasının adı, familiyası, eləcə də hər iki tərəfin diplomatik nümayəndələrlə mübadilə dərəcəsinə uyğun olaraq diplomatik nümayəndə dərəcəsi göstərilir. Səfirin dövlətinin və hökumətinin adından bütün dediklərinə etimad etmək xahişi olur. Elə «emiad etmək» sənədin adı – «etimadnamə» meydana gəlmişdir.

E. səfirlərə və diplomatik nümayəndələrə verilir. Bəzən bu və ya digər ölkəyə bu və ya digər səbəbdən göndərilmiş xüsusi nymayəndəliyə də E. verilir. Daimi *işlər müvəkkilinə* E. deyil, bu diplomatik nümayəndəni qəbul edən ölkənin xarici işlər nazirinə öz ölkəsinin xarici işlər nazirinin məktubu verilir. Diplomatik nümayəndəyə hər hansı konkret məsələ ilə bağlı danışıqlar aparmaq və ya hər hansı saziş və ya müqavilə imzalamaq tapşırıldıqda, ona xüsusi səlahiyyətlər verilir.

E. təntənəli şəraitdə dövlət başçısına təqdim olunur.

Diplomatik nümayəndə öz E.-ni təqdim etdiyi andan və ya təyin olunduğu ölkəyə gəlmə anından etibarən öhdəliklərinin icrasına başlamış (yerli *protokol* praktikasından asılı olaraq) hesab olunur. E.-ni təqdim etmə vaxtı və ya gəlmə tarixi diplomatik nümayəndənin eyni dərəcədə olan həmkarları arasında protokol ağsaqqallığını müəyyən edir.

Əgər səfir ilk diplomatik nümayəndə kimi deyil, əvəzə gedirsə, onda E. ilə yanaşı ona sələfinin geri çağırılma sənədi də verilir.





**EVİAN SAZİŞLƏRİ** (1962). 18.III. Fransa hökuməti, Əlcəzair milli azadlıq cəbhəsi və Əlcəzair hökuməti arasında Evian-le-Bene (Fransa) şəhərində imzalanmışdır. Əlcəzairdə atəşin dayandırılmasını, ölkənin müstəqilliyi və keçid hökumətinin yaradılması ilə əlaqədar *referendum* keçirilməsini, siyasi dustaqlara amnistiya verilməsini nəzərdə tuturdu. Əlcəzair xalqı referendumda ölkənin müstəqilliyinə səs verəcəyi təqdirdə, Fransa onu dərhal tanıyacağını *(Beynəlxalq hüquqi tanınma)* öhdəsinə götürdü. Fransız qoşunları 3 il müddətində Əlcəzairi tərk etməli idi.

**«EYZENHAUER - DALLES DOKTRİNASI»** (1957). 9.III. ABŞ *dövlət katibi* F.Dallesin *(Dalles Con Foster)* yaxından iştirakı ilə hazırlanıb, *prezident* D.Eyzenhauer tərəfindən elan edilərək kommunizmə qarşı mübarizədə Yaxın Şərq ölkələrinə ABŞ-ın iqtisadi və hərbi köməyinə təminat verən *Bəyanat Konqresdə* təsdiq edilib.

## Ə

**ƏBDÜLHƏMİD II** (1842-1918). Osmanlı sultanı. Onun hakimiyyət dövrü Türkiyə tarixində «zülm dövrü» kimi səciyyələnir.

1876 ildə Sultan Əbdüləziz saray çevrilişi nəticəsində öldürüldükdən sonra məşrutə tərəfdarları onun yerinə V Muradı gətirsələr də, çox keçmədən əsəbləri pozulub dəli olmuş bu sultanı Ə.-lə əvəz etməli oldular. Özünü məşrutə tərəfdarı kimi göstərən Əbdülhəmid ilk dövrlər Osmanlı dövlətini *beynəlxalq münasibətlərdə* düçar olduğu ağır vəziyyətdən çıxarmağa çalışdı. 1877-1878 illər rus-türk *müharibəsində* məğlub olan Osmanlı dövləti xeyli ərazi itirməli oldu. Ə. *xarici siyasət* sahəsindəki uğursuzluqların əvəzini ölkə daxilində sərt tədbirlər həyata keçirməklə çıxmaq istəyirdi. O, Türkiyədə konstitusiya hərəkatının liderlərini (Midhət paşa, Mahmud paşa, Nuru paşa və s.) sultan Əbdüləzizin öldürülməsində günahlandıraraq, onları imperiyanın ucqarlarına sürgün etdirdi (1881). Bütün bu təqiblərə baxmayaraq, hələ sultan Əbdüləziz dövründə yaranan Yeni Osmanlılar ideya-siyasi cərəyanı yaşayaraq, 1889 ildə İttihad və Tərəqqi siyasi cəmiyyətinə çevrildi. Təqibdən xilas olmaq üçün xarici ölkələrə mühacirət *(Mühacir)* etmiş türk ziyalıları Osmanlı ordusunda zabit korpusu ilə sıx əlaqə yaratmışdılar. Ə. 1876 ildə Konstitusiyanı bərpa etməli oldu; buna İkinci Məşrutiyyət deyilir (23.VII.1908). Əyan və Osmanlı Məclisinin qərarına əsasən, hakimiyyətdən salınmış Ə. əvvəlcə Salanikə sürgün edilmiş, Balkan müharibələri başlayandan sonra İstanbulda ev dustağı olmuşdu.

**ƏBDÜL VAHİD BALOÇ** (1959). Əzzaçılıq üzrə bakalavr təhsili almışdır. Britaniya Birliyinin 41-ci, 42-ci, 43-cü Parlamentlərarası konfranslarında (*Beynəlxalq konfranslar*) çalışmışdır. Nepal, Banqladeş, Hindistan, ABŞ, Böyük Britaniya, Malayziya, Sinqapur, Şri-Lanka və s. ölkələrdə işləmişdir. 1998-1999 illərdə Pakistan İslam Respublikasının Azərbaycan Respublikasında *səfiri* işləmişdir.

**ƏBİLOV İBRAHİM MƏHƏRRƏM OĞLU** (1881-1923). Ordubadda ibtidai

təhsil almışdır. 1905 ildə RSDFP-yə üzv olmuş, 1908 ildə Səttar xan hərəkatına kömək etmək üçün Təbrizə göndərilmişdir. 1909 ildə Bakıya qayıtmış, 1912 ildə «Bakı həyatı» qəzetini buraxmışdır.

1918-1920 illərdə Azərbaycan Parlamentinin üzvü, IX.1920 ildə Şərq xalqlarının I qurultayında seçilmiş, təbliğat və fəaliyyət şurasının katibi olmuşdur.

1921-1923 illərdə Azərbaycan SSR-in, sonra ZSFSR-in Türkiyədə diplomatik nümayəndəsi işləmişdir.

**ƏDALƏTLİLİK PRİNSİPİ.** Dövlətlərarası münasibətlərdə gözlənilir; beynəlxalq problemlərin *beynəlxalq hüquq* əsasında, dövlətlərin və xalqların qanuni mənafelərini gözləməklə həll olunmasını tələb edir.

Ədalət anlayışı beynəlxalq hüququn ən əsas prinsiplərindən birinin - beynəlxalq mübahisələrin dinc yolla həll olunmasının *(Beynəlxalq münaqişələrin sülh yolu ilə həll edilməsi)* ən mühüm elementlərindəndir. Bu prinsip *BMT Nizamnaməsindən* irəli gəlir, çünki orada təsbit edildiyi kimi, beynəlxalq sülh və əmin-amanlıq üçün təhlükə olan münaqişə və mübahisələr «ədalət və beynəlxalq hüququn prinsipləri əsasında» tənzimlənməlidir. *BMT* üzvü olan dövlətlərə bir vəzifə olaraq tapşırılır ki, onlar beynəlxalq sülh və əmin-amanlıq üçün təhlükə mənbəyi ola biləcək mübahisə və münaqişələri yalnız dinc vasitələrlə, danışıqlar yolu ilə həll etsinlər. BMT Nizamnaməsinin ayrılmaz tərkib hissəsi olan *Beynəlxalq Məhkəmənin* statusu nəzərdə tutur ki, beynəlxalq hüququn normaları çərçivəsində və iştirakçı tərəflərin razılığı ilə (ex aeque et bono), yəni ədalət və xoş niyyətlə nizama salınmalıdır. Yalnız o qərar beynəlxalq mübahisənin tam ədalətli həlli sayıla bilər ki, tərəflərin qanuni hüquq və maraqlarını qarşılıqlı nəzərə alsın, ağıllı *kompromisə* söykənsin, məcburi vasitələrə əl atmasın.

**ƏDİRNƏ SÜLH MÜQAVİLƏSİ** (1829). 14.IX. Rusiya ilə Türkiyə arasında imzalanmış, 1828-1829 *Rus-Türk müharibəsinə* son qoymuşdu. Dunayın mənsəbi və Qara dənizin şərq sahilindəki bir sıra qalalar, Qərbi Gürcüstan, İmeretiya, Minqreliya, Quriya Rusiyaya birləşdirildi. Türkiyə Moldaviya, Serbiya, Valaxiya və Yunanıstanın muxtariyyətini tanıdı, *Türkmənçay müqaviləsi* əsasında İravan və Naxçıvan xanlıqlarının Rusiyaya birləşdirilməsi ilə razılaşdı. Qara dəniz boğazları ticarət gəmiləri üçün açıq elan edildi. Türkiyə Rusiyaya 1,5 mln. holland quldeni həcmində *təzminat* ödəməyə razı oldu.

**ƏFƏNDİYEV MAHMUD BƏY.** İxtisasca ali təhsilli həkimdir.

07.XI.1918 ildə ADR-in Batumda konsulu təyin olunmuşdur.

**ƏFƏNDİYEV MİRHƏMZƏ NAZİM OĞLU** (1950). 1974 ildə Azərbaycan Dövlət Tibb Universitetini bitirmişdir. 1974-1992 illərdə Azərbaycanın müxtəlif səhiyyə ocaqlarında işləmişdir. 1992-1995 illərdə Azərbaycan Respublika Milli Məclisinin Xarici İşlər Daimi Komissiyasının üzvü olmuşdur. 1995 ildə isə Azərbaycan Respublikasının Belçika Krallığındakı Fövqəladə və Səlahiyyətli *səfiri* təyin olunmuşdur. Fövqəladə və Səlahiyyətli səfir diplomatik rütbəsinə (*Diplomatik adlar və rütbələr*) malikdir.

**ƏHƏD QƏZAYİ** (1950). Siyasi elmlər namizədidir. 1981-1986 illərdə İran İslam Respublikasının Azərbaycan Respublikasındakı Baş Konsulluğunda (*Konsul idarəsi*) Baş *konsul* olmuşdur. 1986-1990 illərdə Tehran Ostan Komitəsinin sədri, 1990-1993 illərdə İran İslam Respublikası Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) *Protokol* şöbəsinin baş direktorunun müavini işləmişdir. 1993-1996 illərdə İran İslam Respublikasının Hindistandakı (Heydərabad) Baş Konsulluğunda Baş konsul olmuşdur. 1996 ildən İslam Şurası Məclisinin nümayəndəsidir. 2000 ildə İran İslam Respublikasının Azərbaycan Respublikasında *səfiri* təyin olunmuşdur.

**ƏHMƏD MUXTAR BƏY** (1870-1934). Türkiyənin siyasi xadimi, *diplomat*. Dövlət işlərinə 1892 ildən cəlb olunub. Xarici İşlər Nazirliyində *(Xarici İşlər İdarəsi)* müxtəlif vəzifələrdə çalışmış, 1911 ildə Osmanlı imperiyasının Yunanıstanda *səfiri* təyin edilib. Balkan müharibələri başlanandan sonra bir müddət xarici işlər nazirinin səlahiyyətli nümayəndəsi olmuş, 1916 ildə Laheydə, 1919 ildə isə Ukraynada Türkiyənin səfiri olub. Xarici işlər naziri Bəkir Sami bəyin Moskvaya və Londona getməsilə əlaqədar, bir müddət xarici işlər naziri vəzifəsini icra etmişdi. 1921 ilin axırlarında Türkiyənin Gürcüstanda təmsilçisi, 1922 ilin əvvəllərində Türkiyənin RSFSR-də fövqəladə və səlahiyyətli səfiri olub. 1927 ildə fövqəladə və səlahiyyətli səfir rütbəsində ABŞ-a göndərilmişdi. Türkiyə hökuməti adından 1921 il *Qars müqaviləsini*, 1928 ildə isə *Brian-Kelloq paktını* imzalamışdır.

**ƏHMƏD ÜNAL ÇEVİKÖZ** (1952). 1978 ildə Boğaziçi Universitetinin Beynəlxalq əlaqələr fakültəsini bitirmişdir. 1978-1980 illərdə Türkiyə Respublikası Xarici İşlər Nazirliyinin (*Xarici İşlər İdarəsi*) *Protokol* Baş idarəsinin üçüncü və ikinci katibi olmuşdur. 1980-1982 illərdə Türkiyə Respublikasının *səfirliyində* ikinci katib işləmişdir. 1982-1986 illər ərzində Almaniyanın Breqenz şəhərində Türkiyə Baş Konsulluğunda (*Konsul idarəsi*) *konsul* müavini, 1989-1997-ci illərdə *NATO* Katibliyinin əməkdaşı olmuşdur. 1993 ildə Brüssel Universitetinin magistr diplomunu alıb. 1997-1998 illərdə XİN-nin Balkan ölkələri idarəsinin rəisi, XİN Orta Asiya və Qafqaz Baş İdarəsinin rəis müavini olmuşdur. 2001 ildə Türkiyənin Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli *səfiri* təyin olunmuşdur.

**ƏLAQƏ MİSSİYALARI.** Pekində və Vaşinqtonda ÇXR və ABŞ hökumətlərinin rəsmi nümayəndəlikləri; ikitərəfli münasibətləri tezliklə normal hala salmaq və əlaqələri genişləndirmək məqsədilə 1973 ildə təsis edilib.

Əvvəllər *diplomatiya* təcrübələrində rast gəlinməyən bu cür hökumətlərarası əlaqə forması ABŞ-ın Tayvanla *diplomatik münasibətlər* saxladığı dövrdə tətbiq edilib.

Ə.m. formal olaraq *diplomatik nümayəndəliklər* hesab edilmirdi. Bununla belə, Ə.m.-nın strukturu *səfirliklərin* strukturuna, əməkdaşlarının vəzifələri isə hamılıqla qəbul olunmuş diplomatik vəzifələrə uyğun gəlirdi. Hər iki ölkə hökumətləri *əlaqə missiyalarına* və onların əməkdaşlarına *diplomatik imtiyazlar və toxunulmazlıq hüququ* vermişdilər. Ə.m.-nın başçıları ən yüksək səviyyədə mütəmadi təmaslar saxlayırdılar. Bu missiyalar ABŞ ilə ÇXR arasında ikitərəfli münasibətlərə dair danışıqlar aparılmasında aparıcı rol oynamışdı.

01.1.1979 ildə ABŞ ilə ÇXR arasında diplomatik münasibətlərin yaradılması ilə Ə.m. səfirliklərə çevrilmişdir.

**ƏLƏDDİN KEY QUBAD I** (1237). Anadolu Səlcuq sultanlığının ən böyük hökmdarlarından biri; monqolların Orta Asiyaya hücum etdikləri bir dövrdə (1218-1222) hakimiyyətə gəlmiş və yaxınlaşan qorxulu təhlükənin fəlakətli nəticələrini əvvəlcədən görərək, ölkənin müdafiə qüdrətini artırmaq və monqollara qarşı mübarizədə özünə müttəfiqlər tapmaq üçün bir sıra tədbirlər həyata keçirmişdi. Anadolunun Aralıq dənizi sahillərində yerləşən və hələ də öz müstəqilliklərini qoruyub saxlayan və uzun müddət Avropadan axışıb gələn səlibçilərin dayaq məntəqələri olan bir sıra kiçik knyazlıqları, eləcə də Kilikiya erməni çarlığının müqavimətini qıraraq, bu əraziləri Anadolu Səlcuq sultanlığının tərkibinə qatmışdı. I Ə.K. dövründə səlcuq ordusu özünün ən qüdrətli dövrünü yaşamışdı. Bundan xəbərdar olan monqollar Zaqafqaziyanı işğal edəndən sonra, dərhal Anadoluya soxulmağa cürət etməmişdilər.

**ƏLİRZA BİKDELİ** (1951). Beynəlxalq əlaqələr üzrə ali təhsil almışdır. 1986-1988 illərdə İran İslam Respublikası Xarici İşlər Nazirliyi (*Xarici İşlər İdarəsi*) Şərqi Avropa İdarəsinin eksperti işləmişdir. 1991-1992 illərdə İİR-nın Alma-Atadakı *səfirliyinin* başçısı olmuşdur. 1993-1994 illərdə XİN-də MDB (*Azərbaycan Müstəqil Dövlətlər Birliyində*) və Qafqaz ölkələri İdarəsinin rəis müavini, 1994 ildən həmin İdarənin rəisi olmuşdur. 1995-1999 illərdə İran İslam *Respublikasının* Azərbaycan Respublikasında səfiri olmuşdur.

**ƏLİYEVA MEHRİBAN ARİF QIZI.** 1982 ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olmuşdur. 1988 ildə fərqlənmə diplomu ilə M.Seçenov adına Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1989-1992 illərdə Moskvada akademik Krasnovun rəhbərliyi altında göz xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda işləmişdir. 1995 ildə onun təşəbbüsü ilə, hal-hazırda rəhbərlik etdiyi «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə Fondu təsis olunmuşdur. 1996 ildə Azərbaycan mədəniyyətinin ölkədə və xaricdə təbliğ olunması məqsədilə üç dildə (Azərbaycan, ingilis və rus) çap olunan «Azərbaycan-İrs» jurnalını təsis etmişdir. 2002 ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilmiş və həmin vəzifədə özünü gözəl təşkilatçı kimi nümayiş etdirmişdir. Onun nüfuzu Beynəlxalq Gimnastika Federasiyasının bədii Gimnastika üzrə Dünya Kuboku yarışlarının 2003 və 2004 illərdə və dünya çempionatının 2005 ildə Azərbaycanda keçirilməsinə dair qərarın qəbul olunmasında həlledici rol oynamışdır. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin (*Əliyev Heydər Əlirza oğlu*) zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq məqsədi ilə 10.V.2004 ildə yaradılmış Heydər Əliyev Fonduna rəhbərlik edir. Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz səylərinə görə 09.IX.2004 ildə YUNESKO-nun xoşməramlı səfiri adına layiq görülmüşdür. 28.XII.2004 ildə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin IV Baş Məclisində MOK-un İcraiyyə Komitəsinə üzv seçilmişdir.





Mehriban Əliyevanın fəaliyyətinin əsas və başlıca prinsipləri – Azərbaycanın imicini dünyada yüksəltmək, doğma ölkəsini inkişaf etmiş ölkələr sırasında inkişaf etdirmək, vətəndaşları daha xoşbəxt həyata gətirməkdən ibarətdir.

**ƏLİYEV HEYDƏR ƏLİRZA OĞLU** (1923-2003). Azərbaycanın görkəmli dövlət və siyasi xadimi.

Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. 1944 ildən Azərbaycanın dövlət təhlükəsizlik orqanlarında işləmişdir. 1967 ildə respublika DTK-nın sədri olmuşdur. 1969 ildə Azərbaycan KP MK-nın birinci katibi seçilmişdir. 1982 ildən Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləmiş, 1987 ildə Sov.İKP MK Siyasi Bürosunun tərkibindən və tutduğu vəzifədən istefa vermişdir. 2 dəfə Sosialist Əməyi Qəhrəmanıdır.

Əliyev Heydər Əlirza oğlu 1990 ildə Bakıya qayıtmış, 1991 ildə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri, 15.VI.1993 ildə Azərbaycanın Ali Sovetinin sədri seçilmişdir. 1993-2003 illərdə Azərbaycan Respublikasının *Prezidenti* olmuşdir.

Əliyev Heydər Əlirza oğlu 30 ildən çox Azərbaycana rəhbərlik etmiş, təkcə bütün postsovet məkanının deyil, dünyanın ən məşhur siyasi liderlərindəndir. Onun misilsiz təşkilatçılıq bacarığı, heyrətamiz işguzarlığı nəticəsində 1970-1980 illərdə respublika iqtisadiyyatının bütün sahələrində tez bir zamanda görünməmiş nailiyyətlər əldə edilmişdir. Respublikanın şəhər və kəndlərində quruculuq işləri geniş vüsət almışdı. Hazırda milli sənayemizin fəxri olan bir çox müəssisələr – Məişət kondisionerləri, Dərin özüllər, Bakı soyuducular, «Azərelektroterm», Gəncə əlvan metallar, Sumqayıt kompressorlar, Naxçıvan şüşə qabları zavodları, «Azon» elm-istehsal birliyi, «ELOU-AVT» qurğusu tikilmiş, ayaqqabı, tikiş, zərgərlik fabrikləri, bir çox mədəniyyət və sosial-məişət obyektləri işə salınmışdır.

Onun hakimiyyəti illərində aqrar bölmənin ənənəvi təsərrüfat sahələri - pambıqçılıq, üzümçülük, bağçılıq-bostançılıq, maldarlıq və quşçuluq görünməmiş sürətlə inkişaf etməyə başladı. Geniş meliorasiya və irriqasiya işləri həyata keçirilmişdi. Bu illərdə Tərtərçay, Arpaçay, Ağstafaçay, Xambulançay dəryaçaları istifadəyə verilmişdir. Otuza qədər iri quşçuluq kompleksi, o cümlədən Siyəzən, Dəvəçi, Yeni Bakı broyler, Abşeron damazlıqquşçuluq fabrikləri tikilmişdir. Həmin dövrdə Respublikada milli gəlir 2,5 dəfə artmış, sənaye istehsalı 2,7 dəfə artaraq əvvəlki 30 ildə istehsal edilən məhsulun həcmindən 2 dəfə çox olmuşdu. İqtisadiyyatın inkişafına əvvəlki 50 ildə olduğundan 1,4 dəfə çox əsaslı vəsait qoyulmuşdur. Geniş miqyaslı quruculuq, tikinti - abadlıq işləri aparılmışdı. Bakı şəhərində *metropolitenin*- «Gənclik», «Nərimanov», «Nizami», «Əzizbəyov», «Qara Qarayev» və başqa stansiyaları inşa edilmiş, bir sıra inzibati binalar, idman-mədəniyyət kompleksləri istifadəyə verilmişdir, dövlət, mədəniyyət, incəsənət xadimlərinin, tarixi şəxsiyyətlərin, milli qəhrəmanların xatirəsini əbədiləşdirən abidələr ucaldılmışdır. Təhsilə qayğının artırılması, xalq maarifinin yüksəlməsi dövlət siyasətinin üstün prinsipi kimi qəbul edilmişdir. Keçmiş SSRİ respublikalarında Azərbaycan mədəniyyəti və incəsənəti günlərinin keçirilməsi Respublikanın qədim və böyük mədəniyyətə malik olduğunu nümayiş etdirməsi,

Əliyev Heydər Əlirza oğlunun Azərbaycan mədəniyyətinin inkşafı, təbliği, tanınması işinə verdiyi ən böyük töhfələrdəndir.

1982-1987 illərdə Moskvada işləyərkən Sovet dövlətinin başçılarından (*Dövlət başçısı*) biri kimi beynəlxalq danışıqlarda SSRİ-ni təmsil etmiş, dünya birliyində qüvvələr nisbətinə təsir göstərən qərarların qəbul edilməsində mühüm rol oynamışdır. Onun sülhpərvər *xarici siyasət* kursu dünya ictimaiyyətinin geniş rəğbətini qazanmışdı.

Əliyev Heydər Əlirza oğlunun getdikcə artan nüfuzu, SSRİ-nin hakim elitasını narahat edirdi. Qorbaçov komandasının dağıdıcı siyasətinə qarşı çıxan Əliyev Heydər Əlirza oğlu 21.X.1987 ildə istefa verdi və müvəqqəti olaraq siyasi fəaliyyətdən uzaqlaşmağa məcbur oldu.

20.I.1990 ildə yanvar faciəsinin ertəsi günü o, Moskvada Azərbaycanın daimi təmsilçiliyinə gələrək sovet qoşunlarının Bakıda törətdikləri vəhşiliyə qarşı qəti etirazını bildirdi. Elə həmin il Bakıya qayıdan Əliyev Heydər Əlirza oğlu həyatı üçün yaranmış təhlükə ucbatından Naxçıvana getməli oldu. 1991 ildə Əliyev Heydər Əlirza oğlu Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri seçilir. Bu vəzifəni tutduğu 2 il ərzində blokadada olan muxtar respublikanın vəziyyətini normallaşdırmaq üçün çox işlər gördü, İran və Türkiyə ilə siyasi, iqtisadi və ticarət münasibətləri yaratdı.

VI.1993 ildə Xalq Cəbhəsi liderləri Azərbaycan Respublikasını düşdüyü ağır vəziyyətdən çıxarmaq üçün Əliyev Heydər Əlirza oğlunu Bakıya dəvət etdilər. 15.VII. Əliyev Heydər Əlirza oğlu Azərbaycan Ali Sovetinin sədri seçildi, iki gün sonra Ə.Elçibəyin (*Elçibəy Əbülfəz*) öz prezident vəzifəsini tərk edərək, Kələki kəndinə getməsindən sonra Azərbaycan Respublikası prezidenti səlahiyyətlərini icra etməyə başladı.

Əliyev Heydər Əlirza oğlu X.1993 ildə Azərbaycan Respublikasının prezidenti seçildi. Tez bir zamanda ölkənin daxilində sabitliyə nail olan Əliyev Heydər Əlirza oğlu beynəlxalq aləmdə Azərbaycanın mövqelərini möhkəmlətmək üçün böyük səylər göstərdi. Onun Fransa, Türkiyə, Böyük Britaniya, Belçika, Çin, Rusiya, ABŞ, Almaniya, İtaliyaya və digər ölkələrə rəsmi səfərləri bu ölkələrlə dostluq münasibətlərinin və qarşılıqlı faydalı əməkdaşlığın əsasını qoymuşdur.

Qısa bir dövr ərzində *beynəlxalq münasibətlər* sisteminə qoşulan Azərbaycan Respublikası dünyanın 130-dan çox ölkəsi tərəfindən tanınmış (*Beynəlxalq hüquqi tanınma*), *BMT-də*. ATƏT-də (*Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi*), *Avropa Şurasında, İslam Konfransı Təşkilatında. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında*, habelə dünyanın onlarca nüfuzlu *beynəlxalq qeyri-hökumət təşkilatlarında* təmsil edilmiş, *NATO* ilə tərəfdaşlıq əlaqələri yaradılmış, ümumdünya sülh və təhlükəsizlik uğrunda mübarizə proseslərinə qoşulmuşdur.

Əliyev Heydər Əlirza oğlu regionda sabitliyin yaranmasına, bütün mubahisəli məsələlərin ədalətli və sülh yolu ilə həll edilməsinə çalışmışdı (*Beynəlxalq münaqişələrin sülh yolu ilə həll edilməsi*). Onun çoxsaylı səfərləri, keçirdiyi görüşlər, yorulmaz bir enerji ilə Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırması ölkəmizi informasiya və iqtisadi blokadadan çıxardı.





*Dağlıq Qarabağ probleminin* həlli məsələsində onun tutduğu prinsipial mövqe - ölkənin ərazisinin bütövlüyü, işğal olunmuş torpaqların qeyd şərtsiz azad edilməsi, məcburi köçkünlərin doğma yurdlarına qayıtması və onların təhlükəsizliyinin təmin edilməsi, muxtar vilayətin hakimiyyət orqanlarının Azərbaycanın icra, qanunverici və məhkəmə orqanlarına tabeçiliyi *beynəlxalq hüquq* normalarına tam uyğundur və dünyanın aparıcı dövlətləri tərəfindən dəstəklənirdi. Bu xətt ATƏT-in Budapeşt və Lissabon sammitlərində özünü bariz şəkildə göstərmişdir.

V.1994 ildə Ermənistan-Azərbaycan arasında *müharibənin* dayandırılmasında, *atəşkəsin* əldə edilməsində Əliyev Heydər Əlirza oğlunun müstəsna rolu olmuşdur.

Onun prezidentliyi dövründə Azərbaycanın təbii ehtiyatlarından və əlverişli coğrafi-strateji mövqeyinin üstünlüklərindən ölkənin milli mənafelərinə uyğun şəkildə istifadə edilməsinə yönəlmiş siyasət uğurla həyata keçirilmişdir. 20.IX.1994 ildə *«Əsrin müqaviləsi»* adı almış iri miqyaslı neft sazişinin bağlanması, tarixi İpək Yolunun bərpası Azərbaycanın beynəlxalq və regional siyasətdə mövqeyini gücləndirmişdir. Zəngin Azərbaycan neftini və qazını dünya bazarlarına nəql etmək üçün *Bakı-Tbilisi-Ceyhan*, Bakı-Ərzurum neft və qaz kəmərlərinin çəkilməsi Əliyev Heydər Əlirza oğlunun həyata keçirdiyi iqtisadi strategiyanın təntənəsi sayıla bilər. Əliyev Heydər Əlirza oğlunun təşəbbüsü və səyləri nəticəsində yaradılmış *GUÖAM* – Gürcüstanın, Ukraynanın, Özbəkistanın, Azərbaycanın və Moldovanın daxil olduğu regionun qüvvələrinin birləşməsi, razılaşdırılmış siyasi və iqtisadi strategiyasının işlənib hazırlanmasında fəal rol oynamağa başlamışdır. İstər MDB (*Azərbaycan Müstəqil Dövlətlər Birliyində*) çərçivəsində, istərsə də Qafqaz regionunda sülhün, əmin-amanlığın bərqərar olunmasında Əliyev Heydər Əlirza oğlunun fəaliyyəti olduqca önəmlidir. O, «Qafqaz evi» ideyasının reallaşması üçün çox əmək sərf etmişdir.

İnsan hüquq və azadlıqlarının qorunması, humanizm, sosial-ədalət prinsiplərinin bərqərar olması Əliyev Heydər Əlirza oğlunun fəaliyyətinin mahiyyətini təşkil edirdi. Azərbaycan dövləti insan hüquq və azadlıqları sahəsində 125 *beynəlxalq konvensiya* və sazişə qoşulmuşdur. Onun təşəbbüsü ilə Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv edilib.

Azərbaycan Respublikasının prezidentinin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» 22.II. 1999 il tarixli fərmanı Azərbaycanın dünya və Avropaya inteqrasiyası prosesini sürətləndirmiş, onu dövlət siyasəti səviyyəsinə qaldırmışdır.

Prezident Əliyev Heydər Əlirza oğlunun apardığı sülhsevər xarici siyasət kursu dünya ictimaiyyətinin geniş rəğbətini qazanmışdır. O, 1998 ildə Türkiyədə «Dünyanın adamı və siyasətçisi» kimi fəxri ada layiq görülmüş, 1999 ildə isə Türkiyənin beynəlxalq mükafatı–Atatürk (*Atatürk Mustafa Kamal*) sülh mükafatı ilə təltif edilmişdir.

Əliyev Heydər Əlirza oğlu XII. 2003 ildə vəfat etmişdir. Onun adı Azərbaycan Respublikasının bir sıra mühüm sənaye obyektlərində, idman-mədəniyyət komplekslərində, parklarda əbədiləşdirilmişdir.

**ƏLİYEV İLHAM HEYDƏR OĞLU** (1961). İlham Əliyev 24.XII.1961 ildə Bakı şəhərində anadan olmuşdur.

1967-1977 illərdə Bakı şəhərində orta məktəbdə təhsil almışdır. 1997 ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutuna daxil olmuşdur. Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunda ali təhsili başa vurduqdan sonra, 1982 ildə həmin institutun aspiranturasına daxil olmuşdur. 1985 ildə tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün müvəffəqiyyətlə dissertasiya müdafiə etmişdir. 1985-1990 illədə pedaqoji fəaliyyətlə məşğul olmuş, Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunda müəllim işləmişdir. 1991-1994 illərdə özəl biznes sahəsində fəaliyyət göstərən İ.Əliyev bir sıra istehsal-kommersiya müəssisələrinə rəhbərlik etmişdir. 1994-2003 illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, sonra isə birinci vitse- prezidenti olmuşdur. 1995 və 2000 illərdə Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilmişdir. 2003 ildə Azərbaycan Respublikasının Baş Naziri vəzifəsinə təyin edilməsi ilə əlaqədar olaraq deputat səlahiyyətlərinə xitam verilmişdir. 1997 ildən Milli Olimpiya Komitəsinin Prezidentidir. 1999 ildə hakim Yeni Azərbaycan Partiyasının sədr müavini, 2001 ildə sədrin birinci müavini 2005 ildə isə sədri seçilmişdir. 2001-2003 illərdə *Avropa Şurası* Parlament Assambleyasında Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri olmuşdur. I.2003 ildə Avropa Şurası Parlament Assambleyasının Büro üzvü seçilmişdir. 04.VII.2003 ildə Milli Məclis tərəfindən təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Baş Naziri təyin edilmişdir. 15.X. 2003 ildə Azərbaycan Respublikasının *Prezidenti* seçilmişdir. 31.X.2003 ildə prezident səlahiyyətlərinin icrasına başlamışdır.

İ.Əliyev fəaliyyəti dövründə özünü bacarıqlı təşkilatçı, peşəkar siyasətçi, *diplomat* kimi göstərmişdir. O, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev (*Əliyev Heydər Əlirza oğlu*) tərəfindən müəyyənləşdirilmiş neft strategiyasının həyata keçirilməsində fəal iştirak edir. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin rəhbərlərindən biri kimi, İ.Əliyev neft sənayesinə sərmayələr, yeni texnologiyalar cəlb etmək, xarici neft şirkətlər ilə Azərbaycan üçün əlverişli müqavilələr (*Beynəlxalq müqavilə*) bağlamaq məqsədi ilə aparılmış müxtəlif səviyyəli danışıqlarda fəal iştirak etmişdir. Azərbaycanın neft strategiyasının əleyhinə çıxan xarici qüvvələr hər vasitə ilə bu işin uğurla həyata keçirilməsinə mane olurdular. Rusiya Federasiyası Xəzər dənizinin bütün Xəzəryanı ölkələr üçün ümumi olduğunu və onun milli sektorlara bölünməsinin mümkünsüzlüyünü bəyan edirdi. Bu istiqamətdə verilən notalar (*Diplomatik nota*), *bəyanatlar* nəticəsində xarici şirkətlər Xəzər dənizinin statusu (*Xəzərin statusu*) müəyyənləşənə qədər öz işlərini təxirə salmağı planlaşdırırdılar. Məhz İ.Əliyevin ABŞ-da bu ölkənin Energetika Nazirliyi rəhbərləri ilə apardığı danışıqlar nəticəsində ABŞ hökuməti Azərbaycanın mövqeyini müdafiə etdi və xarici şirkətlər Xəzər dənizində əməli fəaliyyətə başladılar. Ümumiyyətlə Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi nəticəsində 14 ölkənin 32 şirkəti ilə neft müqavilləsi imzalanmışdır. Bu müqavilələrin hazırlanıb imzalanmasında İ.Əliyev fəal iştirak etmişdir.

Azərbaycan Respublikası üçün təkcə iqtisadi deyil, həm də siyasi əhəmiyyət daşıyan, istiqamətinin müəyyənləşdirilməsində və reallaşmasında Heydər Əliyevin böyük xidmətləri olduğu *Bakı-Tbilisi-Ceyhan neft kəmərinin* tikintisində İ.Əliyev geniş fəaliyyət göstərmiş və hal-hazırda bu iş onun rəhbərliyi altında həyata keçirilir.

Müstəqil Azərbaycan Respublikasının beynəlxalq maraqlarını müdafiə etmək, onun üzləşdiyi ən ciddi problemlərdən birini, Ermənistanın Dağlıq Qarabağı işğal etmək məqsədi ilə Azərbaycana hərbi müdaxiləsinin aradan qaldırılması istiqamətində İ.Əliyev geniş diplomatik fəaliyyət həyata keçirmişdir. Azərbaycanın xarici əlaqələrinin genişlənməsində Avropa Şurası ilə əməkdaşlıq xüsusi yer tutur. 25.I.2001 ildə Azərbaycan Respublikası Avropa Şurasına tam hüquqlu üzv qəbul olundu. İ.Əliyevin rəhbərliyi altında Azərbaycan Parlamentinin nümayəndə heyəti Avropa Şurasında səmərəli fəaliyyət göstərirdi. Məhz bu fəaliyyətin nəticəsi olaraq İ.Əliyev 27.I.2003 ildə Avropa Şurası Parlament Assambleyasının sədr müavini və büro üzvü seçildi. İ.Əliyev Avropa Şurasının tribunasından Ermənistanın işğalçılıq siyasətini dəfələrlə ifşa etmiş, Ermənistan Respublikası tərəfindən işğal olunmuş Dağlıq Qarabağda narkotik maddələr yetişdirildiyini və ixrac edildiyini, bundan əldə olunan gəlirlə ordu və terrorçu qrupların saxlanılmasını, azərbaycanlılara qarşı ermənilər tərəfindən *soyqırım* siyasətinin həyata keçirildiyini, işğal olunmuş ərazilərdə azərbaycanlılara məxsus tarixi-mədəni abidələrin məhv edildiyini dünyaya bəyan etmişdir. Bu fəaliyyətin nəticəsi olaraq V.2001 ildə Avropa Şurasının Nazirlər Komitəsinin 108 sessiyası Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən kommünike qəbul etmişdir.

Avropa Şurası Parlament Assambleyasındakı fəaliyyətinə və Avropa ideallarına sədaqətinə görə İ.Əliyev Avropa Şurası Parlament Assambleyasının fəxri üzvü diplomu və Avropa Şurası Parlament Assambleyasının medalı ilə təltif edilmişdir.

İ.Əliyev Azərbaycanın ABŞ, Rusiya, Böyük Britaniya, Fransa və s. ölkələrlə əlaqələrinin genişləndirilməsi istiqamətində də fəaliyyət göstərmiş və göstərir. ABŞ siyasətçisi V.Skoutroft İ.Əliyevin diplomatik fəaliyyətinə qiymət verərək qeyd etmişdi ki, "Mən Azərbaycanın gələcəyinə nikbin baxıram. İ.Əliyev bizə güclü siyasətçi təsiri bağışlayır".

İ.Əliyev İdmanın və Olimpiya hərəkatının inkişafında böyük xidmətlərinə görə Beynəxalq Olimpiya Komitəsinin ali ordeni ilə təltif edilmişdir. 15.X.2003 ildə Azərbaycan Respublikasının prezidenti seçildikdən sonra İ.Əliyev respublikanın sosial-iqtisadi inkişafını sürətləndirmək, demokratiyanı davamlı inkişaf etdirmək, Azərbaycanın beynəlxalq nüfuzunu gücləndirmək sahəsindəki fəaliyyətini daha da genişləndirmişdir. Onun Rusiya Federasiyasına, Fransaya, İran İslam Respublikasına, Çin Xalq Respublikasına, İtaliyaya, Səudiyyə Ərəbistanına, Polşaya etdiyi səfərlər, BMT və digər *beynəlxalq təşkilatların* tribunalarından etdiyi çıxışlar, çoxşaxəli əməli fəaliyyəti Heydər Əliyev ideallarının həyata keçirilməsi istiqamətində atılan mühüm addımlardır.

**ƏLİYEV MAHMUD İSMAYIL OĞLU** (1908-1958). Azərbaycanın görkəmli *diplomatı*, fövqəladə və səlahiyyətli *səfir*. 1931 ildə Azərbaycan Tibb institutunu bitirmiş, 1931-1936 illərdə bir sıra rayonlarda həkim, səhiyyə təşkilatçısı kimi çalışmış, 1936-1938 illərdə Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığı tibbi təhsil, elm və ali məktəb idarəsinin rəisi, 1938-1943 illərdə Tibb

institutunun rəhbəri, 1943-1944 illərdə Azərbaycan K(b)P MK-nın ali və orta məktəblər şöbəsinə başçılıq etmiş və SSRİ xalq xarici işlər komissarının müavini vəzifəsində işləmişdi.

1944 ildə xarici dövlətlərlə bilavasitə əlaqə saxlamaq, beynəlxalq əlaqələri daha da genişləndirmək və artırmaq məqsədi ilə müttəfiq respublikalarda Xalq Xarici İşlər Kommisarlıqları təşkil edildi. Azərbaycan Xalq Xarici İşlər komissarı vəzifəsinə Ə.M.İ.o. təyin edilmiş, bu vəzifədə Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi kimi bir sıra ölkələrlə toplantı və müşavirələrdə iştirak etmişdi. 1958 ildə vəfat edib.

**ƏLİYEV MƏMMƏD NOVRUZ OĞLU** (1942). 1964 ildə Bakı Dövlət Universitetinin fizika fakültəsini bitirmişdir. 1964-1992 illərdə Bakı Dövlət Universitetində müəllimlik etmişdir. Fizika-riyaziyyat elmləri doktorudur. 1992 ildə Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Fövqəladə və Səlahiyyətli *səfiri* təyin olunmuşdur. Fövqəladə və Səlahiyyətli səfir diplomatik rütbəsinə (*Diplomatik adlar və rütbələr*) malikdir.

**ƏLİZADƏ İBADULLA AĞAMƏLİ OĞLU (ƏLİYEV İBAD ƏLİ OĞLU)** (1879-1938). 1902-1909 illərdə Riqa Politexnik İnstitutunda H.Z.Tağıyevin təqaüdüylə ali təhsil almışdır. 1909-1917 illərdə Bakıda Tağıyevin neft mədənlərində mühəndis işləmişdir. 1918-1920 illərdə Bakı Şəhər İdarəsinin üz vü və Şollar su kəmərinin müdiri olmuşdur. 1920-1921 illərdə Azərbaycan Sovet Sosialist Respublikası Xarici İşlər Komissarlığında ticarət müşaviri işləmişdir. 1921-ildən Azərbaycanın, 1922 ildən 1927 ilə qədər SSRİ-nin Berlindəki Ticarət Nümayəndəliyində işləmişdir.

1928-1930 illərdə Azərneft xətti ilə İranda çalışmışdır.

1930-1932 illərdə Azərbaycan Sənaye İnstitutunda müəllim və assistent, 1933-1937 illərdə işləyib, Azərbaycan SSR yüngül sənaye komissarının müavini, SSRİ Xarici Ticarət Komissarlığının ASSR-də səlahiyyətli nümayəndəsinin müavini, Azərbaycan SSR Xalq Yüngül Sənaye Komissarlığı təchizat-satış *bölməsinin rəisi*, SSRİ EA Zaqafqaziya Filialının Azərbaycan Bölməsində elmi işçi vəzifələrində işləmişdir.

25.VII.1937 ildə «Almaniya casusu»" kimi həbs edilmiş və 07.I.1938 ildə günahsız olduğu halda güllələnmişdir.

**ƏMƏNULLA XAN** (1892). Əfqanıstan kralı; atası Əmir Həbibulla 1919 ildə öldürüldükdən sonra onu əvəz etmiş əmisi Nəsrullah xanı hakimiyyətdən salaraq Əfqanıstanın kralı olmuşdu. Əfqanıstanın istiqlaliyyətini elan edən Ə.x. Hindistanın bu məsələyə qarşı çıxmasına görə 1919 ildə *müharibə* etməyə məcbur olmuşdu. Hindıstanı dəstəkləyən ingilislər uğur qazanmayaraq 22.XII.1921 ildə Əfqanıstanla sülh müqaviləsi bağlamış, onun müstəqilliyini tanımışdılar (*Beynəlxalq hüquqi tanınma*).

Onun mütərəqqi islahatlarını qəbul etməyən irtica qüvvələri 1923 ildə üsyan qaldırmış və nəticədə Hindistana sığınmış əfqan şahzadələrindən Əbdülkərim özünü Əfqanıstanın hökmdarı elan etmişdir. Ə.x. üsyanı yatıraraq öz hakimiyyətini bərpa etmişdi.

Yenidən islahatlara başlayan Ə. x.-nın bu proqramı nəinki cəhalət qüvvələrini, hətta onun özünə həmfikir bildiyi yaxınlarını da ona qarşı qoydu. Bəçcə Sakanın rəhbərliyi altında kütləvi üsyan başlandı. Ə.x. məğlub olaraq, qardaşı İnayətulla xanın xeyrinə hakimiyyətdən əl çəkməli oldu. Kabula girən Bəçcə Saka İnayətulla xanı hakimiyyətdən salaraq, taxt-tacı ələ keçirdi. 1929 ildə Qəndahara gələn Ə. x. oradan Hindistana, sonra isə Avropaya mühacirət (*Mühacir*) etməli olmuşdu.

**ƏN ƏLVERİŞLİ REJİM**. Razılığa gələn tərəflərin hər birinin gələcəkdə hər hansı bir üçüncü tərəflə, yaxud onun fiziki və hüquqi şəxsləri ilə qurduğu, yaxud qura biləcəyi iqtisadi, ticarət və başqa münasibətlərin şərtlərinə uyğun olaraq digər tərəflə, yaxud onun fiziki və hüquqi şəxsləri ilə bu şərtlər əsasında münasibətlər yaratması. Ə.ə.r. malların idxalı və ixracı, gömrük rüsum və vergilərinin yaradılmasında imtiyazların, həmçinin idxal olunan məhsulların istehsalı, emalı və sərf edilməsi üçün yığılan daxili vergilərlə bağlı üstünlüklərin verilməsini nəzərdə tutur. Beləliklə, Ə.ə.r. bəzi ölkələr üçün həyata keçirilən xüsusi (məhdudlaşdıran və əksinə, üstünlük verən) şərtlərdən fərqli olaraq adi, bərabər hüquqlu *əməkdaşlıq şərtlərini tsbit edir.*

**ƏNVƏR PAŞA** (1881-1922). Türkiyənin hərbi dövlət xadimi.

1902 ildə Hərbi Akademiyanı bitirib, 1906 ildə gizli fəaliyyət göstərən Vətən və Hürriyyət cəmiyyətinə qoşulub, 1907 ildə İttihad və Tərəqqi cəmiyyətinə üzv olaraq, sultan II Əbdülhəmid (*Əbdülhəmid II*) rejiminə qarşı mübarizə aparan qüvvələrin liderlərindən birinə çevrilib. 1909 ildə «azadlıq qəhrəmanı» kimi şöhrət tapan Ə.p. Osmanlı dövlətinin Almaniyada hərbi *attaşesi* təyin edilmiş və burada imperator II Vilhelm ilə yaxın əlaqə yarada bilmişdi. 31.III.1909 ildə baş verən hadisələrdən sonra İstanbula qayıtmış, II Əbdülhəmidin taxtdan salınmasında iştirak etmişdi, Balkan müharibələrinin iştirakçısıdır. 1913 ildə Ədirnənin bolqar qoşunlarının işğalından azad edilməsində fərqlənmişdi. 1914 ildə hərbi nazir olmuş, Türkiyəni *birinci dünya müharibəsinə* sövq etmişdi. 1918 ildə Türkiyəni tərk edərək Odessa (Ukrayna), Berlin (Almaniya) və Moskvaya (Rusiya) gedən Ə.p. Turan ölkəsi *xəyalı* ilə Orta Asiyadan başlayaraq, Anadolunu da əhatə edəcək bir ərazidə imperiya yaratmağı planlaşdırmışdı. Mustafa Kamal Paşa (*Atatürk Mustafay Kamal*) onu Türkiyəyə qayıtmağa qoymamışdı. Ənvər paşa 20.IX.1920 ildə *Bakıda* toplanan Şərq xalqlarının I qurultayında iştirak etmiş və həmin ildə Batumda (Gürcüstan) Türkiyə Şuraları partiyasını yaratmışdı. 1921 ildə Moskvada V.İ.Leninlə görüşən Ənvər Paşa Şərq xalqlarının Bakıda *yeni bir qurultayını* keçirmək barədə ümumi razılaşma əldə etmişdi. 1921 ildə Orta Asiyaya gələrək, burada rus bolşevik ordularına qarşı mübarizə aparan milli-azadlıq qüvvələrini öz ətrafına toplamış, vahid *nizami ordu yaratmağa* cəhd göstərmişdi. 1922 ildə onun 30 minlik qeyri-mütəşəkkil ordusu bolşeviklər tərəfindən məğlubiyyətə uğradılmışdı.

**ƏRAZİNİN REMİLİTARİZASİYASI.** *Demilitarizasiya* edilmiş rayonda dövlətin yenidən hərbi tikililər və istehkamlar salması, silahlı qüvvələr yerləşdirməsi, digər hərbi və hərbi-iqtisadi xarakterli tədbirlər görməsi; Ə.r. adətən, dövlətin demilitarizə edilmiş zona statusunu müəyyən edən *beynəlxalq müqavilələrin* məhdudlaşdırıcı maddələrindən birtərəfli imtina etməsi, daxili qanun-

vericiliyin müvafiq müddəalarını pozması ilə müşahidə olunur. Məs., faşist Almaniyasının 1919 il *Versal sülh müqaviləsini* və 1925 il Lokarno müqavilələrini pozaraq, demilitarizə olunmuş Reyn vilayətini 07.III.1936 ildə remilitarizə etməsi Hitler rejiminin öz təcavüzkar niyyətlərini həyata keçirməkdə ilk addımlarından biri olmuşdur.

**ƏRAZİ RAZILAŞMALARI.** Hər hansı bir coğrafi rayonun dövlətləri arasında çoxtərəfli *beynəlxalq müqavilələrdir.* Ə.r.-nın əsas məqsədi razılaşan tərəflərin həmin coğrafi rayonun bu və ya digər bölgəsində əməkdaşlığının təmin edilməsidir.

**ƏRAZİ SULARI** (məhəlli dəniz). Sahilyanı dövlətin quru ərazisinə (*Dövlətin ərazisi*), yaxud *daxili sularına*, arxipelaq dövlətin isə *arxipelaq sularına* bitişən 12 dəniz mili eninədək dəniz qurşağı.

Sahilyanı dövlət Ə.s.-na, onların dibinə və təkinə, habelə onların üzərindəki hava məkanına münasibətdə öz *suverenliyini beynəlxalq hüquqa* riayət etməklə həyata keçirir.

Məhəlli dənizə və bitişik zonaya dair 1958 il Cenevrə Konvensiyasına (*Beynəlxalq Konvensiya*) və 1982 il Konvensiyasına (*Dəniz Hüququna Dair Cenevrə Konvensiyaları 1958; BMT-nin Dəniz Hüququ Konvensiyası 1982*) müvafiq olaraq, Ə.s.-nın enini ölçməkdən ötrü normal çıxış xətti-sahilyanı dövlət tərəfindən rəsmən tanınan irimiqyaslı dəniz xəritələrində göstərilən sahilboyu uzanan xətdir.

1982 il konvensiyasının müddəalarına uyğun olaraq, bütün dövlətlərin gəmiləri *Ərazi sularından dinckeçmə* hüququndan bəhrələnirlər.

**ƏRAZİ SULARINDAN DİNCKEÇMƏ.** Gəmilərin xarici dövlətlərin *ərazi sularından* daxili sulara girməməklə keçib üzməsi, yaxud *daxili sulardan* keçməklə və ya onlardan çıxmaqla *açıq dənizə* girməsi; keçid o halda dinc xarakter daşıyır ki, sahilyanı dövlətin asayişinə, daxili qaydalarına və təhlükəsizliyinə xələl yetirməsin. Ə.s.d. ərazi sularına və bitişik zonaya dair 1958 i. Cenevrə Konvensiyasında, habelə Dəniz Hüququna dair 1982 il BMT Konvensiyasında (*Beynəlxalq Konvensiya; Dəniz Hüququna Dair Cenevrə Konvensiyaları 1958; BMT-nin Dəniz Hüququ Konvensiyası 1982*) təsbit edilib. Sonuncu sənədə uyğun olaraq, xarici gəmi Ə.s.d. zamanı sahilyanı dövlətin ərazi bütövlüyünü, siyasi müstəqilliyini hədələməməli və bu məqsədlə güc işlətməməli, *BMT Nizamnaməsinin* prinsiplərini hər hansı şəkildə pozmamalı, manevr, yaxud təlimlər keçirməməli; sahilyanı dövlətin təhlükəsizliyi ziddinə informasiya toplamamalı və təbliğat aparmamalı; uçma aparatları və hər cür hərbi qurğularla yüklənməməli, istənilən adda mal və valyuta yükləyib boşaltmamalı, sahilyanı dövlətin qaydalarına müxalif olan şəxsləri göyərtəyə götürməməli və onları quruya çıxarmamalı; ətraf mühiti çirkləndirməməli, ovlama, tədqiqat, yaxud hidroqrafiya işləri aparmamalı, yerli rabitə sistemini sıradan çıxarmamalıdır. Xarici gəmilər tərəfindən tövsiyə olunan xətlə və ya onun müəyyən etdiyi hərəkətayırma sisteminə müvafiq olaraq dəniz dəhlizi ilə üzməlidir. Sualtı qayıqlar və başqa sualtı nəqliyyat vasitələri suyun üstü ilə və mənsub olduğu dövlətin dövlət bayrağını qaldırmaqla üzməlidir.

Sahilyanı dövlətin dinc xarakter daşımayan keçmənin qarşısını almaq üçün zəruri tədbirlər görmək hüququ vardır. Sahilyanı dövlət xarici gəmidən onun məhəlli sularından dərhal çıxmağını tələb edə bilər. Ə.s.d.-ni həyata keçirən gəminin göyərtəsində qaldırılan bayrağın (*Dövlət bayrağı*) mənsub olduğu dövlətin cinayət və mülki yurisdiksiyası (*Dövlətin yurisdiksiyası*) qüvvədə olur. Lakin sahilyanı dövlət toxunulmazlıq hüququna malik olmayan gəminin göyərtəsində bu gəminin dinc keçməsi zamanı orada baş verən hər hansı cinayətlə bağlı istənilən şəxsin həbsinə və ya təhqiqat aparılmasına əl ata bilər, bir şərtlə ki, cinayət tərkibinin sahilyanı dövlətə aidiyyəti olsun, törənmiş cinayət ölkədə asayişi, yaxud ərazi sularında hüquq qaydalarını poza biləcək xarakter daşısın, gəmi komandiri, diplomatik agent (*Diplomatik agentlik*), yaxud vəzifəli konsul məmuru kömək göstərmək xahişilə yerli hökumət orqanlarına müraciət etmiş olsun, görülməsi nəzərdə tutulan tədbirlər narkotik vasitələr və ruhi sarsıdıcı maddələrlə qeyri-qanuni ticarətin qarşısını almaq zəruriyyətindən irəli gəlsin.

**ƏRƏB DÖVLƏTLƏRİ CƏMİYYƏTİ** (ƏDC). *Beynəlxalq hökumətlərarası təşkilat*; 22.III.1945 ildə Qahirədə ərəb ölkələrinin konfransında (*Beynəlxalq konfrans*) təsis edilib; 21 ərəb dövlətini (Bəhreyn, BƏƏ, İordaniya, İraq, YƏR, YXDR, Qətar, Küveyt, Livan, Liviya, Mavritaniya, Mərakeş, Misir, Əlcəzair, Oman, Səudiyyə Ərəbistanı, Somali, Sudan, Suriya, Tunis, Cibuti) və Fələstin Azadlıq Təşkilatını (1985) özündə birləşdirir.

ƏDC nizamnaməsi üzv dövlətlər arasında əlaqələrin möhkəmləndirilməsini, onların müstəqilliyini, *dövlət suverenliyini* və mənafeyini qorumaq üçün siyasi fəaliyyətlərinin əlaqələndirilməsini; iqtisadiyyat, maliyyə, mədəniyyət və digər sahələrdə sıx əməkdaşlığı nəzərdə tutur; ixtilafların nizama salınmasında güc işlətməyi qadağan edir; başqa ölkələrdə (cəmiyyətə üzv ölkələr də daxil olmaqla) mövcud rejimlərə hörmət edilməsini və onları dəyişdirmək cəhdlərindən çəkinməyi tələb edir.

Ali orqanı - ƏDC Şurasıdır; ildə 2 dəfə keçirilir; qərarların icrası səs vermiş üzv dövlətlər üçün məcburidir. İşçi orqanları - (siyasi, iqtisadi, ictimai, hərbi və digər məsələlər üzrə) daimi komitələrdir. İcraedici orqan - Baş katiblikdir; 5 il müddətinə seçilir.

ƏDC çərçivəsində ərəb dövlət və hökumət başçılarının (*Dövlət başçısı; Hökumət başçısı*) müşavirələri keçirilir. ƏDC *bitərəflik* hərəkatı çərçivəsində *inkişaf etməkdə olan dövlətlər* ilə, regional təşkilatlarla, inkişaf edən dövlətlərlə geniş əlaqələr saxlayır. *BMT*-də müşahidəçi statusuna malikdir.

ƏDC Yaxın Şərqdə hərtərəfli və ədalətli tənzimləmə yolunda aparılan mübarizədə ümumərəb mövqeyinin işlənib hazırlanmasına kömək edir.

**ƏRƏB - İSRAİL MÜHARİBƏLƏRİ.** 14.V.1948 ildə Britaniya mandatı bitən günü Birləşmiş Sionist Təşkilatı ilə Fələstin yəhudi təşkilatının nümayəndələri İsrail dövlətinin yaranmasını bəyan etdilər. Bu aksiya *BMT*-nin 181 saylı qərarına tam zidd idi, çünki bu qərara görə X.1948 ildə iki dövlət – ərəb və yəhudi dövlətləri yaranmalı idi və burada BMT-nin xüsusi komissiyası iştirak etməli idi.

15.V.1948 ildə Misir, İordaniya, Livan, Suriya, və İraq qoşunları Fələstinə daxil oldular. Ancaq İsrail ordusu Fələstinin çox böyük hissəsini işğal edə bildi.

X.1948 ildə BMT-nin *vasitəçiliyi* ilə atəşin dayandırılmasına (*Atəşkəs*) nail olundu. 1949 ilin əvvəlində İraq istisna

olmaqla müharibədə iştirak edən digər ərəb ölkələri ilə İsrail arasında danışıqlar başlandı. 24.II.1949 ildə Misirlə, 03. IV.1949 ildə İordaniya ilə, 23.III.1949 ildə Livanda, 20.VII.1949 ildə Suriya ilə barışıq imzalandı.

05-10.VI.1967 ildə «altı günlük müharibə»nin gedişində İsrail Sinay yarımadasını, Qəzza sektorunu, İordan çayının qərb sahilini, Qüdsün şərq hissəsini və Colan yüksəkliklərini tutdu. 22.X.1967 il *BMT Təhlükəsizlik Şurası* 2424 saylı qərar çıxartdı. Bu qərarda İsrail qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılması, Yaxın Şərqdə *müharibənin* dayandırılması, region ölkələrinin toxunulmazlığı və siyasi müstəqilliyi, *qaçqınlar* probleminin həll edilməsi tələb edilirdi. Ancaq bu tələblər həyata keçirilmədi, İsrail işğal edilmiş ərazilərdə yəhudi məskənləri yaradırdı ki, bu da ərəblərdən iri torpaq sahələrinin zorla alınması ilə müşahidə olunurdu.

Sovet - amerikan məsləhətləşmələrindən sonra 22.X.1973 ildə BMT-nin TŞ 338 saylı qərar qəbul etdi. Müharibə aparan tərəflərə atəşi dərhal dayandırıb 2424 saylı qərarın həyata keçirilməsi üçün addımlar atmaq tövsiyə olundu. Bu qərar yerinə yetirilmədi. 25.X. 340 saylı yeni qərara görə BMT-nin xüsusi qüvvələri regiona yeridilməli idi.

Bu Ərəb-İsrail münaqişəsinin həlli üçün (*Beynəlxalq münaqişələrin sülh yolu ilə həll edilməsi*) siyasi perspektivlərin açılmasına zəmin yaratdı. 21.XII.1973-cü il BMT-nin sədrliyi altında Cenevrədə SSRİ və ABŞ-ın rəhbərliyi ilə sülh konfransı (*Beynəlxalq konfrans*) açıldı. Lakin onun fəaliyyəti heç bir nəticə vermədi.

Ərəb-İsrail münaqişəsi bu gün də beynəlxalq miqyasda müzakirə olunur.

**ƏRLİ QADININ VƏTƏNDAŞLIĞINA DAİR KONVENSİYA** (1957). 29.I. *BMT Baş Məclisinin* XI sessiyasında qəbul edilib; 11.VIII.1958 ildən qüvvəyə minib.

K.-nın məqsədi hüquqda və gündəlik təcrübədə vətəndaşlığa aid məsələlərdə nigahla əlaqədar qadınların öz vətəndaşlığını (*Vətəndaşlıq*) itirmələri, yaxud vətəndaşlıq əldə etmələri, ərin nigahı pozması və ya vətəndaşlığını dəyişməsi nəticəsində ortaya çıxan ziddiyyətləri və əyintiləri aradan qaldırmaqdır.

K.-da kişilərin və qadınların hüquq bərabərliyi kimi mühüm bir prinsip öz əksini tapıb. Bu sənədə görə iştirakçı dövlətlərin hər hansı vətəndaşı ilə xarici ölkə vətəndaşı arasında nigahın pozulması və ya ərin öz vətəndaşlığını dəyişməsi arvadın vətəndaşlığına təsir göstərir.

**ƏRZURUM MÜQAVİLƏLƏRİ.** 1) Ərzurum sülh müqaviləsi (*Beynəlxalq müqavilə*) 1821-1823 illər İran-Türkiyə *müharibəsi* nəticəsində 28.VII. bağlanmışdır və 7 bənddən ibarətdir.

Ə.m.-yə görə iki ölkə arasındakı sərhədlər (*Dövlət sərhədləri*) ilə müəyyən edildi və tərəflər bundan belə sərhədləri pozmamağı öhdələrinə götürürdü.

İran qoşunları tərəfindən işğal *olunmuş bütün torpaqlar* Türkiyəyə qaytarılırdı. Sərhəddə yaşayan köçərilərin digər əraziyə göçürülməsi əvvəlcədən xəbərdarlıq edilməli idi və onlar otlaq sahəsi üçün vergi və digər rüsumları ödəməli, zəvvarlara Osmanlı imperatorluğu ərazisində heç bir maneçilik edilməməli, ticarət malları üzərinə hər iki ölkə üçün 4 %-dən artıq gömrük vergisi qoyulmamalı idi.





2) Türkiyə-İran arasında sərhəd münaqişələrini nizama salmaq üçün 1843 ildə İngiltərə və Rusiyanın *vasitəçiliyi* ilə başlamış müzakirələrin nəticəsi kimi 31.VI.1847 ildə bağlanmışdır. 9 bənddən ibarət idi. II.Ə.s.m.-nə görə hər iki dövlət bir-birinə qarşı ərazi iddialarından əl çəkməli; İran Zöhab, Kərind və Süleymaniyyə *sancaqlarından* Türkiyənin xeyrinə əl çəkməli, Türkiyə Mühərrəməni (Xürrəmşəhr) İran ərazisi kimi tanımalı, ticarət haqqında 1823 il müqaviləsinin qərarlarına hörmət etməli, şiələrin müqəddəs yerlərə ziyarətinə maneçilik törədilməməli idi.

Xüsusi *protokola* əsasən 4 tərəfli komissiya sərhədləri dəqiq müəyyən etmək üçün 1849 ildə yenidən fəaliyyətə başlamalı idi.

**ƏSGƏR NƏHAVƏNDİYAN.** Ali təhsillidir və yol tikinti işləri mühəndisidir. İran İslam Respublikası Poçt, teleqraf və telefon nazirinin müavini işləmişdir. İİR-nın Cəddədəki *səfirliyində* müşavir olmuş, İİR-nın Şimali Koreyada *səfiri* işləmişdir. İİR Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) Fars körfəzini öyrənən qrupun rəisi və Orta Şərq üzrə müşavir olmuşdur. Səfir təyin olunanadək İİR Mədən və mədən yataqları nazirinin müavini işləmişdir. 1992-1995 illərdə İran İslam Respublikasının Azərbaycan Respublikasında səfiri olmuşdur.

**ƏSRİN MÜQAVİLƏSİ** (1994). 20.IX. Xəzər dənizinin Azərbaycan sektorundakı «Azəri», «Çıraq» «Günəşli» neft yataqlarının birgə tədqiqi və istismarı haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri arasında bağlanmış müqavilə (*Beynəlxalq müqavilə*). 30 il müddətində imzalanmış, 7, 4 mld dollar ümumi kapital qoyuluşu nəzərdə tutulmuş müqavilədə 8 ölkəni təmsil edən 12 şirkət iştirak edir. Müqavilə 12.XII.1994 qüvvəyə minmişdir.

Müqavilə üzrə şirkətlər arasındakı pay bölgüsü aşağıdakı kimidir: Britiş Petrolium (Böyük Britaniya) 17,1267%; Amoko (ABŞ)-17,0100%; Yunokal (ABŞ)-10,0489; Azərbaycan Respublikası Dövlət Neft Şirkəti-10%; Lukoyl (Rusiya)-10% Statoyl (Norveç)-8, 5633%; Ekson (ABŞ)-8,0006%; TPAO (Türkiyə) 6,7500%; Penzoyl (ABŞ)- 4, 8175%; İtoçu (Yaponiya)- 3, 9205%; Remko (Böyük Britaniya)- 2, 0825%; Delta (Səudiyyə Ərəbistanı)-1, 6800%

1995 Konsorsium üzvləri arasında imzalanmış «Əməliyyatların birgə aparılması haqqında razılaşmaya» müvafiq olaraq Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradıldı.

**ƏTRAF MÜHİTƏ DAİR BMT PROQRAMI** (YUNEP). *BMT Baş Məclisinin* orqanı; BMT BM 2997 (XXVII) *Qətnaməsinə* uyğun olaraq, *BMT*-nin ətraf mühitin problemlərinə həsr olunmuş 05-16.VI.1972 il Stokholm konfransının (*Beynəlxalq konfrans*) tövsiyələri əsasında təsis edilib.

YUNEP-in funksiyası ətraf mühitdə baş verən dəyişiklikləri müşahidə etməklə, ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq *əməkdaşlığı* təşviq və əlaqələndirməkdir.

YUNEP proqramlarının maliyyələşdirilməsi BMT üzvü ölkələrin könüllü ödəmələri hesabına baş verir. Qərargahı Nayrobidədir (Geniya).

YUNEP-in əsas fəaliyyət istiqamətləri-ətraf mühitin qorunması ilə bağlı məsələlər barədə informasiya toplanması və onun beynəlxalq mübadiləsinin təşkili, suyun və torpağın

mühafizəsi, səhralıqların genişlənib artması ilə mübarizə, dəniz mühitinin qorunub saxlanması, bitki və heyvanlar aləminin mühafizəsi, yerin genetik fondunun mühafizəsi, enerjinin alternativ mənbələrinin axtarılıb tapılması; enerjinin müxtəlif növlərindən istifadə edərkən onların təbii mühitə təsirinin öyrənilməsi kimi ekoloji problemlərin həllinə dair proqramların işlənib hazırlanması və onların həyata keçirilməsi, ekologiya sahəsində mütəxəssislərin yetişdirilməsi və s.-dən ibarətdir.

1982 ildə YUNEP-in Müdirlər Şurasının xüsusi sessiyası 2000 iləədək olan dövr və sonrakı illər üçün təbiəti qorumaq sahəsində uzunmüddətli strategiya işləyib hazırlamaq barədə qərar qəbul etmişdi. 1985 ildə YUNEP rəhbərliyi təbii ehtiyatlar üzrə qlobal məlumat bankının yaradıldığını elan etmişdi.

**ƏTRAF MÜHİTƏ TƏSİR EDƏN VASİTƏLƏRDƏN HƏRBİ, YAXUD HƏR HANSI DİGƏR DÜŞMƏN NİYYƏTLƏ İSTİFADƏNİ QADAĞAN EDƏN KON-VENSİYA** (1947). İmzalanmaq üçün 18.V.1977 ildən açıqdır; 05.X.1978 ildə qüvvəyə minib; etibarlılıq müddəti müəyyən olunmayıb.

K.-nın zəruriliyi hərbi məqsədlərlə ətraf mühitə aktiv təsir göstərməyin mümkünlüyündən irəli gəlmişdir (belə üsullar Vyetnama qarşı ABŞ təcavüzü zamanı Amerika ordusu tərəfindən tətbiq edilmişdir).

K. iştirakçılar üzərinə belə bir öhdəlik qoyur ki, yerin dinamikasını, tərkibini və strukturunu (biotası, litosferi, hidrosferi və atmosferi daxil olmaqla) poza biləcək istənilən vasitələrdən hərbi, yaxud hər hansı digər pis niyyətlə istifadə etməsinlər. K ətraf mühitə təsir edən vasitələrdən dinc məqsədlərlə istifadəyə maneə yaratmır.

K.-da iştirakçı dövlətlərin irəli sürülən tələblərə qəti şəkildə əməl etmələrini təmin edəcək təsirli tədbirlərin görülməsi də nəzərdə tutulub. İstənilən dövlət iştirakçı olan digər dövlət tərəfindən K.-nın pozulması barədə faktiki materiala malik olduqda bu barədə dərhal *BMT Təhlükəsizlik Şurasına* şikayətlə müraciət edə bilər.

**ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ.** İnsanın həyati fəaliyyəti üçün optimal şəraitin təmin olunması məqsədilə yerin bioloji sferasının qorunmasına və yaxşılaşmasına yönəldilən tədbirlər kompleksi; müasir dövrün qlobal problemlərindən biridir. Ə.m.m. XX əsrin ortalarından əksər dövlətlərin istər daxili siyasətində, istərsə də *beynəlxalq münasibətlərdə* getdikcə daha çox əhəmiyyət kəsb edir, regional və qlobal səviyyələrdə əlbir səylər tələb edir. Ə.m.m. sahəsində beynəlxalq əməkdaşlıq *BMT* sistemində səmərəli şəkildə inkişaf edir; 1972 ildə xüsusi orqan - *Ətraf mühitə dair BMT Proqramının (YUNEP)* yaradılması barədə qərar qəbul olunmuşdu. 1979 ildə ətraf mühitin mühafizəsinə dair ilk Ümumavropa müşavirəsi keçirilmişdi. Müşavirədə hava hövzəsini çirkləndirən maddələrin böyük məsafələrdə yayılması, az tullantılı və tullantısız texnologiyanın tətbiq olunması, tullan-tılardan istifadə olunması problemləri müzakirə edilmişdir. Müşavirənin gedişində «Havanın böyük məsafələrdə sərhədaşırı çirklənməsinə dair Konvensiya» (*Beynəlxalq Konvensiya*) qəbul edilmişdir. Konvensiya təbiətin mühafizəsinə dair ən yaxşı strategiya işləyib hazırlamaq, çirkləndirici maddələrin axınına və tətbiq edilən texnoloji proseslərə dair





informasiya mübadiləsi aparmaq sahəsində tərəflərin üzərinə öhdəlik qoymuşdu.

**ƏZİMBƏYOV AYDIN ƏLİBƏY OĞLU** (1932). 1957 ildə Daşkənd Kənd Təsərrüfatının Mexanikləşdirmə İnstitutunu bitirmişdir. 1957 ildən 1994 ilə qədər Özbəkistanda müxtəlif vəzifələrdə, o cümlədən Sırdərya Vilayət Partiya Komitəsinin katibi, Özbəkistan Avtomobil Naziri, Özbəkistan Respublikasının Nazirlər Kabinetinin nəqliyyat şöbəsinin müdiri kimi məsul vəzifələrdə çalışmışdır. 1996 ildə Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı Fövqəladə və Səlahiyyətli *səfiri* vəzifəsinə təyin olunmuşdur.

Fövqəladə və Səlahiyyətli səfir diplomatik rütbəsinə (*Diplomatik adlar və rütbələr*) malikdir.

**ƏZİMOV ARAZ BÖYÜKAĞA OĞLU** (1962). 1984 ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir. 1984-1989 illərdə Azərbaycan Dövlət Teleradio Şirkətində fəaliyyət göstərmişdir.

1989-1999 illərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (*Xarici İşlər İdarəsi*) İnformasiya şöbəsində 2-ci katib, 1990-1991 illərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi İnformasiya şöbəsində 1-ci katib, 1991-1992 illərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi İnformasiya şöbəsində müdir müavini,

1992-1994 illərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Beynəlxalq təşkilatlar idarəsinin rəisi vəzifəsində işləmişdir.

1994 ildən Azərbaycan Respublikası Xarici İşlər Nazirinin müavinidir.

**FAİZ MƏHƏMMƏD XOSO** (1951). Siyasi elmlər üzrə təhsil almışdır. 1976-1978 illərdə Pakistan İslam Respublikasının Xarici İşlər Nazirliyinin (*Xarici İşlər İdarəsi*) əməkdaşı olmuş, 1980-1983 illərdə Pakistan İslam Respublikasının Çin Xalq Respublikasındakı *səfirliyində* çalışmışdır. 1987-1992 illərdə Pakistan İslam Respublikasının Kanadakı səfirliyində, 1992-1994 illdərdə Yaponiyadakı səfirliyində işləmişdir. 1999 ildə Pakistan İslam Respublikasının Bəhreyndəki səfirliyində nazir vəzifəsində fəaliyyət göstərmişdir. Fövqəladə və səlahiyyətli *səfir* dərəcəsinə malikdir. 2001 ildə Pakistan İslam Respublikasının Azərbaycan Respublikasında səfiri təyin olunmuşdur.

**FARUK ƏMİN ƏL-HAVARİ** (1937). Ədəbiyyat və biznes sahəsində ali təhsil almışdır. 1959 ildən Misir Ərəb Respublikası İqtisadiyyat Nazirliyində işləmişdir. MƏR-in İspaniyada, Qanada, Çexoslovakiyada, Somalidə ticarət nümayəndəliklərində diplomatik vəzifələrdə çalışmışdır. 1980 ildən MƏR-in Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) çalışır. MƏR-in ÇXR, Filippindəki *səfirliklərində* işləmişdir. XİN-də Asiya departamentinin direktor müavini və daha sonra bu departamentin direktoru olmuşdur. 1993 ildə Azərbaycan Respublikasında müvəqqəti işlər vəkili təyin olmuşdur. 1993-1996 illərdə Misir Ərəb Respublikasının Azərbaycan Respublikasında *səfiri* işləmişdir.

**FEDERASİYA** (lat. *foedaratio* - ittifaq, birlik deməkdir). Hüquqi baxımdan müəyyən siyasi müstəqilliyə malik olan dövlət qurumlarının birləşib ittifaq dövləti yaratması nəticəsində əmələ gəlmiş dövlət quruluşu formasıdır.

F.-nı unitar dövlətdən fərqləndirən səciyyəvi əlamətlər aşağıdakılardır: 1) F.-nın ərazisi onun ayrı-ayrı subyektlərinin ərazilərindən (ABŞ-da, Ştatlardan, Avstrasiyada və AFR-dakı torpaqlardan, keçmiş SSRİ-də ittifaq respublikalarından) ibarətdir; 2) bir qayda olaraq, F.-nın subyektləri təsisedici *hakimiyyətə*, *yəni öz konstitusiyalarını* qəbul etmək hüququna malikdir; 3) F.-nın və onun subyektlərinin səlahiyyətləri ittifaq konstitusiyası ilə müəyyənləşir; 4) hər bir subyekt özünün hüquq və məhkəmə sisteminə malikdir; 5) F.-ların əksəriyyətində eyni zamanda vahid ittifaq *vətəndaşlığı* və hər bir ittifaq vahidinin vətəndaşlığı mövcuddur. Bir qayda olaraq, F. vahid silahlı qüvvələrə, ümumfederal büdcəyə malik olur. Dövlət hakimiyyəti və idarəetmə funksiyaları həm ümumfederal qanunverici, icraedici və məhkəmə orqanları, həm də F. üzvlərinin müvafiq orqanları tərəfindən həyata keçirilir. Bir sıra F.-ların parlamentlərində F. üzvlərinin maraqlarını təmsil edən palata mövcuddur.

Bəzi F.-ları (ABŞ, Avstraliya, İsveçrə, Kanada) keçmiş müstəmləkələrin birləşməsi nəticəsində meydana gəlmişlər. Bir sıra başqa F-lar feodal dağınıqlığından mərkəzləşmiş dövlətə keçid nəticəsində yaranmışdı.

15 ittifaq respublikasından ibarət olan Sovet Sosialist Respublikaları İttifaqı F.-nın ən yüksək forması elan olunurdu. SSRİ-nin böhranı dövründə öz hakimiyyətlərini qoruyub saxlamaq naminə Vilnüsdə, Tbilisidə və xüsusilə Bakıda törətdilən qırğınlar SSRİ-nin federativ qanunlarının zorakılıq prinsipi əsasında yaradılması faktını sübuta yetirdi.

Bir sıra ittifaq respublikalarında yaradılan və «sovet federasiyasının xüsusi forması» kimi təqdim olunan muxtar qurumlar (Azərbaycanda - Dağlıq Qarabağ, Gürcüstanda – Abxaziya və Osetiya və s.), sonralar maraqlı ölkələr tərəfindən *yeni müstəmləkəçilik* siyasətini həyata keçirmək alətinə çevrildilər.

**FEDERİKO DE ROBERTO** (1935). 1957 ildə Genuya Universitetinin hüquq fakultəsini bitirmişdir. 1959 ildən diplomatik xidmətə qəbul olunmuşdur. İtaliya Respublikasının Moskvada (Rusiya), Brüsseldə (Belçika) konsulluqlarında (*Konsul idarəsi*) çalışmışdır. 1979 ildə II sinif fövqəladə və səlahiyyətli *elçi* dərəcəsini almışdır. 1980 ildə Peruda *səfir* işləmiş, 1986 ildə fövqəladə və səlahiyyətli nazir dərəcəsi almışdır. 1990 ildə İtaliya Respublikasının *Avropa İqtisadi Birliyində* Daimi nümayəndəliyinin başçısı olmuşdur. 1993-1996 illərdə İtaliya *Respublikasının Azərbaycan Respublikasında* (eyni zamanda Rusiya Federasiyasında) səfiri olmuşdur.

**FERDİNANDO SALMO** (1936). Roma Universitinin hüquq fakultəsini bitirmişdir. 1960 ildən diplomatik xidmətə işə qəbul olunub. 1979 ildən fövqəladə nümayəndə və II dərəcəli *səfir* dərəcəsinə layiq görülmüşdür. 1986 ildə Avropa İnkişafa Yardım Təşkilatında işləmişdir. 1989 ildə İtaliya Respublikasının Rusiyadakı *səfirliyində* çalışmışdır. 1981-1984 illərdə Çezare Alfyeri adına Florensiya Universitetinin Siyasi elmlər fakültəsinin professoru olmuş, 1985-1988 illərdə Roma Universitetinin Beynəlxalq münasibətlər nəzəriyyəsi kafedrasının müdiri işləmişdir. 1992-1993 illərdə İtaliya Respublikasının Azərbaycan Respublikasında səfiri işləmişdir. Rusiya Federasiyasında səfir olmaqla yanaşı Azərbaycan Respublikasında səfir kimi akkreditə olunmuşdur (*Akkreditə etmək*).





**FƏTƏLİ XAN, QUBALİ FƏTƏLİ XAN** (1736-1789). Azərbaycanın dövlət xadimi, *diplomat*, sərkərdə. 1758-1789 illərdə Quba xanı olmuşdu. Atası Hüseynəli xan dövründən dövlət işlərində yaxından iştirak etmişdi. Mərkəzləşdirilmiş dövlət siyasəti yürüdən F.X. 1756 ildə Salyanı Quba xanlığına birləşdirdi. Mühüm strateji və ticarət əhəmiyyətli Dərbənd xanlığını tutmağa çalışan F.X. 1759 ildə dərbəndlilərin müraciətini bəhanə edərək oraya hücum etdi. Həmin ildə Müşkür, Nıyazabad, Şabran, Rustov, Beşbarmaq əyalətləri də tabe edildi. Vahid Azərbaycan dövləti yaratmağa çalışan F.X. keçmiş Şirvanşahlar dövləti ərazisini birləşdirmək, sonra isə Cənubi Azərbaycan xanlıqlarını da bu dövlətə *ilhaq* etməyi qarşıya məqsəd qoymuşdu. «Nigah diplomatiyası»ndan məharətlə istifadə edən F.X. bacısı Xədicə Bikəni Bakı xanı Məlik Məhəmməd xana ərə verərək onu özündən asılı vəziyyətə salmışdı. F.X. 1767 ildə Şəki xanı ilə ittifaq bağlayıb Şamaxı xanlığını işğal etdi; tezliklə Cavad və Talış xanlıqları da asılı vəziyyətə düşdü. Dərbənddən Gilanadək zəngin torpaqların birləşdirilməsi Quba xanlığının hərbi, ticarət-iqtisadi əhəmiyyətini artırdı.

F.x. Rusiya ilə dostluq əlaqəsi saxlamış və dəfələrlə Peterburqa *səfir* göndərmişdi. 1769 ildə Osmanlı sultanı III Mustafanın, həmçinin İran hakimi Kərim xan Zəndin Rusiyaya qarşı çıxmaq təkliflərini rədd edən F.X. Rusiya ilə ticarət əlaqələrinin genişləndirilməsinə çalışırdı. F.X.-nın qüvvətlənməsindən və onun yeritdiyi siyasətdən narazı olan bəzi Azərbaycan və Dağıstan hakimləri (Qaraqaytaq Usmisi Əmir Həmzənin başçılığı ilə) ona qarşı ittifaq bağladılar. Xudat yaxınlığında baş vermiş Gavduşan vuruşmasında (1774) məğlubiyyətə uğrayan F.X. Salyana çəkildi. Quba və Şamaxı tutuldu; Dərbənd mühasirəyə alındı. Dərbəndin müdafiəsinə F.X.-nın arvadı, Əmir Həmzənin bacısı Tuti Bikə rəhbərlik edirdi. III.1775 ildə general Q. F. de Medemin başçılığı ilə Dərbəndə gələn rus qoşununun yardımı ilə F.X. düşmənlərini məğlub etdi.

*Ağa Məhəmməd şah Qacarın* təcavüzündən ehtiyat edən bir sıra Azərbaycan xanları F.X.-ın himayəsinə keçmək istədiklərini bildirdilər. F.X. 1784 ildə Ərdəbil və Meşkini tutdu. Lakin bu, Xəzər dənizinin qərb sahillərində möhkəmlənməyə çalışan Rusiyanın mənafeyinə zidd idi. Rusiyanın təkidi ilə F.X. Cənubi Azərbaycandan geri çəkilməyə məcbur oldu. 1787 ildə F.X. Rusiyadan onu himayəsinə götürməyi yenidən xahiş etdi. F.X.-nın tərtib etdiyi layihədə Azərbaycanın müstəqilliyi əsas götürülür, Rusiyadan isə yalnız himayədarlıq və yardım xahiş olunurdu. Bu, Rusiyanın Zaqafqaziyanı tutmaq məqsədinə uyğun gəlmədiyi üçün F.X.-nın müraciəti cavabsız qaldı. F.X. İran və Osmanlı təhlükəsinə qarşı 1787 ildə Rusiyanın *vasitəçiliyi* ilə keçmiş rəqibi, gürcü çarı II İrakli ilə ittifaq bağladı. Dağıstan feodalları ilə münasibətlərini yaxınlaşdıraraq onları *xarici siyasətdə* özündən asılı vəziyyətə saldı.

İqtisadi bazisin olmaması, qapalı natural təsərrüfat, feodal pərakən-

dəliyi və bir sıra xarici səbəblər üzündən F.X. Azərbaycan torpaqlarının sabit birliyini yarada bilmədi. Lakin onun yürütdüyü siyasət o dövr üçün mütərəqqi xarakter daşıyırdı.

**FƏTƏLİ ŞAH *(Baba xan) Hüseynqulu xan oğlu Qacar*** (1760-1834). 1797-1834 illərdə Qaçarlar sülaləsinin ikinci şahı.

F.Ş. rusların Qafqaza və Azərbaycana hücumlarının qarşısını almaq məqsədilə bir sıra tədbirlər görsə də Qarabağ, Şəki, Şirvan və Bakının Rusiya hakimiyyəti altına keçməsinin qarşısını ala bilmədi.

04.V.1807 ildə Fransa ilə İran arasında «Finkenşteyn» sazişi imzalandı. Bu sazişlə Fransa Rusiyaya qarşı İrana kömək göstərməliydi. Ancaq Napoleon (*Napoleon I Bonapart*) sazişə əməl etmədi.

I.1813 ildə ruslar Lənkəran qalasını tutdular. İngiltərə F.Ş.-ı ruslarla saziş bağlamağa razı saldı. Beləliklə, bu *müharibə Gülüstan müqaviləsiylə* başa çatdı.

1826 ildə ruslarla ikinci müharibə baş verdi. Bu müharibədə məğlub olan F.Ş. Rusiya ilə *Türkmənçay müqaviləsini* bağlamalı oldu. Bununla da Azərbaycanın ikiyə bölünməsi başa çatdırıldı.

**FRANSA – İNGİLTƏRƏ – TÜRKİYƏ MÜQAVİLƏSİ** (1939). 19.X. Ankarada imzalanmış və üç ölkə arasında hərbi ittifaqı rəsmiləşdirdi. M.-nin şərtlərinə görə, Türkiyə təcavüzə məruz qaldığı təqdirdə Fransa və İngiltərə ona yardım *etməli idilər. Aralıq dənizi rayonunda*, Fransa və İngiltərənin cəlb olunduğu *müharibə* baş verəcəyi təqdirdə Türkiyə onlara kömək etməli idi. Fransa və İngiltərənin 13.IV.1939 ildə Rumıniya və Yunanıstanın təhlükəsizliyinə verdikləri təminatla əlaqədar onlar hər hansı bir müharibəyə cəlb olunarsa, Türkiyə Rumıniya və Yunanıstana yardım göstərməli idi.

**FORİN OFFİS** (ing. *Foreign Offise*, hərfən - xarici təsisat). Böyük Britaniyanın Xarici İşlər nazirliyi (*Xarici İşlər İdarəsi*). 1968 ildə Həmrəylik işləri üzrə nazirliklə birləşməsi nəticəsində xarici işlər və Həmrəylik üzrə nazirliyə çevrilmişdir.

**FÖVQƏLADƏ SƏFİRLİK.** Hər hansı dövlətə onun dəvəti ilə ölkə müstəqilliyinin elan edilməsi, milli bayram, ölkə başçısının vəzifə başına keçməsi münasibətilə (monarxiya quruluşlu ölkələrdə tacqoyma mərasimləri) keçirilən mərasim və şənliklərdə, *dövlət başçısının* və digər rəsmi şəxslərin matəm mərasimlərində iştirak etmək üçün göndərilən nümayəndəlikdir. Müasir beynəlxalq praktikada F.s. çox vaxt hökumətin xüsusi nümayəndəliyi adlandırılır (*Xüsusi missiya*). Bəzən F.s. funksiyaları həmin ölkədə daimi yerləşən *diplomatik nümayəndəliyə* həvalə olunur.

**FÖVQƏLADƏ VƏZİYYƏT.** Fövqəladə vəziyyət inzibati hüquqi rejim növlərindən biri olmaqla qanunvericiliklə nəzərdə tutulmuş hallarda inzibati hüquqi tədbirlərinin tətbiqini nəzərdə tutur. Əhəmiyyəti nəzərə alınmaqla Azərbaycan Respublikası Konstitusiyasının 112-ci maddəsi xüsusi olaraq F.v. rejiminə həsr edilmişdir. Həmin maddəyə görə *F.v. rejiminin tətbiq edilməsi hallarını* iki növə bölmək olar: insan iradəsindən asılı olmayan hallar və insan iradəsi ilə bilavasitə əlaqəsi olan hallar.

İnsan iradəsindən asılı olmayan hallar aşağıdakılardır:

1) təbii fəlakətlər;

2) epidemiyalar;

3) epizootiyalar;

4) böyük ekoloci və başqa qəzalar.

İnsan iradəsi ilə bilavasitə əlaqəsi olan hallar aşağıdakılardır:

1) Azərbaycan Respublikasının ərazi bütövlüyü pozulduqda;

2) dövlətə qarşı qiyam baş verdikdə;

3) dövlət çevrilişinə yönəldilən hərəkətlər edildikdə;

4) zorakılıqla müşayiət olunan kütləvi iğtişaşlar yarandıqda;

5) vətəndaşların həyatı və təhlükəsizliyi tələb etdikdə;

6) dövlət təsisatlarının normal fəaliyyəti üçün qorxu törədən münaqişələr meydana gəldikdə.

Hal-hazırda F.v. rejiminin tətbiqi ilə əlaqədar hüquqi münasibətlər Azərbaycan Respublikası Milli Məclisi tərəfindən 04.II.1992 ildə qəbul edilmiş «Fövqəladə vəziyyət haqqında» Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

Azərbaycan Respublikasının ayrı-ayrı yerlərində F.v. Azərbaycan Respublikası *Prezidentinin* fərmanı ilə tətbiq edilir. Həmin fərman Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilir.

# G

**GALİB ƏBDÜ HÜSEYN ƏL-MƏMİMİ** (1951). Ədəbiyyat elmləri üzrə doktordur. Belorusiya Dövlət Universitetinin terminologiya üzrə elmlər doktorudur. 1986 ildən başlayaraq diplomatik idarələrdə çalışmışdır. 1986-1988 illərdə İraq Respublikasının Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) Mərkəzi aparatda SSRİ şöbəsinin müdiri olmuş, 1988-1990 illərdə İraqın Rusiyadakı *səfirliyində* I katib, 1990-1993 illərdə müşavir kimi fəaliyyət göstərmişdir. 1995-1998 illərdə XİN Mərkəzi aparatında III Siyasi departamentin rəis müavini işləmişdir. İraq Respublikasının Azərbaycan Respublikasındakı diplomatik nümayəndəsi 1973 ildən Baş Konsulluq (*Konsul idarəsi*) səviyyəsində fəaliyyət göstərmiş və 1992 ildən o, səfirlik səviyyəsinə qaldırılmışdır. 1999 ildə İraq Respublikasının Azərbaycan Respublikasında *səfiri* təyin olunmuşdur.

**GENOSİD** (yunan. *Genos* - nəsil, tayfa və lat. *Caldere* - öldürmək). Bax. Soyqırım

**GENUYA KONFRANSI** (1922). 10.IV-19.V. İqtisadi və maliyə məsələləri üzrə, 29 dövlətin və 5 Böyük Britaniya dominionunun iştirakı ilə keçirilib. ABŞ konfransda (*Beynəlxalq konfranslar*) müşahidəçi (*Müşahidəçilər*) kimi iştirak etmişdir. G.k.-da sovet Rusiyasından çar Rusiya hökumətinin xarici borclarını və maliyyə öhdəliklərini tanımaq və onların ödənilməsi barədə öhdəlik götürmək, milliləşdirilmiş müəssisələri xarici sahibkarlara qaytarmaq tələb olunurdu. Sovet dövləti onun rəsmən tanınması, ona iqtisadi və maliyyə yar-

dını göstərilməsi, hərbi borcların faizlərinin ləğv edilməsi şərti ilə müharibəyə qədərki borcları ödəməyə və xarici sahibkarların *konsessiya* və icarə hüquqlarının tanımağa razı olduğunu bildirdi; eyni zamanda xarici müdaxilə zamanı ona dəymiş zərərin ödənilməsi barədə əks-iddia irəli sürdü. 16.IV.1922 ildə Almaniya ilə RSFSR arasında *diplomatik əlaqələrin* bərpa olunması haqqında *Rapallo müqaviləsi* imzalandı.

G.k.-da sovet nümayəndə heyətinin tərkibində Azərbaycan SSR-i N.Nərimanov (*Nərimanov Nəriman Kərbəlayi Nəcəf oğlu*) təmsil etmişdi.

**GEORGİOS ZOİS TEOFANİS** (1948). 1974 ildə Afina Universitetinin hüquqşünaslıq fakultəsini bitirmişdir. 1974 ildən diplomatik fəaliyyətə başlamışdır. Müxtəlif diplomatik vəzifələrdə çalışmışdır. 1979 ildə Yunanıstan Respublikasının Ştutqartdakı (Almaniya) Baş konsulluğunda (*Konsul idarəsi*) *konsul* işləmişdir. 1989 ildə Yunanıstanın Los-Ancelesdəki (ABŞ) Baş konsulluğunda, 1993 ildə Xarici İşlər Nazirliyi (*Xarici İşlər İdarəsi*) Mərkəzi aparatında fəaliyyət göstərmişdir. 1996 ildə ona II dərəcəli səlahiyyətli nazir rütbəsi verilmişdir. 1996-2000 illərdə Yunanıstan Respublikasının Azərbaycan Respublikasında *səfiri* işləmişdir.

**GERİ ÇAĞIRMA SƏNƏDİ** (*fr. Lettres de Rappel* - Övdətnamə). Diplomatik nümayəndənin geri çağırılması sənədi yeni təyin olunmuş *səfir* haqqında fərmanla bərabər verilir. *Etimadnamə* kimi G.ç.s. də *dövlət başçısı* tərəfindən imzalanır və xarici işlər nazirinin imzası ilə təsdiqlənir. Etimadnamə kimi G.ç.s.-i də ölkə başçısına ünvanlanır. Adətən, yeni səfir akkreditə *(Akkreditə etmək)* olunduğu ölkə başçısına öz etimadnaməsini təqdim edərkən keçmiş səfirin G.ç.s.-ni də verir. Yeni səfir gələnədək keçmiş səfir ölkəni tərk etməlidir. G.ç.s.-i göndərən ölkənin və qəbul edən ölkənin Konstitusiyada göstərilər adı ilə başlanır. Ölkənin rəsmi adını göstərməklə, onun G.ç.s.-də səfirin (*diplomatik nümayəndəlik* başçısının (*Diplomatik başçılıq*) yerləşdiyi ölkədə fəaliyyət göstərdiyi müddətdə iki ölkə arasında əlaqələrin inkişafında, dostluq və əməkdaşlıq tellərinin möhkəmlənməsində xidmətləri göstərilir. Bir çox hallarda geri çağırılmanın yeni təyinatla bağlı olduğu bildirilir.

Müəyyən səbəblər üzündən səfir vaxtından əvvəl də geri çağırıla bilər. Bu halda geri çağırılma səbəbi çox vaxt göstərilmir.

Bəzən akkreditə edən ölkə G.ç.s. səfirin özünə göndərir, o da öz G.ç.s. ölkə başçısına təqdim edərək xudahafizləşir, ölkəni tərk edir. Təcrübədə belə hala olduqca az təsadüf olunur.

**GİHAN ƏMİN MƏHƏMMƏD ƏLİ** (1949). 1971 ildə Qahirə Universitetini bitirmişdir. 1978-1982 illərdə Misirin Mərakeşdəki *səfirliyinin*, 1982-1984 illərdə Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) müavin, katibliyində əməkdaş olmuşdur. 1991-1995 illərdə Misirin Böyük Britaniya səfirliyində işləmiş, 1995-1996 illərdə XİN Siyasi planlaşdırma idarəsinin rəis müavini, 1996-2000 illərdə XİN Elmi mərkəzlər və Universitetlər departamentinin müdiri olmuşdur. 2000 ildə Misir Ərəb Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli *səfiri* təyin olunmuşdur.





**GİROV GÖTÜRÜLMƏSİ İLƏ MÜBARİZƏ HAQQINDA BEYNƏLXALQ KONVENSİYA** (1979). *BMT*-nin Baş Assambleyasının 32-ci Sessiyasında qəbul edilmişdir.

K. insanların girov götürülməsini cinayət kimi qiymətləndirir və əgər cinayəti törətmiş şəxs bir üzv dövlət tərəfindən digər üzv dövlətə verilmirsə, onda insanları görov götürmüş hər bir kəsi məhkəməyə cəlb etməyi həmin üzv dövlətin öhdəsinə qoyur. K.-nın səmərəliliyini azaldan vacib çatışmazlıq insanları girov götürmüş cinayətkarların qondarma siyasi motivlər üzündən verilməsinə imtina edilməsi imkanıdır. Belə məhdudiyyət bu sahədə dövlətlərin beynəlxalq əməkdaşlığının əsas prinsipi ilə ziddiyət təşkil edir. Bu prinsip törədilmiş cinayətə görə cəzanın qaçılmaz olması prinsipidir.

Girovların götürülməsinə qoyulan qadağa hava gəmilərinin qeyri-qanuni ələ keçirilməsi ilə mübarizə üzrə 1970 il Konvensiyası (*Beynəlxalq konvensiya*) və mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəldilmiş qeyri-qanuni hərəkətlərlə mübarizə üzrə 1971 il Konvensiyası və eləcə də beynəlxalq müdafiə altında olan şəxslərin, o cümlədən *diplomatik agentlər* qarşı olan cinayətlərin qarşısının alınması və onlara görə cəza verilməsi haqda 1973 il Konvensiyasında ümumi formada nəzərdə tutulmuşdur.

**GUÖAM.** 1996 ildə yaradılmışdır. Tərkibinə 5 post-sovet ölkəsi daxildir. İlk üzvləri Ukrayna, Azərbaycan, Gürcüstan və Moldova olmuşdu. Sonradan Özbəkistan da bu dövlətlərə qoşulmuşdu. GUÖAM-ın məqsədi üzv dövlətlərin iqtisadi və digər sahələrdə əməkdaşlığını inkişaf etdirməkdir.

Təşkilatın (*Beynəlxalq təşkilatlar*) vaxtaşırı iclasları keçirilir. Bunların ən mühümü Yalta sammitidir. Sammitdə təşkilatın əsas fəaliyyət istiqamətlərinin əks olunduğu «Yalta xartiyası» imzalanmışdı.

Azərbaycan Respublikası Təşkilatın işində fəal iştirak edir.

**GÜLÜSTAN MÜQAVİLƏSİ** (1813). 12.X. Qarabağın Gülüstan kəndində Rusiya və İran dövlətləri adından imzalanıb. G.m. Azərbaycan və Cənubi Qafqazın digər ərazilərinin işğalı uğrunda aparılmış 1804-1813 illər Rusiya-İran *müharibəsinə* son qoydu və Qarabağ, Gəncə, Şəki, Şirvan, Quba, Bakı, Dərbənd və Talış xanlıqlarının Rusiya imperiyası tərəfindən işğalını, bununla da Azərbaycanın ikiyə bölünməsinin rəsmiləşdirilməsinin əsasını qoydu. Bundan başqa Dağıstan, Şiragel əyaləti ilə birlikdə Gürcüstan, İmeretiya, Quriya Minqreliya və Abxaziya da Rusiyanın tabeçiliyinə keçdi. Rusiyaya Xəzər dənizində hərbi donanma saxlamaq üçün müstəsna hüquq verildi. Hər iki ölkə tacirlərinə ticarət azadlığı hüququ verildi. G.m.-nə görə Rusiya İranın vəliəhdlik siyasətinə müdaxilə, yəni şah tərəfindən təyin olunmuş vəliəhdin taxt-taca yiyələnməsinə havadarlıq edə bilərdi. Şahın oğulları arasında ixtilaf yarandığı zaman, şahın özünün müraciət etdiyi təqdirdə Rusiyanın müdaxiləsinə yol verilirdi.

G.m. Azərbaycanın sonrakı tarixi inkişafı üçün mənfi nəticələr verdi.

## H

**HAAQA KONFRANSI** (1922). 15.VI.-19.VII. Sovet Rusiyası və 27 kapitalist dövlətinin iştirakı ilə keçirilmişdir. Sovet hökumətinə kreditlər verilməsi və Rusiyanın inqilabdan əvvəlki borclarının qaytarılması ilə bağlı məsələlər müzakirə olunmuşdur. Tərəflər arasında ziddiyyətlər üzündən konfrans (*Beynəlxalq konfranslar*) nəticəsiz qurtarmışdır.

**HAAQA KONFRANSLARI** (1899 və 1907). 1) 06.VII.1899 il konfransı (*Beynəlxalq konfranslar*). Rusiyanın təşəbbüsü ilə çağırılmışdı. 27 ölkənin iştirak etdiyi H.k.-da beynəlxalq toqquşmaların sülh yolu ilə həlli haqqında, quru *müharibəsinin* qanunları və adətləri haqqında; yaralılar və xəstələr haqqında 1864 il Cenevrə Konvensiyasının (*Beynəlxalq konvensiya*) dəniz müharibəsinə tətbiqi haqqında 3 Konvensiya qəbul edildi.

2) 02.VII.-05.X.1907 il Konfransı: 44 ölkə iştirak etmişdi. H.k.-da 1899 il Konfransının konvensiyalarına yenidən baxılmış və 10 yeni konvensiya qəbul edilmişdi. Bu Konvensiyalar 1899 və 1907 illər Haaqa Konvenvensiyaları kimi məlumdur. Cəmi 13 Konvensiya qəbul edilmişdi: 1) Beynəlxalq toqquşmaların sülh yolu ilə nizamlanması haqqında; 2) Borc müqavilələri öhdəliklərinin yerinə yetirilməsini təmin etmək üçün gücdən istifadənin məhdudlaşdırılmasına dair; 3) Hərbi əməliyyatların başlanmasına dair; 4) Quru müharibəsinin qanunları və adətlərinə dair; 5) Quru müharibəsində neytral ölkələrin və şəxslərin hüquq və vəzifələrinə dair; 6) Hərbi əməliyyatlar zamanı düşmən ticarət gəmiləri haqqında; 7) Ticarət gəmilərinin hərbi gəmilərə çevrilməsi haqqında; 8) Avtomatik kontakt sualtı minaların qoyulması haqqında; 9) Müharibə zamanı dəniz qüvvələri vasitəsilə bombardmanlar haqqında; 10) 1864 il Cenevrə Konvensiyasının dəniz müharibəsinə tətbiqi barədə; 11) Dəniz müharibəsində zəbt etmə hüququnun məhdudlaşdırılmasına dair; 12) Beynəlxalq priz məhkəməsinin yaradılması haqqında (qüvvəyə minməmişdi); 13) Dəniz müharibəsində *neytral dövlətlərin* hüquq və vəzifələri haqqında.

**HACIBƏYLİ CEYHUN BƏY ƏBDÜLHÜSEYN BƏY OĞLU** (1891-1962). Şuşa və Bakı real məktəblərini bitmişdir. 1908 ildə Bakıda «Səadət» məktəbində müəllim işləmişdir.

Murtuza Muxtarovun təqaüdü ilə bir il Peterburq Universitetinin hüquq fakültəsində oxuduqdan sonra, Parisə getmiş, 1909-1916 illərdə Sorbon Universitetində, Siyasi Elmlər Məktəbində və Paris Politexnik Elmlər Məktəbində təhsil almışdır.

Eyni zamanda jurnalistika ilə məşğul olmuşdur. Bakıda «Kaspi», «Proqress», «İrşad», «Tərəqqi», Parisdə «La Revue du Monde Musulman» və Peterburqda «Russkaya mova» qəzetləri ilə əməkdaşlıq, 1917 ildən «İttihad» və «Müsəlmanlıq» qəzetlərini redaktə etmiş, 1918 ildən rus və azərbaycan dilində çıxan «Azərbaycan» qəzetinin redaktorlarından bir olmuşdur.

1918 ildə Versal sülh konfransında iştirak etmək üçün Parisə gedən nümayəndə heyətinin tərkibinə daxil olmuş, 1919 ildə Parisdə «İlk müsəlman respublikası Azərbaycan» adlı kitabı fransızca nəşr edilmiş, Parisdə çıxan «La Revue du Monde Musulman» jurnalında ermənilərin Bakı, Şamaxı, Kürdəmir və Xaçmazda törətdiyi vəhşiliklər haqqında məqalə çap etdirmişdir.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Parisdə yaşamış, «Qafqaz» jurnalının Parisdə, «Azərbaycan» jurnalının Paris və Münxendə fransız nəşrlərini redaktəsi ilə məşğul olmuşdur.

**HACI ÇƏLƏBİ XAN QURBAN OĞLU** (? - 1755). Şəki xanı (1747-1755). Şəki xanlığının banisi. Dərviş Məhəmməd xanın nəslindəndir. İran hakimiyyətinə qarşı 1743 il Şəki üsyanına başçılıq etmiş və hakimiyyəti ələ keçirmişdi. 1744-1745 illərdə Şəkiyə hücum edən Nadir şaha (*Nadir şah Əfşar*) Gələrsən-Görərsən qalasında ciddi müqavimət göstərən H.Ç.X. sonralar Şəkiyə vəkil təyin edildi. 1747 ildə Nadir şah öldürüldükdən sonra H.Ç.X. Şəki xanlığının ilk xanı oldu. H.Ç.X. Azərbaycan torpaqlarını birləşdirmək siyasəti yeridirdi. O, Qəbələ, Ərəş, Qutqaşen sultanlıqlarını və Car-Balakən camaatlığını özündən asılı vəziyyətə saldı; bir neçə dəfə Şamaxı, Gəncə və Qarabağ xanlıqlarına hücum etdi. Qarabağ xanlığının mərkəzi Bayat qalasını bir aydan artıq mühasirədə saxlayan H.Ç.X. Qarabağ, Naxçıvan, Qaradağ və Gəncə xanlarının birləşmiş qüvvələri qarşısında geri çəkilməyə məcbur oldu. H.Ç.X. XVIII əsrin 50 illərində Gəncə, Qazax, Şamxor və Borçalı uğrunda mübarizədə Kartli çarı Teymurazı və Kaxetiya çarı II İraklini bir neçə dəfə məğlubiyyətə uğratdı. 1752 ildə guya Şəki xanlığına qarşı mübarizə aparmaq məqsədilə Teymuraz və II İrakli bəzi Azərbaycan xanlarını Gəncədə görüşə dəvət etdilər. Gəncəyə gələn qarabağlı Pənahəli xan, irəvanlı Hüseynəli xan, naxçıvanlı Heydərqulu xan, qaradağlı Qasım xan və gəncəli Şahverdi xan gürcü hakimləri tərəfindən xaincəsinə əsir alındılar. Bunu eşidən H.Ç.X. Teymuraz və İraklini məğlubiyyətə uğradaraq keçmiş rəqiblərini azad etdi. Bu qələbə Qazax və Borçalıda H.Ç.X.-nın hakimiyyətini təmin etdi; II İraklinin Azərbaycan torpaqlarını istila etməsi təhlükəsini aradan qaldırdı.
H.Ç.X. xanlığın iqtisadi qüdrətini möhkəmlətmək məqsədilə vergi sistemini nizama salmış, çoxlu ictimai bina (mədrəsə, məscid, hamam və s.) tikdirmiş, bir sıra abadlıq işləri aparmışdı.

**HACINSKİ MƏMMƏDHƏSƏN CƏFƏRQULU OĞLU** (1875-1931). Azərbaycanın görkəmli siyasi və ictimai xadimi, xalqımızın azadlığı və müstəqilliyi uğrunda mübarizənin fəal iştirakçılardan biri. 1902 ildə Peterburq Texnoloji İnstitutunu bitirmiş, Bakı şəhər upravasının tikinti şöbəsinin rəisi təyin olunmuşdur. 1902-1917 illərdə Bakı Dumasının üzvü olmuş, 28.V.1918 ildə Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdə Azərbaycanın ilk xarici işlər naziri vəzifəsinə seçilmişdi. V-XII.1918 ildə xarici işlər naziri olduğu dövrdə qonşu ölkələrlə sərhəd, dəmiryolu, Bakı-Batum neft kəmərindən birlikdə istifadə etmək məsələlərinin həlli istiqamətində fəaliyyət göstərmişdi.

1919 ildə Ə.Topçubaşovla (*Topçubaşov Əlimərdan bəy Ələkbər oğlu*) birlikdə *Paris sılh konfransı* danışıqları zamanı ABŞ, Böyük Britaniya, Almaniya, İtaliya, Türkiyə, İran və b. ölkələrin başçıları, dövlət nümayəndələri, *diplomatları* ilə görüşmüş və 11.I.1920 ildə Ali Şura tərəfindən Azərbaycanın dövlət müstəqilliyinin *de-fakto*

tanınmasına nail olmuşdu. XII.1919 ildən 1920 ilə qədər N.Yusifbəyovun təşkil etdiyi hökumətdə daxili işlər naziri, sonra isə ticarət, sənaye və ərzaq naziri işləmişdir. 28.IV.1920 ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Azərbaycan SSR Ali Xalq Təsərrüfatı Şurasında, Zaqafqaziya Dövlət Plan Komtəsində çalışmışdır. 03.XII.1930 ildə Tiflisdə Zaqafqaziya Dövlət Siyasi İdarəsi tərəfindən həbs edilmiş, 09.II.1931 ildə işgəncələrə dözməyərək vəfat etmişdir.

**HACIYEV HƏSƏN QULU OĞLU** (1946). 1969 ildə Azərbaycan Dövlət Neft Akademiyasını bitirmişdir. 1969-1996 illərdə neft sənayesində müxtəlif vəzifələrdə çalışmışdır, texnika elmləri namizədidir. 1996 ildə Azərbaycanın Gürcüstan Respublikasındakı Fövqəladə və Səlahiyyətli *səfiri* təyin olunmuşdur.

Fövqəladə və Səlahiyyətli səfir diplomatik rütbəsinə (*Diplomatik adlar və rütbələr*) malikdir.

**HACIZADƏ HİKMƏT ƏBDÜRRƏHİM OĞLU** (1954). 1977 ildə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsini bitirmiş, 1983 ildə Moskvada biofizika ixtisası üzrə namizədlik dissertasiyası müdafiə etmiş, fizika-riyaziyyat elmləri namizədidir.

Azərbaycan EA Botanika İnstitutunun Biofizika bölməsində baş elmi işçi işləmişdir.

1988 ildə Azərbaycan Xalq Cəbhəsinin yaradıcılarından biri, onun İdarə heyətinin üzvü, 1991-1992 illərdə AXC-nin rusca çıxan «Svoboda» qəzetinin redaktoru olmuşdur.

V.1992 ildən keçmiş SSRİ məsələləri üzrə Azərbaycan Respublikası baş nazirinin müavini, Azərbaycanın Rusiyada Səlahiyyətli nümayəndəsi işləmişdir. VI.1993 ildə istefa vermişdir.

1994 ildə İqtisadi və Siyasi Araşdırmalar Mərkəzini (FAR CENTRE) yaratmışdır. 1996-1997 illərdə ABŞ-ın Kolumbiya Universitetinin (Nyu-York) «İnsan haqları və dini azadlıqlar» proqramında iştirak etmişdir.

**HAQVERDİYEV ƏBDÜRRƏHİM BƏY ƏSƏD BƏY OĞLU** (1870-1933). 1890-1891 illərdə Şuşa və Tiflis realnı məktəblərində, 1891-1899 illərdə Peterburq Yol Mühəndisləri İnstitutunda təhsil almış, eyni zamanda Peterburq Universitetinin şərqşünaslıq fakültəsində azad dinləyici olmuşdur.

1905 il inqilabından sonra Gəncə quberniyasından Rusiya I Dövlət Dumasına deputat seçilmiş və Peterburqa getmişdir. Duma buraxılandan sonra da bir müddət orada yaşamış və 1907 ildə Güney Azərbaycana getmişdir.

1908 ildə «Leyli və Məcnun» operası Bakıda tamaşaya qoyularkən ilk Azərbaycan dirijoru kimi həm xor və orkestri, həm də tamaşanı idarə etmişdir.

1910 ildə Həştərxanda, 1911-1915 illərdə Ağdamda yaşamış, 1916-1917 illərdə Tiflisdə «Şəhərlər ittifaqının Qafqaz şöbəsi xəbərləri» jurnalının müdiri olmuş, 1917 il fevral inqilabından sonra Tiflis İcraiyyə Komitəsinə üzv seçilmiş, III.1917 ildə Borçalı qəzasına müvəkkil təyin edilmişdir.

11.II.1919 ildə ADR-in Dağlılar Respublikasında (Temirxanşurada) diplomatik nümayəndəsi təyin olunmuş, Denikin Dağıstanı tutduqdan sonra Temirxanşuranı tərk etmişdir. 16.X.1919 il tarixli «Azərbaycan» qəzetində onun adı Azərbaycanın Ermənistandakı siyasi nümayəndəsi kimi çəkilir. 23.II.1920 ildə Böyük Britaniyanın Zaqafqaziyadakı ali komissarı Oliver Uordropun Tiflisdəki mənzilində Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə keçirilmiş müşavirədə iştirak etmişdir. 01.IV.1920 ildə yenidən Dağlılar Respublikasında Azərbaycanın nümayəndəsi təyin olunmuşdur.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra pedaqoji və ədəbi yaradıcılıqla məşğul olmuşdur.

**HATƏMİ MƏHƏMMƏD** (1943). Qum və İsfahandakı seminariyalarda teologiya elmini öyrənilmişdir. 1960-1970 illərdə şah Məhəmməd Rza Pəhləvi hökumətinə qarşı çıxan siyasi qüvvələrlə əməkdaşlıq etmişdir. 1978 ildə Almaniyaya köçərək Hamburq islam mərkəzinə başçılıq etmişdir. 1982-1992 illərdə mədəniyyət və islam tərbiyəsi naziri vəzifəsini tutmuş, sonra isə Milli kitabxananın direktoru və mədəniyyət məsələləri üzrə müşavir işləmişdir.

1997 ildə İran *prezidenti* seçilmişdir. Dünyəvi mədəniyyətə dözümlülük xəttinin, Qərb ölkələri ilə daha sıx əlaqələr qurmağın tərəfdarıdır.

**HƏMSƏDRLƏR.** Bir sıra *beynəlxalq konfransların* və ya orqanların praktikasında bəzən rast gəlinən prosedur vəziyyətidir; bu zaman konfransların və orqanların sessiyalarının sədr vəzifələrini eyni zamanda və bərabər şəkildə iki və daha çox dövlətin nümayəndəsi icra edir.

**HƏRBİ BAZALAR.** Hər hansı bir ölkənin başqa ölkədə olan qoşunları, silahları, hərbi sursatı və onların yerləşdiyi ərazi. Bir qayda olaraq H.b. yerləşdikləri *dövlətin yurisdiksiyasına* tabe olmurlar. H.b. iqtisadi və hərbi baxımdan güclü dövlətlərin bu və ya digər dövləti və yaxud regionu hərbi nəzarət altında saxlamaq məqsədi ilə yaradılır. *İkinci Dünya müharibəsindən* sonra geniş vüsət tapmış H.b. *beynəlxalq münasibətlərdə* hökm sürən *«soyuq müharibə»* şəraitində aparıcı hərbi bloklar olan *NATO*-nun və *Varşava Müqaviləsi Təşkilatının* hərbi üstünlüklərini təmin etmək, maksimum böyük ərazini hərbi nəzarət altına almaq üçün əsas vasitə rolunu oynayırdı. Bu məqsədlə ABŞ Qərbi Avropada, Yaxın və Uzaq Şərqdə, SSRİ Şərqi Avropada və Uzaq Şərqin bir sıra ölkələrində H.b. şəbəkəsi yaratmışdı.

SSRİ-nin süqutundan sonra onun Şərqi Avropa və Uzaq Şərq ölkələrində olan H.b.-ı ləğv olunmuşdur. Eyni zamanda SSRİ-nin varisi kimi çıxış edən Rusiya tərk etməyə məcbur olduğu regionlarda, ilk növbədə Cənubi Qafqazda və Orta Asiyada H.b.-ını qoruyub saxlamaq və yenilərini yaratmaq yolu ilə bu regionları hərbi nəzarətdə saxlamağa cəhd göstərir.

Müstəqilliyinin ilk dövrlərində Azərbaycan dövləti bütün xarici qoşunların ərazisini tərk etməsinə nail olmuşdur. Halbuki Rusiya digər Cənubi Qafqaz ölkələrində- Ermənistanda və Gürcüstanda öz bazalarını saxlamağa müvəffəq olmuşdur. Hal-hazırda Rusiyanın Cənubi Qafqazda yerləşən H.b.-ı regionda mövcud olan münaqişələrin aradan qaldırılması yolunda əsas maneədir.

**HƏRBİ CANİLƏR.** *Beynəlxalq hüquqa* görə dünyaya və bəşəriyyətə qarşı işlədilən hərbi cinayətlərin təşkilatçıları, təhrikçiləri, rəhbərləri, icraçıları və iştirakçıları. Beynəlxalq hərbi tribunalların nizamnaməsində bu cinayətlərin növləri və tərkibləri, eləcə də onlara qarşı cəza tədbirləri müəyyən edilib.

**HƏRBİ CİNAYƏTLƏR.** Buraya beynəlxalq təcrübədə qəbul edilmiş *müharibə* qayda-qanunlarını ciddi şəkildə pozmaq: *işğal olunmuş ərazilərdə dinc* əhalini amansızcasına qətlə yetirmək, yurd-yuvasından didərgin salınan insanlara, eləcə də hərbi əsirlərə vəhşicəsinə işgəncə vermək, yaşayış məntəqələrini yandırmaq, dağıtmaq, tarixi abidələri məhv etmək və s. daxildir.

**HƏRBİ CİNAYƏTLƏRƏ VƏ BƏŞƏRİYYƏTƏ QARŞI CİNAYƏTLƏRƏ MÜDDƏTİN TƏTBİQ OLUNMAMASI HAQQINDA KONVENSİYA** (1968). *BMT*-nin Baş Assambleyasının 22-ci Sessiyasında qəbul edilmişdir. Konvensiya (*Beynəlxalq Konvensiya*) onu imzalayan dövlətlərin öhdəsinə qoyur ki, onlar K-da sadalanmış cinayətlərə görə təqiblər və cəzalar halında milli qanunvericilikdə müəyyən edilmiş müddət və digər mühdudiyyətlər tətbiq etməmək üçün istənilən qanunverici və digər tədbirlər görsün

**HƏRBİ ƏSİRLƏR.** *Beynəlxalq hüquqda* könüllü partizan dəstələri üzvləri, Müqavimət Hərəkatı iştirakçıları və başqa *kombatantlar* da daxil olmaqla döyüşən tərəfin silahlı qüvvələrinə məxsus şəxslərin düşmən tərəfindən tutulub öz hökümünə tabe etdirilməsi. Bir sıra qeyri kombatantlar da (hərbi müxbirlər, ticarət donanmasının, mülki aviasiyanın ekipac üzvləri) H.ə. hesab olunur. H.ə. rejimi müharibə qayda-qanunları haqqında təlimat (4-cü Haaqa konvensiyasına əlavə 1907) və 1949 il Cenevrə konvensiyası ilə tənzim edilir.

**HƏRBİ İŞĞAL** (latınca - occupatio). Bir dövlətin silahlı qüvvələr vasitəsilə digər *dövlətin ərazisini* müvəqqəti tutması və işğal olunmuş ərazidə hərbi administrasiya hakimiyyətini qurması. H.i. *hüquqauyğun* və *huquqazidd ola bilər*, lakin istənilən halda o, işğal olunmuş ərazi üzərində *dövlət suverenliyinin* işğal etmiş dövlətə keçməsinə səbəb olmur.

**HƏRBİ-SƏNAYE KOMPLEKSİ.** İnkişaf etmiş ölkələrdə hərbi sənayenin, ordunun, əlaqədar dövlət təşkilatlarının və elmi qurumların ittifaqı və onların birgə fəaliyyətini xarakterizə edən anlayış. *İkinci Dünya müharibəsi* dövründə bir sıra ölkələrdə (ABŞ-da SSRİ-də, İngiltərədə və s.) təşəkkül tapmış və xüsusilə *«soyuq müharibə»* dövründə geniş vüsət alıb möhkəmlənmişdi. Bu və ya digər ölkədə H.-s.k.-nin miqyası və onun dövlətin daxili və *xarici siyasətinə* təsiri dərəcəsi bu ölkənin, hərbiləşməsinin səviyyəsindən xəbər verir. Dövlətin hərbi sifarişlərini yerinə yetirən müəssisə və təşkilatlar H.-s.k.-nin iqtisadi əsasını təşkil edir. Bir qayda olaraq hərbi istehsal sahələrində əldə olunan gəlir orta gəlir həddindən dəfələrlə yüksəkdir. Bəzi ekspertlərin rəyinə görə hərbi xərclər ölkə sənayesinin inkişafını stimullaşdırır və işsizliyin aradan qaldırılmasına xidmət edir. Digərləri belə hesab edirlər ki, bu xərclər dövlətin daxili resurslarının tükənməsinə gətirib çıxarır və ölkənin istehsal potensialını xalqın rifah halını yaxşılaşdırmağa yönəlmiş fəaliyyətdən yayındırır. H.-s.k. anlayışını ilk dəfə D.Eyzenhauer işlətmişdir.

**HƏRBİ-STRATEJİ TARAZLIQ.** 1960-1980 illərdə ABŞ ilə SSRİ, həmçinin *NATO* və *Varşava Müqaviləsi Təşkilatı* arasında nüvə silahı da daxil olmaqla hərbi sahədə qüvvələr nisbətini xarakterizə edən anlayış. H.-s.t. *İkinci dünya müharibəsindən* sonra müxtəlif sosial-iqtisadi sistemlərə malik dövlətlərin *dinc yanaşı yaşamasını* təmin edən və *beynəlxalq gərginliyin zəifl ədilməsinə* xidmət edən edən əsas siyasi vasitə idi. ABŞ-la SSRİ arasında strateci silahların məhdudlaşdırılması ilə əlaqədar bağlanan müqavilələrin (*Beynəlxalq müqavilə*) də əsasında H.-s.t. prinsipi durmuşdu. 60-80 illərdə bu prinsip dünyada nüvə müharibəsinin qarşısının alınmasının əsas qarantı olmuşdur.

1981 ildə ABŞ-da hakimiyyətə gələn R.Reyqan SSRİ-də baş verən iqtisadi və ideoloji böhranın dərinləşməsindən istifadə edərək kəskin şəkildə hərbi-strateci tarazlığı pozmuş və SSRİ-nin süqutu prosesini sürətləndirmişdi. Dünyada bir fövqəldövlətin mövcud olduğu indiki vəziyyətdə H.-s.t. anlayışı öz aktuallığını itirmişdir.

**HƏSƏN MƏHƏMMƏD ƏL-ENANİ** (1940). 1963 ildə İsgəndəriyyə Universitetinin hüquq fakultəsini bitirmişdir. 1968 ildən Misir Ərəb Respublikasının Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) işləyir. Müxtəlif diplomatik vəzifələrdə çalışmışdır. 1996-2000 illərdə Misir Ərəb Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli *səfiri* işləmişdir.

**HƏSƏNOV ABBASƏLİ KƏRƏM OĞLU** (1953). 1975 ildə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin fars dili şöbəsini bitirmişdir. 1985-1994 illərdə İran İslam Respublikasının Bakıdakı *səfirliyində* tərcüməçi kimi çalışmışdır. 1995-1997 illərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (*Xarici İşlər İdarəsi*) *İslam Konfransı Təşkilatı* İdarəsinin I katibi, 1997-98 illərdə isə şöbə müdiri vəzifələrində çalışmışdır. 1998-ci ildə Azərbaycanın İran İslam Respublikasındakı Fövqəladə və Səlahiyyətli *səfiri* təyin olunmuşdur.

Fövqəladə və Səlahiyyətli səfir diplomatik rütbəsinə (*Diplomatik adlar və rütbələr*) malikdir.

**HƏSƏNOV ƏLİ MƏHƏMMƏDƏLİ OĞLU** (1960). 1982-1985 illərdə Bakı Dövlət Universitetinin tarix fakultəsində, 1985-1988 illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinə təhsil almış və 1988 ildə həmin Universiteti fərqlənmə diplomu ilə bitirərək əyani aspiranturada saxlanılmışdır.

1991 ildə M.V.Lomonosov adına MDU-nin tarix fakultəsinin aspiranturasını bitirmiş və «Zaqafqaziyada 1917-1941 illərdə milli münasibətlər» mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

1992-1995 illərdə Naxçıvan və Bakıda elmi-pedaqoji fəaliyyətlə məşğul olmuş, eyni zamanda Yeni Azərbaycan Partiyası İdeologiya şöbəsinin müdiri işləmişdir.

1995 ildən Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının ictimai-siyasi şöbəsinin müdiri işləyir, birinci dərəcəli dövlət müşaviridir.

2000 ildə «Azərbaycanın xarici siyasəti, Avropa dövlətləri və ABŞ: 1991-1996-cı illərdə» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçiliyi Akademiyasının «Xarici siyasət və beynəlxalq *münasibətlər» kafedrasının* müdiridir. Azərbaycanın *xarici siyasəti, Dağlıq Qarabağ problemi, beynəlxalq münasibətlərə* aid bir sıra kitabların müəllifidir: «Azərbaycan-ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaş-

lığa doğru», «Azərbaycan-ATƏT: Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda», «Azərbaycanın xarici siyasəti, Avropa dövlətləri və ABŞ», «Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri», «Azərbaycan və dünya siyasəti», «Yeni Azərbaycan Partiyası», «Süleyman Dəmirəl», «Müasir beynəlxalq münasibətlər, milli maraq və milli təhlükəsizlik», «Demokratiya və mətbuat» və s.

Elmi-siyasi fəaliyyətinə görə 1998 ildə YUNESKO-nun Beynəlxalq Kadr Akademiyasının, 1999 ildə isə Nyu-York Akademiyasının həqiqi üzvü seçilmişdir. London Bioqrafiya Akademiyası 2000 ildə Ə.Həsənovu dünyanın ən fəal 200 siyasətçisi, elmi və siyasi xadimi sırasına daxil etmiş, müvafiq olaraq Akademiyanın həqiqi üzvü seçmişdir.

Yeni Azərbaycan Partiyasının yaradıcılarındandır, 1992 ildən onun Siyasi Şurasının, 1998 ildən isə İdarə Heyətinin üzvüdür.

**HƏSƏNOV HƏSƏN ƏZİZ OĞLU** (1940). Azərbaycanın görkəmli ictimai, dövlət və siyasi xadimi.

1963 ildə Azərbaycan Politexnik İnstitutunu bitirib. 1971 ilə qədər rəhbər komsomol işində çalışmış, 1971-1990 illərdə Azərbaycan KP MK-nın təlimatçısı, şöbə müdirinin müavini, Bakı şəhəri 26 Bakı komissarı rayonu partiya komitəsinin, Sumqayıt, Kirovabad şəhər partiya komitələrinin birinci katibi, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi vəzifələrində çalışmışdı. 1990-1992 illərdə Nazirlər Sovetinin sədri, Azərbaycan Respublikasının baş naziri olmuş, 1992-1993 illərdə Azərbaycan Respublikasının *BMT*-dəki daimi nümayəndəsi, 1993-1998 illərdə Azərbaycan Respublikasının xarici işlər naziri vəzifəsində çalışmışdı. O SSRİ və Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdi.

Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli *səfiri* rütbəsini almış, 1993 ildə *BMT Təhlükəsizlik Şurası* Azərbaycan-Ermənistan münaqişəsinə dair qətnamələrin qəbul edilməsində mühüm rol oynamışdır. Xarici işlər naziri işlərkən diplomatiya sahəsində bir sıra uğurlar əldə etmişdi. M.F.Axundovun, N.Nərimanovun (*Nərimanov Nəriman Kərbəlayi Nəcəf oğlu*) həyat və fəaliyyətinə həsr edilmiş bir sıra əsərlərin müəllifidir.

2004 ildə Azərbaycanın Macarıstandakı Fövqəladə və Səlahiyyətli səfiri təyin olunmuşdur.

**HÖKUMƏT BAŞÇISI.** Dövlət idarəsinin ali kollegial orqanına başçılıq edən ölkənin xarici siyasətinə rəhbərlik edən şəxsdır. Dünyanın müxtəlif ölkələrində H.b. müxtəlif cür adlandırılır: baş nazir, nazirlər şurasının sədri, nazir-sədr, dövlət naziri, federal *kansler* və s. H.b. *dövlət başçısı* tərəfindən vəzifəyə təyin olunur; parlamentli dövlətlərdə, eləcə də qarışıq tipli respublikalarda bir qayda olaraq parlament seçkilərində qələbə qazanmış partiyanın lideri, ya da hökumət *koalisiyasını* təşkil edən partiya liderlərindən seçilir. Bəzi *prezidentli* respublikalarda (məs., Türkmənistanda, Özbəkistanda) H.b. rəsmən prezidentdir.

H.b. xarici siyasətin başlıca istiqamətlərini müəyyən edir və bu sahədə *xarici işlər idarəsinə* göstərişlər verir və onların həyata keçirilməsinə nəzarət edir. Hökümət adından və ya onun razılığı ilə bir çox *beynəlxalq müqavilələr* və sazişlər imzalayır. Bir çox ölkələrdə hökümətin *xarici siyasəti* nüfuzlu siyasi xadimlər, maliyyəçilər, iri sənayeçilər qrupu tərəfindən müəyyənləşdirilir. Məs., ABŞ-da Milli Təhlükəsizlik Şurası ilə, İngiltərədə «kölgəli kabinetlə» məsləhətləşmələr əsasında müəyyən olunur. ABŞ-da və bir sıra ölkələrdə, xüsusilə də Cənubi Amerika dövlətlərində H.b. və dövlət başçısının vəzifələrini bir şəxs icra edir.

H.b. digər ölkələrin diplomatik və digər rəsmi nümayəndələrini qəbul edə, onlarla danışıqlar apara, *beynəlxalq konfranslarda* iştirak edə, xüsusi səlahiyyətlər olmadan müqavilə və sazişləri imzalaya bilər. Xarici dövlətin ərazisində olduğu zaman H.b. *diplomatik imtiyazlar və toxunulmazlıq hüququndan* istifadə edir.

**HÖKUMƏTLƏRİN HÜQUQ VARİSLİYİ.** Dövlətdə daxili dəyişiliklərin baş verməsi ilə bağlı hüquq və vəzifələrin bir qurumdan digərinə keçməsi. Belə ki, hökumətin qeyri-konstitusyon yolla dəyişməsi zamanı ondan əvvəlki hökumətin xarici dövlətlərlə bağladığı müqavilələrə (*Beynəlxalq müqavilələr*) onun münasibəti məsələsi ortaya çıxır. Bu məsələ ilə bağlı digər bir konsepsiya da mövcuddur: bu konsepsiyaya görə hakimiyyətin dəyişməsi dövlətin hüquq və vəzifələrinə heç bir təsir göstərmir.

**HÜCUMETMƏMƏ.** Müasir *beynəlxalq hüququn* əsas prinsiplərindən biridir. H.e. hər hansı dövlət tərəfindən digər dövlətə qarşı siyasi, iqtisadi, strateji məqsədlərlə və ya digər qaydada birinci olaraq müharibə törədilməsinin və ya silahlı qüvvələrdən istifadə olunmasının yolverilməz olmasıdır.

H. prinsipi *BMT Nizamnaməsinin* ən başlıca prinsiplərindən biridir və dövlətlərin üzərinə *beynəlxalq münasibətlərdə* hər hansı dövlətin ərazi toxunulmazlığına və ya siyasi müstəqilliyinə qarşı qüvvə tətbiq etməkdən, həmçinin *BMT*-nin məqsədləri ilə bir araya gəlməyən hərəkətlərin edilməsindən çəkinmək öhdəliyi qoyur.

Dövlətlər arasında H. prinsipinin əhəmiyyəti o qədər çoxdur ki, bir çox dövlətlər onun ümumqəbul olunmuş hüquqi prinsip kimi tanınması ilə kifayətlənməyərək H. haqda müqavilələr (*Beynəlxalq müqavilə*) imzalamaqla onun hüquqi əhəmiyyətini artırırlar. Bu müqavilələrdə tərəflərin üzərinə bir-birinə, özü də həm ayrılıqda, həm də digər dövlətlərlə birlikdə hər hansı hücumdan çəkinmək öhdəliyi qoyulur.

**HÜQUQİ PRESEDENT.** Bir çox dövlətlərdə istifadə edilən hüquq mənbələrindən biridir. H.p. konkret işə dair məhkəmənin və ya dövlət orqanlarının qəbul etdikləri və məcburi qüvvəyə malik olan qərarlardır.

H.p.-in mahiyyəti ondan ibarətdir ki, əvvəllər dövlət orqanları və ya məhkəmələr tərəfindən konkret iş üzrə qəbul edilmiş qərarlar bundan sonra oxşar işlərin həlli zamanı hüquq normasına bərabər tutulan hüquqi qüvvəyə malik hüquqi akt qismində istifadə edilir.

Hüquq mənbəyinin H.p. forması Böyük Britaniyada və ABŞ-da geniş yayılmışdır. H.p.-in vətəni Böyük Britaniyadır. Orada H.p.-in hüquqi qüvvəsinin aşağıdakı hüdudları müəyyən edilir:

a) Lordlar Palatasının qərarları Lordlar Palatasının özü üçün, habelə bütün məhkəmələr üçün məcburi xarakter daşıyan H.p.-i təşkil edir;

b) appelyasiya məhkəməsinin qəbul etdiyi qərarlar, Lordlar Palatası istisna olmaqla, bütün məhkəmələr

üçün məcburi xarakter daşıyan H.p.-i təşkil edir;

v) ədalət mühakiməsinin yuxarı məhkəməsi tərəfindən qəbul edilən qərarlar aşağı məhkəmələr üçün məcburi xarakter daşıyan H.p.-i təşkil edir.

**HÜQUQİ VARİSLİK.** Bir dövlətin hüquq və öhdəliklərinin digər dövlətə keçməsi. Ərazi dəyişiklikləri (dövlətin tərkib hissələrinə bölünməsi, bir neçə dövlətin bir dövlətdə birləşməsi) nəticəsində beynəlxalq hüquqi subyektlərin meydana gəlməsi və dayandırılması zamanı; *beynəlxalq hüquq* subyektliliyinin (*Beynəlxalq hüququn subyektləri*) əsaslı şəkildə dəyişilməsi (müstəmləkə və ya yarımmüstəmləkələrin (*Müstəmləkə sistemi və onun dağılması*) müstəqil dövlətə çevrilməsi) nəticəsində; sosial inqilablar nəticəsində dövlətlərin yaradılması nəticəsində; ərazinin bir dövlətdən digərinə keçməsi nəticəsində H.v. məsələsi meydana çıxır. Şəraitdən asılı olaraq H.v. tam və ya qismən ola bilər. H.v. qanun əsasında və ya hüquqi əsaslarla həyata keçirilir. H.v.-in müxtəlif hüquqi nəticələri, beynəlxalq hüququn yeni yaranmış subyekti sələfinin öhdəlikləri ilə bağlı olmadıqda «təmiz lövhə» («tabula rasa») prinsipinin, bağlı olduqda isə kontinuitet (lat. *continuum* – fasiləsiz, birbaşa) prinsipinin təsiri altına düşürlər.

**HÜSEYNLİ NAZİM ZİYAD OĞLU** (1956). 1981 ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin riyaziyyat fakültəsini bitirmişdir. 1974 ildə 2 №-li Bakı Mebel fabrikində, 1974-1982 illərdə S.M.Kirov adına ADU-nun nəzdindəki Elmi-Tədqiqat Hesablama Mərkəzində operator, laborant, riyaziyyatçı-proqramçı, proqramçı, baş riyaziyyatçı vəzifələrində əalışmışdır. 1976-1978 illərdə Sovet ordusu sıralarında xidmət etmişdir. 1982-1984 illərdə Azərittifaqın idarə heyəti Hesablama texnikasının tətbiqi şöbəsində aparıcı mühəndis, şöbə müdiri, 1985-1989 illərdə SSRİ Sənaye Tikinti Bankının Azərbaycan bölməsində qrup rəhbəri, müxtəlif şöbələrin müdiri, 1989-1994 illərdə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun Fəlsəfə kafedrasının baş laborantı, baş müəllimi və dosenti işləmişdir.

1992 ildə Azərbaycanda ilk diplomatik məktəb – *Ali Diplomatiya Kollecini* təsis etmiş və onun ilk rektorudur. Məntiq üzrə Azərbaycanda ilk elmlər doktorudur.

Müxtəlif nümayəndə heyətlərinin tərkibində Almaniya, Fransa, Türkiyə, Quzey Kıprıs Türk Cümhuriyyəti, Ukraynada keçirilmiş *beynəlxalq konfransların* iştirakçısı olmuşdur.

Azərbaycan tarixi, xüsusilə də Azərbaycan diplomatiyası ilə bağlı bir sıra beynəlxalq simpoziumların, konfransların təşkilatçısı olmuş və onların işinə rəhbərlik etmişdir: «Azərbaycan beynəlxalq iqtisadi və mədəni əlaqələrdə» mövzusunda beynəlxalq simpozium 1994, Azərbaycan Demokratik Respublikasının 75 illiyinə həsr olunmuş konfrans 1995, «Türkiyə-Azərbaycan münasibətlərinin müasir mərhələsi» mövzusunda konfrans 1995, Azərbaycan Respublikası Konstitusiyasının ildönümünə həsr edilmiş konfrans 1996, Ə.M.Topçubaşovun anadan olmasının 135 illiyinə həsr edilmiş elmi-praktiki konfrans 1997, «H.Əliyevin siyasi məktəbini öyrənirik» mövzusunda konfrans 1997, «Azərbaycan Xalq Cümhuriyyəti və müasir dövr» mövzusunda konfrans 1998, Azərbaycanlıların soyqırımına həsr edilmiş elmi konfrans 1999, «Şimali Kipr Türk Respublikası: tarix və müasirlik» mövzusunda elmi-praktik konfrans 1999, «XX əsrin və II minilliyin tarixi» mövzusunda elmi-praktik konfrans 2001, «Müasir dövrdə beynəlxalq münasibətlərin aktual problemləri» mövzusunda elmi-praktik konfrans 2001 və s. Bununla əlaqədar bir sıra kitabların və məcmuələrin naşiridir: «Böyük diplomat və görkəmli siyasi xadim Ə.M.Topçubaşovun anadan olmasının 135 illiyinə həsr olunmuş konfransın materialları Bakı, 1998, «Azərbaycan Xalq Cümhuriyyəti və müasir dövr» Bakı, 1998, «Azərbaycan: XX əsrdən XXI əsrə» Bakı, 2000, «Qalakənd» Bakı 1999 və s.

SSRİ EA Fəlsəfə Cəmiyyətinin, Sovet Sosioloji Assosiasiyasının üzvü olmuşdur. Beynəlxalq Sosial və Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvüdür.

Azərbaycan Diplomatiyası (*Azərbaycan Diplomatiyası jurnalı*), Azərbaycanın *xarici siyasət* arxivi, *Dünyaya baxış* jurnallarının, İdrak və Gələcək qəzetlərinin, Diplomat nəşriyyatının təsisçisidir.

Fəlsəfə və ictimai-siyasi məsələlərə aid 2 monoqrafiyanın və bir çox elmi məqalənin müəllifidir.

1995 ildə Azərbaycan Respublikası Milli Məclisinə Gədəbəy rayonundan deputatlığa namizədliyi qeydə alınmışdır.

**HÜSEYNOVA ELEONORA MƏCİD QIZI** (1947). 1967 ildə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunu bitirmişdir. 1968-1992 illərdə APXDİ-də müəllim kimi işləmişdir. 1992-1994 illərdə Azərbaycan Musiqi Akademiyasının xarici dillər kafedrasının müdiri işləmişdir. 1994 ildə Azərbaycanın Fransa Respublikasındakı Fövqəladə və Səlahiyyətli *səfiri* təyin olunmuşdur.

Fövqəladə və Səlahiyyətli səfir diplomatik rütbəsinə (*Diplomatik adlar və rütbələr*) malikdir.

**HÜSEYNOV MİRZƏDAVUD BAĞIR OĞLU** (1894-1937). Azərbaycanın dövlət və siyasi xadimi. 1917 ildə Moskva Kommersiya institutunun iqtisadiyyat fakültəsini bitirmiş, 1918-1919 illərdə Hümmət partiyasının üzvü, sədrin müavini, sədri, Azərbaycan Xalq Cümhuriyyəti Maliyyə Nazirliyində şöbə müdiri işləmişdi.

12.II.1920 ildə Azərbaycan kommunistlərinin keçirdiyi plenumda o AK(b)P MK rəyasət heyətinin sədri seçilmiş, Azərbaycan Sovet Sosialist Respublikası Xalq Komissarları Soveti sədrinin müavini, maliyyə komissarı, 02.V.1920 XII.1921 illərdə xarici işlər komissarı, 1922-1929 illərdə ZSFSR XKS sədrinin müavini, xarici işlər komissarı, maliyyə komissarı olmuşdur. O, 1931-1934 illərdə Tacikistan Kommunist Partiyası MK-nin birinci katibi, 1934-1937 illərdə RSFSR Xalq Maarifi Komissarlığında qeyri-rus natamam və orta məktəblər idarəsi rəisinin müavini işləmiş, 1937 ildə repressiya edilərək öldürülmüşdür.

**HÜNTER DALHOFF** (1936). 1963-1965 illərdə Almaniya diplomatik xidmətinə qəbul olunmaq üçün hazırlıq kursu keçmişdir. 1965 ildən AFR Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) çalışmışdır. 1975-1979, 1984-1989 illərdə AFR-in ABŞ-dakı *səfirliyində* işləmişdir. 1989-1992 illərdə AFR XİN-də İqtisadiyyat şöbəsinin başçısı olmuşdur. IV.1992 ildən AFR-in Gürcüstan Respublikasında, XI.1992 ildən

iqamətgahı Gürcüstan olmaqla AFR-in Azərbaycan Respublikasında *səfiri* kimi fəaliyyət göstərmişdir. 1992-1994 illərdə Almaniya Federativ Respublikasının Azərbaycan Respublikasında səfiri olmuşdur.

## X

**XALQLARIN (MİLLƏTLƏRİN) ÖZ MÜQƏDDƏRATINI TƏYİN ETMƏK HÜQUQU.** Hər bir millətin onun dövlət mövcudluğu haqda məsələni müstəqil şəkildə həll etmək hüququdur. Xalqlar daxil olduqları dövlətdən ayrıla və müstəqil dövlətlərini qura bilərlər, digər xalqlarla birlikdə federativ dövlət (*Federasiya*) qura bilər, ya da milli muxtariyyət əsasında dövlət yarada bilərlər; bir neçə xalq könüllü ittifaq əsasında unitar dövlət qura bilər. Çağdaş *beynəlxalq hüququn* əsas müddəalarından olan bu prinsip *BMT-nin Nizamnaməsinin* «Xalqların bərabərliyi və öz müqəddəratını müəyyən etmək hüququ» adlı ikinci bəndində təsbit olunmuşdur.

**XANBUDAQOV R.** Azərbaycan Xalq Cümhuriyyətinin İtaliyadakı diplomatik nümayəndəsi olmuşdur.

**XARİCİ ƏLAQƏ ORQANLARI.** Diplomatik xidmət - müəyyən dövlət orqanlarının və vəzifəli şəxslərin cəlb edildiyi çoxcəhətli bir fəaliyyətdir.

X.ə.o. fəaliyyət növünə görə iki qrupa bölünür:

a)Xarici əlaqələrin mərkəzi (daxili) orqanları;

b)Xarici əlaqələrin xarici orqanları.

Xarici əlaqələrin mərkəzi (daxili) orqanları - konstitusiyalı siyasi orqanlara və vəzifəli şəxslərə aiddir: ali qanunverici orqanlar, *dövlət başçısı*, hökumət və birinci növbədə onun başçısı, xarici işlər naziri və xarici işlər nazirliyinin aparatı. Respublika idarə forması olan dövlətlərdə həm daxili, həm də *xaric siyasət* və xarici əlaqələr sahəsində al. dövlət idarəsi hakimiyyətin ali qanunvericilik orqanları hesab olunur.

Xarici əlaqələrin xarici orqanlarına isə *səfirliklər, diplomatik missiyalar* və konsulluqlar (*Konsul idarələri*) daxildir. Bunlardan əlavə hər hansı bir ölkəni müxtəlif fəaliyyət və maraqlar sahəsində təmsil edən bir sıra orqanlar da xarici əlaqələrin xarici orqanlarına daxildirlər. Məs., xarici iqtisadi əlaqələr üzrə nümayəndəlik, xarici ticarət əlaqələri nümayəndəliyi, *beynəlxalq təşkilatlar* və təsisatlar yanında daimi nümayəndəliklər, ikitərəfli və çoxtərəfli beynəlxalq təşkilatlarda, konfranslarda (*Beynəlxalq konfranslar*) konqreslərdə (*Beynəlxalq konqres*) və ya təntənə mərasimlərdə iştirak edən nümayəndə heyətləri. Ümumi *beynəlxalq hüquq* normalarına görə, göndərən və qəbul edən dövlətlər arasında ikitərəfli razılaşmalar əsasında onlar müəyyən hüquq, imtiyaz və immunitetdən istifadə edirlər.

**XARİCİ İŞLƏR İDARƏSİ.** Hökumətin rəhbərliyi altında dövlətin *xarici siyasətinin* həyata keçirilməsində operativ fəaliyyət göstərən *xarici əlaqələr orqanı*dır.

X.i.i. mərkəzi aparatdan, xaricdəki *diplomatik nümayəndəliklərdən* və *konsul idarələrindən* ibarətdir. O gündəlik olaraq həm ölkə daxilində, həm də xaricdə hökuməti və dövləti təmsil edir: ölkə daxilində – bu ölkəyə akkreditə olunan (*Akkreditə etmək*), yaxud da bu və ya digər səbəblərə görə gələn *səfirlərlə, diplomatik korpusla*, xarici dövlət nümayəndələri ilə münasibətlərdə dövlətini təmsil edir; *protokol* tədbirləri həyata keçirir, xarici müxbirlərlə iş aparır, xarici siyasət məsələlərinə dair rəsmi nəşrlər edir; xaricdə – xarici dövlətlərlə, *beynəlxalq hökumətlərarası təşkilatlarla* diplomatik və konsulluq əlaqələri (*Diplomatik əlaqələr*) yaradaraq diplomatik və konsul nümayəndəliklərinin, *beynəlxalq təşkilatlar* yanında öz ölkəsinin nümayəndəliklərinin işinə rəhbərlik edir.

X.i.i. öz ölkəsinin adından xarici dövlətlərlə danışıqlar aparır, *beynəlxalq konfrans* və müşavirələrdə iştirak edir, müqavilə və öhdəliklərin yerinə yetirilməsinə nəzarət edir. Dövlət və hökumət nümayəndələrinin rəsmi səfərlərini, vizitləri yüksək səviyyədə hazırlayır və həyata keçirir.

X.i.i.-nin mərkəzi aparatı və strukturu aşağıdakı kimidir:

- nazirliyə rəhbərlik – nazir, nazir müavinləri, kollegiya (şura) üzvləri, xüsusi tapşırıqlı səfirlər, nazirin müşavirləri, baş (icra) katiblik və ya dəftərxana;

- operativ diplomatik şöbələr (idarələr, departamentlər, şöbələr), onlar öz fəaliyyət xarakterinə görə aşağıdakılara bölünürlər: a) operativ-ərazi və ya regional idarələr (departamentlər, şöbələr). Onlar müəyyən qrup ölkələr üzrə xarici siyasət məsələləri ilə məşğul olurlar. Qruplar əsasən regional əlamətlərə görə təşkil olunurlar; b) funksional idarələr. Bu idarələr xarici siyasət tədbirlərinin planlaşdırılması ilə, ümumi beynəlxalq təşkilatlarla, beynəlxalq iqtisadi təşkilatlarla, təhlükəsizlik, regional əməkdaşlıq, mədəni əlaqə məsələləri ilə məşğul olurlar. İnformasiya və mətbuat idarəsi, *beynəlxalq hüquq*, *Konsul idarələri* və Protokol şöbəsi də operativ funksional idarələrə aiddir. Diplomatik nümayəndəlik başçıları (*Diplomatik başçılıq*) gəldikləri ölkə ilə ilk əlaqələrini sonuncu şöbə vasitəsilə yaradır, ölkənin siyasətinin əsasları ilə tanış olurlar. *Səfirliyin* qarşılanması və yerləşdirilməsi, səfirliyin işinin təşkilində yardım edilməsi şöbənin işinin ən mühüm hissəsidir. Səfir *Etimadnaməsini* təqdim edənə qədər onun X.i.i. ilə və digər rəsmi idarələrlə münasibəti protokol şöbəsi vasitəsilə həyata keçirilir.

X.i.i. xarici siyasət kadrlarının hazırlanması ilə məşğul olur, xarici siyasət sahəsində arxiv materiallarının işlənib hazırlanmasına və xarici siyasət məsələlərinə dair rəsmi sənədlərin nəşrinə rəhbərlik edir, həmçinin xarici siyasətə dair bütün mühüm məsələləri hökumətə təqdim edir.

*Beynəlxalq münasibətlərdə* xarici siyasət məsələlərini həll etmək üçün ixtisaslaşdırılmış dövlət aparatı XVII-XIX əsrlərdə təşəkkül tapmağa başlamışdı. Beynəlxalq münasibətlər və *diplomatiya* tarixinin daha öncəki müxtəlif mərhələlərində bir sıra dövlətlərdə xarici siyasət məsələləri ilə məşğul olan ayrıca strukturlar fəaliyyət göstərmişdilər. Məs., VI-X əsrlərdə Bizans imperiyasında birinci nazirin idarəsi altında xarici işlər idarəsi fəaliyyət göstərmişdi ki, onun da başlıca məqsədi beynəlxalq məsələlərlə məşğul olmaq idi. Bu idarənin böyük tərkibi və o dövrün bütün dillərində danışa bilən tərcüməçilər ştatı vardı. Ərəb xilafəti dövründə böyük vəzirin başçılığı

ilə dövlət yazışma nazirliyi – «divani ər rəsail» fəaliyyət göstərmişdir. Osmanlı imperiyasında xarici siyasət və diplomatiya işləri ilə «Divani Humayun» məşğul olmuşdur.

X.i.i. müxtəlif ölkələrdə müxtəlif cür adlandırılır: Azərbaycanda Xarici İşlər Nazirliyi, ABŞ-da Dövlət Departamenti, Argentinada Xarici Əlaqələr və Ayinlər Nazirliyi, İngiltərədə Forin-ofis (idarənin yerləşdiyi yerə görə – dauning strut), Fransada Xarici Əlaqələr Nazirliyi (Ke'd orse), Belçikada Xarici işlər, Xarici Ticarət və İnkişaf məqsədilə Əməkdaşlıq Nazirliyi, İsveçrədə Federal Xarici İşlər Departamenti, Liviyada – Xarici əlaqələr üzrə Xalq bürosu, Mərakeşdə Xarici İşlər və Əməkdaşlıq üzrə Dövlət Nazirliyi. Adların müxtəlifliyi bu idarələrin vəzifə və funksiyalarının mahiyyətini dəyişmir.

**XARİCİ İŞLƏR ÜZRƏ KOMİSSİYALAR.** Xarici işlər üzrə komissiyalar parlamentin plenar iclaslarında müzakirə etmək üçün *xarici siyasətə* aid məsələləri işləyib hazırlayır. Bu komissiyalar parlament adından hökumətin apardığı xarici siyasətə nəzarət edir. X.i.ü.k. əksər dövlətlərin parlamentlərində mövcuddur. Onun səlahiyyətinə parlamentdə təsdiq olunacaq *beynəlxalq müqavilələrin* ilkin baxışını keçirmək də aiddir. Bəzi ölkələrdə, məs. Böyük Britaniya parlamentində belə komissiyalar mövcud deyil. Hökumətin apardığı xarici siyasət parlamentdə xarici siyasət məsələlərinə həsr olunmuş debatlar və ayrı-ayrı deputatların bu məsələlər üzrə sorğuları vasitəsilə həyata keçirilir.

**XARİCİLƏR.** Müvafiq dövlətin vətəndaşı olmayan və digər dövlətin vətəndaşı (*Vətəndaşlıq; Vətəndaşsızlıq*) olduğuna dair sübuta malik şəxs, yəni xarici vətəndaş. X.-in hüquqi vəziyyəti haqqında məsələlər daxili dövlət qanunvericiliyi, habelə müvafiq dövlətlər arasında bağlanmış *beynəlxalq müqavilələrlə* tənzimlənir.

Yerləşdiyi ölkədə X.-ə milli rejim, ya ən əlverişli rejim, yəni dəqiq şəkildə müəyyənləşdirilmiş hüquqlar məcmusu əsasında şərait yaradılır. Əksər dövlətlərin qanunvericiliyi daimi yaşayan X.-i müvəqqəti olaraq gələn X.-dən fərqləndirir. Müvəqqəti olaraq gələn X.-in hüquqları onların gəlişlərinin məqsəd və xarakterindən asılı olaraq müəyyənləşdirilir.

Diplomatik nümayəndə və konsul başçıları və əməkdaşları həmçinin *diplomatik imtiyaz və toxunulmazlıq hüququndan* istifadə edən digər şəxslər xarici vətəndaşların xüsusi kateqoriyasını təşkil edirlər. Onların hüquqi vəziyyəti müvafiq beynəlxalq razılaşmalar, habelə daxili qanunvericiliyin xüsusi aktları ilə tənzimlənir.

**XARİCİ PASPORT.** Bir ölkə vətəndaşının xarici ölkəyə gedə bilməsinə imkan verən rəsmi dövlət sənədidir. X.p.-lar *diplomatlara* və diplomat səlahiyyəti verilən (parlament üzvlərinə, nazirlərə və s.) şəxslər üçün nəzərdə tutulmuş diplomatik pasportlara və hər hansı bir tapşırığı yerinə yetirmək üçün başqa ölkəyə işgüzar ezamiyyətə gedən şəxslərə verilən xidməti pasportlara bölünür. Xarici pasport müəyyən müddət üçün ancaq ölkədən xaricdə etibarlıdır. Diplomatik pasport diplomatın və onun ailə üzvlərinin toxunulmazlığını təmin etmək üçün verilir. Bəzi ölkələrdə (Qana, Zair, Zambiya, Hindistan, Kamerun və s.) pasportda diplomatın dərəcəsi (*Diplomatik dərəcələri*) göstərilir, ümumi «diplomat» sözü yazılır; bəzən isə (Nigeriya, Sinqapur və s.)





ölkə diplomatı «Xarici xidmət əməkdaşı» kimi qeyd olunur. ABŞ-da diplomatlara verilən pasportda isə göstərilir ki, bu pasport sahibi Dövlət departamentinin təyinatı ilə xaricə ezam olunmuşdur. Bəzi ölkələrdə diplomatın şəxsi baqajının gömrükdə yoxlanmasının qarşısını almaq üçün diplomati pasportun içərisinə ayrıca olaraq *«açıq vərəq»* (**«haisser passer»**) deyilən sənəd əlavə olunur ki, bu da dövlətin öz diplomatına verdiyi zəmanətdir.

**XARİCİ SİYASƏT.** Ayrı-ayrı dövlətlər, xalqlar, məhəlli və *beynəlxalq təşkilatlarla* münasibətlər qurmaq məqsədilə dövlətin, müəyyən etdiyi prinsiplərə uyğun olaraq, müxtəlif vasitə və metodlarla həyata keçirdiyi ümumi siyasət. *Xarici siyasət* dövlətin müəyyənləşdirdiyi məqsədlərə çatmaq üçün daha əlverişli beynəlxalq şəraiti təmin etməyə yönəldilmişdir. *Diplomatiya* X.s.-in əsas vasitəsidir.

**XARİCİ SİYASƏT DOKTRİNALARI** (*lat. doctrina* – təlim, müddəa). Bu və ya digər dövlətin *xarici siyasət* sahəsində fəaliyyətinin məqsədlərinə, vəzifə və xarakterlərinə, həmçinin onun reallaşdırılması və təmin olunması üsullarından ibarət nəzəriyyələr sistemi.

**XARİCİ SİYASƏTİN PLANLAŞDIRILMASI.** Dövlətin beynəlxalq sahədə *xarici siyasət* məqsədlərinə nail olmağa yönəlmiş tədbirlərinin, fəaliyyətinin, aksiyaların perspektiv şəkildə hazırlanması.

Dövlətin xarici siyasət sahəsində fəaliyyət planının yaradılması prosesi aşağıdakı əsas mərhələləri əhatə edir: bütövlükdə *beynəlxalq münasibətlər* sisteminin və dövlətin digər ölkələrlə münasibətlərinin inkişaf proqnozunun tərtib olunması; dövlətin sərəncamında olan və xarici siyasətindəki məqsədlər üçün istifadə oluna bilən vəsait və ehtiyatların həcminin müəyyənləşdirilməsi; dövlətin iqtisadi və siyasi maraqlarından irəli gələn müxtəlif istiqamətli xarici siyasət məsələlərinin müəyyənləşdirilməsi; bu məsələlərin reallaşdırılmasına yönəldilmiş xarici siyasət tədbirlərinin, kompromis planlarının hazırlanması; xarici siyasət sahəsində tədbirlərin hökumət tərəfindən təsdiq edilmiş planlarının praktik şəkildə həyata keçirilməsi proqramının hazırlanması.

**XARİCİ SİYASƏTİN VASİTƏLƏRİ.** Dövlətin beynəlxalq aləmdə öz məqsədlərinə çatmaq, *beynəlxalq münasibətlər* sisteminə təsir etmək üçün istifadə etdiyi vasitələrin məcmusu. X.s.v. informasiya və maddi xarakterli ola bilər. Diplomatik kanallarla həyata keçirilən əlaqələr, beynəlxalq aləmdə istifadə edilən təbliğat formaları informasiya xarakterli X.s.v.-dir. *Xarici siyasət* əlaqələri, iqtisadi yardım, elmi-texniki əməkdaşlıq, kreditlər verilməsi, əvəzsiz yardım və s. iqtisadi vasitələr maddi xarakterli X.s.v.-dir. X.s.v. kimi *embarqo, boykot*, iqtisadi blokada, güclə hədələmə və başqa iqtisadi və siyasi təzyiq formalarından istifadə edilir.

X.s.v.-nin bütün kompleksi dövlətin xarici siyasəti sahəsindəki gücünü və imkanlarını, dünyadakı qüvvələr nisbətində onun yerini müəyyənləşdirən xarici-siyasət potensialını təşkil edir.

**XARİCİ SİYASƏTLƏ BAĞLI MƏLUMAT.** Dövlətin xaricdəki *diplomatik nümayəndəliyinin* əsas gündəlik funksiyalarından biri. X.s.b.m. ikili funksiyaya malikdir: nümayəndəliyin yerləşdiyi

memorandumu əsasında 19.XII.1949 ildə işlənib hazırlanmış NSC-1920/5 saylı «Dropşot» planında nəzərdə tutulub. Keçmiş SSRİ-də nüvə silahının yaradılması, deməli «əvəzçıxma»nın qaçılmaz olması ilə ilk nüvə zərbəsi planları kəsərdən düşdü.

**İLKİN (PRELİMİNAR) SÜLH MÜQAVİLƏSİ.** İrəlicədən razılaşma sənədi; döyüşən tərəflər bu sənədi əldə əsas tutaraq gələcək sülh müqaviləsinin başlıca müddəalarını müəyyən edirlər. İ.s.m. *müharibəni* dayandırmağın ümumi şərtlərini müəyyən edir, bir qayda olaraq, yeni sərhədlərin keçəcəyi yeri və digər ərazi dəyişikliklərini əks etdirir, sərhədlərin *delimitasiyası* üzrə komissiyaların yaradılmasını, işğal olunmuş ərazilərin boşaldılmasını, hərbi xərclərin ödənilməsini, hərbi əsirlərin mübadiləsini və s. razılaşmaları özündə ehtiva edir.

İ.s.m.-nin imzalanması sülh müqaviləsi bağlanmasının məcburi mərhələsi hesab edilmir.

**İMTİNA ETMƏK** (fr. *dysavouer* – imtina etmək, üz döndərmək). Hökumətin və dövlətin səlahiyyətli orqanının verdiyi akt; həmin aktda göstərilir ki, diplomatik nümayəndə və rəsmi səlahiyyətə malik şəxs özünün bu və ya digər addımında səlahiyyəti çatmadan və ya müvafiq göstərişlər almadan fəaliyyət göstərmişdir. İ.e. adətən diplomatik nümayəndənin və ya rəsmi səlahiyyətli şəxsin geri çağırılması ilə nəticələnir.

**İNAUQURASİYA** (lat. *inauquro*– həsr etmək). Yeni seçilmiş *dövlət başçısının* vəzifəyə başlaması, monarxın tac qoyması münasibətilə təşkil olunan təntənəli mərasim.

**İNDİGENAT** (lat. *indigenus* - yerli). *Beynəlxalq hüququn subyekti* olmayan fərdin *beynəlxalq münasibətlərdə* dövlətlə əlaqələrində hüquqi müdafiədən *(vətəndaşlığından)* istifadə etməsini bildirən hüquqi termindir.

Başqa mənada vətəndaşlıq (təbəəlik) deməkdir. Məs., Fransa tərəfindən keçmiş fransız müstəmləkələrinin əhalisinə verilən xüsusi hüquqi statusdur.

**İNGİLTƏRƏ-ABŞ-ALMANİYA TƏMASLARI** (İkinci dünya müharibəsi illərində). SSRİ-nin 1943-1945 illərdə getdikcə artan hərb və iqtisadi qüdrətindən və onun Avropada nüfuzunun artacağından ehtiyatlanan ABŞ və İngiltərə nümayəndələri özlərinin müttəfiqlik vəzifələrinin ziddinə olaraq, habelə SSRİ, ABŞ və İngiltərə hökumətləri arasında düşmən dövlətlərin hər hansı birilə sülh təklifinə münasibətdə birgə hərəkət etmək barədə 1943 il sazişin tələblərinin əksinə gedərək faşist Almaniyasının emissarları ilə hələ 1941 ildən yaratmış olduqları məxfi əlaqələri fəallaşdırmağa, mümkün ola biləcək *separat sülh* bağlamaq üçün danışıqlara başladılar. Hitlerçilər ümid edirdilər ki, ABŞ və İngiltərə *antihitler koalisiyası* prinsiplərindən imtina edərək Qərb «bolşevik təhlükəsindən qorumaq üçün» Almaniyaya *müharibəni* məğlubiyyətsiz başa vurmağa imkan yaradacaqlar.

Bu məqsədlər üçün ilk növbədə *Vatikandan* istifadə edilirdi. Roma papası XII Piy 5.I.1943 ildə ABŞ prezidenti F.D.Ruzveltə (*Ruzvelt Franklin Delano*) müraciət edərək bu məsələ ilə əlaqədar *vasitəçilik* etməyə hazır olduğunu bildirdi. Təmaslar həmçinin digər qərb dövlətləri ilə *diplomatik əlaqələri* olan İspaniya diplomatları vasitəsilə yaradılırdı. İspaniya diktatoru F.Franko Almaniyaya öz xidmətlərini təklif etdi; o və onun xarici işlər naziri F.Q.Xordana II.1943 ildə İngiltərənin İspaniyadakı *səfiri* S.Horla dəfələrlə görüşərək, İngiltərəni Almaniya ilə separat sülh bağlamağa inandırmağa və «bolşevizmə qarşı» ümumavropa cəbhəsi yaratmağa çalışırdı.

II.1943 ildə hitlerçi emissar knyaz M.Hogenloe ABŞ-ın Strateji Xidmətlər İdarəsinin Avropadakı Bürosunun rəhbəri Allen Dalleslə İsveçrədə görüş keçirdi. Söhbət zamanı Avstriya, Çexoslavakiya, Polşa, Ruminiya və Macarıstanın gələcəyi haqqında məsələlər və eləcə də faşist Almaniyası ilə bağlanacaq sülh müzakirə edildi.

1944 ildə Hitleri hakimiyyətdən uzaqlaşdırmağa cəhd göstərən Almaniyanın bir qrup siyasi və hərbi faşist xadimləri də ABŞ-ın hakim dairələri ilə gizli əlaqə saxlayırdılar. Allen Dalles Hitlerə qarşı planlaşdırılmış bu qəsdin hazırlanmasında iştirak edib. Sui-qəsd müvəffəqiyyətlə başa çatsa idi, Qərb cəbhəsindəki alman hərbi bölmələri dərhal bütün cəbhə boyu geri çəkiləcək və ən yaxşı alman dviziyaları Şərq cəbhəsində mövqe tutacaqdı. Lakin bu plan 20.VII.1944 ildə sui-qəsdin baş tutmaması üzündən boşa çıxdı.

XII.1944 ildə Lissabonda alman konserni «İQ Farbenindustri»nin nümayəndələri ilə ABŞ maqnatları Düpon və Rokfellerin təmsilçiləri arasında danışıqlar aparıldı. Bu görüşdə yaxınlaşan məğlubiyyətlə əlaqədar müharibədən sonra Almaniyanın hərbi-sənaye kompleksinin saxlanması məsələsi müzakirə edildi.

1945 ilin əvvəllərində hitlerçi feldmarşal V.Keytel üç ordu növünün komandanları adından (faktiki olaraq Hitlerin adından) müttəfiq ordularının Qərbi Avropadakı Ali baş komandanı general D.Eyzenhauerə, ingilis və kanada diviziyalarından ibarət 21-ci ordu birləşməsinin komandanı feldmarşal B.L.Montqomeriyə Qərb cəbhəsində «100 günlük barışıq bağlamaq» təklifi ilə müraciət etdi. Alman komandanlığı ümid edirdi ki, bu barışığa nail olmaq ona bütün hərbi qüvvələrini Şərq cəbhəsində cəmləşdirib «Sovet Ordusunu Visla və Oder çayları arasında məğlub etmək» imkanı verəcəkdir. Lakin sovet ordusu komandanlığının işə qarışması ilə həmin danışıqlara son qoyuldu.

1945 ilin əvvəllərində faşist Almaniyasının ABŞ və İngiltərə ilə yenidən gizli təmas yaratmaq cəhdləri artırdı. Bütün bu cəhdlərin mərkəzində yenə də Allen Dalles dururdu. 12.III.1945 ildə bu danışıqlardan xəbər tutan Sovet hökuməti həmin danışıqlarda öz nümayəndəsinin təmsil olunmasını tələb etdi. Üstüörtülü şəkildə rədd cavabı alan SSRİ ABŞ və İngiltərəyə tam qətiyyətlə bəyan etdi ki, yaranmış şərait «bizim ölkələrimiz arasında inamın saxlanması və möhkəmlənməsi işinə heç cür xidmət edə bilməz». Belə bir şəraitdə Böyük Britaniya və ABŞ hökumətləri alman nümayəndəsi Volf ilə əlaqələri kəsməli oldular.

Ümumiyyətlə, ABŞ və İngiltərənin faşist Almaniyası ilə SSRİ-dən xəbərsiz çoxlu gizli təmasları olmuşdur. Bütün bu sövdələşmələrdə əsas məqsəd Avropada müharibədən əvvəlki *status-kvonu* saxlamaqla bolşevizmi Sovet İttifaqı hüdudlarında lokallaşdırmaq, Hitler Almaniyasının məğlub olmasından sonra Avropada yaranacaq vəziyyətdən istifadə etməklə öz mövqelərini möhkəmlətməkdən ibarət idi.

**İNGİLTƏRƏ-ALMANİYA BƏYANNAMƏSİ** (1938). Münhen konfransı başa çatdıqdan sonra Britaniya Baş nazirinin təşəbbüsü ilə 30.IX.1938 ildə Çemberlen-Hitler sövdələşməsi kimi qəbul olunub. B.-da deyilirdi ki, yeni imzalanmış 1938 il Münhen müqaviləsi və 1935 il *İngiltərə-Almaniya müqaviləsi* iki xalqın «bir-biri ilə bir daha *müharibə* etməmək» barədə arzularını ifadə edir və gələcəkdə iki dövlət arasında münasibətlərdə ixtilafların yaranmasına səbəb ola biləcək mənbələri aradan qaldırmaq üçün tərəfləri qətiyyətli tədbirlər görməyə səfərbər edir.

Əslində, sözügedən sənəd tərəflərin hücum etməmək barədə qarşılıqlı müahidəsi olub, Hitlerə Şərqi Avropa dövlətləri və ilk növbədə SSRİ-yə qarşı sərbəst hərəkət etmək imkanı verirdi.

B. (eyni məzmunlu XII.1938 ildə imzalanmış *Almaniya-Fransa Bəyannaməsi*) N.Çemberlenə və Daladyeyə (*Daladye Eduard*) imkan verirdi ki, İngiltərə və Fransanın geniş ictimaiyyətini əsl həqiqətdən yayındırsınlar və onları inandırsınlar ki, bu ölkələr üçün müharibə təhlükəsi artıq arxada qalmışdır. Çemberlenin Münhen siyasətilə üzvi bağlılıq təşkil edən bu *Bəyannaməsi* Hitlerin belə bir inamını möhkəmləndirirdi ki, onun planlaşdırdığı təcavüz Britaniya hökuməti tərəfindən maneəyə rast gəlməyəcəkdir.

**İNGİLTƏRƏ-ALMANİYA DANIŞIQLARI** (məxfi). VII-VIII.1939 ildə həm İngiltərədə, həm də Almaniyada aparılmışdır. Tərəflərin nümayəndələri arasında ayrı-ayrı gizli görüş xarakteri daşıyıb. Danışıqlarda İngiltərə tərəfindən – sənaye məsələləri üzrə Britaniya hökumətinin baş müşaviri H.Vilson, xarici ticarət naziri R.Hadson, lord Qalifaks, Leyborist Partiyasının görkəmli nümayəndəsi Ç.R.Bakston, habelə Britaniya sənayeçilərinin başçısı Ç.Spenser; Almaniya tərəfindən – Hitlerin səlahiyyətli nümayəndəsi H.Voltat, Almaniyanın Londonda *səfiri* H.Dırksen, Almaniya *səfirliyinin* müşaviri E.Kordt və Almaniyanın dördillik iqtisadiyyatı planı üzrə müvəkkil H.Gerinq iştirak edirdilər. Danışıqlar Avropada təcavüzə qarşı mübarizədə qarşılıqlı yardım müqaviləsi bağlamaq barədə 1939 il Moskva danışıqları ilə (SSRİ, İngiltərə və Fransa) eyni vaxtda aparılırdı. İngiltərə hökuməti hesab edirdi ki, Münhendən sonra Polşa və digər Şərqi Avropa dövlətləri ilə əlaqələri genişləndirərək SSRİ ilə danışıqlara getməklə müəyyən dərəcədə öz mövqeyini möhkəmləndirdiyindən faşist reyxi ilə sövdələşməyə cəhd göstərmək və ondan Şərqi Avropaya, ilk növbədə SSRİ-yə qarşı təcavüzkar hərəkətlərində sərbəstlik vermək vaxtı çatmışdır. VII.1945 ildə Vilson Voltatla görüşündə ingilis-alman münasibətlərini tənzimləmə proqramını dəqiqliyilə şərh etdi, hücum etməmək və qarşımamaq haqqında ik saziş bağlamaq barədə təklif irəli sürdü. Şərqi və Cənubi-Şərq Avropa Almaniyanın nüfuz dairəsinə daxil olmalı, dünyanın xammal ehtiyatları və sənaye bazarlarının bölüşdürülməsi, qarşılıqlı maliyyə yardımı göstərilməsi barədə razılaşma əldə olunmalı idi.

Hadson Voltatla 20.VII görüşündə mövcud dünya bazarlarının istismarında və yenilərinin aşkara çıxarılmasında ingilis-alman planlarının çox uzağa gedən perspektivlərindən danışmışdı. O, ingilis və alman maraqlarına hədd qoyulması, habelə «ümumi bazarlarda öldürücü rəqabəti aradan qaldırmağın» mümkünlüyü haqda ətraflı danışmışdı. Almaniya ilə razılığa gəlmək naminə İngiltərə, Dirksenin dediyinə görə, «Şərqi və Cənubi-Şərqi Avropada Almaniyanın maraq dairəsinə hörmət» edəcəyinə söz verir və hətta «alman maraq dairəsinə» daxil olan bəzi ölkələrə əvvəllər verdiyi təminatlardan imtina etməyə hazırdır. London həmçinin SSRİ ilə danışıqları kəsməyə və Fransanın SSRİ ilə razılaşmasının pozulmasında yardımçı olmağa və özünün Cənubi-Şərqi Avropada maraqlardan imtina etməyə hazır idi.

Lakin Britaniya hökumətinin dünyanı bölüşdürmək barədə Hitlerlə sövdələşmək cəhdləri baş tutmadı: alman imperializmi artıq özü dünya ağalığına nail olmaq və dünya *müharibəsinə* başlamaq əzmində idi.

**İNGİLTƏRƏ - ALMANİYA MÜQAVİLƏSİ** (1935). Hər iki ölkənin hərbi-dəniz donanmalarının qüvvələr nisbətini müəyyən etmiş, B.Britaniyanın xarici işlər naziri S.Hord ilə Hitlerin xüsusi səlahiyyətli nümayəndəsi İ.Ribbentrop arasında məktub mübadiləsi formasında 18.VI. imzalanmışdı. M.-yə görə, alman donanmasının ümumi tonnajı B.Britaniyanın hərbi-dəniz donanmasının ümumi tonnajından heç vaxt 35% artıq olmamalı idi. 35:100 tənasübü ayrı-ayrı dərəcədən olan gəmilərə də aid edilirdi. Bu tənasübün texniki səbəblər, yaxud xüsusi razılaşmalar üzündən hər hansı dərəcəli gəmidə artıq olması digər dərəcələrdə kompensasiya olunmalı idi. Almaniya öz sualtı qayıqları üçün *Birliyin* sualtı donanmasının tonnajına bərabər tonnaj hüququ əldə edirdi.

Almaniyanın özbaşına silahlanmasını pisləyən 1935 il Strez konfransından az sonra bağlanan bu sazişlə İngiltərə Hitlerin 1919 il *Versal sülh müqaviləsinin* qoyduğu hərbi məhdudiyyətləri pozmasını sanksiyalaşdırdı. Saziş *İkinci dünya müharibəsinin* reallaşmasına rəvac verdi. Hitler 28.IV.1939 ildə bu M.-nin qüvvədən düşdüyünü elan etdi.

**İNGİLTƏRƏ - ARGENTİNA MÜNAQİŞƏSİ** (FOLKLEND (Malvin) ADALARI). Folklend adaları Argentina sahillərindən 500 km aralı Cənubi Atlantikada yerləşir, iki böyük adadan - Şərqi Folklenddən (Soledad dei) və Qərbi Folklenddən (Qərbi Malvindən), həmçinin 200-ə yaxın xırda adadan ibarətdir. Əhalisi 2 min nəfərdir.

Argentina mənbələrinə görə adalar 1520 ildə ispan dənizçisi E.Gomes tərəfindən kəşf edilmiş və Malvin adaları adlandırılmışdır. İngilislər adaların ilk dəfə 1592 ildə ingilis dənizçisi C.Devis tərəfindən kəşf olunduğunu iddia edirlər. 1722 ildə Parisdə adaların Fransaya məxsus olduğunu göstərən xəritə çap olunmuşdu. 1764 ildə fransızlar adalarda daimi yaşayan əhali yerləşdirmiş, lakin 2 ildən sonra adaları ispanlara satmışdılar.

1816 ildə La-Plata Birləşmiş əyalətləri (müasir Argentina) İspaniyadan ayrılaraq müstəqilliklərini elan etdilər. 1820 ildə adalarda Argentina bayrağı (*Dövlət bayrağı*) qaldırılmış, qubernator təyin olunmuş və hərbi qarnizon yerləşdirilmişdi. 1833 ildə Böyük Britaniya Cənubi Atlantikaya hərbi ekspedisiya göndərmiş və adaları öz müstəmləkəsi elan etmişdi.

O vaxtdan bəri Argentina adaların Böyük Britaniyadan qaytarılmasına nail olmağa çalışır. 1964 ildən bəri dəfələrlə bu məsələyə BMT-nin Baş Assambleyasında baxılmışdır. *BMT*-nin qərarı ilə Folklend (Malvin) adaları *özünü idarə etməyən ərazilər* siyahısına daxil edilmişdi.

IV.1982 ildə Argentina Folklend (Malvin) adaları üzərində öz *dövlət suverenliyini* bərpa etmək üçün qoşunlarını oraya yeritdi və adaları özünün 24-cü əyaləti elan etdi. Britaniya dövləti münaqişənin hərbi yolla həll olunmasına üstünlük verdi və adaların yerləşdiyi rayona özünün güclü hərbi dəniz eskadrasını göndərdi. Şiddətli, lakin qısa hərbi toqquşmadan sonra Britaniya qoşunları adalarda Britaniya idarəçiliyini bərpa etməyə nail oldu.

1982-1985 illərdə Böyük Britaniya 3 milyon dollara yaxın vəsait xərcləyərək Folklend (Malvin) adalarını hərbiləşdirmiş, adalarda strateci aeroport tikdirmiş, 4 min hərbçi yerləşdirmişdi. Sahil sularında daim Britaniya hərbi gəmiləri və sualtı qayıqları üzür.

Argentina hökuməti Folklend (Malvin) adaları ilə bağlı mübahisələrin sülh yolu ilə nizama salınması uğrunda çıxış edir. Lakin Böyük Britaniya hökuməti adaların *suverenliyi* haqqında danışıqları yenidən başlamaqdan imtina edir.

**İNGİLTƏRƏ-BELÇİKA SAZİŞİ** (1894). 12.V. Müstəmləkələrə dair Brüsseldə imzalanıb. Sazişin şərtlərinə görə, «Müstəqil Konqo dövlətinin» hakimi II Leopold Qərbi Sudan vilayəti Vəhr-əl-Qəzələ sahib olur, Ağ Nilin Alberto gölündən Faşoda kəndinədək (Şərqi Sudan) sol sahilini ömürlük icarəyə götürürdü. Bu vilayətləri güzəştə gedərkən İngiltərə formal olaraq, Sudan üzərində nominal hakimiyyətə malik olan «Misir hökuməti adından» çıxış edirdi. Bundan əlavə Konqo uzun müddət İngiltərə ilə II Leopold arasında mübahisə hədəfi olan Şimali Rodeziyanın qonşuluğundakı Katanqa vilayətinə yiyələndi. İngiltərə öz növbəsində «Müstəqil Konqo dövlətlərindən» Tanqanika gölündən Alberto gölünədək 25 km enində uzun bir torpaq zolağını aldı, habelə Konqo ərazisindən keçəcək Transafrika teleqraf xəttini çəkmək hüququ qazandı. Bu torpaq sahələri Şərqi və Cənubi Afrikadakı ingilis mülklərini vahid halda birləşdirirdi ki, bunun da Britaniyanın «Kapdan Qahirəyədək» müstəmləkə imperiyası yaratmaq planlarında xüsusi əhəmiyyəti vardı. İngiltərə ümid edirdi ki, gələcəkdə Şərqi Sudanı işğal etdikdən sonra Belçika «icarədarlığına» son qoymağa və Ağ Nilin bütün sol sahilini ələ keçirməyə müvəffəq olacaqdır. II Leopold əksinə, hesab edirdi ki, «icarəyə götürdüyü» torpaqları Almaniya və Fransanın köməyi ilə Belçikanın daimi mülkünə çevirəcəkdir.

Lakin Fransa və Almaniya bağlanmış müqaviləyə kəskin etiraz etdilər. Sərt diplomatik mübarizə nəticəsində İngiltərə və «Müstəqil Konqo dövləti» geri çəkildilər. 28.VI.1894 ildə müqavilənin ən mühüm maddələri ləğv edildi təkcə Katanqanın II Leopolda verilməsi haqqında maddə qüvvəsində qaldı, üstəlik Katanqanın II Leopolda verilməsinin tanıması müqabilində Fransa Konqo və Nil çayları hövzələri arasındakı suayrıcında olan mülkləri özü üçün sərfəli şəkildə ayırmağa nail oldu.

**İNGİLTƏRƏ-BƏHREYN MÜQAVİLƏLƏRİ VƏ SAZİŞLƏRİ.** Bəhreynə zorla qəbul etdirilən və onun Böyük Britaniyadan müstəmləkə asılılığını təsbit edən öhdəliklər.

Bəhreyn şeyxi 5.II.1820 ildə «Fars körfəzinin ərəb qəbilələri ilə bağlanmış qeyri-bərabərhüquqlu Baş müqaviləyə» qoşulmağa məcbur edildi 1820 və 1847 illər müqavilələri (*Beynəlxalq müqavilə*) İngiltərəyə *dəniz*





*quldurluğu* və qul alveri ilə mübarizə bəhanəsi altında Bəhreyn və digər körfəz əmirliklərinin gəmilərini saxlamaq, axtarış aparmaq, zəbt etmək və məhv etmək hüququ verdi.

Dostluq və sülh haqqında 31.V.1861 il İngiltərə-Bəhreyn müqaviləsi əmirliyin İngiltərə ilə bütün müqavilələrini və sazişlərini təsdiq etdi və Bəhreyn hakiminin üzərinə belə bir öhdəlik qoydu ki, o, regionun digər şeyxləri ilə baş verən münaqişələrin həllini İngiltərə *arbitrajına* tapşırsın; M. həm də Britaniya təbəələrinə *kapitulyasiya* hüquqları verirdi.

06.X.1868 il sazişinə görə, İngiltərə Bəhreyn-Qətar münaqişəsi ilə əlaqədar «himayədə olan» Bəhreynin bütün donanmasını ələ keçirdi və Bəhreynin üzərinə 100 min taler məbləğdə təzminat qoydu. V.1871 ildə Türkiyə Bəhreynin qonşuluğundakı Əl-Həsə vilayətini zəbt edərkən İngiltərə rəsmən bəyan etdi ki, Bəhreyn 1861 il müqaviləsinə əsasən onun «protektoratı» (*Qəyyumluq*) altındadır.

22.XII.1880 ildə İngiltərə Bəhreyn şeyxi ilə saziş bağladı; buna əsasən, şeyx İngiltərənin icazəsi olmadan başqa dövlətlərlə danışıqlar aparmayacağı və müqavilələr bağlamayacağı, onlara Bəhreyn ərazisində öz diplomatik və konsulluq agentliklərini açmağa, kömür ambarları yaratmağa icazə verməyəcəyi barədə öhdəlik götürdü.

Fransa və digər dövlətlərin Fars körfəzinə nüfuz etmələrinə qarşı yönələn 13.III.1892 il sazişinə əsasən, Bəhreyn şeyxi «öz ərazisinin hər hansı bir hissəsini Britaniya hökumətindən başqa heç kimə güzəştə getməyəcəyini, satmayacağını, girov qoymayacağını və bu və ya digər yolla özgəninki etməyəcəyini» öhdəyə götürdü. Bu sazişlərə uyğun olaraq, Bəhreyn 1900 ildən etibarən Britaniyanın Manamadakı (arxipelaqın baş şəhəri) siyasi rezidentinin faktiki idarəsi altına keçmiş oldu.

14.V.1914 ildə Bəhreyn şeyxi Britaniya hökumətinin razılığı olmadan heç kimə neft *konsessiyaları* verməyəcəyi barədə təəhhüd götürdü.

15.VIII.1971 ildə – Bəhreynin müstəqilliyi elan olunduğu gün – Bəhreyn əmiri və Böyük Britaniyanın siyasi rezidenti dostluq haqqında yeni müqavilə imzaladılar. M. 1820, 1880 və 1892 il müqavilə və sazişlərini əvəz etdi. Lakin Böyük Britaniyaya öz *hərbi baza* və qarnizonlarını 1975-1976 illərədək Bəhreyndə saxlamaq hüququ verən nə bu yeni M-nin, nə də ona əlavə edilmiş hərbi əməkdaşlıq haqqında razılaşmaların mətnləri dərc edilməmişdir.

**İNGİLTƏRƏ - ÇİN MÜQAVİLƏSİ** (1890). 17.III. İngiltərənin Hindistandakı vitse-kralı ilə Tsin hökumətinin Lxasdakı nümayəndəsi tərəfindən Kəlküttədə imzalanıb; Sikki üzərində İngiltərə protektoratını (*Qəyyumluq*) təsbit edib.

İngiltərə 1898 ildə Tibet ilə birbaşa əlaqələr yaratmağa cəhd göstərdi, müvəffəqiyyətsizliyə uğradıqdan sonra o, yenidən *müharibəyə* hazırlaşmağa başladı.

**İNGİLTƏRƏ-FRANSA MÜQAVİLƏLƏRİ VƏ SAZİŞLƏRİ.** 1) 1890 il müqaviləsi (*Beynəlxalq müqavilə*); 5.VIII Londonda imzalanıb. Afrikada İngiltərə və Fransanın nüfuz dairələrinin coğrafi hüdudlarını müəyyənləşdirib. M. Əlcəzairin Səhradan keçib Nigerin yuxarı axarınadək gedən cənub sərhədləri xəttini və Çad gölünün Barruadək şimal hissəsini Fransanın nüfuz dairəsinə aid etdi. Fransa Niger çayının aşağı axarı boyu ərazini və Çad gölündən cənuba tərəf yerləşən Bornu və Sokotonu İngil-

tərənin nüfuz dairəsi kimi tanıdı. İngiltərə Madaqaskarı Fransa protektoratı (*Qəyyumluq*), Fransa isə Zənzibarı İngiltərə protektoratı kimi tanıdı.

1890 il müqaviləsi İngiltərə və Fransanın müstəmləkəçilik rəqabətini aradan qaldıra bilməyən kompromis sənəd idi.

2) 1896 il sazişi; 15.I Londonda imzalanıb. Hind-Çində nüfuz dairələrini bölüşdürülməsini nəzərdə tuturdu.

Hər iki tərəf Siamın (müasir Tailan) Menam çayı hövzəsi sərhədlərində müstəqilliyinə təminat verir və ölkədə müstəsna hüquqlar əldə etməyə can atmayacağını öhdəyə götürürdü. Fransa Mekonq çayından şərqə tərəf ərazini özününkü edə bildi. İngiltərə isə Birma və Malayada öz maraqlarını təmin etməyə müvəffəq oldu. Saziş Hind-Çində İngiltərə-Fransa ziddiyətlərinin müvəqqti də olsa zəiflədilməsinə kömək etdi.

3) 1898 il sazişi; 14.VI Parisdə imzalanıb. Niger çayı və Çad gölü rayonunda İngiltərə-Fransa mülklərinin sərhədlərini müəyyən edib. Yeni sərhədlər Fransaya təzə işğal etdiyi Daqomeyanı (müasir Niger) fransız Sudanı ilə birləşdirməyə, Mossi və Qurma torpaqlarını ələ keçirməyə imkan verdi. Nigerin gəmiçilik üçün yararlı olan hissəsi və çaydan şərqə Çad gölündəki iqtisadi baxımdan çox əlverişli bir vilayət İngiltərənin payına düşdü.

S. Qərbi Afrikada İngiltərə və Fransanın mübahisəli məsələlərini nizama saldı, lakin Şərqi Afrikada Nilin yuxarı axarları boyu ziddiyyətlərə son qoymadı və mübahisələr 1898 ildə Faşod münaqişəsi zamanı özünün son həddinə çatdı.

4) 1899 il sazişi; 21.III Londonda imzalanıb. İngiltərə ilə Fransanın Şərqi və Mərkəzi Afrikada nüfuz dairələrinin çoğrafi hüdudlarını müəyyənləşdirib.

Sudanın müştərək idarəçiliyə (*kondominium*) dair Misirlə müqavilə bağlamasına və Marşanın dəstəsini Faşodadan çıxarmağa nail olan İngiltərə Fransanın xarici işlər naziri T.Delkassenin bundan əvvəl danışıqlar aparmaq barədə irəli sürmüş olduğu təklifə razılıq verdi.

Qərbi Sudanın böyük vilayətləri: Kanem, Vadan, Baqirmi, Bornu və Çad gölü rayonundakı Tibesti ilə birlikdə Fransaya verilirdi. Bundan əlavə, Fransa Nil çayı hövzəsində ticarət aparmaq imkanı qazandı.

S. Afrikada İngiltərə ilə Fransa arasında mübahisəli məsələləri nizama saldı, hər iki ölkənin yaxınlaşmasının əsasını qoydu.

5) 1904 il sazişi («Səmimi razılıq» kimi də məşhurdur); Nyufaunlend və Qərbi Afrikaya dair konvensiyalar (*Beynəlxalq konvensiya*) və Siam, Misir və Mərakeşə dair iki *Bəyannamə* şəklində 8.IV Londonda bağlanıb; İngiltərə ilə Fransa arasında nifaq salan başlıca məsələni – müstəmləkə mülkləri məsələsini nizama salıb.

Konvensiyalara müvafiq olaraq Fransa Nyufaundlend sahillərində balıq ovu üzərində inhisar hüquqlarından imtina edirdi. Bunun əvəzində o Qambiya çayında onun üçün ən əhəmiyyətli sahədə sərbəst üzmək hüququ qazanır və Los adalarına sahib olur, habelə Şərqi Nigeriyada sərhədləri öz xeyrinə dəyişmək hüququ əldə edirdi.

Siama dair bəyannamə Siamın Menam çayı boyu bölünməsini elan edirdi: ingilislər müstəsna *konsessiya* hüquqları əldə etməklə bərabər, Siamın qərb yarısını, fransızlar isə şərq yarısını öz nüfuz dairələrinə daxil edir, həm də tərəflər qarşılıqlı qaydada təəhhüd





götürürdülər ki, bu hissələri heç vaxt özlərinə *ilhaq* etməyəcəklər. Bəyannamə İngiltərənin Madaqaskar adasında hər cür rüsum iddialarından imtina etdiyini təsdiq edir, Yeni-Hebrid adalarında müştərək idarə üsulu (kondominium) yaradılmasını nəzərdə tuturdu.

Misirə və Mərakeşə dair bəyannamədə İngiltərə bildirirdi ki, onun Misirin siyasi statusunu dəyişmək fikri yoxdur. Fransa isə təəhhüd götürürdü ki, İngiltərənin Misirdəki hərəkətlərinə hər hansı şəkildə maneə törətməyəcəkdir. Fransa bəyan etdi ki, onun Mərakeşin siyasi statusunu dəyişmək fikri yoxdur, İngiltərə isə Fransa mülklərilə Mərakeş mülklərinin qarışıq olması üzündən Mərakeşdə Fransanın qayda-qanunu qorumaq və Mərakeşə inzibati, iqtisadi, maliyyə və hərbi sahədə yardım göstərmək hüququnu tanıdı. Hər iki hökumət sazişin qərarlarını həyata keçirməkdə bir-birinə diplomatik köməklik göstərmək barədə öhdəlik götürrüdülər.

Bəyannamənin ilk dəfə 1911 ildə dərc edilən məxfi hissəsində nəzərdə tutulurdu ki, əgər İngiltərə öz niyyətlərinin əksinə hər halda danışıqsız təslimolma (kapitulyasiya) sistemində yaxud Misirin məhkəmə təsisatında dəyişiklik etmək qərarına gələrsə, Fransa buna o şərtlə razı olacaqdır ki, İngiltərə də Fransanın Mərakeşdə belə «islahatlar» keçirməsinə razılıq versin.

Əslində bu maddələr Misirdən və Mərakeşdən üçüncü dövlətin çıxarılmasını, Misirin və Mərakeşin müvafiq olaraq İngiltərə və Fransadan asılığını nəzərdə tuturdu. Burada yalnız İspaniya istisna təşkil edirdi; hər iki tərəf Melil, Seut və digər ispan mülklərinə bitişik vilayətləri İspaniyanın nüfuz dairəsinə verməyə (əgər həmin ərazidə sultanın hakimiyyətinə son qoyularsa) razı oldular.

Bəyannamə və onun ardınca bağlanan 1907 il Rusiya-İngiltərə müqaviləsi Almaniya və onun başçılıq etdiyi *Üçlər ittifaqına* qarşı iri dövlətlərin ittifaqının yaranmasına gətirib çıxardı. Bəyannamənin imzalandığı 1904 ildən etibarən yaxınlaşmaqda olan *Birinci dünya müharibəsi* ərəfəsində başlıca qüvvələrini yerləşdirilməsi açıq-aşkar özünü biruzə verməyə başladı.

6) 1947 il müqaviləsi; ittifaqa dair 4.III Dyunkerkdə (Fransa) imzalanıb. Tərəflərdən hər hansı biri «Almaniya ilə yenidən hərbi əməliyyatlara cəlb olunarsa» digəri dərhal köməyə gəlməli, sərəncamında olan bütün hərbi və digər vasitələrlə onu dəstəkləməli idi. Almaniyanın təcavüzkar siyasətinin nəticəsi olaraq İngiltərə və Fransanın təhlükəsizliyi təhlükə altına düşərdisə, habelə «Almaniyanın tərksilah və yenidən silahlanmaq barədə öz üzərinə götürdüyü öhdəlikləri pozmaq cəhdlərinin qarşısını almaq» məqsədilə hər iki tərəf «bir-biri ilə məsləhətləşmələr keçirmək və buna bənzər hadisələrin həllinə Almaniya ilə münasibətlərdə məsuliyyət daşıyan digər ölkələri də cəlb etməklə» təhlükəni aradan qaldırmaq barədə razılığa gəldilər. Almaniyanın danışıqsız təslimolma aktına əsasən üzərinə götürdüyü hər hansı öhdəliyi yerinə yetirməkdən imtina etdiyi təqdirdə İngiltərə və Fransa bu barədə bir-biri ilə və eləcə də Almaniyaya qarşı tədbirlər görməkdə səlahiyyətli olan digər dövlətlərlə məsləhətləşmələr aparmağı nəzərdə tuturdular.

M. istənilən vaxt ləğv olunma hüququ ilə 50 ilə bağlanmışdı. 1948 il Brüssel müqaviləsini imzalamaqla İngiltərə və Fransa *Qərbi Avropa İttifaqının* tərkibinə daxil oldular.

**İNGİLTƏRƏ – FRANSA - RUSİYA MÜQAVİLƏSİ** (1915). II-III. Boğazlara dair; Rusiyanın xarici işlər naziri S.D.Sazonovla Böyük Britaniyanın və Fransanın *səfirləri* arasında *xatırlatma məktublarının* müdafiəsi şəklində Petroqradda bağlanıb. İstanbulun və Qara dəniz boğazlarının Rusiya imperiyasının tərkibinə qatılmasını nəzərdə tuturdu; Türkiyəni bölmək barədə *Antanta* dövlətlərinin ilk gizli hərbi müqaviləsi olub.

Rusiyanın Londonda səfiri 9.XI.1914 ildə İngiltərənin xarici işlər naziri E.Qreyin Petroqrada belə bir bəyanatını göndərdi ki, Almaniya darmadağın edildiyi təqdirdə İstanbulun və boğazların taleyi Rusiyanın mənafeyi nəzərə alınmadan həll edilə bilməz. Fransa da müəyyən tərəddüddən sonra İngiltərənin nöqteyi-nəzərilə şərik oldu.

İngilis-fransız *diplomatiyası* Rusiya tərəfdən belə bir kompensasiya ala bildi ki, o, İstanbulu və boğazları yalnız o halda özününkü edə bilər ki, *müharibəni* tam qələbəyə çatdıranadək Almaniyaya qarşı müharibədə iştirak etsin.

1915 il müqaviləsinin (*Beynəlxalq müqavilə*) davamı olaraq Türkiyənin Asiyadakı mülklərini bölüşdürməklə bağlı 1916 ildə İngiltərə-Fransa və az sonra İngiltərə-Fransa-Rusiya danışıqları aparıldı ki, bu da 1916 il Sayks-Piko müqaviləsi ilə başa çatdı. Sonralar İtaliya da hər iki müqaviləyə qoşularaq, Türkiyənin bölünməsində ona da pay ayrılması barədə bir sıra tələblər irəli sürdü.

**İNGİLTƏRƏ-FRANSA SAZİŞLƏRİ VƏ BƏYANNAMƏLƏRİ** (Suriya və Livana dair). 1) 1918 il sazişi; 30.IX Londonda *imzalanıb*. Yaxın Şərqdə qüvvələr nisbətindəki yeni göstəriciləri əks etdirir; Suriyanı, Livanı və Fələstini Yaxın Şərqdə Britaniya baş komandanlığının sərəcamına verirdi. Fransa öz qoşunların, yalnız «mavi zona» deyilən hüdudlarda (Livan və Qərbi Suriya) həm də ingilis qüvvələri ilə birlikdə saxlaya bilərdi. Rejim müvəqqəti xarakter daşıyırdı. Suriyanın, Livanın və Fələstinin son olaraq statusu sülh konfransında (*Beynəlxalq konfranslar*) müəyyən olunmalı idi. Bununla belə S. Fələstinin İngiltərə, Livanın isə Fransa tərəfindən işğalını irəlicədən müəyyənləşdirdi, lakin İngiltərə ilə Fransa arasında sonralar gərgin diplomatik mübarizə hədəfinə çevrilən Şərqi Suriya məsələsini həll etmədi.

3) 1918 il Bəyannaməsi; 7.XI.Böyük Britaniya və Fransa hökumətləri adından Suriya, Fələstin və İraq əhalisinə müraciət şəklində dərc olunmuşdu; işğal rejimi ilə əlaqədar ərəb xalqları arasında yaranan narazılığı səngitmək və ərəb milli-azadlıq hərəkatının yüksəlişinə yol verməmək məqsədi daşımışdı.

1919-1920 il *Paris sülh konfransında* ərəb nümayəndə heyəti bu B.-yə əsaslanaraq ərəb ölkələrinə istiqlaliyyət verilməsini tələb etsə də, nə bu tələb, nə də müqavilənin özü həyata keçirilmədi.

4) 1919 il sazişi; 15.IX Parisdə bağlanıb. 1918 il sazişində aşağıdakı dəyişikliklər edib: Britaniyanın işğalçı qoşunları Fələstin və İraqda qalmalı, lakin Suriyadan və Livandan çıxmalı, həm də onları Qərbi Suriya, Livan və Kilikiyada fransız işğalçı qoşunları, Şərqi Suriyada isə ərəb qüvvələri əvəz etməli idilər.

5) 1920 il sazişi; 25.IV. Suriya və Livanın fransız, Fələstin və İraqın isə ingilis mandatına verilməsinə dair imzalanıb.

6) 1920 il sazişi; 23.XII. fransız və ingilis mandatlarına aid olan ərazilərin sərhədlərini müəyyənləşdirməyə dair imzalanıb.

7) 1941 il Bəyannaməsi: Böyük Britaniya və Azad Fransa qoşunlarının Suriya və Livan ərazisinə daxil olduqları gün – 8.VI dərc edilib; Suriya və Livana istiqlaliyyət verilməsi və mandat rejiminə son qoyulması barədə vədləri ehtiva edirdi; vədlər vəd olaraq da qaldı. Bu hal Suriya və Livan xalqlarını mandatın ləğv olunması və həqiqi müstəqillik əldə etmək uğrunda mübarizəni davam etdirməyə sövq etdi.

8) 1941 il sazişi, barışığa dair; 14.VII. *Vişi hökuməti* qoşunlarının Suriyada və Livanda Böyük Britaniya və Azad Fransa qoşunları tərəfindən darmadağın edilməsinin nəticəsi olaraq Akkada (Livan) imzalanıb. Faktiki olaraq Suriya və Livanda İngiltərənin müstəsna hakimiyyətini bərqərar edirdi ki, bu da fransız generalı de Qollun kəskin etirazına səbəb olmuşdur.

24.IX.1941 ildə *barışığa* dair sazişə əlavə kimi «izahlı saziş» deyilən sənəd imzalandı və ona əsasən, Böyük Britaniya general de Qollun (*Qoll Şarl De*) bir sıra tələblərini qəbul etməli oldu, yəni «Azad Fransanın Vişi qoşunlarına dair bütün məsələdərdə prioritet maraqlarını» qəbul etdi, düşməndən ələ keçirilən hərbi materialları fransız mülkiyyəti elan etdi, de Qoll ordusuna «xüsusi qoşunların (milli hissələrin)» daxil olmasına razılıq verdi. 25.VII.1941 ildə Böyük Britaniya ilə Fransa arasında Yaxın Şərqdə əməkdaşlığa dair daha iki saziş – əsas və əlavə sazişlər imzalandı; onlarda hərbi əməliyyatların razılaşdırılmasının zəruriliyi, Suriyada və Livanda ingilis hərbi komandanlığına geniş səlahiyyətlər verilməsi təsbit edilirdi.

15.VIII.1941 ildə mübadilə olunan notalara (*Notalar mübadiləsi*) uyğun olaraq, Böyük Britaniya bəyan etdi ki, onun *müharibəni* udmaqdan savayı Livanda heç bir marağı yoxdur, hər hansı şəkildə Fransanın mövqeyinə qəsd etmir, Fransa ilə birlikdə Suriya və Livanın istiqlaliyyətinə təminat verir və Fransanın bu ölkələrdə üstün mövqelərini tanıyır və bu hal bu mövqelər həmin ölkələrin müstəqilliyinə xələl gətirmir. Cavab notasında de Qoll bu təminatları razılıqla qəbul etdi və öz növbəsində İngiltərə ilə müttəfiq kimi müharibəni qələbəyədək başa çatdırmağa vəd verdi.

9) 1945 il sazişi, 13.XII imzalanıb; ingilis və fransız qoşunlarının tədricən Suriyadan Livana köçürülməsini və *BMT*-nin qərarı ilə bu zonada *kollektiv təhlükəsizlik* təşkil olunanadək Livanda saxlanmasını nəzərdə tuturdu.

S.-lə əlaqədar Suriya və Livan hökumətləri İngiltərə və Fransaya etiraz edərək, onlardan öz qoşunlarını bu ölkələrin ərazisindən tamamilə çıxarmalarını tələb etdilər. Nəticə hasil olmadıqda I.1946 ildə Suriya və Livan hökumətləri *BMT-nin Təhlükəsizlik Şurasına* müraciət etdilər və bu zaman SSRİ hökuməti onların tələblərinə dəstək verdi.

10) 1946 il sazişi; 09.III. Suriya-Livan məsələsinin BMT-nin Təhlükəsizlik Şurasında müzakirəsindən sonra Parisdə imzalanıb; ingilis-fransız qoşunlarının 30.IV.1946 ildə Suriyadan, ingilis qoşunlarının 30.VI.1946 ildə Livandan və fransız qoşunlarının 01.IV.1947 ildə Livandan çıxarılma müddətlərini müəyyən etmişdir.

S. Suriya və Livan xalqlarının istiqlaliyyət uğrunda qələbə ilə başa çatmasının təntənəsi oldu.

**İNGİLTƏRƏ-FRANSA TƏMİNATLARI.** III-IV.1939 ildə Polşa, Rumıniya, Yunanıstan və Türkiyəyə verilmişdir. Bu ölkələrə qarşı təzavüz baş verdikdə onlara hərbi kömək göstərilməsini nəzərdə tuturdu.

Almaniya tərəfindən Polşaya ərazi və digər güzəştlər barədə ultimativ tələblər verdikdən sonra Britaniya hökuməti 31.III. öz adından və Fransa hökuməti adından bəyan etdi ki, Polşanın müstəqilliyinə təhlükə yaranarsa, onu tamamilə dəstəkləyəcəkdir. 07.IV. İtaliya Albaniyanı tutduqdan sonra Britaniya və Fransa hökumətləri bir həftə sonra Yunanıstana və Rumıniyaya təminatlar verdiklərini bəyan etdilər. Sonradan, belə bir təminat Türkiyəyə də aid edildi. Niderland, İsveçrə və Danimarka təminatlardan imtina etdilər. İngiltərə və Fransanın xırda Avropa ölkələrinə belə səxavətlə kömək vəd etmələri faşist təcavüzünə qarşı durmaq qətiyyəti ilə əməli olaraq təsdiqlənmədi. Bu təminatlar Almaniyaya təzyiq göstərmək və Hitleri İngiltərə ilə sövdələşməyə məcbur etmək məqsədi daşıyırdı. İngiltərənin verdiyi bu təminatlara onun özünün əsl münasibəti 1939 il İngiltərə-Almaniya (məxfi) danışıqlarında xüsusilə əyani şəkildə təzahür etdi. SSRİ, İngiltərə və Fransanın iştirakı ilə aparılmış 1939 il Moskva danışıqlarında Avropada təcavüzə qarşı sülhsevər dövlətlərin möhkəm cəbhəsini yaratmaq barədə məsələ müzakirə olundu, lakin danışıqlar nəticə vermədi. Polşa polyark-alman münasibətlərinin xeyli kəskinləşməsinə baxmayaraq, SSRİ ilə əməkdaşlıqdan imtina etdi. Faşist almaniyasının Polşaya hücumundan sonra İngiltərə və Fransa Almaniyaya *müharibə* elan etsələr də, Polşaya heç bir əməli kömək göstərmədilər. Yunanıstana gəlincə, İngiltərə ona az miqdarda «rəmzi» səciyyə daşıyan kömək etdi. Rumıniya isə 2.VI.1940 ildə rəsmən təminatdan imtina etdi.

**İNGİLTƏRƏ – FRANSA - TÜRKİYƏ ARASINDA QARŞILIQLI YARDIM HAQQINDA MÜQAVİLƏ** (1939). 19.X. imzalanmış İngiltərə-Fransa-Türkiyə müqaviləsinə (*beynəlxalq müqavilə*) görə Türkiyə hər-hansı Avropa dövləti tərəfindən təcavüzə məruz qalarsa və *müharibəyə* cəlb edilərsə, İngiltərə və Fransa Türkiyəyə hərbi yardım etməli, hər hansı Avropa dövləti tərəfindən Aralıq dənizində müharibə başlanardısa və bu müharibəyə Fransa və Britaniya cəlb edilərdisə Türkiyə tərəfindən müttəfiqlərə yardım göstərilməli, Fransa və İngiltərə öz üzərilərinə götürdüyü təminatlarla bağlı (*İngiltərə-Fransa təminatları*) müharibəyə cəlb edilərdisə Türkiyə Rumıniya və Yunanıstana yardım göstərməli, Aralıq dənizində İngiltərə və Fransa və ya müttəfiqlərdən hər hansı biri müharibəyə cəlb edilərdisə dərhal məsləhətləşmələrə başlanmalı idi. M.-yə əlavə edilən 2 protokola əsasən Türkiyə tərəfindən müttəfiqlər qarşısında öz üzərinə götürdüyü öhdəliklər heç bir zaman onun SSRİ-ilə qarşı silahlı toqquşmasına səbəb ola bilməzdi.

M.-nin müddəti 15 ilə nəzərdə tutulmuşdu.

**İNGİLTƏRƏ-HOLLANDİYA SAZİŞİ** (İndoneziyaya dair). İndoneziyada ingilis-holland rəqabəti bu ərazidə ingilis və holland Ost-Hind kompaniyalarının fəaliyyətinin ilk günlərindən başlamışdı.





Hollandiyanın İndoneziya üzərində inhisarı XVIII əsrin əvvəlində tənəzzülə uğradı. Dördüncü İngiltərə-Hollandiya *müharibəsinin* (1780-1784) qurtarması ilə ingilis gəmiləri İndoneziyanın məhəlli sularında üzmək hüququ əldə etdi. İngiltərə-Fransa müharibəsi dövründə ingilislər çoxlu holland müstəmləkəsini, həmçinin İndoneziyanı ələ keçirdi, oradakı müstəqil əraziləri, xüsusən də zəngin qalay yataqlarına malik Billiton adasını özlərinə tabe etdilər. Napoleon (*Napoleon I Bonapart*) məğlub edildən sonra İngiltərə öz hakimiyyətini Hollandiyadan asılı olan daha bir neçə knyazlığa yayaraq, onlardan Sumatranın şimalında ən böyüyü olan Açe sultanlığını qeyri-bərabər hüquqlu müqavilə bağlamağa məcbur edə bildi. 1819 ildə İngiltərə-Malay knyazlığı taxt-tacına iddiaçı olan Coxordan strateji əhəmiyyətə malik Sinqapur adasını qopara bildi və çox keçmədən buranın baş şəhəri iri ticarət limanına çevrildi.

17.III.1824 il London müqaviləsi (*Beynəlxalq müqavilə*) Cənubi-Şərqi Asiyada ingilis və holland mülklərinin sərhəddini müəyyən etdi. Hindistanda və bütün Malakka yarımadasındakı holland mülkləri İngiltərəyə verildi. Hollandiya Malakka yarımadasındakı knayzlıqlar ilə heç bir müqavilə bağlamayacağına söz verərək İngiltərənin Sinqapura olan «hüququnu» tanıdı və bunun əvəzindi Billiton adasını özününkü etdi. Fort Malbero və İngiltərənin Sumartadakı müstəmləkəsi Hollandiyaya verildi. İngiltərə ərazilər işğal etməmək və Sinqapurdan Cənuba olan knayzlıqlarla müqavilələr bağlamaq barədə öhdəlik götürdü. Açe ilə bağlanan müqavilə ləğv edildi, lakin Hollandiya sultanlığın müstəqilliyini saxlamağı öhdəyə götürdü. O, eyni zamanda İngiltərənin sərbəst şəkildə İndoneziya ilə ticarət aparmaq hüququnu da tanımalı oldu. İngilis mallarına qoyulan gömrük rüsumları Hollandiya idxalından tutulan həcmdən iki dəfədən çox olmamalı idi. M. demək olar ki, yarım əsrə yaxın bir müddətdə İndoneziyada ingilis-holland münasibətlərinin hüquqi əsasını təşkil etdi. Bununla belə, bu sənəd 40-cı illərdə Kalimantan adasının (Borneo) şimal-şərqində yerləşən Saravakın ingilis təbəəsi C.Brukun «müstəqil» knyazlığına çevrilməsinə də mane olmadı. M.-nin köməyi ilə İngiltərə Bruney sultanından Laboan adasını ala bildi.

Avropada və ABŞ-da kapitalizmin inkişafı, Suveyş kanalının istifadəyə verilməsi, Asiya və Sakit okean hövzəsində baş verən müstəmləkə işğalları İngiltərə üçün onun avropalı və amerikalı rəqiblərinin İndoneziyaya soxulmaq təhlükəsini yaradırdı. Belə bir şəraitdə arxipelaqın hərbi və iqtisadi baxımdan nisbətən zəif dövlətin əlində qalması İngiltərə üçün daha məqsədə müvafiq idi. 2.XI.1871 ildə Sumatrada bağlanan İngiltərə-Hollandiya müqaviləsi Sumatra adasının bütünlüklə Hollandiyanın ixtiyarına verilməsinə irəlicədən imkan yaratdı İngiltərə 1824 il müqaviləsi ilə nəzərdə tutulan Açe müstəqilliyindən imtina etdi və eyni zamanda İndoneziyada *«açıq qapılar siyasəti»* üçün mühüm mərhələ oldu. M.-yə görə, Hollandiya ingilislərə ticarət və gəmiçilikdə hollandlarla eyni səviyyəli hüquq və imtiyazlar verməklə eyni zamanda, həm də bu hüquqların sonralar Hollandiya taxt-tacından asılı olacaq Sumatranın ayrılıqda hər bir knyazlığına da şamil olunmasına təminat verdi. Sumatra M.-si bağlanandan sonra Hollandiya Açe knyazlığını zəbt etməkdən ötrü müharibəyə başladı və

onu tamamilə özündən asılı vəziyyətə salmağa müvəffəq oldu.

XX əsrin başlanğıcında İngiltərə-Hollandiya münasibətlərinin daha da yaxınlaşması və ingilis kapitalının arxipelaqa nüfuzu davam etdi. Yapon təcavüzü təhlükəsi İngiltərə ilə Hollandiya arasında müstəmləkə mülklərinin müştərək müdafiə tədbirlərinə dair gecikmiş razılaşmaya gətirib çıxarsa da, həmin mülklərin 1942 ildə Yaponiya tərəfindən işğalının qarşısını ala bilmədi. Milli azadlıq hərəkatının genişlənməsi 17.VIII.1945 ildə İndoneziyanın müstəqilliyinin elan olunması ilə nəticələndi.

**İNGİLTƏRƏ-İORDANİYA (TRANSİORDANİYA) MÜQAVİLƏLƏRİ VƏ SAZİŞLƏRİ.** Türkiyənin *Birinci dünya müharibəsində* məğlubiyyətindən sonra Transiordaniyanı təşkil edən ərəb torpaqları Suriyanın bir hissəsi kimi baxılmış və bu torpaqlar Suriya ilə birlkdə müəyyən vaxtadək əmir Feysəlin hakimiyyəti altında qalmış, lakin 1920 il San-Remo konfransının (*Beynəlxalq konfrans*) qərarı ilə Fələstin üzərində ingilis mandatına daxil edilmişdi. Bu, ərəblər tərəfindən müqavimətlə qarşılanmış və İngiltərəni öz müstəmləkə ağalığını formaca dəyişməyə məcbur etmişdi. 1921 il Qahirə konfransında Britaniyanın müstəmləkələr naziri Çörçill (*Çörçill Uinston Leonard Spenser*) Britaniya hökuməti adından əmir Abdullaha vəd verdi ki, Transiordaniya dövləti yaradacaq və onu rəsmən Transiordaniyanın əmiri kimi tanıyacaq və ona subsidiya verəcəkdir. Abdullah isə Britaniya mandatını qəbul etməyi və Qüdsdə İngiltərə hakimiyyətinə tabe olmağı öhdəyə götürdü. IX.1922 ildə *Millətlər Cəmiyyətinin* Şurası Transiordaniya üzrə mandatı təsdiqlədi, 1923 ildə Britaniyanın Qüdsdə Ali Komissarlığı Transiordaniyanın Fələstindən ayrıldığını elan etdi.

20.II.1928 ildə Transiordaniyanın Böyük Britaniyadan asılılığını bir daha təsdiq edən saziş imzalandı.

19.VI.1941 ildə 1928 il sazişinə edilən əlavə ilə İngiltərəyə ölkənin müdafiəsi üçün lazım olan miqdarda Transiordaniyada qoşun saxlamaq, ordu yaratmaq və ona nəzarət etmək hüququ verilirdi.

1928 il sazişi 22.III.1946 ildə yeni qeyri-bərabər hüquqlu müqavilə (*Beynəlxalq müqavilə*) ilə əvəz edildi: ona əsasən Böyük Britaniya formal olaraq Transiordaniya üzrə mandat hüququndan imtina edir və onu müstəqil krallıq kimi tanıyır, lakin orada qeyri-məhdud sayda qoşun saxlamaq, hərbi bazalar tikmək hüququnu özündə saxlayır, kral rütbəsi alan Abdullaha isə ingilis subsidiyası verilməkdə davam edirdi.

15.III.1948 ildə 1946 il müqaviləsinin əvəzi olaraq Ommanda İngiltərə-Transiordaniya ittifaq müqaviləsi imzalandı; ona əsasən, İngiltərə Transiordaniyada öz hərbi hissələrini saxlamaq və Transiordan ordusuna nəzarət etmək hüququna malik ola bilərdi.

XII.1955 ildə İngiltərə İordaniyaya 1948 il İngiltərə-İordaniya müqaviləsini yeni sazişlə əvəz etmək təklifi verdi. Ona əsasən, İordaniya Bağdad *paktına* girməli və İngiltərə ilə hərbi «əməkdaşlığı» davam etdirməli idi. Lakin İordaniyanı Bağdad paktına cəlb etmək cəhdləri xalq kütlələrinin güclü müqaviməti ilə rastlaşdı. İordaniya hökuməti məcbur olub ərəb regionunun (İordaniya ordusunun) komandanı, Britaniya generalı Qlabbı vəzifədən götürdü və ingilis zabitlərini ordudan uzaqlaşdırdı.





İordaniya 14.III.1957 ildə 1948 il İngiltərə-İordaniya müqaviləsini qüvvədən saldı və İngiltərə ilə belə bir razılığa gəldi ki, müqavilənin ləğvindən keçən 6 ay ərzində ingilis qoşunları ölkədən çıxarılsın və hərbi bazalar ləğv edilsin. VII.1957 ildə ingilis qoşunları ölkədən çıxarıldı. Lakin 17.VII.1958 ildə İraqda antimonarxist inqilabla bağlı, Britaniya hökuməti kral Hüseynin kömək göstərmək barədə müraciətini bəhanə gətirərək, İordaniyaya paraşüt hissələri və avaiasiya bölmələri yeritdi.

İngilislərin İordaniyaya təcavüzü və eyni vaxtda ABŞ-ın Livana qoşun yeritməsi ərəb xalqlarını və dünyanı mütərəqqi qüvvələrini bərk qəzəbləndirdi. 21.VIII.1958 ildə *BMT Baş Məclisinin* fövqəladə sessiyası xarici qoşunların Livandan və İordaniyadan tezliklə çıxarılması sahəsində müvafiq tədbirlər görülməsini tələb etdi. XI.1958 ildə Britaniya qoşunları İordaniyanı tərk etdi.

**İNGİLTƏRƏ-İRAQ MÜQAVİLƏLƏRİ VƏ SAZİŞLƏRİ.** 1) 1922 il müqaviləsi (*Beynəlxalq müqavilə*); 10.X Bağdadda imzalanıb. Nəzərdə tutulurdu ki, İraqda özünün ali komissarı ilə təmsil olunan İngiltərə bu dövlətə «məsləhətlər verəcək və kömək göstərəcəkdir», daha doğrusu faktiki olaraq İraqın dövlət aparatına rəhbərlik edəcəkdir. M.-yə əsasən, 25.III.1924 ildə hərbi, məhkəmə, maliyyə məsələlərinə və eləcə də ingilis məmurlarının İraqda hansı şərtlərlə işləyəcəklərinə dair ayrı-ayrı sazişlər bağlandı. M.-yə habelə İngiltərənin mandata sahib kimi *Millətlər Cəmiyyətinin* üzvü olan digər dövlətlər qarşısında öhdəliklərindən irəli gələn bir sıra maddələr də salınmışdı.

2) 1926 il müqaviləsi; 13.I Bağdadda imzalanıb. 1922 il M.-nin müddətini 1950 ilədək uzadılmasını nəzərdə tuturdu. M. İraqın Millətlər Cəmiyyətinə üzv olmasından sonra qüvvədən düşməli idi, yəni İraq avtomatik olaraq ingilis mandatından azad olacaqdı.

3) Dostluq və ittifaqa dair 1927 il müqaviləsi; 14.XII Londonda imzalanıb. Onun şərtlərinə görə, İngiltərə İraqı müstəqil, suveren dövlət (*Dövlətin suverenliyi*) kimi tanıyır, bu ölkənin Millətlər Cəmiyyətinə qəbul olunmasına kömək göstərməyi öhdəyə götürürdü. M. *ratifikasiya* olunmadı.

4) 1930 il müqaviləsi; «Dostluq və ittifaq»a dair 30.VI Londonda imzalanıb. M. mandat sisteminin ləğvini və İraqın müstəqilliyini tanısa da, mahiyyət etibarilə İraq yenə də İngiltərədən asılı vəziyyətdə saxlayırdı. Tərəflər bildirirdilər ki, «xarici siyasətini bütün məsələləri ətrafında açıq məsləhətləşmələr aparacaq», normal *diplomatik münasibətlər* yaradacaqlar. M. həmçinin hərbi ittifaqın şərtlərini müəyyən edirdi. Ölkənin müdafiə məsuliyyətini İraq kralı öz üzərinə götürürdü. Lakin İraqın rabitə və nəqliyyat yollarının təhlükəsizliyini təmin etmək adı altında İngiltərəyə İraq ərazisində 2 hərbi-hava bazası və ordu hissələri saxlamağa icazə verilirdi. M.-yə əlavə olunan hərbi sazişin şərtlərinə görə ingilis qoşunları üçün İraq ərazisində əvvəllər verilən imtiyazlar və eləcə də ölkə ərazisində sərbəst hərəkət etmək hüquqları saxlanılırdı. İraq Millətlər Cəmiyyətinə qəbul olan andan M. qüvvəyə minir və eyni vaxtda 1922 və 1926 il müqavilələri qüvvədən düşürdü. M. 25 ilə bağlanmışdı. 03.X.1932 ildə İraq Millətlər Cəmiyyətinə qəbul edildi və bundan sonra 1930 il müqaviləsi İraq xalqının bu sənədə qarşı qəti etirazlarına baxmayaraq, 1955 ilədək qüvvədə qaldı.

5) 1948 il müqaviləsi 15.I Portsmudda (İngiltərə) bağlanıb. *İkinci dünya müharibəsindən* sonra İngiltərə İraqda öz hökmranlığına daha çox çeviklik vermək məqsədilə 1930 il müqaviləsini yenisi ilə əvəz etmək təklifilə çıxış etdi. Yeni sənəd «İngiltərə-İraq müştərək müdafiə orqanı» yaradılmasını və İraqın hərbi hava bazalarından birgə istifadəni nəzərdə tutmalı idi.

Müqaviləsi məhz bunları özündə ehtiva etdi. Qalan məsələlərdə isə 1930 il müqaviləsindəki əsas siyasi və hərbi şərtləri təkrarladı. M. ratifikasiya olunmadı.

6) Müdafiəyə dair, 1955 il sazişi; 04.IV Bağdadda imzalanıb; 1930 il müqaviləsini əvəz edib. Qarşılıqlı müdafiəyə dair *Memorandum* da əlavə olunub. S.-ə görə, İngiltərə İraqın müttəfiqi qismində onun ərazisində yerləşən bir sıra hərbi-hava bazalarından (*Hərbi bazalar*) istifadə etmək, İraqın səmasında hava uçuşlarına, habelə İraqın hava hücumundan müdafiə sisteminə nəzarət etmək, İraqda qoşun və hərbi mütəxəssislər saxlamaq, silahlı qüvvələrin hərbi təlimini keçirmək hüququnu özündə saxlayırdı. Sazişdə iki ölkənin siyasi, hərbi və maliyyə təəhhüdləri müəyyən edilir, hərbi avadanlıq və ingilis hərbi mütəxəssislərinin göndərilmə şərtləri qeyd olunurdu. Nəzərdə tutulurdu ki, S. İngiltərənin Bağdad *paktına* qoşulduğu gündən qüvvəyə minəcək və İraq ilə İngiltərə bu paktın üzvlüyündə qalanadək qüvvədən düşməyəcək (İngiltərə Bağdad paktına 5.IV.1955 ildə qoşuldu).

1958 il inqilabından sonra İraq hərbi-siyasi paktlarda və ittifaqlarda iştirakdan imtina etdi. 24.III.1959 ildə İraq hökuməti Bağdad paktından çıxdığını rəsmən bildirdi və 1955 il S.-ni qüvvədən saldı. 30.III.1959 ildə İngiltərə ilə İraq arasında əldə edilən razılaşmaya əsasən, ingilis hərbi-hava bazalarının, o cümlədən Həbbandakı ən iri aviasiya bazasının ölkədən çıxarılması qərara alındı.

**İNGİLTƏRƏ-İRAN MÜQAVİLƏLƏRİ VƏ SAZİŞLƏRİ.** 1) 2.VII.1763 il İran ərazisində ingilis tacirlərinə imtiyaz və üstünlüklərin verilməsi haqqında sazişi. İngilislər Bəndər-Buşəhrdə möhkəmləndirilmiş ticarət faktoriyası yaratmaq üçün torpaq mülkiyyətçisi olmaq, İran ərazisində azad və gömrüksüz ticarət etmək hüququ aldılar və yun məmulatlarının idxalında inhisar hüququna malik oldular.

2) 01.IV.1801 ildə Tehranda imzalanmış müqaviləyə (*Beynəlxalq müqavilə*) görə, Hindistandakı əmlakına Əfqanıstanın hücum edəcəyi təqdirdə, İran Əfqanıstana qoşun göndərməyi, fransızları İrandan qovmağı və onları bir daha ora buraxmamağı, İngiltərə isə Əfqanıstan və ya Fransanın hücum edəcəyi təqdirdə İranı hərbi sursatla təmin etməyi öhdəsinə götürdü.

3) 12.III.1809 ildə Tehranda imzalanmış müqaviləyə görə İran Fransa və İngiltərə ilə düşmən olan digər dövlətlərlə əlaqələri kəsməyə, İngilis hərbi-dəniz donanmasını Fars körfəzinə buraxmağı, İngiltərə isə Rusiya ilə apardığı *müharibə* qurtarana qədər İrana ildə 160 min tümənə bərabər maliyyə yardımı göstərməyi, İran ordusu üçün təlimatçılar və silah göndərməyi öhdəyə götürdü.

4) 25.XI.1814 ildə Tehranda imzalanmış müqaviləyə görə, İran İngiltərəyə düşmən olan Avropa ölkələri ilə bağladığı müqavilə və ittifaqları ləğv etməli, Avropa ölkələrinin qoşunlarını İran ərazisindən Hindistana buraxmamağı, Buxara, Xivə və Kokand hakimlərini Avropa ölkələri qoşunlarını öz ərazilərindən Hindistana buraxmamağa məcbur etməli, Əfqanıstanla Britaniya arasında müharibə başlayacağı təqdirdə ingilislərə kömək göndərməli, İran ordusu üçün təlimatçıları ancaq İngiltərədən və ona dost ölkələrdən dəvət etməli, İngiltərə isə İrana hər hansı Avropa dövlətinin hücum edəcəyi təqdirdə kömək üçün Hindistandan qoşun göndərməli və ya ildə 200 min tümən maliyyə yardımı göstərməli idi. *Gülüstan müqaviləsi* ilə bərqərar olunmuş Rusiya-İran sərhədinə, İranın xeyrinə yenidən baxılmasına nail olmalı, İranın daxili işlərinə qarışmamalı və onun ərazisinin hər hansı bir hissəsini tutmamalı, İranla Əfqanıstan arasında müharibə başlayacağı təqdirdə ona müdaxilə etməməli idi.

5) 4.III.1857 ildə Parisdə imzalanmış və 1856-1857 illər İngiltərə-İran müharibəsinə son qoymuş. Müqavilənin şərtlərinə görə İran Heratdan və Əfqanıstanın ona yaxın ərazilərindən qoşunlarını çıxartmalı, bu ərazılərə iddialarından əl çəkməli, Əfqanıstan və Heratın müstəqilliyini tanımalı, onların daxili işlərinə qarışmamalı, İranla Əfqanıstan və Herat arasında ixtilaf yaranacağı təqdirdə İngiltərənin *vasitəçiliyindən* istifadə etməli, İngiltərə isə hərbi əməliyyatları dayandırmalı və öz qoşunlarını İrandan çıxarmalı idi.

6) 09.VIII.1919 ildə Tehranda imzalanmış sazişə görə, İran hökumətinin hesabına İran dövlət aparatının müxtəlif sahələrinə ingilis təlimatçıları göndərilməli, İran ordusunu, ingilis modeli əsasında, yenidən qurmaq üçün İngilis və İran zabitlərindən ibarət qarışıq komissiya yaradılmalı, bütün təminatlar, silah və sursat İran hökuməti hesabına İngiltərədən göndərilməli idi. İslahatı həyata keçirmək üçün İngiltərə 20 ilə, illik 7%-lə, 2 mln.f.st. borc verməli idi. İranda şosse və dəmir yolları tikmək üçün birgə İngiltərə-İran müəssisəsi, İran gömrük tariflərinə yenidən baxmaq üçün birgə İngiltərə-İran komissiyası yaratmaq nəzərdə tutulurdu.

7) 29.IV.1933 ildə Tehranda imzalanmış və 1931-1933 illər İngiltərə-İran neft müqaviləsini nizama salmış. Sazişə görə İngiltərə-İran neft kompaniyasının maliyyə gəlirlərindən İran üçün nəzərdə tutulmuş ayırmaların və başqa kompensasiyaların məbləği bir qədər artırılmış; İran isə İngiltərə-İran neft kompaniyasına verilmiş konsesiyanın (*Beynəxalq konsesiya*) müddətini uzatmışdı.

8) 17.VII.1949 il sazişinə görə İngiltərə-İran neft kompaniyası İran hökumətinə maliyyə ayırmalarının məbləğini artırmalı, İran isə kompaniyanın konsessiya hüquqlarını təsdiq etməli idi.





**İNGİLTƏRƏ - İRAN MÜNAQİŞƏSİ** (Bəhreyn adaları üstündə). XVII-XVIII əsrlərdə Bəhreyn adaları İranın tabeliyində idi. İngiltərənin Fars körfəzi regionunda işğalçılıq siyasəti nəticəsində bu adalar üzərində Britaniya protektoratı (*Qəyyumluq*) tətbiq edildi. İran hökuməti bunu rədd etdi.

1927 il Ciddə müqaviləsinə (*Beynəlxalq müqavilə*) əsasən İngiltərə Hicaz-Nəcd krallığının hakimi ibn Səudu Bəhreyn şeyxi ilə «xüsusi münasibətlərini» tanımağa məcbur etdi. İran hökuməti *Millətlər Cəmiyyətinə* şikayət etsə də heç bir real nəticə əldə olunmadı.

1930 illərdə ABŞ-ın «Bəhreyn petroleum kompani» şirkəti Bəhreyn adalarında neft yataqlarının istismarına

başladı, *İkinci Dünya müharibəsi* zamanı isə adalarda İngiltərənin hərbi-hava və hərbi-dəniz bazaları (*Hərbi bazalar*) yaradıldı və bu, adaların əhəmiyyətini daha da artırdı.

1948 ildə İran hökuməti bir daha təsdiq etdi ki, Bəhreyn adalarını yalnız İranın bir hissəsi kimi tanıyır. Britaniya hökuməti cavabında bildirdi ki, «adalar İngiltərə ilə xüsusi münasibətləri olan ərəb şeyxinin müstəqil mülküdür». XI.1957 ildə İran parlamenti Bəhreyn adalarının İran əyalətləri olduğunu elan edən qanun qəbul etdi. İngiltərə 27.XI.1957 ildə bildirdi ki, İranın Bəhreyn adalarına iddiaları əsassızdır və «onunla bağlanmış müqavilə öhdəliklərini» əvvəlkitək yerinə yetirəcəkdir.

IV.1970 ildə *BMT Baş katibi* İngiltərə ilə İranın xahişini əsas tutaraq Bəhreynin gələcək statusunu müəyyənləşdirmək məqsədilə *referendum* keçirməkdən ötürü oraya nümayəndə heyəti göndərdi. Bəhreyn arxipelaqının əhalisi müstəqil suveren dövlət yaradılması istəyində olduğunu bildirdi.

11.V.1970 ildə *BMT Təhlükəsizlik Şurası* Bəhreyn adalarına müstəqillik verilməsinə dair yekdilliklə qərar qəbul etdi. Qərar İngiltərə və İran tərəfindən də tanındı.

15.VIII.1971 ildə Bəhreyn müstəqil dövlət elan olundu.

**İNGİLTƏRƏ-İRAN NEFT MÜNAQİŞƏSİ** (1951-1953). 11.I.1951 ildə İran məclisi İngiltərə-İran neft kompaniyası ilə əlavə saziş imzalamaqdaq imtina etdi. 15.III məclis, 20.III senat İran neft sənayesinin milliləşdirilməsi haqqında qanun qəbul etdi. VIII.1953 İranda dövlət çevrilişi baş verdi. Yeni hökumət İranın cənubunda neft hasil və emal etmək hüququnu 25 il müddətinə Beynəlxalq neft konsorsiumuna verdi. İran İngiltərə-İran neft kompaniyasına, neft sənayesinin milliləşdirilməsindən dəyən zərəri ləğv etmək üçün 25 mln. f. St. ödəməyi öhdəsinə götürdü.

**İNGİLTƏRƏ-İRLANDİYA MÜQAVİLƏSİ** (1921). 06.XII imzalanıb; İrlandiyada milli-azadlıq inqilabını boğmağa qadir olmayan Britaniyanın imperialist dairələri ilə İrlandiya burjuaziyasının mötədil qanadı arasında kompromis idi. M.-yə əsasən, İrlandiya (altı şimal-şərqi qraflığından savayı) konstitusiyalı dominion statusu və Azad İrlandiya dövləti adını alırdı; Ali hakimiyyət general-qubernatorun timsalında Britaniya monarxında qalırdı. Dəniz sahillərinin mühafizəsini Britaniya donanması təmin edirdi. İrlandiya hökuməti liman və bazarları Britaniya hərbi qüvvələrinin sərəncamına verməyi öhdəyə götürürdü.

Müqavilə (*Beynəlxalq müqavilə*) İrlandiyanın bölünməsini qanuniləşdirdi. Şimali İrlandiyanın (Olsterin) 9 qraflığından 6-ı Azad İrlandiya dövlətinin tərkibinə daxil olmadı və süni dövlət qurumu kimi Birləşmiş Böyük Britaniya Krallığının və Şimali İrlandiyanın tərkibinə qatıldı.

**İNGİLTƏRƏ-İSPANİYA DANIŞIQLARI** (CƏBƏLLÜTARİQƏ DAİR). 1713 ildə Cəbəllütariq İngiltərənin hakimiyyət altına keçdi. *İkinci dünya müharibəsindən* sonra İspaniya Cəbəllütariq üzərində öz *dövlət suverenliyini* bərqərar etməyə cəhd göstərdi. *BMT Təhlükəsizlik Şurasının* qərarı ilə 1966 ildən başlanmış İngilis-İspan danışıqları nəticəsiz qurtardı. 1969 İspan hökuməti Cəbəllütariqlə quru sərhəddini (*Dövlət sərhədləri*) bağladı, İspaniya üzərində Cəbəllütariq aerodromundan istifadə edən ingilis təyyarələrinin uçuşunu





qadağan etdi, Cəbəllütariqdəki ispan konsulluğunu (*Konsul idarəsi*) bağladı, İspaniyanın ərazi sularını 12 milə qədər genişləndirdi, Cəbəllütariqlə qitə arasında bərə, telefon və teleqraf rabitəsini kəsdi, onun əhalisinə ispan *vətəndaşlığını* qəbul etmək çağırışı ilə müraciət etdi. 1977 ildə İspaniya telefon rabitəsinə qoyduğu məhdudiyyəti aradan götürdü, İngilis-İspan danışıqları sürətləndi. 1980 ildə Cəbəllütariqin statusunu müəyyənləşdirmək barədə Lissabonda razılaşma əldə edildi. 15.XII.1982 ildə İspaniya Cəbəllütariqin blokadasını götürdü. XI.1984 ildə Cəbəllütariq probleminin həlli üçün danışıqların başlaması haqqında İngilis-İspan *Bəyannaməsi* imzalandı. İngiltərə İspaniya ilə Cəbəllütariq arasında sərhəddin açılmasını şərt kimi irəli sürdü. 5.II.1985 ildə İspaniya Cəbəllütariqlə sərhədi açdı.

**İNGİLTƏRƏ - İTALİYA SAZİŞLƏRİ.** 1) 1891 il sazişi; Şərqi Afrikada nüfuz dairələrinə dair; 24.III və 15.IV tarixli iki *protokol* formasında tərtib edilib. Birinci protokola əsasən, İtaliyanın cənub-qərb, ikinci protokola görə isə şimal-qərb nüfuz dairələrinin sərhədləri müəyyən edilirdi.

S. görə, 1888 ildə İtaliya tərəfindən zəbt olunmuş cənubdakı Benadir sahili ilə şimaldakı Qırmızı dənizin cənub-qərb sahili arasındakı geniş ərazi (Həbəşistan bütünlüklə, Somalinin xeyli hissəsi, Eritreya və Misir Sudanının bir hissəsi) İtaliyanın nüfuz dairəsi elan edildi. Bu ərazidən qərb və şimal-qərb tərəfə yerləşən Ab Nil vilayətinin ərazisi İngiltərənin maraq dairəsi kimi tanındı.

2) 1894 il sazişi – 05.V. Romada imzalanıb; 1891 il sazişini tamamlayıb; Somalidə İngiltərə və İtaliyanın nüfuz dairələrini müəyyənləşdirib. 1894-1896 illərdə İtaliya Həbəşistanı ələ keçirməyə cəhd göstərdi, lakin Adua altında məğlubiyyətə uğrayaraq, onun müstəqilliyini tanımağa məcbur oldu.

3) 1937 il sazişi – 02.I Romada, İtaliya xarici işlər naziri Q.Çiano ilə Böyük Britaniyanın səfiri E.Drammond arasında məktublar mübadiləsi formasında Romada bağlanıb. Birinci sənəd *«Centlmen sazişi»* adı ilə məşhurdur. Bağlanma tarixi İspaniyaya qarşı italyan-alman silahlı müdaxiləsinə təsadüf edib. İtaliya S.-in imzalanmasınadək Aralıq dənizində mövcud olan *status-kvonu* saxlamağı öhdəyə götürürdü. Hər iki tərəf Aralıq dənizində sərbəst giriş və çıxışı, habelə tranziti tanıyacaqlarını öhdəyə götürürdülər. II.1937 ildə Mussolini İtaliyanın yeni dəniz proqramını dərc etdirdi. Proqram Aralıq dənizində İtaliya hərbi-dəniz donanmasını xeyli artırmağı və bununla da status-kvonu dəyişdirməyi nəzərdə tuturdu. Mussolinin bu addımına Böyük Britaniyada sazişin pozulması kimi baxıldı. II.1938 ildə Çemberlen hökuməti İtaliya ilə yeni danışıqlara başladı və nəticədə 1938 il İngiltərə-İtaliya sazişi bağlandı.

4) 1938 il sazişi (bəzən ikinci «centlemen sazişi» də adlanır) – 16.V Romada imzalanıb; 16.XI qüvvəyə minib. S. görə, İtaliya öz «könüllülərini» Vətəndaş müharibəsi qurtardıqdan sonra İspaniyadan geri çağırmağı, öhdəyə götürürdü. Bununla da Britaniya hökuməti İtaliyanın İspaniyaya silahlı müdaxiləsi ilə razılaşdığını bildirdi. Lakin eyni zamanda, İngiltərə belə bir təminat da aldı ki, İspaniyanın italyan qoşunları tərəfindən işğalı uzun çəkməyəcəkdir. Eyni zamanda, Britaniya hökuməti öhdəyə götürürdü ki, Həbəşistanın İtaliya tərəfindən zəbt olunmasının tanınmasını *Millətlər Cəmiyyətinin*

təsdiqinə çıxaracaqdır. İtaliya Liviyada öz hərbi hissələrinin sayının dinc vaxtda olan həcmədək azaltmağı, Ərəb Şərqində Britaniyaya zidd təbliğatı dayandırmağı, habelə 1935-36 illər London Dəniz konfransında qəbul olunmuş müqaviləyə qoşulmağı öhdəyə götürürdü. Böyük Britaniya İtaliyanın Səudiyyə Ərəbistanında və Yəməndə öz hüquqlarına bərabər hüquqlarını tanıdı, İtaliya gəmilərinin Suveyş kanalından tam sərbəst keçməsini təsdiq etdi. S. həmçinin Aralıq dənizi rayonunda silahlı qüvvələrin qruplaşmasına dair informasiya mübadiləsini də nəzərdə tuturdu. İtaliya Tana gölü rayonunda (Həbəşistan) Böyük Britaniyanın mənafelərinə təminat verirdi.

**İNGİLTƏRƏ-KUBA BİRGƏ BƏYANATI** (1982). Anqolada Kuba qoşunlarının yerləşdirilməsi səbəblərinə dair 6.II dərc edilib. *Bəyanatda* deyilir ki, Kuba qoşunları Anqolada CAR, imperializmi, onun muzdluları və əlaltıları tərəfindən təhlükəyə və həmlələrə məruz qalan Anqola hökumətinin xahişi ilə ölkənin ərazi bütövlüyünü və *dövlətin suverenliyini* müdafiə edən Anqola Xalq Silahlı Qüvvələrini hazırlamaq məqsədilə yerləşdirilib.

Tərəflər bildirmişlər ki, Anqolada Kuba qoşunlarının olması və oradan çıxarılması iki suveren dövlətin– Anqola və Kuba Respublikasının müstəsna hüququdur və bu, *BMT Nizamnaməsinin* 51-ci maddəsinə tamamilə uyğundur. Hər iki ölkənin hökumətləri artıq 22.IV.1976 ildə – CAR qoşunlarının Anqola ərazisindən çıxarılmasından bir ay sonra Anqolada Kuba qoşunlarının sayının tədricən azaldılması barədə qərar qəbul etmiş, lakin bu proses Anqolanın müstəqilliyinə qarşı yeni təcavüz aktları baş verdiyindən dayandırılmışdır.

Bəyanatın müddəaları 1984 il Kuba-İngiltərə Birgə *Bəyannaməsində* bir daha inkişaf etdirilmişdir.

**İNGİLTƏRƏ - MALAY MÜQAVİLƏSİ** (1957). Müdafiə və qarşılıqlı yardım haqqında, 12.X Kuala-Lumpurda imzalanıb. M.-yə uyğun olaraq Böyük Britaniyaya qeyri-müəyyən müddətə Malayda hərbi-dəniz, quru və hərbi-hava qüvvələri saxlamaq və oradakı öz hərbi bazalarından istifadə etmək hüququ əldə edir. Malay silahlı qüvvələrini idarə etməkdə və onlara təlim keçməkdə kömək göstərməyə razılıq verildi. M. Malay tərəfinin üzərinə uzaq Şərqdə və hətta bu rayonun hüdudlarından kənarda «sülhün saxlanmasına təhlükə yarandığı bütün hallarda və hərbi əməliyyatlara başlandıqda» İngiltərə ilə hərbi əməkdaşlığa qoşulmaq barədə öhdəlik qoyurdu. M. 1963 ildə Malaziya *Federasiyası* tərkibinə daxil olan bütün ərazilərə (*Dövlətin ərazisi*) şamil edildi. 1965 ildə Sinqapurun Federasiyadan çıxmasından sonra İngiltərənin onun ərazisində bazalardan istifadə etmək hüququ Sinqarupun ayrılmasına dair sazişlə və İngiltərə ilə Sinqapur arasında *notalar mübadiləsilə* təmin olunurdu.

1968 ildə Vilson hökuməti Britaniya silahlı qüvvələrinin «Süveyşdən Şərqə tərəf» olan rayondan çıxarılması barədə qərar qəbul etməsi ilə bağlı M.-yə yenidən baxmaq niyyətində olduğunu bildirdi. Müdafiəyə dair 1971 il beştərəfli sazişi (ANZÜK) işlənib hazırlandıqdan sonra 1957 il müqaviləsi 31.X.1971 ildə qüvvədən düşdü.

**İNGİLTƏRƏ-MALTA SAZİŞLƏRİ.** 1 1964 il sazişləri; 21.IX Valletdə imzalanıb. Müdafiəyə dair sazişə görə, hər iki tərəf bir-birinə kömək etməyi və hərbi əməkdaşlıq məsələləri üzrə məsləhətləşmələr aparmağı öhdəyə götürürdü. Malta İngiltərəyə dinc və *müharibə* dövrlərində 10 il ərzində adada silahlı qüvvələr saxlamaq hüququ verirdi. Tərəflərin qarşılıqlı razılığı olmadan hər hansı üçüncü dövlət (*NATO* ölkələrindən savayı), öz silahlı qüvvələrini adada yerləşdirə, yaxud oradakı qurğu və tikililərdən istifadə edə bilməzdi. Maliyyə yardımına dair saziş İngiltərə tərəfindən Maltaya 10 il ərzində (müdafiəyə dair sazişin qüvvədə qalması şərti ilə) 50 mln.funt sterlinq məbləğdə kredit və qaytarılmayan subsidiya verilməsini nəzərdə tuturdu.

1971 ildə Maltada D.Mintoffun leyborist hökuməti hakimiyyətə gəldikdən sonra 1964 il S.-i yenisi ilə əvəz olundu.

2) 1972 il sazişi – İngiltərənin Malta adasında hərbi qurğulardan istifadəsinə dair, 26.III Londonda 7 il müddətinə imzalanıb. İngiltərə dinc və müharibə vaxtında adada silahlı qüvvələr yerləşdirmək və oradakı qurğulardan istifadə etmək hüququnu özündə saxlayırdı. Malta hər hansı digər dövlətin adada silahlı qüvvələr yerləşdirməsinə yol verməmək barədə öhdəlik götürdü. Tərəflərin qarşılıqlı razılığı olmadan başqa dövlətlərə Maltadakı qurğulardan (Luka arerodromunun bir hissəsi və liman tikililəri istisna olmaqla), istifadəyə icazə verilmirdi. S.-in fəaliyyət müddəti başa çatdıqdan sonra 31.III.1979 ildə ingilis qoşunları tamamilə adadan çıxarıldı. Malta özünü neytral və qoşulmayan ölkə elan etdi (*Neytral dövlətlər; Qoşulmamaq prinsipi*).

**İNGİLTƏRƏ-MƏSHƏD MÜQAVİLƏLƏRİ VƏ SAZİŞLƏRİ.** Məshəd sultanlarının İngiltərə qarşısında götürdükləri qeyri-bərabər hüquqlu və əksərən birtərəfli öhdəlikləri; onlardan ən mühümləri aşağıdakılardır:

1) 1798 il sazişi; 1793-1815 illərdə İngiltərə-Fransa *müharibəsi* ilə əlaqədar Məshədin «müdafiəsi» adı altında 12.X. bağlanıb. Ona əsasən, sultan İngiltərə ilə dostluq əlaqələri saxlamağı və onun hərbi müttəfiqi kimi çıxış etməyi öhdəyə götürürdü. İngiltərə Məshəd sultanının İrandan icarəyə götürdüyü Bəndər-Abbasdakı etibarlı faktoriyanı (ticarət məntəqəsi) əldə edə bildi.

2) Fars körfəzindəki ərəb qəbilələri ilə bağlanmış 1820 il müqaviləsi (*Beynəlxalq müqavilə*); Böyük Britaniya ilə 1808-19 illər dəniz müharibəsində ərəblərin məğlubiyyətindən sonra Rasəl-Xeymədə Omman şeyxləri ilə 8.I bağlanıb. Bəhreyn şeyxi 05.II.1820 ildə M.-yə qoşulmağa məcbur edildi. M.-nin iştirakçısı olan hər bir şeyx Ost-Hind kompaniyası ilə preliminar (ilkin) müqavilə bağlamağı öhdəyə götürürüdü. İngiltərə ilə ərəb qəbilələri arasında «uzunmüddətli sülh» bərqərar olunur, Britaniya gəmilərinə qarşı çıxmaq və qul alveri ilə məşğul olmaq quldurluq kimi qələmə verilirdi. M.-yə əsasən, İngiltərə əslində Fars körfəzində «qayda-qanunu qorumaq» hüququnu özünə götürdü və bununla da oradakı əmirliklərin üzərində nəzarət yaratdı.

3) Quldarlığı qadağan etməyə dair 1822 il müqaviləsi; 04.IX bağlanıb. Sultana «xristian millətlərinə» qul satmağı qadağa edirdi. Omman gəmilərinin hərəkətinə dair informasiya toplamaq bəhanəsi altında İngiltərə Məshəd sultanının mülkü sayılan Zənzibarda özünün daimi rezidentini saxlamaq hüququ əldə etdi.

4) 1861 il *notalar mübadiləsi*; Hindistanın general-qubernatoru lord Kanninq ilə Məshəd sultanı Suveyni arasında 02.IV-15.V baş verib. Sultan Səidin ölümü ilə əlaqədar onun oğlanları arasında taxt-tac uğrunda gedən münaqişədən istifadə edən Kanninq arbitr rolunda çıxış edərək sultanlığı iki dövlətə – Zənzibar və Məshədə bölmək barədə qərar verdi. Məhsədin və Zənzibarın müstəqilliyinə dair 1862 il İngiltərə - Fransa *Bəyannaməsinə* rəğmən sultanlığın bölünməsi həm Məshəddə, həm də Zənzibarda ingilis müstəmləkə ağalığını möhkəmləndirdi.

5) Dostluq, ticarət və dənizçiliyə dair 1891 il müqaviləsi; 19.III bağlanıb. İngiltərənin və Britaniya təbəələrinin (*Təbəəlik*) Məshəddə bütün əvvəlki imtiyazlarını qoruyub saxladı. Eyni vaxtda 20.III.1891 ildə əlahiddə «müstəsna saziş» imzalanmışdır. Ona əsasən, sultan öhdəyə götürdü ki, «özünün Məshəddəki mülklərini Britaniya hökumətindən savayı heç kimə güzəştə getməyəcək, satmayacaq, girov qoymayacaq və özgələşdirməyəcəkdir». İngiltərə isə Məshəd sultanının Ommanın daxili rayonlarına iddiasını dəstəkləyirdi.

6) 1920 il Sib müqaviləsi; 25.IX. Böyük Britaniya, Məshəd və Omman arasında Sib (Məqsəd) deyilən yerdə bağlanıb. Ommanın faktiki müstəqilliyi tanınır, Ommanın və Məshəddin bir-birinin daxili işlərinə qarışmaqdan qarşılıqlı şəkildə imtina etdikləri təsdiqlənirdi (*Qarışmamaq prinsipi*).

7) Dostluq, ticarət və dənizçiliyə dair 1939 il müqaviləsi; 04.II bağlandı. 1891 il müqaviləsini əvəz etmiş, İngiltərənin bütün əvvəlki imtiyazlarını təsdiqləmişdi. Sultana gömrük qiymətlərini müstəqil artırmaq hüququ verilməsi müqabilində İngiltərə Məshəddə və Qvadar *anklavında* (1958 ildə Pakistana qaytarılıb) hərbi-dəniz və hərbi-hava bazaları (*Hərbi bazalar*) saxlamaq hüququ qazandı.

8) 1958 il müqaviləsi; 25.VII bağlanıb: Məsir adalarını hərbi baza kimi 99 il müddətinə İngiltərəyə icarəyə verməyi nəzərdə tuturdu. Əvəzində İngiltərə Məshədə hərbi köməklik göstərməyi və silah verməyi öhdəyə götürürdü.

9.VIII.1970 ildə Məshədin yeni sultanı Kabus bin Səid elan etdi ki, bundan belə dövlət rəsmən Omman sultanlığı adlanacaqdır.

27.IX.1971 ildə Omman sultanlığı *Ərəb Dövlətləri Cəmiyyətinə*, 07.X.1974 ildə isə *BMT*-yə üzv oldu.

28.I.1971 ildə Böyük Britaniyanın Ommandakı Baş konsulluğunun (*Konsul idarəsi*) *səfirliyə* çevrilməsi barədə İngiltərə ilə Omman arasında razılıq əldə edildi.

## İNGİLTƏRƏ - MİSİR MÜQAVİLƏSİ

(1936). İttifaqa dair 26.VIII Londonda imzalanıb. Digər dövlətlərlə münaqişə törəndiyi halda qarşılıqlı məsləhətləşməyi; «*müharibə* təhlükəsi və fövqəladə beynəlxalq vəziyyət hallarında» qarşılıqlı yardım göstərməyi nəzərdə tuturdu. *Xarici siyasət* sahəsində tərəflər onların ittifaqı ilə bir araya sığmayan mövqelərdən çıxış etməmək, *səfir* mübadiləsi etmək barədə öhdəlik götürürdülər.

Britaniyanın quru qüvvələri (10 min nəfər) və hava qüvvələri (400 təyyarəsi) Misir ordusu Suveyş kanalının təhlükəsizliyini öz qüvvəsi ilə təmin etməyə qadir olanadək kanal zonasında saxlanılırdı. Nəzərdə tutulurdu ki, müqavilə (*Beynəlxalq müqavilə*) imzalanmasından keçən 20 il ərzində Britaniya qoşunlarının qalması problemi həll olunmazsa, bu məsələ *Millətlər Cəmiyyətinin* arbitrajına verilməlidir. Misirdə 1952 il inqilabı baş verdikdən sonra Britaniya öz qoşunlarını bu ölkədən çıxarmaq barədə VI.1954 ildə müqavilə imzalamağa məcbur oldu və bu əsasda VI.1956 ilədək ingilis qoşunları Misiri tərk etməli oldu. Lakin İngiltərə 7 il ərzində, «müharibə olduğu halda» öz qoşunlarını yenidən Misirə yeritmək hüququnu özündə saxladı. I.1957 ildə Misir həmin müqaviləni qüvvədən düşmüş elan etdi.

## İNGİLTƏRƏ - NƏC MÜQAVİLƏSİ

(1915). 26.XII Ükayra şəhərində (Fars körfəzi sahilində) bağlanıb. İngiltərə Nəc əmiri Əbdül-Əziz ibn Səudu Nəc sultanlığının və bu sultanlığa birləşdirilmiş ərazilərin qanuni hakimi kimi tanıyır, xarici təcavüz olan təqdirdə əmirin maraqlarını və mülklərini müdafiə etmək məqsədilə ona kömək göstərəcəyini öhdəyə götürürdü. Bunun müqabilində ibn Səud vəd verirdi: istənilən xarici dövlətlə yazışmalar aparmaq, sazişlər bağlamaq və müqavilə (*Beynəlxalq müqavilə*) münasibətləri qurmaq da daxil olmaqla, *xarici siyasət* hərəkətlərini İngiltərə ilə razılaşdıracaq; Britaniya hökumətinin razılığı olmadan öz mülklərini güzəştə getməyəcək, icarəyə verməyəcək, dolayısı yolla idarə etməyəcək; Fars körfəzindəki ingilis protektoratlarına (Küveyt, Bəhreyn, Qatar, Oman) və indiki Birləşmiş Ərəb Əmirliklərinə daxil olan ölkələrə hücum etməyəcək, onların işlərinə qarışmayacaq.

M.-yə, habelə 60 min f.st. məbləğdə illik maliyyə yardımına baxmayaraq, İngiltərə Nəci *Birinci dünya müharibəsində Antanta* tərəfində iştiraka sövq edə bilmədi. M. 1924 ilədək qüvvədə qaldı. İbn Səud Hicazı ələ keçirdikdən sonra 15.I.1927 ildə Hicaz, Nəc və onlara birləşdirilmiş vilayətlərin kralı elan edildi. Yeni dövlətin İngiltərə ilə münasibətləri 1927 il Ciddə müqaviləsi ilə tənzimlənirdi.





## İNGİLTƏRƏ - SİAM (TAİLAND) MÜQAVİLƏLƏRİ.

1) 1826 il müqaviləsi (*Beynəlxalq müqavilə*); 20.VI Bankokda imzalanıb. Siamda Britaniyanın Malay və Birmadakı mülkləri arasında sərhəd və ticarət məsələlərini nizama salırdı. M. İngiltərəyə Siamdan vassal asılılığında olan Malay knyazlıqlarını ələ keçirməyə əsas verdi; M. 1855 ilədək qüvvədə qalıb.

2) 1855 il müqaviləsi, 18.IV Bankokda imzalanıb. Britaniya təbəələrinə Siamda eksterritoriallıq hüququ verirdi. İngilis tacirlərindən ölkəyə gətirdikləri malların dəyərinin 3% həcmində kömrük haqqı alınırdı, tiryəkin gətirilməsi üçün gömrükdə haqq tutulmur, Britaniya təbəələri Bankok ətrafında torpaq sahəsi icarəyə götürmək və ya almaq hüququ əldə edirdilər.

3) 1909 il müqaviləsi, 10.III Bankokda imzalanıb. Siam Avropa və Asiya ölkələrində yaşayan vətəndaşlarına (*Vətəndaşlıq*) münasibətdə öz yurisdiksiyasının (*Dövlətin yurisdiksiyası*) tanınması müqabilində Kedax, Perlis, Trenqanu və Kelantin knyazlıqları üzərində dövlət suverenliyindən (*Dövlətin suverenliyi*) imtina etdi, İngiltərəyə daha əlverişli statusu verdi.

4) 1940 il müqaviləsi; hücum etməmək haqqında 12.VI Bankokda imzalanıb. Tailand ilə Yaponiya arasında müqavilə bağlanması ilə eyni vaxta təsadüf edir. Həmin dövrdə yaponların Cənubi-Şərqi Asiyaya soxulmaq təhlükəsi real şəkil almışdı. 8.XII.1941 ildə Perl-Xarbora hücumundan sonra Yaponiya Tailand ərazisindən öz hərbi

qüvvələrini sərbəst keçirmək hüququ əldə edə bildi və onunla məxfi əlavə protokola qoşulmaqla ittifaq müqaviləsi bağladı. M.-yə görə, Tailand yapon təcavüzünə yardımçı olacağı təqdirdə 1909 il müqaviləsinə əsasən İngiltərəyə güzəştə getmiş olduğu knyazlıqları geri alacaqdı. Tailand 25.I.1942 ildə İngiltərəyə *müharibə* elan etdi.

Tailand ilə İngiltərə arasında yaranan müharibə vəziyyəti Yaponiya təslim olduqdan sonra aradan qalxdı.

**İNGİLTƏRƏ - SOVET - İRAN MÜQAVİLƏSİ** (1942). İttifaqa dair bu müqavilə (*Beynəlxalq müqavilə*); I.29. Tehranda imzalanıb.

Faşist Almaniyasının 22.VI.1941 ildə SSRİ-yə hücumundan sonra özünün cənub sərhədlərinin (*Dövlət sərhədləri*) təhlükəsizliyini möhkəmləndirmək məqsədilə İranda alman kəşfiyyat orqanlarının SSRİ-yə qarşı pozuculuq fəaliyyətinin qarşısını almaq adı altında İrana bir neçə xəbərdarlıq notası (*Diplomatik nota*) (26.VI, 19.VII və 16.VIII.1941) verdikdən sonra 1921 il Sovet-İran müqaviləsinin 6-cı maddəsini əsas tutaraq 25.VIII.1941 ildə öz qoşunlarını İrana yeritdi. Eyni vaxtda, SSRİ ilə yanaşı İngiltərə qoşunları cənubdan İrana daxil oldu. 25.VIII.1941 ildə SSRİ və İngiltərə onları bu tədbiri görməyə vadar edən real şəraiti özündə əks etdirən notanı İran hökumətinə təqdim etdilər. Bu aksiyanın əsas məqsədi almanları zəngin neft rayonu olan Fars körfəzinə yaxın buraxmamaq və İran ərazisindən ABŞ və İngiltərənin SSRİ-yə yardımının maneəsiz axınını təşkil etmək üçün tranzit kimi istifadə etmək idi.

M.-yə əsasən, SSRİ və İngiltərə İranın ərazi bütövlüyünə, dövlət *suverenliyinə* (*Dövlətin suverenliyi*) və siyasi müstəqilliyinə birlikdə və əlahiddə hörmət etmək və onu hər hansı bir təcavüzdən qorumaq barədə öhdəlik götürürdülər. Bu məqsədlə müttəfiqlərə «İran ərazisində lazım bildikləri qədər quru, dəniz və hərbi hava qüvvələri saxlamaq» hüququ verilirdi.

M.-yə əsasən, İran tərəfi bütün imkanları daxilində müttəfiqlərlə əməkdaşlıq etməyi öhdəsinə götürürdü.

SSRİ və İngiltərənin İranın xarici işlər nazirliyinə (*Xarici İşlər İdarəsi*) ünvanlanmış eyni məzmunlu notaları müqaviləyə əlavə olunmuşdu. Notalarda göstərilirdi ki, müttəfiqlər İranın silahlı qüvvələrindən hər hansı *müharibədə* hər hansı bir dövlətə və ya dövlətlərə qarşı istifadə olunmasını tələb etməyəcəklərinə təminat verirlər.

M-nin son bəndində İranın *İkinci dünya müharibəsi* illərində *antihitler koalisiyasının* hər hansı bir dövləti ilə əməkdaşlıq etməsindən ötrü lazımi şəraitin yaradılmasına və müharibədən sonra SSRİ və İngiltərə qoşunlarının İran ərazisindən qısa müddətdə çıxarılmasına təminat verilirdi. M.-nin bu tələbi İngiltərə tərəfindən yerinə yetirilsə də, SSRİ öz ordu hissələrini İran ərazisindən çıxarmağa tələsmirdi. Nəticədə bu məsələ *BMT Təhlükəsizlik Şurası* iclasında müzakirə mövzusu oldu. İran hökumətinin ciddi səyləri və Qərb *diplomatiyasının* təzyiqi ilə İ.Stalin (*Stalin İosif Vissarionoviç*) ordu birləşmələrinin İran ərazisindən geri çəkilməsi barədə sərəncam verdi. Qızıl Ordu hissələrini İranda saxlamaqla SSRİ bu ölkənin şimal rayonlarında neft konsessiyası (*Beynəlxalq konsessiyası*) əldə etmək niyyətində idi. İran Azərbaycanında «muxtariyyət uğrunda hərəkatın» dəstəklənməsi də Kremlin bu planına xidmət edirdi.





**İNGİLTƏRƏ-TÜRKİYƏ MÜQAVİLƏLƏRİ (KIPRIS KONVENSİYALARI)** (1878). 1877-1878 illər rus-türk *müharibəsi* nəticəsində bağlanmış *San-Stefano sülh müqaviləsinin* ağır şərtlərinə yenidən baxılmasına yardım etməsi üçün Türkiyənin Kıprısı İngiltərəyə icarəyə verməsi haqqında 04.VI. imzalanmış müdafiə ittifaqı barəsində andlaşmadır.

Konvensiyaya görə Rusiya Qars, Ərdəhan Batumdan başqa Kiçik Asiyada yeni ərazilər tutmaq iddiasında olarsa, İngiltərə Rusiyaya qarşı müharibəyə başlamağı öz üzərinə götürürdü. Türkiyə xristian ərazilərində İngiltərənin iştirakı ilə islahatlar keçirilməsinə razılıq verirdi.

Bu yardımın müqabilində Türkiyə Kıprısı İngiltərəyə icarəyə verirdi. Ruslar Batum, Qars və Ərdahandan çəkildiyi təqdirdə ingilislər də Kıprısdan çıxmağa söz verirdi.

**İNGİLTƏRƏ - TÜRKİYƏ MÜQAVİLƏSİ** (1809). 15.01. imzalanmış İstanbul (Dardanel) müqaviləsi (*Beynəlxalq müqavilə*) 1807-1809 illər İngiltərə-Osmanlı *müharibəsinin* yekun sənədidir. M.-yə görə İngiltərə 31 gün ərzində işğal etdiyi Osmanlı ərazilərindən çıxmalı, Sultan Qara dəniz boğazlarını bütün dövlətlərin hərbi gəmiləri üçün bağlamalı, *kapitulyasiya* rejimini, Səti-qarət güzəştlərini bərpa etməli idi.

**İNGİLTƏRƏ-VENESUELA MÜNAQİŞƏSİ** (1886-1899). Venesuela ilə Britaniya Qvianasının sərhədi üstündə yaranan mübahisə nəticəsində meydana gəlib. 1814 il İngiltərə-Hollandiya müqaviləsinə (*Beynəlxalq müqavilə*) görə, Hollandiyanın Qvianada üç müstəmləkəsi İngiltərəyə verilmiş və İngiltərə onları bir qurum – Britaniya Qvianası adı altında birləşdirmişdi. Venesuela bu müstəmləkənin böyük bir hissəsinə (Essekibo çayınadək) iddiaçı idi.

1894 ildə ABŞ *prezidenti* H.Klivlend tərəflərə münaqişəni *arbitraj* yolu ilə həll etməyi təklif etdi. ABŞ *Dövlət katibi* R.Olni Britaniya hökumətinə sərt məzmunlu bir neçə nota (*Diplomatik nota*) göndərdi və onlardan birində (20.VII.1895) göstərdi ki, İngiltərənin Venesuela ərazisinin bir hissəsini zorla ələ keçirməsi «Monro doktirinası»nın pozulması deməkdir. 1895 ildə Klivlend *Konqresə* yazılı müraciətində bildirdi ki, arbitraj məhkəməsinə müraciət etmədən İngiltərənin Venesuelaya qarşı hərhansı bir ərazi iddialarını həyata keçirmək cəhdi ABŞ tərəfindən *«kazus belli»* kimi dəyərləndiriləcək. 03.X.1899 ildə məhkəmənin yekdilliklə çıxardığı qərarla mübahisəli ərazinin böyük bir hissəsi İngiltərəyə verildi. Hər iki tərəf arbitraj məhkəməsinin qərarına tabe oldular.

**İNGİLTƏRƏ - YAPONİYA İTTİFAQI** (1902-1921). İngiltərə ilə Yaponiya arasında təcavüzkar hərbi-siyasi ittifaq; ilk ittifaq müqaviləsi Londonda 30.I.1902 ildə 5 il müddətinə bağlandı. Müqavilə müttəfiqlərdən birinin hər hansı başqa dövlətlə *müharibəsi* zamanı bitərəf qalmasını və digər müttəfiqə onun düşməni tərəfində bir və ya daha çox dövlət çıxış etdikdə hərbi yardım göstərilməsini nəzərdə tuturdu. İttifaq İngiltərənin Çindəki, Yaponiyanın isə Koreya və Çindəki «xüsusi maraqlarına» və bu xüsusi maraqlara hər hansı təhlükə (daxildən, yaxud xaricdən) yarandıqda onlara müdaxilə etmək hüququna təminat verirdi. 1902 il ittifaqı Yaponiyanın Rusiyaya qarşı müharibəyə diplomatik hazırlığı idi. Ru-

siya *diplomatiyası* özünün Fransa ilə ittifaq münasibətlərinin davamlı olmasını nümayiş etdirməklə İngiltərə-Yaponiya ittifaqının əhəmiyyətini zəifləməyə cəhd göstərirdi. Nəticədə 03.III.1902 Rusiya-Fransa *Bəyannaməsi* meydana gəldi. Bəyannamədə qeyd olunurdu ki, Rusiya və Fransa İngiltərə-Yaponiya müqaviləsinə Uzaq Şərqdə *status-kvonu*, ümumi sülhü təmin etmək cəhdi kimi baxır. Onu bütün millətlərin ticarət və sənayesi üçün açıq olan Çinin və Koreyanın müstəqilliyinin ifadəsi kimi dəyərləndirir ki, bu da Rusiyanın və Fransanın mənafelərinə uyğun gəlir.

12.VIII.1905 ildə Londonda 10 il müddətinə ikinci ittifaq müqaviləsi imzalandı və ona əsasən Yaponiyanın Koreya üzərində protektoratı (*Qəyyumluq*) tanınmış oldu. Birincidən fərqli olaraq, 1905-ci il müqaviləsi müttəfiqlərdən birinin digərinə, hər hansı dövlətin onlardan biri ilə müharibəsi zamanı hərbi yardım göstərməsini nəzərdə tuturdu, İngiltərənin Hindistandakı mülkləri müqavilənin təsir dairəsinə aid edilirdi. Yaponiya ilə münasibətlərin pisləşməsi şəraitində İngiltərə ehtiyat edirdi ki, Yaponiya-Amerika müharibəsi baş verərsə, o, 1905 il müqaviləsinin şərtlərinə görə, Yaponiyaya kömək etməli olacaqdır.

Üçüncü ittifaq müqaviləsi də 10 il müddətinə 13.VII.1911 ildə Londonda imzalanıb. Müqaviləyə görə, müttəfiq tərəf onun baş *arbitraj* müqaviləsi bağlamış olduğu dövlətə qarşı olduğu halda ona hərbi yardım göstərməməli idi (bu vaxt İngiltərə belə bir müqavilə bağlamaq barədə ABŞ-la danışıqlar aparırdı).

Yaponiya və İngiltərənin Çində iqtisadi maraqlarının toqquşması, habelə Yapolniyanın Rusiya ilə yaxınlaşması ittifaqın antirus istiqamətini və ümumi əhəmiyyətini zəiflətdi. Dəyişmiş beynəlxalq şəraitdə ittifaq antialman xarakteri aldı. 1919-1920 illərdə *Paris sülh konfransında (Beynəlxalq konfranslar)* Yaponiya ittifaqdan istifadə edərək və İngiltərəni bir sıra məsələlərdə dəstəkləyərək özünün Şandun və Almaniyaya məxsus Sakit okean adlarına olan iddialarının təmin edilməsinə nail oldu. 1921-1922 illər Vaşinqton konfransında ittifaq öz əhəmiyyətini itirdi və 13.XII.1921 ildə formal olaraq dörd dövlətin (İngiltərə, ABŞ, Fransa və Yaponiya) müqaviləsi ilə əvəz olundu.

**İNGİLTƏRƏ - YAPONİYA MÜQAVİLƏSİ** (1894). Ticarət və dənizçiliyə dair; 16.VII Londonda imzalanıb. Qeyri-bərabər hüquqlu *Ansey müqavilələri (Beynəlxalq müqavilə)* ilə müəyyən edilən *eksterritoriallıq* və konsulluq yurisdiksiyası sistemini ləğv etdi. Digər dövlətlər Yaponiya ilə bağladıqları müqavilələrdə eksterritoriallıq və konsulluq yurisdiksiyası hüquqlarının ləğvindən ötrü adekvat müddət (1899 ildə) müəyyən etdilər. M. Koreyada Yaponiya və Çin qoşunları arasında silahlı toqquşmanın yetişdiyi bir şəraitdə imzalanmış və əslində yapon təcavüzünə rəvac vermişdi. İki həftə sonra Yaponiya Çinlə mübarizəyə başladı. M. 12 ilə bağlandı və 1899 ildən qüvvəyə mindi. Həmin ildən etibarən yapon limanlarında yaşayan *xaricilər* ümumyapon qanunvericiliyinə və idarəçiliyinə tabe edildilər. M.-yə əsasən. Britaniya konsulluq məhkəmələri buraxıldı, Britaniya təbəələri (*Təbəəlik*) üzərində yurisdiksiya yapon məhkəmə hakimiyyətinin səlahiyyətinə aid edildi. İngilislər Yaponiyada, yaponlar isə İngiltərədə qarşılıqlı əsasda yaşamaq və ticarətlə, sənaye fəaliyyəti ilə məşğul





olmaq hüququna malik oldular. Lakin torpağa sahib olmaq hüququndan məhrum edildilər. Britaniya gəmilərinə Yaponiyanın ticarət üçün açıq olan bütün dəniz limanlarına daxil olmağa icazə verildi. M. Yaponiyaya tam tarif muxtariyyəti vermədi, yalnız əksər mallar üçün gətirilmə rüsumlarını 5 %-dən 10 %-dək artırdı.

**İNGİLTƏRƏ - YAPONİYA SAZİŞİ** (1938). Çinin dəniz gömrüklərinə dair, 03.V. Londonda və Tokioda dərc olunmuş, birgə *Bəyanat* formasında tərtib edilmişdi. Çinin ən mühüm açıq limanlarının (Tyanzisin, Şanxay, Nankin və s.) Yaponiya tərəfindən 1937 ildəki işğalından sonra aparılan danışıqların nəticəsi kimi meydana gəldi. S. görə, bütün işğal olunmuş limanlardan yığılan gömrük rüsumları, bu vasitələrdən ilk öncə Çinin Yaponiyaya olan borcları ödənilməklə, «İokoqama, Speşl, Benk»ə (əvvəllər bu yığımlar İngiltərənin Qonkonq-Şanxay bankına daxil olardı) verilirdi.

İngiltərə əslində gömrüklərin idarə olunmasının yaponların, yaxud işğal olunmuş Çinin oyuncaq hökumətlərinin əlinə keçməsinə də razılıq verdi. İngiltərə, yalnız digər dövlətlərlə yanaşı, Yaponiyadan Çinə verdiyi borclar üzrə faizləri almaq hüququnu özündə saxladı. Lakin VII.1938 ildə Yaponiya bankı faizlərin ödənilməsini dayandırdı. Oyuncaq hökumətin idarə aparatı vasitəsilə hərəkət edən Yaponiya Şimali, daha sonra mərkəzi Çində öz mallarına rüsumları kəskin şəkildə aşağı salan yeni gömrük taarifləri tətbiq etdi. Bu, İngiltərənin və digər dövlətlərin Çinlə ticarətinə ciddi zərbə vurdu.

**İNGİLTƏRƏ - YƏMƏN MÜNAQİŞƏSİ.** 1839 ildə İngiltərə Ədən limanını işğal edərək Yəmənin 23 cənubi ərəb əmirliyi üzərində protektorat (*Qəyyumluq*) yaratdı. 1872 ildə Yəmənin çox böyük bir hissəsi Türkiyə tərəfindən işğal edildi. Yəmənin parçalanması 1903-1914 il İngiltərə-Türkiyə sənədləri ilə rəsmiləşdirildi. *Birinci dünya müharibəsindən* sonra müstəqil dövlət olan Yəmən ingilis müstəmləkə istilalarını tanımaqdan imtina etdi və 1919 ildə Cənubi Yəmən əmirliyinə qoşun yeritdi. İngiltərə 1928 ildə silah gücünə Yəməni həmin ərazilərdən çıxmağa məcbur etdi. İngiltərə Yəmənlə Səudiyyə Ərəbistanı arasında gedən *müharibədən* istifadə edərək 11.I.1934 ildə Yəməni onunla Ədən protektoratlığı arasında dövlət sərhəd hüquqlarını müəyyən edən müqavilə bağlamağa məcbur etdi. *İkinci dünya müharibəsindən* sonra münaqişə daha da kəskinləşdi. 20.I.1951 ildə İngiltərə ilə Yəmən sərhədlər (*Dövlət sərhədləri*) məsələsini danışıqlar yolu ilə həll etmək barədə razılığa gəldilər. Qarışıq *demarkasiya* komissiyası yaradılması nəzərdə tutulsa da, komissiya bir dəfə də olsun danışıqlar üçün yığışmadı. 1956-1958 illərdə Yəmən *BMT*-də dəfələrlə bəyan etdi ki, İngiltərənin Cənubi Ərəbistanda təcavüzkar hərəkətlərinə etirazını bildirir. İngiltərə də öz növbəsində Yəmənin Ədəndəki «pozuculuq hərəkətlərinə» etiraz etdiyini bildirmişdi.

1954 ildə İngiltərə öz nəzarəti altında olmaqla Cənubi Ərəb Əmirlikləri *Federasiyasını* yaratmaq layihəsini irəli sürdü. Yəmən həmin layihəni 1934 il müqaviləsilə (*Beynəlxalq müqavilə*) müəyyən edilmiş *status-kvonun* pozulması kimi qiymətləndirdi. Yəmənin etirazına baxmayaraq 6 cənubi Ərəb Əmirliyi arasında 11.II.1959 ildə bağlanan saziş Cənubi Ərəb Əmirlikləri Fe-

derasiyasının yaranmasının əsasını qoydu.

Federasiya 1965 ildə 16 əmirliyi və Ədəni birləşdirdi.

Yəməndə milli-azadlıq hərəkatı İngiltərənin planlarını pozdu. 30.XI.1967 ildə Cənubi Yəmən Xalq Respublikasının müstəqilliyi elan edildi (1970 ildən Yəmən Xalq Demokratik Respublikası adlanır) və Britaniya qoşunları Ədəni tərk etdi.

**İNKİŞAF ETMƏKDƏ OLAN DÖVLƏTLƏR.** Öz iqtisadi inkişaflarını sürətləndirməyi və bundan ötrü lazımi beynəlxalq şəraitin yaradılmasını qarşılarına məqsəd qoyan Asiya, Afrika, Latın Amerikası və Okeaniya ölkələri. Bu istilah 1960 illərin əvvəllərində meydana gəlmiş və əhatəli xarakter daşıyır. İ.e.o.ö. dedikdə, *İkinci dünya müharibəsindən* sonra müstəmləkə boyunduruğunu ataraq azad olmuş ölkələr (*Müstəmləkə sistemi və onun dağılması*), habelə bundan əvvəl müstəqillik qazanmış və ya öz mövcudluğunun bütün illərində istiqlaliyyətini qoruyub saxlamış bir sıra ölkələr başa düşülür.

Yer kürəsi əhalisinin təxminən 65%-i İ.e.o.ö.-də yaşadığı halda, dünya sənaye istehsalının 10%-dən də azı və dünya ticarətinin cəmi 15%-i onların payına düşür. *BMT*-nin 1980 illərin sonuna olan məlumatına görə, İ.e.o.ö.-in əhalisinin 800 mln. nəfəri dilənçi vəziyyətində yaşayır. Onlarda adambaşına düşən gəlir inkişaf etmiş kapitalist ölkələrində olduğundan 11-12 dəfə azdır, 700-800 mln. adam savadsızdır, 1,5 mlrd. nəfər lazımi tibbi yardım ala bilmir. Daha az inkişaf etmiş ölkələrin əhalisi ciddi sosial-iqtisadi problemlərlə rastlaşır, acınacaqlı həyat sürür.

Sənaye cəhətdən inkişaf etmiş bir sıra dövlətlərin fəaliyyəti İ.e.o.ö.-in iqtisadi və sosial inkişafına mənfi təsir göstərməkdədir.

İ.e.o.ö. hazırda ədalətli iqtisadi münasibətlərin qurulması uğrunda mübarizələrini davam etdirirlər.

**İNKİŞAF MƏQSƏDLİ REGİONAL ƏMƏKDAŞLIQ.** Regional iqtisadi təşkilat; İran, Pakistan və Türkiyə *dövlət başçılarının* 20-21.VII.1964 il İstanbul konfransının (*Beynəlxalq konfranslar*) qərarı ilə yaradılıb. Məqsədi – üzv ölkələrin daha çox öz ehtiyatları hesabına iqtisadi inkişafına nail olmaqdır. Bu məqsədlə sənaye, ticarət, nəqliyyat, rabitə, turizm, elm, texnika və mədəniyyət sahələrində regional əməkdaşlığı inkişaf etdirmək nəzərdə tutulur. Əsas diqqət sənaye sahəsində əməkdaşlığa yönəlir. Bu sahədə 50-dən çox layihə işlənib hazırlanmışdır. 1980 illərin sonunda bu təşkilat İqtisadi Əməkdaşlıq Təşkilatı (EKO) adı altında fəaliyyətə başlamışdır. SSRİ-nin dağılması ilə müstəqillik qazanmış respublikalardan Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Tacikistan və Azərbaycan bu təşkilata üzv olmuşlar. Təşkilatın katibliyi Tehrandadır.

**İNÖNÜ İSMƏT** (1884-1973). Türkiyənin siyasi və dövlət xadimi, *diplomat*.

1918 ildə hərbi nazirin müavini, *Antanta* dövlətlərilə sülh müqaviləsinə (*Beynəlxalq müqavilə*) hazırlıq komissiyasının sədri olub. 1920 ildə Atatürklə (*Atatürk Mustafa Kamal*) birləşib, 1922-1925 illərdə Türkiyənin xarici işlər naziri, 1922-23 illərdə *Lozanna konfransında* Türkiyə nümayəndə heyətinə başçılıq edib. 1923-1924, 1925-1937 və 1961-1965 illərdə Türkiyənin baş naziri, 1938-1950 illərdə *prezidenti* olub. 1938 ildə Xalq Cümhuriyyət Partiyasının lideri; 1950 ildən parlamentin deputatı, 1950-1960 və 1965-1972 illərdə müxalifətin lideri olub.





**İNSAN HAQLARI KOMİSSİYASI.** *BMT-nin İqtisadi və Sosial Şurasının (EKOSOS)* yardımçı orqanı; 15.II.1946 ildə təsis edilib.

İ.h.k. 43 dövlətin nümayəndələrindən təşkil olunub. Nümayəndələr EKOSOS-un sessiyalarında 3 il müddətinə seçilirlər. İ.h.k. ildə 1 sessiya keçirir. Onun nəzdində ayrı-seçkiliyin qarşısının alınması və azlıqların müdafiəsi üzrə yardımçı komissiya işləyir və onun tərkibi komissiyanın sessiyalarında seçilən və fərdi mövqedən çıxış edən ekspertlərdən təşkil olunur. İ.h.k. *BMT Nizamnaməsi* prinsiplərinə ciddi əməl etmək əsasında insan haqlarına hörmətlə yanaşmanı təşviq və təbliğ etmək məqsədilə yaradılıb. Mühüm vəzifəsi hegemonluq, irqçilik və təcavüzkarlıq hallarına rəvac verilməsilə insan haqları və azadlıqlarının kobudcasına və kütləvi şəkildə pozulmasına qarşı mübarizə aparmaqdır. İnsan haqlarının qorunması üzrə EKOSOS-a və *BMT Baş Məclisinə* tövsiyə və hesabatlar vermək, ilk növbədə, bu sahədə *beynəlxalq konvensiya* layihələri hazırlamaq da İ.h.k.-nın səlahiyyət dairəsinə daxildir.

İ.h.k. BMT BM tərəfindən qəbul olunmuş *1948 il İnsan haqlarına dair Ümumi Bəyannaməsinin* layihəsini işləyib hazırlamış, *Vətəndaş və siyasi hüquqlar barədə Beynəlxalq Müahidənin*, İqtisadi, sosial və mədəni hüquqlara dair Beynəlxalq Müahidənin, Uşaq hüquqlarına dair 1959 il Bəyannaməsinin, *1963 il İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvinə dair Bəyannaməsinin, 1966 il İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvinə dair Beynəlxalq Konvensiyanın, 1968 il Hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə müddətin tətbiq olunmaması haqqında Konvensiyasının, Aparteid* cinayətlərinin qarşısını almağa və onlara görə cəza verilməsinə dair 1973 il Konvensiyasının hazırlanmasında iştirak etmişdir.

**İNSAN HAQQLARI KOMİTƏSİ.** Mülki və siyasi hüquqlara dair 1966 il Beynəlxalq Müahidənin müddəalarına müvafiq olaraq yaradılmışdır (*İnsan haqqlarına dair 1966 il Müahidələri*). İ.h.k. 18 nəfər üzvdən ibarətdir; üzvlər sözügedən müahidənin iştirakçısı olan ölkələr tərəfindən öz vətəndaşları arasından 7 il müddətinə seçilirlər.

İ.h.k.-nin üzvləri öz vəzifələrini dövlətlərin təmsilçiləri kimi deyil, fərdi şəxs qismində yerinə yetirirlər. İ.h.k.-nin özünəxas prosedura qaydaları vardır. Üzvlərin seçilməsində ədalətli coğrafi bölgüyə, habelə «müxtəlif formalı sivilizasiyaların və başlıca hüquqi sistemlərin» təmsilçiliyinə diqqət yetirilir.

İ.h.k. müahidə iştirakçısı olan dövlətlərin müahidə tərəfindən tanınan hüquqlarının həyata keçirilməsi istiqamətində gördükləri tədbirlər haqqında məruzələrini öyrənib təhlil edir.

İ.h.k. ildə 3 sessiya keçirir və *BMT-nin İqtisadi və Sosial Şurası* xətti ilə *BMT Baş Məclisinə* öz işi barədə illik hesabat verir.

**İNSAN HAQLARINA DAİR 1966 İL MÜAHİDƏLƏRİ.** İqtisadi, sosial və mədəni hüquqlara dair beynəlxalq müahidəni və mülki siyasi hüquqlara dair beynəlxalq müahidəni ehtiva edir. *BMT Baş Məclisi* tərəfindən 16.XI. qəbul edilib. *Beynəlxalq müqavilə* gücündə olan bu müahidələr insan haqlarına dair 1948 il *İnsan haqqlarına dair*

*Ümumi Bəyannaməsi* ilə müqayisədə irəliyə doğru çox mühüm addımdır, çünki Ümumi Bəyannamə dövlətlərin və xalqların yerinə yetirməyə cəhd göstərməli olduqları vəzifələri yalnız bəyan etməklə kifayətlənirdi.

M.-lər insan haqları sahəsində digər sazişlər kimi bilavasitə fərdlərə hüquqlar vermək təəhüdlərini müəyyən edir, hər bir iştirakçı dövlət tərəfindən müvafiq milli qanunvericilik və digər tədbirlərin görülməsi ilə həyata keçirilir.

M.-lər öz müqəddəratını təyin etmək hüquqnunun və onunla bağlı xalqların öz təbii sərvətlərinə azad sahib olmaq hüququnun təsbit edilməsi – mütərəqqi qüvvələrin böyük nailiyyətidir.

M.-lərə əsasən, dövlətlər özləri tərəfindən görülmüş tədbirlərin və müahidələrdə nəzərdə tutulmuş hüquqların həyata keçirilməsi sahəsində əldə edilmiş tərəqqiyə dair hesabatlar təqdim etməyi öhdələrinə götürürlər. Məruzələr *BMT-nin İqtisadi və Sosial Şurasında* nəzərdən keçirilir; bu məqsədlə bu Şura çərçivəsində xüsusi işçi qrupu fəaliyyət göstərir.

**İNSAN HAQQLARINA DAİR ÜMUMİ BƏYANNAMƏ** (1948). *BMT Baş Məclisinin* tərəfindən qəbul edilmiş, *BMT Nizamnaməsinin* insan haqqlarına dair müddəaları nəzərə alınmaqla işlənib hazırlanmış və bütün xalqların və dövlətlərin həyatında zəruri olan sənəd kimi 10.XII. elan edilmişdir.

B. insan haqlarına dair ilk xüsusi beynəlxalq sənəddir; burada insanın əsas hüquq və azadlıqlarına hamılıqla hörmət olunmasının zəruriliyi qeyd edilir, onların mündəricəsi verilir: bütün insanların hər hansı şəkildə ayrı-seçkiliyə məruz qalmamaqla bərabərliyi, yaşamaq, sərbəstlik və şəxsi toxunulmazlıq hüququ, şərəf və ləyaqətinin, mənzilinin toxunulmazlığı hüququ, hər bir şəxsin hüquqlarının məhkəmədə qərəzsiz müdafiə olunması hüququ; mülki və siyasi hüquq, *vətəndaşlıq* və sığınma hüququ, şəxsi əmlaka malikolma hüququ, izdivac, fikri sərbəst bəyan etmək hüququ, vicdan, din və əqidə azadlığı, dinc yığıncaqlar keçirmək və assosiasiyalar yaratmaq hüququ, gizli səsvermə zamanı hamılıqla bərabər şəkildə seçkilərdə iştirak etmək hüququ, işləmək hüququ və bərabər əməyə görə bərabər zəhmət haqqı almaq hüququ, həmkarlar təşkilatları yaratmaq, istirahət etmək, sosial təminat, təhsil almaq və cəmiyyətin mədəni həyatında iştirak etmək hüququ.

B. dövlətlər üçün tövsiyə xarakteri daşıyır. İştirakçı dövlətlər üçün hüquqi baxımdan icbari olan *İnsan haqqlarına dair 1966 il Müahidələri* bu *Bəyannamə* əsasında işlənib hazırlanmışdır. 10.XII. – BMT BM tərəfindən İnsan haqqları Günü elan edilmişdir.

Müahidələrə əsasən, dövlətlər özləri tərəfindən görülmüş tədbirlərin və müahidələrdə nəzərdə tutulmuş hüquqların həyata keçirilməsi sahəsində əldə edilmiş tərəqqiyə dair hesabatlar təqdim etməyi öhdələrinə götürürlər. Məruzələr *BMT-nin İqtisadi və Sosial Şurasında* nəzərdən keçirilib baxılır; bu məqsədlə bu Şura çərçivəsində xüsusi işçi qrupu fəaliyyət göstərir.

Müahidələr 1976 ildən qüvvəyədədir.

**İNSAN HÜQUQLARI.** Bu istilah altında şəxsiyyətin dövlətdə hüquqi statusunu səciyyələndirən sosial-iqtisadi, mülki, siyasi, mədəni və digər hüquq və azadlıqlar kompleksi başa düşülür. İnsanın əsas hüquq və azadlıqları, onların xarakteri, həcmi və real məzmunu dövlə-





tin sosial-iqtisadi, siyasi quruluşu, konkret həyat şəraiti və mövcud cəmiyyətin inkişaf xüsusiyyətləri ilə şərtləndirilir. İnsanın hüquq və azadlıqlarına hörmət prinsipi *BMT Nizamnaməsində, 1948 il İnsan haqqlarına dair Ümumi Bəyannaməsində*, Müstəmləkə ölkələri və xalqlarına müstəqillik verilməsinə dair 1960 il *Bəyannaməsində, 1966 il İrqi ayrı-seçkiliyin bütün formalarda ləğvinə dair Beynəlxalq Konvensiyasında, İnsan haqqlarına dair 1966 il Müahidələrində, Avropada Təhlükəsizlik və Əməkdaşlığa dair Müşavirənin Yekun aktında (Yekun aktı)* və digər beynəlxalq aktlarda təsbit edilmişdir.

İnsan haqqlarına hörmət prinsipi *beynəlxalq hüququn* əsas prinsiplərilə, ələlxüsus dövlətlərin suveren bərabərliyi və onların daxili işlərinə *qarışmamaq prinsiplərilə* ziddiyyət təşkil edə bilməz.

**İNTEQRASİYA** (lat. *integer* - bütöv). Ümumi mənada götürdükdə müxtəlif elementlərdən təşəkkül tapan bütövlük deməkdir.

Siyasətdə və iqtisadiyyatda İ. anlayışı cəmiyyətin, dövlətin daxili vəziyyətini səciyyələndirə bilər, yaxud daha geniş millətlərarası məcmuya İ. edən dövlətə aid edilə bilər. İ prosesləri obyektiv əsasa malik olub, məhsuldar qüvvələrin inkişafı, müasir cəmiyyətin elmi-texniki tərəqqisi ilə şərtləndirilir, əməyin beynəlxalq bölgüsünü gücləndirməyə və təsərrüfat həyatını beynəlmiləlləşdirməyə olan meyli əks etdirir.

İnkişaf tapmış dövlətlərin iqtisadi İ.-sı onların qarşılıqlı iqtisadi münasibətlərində və üçüncü ölkələrlə münasibətlərində razılaşdırılmış dövlət-inhisar siyasətini həyata keçirməyin çağdaş mərhələsidir. Bu İ. yeni-yeni regional iqtisadi qruplaşmaların və birliklərin yaradılması formasında inkişaf tapır.

**İNTERVENSİYA** (lat. *interventio* – qarışmaq, mudaxilə etmək). Hərbi qüvvələrdən istifadə etməklə güc işlətməyin bir növü; bir və ya bir neçə dövlətin digər dövlətin işlərinə qarışmaqla, ərazisinə (*Dövlətin ərazisi*) silahlı basqın etməsində və ya hər hansı digər hərəkət formasında özünü göstərir.

İ. fərdi və ya kollektiv formalarda təzahür edir. Həyata keçirilmə formasından asılı olaraq, İ hərbi, iqtisadi, siyasi və s. ola bilər. İşğalçı *müharibənin* eyni olan İ. *beynəlxalq hüquq* baxımından beynəlxalq sülhə qarşı ən ağır cinayət, güc işlətməyin ən təhlükəli formalarından biri sayılır.

Dövlətlərin daxili işlərinə *qarışmamaq prinsipi* və İ.-nın yolverilməzliyi bir sıra beynəlxalq-hüquqi sənədlərdə, habelə *BMT Nizamnaməsində, 1965 il Dövlətlərin daxili işlərinə qarışmanın, onların müstəqilliyini və suverenliyini məhdudlaşdırmanın yolverilməzliyinə dair BMT Bəyannaməsində (Bəyannamə)*, Təcavüzün müəyyənləşdirilməsinə dair 1974 il aktında, *Avropada Təhlükəsizlik və Əməkdaşlığa dair Müşavirənin Yekun aktında (Yekun aktı)* və eləcə də *İntervensiyanın* və dövlətlərin daxili işlərinə qarışmağın yolverilməzliyinə dair 1981 il Bəyannaməsində təsbit olunmuşdur.

**İOHANN PAVEL II** (1920-2005). Baş pontifik (Roma papası), Roma-katolik kilsəsinin və *Vatikan* dövlətinin rəhbəri. Tam titulu - Roma yepiskopu, İsa peyğəmbərin vikarisi, apostollar knyazının varisi, səmavi kilsənin baş pontifiki, Qərbin patriarxı, Roma əyalətinin arxiyepiskopu və mitropoliti, Vatikan şəhər dövlətinin baş hakimi, Allah qul-

larının qulu. Mülki adı Karel Voytıladır. 1938 ildə gimnaziyanı bitirdikdən sonra Krakovdakı Yaqellon universitetinin fəlsəfə fakültəsinə daxil olmuş, lakin Polşanın hitlerçilər tərəfindən işğal edilməsi üzündən təhsilini bitirə bilməmişdir.

Kardinal Sapeginin sərəncamı ilə Romaya gedərək, Dominikan universiteti «Angelikuletun» fəlsəfə fakültəsində təhsilini davam etdirmiş və 1948 ildə oranı bitirmişdir. 1958 ildə yepiskop seçilməklə eyni vaxtda Krakov arxiyeposkopunun müavini işləmiş, 1964 ildə Krakovun arxiyepiskopu təyin olunmuşdur. 1962-1965 illərdə katolik kilsəsinin Ümumdünya kilsə məclislərində və yepiskoplar Sinodunun çağırdığı sessiyalarda iştirak etmişdir. VI.1967 ildə kardinal, 16.X.1978 ildə isə papa seçilərək II İohan Pavel adını almışdı. Bir sıra bədii əsərlərin, şerlərin və eləcə də fəlsəfə və teologiyaya dair elmi əsərlərin müəllifidir. Həmin əsərlər arasında «Bizim allahın qardaşı», «Ustanın qızıl işləri», «Fəlakətli xəbər» pyeslərini, «Məhəbbət və məsuliyyət» (məhəbbət, seks və əxlaq məsələlərinə kilsənin münasibətinə dair), «Şəxsiyyət və fəaliyyət» (burada şəxsiyyətin formalaşmasında əməyin rolundan bəhs edilir) və s. qeyd etmək olar.

**İON İLİESKU** (1930). 1941 ildə Polizu adına sənaye litseyinə daxil olub, sonradan təhsilini Spiru-Xaret adına litseydə davam etdirib. 1944 ildə Kommunist Gənclər İttifaqının üzvü olub. Ali təhsilini Buxarest Politexnik İnstitutunda, daha sonra Moskva Energetika institutunda alıb. Gənclər naziri olaraq 1968 ildə Gənclər məsələsinə dair tədqiqat mərkəzi yaradıb. II-VII.1971 ildə RKP MK təbliğat işləri üzrə katib olub. Tezliklə bu vəzifədən çıxarılmış və Timiş mahalında təbliğat işləri üzrə katib təyin edilmiş, sonradan Yassada maha' partiya təşkilatının I katibi işləmişdir. 1979 ildə Su Ehtiyatları Milli Şurasının sədri təyin edilib. 1984 ildə texniki nəşriyyatın direktoru vəzifəsinə keçirilib. Dekabr 1989 ildə Milli Qurtuluş cəbhəsinə başçılıq edib. Rumıniyanın *prezidenti* seçilib.

**İOSOFAT BARBARO.** Venetsiya Respublikasının Ağqoyunlu sarayına göndərilən ikinci rəsmi *səfiri*. 25.IX.1472 ildə Senat onun elçiliyini təsdiq etmiş və İ.B. 10 nəfərdən ibarət diplomatik heyətin başçısı kimi 1473 ildə Azərbaycana yola düşmüşdü. Səfərə çıxarkən ona iki məxfi təlimatnamə verilmişdi. Birinci təlimatnamədə *Uzun Həsəni* Venetsiyanın bundan sonrakı yardımına da ümidvar etməsi, Ağqoyunlu şahzadələri ilə əlaqə yaratması, ordu ilə bağlı məlumat toplaması və s. barədə göstərişlər verilmiş, ikinci təlimatnamədə isə, aşağıdakı göstərişlərə əməl etmək tapşırılmışdı: Uzun Həsənə heç vəchlə II Sultan Məhəmmədlə sülh sazişi bağlamağa imkan verməmək, sülh sazişi bağlanacağı təqdirdə Venetsiyanı da Ağqoyunluların müttəfiqi kimi həmin sənəddə əks etdirmək; Uzun Həsən osmanlılara deyil, ərəblər (Misir və Suriya) üzərinə hücuma keçərsə, həmin ərazilərdəki Venetsiyalı tacirlərin və ticarət məntəqələrinin mühafizəsini təşkil etmək və s.

İ.B., nəhayət, 1474 ilin aprelində Təbrizdə Uzun Həsənlə görüşə bildi.

İ.B. öz «Səfərnamə»sində Ağqoyunlu hökmdarını «Avropa hökmdarlarının çoxundan daha qüdrətli» şəxs kimi təqdim edir. İ.B.-nun Ağqoyunlu ordusu barədə verdiyi məlumat başqa səfirlərin məlumatlarına nisbətən daha müfəssəldir.





İ.B. bir neçə il Azovsahili vilayətlərdə, Qafqaz və Volqaboyunda ticarətlə məşğul olmuş, 1452-1472 illər arasında Dalmasiya və Albaniyada xüsusi dövlət tapşırıqlarını yerinə yetirmiş, 1474-1479 illərdə Azərbaycan və İranda diplomatik fəaliyyətlə məşğul olmuş, 1494 ildə Venesiyada vəfat etmişdir.

**İRAQ - İRAN MÜHARİBƏSİ** (1980-1988). İraqla İran arasında sərhəd (*Dövlət sərhədləri*) problemləri ilə bağlı uzun müddət davam edən mübahisələr üzündən, habelə siyasi, dini və milli-etnik zəmində baş vermişdi.

1980 ildə İraq-İran sərhədində tez-tez baş verən münaqişələr geniş miqyaslı hərbi əməliyyatlara çevrildi. 17.IX.-də İraq 1975 il sazişinin və müqaviləsinin qüvvədən düşdüyünü bildirdi və 22.IX. hərbi əməliyyatlar İran ərazisinə keçirildi.

Səddam rejimi əslində İran İslam inqilabının qələbəsindən sonra yaranmış hakimiyyət boşluğundan və fürsətdən istifadə edərək, İranın əsas neft rayonu olan Xuzistanı ələ keçirmək və bu ölkəni Fars körfəzindən sıxışdırıb çıxarmaq niyyətində idi.

*Müharibəni* qısa müddətdə başa çatdırmağın qeyri-mümkünlüyünü dərk edən Səddam Hüseyn VI.1982 ildə atəşi dayandırmaq və öz qoşunlarını İran ərazisinin bir sıra işğal olunmuş rayonlarından çıxarmaq barədə qərar qəbul etdi. Lakin İraqın bu qərarını qəbul etməyən İran hərbi əməliyyatları İraq ərazisinə keçirdi və bununla da müharibənin gedişində yeni mərhələ başlandı.

*BMT Təhlükəsizlik Şurası* İraq və İranı hərbi qarşıdurmadan çəkindirmək məqsədilə mübahisəli məsələləri dinc yolla həll etməyə dair *qətnamələr* qəbul etmişdir. 23.IX.1980 ildə *BMT Baş katibi* K.Valdhaym İraq və İran rəhbərlərinə hərbi əməliyyatları dayandırmaq və münaqişəni dinc yolla həll etmək çağırışı ilə müraciət etdi. BMT Təhlükəsizlik Şurası 28.IX.1980 ildə hərbi əməliyyatların dayandırılması və münaqişəni nizamlamaq üçün vasitəçilərin (*Vasitəçilik*) xidmətindən istifadə edilməsini nəzərdə tutan 479№-li qətnamə qəbul etdi. 12.XI.1980 ildə tanınmış İsveç siyasi xadimi U.Palma BMT Baş katibinin İraq-İran münaqişəsinin nizamlanmasında vasitəçilik edəcək xüsusi nümayəndəsi təyin edildi. Lakin onun 1981 ildə Bağdada və Tehrana səfərləri və apardığı danışıqlar nəticəsiz qaldı. BMT Təhlükəsizlik Şurası İraq-İran müharibəsinə dair 522(4.X.1982), 540(31.X.1983) və 598 (20.VII.1987) saylı qətnamələr qəbul etdi.

Sonuncu qətnamədə İraq və İrandan hərbi əməliyyatları dayandırmaq tələb olunurdu. İraq hökuməti bu qətnaməni VII.1987 ildə, İran isə VI.1988 ildə tanıdığını bildirdi. VI.1988 ildə BMT-nin vasitəçiliyi ilə İraqla İran arasında danışıqlar başlandı. Danışıqlar nəticəsində 20.VIII.1988 ildə İran-İraq cəbhəsində *atəşkəs* haqqında razılaşma əldə edildi, lakin sülh barədə müqavilə imzalanmadı.

**İRAQ - İRAN MÜQAVİLƏLƏRİ VƏ SAZİŞİ.** 1) 1937 il müqaviləsi (*Beynəlxalq müqavilə*); 04.VII. sərhədlərə dair (*Dövlət sərhədləri*), xarici işlər nazirləri tərəfindən Tehranda imzalanıb.

M. əsasən, sərhədin Şəttül-ərəb çayınını sol sahili (İran) boyu saxlanılması qüvvədə qalırdı; çayın sularında bütün millətlərin mülki gəmiləri və razılaşan tərəflərin hərbi gəmiləri üçün azad üzmə nəzərdə tutulurdu (3-cü

dövlətə də belə bir hüquq verilirdi, bir şərtlə ki, həmin dövlət razılaşan tərəflərə qabaqcadan bu barədə məlumat versin).

M.-nin imzalanması tərəflərə 1937 il Səədabad *paktında* iştirak etməyə və həmin ildə daha iki sənəd: 18.VII. dostluğa dair və 24.VII. xtilafları tənzimləmək barədə müqavilə bağlamağa imkan verdi.

2) 1975 iş sazişi («Əlcəzair sazişi» kimi də tanınır); *OPEK* üzvü ölkələrin *dövlət başçılarının* Əlcəzair konfransının (*Beynəlxalq konfranslar*) gedişində İran şahı ilə İraq İnqilabi Komandanlıq Şurası sədrinin müavini arasında danışıqlara dair Birgə *Bəyanat* şəklində imzalanıb. S. «tərəflər arasında mövcud olan bütün problemlərin qəti və etibarlı şəkildə tənzimlənməsi» üzrə razılaşmaları, İraqla İran arasında quru sərhədini 1913 il İstanbul *protokolu* və sərhədlərin *delimitasiyası* üzrə komissiyaların 1914 il protokolları əsasında *demarkasiyasının* və çay sərhədinin talveq xətti üzrə delimitasiyasını nəzərdə tuturdu.

M.-yə əlavə edilmiş məxfi protokola əsasən Teharn İraq ərazisində yaşayan kürdlərin separatçılıq hərəkatını dəstəkləməyəcəyini öhdəyə götürürdü. Lakin İran kürd faktorundan Bağadada qarşı istifadə edərək kürdlərin muxtariyyət uğrunda mübarizəsinə hərtərəfli yardım göstərirdi. İraq hökuməti İranda monarxiyaya qarşı başlanan hərəkata rəhbərlik edən Ayətulla Xomeynini İraqdan çıxaracağı barədə təəhhüd götürmüşdü. Xomeyni 1964 ildə İrandan sürgün edildikdən sonra bir müddət Türkiyədə və sonralar İraqda (Nəcəf) sığınacaq tapmışdı.

3) 1975 il müqaviləsi, dövlət sərhədləri və qonşuluğa dair, 1975 il sazişi əsasında və onu inkişaf etdirmək məqsədi ilə bağlanmışdı, 13.VI Bağdadda imzalanıb; quru sərhədlərin demarkasiyası və çay sərhədlərinin delimitasiyası, həmçinin İraq-İran sərhədlərində təhlükəsizlik məsələlərini ehtiva edir.

Tərəflər 26.XII.1975 ildə müqaviləyə əlavə olaraq dörd saziş imzaladılar. Bunlar Şəttül-Ərəb çayında gəmiçiliyə, sərhəd çaylarından və otlaqlardan istifadəyə və sərhəd komissarlarının hüquqlarına dair məsəlləri əhatə edirdi.

M. imzalananadək İran-İraq birgə komissiyası tərəfindən quru sərhəddinin son olaraq demarkasiyası və çay sərhədinin delimitasiyası (talveq xətti üzrə) aparıldı.

M.-də İraqla İran arasındakı quru və çay sərhəd xətti toxunulmaz, daimi və son variant olaraq təsbit edildi, M.-nin müvafiq müddəaları və ona qoşulan protokollar isə bu sərhədlərin hər hansı ad altında dəyişikliyə uğraya və pozula bilməyəcəyini təsdiqlədi.

Bununla belə, sərhədlərə dair bu M.-nin bağlanması İraqla İran arasında mübahisəli məsələlərin tənzimlənməsinə gətirib çıxarmadı.

**İRAQ - SƏUDİYYƏ MÜQAVİLƏSİ** (1936). 02.IV. Bağdadda İraq nümayəndəsi Nuri Səid və Səudiyyə Ərəbistanının nümayəndəsi Yusif Yasin tərəfindən imzalanıb.

Müqaviləyə (*Beynəlxalq müqavilə*) əsasən, tərəflər qarşılıqlı məsləhətləşmələr aparmaq, *müharibə* təhlükəsi yarandıqda birgə hərəkət etmək və təcavüzkara qarşı əlbir mübarizə aparmaq, münaqişələri dinc yolla tənzimləmək, müttəfiqin mənafeyinə zidd olan müqavilələr bağlamamaq, daxili iğtişaşları cilovlamaqda qarşılıqlı kömək, hərbi və mədəni əməkdaşlıq etmək barədə bir sıra ittifaq təəhüdləri götürdülər. M.-də İraqla Səudiyyə Ərəbistanı və eləcə də onlarla digər ərəb ölkələri arasında «müsəlman əlaqələrinə» və «milli birliyə» də xüsusi əhəmiyyət verilirdi. Tərəflər eyni zamanda onlardan hər hansı birinin öz şəxsi nümayəndəliyi olmadığı hallarda, ümumi *diplomatik nümayəndəlik* və konsulluq təsis etmək barədə də razılığa gəlmişlər. Bundan əlavə, M.-nin 1930 il İngiltərə-İraq müqaviləsinə, *Millətlər Cəmiyyətinin* Statusuna və *Brian-Kelloq paktına (Pakt)* zidd olmadığı da təsdiq edildi.

M. bütün əvvəlki İraq-Nəc müqavilələrini və sazişlərini onlara dair fikir ayrılığı olmadığından qüvvədə saxladı; 10 il müddətinə bağlanmış, bu müddət qurtardıqda öz-özünə yenidən 10 ilə uzadılması nəzərdə tutulmuşdu.

29.IV.1937 ildə M.-yə Yəmən də qoşulmuşdu. İngiltərə *diplomatiyası* bu müqaviləyə İraqın VII.1937 ildə daxil olduğu Sədabad paktına əlavə kimi baxırdı. 1936, 1938 və 1940 illərdə M.-yə əlavə olaraq neytral zona və sərhədyanı qəbilələrin statusuna dair bir sıra İraq-Səudiyyə sazişləri imzalandı.

**İRAN - ABŞ MÜNAQİŞƏSİ.** İranın İslam inqilabının, habelə ABŞ-ın İranda 1979 il antimonarxiya və antiimperialist inqilabından sonra itirilmiş mövqelərini yenidən bərpa etmək cəhdlərinin nəticəsi idi; 04.XI.1979 ildə Tehranda iranlı tələbələrdən ibarət nümayişçilər tərəfindən ABŞ *səfirliyi* ələ keçirildi. Səfirliyin binasında 60 nəfərə yaxın əməkdaş girov götürüldü. Xomeyni hökuməti ABŞ-dan tələb etdi ki, ölkədən qaçmış sabiq şah Məhəmməd Rza Pəhləvi mühakimə olunmaqdan ötrü İrana təhvil verilsin, onun özü və ailə üzvləri tərəfindən ölkədən çıxarılmış sərvətlər İrana qaytarılsın, İrandakı əksinqilabçı qüvvələrə dəstək verilməsi dayandırılsın və İranın daxili işlərinə hər hansı formada qarışmaya yol verilməsin (*Qarışmamaq prinsipi*). ABŞ öz növbəsində İrana qarşı bir sıra siyasi və iqtisadi aksiyalara əl atdı; *diplomatik əlaqələrin* kəsilməsi, ABŞ banklarında və xarici firmalardakı İranın dövlət avuarlarına (12 mlrd. dollar) həbs qoyulması, iqtisadi blokada elan edilməsi, ölkədən iranlı tələbələrin çıxarılması və s. tədbirlər bu qəbildəndir.

ABŞ 1979-1980 illər ərzində İran sahillərində onlarca hərbi gəmi cəmləşdirmişdi. 25.IV.1980 ildə girovların azad edilməsi məqsədilə ABŞ-ın İrana hərbi desant çıxarmaq cəhdləri boşa çıxdı.

1980 ilin sonlarında Əlcəzairin *vasitəçiliyi* ilə İran və ABŞ nümayəndələri arasında girovların azad olunmasına dair danışıqlar başlandı.

Əldə olunmuş razılığa əsasən, İran 20.I.1981 ildə ABŞ səfirliyinin bütün əməkdaşlarını azad etdi. ABŞ hökuməti bundan belə İrana münasibətdə müdaxilə etməmək siyasəti yürüdəcəyini bildirdi və öhdəyə götürdü ki, İran avuarlarına qoyulan həbsi dayandıracaq, onları İrana qaytaracaq, ABŞ idarələrinin və vətəndaşlarının İrana maliyyə iddiaları ilə bağlı məhkəmə işlərinə xitam veriləcək, bu xüsusda əvvəlki məhkəmə qərarları ləğv olunacaq, İrana qarşı ticarət sanksiyası qüvvədən düşmüş hesab olunacaq, şaha və onun ailəsinə aid mülkiyyətin aidiyyəti üzrə verilməsinə qadağa qoyulacaqdır. İran isə Amerika tərəfindən qaytarılacaq məbləğin hesabına dövlət borclarını ödəməyi, habelə Amerika şirkətlərinin və ayrı-ayrı şəxslərin mümkün iddialarını təmin etməyi öhdəyə götürdü. Buna baxmay-

araq İran-ABŞ münasibətlərindəki gərginlik bu günə qədər qalır.

**İRAN - ƏFQANISTAN MÜQAVİLƏSİ** (1905). Sərhədin (*Dövlət sərhədləri*) müəyyən edilməsinə dair; Böyük Britaniya krallığının xüsusi elçisi Kölnel Mokmahenin arbitrliyi və Hindistan kayzerinin iştirakı ilə bağlanıb. M.-də İranla Əfqanıstanın Sistandan keçən sərhədləri müəyyən olunmuş, həmçinin Sistandakı sərhədyanı su mənbələrindən qarşılıqlı istifadə olunması məsələləri də tənzimlənmişdi.

**İRAN - FRANSA MÜQAVİLƏLƏRİ.** 1) 1807 il ittifaq müqaviləsi (*Beynəlxalq müqavilə*). I Napoleonla (*Napoleon I Bonapart*) *Fətəli şah* arasında Polşanın Finkenşteyn şəhərində bağlanıb.

M.-də İranla Fransa arasında sülh və mehriban münasibətlər və ittifaq yaradılması barədə xoş niyyət ifadə olunur, Fransa imperatoru I Napoleon İran dövlətinin ərazi hüdudlarının (*Dövlətin ərazisi*) toxunulmazlığının qarantı olacağını vəd edirdi. Fransa imperatoru təsdiq edirdi ki, Gürcüstan İran imperatorluğunun tərkib hissəsi sayılmalıdır. M.-yə əsasən, Fransa Rusiyanı Gürcüstandan və İranın digər torpaqlarından çıxmağa məcbur etmək üçün hər cür tədbirlərin görülməsini lazım bilir və İranda öz *səfirliyini* açmağı planlaşdırırdı. Fransa İrana lazım olduğu qədər müasir səhra topları və nizəli tüfənglər verməyi öhdəyə götürdü. Fransa tərəfi İran dövlətinin istədiyi halda, onun qoşunlarına müasir Avropa təlimi keçməyə və ordunu modernləşdirməyə hazır olduğunu bildirdi. İran İngiltərə ilə bağladığı bütün siyasi, diplomatik və ticarət sazişlərini etibarsız elan edir, onunla *müharibə* vəziyyətində olduğunu bildirirdi. İngiltərə ilə Rusiyanın İrana və Fransaya qarşı hər hansı hərbi ittifaq bağladıqları təqdirdə eyni cür ittifaqın İran və Fransa arasında da bağlanması nəzərdə tutulurdu. İran şahı əfqanları və Qəndəhar əhalisini ingilis qoşunları ilə vuruşmağa təhrik edəcəyini öhdəyə götürmüşdü və bu məqsədlə Fransanın hərb gəmilərinin Fars körfəzinə və digər limanlara girməsindən ötrü hər cür şərait yaratmaq nəzərdə tutulurdu. M-də Fransa İngiltərənin Hindistandakı işğal bölgələrinə qoşun yeritmək istədikdə, İranın həmin qüvvələrin öz ərazisindən keçməsinə icazə verəcəyi də öz əksini tapmışdı.

M. imzalandığı gündən 4 ay sonra Tehranda 04.V.1808 ildə İran şahı tərəfindən təsdiq edilmiş və qüvvəyə minmişdi.

2) 1847 il müqaviləsi. Tərəflər iki dövlət arasında dostluq münasibətlərini və ticarət əlaqələrini möhkəmləndirmək əzmində olduqlarını bildirir, hər iki ölkənin səyyahlarına, iş adamlarına və tacirlərinə qarşılıqlı surətdə sərbəst gəliş-gediş, mal mübadiləsi və satışı üçün əlverişli şərait yaradılmasının zəruriliyini qeyd edirdilər. Hər iki dövlətin təbəələri (*Təbəəlik*) arasında baş verə biləcək mübahisələrin və ixtilafların konsulluq (*Konsul idarəsi*) və müvafiq nümayəndəliklər vasitəsilə mövcud qanunlar əsasında ədalətlə həll olunması nəzərdə tutulurdu. M. VI.1874 ildə Tehranda imzalanıb.

3) 1855 il müqaviləsi. Mehriban münasibətlərə və ticarətə dair - *III Napoleonun* hakimiyyəti zamanı 12.VII iyulda Tehranda bağlanıb. Səkkiz fəsildən ibarət bu müqavilədə İranla Fransa arasında böyük *elçilər* və səlahiyyətli *səfirlər* səviyyəsində *diplomatik münasibətlərin* yaradılması, hər iki ölkə vətəndaşlarının biri digərinin ərazisində olarkən hüquqlarının qorunması, azad ticarət qaydaları, mülki və cinayət xarakterli məsələlər əhatə olunmuşdur.

**İRAN – İNGİLTƏRƏ İTTİFAQI.** I Napoleon (*Napoleon I Bonapartın*) bir-birinin ardınca qazandığı qələbələr Avropada beynəlxalq durumu İngiltərə üçün olduqca əlverişsiz vəziyyətə salmışdı. Napoleon İngiltərəni dizi üstə çökdürə biləcək bir plan işləyib hazırlamışdı ki, bu da Rusiya ilə ittifaq bağlayaraq onunla birlikdə Hindistana qoşun çıxarmağı nəzərdə tuturdu. Napoleonla I Pavel arasında aparılan danışıqlar Qara dəniz və Azov dənizi, Volqa və Don çaylarının deltaları, Xəzər dənizi və İrandan keçməklə, Hindistana hücum planının hazırlanması ilə nəticələndi. Bu hərəkətlərin müqabilində Hindistanın baş valisi Marki Velzeri İranı müttəfiqliyə cəlb etmək fikrinə düşdü və bu niyyətlə Con Molkolmu fövqəladə *səfir* missiyası ilə Tehrana göndərdi. Səfirə İran şahını Fransaya qarşı təəhhüdlər götürməyə vadar etmək, habelə İranda antiəfqan siyasətini gücləndirmək və lazım gəldikdə İranla müdafiə və ticarət müqavilələri bağlamaq tapşırığı verilmişdi. Nəticədə bir ticarət müqaviləsi və bir də siyasi müahidə bağlandı. İran öhdəyə götürürdü ki, İngiltərə ilə dost və müttəfiq olacaq, əfqanlar yenidən Hindistana həmlə etmək fikrinə düşərlərsə, oraya qoşun çıxaracaq və əfqanları Hindistana hücum etməkdən yayındıracaq. Əvəzində əgər əfqanlar və fransızlar İrana daxil olmaq istəsələr, ingilislər mümkün qədər İrana top və digər silah verəcəkləri barədə öhdəlik götürür, fransızlar İran limanlarından birinə qoşun çıxaracaqları təqdirdə hərbi donanmanın köməyilə onları oradan çıxaracaqlarını vəd edirdilər. M.-yə görə, hər iki dövlətin tacirləri bir-birinin ərazisinə sərbəst gəlib gedə bilər, ingilis və hind tacirləri İranın istənilən yerində qalmaq və hər növ vergidən azad olmaq hüququ əldə edirdilər. *Fətəli şah* bütün bu imtiyazların müqabilində Rusiyanın Qafqaz əyalətlərinə təkrar hücumları zamanı İngiltərənin İrana dayaq durmasına nail olmaq istəyirdi. Lakin ingilis *diplomatları* heç bir təəhhüd götürmədən öz istədiklərinə nail oldular. Bu diplomatik qələbədən sonra kapitan Molkolm «ser» adına layiq görüldü. I Pavelin qəfil və müəmmalı ölümü Hindistana hücum planını dayandırdı və ingilislər rahat nəfəs ala bildilər. Bu baxımdan İranla ittifaq öz aktuallığını itirdiyindən ingilis *diplomatiyası* müqavilənin təsdiqində o qədər fəallıq göstərmədi.

Fətəli şah 22.V.1802 ildə Hacı Xəlil Xan Məlikültüccar Qəzvinini Hindistanın baş valisinin yanına göndərib ona müqavilənin təsdiqnaməsini almaq tapşırığı verdi. Bombeydə İran səfiri böyük təntənə ilə qarşılandı. Lakin həmin ilin 20.VII. səfiri müşayiət edənlər ilə səfirin mühafizəsinə məsul olan hind əsgərləri arasında baş verən münaqişə üzündən Hacı Xəlil Xan qətlə yetirildi. Hindistandakı ingilis hökuməti İranla dostluq əlaqələrinin pozulmasını, İrandan aldığı konsessiyaların (*Beynəlxalq konsessiya*) əldən çıxmasını heç bir vəchlə istəmirdi. Bu səbəbdən dərhal üzrxahlıq etdi və qətlə yetirilmiş səfirin qanbahası olaraq Fətəli şaha xeyli məbləğdə pul ödədi.

Fransanın Misirə çox uğursuz hərbi yürüşünün sona çatması, I Pavelin qətlə yetirilməsiylə Hindistana hücum planının pozulması və hər şeydən öncə, İngiltərə ilə Fransa arasında 02.III.1802 il *Amyen sülh müqaviləsinin* bağlanması İranla ittifaq yaradılması məsələsini gündəlikdən çıxardı.

**İRAN - İNGİLTƏRƏ MÜQAVİLƏSİ** (1890). M.-də İran Bəlucistanı ilə müstəqil Kəlat dövləti arasında sərhəd xəttinin müəyyənləşdirilməsi barədə İngiltərə ilə İran hökumətləri arasında razılıq əldə olunmuşdur.

**İRAN - RUSİYA MƏXFİ MÜQAVİLƏSİ** (1854). 28.IX. Hər iki dövlətin səlahiyyətli nümayəndələri tərəfindən imzalanıb. M.-də İran dövləti Rusiya dövlətinin düşmənlərinə hər hansı maddi və canlı qüvvə ilə kömək göstərməmək (Osmanlı dövləti və onun müttəfiqləri ilə aparılan *müharibə* müddətində), Rusiyanın sərhəd bölgələrinə zərər vurmaq üçün öz ərazisindən qoşunlarının quru və dəniz vasitəsilə keçmələrinə, bütövlükdə Azərbaycandan və Gorusdan keçirməklə osmanlı əsgərləri üçün azuqə daşınmasına yol verməmək barədə təəhhüd götürürdü (maddə 4). M. bundan əvvəl İranla Rusiya arasında bağlanmış saziş və müqavilələrdə (*Beynəlxalq müqavilələrdə*) hər hansı dəyişiklik aparılmasını nəzərdə tutmurdu.

**İRAN-RUSİYA MÜQAVİLƏSİ** (1890). Dəmir yolu çəkilməsinə dair İranın baş naziri ilə Rusiyanın səlahiyyətli *səfiri* arasında imzalanıb. Müqavilədə (*Beynəlxalq müqavilə*) nəzərdə tutulurdu ki, İran dövləti bu sənədi imzaladığı tarixdən 10 il müddətinədək heç bir şirkətə, yaxud fiziki şəxsə öz ərazisində dəmiryolu çəkməyə icazə və ya imtiyaz verməyəcəkdir.

10 illik müddət başa çatdıqdan sonra tərəflər arasında danışıqlara yenidən başlanılacaq və bu müqavilə təxirə salınmadan yenidən qüvvəyə minəcəkdir.

Dəmir yolu çəkilməsinə dair müqavilə buxarla işləyən və ya digər yanacaqla hərəkətə gətirilən maşınların tətbiqini nəzərdə tuturdu. M.-yə əsasən at qoşulmuş tramvaylar (konkalar) şəhərlərdə və onlara bitişik şosse yollarında işləyə bilərdi. Dəmiryolunun Tehranla, İran şahının yay iqamətgahlarının yerləşdiyi Şimiran arasında salınması nəzərdə tutulurdu.

**İRAN - TÜRKİYƏ MÜAHİDƏLƏRİ.** 1) 1823 il birinci Ərzurum müqaviləsi (*Beynəlxalq müqavilə*). Osmanlı Türkiyəsi ilə İran arasında bağlanmışdır. Yeddi fəsildən ibarət bu müqavilə İranın *müharibə* gedişində osmanlı Türkiyəsindən almış olduğu ərazilərin qaytarılması haqqındadır. M-də Kürdüstana müdaxilə etməmək, sərhədyanı tayfa və qəbilələrin işlərinə qarışmamaq, rüsum ödəncləri, mübahisəli məsələlərin həlli qaydaları barədə hər iki tərəf müvafiq təəhhüdlər götürürdülər. Osmanlı tərəfi İslamın müqəddəs yerlərinə ziyarət üçün gedən iranlı zəvvarlar və hacılar üçün gediş və qayıdış zamanı lazımi şərait yaratmağı, onlardan rüsum tutmamağı öhdəyə götürürdü. İran tərəfi də Türkiyənin iş adamları və tacirləri barəsində gömrük sadələşdirmələri tətbiq etməyi vəd edirdilər. M.-də, həmçinin, hər iki tərəfdən *səfirlərin* akkreditə olunması (*Akkreditə etmək*) qaydaları, müharibə zamanı digər tərəfə keçmiş fərarilərə dəstək verilməməsi və onların qaytarılması öz əksini tapmışdır.

2) 1847 il ikinci Ərzurum müqaviləsi. Məhəmməd Şah ilə Sultan Əbdül Məcid arasında İranın səlahiyyətli nümayəndəsi Mirzə Tağı xanın və osmanlı nümayəndəsi Ənvər əfəndinin *vasitəçiliyi* ilə bağlanıb.

Doqquz fəsildən ibarət bu M-də qarşılıqlı maliyyə iddialarından əl çəkilməsi, hər iki dövlətin bir-birinə bəzi əraziləri qaytarması, Süleymaniyyə və Məhmərə barəsində təəhhüdlər, sərhədlərin (*Dövlət sərhədləri*) müəyyənləşdirilməsi üzrə komissiyaların yaradılması, ticarət mallarına gömrük rüsumlarının qoyulması, osmanlı tabeliyindəki ölkələrdə iranlı zəvvar və təbəələrə (*Təbəəlik*) münasibət qaydaları, konsulluqların (*Konsul idarələri*) hüquq və imtiyazları, sərhədyanı tayfa və qəbilələrin statusu, qarət, oğurluq və təcavüz hallarının aradan qaldırılması məsələləri əks olunmuşdur.

3) 1869 il müqaviləsi. İki dövlət arasında mövcud sərhədin saxlanmasına dair – İran səfiri Hacı Mirzə Hüseynxan ilə Osmanlı dövlətinin xarici işlər naziri Əmin Alı paşa arasında bağlanıb. M-də hər iki tərəfin İranla Türkiyə arasında mövcud sərhədlərin olduğu kimi qalmasına, asayiş və təhlükəsizliyin təmin olunmasına çalışacaqları bildirilir, bundan əvvəl müəyyən olunmuş sərhəd prinsiplərinə əməl olunacağı, onların ziddinə hər hansı hərəkətlərə yol verilməyəcəyi barədə müvafiq təəhhüdlər götürülürdü. Sərhədyanı bölgələrdə hər iki tərəfdən hər hansı bir mübahisə və münaqişə baş verdikdə, onların yerli səlahiyyətli nümayəndələr arasında danışıqlar yolu ilə həll ediləcəyi və heç bir sərhəd dəyişikliyinə yol verilməyəcəyi qeyd edilirdi. Qəti qərara gəlinmədiyi təqdirdə, məsələnin hər iki dövlətin mərkəzi orqanlarına çatdırılması və çıxarılacaq qərarın hər iki tərəfin sərhəd bölgələrinin başçıları tərəfindən mütləq icra olunması nəzərdə tutulurdu. Sərhədlərin mövcud vəziyyətinin dördlüyün: İran – İngiltərə - Rusiya-Türkiyə müştərək komissiyasının çıxaracağı qərarın qüvvəyə minəcəyi günədək saxlanması nəzərdə tutulurdu.

İngiltərə ilə Rusiya bu M.-də vasitəçi rolunu oynayırdılar. Onlar iki ölkə arasında münasibətlərin nizama salınmasına özlərinin dövlətçilik maraqları baxımından yanaşırdılar.

4) 1913 il protokolu. Türkiyə ilə İran arasında sərhədlərin müəyyənləşməsinə dair İstanbulda imzalanıb. İranla Türkiyənin şimal, cənub və qərb istiqamətində sərhəd hüdudlarının müəyyənləşdirilməsində Rusiya, İngiltərə, İran və Türkiyə təmsilçilərindən təşkil olunmuş xüsusi müştərək komissiyanın *konsensus* əsasında çıxaracağı qərarlar əsas götürülmüşdü.

**İRAN - TÜRKİYƏ MÜQAVİLƏSİ** (1926). Dostluq və təhlükəsizliyə dair müqavilədir (*Beynəlxalq müqavilə*); 22.IV. 5 il müddətinə Tehranda imzalanıb.

Tərəflər müqavilənin müddəalarına əsasən, qarşılıqlı surətdə aşağıdakı öhdəlikləri götürürdülər:

- bir-birinə qarşı təcavüzkar hərəkətlərə yol verməmək;
- onlardan hər hansı birinə qarşı yönələn siyasi, iqtisadi və ya maliyyə sazişlərinə qoşulmamaq;
- M.-ni imzalamış müqabil dövlətə qarşı üçüncü dövlət tərəfindən hərbi müdaxilə baş verdikdə, siyasi və hərbi bitərəfliyi qoruyub saxlamaq və öz ərazisindən həmin dövlətə qarşı istifadə edilməsinə yol verməmək;
- M.-ni imzalamış müqabil dövlətə qarşı düşmənçilik mövqeyində duran təşkilatların və ya qrupların fəaliyyətinə öz ərazisində imkan yaratmamaq və sərhədyanı tayfaların düşmənçilik fəaliyyətinə qarşı müvafiq tədbirlər görmək.

M.-nin imzalanmasına baxmayaraq, İran-Türkiyə münasibətləri sonrakı illərdə sərhəd münaqişələri zəminində

dəfələrlə kəskinləşmişdi. 1932 ildə İranla Türkiyə arasında sərhəd mübahisələrinin tənzimlənməsi yoluna düşdü və bunun ardınca 1926 il M.-si daha 5 il müddətə uzadıldı. Bu isə öz növbəsində 1937 il Sədabad *paktının* imzalanmasına zəmin yaratdı.

**İRQÇİLİK.** İstismarçı cəmiyyətin ideologiyası, siyasəti və təcrübəsi. Onun əsasını bu və ya digər irqə mənsub olan insanların fiziki və ruhi cəhətdən qeyri-bərabər dəyərliliyi, yaxud müstəsnalığı barədə elmə zidd mürtəce konsepsiyalar təşkil edir.

İrqçilik, hansı formada olursa-olsun, insan hüquqlarının müdafiəsinə dair bir sıra sənədlərdə, o cümlədən *BMT Nizamnaməsində* təsbit edilən *beynəlxalq hüququn* hamılıqla tanınmış prinsip və normalarına ziddir. İ-in və irqi ayrı-seçkiliyin müxtəlif təzahürləri bir çox ölkələrdə səciyyəvi hal olub. Hətta, CAR-da İ. rəsmi dövlət siyasəti səviyyəsinə çatdırılmışdı (*Aparteid*).

Müstəmləkə zülmündən azad olmuş ölkələrin səyləri sayəsində *BMT* çərçivəsində İ.-i pisləyən və onun aradan qaldırılmasını nəzərdə tutan mühüm sənədlər, o cümlədən 1963 il *İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvinə dair Bəyannaməsi (Bəyannamə)*, 1966 il *İrqi ayrı-seçkiliyin bütün formalarda ləğvinə dair Beynəlxalq Konvensiyası, (Beynəlxalq Konvensiya)*, Aparteid cinayətlərinə son qoymaq və onlara görə cəza verməyə dair 1973 il Konvensiyası qəbul olunmuşdur. *BMT Baş Məclisinin* 10.XI.1975 il, 3379 saylı *Qətnaməsində sionizm* İ.-in və irqi ayrı-seçkiliyin xüsusi forması kimi səciyyələndirilmişdir.

BMT BM XXI sessiyasının qərarı ilə 21 mart – irqi ayrı-seçkiliyin ləğvi uğrunda Beynəlxalq Mübarizə günü kimi qeyd edilir. 1973-1981 illərdə İ-yə və irqi ayrı-seçkiliyə qarşı ilk mübarizə Onilliyi keçirilmişdir. 1983 il dekabrın 10-dan isə sonrakı Onilliklər qeyd olunub.

**İRQƏ VƏ İRQİ CƏHALƏTƏ DAİR 1978 İL BƏYANNAMƏSİ.** *YUNESKO* çərçivəsində işlənib hazırlanmış və 1978 ildə bu təşkilatın XX Baş konfransında (*Beynəlxalq konfranslar*) qəbul olunmuşdu.

B. ayrı-ayrı irqə, yaxud etnik qruplara üstünlük verən və ya onları qeyri-kamil sayan irqçilik nəzəriyyələrini elmi cəhətdən əsassız sayıb, onları mənəvi və etik prinsiplərə zidd görüşlər kimi ifşa edir. Bu sənəd dövlətləri irqi ayrı-seçkiliklə (*İrqçilik*) – onun bütün təzahür formalarında – mümkün olan bütün vasitələrlə mübarizə aparmağa, xüsusən irqçilik əleyhinə biliklərin yayılması, irqi cəhalətin kökünün kəsilməsi məqsədilə təhsil, mədəniyyət və informasiya sahələrində lazımi tədbirlər görməyə çağırır.

**İRQİ AYRI-SEÇKİLİYİN BÜTÜN FORMALARDA LƏĞVİNƏ DAİR BEYNƏLXALQ KONVENSİYA** (1966). *BMT Baş Məclisinin* 1954 il XX sessiyasında qəbul olunub; 04.I.1969 ildən qüvvədədir.

K. irqi ayrı-seçkiliyin bütün formalarda ləğvinə dair *BMT*-nin 1963 il *Qətnaməsinin* müddəalarını inkişaf etdirərək, irqi ayrı-seçkiliyi (*İrqçilik*) irqə, dərinin rənginə, cinsə, milli, yaxud etnik mənsubiyyətə fərq qoyulmasına əsaslanan məhdudiyyət, yaxud üstünlük cəhdi kimi səciyyələndirir. Bu məhdudiyyət və üstünlük siyasi, iqtisadi, sosial, mədəni və ictimai həyatın istənilən başqa sahəsində insan hüquqlarına qeyri-bərabər münasibətə əsaslanır.





K.-ya müvafiq olaraq, iştirakçı dövlətlərin qanunverici, məhkəmə, inzibati, yaxud digər tədbirlərin qəbuluna dair məruzələrini nəzərdən keçirməkdən ötrü 1969 ildə İrqi ayrı-seçkiliyin ləğvi üzrə Komitə yaradılmışdır.

**İRQİ AYRI-SEÇKİLİYİN BÜTÜN FORMALARININ LƏĞVİNƏ DAİR BƏYANNAMƏ** (1963). *BMT Baş Məclisi* tərəfindən 20.XI qəbul edilib. B.-də irqinə, dərisinin rənginə, yaxud etnik mənşəyinə görə ayrı-seçkilik (*İrqçilik*) təkcə insanın ləyaqət və şərəfinə qəsd, *BMT Nizamnaməsi* prinsiplərindən imtina və insan hüquqlarının pozulması kimi deyil, həm də xalqlar arasında dostluq münasibətlərini və əməkdaşlığı, sülhü və *beynəlxalq təhlükəsizliyi* təhlükə altına qoya bilən hal kimi pislənilir. İrqçiliyə təhlükəli beynəlxalq problem kimi baxılır, onun həll edilməsi üçün dövlətdaxili tədbirlərlə yanaşı, həm də beynəlxalq xarakterli, o cümlədən *BMT* və digər *beynəlxalq təşkilatların* xətti ilə tədbirlər görülməsi zəruri sayılır. B.-nin bir sıra müddəalarından göründüyü kimi, müstəmləkə qalıqlarının məhv edilməsi daha təsirli tədbirlər görülməsini tələb edir. Odur ki, dövlətlərin «Müstəmləkə ölkələrinə və xalqlara müstəqilik verilməsinə dair 1960 il *Bəyannaməsinin*» müddəalarına riayət etmələri zəruridir.

B.-nin müddəaları iştirakçı dövlətlər üçün hüquqi cəhətdən icbari xarakter daşıyan 1966 il *«İrqi ayrı-seçkiliyin bütün formalarda ləğvinə dair Beynəlxalq Konvensiyasında» (Beynəlxalq konvensiya)* inkişaf etdirilmiş və dəqiqləşdirilmişdir.

**İRQİ AYRI-SEÇKİLİYİN LƏĞVİ ÜZRƏ KOMİTƏ** (1969). 1966 il *İrqi ayrı-seçkiliyin bütün formalarda ləğvinə dair Beynəlxalq konvensiyaya (Beynəlxalq Konvensiya)* uyğun olaraq yaradılıb. K. sözügedən konvensiyanın iştirakçısı olan dövlətlərin «müxtəlif formalı sivilizasiyaların, habelə başlıca hüquqi sistemlərin ədalətli coğrafi bölgüsü və təmsilçiliyi» prinsipi əsasında öz vətəndaşları arasından 4 il müddətinə seçdikləri 18 ekspertdən ibarətdir. Komitənin üzvləri konvensiya iştirakçısı olan dövlətlərin nümayəndələrinin *BMT* mərkəzi təşkilatlarından birində çağırılan iclaslarda seçilirlər.

Konvensiya iştirakçısı olan dövlətlər konvensiyanın müddəalarının həyata keçirilməsinə kömək edən qanunvericilik, məhkəmə, inzibati və ya digər tədbirlər barədə məruzələrini K.-də baxılmaq üçün *BMT-nin Baş katibinə* təqdim edirlər. K. hər il öz işi barədə BMT baş katibliyinə hesabat və müvafiq tövsiyələr verir.

**İSHAQ** (doğum və ölüm ili məlum deyil). VIII.1472 ildə Venetsiyaya *Uzun Həsənin elçisi* kimi gələrək oranın rəsmi dairələrilə məxfi və mühüm danışıqlar aparmışdı. Ağqoyunlu hökmdarının məktubunda İshaqın böyük «doktor olduğu, çoxlu dil bildiyi, etibarlı şəxs olduğu» xüsusilə nəzərə çatdırılır.

**İSHAQ XAN QULAM** (1915). Peşavərdəki İslam kollecini və Pəncab universitetini bitirib. 1940 ildən dövləti xidmətdədir. 1947-1961 illərdə şimal-qərb sərhəd əyalətlərində hökumət və digər inzibati orqanlarda müxtəlif vəzifələr tutub. 1961-1966 illərdə su və enerji ehtiyatlarının inkişafı idarəsinin direktoru, 1966-1970 illərdə Nazirlər Kabinetinin maliyyə məsələləri üzrə katibi, 1971-1975 illərdə Pakistan Dövlət Bankının direktoru. 1978-1985 illərdə Federal hökumətdə müxtəlif nazir

postları və digər dövlət vəzifələrində çalışıb. 1985 ildən senatın sədri, 17.VIII.1988 ildən Pakistan *prezidentinin* vəzifələrini yerinə yetirib (Prezident M.Ziya-ül-Həqqin təyyarə qəzasında həlak olmasından sonra). XII.1988 ildə Pakistan İslam Respublikasının prezidenti seçilmişdi.

**İSLAM KONFRANSI TƏŞKİLATI** (İKT). Avropa dövlətlərinin müstəmləkəçi siyasətinə qarşı mübarizə aparmaq islam dünyasının birliyini zəruri tələb kimi irəli sürmüşdü. 1937 ildə Türkiyə, İraq, İran və Əfqanıstanın iştirakı ilə Səədabad paktı yaradıldı. Lakin bu pakt öz ətrafına bütün müsəlman ölkələrini toplaya bilmədi. *İkinci dünya müharibəsindən* sonrakı dövr ərzində *beynəlxalq münasibətlərdə soyuq müharibənin* doğurduğu «bloklaşma siyasəti» islam dünyasından da yan keçmədi. 1955 ildə İran, Türkiyə, Pakistan və İraqın iştirakı ilə «Bağdad *paktı*» (1958 ildən *SENTO*) adlı hərbi-siyasi birlik meydana gəldi. Pakt Qərbin mənafelərinə xidmət edirdi. Həmin istiqamətdə növbəti addım 1964 ildə Türkiyə, İran və Pakistanın iştirakı ilə «İnkişaf naminə regional təşkilat»ın yaradılması oldu. 1950 illərin ortalarında Qərb *diplomatiyası* Yaxın və Orta Şərqdə kommunizmin yayılmasının qarşısını almaq məqsədilə vahid islam təşkilatının yaradılması ideyası ilə çıxış etdi. 1965 ildə Səudiyyə Ərəbistanının sabiq kralı Feysəl müsəlman dövlətlərini vahid təşkilatda birləşməyə çağırdı.

*Hökumətlərarası beynəlxalq təşkilat* olan İslam Konfransı Təşkilatının yaradılmasına əsasən iki hadisə - 1967 ildə növbəti Ərəb-İsrail *müharibəsində* ərəb dövlətlərinin ciddi məğlubiyyətə uğramaları və 21.VIII.1969 ildə müsəlmanların ən müqəddəs ibadətgahı Əl-Əqsa məscidinin partladılması səbəb oldu.

İKT-nin təsisilə bağlı növbəti addım VIII.1969 ildə 14 müsəlman ölkəsinin xarici işlər nazirlərinin Qahirə yığıncağında atıldı və orada müsəlman dövlətlərinin Zirvə toplantısını çağırmaq barədə qərar qəbul edildi. 25 müsəlman ölkəsinin dövlət və hökumət başçılarının (*Dövlət başçısı; Hökumət başçısı*) ilk konfransı IX.1969 ildə Mərakeşin paytaxtı Rabatda çağırıldı və İslam Konfransı Təşkilatının əsası qoyuldu. Birinci konfransda (*Beynəlxalq konfransda*) qəbul olunan bəyanatda «islam ölkələri arasında iqtisadi, siyasi və mənəvi birliyi təmin edən əlaqələrin möhkəmləndirilməsi, müsəlman xalqlarının azadlığının və ümumi mədəni irsinin qorunması zəruriyyəti» vurğulandı. Təşkilatın nizamnaməsi III.1972 ildə Səudiyyə Ərəbistanının Ciddə şəhərində xarici işlər nazirlərinin növbəti konfransında qəbul edildi. *Preambuladan* və 14 maddədən ibarət bu sənəddə təşkilatın məqsəd və vəzifələri, ümumi prinsipləri, struktur və fəaliyyət formaları əks olunub. İKT dini əsaslara söykənən geniş səlahiyyətli *beynəlxalq təşkilatdır.*

İKT-nin məqsəd və prinsipləri *beynəlxalq hüququn, BMT Nizamnaməsinin* və *Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Yekun aktının (Yekun akti)* əsas məqsəd və prinsiplərinə tamamilə uyğundur.

İKT Nizamnaməsinin 3-cü maddəsinə uyğun olaraq, bu təşkilatın fəaliyyət strukturu yaradılmışdır. Struktura dövlət başçılarının və hökumət başçılarının sammiti, xarici işlər nazirlərinin konfransı, baş katiblik və onun tabeliyindəki idarələr daxildir.

Təşkilatın ali orqanı - dövlət və hökumət başçıları səviyyəsində çağırılan konfransdır. Konfrans 3 ildə bir dəfə və fövqəladə hallarda növbədənkənar çağırılır. Təəssüf ki, bu qayda bəzən pozulur. I konfrans 1969 ildə Rabatda (Mərakeş), II konfrans 1974 ildə Lahorda (Pakistan), III konfrans 1981 ildə Taif və Məkkədə (Səudiyyə Ərəbistanı), IV konfrans 1984 ildə Kasablankada (Mərakeş), V konfrans 1987 ildə Küveytdə, VI konfrans 1991 ildə Dakarda (Seneqal), VII konfrans 1994 ildə Kasablankada, VIII konfrans 1997 ildə Tehranda (İran) keçirilmişdir. 23.III. 1997 ildə İslamabadda (Pakistan) dövlət və hökumət başçılarının növbədənkənar müşavirəsi keçirilmişdi. Zirvə toplantısında qərar və *qətnamələr konsensus* əsasında qəbul edilir. İKT 55 islam ölkəsini özündə birləşdirir.

İKT nizamnaməsinin 5-ci maddəsinin I hissəsinin «A» bəndinə əsasən, xarici işlər nazirlərinin ildə bir dəfə və istənilən vaxt növbədənkənar konfransı da çağırıla bilər.

Nizamnamənin 6-cı maddəsinə uyğun olaraq, təşkilatın baş katibi 4 il müddətinə yalnız bir dəfə seçilir və cari işlərlə məşğul olan katibliyə rəhbərlik edir. Azərbaycan Respublikası 1991 ildən İKT-nin üzvüdür. İKT Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyini pisləyən Qətnamə qəbul etmiş *BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ probleminə* dair 822, 853, 874 və 884 saylı qətnamələrinin yerinə yetirilməsini Ermənistandan tələb etmiş, erməni işğalçı qoşunlarının Azərbaycan ərazilərindən dərhal çıxarılmasını zəruri hesab etmişdi. İKT-nin Doxada (Qatar) 12-14.XI.2000 ildəki IX zirvə görüşündə Azərbaycana dair daha bir mühüm sənəd qəbul edilmişdi. «Ermənistan Respublikasının təcavüzü nəticəsində işğal olunmuş Azəbaycanın ərazilərində tarixi islam və digər mədəniyyət abidələrinin dağıdılması haqqında»kı qətnaməyə əsasən Ermənistan Azərbaycan mədəni irsinə vurduğu maddi və mənəvi zərərə görə Azərbaycana kompensasiya ödəməlidir.

İKT nəinki təkcə Yaxın və Orta Şərqdə, həm də dünya ictimai-siyasi həyatında mühüm rol oynayan fəal beynəlxalq təşkilatdır. İKT üzvü olan dövlətlərin II.2002 ildə Türkiyədə (İstanbul) Avropa Birliyi (*Avropa Birlikləri*) ölkələri ilə birgə keçirdikləri 11.IX.2001 ildə Nyu-York və Vaşinqtondakı misli görünməmiş terror aktlarından (*Beynəlxalq terrorizm*) sonra beynəlxalq təşkilatların birgə fəaliyyətinin zəruriliyini göstərdi.

Ərəb, ingilis və fransız dilləri konfransın rəsmi dilləridir.

1975 ildə İKT *BMT* yanında müşahidəçi (*Müşahidəçilər*) statusu almışdır. Baş məclisin 36-cı sessiyasında «BMT ilə İKT arasında əməkdaşlıq haqqında» qətnamə qəbul edilmişdir.

**İSMAYIL CƏM** (1940). Türkiyənin siyasi və elm xadimi, *diplomat.*

1963 ildə jurnalist kimi əmək fəaliyyətinə başlamış, bir sıra qəzet və jurnallarda nəşriyyat müdiri olmuşdu; 1971-1974 illərdə Türkiyə Mətbuat İşçiləri Həmkarlar Təşkilatının İstanbul şəhər şöbəsinə rəhbərlik etmişdi. 1987, 1991 və 1995 illərdə Millət Məclisinə deputat seçilmişdi; 1987-1996 illərdə *Avropa Parlamenti* və Qərbi Avropa Birliyinə üzv olmuş, 1989-1991 və 1993-1995 illərdə Avropa Parlamentində Sosialist qrupun sədri seçilmişdir; 1996 ildə Avropa Parlamentində Qərbi Avropa Birliyindəki və Türkiyə nümayəndə heyətinin başçısı seçilmişdi; 1995 ildə mədəniyyət naziri, 1997 ildə xarici işlər naziri olmuşdur. 1999 ildə

B.Ecevitin (*Bülent Ecevit*) baş nazir olduğu *koalisiyalı* hökumətdə xarici işlər naziri vəzifəsini tutmuşdu.

**İSMAYIL ƏFƏNDİ** (1740). Osmanlı rəisülküttablarından (xarici işlər naziri) biri; 1730-1736 illərdə reisülküttab təin olunmuşdu; 1736 ildə Nadir şahın İstanbula göndərdiyi İran nümayəndəsi Əbdülbaki Xanın rəhbərlik etdiyi *elçilər* heyətini qarşılayaraq, ilkin danışıqlar aparmış və ikitərəfli görüşlərin uğurla nəticələnməsini təmin etmişdi. Bir sıra yüksək dövlət vəzifələri tutan İ.Ə. 1738 ildə Həcc ziyarətinə getmiş, Məkkədə vəfat etmişdir.

**İSMAYILOV İSMAYIL MƏŞƏDİ CƏFƏR OĞLU** (1887-1938). Azərbaycan sovet *diplomatı*, müəllim, jurnalist.

1919 ildə Azərbaycan Dövlət Universitetinə daxil olub, ancaq oranı bitirə bilməyib. 1920 ildən Gürcüstan menşevik hökumətində Azərbaycan *diplomatik missiyasının* katibi işləyib. 02.1921 ildə Gürcüstan hökuməti missiya rəhbərliyini həbs edərkən o, Bakıya gələ bilib. 1921 ildə N.Nərimanovun (*Nərimanov Nəriman Kərbəlayi Nəcəf oğlu*) təklifi və İ.Əbilovun təqdimatıyla Azərbaycan SSR-in Türkiyədəki səlahiyyətli nümayəndəliyində (diplomatik missiyasında) səlahiyyətli nümayəndənin (*səfirin*) şəxsi katibi, ZSFSR yarandıqdan sonra onun Türkiyədəki Səlahiyyətli Nümayəndəliyinin 1-ci katibi işləyib.

O, səfir İbrahim Əbilovun (*Əbilov İbrahim Məhərrəm oğlu*) Atatürklə (*Atatürk Mustafa Kamal*) bütün rəsmi və qeyri-rəsmi (gizli) görüşlərinin hamısında iştirak edib. Ankarada olarkən RSFSR-in Türkiyədəki səlahiyyətli nümayəndəsi S.İ.Aralovla da yaxın münasibətlər qurub. Aralovun «Sovet diplomatının xatirələri» kitabındakı bir fotoda (s. 68) 1922 ildə türk-yunan cəbhəsindən qayıdan Atatürkün yanında Aralovla yanaşı, Azərbaycan diplomatlarından İbrahim Əbilov (*Əbilov İbrahim Məhərrəm oğlu*), İ.İ.M.C. və hərbi *attaşe* Əsgər Topçuyev də əks olunub. Atatürk həmin fotonun arxasında bu sözləri yazaraq İ.İ.M.C.o-na bağışlayıb: «Sevgili arkadaşım İsmayıl bəyə. Qazi Mustafa Kamal. 22 dekabr 1922. Ankara».

1923 ildə atasının ağır xəstəliyi ilə bağlı Tiflisə, ailəsinin yanına qayıdan İ.İ.M.C.o. ÜİK(b)P Zaqafqaziya Diyar Komitəsinin (ZDK) orqanı «Yeni fikir» qəzetinə şöbə müdiri təyin edilib. Həmin il Moskva Dövlət Universitetinin ictimai elmlər fakültəsinə girib və 1926-da oranı bitirib.

Bakıya qayıdandan sonra müxtəlif partiya vəzifələrində çalışıb. 1929-da ASSR Dövlət Plan Komitəsinin sədr müavini, sədri, 1930-da ÜİK(b)P Zaqafqaziya Diyar Komitəsinin şöbə müdiri təyin edilib. Moskvaya göndərilərək 1931-35 illərdə Qırmızı Professorlar İnstitutunda oxuyub. İnstitutu bitirib Bakıya döndükdən sonra «Kommunist» qəzetinin məsul redaktoru, eyni zamanda Azərbaycan Şura Ensiklopediyasının baş redaktoru, Leninin əsərlərinin tərcüməsi üzrə redaksiya heyətinin üzvü təyin edilib.

X.1935 ildən AKP MK-nın məktəb və elm şöbəsinin, 1936 ildə kənd təsərrüfatı şöbəsinin müdiri işləyib. 1937 ildə eyni zamanda Azərbaycan SSR Əkinçilik Komissarı təyin edilib.

VII.1937 ildə qondarma ittihamlarla həbs edilərək 03.I.1938 ildə güllələnib.

**İSPANİYA-FRANSA SAZİŞİ VƏ KONVENSİYALARI.** 1) 1808 il sazişi. Burbonlar sülaləsinin İspaniya taxtından salınmasına dair, 05.V Bayonnda imzalanıb.

Danışıqlar gedişində I Napoleon (*Napoleon I Bonapart*) Madriddə antifransa üsyanı barədə xəbərdən istifadə edərək IV Karlın oğlu Ferdinandı atasının xeyrinə öz iddialarından əl çəkməyə, IV Karlı isə öz növbəsində, varisləri də nəzərdə tutulmaqla, Fransa imperatorunun xeyrinə İspaniya tacından imtina etməyə vadar etdi.

S.-ə görə, IV Karl İspaniya taxtacına olan bütün hüquqlarını Napoleona güzəştə gedirdi. Napoleon İspaniya krallığını onun sərhədləri hüdudunda (*Dövlət sərhədləri*) bütövlüyünü, kralın «müstəqilliyini» və katolik dinin şəriksiz hökmranlığını qorumağı öhdəyə götürürdü. S. Burbonlar sülaləsinin İspaniyada hakimiyyətini yenidən bərqərar edən 1814 il Paris sülh müqaviləsilə ləğv edildi.

2) 1904 və 1912 il konvensiyaları (*Beynəlxalq konvensiya*). Mərakeşə dair; 1880 il Madrid konvensiyası ilə müəyyən edilən Mərakeşin beynəlxalq-hüquqi vəziyyəti bu ölkədə tam ağalıq iddiasında olan nə Fransanı, nə də İspaniyanı təmin etmirdi. 03.X.1904 ildə Mərakeşin nüfuz dairələrinə bölünməsinə dair *Bəyannamə* və məxfi konvensiya imzalandı. Şimali Mərakeşin, Fess və Tiza istisna olunmaqla, bir hissəsi və cənub-qərbi Mərakeşin bir hissəsi İspaniyanın nüfuz dairəsinə qatıldı. Bundan əlavə, Fransa İspaniyanın Santa-Krus-de-Mar-Pekenya (İfni) koloniyasına iddialarını tanıdı. İspaniya inzibati-idarə islahatlarının aparılmasında Mərakeş hökumətinə «nəzarət etmək» hüququ əldə etdi. İspaniya hökuməti belə halda Fransanın razılığı olmadan öz zonasında 15 il heç bir tədbirə əl atmamaq barədə öhdəlik götürdü. İspaniya öz zonasının hər hansı hissəsini istənilən dövlətə (nəzərdə Almaniya tutulurdu) güzəştə getməmək və müvəqqəti mülkiyyətə verməmək barədə təəhhüd götürdü.

01.IX.1905 ildə konvensiya silah qaçaqmalçılığına sədd çəkilməsinə dair məxfi sazişlə təkmilləşdirildi. Bağlanmış sazişlərə baxmayaraq Fransa hökuməti İspaniyaı Mərakeşdən sıxışdırıb çıxarmağa cəhd göstərirdi. 27.XI.1912 ildə Mərakeşin bölünməsinə dair konvensiya imzalandı və ona əsasən, cənub-qərbi Mərakeşdə 1904 il konvensiyası ilə İspaniyaya ayrılmış zonanın bir hissəsi Fransaya verildi. Nəticədə ispan Mərakeşinin ümumi sahəsi 28 min kv.km, fransız Mərakeşinin isə 572 min kv. km təşkil etdi.

Mərakeşin Fransa və İspaniya müstəmləkəsinə çevrilməsi ilə Afrikanın hələ *Birinci dünya müharibəsindən* əvvəl imperialist dövlətlər arasında bölünməsi başa çatdı.

**İSPANİYA-MƏRAKEŞ BƏYANNAMƏSİ** (1956). Madriddə 07.IV. imzalanıb. Tərəflər Mərakeşin bölünməsi və protektorat (*Qəyyumluq*) üsul-idarəsinin yaradılmasına dair 27.XI.1912 il konvesiyasının (*Beynəlxalq konvensiya*) qüvvədən düşdüyünü bəyan etdilər. İspaniya Mərakeşin müstə-qilliyini və onun *dövlət suverenliyini* ta-nıdı, ölkənin ərazi bütövlüyünə hörmət-edəcəyini öhdəyə götürdü

B.-nin müddəalarına əsaslanan Mərakeş hökuməti İspaniyadan İfni *anklavanı* və keçmiş ispan protektoratının cənub zonasını qaytarmağı tələb etdi. 01.IV.1958 il sazişinə görə, Mərakeş Tarfay əyalətini geri aldı. Həmçinin 04.I.1969 il sazişlə İfni ərazisi də 30.V.1969 ildə Mərakeşə qaytarıldı. Mərakeş ərazisindəki Seuta və Melilya

anklavları İspaniya *suverenliyi* altında qalmaqda davam edir.

**İSPANİYA-PORTUQALİYA MÜQAVİLƏLƏRİ** (XV-XVIII əsrlər). Müstəmləkə mülklərinin bölünməsinə dair; XV əsrin ortalarında Roma papasının silsilə fərmanları ilə Portuqaliyanın Afrikaya və Kanar adalarına hüquqları qanuniləşdirildi. XV əsrin 70-ci illərində İspaniya krallığının meydana gəlməsi ilə vəziyyət dəyişdi. 1479 il Alkasovas və 1480 il Toledo sazişlərinə görə, Portuqaliya Kanar adalarından əl çəkdi, İspaniya isə Azor adalarını, Madeyra adasını, Qvineyanı və Afrika sahillərində bundan sonra açıq olacağı qərarlaşdırılan bütün torpaqları Portuqaliya taxt-tacının mülkləri kimi tanıdı. 1493 ildə papa VI Aleksandr bütün Avropadankənar əraziləri meridian üzrə Yaşıl Burun adalarından yaxud Azor adalarından 555 km qərbə keçən *demarkasiya* xəttilə İspaniya və Portuqaliya arasında böldü. Bu xətdən qərbə tərəf yerləşən bütün torpaqlar İspaniyanın, xətdən şərqə tərəf olanlar isə Portuqaliyanın ixtiyarına keçirdi. Papanın qərarı Portuqaliya kralı II Juanın qəti etirazına səbəb oldu və 07.VI.1494 ildə Tordesilyas müqaviləsi (*Beynəlxalq müqavilə*) bağlandı. Bu müqavilə Yaşıl Burun adalarından 370 liq (2 min km-dən çox) qərbə tərəf yeni demarkasiya xətti müəyyən edirdi. Beləlkilə, Portuqaliya zonası 1500 km genişləndi, Atlantikanın böyük bir hissəsini və Braziliya çıxıntısını da özündə birləşdirdi. İspan zonasındakı dənizlər Portuqaliya gəmiləri üçün bağlı elan olundu. İspan gəmilərinin də Portuqaliya sularına daxil olmasına qadağa qoyuldu (birbaşa xətlə qərbə üzən gəmilər istisna olmaqla). Tordesilyas müqaviləsi Pireney dövlətlərinin müstəmləkə siyasətinin əsasını qoydu, «qapalı dəniz» (*Qapalı yaxud yarımqapalı dənizlər*) doktrinasının prinsiplərini və İspaniya ilə Portuqaliyanın bütün Avropadankənar dünyaya müstəsna hüquqlarını təsbit etdi. Başqa dövlətlərin təbəələrinə dənizlərarxası torpaqlara giriş qadağan olunurdu. M.-də göstərilən xətt Atlantikanı kəsib keçirdi, lakin o biri yarımkürədən görünmürdü, Uzaq Şərqdəki və Uzaq Qərbdəki dənizlər və torpaqlar avropalılara 200 il sonra məlum oldu.

Sakit okeanda İspaniya və Portuqaliyanın maraqlarının toqquşması Magellan ekspedisiyası dövründə (1519-1522) baş verdi. Çox kəskin diplomatik və hərbi mübarizədən sonra 1529 ildə bağlanan Saraqos müqaviləsi ilə Sakit okeanda İspaniya mülklərinin qərb sərhədi müəyyənləşdirildi. Bu sərhəd Moluk adalarından 17° Şərqdə keçirdi. İspaniya özünün Moluk adalarına olan bütün hüquqlarından Portuqaliyanın xeyrinə imtina etdi.

1581 ildən Portuqaliya İspaniya krallarının hakimiyyəti altına keçdi. Lakin 1640 ildə yenidən müstəqillik əldə etdi.

1680 ildə La-Platanın şimal sahili boyu yerləşən torpaqlar üstündə (Cənubi Amerikada) İspaniya-Portuqaliya münaqişəsi baş verdi. İspanlar Portuqaliya qoşunlarını Sakramento müstəmləkəsindən sıxışdırıb çıxardılar. 1861 ildə Lissabonda bağlanmış müqavilə ilə Yeni dünyada ispan-portuqal mülklərinin demarkasiyası üzrə qarışıq komissiya təyin edildi. lakin bu komissiya da demarkasiya hədlərini müəyyənləşdirə bilmədi. 18.VI.1701 il ikinci Lissabon müqaviləsi ilə Sakramento müstəmləkəsi Portuqaliyanın ixtiyarına keçdi. 1701-1714 illər *İspaniya varisliyi* üstündə gedən müharibədə portuqaliyalılar Sakramentodan çıxarıldılar. 1713 il Utrext sülh müqaviləsinə görə İspaniya Sakramentonu Portuqaliyaya qaytardı.

Hər iki dövlətin Cənubi Amerika materikində mülklərinin yeni sərhədləri 13.I.1750 ildə bağlanan Madrid müqaviləsilə müəyyənləşdirildi. Madrid müqaviləsi 1761 ildə Portuqaliyanın İngiltərə tərəfində Yeddiillik *müharibəyə* qoşulması ərəfəsində ləğv olundu. Sakramento müstəmləkəsi yenidən portuqaliyalılar tərəfindən ələ keçirildi və 1762 ildə Fontenblo sazişi və 1763 il Paris sülh müqaviləsilə İspaniya tərəfindən güzəşt edildi. Lakin 1777 ildə Madriddən gələn göstərişlərə əməl edən La-Platanın vitse-kralı Sevalos Sakramentonu ələ keçirdi. Portuqaliya 01.X.1777 ildə San-İldefons müqaviləsini bağlamağa məcbur oldu. M.-yə görə, İspaniya Yeddiillik müharibə dövründə Portuqaliyanın əldə etdiyi bütün əraziləri geri alır, bundan əvvəl bağlanmış sazişləri, o cümlədən Tordesilyas və Saraqos müqavilələri, habelə Utrext və Parisdə imzalanmış slüh sənədələri qüvvədən düşmüş hesab olunurdu. Beləliklə, Portuqaliya, Filippin, Marian adalarına və Sakrementoya iddialarından əl götürdü. M. Portuqaliya və İspaniyanın Cənubi Amerikadakı mülklərinin yeni sərhədlərini müəyyənləşdirdi. Bu sərhədlər Madrid müqaviləsində təsbit olunan demarkasiya hüdudlarından çox da fərqlənmirdi. Braziliya və İspaniyanın müstəmləkələri hüdudlarında törənən münaqişələr İspaniya müstəmləkələrinin müstəqillik uğrunda XIX əsrin əvvəllərində başlanan müharibəsinədək davam etdi.

**İSPAN VARİSLİYİ.** Varissiz İspaniya kralı II Karl Habsburq 1700 ildə öldükdən sonra ispan varisliyinin bölünməsi problemi dünya siyasətində ən mühüm yer tutdu. Məsələ Avropa hökmdarlarından hansının geniş ispan mülklərinə sahib olacağı idi. İspan varisliyinə iddiaçı olan Fransa kralı XIV Lüdovik hələ Karlın ölümündən əvvəl bu məsələyə dair İngiltərə və Niderlandla danışıqlara getmiş, onların dəstəyindən bəhrələnməyə və mümkün ola biləcək antifransız *koalisiyalarından* götürməyə cəhd göstərmişdi. 1698 ildə o, İngiltərə kralı III Vilhelm Oranski ilə İspaniya taxt-tacını üç iddiaçı; öz nəvəsi Hersoq Filipp Anjuyski, imperator Leopold Habsburqun oğlu ershersoq Karl və Kurfyurst Bavarskinin oğlu İosif Ferdinand arasında bölmək barədə saziş bağladı. II Karl İspaniyanın bölünməsinə mane olmağa cəhd göstərirdi və buna görə öz taxt-tacını yalnız Filipp Anjuyskiyə vəsiyyət etdi. II Karl öləndə XIV Lüdovik İngiltərə və Niderlandla bağladığı müqavilələrin (*Beynəlxalq müqavilə*) əksinə olaraq onun vəsiyyətinə əməl etdi, lakin bu halda həm də söz verdi ki, İspaniya Fransa ilə vahid krallıqda birləşməyəcəkdir. İmperator Leopold, III Vilhelm Oranski və demək olar bütün alman knyazları XIV Lüdovikə qarşı çıxdılar. 1701-1714 illərdə İspan varisliyi üstündə *müharibə* baş verdi və bu müharibə 1713 il Utrext sülh müqaviləsi və 1714 il Raştatt slüh müqaviləsilə başa çatdı.

**İSRAİLƏ QARŞI ƏRƏB BOYKOT BÜROSU.** *Ərəb Dövlətləri Cəmiyyətinin* (ƏDC) qərarı ilə 1946 ildə təsis edilib, qərargahı Qahirədə yerləşirdi. 1948 ildə İsrail dövləti yaradıldıqdan sonra Dəməşqdə mənzil-qərargaha və ƏDC üzvü ölkələrin hamısında filiallara malik olan Büroya çevrilmişdi. Büroya ƏDC Baş katibinə tabe olan, 1952 ildən isə cəmiyyətin Fələstin departamentinin sərəncamına keçən Ali komissar başçı-

lıq edir. İsraildə istehsal olunan bütün növdən olan mallara, habelə bu ölkənin hər cür servis xidmətinə qadağa tətbiq edilirdi. 1970-ci illərdə *boykotun* təsir dairəsinə İsrail ilə əməkdaşlıq edən bütün xarici şirkətlər və fərdi şəxslər (1975 ildə belələrini 1500 Amerika şirkəti və fərdi şəxslər təşkil edirdi) daxil edildi.

Büronun fəaliyyətinə bilavasitə rəhbərlik ƏDC Baş katibinin iqtisadi məsələlər üzrə köməkçisinə həvalə olunub.

**İSTANBUL İTTİFAQ MÜQAVİLƏSİ** (1854). 1853 ildə Türkiyə ilə Rusiya arasında başlanan Krım *müharibəsi* gedişində İngiltərə və Fransa Rusiyadan öz qoşunlarını Dunaydan çıxartmağı və müharibəni dayandırmağı tələb etdi. Rusiyanın rədd cavabından sonra 12.III.1854 ildə İngiltərə, Fransa və Türkiyə arasında Rusiyaya qarşı ittifaq müqaviləsi (*Beynəlxalq müqavilə*) imzalandı.

M.-yə əsasən İngiltərə və Fransa Krım müharibəsində (1853-1856) Türkiyəyə texnika və canlı qüvvə ilə və Türkiyənin ərazi bütövlüyünün saxlanmasına yardım etməklə Türkiyə tərəfdən Rusiyaya qarşı müharibəyə qoşulmalı idi.

**İSTANBUL KONFRANSI** (1876-1877). İstanbul (Tərsanə) konfransı (*Beynəlxalq konfranslar*) 1875-1876 illərdə Bosniya və Hersoqovinada, Bolqarıstanda, Serbiya və Çernoqoriyada (Qaradağ) başlanan antiosman üsyanlarının yatırılması zamanı Rusiyanın xristian əhalisinin hüquqlarının qorunması pərdəsi altında Avropa dövlətlərinə müraciəti və onların Türkiyəyə verdiyi *Memorandum* əsasında 23.XII.1876 ildən 20.I.1877 ilədək İstanbulda İngiltərə, Fransa, Almaniya, Avstriya-Macarıstan, İtaliya və Rusiyanın *səfirlərinin* iştirakı ilə çağırılmışdı.

Lakin 1876 ildə Türkiyədə bütün əhalinin bərabərliyini elan edən Konstitusiya qəbul edildikdən sonra Türkiyə hökuməti konfransın xristian bölgələrinə muxtariyyət verilməsi haqda qərarını rədd etdi və İstanbul konfransı iflasa uğradı.

**İSTANBUL SÜLH MÜQAVİLƏSİ** (1700). 1683 ildə Macarıstan uğrunda başlanan Avstriya-Türkiyə *müharibəsi* 1684 ildə Türkiyəyə qarşı Avropa dövlətlərinin hərbi *koalisiyasının* (Avstriya, Polşa, Venetsiya, Malta, «Məqəddəs İttifaq», 1686 ildə Rusiya da bu ittifaqa qoşuldu) yaranmasına səbəb oldu. Müqəddəs ittifaqın üzvləri ilə Türkiyə arasında 26.I.1699 ildə Karlovitsa sülhü bağlandı. Lakin Rusiya bu sülhə imza atmadı, I Pyotrun (*Pyotr I*) tələbi ilə müstəqil sülh danışıqlarına başlandı və 13.VI.1700 ildə İstanbul sülhünün bağlanması ilə nəticələndi. M. sülhə görə Azov Rusiyaya verilirdi. Krım xanının Rusiya ərazilərinə yürüşlərinin qarşısı alınmalı idi və Rusiya İstanbulda diplomatik *səfirlik* açmaq hüququ əldə etdi.

1879 il müqaviləsi. 1878 il *Berlin konqresindən (Beynəlxalq konqres)* sonra 08.II.1879 ildə Türkiyə ilə Rusiya arasında «Sülh və dostluq» haqqında müqavilə (*Beynəlxalq müqavilə*) imzalandı. M. *San-Stefano sülh müqaviləsinə* Berlin konqresində edilmiş dəyişikliklər təsdiq etdi. Yeni M.-yə görə Türkiyə 802,5 milyon frank məbləğində *təzminat* ödəməli və rus ticarəti haqqında əvvəlki öhdəlikləri bərpa etməli idi.

1913 müqaviləsi. İkinci Balkan müharibəsi (Bolqarıstana qarşı Serbiya, Çernoqoriya, Yunanıstan və Ruminiya) zamanı Türkiyə 1911-1912 illər I Balkan müharibəsində (Balkan müharibələri) itirdiyi əraziləri geri qaytardı və Ədirnəni Bolqarıstandan geri aldı. II Balkan müharibəsinin yekunu olaraq İstanbulda 29.IX.1913 ildə Bolqarıstanla Türkiyə arasında sülh müqaviləsi imzalandı. Müqaviləyə görə Şərqi Frakiya, Qırq-Kilsə, Lülə-Burqas və Ədirnə Türkiyəyə qaytarıldı.

**İSTİQLAL BƏYANNAMƏSİ (ABŞ).** (1776). 4.VII. İngiltərənin 12 Şimali Amerika müstəmləkəsi tərəfindən, İkinci kontinental *konqresin* qərarına əsasən qəbul edilmişdi. On üçüncü, Nyu-York müstəmləkəsi. İ.b.-yə sonradan qoşulmuşdur. İ.b.-nin müəllifi Tomas Cefersondur. İ.b.-nin imzalayan 13 müstəmləkə Böyük Britaniyadan ayrıldıqlarına, azad və müstəqil ştatlar kimi birləşərək Amerika Birləşmiş Ştatlarını yaratdıqlarını elan etdilər. İ.b.-də ilk dəfə olaraq insan hüququ azad cəmiyyətin məqsədi və əsası kimi təqdim edilir.

**İSTİNTAQ KOMİSSİYALARI VƏ RAZILAŞDIRMA KOMİSSİYALARI.** Beynəlxalq mübahisələri dinc yolla həll etmək məqsədilə dövlətlər tərəfindən yaradılan beynəlxalq orqanlar; bu orqanlardan beynəlxalq mübahisələri həll etməkdə dinc vasitə kimi istifadə olunması imkanları *BMT Nizamnaməsinin* 33 və 34-cü maddələrində ümumi şəkildə nəzərdə tutulmuşdur. İ.K.-nın vəzifəsi, bir qayda olaraq, mübahisənin faktiki tərəfini müəyyənləşdirməkdir. R.K.-nın funksiyaları isə təkcə mübahisənin faktiki tərəfini müəyyənləşdirməklə məhdudlaşmır, həm də onu həll etməyin şərtlərini işləyib hazırlamaqdan ibarətdir. Komissiyaların gəldikləri nəticələr, bir qayda olaraq, tövsiyə xarakteri daşıyır. Lakin elə *beynəlxalq müqavilələr* mövcuddur ki, onların iştirakçıları R.K.-ın rəyini tanımaq barədə razılığa gəlmişlər (məs.: Dunayda gəmiçilik rejiminə dair 1948 il konvensiyası) (*Beynəlxalq konvensiya*). Komissiyaların tərkibi mübahisə edən tərəflərdən hər birinin təyin etdiyi üzvlərdən, habelə onların birgə seçdikləri üzvlərdən təşkil olunur. Onların yaradılması, səlahiyyətləri və iş qaydaları dövlətlərin çoxtərəfli, yaxud ikitərəfli sazişləri ilə tənzimlənir. «Beynəlxalq toqquşmaların dinc yolla həllinə dair 1907 il Haaqa konfransı», «Beynəlxalq mübahisələrin dinc yolla həllinə dair 1928 il ümumi müahidə», «Beynəlxalq mübahisələrin dinc yolla həllinə dair 1957 il Avropa konvensiyası» və bir sıra digər sənədlər bu qəbildəndir.



**İŞIQ HƏSƏN ƏSƏT** (1916). Türkiyənin dövlət xadimi, *diplomat*. 1949 ildən diplomatik işdə olub. 1945-1949 illərdə Türkiyə Xarici İşlər Nazirliyinin (*Xarici İşlər İdarəsi*) Parisdəki Baş konsulluqda, 1949-1952 illərdə ticarət və iqtisadiyyat nazirliyində və daha sonra beynəlxalq iqtisadi münasibətlər nazirliyində işləyib. 1952-1954 illərdə *BMT*-nin Cenevrədəki Avropa şöbəsində Türkiyənin daimi nümayəndəsi olmuşdu. 1954-1957 illərdə Türkiyə XİN-in ticarət idarəsinin və ticarət sazişlərinin baş direktoru, 1957-1962 illərdə Türkiyə XİN-i baş katibinin iqtisadi məsələlər üzrə köməkçisi, 1962-1964 illərdə Türkiyənin Belçikada, 1966-1968 illərdə SSRİ-də *səfiri* olmuşdu. II-X.1965 ildə Türkiyənin xarici işlər naziri, 1965-1966 illərdə Türkiyə XİN-in baş müşaviri, 1968-1973 illərdə Fransada Türkiyənin səfiri, 1978-1979 illərdə

Türkiyənin hərbi naziri olmuşdu. 1979 ildə istefaya çıxıb.

**İŞLƏR MÜVƏKKİLİ**, İ.m. səfir ya diplomatik nümayəndə ölkəyə gələnə qədər onu əvəz edir, akkreditə olunduğu (*Akkreditə etmək*) ölkədə öz ölkəsini təmsil edərək, diplomatik nümayəndəliyə (*səfirlik, diplomatik misssiya*) rəhbərlik edir. 1961 il *Vyana konvensiyasına* (*Beynəlxalq konvensiya*) (14 maddə) müvafiq olaraq İ.m. xarici işlər naziri yanında akkreditə olunur. Ölkəyə gələn İ.m. öz xarici işlər nazirindən gətirdiyi məktubu yerləşdiyi ölkənin xarici işlər nazirinə təqdim edir. İ.m.-nin təyin edilməsi, bir qayda olaraq, müvəqqəti xarakter daşıyır. Bir ölkənin başqa ölkədəki *diplomatik nümayəndəliyinə* (səfirliyə, missiyaya) İ.m.-nin rəhbərlik etməsi diplomatik münasibətlərin ən yüksək forması olan səfirlə təmsilolunmadan fərqli olaraq, iki ölkə arasında *diplomatik əlaqələrin* tam normallaşdırılmadığına dəlalət edir.

**İTALİYA - FRANSA SAZİŞİ** (1912). 28.IX. Şimali Afrikada nüfuz dairələrinə dair, İtaliyanın *səfiri* T.Tittoni ilə Fransanın baş naziri R.Puankare arasında nota mübadiləsi formasında Parisdə bağlanıb. İtaliya 1911 ildə Türkiyəyə qarşı müharibəyə başladı və 1912 il Lozanna sülh müqaviləsinə əsasən onu Tripolitikaniya və Kirenaikani güzəştə getməyə məcbur etdi; bu ərazilər Liviya adı ilə İtaliya mülklərinə qatıldı. 1912 ildə Fransa Mərakeş üzərində protektorat (*Qəyyumluq*) yaratdı. 1902 il Barrera-Prinetti sazişindən 10 il keçdiyi yeni bir şəraitdə S. hər iki hökumətin belə bir qarşılıqlı niyyətini ifadə etdi ki, Fransanın Mərakeşdə, İtaliyanın isə Liviyada onlar üçün əlverişli görünən tədbirləri həyata keçirmələrinə maneə törətməsinlər. Tərəflər bu ərazilərdə bir-birinə *ən əlverişli rejim* şəraiti yaratmaq bar ədə razılığa gəldilər. 04.V.1913 ildə İspaniya da S.-ə qoşulmalı oldu.

**İTALİYA - HƏBƏŞİSTAN MÜQAVİLƏSİ** (1928). 10.VIII Əddis-Əbəbədə imzalanıb; Həbəşistanla İtaliya arasında «əbədi sülh və dostluq» yarandığın bəyan edirdi. Tərəflər bir-birinin müstəqilliyinə hörmətlə yanaşmaq və maraqlarını müdafiə etmək, ticarətin inkişafına nail olmaq, aralarında baş verə biləcək mübahisələri dinc yolla həll etmək barədə öhdəlik götürürdülər. M.-yə görə, Həbəşistanda yerli məhkəmə orqanları İtaliya vətəndaşlarını mühakimə edə bilməzdi. M. 20 il müddətinə nəzərdə tutulurdu.

İtaliyaya Həbəşistanda hərəkət sərbəstliyi verən 1935 il Roma pakt italyan faşistlərinə müqavilənin şərtlərini kobudcasına pozaraq və silahlı yolla Həbəşistanı işğal etmək imkanı verdi.

**İTALİYA - MALTA SAZİŞİ** (1980). 15.IX. Maltanın *bitərəfliyinə* təminat verilməsinə dair, eyni vaxtda Romada və Valettada iki paralel hökumət *Bəyannamələri* və Maltaya maliyyə, iqtisadi və texniki yardım göstərilməsinə dair birgə *protokol* şəklində imzalanıb. *Ratifikasiya* sənədləri 08.V.1981 ildə Romada mübadilə edilib.

Hərbi tikililəri icarəyə götürməyə dair 1972 il İngiltərə-Malta sazişinin müddəti 1979 ildə başa çatdıqdan sonra Malta hökuməti İtaliya, Fransa, Liviya və Əlcəzairlə danışıqları fəallaşdırdı və bununla da onların birlikdə adanın bitərəflik statusunun «təminatçıları» kimi çıxış etmələrinə və bu qismdə ona maliyyə yardımı göstərmələrinə cəhd etdi. Lakin Maltaya bu dörd dövlətin hamısı ilə saziş bağlamaq müyəssər olmadı. Malta ilə Liviya arasında 1980 ildə *kontinental şelfə* yeni həddhüdud qoyulmasında mübahisələr yarandığından Malta İtaliya ilə ikitərəfli saziş bağlamalı oldu. Malta bəyannaməsində deyilirdi ki, Malta bitərəf dövlətdir, qoşulmamaq siyasəti yeridir və hər hansı hərbi ittifaqda iştirakdan imtina edir. Malta adada xarici *hərbi bazalar* yaradılmasına yol verməmək, öz hərbi tikililərini xarici hərbi qüvvələrin istifadəsinə verməmək və öz ərazisinə (*Dövlətin ərazisi*) xarici hərbi heyət buraxmamaq barədə öhdəlik götürürdü.

İtaliya öz bəyannaməsində Maltanın *dövlət suverenliyinə*, bitərəfliyinə və ərazi bütövlüyünə hörmət etməyi, Maltanı hərbi ittifaqlara qoşulmağa və ya onlardan yardım almağa təhrik etməməyi və Maltanın *suverenliyinə*, bitərəfliyinə və təhlükəsizliyinə açıq və ya dolayısı ilə təhlükə törədə biləcək hər cür hərəkətlərdən çəkinmək barədə öhdəlik götürdü. *Bəyanatda* deyilirdi ki, Maltanın suverenliyi, bitərəfliyi, ərazi bütövlüyü pozulduqda və ya pozulmaq təhlükəsi yarandıqda İtaliya Malta hökumətinin xahişinə əsasən onunla və bu yöndə bəyanat vermiş digər Aralıq dənizi ölkələri ilə məşvərət keçirəcək, «hərbi yardım da nəzərdə tutulmaqla», lazım bildiyi hər cür tədbiri həyata keçirəcəkdir. İtaliya Maltanın bitərəfliyi saxlanılmadığı halda götürdüyü öhdəliklərdən imtina edəcəyini bildirdi.

Birgə protokola əsasən, İtaliya 1979 ildən başlayaraq 5 il ərzində hər il Maltaya 12 mln. ABŞ dolları maliyyə yardımı göstərməyi, habelə Maltanın iqtisadi, texniki və mədəni inkişaf proqramının həyata keçirilməsindən ötrü ona güzəştli şərtlərlə 15 mln. ABŞ dolları kredit verməyi öhdəyə götürürdü.

**İTALİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MƏŞVƏRƏT ŞURASI** (1943). Moskva konfransının (*Moskva konfransları*) qərarına əsasən X.1943 ildə təsis edilib, 30.XI fəaliyyətə başlayıb. Məşvərət Şurasına SSRİ, ABŞ, Böyük Britaniya, Fransa Milli Azadlıq Komitəsi habelə faşist İtaliyasının təcavüzünə məruz qalan Yunanıstan və Yuqoslaviya (II.1944 ildən) daxil idilər.

M.ş.-nın şurasının; səlahiyyətinə «İtaliyanın *kapitulyasiyası* şərtlərini» həyata keçirmək üzrə müttəfiq nəzarət aparatının fəaliyyətini əlaqələndirmək daxil idi. M.ş.-ı ölkənin dinc demokratik inkişafını təmin etmək prinsiplərinə əsaslanaraq tədbirlər işləyib hazırlamalı və onları müttəfiq qoşunların İtaliyadakı baş komandanına təqdim etməli idi. M.ş.-nın qərarları yekdil səslə qəbul olunurdu.

M.ş. İtaliyanın daxili vəziyyətinə dair Müttəfiq Nəzarət Komissiyasının hesabatlarını müntəzəm olaraq müzakirə edirdi. İclasların *protokolları* məlumat üçün müttəfiq qoşunların baş komandanına verilirdi. Faşist Almaniyası üzərində qələbədən sonra Böyük Britaniya və ABŞ M.Ş.-nın üzvü olan digər dövlətləri İtaliyanı nəzarətdə saxlamaqdan kənarlaşdırmağa çalışdılar. Məşvərət Şurası 52 iclas keçirəndən sonra III.1946 ildə öz fəaliyyətini dayandırdı.

**İTALİYANIN HƏBƏŞİSTANA TƏCAVÜZÜ** (1935-1936). Yeni müstəmləkələr ələ keçirməkdə faşist İtaliyasının apardığı mübarizənin bir həlqəsi və *İkinci dünya müharibəsi* yolunda yeni mərhələ oldu. 03.X.1935 ildə İtaliyanın silahlı qüvvələri Həbəşistana soxuldu. İtaliya -Həbəşistan *müharibəsi* başlandı. *Millətlər Cəmiyyəti* 07.X. İtaliyanı təcavüzkar elan edərək ona qarşı iqti-

sadi və maliyyə sanksiyalarına əl atsa da, bunlar natamam tədbirlər olduğundan təsirsiz qaldı.

*Bitərəflik* haqqında qanuna istinad edən ABŞ hökuməti 05.X.1935 ildə döyüşən tərəflərə Amerika silahlarının satılmasına qadağa qoydu və bu hal ilk növbədə qabaqcıl hərbi sənayesi olmayan Həbəşistana mənfi təsir qalmadı.

İngiltərə ilə Fransa Həbəşistanın hesabına İtaliya ilə sövdələşməyə cəhd göstərdilər.

SSRİ hökuməti Həbəşistanla *diplomatik əlaqələri* olmasa da, Həbəş xalqının milli müstəqillik hüquqlarını müdafiə etdi.

Həbəşistan ordusunun müqavimətə baxmayaraq İtaliya Həbəşistanı işğal edə bildi. İtaliya ordusu 05.V.1936 ildə Əddis-Əbəbə şəhərinə daxil oldu. 09.III. Romada İtaliya imperiyasının yaradıldığı elan edildi. 01.VI.1936 ildə Mussolini hökuməti Həbəşistanda Eritrei və italyan Somalisindən ibarət İtalyan Şərqi Afrikası adı ilə müstəmləkə mülkünün yarandığını bəyan etdi. Millətlər Cəmiyyəti 04.VII.1936 ildə İtaliyaya qarşı sanksiyaları davam etdirməkdən imtina keçdi.

**İTALİYA - RUMINİYA MÜQAVİLƏSİ** (1926). 16.IX. Dostluq və «səmimi əməkdaşlığa» dair Romada 5 il müddətinə bağlanıb.

Müqavilə (*Beynəlxalq müqavilə*) iştirakçıları «beynəlxalq qaydaları qorumaq» naminə bir-birinə kömək göstərmək və müqavilə öhdəliklərinə əməl etmək barədə təəhhüd götürdülər.

M. imzalanadək tərəflər *notalar mübadiləsi* etmişdilər. İtaliya Bessarabiyanın Rumıniya tərəfindən *ilhaqını* tanıyan 1920 il Paris *protokolunu* yubanmadan *ratifikasiya* edəcəyinə söz verirdi.

III.1927 ildə Mussolini hökuməti Sovet hökumətinin xəbərdarlığına baxmayaraq Bessarabiyanın Rumıniya tərəfindən ilhaqını tanıdı və bunun ardınca Rumıniya parlamenti M.-ni təsdiq etdi.

**İTALİYA-YUQOSLAVİYA MÜQAVİLƏSİ** (1937). *Bitərəfliyə* dair sənəd: ticarətə və gəmiçiliyə dair tamamlayıcı sazişlərlə birlikdə 25.III Belqradda 5 il müddətinə imzalanıb.

M.üqavilə (*Beynəlxalq müqavilə*) sərhədlərin (*Dövlət sərhədləri*) toxunulmazlığına qarşılıqlı hörmət edilməsini və üçüncü dövlətlə münaqişə yarandığı halda bitərəfliyin saxlanılmasını nəzərdə tuturdu; tərəflər müharibədən milli siyasət vasitəsi kimi imtina olunduğunu bəyan edir, öz ərazilərində sərhədlərin bütövlüyünə qarşı yönələn fəaliyyətə yol verməməyi öhdəyə götürürdülər.

M. Yuqoslaviyanı Fransanın nüfuz dairəsindən çıxarır, onun başçılarını *Berlin-Roma oxu* ilə yaxınlaşmağa vadar edirdi.

IV.1941 ildə M. Almaniya ilə birlikdə Yuqoslaviyaya basqın edən İtaliya tərəfindən pozuldu.

**İTALİYA-YUQOSLAVİYA SAZİŞ VƏ MÜQAVİLƏLƏRİ.** 1) 1919 il sazişi. 29.VII Parisdə imhzalanıb.

Saziş «Osmanlı mirası»nı bölüşdürərkən bu iki ölkə arasında yaranan ziddiyyətləri aradan qaldırmaq məqsədilə bağlanıb.

İtaliya Yuqoslaviyanın cənubi Albaniyaya (Şimali Epir), Şərqi və Qərbi Frakiyaya olan iddialarını, Yunanıstan isə İtaliyanın Albaniya üzərində ona mandat verilməsi və Vlyör (Valona) limanı və ona bitişik ərazilərin İtaliyaya qatılması ilə bağlı tələblərini dəstəkləyəcəkləri barədə təəhhüd götürdülər. Saziş Korfu boğazının *bitərəfliyini* təsdiq etdi. Yunanıstan Balkanlarda öz tələblərinin təmin olunduğu təqdirdə cənubi Anadoluya olan iddialarından İtaliyanın xeyrinə imtina etdi; İtaliya Rodos adası istisna olmaqla Dodekanese adalarını Yunanıstana güzəştə getdi.

Kiçik Asiyada İzmir (Smirnə) və cənubi Albaniyada Saranda (Santi-Kuaranta) limanlarının Yunanıstana keçməsindən sonra İtaliya burada torpaq sərhədlərini (*Dövlət sərhədləri*) icarəyə götürmək hüququ əldə edə bilərdi. S.-də deyilirdi ki, Yunanıstanın Frakiya və cənubi Albaniyaya, İtaliyanın isə Kiçik Asiyaya iddiaları təmin edilməzsə, razılaşan tərəflər tam sərbəst hərəkət etmək hüququnu özlərində saxlayırlar.

S. həyata keçirilmədi. Alban xalqının üsyanı, habelə öncə öz işğalçılıq planlarının həyata keçməsində maraqlı olan iri imperialist dövlətlərinin İtaliya və Yunanıstanın iddialarına dəstək verməmələri bu niyyətləri boşa çıxardı.

2) 1920 il müqaviləsi (*Beynəlxalq müqavilə*); Dodekanesə dair, 10.VIII Sevrdə bağlanıb. M.-nin şərtlərinə görə, İtaliya Dodekanes adalarını: Stampaliya, Xalki, Skarpanto, Xasos, Yepiskopi, Nizeros, Kalimnos, Leros, Patmos, Lipsos, Simi, Kores və eləcə də onlara bitişik xırda adaları Yunanıstana verməyi öhdəyə götürdü. Bu güzəştlərə getməklə İtaliya hökuməti 1920 il *Sevr sülh müqaviləsilə* Kiçik Asiyadakı ərazilərin ona verilməsinin Yunanıstan tərəfindən dəstəklənəcəyinə ümid edirdi.

M.-yə əsasən, Rodos adası İtaliyada qalırdı. İtaliya 15 ildən tez olmaqla, həm də İngiltərəni Kipr adasını Yunanıstana verməyə razı saldıqdan sonra, əhali arasında sorğu keçirməyi öhdəyə götürürdü. M. Sevr müqaviləsi ilə eyni vaxtda qüvvəyə minməli idi.

Yunanıstanın 1919-1922 illər türk-yunan *müharibəsində* məğlub olması ilə əlaqədar İtaliya hökuməti adları çəkilən adaları ona qaytarmaqdan imtina etdi. 1924 ildə İtaliyada Dodekanes adalarının bütünlüklə İtaliyanın tərkibinə qatılması barədə dekret verildi.

3) 1928 il müqaviləsi; dostluq və *arbitraja* dair, 10 il müddətinə 23.IX Romada imzalanıb. M.-nin bağlanması Yunanıstanın yunanların məskunlaşdığı Dodekanes adalarına iddialarından əslində əl çəkməsi demək idi.

İtaliya ilə 10.II.1947 ildə bağlanan sülh müqaviləsinə əsasən Dodekanes adaları Yunanıstana qaytarıldı.

**İVAN IV VASİLYEVİÇ QROZNI.** 1533 ildən «Bütün Rusiyanın» böyük knyazı, 1547 ildən rus çarı: IV İvan *xarici siyasətdə* iki ən mühüm məsələni həll etməyə cəhd göstərirdi: Şərq xanlıqlarını işğal etmək və Rusiyanın Baltik dənizinə çıxışını təmin etmək.

1547 ildə IV İvan rus torpaqlarına daim yürüşlər həyata keçirən Kazan xanlığına qarşı hərbi əməliyyatlara başladı. 1552 ildə Kazan alındı. 1556 ildə Həştərxan xanlığı ələ keçirildi. Bu, Volqaboyunu mənimsəmək və İranla ticarəti inkişaf etdirməyə imkanlar açdı. Böyük Noqay Ordası və Sibir xanlığı IV İvanın vassal asılılığına düşdülər.

1558 ildə IV İvan Baltik sahillərini ələ keçirməyə cəhd göstərərək, Livoniya ordeni ilə *müharibəyə* başladı. Orden dağıdıldı, lakin Rusiya eyni bir

vaxtda Litva, Polşa, Danimarka, İsveç və Türkiyəyə qarşı mübarizəyə qoşulmalı oldu. Livoniya müharibəsi uğursuzluqla nəticələndi və Rusiya ilə Polşa və İsveç arasında bağlanan barışıq müqaviləsinə (*Beynəlxalq müqavilə*) uyğun olaraq IV İvan ələ keçirdiyi bütün ərazilərdən imtina etdi.

IV İvanın çarlığı illərində Rusiyanın *diplomatik münasibətləri* möhkəmlənmişdi. Hollandiya, Macarıstan, Moldaviya, Gürcüstan və İranla *səfirlik* səviyyəsində *diplomatik əlaqələr* yaradılmışdır.

**İZOLYASİONİZM.** ABŞ-ın *xarici siyasətində* və ictimai fikrində istiqamət; dövlət meydana gələndən mövcud olmuş, bu istiqamət ABŞ-ın Amerika qitəsindən kənarda aktiv fəaliyyət aparmaqdan imtinasını ifadə etmişdi.

Qərb yarımkürəsinin hüdudlarından kənarda yerləşən dövlətlərin işlərinə *qarışmamaq prinsipi* ABŞ-ın əsas konstitusiya aktı olan 1776 il *İstiqlal Bəyannaməsində* öz əksini tapıb. C.Vaşinqton (*Vaşinqton Corc*) və T.Cefferson ABŞ-ın Avropa işlərinə cəlb olunmasına qarşı çıxırdılar. Sonralar Latın Amerikasında nüfuz üstündə ABŞ ilə Avropa dövlətləri arasında mübarizə kəskinləşdiyi dövrdə İ. ideyası müəyyən dərəcədə *«Monro doktrinası»nda* öz əksini tapdı.

Avropa işlərinə qarışmamaq prinsipi 1915 ilədək ABŞ-ın xarici siyasətinə təsir göstərsə də, heç vaxt ardıcıllıqla aparılmayıb; ABŞ-ın *Birinci dünya müharibəsinə* qoşulmasından sonra, eləcə də *müharibədən* sonrakı dövrdə bu ölkənin xarici siyasətində ekspansionizmi gücləndirməyə doğru dönüş baş vermişdir. Həm də İ. ideyası bir sıra hallarda xarici siyasət xəttinə müəyyən təsir göstərməkdə davam edirdi. İ. tərəfdarlarının səyi nəticəsində ABŞ senatı *prezident* V.Vilsonun (*Vilson Vudro*) Almaniya ilə imzaladığı 1919 il *Versal sülh müqaviləsini* təsdiq etmədi. *İkinci dünya müharibəsi* ərəfəsində izolyasionistlər Avropa məsələlərində ABŞ-ın fəal iştirakına qarşı çıxmaqla, faktiki olaraq faşist təcavüzkarları əleyhinə mübarizə aparılmamasını tələb edirdilər. Amerika Senatının 1935-1937 illərdə qəbul etdiyi qanunlara əsasən, müharibə aparan dövlətlərə silah satılmasına, kredit və borclar verilməsinə, eləcə də onların yüklərinin ABŞ hökumətinə və ya ABŞ vətəndaşlarına məxsus gəmilərlə daşınmasına qadağa qoyulurdu.

ABŞ müharibəyə qoşulandan sonra İzolyasionistlər İkinci dünya müharibəsində ikinci cəbhənin açılmasına əngəl törədir, *antihitler koalisiyasının* möhkəmlənməsinə müxtəlif vasitələrlə mane olurdular.

Müharibədən sonrakı dövrdə İ. əhəmiyyətini itirdi. ABŞ *BMT*-yə (1945) və *NATO*-ya daxil oldu. NATO - dinc dövrdə ABŞ-ın Avropa dövlətləri ilə təsis etdiyi ilk hərbi-siyasi blok idi.

## J

**JAN PERREN** (1932). Rus dilində ali təhsil almışdır. 1954 ildən Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) işə qəbul olunmuş və aşağıdakı vəzifələri





yerinə yetirmişdir: 1954-1956 illərdə Fransanın Ranqundakı *səfirliyində*, 1957-1958 illərdə Fransanın Tailanddakı səfirliyində, 1959-1960 illərdə Fransanın Hindistandakı səfirliyində işləmiş, 1961-1964 illərdə Fransanın Ranqundakı səfirliyində III katib olmuşdur. 1966-1968 illərdə Honq-Konqda *konsul* müavini kimi fəaliyyət göstərmişdir. 1982-1985 illərdə Fransanın Tehrandakı səfirliyində I müşavir, sonra müvəqqəti işlər vəkili olmuşdur. 1985-1989 illərdə Fransanın Malayziyadakı Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. 1992-1996 illərdə Fransanın Azərbaycan Respublikasında *səfiri* olmuşdur.

**JAN-PYER QİNYUT** (1946). 1975 ildən xarici işlər sahəsində fəaliyyət göstərmişdir. 1975-1976 illərdə Fransanın Qatar *səfirliyində attaşe*, 1980-1982 illərdə Fransanın İrandakı səfirliyində II, I katib və *müvəqqəti işlər vəkili* işləmişdir. 1982-1988 illərdə Fransanın Liviyadakı səfirliyində II, I katib, 1988-1992 illərdə Fransanın İrandakı səfirliyində I müşavir kimi fəaliyyət göstərmişdir. 1993 ildə Fransa Xarici İşlər Nazirliyinin (*Xarici İşlər İdarəsi*) mərkəzi aparatının Orta Şərq üzrə müdiri olmuşdur. Fəlsəfə üzrə magistr dərəcəsi alıb. Xidmətlərinə görə Milli Ordenlə, Xarici İşlər Nazirliyinin fəxri medalı ilə təltif olunmuşdur. 1996-2001 illərdə Fransanın Azərbaycan Respublikasında *səfiri* olmuşdur.

## K

**KANSLER** (*al. kanzier* - mirzə). Bəzi dövlətlərdə yüksək vəzifəli şəxsdir (məs., AFR və Avstriyada federal kansler *hökumət başçısıdır;* Böyük Britaniyada xəzinə kansleri – maliyyə naziridir). K. vəzifəsi IX əsrdə Karolinqlərin Frank monarxiyası dövründə meydana gəlmişdi. Kralın verdiyi aktların tərtibi, dövlət arxivi və möhürünün saxlanması K.-in səlahiyyətlərinə daxil idi.

İnqilabaqədərki Rusiyada – yüksək mülki rütbə (I sinif) idi. Əsasən xarici siyasət rəhbərlərinə (Xarici İşlər kollegiyası prezidentinə və Xarici İşlər Nazirlərinə) verilirdi. 1871-1945 illərdə Almaniyada hökumət başçısı reyxs – kansler adlandırılmışdı.

**KAPİTOLİ.** ABŞ-ın paytaxtı Vaşinqtonda yerləşir. Burada Amerika *konqresinin* hər 2 palatası (senat və nümayəndələr palatası) yerləşir və öz fəaliyyətini həyata keçirir. Bəzən ABŞ-da ştatların qanunverici orqanlarının yerləşdikləri binalar da K. adlandırılır.

**KAPİTULYASİYA** (lat. *capitulare* - məlum bəndlərə əsasən razılığa gəlmək). Müqavimətin kəsilməsi və silahlı qüvvələrin düşmənə (qarşı tərəfə) təslim olması deməkdir. K.-nın konkret şərtləri döyüşən tərflərin komandanlıqları arasındakı danışıqlarda müəyyən edilə bilər. K. zamanı düşmənin hərbi əmlakı qalib gəlmiş tərəfə keçir, silahlı qüvvələrin şəxsi heyəti isə silahsızlaşdırılır və əsir götürülür (*Hərbi əsirlər*).

K.-nın növlərindən biri də danışıqsız kapitulyasiyadır. Bu zaman K haqqında akt qalib gəlmiş tərəfin irəli sürdüyü şərtlər əsasında, məğlub edilmiş tərəfin nümayəndələri tərəfindən

imzalanır. Məs: *İkinci dünya müharibəsinin* sonunda Almaniya və Yaponiya danışıqsız K. haqqında sənədləri imzalamışdılar.

**KADRİ ECVET TEZCAN** (1949). 1972 ildə İstambul Universitinin iqtisadiyyat fakültəsini bitirmiş və 1973-1974 illərdə Xarici İşlər Nazirliyinin (*Xarici İşlər İdarəsi*) mərkəzi aparatında işləməyə başlamışdır. 1983-1987 illərdə Türkiyənin Macarıstandakı *səfirliyində* birinci katib, müşavir, 1987-1989 illərdə XİN mərkəzi aparatında Afrika və Orta Şərq İdarəsinin müdiri olmuşdur. 1989-1993 illərdə Türkiyənin Hamburqda Baş Konsulluğunda (*Konsul idarəsi*) Baş *konsul* vəzifəsini yerinə yetirmişdir. 1995 ildən 1997 ilədək XİN-də Təhlil və Proqnozlaşdırma İdarəsində baş müdir köməkçisi kimi fəaliyyət göstərmişdir. 1997-2001 illərdə Türkiyə Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli *səfiri* olmuşdur.

**KARİB BÖHRANI** (1962). SSRİ-nin Kuba ərazisində ortamənzilli nüvə raketləri yerləşdirməsinə cavab olaraq, 22.X. ABŞ silahlı qüvvələrini döyüş vəziyyətinə gətirərək Kubanı blokadaya aldı və raketlərin çıxarılmasını tələb etdi. K.b. SSRİ-Amerika danışıqları yolu ilə nizama salındı. Blokada 20.XI aradan qaldırıldı. ABŞ Kubaya hücum etməməyi, SSRİ isə raketləri onun ərazisindən çıxarmağı öhdəyə götürdü.

**KARLOVO KONQRESİ** (1698-1699). X.1698 ildə Slavoniyada Karlovis deyilən yerdə (Yuqoslaviya) Osmanlı imperiyası və «Müqəddəs cəmiyyət» - Rusiya, Avstriya, Venesiya və Reç Pospolita – arasında sülh əldə edilməsi məqsədilə keçirilib. K.k.-də rəsmi vasitəçi (*Vasitəçilik*) kimi İngiltərə və Niderlandın təmsilçiləri iştirak etmişdi. Sonuncular *ispan varisliyi* uğrunda Fransa əleyhinə yetişməkdə olan *müharibə* üçün Avstriyanın qüvvələrini sərbəst buraxmaqda və bu baxımdan Avstriyanın Türkiyə ilə *separat sülh* bağlamaq cəhdlərini təqdir etməkdə maraqlı idilər. Öz növbəsində Türkiyə daxili qarışıqlıqlardan və hərbi uğursuzluqdan zəif düşdüyündən Avstriya ilə sülh bağlamağa tələsirdi. K.k.-nın gedişində Avstriya, Venesiya və Polşa Türkiyə ilə ayrılıqda sülh müqavilələri (*Beynəlxalq müqavilə*) imzaladılar, Rusiya isə osmanlılarla yalnız *barışıq* barədə saziş bağladı. Bu sənədlər Karlovo sülh müqavilələri adı ilə məşhurdur.

Müqaviləni 16.I.1699 ildə imzalayan Polşa Türkiyədə son olaraq qalan Sol sahil Ukraynasının bir hissəsini və Podoliyanı (Kamenets-Podolsk qalası ilə birlikdə) əldə etdi. Lakin Polşa qoşunları tərəfindən tutulmuş 6 moldav şəhəri Türkiyəyə qaytarıldı. Avstriya 26.I imzalanmış sülh müqaviləsi ilə Mərkəzi Macarıstanı, Semiqradı, Baçkanı və təqribən bütün Slavoniyanı daha etibarlı şəkildə özündə saxladı; yalnız Temeşvar əyaləti qalalarla birlikdə sultana qaytarılırdı. Sülh müqaviləsini 26.I imzalayan Venesiya Moreyanı (Peloponnes) əldə etdi və müharibədən əvvəl özününkü olan Dalmasiyadakı 6 qalaya və Arxipelaq adasına yenidən sahib çıxdı.

14.I.1699 ildə Rusiya və Türkiyə possidetis prinsipi əsasında 2 il üçün barışıq bağladılar və bu halda Azov Rusiyada qaldı. Müttəfiqlər Kerçin və Dneprsahili şəhərlərin Rusiyaya verilməsinə dair tələbləri dəstəkləmədilər. Sonralar barışıq müahidəsi 1700 il Konstantinopol sülh müqaviləsi ilə əvəz edildi.





K.k.-ın Türkiyənin Avropadan geri çəkilməsini təsbit etdi. Avropa dövlətləri ilə bundan əvvəl apardığı müharibələrdən fərqli olaraq, Türkiyə bu dəfə *təzminat* və bac-xərac ala bilmədi, üstəlik əvvəllər tutmuş olduğu əraziləri də əldən verməyə məcbur oldu.

**KART-BLANŞ** (bax **AÇIQ VƏRƏQ**).

**KASABLANKA KONFRANSI** (1943). ABŞ *prezidenti* F.Ruzveltin (*Ruzvelt Franklin Delano*) və B.Britaniyanın baş naziri U.Çörçillin (*Çörçilli Uinston Leonard Spenser*), habelə hər iki dövlətin ali hərbi rəhbərlərinin *ikinci dünya müharibəsində* birgə strategiya işləyib hazırlamaqdan ötrü çağırılmış müşavirəsi. Anfa, Kasablanka şəhəri ətrafında (keçmiş fransız Mərakeşi) 14-24.I keçirilib. İ.Stalin (*Stalin İosif Vissarionoviç*) konfransa (*Beynəlxalq konfranslar*) dəvət olunmuş, lakin sovet-alman cəbhəsində hərbi əməliyyatlara rəhbərliklə məşğul olduğundan iştirak etməmişdi.

K.k.-da alman bloku dövlətlərinə qarşı 1943 il üçün hərbi əməliyyatların perspektivi müzakirə edilmişdi. Tərəflər təsdiq etmişlər ki, Birləşmiş Millətlərin birinci dərəcəli vəzifəsi Hitler Armaniyasını darmadağın etməkdir. Lakin, siyasi mülahizələri əldə rəhbər tutan K.k.-nın iştirakçıları Avropada *ikinci cəbhəni* açmaq barədə SSRİ ilə bundan əvvəl əldə edilmiş razılaşmaları pozaraq bunun əvəzinə ayrı-ayrı manevrlər təşkil etməyi qərara aldılar ki, bu da əslində *müharibəni* uzatmağa gətirib çıxardı. 1943 ildə La-Manşı keçmək məsələsi K.k.-da həll edilmədi. Müttəfiq qoşunlarının Şimali Afrikada əməliyyat kompaniyasının başa çatmasından sonra Siciliyaya müdaxilə etmək barədə K.k. iştirakçılarının təsdiq etdikləri plan boğazın 1943 ildə keçilməsi imkanını praktik olaraq mümkünsüz etdi. K.k.-da Atlantikada alman-faşist sualtı qayıqlarına qarşı mübarizəni gücləndirmək, Almaniyanın bombardman edilməsini genişləndirmək, atom bombası ilə bağlı işlərin gedişinə dair informasiya mübadiləsi haqqında qərarlar çıxarılmışdı.

Həmçinin 1943 ildə Sakit okeanda müharibə aparmaq planı işlənib hazırlanmışdı. Çörçill Ruzvelti əmin etmişdi ki, nasist Almaniyası üzərində qələbə çalınması ilə Britanyia Yaponiyaya qarşı müharibədə ən fəal şəkildə iştirak edəcəkdir. Qərb liderləri belə nəticəyə gəldilər ki, Yaponiyaya qarşı müharibəni uğurla başa çatdırmaqdan ötrü SSRİ-nin ona qoşulması zəruridir. Ən yaxın hərbi tədbir kimi Şimali Birmaya hücum, qəsbkarların Rabaula (Yeni Britanyia adası) şəhərindən çıxarılması, Çində hərbi-hava qüvvələri kontingentinin artırılması planı qəbul edildi.

K.k.-da bir sıra siyasi məsələlər də müzakirə edildi. Daha çox diqqət Fransa probleminə yetirildi və burada K.k. iştirakçıları arasında ciddi fikir ixtilafı ortaya çıxdı. Həm Ruzvelt, həm də Çörçill Şimali Afrikada fransız administrasiyasının rəhbərliyinə özləri üçün məqbul namizədi qoymağa çalışırdılar. K.k.-nın gedişində ABŞ prezidentinin və Britaniya baş nazirinin general de Qoll ilə danışıqları oldu; ABŞ-ın hakim dairələri onu Fransanın azadlığı uğrunda mübarizənin lideri saymaqdan ciddcəhdlə imtina edirdilər. Nəticədə yalnız belə bir razılaşmaya nail olundu ki, gələcəkdə general de Qoll (*Qoll Şarl De*) və general Cironun başçılıq edəcəkləri vahid fransız administrasiyasının yaradılması vacibdir. K.k.-da faşist dövlətlərinə qarşı müharibəyə Türkiyənin də qoşulması müzakirə edildi. Danışıqlar aparmağı Çörçill öz

üzərinə götürdü *(Adana konfransi 1943)*.

Müharibədən sonrakı dövrdə müstəmləkələrin taleyi məsələsi K.k. iştirakçıları arasında kəskin fikir ayrılığı doğurdu. Çörçill Britaniya müstəmləkə imperiyasını saxlamağa cəhd göstərirdisə, ABŞ-ın hakim dairələri hesab edidilər ki, müstəmləkə ölkələrinə formal müstəqillik verməklə orada aparıcı mövqe tuta bilərlər.

24.I-də keçirilmiş mətbuat konfransında Ruzvelt və Çörçill müttəfiqlərin düşmənə qarşı «qeyd-şərtsiz təslimədək» müharibə aparmaq niyyətində olduqlarını bəyan etdilər.

**KASABLANKA QRUPU.** 6 Afrika dövlətinin (Əlcəzair, Qana, Qvineya, Mali, Misir, Mərakeş) siyasi birliyi; 03-07.I.1961 il Kasablanka konfransında (*Beynəlxalq konfranslar*) yaradılmışdı. Radikal antiimperialist və antimüstəmləkə prinsipləri K.q. xartiyasının əsasını təşkil etmişdir. V.1963 ildə Əddis-Əbəbə ümumafrika konfransında *Afrika Birliyi Təşkilatı* təsis edilmişdi.

**KASUMİQASEKİ.** Tokioda yaponiyanın Xarici İşlər Nazirliyinin (*Xarici İşlər İdarəsi*) yerləşdiyi məhəllənin adı. Bu termin yaponiyanın XİN mənasında da işlənir.

**KAZUS BELLİ** (lat. *Casus belli*- müharibə üçün əsas). Dövlətlər arasında *müharibə* vəziyyətinin yaranması üçün bilavasitə rəsmi bəhanə.

Müharibəyə bəhanə kimi K.b.-ni müharibəni doğuran həqiqi səbəblərdən ayırmaq lazımdır. Bu səbəblər təcavüzkar, işğalçı müharibələrdə bəhanə ilə az hallarda üst-üstə düşür və dövlətlər arasında qarşılıqlı münasibətlərdəki ziddiyyətlərdən və onların işğalçı niyyətlərindən irəli gəlir. Məs., *birinci dünya müharibəsi* üçün K.b. Sarayevadakı qəsd oldu, əslində isə başlacı səbəb dünyanı bölüşdürmək uğrunda imperialist dölətlərinin mübarizəsi idi.

Müharibə hüququnun ləğv olunması ilə K.b. üçün əsaslar da aradan qalxmışdır.

**KAZUS FEDERİS** (lat. *Casus foederis* – hərfən ittifaq, müqavilə vəziyyəti). K.f. müqavilənin (*Beynəlxalq müqavilə*) icrasını tələb edən vəziyyətdir: yeni dövlətin hərbi ittifaq haqda bağladığı müqaviləyə uyğun olaraq digər müqavilə üzvünün apardığı *müharibəyə* qoşulmasını və ya müttəfiqini müdafiə etmək üçün müharibəyə başlamasını tələb edən vəziyyətdir. Belə halların müəyyən olunması zəruriliyini nəzərə alaraq, ittifaq müqavilələrində K.f.-ı dəqiq ifadə etməyə çalışır. K.f. bu və ya digər müqaviləni hərəkətə gətirən hadisə və ya addım deməkdir və tərəflərdən birini digər tərəfə kömək etməyə çağıran səbəbdir. Məs., 1938 ildə Almaniyanın Çexoslovakiyanı işğal etdiyi zamanı, Çexoslovakiya dövləti V. 1935-ci ildə SSRİ, Fransa və Çexoslovakiya arasında imzalanmış qarşılıqlı yardım haqqında müqaviləyə uyğun olaraq Fransa və SSRİ-nin öz öhdəliklərinin yerinə yetirilməsini tələb edərdisə, K.f. ola bilərdi.

**KE d'OKSE (Quai d' Orsay).** Senanın Paris sahilinin adı; burada Fransanın Xarici Əlaqələr Nazirliyinin (*Xarici İşlər İdarəsi*) binası yerləşir. Fransa Xarici Əlaqələr Nazirliyi (1981 ilədək - xarici işlər nazirliyi) çox vaxt belə adlanır.





**KEKKONEN (KEKKONEN) URXO KALEVA** (1900). Finlyandiyanın dövlət və siyasi xadimi.

1936-1937 və 1944-1946 illərdə daxili işlər naziri; 1940-1943 illərdə köçkünlərin işi üzrə Komitənin sədri. 1936-1956 illərdə Finlyandiya parlamentinin deputatı, 1946-1947 illərdə sədr müavini, 1948-1950 illərdə sədri olub. 1950-1956 (fasilələrlə) illərdə baş nazir, eyni vaxtda, daxili işlər naziri; 1952-1953 və 1954 illərdə xarici işlər naziri işləyib. 1956-1982 illərdə Finlyandiyanın *prezidenti* olub; 1982 ildə təqaüdə çıxıb. Finlyandiyanın *müharibədən* sonrakı sülhsevər *xarici siyasətinin* işlənib hazırlanması və həyata keçirilməsi Kekkonenin adı ilə bağlıdır.

**KEMP-DEVİD** (SATR DAVİD). ABŞ *prezidentlərinin* şəhərətrafı rəsmi iqamətgahı ABŞ-ın *paytaxtı Vaşinqtonun* yaxınlığında yerləşir. Çox vaxt xarici dövlət xadimləri ilə danışıqlar və görüşlərin keçirildiyi yer.

IX.1978 ildə ABŞ-ın fəal vasitəçilyi (*Vasitəsçilik*) və iştirakı ilə Misir və İsrail arasında Yaxın Şərqə dair imzalanan separat sazişlər K.-D. adı ilə bağlandı. Bu sazişlər 2 sənədi özündə ehtiva edir: «Yaxın Şərqdə sülh üçün çərçivələr» və «Misir ilə İsrail arasında sülh müqaviləsinin bağlanması üçün çərçivələr». 1975, 1979 və 1981 - ci illər Amerika-İsrail sazişləri və 1979 il Misir-İsrail sülh müqaviləsi də çox vaxt K.-D. sazişləri adlandırılır.

**KENNAN CON FROST** (1904). ABŞ *diplomatı*, alim. 1926 ildən diplomatik işdə olub. ABŞ Dövlət Departamentində, ABŞ-ın Almaniyada (1929-1931, 1939-1941), SSRİ-də (1934-1935 və 1935-1938), Avstriyada(1935), Çexoslovakiyada (1938-1939), Portuqaliyada (1942-1944) *diplomatik nümayəndəliklərində*, Avropa Məşvərət Komissiyasında işləmişdir. 1945-1946 illərdə ABŞ-ın SSRİ-də *səfirliyində* müşavir-elçi; 1946-1947 illərdə ABŞ Milli Hərbi Kollecin rəis müavini; 1947-1949 illərdə ABŞ Dövlət Departamentinin *xarici siyasətinin* planlaşdırılması üzrə Büronun rəhbəri; 1949-1950 illərdə Dövlət Departamentinin müşaviri; III.-IX.1952 ildə ABŞ-ın SSRİ-də *səfiri* olmuş, Sovet hökumətinin tələbi ilə geri çağırılmışdır. 1961-1963 illərdə ABŞ-ın Yuqoslaviyada səfiri olub.

«Siyasi realizm» nəzəriyyəçilərindən biri, *«qabağınalma doktrinası»nın* müəllifidir. 1956-1974 illərdə Prinston universitetinin fəxri professorudur. 1980 illərin əvvəlində SSRİ-yə münasibətdə ABŞ-ın daha realist mövqe tutması mövqeyindən çıxış etmiş, *sürətlə silahlanmanın* və nüvə *müharibəsinin* təhlükəli olduğunu bildirmişdi, Şərq ilə Qərb arasında Razılaşma Komitəsinin üzvü olmuşdur.

**KENNEDİ CON FİSCERALD** (1917-1963). ABŞ dövlət və siyasi xadimi. 1947-1953 illərdə Nümayəndələr Palatasının üzvü; 1953-1960 illərdə senator; 1961-1963 illərdə ABŞ *prezidenti* olub. Xarici siyasət sahəsində «çevik reaksiya» strategiyasını bəyan etmiş, ABŞ-ın hərbi qüdrətini, Qərbin hərbi bloklarını möhkəmləndirməyə, eyni zamanda iqtisadi yardımdan və ideoloji vasitələrdən «kommunizmin qarşısını almaq» üçün istifadə etməyə çağırmışdı. Nüvə *silahının* atmosferdə, kosmik fəzada və sualtında sınaqdan keçirilməsinin qadağan olunmasına dair 1963 il müqaviləsinin bağlanmasını dəstəkləyib.

Dallas (Texas ştatı) şəhərində öldürülüb.

**KİPR İCMALARARASI DANIŞIQLARI.** Şərqi Aralıq Dənizi adası olan Kipr iki icmanın: kiprli türklər və kiprli yunanların vətənidir. Ada əhalisinin 78%-ni təşkil edən yunan icması Yunanıstana birləşmə - «enozis» şüarı altında, 18%-ni təşkil edən türklər isə adanın bölüşdürülməsi - «taksım» şüarı altında çıxış edərək Kipr problemini həll etməyə çalışmışlar.

Kipr məsələsi ilə bağlı Yunanıstan və Türkiyə arasında ziddiyyətləri aradan qaldırmaq məqsədilə *NATO* Xarici İşlər Nazirlərinin XII.1958 il sessiyası bu məsələdə maraqlı tərəflər arasında danışıqlar aparmaq təklifi ilə çıxış etdi.

Danışıqlar nəticəsində 11.II.1959 ildə Yunanıstan və Türkiyə arasında Sürix, 19.II. Böyük Britaniya, Yunanıstan, Türkiyə və Kiprin türk və yunan icmaları arasında London sazişləri imzalandı.

16.VIII.1960 ildə Kipr müstəqil respublika elan olunduqdan sonra *BMT* xətti ilə danışıqlar davam etmişdi. 1964 ildə Londonda İngiltərə, Yunanıstan, Türkiyə və Kiprin iştirakı ilə keçirilən konfransda (*Beynəlxalq konfranslar*) adaya NATO qoşunlarını göndərmək və orada idarəçiliyə kömək məqsədilə beynəlxalq komitə yaratmaq məsələsi müzakirə olundu. İcmaları barışdırmaq üçün adaya BMT qoşunları yeridildi.

Lakin adada yaşayan türk və yunan icmaları arasındakı danışıqlar nəticə vermədi.

Yunanıstanın irticaçı qüvvələri tərəfindən «enozis»i (birləşməni) həyata keçirmək məqsədilə adada türklərə qarşı *soyqırım* aksiyaları başlandı. Türkiyə onları müdafiəyə qalxdı. 20.VII.1974 ildə Türkiyə qoşunları Kipr ərazisinin 36,4%-ni tutduqdan sonra Kipr problemi yenidən *BMT Təhlükəsizlik Şurasının* 2-cu sessiyasında müzakirə olundu. II.1975 ildə BMT *Baş katibinin vasitəçiliyi* ilə icmalararası danışıqlar başladı. II.1975 ildə Kipr Türk federativ dövləti yaradıldı. R.Denktaş (*Denktaş Rauf*) həmin dövlətin *prezidenti* seçildi.

15.X.1983 ildə Şimali Kipr Türk Cümhuriyyəti elan olundu.

1983 ildə başlanan danışıqlar yenə də uğursuzluqla nəticələndi. 1983 ildə ŞKTC elan olunandan sonra I.1985 ildən icmalararası danışıqlar yenidən bərpa olundu.

VIII.1988 ildə BMT Baş katibi hər iki tərəfin razılığı ilə danışıqların yeni mərhələsinə başlamaq üçün addımlar atdı. Kiprli yunanların liderinin götürdüyü *qarşıdurma* xətti münasibətləri kəskinləşdirdi.

Hal-hazırda icmalararası danışıqlar davam etməkdədir.

**KİPR KONVENSİYASI** (1878). Britaniya və Türkiyənin Rusiya əleyhinə «müdafiə ittifaqına» dair; Konstantinopolda (İstanbul) 1878 il *Berlin konqresinin* (*Beynəlxalq konqres*) açılışından qabaq 04.VI. izmalanıb. K.k. Britaniyaya Kipr adasını işğal etmək və Türkiyə hökumətinin Kiçik Asiyada islahatlar aparmasına nəzarət etmək hüququ vermişdi.

K.k. Britaniyanın belə bir təəhüdünü ehtiva edirdi ki, Rusiya 1877-1878 illər rus-türk *müharibəsi* nəticəsində ələ keçirdiyi Batum, Ərdəhan və Qarsı özündə saxlamaqla Kiçik Asiyada ərazilər zəbt etməyə yeni cəhdlər göstərərsə, Britaniya Türkiyəyə «silah gücünə» kömək göstərəcəkdir. Lakin bu öhdəlik sırf formal xarakter daşıyırdı, belə ki, 30.05.1878 il tarixli məxfi İngiltərə-Rusiya sazişindən çıxış edən Britaniya Rusiyanın Batum, Ərdəhan və Qarsa iddialarını tanıdı, Rusiya isə Kiçik Asiyada yeni ərazilər ələ keçirməkdən imtina etdi.

Türkiyənin Almaniya tərəfində *birinci dünya müharibəsinə* qoşulmasından sonra Britaniya 05.XII.1914 il kral fərmanı ilə Kiprin *anneksiyasını* elan etdi. K.k. ləğv olundu.

**KİPR MƏSƏLƏSİ.** *İkinci Dünya müharibəsindən* sonra imperializmin müstəmləkə sisteminin dağılması ərəfəsində ortaya çıxmış bir problemdir.

Antifaşist qüvvələri qələbəsinin yaratdığı əlverişli şərait Kipr xalqının ingilis ağalığına qarşı milli azadlıq hərəkatını gücləndirdi. Ölkə əhalisinin 78%-ni təşkil edən yunan icması Yunanıstana birləşmə - «enozis» siyasətini, əhalinin 18%-ni təşkil edən türk icması isə adanın bölüşdürülməsi - «taksım» siyasətini irəli sürdü. Bunun nəticəsində Yunanıstan və Türkiyə arasında münasibətlər kəskinləşdi.

1954-1955 illərdə yunan hökuməti K.m.-ni həll etmək təklifi ilə *BMT*-yə rəsmi müraciət etdi.

11.II.1959 ildə Sürixdə Yunanıstan və Türkiyə arasında və 19.II. Londonda İngiltərə, Yunanıstan, Türkiyə və Kiprin türk və yunan icmaları arasında Kipr məsələsinin həlli yolunda sazişlər imzalandı.

16.VIII.1960 ildə Kipr müstəqil respublika elan olundu. 1964 ildə Londonda İngiltərə, Yunanıstan, Türkiyə və Kiprin iştirakı ilə keçirilən konfransda adaya *NATO* qoşunlarını göndərmək və orada idarəçiliyə kömək etmək üçün beynəlxalq komitə yaratmaq məsələsi müzakirə olundu. *BMT Təhlükəsizlik Şurasının Qətnaməsi* əsasında 04.III.1964 ildə Kiprdə BMT qoşunları yerləşdirildi. Lakin adada yaşayan türk və yunan icmaları arasında danışıqlar nəticə vermədi.

1974 ildə Kiprdə dövlət çevrilişi oldu, türk icmasına qarşı *soyqırım* siyasəti həyata keçirilməyə başlandı. 20.VII. isə Türkiyə öz qoşunlarını türk icmasını müdafiə etmək məqsədilə Kiprə yeritdi və adanın 36,4%-nə nəzarət etməyə başladı.

13.II.1975 ildə türk icmasının rəhbərliyi Kipr Türk Federativ dövlətini yaratdı. 20.VI.1976 ildə R.Denktaş (*Denktaş Rauf*) həmin dövlətin *prezidenti* seçildi. 15.XI.1983 ildə Şimali Kipr Türk Cümhuriyəti elan olundu.

Kiprin yunan və türk icması arasında 1968 ildən BMT xətti ilə başlanan danışıqlar bu vaxta kimi müsbət nəticə verməmiş və problem öz həllini tapmamışdır.

**KİSSİNCER HENRİ ALFRED** (1923). ABŞ *diplomatı*.

1951-1969 illərdə pedaqoji və elmi-tədqiqat fəaliyyətilə məşğul olmuş, «siyasi realizm» nəzəriyyəçilərindən biridir. 1956-1960 illərdə ABŞ Qərargah rəisləri Birləşmiş Komitəsinin, 1961-1968 illərdə Milli Təhlükəsizlik Şurasının, 1965-1969 illərdə Dövlət Departamentinin məsləhətçisi olub. 1969-1974 illərdə ABŞ *prezidentinin* milli təhlükəsizlik üzrə köməkçisi; 1973-1977 illərdə ABŞ-ın *Dövlət katibi*, strateci silahların məhdudlaşdırılmasına dair sovet-amerika danışıqlarında, Vyetnamda tənzimlənməyə dair Paris danışıqlarında (1968-73), ərəb ölkələrinə Yaxın şərq probleminin həllinə Amerika variantlarını tətbiq etmək cəhdlərində iştirak edib. Vyetnamda sülhün bərqərar olmasının əsas təşəbbüsçülərindən olmuşdur. 1973 ildən *Beynəlxalq Nobel mükafatına* layiq görülüb.

1977 ildən bir sıra özəl kompaniyaların məsləhətçisidir, eyni vaxtda Corctaun universitetində müəllimliklə məşğuldur. 1983 ildən Mərkəzi Amerika üzrə Milli ikipartiyalı komisiyasının başçısıdır.

**KLAUS QREVLİX** (1943). 1963-1968 illərdə Berlin, Strasburq , Frayburq şəhərlərinin Universitetlərində hüquq və iqtisadi elmləri öyrənmişdir. 1969-1970 illərdə ABŞ-ın Berkli şəhərində Hüquq və iqtisadi elmləri öyrənmiş, hüquqşünas elmi dərəcəsi almışdır. 1972 ildə Strasburq Universitetinin diplomunu almışdır. 1974-1976 illərdə Parisdə Əməkdaşlıq və İnkişaf üzrə Avropa Təşkilatının Baş katibinin kabinetində inzibatçı işləmişdir. 1999 ildə Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) Siyasi idarənin şöbə müdiri işləmişdir. Fövqəladə və Səlahiyyətli *səfir* dərəcəsinə malikdir. 2001 ildə Almaniya Federativ Respublikasının Azərbaycan Respublikasındakı səfiri təyin olunmuşdur.

**KLEMANSO CORC BENYAMEN** (1841-1929). Fransanın dövlət xadimi, *diplomatıdır.* 1906-1909 və 1917-1920 illərdə baş nazir olmuşdu. *Antantanın* formalaşmasında böyük rol oynamışdı. 1919-1920 illər *Paris sülh konfransının* sədri olmuşdu. *Birinci dünya müharibəsinin* nəticələrinə yekun vuran 1919 il *Versal sülh müqaviləsinin* müəlliflərindən biridir.

**KLER TELEQRAM** (fr. *En Claire).* Adi, açıq, şifrələnməmiş və kodlaşdırılmamış teleqramdır. Bəzən xarici hökumətin teleqramı asanlıqla oxumasını istədikdə göndərilir.

**KLİNTON BİLL** (1946). Corctaun və Oksford universitetlərində təhsil almışdır. 1973 ildən hüquq elmləri doktorudur. 1978 ildə Arkanzas ştatının qubernatoru seçilmiş, demokraktlar partiyasında mötədillər qrupuna daxil olmuş, sosial təminat sisteminin islahatları proqramını həyata keçirməyə çalışmışdır. 1991 ildə aparılan sorğuda ən yaxşı qubernator kimi tanınmışdır.

1993-2001 illərdə ABŞ-ın *prezidenti* olmuşdur. Bu dövrdə xarici siyasət sahəsində ABŞ bir sıra uğurlar qazanmışdır. 1994 ildə İraqı Küveytə qarşı apardığı müharibədə geri çəkilməsinə, NATO-nun Şərqi Avropanın bir sıra ölkələri hesabına genişlənməsinə, 1999 ildə NATO qüvvələrinin Yuqoslaviyanı bombaladıqdan sonra Serbiyanı Kosovo üzrə sülh müqaviləsini imzalamasına nail olmuşdur. Daxili siyasətdə stabil iqtisadi artım əldə edilmişdir.

**KLİRİNQ RAZILAŞMASI** *(ing. Clearing).* Ticarət və tədiyə müqavilələrinin növlərindən biri; tərəflərin qarşılıqlı qaydada mal göndərmələrini və onların təxmini dəyər bərabərliyi əsasında xidmət göstərmələrini tənzimləyir, pul tələblərinin və təəhhüdlərin qeyri-nağd qarşılıqlı zaçotu, habelə bu hesablaşmaların tərəflərin müvəkkil etdikləri banklarda xüsusi hesablarda mərkəzləşdirilməsini nəzərdə tutur.

**KOALİSİYA** (lat. *Coalescere* - birləşmək). Bir neçə dövlətin, xalqın, partiyanın və digər təşkilatın siyasi, yaxud hərbi xarakterli ittifaqı.

**KODZİ VATANABE** (1934). 1956 ildə Tokio Universitetini bitirmişdir. 1973 ildə Yaponiyanın ABŞ-kı *səfirliyinin* I katibi, 1981 ildə Çin Xalq Respublikasındakı səfirliyində fövqəladə və səla-





hiyyətli nazir işləmişdir. 1988 ildə Yaponiyanın Səudiyyə Ərəbistanında, 1992 ildə İtaliyada fövqəladə və səlahiyyətli *səfiri* olmuşdur. 1994 ildən Yaponiyanın Rusiyada Fövqəladə və Səlahiyyətli səfiridir. 1995-1997 illərdə Yaponiyanın eyni zamanda Azərbaycan Respublikasında səfiri olmuşdur.

**KOL HELMUT** (1930). Heydelberq universitetində təhsil almışdır. 1973 ildə xristian-demokratik ittifaqın (XDİ) sədri seçilmişdir. 1976 ildə bundestaqda XDR fraksiyasına başçılıq etmişdir. 1982 ildə *kansler* vəzifəsinə seçilmişdir. 1987 ildə onun başçılıq etdiyi partiya Azad Demokratik partiyası (ADP) ilə birlikdə seçkilərdə yenidən qələbə qazanmışdır.

1989-1990 illərdə SSRİ Şərqi Avropadan geri çəkildikdə Almaniyanın birləşməsi təşəbbüsü ilə çıxış etmiş və 03.X.1990 ildə buna nail olmuşdur. Avropa birliyinin (*Avropa Birlikləri*) genişlənməsinin tərəfdarı idi. 1994 ildə XDİ-ADP ilə koalisiyada ümummilli seçkilərdə qələbə çalmış, 1998 il seçkilərini uduzmuşdur. 1999-2000 illərdə partiyanın maliyyələşməsində qeyri-qanuni mənbələrdən istifadə etməkdə ittiham edilmişdir.

**KOLLEKTİV TƏDBİRLƏR.** *Beynəlxalq hüquqda* sülhü və *beynəlxalq təhlükəsizliyi* bərpa etmək səlahiyyətinə malik iki və daha artıq dövlətin və yaxud regional və universal təşkilatların silahlı və yaxud qeyri-silahlı fəaliyyəti.

Qeyri-silahlı xarakterli K.t. iqtisadi münasibətlərə, dəmir yol, dəniz, hava, poçt, teleqraf, radio və digər əlaqə vasitələrinə ara verilməsindən, habelə *diplomatik münasibətlərin* kəsilməsindən ibarət ola bilər. Silahlı xarakterli K.t. dedikdə hava, dəniz yaxud quru qüvvələrinin fəaliyyəti, həmçinin hərbi gücün nümayişi, blokada və digər hərbi əməliyyatlar nəzərdə tutulur.

**KOLLEKTİV TƏHLÜKƏSİZLİK.** Dövlətlərin sülhün təmin olunmasında, təcavüzün qarşısının alınmasında və ona qarşı mübarizədə müvafiq *beynəlxalq təşkilatlar* vasitəsilə və ya dövlətlər arasında imzalanmış müvafiq sazişlərə əsasən həyata keçirilən birgə tədbirlər sistemidir. K.t. termini *beynəlxalq münasibətlər* təcrübəsinə 1922 ildən *Millətlər Cəmiyyəti* tərəfindən daxil edilmişdi. *İkinci dünya müharibəsindən* sonra K.t. prinsipi hüquqi cəhətdən *BMT Nizamnaməsində*, digər *beynəlxalq müqavilələrdə* və sənədlərdə (1975-ci il *Avropada Təhlükəsizliyə və Əməkdaşlığa dair Müşavirənin Yekun Aktı) (Yekun aktı)* təsdiq olunmuşdur.

K.t. haqda müqavilələrə daxil olan öhdəliklər iki qrupa bölünür. Birinci qrup silahlı münaqişələri qadağan edir (təcavüzün qadağan olunması; hədə-qorxudan və ya qüvvə tətbiq etməkdən çəkinmək; mübahisələrin dinc yolla həlli və müvafiq orqan və proseduraların yaradılması və s.). Bu qrupda *müharibələrin* qarşısının alınmasının real təminat öhdəlikləri mühüm yer tutur. Silahlı qüvvələrin və silahların ixtisarı; digər *dövlətin ərazisindən* xarici qoşunların çıxarılması; xarici *hərbi bazaların* və təcavüzkar hərbi blokların ləğv olunması; bitərəf, silahsızlaşdırılmış, atomsuz zonaların yaradılması və s.

İkinci qrupa K.t. sistemi üzvlərinin onlardan hər hansı birinə qarşı təcavüz aktı və ya təcavüz təhlükəsi baş verdikdə üzvlərin götürdükləri öhdəliklər daxildir. Təcavüz təhlükəsi baş verdikdə qarşılıqlı məsləhətləşmələr;

təcavüzkara kömək göstərməkdən imtina etmək, təcavüz baş verdikdə is silahlı qüvvələrdən istifadə daxil olmaqla qarşılıqlı yardım göstərilir.

**KOLLİZİON HÜQUQ** (lat. *collisio* - toqquşma). Müxtəlif dövlətlərin qanunları («xarici» K.h.) və ya bir dövlətin normativ aktları («daxili» K.h.) arasında kolliziyaları həll edən normaların məcsumu. «Xarici» K.h. *beynəlxalq xüsusi hüququn* tərkibinə daxildir. Bir sıra ölkələrdə (Böyük Britaniya, ABŞ və b.) «beynəlxalq xüsusi hüquq» anlayışı K.h. anlayışı ilə eyniləşdirilir. «Daxili» K.h. subyektləri arasında münaqişə yaranması mümkün olan federativ dövlətlərdə (*Federasiya*) xüsusi əhəmiyyətə malikdir.

**KOLLİZİON NORMA** (lat. *collisio* - toqquşma). Beynəlxalq xarakterli mülki, ailə, əmək münasibətlərinə hansı dövlətin hüququnun tətbiq edilməsini, ya da hansı normativ aktın dövlətdaxili hüquqi münaqişədə (kolliziyada) tətbiq olunmasını göstərən normadır. K.n. həmçinin *federasiya* və onun subyektlərinin hüququ ilə milli və *beynəlxalq hüquq* arasında münaqişəni həll etmək prinsipini müəyyən edə bilir.

*Beynəlxalq xüsusi hüquqda* – K.n. adətən hər hansı konkret dövlətin hüququna deyil, hüququn tətbiqini müəyyən edən prinsipə əsaslanan ümumi qayda şəklində ifadə olunur (məsələn, şəxsin *vətəndaşlıq* qanunu, müqavilənin bağlandığı yerin qanunu, əşyanın yerləşdiyi yerin qanunu, nikahın bağlanması qanunu və s.).

**«KOLOMBO PLANI»**. Cənubi və Cənub-Şərqi Asiyanın *inkişaf etməkdə olan dövlətlərinə* iqtisadi-texniki yardım planı; 7 ölkənin - Avstraliya, Britaniya, Kanada, Hindistan, Yeni Zelandiya, Pakistan, Seylon xarici işlər nazirlərinin I.1950 ildə Kolomboda keçirilmiş müşavirəsində qəbul edilmişdir. IX.1950 ildə K.p. iştirakçılarının London sessiyasında müvafiq proqramların mətnləri «Cənubi və Cənub-Şərqi Asiya ölkələrinin birgə iqtisadi inkişafı üzrə Kolombo Planı» adı altında qəbul edildi. Sonralar belə proqramlar hər növbəti 6 il üçün tərtib edilmişdir. K.p. çərçivəsində yardım proqramı ikitərəfli xarakter daşıyır və inkişaf etməkdə olan ayrıca dövlət ilə donor-ölkə arasında bağlanır.

**KOMBATANTLAR** (fr. *Combattant*, əsgər-döyüşçü). Döyüşən tərəfin silahlı qüvvələrinin tərkibinə daxil olan və döyüş əməliyyatlarında birbaşa iştirak etməyə hüququ olan şəxslər; 1899 və 1907 illər Haaqa sülh konfranslarının (*Haaqa sülh konfransları 1899 və 1907*) müddəalarına uyğun olaraq, habelə *müharibədən* zərər çəkənlərin müdafiəsinə dair 1949 il Cenevrə konvensiyalarının (*Beynəlxalq konvensiya*) və onlara əlavə edilmiş 1977 il *protokollarına* müvafiq olaraq, döyüşən tərəfin tərkibinə aid olanlar, hərbi qisas hərəkatlarının iştirakçıları, könüllü əməliyyatların, mütəşəkkil müqavmət hərəkatlarının üzvləri, əlinə silah alıb düşmən qüvvələrinə qarşı döyüşən əhali K. hesab olunur.

K-ın müharibə qanunları və adətlərinə müvafiq *hərbi əsir* statusu hüququ vardır.

1949 il Cenevrə konvensiyalarına əlavə edilən beynəlxalq hərbi münaqişəlrəin qurbanlarının müdafiəsinə dair Protokola görə, «müstəmləkə ağalığına, xarici işğala və irqçi rejimlərə qarşı mübarizə aparan» milli azadlıq hərəkatının iştirakçıları da K.-a aid edilirlər.

Haaqa və Cenevrə konvensiyalarında təsbit edilən beynəlxalqhüquqi normaları inkişaf etdirən protokol nəinki K olan şəxslərin dərəcələrini konkretləşdirir, hətta nəzərdə tutur ki, hərbi əməliyyatların hazırlanması və aparılması gediştndə K-lar özlərini mülki əhalidən zahiri görünüşcə fərqləndirməli, daha doğrusu, açıqca silah gəzdirməli, əhalini müdafiə etmək, o cümlədən hərbi əməliyyatların təsirindən qorumaq məqsədilə müvafiq hərbi forma geyməlidirlər.

Protokolda belə bir dəqiqləşdirmə verilir ki, münaqişəyə cəlb olunmuş tərəfin silahlı qüvvələrinə daxil olan tibbi və ruhani personal qeyri K. sayılır. 1949 il Cenevrə konvensiyalarına görə düşmən tərəfindən tutulduğu halda, onlar hərbi əsir hesab edilməməlidirlər. Onlara tibbi və ruhani yardım göstərmək üçün hər cür imkan yaradılmalıdır. Onları tibbi və dini vəzifələrlə bağlı olmayan işlərə cəlb etmək olmaz.

K. statusu casuslara və muzdlulara şamil edilmir. Belə ki, Protokolun 46 maddəsində müəyyən edilir ki, casusluqla məşğul olan istənilən şəxs «hərbi əsir statusuna malik deyil və onunla casus kimi rəftar oluna bilər». Həmin Protokolun 47-ci maddəsində deyilir ki, «muzdlular K., yaxud hərbi əsir statusuna malik deyildir».

**KOMMÜNİKE** (fr. *Communiquy*, in. *Communico* – xəbər verirəm). Beynəlxalq danışıqların gedişi və ya nəticələri, bağlanmış beynəlxalq sazişlər, cari əməliyyatlar haqqında rəsmi məlumatdır. K. qısa (hər hansı danışıqlar, görüşlər faktı haqda lakonik məlumatdan ibarət) və ya danışıqların gedişinin, onların iştirakçılarının imzaladığı sazişlərin geniş şərhi, qəbul olunmuş *Bəyannamələrin* mətnlərindən ibarət olur.

**KOMPROMİS**. Qarşılıqlı güzəştlər nəticəsində əldə olunan nəticə. Müxtəlif xarakterli iddiaların, xüsusilə dövlətlərin bir-biri ilə *müharibə* vəziyyətində K. ən çox tətbiq olunan vasitədir.

**KOMPYEN BARIŞIĞI** (1918; 1940). 1) 11.XI. Kompyen meşəsində, Retond stansiyası yaxınlığında ABŞ Fransa, Britaniya və *Antantanın* digər dövlətləri ilə *birinci dünya müharibəsində* məğlub olmuş Almaniya arasında bağlanmışdır. 36 günə bağlanan K.b. sonradan dəfələrlə uzadılmış və 1919 il *Versal sülh müqaviləsinin (e müqavilə)* imzalandığı günədək qüvvədə olmuşdur. K.b.-nın şərtləri hərbi əməliyyatların dayandırılması ilə yanaşı, alman qoşunlarının tutduqları qərbdəki ərazilərdən çıxarılmasını, Atlanta və ABŞ qoşunları tərəfindən Reynin sol sahil boyunun işğalını, Şərqi Avropada alman qoşunlarının təslim olmasını, alman silahlarının xeyli hissəsinin Antantaya verilməsini, habelə Almaniyanın 1918 il Buxarest sülh müqaviləsindən (*Buxarest sülh müqavilələri*), 1918 il *Brest-Litovsk (Brest) sülh müqaviləsindən* və onlara əlavə edilmiş müqavilələrdən imtina etməsini nəzərdə tuturdu.

2) Hitler Almaniyası ilə başda Peten olmaqla Fransanın *«Vişi hökuməti»* arasında 1918 il K.b.-nın bağlandığı eyni dəmir yolu vaqonunda 22.06.1940 imzalanıb. 24.06.1940 ildə Fransa ilə İtaliya arasında *barışıq* imzalandıqdan sonra qüvvəyə minib. K.b.-nın şərtlərinə görə, Peten hökuməti Fransa ərazisində, habelə müstəmləkələrdə, protektoratlarda, mandatlı ərazilərdə və dənizlərdə Almaniya əleyhinə hərbi əməliyyatları dərhal dayan-

dırmalı, Fransa qoşunları *tərkisilah* edilib buraxılmalı idi. Silah və hərbi mülkiyyət alman komandantlığına verilirdi. Faşist Almaniyası Fransa ərazisinin təqribən üçdə ikisini, Paris də daxil olmaqla işğal etdi. Fransa işğalçı alman-faşist ordusunu saxlamaq xərclərini öz üzərinə götürdü. Fransız *hərbi əsirlər* (1,5 mln nəfərdən çox) sülh müqaviləsi imzalananadək Almaniyada qaldılar. İşğal edilmiş ərazidə Peten hökuməti «daxili qaydaları saxlamaq üçün» ordu (100 min. nəfər) saxlamaq hüququna malik idi. İngilis-amerikan qoşunlarının XI.1942 ildə Şimali Afrikaya çıxarılmasından sonra faşist Almaniyası K.b.-nı pozdu və bütün Fransanı işğal etdi.

**KONDOMİNİUM** (lat. *con* - birgə, *dominium* - malik olma). Beynəlxalq hüquqi ortaqlıq, eyni ərazi üzərində iki və ya bir neçə dövlətin birgə və bölünməz ali hakimiyyətidir. K.-a *beynəlxalq münasibətlər* təcrübəsində az rast gəlinir.

K. bir ərazi hüdudlarında ancaq bir suveren hökumətin (*Suverenlik*) fəaliyyət göstərməsi haqda ümumi qaydaya tabe deyil. Adətən K. zamanı hakimiyyət faktiki olaraq ortaq dövlətlərdən ən güclüsü tərəfindən həyata keçirilir.

K. eyni əraziyə iddia edən iki və daha çox dövlət arasında başqa yolla həll olunmayan ziddiyyət və rəqabəti aradan qaldırmaq məqsədilə həyata keçirilir. Məs., Morenada Prussiya-Belçika sərhəddində K. ona görə yaranmışdı ki, Prussiya və Belçika (Belçika Hollandiyanın varisi kimi) bu rayonda sərhəd haqda 1815 il *Vyana konqresinin (Beynəlxalq konqres)* aktı və 26.VII.1816 il müqaviləsi (*Beynəlxalq müqavilə*) əsasında öz aralarında razılığa gələ bilməmişdir. Bu K. *Versal sülh müqaviləsinədək*, yəni 100 ildən çox davam etmişdi.

1899 ildə Böyük Britaniya və Misir Sudan üzərində K. müəyyən etmişdilər (Misir 15.X.1951 ildə bu K.-u ləğv etdi). Hazırda Sakit okeanda Kantok və Enderberi adaları üzərində 1939 il ingilis-amerikan razılaşmasına əsasən K. qalmaqdadır. 1906-1980 illərdə Böyük Britaniya və Fransa arasında Hebrid adaları üzərində K. mövcud olmuşdu (1980 ildə burada Yeni Vanuatu Respublikası yarandı).

K. dəniz üzərində də müəyyən oluna bilər. Məs., Salvador və Hondurasın Fonseka körfəzi üzərindəki K.-nu göstərmək olar.

**KONFEDERASİYA** (lat. *con-foederario* – ittifaq, birlik). Qarşılıqlı müdafiə, xarici əlaqələr və s. kimi məqsədlərin həyata keçirilməsi üçün yaradılmış iki və ya bir neçə suveren dövlətin daxili ittifaqını təmsil edən dövlət quruluşu formasır.

K. maraqlı olan tərəflər arasında müqavilə (*Beynəlxalq müqavilə*) əsasında yaradılır. K.-nın mərkəzi orqanlarına bütün üzv dövlətlərin nümayəndələri daxil olurlar. Onların qərarları yekdillikdə və ya əksəriyyət tərəfindən qəbul edilir və adətən üzv dövlətlər tərəfindən *ratifikasiya* edildikdən sonra qüvvəyə minir. K.-nın maliyyə vəsaiti ona daxil olan dövlətlərdən gələn üzvlük hesabına təşkil olunur.

Tarixdə Reyn *konfederasiyası* (1954-1350), Hanza liqası (1367-1669), İsveçrə konfederasiyası (1291-1798, 1815-1848), Niderland konfederasiyası , Birləşmiş Əyalətlər Respublikası (1579-1795), Amerika Birləşmiş Ştatları (1781-1787), Alman ittifaqı (1815-1866), Konfederativ Amerika





Ştatları (1861-1865) kimi konfederasiyalar mövcud olmuşdur.

Həmkarlar ittifaqları və ya hər hansı digər ictimai təşkilatlar da K. yarada bilərlər.

**KONFRONTASİYA** (lat. *con* - qarşı, *front (frontis)*. Dövlətlərarası *münasibətlərdə* gərginlik, təhlükəli hərbi münaqişə ilə nəticələnə bilən təhlükəli qarşıdurma. Tarixdə K. çox vaxt *müharibəyə* gətirib çıxartmışdı. Həmçinin K.-ni danışıqlar yolu ilə zəiflətmək və müharibəni sovuşdurmaq halları da çox olmuşdur.

**KONKORDAT** (lat. *Concordatum*- razılaşma). Roma papası ilə bu və ya digər dövlət arasında katolik kilsəsinin həmin dövlətdə vəziyyətini və imtiyazlarını tənzimləyən xüsusi müqavilə, razılaşma.

Yepiskoplar tərəfindən ali və kilsə hakimiyyətinin funksiyalarına həddqoyan K ilk dəfə Roma papası II Kalikst ilə Almaniya imperatoru V Henrix arasında 1122 ildə bağlanmışdır (Vorms konkordatı).

**KONQRES** (lat. *congressus* - görüş, toplantı). 1) Qurultay, xüsusilə beynəlxalq məsələlər üzrə, məs. Ümumdünya sülh tərəfdarları konqresi. 2) bir sıra ölkələrdə, parlament, məs. Cənubi Amerikada, ABŞ-da.

**KONSENSUS** (lat. *consensus* - razılıq, yekdillik). *Beynəlxalq təşkilatlarda, beynəlxalq konfranslarda* və müşavirələrdə səsvermə aparılmadan və iştirakçılardan hər hansının rəsmi etirazı olmadıqda qərarların bütünlüklə qəbul olunması metodudur. K. *BMT*-nin bir sıra orqanlarında tətbiq edilir. O ATƏT (*Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi)* tərəfindən qərarların qəbul edilməsində tətbiq edilir.

**KONSESSİYA (BEYNƏLXALQ MİQYASDA)** (lat. *Concessio* - icazə, güzəşt). Dövlət tərəfindən öz ərazisində konkret istehsal-iqtisadi fəaliyyətlə məşğul olmaqdan ötru *xaricilərə* verilən hüquq.

Xarici fərdi şəxsə (şirkətə) K. verilməsi onu verən dövlətin qanunvericiliyi ilə tənzimlənir.

**KONSTANTİNOPOL KONVENSİYASI.** Yeddi Birləşmiş Adalar Respublikasının yaradılması barədə rus-türk konvensiyası (*Beynəlxalq konvensiya*); Konstantinopolda (İstanbul) 21.03. 1800 ildə imzalanıb. İoni adalarının və eks-Venetsiya Albaniyasının (1797 ilədək İoni adaları ilə birlikdə Venetsiyaya mənsub olmuş alban-yunan sahil ərazisinin bir hissəsi) statusunu müəyyənləşdirmişdi. 2-ci antifransa *koalisiyası* dövlətləri (Britaniya, Avstriya, Rusiya və Türkiyə) ilə *müharibə* zamanı Fransanın işğal etdiyi bu ərazilər 1798-1799 illərdə vitse-admiral F.F.Uşakovun komandanlığı altında rus eskadrası tərəfindən azad edilmişdi.

K.k. əsasında İoni arxipelaqında yaradılan, Türkiyədən vassal asılılığında olan (*Vassal dövlət*) və Rusiyanın himayəsindən istifadə edən respublikanın daxili quruluşu razılaşan tərəflərin ilkin olaraq nəzərdən keçirəcəkləri və təsdiq edəcəkləri Konstitusiya ilə müəyyən edilməli idi. K.k. respublikanın üzərinə belə bir öhdəlik qoyurdu ki, *Babi-Aliyə* 3 ildən bir 75 min piastra məbləğində bac-xərac versin, Fransa ilə müharibə aparacaqları təqdirdə vaxt Rusiya və Türkiyə öz qoşunlarını respublika ərazisinə daxil etmək hüququ aldılar. Türkiyə respublikasının *ərazi*

*sularında* sərbəst ticarət və gəmiçiliyi təmin edəcəyini öhdəyə götürdü.

Eks-Venetsiya Albaniyası Türkiyənin hakimiyyəti altına keçdi. K.k.-da bu ərazidə yaşayan xristian əhali üçün bəzi təminatlar: dini etiqad azadlığı; Venetsiya ağalığı zamanı mövcud olmuş ödənc və vergilərin həcminin artırılmaması nəzərdə tuturdu.

Rusiya K.k.-nı 15.VIII.1800 ildə *ratifikasiya* etmişdi. K.k. 1807 il Tilzit müqaviləsi (*Beynəlxalq müqavilə*) bağlananadək qüvvədə olmuşdu. Tilzit müqaviləsinin məxfi maddələri Respublikanın ləğvini və ərazisinin Fransaya verilməsini nəzərdə tuturdu.

**KONSUL** (lat. *consul* - vəzifə). Bir dövlət tərəfindən digər dövlətdə K. vəzifələrinin yerinə yetirilməsi üçün daimi nümayəndə olaraq təyin olunan və digər ölkənin müvafiq qaydalarına uyğun olaraq səlahiyyətli orqanlar tərəfindən bu vəzifənin icrasına buraxılan vəzifəli şəxs.

K. təyin etmək hüququ, onun təyinat qaydası və müəyyən dərəcəyə aid edilməsi K. təyin edən dövlətin daxili qanunvericiliyi ilə nizamlanır. K.-un təyin olunması haqda ona öz ölkəsinin *konsul patenti* verilir. K. təyin olunmuş şəxs gəldiyi ölkənin *ekzekvatura* adlanan icazəsini aldıqdan sonra öz vəzifələrinin icrasına başlayır. K. müəyyən olunmuş *konsul dairəsində* fəaliyyət göstərir. K. ona həvalə olunmuş ərazidə gəzə bilər, görüşlər təşkil edə bilər.

K. üzərinə qoyulan məsələ və vəzifələrin (*Konsul vəzifələri*) konkret dairəsi və səlahiyyətlərinin həcmi *beynəlxalq hüquqa* uyğun olaraq K.-u təyin edən dövlətin maraqlarından irəli gəlir.

Beynəlxalq hüquqa görə K.-un başlıca vəzifələri gəldiyi ölkədə təmsil etdiyi ölkənin iqtisadi və hüquqi maraqlarını, eləcə də bu ölkənin hüquqi şəxslərinin və vətəndaşlarının iqtisadi və hüquqi maraqlarını qorumaq və müdafiə etməkdən, K. təyin edən ölkə ilə K-un gəldiyi ölkə arasındakı müqavilə və sazişlərin icra olunmasına nəzarət etməkdən ibarətdir.

K.-un vəzifələri başlıca olaraq aşağıdakılardan ibarətdir:

- gəldiyi ölkədə beynəlxalq hüquq çərçivəsində təmsil etdiyi dövlətin və onun vətəndaşlarının (fiziki və hüquqi şəxslərin) maraqlarını müdafiə etmək;
- təmsil etdiyi dövlətlə gəldiyi dövlət arasında ticarət, iqtisadi, mədəni və elmi əlaqələrin, eləcə də dostluq münasibətlərinin inkişaf etdirilməsinə yardım etmək;
- gəldiyi ölkənin ticarət, iqtisadi, mədəni və elmi həyatında şəraiti və hadisələri qanuni yollarla aydınlaşdırmaq, bunlar haqqında təmsil etdiyi ölkəyə məlumat vermək, məlumatları maraqlı şəxslərə təqdim etmək;
- təmsil etdiyi dövlətin vətəndaşlarına pasportların və yol sənədlərinin, təmsil etdiyi dövlətə getmək istəyən şəxslərə viza və ya müvafiq sənədlərin verilməsini təmin etmək;
- təmsil etdiyi dövlətin vətəndaşlarına kömək və yardım etmək;
- vətəndaş vəziyyəti aktını qeydiyyatdan keçirmək;
- təmsil etdiyi ölkə vətəndaşlarının (hüquqi və fiziki şəxslərin) gəldiyi ölkədə bu ölkənin qanun və qaydalarına uyğun olaraq varislik «mortis cauza» məsələsində maraqlarını qorumaq;
- gəldiyi ölkənin qayda və qanunları çərçivəsində təmsil etdiyi dövlətin yetkinlik yaşına çatmamış və tam iş qabiliyyəti olmayan şəxslərin, bu şəxs-





lər üzərində hər hansı qəyyumluq və himayəçilik təyin olunması tələb olunarsa, onların maraqlarını qorumaq;
- gəldiyi ölkədə qəbul olunmuş təcrübə və qaydalara əməl etməklə, təmsil etdiyi dövlətin vətəndaşlarının gəldiyi ölkənin məhkəmə və digər idarələrində bu ölkənin qayda və qanunlarına müvafiq olaraq, bu vətəndaşlar olmadıqda və ya digər səbəblərə görə vaxtlı-vaxtında öz hüquq və marqalarını qoruya bilmədikdə, onların hüquq və maraqlarını müdafiə edən ilkin tədbirlər həyata keçirmək məqsədilə lazımi təmsilçiliyi təmin etmək;
- qüvvədə olan beynəlxalq sazişlərə müvafiq olaraq və ya belə sazişlər olmadıqda, gəldiyi ölkənin qanun və qaydalarına zidd olmayan qaydada, təmsil etdiyi dövlətin məhkəmə və qeyri-məhkəmə sənədlərinin verilməsi və ya məhkəmə göstərişlərini, ya da ifadə verməyə dair göstərişləri icra etmək;
- təmsil etdiyi dövlətə aid gəmilərə, təyyarələrə, eləcə də onların heyətinə münasibətdə təmsil etdiyi dövlətin qayda və qanunları ilə nəzərdə tutulmuş təftiş və nəzarət hüquqlarını həyata keçirmək;
- yuxarıda adı çəkilən gəmilərə, təyyarələrə və onların heyətinə köməklik göstərmək, gəmi sənədlərinin nəzərdən keçirilməsi və tərtib olunması və gəldiyi ölkənin hakimiyyət dairələrinin hüquqlarını nəzərə almaqla yolda baş vermiş hər hansı hadisəni araşdırmaq və təmsil etdiyi dövlətin qanun və qaydaları ilə kapitanla komanda heyəti və matroslar arasında hər hansı mübahisələri həll etmək;
- təmsil etdiyi dövlət tərəfindən *konsul idarəsinin* gəldiyi dövlətin qayda və qanunları ilə qadağan olunmayan, ya da icrasına etiraz edilməyən və ya K. təyin edən ölkə ilə K. qəbul edən ölkə arasında qüvvədə olan *beynəlxalq müqavilələrdə* nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirilmək.

K. gəldiyi ölkədə diplomatik nümayəndələrlə müqayisədə məhdud hüquq, imtiyaz və toxunulmazlıq hüququndan (*konsulluq imtiyazları və immunitetləri*) istifadə edir. *Səfirdən* fərqli olaraq K. dövləti siyasi sahədə və diplomatik planda təmsil etmir. K. *diplomatik münasibətlər* zamanı dövlətini hüquqi-əmlak münasibətləri planında təmsil etməsinə baxmayaraq, bəzən daha mühüm rol oynaya bilir. Məs., *diplomatik əlaqələr* kəsildiyi halda bu münasibətlərin pozulması K. münasibətlərinə toxunmaya bilər.

Təmsil olunan dövlətin bir dövlətdə *diplomatik nümayəndəliyi* olmadıqda və ya o üçüncü dövlətin diplomatik nümayəndəliyi tərəfindən təmsil olunmursa, K.-un gəldiyi dövlətin icazəsi ilə və onun konsul statusu dəyişdirilmədən, diplomatik aktlar həyata keçirməyə vəkil edilə bilər. K. tərəfindən belə aktların həyata keçirilməsi ona diplomatik imtiyaz və immunitetlərin (*Diplomatik imtiyazlar və toxunulmazlıq hüquqları*) verilməsini tələb etmək hüququ vermir. K., gəldiyi dövlət xəbərdar edildikdən sonra təmsil etdiyi dövlətin nümayəndəsi kimi hər hansı *beynəlxalq hökumətlərarası təşkilat* yanında fəaliyyət göstərə bilər. Bu zaman o, beynəlxalq hüquq və müqavilələrlə (*Beynəlxalq müqavilə*), belə nümayəndə üçün nəzərdə tutulmuş bütün imtiyaz və immunitetlərdən istifadə edə bilər. Lakin hər hansı K. vəzifəsinin yerinə yetirilməsinə baxmayaraq K.-un *konsul konvensiyada* nəzərdə tutulmuş və malik olduğu yurisdiksiyasından artıq immunitet tələb etmək hüququ yoxdur.

Bir K. gəldiyi dövlətin razılığı ilə iki və ya bir neçə dövləti təmsil edə bilər. K. prinsipcə təmsil etdiyi dövlətin vətəndaşı olmalıdır.

Gəldiyi dövlət K.-a xüsusi hörmətlə yanaşmalı, onun şəxsiyyətini, azadlığını və ləyaqətini qorumaq üçün lazımi tədbirlər görməlidir.

Ağır cinayətlər törətdiyi halda məhkəmə qərarı olmadan K. həbs edilə, tutulub saxlanıla bilməz. Məhkəmənin qərarı qüvvəyə minmədən onun şəxsi azadlıqlarına heç bir məhdudiyyət qoyulmur. K. konsul vəzifələrini yerinə yetirilməsi ilə bağlı hərəkətlərinə dair gəldiyi ölkənin məhkəmə və inzibati orqanlarının yurisdiksiyasına tabe deyildir. K. məhkəmə və inzibati işlərlə bağlı şahid kimi dindirilə bilər. K. ifadə verməkdən imtina edərsə, ona cəza və məcburi tədbirlər tətbiq edilmir. K. vəzifələrinin yerinə yetirilməsi ilə bağlı ifadə verməli deyil.

K. xidməti ilk dəfə olaraq orta əsrlərdə İtalyan şəhər dövlətlərində yaranmağa başlamışdı. K. xidməti yerli hökumət qarşısında K.-un həmvətənləri olan tacirlərin maraqlarını qorumaqdan, onlar arasında mübahisələrin həll edilməsindən ibarət idi. Nəticədə belə işlərlə məşğul olan orqanlar meydana gəlməyə başladı. Səlib yürüşləri zamanı səlibçilər italyan şəhər dövlətlərindən – Venetsiyadan, Genuyadan, Pizadan böyük yardım alırdılar. Bunun əvəzində bu şəhərlər qənimət payından əlavə yenidən yaradılmış dövlətlərdə, demək olar ki, hər bir şəhərdə kvartallar alır və bir sıra İtaliya koloniyaları təşkil edirdilər. İtaliya koloniyalarının başında tacirlərdən seçilmiş və milliyyətcə italyan olan vəzifəli şəxs dururdu. Onlar əvvəlcə «vikontilər» (**vicecomites**) titulu daşıyırdılar. XII əsrdən koloniyanın hansı şəhərə aid olmasından asılı olaraq – Venetsiyaya, Genuyaya və s. – onlar bayulo (**baiulus**) və konsul adlanmağa başladılar. Bir qayda olaraq bu nümayəndələr İtaliya şəhərlərindən göndərilirdi və İtaliya respublikalarının digər vəzifəli şəxsləri kimi seçilirdilər. Hərdən elə olurdu ki, onları koloniyaların əhalisi seçirdi. Yerli hakimiyyət dairələri ilə İtaliya konsulları arasında hüquqi məsələlər müqavilələrlə müəyyən olunurdu. Həmvətənlərin işinə dair mülki və xüsusi ilə də ticarət yurisdiksiyası K.-un əlində cəmləşirdi. Səlibçilər Suriya və Fələstindən qovulduqdan sonra da bu K.-ların koloniyalardakı mövqeyi dəyişmədi. Məs., İsgəndəriyyədə K.-un hər il on dəfə sultanın qəbuluna getmək hüququ vardı. Türklər Konstantinopolu ələ keçirdikdən sonra da Venetsiya koloniyası öz idarəsini və bayulo ilə (konsulu) birlikdə inzibati və məhkəmə funksiyalarını qoruyub saxladı. O, eyni zamanda həm K., həm də səfiri təmsil edirdi, yəni Venetsiyanın sultan sarayı yanında daimi diplomatik nümayəndəliyi idi.

Daha sonralar Avropada ticarətin inkişafı ilə əlaqədar olaraq şəhərlərə K. göndərilməyə başlandı. XIX əsrdə kapitalizmin inkişafı sürətləndikcə satış bazarına ehtiyac da artırdı. Belə şəraitdə konsulluqların sayı daha da artır və onların üzərinə daha ciddi vəzifələr qoyulurdu. Bir müddət K. və ticarət xidmətləri arasında əlaqələr o qədər sıx idi ki, onları «ticarət-konsul idarələri» adlandırırdılar.

Hal-hazırda K. idarələrinin fəaliyyət dairəsi çox genişdir, ticarət məsələləri mühüm yer tutsa da, bu idarələrin işində başlıca yeri tutmur.

Konsul münasibətlərinin nizamlanmasına, onların vəzifələrinə, səlahiyyətlərinə və s. dair bütün başlıca məsələlər 24.IV.1963 ildə qəbul olunmuş *Vyana Konvensiyasında* (*Beynəlxalq konvensiya*) öz əksini tapmışdır.

**KONSUL DAİRƏSİ.** *Konsulun* gəldiyi ölkədə xidməti fəaliyyətini həyata keçirdiyi rayon (ərazi). K.d. onun sərhədələri və ya ona daxil olan inzibati-ərazi vahidlərinin adları adətən *konsul patentində* və *konsul ekzekvaturasında* göstərilir.

K.d. geniş ərazidən, təkcə konsulun olduğu məntəqədən də (şəhər, liman) ibarət ola bilər. K.d. hər bir ayrıca halda qarşılıqlı razılaşmaya əsasən müəyyən olunur. Müəyyən bir ölkədə konsul təyin edən dövlətin *diplomatik nümayəndəliyi* olmadıqda bu ölkənin ərazisi (*Dövlətin ərazisi*) K.d.-nə daxil edilə bilər. Konsulların K.d.-nə daxil olmayan dövlət əraziləri ilə münasibətləri diplomatik nümayəndəliyin konsul məsələlərinə dair şöbəsi vasitəsilə ilə qurulur.

Xidməti fəaliyyətini həyata keçirən zaman konsul *Konsul Konvensiyasına* və ya yerli praktika və adətlərə uyğun olaraq öz K.d.-də bilavasitə yerli hakimiyyət dairələri ilə əlaqələr yarada bilər. K.-d.-dən kənarda hakimiyyət dairələri və ya mərkəzi orqanları ilə ancaq bu ölkənin səlahiyyətli orqanları iştirak etdikdə və ya dövlətin etirazı olmadıqda münasibətlər qurmaq mümkündür. Əks halda konsul ölkəsinin diplomatik nümayəndəliyi vasitəsilə və ya müvafiq K.d.-nin konsulunun yardımı ilə hərəkət edir.

**KONSUL DƏRƏCƏLƏRİ.** *Konsulların* xidməti mövqe ilə əlaqədar tutduqları dərəcələr. Konsul əlaqələrinə dair 1963 il *Vyana konvensiyana (Beynəlxalq konvensiya)* görə (maddə 9) *konsul idarələrinin* başçıları dörd dərəcəyə bölünürlər: a) baş konsullar; b) konsullar; c) vitse-konsullar; d) konsul agentləri. Xarici ölkələrin konsul xidməti sistemində beşinci-prokonsul dərəcəsi də vardır. Prokonsullar konsul idarələrinin başçısı ola bilməzlər, ancaq konsulluq başçısı olmadıqda onu müvəqqəti olaraq əvəz edə bilərlər. Adətən prokonsul konsulun məhdud məsələlərə dair köməkçisi olur. Baş konsullar, konsullar, vitse-konsullar və konsul agentləri müvafiq olaraq baş konsulluqların, konsulluqların, vitse-konsulluqların və konsul agentliklərinin işinə rəhbərlik edirlər. Beynəlxalq praktikada fəxri konsul vəzifəli şəxslər tərəfindən başçılıq edilən konsul idarələri də nəzərdə tutulur. Lakin konsullar və vitse-konsullar müstəqil konsul idarəsinin başında durmaya da bilərlər, dərəcələrinə görə onlardan yüksək olan konsulluq başçılarının müavini və ya köməkçisi ola bilərlər. Dərəcəsinə görə böyük olan konsul adətən bu və ya digər ölkənin daha vacib məntəqəsinə təyin edilir. Bəzən bu konsula gəldiyi ölkədə öz ölkəsinin bütün konsulluqları və ya bir neçə konsulluğu üzərində rəhbərlik həvalə edilir. Konsul agentlikləri, vitse-konsulluqlar bir növ baş konsulluğun və ya konsulluğun filialıdırlar. Baş konsulluq və ya konsulluq ancaq yerləşdiyi dövlətin razılığı ilə vitse-konsulluq və ya konsul agentliyi aça bilər. Konsul agentləri olduqları yerdə, demək olar ki, bütün konsul xidmətlərini həyata keçirir, eləcə də onların dairəsinə baş çəkməyə gələn əsas konsul idarəsinin konsul vəzifəli şəxslərinə kömək edirlər. Bəzi ölkələr konsul agentlərini agentin gedəcəyi ölkənin vətəndaşlarından və ya orada daimi yaşayan şəxslərdən təyin edirlər.

K.d.-nin verilməsi konsulun üzərinə qoyulan vəzifələrin əhəmiyyətini və həcmini nəzərə almaqla, konsul təyin

edən dövlətdən asılıdır, lakin konsulu *qəbul edən dövlət* onu ərazisində konsulluq təsis edilməsi ilə bağlı sazişdə nəzərdə tutulmuş dərəcədən yüksək dərəcə ilə qəbul edə bilməz. Dərəcəsindən asılı olmayaraq konsullar Xarici İşlər Nazirliyinə (*Xarici İşlər İdarəsi*) və eyni zamanda onu təyin edən ölkənin *səfirliyinə* və *diplomatik missiyalarına* tabedirlər.

**KONSUL EKZEKVATURASI** (lat. *exsequor* – yerinə yetirirəm). *Konsulun* onu qəbul edən ölkə tərəfindən tanınması və onun *konsul dairəsində konsul vəzifələrinin* icrasına buraxılmasına razılıq haqda sənəddir. K.e. baş konsullara, konsullara və müstəqil *konsul idarələrinə* başçılıq edən konsul agentlərinə verilir. K.e. *konsul patentləri* kimi konsulluğa rəhbərlik etməyən konsullara həmişə verilmir. Bu konsul təyin edən ölkənin, eləcə də konsulun gəldiyi ölkənin praktikasından asılıdır. Bir qayda olaraq, *diplomatik nümayəndəliklərin* konsul şöbələrinin rəhbərlərinə K.e. verilmir. K.e.-nın verilməsi ya *dövlət başçısı* adından və onun imzası ilə, ya da ölkənin daxili qanunvericiliyindən asılı olaraq dövlətin adından, xarici işlər nazirinin imzası ilə həyata keçirilir. Bəzi hallarda K.e. ayrıca sənəd formasında, digər hallarda konsul petantinə bənzər *Qətnamə* formasında verilir. Qətnamə dövlət başçısı və ya xarici işlər naziri tərəfindən imzalanır və möhürlənir. K.e. verməkdən imtina edən dövlət imtina səbəblərini bildirməyə məcbur deyil.

K.e. konsul patentinin və ya konsulun təyin olunması haqda digər bildirişlər (nota (*Diplomatik nota*) və s.) təqdim olunmaqla verilir. K.e. konsul üçün tələb olunur və onun patenti diplomatik yolla, *səfirlik* və ya *diplomatik missiya* vasitəsilə xarici işlər nazirliyinə təqdim edilir.

Bir qayda olaraq, K.e.-nın verilməsi anından konsul rəsmi olaraq öz vəzifələrinin icrasına başlayır və *konsul imtiyazları və immunitetlərindən* istifadə edir. Konsul idarələrinin başçılarına K.e. verilənədək onlara müvəqqəti olaraq öz vəzifələrini icra etməyə icazə verilir və konsulluqda başçılıq qaydası müəyyən olunan zaman, başçılıq konsulun müvəqqəti olaraq işə başladığı vaxtdan müəyyən olunur.

Konsul təyin edən ölkənin və konsulun gəldiyi ölkənin qanunları tələb edərsə, konsul idarəsinin başçısı olmayan konsul vəzifəli şəxsə K.e. verilir. Konsulun yerləşdiyi dövlət konsul təyin edən dövləti təmsil edən bu və ya digər şəxsi «*persona non grata*» elan edərsə, konsul təyin edən dövlət həmin şəxsi geri çağırmalı və ya konsulluqda onun fəaliyyətini dayandırmalıdır. Əgər dövlət bu öhdəliyini müəyyən olunmuş vaxt ərzində yerinə yetirməzsə, konsulu qəbul edən dövlət həmin şəxsə verilən ekzekvaturanı ləğv edə bilər. K.e. ləğv olunarsa, konsul işçisinin fəaliyyəti dayanır.

**KONSUL ƏLAQƏLƏRİNƏ DAİR VYANA KONVENSİYASI** (1963). 24.VI. *BMT*-nin Vyanada keçirilmiş konfransında (*Beynəlxalq konfranslar*) qəbul edilib.19.III 1967 ildən qüvvədədir.

K.-nin bir çox maddələrinin keçmiş SSRİ-nin daxili qanunvericiliyi ilə ziddiyyət təşkil etməsi adı ilə sovetlər birliyi bu beynəlxalq müahidəyə qoşulmamışdır.

**KONSUL FUNKSİYALARI.** Beynəlxalq sazişlərlə (Konsulluq əlaqələrinə dair 1963 il *Vyana konvensiyası (Beynəlxalq konvensiya)*, Konsulluq funksiyalarına dair Avropa konvensiyası), ikitərəfli *konsul konvensiyaları*, ticarət və dənizçiliyə dair müqavilələrdə (*Beynəlxalq müqavilə*), habelə dövlətdaxili qanunvericilkdə müəyyən edilir.

*Konsul*, əsasən, aşağıdakı *funksiyaları yerinə yetirir*:

- təmsil etdiyi dövlətin hüquqi şəxslərinin və vətəndaşlarının *beynəlxalq münasibətlərə* əsasən qəbul edən dövlətin qanunvericiliyi ilə onlara verilən bütün hüquqlardan tam həcmdə istifadə etmələri üçün tədbir görür;
- təmsil etdiyi dövlətin hüquqi *şəxslərinin və vətəndaşlarının* pozulmuş hüquqlarının bərpası üçün tədbir görür;
- təmsil etdiyi dövlətin *konsulluq dairəsində* daimi yaşayan və müvəqqəti qalan vətəndaşlarının qeydiyyatını aparır;
- konsulluq dairəsi hüdudlarında təmsil etdiyi dövlətin *nazirliklərinin*, idarə və təşkilatlarının nümayəndələrinin, habelə xarici ezamiyyətə gələn vətəndaşlarının xidməti vəzifələrini yerinə yetirməsinə kömək göstərir;
- konsulluq dairəsində təmsil etdiyi dövlətin müvəqqəti qalan vətəndaşlarını qəbul edən dövlətin qanunları, qərar və sərəncamları, habelə yerli adətləri barədə məlumatlandırır;
- konsulluq dairəsində təmsil etdiyi dövlətin vətəndaşları üçün mədəni-kütləvi tədbirlərin keçirilməsinə kömək göstərir;
- təmsil etdiyi dövlətin prosessual qanunvericiliyinə əməl etməklə həmin dövlətin istintaq və məhkəmə orqanlarının (əgər *qəbul edən dövlətin* qanunları yol verirsə) öz vətəndaşlarına dair tapşırıqlarını yerinə yetirir;
- təmsil etdiyi dövlətin həbsə alınmış, yaxud cinayət törətməkdə şübhəli bilinib saxlanan, habelə azadlıqdan məhrumolunma şəklində cəzasını çəkən vətəndaşlarına münasibətdə qəbul edən dövlətin qanunlarının bu dövlətlə öz dövlətinin bağladıqları müqavilələrin müvafiq müddəalarına riayət olunmasına göz qoyur;
- maraqlı şəxslərin xahişi və öz təşəbbüsü ilə təmsil etdiyi dövlətin həbs yerlərində saxlanan vətəndaşlarına baş çəkir, onların saxlanma şərati ilə maraqlanır, belə şəxslərin gigiyena və sanitariya tələblərinə cavab verən şəraitdə saxlanmasına və onlarla sərt və insan ləyaqətini alçaldan formada *davranılmamasına* nəzarət edir;
- təmsil etdiyi dövlətin vətəndaşlarına pasport verir, vaxtını uzadır və pasportlarda dəyişikliklər edir;
- *təmsil etdiyi dövlətə* giriş, çıxış və tranzit keçid üçün *vizalar* verir, viza vaxtını uzadır, vizalarda dəyişikliklər edir;
- *özünün konsulluq dairəsində* yaşayan şəxslərdən təmsil etdiyi dövlətin *vətəndaşlığına* qəbul edilmək barədə ərizələr alır;
- *təmsil etdiyi dövlətin qanunvericiliyinə* müvafiq qaydada, həmin dövlətin vətəndaşlarının vətəndaşlıq vəziyyətləri aktlarını qeydə alır;
- *notarius hərəkətlərini həyata* keçirir;
- konsulluq dairəsindəki hakimiyyət nümayəndələrinin iştirakı ilə tərtib edilən, *yaxud onlardan göndərilən* sənədlərin və aktların *konsul leqallaşdırılmasını* həyata keçirir.

Konsulluğa dair konvensiyalarda *həmçinin təmsil etdiyi dövlətin hərbi* işləri, mülki dənizçilik vasitələri, hava gəmiləri, habelə sanitar və veterinar mühafizə barəsində də K.f. müəyyən *edilmişdir. Konsul həmçinin* müvafiq konvensiyalarda nəzərdə tutulmayan,

lakin təmsilçisi olduğu dövlətin və qəbul edən dövlətin qanunvericiliyi ilə ziddiyət təşkil etməyən funksiyaları da həyata keçirə bilər.

*Diplomatik nümayəndəlik* olmayan dövlətlərdə, qəbul edən dövlətin razılığı ilə konsula təmsil etdiyi dövlətin diplomatik funksiyaları da həvalə edilə bilər.

Konsul ona həvalə edilən funkisiyaları şəxsən yerinə yetirir yaxud onların icrasını konsulluğun digər vəzifəli şəxsinə tapşırır.

Konsulun üçüncü dövlətin adından K.f. yerinə yetirməsi yalnız təmsil etdiyi dövlətin Xarici İşlər Nazirliyinin (*Xarici İşlər İdarəsi*) göstərişi və qəbul edən dövlətin razılığı ilə mümkündür.

**KONSUL İDARƏSİ.** Hər hansı *konsul dairəsində konsul vəzifələrinin* yerinə yetirilməsi üçün iki dövlət arasında müqavilə (*Beynəlxalq müqavilə*) əsasında xarici dövlətdə təsis olunan daimi xarici əlaqələr orqanıdır. K.i. yerləşdiyi *diplomatik nümayəndəliklə* müqayisədə məhdud hüquq, imtiyaz və immunitetlərdən *(konsul imtiyazları və immunitetləri)* istifadə edirlər. K.i.-nin işçiləri onların xidməti fəaliyyəti zamanı olduqları ölkənin cinayət, mülki və inzibati yurisdiksiyasından (*Dövlətin yurisdiksiyası*), toxunulmazlıq hüququndan istifadə edirlər. K.i., konsul nümayəndəliyinin başçısı da daxil olmaqla onun xidməti vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar məsələlərə dair ifadə vermək istisna olunmaqla, şahid kimi ifadə verməkdən imtina edə bilməz.

K.i. dövləti təkcə siyasi sahədə və diplomatik planda təmsil etmir. Normal *diplomatik münasibətlərdə* K.i. dövləti hüquqi-əmlak münasibətləri planında da təmsil edir, bəzən isə çox mühüm rol oynayır. Diplomatik münasibətlərin qırılması *konsul münasibətlərinin* kəsilməsinə səbəb olmur. Diplomatik münasibətlər kəsilən hallarda K.i.-nin rolu yüksəlir və çox vaxt normal diplomatik münasibətlərin bərpa olunmasına kömək edir.

K.i. aşağıdakı yerlərdə açılır:

- K.i. açan dövlətin konsulluğunun yerləşdiyi dövlətdə yaşayan, dilini, milli mədəniyyətini saxlayan, lakin konsulluğun yerləşdiyi ölkənin vətəndaşı olan çoxlu sayda həmvətənlərinin olduğu yerlərdə;
- Müvafiq ölkənin çoxlu sayda vətəndaşları olan yerlərdə (iri turist mərkəzləri, ziyarət yerləri və s.);
- Konkret ticarət və ya digər maraqların olduğu və bir sıra hüquqi əmlak məsələlərinin və s. tərtib olunması tələb olunan yerlərdə;

K.i. aşağıdakı kateqoriyaya bölünürlər:

- baş konsulluqlar;
- konsulluqlar;
- vitse-konsulluqlar;
- konsul agentlikləri;
- fəxri konsul vəzifəli şəxslər tərəfindən başçılıq edilən konsul idarələri.

K.i.-lərinin strukturu dünyanın əksər ölkələrində əsasən bir-birinə bənzəyir. K.i. konsul xidmətlərinin yerinə yetirilməsi ilə bağlı siyasi, iqtisadi informasiyanın toplanması və təqdim olunması ilə də məşğul olmalıdır.

**KONSUL İMTİYAZLARI VƏ İMMUNİTETLƏRİ.** *Konsul idarələrinə, konsullara,* konsul xidmətinin vəzifəli şəxslərinə və konsulluq əməkdaşlarına onların vəzifələrini (*Konsul vəzifələri*) sərbəst və normal həyata keçirmələri məqsədi ilə verilən güzəşt və imtiyazlardır. K.i. və i. *beynəlxalq hüquqa* əsaslanır.





Bütün dövlətlər üçün konkret K.i. və i-nin nizamlanması *BMT* Baş Assambleyasının tapşırığı ilə BMT-nin *Beynəlxalq Hüquq Komissiyası* 1959-1961 illərdə konsul əlaqələri və immunitetlərinə dair layihə işləyib hazırlamışdır. 1963 ildə konsul əlaqələrinə dair *Vyana konvensiyası (Beynəlxalq konvensiya)* qəbul edildi ki, burada da bütün dövlətlər üçün ümumi, beynəlxalq hüquq normalarına uyğun konkret K.i. və i. müəyyən olundu. Tarixən K.i. və i. beynəlxalq hüququn ümumi yazılı normalarının yaradılması yolu ilə deyil, müxtəlif dövlətlərin milli qanunvericilik aktlarındakı beynəlxalq adətlər şəklində, eləcə də konsul konvensiyalarına (*Konsul konvensiyası*) və konsul məsələlərinə dair digər sazişlərə müvafiq olaraq müəyyən olunurdu. 1963 il Vyana Konvensiyasınadək 50-yə qədər ölkə K.i. və i.-nin nizamlanmasına dair qanunverici aktlar qəbul etmiş, konvensiyalar imzalamışlar. K.i. və i.- ilk dəfə 1769 ildə, tarixdə birinci konsul konvensiyasında (Fransa-İspaniya arasında) təsbit olunmuş, sonra geniş yayılmağa başlamış və XX əsrin ortalarından üstünlük təşkil etmişdi.

K.i. və i konsul idarələrinin istifadə etdiyi imtiyaz və immunitetlərə, həm də konsulların istifadə etdiyi imtiyaz və immunitetlərə bölünür.

Konsulluqların yerləşdiyi binalar toxunulmazlıq hüququna malikdir. Konsulluqların yerləşdiyi dövlətin hakimiyyət orqanlarının konsul idarəsi başçısının razılığı olmadan bu binalara daxil olmaq hüququ yoxdur. Konsulluq binalarının, onların əmlakının, eləcə də hərəkət vasitələrinin ictimai ehtiyaclar və ya dövlətin müdafiəsi məqsədilə istənilən növ müsadirədən yoxunulmazlıq hüququ vardır. Əgər binaların bu məqsədlə boşaldılması zərurəti meydana çıxarsa, konsulluğa vəzifələrinin yerinə yetirməsini təmin etməyə imkan verən bütün mümkün tədbirlər görülür və təmsilçi dövlətə təxirə salınmadan müvafiq və təsirli kompensasiya ödənilir.

Konsul arxivləri (*Diplomatik arxiv*) və sənədləri istənilən vaxt və yerləşdiyi yerdən asılı olmayaraq toxunulmazdır.

Konsulluqların yerləşdiyi binalar və konsul idarələri başçılarının iqamətgahları müəyyən növ xidmət ödənişləri istisna olunmaqla bütün dövlət, rayon, bələdiyyə vergilərindən, rüsumlarından azad olunurlar.

Konsulluğun yerləşdiyi dövlət konsulluğun rəsmi məqsədlərlə sərbəst əlaqələrr qurmasına icazə verməlidir. Konsul idarələrinin rəsmi yazışmaları toxunulmazdır.

Konsulluğun vəzifəli şəxsləri vəzifələrini yerinə yetirərkən *konsul dairəsinin* səlahiyyətli orqanlarına, qanunla müəyyən olunmuş səviyyədə və müvafiq müqavilələrə (*Beynəlxalq müqavilə*) uyğun olaraq dövlət səlahiyyətli orqanlarına müraciət edə bilərlər.

Konsul idarəsi gəldiyi ölkə ərazisində təmsil etdiyi dövlətin qanun və qaydaları ilə nəzərdə tutulan vergi və rüsumları toplaya bilər.

Konsul və konsul vəzifəli şəxslərin şəxsi toxunulmazlıq hüququ vardır. Lakin ağır cinayətlər baş verdiyi halda səlahiyyətli məhkəmə orqanları tərəfindən verilmiş qərara əsasən həbs edilə, tutulub saxlanıla bilərlər. Hər hansı konsulluq işçisinin həbsi və tutulub saxlanılması baş verdikdə onların gəldiyi dövlətin konsul idarəsinin başçısına bu barədə gecikmədən məlumat verir. Əgər həbs edilən və tutulub saxlanılan vəzifəli şəxs konsul idarəsinin

başçısıdırsa, bu barədə onun dövlətinə diplomatik kanallar vasitəsilə məlumat verilməlidir.

Beynəlxalq hüquqda qəbul edilmişdir ki, konsullar, konsul xidmətinin vəzifəli şəxsləri onların xidməti fəaliyyəti ilə bağlı gəldikləri dövlətin məhkəmə və inzibati orqanlarının yurisdiksiyasına (*Dövlətin yurisdiksiyası*) tabe deyillər. Lakin digər hallarda konsul və konsul xidmətinin vəzifəli şəxsləri gəldikləri dövlətin yurisdiksiyasına tabedirlər. Konsulun şahid kimi ifadə vermək öhdəliyi vardır.

Konsul və konsulluq işçiləri məhkəmə və inzibati işlərlə bağlı şahid kimi çağırıla və dindirilə bilər. Konsul və konsulluq işçiləri öz vəzifələrinin yerinə yetirilməsi ilə bağlı ifadə sənədləri təqdim etməli deyillər. Onlar həmçinin təmsil etdikləri dövlətin qanunvericiliyini aydınlaşdıran ifadələr verməyə məcbur deyillər. Bu hallar istisna olunmaqla konsul və konsulluq işçiləri ifadə verməkdən imtina edə bilməzlər (maddə 44). Əgər ifadə verməkdən imtina edərlərsə, onlara qarşı heç bir məcburi hərəkətlər və ya cəza tətbiq edilə bilməz. Konsul və konsul vəzifəli şəxslərdən ifadə tələb edən orqan bu şəxsin vəzifələrini yerinə yetirməyə mane olmamalıdır. O, nə vaxt mümkün olduqda bu şəxsin evində və ya konsulluq idarəsində ifadələrini dinləyə bilər və ya ondan yazılı ifadə ala bilər.

Konsul və digər konsulluq işçiləri, onlarla birlikdə yaşayan ailə üzvləri olduqları dövlətin xaricilərin qeydiyyatına və yaşayış yerinə icazə almağa dair qanun və qaydalarla nəzərdə tutulmuş bütün öhdəliklərindən azaddırlar. Konsul və digər konsulluq işçiləri, onlarla birlikdə yaşayan ailə üzvləri, dövlətin, rayonun və bələdiyyənin bütün vergi və rüsumlarından, ödənişlərindən azaddırlar. Lakin göstərilən şəxslər olduqları dövlət ərazisində daşınmaz əmlaka sahib olarsa, konsul olaraq aldığı əmək haqqında əlavə şəxsi gəlir əldə edərsə, müvafiq vergi və rüsumlar ödənilir.

Konsul *qəbul edən dövlət* konsulluq əmlakını, konsulun şəxsi baqajını bütün gömrük vergilərindən və rüsumlarından, saxlama, daşıma pulu və s. istisna olunmaqla azad edir. Əgər konsulun baqajında ölkəyə onun qanunları ilə nəzərdə tutulmuş qaydada gətirilməsi və aparılması qadağan olunan əşyaların olmasına ciddi əsas olarsa, konsul vəzifəli şəxsin iştirakı ilə baqaja baxış keçirilə bilər.

Konsulluq işçisi və ya onun ailə üzvü öldükdə dövlət ona malik daşınan əmlakın aparılmasına icazə verir və bu əmlakdan və mirasdan vergi tutulmur. Konsulluq işçiləri konsul, digər konsul vəzifəli şəxslər, onların ailə üzvləri olduqları dövlətin əmək və dövlət mükəlləfiyyətlərindən, azaddırlar.

Hər bir konsul, konsulluq işçisi təyin edildiyi dövlətin ərazisinə daxil olduğu andan və ya konsul idarəsində öz vəzifələrinin icrasına başladığı andan K.i. və i-dən istifadə edir. Konsul və konsul vəzifəli şəxs öz təyinat yerinə gedərsə və ya öz postuna qayıdarsa, ona viza verən üçüncü dövlətin ərazisindən keçir və bu üçüncü dövlət ona konsul Konvensiyada nəzərdə tutulmuş imtiyazlar və rəsmi xəbərlərin kodlaşdırılmış və ya şifrlənmiş depeşələrin göndərilməsini təmin etməlidir.

Bütün bu imtiyaz və immunitetlərdən istifadə edən vəzifəli şəxslər olduqları ölkənin qaydalarına, qanunlarına öz immunitet və konsul imtiyazlarına zərbə vurmadan, hörmət etməlidirlər. Konsulluq üçün nəzərdə tutulmuş binalardan konsul xidməti ilə bir araya gəlməyən məqsədlər üçün istifadə edilə bilməz.

Konsulluğun ixtiyarı vardır ki, yerləşdiyi binaların üzərinə, xidməti fəaliyyəti ilə bağlı istifadə etdiyi nəqliyyat vasitələrinə milli bayraq (*Dövlət bayrağı*) taxsın və konsul binalarına yazılı lövhələr vursun.

Əgər konsul vəzifəli şəxs fəaliyyət göstərdiyi dövlətin vətəndaşı olarsa və ya burada daimi yaşayarsa, bu dövlət ona heç bir əlavə imtiyaz, səlahiyyət və immunitet təqdim etmir, yalnız yurisdiksiya immunitetindən və öz rəsmi vəzifələrini yerinə yetirərkən şəxsi toxunulmazlıq hüququndan istifadə edir. Bu şəxslər barəsində cinayət işi qaldırılarsa, bu şəxsin həbs edilməsi və ya tutulub saxlanılması istisna olunmaqla, məhkəmə araşdırması o səviyyədə həyata keçirilməlidir ki, konsulun vəzifələrini yerinə yetirməsi üçün mümkün qədər az maneçilik yaransın.

Digər konsulluq işçiləri xidmət etdikləri dövlətin vətəndaşları olarlarsa və ya burada daimi yaşayırlarsa, eləcə də onların ailə üzvləri, konsul vəzifəli şəxsin ailə üzvləri imtiyaz, immunitet və hüquqlardan dövlətin müəyyən etdiyi dərəcədə istifadə edə bilərlər. Bunlar eyni ilə konsulluq işçilərinin ailə üzvlərinə, ev xidmətçilərinə aiddir. Dövlət bu şəxslər üzərində yurisdiksiyasını elə həyata keçirməlidir ki, konsul idarəsinin fəaliyyətinə əlavə maneçilik törətməsin.

**KONSUL KONVENSİYALARI.** Dövlətlər arasında konsul nümayəndəliklərinin təsis olunması, təyin olunma və geri çağırılma qaydasını, fəaliyyət dairəsini, konsul vəzifəli şəxslərin və konsulluq əməkdaşlarının hüquqlarını, imtiyazlarını və immunitetlərini (*Konsulluq imtiyazları və immunitetləri*) müəyyən edən konsul hüququ normalarından ibarət beynəlxalq dövlətlərarası sazişlərdir. K.k. konsul hüququnun mənbələrindən biridir.

Tarixdə ilk konsul konvensiyası 1769 ildə Fransa ilə İspaniya arasında imzalanmışdır. *Beynəlxalq münasibətlər* tarixində konsulluq məsələlərinə dair dövlətlər öz aralarında bir çox konsul konvensiyaları imzalaşmışlar. Məs., 1928 il konsul məmurları haqqında Havana konvensiyası (*Beynəlxalq konvensiya*), 1947 il ABŞ və Filippinin konsul konvensiyası, 1951 il ingilis-fransız konsul konvensiyası, 1956 il Avstriya-Yuqoslaviya konvensiyasını və s. göstərmək olar.

K.k.-rı adətən ikitərəfli xarakter daşımışlar. 1928 il Havana konsul konvensiyası isə çoxtərəfli olmuşdur.

Konsul məsələlərinə dair təkmilləşdirilmiş son sənəd *BMT* çərçivəsində işlənib hazırlanmış 24.IV.1963 ildə imzalanmış Konsul Əlaqələrinə dair *Vyana Konvensiyasıdır*. 19.III.1967 ildə Konsul Əlaqələrinə dair Konvensiya qüvvəyə minmişdir.

**KONSUL KORPUSU.** Xarici konsulluqların (*Konsul idarəsi*) hər hansı ölkənin bu və ya digər məntəqəsində (şəhərində, limanında) məcmusu.

Əgər bir konsulluq dairəsində (şəhərdə) çoxlu sayda konsul idarələri varsa, burada *diplomatik korpus* kimi K.k.-u yaradılır. K.k. *beynəlxalq münasibətlərdə* diplomatik korpusun malik olduğu çəkiyə və nüfuza malik deyil və hər hansı beynəlxalq hüquqi status almağa iddia edə bilməz. Onun fəaliyyəti müəyyən dərəcədə qeyri-rəsmi xarakter daşıyır. Lakin K.k. bu halda da konsul idarələri və *konsul dairələrinin* yerli hakimiyyət orqanları ilə normal, işgüzar və dostluq münasibətlərinin

qaydaya salınmasına kömək edə bilər. K.k. adətən daimi xarakter daşımır. Onun təyinatı ancaq müəyyən mərasimlərlə bağlı olur: təbriklərin, *başsağlıqların* verilməsi, görüşlərin, banketlərin təşkili və s. *konsullar* adından çıxış edən K.k.-nun başçısı *(Duayen)* dərəcəsinə görə böyük konsul hesab edilir, əgər konsullar eyni dərəcədə olarlarsa, kimə daha tez *ekzekvatura* verilibsə, o duayen olur. Əgər ekzekvaturalar eyni tarixdə verilibsə, başçılıq *konsulluq patentinin* verilməsi ya da konsulun ölkəyə gəlişinin vaxtı ilə müəyyən edilir. Konsulluğun başçısı olan konsul, konsul idarəsinin başçısı olmayan konsula münasibətdə üstünlüyə malikdir.

Dar mənada K.k.-a ancaq konsul idarələrinin başçıları daxildir. Geniş mənada K.k.-na konsulluqların rəsmi heyəti də (konsulluq başçılarının müavini və ya köməkçiləri olan konsullar) daxildir. Bəzən K.k. dedikdə xaricdə yerləşən bu və ya digər ölkənin bütün konsullarının məcmusu başa düşülür.

**KONSUL LEQALLAŞDIRILMASI** (lat. *Leqalis* - qanuni). *Konsulun* sənədlərdəki imzaların doğruluğunu, habelə sənədləri qəbul edən ölkənin qanunlarına uyğun gəlməsinin möhürü ilə müəyyənləşdirməsi və təsdiq etməsi. Konsulun təmsil etdiyi dövlətdə tərtib olunan və qəbul edən ölkəyə təqdim üçün nəzərdə tutulan sənədlərdə K.l.-sı praktikada özünü göstərir. K.l. sənədlərin beynəlxalq əlaqələrdə hüquqi qüvvəsini təsdiq edir. Xarici dövlətlərin hakimiyyət orqanlarından çıxan sənədlərə qəbul edən dövlətdə bir qayda olaraq, K.l.-dan sonra baxılır. K.l. qaydası hər dövlətin Xarici İşlər Nazirliyi *(Xarici İşlər İdarəsi)* tərəfindən müəyyən edilir. Azərbaycan Respublikası ərazisində KL Azərbaycan XİN-in *Konsulluq İdarəsi*, habelə xarici dövlətlərin konsulluq müəssisələri tərəfindən həyata keçirilir. Azərbaycan Respublikasının qanunvericiliyi ilə ziddiyyət təşkil edən, öz məzmunu ilə dövlətin maraqlarına ziyan vura bilən, yaxud onun vətəndaşlarının şərəf və ləyaqətini alçaldan məqamları özündə ehtiva edən sənədlər K.l.-dan keçmir.

**KONSUL LÖVHƏSİ.** Təqdim edən dövlətin gerbi təsvir olunan və təqdim edən dövlətin və qəbul edən dövlətin dillərində konsulluq müəssisəsinin adı yazılan emblem.

K.l. konsulluq müəssisəsinin yerləşdiyi binaya, habelə onun başçısının iqamətgahına vurula bilər. Konsulluğun K.l. vurmaq hüququ dövlətlərin daxili qanunvericiliyində və *konsulluq konvensiyalarında*, xüsusən də konsulluq əlaqələrinə dair 1963 il *Vyana konvensiyasında (Beynəlxalq konvensiya)* təsbit edilmişdir.

**KONSUL MÜNASİBƏTLƏRİ.** *Beynəlxalq münasibətlərdə* təşəkkül tapmış praktikanı təsbit edən Konsulluq əlaqələrinə dair 1963 il *Vyana Konvensiyasına (Beynəlxalq konvensiya)* əsasən dövlətlər arasında K.m. yaradılması onların qarşılıqlı razılığı ilə baş verir.

*Diplomatik münasibətlərin* əlaqələrin yaradılmasına dair razılaşma, özlüyündə əgər başqa hal qeyd olunmayıbsa, həm də K.m. yaradılması barədə razılaşmadır. *Diplomatik əlaqələrin* kəsilməsi K.m. kəsilməsinə gətirib çıxarmır. Diplomatik münasibətlər yoxdursa, K.m. yaradılmasından ötrü maraqlı tərəflər arasında xüsusi saziş bağlanması tələb olunur.

Azərbaycan Respublikasının xarici ölkələrlə KM ikitərəfli konsulluq





Konvensiyaları, habelə bu dövlətlərin daxili qanunvericiliyi ilə tənzimlənir.

**KONSUL PATENTİ** (lat. *patents* – şəhadətnamə, fərman). *Konsul* təyin edən ölkənin *dövlət başçısı, hökumət başçısı* və ya xarici işlər naziri tərəfindən konsula səlahiyyətlərin verilməsi və onun fəaliyyət rayonunun *(Konsulluq dairəsinin)* təyin edilməsi haqda sənəddir. K.p. müstəqil *konsul idarələrinə* rəhbərlik edən bütün dərəcədən olan konsullara verilir. Konsulluq başçılarının müavinləri və ya köməkçiləri olan konsullara çox vaxt patent verilmir.

Patentdə təyin olunmuş konsulun vəzifəsi, adı və soyadı tam olaraq, konsulun aid olduğu kateqoriya və ya sinifi, konsul dairəsi və konsul idarəsinin yerləşdiyi yer göstərilir. Konsul təqdim edən dövlət patenti diplomatik yolla konsul idarəsi başçısının yerləşdiyi dövlətin hökumətinə göndərir.

Diplomatik praktikada, adətən konsul idarəsinin başçısı gəldiyi dövlətin hökumətinə K.p.-ni təqdim edir. Konsul özünün konsulluq dairəsində vəzifələrinin icrasına gəldiyi ölkənin hökumətinin *ekzekvatura* adlanan icazəsindən sonra başlaya bilər.

**KONSULTATİV STATUS** (lat. *consultare* - toplaşmaq, məsləhətləşmək, *status* - hüquqi vəziyyət). *Beynəlxalq hüquqda* razılığa gələn tərəfləri maraqlandıran məsələlər üzrə müqavilə əsasında məsləhətləşmələr aparılması.

**KONSUL VƏZİFƏLƏRİ.** *Konsulların* və konsul vəzifəli şəxslərin beynəlxalq və ikitərəfli *konsul konvensiyaları* ilə, ticarət və dəniz üzgüçülüyü haqqında müqavilələrlə *(Beynəlxalq müqavilə)*, həmçinin daxili dövlət qanunvericiliyi ilə müəyyənləşdirilmiş funksiyalarıdır.

**KONSUL YIĞIMLARI.** *Konsulun* konsulluq hərəkətləri üçün tutduğu ödənclər; pasportlar verilməsi, yaxud onların etibarlılıq müddətinin artırılması, *vizalar* verilməsi, *vətəndaşlıq* məsələləri üzrə vəsaitlərin qəbulu və tərtibi, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı, sənədlərin leqallaşdırılması, notarial və bəzi başqa hərəkətlər bu qəbildəndir.

K.y. konsulu təyin edən ölkənin qanunvericiliyi ilə müəyyən edilən tarif üzrə tutulur və həmin ölkənin dövlət büdcəsinə daxil olur; qeyri-ştatlı konsullar tərəfindən tutulan yığılmalar onların nəfinə dövriyyəyə buraxılır.

**KONTADOR QRUPU** (1983). Meksika, Kolumbiya, Venesuela və Panamanı özündə birləşdirir; 08-09.I. dörd dövlətin xarici işlər nazirlərinin Kontador adasında görüşü gedişində yaradılmış, 1980 illərin əvvəllərində Mərkəzi Amerikada yaranmış gərgin vəziyyəti Latın Amerikası ölkələrinin gücü ilə siyasi tənzimləmə yollarını tapmaq məqsədi daşımışdır.

K.q. regionda vəziyyəti normallaşdırmaq niyyəti ilə bir sıra görüşlər, o cümlədən Mərkəzi Amerika dövlətlərinin (Nikaraqua, Honduras, Salvador, Qvatemala və Kosta-Rika) nümayəndələrinin görüşləri keçirilmişdir. K.q.-nin işləyib hazırladığı «Kankun *Bəyannaməsi*», «məqsədlərə dair sənəd», «normalara dair sənəd» geniş beynəlxalq əks səda və dəstək tapmışdı.

**KONTİNENTAL BLOKADA** (kontinental mühasirə). 1806-1814 illər ərzində Napoleon I *(Napoleon I Bonapart)* tərəfindən Böyük Britaniya əleyhinə yö-

nəlmiş iqtisadi və siyasi mühasirə tədbirləri sistemi.

Napoleonun Rusiyaya məğlub olmasından, yəni 1812 ildən sonra bu tədbirlər bir sıra ölkələr tərəfindən dayandırılmış və Napoleonun hakimiyyətdən tam uzaqlaşdırılmasından (1814) sonra formal olaraq ləğv olunmuşdu.

**KONTİNENTAL ŞELF** (materikin sualtı davamı). *Dünya okeanının* sahilboyu dibi. K.ş. kənarlarının dərinliyi, adətən 200 m-ə qədər olur, bəzi hissələrdə isə 1500-2000 m. çatır. K.ş.-in eni bir neçə km-dən 1300 km. qədər, ümumi sahəsi 27,5 $km^2$ (Dünya okeanının dibinin 7,6%) olur.

**KONTRABANDA** (it. *contra* – əleyhinə və *bando* – hökumət fərmanı). *Dövlət sərhədindən* malların, qiymətli şeylərin və əşyaların qanunsuz olaraq keçirilməsidir.

*Beynəlxalq hüquqda* hərbi K. anlayışı da mövcuddur. Beynəlxalq hüquq normalarına görə *bitərəf* dövlətlər (*Bitərəflik*) silahlı münaqişələr zamanı vuruşan tərəflərə heç bir yardım göstərməməlidirlər. Əgər belə yardımlar edilərsə, onlar hərbi K. adlandırılır və daşınma vasitələri ilə birlikdə müsadirə olunurlar. Daxili dövlət hüququnda – gömrük və cinayət hüququnda istifadə olunan K. anlayışından fərqli olaraq, beynəlxalq hüquqda hərbi K. *müharibə* zamanı bitərəf dövlət tərəfindən düşmənə və ya bu dövlətin vətəndaşlarına həmin dövlətin bitərəflilik statusuna zidd olaraq göndərilən əşya və yükləri bildirir.

**KONTRİBUSİYA** (lat *contribution*). 1.*Müharibədən* sonra məğlub olan ölkənin qalib ölkəyə məcburi ödənişi. 2. Müharibə zamanı işğal edilmiş ərazinin əhalisindən məcburi toplanan ödəniş.

**«KONVERQENSİYA» NƏZƏRİYYƏSİ** (lat. *convergeze* - *yaxınlaşmaq, birləşmək*). Sosializm və kapitalizm cəmiyyətlərinin gələcəkdə bir birinə yaxınlaşmaq yolu ilə inkişaf edəcəkləri, oxşar əlamətlərə malik olacaqları, hansısa yeni bir formada birləşərək və hər iki cəmiyyətin müəyyən xüsusiyyətlərini özündə əks etdirən quruluş olacaqları barədə nəzəriyyə.

**KOORDİNASİYA KOMİTƏSİ** (*Coordinating Committee*). Çoxtərəfli ixracat üzrə nəzarət. ABŞ-ın təşəbbüsü ilə XI.1949 ildə bağlanan məxfi *«Centlmen sazişi»nə* müvafiq olaraq 01.II.1950 ildə fəaliyyətə başlamışdır; saziş SSRİ-yə və digər sosialist ölkələrinə «strateji malların» ixracı üzərində nəzarət məqsədini güdürdü.

Üzv dövlətlərin daimi təmsilçiləri səviyyəsində K.k.-nin ildə 1-2 dəfə çağırılan sessiyalarında sosialist ölkələrinə ixrac edilməsinə qadağa qoyulan malların və texnologiya növlərinin siyahısı işlənib hazırlanırdı.

İxracat nəzarətindən keçməli olan 3 mal siyahısı mövcud idi: silah və döyüş sursatı, habelə onların istehsalı üçün lazım olan mallar, materiallar və texnologiya; atom enerjindən istifadə ilə bağlı avadanlıq; «ikili təyinatlı». prinsipcə hərbi məqsədlərlə tətbiq edilə bilən sənaye avadanlığının xeyli hissəsini ehtiva edir və onların ayrı-ayrı ölkələrə ixrac olunmasına yalnız «istisna qaydasında» K.k. tərəfindən hər dəfə ayrıca baxıldıqdan sonra yol verilirdi.

**KOREYA MƏSƏLƏSİ.** SSRİ, ABŞ və Britaniya xarici işlər nazirlərinin 1945 il Moskva müşavirəsinin qərarları Koreyanın müstəqil dövlət olaraq yenidən bərpasını və müvəqqəti ümumkoreya hökumətinin yaradılmasını əzərdə tuturdu. Bu məqsədlə Sovet - Amerika Birgə Komissiyası yaradılmışdı. ABŞ K.m.-i *BMT Baş Məclisinin* II sessiyasının gündəliyinə salmağı təklif etmişdir.

1947-1975 illər ərzində K.m. *BMT* BM-in bir sıra sessiyalarının gündəliyinə daxil edilmişdi. BMT-nin Koreya üzrə Müvəqqəti Komissiyasının (1947-1948), Koreya üzrə Komissiyasının (1948-1950) , Koreyanın birləşdirilməsi və yenidən bərpası üzrə komissiyasının (1950-1973) illik məruzələri Baş Məclisdə baxılmaq üçün təqdim olunmuşdu. KXDR nümayəndələri ABŞ-ın və digər qərb dövlətlərinin mövqeləri üzündən 1973 ilədək K.m. müzakirəsində iştirak etmək imkanından məhrum olunmuşdu.

1950 ildə Koreyada *müharibənin* başlanması ilə əlaqədar ABŞ-ın təzyiqi ilə *BMT Təhlükəsizlik Şurası* SSRİ nümayəndəsinin iştirakı olmadan Koreyanın işlərinə silahlı müdaxiləyə dair bir neçə *Qətnamə*, o cümlədən «BMT-nin Birləşmiş Qüvvələrini yaratmağa» və Koreyaya silahlı müdaxilə qoşunlarına BMT bayrağından istifadə etmək hüququ verməyə dair qətnamələr qəbul etmişdi. BMT BM sessiyası ABŞ-ın təzyiqi sayəsində SSRİ-nin və digər sosialist ölkələrinin K.m.-ni dinc yolla tənzimləməyə dair təkliflərini qəbul etmədi.

BMT BM XXVIII sessiyası (1973) Şimali Koreya və Cənubi Koreyanın 1972 il birgə *Bəyanatında* əks etdirilən birləşmə prinsiplərini təqdir etmiş, Koreyanın birləşdirilməsi və yenidən bərpası üzrə Komissiyanın buraxılmasına dair qətnamə qəbul etmiş, Cənubi Koreyada olan BMT bayrağı altındakı olan Amerika qoşunlarının çıxarılmasına tərəfdar olmuşdu. KXDR-ə BMT-də özünün daimi müşahidəçisini saxlamaq hüququ verilmişdi. BMT BM XXX sessiyası (1975) keçmiş sosialist ölkələrinin və bir sıra qoşulmayan ölkələrin (*Qoşulmamaq siyasəti*) «Koreyada *barışığın* möhkəm sülhə çevrilməsi və Koreyanın müstəqil şəkildə dinc yolla birləşdirilməsi üçün əlverişli şərait yaradılmasına dair» qətnamə layihəsini bəyənmişdir. Qətnamə «BMT qoşunları komandanlığının» buraxılmasını, Cənubi Koreyadan orala BMT bayrağı altından bütün xarici qoşunların çıxarılmasını, Koreyada barışığa dair 1953 il Sazişinin sülh müqaviləsi *Beynəlxalq müqavilə*) ilə əvəz edilməsini nəzərdə tuturdu. Lakin eyni vaxtda qərb dövlətlərinin təklifi ilə Cənubi Koreyadan ABŞ qoşunlarının çıxarılmasını nəzərdə tutmayan qətnamə qəbul edildi.

1980 ildə Koreya Xalq Partiyasının qurultayında vahid Koreya dövlətinin – Koreya Konfederativ Demokratik Respublikası – yaradılması təklifi irəli sürülmüşdür. I.1984 ildə KXDR üçtərəfli danışıqların (KXDR, ABŞ və Cənubi Koreya) keçirilməsi təklifilə çıxış etmişdir. Barışığa dair Sazişin sülh müqaviləsi ilə əvəz edilməsi və Cənubi Koreyadan Amerika qoşunlarının çıxarılması məsələsi bu danışıqların mərkəzində durmalı idi. Ölkənin şimalı ilə cənubu arasında hücum etməməyə dair qətnamə qəbul etmək, KXDR və Cənubi Koreya arasında ölkələrin artıq razılaşdırılmış prinsiplər arasında birləşdirilməsinə dair danışıqlar aparmaq təklif edilirdi. Lakin bu günə qədər bu istiqamətdə aparılmış danışıqlar nəticə verməmişdir.

**KOSMOS HÜQUQU** (beynəlxalq mənada). Kosmik fəzanın və səma cisim-

lərinin tədqiqi və istifadə olunması prosesində dövlətlərarası münasibətləri tənzimləyən və onların hüquqi rejimlərini müəyyənləşdirən hüquqi prinsiplər və normalar məcmusu.

K.h. *BMT Nizamnaməsinin* prinsipləri də daxil olmaqla, ümumi beynəlxalq - hüquqi prinsiplərə, əsaslanır. K.h. normalarının işlənib hazırlanmasında 1959 ildə təsis edilmiş Kosmik fəzadan dinc məqsədlərlə istifadə Komitəsi və onun yardımçı hüquq komitəsi böyük rol oynamışdır. K.h. sahəsində əsas beynəlxalq-hüquqi sənədlər keçmiş SSRİ-nin təşəbbüsü ilə işlənib hazırlanmış və qəbul olunmuşdur. Kosmik fəzanın tədqiqi və istifadə olunması üzrə dövlətlərin fəaliyyətini tənzimləyən hüquqi prinsiplərə dair *Bəyannamə BMT Baş Məclisi* də tərəfindən 13.XII 1963 ildə qəbul olunub; Ay və digər səma cisimləri də daxil olmaqla, Kosmik fəzanın tədqiqi və istifadə olunmasında dövlətlərin fəaliyyət prinsiplərinə dair 1967 il müqaviləsi (*Beynəlxalq müqavilə*); Kosmonavtların xilas edilməsi, kosmonavtların qayıtması və kosmik fəzaya buraxılmış obyektlərin qayıtması barədə 1968 il sazişi (buraxılışı həyata keçirmiş hakimiyyət orqanlarının yurisdiksiyasının təsir hüdudlarından kənarda qəza və məcburi enmə hallarında kosmonavtlarla və kosmik obyektlərlə davranma qaydalarını müəyyən edir); Kosmik obyektlər tərəfindən vurulan ziyana görə beynəlxalq məsuliyyətə dair 1972 il konvensiyası (*Beynəlxalq konvensiya*); Kosmik fəzaya buraxılan obyektlərin qeydiyyatına dair 1975 il konvensiyası (dövlətlər tərəfindən buraxılan obyektlərin registirinin tutulması, *BMT Baş katibinə* hər belə obyekt barədə müəyyən informasiya təqdim olunması, BMT Baş katibi tərəfindən belə informasiyaların registrinin tutulması); Ayda və digər səma cisimlərində dövlətlərin fəaliyyətinə dair 1979 il sazişi K.h.-i ənzimləyən sənədlərdəndir.

K.h.-nun ayrı-ayrı normaları həmçinin Atmosferdə, kosmik fəzada və suyun altında nüvə silahı sınağının qadağan olunmasına dair 1963 il müqaviləsində və digər müvafiq universal, regional və ikitərəfli sazışlərdə öz əksini tapmışdır.

Müasir K.h. aşağdakı əsas prinsiplərə söykənir:

Kosmik fəza, Ay və digər səma cisimləri də daxil olmaqla, bütün dövlətlər üçün hər hansı ayrı-seçkilik qoyulmadan, bərabərlik əsasında və *beynəlxalq hüquqa* uyğun olaraq, səma cisimlərinin bütun tərəfləri sərbəst daxil olmaqla tədqiqat və istifadə işləri üçün açıqdır; kosmik fəzanın, Ay və digər səma cisimləri də daxil olmaqla, istənilən vasitələrlə milli mənimsənilməsi qadağandır; kosmik fəzanın, o cümlədən Ayın və digər səma cisimlərinin tədqiqi və istifadəsi üzrə dövlətlərin fəaliyyəti BMT Nizamnaməsi də daxil olmaqla beynəlxalq qaydalara müvafiq həyata keçirilməlidir; Yerətrafı orbitə və kosmik fəzaya hər hansı başqa üsullarla nüvə silahı, yaxud digər kütləvi qırğın silahlının çıxarılması və yerləşdirilməsi qadağandır; Ay və digər səma cisimlərindən sırf dinc məqsədlərlə istifadə olunur; dövlətlər kosmik fəzada, Ay və digər səma cisimləri də daxil olmaqla bütün milli fəaliyyət üçün, o cümlədən qeyri-hökumət hüquqi şəxslərin fəaliyyəti üçün beynəlxalq məsuliyyət daşıyırlar.

Kosmik fəza dedikdə, hava məkanından kənarda yerləşən boşluq başa düşülür.

Kosmik texnikadan bəşəriyyətin əməli ehtiyaclarından ötrü (rabitə, metallurgiya, naviqasiya, Yerin distansiyalı zondlaşdırılması və s.) istifadə edilməsi imkanı bütün dövlətlərin kosmik fəaliyyətə cəlb olunmasını və bu sahədə geniş beynəlxalq əməkdaşlığı şərtləndirir. Hazırda kosmik fəaliyyət məsələləri üzrə dövlətlərarası əməkdaşlıq *BMT*-nin ixtisaslaşdırılmış təşkilatları çərçivəsində (Ümumdünya Meteorologiya Təşkilatı (ÜMT), Beynəlxalq Elektrik Rabitəsi İttifaqı (BERİ), habelə digər beynəlxalq hökumətlərarası və qeyri-hökumət təşkilatları (*Beynəlxalq hökumətlərarası təşkilatlar; Beynəlxalq qeyri-hökumət təşkilatları*) (məs., «İnterşputnik», Beynəlxalq Peyk elektrik Rabitəsi Təşkilatı (İntepsat), Beynəlxalq Dəniz Peyk Rabitəsi Təşkilatı (İnmarsat), *Avropa Kosmik Agentliyi*, Beynəlxalq Astronavtika Federasiyası (BAF), Kosmik fəzanın Tədqiqi Komitəsi (Kospar) çərçivələrində həyata keçirilir. BMT bu təşkilatların (*Beynəlxalq təşkilatlar*) fəaliyyətini əlaqələndirir.1968 və 1982 illərdə BMT-nin Kosmik fəzanın dinc məqsədlərlə tədqiqi və istifadəsinə dair konfransı keçirilmişdir.

K.h. Aydan və digər səma cisimlərindən hərbi məqsədlərlə istifadə olunmasını qadağan edir.

**KÖÇÜRÜLMÜŞ ŞƏXSLƏR.** *İkinci dünya müharibəsi* zamanı hitlerçilər və onların əlaltıları tərəfindən işğal olunmuş ərazilərdən zor gücünə çıxarılan şəxslər. Bu adamlardan əsas etibarı ilə ucuz işçi qüvvəsi kimi istifadə olunurdu. *Müharibədən sonra bu şəxslər beynəlxalq müqavilələrə* əsasən *repatriasiya* edildilər.

**KRİSTİAN ZİBEK** (1948). 1966-1969 illərdə Haydelberq Universitetinin tarix fakültəsini bitirmişdir. 1979 ildə fəlsəfə elmlər doktoru olmuşdur. 1979-1981 illərdə Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) işləmək üçün hazırlıq kursları keçmişdir. 1981-1984 illərdə AFR-in ÇXR-dakı *səfirliyində*, 1984-1986 illərdə ABŞ-dakı (Nyu-York) Baş konsulluğunda (*Konsul idarəsi*) çalışmışdır. 1986-1989 illərdə AFR XİN-də Mərkəzi aparatda işləmişdir. 1989-1992 illərdə AFR-ın Türkiyədəki səfirliyində, 1992 ildə AFR XİN-də Mərkəzi aparatda işləmişdir. Fövqəladə və Səlahiyyətli *səfir* dərəcəsinə malikdir. 1997-2001 illərdə Almaniya Federativ Respublikasının Azərbaycan Respublikasındakı səfiri işləmişdir.

**KURYER VƏRƏQİ.** *Diplomatik poçtu* müşayiət etmək üçün *diplomatik kuryerə* verilən vərəq. Bu rəsmi sənəd diplomatik kuryerə toxunulmazlıq hüququ verir, onun müşayiət etdiyi diplomatik poçtu diplomatik immunitetlə təmin edir. Diplomatik kuryer diplomatik poçtu son ünvana təqdim edəndən sonra onun kuryer vərəqi öz əhəmiyyətini itirir və hüquqi mahiyyət daşımır.

**KUV DE MURVİL** (COUVE DE MURVILLE, 1907). Moris Cak (1907)-Fransa dövlət xadimi, *diplomat*.

1943-1944 illərdə Fransa Milli Azadlıq Komitəsinin üzvü; 1944-1945 illərdə İtaliya məsələləri üzrə Məşvərət Şurasında Fransanın təmsilçisi; 1945-1950 illərdə Fransa Xarici İşlər Nazirliyi (*Xarici İşlər İdarəsi*) siyasi departamentinin baş direktoru; 1950-1954 illərdə Fransanın Misirdə *səfiri*; 1954 ildə Şimali Atlantika Şurasında Fransanın daimi nümayəndəsi; 1955-1956 illərdə Fransanın ABŞ-da, 1956-1958 illərdə AFR-də *səfiri*; 1958-1968 illərdə xarici işlər naziri; 1968-iqtisadiyyat və maliyyə naziri; 1968-1969 illərdə Fransanın baş naziri; 1973 ildə Fransa Milli

Məclisinin deputatı, 1973 və 1978-1981 illərdə xarici işlər üzrə komissiyanın sədri olub.

**KVEBEK KONFRANSLARI.** 1) 1943 il konfransı (*Beynəlxalq konfranslar*) - ABŞ *prezidenti* F.Ruzvelt (*Ruzvelt Franklin Delano*) ilə B.Britaniyanın baş naziri U.Çorçill (*Çörçill Uinston Leonard Spenser*) arasında hər iki ölkənin yüksək səviyyəli hərbi və siyasi xadimlərinin iştirakı ilə 14-24.VII Kvebekdə (Kanada) keçirilmiş görüş, şərti adı-«Kvadrat».

Kvebekdə Britaniya və ABŞ rəhbərləri ikinci cəbhənin 01.V.1944 ildə açılmasına dair Vaşinqton konfransında (V.1943) qəbul etdikləri qərarı təsdiq etdilər.

İngilis-amerika qoşunlarının La-Manşı keçməklə Avropa qitəsinə daxil olmasının ardınca («Overlord» əməliyyatı) yayındırıcı manevrlər kimi müttəfiq qoşunlarını Fransanın cənubunda, Tulan-Marsel rayonuna çıxarmaq qərara alındı. Ruzvelt və onun müşavirləri Balkan istiqamətində müttəfiqlərin qüvvələrini cəmləşdirmək barədə Çörçillin təklifilə razılaşmadılar; onlar ehtiyat edirdilər ki, sovet qoşunlarının həlledici qələbələr qazandığı bir şəraitdə müttəfiq qoşunlarının Fransa sahilinə çıxarılması əməliyyatlarının yubadılması Amerikanın Avropada mövqelərinə zərər yetirə bilər. ABŞ-ın və Britaniyanın 1943 ilin ikinci yarısı üçün hərbi əməliyyatlar planı Siciliya boğazı vasitəsilə Neapol rayonunda İtaliyaya girməyi, Britaniya qoşunlarının gücü ilə Azor adalarını işğal etməyi, alman-faşist sualtı qayıqlarına qarşı mübarizəni gücləndirməyi nəzərdə tuturdu. Asiyada Yaponiya əleyhinə hərbi əməliyyat tədbirləri, Marşal, Korolin və Marian adalarının tutulması əməliyyatları, Birmaya hücum planı təsdiq edildi. Qərb müttəfiqləri belə bir rəyə gəldilər ki, Almaniyanın məğlub olmasından sonra Yaponiyanın darmadağın edilməsi 12 ay ərzində *mümkün ola bilər.*

Kvebekda ABŞ və Britaniya rəhbərləri SSRİ və Çin hökumətlərinə təqdim edilmək üçün dörd dövlətin - Britaniya, Çin, SSRİ və ABŞ-ın daimi *Birləşmiş Millətlər Təşkilatı* yaratmaq və dörd böyük dövlətin *müharibədən* sonra sülhü qoruyub saxlamaq barədə məsuliyyətinə dair *Bəyannamə* lahiyələrini işləyib hazırladılar. Həmçinin Fransa Milli Azadlıq Komitəsinin diplomatik tanınması (*Beynəlxalq hüquqi tanınma*) məsələsinə də baxıldı. Bu arada ABŞ hökuməti sözügedən komitəyə müvəqqəti Fransa hökuməti kimi baxmaqla razılaşmamış, Britaniya hökuməti isə bəzi qeyd-şərtlərlə tanımağı lazım bilmişdi.

F.Ruzvelt və U.Çörçill İtaliyanın təslim olunmasının şərtləri, onun faşist *koalisiyasından* çıxması və mütttəfiqlərlə birləşməsi barədə sövdələşdilər. Habelə, Hitler işğalından azad edilən ölkələrin idarə olunmasına, mühacir hökumətlərin dəstəklənməsinə, Almaniyanın parçalanmasının mümkünlüyünə və onun iqtisadi vahidliyinin saxlanılmasının arzuedilməzliyinə dair məsələlərə də toxunmuşdular.

ABŞ və Britaniya 3 ölkənin xarici işlər nazirliyinin Moskvada görüşünü keçirmək barədə SSRİ ilə prinsipcə razılığa gəldilər.

2) 1944 il konfransı-ABŞ prezidenti F.D.Ruzvelt ilə B.Britaniyanın baş naziri U.Çörçill arasında ABŞ-ın maliyə naziri Q.Morqentau, Britaniyanın xarici işlər naziri A.İden və Birləşmiş Qrupun qərargah rəislərinin iştirakı ilə, *antihitler koalisiyası* ölkələrinin ən böyük uğurları və faşist blokunun dağılması şəraitində 11-16. IX Kvebekdə keçirilmişdi.

Kvebekdə F.Ruzvelt və U.Çörçill Almaniyada Amerika və Britaniya işğal zonasının nəzərdə tutulan bölünmə xəttini razılaşdırmış, Almaniyanın bir neçə xırda dövlətlərə bölünməsini, Rur və Saaranın ondan ayrılmasını, Almaniya sənayesinin dağıdılmasını və əsas fondlarının sökülməsini və Almaniyanın aqrar vilayətə çevrilməsini nəzərdə tutan Morqentau planını bəyəndilər.

ABŞ və Britaniyanın rəhbərləri *militarist* Yaponiyası *üzərində qələbə* qazanılması üçün faşist Almaniyasının məğlub olacağı gündən 1 il yarım müddət müəyyən etdilər. Filippinin azad olması planı da qəbul olundu. ABŞ Yaponiyaya qarşı hərbi əməliyyatlar səhnəsinə xeyli sayda Britaniya hərbi - dəniz və hava qüvvələri çıxarmaq barədə Çörçillin təklifilə razılaşdı. Çörçillə görə, bu Britaniyanın həmin rayonda mövqelərini yenidən bərpa etmiş olardı.

**KVEBEK SAZİŞİ** (1943). Atom bombası yaradılmasında əməkdaşlığa dair Amerika-İngiltərə məxfi sazişi; 1943 il *Kvebek konfransının* gedişində ABŞ *prezidenti* F.Ruzvelt *(Ruzvelt Franklin Delano)* və Britaniyanın baş naziri U.Çörçill (*Çörçill Uinston Leonard Spenser*) tərəfindən 19.VIII Kvebekdə (Kanada) imzalanıb. K.s.-nin mətni 1954 ildə dərc edilib.

1941 ildə ABŞ Britaniya hökumətinə atom bombası yaradılması üçün qüvvələri birləşdirməyi təklif etmişdi. 1942 ildə Ruzvelt ilə Çörçill arasında *müharibə* dövrü şəraitində bu istiqamətdə bütün işləri ABŞ-da cəmləşdirmək barədə razılıq əldə edilmişdi. Nəticədə ABŞ faktiki olaraq elmi işlərin gedişi və nüvə silahının istehsalı üzrə nəzarəti öz inhisarına aldı və bununla da Britaniyanı müvafiq informasiya almaqdan məhrum etdi. Britaniya hökumətinin yaranmış vəziyyəti öz xeyrinə dəyişmək cəhdləri aşağıdakı müddəalara əsaslanan K.s-nin bağlanmasına gətirib çıxardı: tərəflərdən hər biri razılaşan digər tərəfə qarşı heç vaxt atom bombasından istifadə etməməyi öhdəyə götürür; üçüncü tərəfə qarşı ondan istifadə, yaxud atom bombasına dair üçüncü tərəfə informasiya verilməsi K.s.-nin hər iki tərəfinin razılığından asılı olacaqdır.

Tərəflərin atom bombası yaradılmasında «tam və səmərəli əməkdaşlığı» məqsədilə xüsusi orqan – «Ümumi rəhbərlik Komitəsi» deyilən qurumun (3 nümayəndə ABŞ-dan, 2-Britaniyadan və 1-Kanadadan) yaradılması nəzərdə tutulurdu.

K.s. Britaniyaya elmi informasiya mübadiləsinə münasibətdə məlum təminatlar verirdi.

Britaniya atom bombasının yaradılmasında öz iştirakından irəli gələn müharibədən sonrakı hər hansı kommersiya və sənaye üstünlüklərindən imtina etdiyini bildirirdi.

K.s. ABŞ üçün elmi axtarışlar və nüvə silahı istehsalı sahəsində üstün mövqelər təmin edirdi.

# Q

**«QABAĞINIALMA» DOKTRİNASI** (*İng. containment* - sözündəndir). Keçən əsrin 40-50 illərində ABŞ siyasi xadimi C.Kennedi (*Kennedi Con Fiscerald*) tərəfindən irəli sürülmüşdür. ABŞ-ın maraqlarına hər hansı təcavüz meyllərinin üzə çıxdığı təqdirdə, onların qarşısını əks tədbirlərlə almağı nəzərdə tuturdu.

**QAÇENDRA SİNQX** (1938). 1961 ildən Hindistan Respublikasının Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) fəaliyyətə başlamışdır. Bir çox ölkələrdə Hindistan Respublikasını müxtəlif səviyyələrdə təmsil etmişdir. 1962-1964 illərdə Hindistan Respublikasının Misirdəki *səfirliyində* III, II katib, mətbuat *attaşesinin* müavini, 1964-1965 illərdə Hindistan Respublikasının Əlcəzairdəki səfirliyində II katib, 1969-1973 illərdə Türkiyədəki səfirliyində I katib vəzifələrində çalışmışdır. 1973-1975 illərdə Hindistan Respublikasının Misirdəki səfirliyində müşavir işləmişdir. 1978-1991 illərdə Hindistan Respublikasının İndoneziyada və eyni zamanda Mali, Qvineya Bisau və Koko Verde adalarındakı *səfiri*, Hindistan Respublikasının Qambiuadakı Baş komissarı təyin olunmuşdur. 1981-1984 illərdə Hindistan Respublikasının Rumıniyada, 1989-1992 ildə Əmmanda, 1992 ildə Türkiyədə səfiri olmuşdur. 1993-1996 illərdə Hindistan Respublikasının Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri işləmişdir.

**QAÇQINLAR.** Hərbi əməliyyatlar, siyasi təqiblər, *soyqırım* yaxud digər fövqəladə hallar üzündən daimi yaşadığı ölkəni tərk edən fərdlər toplusu. *Beynəlxalq hüquqda* «qaçqınlar» anlayışı *Birinci Dünya müharibəsindən* sonra meydana gəlib; Q.-a qayğı göstərilməsinə diqqəti cəlb etmək məqsədilə bir sıra dövlətlər (Belçika, Danimarka, AFR, Fransa, Böyük Britaniya və s.) Cenevrədə (25.VII.1951) Q.-ların statusu haqqında konvensiya (*Beynəlxalq konvensiya*) imzaladılar. Həmin konvensiyaya əsasən, məcburi köçürülənlər də Q.-lar kateqoriyasına aid edilirlər. 1967 ildə Q.-ların statusuna dair *protokol imzalanmış və ona əsasən*, 1951 il Konvensiyası həmin tarixdən sonra baş verən hadisələr nəticəsində qaçqın düşənlərə də şamil edildi.

Ermənistanın həm bu ölkədə yaşayan, həm də Dağlıq Qarabağın köklü sakinləri olan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti Azərbaycanda 1 milyona yaxın qaçqın və köçkünün məskunlaşmasına gətirib çıxarmışdır.

**QAÇQINLAR ÜZRƏ BMT ALİ KOMİSSARININ İDARƏSİ.** *BMT Baş Məclisinin* (319 (IV) saylı 03.XII.1949 il *Qətnaməsinə* müvafiq olaraq 01.I.1951 ildə təsis edilib. *Qaçqınların* və köçkünlərin beynəlxalq səviyyədə hüquqi müdafiəsini təşkil etmək və qaçqınların problemlərini nizama salmaq məqsədi daşıyır.

İ.-yə *BMT Baş katibinin* tövsiyəsi ilə Baş Məclis tərəfindən 3 il müddətinə seçilən Ali Komissar rəhbərlik edir. Qaçqınların məskunlaşdıqları ölkənin razılığı ilə Ali Komissar orada öz təmsilçisini təyin edə bilər. Ali Komissarın fəaliyyəti heç bir vəchlə siyasi mahiyyət daşımamalıdır. Ali Komissa *BMT-nin İqtisadi və Sosial Şurası* vasitəsilə özünün illik fəaliyyəti haqqında Baş Məclisə hesabat verir. Bu Şuranın sessiyasında seçilən Ali Komissarın İcra İşləri Komissiyasına 42 dövlətin, başlıca olaraq inkişaf etmiş ölklərin, həmçinin bəzi Afrika, Asiya və Latın Amerikası ölkələrinin nümayəndələri daxildirlər. *BMT Baş Məclisi hər 5 ildənbir* İ.-nin mandatının daha 5 il müddətinə uzadılmasının zəruriliyi haqqında məsələ müzakirə edərək müvafiq qərar çıxarır.

**QAFAROVA ELMİRA MİKAYIL QIZI** (1934-1993). Azərbaycanın görkəmli *ictimai, siyasi və dövlət xadimi*.

1958 ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmiş, 1961-1962 illərdə Azərbaycan KP MK-da *elm və ali məktəblər* şöbəsinin təlimatçısı, 1962-1970 illərdə Azərbaycan Lenin Kommunist Gənclər İttifaqının katibi, I katibi, 1971-1980 *illərdə Azərbaycan KP Bakı* Komitəsinin katibi olmuşdur. 1980-1983 illərdə maarif naziri, 1983-1987 illərdə xarici işlər naziri vəzifələrində çalışmışdır. *Xarici işlər naziri kimi Azərbaycanın* Avropa, Asiya və Afrikanın bir sıra ölkələri ilə siyasi, ictimai və mədəni əlaqələrinin genişləndirilməsi, bir-birinə *nümayəndələr göndərməsi sahəsində*, beynəlxalq müşavirə, konfrans (*Beynəlxalq konfranslar*) və sessiyalarda yaxından iştirak etmişdir. 1987-1989 *illərdə Nazirlər Soveti sədrinin* müavini, 1989-1990 illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri olmuşdur. 19-20.I.1990 illə sovet qoşunlarının qeyri-qanuni Bakıya yeridilməsinə qarşı kəskin etirazını bildirmişdir.

1990-1992 illərdə Azərbaycan Ali Sovetinin sədri olmuşdur.

1993-cü ildə vəfat etmişdir.

**QAHİRƏ KONFRANSLARI.** 1) 12-24.III.1921 Fələstin, İraq və Transiordaniyada ingilislər əleyhinə baş vermiş üsyanlardan (1920-1921) sonra Böyük Britaniyanın ərəb ölkələri ilə münasibətlərini müəyyənləşdirmək üçün çağırılmışdır. Böyük Britaniyanın man*datı altında İraqda ərəb dövləti*, Transiordaniyada ərəb əmirliyi yaratmaq, Fələstin, İraq və Transiordaniya üzərində nəzarətin gücləndirilməsində *hərbi hava qüvvələrinin rolunun* artırılması qərara alındı. Ərəb ölkələrində siyasəti əlaqələndirmək üçün Böyük Britaniyanın müstəmləkələr üzrə işlər *nazirliyində* xüsusi departament təsis edildi.

2) 22-26.XI.1943. ABŞ, Böyük Britaniya və Çinin *dövlət başçılarının iştirakı ilə* keçirilmişdir. Yaponiyaya qarşı hərbi əməliyyatlara və Uzaq Şərqdə *müharibədən* sonrakı dinc tənzimləməyə dair məsələlər müzakirə olundu. Yapon qoşunları tərəfindən Çinin ələ keçirilmiş ərazilərinin geri qaytarılması və Yaponiyanın işğal etdiyi bütün digər ərazilərin azad edilməsi barədə qərar qəbul edildi.

3) 2-7.XII.1943. ABŞ, Böyük Britaniya və Türkiyənin dövlət başçıları və xarici işlər nazirlərinin iştirakı ilə keçi*rilmişdir*. 1944 ildə ABŞ və Böyük Britaniyanın əsas əməliyyat istiqamətləri müəyyənləşdirildi. Fransanın cənubunda və İtaliyada keçirilməsi nəzərdə tutulan əməliyyatlarda fransız silahlı qüvvələrindən istifadə prinsipləri təsdiq edildi. Birmaya qoşun çıxarılması planından imtina edilərək, Yaponiyaya qarşı əsas səyləri Sakit okean rayonunda cəmləşdirmək qərara alındı.

**QAPALI, YAXUD YARIQAPALI DƏNİZLƏR.** İki, yaxud daha çox dövlətin ərazisi ilə əhatə olunan, digər dəniz və

okeanlarla qovuşan körfəzlər, su hövzələri, yaxud dənizlər. Belə dənizlərə Aralıq, Baltik, Qara, Yapon dənizləri, Fars körfəzi və digər körfəzlər aiddir.

Sahil dövlətlərinin *ərazi suları* hüdudlarından kənarda yerləşən belə dənizlərin su məkanına müvafiq qaydada *açıq dəniz* rejimi tətbiq edilir. Həmin dənizlərin dibi sahil dövlətlərinin *kontinental şelfi* ilə tamamilə örtülmüş olur.

**QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI** (1992). 25.IV. on bir dövlət – Azərbaycan, Albaniya, Ermənistan, Bolqarıstan, Yunanıstan, Gürcüstan, Moldova, Rusiya, Rumıniya, Türkiyə, Ukrayna tərəfindən İstambulda yaradıldı. T.-ın yaradılmasında üzv ölkələr arasında ticarət, sənaye, bank və maliyyə, nəqliyyat, rabitə, kənd təsərrüfatı sahəsində əməkdaşlığı genişləndirmək, şəxslərin və kapitalın sərbəst hərəkətini təmin etmək, vizasız (*Viza*) hərəkət rejimi yaratmaqdır.

T.-ın ali orqanı üzv ölkələrin xarici işlər nazirlərinin Şurasıdır. Şura altı aydan bir toplanır, onun sədri əlifba sırası ilə rotasiya qaydasında seçilir. T.-ın işinə operativ rəhbərliyi Katiblik həyata keçirir. Katibliyə üç ildən bir rotasiya qaydası ilə seçilən direktor başçılıq edir.

16-17.VI.1993 ildə T.-ın tərkibində Parlament məclisi yaradıldı. Parlament məclisinə iştirakçı ölkələrin parlamentlərinin üzvləri daxildir. Parlament Məclisi ildə iki dəfə sessiyaya toplaşır.

05.VI.1998 ildə üzv ölkələrin dövlət və hökumət başçılarının Yalta sammitində T.-ın Nizamnaməsi qəbul edildi. VI.1999 ildə Qara Dəniz Ticarət və İnkişaf Bankı təsis edildi.

T.-ın qərarları *konsensus* əsasında qəbul edilir.

T.-ın iqamətgahı İstanbul şəhərindədir.

**QARAYEV TAMERLAN YELMAR OĞLU** (1952). 1973 ildə Bakı Dövlət Universitetinin hüquqşünaslıq fakültəsini bitirmişdir. 1973-1978 illərdə hüquq mühafizə orqanlarında çalışmışdır. 1978-1991 illərdə Bakı Dövlət Universitetinin hüquq fakültəsində müəllim kimi işləmişdir, hüquq elmləri namizədidir. 1991-1993 illərdə Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini vəzifəsində işləmişdir. 1993 ildə Azərbaycanın Çin Xalq Respublikasındakı, 2004 ildə isə Hindistan Respublikasındakı Fövqəladə və Səlahiyyətli *səfiri* təyin olunmuşdur. Fövqəladə və Səlahiyyətli səfir diplomatik rütbəsinə (*Diplomatik adlar və rütbələr*) malikdir.

**QARA YUSİF QARAQOYUNLU** (təqr. 1355-1420). Qara Məhəmmədin oğlu (*Baharlı tayfasından*), 1410-1420 illərdə Qaraqoyunlu dövlətinin ilk hökmdarı, Osmanlı sultanı İldırım Bəyazid və Cəlairi hökmdarı Sultan Əhmədlə Teymurilərə qarşı yaranan hərbi ittifaqın təşkilatçılarından biri olub. Bu ittifaqın yaradılması ilə bağlı Teymur Osmanlı sultanı ilə *diplomatik yazışmalar* aparmış, Bəyaziddən Q.Y. Sultan Əhmədin həbs edilərək verilməsini tələb etmişdi. Teymura qarşı ittifaqı genişləndirmək məqsədilə Q.Y. Sultan Əhmədlə Türkiyəyə və sonra isə Misirə getmişdir. Lakin Misir hakiminin əmrilə həbs edilən Q.Y. və Sultan Əhməd bu ittifaqın yaradılmasına nail ola bilməmişlər. Yalnız 1405 ildə Teymurun ölümündən sonra Azərbaycana qayıdan Q.Y. 1406 ildə Naxçıvan yaxınlığında döyüşdə (Araz sahilində) Teymurun oğlu Əbu Bəkrə qalib gəldi 1408 ildə Teymuri Miranşahla Təbriz ətrafında döyüş də Q.Y.-in qələbəsilə başa çatdı. Sultan Əhmədlə Q.Y. arasında əldə olunmuş razılığa əsasən, Q.Y. Təbrizi, Sultan Əhməd isə Bağdadı idarə etməli idi. Lakin Sultan Əhməd Azərbaycanı da özünə tabe etdirmək istəyirdi. 1410 ildə müttəfiqlər arasında başlanan çəkişmə zamanı Təbriz yaxınlığındakı döyüşdə Sultan Əhməd öldürüldü. Beləliklə, Cəlairilərin hakimiyyətinə son qoyuldu. Q.Y. Ağqoyunlu və Osmanlı başçıları ilə ittifaqa girib, Azərbaycanın cənubunu, Naxçıvanı, Mosulu, Sincvarı, Ərzurumu öz idarəçiliyinə götürdü. Teymurilərə qarşı mübarizə aparmaq üçün orduda islahat işləri apardı. Teymurun oğlu Şahruxla *müharibəyə* hazırlaşan Q. Y. 1420 ildə Ucan şəhəri yaxınlığında vəfat etmişdi.

**QARIŞMAMAQ PRİNSİPİ.** Müasir *beynəlxalq hüququn* əsas prinsiplərindən biridir. Dövlətlərin *dinc yanaşı yaşaması* və əməkdaşlığının mühüm şərtidir. Bu prinsipə görə heç bir dövlətin və ya dövlətlər qrupunun birbaşa və ya dolayı yolla digər dövlətin daxili və xarici işlərinə qarışmaq ixtiyarı yoxdur. Q.p. *dövlətlərin suverenliyi* və bərabərhüquqluluğu prinsipindən irəli gəlir. *Beynəlxalq münasibətlər* təcrübəsində hər hansı dövlətin digər dövlətin bu və ya digər daxili hadisələrinə (inqilablara, vətəndaş müharibələrinə və s.) müdaxilə etməməsi qarışmamaq adlanır.

Q.p. XVIII əsrdə Fransa burjua inqilabı zamanı inqilabi burjuaziya tərəfindən irəli sürülmüşdü. Bu prinsip 1793 il Fransa Respublikasının konstitusiyasında əks olunmuşdu. Daha sonra Q.p 1823 ildə «Monro doktrinasında» elan olunmuşdu. Rəsmi olaraq bu doktrina *Müqəddəs İttifaqın* Latın Amerikası ölkələrinə müdaxiləsinə qayrşı yönəlmişdi.

Müasir dövrdə Q.p. ikitərəfli və çoxtərəfli beynəlxalq sənədlərdə təsdiq olunmuşdur. *BMT Nizamnaməsi*, dövlətlərin daxili işlərinə qarışmağın, onların müstəqilliyinin və *suverenliyinin* məhdudlaşdırılmasının yolverilməzliyi haqda *BMT*-nin 1965 il *Bəyannaməsi*, BMT Nizamnaməsinə müvafiq olaraq dövlətlər arasında dostluq mnüasibətlərinə və əməkdaşlığa dair beynəlxalq hüquq prinsipləri haqda 1970 il Bəyannaməsi, *Avropada Təhlükəsizliyə və Əməkdaşlığa dair Müşavirənin Yekun Aktı (Yekun aktı)* bu sənədlərə aiddir.

Beynəlxalq hüquq prinsipləri haqda 1970 il Bəyannaməsində nəzərdə tutulur ki, dövlətin hüquqi subyektliliyinə qarşı və ya onun siyasi, iqtisadi və mədəni əsaslarına qarşı yönəlmiş silahlı müdaxilə və digər qarışmaq formaları; zorakı yolla digər dövlətin quruluşunu dəyişdirmək məqsədi güdən silahlı müdaxilə və ya terror fəaliyyəti yolverilməzdir. Dövlətin digər bir dövlətin müdaxiləsi olmadan özünün iqtisadi, siyasi və sosial sistemini seçmək hüququ da Q.p.-nə aiddir.

**QARS MÜQAVİLƏSİ** (1921). 26.X.-13.X. Qars konfransı (*Beynəlxalq konfranslar*) keçirilmişdi. Konfransda Azərbaycan hökumətini xalq fəhlə-kəndli nəzarəti komissarı Behbud Şaxtaxtinski, Ermənistan hökumətini Xalq xarici işlər komissarı Askanaz Mravyan, Xalq *daxili işlər komissarı* Loqas Maknisyan, Gürcüstan hökumətini Xalq hərbi və Dəniz işlər komissarı, Şalva Eliava, Xalq xarici işlər və maliyyə komissarı Aleksandr Svanidze, Türkiyə hökumətini Böyük Millət Məclisinin Ədirnəpoldan olan deputatı Kazım Qarabəkir Paşa, deputat Vəli bəy, keçmiş ictimai

işlər naziri Muxtar bəy, Türkiyənin Azərbaycandakı səlahiyyətli nümayəndəsi Mahmud Şövkət bəy, Rusiyanı isə vasitəçi (*Vasitəçilik*) kimi Latviyadakı səlahiyyətli nümayəndə Yakov Qanetski təmsil etmişlər.

Q.m. 13.X.1921 ildə RSFS-in iştirakı ilə Azərbaycan, Gürcüstan və Ermənistanla Türkiyə arasında imzalanmışdı. Q.m. 20 maddədən və 3 əlavədən ibarətdir. O, Türkiyə ilə Güney Qafqaz respublikaları arasında münasibətləri tənzimlədi. Q.m.-nə görə Türkiyə Batumu Gürcüstana güzəştə getdi.

**QARŞIDURMA** (lat. *Con* - əleyhinə, *front (frontis)* - alın, qabaq). Hərbi münaqişəyə gətirib çıxarma təhlükəsi olan gərginlik, çox təhlükəli qarşıdurma. Tarixdə qarşıdurma vəziyyəti bir çox hallarda *müharibələrə* gətirib çıxartmışdı. Eyni zamanda elə nümunələr də vardır ki, bu zaman danışıqlar yolu ilə qarşıdurmanı zəiflətmək və müharibədən yaxa qurtarmaq mümkün olmuşdur.

**«QARŞILIQLI ASILILIQ».** 25.X.1957 ildə doktrina olaraq Amerika-İngiltərə danışıqlarının nəticələri barədə *Bəyannamədə* təsbit edilmiş, *NATO* Şurası tərəfindən təqdir olunmuşdur.

Doktrina NATO iştirakçısı ölkələrinin əlbir səyilə sürətlə silahlanmaya rəvac verməyin, ələlxüsus ən yeni silah növlərini yaratmağın, Avropada NATO birləşmiş silahlı qüvvələrini möhkəmləndirməyin, qitədə ballistik raketlər, nüvə başlıqları anbarlarını yerləşdirməyin, habelə blok çərçivəsində siyasi məsələlər üzrə xüsusi məsləhətləşmə mexanizmi yaratmağın zəruriliyini əsaslandırmağa çağırır.

**QARŞILIQLI İQTİSADİ YARDIM ŞURASI (QİYŞ)** (1949). Keçmiş sosialist ölkələrinin çoxtərəfli iqtisadi əməkdaşlığı üzrə *beynəlxalq hökumətlərarası təşkilat*; 05-08.I. Bolqarıstan, Macarıstan, Polşa, Rumınıya, SSRİ və ÇSSR nümayəndələrinin Moskvada keçirilmiş iqtisadi müşavirəsinin qərarı ilə yaradılıb. 1950 ildə ADR, 1962 ildə, MXR, 1972 ildə Kuba Respublikası, 1978 ildə VSR QİYŞ-ə qoşulmuşlar. QİYŞ əməkdaşlıq barədə YSFR (1964), Finlandiya (1973), İraq (1975), Meksika (1975), Nikaraqua (1983) ilə sazişlər bağlamışdı. QİYŞ-in ali orqanı - Şuranın sessiyası bu təşkilatın üzvü olan bütün ölkələrdən təşkil olunmuş və bir qayda olaraq, *hökumət başçıları* tərəfindən idarə edilmişdi. SSRİ-nin dağılması və Şərqi Avropa ölkələrində totalitar rejimlərin çökməsi ilə QİYŞ öz mövcudluğuna son qoydu.

**QARŞILIQLILIQ PRİNSİPİ.** *Beynəlxalq münasibətlərdə dövlətlərin suveren bərabərliyi prinsipinə* əsaslanan *beynəlxalq hüquq* prinsipidir. Q.p.-nı əsasən dövlətlər bir-birilərinin qanuni maraqlarını, xüsusilə sülhü və *beynəlxalq təhlükəsizliyin* təmin olunması məsələlərini nəzərə alaraq qarşılıqlı şəkildə bir-birilərinin ərazi bütövlüyünə və *suverenliyinə* hörmət etməlidirlər, bir-birilərinin daxili işlərinə qarışmaqdan və hücum etməkdən qarşılıqlı şəkildə çəkinməlidirlər, öz münasibətlərini qarşılıqlı səmərə əsasında qurmalıdırlar. Q.p. beynəlxalq hüquqda hamı tərəfindən qəbul olunmuş prinsipdir və *beynəlxalq müqavilələrdə* və adətlərdə təsdiq olunmuşdur. Beynəlxalq müqavilələr Q.p.-nə müvafiq olaraq səmərə və öhdəliklərin bərabərhüquqluluğu və qarşılıqlılığı əsasında bağlanır.

Q.p. *beynəlxalq xüsusi hüquqda* geniş yayılmışdır. Burada Q.p. dedikdə xarici dövlətin hüquqi və fiziki şəxslərinə (*Xaricilər*) gəldiyi dövlət tərəfindən müəyyən hüquqların, imtiyazların və üstünlüklərin verilməsidir, lakin o bu şərtlə həyata keçirilir ki, *həmin dövlətin* hüquqi və fiziki şəxsləri də *vətəndaşlarına imtiyazlar və güzəştlər* verdiyi xarici dövlətdə eyni hüquqlardan istifadə edə bilsin. Belə hallarda Q.p. adətən qanunla və ya beynəlxalq müqavilə ilə müəyyən olunur. Beynəlxalq xüsusi hüquqda iki növ Q.p. vardır: 1) *maddi* Q.p. – xarici dövlətin fiziki və hüquqi *şəxslərinə, güzəştlər verən dövlətin* fiziki və hüquqi şəxslərinin həmin xarici dövlətdə istifadə etdiyi qədər konkret sayda səlahiyyətlərin verilməsi və 2) formal Q.p.-dir (bu ad şərtidir və məfhumun mahiyyətini əks etdirmir) – xarici dövlətin fiziki və hüquqi şəxslərinə, güzəştlər verən dövlətin *fiziki* və *hüquqi* şəxslərinin həmin xarici dövlətdə yerli *qanunlardan irəli* gələn səlahiyyətlərdən istifadə edilməsi nəzərə alınmaq şərtilə eyni ölçüdə səlahiyyətlərin verilməsidir.

**QARŞILIQLI TƏHLÜKƏSİZLİYİ TƏMİNETMƏ PROQRAMI.** ABŞ hökuməti tərəfindən *xarici dövlətlərə* göstərilən hərbi-iqtisadi «yardım» tədbirləri proqramı. Qarşılıqlı şəkildə təhlükəsizliyi təmin etməyə dair 1951 il Qanunu bu yardımı dost ölkələrin «təhlükəsizliyini təmin etmək» və ABŞ-ın *«xarici siyasətini* dəstəkləmək» məqsədilə ikitərəfli razılaşmalar əsasında həyata keçirməyi nəzərdə tuturdu. Bu köməklik daha çox əvəzsiz subsidiyalar verilməsi, material və mal göndərilməsi şəklində olmalı idi. Yardımın verilmə şərtləri onu alan ölkənin daxili işlərinə ABŞ-ın qarışmasına imkan verirdi. Bu ölkələr öz ərazilərini *hərbi bazalar* yaradılması üçün ABŞ-ın sərəncamına vermək barədə təəhhüd götürürdülər (*Betti qanunu*).

1961 ildən etibarən Q.t.t.p. Beynəlxalq İnkişaf İdarəsi tərəfindən həyata keçirilir və *xarici yardım qanunu ilə* tənzimlənir.

1950-1970 illərdə xarici dövlətlərə göstərilən ABŞ hərbi «yardımları»nın ümumi dəyəri 50 mlrd. ABŞ dollarından çox olmuşdur; həm də əvəzsiz hərbi «yardımlar» 39.451 milyon ABŞ dolları, xaricə *silah satışı* isə *12.934 milyon* ABŞ dolları təşkil etmişdir.

ABŞ-ın 1970 ilərdə xarici dövlətlərə hərbi «yardımları»nın mütləq həcmi (1971-1975 illərdə hər il 1-4 mlrd. ABŞ dolları, 1976-1981 illərdə 0,3 mlrd. ABŞ dollarından çox olmayıb) durmadan aşağı düşüb. Eyni vaxtda ABŞ hökumətinin xarici silah satışında *böyük artımı olub (ildə* 1-2 mlrd. ABŞ dollarından 8-16 mlrd. ABŞ dollarına qədər). *Prezident* R.Reyqanın dövründə xaricə silah satışı 1982 ildə rekord səviyyəyə qalxıb - 25 mlrd. ABŞ dolları; hərbi «yardım» isə 11 mlrd. ABŞ dollarından çox olub.

**QASIMOV TOFİQ MƏSİM OĞLU** (1938). 1960 ildə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsini bitirmişdir.

1987 ildən siyasi fəaliyyətə başlamış, Azərbaycan Xalq Cəbhəsi sədrinin *xarici əlaqələr üzrə müavini*, 1992-1993 illərdə Azərbaycan Respublikasının xarici işlər naziri işləmişdir. Bu dövrdə Azərbaycan ATƏT (*Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi*), *İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlığı Təşkilatı*, Asiya və Sakit okean Əməkdaşlığı Təşkilatına üzv oldu.

**QEYD-ŞƏRT.** Dövlət tərəfindən çoxtərəfli müqavilənin (*Beynəlxalq müqavilə*) imzalanması, ratifikasiyası zamanı və ya müqaviləni prinsipcə məqbul hesab edərək ona qoşulduğu zaman müqavilənin hər hansı müddəası ilə razılaşmadıqda müqavilə iştirakçısı olan dövlətin müqavilədən hər hansı maddəni çıxarması, onun mənasını dəyişdirməsi və ya ona müəyyən məna verməsi haqda bildirişdir.

Q.ş. beynəlxalq müqavilə praktikasında olduqca geniş tətbiq olunur və onların sayı beynəlxalq əməkdaşlığın inkişafı və soxtərəfli sazişlərin artması ilə əlaqədar olaraq çoxalır.

Q.ş. etmək hər bir dövlətin suveren hüququdur. Q.s. etmək üçün müqavilə iştirakçısı olan digər dövlətlərin razılığı tələb olunmur. Q.s. müqavilənin məqsəd və prinsiplərinə zidd olmamalı və onun başlıca məzmununu dəyişdirməməlidir. Q.ş. istənilən an onu edən dövlət tərəfindən ləğv edilə bilər.

Ümumi müəyyən olunmuş qaydaya görə Q.ş. çoxtərəfli müqavilələrə edilir. Bu müqavilələrdə müxtəlif maraqlara malik çoxlu sayda dövlətlər iştirak edir. Belə dövlətlərin müqavilədə iştirakını asanlaşdırmaq üçün onlara xüsusi xarakterli maddələrə Q.ş. etmək hüququ verilir. Bundan başqa ümumilikdə müqavilələrə Q.ş.-lər qə mümkündür. Beynəlxalq praktikada hesab edilir ki, ikitərəfli müqaviləyə Q.ş. onun yenidən nəzərdən keçirilməsi haqda təklif deməkdir. Əgər müqavilə iştirakçıları məhdud sayda olarsa, eləcə də məqsəd və prinsiplərinə görə müqavilənin bütün iştirakçılar tərəfindən bütövlükdə tətbiqi tələb edilərsə, (məs., ittifaq müqaviləsi) onda ona Q.ş.-lər bütün iştirakçılar tərəfindən qəbul olunmalıdır. Yerdə qalan hallarda iştirakçıların bir hissəsinin Q.ş.-ə qarşı etirazı Q.ş. etmiş dövlətin müqavilədə iştirakına mane olmur. Q.ş., əgər ona digər iştirakçılar tərəfindən bir il ərzində etiraz bildirilmədikdə qəbul edilmiş hesab olunur.

Təşkilatın təsis aktına Q.ş. onun müvafiq orqanları tərəfindən qəbul edilməlidir. Q.ş.-lərin hüquqi nəticəsi ondan ibarətdir ki, onlar Q.ş. edən və onu qəbul edən tərəflərin qarşılıqlı münasibətlərində müqaviləyə müvafiq dəyişikliklər daxil edir. Ayrı-ayrı iştirakçılar tərəfindən Q.ş.-ə qarşı etiraz edildikdə Q.ş. edən dövlətlə onların qarşılıqlı münasibətlərində müvafiq maddə tətbiq edilir. Q.ş. yerdə qalan iştirakçıların qarşılıqlı münasibətlərində müddəaları dəyişmir.

Q.ş.-lərdən əlavə dövlət müqaviləyə müraciət edir və bu və ya digər müddəaların başa düşüldüyünü ifadə edir. Ona görə də onları interpretasıyalı müraciət adlandırırlar. Q.ş.-lərdən fərqli olaraq onlar müqavilənin məzmununu dəyişmir və digər iştirakçıların razılığı tələb olunmur. Ancaq müraciəti qəbul edən dövlətlər üçün məcburidir.

**QEYRİ - BƏRABƏR HÜQUQLU MÜQAVİLƏLƏR.** Güclü dövlətlərin zəif və asılı ölkələrə qəbul etdirdiyi «sazişlər». Q.b.h.m.-ə hər cür zorakı, qəsbkar və son dərəcə ağır şərtlərlə bağlanmış müqavilələr (*Beynəlxalq müqavilə*) aid edilir; bu kimi müqavilələr tərəflərdən birinin suveren (*Suverenlik*) iradəsinə zidd olur, qarşılıqlı mənfəət prinsipinə və *dövlətlərin suveren bərabərliyi prinsipinə* cavab vermir.

Müasir *beynəlxalq hüquq* elmi Q.b.h.m. qanunsuz hesab edir.

Q.b.h.m.-ni bağlayan dövlətin istənilən vaxt onun şərtlərini yerinə yetirməkdən imtina etməyə haqqı var.





Ona beynəlxalq hüququn pozulması halı kimi baxmaq olmaz (məs., Yuqoslaviyanın 1925 il Nettun sazişlərini ləğv etməsi, Misirin Böyük Britaniya ilə hərbi ittifaq barədə 1936 il müqaviləsindən, İranın ABŞ-la 1959 ildə imzaladığı müqavilədən, 1921 il Sovet-İran müqaviləsinin 6-cı maddəsindən imtina edilməsi və s.). Q.b.h.m. tərəflərin razılığı əsasında yenidən baxılaraq ləğv oluna bilər (Panamanın təkidilə kanal haqqında köhnə müqavilənin ləğv olunması və 1977 ildə yeni Amerika-Panama müqaviləsinin bağlanması belə baş verib).

**QƏBUL EDƏN DÖVLƏT.** Diplomatik praktikada və *beynəlxalq hüquqda* Q.e.d. ərazisində *beynəlxalq konfransların*, müşavirələrin, *beynəlxalq təşkilat* orqanlarının sessiyalarının və başqa tədbirlərin keçirildiyi, beynəlxalq təşkilatın qərargahının və ya xarici dövlət nümayəndəliyin yerləşdiyi dövlətdir. Q.e.d. termini 1969 il xüsusi missiyalar haqqında *Vyana konvensiyasında (Beynəlxalq konvensiya)* istifadə edilmişdir. *Beynəlxalq müqavilələrdə* Q.e.d. başqa terminlərlə də ifadə olunur, məs., 1961 il *Diplomatik əlaqələrə* dair *Vyana konvensiyasında*, 1975 il dövlətlərin universal xarakterli beynəlxalq təşkilatlarda təmsil olunması haqqında Vyana konvensiyasında «olduğu dövlət» terminindən istifadə olunur. Bəzi hallarda *diplomatik nümayəndəliyi* qəbul edən dövlət «akkreditə edilən (*Akkreditə etmək*) dövlət», konfrans və ya digər beynəlxalq görüşlərin keçirildiyi dövlət «təşkilatçı dövlət» və ya «dəvət edən dövlət» adlandırılır.

Q.e.d.-in hüquq və vəzifələri yuxarıda qeyd olunmuş 1961, 1975 illər Vyana Konvensiyası kimi çoxtərəfli və ya ikitərəfli müqavilə aktları ilə müəyyənləşdirilir, məs., İsveçrə Federal Şurası ilə Beynəlxalq Elektrik Rabitə İttifaqı arasında sonuncunun İsveçrədəki hüquqi statusu ilə bağlı 1971 il sazişinə əsasən ikitərəfli müqavilə aktı ilə tənzimlənir.

**QƏRBİ AVROPA İTTİFAQI.** Hərbi siyasi qruplaşma; 1954 il Paris sazişləri əsasında və 1948 il *Brüssel müqaviləsinə (Beynəlxalq müqavilə)* uyğun olaraq təsis edilən Qərb İttifaqının yenidən qurulmasının nəticəsi kimi 1955 ildə yaradılıb. İttifaqa Belçika, Böyük Britaniya, İtaliya, Lüksemburq, Niderland, Fransa, Almaniya daxildirlər. Formal olaraq bu ittifaqa silahlanmaya nəzarət etmək funksiyaları həvalə edilmişdi. Əslində isə onun yaradılması 1945 il *Berlin (Potsdam) Konfransı* qərarlarının pozulması olaraq Almaniya Federativ Respublikasını yenidən hərbiləşdirmək və onu *NATO* üzvlüyünə cəlb etmək məqsədlərinə xidmət etmişdir.

Q.A.İ.-nın ali orqanı - iştirakçı ölkələrin parlament üzvləri səviyyəsində müntəzəm keçirilən Məclisdir. İttifaqa Şura rəhbərlik edir və xarici işlər nazirlərinin iştirakı ilə vaxtaşırı sessiyalar keçirir.

Əslində ittifaqın fəaliyyəti məşvərətçi xarakter daşıyır, belə ki, ittifaqa üzv ölkələr, həm də NATO və Avropa İqtisadi Birliyinə (*Avropa İqtisadi Birlikləri*) daxildirlər.

**QƏRBİ BERLİN.** Keçmiş ADR-in mərkəzində xüsusi statusa malik 480 kv. km-lik ərazi. Xüsusi siyasi vahid olaraq QB *müharibədən* sonrakı dövrdə ABŞ, Böyük Britaniya, Fransa və SSRİ arasında bağlanmış 12.IX.1944 il sazişinə müvafiq qaydada təslim olmuş Almaniyanın paytaxtı Berlinin üç qərb sektorunun sərhədlərində yaradılıb.

13.VIII.1961 ildə Q.B.-in bütün sərhədi boyu sərhəd rejimi tətbiq edilmişdi. Dörd dövlət arasında aparılan danışıqlardan sonra 03.IX.1971 ildə Q.B. üzrə onun hüquqi statusunu müəyyənləşdirən dördtərəfli saziş imzalanmışdı. Saziş 03.VI.1972 ildə qüvvəyə minmişdi. X.1990 ildə sovet qoşunlarının ADR-dən çıxarılması ilə Berlin divarları dağıdılmış və iki alman dövlətinin AFR və ADR-in vahid dövlət şəklində birləşməsi baş vermişdir.

**QƏTNAMƏ.** *Beynəlxalq konfrans*, yaxud *beynəlxalq hökumətlərarası təşkilatın* hər hansı orqanı tərəfindən qəbul edilən qərar forması; bir qayda olaraq, tövsiyə xarakteri daşıyır.

*BMT-nin Nizamnaməsinə* uyğun olaraq, *BMT*-nin bütün üzvləri *BMT Təhlükəsizlik Şurasının* qərarlarına (qətnamələrinə) tabe olmağa və onları yerinə yetirməyə təminat verirlər.

**QƏYYUMLUQ** (Protektorat). Havadar, hami mənasında olub, müstəmləkə asılılığı formalarından biridir. Bu halda hər hansı bir dövlət öz xarici əlaqələrinin qurulmasını və ərazisinin müdafiəsini başqa bir dövlətə - protektora həvalə edir.

*Beynəlxalq münasibətlər* tarixində Q. çox vaxt birtərəfli müahidə ilə təsdiqlənir. 1914 ildə Böyük Britaniya Misir üzərində Q.-unu birtərəfli *Bəyannamə* ilə rəsmiləşdirmişdi. 1939 ildə Hitler Almaniyası Çexiya və Moraviya üzərində protektorat təcrübəsini həyata keçirmişdi. Q.- protektorat müasir *beynəlxalq hüququn*, ilk növbədə öz müqəddəratını təyin etmənin *BMT Nizamnaməsində* təsbit olunan prinsip və normalarının pozulmasıdır, müstəmləkə ölkələrinə və xalqlarına müstəqillik verilməsinə dair 1960 il Bəyannaməsi ilə ziddiyyət təşkil edir.

**QLEYVİTS TƏXRİBATI** (1939). Hitlerçi məxfi xidmət orqanları tərəfindən Polşaya hücum üçün bəhanə məqsədilə Qleyvitsdə (Yuxarı Sileziya) yerləşən radiostansiyaya basqın törədilib. *İkinci dünya müharibəsinin* başlanğıcı olub.

**QLOBAL PROBLEMLƏR.** Daha mühüm ümumbəşəri problemlər mənasında qəbul olunmuş anlayış; bu problemlərin yaranması müasir dövrdə bir sıra sosial-iqtisadi və elmi-texniki amillərin bütövlükdə ictimai varlığa təsiri ilə bağlıdır.

Nüvə təhlükəsinin aradan qaldırılması, *tərksilah* və sülhün qorunub saxlanması, ictimai ədalətsizlik təzahürlərinin - aclıq, yoxsulluq və səfalətin aradan qaldırılması üçün şərait yaradılması, demoqrafik artımla məhsuldar qüvvələrin inkişaf dinamikası arasında əlverişli tənasübün təmin edilməsi, yer kürəsi əhalisinin enerci-xammal və ərzaq ehtiyatları ilə etibarlı təmin olunması, *dünya okeanı* ehtiyatlarından rasional istifadə və kosmik fəzanın mənimsənilməsi, təbii mühitin mühafizəsi, insanın fiziki və mənəvi varlığında, habelə səhhətində neqativ dəyişiklik yarada bilən təhlükənin aradan qaldırılması və s. daha mühüm Q.p.-ə misal ola bilər.

Q.p.-in həll olunmayıb qalması xüsusən də nüvə *müharibəsi* təhlükəsinin artması bəşəriyyət üçün başlıca təhlükədir. Belə müharibə nəinki insanların həyatını pisləşdirə, hətta sivilizasiyasının məhvinə gətirib çıxara bilər.

**QOCAYEV XEYRƏDDİN SAYƏDDİN OĞLU** (1950). 1971 ildə Azərbaycan Pedaqoji Universitetini, 1977 ildə isə Jurnalist Sənətkarlığı İnstitutunu bitirmişdir. 1974-1993 illərdə Respublikanın müxtəlif mətbuat onqanlarında müxbir, redaktor müavini, redaktor vəzifələrində çalışmışdır. 1993-1997 illərdə «Yeni Azərbaycan» qəzetinin baş redaktoru işləmişdir. 1995 ildə Milli Məclisin üzvü seçilmişdir. 1997 ildə isə Türkiyə Respublikasının İstambul şəhərindəki Azərbaycan Respublikasının Baş *konsulu* təyin olunmuşdur.

Birinci dərəcəli Fövqəladə və Səlahiyyətli *elçi* diplomatik rütbəsinə (*Diplomatik adlar və rütbələr*) malikdir.

**QOLL ŞARL DE (DE QOLL)** (1890-1970). Fransa hərbi, dövlət və siyasi xadimi. *Birinci dünya müharibəsinin* və *İkinci dünya müharibəsinin* iştirakçısı olmuşdu. «Azad Fransa» hərəkatının əsasını qoymuşdur. Onun təşəbbüsü ilə 1942 ildə SSRİ-də fransız təyyarəçilərindən ibarət Normandiya-Neman aviasiya eskadrilyası yaradılmışdı.

D.Q. 1943 ildə Fransa Milli Azadlıq Komitəsinin, VI.1944 ildə isə Fransa Respublikası Müvəqqəti hökumətinin sədri olmuşdu. Qarşılıqlı yardıma dair 1944 il Sovet-Fransa müqaviləsini (*Beynəlxalq müqavilə*) imzalamışdı. Fransada *prezident* idarə üsulu yaratmaq planları müqavimətə rast gəldiyindən, I.1946 ildə istefaya çıxmışdı. 1947 ildə Fransız Xalqının Birliyi (FXB) partiyasını yaratmış, 1953 ildə isə partiyanın buraxıldığını elan edərək siyasi fəaliyyətdən uzaqlaşmışdı. V.1958 ildə Əlcəzairdəki hərbi qiyamla əlaqədar yaranmış kəskin siyasi böhran şəraitində D.Q.-u hökumətə başçılıq etməyə dəvət almışdı. D.Q. 01.VI.1958 ildə nazirlər şurasının sədri olmuşdu. O, iki dəfə 21.XII.1958 ildə 19.XII.1965 ildə) Fransa Respublikasının prezidenti seçilmişdi.

D.Q. 26.XI.1944 ildə Bakıya səfər etmişdi.

**QORÇAKOV ALEKSANDR MİXAYLOVİÇ** (1798-1883). Rusiya *diplomatı* və dövlət xadimi. 1856-1882 illərdə xarici işlər naziri vəzifəsində çalışmışdı. 1890 ildə Rusiyanın Qara dənizdə hüquqlarının məhdudluğunu, yəni bu hövzədə hərbi-dəniz donanması saxlamaqla bağlı yasağı aradan qaldıra bilmişdi. 1873 ildə üç imperatorun (Rusiya, Avstriya-Macarıstan və Almaniya) ittifaqının yaranmasına nail olmuşdu.

**QOŞULMAMAQ SİYASƏTİ.** *İkinci Dünya müharibəsindən* sonra imperializmə, müstəmləkəçiliyə və yeni müstəmləkəçiliyə qarşı, sülh və əmin-amanlıq uğrunda, hərbi ittifaq və qruplardan azad, *beynəlxalq münasibətlərdə* bərabərhüquqlu iştirak uğrunda gedən mübarizədə dünyanın əksər ölkələrinin seçdiyi *xarici siyasət* xətti; ilk dəfə Cəvahirləl Nehrunun irəli sürdüyü konsepsiyanı – Q.s.-ni, əməli olaraq həyata keçirən müstəqil Hindistan dövləti olmuşdur. Q.s.-nin prinsiplərinin müstəqillik qazanan ölkələr tərəfindən tezliklə və geniş formada tanınması qoşulmamaq hərəkatının inkişafına gətirib çıxardı. Bu hərəkatın yüksək səviyyəli forumlarında qəbul olunmuş sənədlərdə Q.s. müstəqil siyasət kimi müəyyən olunub təsdiq edilir; bu siyasət dövlətlərin *dinc yanaşı yaşamasını* təmin etmək və milli-azadlıq hərəkatlarına ardıcıl kömək etmək məqsədi güdərək, «böyük dövlətlər arasında münaqişələr şəraitində qəsdən bağlanmış» hər hansı çoxtərəfli hərbi ittifaqda ölkənin iştirak etməyəcəyini təsdiq edir. Əgər dövlət hər hansı böyük dövlətlə ikitərəfli hərbi sazişə girmiş, yaxud regional müdafiə *paktına*

daxil olmuşdursa, bu saziş və ya pakt, eləcə də həmin dövlətin ərazisində yerləşən xarici *hərbi bazalar* «böyük dövlətlər arasında olan münaqişələrdən kənarda» qalmalıdır.

**QRENLANDİYANIN STATUSU.** XVII əsrdən başlayaraq Qrenlandiya Danimarkanın müstəmləkəsi olub; 1953 il Konstitusiyasına əsasən, Danimarka dövlətinin tərkib hissəsi elan edilmiş və ona Danimarka parlamentində təmsil olunmaq hüququ verilmişdi. 17.XI.1978 ildə parlament Qrenlandiyanın özünüidarəsinə dair kompleks qanun layihələrini bəyənmişdi. 07.IV.1979 ildə ilk dəfə olaraq yerli parlamentə (landstinq) ümumi seçkilər keçirilmiş və 01.V.1979 ildən etibarən yerli administrasiya (landstüre) öz vəzifələrinin icrasına başlamışdır. Xarici siyasət, müdafiə və valyuta-maliyyə məsələləri Danimarka hökumətinin səlahiyyətində qalırdı.

23.II.1982 ildə Qrenlandiyada *Referendum* keçirilmiş və iştirakçıların 52% ölkənin *Avropa İqtisadi Birliyindən* səs vermişdi.

09.IV.1941 ildə ABŞ ilə Danimarka arasında «Qrenlandiyanın müdafiəsi» haqqında saziş imzalandı və ona müvafiq olaraq, ABŞ adada hava bazaları və digər hərbi obyektlərin tikintisini genişləndirdi. 16.V.1945 ildə ABŞ həmin sazişin Danimarka tərəfindən *ratifikasiyasına* nail oldu, halbuki, faşist Almaniyasının darmadağın olunmasından sonra həmin sənəd qüvvədən düşməli idi. Danimarkanın *NATO*-ya üzv olmasından sonra 27.IV.1951 ildə ABŞ onunla «Qrenlandiyanın müdafiəsi» haqqında yeni saziş bağladı və bu saziş Şimali Atlantika müqaviləsinin qüvvədə qaldığı müddət üçün etibarlı sayıldı. Sazişə əsasən, Tul, Syondr, Stryemford və Narssarsuanda üç «müdafiə rayonu» yaradıldı. 1958 ildə Narssarsuandakı baza Danimarkaya verildi. 1951 il sazişinə əsasən, ABŞ hərbi təyyarələri və gəmiləri Qrenlandiyaya maneəsiz daxil olmaq hüququ əldə etdilər.

**QRİBOYEDOV ALEKSANDR SERGEYEVİÇ** (1795-1829). Rus yazıçısı və *diplomatı*. 1817 ildə Xarici İşlər Nazirliyi (*Xarici İşlər İdarəsi*) Kollegiyasına xidmətə götürülmüş, 1818-1821 illərdə İranda Rusiya *diplomatik missiyasının* katibi; 1821-1826 illərdə «xarici işlər üzrə» katib olmuşdu. Onun diplomatik fəaliyyətinin birinci mərhələsi 1804-1813 illər Rusiya-İran *müharibəsinə* son qoyan *Gülüstan müqaviləsi (Beynəlxalq müqavilə)* ilə nəticələnmişdi. Həmin müqaviləyə əsasən, Qarabağ, Gəncə, Şəki, Şirvan, Quba, Dərbənd, Bakı xanlıqları və Talış xanlığının şimal hissəsi Rusiya imperiyasının tərkibinə qatılmışdı. İranla yaxınlaşma tərəfdarı olan Q. 1826-1828 illərdə Qafqaz canişininin *diplomatiya* idarəsinə rəhbərlik edərkən İranda antirus mövqe tutan ingilis Ost-Hind kampaniyasına qarşı mübarizə aparmışdı. O, 1826-1828 illər İran-Rusiya müharibəsi zamanı İran hökuməti ilə diplomatik danışıqlarda iştirak etmiş və 1828 il *Türkmənçay müqaviləsinin* şərtlərini hazırlamışdı. V.1828 ildə nazir-rezident kimi İrana göndərilmişdi. İrana səfir təyin olunmazdan əvvəl Şərq məsələləri üzrə mütəxəssis kimi Q.-a İrana diplomatik xidmətə göndəriləcək kadrlar üçün təlimat layihəsi hazırlamaq tapşırığı verilmişdi. Onun diplomatik fəaliyyətində İrandan Rusiya hüdudlarına, İrəvan və Naxçıvan xanlıqları ərazisinə ermənilərin köçürülməsi xüsusi səhifə təşkil edir. O, bu məsələyə Rusiyanın Azərbaycan torpaqlarında mövqelərinin möhkəmlənməsi kimi baxırdı. Q. ermənilərin köçürülməsi planını 1827 ildə, yeni Zaqafqaziya Diplomatiya Dəftərxanasında işləyərkən hazırlamışdı. Çar hökuməti İranla həmsərhəd bölgələrdə 80 min kazak yerləşdirməyi nəzərdə tutduğu halda, Q.-un tövsiyəsi ilə bu plan sərf-nəzər edilmiş və bu yerlərə köçürülənlər arasında üstünlük ermənilərə verilmişdi. Türkmənçay müqaviləsi imzalandıqdan sonra, erməni mənşəli rus generalı Paskeviç 29.11.1928 ildə İrəvanın müvəqqəti administrasiyasına erməni köçkünlərinin daha çox İrəvan və Naxçıvan vilayətlərinə, bir qisminin isə Qarabağa köçürülməsi barədə təlimat göndərdi. Q. İran hökumətindən erməni köçkünlərilə bağlı götürdüyü bütün təəhhüdlərə əməl olunmasını təkidlə tələb edirdi.

11.II.1829 ildə qəzəblənmiş kütlə Tehrandakı rus *səfirliyinə* hücum çəkib Q-u və onun 37 nəfər həmkarını qətlə yetirmişdi.

**QROMIKO ANDREY ANDREYEVİÇ** (1909-1989). Sovet dövlət xadimi, *diplomat*. 1939 ildən diplomatik xidmətdə olmuş, SSRİ Xalq Xarici İşlər Komissarlığı Amerika ölkələri şöbəsinin müdiri işləmişdi. 1939 ildə ABŞ-da səlahiyyətli nümayəndəliyin, 1941 ildən *səfirliyin* müşaviri; 1943-1946 illərdə SSRİ-nin ABŞ-da *səfiri* və eyni zamanda Kuba Respublikasında müşavir-elçi; 1946-1948 illərdə SSRİ-nin *BMT*-də daimi nümayəndəsi və eyni zamanda SSRİ xarici işlər nazirinin müavini olub.

1948-1949 illərdə SSRİ xarici işlər nazirinin müavini, 1949-52 illərdə birinci müavini; VI.1952 ildən SSRİ-nin Böyük Britaniyada səfiri; IV.1953 ildən II.1957 ilədək SSRİ xarici işlər nazirinin birinci müavini, II.1957 ildən nazir, III.1983 ildən, eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olub.

1944 ildə BMT-nin yaradılmasına dair keçirilən *Dumbarton-Oks Konfransında (Beynəlxalq konfranslar)* sovet nümayəndəliyinə başçılıq edib. 1945 il *Yalta (Krım) konfransında* və *Berlin (Potsdam) Konfranslarında, San-Fransisko konfransında* əvvəlcə nümayəndə heyətinin üzvü, sonra başçısı kimi iştirak edib. *BMT Nizamnaməsini* imzalayanlardan biridir. *BMT Baş Məclisinin* sessiyalarında dəfələrlə sovet nümayəndə heyətinə başçılıq edib. Böyük dövlətlərin xarici işlər nazirlərinin bir sıra müşavirələrinin iştirakçısı olub. *Varşava Müqaviləsi Təşkilatının* Siyasi Məsləhət Komitəsinin, bu ölkələrin Xarici İşlər Nazirləri Komitəsinin müşavirələrində, habelə başqa beynəlxalq müşavirələrdə və konfranslarda iştirak edib.

**QULİYEV ELDAR QULAM OĞLU** (1939). 1963 ildə Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirib. 1963-1965, 1969-1973 və 1973-1976 illərdə SSRİ-nin Misirdəki *səfirliyində*, 1978-1983 illərdə SSRİ-nin İstambuldakı Baş Konsulluğunda (*Konsul idarəsi*), 1988-1990 illərdə isə SSRİ-nin Yəməndəki səfirliyində müxtəlif vəzifələrdə, 1984-1990 illərdə isə SSRİ Xarici İşlər Nazirliyinin (*Xarici İşlər İdarəsi*) aparatında, 1990-1994 illərdə isə Rusiya Federasiyası XİN aparatında baş müşavir vəzifəsində çalışmışdır. 1994 ildə isə *Birləşmiş Millətlər Təşkilatı* yanında Azərbaycan Respublikasının daimi nümayəndəsi təyin olunmuşdur.

Fövqəladə və Səlahiyyətli səfir diplomatik rütbəsinə (*Diplomatik adlar və rütbələr*) malikdir.

**QULİYEV VİLAYƏT MÜXTAR OĞLU** (1952). Azərbaycan diplomatı, ədəbiyyatşünas alim.

1975 ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirmiş, əmək fəaliyyətinə müəllim kimi başlamış, 1981-1992 illərdə Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunda elmi işçi, şöbə müdiri, direktor müavini işləmiş, elmlər doktoru alimlik dərəcəsi almışdı. 1995-2000 illərdə Azərbaycan Respublikası Milli məclisinin deputatı olmuş, 1999 ildə xarici işlər naziri təyin edilmişdi. 2000 ildə ona Fövqəladə və Səlahiyyətli *səfir* diplomatik rütbəsi (*Diplomatik adlar və rütbələr*) verilmişdi. Xarici işlər naziri kimi diplomatik aləmdə Azərbaycanın haqq işini müdafiə etmiş, Ermənistan-Azərbaycan münaqişəsinin, *Dağlıq Qarabağ probleminin* dinc yolla həll edilməsi, Azərbaycanın *ərazi bütövlüyü və suverenliyinin* bərpa edilməsi istiqamətində fəaliyyət göstərmişdi.

2004 ildə Azərbaycanın Polşada Fövqəladə və Səlahiyyətli səfiri təyin olunmuşdur.

**QUMBERİDZE ZURAB AKAKİYEVİÇ** (1964). 1976 ildə Gürcüstan Politexnik İnstitutunun avtomatlaşdırma və hesablama avadanlığı fakültəsini bitirmişdir. 1982-1983 illərdə Gürcüstan Politexnik İnstitutunda elmi işçi, bölmə müdiri *vəzifəsində çalışmışdır*. 1992-1995 illərdə Gürcüstan Texniki Universitetində «Maşınqayırma üzrə proqramlaşdırılmış idarəetmə» kafedrasının müdiri olmuşdur. 1997 ildə Gürcüstanın Azərbaycandakı *səfirliyində* Fövqəladə və Səlahiyyətli müşavir-elçi təyin olunmuşdur. 1990 ildə elm və texnika sahəsində Gürcüstan Dövlət Mükafatı Laureatıdır. 1997 ildə Gürcüstan Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli *səfiri* təyin olunmuşdur.

**QÜDSÜN STATUSU.** Fələstinin bölünməsinə dair *BMT Baş Məclisinin* 181(II) saylı, 29.XI.1947 il tarixli *Qətnaməsi* Qüdsün xüsusi beynəlxalq rejimə malik əlahiddə vahid kimi ayrılmasını (*Qəyyumluq* üzrə Şuranın idarəçiliyi altında) nəzərdə tuturdu.

1948-1949 illər Fələstin *müharibəsinin* nəticəsi olaraq İsrail ilə İordaniya arasında bağlanan barışıq haqqında Ümumi sazişə müvafiq olaraq Qüdsün qərb hissəsi İsrailin, şərq hissəsi isə İordaniyanın nəzarəti altına keçmişdi.

IV.1950 ildə Qəyyumluq üzrə şura şəhərin statusunu işləyib hazırladı. Status Qüdsdə inzibati hakimiyyəti həyata keçirəcək qubernatorun təyin olunmasını *nəzərdə tuturdu. 23.I.1950* ildə qərbi Qüdsü birtərəfli qaydada öz ölkəsinin paytaxtı elan edən İsrail hökuməti Qüdsün təklif olunan statusunu «həyata keçirilməsi mümkün olmayan» iş adlandırdı; İsrailin ərəb dövlətləri ilə 1967 il müharibəsi İordan çayının qərb sahilinin və Qüdsün şərq hissəsinin işğalı ilə nəticələndi. Qüdsün işğal olunan hissəsi İsrail bələdiyyəsinin idarəçiliyinə daxil edildi, ərəblərə məxsus şəhər şurası isə buraxıldı. Qüdsün statusunun pozulması, onun coğrafi, *demoqrafik və tarixi xarakterli dəyişmələrə* uğraması *BMT* tərəfindən dəfələrlə qeyri-qanuni hesab edilmişdi. Bununla belə, İsrail parlamenti 30.VII.1980 ildə Qüdsün şərq hissəsinin İsrail dövləti tərəfindən *ilhaq* olunmasını təsdiqləyən və «birləşmiş Qüdsü» İsrailin «bölünməz» paytaxtı elan edən qanun çıxardı. *BMT Təhlükəsizlik Şurası* özünün 20.VIII.1980 il 478 saylı Qətnaməsində İsrailin Qüdsün statusunu dəyişdirməyə yönəldilən hərəkətlərini tanımamaq barədə qərar qəbul etdi və Qüdsdə *diplomatik nümayəndəlikləri* olan dövlətləri öz nümayəndələrini Qüdsdən çıxarmağa çağırdı. Qüdsdə *səfirlikləri* olan 11 dövlətin hamısı öz nümayəndəliklərini Təl-Əvivə köçürdülər.

*İsrailin Qüdslə bağlı* qeyri-qanuni hərəkətləri BMT BM tərəfindən yekdilliklə pislənilmişdi. Bu barədə 15.XII.1980 il, 35/169 E saylı, qətnamənin əleyhinə səs verən yalnız İsrail olmuşdur.

**«QÜVVƏLƏR TARAZLIĞI» SİYASƏTİ.** İri dövlətlər tərəfindən xarici siyasi məqsədlərə çatmaqda tətbiq edilən metodlardan biri; bu siyasət hələ Qədim Romada işlənib hazırlanmış «parçala və hökm sür» (**divide et impera**) prinsipindən rişələnir. Britaniya imperiyası tarixinin çiçəklənmə dövrünə təsadüf edir. O vaxtlar Britaniya Avropa dövlətləri və ya *koalisiya* dövlətləri arasında mövcud olan, yaxud təhrikçilik yolu ilə yaradılan ziddiyyətlərdən istifadə edərək beynəlxalq məsələlərdə «arbitr» rolunu oynamağa müvəffəq olurdu. İngiltərə «Avropada tarazlığı» saxlamaq adı altında gah bir, gah da digər dövlətlər qruplaşmasına dəstək verirdi. Həm də belə halda, adətən, zəif qruplaşmanın tərəfində dururdu. Bu cür siyasətin mahiyyətini XIX əsrin məşhur ingilis siyasi xadimi lord Palmerstonun formulası yaxşı ifadə edir. «Bizim ədəbi müttəfiqlərimiz və əbədi düşüncələrimiz yoxdur. Bizim daimi mənafelərimiz vardır və biz onu güdməliyik».

«Parçala və hökm sür» prinsipi çar Rusiyasının Şərq siyasətində geniş tətbiq edilmişdi. Sovet İttifaqının varisi kimi çıxış edən indiki Rusiya Qafqaz regionu ilə bağlı məsələlərdə öz aparıcı mövqeyini gerçəkləşdirmək üçün həmin siyasətdən bəhrələnir.

XX əsrdə ABŞ da «qüvvələr tarazlığı» siyasətini tətbiq etməyə başladı. Bu, Amerika hakim dairələrinin *Birinci dünya müharibəsi* və *İkinci dünya müharibəsi* zamanı hərəkətlərində özünü büruzə verirdi onlar döyüşən tərəflərin qarşılıqlı şəkildə zəif düşmələri hesabına daha üstün mövqelərə çıxmağa can atırdılar.

«Q.t»s. ilə məşğul olan ABŞ nəzəriyyəçiləri sırasına N.Spaykmanı, «siyasi realizm» deyilən məktəbin nümayəndələri *Q.Morgentaunu*, R.Straus-Hyupeni və başqalarını aid etmək olar.

# L

**LEND-LİZ** (İng. *Lend Lease*, *Lend*-borc vermək, *lease* - icarə vermək). *İkinci Dünya müharibəsi* illərində *antihitler koalisiyası* üzrə müttəfiq dövlətlərə ABŞ-ın silah, döyüş sursatı, strateji xammal, ərzaq və s. borc və ya icarəyə vermək sistemi. L.l. haqqında qanun 11.III.1941 ildə ABŞ *Konqresi* tərəfindən qəbul edilmişdi. Razılaşmalara görə mal qəbul edən ölkələr əvəzində ABŞ-a zəruri mallar göndərmək haqqında öhdəlik götürürdülər.

**LEY İN ÇEN** (1937). 1965-1966 illərdə Çin Xalq Respublikası Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) təhsil

şöbəsində referent işləmiş, SSRİ İrkutsk Universitetində təkmilləşdirmə kursu keçmişdir. 1973-1980 illərdə Çin Xalq Respublikasının SSRİ-dəki *səfirliyində attaşe*, 1984-1988 illərdə I katib işləmişdir. 1988-93 illərdə Dövlət Şurası yanında xarici işlər üzrə dəftərxanada şöbə rəisinin müavini olmuşdu. 1993 ildə Xabarovskda Baş *konsul* olmuşdur. 1995-1998 illərdə Çin Xalq Respublikasının Azərbaycan Respublikasında *səfiri* işləmişdir.

**LİTVİNOV MAKSİM MAKSİMOVİÇ** (1876-1951). Sovet *diplomatıdır*. 1930-1939 illərdə xarici işlər üzrə xalq komissarı, 1934-1938 illərdə eyni zamanda *Millətlər Cəmiyyətində* SSRİ-nin nümayəndəsi vəzifələrində çalışmışdır. Xalq komissarı işlədiyi müddətdə o, SSRİ-nin beynəlxalq təcriddən azad olunması, Böyük Britaniya, Fransa ABŞ ilə münasibətlərin yaxşılaşmasında uğurlu fəaliyyət göstərmişdi. *İkinci dünya müharibəsi* dövründə L.M.M. SSRİ-nin ABŞ-da fövqəladə və səlahiyyətli *səfiri* təyin olunmuş, faşist Almaniyasına qarşı mübarizədə iki ölkənin hərbi sahədə sıx əməkdaşlığına nail olmuşdu.

**LLOYD DEVİD CORC** (1863-1945). Böyük Britaniyanın dövlət və siyasi xadimidir. 1916-1922 illərdə baş nazir olmuşdur. 1919-1920 illər *Paris sülh konfransında* və *Versal sülh müqaviləsinin* müddəalarının hazırlanmasında böyük rol oynamışdır. 1922 il *Genuya konfransında* Böyük Britaniya nümayəndə heyətinə başçılıq etmişdi. Avropada kollektiv təhlükəsizlik sisteminin yaranması ideyasını fəal şəkildə dəstəkləmişdi.

**LOBBİZM** (in. *lobbi* - dəhliz). Dövlətin (başlıca olaraq qanunverici orqanların) qəbul etdiyi qərarlara təsir göstərməklə məşğul olan qrup və ya ayrı-ayrı şəxsləri göstərmək üçün istifadə olunan termindir. İlk dəfə olaraq ABŞ-da meydana gəlmişdir.

1946 ildə ABŞ-da L.-nin fəaliyyətinin tənzimlənməsi haqqında xüsusi qanun qəbul edilmişdi. Lobbi qruplarından qeydiyyatdan keçmək, öz fəaliyyətləri, gəlir mənbələri və s. haqda məlumatlar təqdim etmək tələb olundu. Lakin praktikada bu qanunun müddəaları lobbiçilərə öz fəaliyyətlərin həyata keçirməkdə mane olmur.

Hal-hazırda bütün demokratik ölkələrdə lobbilər mövcuddur.

**LONDON KLUBU.** Nüvə materialları avadanlığı və texnologiyaları istehsal edən, onları nüvə silahının yayılmaması rejiminə uyğun ixrac etmək haqqında razılığa gələn dövlətlər qrupu. Razılaşma 1975 ildə Londonda SSRİ, ABŞ İngiltərə, Fransa, AFR, Yaponiya və Kanada tərəfindən «Nüvə ixracatının əsas prinsipləri» və ona əlavə olunmuş «Yekun siyahı» və «Fiziki müdafiə səviyyəsinin kriteriyaları» əsasında əldə olunmuşdu. Bu prinsiplərə əsasən nüvə materiallarını və avadanlıqların qəbul edən tərəf rəsmi şəkildə bəyan etməlidir ki, onlardan ancaq dinc məqsədlərlə istifadə edəcəkdir. Kriteriyalara əsasən onların fiziki müdafiəsini təşkil etməli və qanunsuz istifadə olunmasının qarşısını almalıdır.

*Atom Enerjisi Üzrə Beynəlxalq Agentliyin* təminatlarına əsasən qəbul etmiş tərəf nüvə materiallarını başqa ölkəyə ixrac edən zaman üçüncü tərəf həmin şərtləri qəbul etməlidir. 1976-77 illərdə bu kluba ADR, ÇSSR, İtaliya, Niderland, Belçika, İsveç, İsveçrə daxil olmuşdu. 1978 ildə L.k. üzvləri MAQATE sazişini təsdiq etdilər.

1978 ildə Avstraliya, 1980 ildə Finlandiya əsas prinsipləri qəbuluna qərar verdilər.

**LONDON KONVENSİYALARI.** 1) 06.VII.1827. Böyük Britaniya, Fransa və Rusiya tərəfindən Türkiyə əleyhinə imzalanmışdı. K. Türkiyədən Yunanıstana muxtariyyat verilməsini tələb edirdi. Yunanıstan isə Türkiyə sultanına illik xərac ödəməli idi.

2) 13.XII.1841. Avstriya, Böyük Britaniya, Prussiya, Rusiya və Türkiyə arasında imzalanmışdı. K.-yaya görə Türkiyə dinc vaxtlarda Qara dəniz boğazlarından xarici hərb gəmilərini buraxmamalı idi.

3) 13.III.1871. Avstriya, Macarıstan, Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, Rusiya və Türkiyə arasında imzalanmışdı. K. Türkiyəyə dinc vaxtlarda Qara dəniz boğazlarında xarici hərb gəmilərini buraxmaq hüququ verdi.

**LOZANNA KONFRANSI** (1922-1923). Türkiyədə imperialist müdaxiləsinin boşa çıxmasından və Kamalçılar inqilabının qələbəsindən sonra Yaxın Şərqdə vəziyyəti nizama salmaq məqsədilə çağırılmış *beynəlxalq konfrans*; 20.XI.1922-24.VII.1923 illərdə İsveçrənin Lozanna şəhərində keçirilmişdi. Əsas məqsədi Türkiyə ilə sülh müqaviləsi (*Beynəlxalq müqavilə*) bağlamaqdan və Qara dəniz boğazlarının rejimini müəyyənləşdirməkdən ibarət idi. L.k.-nın işində Böyük Britaniya, Fransa, İtaliya, Yunanıstan, Rumıniya, Yuqoslaviya və Yaponiya iştirak edirdi. ABŞ müşahidəçi (*Müşahidəçilər*) sifətilə təmsil olunmuşdu. *Antanta* dövlətləri Sovet, habelə Bolqarıstan nümayəndə heyətlərinin konfransda iştirakını yalnız boğazlar məsələsinin müzakirəsi ilə məhdudlaşdırmışdılar. Bir sıra əlahiddə (əsasən, iqtisadi) məsələlərin müzakirəsində Albaniya, Belçika, İspaniya, Portuqaliya, Niderland, Norveç və İsveçin nümayəndələri də iştirak edirdi.

Sovet nümayəndə heyəti (birinci mərhələdə ona G.V.Çiçerin (*Çiçerin Georgi Vasilyeviç*) başçılıq edirdi) konfransda boğazlar məsələsi ilə əlaqədar Qara dəniz sahili ölkələrinin, birinci növbədə Türkiyənin milli mənafeyinə cavab verən layihə irəli sürülmüşdü. Türkiyə nümayəndə heyəti hazırlanmaqda olan sülh müqaviləsinin bir sıra mühüm məsələlərində İngiltərə tərəfindən müdafiə olunacağına ümüd bəsləyərək boğazlar məsələsində Böyük Britaniya nümayəndə heyətinin layihəsini qəbul etməyə hazır olduğunu bildirdi (bu layihə istər dinc dövr, istərsə də Türkiyənin bitərəf (*Bitərəflik*) qaldığı *müharibə* dövrləri üçün boğazları bütün ölkələrin hərbi gəmiləri üçün açıq elan edir, boğazların *tərksilah* olunmasını, onlar üzərində beynəlxalq nəzarət qoyulmasını nəzərdə tuturdu). Lakin başlıca milli mənafeləri nəzərə alınmadığından, Türkiyə Antanta dövlətlərinin hazırladığı müqaviləni imzalamaqdan imtina etdi və 04.II.1923 ildə danışıqlar kəsildi. 23.IV.1923 ildə danışıqlar yenidən başlanarkən Antanta dövlətləri Sovet nümayəndə heyətinə qarşı birbaşa ayrı-seçkilik xətti götürdülər. Lozannaya gəlmiş V.V.Vorovski qanunsuz olaraq nümayəndə heyətinin üzvü hüququndan məhrum edildi; 10.V. isə ağqvardiyaçılar tərəfindən qətlə yetirildi. L.k.-nın ikinci mərhələsində də sülh müqaviləsi ilə əlaqədar məsələlərin müzakirəsi başlıca yer tutdu. Antanta dövlətləri bu dəfə Türkiyənin bir sıra haqlı tələbləri ilə hesablaşmalı oldular.

24.VII. imzalanmış sülh müqaviləsi (Böyük Britaniya, Fransa, İtaliya, Yaponiya, Yunanıstan, Rumıniya və Yuqoslaviya ilə Türkiyə arasında bağlanmış və tarixə Lozanna sülh müqaviləsi kimi daxil olmuşdur) Kamalçılar inqilabı nəticəsində yaradılmış müstəqil Türkiyə dövlətinin varlığını təsdiq etdi. Onun yeni (indiki) sərhədlərini müəyyənləşdirdi; türk xalqının milli heysiyyətini alçaldan *kapitulyasiya* rejimi ləğv olundu. Bununla yanaşı Türkiyə Osmanlı imperiyasının borclarının bir hissəsini öd- mək barədə təəh-hüd götürdü.

L.k.-nın digər mühüm sənə olan boğazlara dair konvensiya (*Bey- nəlxalq konvensiya*) (əsasını İngiltə- təklifi təşkil edirdi) Qara dəniz sah- ölkələri üçün qeyri normal şərait yara- dığından, SSRİ onu təsdiq etməd 1936-cı ildə bu sənəd Qara dəniz ölkə- lərinin mənafeyini nəzərə alan ye- konvensiya ilə əvəz olundu.

# M

**MAASTRİXT MÜQAVİLƏSİ** (1992). 07.II Avropa Birliyinin 12 üzvü arasında Avropa İttifaqı haqqında imzalanmış müqavilə (*Beynəlxalq müqavilə*). Maastrixt müqaviləsi aşadıdakıları özündə təsbit edir: vahid valyuta prinsipi və vahid pul sisteminə qoşulmaq istəyən dövlətlərin cavab verməli olduğu şərtlər; vahid valyutanı buraxmaq səlahiyyətində olan mərkəzi bankın yaradılması; Avropa vətəndaşlığının yaradılması; ümumi xarici və *beynəlxalq təhlükəsizlik* siyasəti; daxili və hüquqi siyasət sahəsində əməkdaşlıq.

**MACARISTAN HADİSƏLƏRİ** (1956). 23.10. Macarıstanda kommunist rejimi əleyhinə mitinqlər başladı. Mitinqlərin əsas iştirakçısı olan tələbələr sovet qoşunlarının Macarıstandan çıxarılmasını, azad seçkilərin keçirilməsini, senzuranın ləğv edilməsini, siyasi dustaqların azad olunmasını, çoxpartiyalı sistemin yaradılmasını, məcburi kollektivləşməyə məruz qalmış kənd təsərrüfatında islahatlar keçirməyi tələb edirdilər. 24.10. İmrə Nad Macarıstanın baş naziri təyin olundu. 28.10. İ.Nad koalisyon hökumət təşkil etdi. 01.XI. Macarıstana əlavə sovet qoşunlarının yer- dilməsinə cavab olaraq İ.Nad ölkəsin- *Varşava Müqaviləsi Təşkilatından* çıx- dığını elan etdi və Macarıstan neytra ölkə (*Neytral dövlətlər*) kimi tanınmas barədə *BMT*-yə müraciət etdi. Bundan sonra sovet qoşunları təkrar olaraq ( dəfə 26.10. yeridilmişdir) Budapeştə yeridildi, Yanoş Kadar başda olmaqla Müvəqqəti fəhlə-kəndli hökuməti yaradıldı və bu hökumət hərbi kömək üçün SSRİ-yə *müraciət etdi. 04.XI.* çıxışlar sovet qoşunları tərəfindən tam yatırıl

**MAKİAVELLİ NİKOLLO Dİ BERNARDO** (1469-1527). İtaliya siyasi xad- və *diplomatı* olmuşdur. 13 dəfə mürə- kəb diplomatik tapşırıqları uğurla yer- yetirmiş, Florensiyanın mənafe- müdafiə etmək üçün dəfələrlə müxtə- İtaliya hökmdarlarının, Roma papasın və Fransa kralının sarayına səfərlər etmişdi onun məhşur «Hökm-dar» əsərində müasir siyasət və *dip-lomatiya* nəzəriyyəsinin əsas prinsipləri şər- olunmuşdur.





**MAKİNSKİ TEYMUR BƏY.** Azərbaycan Demokratik Respublikası dövründə Parlamentinin deputatı, Hərbi Məhkəmənin sədri olmuş, üçüncü hökumət kabinəsində ədliyyə naziri işləmişdir. IX.1919 ildə Azərbaycanın Ermənistanda diplomatik nümayəndəliyinin başçısı olmuşdur.

**MAQATE –** (bax Atom enerji üzrə beynəlxalq agentlik)

**MARQARİTA KOSTA** (1940). Genuya Universitetinin Siyasi elmlər fakultəsini bitirmişdir. Müxtəlif ölkələrdə müxtəlif diplomatik vəzifələrdə çalışmışdır. 1979 ildə İtaliya nümayəndəliyinin *Avropa Şurasında* müşaviri olmuşdur. 1992 ildə Kamerunda, eyni zamanda Çadda, Ekvatorial Qvineya və Cənubi Afrika Respublikasında İtaliya Respublikasının Fvqəladə və Səlahiyyətli *səfiri* təyin olunmuşdur. 1998 ildə İtaliya Respublikası Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) *Protokol* xidməti idarəsinin rəisi işləmişdir. 2000 ildə Səlahiyyətli nazir rütbəsi almışdır. 2001 ildə İtaliya Respublikasının Azərbaycan Respublikasındakı səfiri təyin olunmuşdur.

**MARŞAL PLANI** (1947). *İkinci Dünya müharibəsindən* sonra Avropanın bərpası və inkişafına dair Amerika planı. 05.VI. ABŞ Dövlət katibi C.K. Marşall tərəfindən irəli sürülmüş, IV.1948 ildə qüvvəyə minmişdi. Plana görə 16 Avropa dövləti ABŞ hökumətindən 1948-1951 illərdə 17 mlrd. dollar yardım almalı idi. Yardımın təqribən 60%-i Böyük Britaniya, Fransa, İtaliya və Qərbi Berlinin payına düşürdü. M.p. 1951 ildə həm iqtisadi, həm də hərbi yardımın eyni zamanda göstərilməsini nəzərdə tutan «təhlükəsizliyin qarşılıqlı təminatı» müddəası ilə əvəz olundu.

**MARTSİN NAVROT** (1953). Varşava Universitetində magistr dərəcəsini almışdır. 1974 ildən 1988 ilədək müxtəlif idarələrdə texniki köməkçi, dəzgah operatoru, dülgər vəzifələrində çalışmışdır. 1991-1995 illərdə Polşa Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) mətbuat və informasiya İdarəsinin rəis müavini işləmiş, 1995-1999 illərdə Polşa dövlətinin *BMT*-də Daimi nümayəndəliyinin müşaviri olmuşdur. 1999 ildən Polşa XİN-də Mərkəzi və Şimali Avropa İdarəsində nazir, baş müşavir işləmişdir. 2001 ildə Polşa Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və səlahiyyətli *səfiri* təyin olunmuşdur.

**MEDİÇİ LORENSO** (1449-1492). İntibah dövründə Florensiyanın hakimi olmuşdu. Yüksək intellektual keyfiyyətlərinə görə «Parlaq» ləqəbinə layiq görülmüşdü. Hələ 16 yaşından başlayaraq, atası Pyetro Mediçinin tapşırığı ilə İtaliyanın şəhər dövlətlərinin və Avropanın ən nüfuzlu hökmdarları ilə görülmüş və son dərəcə çətin *diplomatik missiyaları* uğurla həyata keçirmişdir. Yüksək diplomatik bacarığı sayəsində kiçik orduya malik Florensiyanın İtaliyada ən nüfuzlu dövlətə çevrilməsinə nail olmuşdu. M.L. ölkəsinin rəqiblərinə qalib gəlmək üçün bütün bilik və bacarığından, digər ölkələri öz tərəfinə cəlb etmək taktikasından geniş istifadə edirdi və bu da sonralar «siyasi tarazlıq sənəti» adı altında Avropa və dünya *diplomatiyasının* əsas prinsiplərindən birinə çevrildi.

**MEHDİYEV AQŞİN ŞƏFAƏT OĞLU** (1949). 1966 ildə Azərbaycan Dövlət

Universitetinə daxil olmuş, 1969-1970 illərdə Qahirə Universitetində təhsil almışdı. 1971 ildə Misir Ərəb Respublikasının Helva metallurgiya zavodunda, 1971-1975 illərdə SSRİ-nin iqtisadi məsələlər üzrə Dövlət Komitəsi nəzdində tərcüməçi işləmişdi. 1975 ildən Azərbaycan SSR Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*), 1977-1982 illərdə Yəmən Ərəb Respublikasında SSRİ *səfirliyində attaşe*, ikinci katib vəzifəsində çalışmışdı. 1982-1985 illərdə Azərbaycan SSR XİN-də işləmiş, 1985-1987-ci illərdə, SSRİ XİN-nin diplomatik akademiyasında təhsil almış, 1987 ildə orada beynəlxalq münasibətlər tarixi ixtisası üzrə elmlər namizədi alimlik dərəcəsi adı almaq üçün dissertasiya müdafiə etmişdi. Həmin ildə SSRİ-nin Yəmən Demokratik Respublikasındakı səfirliyində *Konsul* vəzifəsinə təyin olunmuşdu. 1990 ildə Somali sularında (*Ərazi suları*) terrorçular (*Beynəlxalq terrorizm*) tərəfindən girov götürülmüş Sovet balıqçı gəmisinin azad olunması üçün aparılmış danışıqlara rəhbərlik etmiş və göstərdiyi peşəkarlığa görə SSRİ XİN-yi tərəfindən "Şəxsi mərdlik və yüksək peşəkarlığa" görə fəxri fərmanla təltif edilmişdi. 1991 ildə Yəmən Xalq Demokratik Respublikası ilə Yəmən Ərəb Respublikası birləşdikdən sonra Sanada SSRİ səfirliyində baş konsul, müşavir, xarici siyasət şöbəsinin müdiri vəzifəsində çalışmışdı. 1991 ildə Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasının Yəmən Ərəb Respublikasında nümayəndəsi təyin olunmuş, Azərbaycan Respublikası ilə Yəmən Respublikası arasında *diplomatik əlaqələrin* qurulması haqqında *protokolu* imzalamışdı. 1993-2001 illərdə Azərbaycan Respublikası XİN-nin Aropa, ABŞ və Kanada idarəsinin rəisi işləmsişdi. 2001 ildən Azərbaycan Respublikasının *Avropa Şurası* yanında daimi nümayəndəsidir. Fövqəladə və Səlahiyyətli *səfir* dərəcəsinə malikdir.

**MEMORANDUM** – (lat. *memorandum* yadda saxlanılmalı olan). Bu və ya digər məsələnin faktiki tərəflərini ətraflı şərh edən, bu və ya digər müddəaların analizindən və ya digər tərəfin dəlilləri ilə mübahisədən ibarət diplomatik sənəd, *diplomatik yazışma* növüdür.

M. ya nota (*Diplomatik nota*) mətninin ixtisar edilməsi məqsədilə şəxsi və ya verbal notaya əlavə şəklində, ya da ayrıca sənəd formasında olur. Praktikada bir hökumətin digər hökumətə beynəlxalq vəziyyətin və *xarici siyasətin* başlıca məsələlərinə dair memorandum göndərməsinə az hallarda rast gəlinir. Şəxsi və ya *verbal notaya* əlavə şəklində olan M.-da gerb, nömrə, möhür, göndərilmə yeri (şəhər) və vaxtı qoyulmur, ünvan göstərilmir. Ayrıca sənəd formasında olan M. nota blankında çap olunur, nömrə və möhür qoyulmur, amma göndərilmə yeri (şəhər) və vaxtı göstərilir.

**MERKURİOS KARAFOTİAS** (1951). Afina Universitetini bitirmişdir. 1977 ildən Yunanıstan Respublikası Xarici İşlər Nazirliyinin (*Xarici İşlər İdarəsi*) əməkdaşıdır. Müxtəlif diplomatik vəzifələrdə çalışmışdır. 1980-1986 illərdə Yunanıstan Respublikasının BMT-nin Cenevrədəki daimi nümayəndəsinin III katibi və daha sonra I katibi olmuşdur. 1993-1997 illərdə Yunanıstanın Almaniyadakı (Ştutqartda) konsulluğunda (*Konsul idarəsi*) Baş *konsul* işləmişdir. 1997-1999 illərdə XİN-nin Yunanıstan-Türkiyə əlaqələr idarəsinin rəisi olmuşdur. 1998 ildə Yunanıstan Respublikası XİN-nin səlahiyyətli müşavir olmuşdur.





1999-2000 illərdə *səfir* təyin olunanadək Yunanıstan Respublikası *prezidenti* yanında diplomatik kabinetinin rəisi işləmişdir. 2000 ildə Yunanıstan Respublikasının Azərbaycan Respublikasında səfiri təyin olunmuşdur.

**MƏMMƏDQULİYEV MAHMUD ƏHMƏD OĞLU** (1949). 1972 ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. 1972-1992 illərdə Bakı Dövlət Universitetinin müəllimi, hüquq-mühafizə orqanlarında müxtəlif vəzifələrdə işləmişdir. 1992-1993 illərdə Kommersiya *bankının* idarə heyətinin sədr müavini olmuşdur. 1993 ildə Azərbaycan Respublikasının Xarici İşlər nazirinin müavini və Azərbaycanın Böyük Britaniya və Şimali İrlandiya Krallığında Fövqəladə və Salhiyyətli *səfiri* vəzifəsinə təyin olunmuşdur. 1995-2000 illərdə Milli Məclisin deputatı seçilmişdir. 1996 ildə isə əlavə olaraq, Azərbaycan Respublikasının Norveç, İsveç və Danimarka Krallığındakı səfiri təyin edilmişdir. Hal-hazırda Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavinidir. Fövqəladə və Səlahiyyətli səfir diplomatik rütbəsinə (*Diplomatik adlar və rütbələr*) malikdir.

**MƏMMƏDOV ARİF ZAHİD OĞLU** (1964). 1988 Müdafiə Nazirliyinin Hərbi İnstitutunu bitirmişdir. 1990-1993 illərdə müxtəlif dövlət idarələrində çalışmışdır. 1993-1995 illərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (*Xarici İşlər İdarəsi*) Dövlət *Protokolu* idarəsində II katib vəzifəsində işləmişdir. Azərbaycan Respublikasının Belçika Krallığındakı *səfirliyində* 1995-1998 illərdə II katib, 1998-1999 illərdə I katib, 1999-2000 illərdə isə müşavir vəzifələrində çalışmışdır. 2000 ildə Avropa Birliyi yanında Azərbaycan Respublikası Nümayəndəliyinin başçısı təyin olunmuşdur.

Fövqəladə və Səlahiyyətli səfir diplomatik rütbəsinə (*Diplomatik adlar və rütbələr*) malikdir.

**MƏMMƏDOV NOVRUZ İSMAYIL OĞLU** (1947). 1970 ildə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun Avropa dilləri fakültəsinin fransız dili şöbəsini fərqlənmə diplomu ilə bitirmiş və Azərbaycan Respublikasının Təhsil Nazirliyinin qərarı ilə həmin İnstitutda müəllim vəzifəsində saxlanılmışdır. 1967-1968 illərdə Əlcəzairdə, 1971-1973 illərdə Qvinayeda, 1978-1981 illərdə Əlcəzairdə tərcüməçi, baş tərcüməçi işləmişdir. 1991 ildə dissertasiya müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsi almışdır. 1992-1993 illərdə ADDİ-nin hazırlıq, 1993-1997 illərdə isə fransız dili fakultəsinin dekanı vəzifəsində işləmişdir. 1995-1997 illərdə Azərbaycan Respublikası Prezidentinin fransız dili üzrə tərcüməçisi olmuşdur. IV.1997 ildən Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının xarici əlaqələr şöbəsinin müdiridir.

Azərbaycan Prezidentinin xarici ölkələrə səfərlərində, müxtəlif sammit, beynəlxalq forum və konfranslarda (*Beynəlxalq konfranslar*) Azərbaycanın rəsmi nümayəndə heyətinin üzvü olmuş, ikitərəfli və çoxtərəfli danışıqlarda iştirak etmişdir.

20-dən artıq elmi məqalə və bir kitab müəllifidir. Onlardan IX sinif üçün fransız dili dərsliyi «Le Français», «Fransız dilinin praktik fonetikası», «Terror haqqında həqiqət» (erməni ekstremizmi: mənbəyi və səbəbləri) və s. Sonuncu kitab fransız dilindən rus dilinə tərcümədir. Siyasi və ictimai-

siyasi mövzuya həsr olunmuş 200-dən artıq məqalənin müəllifidir.

1998 ildə Azərbaycan-Fransa dostluq münasibətlərinin möhkəmlənməsində xidmətlərinə görə Prezident Jak Şirak tərəfindən Fransanın Fəxri Legion Ordeni ilə təltif olunmuşdur.

I.2002 ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə ona fövqəladə və səlahiyyətli *səfir* rütbəsi verilmişdir. Birinci dərəcəli Dövlət müşaviridir. V.2003 ildən Azərbaycan Dillər Universitetində fransız dilinin leksikologiyası və üslubiyyəti kafedrasının müdiridir.

**MƏMMƏDYAROV ELMAR MƏHƏRRƏM OĞLU** (1960). 1982 ildə Kiyev Dövlət Universiteti *Beynəlxalq Münasibətlər* və *Beynəlxalq hüquq* fakültəsini bitirmişdir. 1982-1988 illərdə Azərbaycan SSR Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) 2-ci katib, 1-ci katib işləmişdir. 1988-1991 illərdə SSRİ Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasında təhsil almışdır. Tarix elmləri namizədidir. 1989-1990 illərdə ABŞ-ın Braun Universitetinin *xarici siyasətin* planlaşdırılması mərkəzində təhsil almışdır. 1991-1992 illərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Dövlət Protokolu şöbəsinin müdiri, 1992-1995 illərdə Azərbaycan Respublikasının BMT yanındakı daimi nümayəndəliyinin 1-ci katibi, 1995-1998 illərdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Beynəlxalq Təşkilatlar İdarəsinin rəisi, 1998-2003 illərdə Azərbaycan Respublikasının ABŞ-dakı səfirliyinin müşaviri, 2003-2004 illərdə Azərbaycan Respublikasının İtaliya Respublikasındakı Fövqəladə və Səlahiyyətli *səfiri* işləmişdir. 02.IV.2004 ildən Azərbaycan Respublikasının Xarici İşlər Naziridir. Fövqəladə və Səlahiyyətli səfir rütbəsinə malikdir.

**MİXAEL ŞMUNK** (1951). 1972-1977 illərdə Bonnda politologiya, hüquqşünaslıq və ictimaiyyət elmləri üzrə təhsil almışdır. 1983-1985 illərdə Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) yüksək vəzifələrdə işləmək üçün hazırlıq xidməti keçmişdir. 1988 ildə AFR-in ABŞ-dakı *səfirliyində*, 1991-1994 illərdə Pretoriyadakı (Keyptaun-CAR) səfirliyində çalışmışdır. 1994 ildən AFR-ın Azərbaycandakı səfirliyində müvəqqəti işlər vəkili kimi fəaliyyət göstərmişdir. Fövqəladə və Səlahiyyətli *səfir* dərəcəsinə malikdir. 1996-1997 illərdə Almaniya Federativ Respublikasının Azərbaycan Respublikasında səfiri işləmişdir.

**MİLLƏTLƏR CƏMİYYƏTİ.** Çağdaş *Birləşmiş Millətlər Təşkilatının* ilkin forması olmuş, 1920-1946 illərdə fəaliyyət göstərmiş universal *beynəlxalq təşkilat. Birinci Dünya müharibəsindən* sonra xalqlar arasında əməkdaşlığın inkişafı, hərbi münaqişələrin qarşısının alınması və ümumi sülhün və *beynəlxalq təhlükəsizliyin* möhkəmləndirilməsinə yardım məqsədi ilə yaradılmışdı. M.C.-nin fəaliyyəti Şura və Toplantı tərəfindən həyata keçirilirdi. Bu qurumların yanında daimi katibliklər yaradılmışdı. Millətlər Şurasının iqamətgahı Cenevrədə yerləşirdi. Hesab edilir ki, M.C. öz vəzifəsinin öhdəsindən layiqincə gələ bilməmiş və BMT-nin yaradılması ilə bağlı olaraq buraxılmışdı.

**MİLLİLƏŞDİRMƏ.** Şəxsi mülkiyyətin, müəssisələrin, iqtisadi sahələrin və mal-mülkün qanuna əsasən dövlət mülkiyyətinə keçməsi. M. həmişə sinfi xarakter daşıyır və dövlətin mövcud sosial-iqtisadi qanunları ilə müəyyənləşdirilir. M. üsul və vasitələri konkret tarixi şəraitdən asılı olaraq müxtəlif ola bilər.

Sosialist M.-si sovet dövləti tərəfindən 1917-1920 illərdə həyata keçirilmişdi (torpağın, bankların, sənaye və ticarət müəssisələrinin və s. M.-si). M. üzrə tədbirlər, o cümlədən Qərbi Avropa və digər ölkələrdə də həyata keçirilirdi. Müasir *beynəlxalq hüquq* dövlətin şəxsi mülkiyyəti, o cümlədən xaricinin mülkiyyətini M. hüququnu tanıyır. Bu hüquq *dövlətlərin suveren bərabərliyi prinsipinə* əsaslanır. Dövlətin səlahiyyətinə mülkiyyət hüququnun məzmununun və xarakterinin müəyyənləşdirilməsi, mülkiyyət hüququnun əldə edilməsi, digərinə keçməsi, itirilməsi və təbii olaraq, bu mülkiyyətin M.-si daxildir. Bu hüquqlardan istifadə *BMT Nizamnaməsinin* 2 maddəsinin 7 bəndinə müvafiq olaraq dövlətin səlahiyyətindədir.

**MİLLİ REJİM.** Hüquqi rejim növü, dövlətin öz hüquqi və fiziki şəxslərinə (*Xaricilər*) verdiyi hüquq və üstünlüklərin ərazisindəki xarici hüquqi və fiziki şəxslərə də şamil edilməsi. Bu eyni dərəcədə onların vəzifələrinə də aiddir. M.r. həm birtərəfli əsasda, həm də qarşılıqlı əsasda həyata keçirilə bilər. M.r. birtərəfli qaydada həyata keçirildikdə, bu dövlətin vətəndaşlarının digər dövlətdə hüquqlarının məhdudlaşdırılmasına cavab olaraq öz qanunçuluğunda cavab məhdudlaşma tədbirlərini nəzərdə tutmalıdır.

M.r. məhdudlaşdırılmış və məhdudlaşdırılmamış olur. Xarici fiziki şəxslərə məhdudlaşdırılmamış M.r. tətbiq edilməsi nadir hallarda olur; bir qayda olaraq, onlar bu dövlətin vətəndaşlarına məxsus olan bir sıra hüquqlardan (seçilmə hüququ və s.) məhrum olur.

*Beynəlxalq müqavilələrin* bağlanması təcrübəsinə əsasən M.r. ayrı-ayrı konkret sənədlərdə təsbit olunur. Məs., hüquqi köməklə əlaqədar müqavilələr (xarici vətəndaşların və hüquqi şəxslərin məhkəmələrə sərbəst buraxılması, girovdan azad edilmə və məhkəmə xərclərinin ödənilməsi, varisliklə əlaqədar M.r. və s.); sosial təminatla əlaqədar müqavilələr; vergi ilə əlaqədar razılaşmalar, ticarət, gəmiçiliklə əlaqədar müqavilələr və s.

**MİNORU TAMBA** (1938). 1962 ildə Tokio Universitetini bitirmişdir. 1963-1965 illərdə Harvard Universitetində oxumuşdur. Müxtəlif diplomatik vəzifələrdə çalışmışdır. 1965-1967 illərdə Yaponiyanın SSRİ-dəki *səfirliyində* I katib işləmiş, 1967-1973 illərdə Yaponiya Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) Sovet İttifaqı İdarəsinin əməkdaşı və 1981-1984 illərdə həmin İdarənin rəisi olmuşdur. 1973-1976 *illərdə Yaponiyanın Çin Xalq Respublikasında*, 1976-1988 illərdə ABŞ-da səfirliyində I katib vəzifəsində çalışmışdır. 1986-1989 illərdə ABŞ-da Yaponiyanın Baş *konsulu* olmuşdur. 1994-1997 illərdə Yaponiyanın Səudiyyə Ərəbistanında Fövqəladə və Səlahiyyətli *səfiri* işləmişdir. 1997-1999 illərdə səfir təyin olunanadək XİN-də nazir müavini olmuşdur. 1999-2000 illərdə Yaponiyanın Azərbaycan Respublikasında səfiri olmuşdur.

**MİNSK QRUPU.** ATƏT (*Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi*) Nazirlər Şurasının 24.III.1992 ildə qəbul etdiyi qərara əsasən Ermənistan-Azərbaycan münaqişəsinin (*Dağlıq Qarabağ problemi*) sülh yolu ilə nizama

salınması (*Beynəlxalq münaqişələrin sülh yolu ilə həll edilməsi*) üçün 11 dövlətdən ibarət yaradılmışdı. Qrupun tərkibinə Azərbaycan, Ermənistan, ABŞ, Rusiya, Fransa, Almaniya, İsveç, İtaliya, Belarus, Türkiyə, Çexiya daxildir. Minsk qrupunun əsas vəzifəsi münaqişəni nizama salmaq məqsədi ilə *vasitəçilik* etmək, müvafiq sənədlər hazırlamaq və münaqişənin sülh sazişi ilə başa çatdırılması üçün xüsusi Minsk konfransı çağırmaqdır.

**MİRBABAYEV MİRYUSİF MİRABBAS OĞLU** (1889-1951). İlk təhsilini İrəvan rus-türk məktəbində və gimnaziyasında almış, 1912-1916 illərdə Moskva Universitetinin hüquq fakültəsində oxumuşdur.

1919 ildən Azərbaycanın İrəvandakı *diplomatik nümayəndəliyində* əvvəlcə katib əvəzi, sonra katib işləmişdir. Bu zaman ermənilərin azərbaycanlılara törətdikləri qırğınların araşdırılmasında, bu haqda Qafqazdakı ingilis qoşunları komandanlığına və Ermənistan hökumətinə məlumatlar vermişdir.

Sovet hakimiyyəti illərində müxtəlif dövlət işlərində işləmiş, elmi və pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

**MİRBAĞIRZADƏ MİRABBAS MİRHÜSEYN OĞLU.** İrəvan gimnaziyasında təhsil almış, orada kitab ticarəti ilə məşğul olmuşdur. Eyni zamanda jurnalistika ilə məşğul olmuş, İrəvan teatrının yaradılmasında iştirak etmişdir. 1909 ildə Bakıya köçmüş və fəaliyyətini burada davam etdirmişdir.

Azərbaycan Cumhuriyyəti dövründə tarixə «Mirbağırzadə missiyası» kimi daxil olmuş nümayəndə heyətinə başçılıq etmiş, 24.I.1919 ildə Naxçıvana göndərilmişdir. Onunla görüşü zamanı Naxçıvandakı ingilis qubernatoru bildirib ki, Naxçıvan ərazisində ingilis qubernatorluğu mövcuddur və buə razi Azərbaycanın tərkib hissəsi deyil, kimə məxsus olacağı da hələ bilinmir, ona görə də Azərbaycan hökümətinin buraya adamlar göndərmək hüququ yoxdur. Ancaq missiyanın uğurlu diplomatik fəaliyyəti nəticəsində 25.II.1919 ildə Naxçıvanın Azərbaycana birləşməsi haqqında akt qəbul edilmişdir.

Sovet hakimiyyəti illərində dövlət işlərində çalışmiş, jurnalistika, elmi-pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

**MİROSLAV PALATS** (1935). 1957 ildə Yagellon Universitetində Şərq filologiyası üzrə elmi dərəcə almışdır. 1967 ildə Polşa Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) işə qəbul olunmuşdur. 1962-1968 illərdə Polşanın Türkiyədəki *səfirliyində attaşe*, daha sonra II katib işləmişdir. 1979 ildə Varşavadakı Sosial elmlər üzrə ali məktəbi bitirmişdir. 1980-1984 illərdə Polşanın Belçikadakı səfirliyində müşavir işləmiş, 1986 ildə Moskvada Diplomatik Akademiyanı bitirmişdir. 1987-1991 illərdə Polşanın Türkiyədəki *səfiri*, 1994-1997 illərdə Albaniyadkı səfiri olmuşdur. 1997 ildə Polşanın Türkiyədə səfiri təyin edilmişdir. 1998-2001 illərdə Polşa Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri işləmişdir.

**MİTTERAN FRANSUA** (1916-1996). Sorbonna universitetinin hüquq və filologi fakultələrində, Parisin siyasi elmlər məktəbində təhsil almışdır. *İkinci Dünya Müharibəsində* iştirak etmiş. Müqavimət hərəkatına qoşulmuşdur. 1946 ildə Milli Məclisə deputat seçilmiş, 1947-1957 illərdə o keçmiş cəbhəçilərin işləri üzrə nazir, dövlət katibi, dövlət naziri, *Avropa Şurası* işləri üzrə, daxili işlər və ədliyyə naziri vəzifələrində çalışmışdır.

1971 ildə Fransa sosialist partiyasının birinci katibi, 1981 ildə Fransanın *prezidenti* seçilmişdir. 1988 ildə ikinci dəfə prezident seçilmişdir. Avropa Birliyi (*Avropa Birlikləri*) ölkələrinin iqtisadi və siyasi ittifaqı ideyasını müdafiə etmiş, Fransanın ABŞ, AFR və SSRİ ilə əlaqələrinin hərtərəfli inkişafına çalışmış, Afrika dövlətləri ilə münasibətlərə xüsusi fikir vermişdir.

**MODUS PROSEDENDİ** (lat. *modus procedendi* – hərəkət tərzi). Beynəlxalq razılaşmalarda götürülən öhdəliklərin yerinə yetirilməsi qaydaları və yollarını izah edən termin.

**MODUS VİVENDİ** (lat. *modus vivendi* - yaşamaq üsulu). Bu termin daimi və ya uzunmüddətli razılaşma mümkün olmadıqda, qısamüddətli razılaşmaların əldə olunması deməkdir. Çox zaman M.v. tərəflərin imza atdığı razılaşma formasında və ya hər iki tərəfdən verilən qarşılıqlı nota (*Diplomatik nota*) ilə müəyyən olunur.

**MOLOTOV VYAÇESLAV MİXAYLOVİÇ** (1890-1987). Sovet dövlət xadimi və *diplomatı*. 1939-1949 və 1953-1956 illərdə əvvəlcə xarici işlər xalq komissarı, sonra naziri olmuşdur. 1930 illərin sonunda İ.Stalin (*Stalin İosif Vissarionoviç*) Almaniya ilə yaxınlaşma siyasətinə keçmək qərarına gəldiyi üçün Xarici işlər komissarı vəzifəsində Litvinovu M.-la əvəz etmişdir. 1939 ildə o, *diplomatiya* tarixində «Ribbentrop-Molotov *paktı*» kimi məhşur olan hücum etməmək haqqında sovet-alman müqaviləsini (*Beynəlxalq müqavilə*) imzalamışdır. Bu müqaviləyə görə Şərqi Avropa ölkələri Almaniya və SSRİ-nin təsir dairələrinə bölünmüşdü.

*İkinci Dünya müharibəsi* başlanandan sonra M. bütün səyini güclü *antihitler koalisiyasının* yaranmasına yönəltmişdir.

**MONTRE KONFRANSI** (1936). VI-VII.1936 ildə M.K. İsveçrənin Montre şəhərində keçirilmişdi. Konfrans (*Beynəlxalq konfranslar*) Türkiyənin təşəbbüsü ilə çağırılmışdı. Konfransın işində İngiltərə, SSRİ, Avstraliya, Fransa, Türkiyə, Bolqarıstan, Yunanıstan, Rumıniya, Yuqoslaviya, Yaponiya iştirak edirdi. Konfrans 1923 il Lozanna konvensiyasında boğazlar haqqında qəbul edilmiş qaydaların dəyişdirilməsi və yeni konvensiyanın qəbul edilməsi üçün çağırılmışdı.

Yeni konvensiyanın əsas müddəaları aşağıdakılardan ibarət idi: Türkiyənin və Qara dəniz dövlətlərinin təhlükəsizliyi çərçivəsində boğazların yeni statusu tanınır; dinc və *müharibə* şəraitində boğazlarda ticarət gəmilərinin sərbəst üzməsi təmin olunur; boğazlardan hərbi gəmilərin keçməsi üçün aşağıdakı qaydalar müəyyən edilir: a) körfəzdən dinc şəraitdə qeyri Qara dəniz dövlətlərinin yüngül suüstü gəmiləri (8 düymlü kreyser və minadaşıyıcı qayıqlar), həmçinin ümumi su tutumu 15 min ton olan köməkçi qayıqlar keçə bilərdi. Bununla yanaşı eyni vaxtda qeyri Qara dəniz ölkələrinin Qara dənizdə olan gəmilərinin ümumi tutumu 30 min tondan artıq ola bilməzdi və onların burada qalma müddəti üç həftə müəyyən edilirdi. Boğazlardan Qara dəniz dövlətlərinin suüstü gəmiləri və sualtı qayıqları keçə bilərdilər. Onların su tutumu 15 min tondan yuxarı

və iki mina daşıyıcı gəmidən çox ola bilməzdi;

b) Türkiyə müharibədə iştirak etmirdisə dinc şəraitdə tətbiq olunan qaydalar öz qüvvəsində qalırdı. Lakin müharibə aparan dövlətlərin gəmilərinin boğazlardan keçməsi qadağan edilirdi. Türkiyə müharibə təhlükəsi qarşısında qalardısa və ya müharibədə iştirak edərdisə boğazlardan keçid Türkiyənin qərarından asılı olurdu. M.k. 1923 il Lozanna konvensiyasını ləğv etdi və yekun sənədi 20.VII.1936 ildə iştirakçı dövlətlər tərəfindən imzalandı.

**MORATORİUM** (lat. *moratorium* – təxirə salan, yubadan). Hökumət tərəfindən qəbul olunmuş öhdəliklərin hər hansı fövqəladə hadisələrlə (məs., *müharibə*, təbii fəlakət və s.) əlaqədar yerinə yetirilməsinin müəyyən müddətə təxirə salınması. 1931 ildə ABŞ-da və Avropada maliyyə böhranının dərinləşməsi ilə əlaqədar ABŞ *prezidenti* Quver Almaniyanın *birinci dünya müharibəsindən* sonra ödəməli olduğu *təzminata* və beynəlxalq dövlət borclarına M. qoymuşdu.

M. çox vaxt dövlətin müəyyən addımlar atmaqdan imtina etməsini ifadə edir (məsələn, nüvə sınaqlarının keçirilməsinə M.).

**MOSKVA KONFRANSLARI.** 29.IX-01.X.1941. ABŞ, Böyük Britaniya və SSRİ nümayəndələrinin iştirakı ilə keçirilmişdir. ABŞ və Böyük Britaniyadan SSRİ-yə göndəriləcək silahın, sənaye mallarının və ərzağın, həmçinin SSRİ-dən ABŞ və Böyük Britaniyaya göndəriləcək bəzi malların və xammalın aylıq *kvotası müəyyənləşdirilmişdi*.

1) 19-30.X.1943. ABŞ, Böyük Britaniya və SSRİ xarici işlər nazirlərinin iştirakı ilə keçirilmişdir. ABŞ və Böyük Britaniya nümayəndələri *müharibədən* sonra Almaniyanı parçalamaq və Fransanı işğal etmək planını irəli sürdülər. SSRİ Almaniya ilə bağlı məsələyə münasibət bildirmədi, Fransa ilə əlaqədar təklifi isə qəbul etmədi. «Düşmən ölkələrdən ilkin sülh təklifinin alınacağı təqdirdə özünü aparma xətti» barədə qərar qəbul etdi. K.-da ümumi təhlükəsizliyə dair bəyanat qəbul edildi.

**MUDROS BARIŞIĞI** (1918). 30.X. ildə Türkiyə və *Antanta* dövlətləri arasında Egey dənizindəki Lemnos adasında Britaniyanın Ağamentop hərbi gəmisinin göyərtəsində bağlanmışdı. Barışığa görə Türkiyə *birinci dünya müharibəsində* məğlubiyyətini təsdiq etdi. Bosfor və Dardanel boğazları Antanta hərbi gəmiləri üçün açıq elan edildi, boğazlar, həmçinin Bakı və Batum müttəfiqlər tərəfindən işğal edilməli, türk qoşunları İrandan və bəzi digər ölkələrdən çıxarılmalı, türk ordusu tərxis edilməli. Türkiyə sularında və onun hüdudlarından kənarda olan hərbi gəmilər Antanta dövlətlərinə təhvil verilməli idi. Türkiyə Ərəb ölkələrindən birdəfəlik imtina etməli idi. 11.X.1922 ildə Mudani sülhünün bağlanması ilə qüvvəsini itirdi.

**MUSTAFA XAN AĞASI XAN OĞLU** (?-1844). 1792-1820; 1826-1828 illərdə Şirvan xanı. 1792 ildə hakimiyyətə gəlib.

Quba xanı Şeyxəli xan onu aradan götürməkçün Şirvana hücum etsə də məğlub oldu və tərəflər 1795 ildə sülh müqaviləsi bağladı. *Ağaməhəmməd şah Qacarın* 1795 ildə Qafqaza ilk gəlişində M.X.A.X.o. *ona tabe olduğunu* bildirsə də Şamaxı əhalisini Fit qalasına köçürdü.

Rus qoşunları qraf Zubovun başçılığı altında 19.VI.1796 Şamaxıya hücum etdikdə M.X.A.X.o. müqavimət göstərmədi və Zubovun yanına gedərək 07.VII.1796 ildə ruslara tabe olduğunu bildirdi. Ancaq çox keçmədən Zubov M.X.A.X.o.-nun, ona qəsd hazırladığını öyrəndi və onu xanlıqdan kənarlaşdıraraq 02.XI.1796 ildə yerinə əmisi oğlu Qasım xanı Şamaxı xanı qoysa da XI.1796 ildə II Yekaterinanın (*Yekaterina II*) ölümündən sonra rus qoşunları Azərbaycandan geri çağırıldı və M.X.A.X.o. öz mövqeyini yenidən *bərpa etdi*.

1797 ildə Ağaməhəmməd şah Qacar Şuşada öldürüldükdən sonra M.X.A.X.o. Şəki, Salyan və Bakı xanlıqlarını özünə tabe etdi.

27.XII.1805 ildə Knyaz P.Sisianov Şirvana hücum zamanı M.X.A.X.o. Rusiya hakimiyyətini qəbul etmək haqqında müqavilə imzaladı və bununla ruslar Şamaxı xanlığının işğalını başa çatdırdılar. 1813 ildə *Gülüstan müqaviləsi* imzalandıqdan sonra Cənubi Azərbaycana gedir.

1826-da Şamaxıya qayıdan M.X.A.X.o. yenidən oranın xanı oldu. 1828-də *Türkmənçay müqaviləsi* imzalanandan sonra yenidən geri dönür.

**MUTATİS MUTANDİS** (lat. *mutatis mutandis* - detallara aid zəruri dəyişikliklərlə, düzəlişlərlə). Beynəlxalq-hüquqi aktlarda istifadə olunan və əvəz olunmalının əvəz olunması; müvafiq fərqləri nəzərə almaqla; vəziyyətdən irəli gələn dəyişikliklərlə; zəruri dəyişikliklərlə mənasında işlədilən termindir.

**MUZDLULAR.** Dövlət terrorizmi (*Beynəlxalq terrorizm*) siyasətinin icraçılarındandırlar.

M.-dan dəfələrlə müstəmləkə asılılıqdan azad olmuş ölkələrə qarşı qanuni hökumətin devrilməsi və daxili vəziyyətin stabilliyinin pozulması məqsədi ilə xüsusən də Əfqanıstan, Anqola, Nikaraqua, Mozambik, Namibiya və s. ölkələrdə istifadə olunmuşdu. M-dan istifadənin cinayətkar praktikası dəfələrlə *beynəlxalq konfranslarda* və forumlarda qətiyyətlə pislənmişdir. 1977 ildə qəbul olunmuş beynəlxalq silahlı münaqişələrin qurbanlarına dair I Əlavə *protokolda* M.-a aid xüsusi müddəa var (maddə 47). Protokolda göstərilir ki, M. *hərbi əsir* və kombatant (*Kombatantlar*) statusuna malik ola bilməz. *Burada, həmçinin, «muzdlu» anlayışı* açılır, lakin müasir dövrümüzdə M.-dan istifadənin bütün hallarını əhatə etmir.

M. haqqında məsələ dəfələrlə *BMT Baş Məclisində* müzakirə edilib. 14.XII.1979 il tarixli əsasnamədə BMT Əsasnaməsində göstərilir. «Muzdlular - sülhə və *beynəlxalq təhlükəsizliyə* təhlükədir».

1980 ildə BMT BM M.-ın istifadəsi, maliyyələşdirilməsi, öyrədilməsi ilə mübarizə haqqında *beynəlxalq Konvensiyanın* hazırlanması üzrə xüsusi komitə yaradılması barədə qərar qəbul etmişdi.

**MÜHACİR.** Vətəndaşı olduğu ölkəni yaxud daimi yaşayış yerini tərk etmiş və digər ölkəyə daimi yaşamaq məqsədi ilə gəlmiş şəxsdir.

**MÜHACİR İŞÇİLƏR.** İqtisadi səbəblər üzündən könüllü olaraq başqa dövlətin ərazisinə gəlmiş və orada ödənişli fəaliyyətlə məşğul olan şəxslərdir. M.i.-nin və onların ailə üzvlərinin hüquqları bir sıra *beynəlxalq müqavilələrlə* tənzim edilir. *Beynəlxalq Əmək Təşkilatı* çərçivəsində iki konvensiya (*Beynəlxalq konvensiya*) - 1949 ildə qəbul edilmiş 97 saylı Konvensiya və 1975 ildə qəbul

edilmiş 143 saylı Konvensiya qəbul etmişdi. *Avropa Şurasının* üzvləri 1977 ildə M.i.-in hüquqi statusu haqqında Avropa Konvensiyasını imzaladılar. 1990 ildə *BMT* Baş Assambleyasının 45/158 saylı qətnaməsi ilə Bütün M.i.-in və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında Beynəlxalq Konvensiya qəbul edilmişdir. Konvensiyanın əsas ideyası ondan ibarətdir ki, müvafiq dövlətlər M.i.-lər və onların ailə üzvlərinə beynəlxalq səviyyədə tanınmış əsas insan hüquqlarını tə min etməlidirlər. Onların öz əvvəlki ölkələri ilə mədəni əlaqələr saxlamasına maneə törədilməməlidir.

**MÜHARİBƏ.** Siyasətin zorakı vasitələrlə davam etdirilməsi. M.-də siyasi məqsədlərə nail olmaq üçün başlıca və həlledici vasitə kimi silahlı qüvvələrdən, eləcə də iqtisadi, diplomatik və ideoloji mübarizə vasitələrdən istifadə edilir. M.-nin xarakteri bu müharibənin proqressiv və ya irticaçı rolunu xarakterizə edən siyasi məzmunu ilə müəyyən olunur. Buna görə də hər bir müharibə ya ədalətsiz ya da ədalətli xarakter daşıyır. Xalqların milli və sosial zülmə qarşı, dövlət müstəqilliyi uğrunda, təcavüzə qarşı müharibəsi ədalətli müharibədir. Əzilən və istismar olunan xalqların milli-azadlıq mübarizəsinin yatırılması, yad ərazilərin ələ keçirilməsi, digər xalqların qarət edilməsi məqsədilə aparılan müharibə ədalətsiz müharibədəir.

Beynəlxalq təcrübədə preventiv müharibələrə də rast gəlinir. Hər hansı bir dövlətin təhlükəsizliyinin başqa bir dövlət tərəfindən pozulması üçün ciddi və labüd təhlükənin yaranmasını nəzərə alaraq bu dövlətin gələcək müharibənin qarşısını almaq məqsədilə birinci olaraq müharibəyə başlamasıdı.

Dövlətlər arasında bir dövlətin digər dövlətə M. elan etməsi və faktiki olaraq M.-ni başlanması bir sıra hüquqi nəticələrə səbəb olur. Vuruşan dövlətlər arasında diplomatik və konsul münasibətləri (*Diplomatik münasibətlər; Konsulluq münasibətləri*) kəsilir. Düşmən tərəfin *diplomatik nümayəndəlik* və *konsul idarələrinə* daxil olan şəxslərin ailələri və əmlakları ilə birlikdə gəldiyi ölkədən maneəsiz çıxıb getmələri üçün imkan yaradılır. Diplomatik nümayəndəlik binasının, onun əmlakının qorunması hər hansı bitərəf dövlətin *(Müharibədə bitərəflik)* diplomatik nümayəndəliyinə həvalə oluna bilər. Bəzən düşmən tərəf düşmənin *səfirlik (diplomatik missiya)* və konsulluq heyətinin digər tərəfin onun səfirlik (missiya) və konsulluq heyətini ölkəsindən çıxarılmasını təmin etməyənədək ləngidir.

M. vəziyyətinə keçid vuruşan dövlətlər arasında müqavilə (*Beynəlxalq müqavilə*) münasibətlərini dəyişir. Dinc əməkdaşlığa yönəlmiş siasi, iqtisadi və digər müqavilələr öz fəaliyyətini dayandırır. Bu zaman poçt, teleqraf və s. kimi müqavilələr ləğv oluna da bilər, müvəqqəti dayandırıla da bilər. Əsasən M. vəziyyətinə aid olan müqavilələr (M.-nin qayda və qanunlarına aid konvensiyalar (*Beynəlxalq konvensiya*), *protokollar, Bəyannamələr* və s.) tətbiq edilir.

Vuruşan tərəfin düşmən tərəfin ərazisində olan vətəndaşlarının maraqlarının qorunması hər hansı bitərəf dövlətin diplomatik nümayəndəliyinə həvalə oluna bilər. Məs., *İkinci dünya müharibəsi* zamanı İsveçrə ABŞ-da alman və italyan vətəndaşlarının maraqlarını müdafiə etmişdi, eyni zamanda ABŞ-la M. vəziyyətində olan bütün ölkələrdə Amerika vətəndaşlarının maraqlarını qorumuşdu. Vuruşan tərəfin düşmən ərazisində olan vətəndaşlarına yaşayış yerini seçməyi, dəyişməyi məhdudlaşdıran və bu şəxsləri yerli hakimiyyət orqanlarının xüsusi nəzarətində saxlayan xüsusi rejim tətbiq edilə bilər.

M. vəziyyəti ilə əlaqədar olaraq vuruşan tərəfin ərazisində yerləşən düşmən dövlətin əmlakının statusu dəyişir. Diplomatik və konsul nümayəndəliklərinin əmlakı istisna olunmaqla düşmənin dövlət əmlakı müsadirə olunur. Düşmən tərəfin fiziki və hüquqi şəxsləri ilə və düşmən tərəfə xidmət edən bitərəf firmalarla ticarət sövdələşmələri qadağan olunur (məs., İkinci dünya M. zamanı İngiltərədə fəaliyyət göstərmiş «düşmən xaricilər» haqda qanun).

M.-nin başlanması münaqişədə olan ölkələr arasında münasibətləri dəyişməklə yanaşı onların digər dövlətlərlə dövlət kimi öz statuslarını müəyyənləşdirə bilərlər və bu halda bitərəflik qaydalarına əməl etməlidirlər.

Vuruşan tərəflər arasında quruda, dənizdə və havada hərbi əməliyyatlar, düşmən tərəfin xəstələrinə və yaralılarına münasibət, hərbi əsir rejimi, işğal olunmuş ərazidə düşmənin mülki əhalisinə münasibət, M.-nin aparılmasında bu və ya digər üsul və vasitələrin mümkünlüyü müharibənin qayda və qanunların təşkil edən xüsusi *beynəlxalq hüquq* normaları ilə nizamlanır.

Müharibələrin aparılması qaydaları beynəlxalq humanitar hüquqla, «müharibə hüququ» (**jus in bellum**) və «Haaqa hüququ» ilə müəyyən olunur. M.-nin aparılma prinsipləri və normaları 1899 il və 1907 il Haaqa konvensiyaları (*Haaqa konfransları 1899 və 1907*) ilə müəyyənləşdirilmişdir.

M.-nin başa çatması bir qayda olaraq eyni vaxtda imzalanmayan iki aktla: *barışıqla* və sülh müqaviləsi ilə rəsmiləşdirilir. Barışığın imzalanması ilə vuruşan tərəflər arasında hərbi əməliyyatlar kəsilir. Hərbi əməliyyatların dayandırılmasının xüsusi növü də tamamilə məğlubiyyətə uğramış tərəfin danışıqsız təslim aktını imzalamasıdır.

Lakin nə barışıq haqda saziş, nə də təslim aktı M.-nin hüquqi cəhətdən başa çatması demək deyil. M. adətən sülh müqaviləsi ilə başa çatır.

M. vəziyyətinin başa çatması ilə vuruşan tərəflər arasında diplomatik münasibətlər və konsul münasibətləri bərpa olunur, keçmiş düşmənin vətəndaşlarına münasibətdə məhdudiyyətlər ləğv olunur, tərəflər arasında müqavilə vəziyyətləri bərpa edilir. Bu zaman tərəflərin bərpa etmək istədikləri müharibəyəqədərki müqavilələr haqda sülh müqaviləsində xüsusi qeyd olunur, ya da onlar arasında tərəflərin birinin xüsusi nota (*Diplomatik nota*) verməsi ilə digər saziş imzalanır.

**MÜHARİBƏDƏ BİTƏRƏFLİK.** Dövlətin silahlı münaqişədə iştirak etmədiyi və vuruşan tərəflərə hər hansı yardım göstərməkdən çəkindiyi xüsusi beynəlxalq – hüquqi status. M.b., eləcə də vuruşan tərəflərin bitərəf dövlətə münasibətdə hüquqları və öhdəlikləri, bitərəf və vuruşan dövlətlərin fiziki şəxslərinini hüquqi vəziyyəti bitərəf dövlətlərin (*Bitərəflik*) və şəxslərin quru *müharibələri* zamanı hüquq və öhdəliklərinə dair 1907-ci il V Haaqa konvensiyası (*Haaqa konfransları 1899 və 1907; Beynəlxalq konvensiya; Beynəlxalq konfranslar*) ilə nizamlanır. Bu konvensiyanın başlıca müddəaları aşağıdakılardan ibarətdir: bitərəf dövlətin ərazisi hərbi əməliyyat meydanı ola bilməz; vuruşan tərəflər bu ərazidən qoşun və hərbi nəqliyyat keçirə bilməz. Bitərəf dövlət vuruşan tərəflərə öz ərа-

zisində radiostansiya və digər əlaqə vasitələri qurmağa və ya yerləşdirməyə icazə verməməlidir, onları silahlı, hərbi və digər sursatlarla təchiz etməməlidir, bitərəf dövlətlər ərazilərinə istənilən müdaxilə cəhdlərinə öz hərbi qüvvələri ilə cavab vermək hüququna malikdir.

**MÜHARİBƏ TƏBLİĞATI.** *Beynəlxalq hüuqqda* sülhə və bəşəriyyətə qarşı cinəyət; təcavuz üçün şərait yaradır və çox zaman onu qabaqlayır. M.t. təcavuzkar *müharibə* hazırlamaq və onu başlamaq çağırışlarında ifadə olunur; bu, müxtəlif kütləvi təsir vasitələrinin (mətbuat, radio, televiziya, kino və s.) köməi ilə ictimai rəyə təsir göstərməklə həyata keçirilir. 03.XI.1974 ildə) *BMT Baş Assambleyasının* sessiyasında M.t.-nı pisləyən qərar qəbul edilmişdi.

**MÜQƏDDƏS İTTİFAQ** (1815). I Napoleon *(Napoleon I Bonapart)* imperiyasının süqutundan sonra Avstriya, Prussiya və Rusiya tərəfindən Parisdə yaradılmış ittifaq. İttifaqın əsas məqsədi *Vyana konqresinin (Beynəlxalq konqres)* qərarlarının yerinə yetirilməsini təmin etməkdən və inqilabi hərəkata qarşı mübarizə aparmaqdan ibarət idi. Sonradan Fransa və bir sıra digər Avropa ölkələri də M.i.-a qoşuldular. M.i.-ın qərarı ilə Avstriya qoşunları 1820-1821 illərdə Neapol inqilabını, 1821 ildə Pyemant inqilabını, fransız qoşunları 1820-1823 İspaniya inqilabını yatırmışdılar. İngiltərə ittifaqa qoşulmasa da, onun bəzi tədbirlərində iştirak edirdi.

**MÜRƏKKƏB DÖVLƏT.** İki və daha artıq dövlətin birləşməsi ilə xarakterizə olunan dövlət quruluşu formasıdır. M.d.-də hər bir dövlət öz ali dövlət və idarəetmə orqanları, həmçinin məhkəmə orqanlarını qoruyub saxlayır.

Hal-hazırda birləşmə səviyyəsindən asılı olaraq M.d.-in *konfederasiya* və *federasiya* formaları mövcuddur.

**MÜSTƏMLƏKƏ SİSTEMİ VƏ ONUN DAĞILMASI.** Müstəmləkəçilik - xalqların xarici dövlətlər (metropoliyalar) tərəfindən hərbi-siyasi köləliyə salınmasıdır. İqtisadi cəhətdən istismaretmə sistemi olan müstəmləkəçilik Avropada iri feodal dövlətlərinin yaranması dövründə təşəkkül tapmışdı. XVI-XVII əsrlərdə ilk müstəmləkə imperiyaları İspaniya, Portuqaliya və Niderland olmuşdu. İngiltərə və Fransanın müstəmləkə işğalları XVIII əsrdən başlamışdı.

İmperializmin ilkin təşəkkül dövründə müstəmləkələr və yarımmüstəmləkələr xammal, metropoliya mallarının satış bazarları olmaqla bərabər, həm də imperialist inhisarların və bankların sərmayəqoyma yerinə çevrilirdilər.

Dünya kapitalizm sisteminin 1929-1933 illər ümumiqtisadi böhranı imperialistlərarası ziddiyyətləri, ələlxüsus müstəmləkələr üstündə mübarizəni daha da dərinləşdirdi. Hitler Almaniyası, faşist İtaliyası və militarist Yaponiyası dünyanın yenidən bölüşdürülməsi planlarını hazırlamağa başladılar və bu da 1939-1945 illər *İkinci dünya müharibəsinə* gətirib çıxardı.

Faşist Almaniyası və onun müttəfiqlərinin *müharibədə* məğlubiyyəti müstəmləkə xalqlarının milli-azadlıq hərəkatının inkişafına təkan verdi; bu, müstəmləkə sisteminin tənəzzülünün əsasını qoydu.

Asiya, Afrika və Latın Amerikası ölkələrində müstəmləkə sistemi iflasa uğrayırdı. Təkcə 1960 ildə Afrikada 17 ölkə müstəqillik əldə etmişdi.

Müstəmləkə sisteminin kökündən ləğv edilməsi məsələləri *BMT*-nin fəaliyyətində mühüm yer tutur. Müstəmləkəçiliyə son qoyulmasının vacibliyini bəyan edən Asiya, Afrika və Latın Amerikası dövlətlərinin fəal dəstəyi sayəsində XII.1960 ildə müstəmləkə ölkələrinə və xalqlarına istiqlaliyyət verilməsinə dair *Bəyannamə* qəbul edildi. BMT Bəyannaməni tam şəkildə həyata keçirmək üçün 1970 ildə proqram, 1980 ildə isə bu sahəyə dair tədbirlər planı işləyib hazırladı.

Dünya sosializm sisteminin tənəzzülə uğraması ilə bu sistemə daxil olan ölkələr asılılıq buxovlarından azad olaraq əsl dövlət müstəqilliyi və *suverenliyi* əldə etmişlər.

**MÜŞAHİDƏÇİLƏR.** *Beynəlxalq hökumətlərarası təşkilatların, beynəlxalq konfransların* və digər forumların işində məhdud iştirak üçün dövlətlər, *beynəlxalq təşkilatlar*, milli-azadlıq hərəkatları tərəfindən göndərilən nümayəndələr (təmsilçilər). Tam hüquqlu iştirakçılardan fərqli olaraq, qərarların qəbul edilməsində, işçi orqanların formalaşması və fəaliyyətində, digər məsələlərdə iştirak etmirlər. Lakin müzakirə olunan məsələlərlə əlaqədar çıxış etmək və təklif vermək hüququna malik olurlar.

Praktik ehtiyac (tələblər) üzündən təşkilat üzvü olmayan dövlətlər bir sıra beynəlxalq təşkilatların, həmçinin *BMT*-nin fəaliyyətini izləmək istəyirlər və buna görə də bir çox təşkilatlarda daimi müşahidəçilər institutu formalaşıb.

BMT praktikasına uyğun olaraq daimi M. və onların missiyalarının əməkdaşları *BMT Təhlükəsizlik Şurasının, BMT-nin Baş Məclisinin,* onun əsas komitələrinin və BMT-nin digər orqanlarının iclaslarında iştirak edə, öz hökumətlərinin sənədlərini və materiallarını yaya, BMT orqanlarının sənədlərini ala və istifadə edə bilərlər. 1974 ildən Fələstin Azadlıq Təşkilatı (FAT) BMT BM-nin qərarına əsasən BMT BM-nin və BMT çərçivəsində keçirilən beynəlxalq konfransların işində M kimi iştirak edir. 1981 ildən Cənub-Qərbi Afrika təşkilatına da (SVAPO) belə status verilib.

Universal xarakterli beynəlxalq təşkilatlarla münasibətlərdə dövlətlərin nümayəndəliyi haqqında 1975 il Vyana Konvensiyası (*Beynəlxalq konvensiya*) beynəlxalq təşkilatlarda və konfranslarda daimi M.-nin hüquqi statusunu reqlamentləşdirir. M.-dən BMT-nin hərbi M. fərqləndirilməlidir.

**MÜTƏLLİBOV AYAZ NİYAZİ OĞLU** (1938). İctimai-siyasi, dövlət xadimi. Əmək fəaliyyətinə 1959 ildən Bakı Məişət avadanlıqları zavodunda başlamış, 1977 ildə Nərimanov rayon partiya komitəsinin katibi, 1979 ildə yerli sənaye naziri, 1982-1989 illərdə Dövlət plan komitəsinin sədri, Azərbaycan Nazirlər Sovetinin sədr müavini vəzifələrində çalışmışdır. 1990 ildə Azərbaycan Kommunist Partiyasının I katibi seçilmiş, 1990-1991 illərdə respublikanın prezidenti olmuşdur. Xalq Cəbhəsi tərəfindən devrilmiş, *mühacir* həyatı yaşayır. Azərbaycan sosial-demokrat partiyasının həmsədrlərindən biridir.

**MÜVƏQQƏTİ İŞLƏR VƏKİLLƏRİ** (fr. *chargy dAffaires ad interim). Diplomatik nümayəndəliyin* başçısı (*Diplomatik başçılıq*) olmadıqda diplomatik nümayəndəliyə rəhbərlik edən şəxsdir.

*Səfir* müvəqqəti olaraq diplomatik nümayəndəliyi tərk etdikdə, lakin ölkədən getmədikdə onun müavini (müşavir – diplomatik nümayəndə) dublyor olaraq səfirin funksiyalarını öz üzərinə

götürür. Əgər səfir ölkədən gedirsə (məzuniyyətə, ezamiyyətə müalicəyə və s.), onun olmadığı vaxtda müavini M.i.v. kimi diplomatik nümayəndəliyə rəhbərlik edir. M.i.v. adətən diplomatik nümayəndəliyin yüksək diplomatik əməkdaşından təyin olunur. M.i.v. olduğu ölkədə öz dövlətinin nümayəndəsi hesab olunur və diplomatik nümayəndəyə göstərilən *protokol* ehtiramları istisna olmaqla, diplomatik nümayəndəyə aid bütün hüquq və imtiyazlardan *(diplomatik imtiyazlar və toxunulmazlıq hüququ)* istifadə edir. M.i.v.-nə *aqreman* tələb olunmur. M.i.v.-nin təyin olunması haqda diplomatik nümayəndənin ölkədən getməsi ərəfəsində, olduğu ölkənin xarici işlər nazirinə şəxsi məktubu ilə məlumat verilir.

Əgər diplomatik nümayəndənin olduğu ölkədən getməsindən sonra diplomatik nümayəndəlikdə bu və ya digər səbəblərə görə diplomat dərəcəli *(Diplomatik dərəcələr)* işçi olmadıqda diplomatik nümayəndəliyin idarə olunması xidməti heyət üzvləri arasında böyük işçiyə həvalə olunur. Belə halda bu diplomatik əməkdaş **chargy des Affaires** olur. O dövlətinin diplomatik nümayəndəsinin bütün vəzifələrini yerinə yetirə bilməz, olduğu ölkənin Xarici İşlər Nazirliyi *(Xarici İşlər İdarəsi)* ilə və digər dairələri ilə münasibətlər qura bilməz. Onun vəzifələri əsasən diplomatik nümayəndəliyin daxili işləri ilə, məktubların alınması ilə məhdudlaşır.

## N

**NADİR ŞAH ƏFŞAR** (NADİRQULU İMAMQULU OĞLU ƏFŞAR) (1688-1747). Əfşar tayfasından olan Azərbaycan imperatoru (1736-1747).

O, II Təhmasibin dövründə, 1726 ildə qoşun başçısı təyin ediləndən bir neçə il sonra İsfahan, Ərdəbil və Təbrizi türklərdən geri aldı. Sonra abdalların qiyamını yatırmaqçün Xorasana yollandı, Heratı tutdu.

II Təhmasibin osmanlılarla bağladığı Bağdad müqaviləsini və ruslarla bağladığı Rəşt müqaviləsini *(Beynəlxalq müqavilə)* tanımayan Nadir II 1732 ildə Təhmasibi devirdi, onun beşikdəki körpəsini III Şah Abbas adı ilə taxta çıxartdı və regent kimi dövləti idarə etməyə başladı.

Osmanlılarla yeni 1732-1733 illər müharibəsindəki qələbəsindən sonra bağlanan Bağdad müqaviləsinə əsasən, Osmanlılar son 10 ildə tutduqları bütün Səfəvi torpaqlarını qaytarmalı oldular.

Nadir Rusiyadan Xəzərsahili torpaqları boşaltmağı tələb etdi. Az sonra Rusiya Bakını, Dərbəndi tərk etdi, Gəncə, Tiflis və İrəvan onun itaəti altına düşdü.

III Şah Abbasın ölümündən sonra 13-19.II.1736 ildə Muğan qurultayını çağırdı və şah seçildi.

1737 ildə Qəndəhar yaxınlığında Nadirabad şəhərini saldırdı.

N.Ş.Ə. 1738-1740 illər Hindistan səfərində qalib gələrək Dehliyə daxil oldu, Türküstanı zəbt etdi.

Apardığı sərt iqtisadi siyasət əhalinin geniş narazılığına səbəb olmuş, Azərbaycanda onun əleyhinə bir neçə dəfə üsyanlar qalxmışdı.





N.Ş.Ə. 20.VI.1747 ildə sui-qəsd nəticəsində öldürülmüşdü.

**NASİR MƏHƏMMƏD ƏBDÜ ƏLCƏMİ** (ƏBDÜSSAMİ) (1934). 1952-1955 illərdə maarif sahəsində çalışmışdır. 1957-1979, 1980-1984 illərdə Liviya radiosunda işləmişdir. Liviyanın Qayana Respublikasında *səfiri* olmuşdur. 1985 ildə Liviya Xarici İşlər Nazirliyində *(Xarici İşlər İdarəsi)* Mərkəzi aparatında İqtisadi məsələlər və əməkdaşlıq idarəsində şöbə müdiri işləmişdir. 1995 ildə Liviyanın Azərbaycandakı *səfirliyinin* təsis komissiyasında fəaliyyət göstərmişdir. 1997 ildə müşavir diplomatik dərəcəsi *(Diplomatik dərəcələr)* almışdır və Xarici İşlər Nazirliyində Mərkəzi aparatda İqtisadi məsələlər və əməkdaşlıq idarəsində çalışmışdır. 1998 ildə Böyük Sosialist Xalq Liviya Ərəb Camahiriyyəsinin Azərbaycan Respublikasında səfiri təyin olunmuşdur.

**NATURALİZASİYA.** Dövlət tərəfindən xariciyə və ya vətəndaşlığı olmayan *(Vətəndaşsızlıq)* şəxsə öz xahişi ilə *vətəndaşlığın* verilməsi. Vətəndaşlıq N. qaydalarına görə bir dövlətin vətəndaşı digər dövlətin vətəndaşı ilə nigaha girdiyi, digər dövlətin uşağını övladlığa götürdükdə və optasiya hallarında verilə bilər.

N. şərtləri milli qanunvericilikdə müəyyənləşdirilir. Bəzi ölkələrdə vətəndaşlıq haqqında qanunvericiliyə bir sıra müddəalar daxil edilir ki, onlardan da N.-da siyasi, irqi, milli, dini cəhətlərə görə imtina etmək üçün motiv kimi istifadə edilir.

**NAPOLEON I BONAPART** (1769-1821). Fransanın dövlət xadimi. 1796-ildə Napoleon Direktoriya tərəfindən İtaliyadakı qoşunların baş komandanı təyin olunmuş və böyük uğur qazanmışdı. 1797 ildə o, Avstriya ilə *prelimnar sülh* müqaviləsi bağlamışdı. 1749 ildə dövlət çevrilişi həyata keçirərək ölkədə diktatura rejimi bərqərar etmiş və I konsul vəzifəsinə təyin olunmuşdu. Elə həmin il N.B. Fransanın işğal etdiyi əraziləri özündə saxlamaq şərti ilə Avstriya, İngiltərə və Rusiyaya sülh müqaviləsi *(Beynəlxalq müqavilə)* bağlamaq təklifi ilə müraciət etmiş və beləliklə, ilk dəfə siyasətdə «müharibəni davam etdirməyə hazırlaşırsansa, mümkün qədər sülhpərvər niyyətlərindən danış» prinsipinə əl atmışdı. 1801 ildə o, beynəlxalq arenada İngiltərəni təkləmək üçün Rusiya və Türkiyə ilə sülh müqavilələri bağlamışdı. İngiltərə 1802 ildə məcburiyyət qarşısında Amyendə Fransa ilə sülh müqaviləsi *(Amyen sülh müqaviləsi)* bağlamağa məcbur olmuşdu. Bu müqaviləyə görə Fransanın Avropa qitəsində mövqeyi xeyli güclənmişdi. 1804 ildə N.B. özünü Fransanın imperatoru elan etmişdir. 1805 ildə o Austerits altında Rusiyanın və Avstriyanın birləşmiş ordusunu məğlubiyyətə uğratdıqdan sonra faktiki olaraq, bütün Avropanın hökmdarına çevrildi. 1806 ildə İngiltərəyə qarşı *«Kontinental blokada»* elan etdi. 1807 ildə Rusiya ilə Tilzit müqaviləsinin imzaladı. 1809 ildə Avstriya ilə, 1912 ildə Rusiya əleyhinə Avstriya və Prussiya ilə müqavilə imzaladı. 1812 ildə Rusiyaya hərbi səfərin uğursuzluğundan sonra yaratdığı imperiya süquta uğradı.

N.B. Elba adasına sürgün edildi. III.1815 ildə Fransaya qayıdaraq hakimiyyəti yenidən ələ keçirdi, Vaterloo vuruşmasında qəti məğlub olaraq ömürlük Müqəddəs Yelena adasına sürgün olundu və orada vəfat etdi. N.B.-in cənazəsi 1840 ildə Parisə gəti-

rilərək Əlillər evinin həyətində dəfn edilmişdir.

**NARKOTİK VƏ PSİXOTROP MADDƏLƏR ÜZƏRİNDƏ BEYNƏLXALQ NƏZARƏT.** 1912-1971 illərdə bağlanmış bir sıra çoxtərəfli razılaşmalara əsaslanır. Tarixdə ilk dəfə belə razılaşma 1912 ildə Haaqada əldə olunmuşdu- bu zaman tiryək üzrə *beynəlxalq Konvensiya* qəbul edilmişdir. 1920-1931 illərdə *Millətlər Cəmiyyəti* çərçivəsində bu sahədə bir sıra razılaşmalar əldə olunmuşdu. 1961 ildə *BMT* çərçivəsində narkotik maddələr üzrə Vahid konvensiya qəbul olunmuşdu ki, bu da yuxarıda adı çəkilən razılaşmaları ümumiləşdirir və narkotik maddələrə beynəlxalq nəzarət mexanizmini sadələşdirirdi. 1971 ildə BMT çərçivəsində psixotrop maddələr üzrə konvensiya qəbul edilmişdir. Bu konvensiyaların müddəalarına görə, konvensiyaya imza atmış ölkələr öz ərazilərində narkotik və psixotrop maddələrin istehsalına (tibbi və elmi tələbatlar üçün) nəzarət etməli və bu sahədə beynəlxalq nəzarəti həyata keçirmək üçün başqa dövlətlərlə sıx əməkdaşlıq etməlidirlər. BMT çərçivəsində 1946 ildə Narkotik Maddələr üzrə komissiya, 1964 ildə isə Narkotik maddələrə nəzarət üzrə beynəlxalq komissiya yaradılmışdı.

**NATO** (bax: **ŞİMALİ ATLANTA MÜQAVİLƏSİ TƏŞKİLATI**).

**NEFT İXRAC EDƏN ÖLKƏLƏR TƏŞKİLATI (OPEK).** 1960 il Bağdad konfransında Venesuelanın təşəbbüsü ilə yaradılmışdı. 12 dövlət- Əlcəzair, Venesuela, Qabon, İndoneziya, İran, İraq, Qətər, Küveyt, Liviya, Nigeriya, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı və Ekvador daxildir. OPEK-in əsas məqsədləri: üzv ölkələrin neft siyasətini əlaqələndirmək, üzv ölkələrin maraqlarının müdafiəsi üçün xüsusi və kollektiv vasitələri müəyyənləşdirmək; neft istehsal edən dövlətlərin maraqlarını daim nəzarətdə saxlamaq.

OPEK-in strukturuna konfrans, komitələr, Müdirlər Şurası, Baş katibin rəhbərlik etdiyi Katiblik, İqtisadi Komissiya daxildir.

1970 illərdə OPEK dünya neft bazarında inhisarçı idi. 1980 illərdən Şimal dənizində və OPEK-ə daxil olmayan bir sıra ölkələrdə, neft hasilatının artması OPEK-in inhisarına güclü zərbə endirdi. Hal-hazırda OPEK ölkələri dünya neft ehtiyatlarının üçdə ikisinə sahibdirlər.

**NE VARİETUR** (lat. *ne varietur*- dəyişilməz). Diplomatik praktikada hər hansı sazişin paraflanması (*Paraflama*) zamanı və ya yekun razılıq əldə olunan zaman istifadə edilən termindir. O deməkdir ki, saziş mətninin yekun tərtibatı zamanı ona hər hansı dəyişikliklər və ya düzəlişlər edilə bilməz.

**NEYTRAL DÖVLƏTLƏR.** Dövlətin xüsusi beynəlxalq-hüquqi statusu *Beynəlxalq hüquqa* əsasən *müharibə* vaxtı N.d. eventual və daimi N.d.-ə bölünürlər.

Eventual dedikdə, müharibənin başlanması haqqında müəyyən bir dövlətin, bu müharibədə nə müharibə edən hər hansı dövlət tərəfində, nə də müstəqil olaraq iştirak etməməsi barədə *Bəyanatı* nəzərdə tutulur. Bu zaman həmin bəyanat yalnız müharibə vaxtı qüvvədədir və istənilən vaxt bəyanat verən tərəf onu birtərəfli olaraq ləğv edə də bilər. Müharibə vaxtı N.d.-ə aid beynəlxalq hüquqi normalar 5-ci və 17-ci Haaqa konvensiyasında (*Haaqa konfransları 1899 və 1907; Beynəlxalq konvensiya; Beynəlxalq konfranslar*), o cümlədən, *dəniz müharibəsi* haqqında hüquqa dair London deklarasiyasında və bəzi digər aktlarda təsbit edilmişdir. Bu sənədlərə müvafiq olaraq, N.d.-in ərazisi toxunulmazdır və müharibə meydanına çevrilə bilməz; müharibə edən dövlətlərə bu dövlətin ərazisindən qoşun, silahlı nəqliyyat və s. keçirmək qadağan edilir. N.d.-in ərazisində hərbi qurumlarının və birliklərin təşkili qadağan edilir. N.d.-in ona qarşı təcavüz olduqda, öz silahlı qüvvələrindən istifadə etmək hüququ vardır.

Daimi N.d. dedikdə dövlətin beynəlxalq hüquqi statusu nəzərdə tutulur. Buna müvafiq olaraq dövlət digər dövlətlərin arasında hərbi münaqişədə iştirak etməməli, hərbi ittifaq və bloklara qoşulmamalı, ərazisində (*Dövlətin ərazisi*) xarici ölkə qoşunlarının yerləşdirilməsinə və *hərbi bazalarının* yaradılmasına yol verməməlidir. Daimi N.d.-ə iri dövlətlər tərəfindən qarant (*Beynəlxalq qarantlar*) verilə və ya verilməyə bilər. Hazırda İsveçrə, Avstriya, Malta daimi N.d. statusuna malikdir.

İsveç də N.d. siyasəti yürüdür. Lakin onun bu haqda əsasnaməsi heç bir nüfuzlu *beynəlxalq təşkilat* tərəfindən qəbul olunmayıb.

**NEYTRAL YÜKLƏR.** Neytral ölkənin (*Neytral dövlətlər*) və ya vətəndaşların yüklərinin (hərbi qaçaq malları istisna etməklə) istər neytral, istərsə də *müharibə* edən ölkələrin gəmilərində daşınması; N.y. düşmənin gəmisində olsa da zəbt edilə bilməz. Lakin bu *beynəlxalq hüquq* normaları təcrübədə dəfələrlə pozulub. Belə ki, *İkinci dünya müharibəsi* dövründə faşist Almaniyası bu qaydaları pozaraq ticarət gəmilərinə hücum edirdi.

**NƏRİMANOV NƏRİMAN KƏRBALAYİ NƏCƏF OĞLU** (1870-1925). Azərbaycanın görkəmli dövlət və ictimai-siyasi xadimi, yazıçı və *diplomatı*. 1890 ildə Zaqafqaziya müəllimlər seminariyasını bitirmiş, Tiflis quberniyasının Borçalı qəzasının Qızıl Hacılı kəndində və Bakıda müəllimlik etmiş, 1894 ildə Bakıda Şərqdə ilk ictimai xalq kitabxanasını – oxu zalını açmışdı. 1908 ildə Odessa universitetinin tibb fakültəsini bitirmişdir. 1908-1913 illərdə Həştərxanda «Rusiya» sığorta cəmiyyətində həkim işləməklə yanaşı fəal ədəbi və siyasi fəaliyyətini davam etdirmişdi. 1917 ildə «Hümmət» komitəsinin sədri, eyni adlı qəzetin redaktoru olmuş, 30.III-01.IV.1918 ildə Bakıda müsəlmanlara qarşı baş vermiş *soyqırıma* son qoymasını qətiyyətlə tələb etmiş, milli toqquşmanın qarşısını almaq üçün müsəlman sosialist partiyasının bürosunu yaratmış, 1918 ildə Zaqafqaziyada ilk sovet hakimiyyəti olmuş Bakı Xalq Komissarları Sovetində şəhər təsərrüfatı komissarı vəzifəsində çalışmış, səhhəti ilə əlaqədar olaraq 1918-1919 illərdə Həştərxan şəhərində fəaliyyət göstərmiş, VI.1919 ildə V.1920 ilə qədər RSFSR Xalq Xarici İşlər Komissarlığında Yaxın Şərq şöbəsinin müdiri, Xalq Milli İşlər Komissarının müavini vəzifələrində işləmişdi. 28.IV.1920 ildə Azərbaycanda sovet hakimiyyəti quruldu və N.N. Xalq Komissarları Sovetinin sədri və xarici işlər komissarı seçilmişdi. 28.IV.1920 ildən 12.III.1922 ilə kimi Azərbaycan İnqilab Komitəsinin, Azərbaycan SSR Xalq Komissarları Sovetinin və Müdafiə Şurasının sədri vəzifələrində çalışmışdı. III.1922 ildə yaranmış Zaqafqaziya So-

vet Federativ Sosialist Respublikaları rəyasət heyətinin sədrlərindən biri seçilmiş, 10.IV.-19.V.1922 ildə İtaliyanın Geniya şəhərində iqtisadi və maliyyə məsələləri üzrə *beynəlxalq konfransın* (*Genuya konfransı*) işində iştirak etmişdir. 1923-1925 illərdə o SSRİ MİK-nin 4 sədrindən biri olmuş, 19.III.1925 ildə Moskvada qəflətən vəfat etmiş və Qızıl meydanda torpağa tapşırılmışdır.

**NƏSİBLİ NƏSİB LOĞMAN OĞLU** (1956). 1978 ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə bitirmişdir. Həmin ildə Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda fəaliyyətə başlamışdır.

1987-1988 illərdə İsfahanda (İran) istilik elektrik stansiyasının tikintisində tərcüməçi, 1988-1991 illərdə Azərbaycan EA Şərqşünaslıq İnstitutunda elmi işçi, baş elmi işçi, 1991-1992 illərdə Tarix İnstitutunda şöbə müdirinin müavini və şöbə müdiri işləmişdir.

1989-1992 illərdə Yeni Müsavat Milli Demokratik Partiyasına rəhbərlik etmişdir. VIII.1992-II.1994 illərdə Azərbaycanın İran İslam Respublikasında Fövqəladə və Səlahiyyətli *səfiri* təyin edilmişdir. Tarix elmləri doktorudur. 1994-2003 illərdə Azərbaycanda və ABŞ-da pedaqoji fəaliyyətlə məşğul olmuşdur. VI.2003 ildən Azərbaycan Araşdırmaları Vəqfinin direktorudur.

**NOTA İLƏ BİLDİRMƏ.** Hal-hazırda nota (*Diplomatik nota)* geniş yayılmış diplomatik sənəddir. Xarici işlər nazirliyi (*Xarici İşlər İdarəsi*) və *diplomatik nümayəndəliklər* öz *diplomatik yazışmalarını* əsasən notalar: etiraz notası, verbal nota, şəxsi nota vasitəsilə aparırlar. N.i.b. geniş dairəli məsələlərin baxılması üçün istifadə olunur. Qoyulan məsələlər siyasi, iqtisadi, elmi-texniki və sair problemləri əhatə etməklə ikitərəfli və çoxtərəfli maraqları əks etdirə bilər. Məsələlərin notalarda əksi üçün formal və qəti reqlamentini təyin etmək çətindir. N.i.b. ilə bildirmədə hər ölkənin ənənələrindən və ölkədə mövcud olan təcrübədən istifadə etmək, məsələnin qoyuluşunu kifayət qədər ciddi (etiraz notası üçün), qəti (verbal nota üçün), ya da yumşaq (şəxsi nota üçün) nəzərə çatdırmaqdan ötrü diplomatik etiketin və diplomatik yazışmanın mümkün formalarından istifadə olunmalıdır. N.i.b. ilə bildirmə ciddi diplomatik addımdır, qarşı tərəfdən adekvat reaksiya, ya da vaxtında lazımi cavab verilməsini tələb edir.

**NOTALAR MÜBADİLƏSİ.** Diplomatik praktikada *diplomatik yazışmanın* geniş yayılmış formasıdır. N.m. ilə dövlətlər özlərinin maraqlarına dair hər hansı beynəlxalq məsələ öz baxışlarını ifadə edirlər. Çox vaxt N.m. yolu ilə dövlətlər öz aralarında sazişlər imzayırlar. Sazişi təşkil edən eyni məzmunlu notaların (*Diplomatik nota*) mətni, bir qayda olaraq əvvəlcədən tərəflər tərəfindən ya şifahi mühakirələr, ya da yazışmalar yolu ilə razılaşdırılır. Əgər notalarda hər hansı digər müddət qeyd olunmamışdırsa, belə notaların tarixi sazişin qüvvəyə mindiyi tarixlə eyni olmalıdır. Əgər notalar müxtəlif tarixlərlə qeyd olunursa və onlarda sazişin qüvvəyə minməsi haqda tarix göstərilməyibsə saziş sonuncu notanın alınması tarixindən qüvvəyə minir. Bir qayda olaraq belə notalarda göstərilir ki, onlar tərəflər arasında saziş hesab olunurlar. N.m. formasında razılaşmalar çox vaxt *diplomatik missiyanın səfirliyə* çevrilməsi, *diplomatik münasibətlərin* qurulması, hər hansı müqavilənin fəaliyyətinin dayandırılması, xüsusi mülkiyyətin ötürülməsi və s. kimi konkret məsələlərə dair bağlanır. Çox vaxt N.m. hər hansı bir müqavilənin imzalanması zamanı bu müqavilənin ayrı-ayrı qərarlarını ləğv etmək məqsədilə baş verir. Belə mübadilə imzalanmış əsas müqavilə ilə bağlı məsələlərə dair əlavə razılıqdan ibarət olur.

**NOTA VERMƏK** (lat. notificare - bildirmək). *Diplomatiya* və müqavilə (*Beynəlxalq müqavilə*) praktikasında istifadə olunan rəsmi xəbərdarlıqdır.

N.v. hər hansı dövlətin Xarici İşlər Nazirliyinin (*Xarici İşlər İdarəsi*) və ya *diplomatik nümayəndəliyi* tərəfindən göndərilən nota (*Diplomatik nota)* və ya digər sənədlərdir ki, burada da bu dövlətin hər hansı beynəlxalq məsələyə dair mövqeyi göstərilir, hər hansı hadisə və ya faktla bağlı olaraq nöqteyi-nəzəri ifadə olunur; beynəlxalq müqavilələrin *denonsasiyası, ratifikasiyası*, onlara qoşulmaq haqda məlumat verilir.

Bir sıra hallarda nota vermək zərurəti beynəlxalq müqavilələrlə nəzərdə tutulur.

**NUNSİ** (lat. *nuntius* – elçi, nümayəndə). Roma papasının *Vatikanın diplomatik münasibətlər* qurduğu dövlətlərdə diplomatik nümayəndəsidir. *Diplomatik əlaqələrə* dair 1961 il *Vyana Konvensiyasına (Beynəlxalq konvensiya)* görə N. *protokol* münasibətlərində *səfirlər* kimi birinci dərəcəli diplomatik nümayəndə hesab olunur.

Bir sıra katolik ölkələrində N.-lər *Etimadnamələrini* təqdim etmə tarixlərindən asılı olmayaraq, qeyri-katolik ölkələrində isə yerli praktikadan asılı olaraq *diplomatik korpusun duayeni* olurlar.

**NÜRNBERQ PROSESİ.** Əsas hərbi faşist caniləri üzərində məhkəmə prosesi; 20.XI.1945 - 01.X.1946 illərdə Nürnberqdə keçirilmişdir.

Beynəlxalq Hərbi Tribunal qarşısında hitlerçilərin törətdikləri vəhşiliklərə görə məsuliyyət haqqında, 30.X.1943 ildə Moskva konfransında (*Moskva konfransları*) qəbul edilmiş Bəyannaməyə və SSRİ, ABŞ, Böyük Britaniya arasında hərbi cinayətkarların (*Hərbi canilər; Hərbi cinayətlər*) məhkəməyə cəlb edilməsi və cəzalandırılması haqqındakı razılaşmaya əsasən 08.VIII.1945 ildə yaradılmışdı. Cinayət məsuliyyətinə 24 faşist başçısı cəlb edilmişdi.

Beynəlxalq Hərbi Tribunalın Nizamnaməsinin prinsiplərinə əsasən (o həm də Nürnberq tribunalı prinsipləri kimi məlumdur). müttəhimlər alman imperializminin dünya üzərində hakim olmaq məqsədilə təcavüzkar *müharibənin* planlaşdırılması, hazırlanması və aparılması, *hərbi əsirlərin* öldürülməsi və onlara işgəncə verilməsi, işğal olunmuş ölkələrdə dinc əhalinin öldürülməsi və Almaniyaya qul işlərinə göndərilməsi, ictimai və şəxsi mülkiyyətlərin talan edilməsi, şəhər və kəndlərin məqsədsiz dağıdılması, siyasi, irqi və dini zəmində insanların məhv edilməsi, yəni bəşəriyyətə qarşı cinayətlərdə ittiham 08.VIII.1945 razılaşmasının tərkib hissəsini təşkil edirdi.

Prosesin gedişində 403 açıq məhkəmə iclası keçirildi və bunlarda, müttəhimlərdən başqa 116 şahid dindirildi, on minlərlə yazılı şahid məlumatları, 4 mindən çox sənədli sübutlar araşdırıldı.

30.VII.1946 ildə əsas ittihamçıların çıxışları başa çatdı, 30.IX - 1.X.1946 hökm oxundu. Tribunal müttəhimləri təcavüzkar müharibələrin hazırlanması

və aparılması məqsədilə sui-qəsdin həyata keçirilməsində, Avstriya, Çexoslovakiya, Polşa, Danimarka, Norveç, Belçika, Yuqoslaviya, Yunanıstan, SSRİ və bir sıra ölkələrə qarşı, təcavüzkar müharibələrin aparılmasında, bəşəriyyətə qarşı, saysız-hesabsız hərbi cinayətlərdə, günahlandırdı.

Tribunal H.Geringi, İ.Ribbentropu, V.Keyteli, E.Kaltenbrunneri, A.Rozenberqi, Q.Frankı, V.Friki, Y.Ştreyxeri, F.Zaukeli, A.Yodlu, A.Zeys-İnkvartı və M.Bormanı (qiyabi) - asılmaqla ölüm cəzasına məhkum etdi; R.Hess, V.Funka və E.Redera ömürlük həbs cəzası verildi; B.Şiraxa və A.Şpeeyera - 20, K.Noyrata - 15 və K.Denitsə - 10 il iş kəsildi. H.Krup iflic olduğu üçün işi dayandırıldı. R.Ley Nürnberq həbsxanasında intihar etdi. H.Fric, F.Papen və Q.Şaxt bəraət qazandılar.

Tribunal Almaniyanın nasional-sosialist partiyasının rəhbərliyini, SS, SD və gestaponu cinayətkar təşkilatlar elan etdi. Hitler hökuməti, baş komandanlıq və baş ştab bura daxil edilmədi, göstərildi ki, bu təşkilatların üzvləri fərdi şəkildə məhkəməyə cəlb oluna bilər.

Azərbaycan alimi, ADU-nun ərəb dili kafedrasının müdiri, prof.Ə.Məmmədov N.p.-də Sovet nümayəndəliyi tərkibində alman dili tərcüməçisi kimi iştirak etmişdi.

**«NÜVƏ KLUBU»** (bax. London klubu).

## O

**OLAV BERSTAD** (1953). 1976 ildə Oslo Universitetində rus dili, tarix, arxeologiya ixtisası üzrə bakalavr elmi dərəcəsi almışdır. 1976-1977 illərdə Leninqrad Universitetində arxeologiya ixtisası üzrə təhsil almışdır. 1979 ildə Norveçin Rusiyadakı *səfirliyində* təhlükəsizlik üzrə yardımçı, 1979-1980 illərdə Şimali Norveçdə sərhəd komissarı ofisində tərcüməçi olmuşdur. 1982-1985 illərdə Norveçin Türkiyədəki səfirliyində *attaşe*-katib, 1985-1987 illərdə ABŞ-da Nyu-Orleandakı Norveç Konsulluğunda (*Konsul idarəsi*) *konsul* vəzifələrində və digər diplomatik işlərdə çalışmışdır. 1996 ildən *səfir* təyin olunanadək Norveç Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) mərkəzi aparatda Dünyada ətraf mühitin qorunması və nüvə məsələləri bölməsinin baş direktorunun köməkçisi işləmişdir. Norveç Krallığının Azərbaycan Respublikasında Fövqəladə və səlahiyyətli səfiri olmuşdur.

**OPEK** (bax. **Neft ixrac edən ölkələr təşkilatı).**

**OPTASİYA** (lat. optatio - istək, arzu, seçim). İki vətəndaşlıqdan (*İkili vətəndaşlıq*) birinin könüllü seçilməsi. O. müqavilə üzrə bir dövlətdən başqa dövlətə keçən ərazinin əhalisinin vətəndaşlığı seçmək hüququdur, yəni əvvəlki vətəndaşlığı saxlamaq və ya fərdi ərizələrin verilməsi yolu ilə başqa dövlətin vətəndaşlığına keçmək. Əgər şəxs yaşadığı dövlətin vətəndaşlığını seçmirsə, onda adətən, bu şəxs müəyyən müddət ərzində vətəndaşı olduğu dövlətə köçürülür. Bu halda onlar öz əmlak hüquqlarını saxlayırlar.





O. hüququ müəyyən millətin nümayəndələrinin köçürülməsi və ikili vətəndaşlıq haqqında məsələlərin tənzim edilməsi barədə dövlətlərarası razılaşmalarda nəzərdə tutula bilər. O hüququ birtərəfli qaydada da nəzərdə tutula bilər.

**ORLOV ALEKSEY FYODOROVİÇ** (1786-1861). Rus hərbi dövlət xadimi və *diplomatıdır*. 1829 ildə Türkiyə ilə *Ədirnə sülh müqaviləsini* bağlanmışdır. Bu müqaviləyə görə Yunanıstan və Serbiya muxtariyyət əldə edir, Dunay knyazlıqlarının səlahiyyətləri xeyli güclənirdi. 1829-1930 illərdə İstanbulda yaşayan O.A.F. Rusiya-Türkiyə münasibətlərinin yaxınlaşmasında əlahiddə rol oynamışdı. Onun fəaliyyəti nəticəsində 1833 ildə Türkiyə-Rusiya münasibətlərini təsbit edən hərbi xarakterli Ünkər-İskələ müqaviləsi bağlanmışdı. O, 1856 ildə Rusiyanı Paris konqresində təmsil etmişdi. 1856-1860 illərdə Dövlət şurasının və Nazirlər komitəsinin sədri olmuşdu.

**OSMAN FARUQ LAĞOĞLU** (1941). 1966 ildə ABŞ-da Brandeys Universitetini bitirmişdir. 1971-1973 illərdə Yaxın Şərq və Afrika İdarəsində, nazirin şəxsi dəftərxanasında ikinci katib, 1973-1976 illərdə *Avropa Şurası* yanında Türkiyə daimi nümayəndəliyində ikinci katib olmuşdur. 1976-1978 illərdə Dakkada Türkiyə *səfirinin* birinci katibi işləmişdir. 1980-1984 illərdə *BMT* yanında Türkiyə daimi nümayəndəliyində müşavir, 1986-1989 illərdə Hamburqda (Almaniya) Türkiyənin Baş *konsulu* olmuşdur. 1989-1993 illərdə Xarici İşlər Nazirliyi (*Xarici İşlər İdarəsi*) Baş İdarəsinin Kipr - Yunanıstan istiqaməti idarəsinin baş müdirinin köməkçisi, nazirin köməkçisi vəzifələrini yerinə yetirmişdir. 1993 ildə Türkiyənin Danimarkada səfiri olmuşdur. 1996-1997 ildərdə Türkiyə Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur.

## Ö

**ÖZÜNÜ İDARƏ ETMƏYƏN ƏRAZİ.** Özünü idarə etməyən ərazi - termini *BMT* tərəfindən bütün müstəmləkələr və xalqları hələ tam olaraq özünüidarəyə nail olmayan asılı ərazilərin qeydə alınması üçün qəbul edilib.

*BMT Nizamnaməsində* Ö.i.e.ə. üzrə məsuliyyət daşıyan dövlətlərin əhalinin iradə və maraqları prinsipinə riayət etməsi; əhalinin rifahı üçün maksimum səy göstərərək onların siyasi, iqtisadi və sosial tərəqqisini təmin etməsi; özünüidarəetməni inkişaf etdirməsi, sülhü və *beynəlxalq təhlükəsizliyi* möhkəmləndirməsi və vaxtaşırı *BMT Baş katibinə* məlumat verməyi nəzərdə tutulur.

# P

**PAKT** (lat. *pactum* – razılaşma, saziş). Qarşılıqlı kollektiv təhlükəsizliyin, qarşılıqlı yardımın, hücum etməməyin və s. təmin olunması kimi məsələləri nizamlayan və ya dövlətlərin konkret əməkdaşlıq sahələri üçün başlıca əhəmiyyətə malik prinsip və normaları müəyyən edən ikitərəfli və ya çoxtərəfli *beynəlxalq müqavilədir*.

**PAKTA SUNT SERVANDA** (lat. *pacta sunt servanda* – müqavilələrə riayət edilməlidir). *Beynəlxalq hüququn* tərəflərin *beynəlxalq müqavilələrdən* irəli gələn öhdəliklərə ciddi və vicdanlı əməl etmələrinin zəruriliyini elan edən əsas prinsiplərindən biridir. P.s.s prinsiplərinə riayət edilmədən *beynəlxalq münasibətlərin* sabitliyini və onların hüquqi təminatını qoruyub saxlamaq olmaz. Onun pozulması *beynəlxalq hüquqi məsuliyyətə* cəlb olunmasına gətirib çıxarır.

P.s.s. prinsipləri yalnız tam, uyğun şəkildə qəbul edilmiş beynəlxalq öhdəliklərə aid edilir. Onun təsiri qeyri-bərabər hüquqlu müqavilələrə şamil edilmir. Bu prinsip *BMT Nizamnaməsində*, beynəlxalq müqavilələrin hüququ haqda 1969-cu il *Vyana Konvensiyasında*, *Avropada Təhlükəsizlik və Əməkdaşlığa dair Müşavirənin Yekun aktında (Yekun aktı)* təsbit olunmuşdur.

**PANAYOTİS KARAKASSİS** (1943). Afina Universitetinin hüquq fakultəsini bitirmişdir. 1972 ildən Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) işləyir. 1976 ildə Yunanıstanın *Avropa Şurasında* daimi nümayəndəliyində işləmiş, 1986 ildə Yunanıstanın Kölndə (AFR) Baş *konsulu* olmuş, 1991 ildə Rumıniyadakı *səfirliyində* çalışmışdır. 1992 ildən səlahiyyətli nazirdir. 1993-1996 illərdə Yunanıstan Respublikasının Azərbaycan Respublikasında *səfiri* işləmişdir.

**PAPA VƏ APOSTOL LEQATI** (lat. *legatus*). Nümayəndə, vəkil olunmuş şəxsdir. Üç növ leqatlar vardır: a latere leqatları, missi leqatlar, nati leqatları.

- a latere leqatı – papa tərəfindən kilsə məsələlərinə dair katolik ölkələrinə göndərilən kardinaldır.
- missi leqatı papanın diplomatik nümayəndəsidir. XVI əsrdən etibarən leqatlar nunsiyalar (*nunsi*) adlanmağa başladılar və *Vyana reqlamentinə* görə *səfirlərlə* yanaşı I dərəcəli diplomatik nümayəndələrdir.
- nati leqatı papa tərəfindən təyin olunmur. Bu rütbə katolik prelatına onun bu və ya digər ölkənin katolik kilsəsində tutduğu vəzifəsinə görə verilir (məsələn: katolik arxiyepiskopu).

**PARAFLAMA** (fr. *pararhe* – qısaldılmış imza). Danışığa gələn hər bir tərəfin səlahiyyətli nümayəndələrinin inisialları ilə *beynəlxalq müqavilənin* (və ya onun ayrı-ayrı maddələrinin) onunu mətninin razılaşdırıldığını göstərən ilkin imzalanmasıdır.

P. hallarda baş verir ki, beynəlxalq müqavilə danışıqların iştirakçıları arasında tamamilə razılaşdırılmışdır. bu zaman həm də müqavilə imzalayan hökumətin razılığı tələb olunur. ya da müqavilənin tərtib olunmuş yekun mətninin imzalanması hansısa səbəblərə görə başqa vaxta saxlanılır.

P. müqavilə imzalanmasının məcburi mərhələsi sayılmır: müqavilənin razılaşdırılmış mətni onun imzalanmasına qədər paraflanmaya da bilər. Bu xüsusilə o zaman olur ki, tərəflər arasında razılaşma iclas *protokollarında* qeyd olunur. P. gələcəkdə müqavilə mətninə dair hər hansı mübahisə və anlaşılmazlıqların meydana gəlməsinin qarşısını almağa imkan verir, yəni onun səlahiyyətli şəxslər tərəfindən razılaşdırıldığını inkar olunmaz fakt kimi sübut edir. P. imzalanmanı əvəz etmir. Sazişin rəsmi imzalanmasını ləngidən səbəblər aradan qaldırıldıqdan sonra paraflanmış mətnin imzalanması baş verir.

**PARİS KLUBU** (ONLAR KLUBU). 1961 ildə *Beynəlxalq Valyuta Fondunun* Parisdə yaratdığı, kredit verən Təşkilatdır. P.k. yaradılması haqqında qərar 24.X.1962 ildə ABŞ, İngiltərə, Fransa, Yaponiya, AFR, İtaliya, Belçika, Hollandiya və İsveç nümayəndələri tərəfindən imzalandıqdan sonra qüvvəyə minmişdi. 1964 ildə Kanada, 1982 ildə İsveçrə P.k.-na qoşuldu.

P.k.-nun məqsədi maliyyə məsələlərinin müzakirəsi və müvafiq tövsiyyələrin hazırlanması, BVF-nun valyuta-kredit ehtiyatlarının artırılması, ayrı-ayrı ölkələrə verilən kreditlərin həcmi və şərtlərini müəyyən etməkdir.

P.k. iclasları iştirakçı ölkələrin maliyyə nazirləri və ya onların müavinləri səviyyəsində məxfi şəraitdə keçirilir.

Qərargah və rəhbər orqanları yoxdur.

**PARİS SÜLH KONFRANSI** (1919-1920). *Birinci dünya müharibəsində* qalib gəlmiş dövlətlər tərəfindən, məğlub ölkələrlə sülh müqavilələrini işləyib hazırlamaq üçün çağırılmışdır. Almaniya ilə 1919 ildə *Versal sülh müqaviləsi* imzalandı. 10.IX.1919 ildə Avstriya ilə imzalanmış Sen-Jermen sülh müqaviləsinə görə Avstriya-Macarıstan, Polşa və Xorvat, Serb, Sloven Krallığının müstəqilliyi Avstriya tərəfindən tanındı, Avstriyanın Almaniyaya birləşdirilməsi (*Anşlüs*) qadağan edildi. 21.XI.1919 ildə Bolqarıstanla imzalanmış Neysi sülh müqaviləsinə görə Bolqarıstan tərəfi Rumıniya və Xorvat, Serb, Sloven Krallığının xeyrinə ərazi güzəştlərinə razı oldu. 10.XIII.1920 ildə Türkiyə ilə *Sevr sülh müqaviləsi* imzalandı. Konfransda (*Beynəlxalq konfranslar*) *Millətlər Cəmiyyətinin* Nizamnaməsi bəyənildi.

**PARİS SÜLHÜ** (1856). 18.III. Avstriya, Böyük Britaniya, Fransa, Prussiya, Rusiya, Sardiniya və Türkiyə arasında imzalandı və 1853-1856 illər Krım *müharibəsinə* son qoydu. Müqavilənin (*Beynəlxalq müqavilə*) şərtlərinə görə Qara dənizin silahsızlaşdırılması və neytrallaşdırılması elan olundu, Qara dəniz boğazları üzrə London konvensiyası (*London konvensiyaları*) təsdiq edildi, Qars Türkiyəyə qaytarıldı, Dunayın mənsəbi və Cənubi Bessarabiyanın bir hissəsi Moldaviya knyazlığına verildi, Türkiyə sultanlığından vassal (*Vassal dövlət*) asılılığında olan Moldaviya və Valaxiya knyazlıqlarının mövcudluğu təsdiq edildi, Osmanlı imperiyasının ərazisi (*Dövlətin ərazisi*) toxunulmaz elan edildi.

**PARİTET** (al. *paritat* – bərabərlik, bərabər münasibətlər, uyğunluq). *Beynəlxalq münasibətlərdə* P. tərəflərin qarşılıqlı maraqlarının nəzərə alınmasına və hər bir tərəf üçün məqbul olan sazişlərin bağlanmasına razılığını əks etdirən bərabərlik prinsipi əsasında eyni nymayəndəliklərlə təmsil olunmuş tə-

rəflərin danışıqlar aparmasıdır. P. termini həm də iki ölkənin və ölkələr qrupunun silahlı qüvvələrinin və ya müxtəlif növ silahlanmalarının bərabərliyi deməkdir.

**PARLAMENTLƏRARASI İTTİFAQ.** *Beynəlxalq münasibətlərdə* milli parlament qruplarını birləşdirən qeyri-dövlət təşkilatı. 1989 ildə yaradılıb. P.i.-ın vəzifəsi parlamentarilər arasında şəxsi təmasları təşviq etmək və sülhün, əməkdaşlığın, demokratik parlament institutlarının möhkəmləndirilməsi yolunda onların fəaliyyətlərini birləşdirməkdir.

**PARLAMENTER** (fr. parlementaire). Hərbi əməliyyat zonasında vuruşan tərəflərdən birinin müvafiq səlahiyyətlər verilmiş, düşmənlə danışıqların aparılması üçün göndərilmiş rəsmi nümayəndəsi. P.-in və onu qəbul edən tərəfin hüquq və öhdəlikləri 1907 il V *Haaqa konvensiyasına* (*Haaqa konfransları 1899 və 1907*) əlavə edilmiş yerüstü *müharibələrin* qanun və adətləri haqqında müddəaları ilə tənzimlənir. P.-in toxunulmazlığı ən qədim və ən hörmət olunan beynəlxalq ənənələrdən biridir. P.-lə birlikdə onu müşayət edən şəxslər də (truba çalan, baraban çalan, bayraq aparan şəxs və tərcüməçi) toxunulmazlıq hüququndan istifadə edirlər. P.-in fərqləndirici nişanı ağ bayraqdır. P.-in öz qoşunlarının tutuduğu mövqeyə qayıdanadək təhlükəsizliyi təmin edilməlidir.

P. öz statusundan siu-istifadə etməməlidr. Əgər P.-dən ondan casusluq, düşmənin hərbi qulluqçularını satqınlığa cəlb etmək və s. məqsədlərlə istifadə edilərsə, o, toxunulmazlıq hüququndan məhrum edilə bilər.

**PARTİZANLAR.** Hərbi birləşmələr tərkibində öz vətəninin azadlığı və *suverenliyi* uğrunda könüllü mübarizə aparan şəxslər. Partizan əməliyyatları düşmən tərəfindən zəbt edilmiş ərazilərdə aparılır. *Partizan müharibəsinin* qaydaları 1907 il *Haaqa Konvensiyasında* (*Haaqa konfransları 1899 və 1907*) əks olunub. Partizan hərəkatının qanuniliyi hərbi münaqişələrin xarakteri və mahiyyəti ilə sıx bağlıdır. Belə hərəkatlar işğalçılara qarşı yönəlir. Hər hansı müəyyən qayda-qanuna tabe olmayan, xüsusi təşkilatlanmamış dəstələri R.-dan ayırmaq vacibdir.

**PAŞAYEV HAFİZ MİRCƏLAL OĞLU** (1941). 1963 ildə Bakı Dövlət Universitetinin fizika fakültəsini bitirmişdir. 1963-1992 illərdə Azərbaycan Respublikası Elmlər Akademiyasının Fizika İnstitutunda müxtəlif vəzifələrdə çalışmışdır, fizika-riyaziyyat elmləri doktorudur. 1992 ildə Azərbaycanın Amerika Birləşmiş Ştatlarında və eyni zamanda Kanada, Meksika və Kuba ölkələrində Fövqəladə və Səlahiyyətli *səfiri* təyin olunmuşdur.

Fövqəladə və Səlahiyyətli səfir diplomatik rütbəsinə (*Diplomatik adlar və rütbələr*) malikdir.

**PENTAQON** (yunan. *Pentagonon* - beşbucaq). Vaşinqton yaxınlığında ABŞ hərbi nazirliyinin beşguşəli formada olan binası. ABŞ hərbi idarəsi kimi istifadə olunur.

**PEPİNOV ƏHMƏD BƏY (ƏHMƏD CÖVDƏT BƏY) ÖMƏR BƏY OĞLU** (1893-1938). Tiflisdə gimnaziyada. 1913-1918 illərdə Moskva Universitetində təhsil almışdır.

1918 ildə Zaqafqaziya Seyminə üzv seçilmiş, müsəlman fraksiyasında





«Müsəlman sosialist bloku»na daxil olmuşdur. Seymin Türkiyə ilə müqavilə bağlamaq üçün bu ölkəyə göndərilən nümayəndə heyətinin tərkibində iştirak etmişdir. Nümayəndə heyətinin üzvü kimi 14.III.1918 *ildə Trabzon sülh konfransında* (*Beynəlxalq konfranslar*) iştirak etmişdir.

Azərbaycan Demokratik Respublikası dövründə Parlament üzvü seçilmiş, 24.XII.1919-30.III.1920 illərdə əmək və əkinçilik naziri işləmişdir. IV.1920 ildə Azərbaycan Parlamentinin üzvü Rəhim bəy Vəkilovla birgə Sovet Rusiyası nümayəndələri ilə Qroznı şəhərində danışıqlar aparmışdır. Danışıqlarda məqsəd XI ordunun Azərbaycana hücumunun qarşısını almaq idi.

Sovet hakimiyyəti illərində müxtəlif dövlət işlərində işləmişdir. 1932 ildə Zaqafqaziya Baş Siyasi İdarəsinin qərarı ilə həbs edilmiş və həbs düşərgəsində vəfat etmişdir.

**PERSONA QRATA** (lat. *persona grata* – arzuolunan şəxs). *Diplomatik nümayəndəlik* başçısı kimi təyin olunduğu dövlətin hökuməti tərəfindən təyinatına razılıq verilən diplomatik nümayəndədir. *Aqreman* alan diplomatik nümayəndə P.q., yəni arzuolunan şəxs hesab olunur.

Təyin olunduğu ölkəyə gəlməyə razılıq (gəlmə vizası) alan hər hansı diplomatik işçi də P.q. hesab olunur.

**PERSONA NON QRATA** (lat. *persona non grata* – arzuolunmayan şəxs). *Diplomatik nümayəndəlik* başçısı kimi təyinatına təyin olunması nəzərdə tutulan ölkə hökumətinin razılıq vermədiyi şəxsdir. 1961 il *diplomatik əlaqələrə* dair *Vyana Konvensiyasına* görə olduğu ölkə tərəfindən hər hansı bir diplomatik işçiyə ölkədən getmək tələbi irəli sürülərsə, onlar P.n.q. hesab olunurlar. Dövlət diplomatik nümayəndəlik başçısı və ya diplomatik işçini P.n.q. elan etməsinin səbəblərini açıqlamaya bilər. Diplomatik nümayəndəlik başçıları və ya *hər* hansı *diplomatik* işçi olduqları ölkə hökumətinə açıq-aşkar mənfi münasibət göstərdikdə, onun daxili işlərinə qarışdıqda, onun qanunlarına və adətlərinə hörmətsizlik etdikdə, diplomatik imtiyazlardan siu-istifadə etdikdə, ümumi qəbul olunmuş diplomatik davranış normalarını pozduqda P.n.q. hesab olunur.

**PETERBURQ MÜQAVİLƏSİ** (1723). 23.IX. Səfəvi şahı II Təhmasibin *elçisi* İsmayıl bəyin Rusiya imperatoru I Pyotr (*Pyotr I*) ilə özbaşına imzaladığı müqavilə (*Beynəlxalq müqavilə*). R.m.-nin şərtlərinə görə Səfəvi dövləti Xəzərsahili, vilayətləri (Dərbənd, Bakı, Gilan, Mazandaran, Astraboy) Rusiyaya verməli, Rusiya isə şaha qarşı üsyan olacağı təqdirdə qoşun göndərməklə ona yardım etməli idi. II Təhmasib R.m.-ni təsdiq etmədi.

**PƏRVİZ ALAM XANZADƏ** (1943). 1973 ildən Pakistanın Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) çalışmağa başlamışdır. 1974-1975 illərdə Pakistanın İndoneziyadakı, 1979-1982 illərdə Böyük Britaniyadakı, 1991-1994 illərdə Meksikadakı *səfirliklərində* işləmişdir. 1994 ildə Pakistanın Meksikadakı səfirliyində nazir kimi fəaliyyət göstərmişdir. 1994-1998 illərdə Pakistan İslam Respublikasının Azərbaycan Respublikasında *səfiri* işləmişdir.

**PİRATLIQ** (*quldurluq*). Beynəlxalq xarakterli cinayət. 1982 il *BMT Konvensiyası* və 1958 il *Cenevrə Konvensiyasına* (*BMT-nin Dəniz Hüququ Konven-*

*siyası (1982); Dəniz Hüququna dair Cenevrə Konvensiyaları (1958); Beynəlxalq Konvensiya)* görə aşağıda göstərilən hallar P sayılır: *açıq dənizdə* hər hansı dövlət və ya şəxsi gəminin heyəti tərəfindən mənsubiyyətindən asılı olmayaraq digər gəmilərə, onun şəxsi heyətinə, əmlakına edilən təcavüz; eyni hal hər hansı uçan aparatda və ya onun köməyi ilə baş verərsə bu P. hesab olunur. Əgər hər hansı dövlət gəmisi və ya uçan aparatı qiyam qaldırmış heyət tərəfindən zəbt edilirsə, belə hallar da P. hesab olunur. Beynəlxalq normalara görə heç bir dövlət piratlara himayə göstərə bilməz. Pirat gəmilərinə və uçan aparatlarına hər hansı bir dövlətin hərbi gəmiləri və uçan aparatları hücum edə bilərlər. Pirat gəmisini zəbt etmiş dövlətin məhkəmə orqanları piratların və gəmidəki əmlakın taleyini müəyyən edir. Bu zaman cinayət törətməmiş üçüncü şəxslərin hüquqları müdafiə olunmalıdır.

**PLEBİSSİT** (lat. *plebiscitum plebs* – sadə xalq və *scitum* – qərar, fərman sözlərindən yanaıb). Müvafiq ərazinin taleyini həll etmək üçün vətəndaşların sorğusunu keçirmək. Bəzi ölkələrdə *referenduma* sinonim kimi istifadə olunur. Rəsmi-hüquqi nöqteyi-nəzərdən P. proseduraşı ilə referendum üst-üstə düşür.

Qədim Romada plebeylərin toplantılarında qəbul olunan qərarlara deyilirdi. *Beynəlxalq münasibətlərdə* yad ərazilərin ayrılması ya da birləşdirilməsi zamanı xalqın hansı dövlətə məxsus olmasına dair iradəsini müəyyən etmək üçün tətbiq olunur. İlk dəfə olaraq XVIII əsrin sonunda Fransa burjua inqilabı zamanı tətbiq olunmuşdur. 1791 ildə Avinyon, 1792 ildə Savoyya, 1793 ildə Belçikanın birləşdirilməsi haqda P. keçirilmişdi. Çox hallarda yad əraziləri işğal etmiş dövlətlər tərəfindən işğal faktını təsdiq etmək məqsədilə həyata keçirilib. Məs. 1938 ildə Avstriyanın işğalını göstərmək olar.

**PORTFELSİZ NAZİR** (bax. **Çantasız nazir**).

**PREAMBULA** (lat. *preambulus* – qabaqda gedən). *Beynəlxalq müqavilənin, Bəyannamənin*, qanunverici və ya digər hüquqi aktın giriş hissəsi. P.-da bir qayda olaraq müqavilə bağlayan tərəflər sadalanır, müqavilənin bağlama səbəbləri, məqsəd və prinsipləri, onun *beynəlxalq hüququn* prinsip və normaları ilə, digər müqavilələrlə əlaqəsi şərh edilir. Beynəlxalq aktların P.-sında bir qayda olaraq bu beynəlxalq müqavilənin tərəfləri, saziş iştirakçıları olan dövlətlər sadalanır. P. müqavilənin ayrılmaz hissəsidir və digər hissələri ilə yanaşı onun izah edilməsində istifadə olunur. Məs., P. *BMT Nizamnaməsində* mühüm əhəmiyyət kəsb edir.

P. *beynəlxalq hökumətlərarası təşkilat* və *beynəlxalq konfransların* qərarlarında (*Qətnamələrində*) da ola bilər.

**PREFERENSİYA** (lat. *praeferentia* – üstünlük, ehtiram). Bir dövlətin digər dövlətə və ya dövlətlər qrupuna iqtisadi-ticarət əlaqələri sahəsində gömrük vergilərindən güzəşt formasında və ya dövlət sifarişlərinin yerləşdirilməsi və əlavə maliyyə yardımı üçün əlverişli şərait yaratması, kapital bazarına girişi asanlaşdırmaq yolu ilə təqdim etdiyi xüsusi üstünlüklər. P.-nın təyin edilməsində əsas rolu müvafiq dövlətin xarici iqtisadi və xarici siyasi maraqları oynayır.

**PRELİMİNAR SÜLH MÜQAVİLƏSİ** (*lat. pre* – nəyinsə önündə, qabaqda, *limen (liminis)* - başlanğıc). Vuruşan tərəflər arasında hərbi əməliyyatların kəsilməsinə və gələcək sülh müqaviləsinin əsas müddəalarını müəyyənləşdirməyə dair rəsmi saziş. Bu sazişdə vuruşan tərəflərin həmin anda uti possi detis (latınca «malik olduğunuz kimi») prinsipinə müvafiq olaraq tutduqları mövqelər, atəşin dayandırılması (*Atəşkəs*) şərtləri müəyyən olunur, təklif olunan ərazi dəyişmələri ümumi şəkildə qeyd olunur, *hərbi əsirlərin* taleyi, *təzminat* məsələləri müzakirə olunurdu. XVII və XIX əsrlərin diplomatik təcrübəsi üçün xarakterikdir. Müasir *beynəlxalq hüquqda* tətbiq edilmir.

**PREROQATİV** (lat. *praerogativus* – birinci istənilmiş, birinci səs verən). Hər hansı bir dövlət orqanının və ya məsul şəxsin malik olduğu müstəsna hüquq.

**PRESEDENT** (lat. *praecedens* – əvvəlki, əvvəldə gedən). *Beynəlxalq hüquqda – beynəlxalq münasibətlərin* hər hansı bir məsələsinin beynəlxalq hüququn ümumi prinsipləri və normalarına uyğun olması şərtilə digər analoji hadisələrin nəzərdə keçirilməsində nümunə kimi istifadə edilə bilən həlli üsulu.

Beynəlxalq hüquqi P. təkcə məhkəmə orqanlarının qərarlarına aid edilmir. O *beynəlxalq hüququn mənbəyi* hesab edilmir. Buna baxmayaraq *Beynəlxalq Məhkəmə* P.-dən köməkçi vasitə kimi istifadə edə bilər.

P. yeni müqavilə normalarının və beynəlxalq qaydaların meydana gəlməsinə müəyyən təsir göstərir.

**PRESS-KONFRANS** (in. *press-conference*). Rəsmi siyasi şəxslərin və ictimai xadimlərin, eləcə də mədəniyyət nümayəndələrinin həm milli, həm də xarici kütləvi informasiya orqanlarının müxbirləri ilə aktual məsələlərə dair məlumat vermək məqsədilə görüşü və söhbəti. Görüş keçirən şəxslər müəyyən ictimai maraq oyadan mövzuya aydınlıq gətirir və dəvət olunmuş jurnalistlərin suallarına cavab verirlər.

**PREVENTİV TƏDBİRLƏR** (*lat. praventus* – qarşı tərəfin hərəkətlərini qabaqlayan). *Beynəlxalq hüquqda BMT Nizamnaməsi* əsasında dövlətlərin həmrəyliyi ilə sülhə təhlükənin, sülhün pozulmasının və ya təcavüz aktının qarşısını almaq məqsədilə qəbul etdikləri kollektiv tədbirlərdir. BMT Nizamnaməsində P.t.-in iki tipi göstərilmişdir: silahlı qüvvələrdən istifadə olunması ilə əlaqədar olmayan tədbirlər (iqtisadi münasibətlərin, dəmir yollarının, dəniz, hava və digər əlaqə vasitələrinin tamamilə və ya qismən kəsilməsi, eləcə də *diplomatik münasibətlərin kəsilməsi*) və *BMT* üzvləri olan dövlətlərin silahlı qüvvələrindən istifadə edilməklə görülən tədbirlər, belə tədbirlər haqda qərarlar ancaq *BMT Təhlükəsizlik Şurasında yekdillik səs prinsipi* əsasında qəbul edilir.

**PREZİDENT** (lat. *praesidens* – qabaqda oturan, sədrlik edən, başda duran). Respublika idarə üsullu dövlətlərdə müəyyən müddətə (4-7 il) seçilən *dövlət başçısıdır*. P.-in konstitusiya statusu və səlahiyyətləri respublikaların tipindən asılı olaraq müxtəlifdir. Prezidentli respublikalarda, P. təkcə dövlət başçısı deyil, həm də hökumətin başçısıdır. P. parlamentdən kənarda, yəni xalq tərəfindən (birbaşa və ya dolayısı ilə) seçkilərlə seçilir. Hərbi silahlı qüvvələr P.-ə tabe olur. O *veto* hüqu-

quna malikdir. ABŞ-da bütün icra hakimiyyəti, inzibati idarə, eləcə də qanunverici hakimiyyət *konqres* üzərində taktiki nəzarət P-in əlində cəmləşmişdir. 1947 il dövlət təhlükəsizliyi və Mərkəzi Kəşfiyyat İdarəsi haqda qanuna əsasən orduya rəhbərlik və kəşfiyyat sahəsində P-in hüquqları xeyli genişləndirilmişdir.

Parlamentli respublikalarda P. bir qayda olaraq parlament tərəfindən seçilir. Hökumətin deyil, dövlətin başçısı hesab olunur. Real icraedici hakimiyyət baş nazirin başçılıq etdiyi hökumətə məxsusdur. O, baş nazir başda olmaqla parlament əksəriyyəti tərəfindən irəli sürülən və parlament qarşısında məsuliyyət daşıyan nazirləri təsdiq edir.

Qarışıq tipli və ya yarıprezidentli respublikalarda ancaq dövlət başçısı olan P. faktiki olaraq hökumətə rəhbərlik etməyə imkan verən hakimiyyət səlahiyyətlərinə malikdir. Belə sistemdə P. bir qayda olaraq ümumxalq seçkiləri ilə seçilir. Prezidentliyin modelindən asılı olmayaraq konstitusiyaya görə P-in aşağıdakı səlahiyyətləri vardır: *beynəlxalq münasibətlərdə* ölkəsini təmsil edir, *beynəlxalq müqavilələr* imzalayır, hökumət üzvlərinin (inzibati idarənin) və hakimlərin təyin olunmasında iştirak edir, qanunları təsdiq və *promulqasiya* edir, sərəncamlar verir, qanunverici təşəbbüs və veto qoymaq hüququna malikdir, orden və medallarla təltif edir, yüksək hərbi rütbələr verir, əfvetmək hüququna malikdir, vətəndaş məsələlərini həll edir, *diplomatik missiya* başçılarını təyin edir və geri çağırır. Müəyyən hallarda parlamenti buraxmaq və növbədənkənar seçkilər keçirməyi elan etmək hüququna malikdir.

**PRİSK PANİONLU** (V ƏSR). Bizans dövlətinin ən görkəmli *diplomatlarından* və tarixçilərindən biridir. 448 ildə Bizans imperatoru II Feodosi tərəfindən *səfirliyin* başçısı sifətilə Hun imperatoru *Atillanın* sarayına göndərilir. Xidməti vəzifələrini yerinə yetirməklə yanaşı P.p. burada, eyni zamanda özünün «Bizansın tarixi və Atillanın əməlləri» əsərini yazmışdı. Sonradan P.p. Bizansla Roma arasında rəqabətdə Frank dövlətini öz tərəfinə cəlb etmək üçün, habelə Bizans dövlətinin ərəb tayfaları ilə münasibətlərini yaratmaqdan ötrü *diplomatik missiyalara* rəhbərlik etmişdir.

**PROLONQASİYA** (lat. *prolongare* - uzatmaq). Hər hansı dövlətlərarası rəsmi sənədin (müqavilə (*Beynəlxalq müqavilə*), saziş və s.) müddətinin uzadılması. Bir neçə ilə (5, 10 və s.) nəzərdə tutulan sənəddə, adətən, onun P. müddəti də qeyd olunur. Sənədin hüquqi vaxtı qurtarandan sonra əgər tərəflərdən heç biri onun dayandırılmasını istəmirsə, bu zaman həmin sənəd heç bir müzakirəyə ehtiyac olmadan orada göstərilən yeni müddət üçün uzadılmış – P. olunmuş hesab edilir.

**PROMULQASİYA** (lat. *promulgatio* - açıq-aşkar elan etmək). *Beynəlxalq müqavilənin* bir qayda olaraq nəşr edilmə yolu ilə ölkə daxilində rəsmən elan olunması.

Bir sıra ölkələrin konstitusiya hüququnda parlament tərəfindən qəbul edilmiş qanununun rəsmi elan olunmasıdır. P. qanun layihəsinin dövlət başçısı tərəfindən konstitusiyada müəyyən olunmuş müddətdə təsdiq olunması, eləcə də qanunun rəsmi mətbuatda dərc olunması deməkdir. P.-dan sonra qanun bir qayda olaraq qüvvəyə minir.





**PROSEDUR QAYDALARI** (lat. *projedere* - irəliləmək). *Beynəlxalq konfransların* və beynəlxalq hökumətlərarası təşkilatların və qeyri-hökumət təşkilatları (*Beynəlxalq hökumətlərarası təşkilatlar; Beynəlxalq qeyri-hökumət təşkilatları; Beynəlxalq təşkilatlar*) orqanlarının sessiyalarının çağırılması və keçirilməsi qaydalarının, onların işinin təşkilini, başlıca orqanlarının seçilməsi prosedurasını, konfransların (təşkilatların) gündəliyində duran məsələlərin müzakirə metodları, eləcə də bunlara dair qərarların işlənib hazırlanma və bəyənilməsi qaydalarını tənzimləyən normaların və qaydaların məcmusudur; bəzən də reqlament adlandırılır.

P.q.-nın işlənib hazırlanması bir qayda olaraq konfransın hazırlıq orqanı (təşkilatın köməkçi orqanı) tərəfindən həyata keçirilir, konfransın plenar iclasında (orqanında) isə təsdiq olunur. Beynəlxalq təşkilatların daha mühüm prosedur məsələləri (səs vermə qaydası, yeni üzvlərin qəbul edilməsi və s.) onların nizamnamələrinə əsasən həll edilir, P.q. isə müvafiq nizamnamə maddələrini konkretləşdirir. P.q. beynəlxalq konfranslar və təşkilatların müntəzəm, səmərəli, operativ fəaliyyətini təmin etməyin mühüm vasitəsidir.

P.q. konfransların (orqanların sessiyaları) keçirilməsi və yeri haqda, iştirakçı dövlətlərin nümayəndəliyi (o cümlədən onların nümayəndələrinin səlahiyyətləri), bu foruma çağırılmış beynəlxalq təşkilatların nümayəndələrinin, *müşahidəçilərin* hüquqları, vəzifəli şəxslərin seçilməsi və vəzifələri haqda katibliyin fəaliyyəti, köməkçi orqanların yaradılması və işçi dilli, konfransın (orqanın) sənədləri, gündəliyin təsdiqi, iclasların keçirilməsi, təkliflərin nəzərdən keçirilməsi, daxil edilməsi və eləcə də P.q.-na düzəlişlər edilməsi haqda müddəalardan ibarətdir.

Çoxlu sayda iştirakçıları olan konfranslarda başlıca məsələyə dair qərarların qəbul olunması üçün ixtisaslaşdırılmış əksəriyyət tələb olunur (məsələn, səsvermədə olan və iştirak edən nümayəndələrin 2/3 və ya 3/4). Bəzi konfranslar və orqanlar qərarları *konsensus* əsasında qəbul edirlər. Bəzən bir konfransın gedişində xarakterindən asılı olaraq qərarların qəbul edilməsində müxtəlif qaydalardan istifadə edilir. Bir sıra beynəlxalq təşkilatlarda «Ölçülmüş» səsvermə metodu tətbiq edilir (hər bir iştirakçı onun bu təşkilata verdiyi maliyyə dəstəyinə proporsional olaraq bir neçə səsə malikdir). Prosedur məsələlərinə dair qərarların qəbul olunmasında adətən səslərin sadə əksəriyyəti kifayət edir (50%+1). *BMT Təhlükəsizlik Şurası* prosedur məsələləri istisna olmaqla bütün məsələlərə dair qərarları Şuranın bütün daimi üzvlərinin uyğun gələn səsləri də daxil olmaqla doqquz səslə (yekdil) qəbul edir.

P.q.-na əməl olunmasına konfransın (beynəlxalq təşkilat orqanının) sədri nəzarət edir. P.q.-nın bu və ya digər müddəalarının tətbiq edilməsi ilə əlaqədar fikir ayrılıqları meydana gəldikdə mübahisəli məsələ konfrans iştirakçıları (orqanın üzvləri) tərəfindən həll edilir.

**PROTEKSİONİZM.** 1) Milli iqtisadiyyatı xarici rəqabətdən müdafiə məqsədilə dövlətin həyata keçirdiyi iqtisadi siyasəti. Milli sənayeni maliyyə baxımından həvəsləndirmək, ixracı stimullaşdırmaq, idxalı məhdudlaşdırmaq vasitəsilə həyata keçirilir. 2) Kiməsə öz işlərini qurmaq üçün göstərilən nüfuzlu himayə.

**PROTEKTORAT** (bax. **QƏYYUMLUQ**)

**PROTOKOL** *(fr. protokol* – rəsmi sənəd). P. *diplomatiya* qədər qədimdir. P. (yunan sözü «protokollon»dandır; *«protos»* - birinci, ilkin, *«kolla»* yapışdırmaq, bərkitmək). Orta əsrlərdə rəsmi sənədlərin tərtibi qaydasına və arxiv işinin aparılmasına deyilirdi. Diplomatik sözlüklərdə verilmiş açıqlamalarda diplomatik P. beynəlxalq ünsiyyətdə olan dövlətlər, hökumətlər, xarici işlər nazirlikləri (*Xarici İşlər İdarəsi*), *diplomatik nümayəndəliklər* və rəsmi *şəxslər* tərəfindən beynəlxalq təcrübədə qəbul olunmuş, icrası zəruri sayılan qaydaların, ənənələrin və şərtlərin toplusu kimi səciyyələndirilir. P. heç bir dövlətin özünəməxsus adətlərini, mərasimlərini, milli ənənələrini inkar etmir, əksinə onların dinamik inkişafında və zənginləşməsində P. rolu inkaredilməzdir. Müasir *beynəlxalq hüquq* normaları baxımından P. və mərasimlər birbaşa hər bir *dövlətin suverenliyinin* prinsiplərini əks etdirir.

**PRUT SÜLH MÜQAVİLƏSİ** (1711). 23.VII. Rusiya və Türkiyə arasında, Prut çayı sahilindəki hərbi düşərkədə imzalanıb. I Pyotrun (*Pyotr I*) Prut yürüşünü başa çatdırdı. Azov qalası Türkiyəyə verildi, Rusiya yeni salınmış Kameni Zaton, Novoboqorod və Taqanroq məntəqələrini dağıtmağı, Reç Pospolitiyanın işlərinə qarışmamağı, İstanbulda *səfir* saxlamamağı, XII Karla, Rusiya ərazisindən (*Dövlətin ərazisi*) keçməklə Türkiyədən İsveçə getməyə icazə verməyi öhdəsinə götürdü

**PYOTR I** (1972-1725). 1682 ildən rus çarı. 1721 ildən ilk rus imperatoru olmuşdur. III.1697 ildə P. özü Moskvadan Qərbi Avropaya yollanan 250 nəfərlik Böyük səfirliyə rəhbərlik etmişdi. VI.1698 ilə kimi davam edən bu səfər zamanı rus çarı qarşısına bir tərəfdən təcrübə toplamaq, digər tərəfdən Türkiyə ilə mübarizə aparmaq üçün Avropa ölkələri arasında özünə müttəfiqlər tapmaq məqsədini qoymuş və Kurlandiyanın, Branderburqun, Niderlandın, Avstriyanın, Polşanın *dövlət başçıları* ilə görüşmüşdü. P. bu səfər zamanı müəyyən uğurlar əldə etsə də, bütün məqsədlərinə nail ola bilməmişdir. Rus ordusu İsveç ordusuna qalib gələrək Baltik dənizinə çıxa bilsə də, Türkiyə ilə ardı-arası kəsilməyən *müharibələrdə* böyük uğur əldə edə bilməmişdi. İsveç üzərində qələbədən sonra P. bütün gücünü Cənubi Qafqazın fəthinə yönəltmiş və Dərbənd, Bakı kimi Azərbaycan şəhərlərini istila etmişdir.

## R

**RAMBUYE DANIŞIQLARI.** II.1999 ildə Paris yaxınlığındakı Rambuye qəsrində Yuqoslaviya və Alban nümayəndələri arasında danışıqların 1-ci mərhələsi 17 gün davam etdi. 16 nəfərlik alban nümayəndə heyətinin başçısı H.Tağı idi. Serb nümayəndə heyəti 14 nəfərdən ibarət idi.

Müzakirələrdə «Kosovoda sülh və özünü idarə etmə haqqında müvəqqəti müqavilənin bəzi hissələri», «Çərçivə sənədi» və Kosovo konstitusiyasını dəqiqləşdirən 9 əlamətdən 3-ü müzakirə olunmuşdu.





**RAPALLO MÜQAVİLƏSİ** (1922). 16.IV. *Genuya konfransı* zamanı Rapallo şəhərində (İtaliya) RSFSR və Almaniya arasında imzalanmışdır. R.m.-nə görə hər iki dövlət arasında dərhal *diplomatik münasibətlər* bərpa olunmalı idi. Almaniya Sovet hökumətinin milliləşdirdiyi, Almaniyaya və onun vətəndaşlarına məxsus mülkiyyət barədə iddialarından əl çəkdi. Ticarət münasibətləri ən əlverişli prinsiplərə əsaslanmalı idi. 05.XI.1922 ildə Berlində imzalanan sazişə əsasən R.m. digər sovet respublikalarına da aid edildi. R.m. ilə kapitalist ölkələrinin Sovet Rusiyasına qarşı vahid cəbhəsi yarıldı.

**RATİFİKASİYA** (lat. *ratus* – həll olunmuş, təsdiq olunmuş və *focere* - etmək). Dövlətin ali hakimiyyət orqanları tərəfindən imzalanmış *beynəlxalq müqavilənin* təsdiq edilməsidir. R. fərmanı adlanan xüsusi akt formasında tərtib olunur və çoxtərəfli müqavilənin R.-sı zamanı müqavilədə müəyyən olunmuş dövlətə-depozitariyə saxlanılmağa (*depozitar*) verilir. İkitərəfli müqavilənin R.-sı zamanı müqavilə iştirakçıları arasında R. fərmanları mübadilə edilir. Əgər ikitərəfli müqavilə müqavilə iştirakçılarının birinin paytaxtında imzalanarsa, R. fərmanları ilə mübadilə digər iştirakçı dövlətin paytaxtında baş verir. R. fərmanında göstərilir ki, müqavilə onun orqanı vasitəsilə təsdiq olunmuşdur, sonra bir qayda olaraq müqavilənin özünün mətni gəlir; göstərilir ki, bu dövlət tərəfindən müqaviləyə əməl olunacaqdır, bundan sonra imza və dövlət möhürü qoyulur. Çoxtərəfli müqavilələrə qoşulduqda və ə onları R. edən zaman dövlət müqavilənin ayrı-ayrı müddəalarına dair qeyd edə bilər.

Dövlət onun nümayəndələri tərəfindən imzalanmış müqavilənin R.-dan imtina edə bilər, bu zaman onun bu hərəkəti qeyri-qanuni sayıla bilməz.

Adətən müqavilələrdə R.-nın müddəti haqda maddələr olmur. Buna görə də çox vaxt müqavilələr gec R. olunurlar.

**REBUS SİC STANTİBUS** (lat. *rebus sic stantibus* – vəziyyətin dəyişilməzliyinə qeyri-şərt). *Beynəlxalq müqavilələnin* imzalanması zamanı mövcud olmuş şəraitlə müqayisədə vəziyyətin əsaslı şəkildə dəyişilməsinin müqavilənin fəaliyyətinin dayandırılması və ya ondan çıxma üçün əsas ola biləcəyi beynəlxalq hüquqi qaydanı ifadə edən hüquqdur.

R.s.s. dövlətlərin müqavilə praktikasında tətbiq olunan norma deyil, sadəcə çox nadir hallarda istifadə olunan fövqəladə düzəlişdir.

R.s.s. qeyd-şərti daha çox uzunmüddətli və müddətsiz müqavilələrdə işlədilir. R.s.s. qeyd-şərti elə bir situasiyanın yaranması ilə meydana çıxır ki, tərəflər müqavilə imzalanan vaxt onu qabancadan görməmişlər və ya görə bilməzdilər.

R.s.s. qeyd-şərti dövlətlərin təcrübəsində qismən qəbul olunmağına və müəyyən dərəcədə pozitiv hüquq normalarında təsdiq olunmadığına baxmayaraq, onun hazırkı dövrdə istifadəsi ümumilikdə lokal çərçivədə məhdudlaşdırılıb. Belə ki, o *beynəlxalq münasibətlərdə* iştirak edən dövlətlərin əksəriyyəti tərəfindən tanınan beynəlxalq hüquqi aktlarda təsdiq olunmamışdır.

Ancaq ilkin olaraq mövcud olmuş şərait tərəflərin müqavilənin onlar üçün məcburiliyi haqda razılığa gəlməsinin əsasını təşkil etdikdə və ya və-

ziyyətin dəyişilməsi ilə bağlı nəticələr müqaviləyə görə hələ də yerinə yetirilməli olan öhdəliklərin fəaliyyət dairəsini əsaslı şəkildə dəyişdirdikdə, R.s.s. qeyd-şərtinə müraciət etmək olar. Göstərilən qayda 1969-cu il *beynəlxalq müqavilələr hüququ haqda Vyana Konvensiyasında* təsdiq olunmuşdur.

Əgər müqavilə dövlətin sərhədini müəyyən edirsə və ya müqavilə iştirakçısının əsaslandığı köklü dəyişiklik bu iştirakçı tərəfindən müqavilədəki öhdəliklərin, ya da onun müqavilənin istənilən digər iştirakçısına münasibətdə üzərinə götürdüyü digər başqa beynəlxalq öhdəliyin pozulmasının nəticəsi olarsa, şəraitin əsaslı dəyişilməsinə, beynəlxalq müqavilənin fəaliyyətinin dayandırılmasına və ya ondan çıxmağa səbəb kimi baxmaq olmaz.

R.s.s. beynəlxalq öhdəliklərin sabitliyini pozmamalıdır.

**REFERENDUM** (lat. *referendum* – xəbər verilməli olan). Demokratiyanın mühüm institutlarından biridir. Seçkilərdən fərqli olaraq R. zamanı seçim obyekti müəyyən vəzifəyə namizəd və ya namizədlər siyahısı deyil, müəyyən məsələdir. R. qanun, qanun layihəsi, yeni konstitusiya, konstitusiyaya düzəliş, bu ölkənin beynəlxalq statusuna aid problem, daxili siyasi problem və digər vacib qərarların qəbul edilməsi və ya onlara dəyişikliklər edilməsi ilə əlaqədar keçirilən ümumxalq səsverməsidir. Özünəməxsus forması *plebissitdir*.

**REGİONAL SAZİŞLƏR.** İştirakçıları hər hansı coğrafi raoynun dövlətləri olan çoxtərəfli *beynəlxalq müqavilələrdir*. R.s.-in başlıca məqsədi bu coğrafi rayonda danışığa gələn tərəflərin bu və ya digər sahədə əməkdaşlığını təmin etməkdir.

*BMT Nizamnaməsinə* müvafiq olaraq R.s. *BMT*-nin məqsəd və prinsiplərinə uyğun olmalıdır. Regional səviyyədə sülhü və *beynəlxalq təhlükəsizliyi* təmin etmək məqsədilə yaradılmış R.s. iştirakçıları R.s. və ya onun əsasında formalaşmış orqanlar vasitəsilə yerli mübahisələri dinc yolla həll etməyə nail olmaq üçün bütün səylərini göstərməlidirlər. R.s. iştirakçıları mübahisələrin həll olunmasında *BMT Təhlükəsizlik Şurasına* müraciət edə bilərlər.

Zəruri hallarda TŞ R.s-dən və onun orqanlarından öz rəhbərliyi altında məcburi tədbirlərdə istifadə edə bilər.

TŞ-na R.s. və regional orqanların həyata keçirdiyi və ya nəzərədə tutduğu hərəkətlər barədə həmişə tam məlumat verilməlidir.

**REPARASİYA** (lat. *reparatio* – bərpa). *Beynəlxalq hüququn* subyektinin digər subyektə qarşı törətdiyi beynəlxalq hüquqpozma nəticəsində vurulmuş ziyana görə maddi məsuliyyət formasıdır (*Beynəlxalq Hüquqi Məsuliyyət*) R. ödənilməsi *restitusiya*, pul və ya digər maddi *kompensasiya* və ya eyni vaxtda restitusiya və zərərin ödənilməsi şəklində həyata keçirilə bilər.

R.-nı *kontribusiyadan* fərqləndirmək lazımdır. Kontribusiya 1919 ilə qədər təcrübədə mövcud olmuş *müharibədə* qalib gələnə verilən xəracdır. 1919 il *Versal sülh müqaviləsində kontribusiyaların* adı çəkilmir, yalnız *Birinci Dünya müharibəsinin* gedişində Almaniya və onun müttəfiqləri tərəfindən vurulmuş ziyanın ödənilməsi forması kimi R. haqqında danışılır.

Müasir beynəlxalq hüquqa uyğun olaraq dövlətin təcavüzkar müharibəyə görə, maddi məsuliyyətinin, yəni, hərbi R-nin prinsipcə mühüm əhəmiyyəti vardır. Məs; 1945 il *Yalta (Krım) konfransının* və *Berlin (Potsdam) konfransının* qərarlarında Almaniyanın R. ödəməsi, 1947 il sülh müqavilələrində *İkinci Dünya müharibəsində* keçmiş Almaniyanın müttəfiqi olmuş dövlətlərin R. ödəməsi nəzərdə tutulurdu.

**REPATRİASİYA** (lat. *repatriatio* - vətən). Müxtəlif səbəblərdən digər *dövlətin ərazisində* olan şəxsin vətəndaşı olduğu (*Vətəndaşlıq*), daimi yaşadığı və ya mənsub olduğu dövlətə qayıtması (məs: *Qaçqınlar*, yeri dəyişmiş şəxslər).

R. adətən, *beynəlxalq müqavilələr* əsasında həyata keçirilir. R. maraqlı dövlətdə və ya dövlətlərdə müvafiq qanunlar olduqda müqavilədənkənar əsasda da həyata keçirilə bilər. R. bəzən vətəndaşlığın dəyişdirilməsi (əldə edilməsi) ilə bağlı olur. *Hərbi əsirlərin* R.-nın məcburiliyi *müharibə* qurbanlarının müdafiəsi haqqında 1949 il Cenevrə konvensiyalarında nəzərdə tutulmuşdur.

**REPRESSALİ** (lat. *repressaliae* – saxlamaq, qarşısın almaq). Bir dövlətin digər dövlətin hərəkətləri nəticəsində onua vurulan maddi və mənəvi zərərə cavab olaraq həyata keçirdiyi qanunauyğun məcburi tədbirlərdir. R.-nin məqsədi təcavüzkar dövləti qanunsuz hərəkətlərini dayandırmağa, vurduğu zərəri ödəməyə və gələcəkdə bu kimi aktların qarşısını almağa məcbur etməkdir.Silahlı qüvvə tətbiq etməklə bağlı olan R. müasir *beynəlxalq hüquqla* qadağan olunub və təcavüz kimi nəzərdən keçirilir. Bununla yanaşı *BMT Nizamnaməsi BMT* üzvlərinin dövlətlərin onlara silahlı hücumu baş verdikdə və *BMT Təhlükəsizlik Şurası* beynəlxalq sülh və təhlükəsizliyi müdafiə üçün zəruri tədbirlər görmədikdə fərdi və ya kollektiv özününmüdafiə etmək hüququnu qəbul edir.

**RESTİTUSİYA** (lat. *restitio* – köhnə vəziyyətin bərpa olunması). *Beynəlxalq hüququn subyektlərinin* cavabdehlik formalarından biridir. Qanunsuz aktlar, məs., təcavüz nətisində baş verən maddi zərərin, onun baş verməsinədək mövcud olmuş vəziyyətin bərpa olunması ilə ödənilməsində nəzərdə tutulur. R. formalarından biri qeyri-hüquqi yolla bir dövlət tərəfindən digər *dövlətin ərazisindən* götürülmüş əmlakın natura formasında geri qaytarılmasıdır. Qeyri-qanuni ələ keçirilmiş əmlakın hər hansı formada ötürülməsi və ya ona münasibətdə hər hansı sövdələşmə qanuni qüvvəsini itirmiş hesab olunur. Nəzarət altında olan və üçüncü dövlətin ərazisində olan qeyri-qanuni ələ keçirilmiş əmlak R.-ya məruz qalır. R. ələ keçirilmiş bütün əmlaka aid edilir.

İdentik əşyaların R.-nı həyata keçirmək qeyri-mümkün olduqda razılaşmaya əsasən aparılmış əşyalara bənzər və ya ona bərabər qiymətdə əşyaların verilməsinə yol verilir.

R. faşist Almaniyası və onun müttəfiqlərinin *İkinci dünya müharibəsi* illərində işğal olunmuş ərazilərdə görünməmiş qarətləri ilə bağlı olaraq xüsusi əhəmiyyət kəsb etmişdi. 1947 il sülh müqaviləsinə (*Beynəlxalq müqavilə*) əsasən İtaliya ölkəyə gətirdiyi qarət olunmuş və qeyri-qanuni gətirilmiş qızılı müvafiq dövlətlərə həmin çəkidə, əyarda qaytarmağı öhdəsinə götürmüşdü.

R. tələbini ərazisindən əmlakı aparılmış dövlət irəli sürür. Əmlakın

tanınmasına və əmlak hüququna dair sübutların ağırlığı tələb irəli sürən hökumətin üzərinə düşür. Belə iddialar üçün sülh müqaviləsinin qüvvəyə minməsindən sonra altı ay müddət qoyulur.

**RETORSİYALAR** (lat. *retorsio* – cavab tədbiri). Bir dövlətin digər dövlətə qarşı həyata keçirdiyi, dövlətin iqtisadi maraqlarını pozan əsassız tədbirlərinə cavab olaraq gördüyü tədbirlərdir. R-ya öz ərazisinə *xaricilərin* buraxılmasına yol verməmək, gömrük vergilərini artırmaq və s. aid edilə bilər. R. *beynəlxalq hüquqa* zidd olmayan və beynəlxalq əməkdaşlığın inkişafı yolunda maneələri aradan qaldırmağa xidmət edən vasitə və qanunauyğun hərəkətdir.

R. öz xarakterinə görə digər dövlətin düşmən hərəkətləri ilə eyni olmaya da bilər, lakin ağırlıq dərəcəsinə görə bu hərəkətlərin vurduğu zərərə uyğun olmalıdır, yəni proporsionallıq prinsipinə əsaslanmalıdır.

R. *repressalidən* onunla fərqlənir ki, repressali beynəlxalq hüquq nöqteyi-nəzərdən qeyri-qanuni akta qeyri-qanuni aktla, (məs., müqavilənin şərtlərini onun digər dövlət tərəfindən pozulmasına cavab olaraq yerinə yetirilməməsi) istisna qaydasında tətbiq olunan cavabdır.

**REVANŞİZM** (fr. *revanchisme*). *Müharibədə* təcavüzə uğramış dövlətin yuxarı dairələrinin müharibəyəqədərki sərhədləri (*Dövlət sərhədləri*) və *beynəlxalq münasibətlər* sistemini bərpa etmək məqsədilə yeni müharibəyə hazırlıq siyasəti.

**RƏSULZADƏ MƏMMƏD ƏMİN AĞA OĞLU** (1884-1955). Rus müsəlman və Baki texniki məktəbində təhsil almış, 1904 ildə yaradılan «Hümmət» təşkilatının banilərindən olmuşdur. 1906-1907 illərdə «Hümmət», 1907 ildə «Yoldaş» qəzetlərində çalışmışdır. 1909 ildə İrana getmiş, 1910 ildə İran Demokrat Partiyasının yaradılmasında iştirak etmiş, onun orqanı olan «İranenou» qəzetinin redaktoru olmuşdur. 1911 ildə İstambula mühacirət (*Mühacir*) etmiş 1913 ildə Azərbaycana qayıtmışdı 1911 ildə «Müsavat» partiyasına qoşulmuş və onun rəhbəri olmuşdu. 1915 ildən «Açıq söz» qəzetini nəşr etdirməyə başlamışdı.

II.1917 ildə Rusiyada Fevral inqilabından sonra yaradılmış və 26.V.1918 ilədək fəaliyyət göstərmiş Zaqafqaziya seyminin üzvü olmuş. 27.V.1918 ildə yaradılmış Azərbaycan Milli Şurasının sədri seçilmişdi. 28.V. Milli Şura Azərbaycan Demokratik Respublikasının yarandığını elan etdi və 28.IV.1920 ildə süqutuna qədər onun rəhbərlərindən biri olmuşdu. 1920-1922 illərdə RSFSR millətlər komissarlığında mətbuat müvəkkili işləmiş, 1922 ildə Skandinaviya ölkələrinə ezamiyyətə getmiş və geri qayıtmamışdı, oradan İstambula gedərək mühacir həyatı yaşamış və elmi və siyasi fəaliyyətlə məşğul olmuşdu.

**RİÇARD DEYLE KOZLARİÇ** (1944). 1966-1967 illərdə İndiana Universitetini, 1975-1976 illərdə Miçiqan Universitetini bitirmişdir. Müxtəlif diplomatik vəzifələrdə çalışmışdır. 1980-1983 illərdə ABŞ-ın İsraildəki *səfirliyində* iqtisadi məsələlər üzrə müşavir vəzifəsində çalışmışdır. 1984-1986 illərdə Dövlət Departamentində *Beynəlxalq təşkilatlar* bürosunda beynəlxalq iqtisadi və texniki agentlik məsələləri üzrə dövlət katibinin köməkçisinin müavini olmuşdur. 1986-1989 illərdə Dövlət Departamentində Siyasi planlaşdırma idarəsinin müdir müavini işləmişdir. 1989-1991 illərdə Dövlət Departamentinin Avropa Kanada Bürosunda Ərazi siyasi-iqtisadi idarəsinin müdiri olmuşdur. Fövqəladə və Səlahiyyətli *səfir* dərəcəsinə malikdir. 1994-1997 illərdə ABŞ-ın Azərbaycan Respublikasında Fövqəladə və səlahiyyətli səfiri işləmişdir.

**RİÇARD MAYLS** (1937). 1960 ildə Kaliforniya Universitetini, 1964 ildə İndiana Universitetini bitirmişdir. Müxtəlif diplomatik vəzifələrdə çalışmışdır. 1967-1969 illərdə ABŞ-ın Norveçdə vitse-konsulu olmuş, 1970-1973 illərdə ABŞ-ın Yuqoslaviyadakı *səfirliyində* işləmişdir. 1988-1991 illərdə ABŞ-ın Rusiyada (Sankt-Peterburq) Baş *konsulu* olmuşdur. 1992-1994 illərdə ABŞ-ın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli *səfiri* işləmişdir.

**RİZAYEV RAMİZ HƏSƏNQULU OĞLU** (1939). 1962 ildə Bakı Dövlət Universitetinin kimya fakültəsini bitirmişdir. 1962-1985 illərdə Azərbaycan Respublika Elmlər Akademiyasının Neft və Kimya prosesləri institutunda müxtəlif vəzifələrdə işləmişdir. 1985 ildə Elmlər Akademiyasının qeyri-üzvü və fiziki kimya institutunun direktoru təyin olunmuşdur. Kimya elmləri doktoru, Azərbaycan Respublika Elmlər Akademiyasının müxbir üzvüdür. 1987-1993 illərdə İnsan Hüquqları Üzrə *Beynəlxalq Təşkilatın* Azərbaycan bölməsinin başçısı işləmişdir. 1993-1994 illərdə Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Səlahiyyətli nümayəndəsi, 1994 ildə isə Fövqəladə və Səlahiyyətli *səfiri* vəzifəsinə təyin olunmuşdur. Fövqəladə və Səlahiyyətli səfir diplomatik rütbəsinə (*Diplomatik adlar və rütbələr*) malikdir.

**ROMA KLUBU.** *Beynəlxalq qeyri-dövlət təşilatıdır.* Heyətinə alimlər, işguzar dairələrin nümayəndələri, inkişaf etmiş kapitalist ölkələrinin ictimai-siyasi xadimləri daxildir. 1968 ildə Romada yaranıb.

R.k. müasir qlobal problemlərin araşdırılması və məruzə formasında yayılması ilə məşğuldur. Bu məruzələrin müəllifləri haqlı olaraq müasir sivilizasiyasının bəzi neqativ meyllərini tənqid edirdilər. Müəyyən şərhlərdə qeyd olunur ki, iqtisadi və enerci problemlərinin həllində siyasi *konfrantasiya* yox, məhs beynəlxalq əməkdaşlığın genişlənməsi və sürətlə silahlanmanın qarşısının alınması durur. R.k. insan cəmiyyətinin inkişafı ilə bağlı məsələlərə xüsusi diqqət yetirir.

**ROSS VİLSON** (1955). 1977 ildə Minesota Universitetini, 1979 ildə Kolumbiya Universitetini bitirmişdir. Müxtəlif diplomatik vəzifələrdə çalışmışdır. 1979-1982 illərdə Dövlət departamentinin xarici xidmət institutunun əməkdaşı, ABŞ-ın SSRI-dəki *səfirliyində* konsulluq (*Konsul idarəsi*) və iqtisadi məsələlər üzrə əməkdaşı, 1985-1987 illərdə Çexoslovakiyadakı səfirliyində ticarət və iqtisadi məsələlər üzrə əməkdaşı olmuşdur. 1995-1997 illər ABŞ-ın Azərbaycan səfirliyində Baş *konsul* vəzifəsində çalışmışdır. 1997 ildən *səfir* təyin olunanadək Yeni müstəqil dövlətlər üzrə xüsusi tapşırıqlar üzrə səfir köməkçisi işləmişdir. 2000 ildə ABŞ-ın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri təyin olunmuşdur.

**RUSİYADA VƏTƏNDAŞ MÜHARİBƏSİ VƏ XARİCİ MÜDAXİLƏ** (1917-1922). 07.XI.1917 ildə Petroqradda Müvəqqəti hökuməti devirən bolşeviklər Sovet hakimiyyətini elan etdilər. A.F. Kerenski və P.N.Krasnovun, A.M Kaledinin, A.İ. Dutovun əksinqilabi çıxışları Qırmızı qvardiyaçılar tərəfindən yatırıldı. Xarici müdaxilə (III-IV.1918 il amerikan-ingilis desantı Murmanska, yapon qoşunları isə Vladivostoka çıxarıldı) və V.1918 *Antantanın* təşkil etdiyi Çexoslovakiya korpusunun qiyamı daxili əksinqlabı fəallaşdırdı. Ölkə ərazisinin 3/4 hissəsi əksinqlabçıların və xarici müdaxiləçilərin əlinə keçdi. *Birinci dünya müharibəsinin* qələbə ilə başa vuran Antanta müdaxiləni genişləndirdi. İngilis-fransız hərbi gəmiləri Qara dənizə daxil oldu. Sibirdə Kolçakın, Cənubda Denikinin, Şimalda Yudeniçin əksinqlabi rejimləri yaradıldı.

Almaniyada noyabr inqlabından sonra sovet hökuməti Brest sülhünün (*Brest-Litovsk (Brest) sülh müqaviləsi*) qüvvədən düşdüyünü bildirdi. III-V.1919 ildə Qırmızı ordu Kolçak, Denikin və Yudeniçin birgə hücumunu dəf etdi. 1919-1920 illərdə Qırmızı ordunun əks hücumu ilə Ural, Sibir, Rusiyanın cənubu və şimalı azad edildi. Vrangelin və Polşa ordusunun hücumları dəf edildi. 1921-1922 illərdə Kronştatda, Tambovda bolşevik diktaturasına qarşı olan çıxışlar yatırıldı. Rusiyada qalib gələn bolşeviklər tərəfindən eyni zamanda Zaqafqaziyanın, Orta Asiyanın, Pribaltikanın, Ukraynanın, Belorusiyanın işğalı həyata keçirildi.

**RUZVELT FRANKLİN DELANO** (1882-1945). ABŞ-ın siyasi və dövlət xadimi. 1933-1945 illərdə ABŞ-ın *prezidenti* olmuşdu. Ölkə daxilində iqtisadi və siyasi depressiyanın nəticələrini aradan qaldırmağa nail olan 1933 ildə R.F.D.-in təşəbbüsü ilə ABŞ-la SSRİ arasında *diplomatik münasibətlər* yarandı. VIII.1941 ildə Böyük Britaniyanın baş naziri U.Çörçillə (*Çörçill Uinston Leonard Spenser*) birlikdə faşizmin məhvindən sonra dünyada ədalətin sülhün bərqərar olması proqramını irəli sürən *Atlantik Xartiyasını* imzaladı. 1941 ildə Amerikanın Sakit okeanda yerləşən donanmasının böyük bir hissəsini yaponlar tərəfindən məhv olunmasından sonra ABŞ *İkinci dünya müharibəsinə* qoşuldu. *Müharibədən* sonrakı dünyanın geosiyasi xəritəsini müəyyənləşdirən 1943 il Tehran və 1945 il Yalta konfranslarının (*Tehran Konfransı (1943); Yalta (Krım) Konfransı (1945); Beynəlxalq Konfranslar*) təşəbbüskarı və fəal iştirakçıları olmuşdu. *Birləşmiş Millətlər Təşkilatının* yaradılması üçün böyük fəaliyyət göstərmişdi.

**RUZVELT TEODOR** (1858-1919). ABŞ-ın dövlət xadimi. 1901-1909 illərdə *prezident* olmuşdu. 1904 ildə qərb yarımkürəsində yerləşən ölkələrin işlərinə ABŞ-ın qarışmaq hüququnu nəzərdə tutan «Ruzvelt doktrinası»nı irəli sürmüşdür. 1905 ildə Rus-Yapon *müharibəsinə* son qoyan Portsmut sülh müqaviləsinin (*Beynəlxalq müqavilə*) və 1906 ildə Mərakeşlə bağlı fransız-alman ziddiyyətlərini həll edən *Alxesiras müqaviləsinin* bağlanmasının təşəbbüskarı və fəal iştirakçısı olmuşdu Rus-Yapon müharibəsinin başa çatmasında əlahiddə xidmətinə görə 1910 ildə *Beynəlxalq Nobel mükafatına* layiq görülmüşdü.

**RÜSTƏMBƏYLI CƏFƏR BƏY** 19.III.1919 ildə Azərbaycan Demokratik Respublikasının Kuban hökumətin də (Yekaterinodar şəhərində) diplomatik nümayəndəsi təyin edilmişdir.

**RYABOV NİKOLAY TİMOFEYEVİÇ** (1946). 1979 ildə Rostov Universitetini bitirmişdir. 1989 ildə deputat seçilmişdir. 1990 ildə RSFSR Ali Soveti Respublika Şurasının sədri və daha sonra Ali Sovetin sədr müavini olmuşdur. 1996-2000 illərdə Rusiya Federasiyasının Çexiya Respublikasında Fövqəladə və Səlahiyyətli *səfiri* olmuşdur. 2000 ildə Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı Fövqəladə və səlahiyyətli səfiri təyin olunmuşdur.

## S

**SADIQOV HÜSEYNAĞA MUSA OĞLU** (1940). 1963 ildə Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun alman dili şöbəsini bitirmişdir. 1974-1980 illərdə SSRİ-nin Leypsid şəhərindəki Baş Konsulluğunda (*Konsul idarəsi*), 1982-1986 illərdə Rostok şəhərindəki Baş Konsulluğunda, 1985-1988 illərdə isə Berlindəki *səfirliyində* müxtəlif vəzifələrdə çalışmışdır. 1988-1992 illərdə Azərbaycan SSR Xarici İşlər Naziri vəzifəsində işləmişdir. 1992 ildə isə Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasında Fövqəladə və Səlahiyyətli *səfiri* təyin olunmuşdur.

Fövqəladə və Səlahiyyətli səfir diplomatik rütbəsinə (*Diplomatik adlar və rütbələr*) malikdir.

**SADIQOV ƏKBƏR AĞA**. 02.IV.1919 ildə Azərbaycan Demokratik Respublikasının Zakaspi hökumətində (Aşqabad şəhərində) diplomatik nümayəndəsi, III.1920 ildə isə Azərbaycanın İrandakı diplomatik nümayəndəsinin müavini təyin edilmişdir.

**SADIQOV VAQİF İSMAYIL OĞLU** (1956). 1978 ildə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunu bitirmişdir. 1981 ildən 1992 ilə qədər APXDİ-də müəllim işləmişdir. 1992-1993 illərdə Azərbaycan Respublika Xarici İşlər Nazirliyinin (*Xarici İşlər İdarəsi*) *Beynəlxalq təşkilatlar* idarəsinin I katibi, 1993-1995 illərdə isə hərbi-siyasi problemlər şöbəsinin müdiri işləmişdir. 1995-2004 illərdə Azərbaycan Respublikasının Avstriya Respublikasındakı Fövqəladə və Səlahiyyətli *səfiri* və eyni zamanda *ATƏT*-də Azərbaycan Respublikasının daimi nümayəndəsi təyin olunmuşdur. 1998 ildən isə əlavə olaraq, Nüvə sınaqlarının tamamilə qadağan olunması haqqında Müqavilə Təşkilatı yanında Azərbaycan Respublikasının daimi nümayəndəsi, 2001-2004 illərdə Atom Enerjisi üzrə Beynəlxalq Agentlik yanında Azərbaycan Respublikasının diami nümayəndəsi işləmişdir. Fövqəladə və Səlahiyyətli səfiri diplomatik rütbəsinə (*Diplomatik adlar və rütbələr*) malikdir. 2004 ildən Azərbaycan Respublikasının Xarici İşlər Nazirinin müavinidir.

**SALYUT** (VƏ YA SALAMLAMA). Beynəlxalq təcrübədə (lat. *salus* – salamlama deməkdir) təntənəli salamlaşma və ya ehtiram göstərmə formasıdır (məs.: artilleriya və tüfəngdən yaylım atəşi ilə, bayraqlarla və s.).

S.-un tətbiq edilməsi bir sıra *beynəlxalq müqavilə* normalarında

(məs; *Aahen konqresində* qəbul edilmiş 21.XI.1818 il protokolda), beynəlxalq adətlərdə, həmçinin bəzi dövlətlərin milli qaydalarında (məs; Böyük Britaniyada) nəzərdə tutulmuşdu.

«Millətlərin salyutu» (21 artilleriya yaylım atəşi) *dövlət başçısının* rəsmi görüşləri, xarici gəminin rəsmi olaraq limana və ya hərbi-bəniz bazasına baş çəkməsi zamanı, həmçinin bir sıra digər hallarda tətbiq edilir. Hazırda «Millətlərin salyutu» çox nadir hallarda tətbiq edilir.

**SAMMİT** (in. *sammit* – yüksək, yuxarı). Dövlət başçıları, hökumət başçıları (*Dövlət başçısı; Hökumət başçısı*), xarici işlər nazirlər səviyyəsində keçirilən *diplomatik görüşlər* və konfranslar (*Beynəlxalq konfranslar*).

**SAN - FRANSİSKO KONFRANSI** (1945). 25.IV-26.VI. keçirilmişdi. Konfransın (*Beynəlxalq konfranslar*) işində iştirak etmiş 50 dövlət tərəfindən, beynəlxalq sülhün və əməkdaşlığın möhkəmləndirilməsi məqsədilə yaradılan *Birləşmiş Millətlər Təşkilatının BMT Nizamnaməsi* imzalandı. Nizamnamənin əsasını xalqların suveren (*Suverenlik*) bərabərliyi və öz müqəddəratını təyin etmək, zor tətbiqi ilə hədələməkdən imtina etmək, dövlətlərin daxili işlərinə qarışmamaq (*Qarışmamaq prinsipi*), sülhü və *beynəlxalq təhlükəsizliyi* qoruyub saxlamaq, beynəlxalq əməkdaşlığı inkişaf etdirmək kimi prinsiplər təşkil edir. S.F.K.-da *Beynəlxalq Məhkəmə* yaradıldı.

**SAN-STEFANO SÜLH MÜQAVİLƏSİ** (1878). 3.III. imzalanmış və 1877-1878 illərdə Rus-türk *müharibəsinə* son qoymuşdu. S.S.m.-nin şərtlərinə görə Bolqarıstan, Bosniya və Herseqovinaya muxtariyyat, Çernoqoriya, Rumıniya və Serbiyaya müstəqillik verildi. Cənubi Bessarabiya və Batum, Bəyazid, Ərdəhan, Qars qalaları Rusiyaya keçdi. S.s.m.-nin şərtlərinə 1878 il *Berlin konqresində* yenidən baxıldı.

**SARA XATUN.** Ağqoyunlu dövlətinin siyasi həyatında mühüm rol oynamış. *Uzun Həsənin* anası, Azərbaycanın ilk *diplomat* qadını olmuşdu. Ağqoyunlu dövlətinin möhkəmləndirilməsində yaxından iştirak etmiş, ağqoyunluların *xarici siyasətinin* müəyyənləşməsində əsas rol oynamış, Uzun Həsənin ən məsul diplomatik tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirmişdi. S.x.-nun Osmanlı sultanı II Mehmətlə 1461 ildə bağladığı Yassıçəmən müqaviləsi (*Beynəlxalq müqavilə*) Ağqoyunluların dövlət müstəqilliyinin saxlanmasında mühüm rol oynamışdı. Sultan II Mehmet Trabzon imperatorluğuna son qoyduqda S.x. gəlini, Trabzon hökmdarının qızı Despina xatunun (Teodora) varəsəliyini irəli sürüb Trabzon xəzinəsini bölüşdürməyə müvəffəq olmuşdu. 1468 ildə Teymuri Əbu Səidlə danışıqlar aparan Ağqoyunlu *elçilərinə* də S.x. başçılıq etmişdi. Azərbaycana göndərilən Avropa (xüsusilə Venetsiya) elçilərinə verilən məxfi təlimatlarda mütləq S.x.-la görüşmək və onun saraydakı nüfuzundan istifadə etmək tapşırılırdı.

**SENTO** (Central Treaty Organization) (24.II.1955). ABŞ və Böyük Britaniyanın təşəbbüsü ilə yaradılmış hərbi-siyasi blok. Böyük-Britaniya, İraq, İran, Pakistan və Türkiyənin daxil idi və Yaxın və Orta Şərqdə fəaliyyət göstərirdi. ABŞ blokun işində müşahidəçi (*Müşahidəçilər*) sifətində iştirak edirdi. VIII.1959 ildə qədər Bağdad paktı adlanmışdı. 1959 ildə İraq, 1979 ildə İran





və Pakistan blokdan çıxdı. VIII.1979 ildə Türkiyənin təşəbbüsü ilə blok öz fəaliyyətini dayandırdı.

**SEPARAT SÜLH** (lat. *separatus* - ayrıca). *Koalisiyanın* və ittifaqın bir və bir neçə iştirakçısı arasında digər üzvlərdən gizlin və ya onların iştirakı olmadan və ya onların razılığının əksinə müharibə vəziyyətində olduqları düşmən dövlətlə sülh müqaviləsi və ya barışıqdır.

Koalisiyanın iştirakçısı olan dövlətlər ümumi düşmənlə silahlı mübarizə apararaq, bir qayda olaraq S.s. bağlamamaq barədə qarşılıqlı öhdəlik götürürlər. Məs; 1939-1945 illərdə koalisiyanın iştirakçısı olan 26 dövlətin *antihitler* nümayəndəsi. 01.I.1942 ildə Vaşinqtonda *BMT* Deklarasiyasını imzaladılar. Bu deklarasiyaya uyğun olaraq, onlar öz üzərlərinə «düşmənlə S.s. barışıq bağlamamaq» öhdəliyi götürdülər. SSRİ və Böyük Britaniya arasında 26.V.1942 il tarixli Müqavilədə də S.s. bağlamaqdan imtina nəzərdə tutulurdu.

İsrailə qarşı mübarizə aparan digər ərəb ölkələrinin etirazına baxmayaraq, bağlanmış 1979 il Misir-İsrail «sülh müqaviləsi» (*Kemp-Devid*) separat müqavilədir.

**SEVR SÜLH MÜQALƏSİ** (1920). 10.VIII. «*Antanta*» və ona qoşulmuş ölkələrlə sultan Türkiyəsi arasında imzalanmışdı və Türkiyə ərazisinin bölüşdürülməsini nəzərdə tuturdu. Müqavilənin (*Beynəlxalq müqavilə*) şərtlərinə görə, Ədirnə daxil olmaqla, Şərqi Frakiya, Dardanel boğazının Avropa sahili, Qallipol yarımadası və İzmir Yunanıstana verildi. İstanbul Türkiyənin tərkibində saxlanıldı, lakin Türkiyə müqaviləni yerinə yetirməkdən yayındığı təqdirdə bu məsələyə yenidən baxılması nəzərdə tutulurdu. Bosfor və Dardanel boğazları neytral zona elan olundu, onlar üzərində nəzarət beynəlxalq «boğazlar üzrə komissiya»ya keçdi. Suriya, Livan, Fələstin və Mesopotomiya Mandat idarəçiliyinə verildi. Türkiyə Ərəbistan yarımadasındakı ərazilərindən məhrum edildi və Hicaz krallığını tanımağı öhdəsinə götürdü. Türkiyənin Ermənistanla olan sərhədi (*Dövlət sərhədləri*) ABŞ *prezidentinin* qərarı ilə müəyyənləşməli idi. Türkiyənin şərqində Gürcüstan muxtar vilayəti yaratmaq nəzərdə tutulurdu. Misir üzərində Böyük Britaniyanın protektoratı (*Qəyyumluq*). Mərakeş və Tunis üzərində Fransa protektoratı yaradıldı. Türkiyə, Liviya və Sudana olan hüquqlarını itirdi. Dodekaness adalarına olan hüquqlarını isə İtaliyaya verdi. Böyük Britaniya, Fransa və İtaliya nümayəndələrindən ibarət Komissiya Türkiyənin maliyyəsi və büdcəsi üzərində nəzarəti həyata keçirməli idi. Türkiyə nümayəndəsi bu komissiyada məşvərətçi səsə malik idi. Türkiyənin Almaniya, Avstriya, Bolqarıstan, Macarıstan, Rusiya və ərazisi əvvəllər Rusiyaya daxil olmuş istənilən dövlət və hökumətlə bağladığı müqavilələr ləğv edildi. Türkiyənin silahlı qüvvələri 50 min əsgər və zabitdən çox ola bilməzdi. Ədalətsiz olan S.s.m.-si Türkiyə hökuməti tərəfindən rədd edildi və milli-azadlıq hərəkatının genişlənməsinə səbəb oldu.

**SEYİDOV SƏMƏD İSMAYIL OĞLU** (1964). 1986 ildə Leninqrad Dövlət Universitetin (indiki Sankt-Peterburq Dövlət Universitetinin) psixologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

1986 ildə SSRİ-nin 50 illiyi adına APXDİ-nin (indiki ADU-nun) psixologiya kafedrasında laborant kimi əmək

fəaliyyətinə başlamış, 1986-1989 illərdə Sankt-Peterburq Dövlət Universitetinin əyani aspiranturasında təhsilini davam etdirmişdir.

1989 ildə Sankt-Peterburq Dövlət Universitetinin psixologiya fakültəsinin Elmi Şurasında «Şəxsiyyətin istiqaməti qrupda yaradıcı fəallığın ilkin şərti kimi» mövzusunda dissertasiya müdafiə edərək psixologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

1989-92 illərdə indiki ADU-nun psixologiya kafedrasında müəllim, baş müəllim, 1994-2000 illərdə tədris işləri üzrə prorektor (birinci prorektor) vəzifələrində çalışmış, 1994 ildə dosent elmi adına layiq görülmüşdür.

1995 ildə Bakı Dövlət Universitetində «Yaradıcılığın sosial psixologiyası» mövzusunda dissertasiya müdafiə edərək psixologiya elmləri doktoru alimlik dərəcəsinə və 1999 ildə professor elmi adına layiq görülüb. 2000 ildən Azərbaycan Dillər Universitetinin rektoru vəzifəsində çalışır.

1998-2000 illərdə Azərbaycanın təhsil sistemini *Avropa Şurasında* təmsil edib. O, dəfələrlə ABŞ, İtaliya, Böyük Britaniya, Rusiya, Fransa, Belçika, Türkiyə, İsrail və digər ölkələrdə keçirilmiş beynəlxalq elmi konfrans, simpozium və seminarlarda məruzələrlə çıxış etmişdir.

2000 ildən rektor kimi Universitet Elmi Şurasının, 2003 ildən ADU-da fəaliyyət göstərən Dissertasiya Şurasının sədridir.

30-dan çox elmi əsərin, o cümlədən dərslik, dərs vəsaiti və monoqrafiyaların müəllifidir. Onun rəhbərliyi altında bir çox istedadlı gənc dissertasiya müdafiə edərək psixologiya elmlər namizədi alimlik dərəcəsi alıb. İctimai fəaliyyətlə yanaşı siyasi fəaliyyətlə də məşğuldur. 2002 ildə Bakı şəhərinin Xətai rayonundan Milli Məclisə deputat seçilmişdir. Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasına başçılıq edir. O, 2001 ildən 2004 ilədək Azərbaycan parlamentinin Avropa Şurası Parlament Aassambleyasındakı nümayəndə heyətinin sədr müavini, 2004 ildən nümayəndə heyətinin sədridir. Elə həmin ildə AŞPA-nın Büro üzvü və AŞPA prezidentinin müavini vəzifəsinə seçilib, həm də AŞPA-nın nəzdində fəaliyyət göstərən «Demokratik qrup»un sədr müavinidir.

**SEZƏR ƏHMƏD NECDƏT** (1941). 1962 ildə Ankara Universitetinin hüquq fakültəsini bitirmişdir. 1978 ildə hüquq elmi sahəsində təhsilini daha da təkmilləşdirdikdən sonra Ankarada, 1983-1988 illərdə Yargitayda müstəntiq vəzifəsində işləmişdir. 1988 ildə Anayasa Məhkəməsinin üzvü, 1998 ildə isə onun sədri, 16.V.2000 ildə Türkiyənin *prezidenti* seçilmişdir.

Qanun aliliyinin təmin olunması, *demokratiyanın* inkişafı, ölkənin bütövlüyünün qorunması, sülhsevər *xarici siyasət*, Türkiyənin Avropa Birliyinə (*Avropa Birlikləri*) daxil olmasına nail olmaq onun həyata keçirdiyi siyasətin əsasını təşkil edir.

**SƏFİR.** *Beynəlxalq hüquqda* 1815 il *Vyana reqlamenti* və 1961 il *diplomatik əlaqələrə dair Vyana Konvensiyası* ilə təsnifatlandırılmış birinci sinif diplomatik nümayəndədir. Vyana reqlamenti digər sinif diplomatik nümayəndələrdən fərqli olaraq S.-in təmsilçi xarakterini qəbul etmişdi. Hesab edilirdi ki, ancaq *dövlət başçısını* şəxsən təmsil edən S. bilavasitə onu təyin edən monarxın, dövlət başçısının adından çıxış edə və gəldiyi ölkənin monarxından, dövlət başçısından xüsusi qəbul – audensiya tələb edə bilərdi. S. təyin etmək hüququ isə ancaq *Müqəddəs İttifaqın* üzvlərinə (Böyük Britaniya, Avstriya, Prussiya, Fransa, Rusiya) aid idi.

Müasir beynəlxalq hüquq S. və digər *diplomatik nümayəndəlik* başçıları arasında hüquqi fərqləri qəbul etmir. Bu *diplomatik münasibətlər* sahəsində böyük və kiçik dövlətlərin suveren (*Dövlətin suverenliyi*) bərabərliyinin ifadəsidir.

S. (dolğun adı – fövqəladə və səlahiyyətli S.) xarici əlaqə orqanlarının işçilərinə verilən yüksək diplomatik dərəcədir (*Diplomatik dərəcələr və rütbələr*).

**SƏFİRLİK.** *Səfirin*, yaxud birinci dərəcəli digər diplomatik nümayəndənin başçılıq etdiyi diplomatik orqan. *Beynəlxalq münasibətlər* təcrübəsində bir ölkədən digərinə hər hansı mərasimdə (məs; milli bayram təntənəsində, dövlət başçısının dəfnində, yeni seçilmiş ölkə rəhbərinin andiçmə-inauqurasiya mərasimində və s.) iştirak etmək üçün göndərilən fövqəladə səfir də olur.

Müasir beynəlxalq praktikada çox zaman xüsusi hökumət nümayəndə heyəti Fövqəladə səfirlik adlandırılır. *Beynəlxalq təşkilatlar* (*BMT*, *Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi*, *Avropa Şurası* və s.) nəzdində də S.-lər yaradılır və ona başçılıq edən diplomat səfir adlanır.

**SƏFİR DƏFTƏRXANASI.** S.d.-na «Texniki xidmət» də deyilir. Adətən *səfirlikdəki* aşağıdakı xidmət bölmələri anlaşılır: dəftərxana (kanselyariya) şöbəsinin katibi, makina bürosu, arxiv, kartoteka. Ümumiyyətlə, səfirliyin Protokol xidmətinin fəaliyyəti bu şöbənin işindən çox asılıdır. Arxiv materialları əsasında vaxtında hazırlanmış arayış və ya zəruri sənəd, savadlı və keyfiyyətli çap olunmuş material - bunların hamısı *səfirin* və səfirliyin fəaliyyətinin müvəffəqiyyətini təmin edir. Protokol şöbəsinin operativ və qüsursuz işləməsinə səbəb olur. Səfirliyin səmərəli işində bütünlükdə S.d.-nın və ayrı-ayrılıqda onun yuxarıda sadalanan sahələrinin fəaliyyətinin əhəmiyyəti mühümdür.

**SƏFİR MƏRASİMİ.** Ölkəyə xarici *səfirin* gəlməsi diqqətəlayiq hadisədir. Keçmişdə bu, mürəkkəb mərasim şəraitində keçirilirdi. Bu mərasim üçün müxtəlif ölkələrin xüsusiyyətləri nəzərə alınırdı. Təmsil etdiyi *dövlət başçısının* beynəlxalq işlərdəki rolu onun səfirinin qarşılanmasına xüsusi yanaşma tələb edirdi.

Müasir *diplomatik protokolla* ölkəyə gələn səfirin qarşılanması mərasimi xeyli sadələşdirilmişdir. Hava, dəmir yolu, dəniz vağzalında səfiri Xarici İşlər Nazirliyinin (*Xarici İşlər İdarəsi*) protokol şöbəsinin müdiri, müvəqqəti işlər müvəkkili başda olmaqla *səfirlik* əməkdaşları, bəzən də dost ölkələrin burada akkreditə olunmuş (*Akkreditə etmək*) səfirləri qarşılayırlar. Təyyarənin pillələri yanında *işlər müvəkkili* səfiri protokol şöbəsinin müdirinə təqdim edir. O, isə səfiri alqışlayır, qarşılayanları ona təqdim edərək hava limanında hörmətli qonaqlar üçün ayrılmış VIP (**«very important persons»** - ing. «çox vacib personlar») salonuna müşayiət edir.

Səfir avtomobillə gəlirsə, rəsmi görüş mərasimi təşkil edilmir. Səfirlik səfirin gəlişi haqqında faktı yerləşdiyi ölkənin XİN-in protokol şöbəsində təsdiq edir və səfirin birinci viziti haqqında razılığa gəlir.

Səfirin missiyasının başa çatması da bir sıra protokol mərasimləri tələb edir. Səfir ölkədən gedəcəyi vaxtı təyin edir (yeni təyin olunan səfir aqreman olandan sonra), bu barədə ölkənin XİN-nə və *diplomatik korpusun duayeninə* məlumat verir. Bəzi ölkələrdə ölkədən gedən səfirin *dövlət başçısı, hökumət başçısı*, xarici işlər naziri və digər rəsmi nümayəndələrlə vidalaşma qaydası mövcuddur. Bəzən bu vidalaşma siyahısını səfir özü müəyyənləşdirir, xarici işlər nazirliyindən ona köməklik göstərilməsini xahiş edir. Ölkədən tamam gedən səfirin şərəfinə xarici işlər naziri və ya onun tapşırığı ilə nazir müavini səhər yeməyi verir. Xarici işlər naziri adından səfirə yadigar hədiyyə təqdim edilir.

Nazirin səfiri qəbul etməsi və onun şərəfinə səhər yeməyi təşkil olunması haqqında kütləvi informasiya vasitələrində müvafiq məlumat verilir.

Səfir ölkədən getməmişdən əvvəl, bir qayda olaraq, vida qəbulu təşkil edir və buraya yerləşdiyi ölkənin rəsmi nümayəndələrini, *diplomatik korpusun* üzvlərini dəvət edir. Yola düşdüyü gün xarici işlər nazirliyinin ünvanına şəxsi nota (*Diplomatik nota*) göndərir; bu notada yola düşməyi və işlər müvəkkilinin təyin edilməsi haqqında məlumat verir.

Öz ölkəsinə qayıdan səfiri hava limanında (dəmiryolu, dəniz vağzalında) xarici işlər nazirliyi protokol şöbəsinin müdiri, səfirliyin əməkdaşları, dost ölkələrin burada akkreditə olunmuş diplomatik nümayəndələri, səfirin ölkədə işlədiyi müddətdə yaxın münasibətlərdə olduğu bəzi ictimai-siyasi xadimlər yola salırlar.

Səfir ölkədən avtomobillə gedirsə, xarici işlər nazirliyi protokol şöbəsinin müdiri onun iqamətgahına gedib vidalaşa bilər. Lakin bu qayda heç də məcburi deyildir. Səfirin ölkədən tamamilə çıxıb getməsi haqqında qəzetlərdə qısa məlumat dərc edilir. Müxtəlif ölkələrin öz ənənələrindən asılı olaraq, yuxarıdakı qəbul olunmuş tədbirlərdən başqa, S.m.-də digər protokol tədbirləri də keçirilə bilər.

**SƏİD İSMƏT ÇAUNRİ** (1944). Böyük Britaniyada təhsil almışdır. Birləşmiş Krallıqdakı Pakistan Ali Komissiyasında müdafiə və ordu *attaşesi* işləmişdir. Pakistanın ən nüfuzlu ali təhsil müəssisəsi olan «Milli Müdafiə» kollecində təhsil almışdır. Ölkənin ən yüksək mükafatı olan Sitara-Curdat medalı ilə təltif olunmaqla Milli Qəhrəman adına layiq görülmüşdür. 1992-1994 illərdə Pakistan İslam Respublikasının Azərbaycan Respublikasında *səfiri* işləmişdir.

**SƏLAHİYYƏTLƏR** (beynəlxalq hüquqda). İçərisində qeyd edilmiş şəxsin və ya şəxslərin danışıqlar aparmaq, *beynəlxalq müqaviləyə* imza atmaq, *beynəlxalq konfransda* iştirak etmək, dövləti *beynəlxalq hökumətlərarası təşkilatda* təmsil etmək və s. hüququna şahidlik edən sənəd. S.-in mətnində həmin şəxsə bu S.-i verən şəxs, səlahiyyətləndirilən şəxsin adı, soyadı, atasının adı, rütbəsi və ya vəzifəsi, müqavilənin adı və ya danışıqların predmeti və məqsədi, *beynəlxalq təşkilatın* adı və s. göstərilir. İkitərəfli müqavilələri imzalayan zaman tərəflər adətən öz S.-ini təqdim edirlər. Çoxtərəfli müqavilələr imzalanan zaman S. depozitariyaya (*Depozitar*) verilir. Beynəlxalq çoxtərəfli konfranslarda S.-i yoxlamaq üzrə xüsusi komitə yaradılır, dövlətlərin beynəlxalq təşkilatlardakı nümayəndələri S.-i təşkilatın baş inzibati şəxsinə təqdim edir (*BMT-nin Baş Katibinə, YUNESKO*-nun Baş Direktoruna və s.).

Ümumi qəbul edilmiş təcrübəyə əsasən *dövlət başçısı* və *hökumət başçısı*, xarici işlər orqanlarının rəhbərləri, eləcə də - öz səlahiyyətləri daxilində - diplomatik təmsilçilərin rəhbərlərinin xüsusi səlahiyyətlər təqdim etmədən danışıqlar aparmaq və beynəlxalq müqavilələr imzalamaq hüququ vardır.

Azərbaycan Respublikasında S.-in verilməsi Azərbaycan Respublikasının 1995 il tarixli «Beynəlxalq müqavilələrin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında» Qanunu və həmçinin Azərbaycan Respublikasının *Prezidentinin* 1996 ildə verdiyi «Azərbaycan Respublikasının təsisatlararası beynəlxalq müqavilələri bağlaması, icrası və ləğv edilməsi qaydalarının təsdiq edilməsi haqqında» Fərmanı ilə tənzimlənir. Beynəlxalq danışıqların aparılması və Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin imzalanması üzrə S. Azərbaycan Respublikasının Prezidenti tərəfindən verilir.

**SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏ.** *Səfirliklər* və ya *diplomatik missiyalar* digər dövlətin razılığı ilə, həmin *dövlətin başçısı* yanında daimi nümayəndəlik kimi təsis edilir. Bunlara öz dövlətinin fövqəladə hüququna malik olan S.n. başçılıq edir. Başqa sözlə, öz ölkəsinin yüksək diplomatik maraqlarını təmsil edən ali rütbəli diplomat S.n.-dir. Səfirlik və ya missiyaya rəhbərlik edən S.n. yerləşdiyi ölkədə iki dövlət arasındakı bütün məsələlərdə (siyasi, iqtisadi, mədəni, hərbi və s.) həlledici hüquqa malik S.n.-dir. S.n., nümayəndəliyi göndərən hökumətlə yerləşdiyi ölkə hökuməti arasında əsas vasitəçidir. S.n.-in öz ölkə dövlət başçısı və ya hökuməti adından danışmaq, qərar qəbul etmək hüququ vardır.

**SƏRHƏD ÇAYLARI.** *Dövlət sərhədinin* keçdiyi çaylardır. S.ç.-na Oder, Elba, Prut, Amu Dərya və s. çaylar aiddir. Müasir *beynəlxalq hüquq* normalarına uyğun olaraq S.ç. sahil *dövlətlərin ərazisinin* bir hissəsidir; sahil *dövlətin suverenliyi* S.ç.-nın həmin dövlətə məxsus olan sahili və dövlət sərhədi xətti arasında olan hissəsinə aid edilir.

*Beynəlxalq müqavilə* ilə başqa hal nəzərdə tutulmamışdırsa, gəmiçilik üçün yararlı olan S.ç.-da sərhədlər bir qayda olaraq, çayın baş farvaterinin ortası üzrə və ya talveq üzrə (çay dibinin ən dərin nöqtələrini birləşdirən xətt üzrə) müəyyənləşdirilir. Müqavilə qaydasında gəmiçiliyin sərhəd xətti keçməsindən asılı olmayaraq farvater üzrə həyata keçirilməsi nəzərdə tutulur. gəmiçilik üçün yararlı olmayan S.ç.-da (kiçik çaylarda) sərhəd xətti, adətən, onların ortası üzrə və ya çayın əsas qolunun ortası üzrə müəyyən edilir. S.ç. üzrə sərhədlərin müəyyən edilməsi ilə eyni vaxtda adaların aidiyyəti müəyyən edilir. Tərəflər arasında başqa hal nəzərdə tutulmadıqda, sərhəd talveq üzrə müəyyən edildikdə adaların mənsubiyyəti də talveq xətti üzrə müəyyən edilir. Sərhəd xətti çayın mənsəbinin ortasından keçdikdə adalar maraqlı dövlətlər arasında razılığa əsasən, bu və ya digər sahilə meylli olmasına görə bölünür.

S.ç.-da sərhəd xəttləri təsadüflər (məs; sərhəd çayın ortasından keçərsə onun yeri dəyişdikdə) nəticəsində əvvəlcə müəyyən edilmiş xətlərdən kənar çıxdıqda dövlətlər aşağıdakı prinsipi rəhbər tuturlar: sərhəd xətti çayın mənsəbinin ortasının təbii dəyişməsinə uyğun olaraq dəyişir. Başqa razılıq ol-

madıqda bu zaman adaların mənsubiyyəti dəyişmir.

S.ç.-nın mənsəbinin özü dəyişdikdə sərhəd xətti keçmiş mənsəbin olduğu yerdən keçir. Maraqlı dövlətlərdən hər biri çayın köhnə mənsəbinə qayıtması üçün tədbirlər görə bilər. Bu mümkün olmadıqda dövlət ya qurumuş sərhəd sahəsini *demarkasiya* edir, ya da şərtləşirlər ki, sərhəd yeni mənsəbdən keçəcəkdir. Tərəflərin qarşılıqlı sazişinə görə S.ç.-da sərhəd xətlərinin yeni vəziyyətini qeydə alırlar.

S.ç. yalnız sərhəd dövlətləri tərəfindən və başqa razılıq yoxdursa, yalnız sərhəd xəttinə qədər təsərrüfat məqsədilə istifadə edilir. Ancaq gəmiçilik üçün yararlı olan S.ç. da başqa qaydalar müəyyən edilməmişdirsə, hər iki dövlətin gəmiləri gəmiçilik sahəsi daxilində sərhəd xəttinin necə keçməsindən asılı olmayaraq çayın baş farvaterindən bərabər əsaslarla istifadə edirlər.

Qəza və ya təbii fəlakət (duman, buz və s.) istisna olmaqla, farvater və xarici dövlətin sahili arasındakı sulara yalnız həmin dövlətin razılığı ilə girmək olar. Qonşu dövlətlər, adətən, öz aralarındakı S.ç.-dan istifadə haqqında xüsusi sazişlər bağlayırlar. Bu sazişlərdə gəmiçilik qaydaları, balıqçılıq şərtləri, ağac axıdılması, hidreonerjidən istifadə qaydaları və s. nəzərdə tutulur.

S.ç.-dakı körpülərdə, bəndlərdə və digər tikililərdə sərhəd bir qayda olaraq, suda sərhədin keçməsindən asılı olmayaraq bu tikililərin ortası üzrə və ya texnoloji özül üzrə keçir. Bəzən körpülər tamamilə bir dövlətə aid olur.

**SƏRHƏDLƏRİN DELİMİTASİYASI.** Qonşu dövlətlərin razılığı əsasında *dövlət sərhədlərinin* vəziyyətinin və istiqamətinin müəyyən edilməsi.

**SƏRHƏDLƏRİN DEMARKASİYASI.** Sərhəd (*Dövlət sərhədləri*) işarələrinin quraşdırılması yolu ilə dövlət sərhədi xəttinin müəyyənləşdirilməsi. Razılığa gələn tərəflərin nümayəndələrinin daxil olduğu qarışıq komissiyalar tərəfindən, *sərhədlərin delimitasiyası* haqqındakı sənədlərə əsasən həyata keçirilir.

**SƏRHƏD MÜQAVİLƏLƏRİ.** Həmsərhəd dövlətlər tərəfindən *dövlət sərhədini* müəyyən etmək üçün, sərhəd münaqişələrini həll etmək üçün və sərhədyanı zonalarda təsərrüfat məsələlərini həll etmək üçün bağlanan müqavilələr (*Beynəlxalq müqavilə*). Bu müqavilələrin tərkibinə sərhədləri müəyyən edən xəritələr də daxil edilir.

**SƏRHƏD NƏZARƏTİ.** *Dövlət sərhəddi* və sərhədyanı zonaların təmin edilməsinə yönələn tədbirlər kompleksi. Bu tədbirlərə dövlət sərhəddini müəyyən etmək, sərhəddi fiziki şəxslər və nəqliyyat vasitələri tərəfindən keçilməsini müəyyən etmək, ərazi və *daxili sular* rejimini müəyyən etmək və s. daxildir. S.n. sərhədçilər və digər səlahiyyətli orqanlar tərəfindən hər bir dövlətin qanunverici aktlarına və *beynəlxalq müqavilələrə* əsasən həyata keçirilir.

**SIĞINACAQ HÜQUQU.** Dövlətin ona müvafiq xahişlə müraciət edən şəxsə siyasi sığınacaq vermək hüququ (müasir *beynəlxalq hüququn* ümumən qəbul olunmuş normalarından irəli gələn məhdudiyyətlər çərçivəsində). Dövlət siyasi *mühacirə* sığınacaq verərkən ona öz ərazisində normal şərtlər əsasında təhlükəsizlik şəkildə yaşamasını təmin edəcək hüquqlar verməlidir (siyasi mühacirin geri verilməməsi; onun təqib edildiyi və ya tərk etdiyi ölkəyə sürgün edilməməsi; siyasi mühacirə





(*Xaricilər*) həmin ölkədə digər xarici vətəndaşların istifadə etdikləri hüquq və azadlıqlarla təmin edilməsi).

**SİONİZM.** Xovevey Sion hərəkatının ideyalarını təbliğ edən Natan Birnbraun ilk dəfə 1885 ildə «sionizm» terminini işlətmişdir. Sonradan hərəkata və onun ideologiyasına verilən S. adı öz mənşəyini «Sion» sözündən götürmüşdür. «Sion» Tanaxda (Bibliyada) Yerusəlimə (Qüdsə), Yəhudi çarlığına, bütövlükdə Erets-İsrailə, həmçinin İsrail xalqına verilən addır. S Siona qayıtma, yəni yəhudi xalqının və dilinin onun tarixi vətənində inkişaf etdirilməsi uğrunda hərəkatdır. Siyasi S-in atası hesab edilən Teodor Qertsl 1896 ildə yazdığı «Yəhudi dövləti» kitabında təsdiq edirdi ki, antisemitizm problemini ancaq yəhudi dövləti yaratmaq yolu ilə həll etmək olar. 1897 ildə birinci sionist konqresi (*Beynəlxalq konqres*) çağırıldı və T. Qertsl başda olmaqla sionist təşkilatı yaradıldı.

**SOYQIRIM.** Milli, etnik, irqi və ya yaxud dini qrumların üzvlərinin qətlə yetirilməsi, onların sağlamlığına ciddi ziyan vurulması, uşaqların anadan olmasının qarşısının zorakılıqla alınması, bu qurumların üzvlərinin qismən məhv olunması üçün onların zorakılıqla başqa yerlərə köçürülməsi və yaxud bu məqsədlə digər yaşayış şəraitinin yaradılması yolu ilə bütünlüklə və yaxud qismən məhvinə yönəlmiş fəaliyyət. Rəsmi şəkildə dünya ictimaiyyəti alman faşizminin *ikinci dünya müharibəsi* dövründə yəhudi xalqının əleyhinə yönəlmiş siyasətini S. faktı kimi qəbul etmişdir. Ermənilər guya *birinci dünya müharibəsi* dövründə türklərin erməni xalqına qarşı S. siyasəti yeritməsini iddia edirlər. Halbuki tarixi faktların obyektiv təhlili məhz ermənilərin həm Türkiyə türklərinə, həm də əsrin əvvəlində və SSRİ-nin dağılması prosesində azərbaycanlılara qarşı açıq-aşkar S. siyasəti apardığını sübut edir. Azərbaycan hökuməti və Azərbaycan *diplomatiyası* bu həqiqəti dünya ictimaiyyətinə çatdırmaq üçün böyük iş aparır.

**SOYUQ MÜHARİBƏ.** 1946 ildən 1990 illərin əvvəllərinə kimi bir tərəfdən SSRİ və onun müttəfiqləri, digər tərəfdən ABŞ və inkişaf etmiş Qərb dövlətləri arasında mövcud olan gərgin qarşıdurma. Bəzi dövrlərdə *beynəlxalq gərginliyin zəifləməsi* dövrləri də müşahidə olunurdu.

**SPİKER** (in. *speaker* - natiq). İngilis dilli ölkələrdə parlamentin aşağı palatasının sədridir. Rəsmi olaraq palata tərəfindən, faktiki olaraq isə səs çoxluğuna malik tərəfdən seçilir. Böyük Britaniyada icmalar palatasının sədridir və partiyadan kənar hesab olunur. Palatanın özünü palata komitəsinə çevirməsi halları istisna olmaqla palata iclaslarına rəhbərlik edir. S. vasitəsilə palata *dövlət başçısı* ilə əlaqə saxlayır.

**STALİN İOSİF VİSSARİONOVİÇ** (1879-1953). SSRİ-nin siyasi və dövlət xadimi. 1924-1953 illərdə Kommunist partiyasının və sovet dövlətinin rəhbəri olmuşdur. 1943 ildə Sovet İttifaqı marşalı, 1945 ildə Sovet İttifaqının generalissimusu fəxri adına layiq görülmüşdür. 1933 ildə Hitler Almaniyada hakimiyyətə gəldikdən sonra S. onun təcavüzkar meyllərini, ilk növbədə, İngiltərə və Fransaya qarşı yönəltməyə cəhd göstərdi. 1938 il Münhen sazişindən sonra S. *beynəlxalq münasibətlərdə* Almaniya ilə yaxınlaşmaq və belelik-

lə, SSRİ-ni *müharibə* təhlükəsindən xilas etməyə çalışırdı. 1939 ildə SSRİ *ilə Almaniya arasında bağlanan hücum* etməmək haqqında *pakt* bu təşəbbüsün nəticəsi oldu. *İkinci Dünya müharibəsi* S.-i xarici siyasətin istiqamətlərini köklü şəkildə dəyişdirməyə məcbur etdi. S. 1943 il Tehran, 1945 il Yalta, 1945 il Potsdam konfranslarının (*Tehran konfransı (1943); Yalta (Krım) konfransı (1945); Berlin (Potsdam) konfransı (1945); (Beynəlxalq konfranslar*) təşəbbüskarlarından və fəal iştirakçılarından biri olmuşdur. İkinci Dünya müharibəsindən sonra S. bütün diplomatik fəaliyyətini Şərqi Avropada sosialist ölkələri düşərgəsinin yaranmasına yönəltmişdi. Onun hakimiyyəti dövründə SSRİ-də aparılan kütləvi terror nəticəsində milyonlarla insan təqiblərə məruz qalmış və həlak olmuşdu. 1956 ildə şəxsiyyətə pərəstişin ifşa edilməsi nəticəsində S.-in tarixdə roluna yenidən baxılmışdı.

**STATUS KVO** (lat. *status quo* – əvvəlki vəziyyət). Müəyyən anda mövcud olmuş və ya mövcud olan fatiki və ya hüquqi vəziyyətdir. S.k.-nu bərpa etmək baş vermiş dəyişikliklərə qədər mövcud olmuş vəziyyətə qayıtmaq deməkdir. **Status quo ante bellum** müharibəyə qədər, yəni onun meydana gətirdiyi dəyişikliklərə qədərki mövcud olmuş vəziyyət deməkdir.

**STATUT** (lat. *statuo* – qərar verirəm). *Beynəlxalq hüquqda* adətən təşkilatların və hər hansı beynəlxalq orqanın fəaliyyəti haqqında müddəa. *Beynəlxalq təşkilatın* S.-u onun məqsədlərini, strukturunu və vəzifələrini müəyyən edir. S. *beynəlxalq müqavilə* şəklində qəbul edilir.

**STEİNAR GİL** (1943). 1965-1966 illərdə Norveçin SSRİ ilə sərhəd məntəqələri *üzrə* Norveç *nümayəndədəsinin* katibi və tərcüməçisi olmuşdur. 1968-1984 illərdə Oslo Universitetində, 1981-1984 illərdə Berqen Universitetində elmi və müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur. 1984-1988 illərdə Norveç Xarici İşlər Nazirliyinin (*Xarici İşlər İdarəsi*) baş əməkdaşı, 1988-1990 illərdə Norveçin Polşadakı *səfirliyində* və 1990-1992 illərdə Rusiyadakı səfirliyində I katib vəzifəsində çalışmışdır. 1996-99 illərdə Norveçin Rusiyadakı səfirliyində işləmiş və 2001 ilədək Rusiya MDB şöbəsinin müdiri, XİN idarə rəisinin müavini olmuşdur. 2001 ildə Noreç Krallığının Azərbaycan Respublikasındakı Fövqəladə və səlahiyyətli *səfiri* təyin olunmuşdur.

**STENLİ ESKUDERO** (1942). 1965 ildə Florida Universitetində incəsənət elmləri üzrə bakalavr dərəcəsi almışdır. 1967 ildən xarici işlər departamentində fəaliyyətə başlamışdır. Müxtəlif diplomatik vəzifələrdə çalışmışdır. 1971-1975 illərdə ABŞ-ın İran *səfirliyində* siyasi şöbənin müdiri, 1977-1980 illərdə Afrika işləri üzrə əməkdaşı olmuş. ABŞ-ın Dövlət departamentində *Beynəlxalq təşkilatlar* bürosunda çalışmışdır. 1992-1993 illərdə Tacikistanda humanitar yardım üzrə xüsusi nümayəndə olmuşdur. 1993-1995 illərdə ABŞ-ın Tacikistanda, 1995-1997 illərdə Özbəkistanda *səfiri* təyin olunmuşdur. Fövqəladə və Səlahiyyətli səfir dərəcəsinə malikdir. 1997-2000 illərdə ABŞ-ın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri işləmişdir.

**STRETFORD-KANNİNQ ÇARLZ** (*lord Redaliff*) (1786-1880). Lord Redklift Britaniya *diplomatıdır*. İyirmi ildən çox bir müddətdə Türkiyədə Böyük Britaniyanın maraqlarını təmsil etmişdi və *onun siyasətinin formalaşmasına* həddindən artıq böyük təsir göstərmişdir. 1841 ildə növbəti dəfə Türkiyəyə *diplomatik missiya* ilə gəlmiş S.k.ç. türk sultanı Əbdül-Məcidi öz təsiri altına ala bilmiş və ölkədə xristianlığın xeyrinə köklü islahatların həyata keçirilməsinə nail olmuşdu. Böyük diplomatik bacarıq nümayiş etdirərək, İngiltərə-Fransa-Türkiyə ittifaqının yaranması və Rusiyanın bu ittifaqa qarşı Krım *müharibəsinə* cəlb olunması və ağır məğlubiyyətə düçar olmasına müvəffəq olmuşdur. Türkiyə dövləti qarşısında əlahiddə xidmətinə görə ona «Böyük *elçi*» ləqəbi verilmişdir.

**SULTANOV PAŞA BƏY ƏLƏKBƏR BƏY OĞLU** (1868–1937). 1887-1891 illərdə Novorossiysk Universitetinin hüquq fakültəsində təhsil almışdır. 1892-1894 illərdə Gəncə Dairə Məhkəməsində, 1894-1912 illərdə Yekaterinodar Dairə Məhkəməsində müxtəlif vəzifələrdə çalışmışdır. 1918 ilədək Ümumrusiya Vərəmə qarşı Mübarizə Liqası Kuban Şöbəsinin sədri olmuşdur. 04.VIII.1918-30.XII.1919 illərdə Rostov şəhərinin notariusu işləmişdir. IX.1919 ildə Azərbaycan Cümhuriyyətinin Rostov şəhərində *konsul* agenti təyin edilmişdir. 01.IX.1920 ildə Azərbaycan SSR-in Batum şəhərindəki konsulluğunun katibi, sonradan isə konsulu təyin edilmişdir. O, 1921 ilin sonunadək bu vəzifədə çalışmışdır. 1922-1928 illərdə Azərbaycan SSR Xalq Ədliyyə Komissarlığı sistemində, sonra isə elmi fəaliyyətlə məşğul olmuşdur.

**SUVERENLİK** (fr. *souverainety* – ali hakimiyyət). Hər hansı bir dövlətin hakimiyyətinin daxili və xarici məsələlərdə digər dövlətin hakimiyyətindən asılı olmaması və müstəqilliyidir. Xalqın öz müqəddəratını təyin etməsi hüququ, yəni xaricdən müdaxilə olmadan öz taleyini müəyyən etməsi S.-in əsasını təşkil edir.

Dövlət hüququ mənasında S. termini ilk dəfə XVI əsrdə Fransada Y.Boden tərəfindən işlədilmişdir.

S. prinsipi – *BMT Nizamnaməsində* hüquqi təsdiqini almış *beynəlxalq hüququn* əsas və ümumi qəbul olunmuş prinsipidir. Burada deyilir ki, *BMT* onun bütün üzvlərinin suveren bərabərliyi prinsipi əsasında təşkil olunub. S.-in pozulmasına yönəlmiş hər bir hərəkət beynəlxalq hüquq normalarına ziddir və qanunsuz akt kimi qiymətləndirilir.

**SÜLH KORPUSU.** ABŞ *prezidenti* Kennedinin (*Kennedi Con Fisceral*d) təşəbbüsü ilə 01.III.1961 ildə yaradılmışdır. Əsas məqsədi ABŞ-ın siyasi, iqtisadi və ideoloji yardımlarını həyata keçirmək idi. S.k. əsasən ali təhsilli, xarici dil bilən və etibarlı gənclərdən ibarət olmuşdu. Əsas hazırlıqdan sonra onlar xaricə göndərilirdi. S.k. ABŞ-ın federal hökumətinin tabeliyində olub mərkəzi aparata malik idi. Regional və yerli mərkəzlərdə fəaliyyət göstərirdi. Korpusun mənzil qərargahı Vaşinqtonda yerləşirdi. S.k. fəaliyyət sahələrindən biri də xaricdə amerikameyilli kadrların hazırlanmasından ibarət idi.

**SÜLH NAMİNƏ TƏRƏFDAŞLIQ PROQRAMI.** I.1994 ildə Brüseldə toplaşan *dövlət başçıları* yeni əməkdaşlıq strategiyasını qəbul etdilər. Onlar «bütün Avropa ərazisində uzunmüddətli sülhün, sabitliyin və əmin-amanlığın qorunmasına yönəlmiş təşəbbüsləri» S.n.t.p. çərçivəsində qəbul

etdiklərini bəyan etdilər. Bu proqram qısa vaxtda beynəlxalq siyasətin tərkib hissəsinə çevrildi. S.n.t.p. vahid təşkilat deyildir. O, *NATO* ilə Rusiyanın da daxil olduğu 25 ölkə arasında ayrı-ayrı razılaşmalar əsasında fəaliyyət göstərir.

Azərbaycan Respublikası S.n.t.p.-na 04.V.1994 ildə qoşulmuşdu.

**SÜLH PAKTI** (1949). 23.IX. SSRİ-nin BMT Baş Assambleyasına təqdim etdiyi təklifin adı. Sənəddəki təkliflər ABŞ və Böyük Britaniyada aparılan *müharibəyə* hazırlığa, atom bombasından və digər kütləvi qırğın silahlarından istifadəyə qarşı yönəlmişdi. Sənəddə eləcə də, təklif olunurdu ki, *BMT Təhlükəsizlik Şurasının* daimi üzvləri bu sahədə və *beynəlxalq təhlükəsizliyi* təmin edən digər sahələrdə səyləri birləşdirmək üçün S.p.-ni qəbul etsinlər. S.p.-ın təklifləri ABŞ və bir sıra başqa ölkələr tərəfindən qəbul edilmişdi.

**SÜLH ZONASI.** *Müharibə* təhlükəsinin qarşısını almaq, möhkəm sülhün və *beynəlxalq təhlükəsizliyin* təmin olunmasına, dövlətlər arasında hərtərəfli əməkdaşlığa yönəlmiş geniş tədbirlərin həyata keçirildiyi region. Nüvəsiz zonada fərqi olaraq S.z. anlayışı daha genişdir və S.z. adlandırılmış regionada nüvə silahının yerləşdirilməsinin qadağan olunması, həmçinin sürətlə silahlanmanın məhdudlaşdırılması, dövlətlərin hərbi iştirak səviyyəsinin azaldılması, xarici *hərbi bazaların* ləğv edilməsi, dövlətlərin təhlükəsizliyinin siyasi baxımdan təmin olunması da (qüvvədən istifadə olunmaması, *Beynəlxalq mübahişələrin sülh yolu ilə həll edilməsi*, regional əməkdaşlıq və s.) S.z.-na aiddir.

**SÜVEYŞ BÖHRANI** (1956). 26.VII. Misir hökuməti Süveyş kanalının istismarı üzrə kompaniyanı milliləşdirdi (*Milliləşdirmə*). Elə həmin il İngiltərə, Fransa və İsrail Yaxın Şərqdə öz təsirini qoruyub saxlamaq, Misir hökumətini devirmək və Süveyş kanalı üzərində nəzarəti bərpa etmək üçün müharibəyə başladılar.

30.X. İsrail qoşunları 24.II.1949 il müqaviləsi (*Beynəlxalq müqavilə*) ilə müəyyənləşdirilmiş İsrail-Misir barışıq xəttini pozaraq Misirin ərazisinə daxil oldular. 31.X. İngiltərə və Fransa Misiri bombardman etməyə başladılar və Port-Səid rayonuna desant çıxatdılar. Üçlüyün hərəkəti ilə bağlı meydana çıxan situasiya tarixə S.b. kimi daxil olmuşdur. 07.XI. hərbi əməliyyatlar dayandırdı. 22.XII. İngiltərə və Fransa, 07.III.1957 ildə İsrail öz qoşunlarını Misirin ərazisindən çıxartdı.

**ŞAH İSMAYIL XƏTAİ** (1487-1524). Azərbaycan Səfəvilər dövlətinin banisi. Dövlət xadimi və sərkərdə. Ağqoyunlu Sultan Yaqub Şeyx Heydərin ölümündən sonra 1488 ildə kiçik yaşlı I Şah İsmayılı anası və qardaşı (Sultanəli və İbrahim) ilə birlikdə həbs etdirdi. Sultan Yaqubun ölümündən sonra Rüstəm Mirzənin əmri ilə Şeyx Heydərin oğlanları 1492 ildə həbsdən azad olundu. Rüstəm Mirzə hakimiyyətdə möhkəmləndikdən sonra Səfəvi şahzadələrini aradan götürməyə çalışırdı. Böyük qardaşı şeyx Sultanəli I Ş.İ.-ı özünün vərəsəsi təyin edərək Ərdəbilə göndərdi. Bir müddət Ərdəbildə və Rəştdə gizlədilən Ş.İ. sonralar Lahicanda Gilan hakimi Mirzə Əlinin sarayına aparıldı. VIII.1499 ildə Ş.İ. özünün yaxın tərbiyəçisi və məsləhətçisi olan bir neçə qızılbaş tayfa başçısı ilə birlikdə qoşun toplamaq üçün Ərdəbilə yollandı. Lakin Ərdəbil hakimi qızılbaşlara mahaldan çıxmağı əmr etdi. Qışı Ərçivanda (indiki Astara rayonunda) keçirən Ş.İ. 1500 ildə şamlı və rumlu tayfalarından, habelə Qaradağ və Talış əhalisindən ona qoşulmuş 2 minə yaxın qızılbaşla Qaradağ, Çuxursəd, Şuragil, Kağızman, Tərcan yolu ilə Ərzincana gəldi. Burada qızılbaş tayfalarından, habelə Qaradağ sufilərindən təqribən 7 min tərəfdar toplayan Ş.İ.1500 ildə Şirvana hücum etdi və Şirvanşah qoşunlarını məğlubiyyətə uğratdı. Döyüşdə Şirvanşah Fərrux Yasar öldürüldü. Qızılbaşlar 1501 ildə bir neçə günlük mühasirədən sonra Bakını tutdular. Gülüstan qalasında möhkəmlənmiş Şirvan qoşunlarının qalıqlarını mühasirəyə aldılar. Lakin Ağqoyunlu Əlvənd Mirzənin hücuma keçdiyini eşidən qızılbaşlar mühasirədən əl çəkərək Naxçıvan istiqamətində hərəkət etdilər. Şərur düzündə baş vermiş döyüşdə 7 minlik qızılbaş qoşunu 30 minlik Ağqoyunlu ordusunu məğlubiyyətə uğratdı.

1501 ildə Təbrizə daxil olan Ş.İ. özünü şah elan etdi. Bununla da paytaxtı Təbriz olan Azərbaycan Səfəvilər dövlətinin əsası qoyuldu. Ş.İ.-ın tabe olmaq təklifini rədd edən Ağqoyunlu hökmdarı Muradla 21.VI.1503 ildə baş vermiş Həmədan yaxınlığındakı döyüş qızılbaşların qələbəsi ilə nəticələndi. Sonrakı illərdə Ş.İ. bütün İranı, Xorasanı, Ermənistanı, İraqi-Ərəbi Səfəvilər dövlətinə qatdı. Ş.İ.-ın dövründə Səfəvilər dövləti Yaxın Şərqin qüdrətli dövlətlərindən birinə çevrildi. Şiəliyi rəsmi dvölət dini səviyyəsinə qaldıran Ş.İ. geniş ərazidə yaşayan müxtəlif xalqları vahid ideologiya ətrafında birləşdirib Səfəvilər dövlətini daxildən möhkəmləndirmək məqsədi güdürdü. O, şiəliyi həm də sünnü olan ağqoyunlulara, şirvanşahlara, şeybanilərə və osmanlılara qarşı mübarizə bayrağına çevirmişdi. Qonşuluqda Səfəvilər kimi qüdrətli bir dövlətin yaranması Osmanlı dövlətini narahat edirdi. 1514 ildə sultan I Səlimin başçılıq etdiyi Osmanlı ordusu ilə Çaldıran düzündə baş vermiş döyüşdə qızılbaşlar məğlubiyyətə uğradı. Osmanlı imperiyasına qarşı mübarizə aparmaq məqsədi ilə hərbi ittifaq yaratmağa çalışan Ş.İ. Venetsiya, Macarıstan, Almaniya, Roma papalığı və s. Avropa ölkələri ilə diplomatik danışıqlar aparırdı. Lakin onun səyləri nəticəsiz qaldı. Sonrakı illərdə Ş.İ. Şirvanşahları, gürcü çarlarını Səfəvilərdən asılı vəziyyətə sala bildi. Ş.İ. Şəkiyə növbəti səfərdən Ərdəbilə qayıdarkən vəfat etdi.

**ŞAHMALIYEV MƏHƏMMƏD BƏY NƏSRULLA BƏY OĞLU.** Novorossiysk Universitetinin hüquq fakültəsini bitirmişdir. Tələbəlik illərində universitetdə fəaliyyət göstərmiş Azərbaycan həmyerlilər təşkilatının yaradıcılarından biri olmuşdur.

1913 ildə Şəki qəzasının, 1914-1915 illərdə Ərəş qəzasının rəisi işləmişdir.

1905 ildə erməni-müsəlman qırğınının nəticələrini müzakirə etmək üçün 1906 ildə Tiflisdə Qafqaz canişininin başçılığı ilə yaradılmış komissiyanın fəal üzvlərindən biri olmuş və çıxarılan qərara onun təklifi ilə Azərbaycan

əhalisinin xeyrinə bir çox maddələr salınmışdır.

1918-1920 illərdə Zaqatalanın qubernatoru olmuşdur. Azərbaycan və Gürcüstan arasında müvəqqəti sərhədi müəyyənləşdirmək üçün yaradılmış Azərbaycan Gürcüstan komissiyasının 25.X.-02.XI.1919 ildə keçirilən yığıncaqlarında Azərbaycan höküməti adından çıxış etmişdir.

**ŞANTAL PUARE** (1948). Paris Universitetinin hüquq və filologiya fakültəsini bitirmişdir. Paris Siyasi Elmlər İnstitutunun məzunudur. 1981-1984 illərdən Fransa Xarici İşlər Nazirliyinin (*Xarici İşlər İdarəsi*) əməkdaşı, 1984-1986 illərdə Fransanın Rumıniyadakı *səfirliyində* III katib, 1986-1988 illərdə Fransa XİN-nin *BMT* və *beynəlxalq təşkilatlar* idarəsinin əməkdaşı olmuşdur. 1988-1991 illərdə Fransanın Nyu-Yorkda BMT yanında daimi missiyasının (*Diplomatik missiya*) II katibi, 1991-94 illərdə Fransanın Almaniya səfirliyində II müşavir kimi fəaliyyət göstərmişdir. 1997 ildə Fransa XİN-nin BMT və beynəlxalq təşkilatlar idarəsinin rəisi olmuş və ona xarici işlər üzrə ali dərəcəli müşavir rütbəsi verilmişdir. Dövlət Ordeni ilə təltif edilmişdir. 2001 ildə Fransanın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli *səfiri* təyin olunmuşdur.

**ŞEYXÜLİSLAMZADƏ ƏKBƏR AĞA İBRAHİM AĞA OĞLU** (1891-1961). İrəvan gimnaziyasını bitirdikdən sonra, 1912-1917 illərdə Peterburq Yol Mühəndisləri İnstitutunda təhsil almışdır.

II.1918 ildə Zaqafqaziya Seymi yarandıqda «Hümmət» partiyasından onun üzvü seçilmişdir. 01.III.1918 ildə Seymin Türkiyə ilə sülh danışıqları aparmaq üçün yaratdığı nümayəndə heyətinin tərkibinə daxil edilmişdir. Eyni zamanda Zaqafqaziya hökumətində daxili işlər nazirinin müavini olmuşdur.

Azərbaycan Demokratik Respublikasının Parlamentinin üzvü seçilmişdir. 28.V-17.VI.1918 ildə ADR hökumətində əkinçilik və əmək naziri işləmişdir.

1919 ildə Azərbaycan nümayəndə heyətinin tərkibində *Paris sülh konfransında* iştirak etmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra vətənə qayıtmamış və ömrünün sonuna qədər Parisdə yaşamışdır.

**ŞENGEN RAZILAŞMASI.** 14.VI.1985 il, 19.VI.1990 il və 26.III.1996 il razılaşmalarına uyğun olaraq onu imzalayan dövlətlər öz ərazilərində əmtəənin, kapitalın və insanların sərbəst hərəkətini təmin edirlər. Dövlətlərarası sərhədlər ümumi xarici sərhədlə əvəz olunur. Ş.r. Avropa İttifaqına üzv olan yeddi ölkə – Belçika, Almaniya, İspaniya, Lüksemburq, Hollandiya, Portuqaliya və Fransa tərəfindən Lüksemburqda imzalanmışdı. 1997 ildən Avstriya və İtaliya Ş.r.-na qoşuldu. Yunanıstanın Ş.r.-nı imzalamasına baxmayaraq onun tətbiqini razılaşmanın yerinə yetirilməsi üçün bütün şərtlərin yaradılmasına qədər təxirə salıb. Danimarka, İslandiya, Norveç, Finlandiya, İsveç Ş.r.-na qoşulmaq arzusunda olduqlarını ifadə etmişlər. Lakin Norveç razılaşmaya qoşulmaq üçün tələb olunan əsas şərtə uyğun gəlmir – o Avropa İttifaqının üzvü deyil. Britaniya və İslandiya Ş.r.-na maraq **göstərmirlər.**

**ŞİMALİ ATLANTİKA MÜQAVİLƏSİ TƏŞKİLATI** (NATO) (1949). ABŞ-ın təşəbbüsü ilə 12 ölkənin – ABŞ, Belçika, Böyük Britaniya, Danimarka, İslandiya, İtaliya, Kanada, Lüksemburq, Hollandiya, Norveç, Portuqaliya, Fransa - yaratdığı hərbi-siyasi blok. 1952 ildə Türkiyə ilə Yunanıstan, 1955 ildə Almaniya Federativ Respublikası, 1982 ildə İspaniya NATO-ya daxil oldu. 1966 ildə Şarl de Qoll (*Qoll Şarl de*) Fransanın NATO-dakı üzvlüyünü saxlamaqla onu təşkilatın hərbi strukturundan çıxardı. NATO üzvü olan ölkələrin imzaladıqları müqaviləyə (*Beynəlxalq müqavilə*) görə, onlardan birinə qarşı təcavüz, NATO-nun bütün üzvlərinə qarşı yönələn təcavüz kimi qiymətləndiriləcək və NATO təcavüzə məruz qalmış ölkəyə, hərbi qüvvə tətbiqi də daxil olmaqla, hər cürə yardım göstərəcəkdir. Üzv dövlətlər öz aralarında meydana gələ biləcək münaqişələri ancaq sülh yolu ilə nizama salmağı, iqtisadi xarakterli münaqişələrə yol verməməyi və iqtisadi əməkdaşlığı inkişaf etdirməyi öhdələrinə götürdülər.

NATO-nun ali orqanı NATO Şurasının sessiyasıdır. Hərbi komandanlıq müttəfiq dövlətlərin Avropadakı Ali mənzil-qərargahında yerləşir. Bundan başqa NATO tərkibində Müdafiəni Planlaşdırma Komitəsi də fəaliyyət göstərir.

«*Soyuq müharibə*»" illərində NATO SSRİ və *Varşava Müqaviləsi Təşkilatına* qarşı duran və Qərbin müdafiəsini öz üzərinə götürən bir təşkilat kimi fəaliyyət göstərmişdi. SSRİ-nin və Varşava Müqaviləsi Təşkilatının süqutundan sonra Polşa, Çexiya, Macarıstan NATO-ya daxil oldular.

V.1994 ildə ABŞ *prezidenti* B.Klinton Avropa dövlətlərinə, Müstəqil Dövlətlər Birliyi (*Azərbaycan Müstəqil Dövlətlər Birliyində*) məkanında mövcud olan yeni müstəqil dövlətlərə NATO ilə əməkdaşlıq etmək barədə təklif irəli sürdü. Azərbaycan Respublikası "*Sülh naminə tərəfdaşlıq proqramı*" adlanan bu təşəbbüsə qoşuldu.

**ŞİRAK JAK RENE** (1932). 1953 ildə Harvard universitetinin nəzdində uçuş məktəbində təhsil almışdır.

1959 ildən siyasi fəaliyyətlə məşğul olmağa başlamış, Ş.De Qollun (*Qoll Şarl de*) tərəfdarı olmuşdur. 1969 ildə Pompidu *prezident* seçildikdən sonra iqtisadiyyat və maliyyə, parlamentlə əlaqə, kənd təsərrüfatı və daxili işlər naziri vəzifəsində işləmişdir. 1976 ildə Respublikanı Müdafiə Birliyi yaratmışdır. 1977 ildə Parisin meri, 1986 ildə Fransanın Baş naziri, 1995 ildə isə prezidenti seçilmişdir. Vahid Avropa valyutasının tətbiqinə yönəlmiş islahatların təşəbbüsçülərindən olmuşdur.

V.2002 ildə ikinci dəfə Fransanın prezidenti seçilmişdir.

**ŞOVİNİZM** (fr. *chauvinisme*). Napaleonun (*Napoleon I Bonapart*) işğalçılıq siyasətinin tərəfdarı olmuş əsgər N.Şovenin (Chauvin) adından götürülmüşdür. Qatı millətçiliyi təbliğ edən ideologiyadır.

**ŞRÖDER HERXARD** (1944). Hettinger universitetində təhsil almışdır. 1963 ildə Almaniya sosial-demokratık partiyasına üzv olmuş, 1980 ildə bundestaqa seçilmiş, 1986 ildə Aşağı Saksoniya torpağının baş naziri vəzifəsini tutmuşdur. 1998 ilin parlament seçkilərində ASDP yeni iş yerləri açmaq, sosial təminat sahəsində islahatlar aparmaq, vergiləri azaltmaq, biznes nümayəndələri ilə daha fəal işləmək şüarları altında çıxış edərək qalib gəlmişdir və o, AFR-in *kansleri* təyin edilmişdir.

# T

**TAHİROVA TAHİRƏ ƏKBƏR QIZI** (1913-1991). Azərbaycanın görkəmli ictimai, siyasi və dövlət xadimi.

1935 ildə Azərbaycan Neft İnstitutunu bitirmiş, 1936-1942 illərdə neft sənayesində çalışmış, 1942-1949 illərdə Azərbaycan K(b)P MK-nin neft şöbəsinin müdirinin müavini, MK katibinin neft üzrə müavini, Azərbaycan K(b)P Bakı Komitəsinin katibi, 1954-1957 illərdə Azərbaycan Həmkarlar Şurasının sədri, 1957-1963 illərdə Dövlət Elm və Texnika Komitəsinin, Dövlət Elmi-Tədqiqat işlərini əlaqələndirmə Komitəsinin sədri olmuşdur.

1963-1968 illərdə Nazirlər Soveti sədrinin müavini, 1959-1983 illərdə Azərbaycan SSR xarici işlər naziri, vəzifələrində çalışmışdı. Xarici işlər naziri kimi Azərbaycanın xarici ölkələrlə iqtisadi, elmi-texniki və mədəni əlaqələrinin genişləndirilməsində, respublikanın sənaye və kənd təsərrüfatı müəssisələrinin SSRİ-nin xaricdəki ticarət-sənaye sərgi və yarmarkalarında öz mallarını nümayiş etdirməsində, Bakıda Bolqarıstan, Macarıstan, ADP, ABŞ və s. ölkələrin ixtisaslaşdırılmış sərgilərinin, Fransa, Danimarka, Portuqaliya, Avstriya və İtaliyada isə Azərbaycanın timsalında SSRİ günlərinin keçirilməsində, BMT Baş Assambleyasının XII, XXIII, XXX sessiyalarında iştirak etmişdi.

**TAKEXİRO TOQO** (1934). 1959 ildə Tokio Universitetinin hüquq fakültəsini bitirmiş və Yaponiya Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) işə başlamışdır. 1961-1972 illərdə Yaponiyanın SSR-dəki *səfirliyində* işləmiş, 1974 ildə Yaponiya XİN – də Müqavilələr (*Beynəlxalq müqavilə*) departamentinin *beynəlxalq konvensiyalar* şöbəsinin direktoru vəzifəsində çalışmışdır. 1978 ildə Yaponiyanın ABŞ-dakı səfirliyində müşavir, 1986 ildə SSRİ-dəki səfirliyində səlahiyyətli nazir olmuşdur. 1988 ildə Yaponiya XİN-də Avropa və Okeaniya ölkələri departamentinin Baş direktoru işləmişdir. 1991 ildə Yaponiyanın Sinqapurda, 1993 ildə Türkiyədə, 1996 ildə Rusiya Federasiyasında Fövqəladə və Səlahiyyətli *səfiri* olmuşdur. Rusiya Federasiyasında səfir olmaqla eyni zamanda Yaponiyanın Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin olunmuşdur. 1997-1999 illərdə Yaponiyanın Azərbaycan Respublikasında səfiri olmuşdur.

**TALEYRAN ŞARL MORİS** (1754-1838). 1797-1799 illərdə Direktoriyanın, 1799-1807 illərdə Konsulluğun və Napoleon (*Napoleon I Bonapart*) imperiyasının, 1814-1815 illərdə XVIII Lüdovik hökumətinin xarici işlər naziri vəzifələrində çalışmışdı. 1792 ildə T.-nın rəhbərlik etdiyi *diplomatik missiya* Londona yollandı və Fransa-Avstriya *müharibəsində* ingilislərin neytral mövqedə dayanmasına nail oldu. 1797 ildən T. hakimiyyətə gəlmiş Napoleon Bonapartın *xarici siyasətinin* həyata keçirilməsində mühüm rol oynamışdır. Onun diplomatik səyi nəticəsində Avstriya ilə sülh müqaviləsi (*Beynəlxalq müqavilə*), 1800 ildə ABŞ ilə dostluq ittifaqı haqqında saziş, 1807 ildə Tilzitdə rus-fransız müqaviləsi bağlanmışdı. I Napoleonun bütün Avropa ölkələrinin birliyi uğrunda mübarizənin uğursuzluğunu dərk edən T. 1807 ildə istefa vermiş, yalnız 1814 ildə XVIII Lüdovik hakimiyyətə gələndən sonra diplomatik fəaliyyətini bərpa etmişdi. Napoleon Fransanın məğlubiyyətindən sonra Avropada onun gələcək taleyini həll edən *Vyana konqresində* T. bütün diplomatik təcrübə və bacarığını səfərbər edərək, qalib dövlətlər arasında təfriqə salmağa və Fransanın mənafeyini müdafiə etməyə nail olmuşdur. 1830 ildə Londonda Fransanın *səfiri* vəzifəsini icra edən T. Belçikanın Hollandiyadan ayrılmasına və müstəqil elan olmamasına nail olmuşdu.

**TEHRAN KONFRANSI** (1943). 28.XI.-01.XII. ABŞ, Böyük Britaniya və SSRİ *dövlət başçılarının* iştirakı ilə keçirilmişdir. Konfransda (*Beynəlxalq konfranslar*) Hitler Almaniyasına qarşı birgə əməliyyatlar həyata keçirmək və *müharibədən* sonrakı əməkdaşlıq haqqında üç dövlətin birgə *Bəyannaməsi* qəbul edildi. V.1944 amerikan-ingilis qoşunlarını Şimali Fransaya çıxarmaqla Avropada *ikinci cəbhəni* açmaq barədə razılıq əldə olundu. İranın müstəqilliyinin, *suverenliyinin* və ərazi toxunulmazlığının təmin olunması haqqında qərar qəbul edildi. Almaniyanın müharibədən sonrakı quruluşu ilə bağlı məsələyə *Avropa Məsləhət Komissiyasında* baxmaq qərara alındı. Polşanın müharibədən sonrakı sərhədləri Şərqdə «Kerzon xətti», qərbdə isə Oder çayı ilə müəyyənləşdirildi. Kaniqsberq və Memelr SSRİ-yə verilməli idi. SSRİ Almaniyanın təslim olunmasından sonra Yaponiyaya qarşı müharibəyə qoşulacağı haqda öhdəlik götürdü.

**TERRORİZM AKTLARININ QARŞISININ ALINMASI VƏ ONLARA GÖRƏ CƏZA HAQQINDA BEYNƏLXALQ KONVENSİYA** (1937). *Millətlər Cəmiyyətinin* himayəsi altında hazırlanmışdır. Baxmayaraq ki, K. qüvvəyə minmədi, onun bir çox müddəaları cinayətkarların cəzalarının qaçılmazlığı, universal mühakimə hüququ, cinayətkarın ya verilməsi, yaxud cinayət-prosessual qaydada mühakimə edilməsi, müvafiq informasiyaların qarşılıqlı mübadiləsi haqda müddəalar və s. beynəlxalq əməkdaşlığın terrrorizmlə (*Beynəlxalq terrorizm*) mübarizədə qüvvədə olan prinsip və normalarının əsasını təşkil etmişdir.

**TETÇER MARQARET HİLDA** (1925). 1947 ildə Oksford universitetini bitirmiş, vəkillik fəaliyyəti ilə məşğul olmuş, vergi hüququ üzrə ixtisaslaşmışdır.

1959 ildə parlamentə seçilmiş, 1970-1974 illərdə təhsil naziri olmuş, 1975 ildə Mühafizəkarlar partiyasının lideri seçilmişdir.

1979 ildə baş nazir vəzifəsini tutmuş, 1983 ildə keçirilmiş seçkilərdə onun başçılıq etdiyi mühafizəkarlar partiyası təkrar qələbə qazanmışdır. Siyasətdə dönməzliyinə görə «dəmir ledi» adlandırılmışdır. 1987 ildə Böyük Britaniyanın müasir tarixində ilk dəfə üçüncü dəfə baş nazir seçilmişdir. Avropa valyuta sisteminin yaradılmasına etiraz etmişdir. 1990 ildə istefaya getmişdir. 1992 ildən o ömürlük per rütbəsi almış və baronessa kimi lordlar palatasında yer tutmuşdur.

**TETSUYU HİROSE** (1939). 1963 ildə Kioto Universitetini bitirmişdir. Müxtəlif dövrlərdə müxtəlif diplomatik vəzifələrdə çalışmışdır. 1981-1985 illərdə Yaponiyanın ABŞ-kı *səfirliyində* I katib,

1985-1988 illərdə Yaponiyanın Türkiyədə səfirliyində I katib, 1988-1990 illərdə Yaponiyanın Kanadada (Toronto) Baş konsulluğunda (*Konsul idarəsi*) *konsul* işləmişdir. 2000 ildə Yaponiyanın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli *səfiri* təyin olunmuşdur.

**TƏBƏƏLİYƏ GÖTÜRÜLMƏ.** Dövlətin xarici vətəndaşa (*Xaricilər*) və ya vətəndaşlığı olmayan (*Vətəndaşsızlıq*) şəxsə onun xahişi ilə vətəndaşlıq verməsi. Xarici vətəndaşın və ya vətəndaşlığı olmayan şəxsin T.g.-si dövlətin milli qanunvericiliyi ilə müəyyən olunur. T.g. qaydasında vətəndaşlıq alınması bir dövlətin vətəndaşının digər dövlətin vətəndaşı ilə nikahı zamanı, eləcə də digər dövlətin vətəndaşı olan uşağın övladlığa götürülməsi və *optasiya* hallarında mümkündür.

**TƏBƏƏLİK** (bax. Vətəndaşlıq).

**TƏKİNSKİ MƏHƏMMƏD XAN** (1880-1938). 29.I.1919-01.X.1919 illərdə Azərbaycan Demokratik Respublikasının Ermənistandakı *diplomatik nümayəndəliyinin* başçısı işləmişdir. 01.X.1919 ildə ADR-in xarici işlər nazirinin müavini təyin edilmişdir.

**TƏRKSİLAH.** Silahlanma yarışının dayandırılması, *müharibə* aparma vasitələrinin məhdudlaşdırılması, azaldılması və tam aradan qaldırılmasına yönəldilmiş kompleks tədbirlər. Onun son məqsədinin - tam və hərtərəfli T.-ın həyata keçirilməsi dünyanın bütün ölkələrinin öz silahlı qüvvələrini buraxması, hərbi təsisatların ləğvi, bütün növ silahların istehsalının dayandırılması və onların məhv edilməsi, dövlətin öhdəsində yalnız daxili asayişi qorumaq üçün məhdud sayda qüvvələrin saxlanması deməkdir.

T. müasir dövrün ən vacib qlobal problemlərindən biridir, bu problemin həllindən sülhün təmin edilməsi, nüvə müharibəsinin qarşısının alınması bilvasitə asılıdır.

**TƏZMİNAT** (bax. Reparasiya).

**TOKİO PROSESİ** (1946-1948). 03.V.-12.XI. Yaponiya *müharibə caniləri* (*Hərbi canilər*) üçün təşkil edilmiş məhkəmə prosesi. Məhkəmənin qərarı ilə mühakimə olunanlar günahkar bilinmiş və onlardan 7 nəfəri ölüm cəzasına, 16 nəfəri ömürlük həbs cəzasına, 2 nəfəri uzunmüddətli həbs cəzasına məhkum edilmişdi.

**TOMAS NESBİTT YANQ** (1943). Kembric Pembrouk Kollecini, Oksfordu bitirmişdir. 1966 ildən Böyük Britaniya Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) işə qəbul olunub. 1972-1976 illərdə Böyük Britaniyanın İspaniyadakı *səfirliyində*, 1978-1980 illərdə Türkiyədə səfirliyində işləmişdir. 1981 ildə Nyu-Yorkda Ticarətin İnkişafına dair direktor müavini işləmiş, Böyük Britaniyanın ABŞ-kı səfirliyində I katib vəzifəsində çalışmışdır. 1990-1993 illərdə Avstraliyada Ticarətin İnkişafına Yardım şöbəsinin müşaviri və direktoru olmuşdur. 1993-1996 illərdə Böyük Britaniya Krallığı və Şimali İrlandiyanın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli *səfiri* işləmişdir.

**TOPÇUBAŞOV ƏLİMƏRDAN BƏY ƏLƏKBƏR OĞLU** (1865-1934). Azərbaycanın görkəmli siyasi xadimi, *diplomatı* və hüquqşünası 1884 ildə Peterburq universitetinin hüquq fakültəsini bitirmiş, Tiflisdə və Bakıda vəkillik et-





miş, 1897-1917 illərdə «Kaspi» qəzetinin yaradıcılarından və redaktorlarından biri olmuş, birinci Dövlət Dumasına seçilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra F.Xoskinin (*Xoyski Fətəli xan İsgəndər oğlu*) VI.1918 ildə təşkil etdiyi II kabinədə *portfelsiz nazir*, X. isə xarici işlər naziri vəzifəsinə təyin edilmişdi. 20.VIII.1918 ildə Osmanlı imperiyası və onun vasitəsilə Avropa ölkələri ilə *diplomatik münasibətlər* yaratmaq məqsədilə fövqəladə səlahiyyətli nazir kimi İstanbula ezam edilir. 07.XII.1918 ildə fəaliyyətə başlayan ilk parlamentinin sədri, 28.XII. isə *Paris sülh konfransına (Beynəlxalq konfranslar)* gedəcək nümayəndə heyətinin sədri seçilmişdi. 28.V.1919 ildə Parisdə ABŞ *prezidenti* Vilson (*Vilson Vudro*) onun rəhbərliyi ilə Azərbaycan nümayəndələrini qəbul etdi. 11.I.1920 ildə Paris sülh konfransında iştirak edən müttəfiq dövlətlər və Ali Şura üzvləri tərəfindən Azərbaycanın müstəqilliyinin *de-fakto* tanınmasında onun böyük rolu olmuşdur.

1920-1934 illərdə Parisdə *mühacir* həyatı sürmüş, ictimai-siyasi fəaliyyətini davam etdirmiş, 08.XI.1934 ildə Parisdə vəfat etmişdi.

**TRAKTAT** (lat. *traktatus* – nəzərdən keçirmək). XIX əsrdə *beynəlxalq müqavilələrə* verilən addır (məs.; 1856 il Paris traktatı).

**TRASEKA.** 07.V.1993 ildə Brüssel şəhərində Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və *Avropa Birlikləri Komissiyasının* təklifi ilə regionun nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı məsələlər müzakirə edilmiş və qəbul edilmiş Brüssel bəyannaməsi Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin istiqamətlərini, forma və mexanizmlərini müəyyənləşdirilmişdi. O vaxtdan bəri TRASEKA-nın işçi qruplarının Alma-Atada, Vyanada, Venesiyada, Afinada, Tbilisidə və Bakıda bir neçə iclası keçirilmişdi.

**TROPPAU KONQRESİ** (1820). *Müqəddəs İttifaqın* 2-ci konqresi. Konqresdə (*Beynəlxalq konqres*) bu və ya digər ölkədə inqilabi hərəkat baş verəcəyi təqdirdə, həmin ölkə hökumətinin dəvəti olmadan belə, inqilabı yatırtmaq üçün ittifaq üzvləri tərəfindən hərbi müdaxilə təşkil etmək barədə qərar qəbul edildi. T.k. Neopolitan krallığının Avstriya tərəfindən işğalına razılıq verdi.

**TÜRKİYƏ-BOLQARISTAN MÜQAVİLƏLƏRİ.** 1) 29.IX.1913. İkinci Balkan *müharibəsinin* sona çatması ilə əlaqədar İstambulda imzalanmışdı. Müqavilənin (*Beynəlxalq müqavilə*) şərtlərinə görə Şərqi Frakiya Türkiyəyə keçdi, Qərbi Frakiyanın bir hissəsi Bolqarıstanda qaldı. Bolqarıstanın Egey dənizinə çıxışı saxlanıldı. Tərəflər *diplomatik münasibətləri* bərpa etmək barədə razılığa gəldilər.

2) 06.IX.1915 Türkiyə-Bolqarıstan sərhəddində (*Dövlət sərhədləri*) düzəlişlər aparılmasına dair imzalanmışdı. Maritsa çayının sol sahilində 2,5 min km$^2$ ərazi Bolqarıstana verildi. Bu vaxta qədər qismən Türkiyə ərazisindən keçən Svilenqrad-Dədəağac dəmir yolu bundan sonra tamamilə Bolqarıstan ərazisindən keçdi. Türkiyə 5 il müddətində, güzəştə getdiyi dəmiryolu ilə maneəsiz yük daşımaq və Maritsa çayında gəmiçilik məsələlərində Bolqarıstanla eyni güzəştlərə malik olmaq hüququnu özündə saxladı.

3) 18.X.1925. Yuqoslaviya və Yunanıstana qarşı siyasi mövqelərini möhkəmləndirmək üçün Türkiyə ilə

Bolqarıstanın yaxınlaşmasını nəzərdə tuturdu. Tərəflər, *birinci dünya müharibəsindən* sonra onlar arasında yaranmış sərhədləri təsdiq etməyi, tərəflərdən birinə düşmən olan *koalisiyalarda* iştirak etməməyi, xarici siyasi tədbirlərdə bir-biri ilə məsləhətlər keçirməyi, *diplomatik münasibətlər* qurmağı, ticarət və arbitrac haqqında müqavilə bağlamağı öhdəyə götürdülər.

**TÜRKİYƏ-YUNANISTAN KONVENSİYASI** (1923). 30.I. *Lozanna konfransında* imzalanmışdı. Konvensiya Türkiyə vətəndaşları (*Vətəndaşlıq*) olan pravoslav əhalinin (yunanların) Yunanıstana, yunan vətəndaşları olan müsəlman əhalinin (türklərin) Türkiyəyə köçürülməsini nəzərdə tuturdu. Köçürülən əhalinin əmlak məsələlərini nizama salmaq qaydaları K.-da öz əksini tapmışdı. Köçürmə prosesinə nəzarəti türk, yunan və bitərəf nümayəndələrin daxil olduğu birgə komissiya həyata keçirməli idi.

**TÜRKMƏNÇAY MÜQAVİLƏSİ** (1928). 10.II. Azərbaycanın Təbriz şəhəri yaxınlığındakı Türkmənçay kəndində Rusiya və İran dövlətləri adından imzalanmış və Azərbaycan uğrunda gedən 1826-1828 illər Rus-İran *müharibəsinə* son qoymuşdu. T.m. Azərbaycanın Naxçıvan və İrəvan xanlıqlarının Rusiya tərəfindən işğalını, bununla da Azərbaycan torpaqlarının və xalqının ikiyə bölünməsini tam rəsmiləşdirdi. Azərbaycanın Araz çayından şimaldakı əraziləri Rusiyanın, cənubdakı əraziləri isə İranın tərkibinə qatıldı.

T.m.-nə uyğun olaraq İran Rusiyaya 20 mln. rubl *təzminat* ödəməli idi. T.m.-nə əlavə olunmuş *protokola* görə bu məbləğ 6 ay müddətində ödənilmədiyi təqdirdə, Azərbaycan bütövlükdə Rusiyanın tabeçiliyinə keçəcəkdi.

T.m. Rusiyanın Xəzər dənizində, *Gülüstan müqaviləsi* ilə nəzərdə tutulmuş, hərbi donanma saxlamaq hüququnu bir daha təsdiq etdi. Abbas Mirzə İran taxt-tacının varisi elan edildi.

T.m.-nə əlavə olunmuş protokol İran və Rusiya tacirlərinə hər iki ölkədə sərbəst ticarət hüququ verirdi. Rus təbəələri (*Təbəəlik*) İranda *eksterritoriallıq* hüququ alırdılar. Rusiya İran ərazisində konsul yurisdiksiyası hüququ əldə etdi.

Ədalətsiz T.m. Azərbaycan xalqının rəyi nəzərə alınmadan bağlanmışdı. Onun həyata keçirilməsi nəticəsində İrandan və Türkiyədən 140 mindən çox erməni Şimali Azərbaycan ərazisinə köçürülmüşdü ki, bu da regionda etnik vəziyyətin dəyişməsinə, Azərbaycanın bu gün də əzab çəkdiyi erməni separatizminin yaranmasına səbəb olmuşdu.

## U

**UAYTHOLL** (WHITEHALL). Londonun mərkəzi hissəsində Böyük Britaniyanın əsas nazirlik və dövlət müəssisələrinin yerləşdiyi küçə. Küçənin adı əsas kral sarayı Uaythollun (XVI-XVII əsrlər) adı ilə bağlıdır. Məcazi mənada Böyük Britaniya hökumətini bildirir.

**ULTİMATUM** (lat. *ultimatum* – başa çatdırılmış). *Beynəlxalq hüquqda* bir dövlətin digər dövlətə müəyyən olunmuş müddətdə hər hansı məsələyə dair müəyyən mövqe tutması, müəyyən hərəkət etməsi və ya digər şərtlərin yerinə yetirilməsi üçün diplomatik sənəddə və ya şifahi formada ifadə olunmuş qəti tələbidir. U.-un yerinə yetirilməməsi dövlətə qarşı təzyiq tədbirlərinin tətbiq olunmasına (məs., aparılan danışıqların dayandırılmasına, *diplomatik münasibətlərin* kəsilməsinə, *retorsiyalara, repressaliyalara*) gətirib çıxara bilər. Dövlətə qorxutma və hədələrdən ibarət U. göndərilməsi *BMT Nizamnaməsinə* görə yolverilməzdir.

**UNİYA** (lat. *unio* - birləşmə). *Beynəlxalq münasibətlərdə* dövlətlərin ittifaqı, birləşməsidir. Şəxsi U.– bir monarxın hakimiyyəti altında olur, real U. isə – daha güclü dövlətin birtərəfli aktı və ya müqaviləsi əsasında meydana gəlir, ümumi hakimiyyət və idarə orqanlarına malik olur. U. deyil, onun tərkibinə daxil olan ayrı-ayrı dövlətlər *beynəlxalq hüququn subyektləri* hesab olunurlar. Şəxsi U.-lara Polşa-Litva (1386-1669), İngilis-Hannover (1714-1838), Niderland-Lüksemburq (1815-1890) uniyalarını, real U.-lara İsveç-Norveç (1814-1905), Avstriya - Macarıstan (1867-1918), Danimarka-İslandiya (1918-1944) uniyalarını misal göstərmək olar.

Real uniya mənasında kilsə U-si katolik və pravoslav kilsələrinin öz ayin və ibadətlərinin saxlanılması zamanı Roma papasının birinciliyini qəbul etmək üçün birləşməsidir.

**UOTERGEYT** (1972). 17.VI. ABŞ *prezidenti* R.Niksonun yenidən prezident seçilməsi kompaniyası ilə bağlı demokrat partiyasının, Vaşinqtonun «Uotergeyt» mehmanxanasındakı mənzilqərargahında quraşdırılmış qulaqasma qurğusunun polis tərəfindən aşkar edilməsi və bununla əlaqədar siyasi böhranın yaranması. İstintaq bu işin təşkilində Ağ evin iştirakını sübut etmiş və bir sıra dövlət məmurunu məsuliyyətə cəlb etmişdi. 09.VIII.1974 ildə impiçment təhlükəsi qarşısında qalmış R.Nikson istefa verərək, prezident səlahiyyətlərini öz üzərindən götürdü.

**UTİ POSSİDETİS** (*lat.*). Qoşunların irəliləməsi, işğal, *ilhaq* və s nəticəsində dövlətlərin müəyyən müddətdə mövcud olan və ya mövcud olmuş ərazi vəziyyəti. Bəzi hallarda U.p. «status-kvo» terminin uyğun gəlir, lakin «Status-kvo» daha geniş məna daşıdığı və vəziyyəti bütün dolğunluğu ilə (ictimai-hüquqi və xüsusi-hüquqi münasibətlər və s.) ifadə etdiyi halda, U.p. ərazilərə faktiki sahib olmaya aiddir. U.p. termininin tətbiqi hazırki vəziyyətin aid olduğu anı dəqiq müəyyən etməyi tələb edir.

**UZUN HƏSƏN** (1423-1478). 1468-1478 illərdə Ağqoyunlu hökmdarı, görkəmli sərkərdə və *diplomat*. Ucaboylu olduğundan müasirləri ona «Uzun» ləqəbi vermişdilər. 1453 ildən Diyarbəkirdə Ağqoyunlu tayfa ittifaqına başçılıq etmişdi. 1467 ildə Muş vuruşmasında Cahan şahı məğlubiyyətə uğradan U.H. 1468 ildə Qaraqoyunlu dövlətinə son qoyaraq qısa müddətdə Xorasandan Qaramana qədər uzanan geniş bir ərazini hakimiyyəti altında birləşdirdi. U.H. 1468 ildə Azərbaycana soxulan Teymuri Əbu Səidi məğlub etdi. Mərkəzi Təbriz olmaqla Ağqoyunlu dövlətinin əsasını qoyan U.H. mərkəzləşdirmə siyasəti yürüdürdü. O, ölkənin iqtisadi həyatını dirçəltmək və vergi toplanmasını nizama salmaq məqsədilə xüsusi «Qanunnamə» («Həsən padşah qanunları») verdi. U.H. iri köçəri-hərbi

əyanlarının imtiyazlarını məhdudlaşdırdı, oturaq əhaliyə arxalanmağa başladı. Daimi nizami ordu yaratmaq üçün oturaq əhali muzdlu hərbi xidmətə cəlb olundu. Avropa ölkələrindən artilleriya mütəxəssisləri və toptökən ustalar dəvət olundu. U.H.-nin dini siyasəti də ölkənin möhkəmləndirilməsinə yönəldilmişdi. O, bacısını səfəvi Şeyx Cüneydə, qızı Aləmşah Bəyimi (I Şah İsmayılın anası) isə Şeyx Heydərə ərə vermişdi. U.H. Avropa ölkələri ilə əlaqələrini daha da möhkəmləndirmək məqsədilə Trabzon imperatoru IV İoannın qızı Dəspinə xatunla (Teodora) evlənmişdi. Avropa ölkələri ilə birbaşa ticarət əlaqələri yaratmaq məqsədilə Qara dəniz və Aralıq dənizi sahillərinə gedən ticarət yollarını tutmağa çalışan U.H. Osmanlı imperiyasına qarşı Venetsiya ilə saziş bağladı. Bu ittifaqa Macarıstan, Neapol Krallığı, Papalıq, Rodos, Kipr, Burqundiya hersoqluğu, Qaraman əmirliyi və s. ölkələr də qoşuldu. Lakin müttəfiqlərin əlbir çıxış etməməsi Bursayadək irəliləyən Ağqoyunlu qüvvələrinin 1473 ildə məğlubiyyəti ilə nəticələndi. 1478 ildə ağqoyunlular Şərqi Gürcüstana, Urfa və Amidə hərbi səfərləri zamanı gürcü və Misir qoşunlarını məğlubiyyətə uğratdılar.

U.H.-nin dövründə Ağqoyunlu sarayı Avropa ölkələri, Böyük Moskva knyazlığı və s. dövlətlərlə daimi *diplomatik münasibətlər* saxlayırdı. Təbrizdə bir çox ölkənin daimi *səfirliyi* vardı. Geniş quruculuq tədbirləri həyata keçirən U.H. Təbrizdə Qeysəriyyə örtülü bazarı, Nəsriyyə mədrəsə-məscidi və s. ictimai binalar tikdirmişdi. U.H.-nin sarayında elmi məclis fəaliyyət göstərirdi. Hökmdara məxsus kitabxanada 58 alim çalışırdı. Tarixçi Əbu Bəkr Tihrani, filosof Cəlal əd-din Dəvvani, italiyalı C.M.Anciolello Uzun Həsənə xüsusi əsərlər həsr etmişlər.

## Ü

**ÜÇLƏR İTTİFAQI.** Almaniya, Avstriya-Macarıstan və İtaliyanın daxili olduğu hərbi-siyasi blok. 1879-1882 illərdə formalaşmışdı. Ü.i.-nın siyasəti bloka rəhbərlik edən Almaniya imperializminin təcavüzkarlığının artması ilə xarakterizə olunurdu. Bu təcavüzkar siyasət son nəticədə 1914-1918 illər *Birinci dünya müharibəsinə (Müharibə)* gətirib çıxartdı. Ü.i. 1915 ildə İtaliyanın *Antanta* bloku tərəfində müharibəyə qoşulması ilə dağıldı.

**ÜMUMDÜNYA BMT-yə YARDIM ASSOSİYASİYALARI FEDERASİYASI.** *Beynəlxalq qeyri-hökumət təşkilatdır.* 1946 ildə təsis olunub. *BMT*-yə yardım milli assosiyasiyalarını birləşdirir. Əsas fəaliyyət istiqaməti - sülh, *beynəlxalq təhlükəsizlik* və əməkdaşlıq məsələlərinin həllinə yardım göstərməkdən ibarətdir. Cenevrə şəhərində yerləşir. Federasiyanın ali orqanı - ildə iki dəfə çağırılan plenar assambleyadır. Federasiyanın icrayyə komitəsinin tərkibinə Federasiyanın prezidenti, xəzinadarı, 17 milli assosiasiyanın nümayəndələri və Beynəlxalq BMT-yə yardım, tələbə və gənclər hərəkatının nümayəndəsi daxildirlər. Federasiyanın katibliyinin işinə Baş katib rəhbərlik edir. Federasiyanın çap orqanı - rübdə bir dəfə nəşr edilən bülletendir.





**ÜMUMDÜNYA İNSAN HÜQUQLARI BƏYANNAMƏSİ** (1948). 10.XII.1948 ildə BMT Baş Assambleyasının 217 (III) saylı qətnaməsi ilə qəbul edilmişdir. 30 maddədən ibarət olan bu sənəddə vətandaş və siyasi hüquqlardan başqa, bir sıra iqtisadi, sosial və mədəni hüquqlar da (məsələn, işləmək hüququ, təhsil hüququ, istirahət hüququ və s.) təsbit olunmuşdur. Bəyannamə beynəlxalq insan hüquqları, habelə bütövlükdə *beynəlxalq hüququn* inkişafında misilsiz rol oynamışdır. Onun başlıca müddəaları bir çox ölkələrin konstitusiyalarında və digər qanunvericilik aktlarında öz əksini tapmış, xeyli sayda milli məhkəmə qərarlarının əsasını təşkil etmişdir.

## V

**VAHABZADƏ İSFƏNDİYAR BƏXTİYAR OĞLU** (1954). 1976 ildə Bakı Dövlət Universitinin şərqşünaslıq fakültəsinin fars şöbəsini bitirmişdir. 1976-1979 illərdə İranda, 1983-1984 illərdə Əfqanıstanda tərcüməçi işləmişdir. 1991-1994 illərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) I katib, sonra isə şöbə müdiri vəzifələrində, 1994-1997 illərdə isə Mədəniyyət Nazirinin müavini vəzifəsində işləmişdir. 1997-1999 illərdə Azərbaycanın Pakistandakı Fövqəladə və Səlahiyyətli *səfiri* olmuş, 1999 ildən isə Azərbaycan Respublikasının *Birləşmiş Millətlər Təşkilatının* Cenevrə şəhərindəki bölməsində və digər *beynəlxalq təşkilatlar* yanında daimi nümayəndəsi işləmişdir.

Hal-hazırda Dünya Azərbaycanlıları ilə iş Komitəsinin sədr müaviinidir. Fövqəladə və Səlahiyyətli səfir diplomatik rütbəsinə (*Diplomatik adlar və rütbələr*) malikdir.

**VALDHAYM KURT** (1918). Avstriya *diplomatı.* 1945 ildən diplomatik xidmətdə olub. 1945-1947 illərdə Avstriya Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*), sonradan Avstriyanın Fransada *səfirliyində* işləyib, «Müstəqil və demokratik Avstriyanın» bərpası haqqında dövlət müqaviləsinin (*Beynəlxalq müqavilə*) hazırlanmasında iştirak edib. 1951-1955 illərdə Avstriya XİN kadrlar şöbəsinin rəisi; 1955-1956 illərdə Avstriyanın *BMT* yanında daimi müşahidəçisi (*Müşahidəçilər*); 1956-1958 illərdə müşavir-elçi və 1958-1960 illərdə Avstriy anın Kanadada *səfiri*; 1960-1964 illərdə Avstriya XİN siyasi idarəsinin rəisi; 1964-1968 illərdə Avstriyanın BMT-də daimi nümayəndəsi, 1965-1968 illərdə Kosmik fəzanın dinc məqsədlə istifadə olunması üzrə BMT komitəsinin sədri olub. 1968-1970 illərdə Avstriyanın Xarici İşlər naziri; 1972-1981 ildə BMT-nin Baş katibi (*Baş Katib*) işləyib. 1986 ildə Avstriyanın federal *prezidenti* seçilib.

**VALİESARİ MÜQAVİLƏSİ** (1658). Barışığa dair; Valiesari kəndində (Narva yaxınlığında) 20.XII bağlanıb; 1656-58 il rus-isveç *müharibəsinə* son qoyub; Baltik dənizinə çıxmağa cəhd göstərən rus qoşunları Liflandiyanın şərq hissəsini ələ keçirmiş, lakin Reç Pospolita ilə sərhəddə yaranan əlverişsiz şərait Moskva hökumətini İsveç ilə sülh danışıqlarına getməyə məcbur etmişdi. Polşanı özünə başlıca rəqib hesab

edən Rusiya İsveç ilə danışıqlarda xeyli güzəştə getməyə hazır olduğunu bildirdi. Üç ildən sonra Polşa ilə müharibəni hələ də qurtarmayan Rusiya tutduğu mövqeləri əldə saxlaya bilməmiş və 1661 il Kardiss sülh müqaviləsinə görə, Pribaltika şəhərlərini İsveçə qaytarmağa və 1617 il Stolbov sülh müqaviləsinin müəyyən etdiyi sərhədlərlə (*Dövlət sərhədləri*) razılaşmağa məcbur olmuşdu.

**VALTER ALEKSANDROVİÇ ŞONİYA** (1936). 1964 ildə Moskva *Beynəlxalq Münasibətlər* İnstitutunu bitirmişdir. Diplomatik işdə 1964 ildən işləyir. 1972-1975 illərdə SSRİ-nin İstambuldakı Baş Konsulluğunda (*Konsul idarəsi*) vitse-*konsul* vəzifəsində çalışmışdır. 1975-1977 illərdə SSRİ Xarici İşlər Nazirliyi (*Xarici İşlər İdarəsi*) Diplomatik Akademiyanın dinləyicisi olmuşdur. 1977-1980 illərdə SSRİ XİN Orta Şərq ölkələri şöbəsinin I katibi, 1980-1987 illərdə SSRİ-nin Laosdakı *səfirliyində* müşavir olmuşdur. 1988 ildən SSRİ-nin Türkiyədəki səfirliyində elçi-müşavir kimi fəaliyyət göstərmişdir. Fövqəladə və Səlahiyyətli səfir dərəcəsinə malikdir. 1992-1995 illərdə Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı *səfiri* işləmişdir.

**VALYUTA QEYD-ŞƏRTİ.** Xarici ticarət dövriyyəsi sahəsində valyuta risklərini azaltmaq və ondan ehtiyatlanmaq forması olub, beynəlxalq kreditlər, ödənclər və digər razılaşmalarda, uzun müddətə bağlanan xarici ticarət müqavilələrində tətbiq edilir.

*Beynəlxalq Valyuta Fondunun* aparıcı haqq-hesab vahidi - xüsusi borcalma (SDR - ingiliscə Special drawing rights - SDR) hüququdur.

V.q.ş.-nin bu formasına uyğun olaraq, əsasən SDR vahidinin saziş bağlandığı tarix üçün olan dəyəri ödənc valyutasında müəyyən edilir. Bu dəyərin ödənc anınadək dəyişəcəyi təqdirdə, ona mütənasib qaydada ödənc məbləği də dəyişməlidir.

**VANBAOŞAN İNSİDENTİ** (1931). Yaponiyanın təhriki ilə törədilib, Şimal-şərqi Çini ələ keçirmək üçün bəhanə yaratmaq məqsədi güdüb.

VIII.1931 ildə o vaxt Mancuriyada olan yapon kəşfiyyatçısı kapitan Nakamura yapon kəşfiyyatının təhriki ilə öldürülmüş və Yaponiyada Çin əleyhinə geniş kompaniya başlanmışdı. Təxribatlar silsiləsi 19.IX. gecəsi başa çatdı: «naməlum çin əsgərləri» Şenyan rayonunda Cənubi Mancuriya dəmir yolunda partlayış törətdilər. Bu, yapon qoşunları tərəfindən Şenyanın ələ keçirilməsi və Cənubi Mancuriyanın işğalı üçün əsas oldu.

**VARGİZ SAZİŞİ** (1945). Yunanıstan hökuməti ilə Yunanıstan Milli-Azadlıq Cəbhəsi arasında Vargiz adlanan yerdə 12.11 imzalanıb; V.s. 1944 ildə Yunanıstana qoşun çıxarmış Böyük Britaniyanın iştirakı ilə imzalanıb. V.s.-ə uyğun olaraq, Milli Azadlıq Cəbhəsi ölkənin dinc və demokratik inkişafına cəhd göstərərək hərbi əməliyyatları dayandırmaq, xalq-azadlıq ordusunu tərxis etmək və girovları azadlığa buraxmaq barədə öhdəlik götürdü və götürdüyü öhdəliklərə bütünlüklə əməl etdi.

Yunanıstan hökuməti öz növbəsində ölkədə söz, mətbuat, yığıncaq azadlıqları və həmkarlar ittifaqları yaratmağa şərait yaratmağı, hərbi vəziyyəti ləğv etməyi, siyasi məhbuslara elliklə amnistiya verməyi, Milli Azadlıq





Cəbhəsi döyüşçülərinə münasibətdə heç bir ayrı-seçkilik qoymadan milli ordu yaratmağı, dövlət aparatını və polisi kollaborasionistlərdən (faşistlərə satılan vətən xainləri) təmizləməyi, 1945 ildən gec olmayaraq Yunanıstanın dövlət quruluşuna dair azad *referendum* keçirməyi öhdəyə götürdü.

**VARŞAVA MÜQAVİLƏSİ** (1768). 24.II. Rusiya ilə Reç Pospolita arasında bağlanıb.

M.-yə uyğun olaraq, Polşadakı Roma-katolik kilsəsi hakim olaraq qalır, lakin qeyri-katolik xristianlar mülki hüquq məsələlərində katoliklərlə tamamilə bərabər tutulurdular. Kral isə əvvəllərdə olduğu kimi, yalnız katolik məzhəbindən ola bilərdi. Katoliklərlə katolik olmayan xristianların izdivacına icazə verilirdi. Rusiya Reç Pospolitanın arxaik dövlət quruluşunun toxunulmazlığına təminat verirdi.

V.m. Rusiyanın Polşada nüfuzunu möhkəmləndirdi. Bununla belə Polşanı daxili dini ziddiyyətlərinin yumşaldılması perspektivi V.M-nin əhəmiyyətini artırırdı. Katolik rəhbərlik Bare şəhərində konfederasiya (silahlı ittifaq) yaradaraq V.m.-ə qarşı çıxdı. Konfederasiya 1768-1772 illərdə rus qoşunları tərəfindən darmadağın edildi.

**VARŞAVA MÜQAVİLƏSİ İŞTİRAKÇISI DÖVLƏTLƏRİNİN SİYASİ MƏSLƏHƏT KOMİTƏSİ** (SMK). 1955 il *Varşava Müqaviləsi Təşkilatının* ali siyasi orqanı. Müqavilənin (*Beynəlxalq müqavilə*) 6 bəndinə uyğun olaraq, bu sənədin həyata keçirilməsi ilə bağlı ortaya çıxan məsələlərə baxılması, nəzərdə tutulan məsləhətləşmələrin keçirilməsi və eləcə də müqavilə iştirakçısı olan dövlətlərin ümumi mənafeyinə toxunan bütün mühüm beynəlxalq məsələlərin nəzərdən keçirilməsi məqsədilə yaradılmışdı. SMK həmçinin, Birləşmiş Silahlı qüvvələr təşkilatı da daxil olmaqla, müqavilə iştirakçısı olan dövlətlərin müdafiə qüdrətinin möhkəmləndirilməsi məsələlərini də müzakirə edir, müvafiq qərarlar çıxarırdı.

SMK daimi fəaliyyət göstərən orqan olmamış və onun müşavirələri yalnız ehtiyac olduqda çağırılırdı. 1955-83 illər arasında SMK 18 müşavirə və iclas keçirib. Varşava Müqaviləsinin şərtlərinə görə, üzv dövlətlərdən hər biri «hökumət səviyyəsində və ya xüsusi olaraq təyin olunmuş nümayəndə» ilə SMK-da təmsil olunmalı idi. SMK-nın birinci iclasında (27-28.I.1956) iştirak edən nümayəndə heyətlərinə *hökumət başçıları* və ya onların müavinləri rəhbərlik etmişlər. Yüksək səviyyədə keçirilmiş sonrakı müşavirələrdə *dövlət başçıları* və hökumət başçıları ilə yanaşı fəhlə və kommunist partiyalarının rəhbərləri də iştirak ediblər. Müşavirələrdə həmçinin xarici işlər nazirləri və müdafiə nazirləri, Birləşmiş Silahlı Qüvvələrin Ali Baş Komandanı və Qərargah rəisi, SMK-nın Baş katibi iştirak edirdilər. İclaslara növbə ilə hər dəfə müttəfiq dövlətlərdən birinin nümayəndəsi sədrlik edirdi.

SSRİ-nin dağılması ilə Siyasi Məsləhət Komitəsi öz fəaliyyətinə son qoydu.

**VARŞAVA MÜQAVİLƏSİ İŞTİRAKÇISI DÖVLƏTLƏRİNİN SİYASİ MƏSLƏHƏT KOMİTƏSİNİN MÜŞAVİRƏLƏRİ.** 1) 27-28.I.1956. Praqada keçirilib. İclasda 1955 il *Varşava Müqaviləsi Təşkilatı* iştirakçısı olan dövlətlərin Birləşmiş Silahlı Qüvvələrinin (BSQ) Vahid Komandanlığının Əsasnaməsi təsdiq edilmiş və BSQ fəaliyyəti ilə bağlı məsələlər həll olunmuşdu. ADR

nümayəndələrinin ADR Milli Xalq Ordusu yaradılandan sonra onun hərbi kontingentinin BSQ-yə daxil edilməsi barədə təklifi qəbul olunmuş; Siyasi Məsləhət Komitəsinin işi ilə bağlı bəzi təşkilati məsələlər müzakirə edilmişdi.

2) 24.V.1958. Moskvada keçirilib; dünyada mövcud vəziyyətlə əlaqədar fikir mübadiləsi aparılmış, *beynəlxalq gərginliyin zəifləndirilməsi* məqsədilə birgə tədbirlər hazırlamaq fikri irəli sürülmüşdü.

3) 4.II.1960. Moskvada keçirilib; beynəlxalq vəziyyətin ən mühüm problemləri müzakirə edilmiş, hamılıqla və tam tərksilah, habelə Almaniya ilə sülh müqaviləsi (*Beynəlxalq müqavilə*) bağlamaq məsələləri ətrafında fikir mübadiləsi aparılmışdı.

4) 28-29.III.1961. Moskvada keçirilib; beynəlxalq hadisələrin inkişafı ilə bağlı fikir mübadiləsi aparılmış, Avropada və bütün dünyada sülh və əmin-amanlığın təmin olunması üzrə Varşava Müqaviləsi dövlətlərinin növbəti tədbirləri nəzərdən keçirilmişdi.

5) 07.VI.1962. Moskvada keçirilib; Almaniya məsələsinin dinc yolla tənzimlənməsi üzrə sovet-Amerika danışıqlarına dair fikir mübadiləsi aparılmış, SSRİ-nin bu danışıqlarda tutduğu mövqe dəstəklənmişdi.

6) 26.VII.1963. Moskvada keçirilib; Varşava Müqaviləsi dövlətlərinin hərbi qüvvələrinin vəziyyəti məsələləri nəzərdən keçirilmiş, müvafiq qərarlar qəbul edilmişdi.

7) 19-20.I.1965. Varşavada keçirilib; *NATO*-nun «çoxtərəfli nüvə qüvvələri» yaratmaq planları ilə əlaqədar yaranmış vəziyyət müzakirə edilmişdi. Qəbul edilmiş Birgə bəyanatda qeyd edilirdi ki, NATO çərçivəsində «çoxtərəfli nüvə qüvvələrinin yaradılması nüvə silahının yayılması və bu silahın AFR-ə verilməsi demək olardı».

8) 04-06.VII.1966. Buxarestdə keçirilib; Avropada sülh və təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılmış və Vyetnama qarşı ABŞ təcavüzü ilə əlaqədar yaranmış vəziyyət müzakirə edilmişdi.

9) 06-07.III.1968. Sofiyada keçirilib; Vyetnama qarşı ABŞ təcavüzünün daha da genişlənməsi ilə bağlı yaranmış vəziyyət müzakirə edilmişdi.

10) 17.III.1969. Budapeştdə keçirilib; Varşava müqaviləsi dövlətlərinin Müdafiə Nazirləri Komitəsinin Əsasnaməsi, Birləşmiş Silahlı Qüvvələr və Vahid Komandanlıq haqqında yeni Əsasnamə və Varşava Müqaviləsinin müdafiə strukturlarını və orqanlarını daha müasir tələblər səviyyəsində qurmaq haqqında digər sənədər təsdiq olunmuşdur.

11) 20.VIII.1970. Moskvada keçirilib; aktual beynəlxalq problemlər müzakirə edilmiş, Avropada vəziyyətə xüsusı diqqət yetirilmişdi;.SSRİ ilə AFR arasında imzalanan 12.VIII.1970 il müqaviləsinin Avropada gərginliyin azaldılmasında əhəmiyyəti qeyd edilmiş, ümumavropa müşavirəsinin çağrılması zəruri hesab olunmuşdu.

12) 02.XII.1970. Berlində keçirilib; Avropa, Hind-Çin yarımadası və Yaxın Şərqdə vəziyyət nəzərdən keçirilmiş, Portuqaliyanın Qviney Respublikasına qarşı təcavüzü ətrafında fikir mübadiləsi aparılmışdı.

13) 25-26.I.1972. Praqada keçirilib; Avropada sülh, təhlükəsizlik və əməkdaşlığa dair problemlər müzakirə edilmiş və ümumavropa müşavirəsinin çağrılması barədə məsələyə baxılmışdı.

14) 17-18.IV.1974. Varşavada keçirilib. Avropada təhlükəsizliyin möhkəmləndirilməsinə və beynəlxalq gərginliyin daha da azaldılmasına dair aktual məsələlər müzakirə edilmişdi.

15) 25-26.XI.1976. Buxarestdə keçirilib; Sülhün qorunması və beynəlxalq aləmdə gərginliyin azaldılmasına dair aktual problemlər ətrafında fikir mübadiləsi aparılmışdı.

16) 22-23.XI.1978. Moskvada keçirilib; Avropada yaranmış şərait və eləcə də bütövlükdə beynəlxalq problemlərlə bağlı məsələlər müzakirə edilmişdi. Əsas diqqət gərginliyin aradan qaldırılmasına və *tərksilah* prosesini daha da intensivləşdirməyə yönəlmişdir.

17) 14-15.V.1980. Varşavada keçirilib; Varşava Müqaviləsinin 25 illik fəaliyyətinə yekun vurulmuş, Avropada təhlükəsizlik və gərginliyin azaldılması, dünyada ümumi sülhün möhkəmləndirilməsi uğrunda mübarizənin aktual problemləri və vəzifələri müzakirə edilmişdi.

18) 04-05.I.1983. Praqada keçirilib; Avropada mövcud vəziyyətdən irəli gələn beynəlxalq durumun kəskinləşməsi müzakirə edilmiş, bir sıra digər beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Müşavirənin yekunları Varşava Müqaviləsi dövlətlərinin 1983 il Siyasi *Qətnaməsində* əks etdirilmişdi.

**VARŞAVA MÜQAVİLƏSİ TƏŞKİLATI** (1955). 14.V. ADR, Albaniya, Bolqarıstan, Çexoslovakiya, Macarıstan, Polşa, Rumıniya və SSRİ tərəfindən Varşavada imzalanmış və *NATO* hərbi-siyasi blokuna qarşı yaradılmışdı. IX.1968 ildə Albaniya təşkilatından çıxdı. V.M.T.-ın hərbi qüvvələrindən Macarıstan və Çexoslovakiya (*Macarıstan hadisələri; Çexoslovakiya hadisələri*) böhranlarının aradan götürülməsində istifadə olunmuşdu. 1980 illərin sonlarında «dünya sosializm sisteminin» böhranı nəticəsində təşkilat öz fəaliyyət qabiliyyətini itirmiş və 01.VII.1990 ildə özünü buraxdığını elan etmişdir.

**VARŞAVA SAZİŞİ** (1733). 07.VII. Avstriya-Saksoniya və 08.VIII. Rusiya-Avstriya-Saksoniya arasında imzalanıb.

Polşa kralı II Avqust öləndən sonra Fransanın əlaltısı S.Leşinski Polşa taxt-tacında oturmağa cəhd göstərdi. Bununla əlaqədar Rusiya və Avstriya II Avqustun oğlu Saksoniya kurfürstü (knyaz) Fridrix Avqustun namizədliyinə öz mənfi münasibətlərini dəyişməyə və Polşa taxtı uğrunda mübarizədə ona kömək etməyə məcbur oldular. Fridrix Avqust öz növbəsində V.s.-nə əsasən Avstriya varisliyinə iddialarından əl çəkdi və Rusiya bunun müqabilində belə bir təəhhüd götürdü ki, Kurlyandiya məsələsinin həllində onun dediklərilə hərəkət edəcəkdir. Bununla da Kurlyandiya taxt-tacının Rusiya imperatriçası Anna İvanovnanın məşuqu Birona verilməsi irəlicədən həll edildi.

**VASİTƏÇİLİK.** *Beynəlxalq mübahisələrin sülh yolu ilə həll edilməsi* vasitələrindən biri. Mübahisə iştirakçısı olmayan hər hansı üçüncü tərəf *beynəlxalq hüquqa* uyğun qaydada öz təşəbbüsü və ya çəkişən tərəflərin xahişi ilə onlar arasında danışıqları təşkil edir, çox vaxt da özü həmin danışıqların bilavasitə iştirakçısı olur.

Üçüncü tərəfin V. təklifinə münaqişəyə müdaxilə kimi baxılmamalıdır; V.-in həyata keçirilməsi çəkişən tərəflərin yalnız birgə razılığı ilə mümkündür.

V. beynəlxalq hüququn qəbul olunmuş təsisatıdır. Bu barədə müvafiq müddəa beynəlxalq toqquşmaların dinc yolla həllinə dair 1907 il Haaqa Konvensiyasında təsbit olunmuşdu (*Haaqa Konfransları 1899 və 1907*).V *BMT Nizamnaməsinin* 33-cü maddəsilə təsbit olunan mübahisələrin dinc yolla həlli vasitələri siyahısına daxildir. Bu məsələyə həmçinin *BMT Baş Məclisinin* 1982 ildə qəbul etdiyi Beynəlxalq mübahisələrin dinc yolla həllinə dair Manila *Bəyannaməsində* də toxunulur.

**VASSAL DÖVLƏT** (lat. *vassalus – vassal, vassus* - xidmətçi). Vassallıq orta əsrlərdə Qərbi Avropada feodal vassalların digər feodallardan – senyorlardan şəxsi asılılıq münasibətləri sistemi olmuşdu. İri feodallar senyorun (süzerenin) vassalı olmaqla bərabər, eyni zamanda öz vassallarına da malik idi. V.d. suzerenin onun qanunlarına, inzibati və məhkəmə fəaliyyətinə geniş müdaxiləsinə yol verməyə məcbur olur və nəinki daxili siyasətlə bağlı (məs., pul nişanlarının emissiyası hüququ), eləcə də xarici əlaqələr qurmaq üçün zəruri hüquqlardan məhrum edilir. V.d.-in tabeçiliyi suzeren tərəfindən vassal *dövlət başçısının* təsdiq olunması və, sədaqət andının içilməsi ilə müşayət olunurdu ki, bu da vassalın suzerendən asılılığına şəxsi xarakter verir, vassallığı protektoratlıqdan (*Qəyyumluq*) ayırırdı.

Hazırki dövrdə Avropada tarixi keçmişin qalığı kimi bir V.d. qalıb: o da Pirineyada yerləşən, Fransadan və Urxel (İspaniya) yepiskopundan vassal asılılığında olan kiçik icma – Andorra respublikasıdır. Keçmişdə (1856-1870-ci illərdə) Serbiya, Çernoqoriya Osmanlı imperiyasından asılı V.d.-lər idi. Hindistan və Pakistan dövlətlərinin meydana gəlməsinədək çox saylı (500-dən çox) hind feodal knyazlıqları İngiltərə kralının «suzereniteti» altında olan V.d.-lər idilər.

Daxili siyasətdə bəzi cüzi müstəqilliklərinin olmasına baxmayaraq V.d. *beynəlxalq münasibətlərdə* iştirak etmirdilər və *beynəlxalq hüququn* subyekti olmur. Onlar *beynəlxalq müqavilələr* bağlamaq və *diplomatik münasibətlər* qurmaq hüququndan məhrum olurlar. Süzeren dövlətin imzaladığı siyasi, ticarət, gömrük və d. müqavilələr avtomatik olaraq onun beynəlxalq münasibətlərdə rəsmi şəkildə təmsil etdiyi V.d.-ə aid edilir.

**VAŞİNQTON BƏYANNAMƏSİ** (1942) (daha çox 26 dövlətin və ya Birləşmiş Millətlərin bəyannaməsi kimi də tanınır). 01.I. SSRİ, ABŞ, Böyük Britaniya, Çin, Avstraliya, Belçika, Hindistan, Kanada, Kosta-Rika, Kuba, Çexoslavakiya, Dominikan Respublikası, Salvador, Yunanıstan, Qvatemala, Haiti, Honduras, Hollandiya, Lüksemburq, Yeni Zelandiya, Nikaraqua, Norveç, Panama, Polşa, CAR, Yuqoslaviya nümayəndələri tərəfindən Vaşinqtonda imzalanıb. Vaşinqton *Bəyannaməsinin* preambulasına əsasən düşmən üzərində tam qələbə bütün ölkələrdə «yaşayışı, sərbəstliyi, müstəqilliyi, dini azadlığı, insan hüquqları və ədaləti qorumaq üçün» zəruridir.

**VAŞİNQTON CORC** (1732-1799). ABŞ siyasi və hərbi dövlət xadimi. Böyük Britaniyanın Şimali Amerikadakı müstəmləkələrinin istiqlaliyyət uğrunda apardıqları *müharibənin* fəal iştirakçılarından biri; 1775-1783 illərdə Kontinental konqresin nümayəndəsi, müstəmləkələrin hərbi qüvvələrinin baş komandanı olub. 1789-1797 illərdə ABŞ-ın ilk *prezidenti* olub. İttifaq haqqında 1778 il ABŞ-Fransa müqaviləsinin (*Beynəlxalq müqavilə*) ziddinə olaraq, 1793 ildə Avropa dövlətləri arasında gedən müharibəyə və inqilabi Fransaya münasibətdə ABŞ-ın *bitərəfliyini* bəyan edən fərmanı imzalayıb. V.C. tərəfindən dəstəklənən İngiltərə ilə yaxınlaşmaq xətti, habelə 1794 il Cey müqaviləsi, ABŞ-ın siyasi-ictimai dairələrində açıq narazılıq doğurmuş və bu 1797 il prezident seçkilərində onun məğlubiyyəti ilə nəticələnmişdir.

**VAŞİNQTON KONFRANSI** (1921-1922). 12.XI.-6.II. ABŞ, Böyük Britaniya, Belçika, Çin, Fransa, Hollandiya, Portuqaliya, İtaliya və Yaponiyanın iştirakı ilə keçirilmiş və *birinci dünya müharibəsindən* sonra Sakit okean hövzəsində yaranmış qüvvələri özündə əks etdirən qərarlar qəbul etmişdi. 13.XII.1921 ildə ABŞ, Böyük Britaniya, Fransa və Yaponiya Sakit okean adalarına olan hüquqlarının birgə müdafiəsi haqqında müqavilə (*Beynəlxalq müqavilə*) imzaladılar. 06.II.1922 ildə ABŞ, Böyük Britaniya, Belçika, Çin, Fransa, Hollandiya, İtaliya, Portuqaliya və Yaponiya Çinin müstəqilliyinin tanınması və ona münasibətdə «*Açıq qapılar» siyasətinə* əməl olunması haqqında müqavilə imzaladılar. 06.II. ABŞ, Böyük Britaniya, Fransa İtaliya Yaponiyanın hərbi dəniz qüvvələri nisbətini müəyyənləşdirən müqavilə imzalandı. ABŞ, Böyük Britaniya, və Yaponiyanın hərbi donanmalarının nisbəti 5:5:3 miqyasında müəyyənləşdirildi. Fransa və İtaliya ABŞ hərbi dəniz qüvvələrinin 35%-i həcmində olan donanmaya malik ola bilərdilər.

**VAŞİNQTON MÜŞAVİRƏLƏRİ** (1951, 1953). ABŞ, Böyük Britaniya və Fransa xarici işlər nazirlərinin iştirakı ilə keçirilib. 1) 1951 il müşavirəsi - 10-15.IX. keçirilib. AFR-nin silahlanması və onun *NATO*-ya daxil edilməsi məsələsinə dair Qərb dövlətlərinin apardıqları danışıqlar silsiləsində mühüm yer tutur. M.-də AFR-in Avropa Müdafiə Birliyi çərçivəsində silahlanmasına dair qərar çıxarılmış, «Avropa Birliyi yaradılması yolunda» iri addım kimi qələmə verilən «Şuman planı» təqdir edilmişdi.

2) 1953 il müşavirəsi, 10-14.VII keçirilib. M.-də ABŞ və İngiltərə SSRİ ilə yüksək səviyyədə danışıqlar aparmaq fikrindən imtina edərək, əvəzində Almaniyanın azad seçkilər əsasında birləşməsi, «azad ümumalman hökuməti yaradılmasının şərtləri» və Avstriya dövlət müqaviləsinin (*Beynəlxalq müqavilə*) bağlanması barədə xarici işlər nazirləri səviyyəsində SSRİ ilə məsləhətləşmə keçirilməsi haqda təklif irəli sürmüşlər. M. iştirakçıları həmçinin Avropa müdafiə birliyi barədə müqavilənin *ratifikasiyasını* başa çatdırmaq, NATO-nun daha da möhkəmləndirilməsinə nail olmaq, ÇXR barəsində, habelə Koreyada barışığa nail olmaq və Hind-Çində *müharibəyə* dair razılaşdırılmış siyasət yeritmək niyyətində olduqlarını bildirmişlər.

**VATİKAN** (ital. *Vaticano, Stata della citta del Vaticano*). İtaliyanın paytaxtı olan Romanın sərhədləri daxilində, 0,44 kv.km. ərazisi və 1 min nəfərə yaxın əhalisi olan şəhər-dövlət. Katolik kilsəsinin mərkəzi, onun başçısı Roma papasının iqamətgahıdır. V. dövləti İtaliya ilə Papa vilayəti arasında 11.II.1929 il Lateran sazişinə əsasən yaradılmışdı. Lateran sazişi 18.II.1984 il *Konkordat* müqaviləsi ilə əvəz olunmuşdur. Saziş və müqaviləyə (*Beynəlxalq müqavilə*) görə İtaliya V.-nın *suverenliyini* tanıyır, onlar arasında *diploma-*

*tik münasibətlər* yaradılır, katolik dini italiyada yeganə dövlət dini elan edilir, kilsə dövlətdən ayrılır.

V. *beynəlxalq hüququn subyekti* kimi, müəyyən hüquqlara malikdir. İri kapital sahibi olan V. beynəlxalq maliyyə-bank sistemi və iri şirkətlərlə əlaqə saxlayır.

**VAYSZEKKER RİXARD** (1920). 1984 ildə AFR *prezidenti* seçilib. İttingen, Oksford, Qrenobl universitetlərində təhsil alıb. *İkinci Dünya müharibəsində* iştirak edib. *Müharibədən* sonra hüquq elmlərini öyrənmiş, sonralar sənaye, habelə Essen və Düsseldorf Banklarında rəhbər vəzifələr tutmuşdu. 1956 ildən XDİ üzvüdür. Uzun müddət Alman Evangeliya kilsəsinin prezidenti, Bundestaqda XDİ/XSİ fraksiyasının sədr müavini olub. 1981-1984 illərdə Qərbi Berlinin hakim burqomistri işləyib.

**VEBSTER-AŞBERTON MÜQAVİLƏSİ** (1842). ABŞ dövlət katibi D.Vebster və İngiltərənin xüsusi elçisi lord Aşberton tərəfindən 09.VIII Vaşinqtonda *imzalanıb*. M. ABŞ-la Kanada arasında şimal-şərq sərhəd (*Dövlət sərhədləri*) məsələlərilə əlaqədar mübahisələrə son qoymuş, Men ştatı ilə İngiltərə mülkləri arasında (Kanadada) sərhədləri son olaraq müəyyənləşdirmişdi. 12027 kv. millik mübahisəli ərazidən 7015 kv.mili ABŞ-a təhkim olunmuşdu.

M. 1838-1839 illərdə ABŞ ilə İngiltərə arasında az qala silahlı toqquşmaya gətirib çıxaran Amerika-Kanada sərhəd ziddiyyətlərinə son qoydu.

**VEDEMEYER MİSSİYASI** (1947). ABŞ-ın bir qrup hərbi və siyasi xadiminin 22.VII-24.VIII Çinə səfəri; Amerika qoşunlarının baş komandanı general-leytenant Vedemyer bu missiyaya başçılıq etmişdi. V.m.-dan məqsəd Homindan rejiminə yardım göstərmək və Çin Xalq Azadlıq Ordusunun hücumu nəticəsində yaranmış vəziyyəti öyrənmək idi. Vedemyer Homindan ordusuna daha çox silah və sursat göndərmək, Amerika qoşunlarının Çində qalma müddətini uzatmaq, Tayvanı icarəyə götürmək, Çində Amerika qoşunlarının toxunulmazlığını təmin etmək, Çinin siyasi, hərbi və iqtisadi həyatını nəzarətə götürmək və bunun müqabilində 1,5-2 mlrd. ABŞ dolları həcmdə yeni borc vermək barədə ABŞ-ın niyyətləri haqqında Çan Kay-şiyə məlumat vermişdir. O, hominadançılardan tələb etmişdi ki, Çin ərazisində 8 hərbi bazanın tikilməsinə icazə versin. Tayvan adasını icarəyə versin, amerikan ordusunun Çin sazisində toxunulmazlıq hüququnu təmin etsin, Çinin siyasi, hərbi və iqtisadi həyatı üzərində ABŞ nəzarətini bərqərar etsin.

Homindançılar Vedemyerin Çini ABŞ-dan asılı vəziyyətdə saxlayacaq bir sıra tələblərini qəbul etməyə hazır idilər. Lakin ÇİN Xalq Azadlıq Ordusunun güclü hücumları ABŞ-a bu planları həyata keçirməyə imkan vermədi.

**VELLİNQTON ARTUR UELSLİ** (1769-1852). Hersoq, Britaniyanın dövlət xadimi, sərkərdə və *diplomat*.

1790-1797 illərdə İrlandiya Nümayəndələr Palatasının üzvü, 1797-1805 illərdə müstəmləkə qoşunlarının tərkibində Hindistanda diviziya komandiri, 1806-1809 illərdə Nümayəndələr Palatasının üzvü, 1807-1809 illərdə İrlandiya məsələləri üzrə nazir. 1809 ildə Fransada Britaniya ordusunun komandanlıq edib; 1813 ildə marşal rütbəsi alıb. 1814-1815 illərdə Böyük





Britaniyanın Fransada səfiri işləyib 1814-1815 illərdə *Vyana konqresində* iştirak edib. Voterloo altında döyüşdə (1815) – müttəfiqlərin Fransadakı işğalçı qoşunlarının başçısı olmuşdu, 1818 il *Aahen konqresində* Böyük Britaniyanı təmsil etmişdi.

1821-1827 illərdə kabinetin üzvü olub, 1822 ildə *Verona konqresində* iştirak edib; 1826-1827 illərdə Sankt-Peterburqda səfər zamanı yunan məsələsi üzrə I Nikolayla danışıqlar aparmış; 1827 və 1842-1852 illərdə Britaniya qoşunlarının baş komandanı, 1828-1830 illərdə Baş nazir; 1834-1835 illərdə xarici işlər naziri; 1841-1846 – *portfelsiz nazir* olmuşdu, 1846 ildə fəal siyasətdən uzaqlaşmışdı.

**VENS SAYRUS ROBERTS** (1917). ABŞ-ın siyasi və dövlət xadimi, *diplomat*. 1961-1962 illərdə ABŞ Müdafiə Nazirliyinin baş hüquq məsləhətçisi (müşaviri); 1962-1963 illərdə müdafiə naziri; 1964-1967 illərdə müdafiə nazirinin müavini; 1967 ildə Kiprdə vəziyyətlə əlaqədar ABŞ *prezidentinin* xüsusi elçisi olmuş, 1968 ildə eyni vəzifədə Koreyada çalışmış; 1968-1969 illərdə Veytnamla bağlı Paris danışıqlarında ABŞ nümayəndə heyəti başçısının müavini, 1977-1980 illərdə ABŞ dövlət katibi, strateji silahların məhdudlaşdırılmasına dair sovet Amerika danışıqlarının iştirakçısı, SSM-2 müqaviləsinin bağlanması və *ratifikasiya* olunmasının tərəfdarı kimi çıxış etmiş, 1947-1961 və 1967-1977 illərdə və 1980 ildən başlayaraq vəkil işləmişdi. 1980 ildən *tərksilah* və təhlükəsizlik məsələləri üzrə müstəqil komissiyanın üzvüdür.

**VERBAL NOTA** (lat. *verbalis* - şifahi). V.n. *diplomatik yazışmanın* ən geniş yayılmış növlərindən biridir. V.n.-da xarici işlər nazirliyinin və *diplomatik nümayəndəliyinin* fəaliyyətində meydana çıxan ən müxtəlif məsələlərdən bəhs olunur. V.n. komplement müraciətlə başlayır və onunla da tamamlanır. V.n. nota blankında çap edilir, nömrəsi, göndərildiyi yer və tarix göstərilir. Notada *Xarici İşlər İdarəsinin* və ya diplomatik nümayəndəliyin möhürü vurulur. V.n.-nın mətni 3-cü şəxsdə tərtib olunur.

V.n.-nın aşağı sol küncündə birinci səhifədə notanın neçə səhifədən ibarət olmasına baxmayaraq notanın göndərildiyi ünvan göstərilir. V.n. imzalanır. Ya şəxsən təqdim olunur, ya da *diplomatik kuryerlə* göndərilir.

**VEREL SÜLH MÜQAVİLƏSİ** (1790). 1788-1790 illər Rusiya-İsveç *müharibəsinə* son qoyub; 03.III Verele kəndində (Finlandiya) sülh konfransının gedişində bağlanıb.

1787-1791 il rus-türk müharibəsini özü üçün fürsət sayan İsveç dövləti Pribaltika əyalətlərini geri almağa və Rusiyanın Baltik dənizində nüfuzunu zəifləmtməyə cəhd göstərdi. Danışıqların gedişində Rusiya tərəfi isveçlilərin bütün ərazi tələblərini rədd etdi. Rusiya ilə Türkiyə arasında tezliklə sülh bağlana biləcəyindən ehtiyat edən İsveç özünün ərazi iddialarından imtina etməli oldu. Heç bir ərazi dəyişmələrinə gətirib çıxarmayan Verel sülh müqaviləsi hələ 1721 il Niştadt sülh müqaviləsi zamanından 3 pribaltika-rus limanında isveçlilərə gömrük rüsumu ödəmədən hər il 50 min manat dəyərində taxıl almaq icazəsini bir daha təsdiq etdi. V.s.m.-nin bağlanması antirus *koalisiyası* yaratmağa cəhd edən İngiltərə və Prussiya üçün tamamilə gözlənilməz olmuşdu.

**VERONA KONQRESİ** (1822). *Müqəddəs İttifaqın* IV son diplomatik toplantısı; 20.X-14.XII Veronada (İtaliya) keçirilib. V.k.-də Rusiya çarı I Aleksandr (*Aleksandr I*), Avstriya imperatoru I Frans, Prussiya kralı III Vilhelm, İtaliya rəsmiləri və xeyli sayda diplomat iştirak etmişdi. V.K.-də Avstriya, Fransa, Prussiya və Rusiyanın İspaniyaya qarşı çıxmalarının şərtləri, habelə yunan üsyanı ilə bağlı məsələlər, Rusiya-Türkiyə münaqişəsi, zəncilərin alqı-satqısı və Cənubi Amerikada İspaniya müstəmləkələrinin taleyi müzakirə mövzusu olmuşdu.

Konqresin (*Beynəlxalq konqres*) işi dövlətlər arasında kəskin mübarizə şəraitində keçib. İnqilabın baş verə biləcəyi qorxusu Rusiya, Avstriya və Prussiyanı məcbur etdi ki, Fransaya Müqəddəs İttifaq adından İspan inqilabına qarşı çıxmaq və müdaxiləni Latın Amerikasındakı ispan müstəmləkələrinin ərazisinə də keçirmək səlahiyyəti verilsin. Lakin bu qərar Latın Amerikası bazarlarında Fransa rəqabətindən qorxan İngiltərə tərəfindən etirazda qarşılandı. Bununla əlaqədar İngiltərə ABŞ-a müraciət edərək öz fəaliyyətlərini əlaqələndirməyi təklif etdi. Bu təklifin nəticəsi olaraq ABŞ «Monro doktirinası» ilə çıxış etdi. V.k. Latın Amerikası ölkələrinə müdaxiləni yaymaq ideyasından imtina etməli oldu. Rusiya, Avstriya, Prussiyya və Fransanın nümayəndələri inqilabi ispan hökumətinə qarşı birgə diplomatik çıxış etmək barədə qərara gəldilər.

V.k.-də həmçinin İtaliyada vəziyyət müzakirə edildi. Fransanın istəyinin əksinə olaraq Neapolda və Sardiniyada Avstriya müdaxiləsinin vaxtını uzatmaq qərarı alındı.

V.k. iştirakçıları Veronaya yardım almaq üçün gələn Yunanıstan nümayəndə heyətini qəbul etmədilər. Zəncilərin alınıb-satılması haqqında ingilis nümayəndə heyətinin qoyduğu məsələ də həll olunmamış qaldı. V.k.-də Sardiniyanın İsveçrə ərazisində sardinya inqilabçılarının gizlənməsinə şərait yaradan İsveçrə hökumətindən etdiyi şikayətə də baxıldı. 1823 ildə İspaniyada inqilabi hərəkatın qarşısı alındı. Bu tədbir Müqəddəs İttifaqın son «qələbəsi» idi.

**VERSAL SÜLH MÜQAVİLƏSİ** (Amerika və İngiltərə arasında) (1783). Bu sənəddə 1775-1783 illərdə ABŞ-ın müstəqillik uğrunda İngiltərə ilə apardığı *müharibədə* qələbəsi təsbit edilmişdi; ABŞ-ın o vaxtkı müttəfiqlərindən (Fransa, İspaniya və Niderland) gizli şəkildə işlənib hazırlanmış və 03.IX Versalda artıq müttəfiqlərin iştirakı ilə imzalanmışdı. Müqavilə (*Beynəlxalq müqavilə*) 1782-1783 illərdə İngiltərə ilə ABŞ və onların müttəfiqləri arasında imzalanmış *preliminar sülh müqavilələri* özündə birləşdirmişdir.

ABŞ ilə İngiltərə arasında 30.II.1782 ildə bağlanan ilkin sülh müqaviləsinə görə, İngiltərə ABŞ-ı müqsəqil suveren dövlət (*Dövlət suverenliyi*) kimi tanıyır və gələcəkdə ona qarşı heç bir iddia ilə çıxış etməyəcəyini bildirirdi. İngiltərə öz silahlı qüvvələrini və hərbi gəmilərini ABŞ-ın bütün limanlarından və məntəqələrindən çıxarmağı öhdəyə götürürdü. ABŞ-ın sərhədləri (*Dövlət sərhədləri*) qərbdə – Missisipi çayı boyu, şimalda – Böyük göllər, Müqəddəs Lavrent çayı və Atlantik okeanınadək keçən şərti xətt boyu, cənubda Floridadan şimala, Missisipi çayı ilə Atlantik okeanı arasındakı şərti xətt boyu müəyyən edilirdi. Kanada İngiltərənin müstəmləkəsi olaraq qalırdı, lakin onun sərhədləri dəqiqləşdirilmədiyindən bu hal uzun illər İngiltərə-Amerika mübahisələrinin mövzusu olmuşdu. V.s.m. müharibədən qabaq mülki şəxslər arasında bağlanmış borc öhdəliklərinin qarşılıqlı qaydada nizama salınmasını nəzərdə tuturdu. ABŞ *Konqresi* həmçinin loyalistlərə (İngiltərə taxt-tacına sadiq qalanlara) tam aministiya verilməsi və onların müsadirə edilmiş əmlaklarının qaytarılması üçün ABŞ administrasiyası qarşısında vəsatət qaldırmağı öhdəyə götürürdü.

İngiltərə Fransa və İspaniya ilə 20.I-1783 ildə bağladığı ilkin müqaviləyə görə, Vest-İndiyada Tobaqo adasını Fransaya güzəştə gedir və Afrikada Seneqalı ona qaytarırdı. İspaniya Aralıq dənizində Menorka adasını geri alırdı. İngiltərə və Fransa iddialı əraziləri qarşılıqlı qaydada bir-birinə qaytarırdılar.

12.IX.1783 ildə Hollandiya ilə bağlanın ilkin müqaviləyə əsasən, İngiltərə Hindistandakı Holland faktoriyasını – Neqapatamı (indiki Naqapattinam, Mədrəs ştatı) özününkü elan edirdi.

**VERSAL SÜLH MÜQAVİLƏSİ** (1919). 28.VI. *Paris sülh konfransının* gedişində Versal sarayında, *birinci dünya müharibəsində* qalib gəlmiş dövlətlərlə, məğlub olmuş Almaniya arasında imzalanmışdı. Müqavilənin (*Beynəlxalq müqavilə*) şərtlərinə görə Almaniya Elzas-Lotaringiyanı 1870 il sərhədlərinə Fransaya, Poznan və Pomeraniyanın bir hissəsini Polşaya qaytardı, Dansiq (Qdansk) *azad şəhər* elan olundu, Memel (Klapeyda) qalib dövlətlərin idarəçiliyinə verildi, Sileziyanın bir hissəsi Çexoslovakiyaya keçdi, Saar 15 il müddətinə *Millətlər Cəmiyyətinin* idarəçiliyinə verildi, bu müddət bitdikdən sonra, onun hansı dövlətə mənsub olması barədə plebissit keçirilməli idi. Şlezviq, Şərqi Prussiyanın cənub hissəsi və Yuxarı Sileziyanın hansı dövlətə mənsub olması da *plebissitlə* həll olunmalı idi. Reynin sol sahildəki Almaniya əraziləri, həmçinin sağ sahildə 50 km enində zolaq silahsızlaşdırılmalı idi. Almaniyanın müstəmləkələri əsas qalib dövlətlər arasında bölüşdürüldü, onun quru qoşunlarının sayı 100 min nəfərdən çox ola bilməzdi. Almaniya *təzminat* ödəməyi öhdəsinə götürdü. Millətlər Cəmiyyətinin Nizamnaməsi V.s.m.-nin tərkib hissəsi idi.

**VESTFALİYA SÜLHÜ** (1648). Otuzillik müharibəyə son qoymuşdu. 24.X. Münsterdə (Vestfaliya) iki sülh müqaviləsi (*Beynəlxalq müqavilə*) qismində bağlanmışdı. Birinci müqavilə 1645-1648 illər Osnabryuk konqresində – «Müqəddəs Roma imperiyasının» imperatoru və onun müttəfiqləri ilə bir tərəfdən İsveç və onun müttəfiqləri ilə digər tərəfdən imzalanmışdı. İkinci müqavilə isə 1645-1648 illər Münster konqresində (*Beynəlxalq konqres*) «Müqəddəs Roma imperiyasının» imperatoru və onun müttəfiqləri ilə Fransa və onun müttəfiqləri arasında işlənib hazırlanmışdır.

İsveçin iddiaları demək olar ki, tamamilə təmin olunurdu. İsveç Ştettin, Damm, Qolnau şəhərləri də daxil olmaqla, Pomeraniyanın bütün şərqini və qərbinin bir hissəsini, Rüqen və Volin adalarını, Vismar şəhərini (limanı ilə birlikdə), habelə Bremen və Verden yepiskopluğunu ələ keçirir. Köhnə Qanzey şəhərləri – Vismar, Bremen, Ştralzund, Verden və s. öz sərbəstliyini saxlayırdılar. Bu mülklərin suveren (*Suverenlik*) sahibi kimi İsveç, imperiyanın tərkibinə daxil olurdu və imperiya seymlərinə öz vəkillərini göndərmək hüququ əldə edirdi. Beləliklə İsveç baş-

lıca məqsədinə çatdı. Təkcə Baltik deyil, Şimal dənizi sahillərindəki ən mühüm limanlara da sahib oldu. Fransa 3 lotarinq yepiskopluğunu (Mes, Tul və Verden) son olaraq özünə birləşdirir və Strasburq istisna olmaqla, bütün Elzası özünə götürürdü. İsveçrə və Birləşmiş Əyalətlər Respublikası (Hollandiya) müstəqil dövlət kimi tanınır və imperiyanın tərkibindən çıxdılar. Qalib dövlətlər – Fransa və İsveç V.s.-nün icrasının başlıca qarantı elan olundular.

Dini sahədə V.s. Almaniyadakı kalvinistlərə, katolik və lüteranlara hüquq bərabərliyi verdi, lakin alman knyazlarını öz təbəələrinin (*Təbəəlik*) dini mənsubiyyətini təyin etmək hüququndan məhrum etdi, onların öz aralarında və xarici dövlətlərlə müqavilələr bağlamaq səlahiyyəti saxlanıldı. V.s. hüquqi cəhətdən Almaniyanın parçalanmasını bir daha təsdiqlədi.

**VETO** (lat. *veto* - qadağan edirəm). Səlahiyyətli orqanın və ya şəxsin hər hansı qərarın icrasına şifahi və yaxud yazılı şəkildə qadağa qoyması. Müasir dövrdə V. hüquqi *dövlət başçılarına*, ikipalatalı parlamentlərdə yuxarı palataya verilir. *BMT Təhlükəsizlik Şurasının* beş daimi üzvündən (ABŞ, Böyük Britaniya, Çin, Fransa və Rusiya) hər birinin, qeyri-prosedura məsələləri üzrə V. hüquqi vardır.

**VƏKALƏT** (beynəlxalq hüquqda). Üzərində göstərilmiş şəxsin danışıqlar aparmaq, *beynəlxalq müqavilələri* imzalamaq, konfranslarda (*Beynəlxalq konfranslar*) iştirak etmək, *beynəlxalq hökumətlərarası təşkilatlarda* dövləti təmsil etmək və s. hüquqlarını təsdiqləyən sənəd. V.-in mətnində həmin şəxsə kim tərəfindən V.-i verildiyi, V.-i olan şəxsin adı, soyadı, atasının adı, dərəcəsi və ya vəzifəsi; müqavilənin adı və ya danışıqların mövzusu və məqsədi, *beynəlxalq təşkilatın* adı və s. göstərilir.

İkitərəfli müqavilələrin imzalanmasında tərəflər adətən, öz V.-ni təqdim edirlər və bir-birlərinə verirlər. Çoxtərəfli müqavilələrin imzalanmasında V.-lər depozitə verilir (*Depozitar*). Çoxtərəfli beynəlxalq konfranslarda V.-in yoxlanması üzrə xüsusi komitələr yaradılır. Beynəlxalq təşkilatların dövlət nümayəndələri V.-lərini təşkilatın baş inzibatçı şəxsinə verirlər (*BMT-nin Baş katibinə*, *YUNESKO*-nun Baş direktorun və b.).

Ümumi qəbul olunmuş təcrübəyə əsasən dövlət və hökumət başçıları, *Xarici İşlər İdarələrinin* rəhbərləri, həmçinin – öz səlahiyyətləri çərçivəsində *diplomatik nümayəndəliklərin* başçıları xüsusi V. təqdim etmədən danışıqlar aparmaq və beynəlxalq müqavilələr imzalamaq hüququna malikdir.

**VƏKİLOV FARİS BƏY İBRAHİM AĞA OĞLU** (1886-1978). 1914 ildə Peterburq Texnologiya İnstitutunu bitirmişdir. 1916 ildə Petroqraddakı «Feniks» zavodunun baş mühəndisi təyin edilmişdir. 1917 ildə Tiflisə ailəsinin yanına qayıtmışdır. Azərbaycan Demokratik Respublikasının Gürcüstandakı diplomatik nümayəndəsinin müavini, I.1919 ildən isə diplomatik nümayəndəsi olmuşdur. 23.II.1920 ildə Britaniyanın Zaqafqaziyadakı ali komissarı Oliver Uordropun Tiflisdəki mənzilində Fransa nümayəndəsinin iştirakı ilə Azərbaycan və Ermənistan nümayəndələrinin Qafqaz respublikalarında münaqişələrə son qoymaq üçün təşkil olunmuş müşavirədə iştirak etmişdir.





Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra ixtisasını təkmilləşdirməkçün Parisdəki «Reno» zavoduna göndərilmiş və 1927 ilədək orada qalmışdır. Sonra Bakıya dönərək Şmidt zavodunda işləmişdir. 1942 ildə repressiya olunaraq Karaqanda, Maqadan və Sibirdə 18 il yaşamışdır.

**VƏKİLOV İSRAFİL HACI OĞLU** (1949). 1973 ildə Moskva Dövlət Universitetinin Şərq dilləri fakültəsini bitirmişdir. SSRİ-nin Misir Ərəb Respublikasındakı *səfirliyində* 1974-1979 illərdə attaşe, 1982-1987 illərdə ikinci və birinci katib, 1990-1992 illərdə isə müşavir vəzifələrində çalışmışdır. 1979-1982 və 1987-1990 illərdə SSRİ Xarici İşlər Nazirliyinin (*Xarici İşlər İdarəsi*) mərkəzi aparatında işləmişdir. 1993 ildə Azərbaycanın Misir Ərəb Respublikasındakı Fövqəladə və Səlahiyyətli *səfiri* təyin olunmuşdur. Fövqəladə və Səlahiyyətli səfir diplomatik rütbəsinə (*Diplomatik adlar və rütbələr*) malikdir.

**VƏLİ BƏY USTACLI.** Çuxur Səd (İrəvan) bəylərbəyi Məhəmməd xan Toxmağın vəkili. Səfəvi hökmdarı Şah Məhəmməd Xodabəndənin (1578-1587) Osmanlı sultanı III Muradın (1574-1595) yanına göndərdiyi *elçi*.

**VƏTƏNDAŞLIQ.** Fiziki şəxsin onun qarşılıqlı hüquq və öhdəliklərini müəyyən edən dövlətlə hüquqi bağlılığıdır. Demokratik dövlətdə vətəndaşın dövlətin idarə olunmasında iştirak etmək və dövlət tərəfindən qorunmaq hüququ vardır.

Avropada «V.» termini «şəhər» və «şəhərli» sözlərindən törəmişdi. Məs., ingilis dilində «city»-«citizenship», alman dilində «burqer» - nəinki vətəndaş, həm də şəhər sakini deməkdir. Bu onunla izah olunur ki, ilk respublikalar özünüidarə edən şəhərlərin təcrübəsini əks etmişdilər. Hal-hazırda sənədlərdə V.-ı bildirmək üçün başqa termin **«nationality»** (in.), **«nationality»** (fr.), **«nazionalita»** (ital.) istifadə olunur. Bu termin dövlətə aidiyyat kimi başa düşülür. V.-dan başqa *«təbəəlik»* termini də işlədilir. Əvvəllər o monarxiyaya məxsusluğu bildirmək üçün istifadə olunurdu. Hazırda «təbəəlik» termini az istifadə olunur və «V.» termini ilə eyni mənanı daşıyır. Statusuna görə vətəndaş qanunla nəzərdə tutulmuş bütün hüquqlardan istifadə edir və müvafiq öhdəliklər daşıyır. Dövlət vətəndaşın hüquqlarını təmin edir və onun öhdəliklərini yerinə yetirilməsinə nəzarət edir.

Bəzi ölkələrdə müxtəlif növ V-lar mövcuddur. ABŞ-da federal V.-la yanaşı subyektlərin V.-ğı da mövcuddur. İsveçrədə isə federal V.-dan əlavə kanton və icma V.-ğı da vardır. Bu ölkələrdə beynəlxalq planda ancağ federal V. mövcuddur.

V.-ğın müəyyən olunmasında başlıca rol dövlətə məxsusdur. Dövlət vətəndaşın hüquqlarını, V. alınması və itirilməsi qaydalarını müəyyən edir. Bu müddəa V. məsələlərinə dair 1930 il Haaqa Konvensiyası (*Beynəlxalq Konvensiya*) ilə, eləcə də daimi Beynəlxalq hüquq palatası ilə və *Beynəlxalq Məhkəməsi* ilə təsdiq olunub. 1930 il Haaqa Konvensiyasında deyilir ki, digər dövlətlər tərəfindən V. haqda qanunlar, bu qanunlar beynəlxalq konvensiyalara, beynəlxalq adətlərə və V.-ğa münasibətdə ümumi qəbul olunmuş prinsiplərə uyğun gəldikdə tanınır.

1948 il *Ümumdünya İnsan Hüquqları Bəyannaməsi* aşağıdakı ümumi prinsipləri göstərmişdir: «1.Hər bir insanın V. hüququ vardır. 2.Heç kim

özbaşına olaraq öz V.-dan və ya öz V.-ni dəyişmək hüququndan məhrum edilə bilməz» (maddə 15).

Vətəndaşa münasibətdə dövlətin beynəlxalq planda başlıcas vəzifəsi digər dövlətdə onların diplomatik qorunmasını təmin etməkdir. Əgər xarici vətəndaşın (*Xaricilər*) gəldiyi dövlət hərəkətləri ilə bu vətəndaşa zərər vurarsa, bu hərəkətlər *beynəlxalq hüquqa* zidd olarsa, adi hüquqi müdafiə vasitələrinin (məhkəmə və s.) istifadə olunması heç bir nəticə verməzsə, vətəndaş diplomatik vasitələrlə müdafiə olunur. Xarici vətəndaşlara münasibətdə daxili qanunlara əməl olunmaması da beynəlxalq hüquqa ziddir.

Diplomatik müdafiə əksər hallarda *diplomatik nümayəndələr* və *konsul idarələri* tərəfindən həyata keçirilir. Məhdud hallarda vətəndaşı *Xarici İşlər İdarəsi*, hökumət də diplomatik yolla müdafiə edə bilər. Son vaxtlarda nəinki vətəndaşlara, eləcə də dövlətin ərazisində daimi yaşayan digər şəxslərə də diplomatik kömək edilir.

İnsanın əsas hüquqlarından biri də öz vətəninə qayıtmaq və orada yaşamaq hüququdur. Dövlət vətəndaşın getməsinə və məskunlaşmasına icazə vermək öhdəliyinə malikdir. 1966 il *Vətəndaş və siyasi hüquqlar haqda Beynəlxalq Pakt* göstərir ki, heç kim öz ölkəsinə getmək hüququndan özbaşına məhrum edilə bilməz.

Vətəndaş və ya tayfalararası *müharibələr* gedişində vətəndaşların kütləvi qovulması halları baş verir. Belə hallarda digər dövlətlər xarici vətəndaşları *qaçqınlar* kimi qəbul etməlidir. Bu, ciddi problemlər yaratdığından xarici dövlət bu şəxslərin geri qaytarılmasını tələb etmək hüququna malikdir, öz növbəsində digər dövlət öz vətəndaşlarını qəbul etməyə və onların hüquqlarını təmin etməyə borcludur.

V. əsasən iki yolla əldə olunur: ilkin, yəni doğularkən və törəmə, yəni doğulduqdan sonra, təbəəliyə götürmək də adlanır. V. almaq haqda qanunvericilikdə iki prinsip mövcuddur. Birincisi qan hüququ (jus sanguinis), digər torpaq (ərazi) hüququ (jus soli) prinsipdir. Birinci prinsipə uyğun olaraq doğulan şəxs, harada yaşamasından asılı olmayaraq valideynlərinin V.-nı almalıdır. Valideynlər müxtəlif V.-ğa malik olduqda məsələ onların razılığı ilə həll olunur. Əgər məsələ həll olunmazsa, nikahdan doğulmuş uşaq atanın, nikahdan kənar uşaq ananın V.-nı alır. Ərazi prinsipinə uyğun olaraq V. müəyyən dövlətin ərazisində doğulmaya görə əldə olunur. Bu iki prinsipin birləşməsindən ibarət sistemlər geniş yaranıb. *İlk dəfə olaraq bu sistemlər* ABŞ və Böyük Britaniyada istifadə olunmuşdur. Bu ölkədə həm doğulduğu yerdən asılı olmayaraq öz vətəndaşlarının uşaqları, həm də onların ərazisində doğulan xaricilərin uşaqları V. alırlar.

V. alınması məsələsi çox vaxt xaricilərlə nigaha daxil olarkən meydana çıxır. Əvvəllər xaricilərlə nicaha girən qadının öz V.-ğını itirməsi və ərinin V.-nı alması prinsipi qəbul olunmuşdur. Hazırda dövlətlərin böyük əksəriyyəti cinslərin bərabərhüquqluğu prinsipinə əsaslanaraq müəyyən etmişlər ki, qadının nikaha girməsi öz-özlüyündə onun V.-ğına təsir etmir.

Dövlətin və ya şəhərin fəxri V.-ğının verilməsi təbəəlik demək deyil.

V.-ğın itirilməsi məsələsi dövlətin daxili hüququ ilə həll olunur. V. şəxsin iradəsinə uyğun olaraq və ya dövlətin təşəbbüsü ilə itirilə bilər. Dövlətin təşəbbüsü ilə V.-ın itirilməsi V.-dan





məhrum etmə deməkdir. Digər ölkənin V.-ğı alındıqda, uzun müddət xaricdə yaşadıqda, xarici ölkə silahlı qüvvələrinə xidmətə girdikdə qanunla nəzərdə tutulmuş qaydada V. avtomatik qaydada itirilir. V.-dan məhrum edilmənin daha bir növü dövlətin xüsusi aktı, ali orqanın dekreti və ya məhkəmə hökmü olduqda meydana çıxır. Məs., Rusiyada Oktyabr çevrilişindən sonra siyasi fəaliyyətinə görə iki milyona yaxın adam kütləvi olaraq V.-dan məhrum olunmuşdu. Buna bənzər hadisə 1941 ildə Almaniyada baş vermişdi. İmperiya V.-ı haqda dekret xaricdə yaşayan alman yəhudilərinin V.-dan məhrum edilməsini nəzərdə tuturdu.

Son illərdə dövlətin V.-dan məhrum etmə hüququnun məhdudlaşdırılması meyli müşahidə olunur. İsveçrədə vətəndaş prinsipcə öz V.-dan məhrum *oluna bilməz*. İstisna yalnız isveçrəli ikili V.-a malik olduqda, xaricdə yaşadıqda və İsveçrə maraqlarına və nüfuzuna ciddi ziyan vurduqda mümkündür. Danimarka, Çin, Yaponiya, Efiyopiya, Almaniya qanunlarında V.-dan məhrum olunma nəzərdə tutulmayıb. Böyük Britaniyada və *Birlik* dövlətlərində təbəəliyə götürülmüş şəxslərə münasibətdə V.-dan məhrum etmənin mümkünlüyü nəzərdə tutulur.

V.-ğın itirilməsinə dair hüquq normaları *vətəndaşsızlığın* ixtisarı haqda 1961-ci il Konvensiyasında toplanıb. Konvensiya uzun müddət xaricidə yaşayan şəxsin V.-dan məhrum edilməsinə yol verir, lakin müəyyən edir ki, bu müddət ardıcıl olaraq 4 ildən az olmamalıdır. Konvensiya belə bir ümumi qayda müəyyən etmişdir ki, şəxs əgər vətəndaşsızlıq vəziyyətinə düşə bilərsə dövlət onu V.-dan məhrum etməməlidir.

Etnik, dini, irqi və ya siyasi əsaslara görə V.-dan məhrum etmə yol verilməzdir (maddə 9).

Əgər qanun, şəxsi statusda hər hansı dəyişikliklər baş verdikdə, nikaha girdikdə və nikah pozulduqda, övladlığa götürüldükdə və s. V.-ğın itirilməsini nəzərdə tutursa, belə itirilmə digər V.-ğın alınması şərti ilə baş verir. Bununla V.-ğın fasiləsizliyi təmin olunur.

**VƏTƏNDAŞSIZLIQ.** Heç bir dövlətin *vətəndaşlığına* malik olmayan şəxsin hüququ vəziyyəti. Belə şəxslər apatridlər (apolidizm, apatridizm – yunan sözləri apatris və apolis – sözlərindəndir – vətəndən məhrum olmuş deməkdir) adlanır. V. mütləq (doğulma anından etibarən) və nisbi (vətəndaşlığını itirdikdə) olur. Şəxs doğulan zaman, əgər doğulduğu yerin qanunu və valideynlərinin vətəndaşı olduğu ölkənin qanunları ərazi hüququ prinsipinə əsaslanarsa, belə vəziyyətə düşə bilər. Əgər şəxs bir dövlətin vətəndaşlığından çıxarsa və ya vətəndaşlığına qəbul olunmazsa, V. vəziyyətinə düşür.

Müasir *beynəlxalq hüquq* bütövlükdə V.-ğa mənfi yanaşır və belə vəziyyətlərin azalmasına çalışır. Dövlətlər V.-ğı xüsusi beynəlxalq sazişlərlə məhdudlaşdırmaq cəhdləri etmişlər (1954 il Apatridlərin statusu haqda konvensiya, 1961 il Vətəndaşsızlıq hallarının ixtisar olunması haqda konvensiya). 1954-cü il Apatridlərin statusu haqda konvensiya bu statusu *xaricilərin* statsus ilə bərabərləşdirməyi nəzərdə tutur. Söhbət daxili dövlət hüququna dair statusdan gedir. Bu hələ o demək deyil ki, apatrid xaricilər kimi öz dövlətinin diplomatik müdafiə hüququndan, ölkə və onun ölkəsi ilə olan müqavilələrdə nəzərdə tutulmuş hüquqlardan

istifadə edə bilər. 1961 il Konvensiyasına görə dövlət onun ərazisində doğulmuş istənilən şəxslə apatrid olmamasına görə vətəndaşlıq verməlidir. Belə hallarda vətəndaşlıq ya doğularkən müvafiq qanunla, ya da müvafiq şəxsin və ya onun nümayəndəsinin xahişi ilə verilir.

**VƏTƏNDAŞ VƏ SİYASİ HÜQUQLAR ÜZRƏ BEYNƏLXALQ PAKT** (1966). 16.XII. *BMT-nin Baş Məclisi* tərəfindən qəbul edilmişdir. *Beynəlxalq müqavilə* gücünə malik olan *Pakt* 1948 ildə qəbul edilmiş *İnsan Haqqlarına Dair Ümumi Bəyannaməsi* ilə müqayisədə irəliyə doğru böyük addım idi. P. ayrılıqda götürülmüş fərdlərə heç bir hüquq vermir; bu P. öz yurisdiksiyası altında olan insanların hüquqlarını dövlətlərin təmin etməsi məsələsinə nəzarət edir. P.-nı imzalamış hər bir dövlət ona uyğun qanun aktları qəbul etməlidir. P.-da xalqların öz müqəddəratını həll etmək və təbii sərvətlərdən istifadə etmək hüququ əks olunub. P.-da qeyd olunur ki, hər bir insanın yaşamaq hüququ var, insanları qul vəziyyətində saxlamaq, onlarla işgəncə vermək və ya onlarla qəddar rəftar etmək qəti qadağan olunur. P.-ya görə insanların şəxsi toxunulmazlığı olmalıdır, qanuni əsaslar olmadan heç kim həbsə və ya qanunsuz saxlanmağa məruz qala bilməz. İnsanlar qanun və məhkəmə qarşında eyni hüquqlara malikdirlər. Heç kim insanların şəxsi həyatına, mənzil toxunulmazlığına, məktublaşma sirrinə, şərəf və ləyaqətinə təcavüz edə bilməz. İnsanlar fikir, vicdan və din azadlıqlarına malik olmalıdırlar. Onların dinc nümayiş keçirmək, eləcə də həmkarlar ittifaqları yaratmaq, dövlət işlərində birbaşa və ya seçilmiş nümayəndə qismində iştirak etmək, seçmək və seçilmək hüquqları vardır. P.-da qeyd olunur ki, hər cür *müharibə* təbliğatı, milli, irqi və dini nifrət qanunvericiliklə qadağan olunmalıdır. P.-nın bir sıra müddəalarında qeyd olunur ki, şəxsin hüquq və azadlıqları dövlət təhlükəsizliyinə, ictimai asayişə başqalarının sağlamlığına və mənəviyyatına təhlükə törədərsə, qanun tərəfindən məhdudlaşdırıla bilər.

R. iştirakçısı olan dövlətlər onun müddəalarının həyata keçirilməsinə dair məruzələri mütəmadi olaraq insan hüquqları komitəsinə təqdim etməlidirlər. Bu P. 1976 ildə qüvvəyə minmişdi.

**VƏZİR**. Bir çox müsəlman dövlətlərində nazirlərə və yüksək əyanlara verilən titul. Bu istilah VIII əsrdə Bağdad xəlifəliyində meydana gəlmişdi. V.-lər əvvəllər yalnız dəftərxana işlərini idarə edirdilər. Sonralar onlara Dövlət şurasına (divan) başçılıq etmək həvalə olunmuşdu. Osmanlı imperiyasında təkcə nazirlər deyil, ümumiyyətlə, bütün yüksək rütbəli paşalar V. adlandırılırdı. Böyük, yaxud Ali Vəzir (vəzir-Əzəm, Sədr-Əzəm) hökumətə başçılıq edir, sultanın adından fərmanlar verir, xarici işlər nazirinin (rəis-əfəndi) işlərinə rəhbərlik edir, sülh müqavilələri imzalayır, *müharibə* dövründə ali baş komandan olurdu. Türkiyədə 01.XI.1922 ildə sultanlıq ləğv ediləndən sonra Böyük Vəzir vəzifəsi ləğv olunmuşdu.

XIX əsrdə İranda Sədr-əzəm şahdan sonra ən geniş səlahiyyətlərə malik dövlət adamı idi.

**VƏZİROV ƏBDÜRRƏHMAN XƏLİL OĞLU** (1930). Sovet *diplomatı*, fövqəladə və səlahiyyətli *səfir* rütbəsi vardır.

1976 ildən diplomatik işdə: 1976-1979 illərdə SSRİ-nin Kəlküttədə baş konsulu; 1979 ildən Nepalda səfiri və daha sonra Pakistanda səfiri olmuşdur.

1988-1990 illərdə Azərbaycan KP MK-nın I katibi olmuşdu. Dağlıq Qarabağ münaqişəsində (*Dağlıq Qarabağ problemi*) qətiyyətsizlik göstərmiş, SSRİ rəhbərliyinin 20.I.1990 ildə Bakıya qeyri-qanuni qoşun yeritməsindən sonra vəzifəsindən uzaqlaşdırılmışdı.

**VİLAYƏTİ ƏLİ ƏKBƏR** (1945). İran *diplomatı*. Tehran Universitetinin tibb fakültəsini bitirib, doktorluq elmi dərəcəsi vardır. 1979-1980 illərdə səhiyyə nazirinin müavini işləmiş; 1980-1981 illərdə İslam Şurası Məclisinə deputat seçilmiş, 1981-1997 illərdə İran İslam Respublikasının xarici işlər naziri olmuşdu. İranın tarixinə, beynəlxalq iqtisadi-siyasi əlaqələrə dair bir sıra əsərlərin müəllifidir.

**VİLHELM II, FRİDRİX VİLHELM VİKTOR ALBERT HOGENSOLLERN** (1859-1941). 1888-1918 illərdə Almaniya imperatoru və Prussiya kralı. 1890 ildə O.Bismarkı istefaya göndərmişdi. Onun qəbul etdiyi «yeni xətt» 1887 ildə Rusiya ilə imzalanmış «Sığortalanma müqaviləsindən» uzaqlaşma və İngiltərəyə qismən yaxınlaşma ilə əlamətdar olub. 1890 illərin ortalarında Rusiya ilə yaxınlaşmağa cəhd göstərib. Alman imperializminin maraqlarına uyğun gələn fəal ekspansionist siyasət aparıb. *Birinci Dünya müharibəsinin* hazırlanmasında və başlanmasında mühüm rol oynayıb. Almaniyada 1918 il Noyabr inqilabı nəticəsində taxtadan salındıqdan sonra Hollandiyaya qaçıb. Almaniyada faşist diktaturasının bərqərar olmasını və *İkinci dünya müharibəsinin* başlanmasını alqışlamışdır.

**VİLSON VUDRO (TOMAS)** (1856-1924). ABŞ-ın dövlət xadimi. 1913-1921 illərdə ABŞ-ın *prezidenti* olmuşdu. 1914 ildə *Birinci dünya müharibəsinin* başlanğıc mərhələsində ABŞ-ın *bitərəfliliyini*, 1916 ildə isə ölkəsini *müharibəyə* qoşulduğunu elan etmişdir. Birinci dünya müharibəsindən sonra beynəlxalq problemləri tənzimləmək və sülhü qoruyub saxlamaq məqsədini güdən Millətlər Birliyinin yaradılmasının təşəbbüskarı olmuşdu.

**VİLSONUN *«on dörd bəndi»*** (1918). *Birinci dünya müharibəsinin* sonunda ABŞ *prezidenti* V.Vilson (*Vilson Vudro*) irəli sürdüyü sülh şərtlərində bunlar nəzərdə tutulurdu: 1) Sülh haqqında açıq müqavilələr (*Beynəlxalq müqavilə*); 2) dənizlərdə gəmiçiliyin mütləq sərbəstliyi; 3)ticarət azadlığı, gömrük maneələrinin aradan götürülməsi; 4) silahları ixtisar edəcək təminatlar verilməsi; 5) müstəmləkə məsələlərinin qərəzsiz tənzimlənməsi; 6) Almaniya tərəfindən işğal edilmiş Rusiya ərazisinin azad edilməsi və Rusiyanın öz milli siyasətini müəyyənləşdirməsi və azad millətlər birliyinə daxil olması üçün imkan yaradılması; 7) Belçikanın azad edilib, bərpa edilməsi; 8) Elzas-Lotaringiya daxil olmaqla Almaniya tərəfindən işğal olunmuş ərazinin Fransaya qaytarılması; 9) Milli əlamətlərə uyğun olaraq İtaliyanın sərhədinin (*Dövlət sərhədləri*) dəqiqləşdirilməsi; 10) Avstriya-Macarıstan xalqlarına muxtariyyət verilməsi; 11) Çernoqoriya, Rumıniya və Serbiyanın Almaniya tərəfindən işğal olunmuş ərazilərinin geri qaytarılması, Serbiya üçün dənizə çıxışın təmin olunmasa; 12) Osmanlı imperiyasının milli türk ərazilərinin müstəqil mövcud olması, digər milli ərazilərinə isə muxtariyyət verilməsi; 13) Müstəqil

Polşa dövlətinin yaradılması; 14) Millətlərin ümumi birliyinin yaradılması.

**VİNOQRADOV SERGEY ALEKSANDROVİÇ** (1907-1970). Sovet *diplomatı*, fövqəladə və səlahiyyətli *səfir* rütbəsi olub. 1940 ildə SSRİ-nin Türkiyədə səlahiyyətli nümayəndəliyinin müşaviri; 1940-1948 illərdə SSRİ-nin Türkiyədə səlahiyyətli nümayəndəsi (1941 ildən səfiri); 1948-1949 illərdə SSRİ Xarici İşlər Nazirliyi (*Xarici İşlər İdarəsi*) *BMT* işləri şöbəsinin müdiri; 1949-1950 illərdə SSRİ XİN I Avropa şöbəsinin müdiri; 1950-1953 illərdə SSRİ Radioteleviziya Verilişləri Komitəsinin sədri; 1953-1956 illərdə SSRİ-nin Fransada səfiri; 1965-1967 illərdə SSRİ XİN Mərkəzi aparatının məsul işçisi, SSRİ XİN Kollegiyasının üzvü; 1967-1970 illərdə SSRİ-nin Misirdə səfiri işləyib.

**VİRT KARL YOZEF** (1879-1956). Almaniyanın dövlət və siyasi xadimi.

1914-1923 illərdə Reyxstaqın deputatı; 1918-1920 illərdə Baden torpağının maliyyə naziri; 1920-1921 illərdə maliyyə reyxs naziri, 1921-1922 illərdə Almaniyanın reyxskansleri olub. 1919 ildə *Versal sülh müqaviləsinin* loyal yerinə yetirilməsi prinsipini irəli sürüb. 1922 il *Rapallo müqaviləsini* imzalayıb. 1929-1930 illərdə müttəfiqlər tərəfindən zəbt olunmuş ərazilər üzrə nazir; 1930-1931 illərdə daxili işlər naziri işləmiş, Hitlerin hakimiyyətə gəlməsindən sonra Fransada və İsveçrədə mübarizə aparan Almaniyalılar İttifaqı Partiyasını təsis etmişdir. AFR-nın yenidən silahlanması və onun *NATO* blokuna qoşulmasının əleyhinə çıxmışdı.

**«VİŞİ HÖKUMƏTİ».** 1940-1944 illərdə Fransada hitlerpərəst antimilli rejimin təmsilçisi; Alman qoşunları Fransaya soxularkən Fransa hökuməti 16.VI.1940 ildə səs çoxluğu ilə təslim olmaq qərarına gəldi. *Hökumət başçısı* P.Reyno istefa verdi. Onun yerinə marşal F.Peten təyin edildi. O, dərhal Hitlerə barışıq xahişilə müraciət etdi. 1940 il Kompyen barışığı bağlandıqdan sonra Vişi şəhərində (Cənubi Fransa) toplaşan bir qrup deputat və senator Fransa parlamentinin funksiyalarını qanunsuz olaraq öz üzərinə götürəcək bütün hakimiyyəti 10.VII.1940 ildə F.Petenə verdi. Fransa sənayesi «V.h.»-nin razılığı ilə Almaniya iqtisadiyyatı üçün işləməyə başladı. 13.IX.1942 ildə bu hökumət fəhlələrin müəssisələrdə məcburi əməyə cəlb olunmaları və fransızların zorla Almaniyaya işləməyə göndərilmələri barədə qanun qəbul etdi. «V.h.» hitlerçi qoşunların saxlanmasına gündə 400 mln. frank, sonradan 500 mln. frank maliyyə vəsaiti verirdi. VIII.1944 ildə Petenin Almaniyaya qaçması ilə «V.h.» öz mövcudluğuna son qoydu.

**VIŞİNSKİ ANDREY YANUAREVİÇ** (1883-1954). Sovet *diplomatı*, akademik, fövqəladə və səlahiyyətli *səfir* rütbəsi olub. 1930 illərin Stalin (*Stalin İosif Vissarionoviç*) repressiyalarının ən fəal iştirakçılarından biri olmuşdu.

1940 ildən diplomatik xidmətdə olub. 1940-1946 illərdə SSRİ Xalq Xarici İşlər komissarının birinci müavini; 1946-1949 illərdə SSRİ Xarici işlər nazirinin müavini; 1949-1953 illərdə SSRİ Xarici işlər naziri; 1953-1954 illərdə SSRİ Xarici işlər nazirinin birinci müavini və SSRİ-nin *BMT*-də daimi nümayəndəsi işləyib.

SSRİ, ABŞ və Böyük Britaniya *hökumət başçılarının* 1945 il Yalta (Krım) və Berlin (Potsdam) konfranslarının *(Yalta (Krım) konfransı (1945)*;





*Berlin (Potsdam) konfransı (1945); Beynəlxalq konfranslar)*, SSRİ, ABŞ və Böyük Britaniya xarici işlər nazirlərinin 1943 il Moskva konfransının (*Moskva konfransları*) və 1945 il Moskva müşavirəsinin, 1946, 1947, 1949 illərdə dörd dövlətin Xarici İşlər Nazirləri Şurası sessiyalarının, habelə *İkinci dünya müharibəsi* illərində və müharibədən sonrakı bir sıra beynəlxalq konfransların iştirakçısı olub.

**VİTTE SERGEY YULEVİÇ** (1849-1915). Qraf, Rusiya dövlət xadimi və *diplomatı*.

II-VIII.1892 ildə yollar naziri, 1892-1903 illərdə maliyyə naziri olmuşdu. Həmin vəzifələrdə olarkən Rusiyanın xarici siyasət xəttinə güclü təsir göstərmiş. Rusiyanın Uzaq Şərq rayonlarının iqtisadi mənimsənilməsinin tərəfdarı kimi 1896 ildə Çinlə müdafiə haqqında müqavilə (*Beynəlxalq müqavilə*) bağlanmasının təşəbbüskarı olmuşdu; Sibir dəmiryolu xəttinin bir hissəsinin Mancuriya ərazisindən keçməsinə nail olmuşdu. Yaponiyanın Uzaq Şərqdə nüfuzunun artmasına yol verməməyin vacibliyində təkid etsə də, bu ölkə ilə münasibətləri gərginləşdirməyi lazım bilməmiş, Mancuriyanın hərbi işğalına qarşı çıxmışdı. II Nikolayla aralarında yaranan ixtilaf üzündən 1903 ildə istefa vermişdi.

**VİTSE-KONSUL.** Dövlətin ayrıca vitse-konsulluğa başçılıq edən və ya digər dövlətdə daha yüksək səviyyəli *konsul idarəsində* bu dərəcəyə malik vəzifəli şəxsdir (ikinci halda *konsul* nümayəndəliklərinin səviyyəsindən asılı olaraq bir neçə V.k. ola bilər). Vitse-konsulluğa başçılıq edən V.k. konsul idarəsinin başçısına məxsus (baş konsul, konsul) bütün vəzifələri həyata keçirir. Bu halda onlar arasında fərq ölkələr arasında müəyyən olunmuş *konsul münasibətlərinin* səviyyəsini əks etdirdiyindən rəsmi xarakter daşıyır.

**VİTVORT ÇARLZ** (1760-1824). Britaniya *diplomatı*, 1786-1788 illərdə Böyük Britaniyanın Polşada, 1788-1800 illərdə Rusiyada *elçisi* olub; 1787-1791 illər Rusiya-Türkiyə *müharibəsi* ilə əlaqədar kəskinləşən Rusiya-İngiltərə münasibətlərinin yaxşılaşmasına və 1791 il *Yassı sülh müqaviləsinin (Beynəlxalq müqavilə)* bağlanmasına köməklik göstərmiş, Rusiya, İngiltərə və Fransa arasında 1795 il Peterburq ittifaq müqaviləsinin bağlanmasında iştirak etmişdi. 1798 ildə Fransaya qarşı Rusiya ilə yeni müqavilə imzalayıb. Lakin İngiltərə hökumətinin Malta məsələsində tutduğu mövqe Rusiyanın İngiltərə ilə *diplomatik münasibətlərinin* kəskinləşməsi və Vitvortun Peterburqdan çıxarılması ilə nəticələnmişdi. 1800-1802 illərdə *diplomatik missiya* ilə Danimarkada olmuş, Rusiya-Danimarka ittifaqının yaradılmasının qarşısını almağa səy göstərmişdi. I Pavelə qarşı qəsdin təşkilində əli olub. 1802-1803 illərdə Böyük Britaniyanın Fransada elçisi kimi Malta məsələsində *kompromis* əldə etmək yolu ilə İngiltərə-Fransa münasibətlərinin yenidən pozulmasının qarşısını almaq cəhdləri boşa çıxmışdı. 1812-1817 illərdə İrlandiyanın vitse-kralı; 1815 ildən lordlar palatasının üzvü olub.

**VİZA** (lat. *visus* – görünmüş, gözdən keçirilmiş). Hər hansı şəxsin müəyyən bir dövlətin ərazisinə gəlməsinə və ya bu ərazini tərk etməsinə, ya da ərazidən keçib getməsinə icazə verilməsi haqda pasportdakı qeyddir. Gəlmə, getmə və tranzit V. növləri mövcuddur.

V. müəyyən müddətə verilir. Dövlətlərin əksəriyyəti xaricilərin gəlməsinin (getməsinin) icazə sistemini müəyyən etmişlər. Xaricilərin gəlməsinə (getməsinə) onların pasportlarında müvafiq V. olduqda icazə verilir. Bir sıra hallarda xaricilərin gəlməsinin (getməsinin) sadələşdirilmiş qaydası müəyyən edilir.

Bəzi dövlətlər arasında xüsusi sazişlərlə V.-sız gəlməyə (getməyə) icazə verilir. Adətən V.-sız gəlmə haqda qayda gəldikləri ölkədə daimi yaşamaq hüququ almaq niyyətində olmayan xaricilərə verilir. Avropada İngiltərə, Fransa, Hollandiya, İsveçrəvə b. dövlətlər arasında, Latın Amerikasının əksər ölkələri arasında V.-rın ləğv olunması haqda sazişlər imzalanmışdır.

**VİZİT KARTI.** Vizit kartından *protokol* işində geniş istifadə olunur. Diplomatik nümayəndənin olduğu ölkənin hökumət, diplomatik, işgüzar və ictimai dairələri ilə əlaqələrin qurulmasında və saxlanılmasında ondan istifadə olunur. Bütün diplomatik işçilərin və onların həyat yoldaşlarının V.k. olur. V.k. tanışlıq zamanı, söhbət gedişində həmsöhbəti tərəfindən təqdim oluna bilər, diplomat da öz növbəsində lazım olduqda öz V.k.-nı verə bilər. V.k. öz sahibini bir növ qiyabi olaraq «təmsil» edə bilər»; əgər cavab viziti (*Diplomatik vizitlər*) edilməzsə, edilmiş vizitə cavab olaraq göndərilə bilər.

V.k. ilə bu və ya digər hadisə ilə bağlı – milli bayramlar, ad günü münasibətlə, yeni vəzifəyə təyin olunması və s. – təbrik etmək olar. *Başsağlığı*, təşəkkür etmək, tanışlıq qurmaq olar; V.k. ilə birlikdə hədiyyə, suvenir, çiçək, kitab və s. göndərmək münasibdir.

Beynəlxalq praktikada V.k. göndərilərkən konkret hallardan asılı olaraq V.k. ünvanlandığı şəxsə onun sahibi tərəfindən bu və ya digər münasibəti ifadə edən qısaldılmış simvollar yazılır. Bu simvollar (latın əlifbası ilə) V.k.-nın aşağı sol küncündə qələmlə yazılır:

P.f. – istənilən səbəbə görə təbriki ifadə edir (**pour fyliciter**);

P.f.N.A. – Yeni il təbriki (**pour fyliciter Nouvel An**);

P.r. – təşəkkür ifadə edir (**pour rymercier**);

R.c. – başsağlığı ifadə edir (**pour condol\ance**);

P.p. – yeni gəlmiş diplomatik işçinin şəxsi viziti əvəzinə qiyabi təqdim edilməsi (**pour pr\senter**);

P.p. hərfləri *diplomatik nümayəndəlik* başçısının (*Diplomatik başçılıq*) V.k.-na yazılır və o yeni gəlmiş şəxsin heç bir şərti hərf yazılmayan V.k.-sı ilə birlikdə müvafiq şəxsə göndərilir. Cavab V.k. ilə təqdim olunan şəxsin ünvanına yazı olmadan verilir;

P.p.c. – ölkədən tamamilə getdikdə vidilaşma ifadə edir. Şəxsi *protokol*, vizitinin əvəzinə göndərilir (**pour prende conqy**).

**VLADİSLAVİÇ SƏFİRLİYİ** (1725-1728). Rusiya ilə Çin arasında mehriban qonşuluq münasibətlərinin yaradılmasına mane olan məsələləri həll etmək üçün danışıqlar aparmaq məqsədilə Rusiya hökuməti tərəfindən Tsin Çininə göndərilən nümayəndə heyəti.

1724 ildə Mancuriya imperatoru Yunçjen öz nümayəndələrini rus-Çin sərhədinə göndərərək bildirdi ki, Tsin imperiyası Rusiya ilə əbədi sülh bağlamaq istəyir və təklif edir ki, Rusiya bir sıra beynəlxalq məsələləri həll etmək üçün öz *elçilərini* göndərsin. VI.1752 ildə Savva Lukiç Raquzinski - Vladislaviç başda olmaqla Pekinə «fövqəladə və səlahiyyətli *səfirlik*» göndərildi. 21.X.1726 ildə V.s. Pekinə





gəlmiş və imperator Yunçjen tərəfindən böyük hörmətlə qəbul olunmuşdu. Danışıqların əsas mövzusu 1689 il Nerçin müqaviləsinin (*Beynəlxalq müqavilə*) müəyyənləşdirə bilmədiyi sərhədlər (*Dövlət sərhədləri*) məsələsi oldu. Tsinin müvəkkilləri Rusiya təbəələrinin (*Təbəəlik*) məskunlaşması və əvvəllər heç vaxt Çinin mülkiyyəti olmayan ərazilərə iddia irəli sürdülər. Vladislaviç bu iddiaları rədd etdi və «hər dövlət nəyi varsa onun da sahibidir» prinsipini qəbul etdirməyə müvəffəq oldu. Vladislaviçin təklifi ilə danışıqlar VI.1727 ildə Bure çayında davam etdirildi. Bure müahidəsi adlanan müqavilə 20.VIII imzalandı və ona əsasən, rus-Çin sərhədi Arqun çayının qərbində Şabin-Dabaqadək müəyyən edildi. 21.X.1727 ildə ikinci rus-Çin müqaviləsi imzalandı və bununla da 1727 il Bure müahidəsinin şərtləri təsdiq edildi, iki ölkə arasında siyasi münasibətlər və ticarət əlaqələri müəyyənləşdirildi

**VORONSOV SEMYON ROMANOVİÇ** (1744-1832). Qraf, rus *diplomatı*. 1783 ildə Venetsiyada səlahiyyətli *nazir*; 1785 ildə Londonda *elçi*, 1796 ildən *səfir* işləyib. Rusiyanın Yaxın Şərqdə və Aralıq dənizində irəliləməsinin əleyhinə olub. Fransanı və Prussiyanı Rusiyanın başlıca rəqibləri saymış, İngiltərəni əlverişli müttəfiq hesab etmişdi. 1791 ildə İngiltərənin Türkiyəyə hərbi köməklik göstərməsinin qarşısını almışdı. 1793 ildə ilkin ingilis-rus ticarət Konvensiyasını (*Beynəlxalq Konvensiya*) və Fransaya qarşı birgə əməliyyatlar konvensiyasını imzalayıb. Onun 1800 ildə istefaya çıxması Rusiyanı İngiltərə ilə münaqişə gətirib çıxardı. I Aleksandr (*Aleksandr I*) taxta çıxdıqdan sonra V.S.R. yenidən Londonda səfir işləmiş, lakin onun həddən artıq ingilispərəst mövqe tutması Rusiya hökuməti tərəfindən bəyənilməmişdir. 1806 ildə istefaya çıxmışdı.

**VOYTSEX HENSEL** (1943). 1978 ildə Varşava Universitetində humanitar təhsil üzrə doktor dərəcəsini almışdır. 1996 ildən Varşava Universitetinin Şərq dilləri İnstitutunda köməkçi, baş köməkçi, mühazirəçi, Türkiyənin tarixi və müasir problemləri üzrə mütəxəssis vəzifəsində çalışmışdır. 1978-1979 illərdə İstambul Universitetinin təqaüdçüsü olmuşdur. Türkiyəyə dair çoxsaylı məqalələrin müəllifidir. 1980 ildən Polşa dövlətinin Türkiyədə (İstambulda) Baş *konsulu* olmuşdur. 1982-1992 illərdə Polşa-Türkiyə Assosiasiyasının Baş direktoru olmuşdur. 1992 ildən Polşa Respublikasının Türkiyə Respublikasındakı Fövqəladə və Səlahiyyətli *səfiri* olmuşdur. 1996 ildən eyni zamanda Azərbaycan Respublikasında Polşa Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri təyin olunmuşdur. 1996-1998 illərdə Polşa Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri işləmişdir.

**VURAL VOLKAN** (1941). Türk *diplomatı*. Türkiyənin SSRİ-də fövqəladə və səlahiyyətli *səfiri* işləyib. Ankara Universitetinin siyasi bilgilər fakültəsini bitirib, 1964 ildən diplomatik işdədir. Xarici İşlər Nazirliyində (*Xarici İşlər İdarəsi*) məsul vəzifələr tutmuş, Münhendə baş *konsul*, Brüsseldə *NATO* iqamətgahındakı katiblikdə işləyib. 1987-1988 illərdə İranda səfir olub.

**VYANA ARBİTRAJLARI** (1938-1940). Almaniya və İtaliya faşist hökumətlərinin Rumıniya və Çexoslavakiya ərazilərinin xeyli hissəsinin xortist Macarısta-

nına verilməsi barədə Vyanada imzaladıqları 2 qərarın adı.

02.XI.1938 ildə imzalanmış birinci V.a-nın qərarı ilə Slovakiyanın və Zakarpat Ukraynasının cənub rayonları (ümumi sahəsi 11927 kv.km., əhalisi 1 mln. nəfərdən artıq) Macarıstana verildi.

30.VIII.1940 ildə imzalanmış ikinci V.a.-nın qərarı ilə Transilvaniyanın şimal və şimal-şərq hissələri (43492 kv.km; əhalisi 2,4 mln. nəfər) Macarıstana verilirdi. Faşist Almaniyası ikinci V.a.-nın qərarı nəticəsində kəskinləşən macar-rumın ziddiyyətlərindən həm Macarıstanı, həm də Rumıniyanı tamamilə öz təsiri altına almaq üçün istifadə etdi.

*İkinci Dünya müharibəsindən* sonra 1947 ildə Macarıstanla bağlanan sülh müqaviləsinə (*Beynəlxalq müqavilə*) əsasən, V.a. etibarsız sayıldı.

**VYANA BƏYANNAMƏSİ** (1815). Helveti ittifaqının işlərinə dair; 08.III. *Vyana konqressində* imzalanıb. İsveçrənin daimi *bitərəfliyini* bəyan etmiş, onun ərazi tərkibini müəyyənləşdirmiş, bir sıra inzibati və maliyyə məsələlərini tənzimləmişdi. Bəyanat Helveti ittifaqının 19 ərazi vahidinin bütövlüyünü və toxunulmazlığını tanımış, Vallis, Cenevrə və Nevşateli bölgələrini hüquqlu ərazi vahidi kimi onlara birləşdirmişdi. Rusiya, İngiltərə, Fransa, Avstriya, Prussiya, İspaniya, Portuqaliya və İsveç İsveçrənin bitərəfliyi və onun ərazi bütövlüyünün toxunulmazlığına kollektiv təminat vermişlər.

V.B. ilə elan edilən İsveçrə bitərəfliyinə I Napoleonun (*Napoleon I Bonapart*) Elba adasından qayıtmasından sonra ona qarşı aparılan müharibədə riayət olunmadı. Bitərəflik növbəti dəfə 1815 il Paris sülh müqaviləsində təsdiq edildi.

**VYANA İTTİFAQI MÜQAVİLƏSİ.** 1697 il müqaviləsi (*Beynəlxalq müqavilə*) - Rusiya, Avstriya və Venetsiya arasında ittifaq; 29.I. üç il müddətinə bağlanıb. M. tərəfləri quruda və dənizdə əlaqələndirilmiş hərbi əməliyyatlar aparmağı, hərbi planlar barədə bir-birinə xəbər verməyi və *separat sülh* bağlamamağı öhdəyə götürürdülər.

2) *1726 il müqaviləsi* – 06.VIII. Rusiya ilə Avstriya arasında bağlanıb; ona əsasən, Avstriya 1724 il Rusiya-İsveç ittifaqına qoşulur, Rusiyanın Avropadakı torpaqlarına qarant verir, ona Türkiyəyə qarşı mübarizədə və Şlezviqin Qolşteyn hersoqluğuna qaytarılmasında kömək etməyi öhdəyə götürürdü. Rusiya 1725 il Avstriya-İspaniya ittifaqına qoşulur və 1713 il Praqmatik sanksiyasına təminat verirdi. Tərəflər bir-birinə hərbi yardım göstərməyi öhdəyə götürürdülər. M. iki ölkənin uzun illər ittifaq münasibətlərini, Polşa varisliyi uğrunda və Türkiyəyə qarşı 1735-1739 illər müharibəsində müştərək hərəkətlərini müəyyən etmişdi.

3) *1854 il müqaviləsi* – 02.XII. Avstriya, Fransa və böyük Britaniya arasında Rusiyaya qarşı bağlanıb. Avstriya sarayı bu sənədi imzalamaqla ümid edirdi ki, Rusiya Krım müharibəsində məğlub olandan sonra o Moldova və Valaxiya üzərində nəzarət onun əlinə keçəcəkdir. M.-yə görə onu imzalayan dövlətlərin heç biri Rusiya ilə separat sülh bağlaya bilməzdi. Avstriya Moldova və Valaxiyanı rus qoşunlarından qorumaq vəzifəsini öz üzərinə götürürdü. Qərara alınırdı ki, knyazlıqların vəziyyəti və eləcə də onların ərazisindən müttəfiq orduların keçməsi ilə əlaqədar ortaya çıxan məsələləri nizama salmaqdan ötrü Vyanada üç səlahiyyətli dövlətdən və Türkiyədən ibarət komissiya yaradılsın. Tərəflər bir-biri ilə müdafiə və hücum haqqında müqavilələr bağlamaqla yanaşı separat sülhə getməyəcəkləri barədə öhdəlik götürdülər. Prussiya da bu M.-yə qoşuldu. M. bağlanandan sonra Avstriya Fransa və Böyük Britaniyanın xeyrinə Rusiyaya qarşı diplomatik təzyiqi artırdı.

**VYANA KONFRANSI** (1855). Rusiya, Avstriya, Fransa, Böyük Britaniya və Türkiyənin diplomatik nümayəndələrinin Krım *müharibəsi* zamanı sülh şərtlərini dəqiqləşdirmək məqsədilə keçirdikləri konfrans; İngiltərə və Fransaya xəbər verilmişdi ki, Rusiya 18.VII.1854 ildə *koalisiya* tərəfindən ona təqdim olunmuş ilkin sülh şərtlərinin 4 bəndini qəbul edib. Şərtlərə əsasən: 1) Dunay knyazlığı Fransa, İngiltərə, Avstriya, Rusiya və Prussiyanın ümumi protektoratına (*Qəyyumluq*) keçir və müvəqqəti olaraq Avstriya qoşunlarının işğalında qalırdı; 2) bu beş dövlət sultanın bütün xristian təbəələrinin (*Təbəəlik*) hamiləri elan olunurdu; 3) onlar həmçinin Dunay mənsəbi üzərində kollektiv nəzarət hüququ əldə edirdilər; 4) Rusiya boğazlara dair 1841 il London konvensiyasına (*London konvensiyaları; Beynəlxalq konvensiya*) yenidən baxılması ilə razılaşırdı.

**VYANA KONQRESİ** (1814-1815). Fransa imperatoru I Napoleonun (*Napoleon I Bonapart*) məğlubiyyətindən sonra Avropanın yeni siyasi və ərazi quruluşu haqqında konqres (*Beynəlxalq konqres*). *Yekun aktının* qəbul olunması ilə başa çatdı. V.k.-nin qərarlarına görə Fransa 1792 il sərhədlərini (*Dövlət sərhədləri*) bərpa etdi. Polşa çarlığı Rusiyaya birləşdirildi. Saksoniyanın bir hissəsi, Reyn vilayəti və Vestfaliyanın çox hissəsi Prussiyaya verildi, Müqəddəs Roma imperiyası ləğv olundu, alman dövlətlərindən ibarət Almaniya İttifaqı yaradıldı, Belçikadan imtina edən Avstriya Qalitsiyanı, Dalmasiyanı və Şimali İtaliyada ərazilər qazandı, Niderland və Belçika birləşəndən sonra Niderland krallığı yaradıldı. Hannover, Qelqoland, Malta, Mavriki, Seylon və Ümid burnu İngiltərəyə keçdi, İtaliya 8 hissəyə parçalandı, 19 İsveçrə kantonu, «əbədi neytrallıq» statusu olan İsveçrə *konfederasiyasında* birləşdi.

Yekun akta zəncilərlə ticarəti qadağan edən, *beynəlxalq çaylarda* və *sərhəd çaylarında* gəmiçilik və gömrükalma qaydalarını müəyyənləşdirən əlavələr edildi.

V.k. ilk dəfə diplomatik agentlərin dərəcələrə bölünməsini müəyyənləşdirdi (*Vyana reqlamenti*).

26.IX.1815 ildə Avstriya, Prussiya və Rusiya *Müqəddəs ittifaqın* yaradıldığını elan etdilər.

**VYANA KONVENSİYASI** (1961). *Diplomatik əlaqələrə* dair 53 maddədən ibarət əsas beynəlxalq hüquqi sənəd; *dövlət başçıları* yanında *diplomatik nümayəndəliklərin* status və funksiyalarını müəyyən edir; 18.IV Vyanada *BMT*-nin diplomatik əlaqələrə və immunitetlərə dair konfransında qəbul edilib.

V.k.-sı, əlalxüsus, *diplomatik münasibətlərin* qurulması, diplomatik nümayəndəliyin başçısının (*Diplomatik başçılıq*) *akkreditə edilməsi* və onun funksiyalarının dayandırılması, nümayəndəliyin əməkdaşlarının təyin olunması, onların və ailə üzvlərinin gəlib-getmələri barədə qəbul edən dövlətin XİN-ə bildirilməsi qaydalarını, habelə

nümayəndəliklərin başçılarına verilən dərəcələri (*Dilomatik dərəcələr və rütbələr*) müəyyən edir.

V.k.-da nümayəndəliyin başçısının, yaxud diplomatik heyətin üzvlərindən kiminsə arzuedilməz şəxs (*persona non qrata*) elan olunması ilə bağlı normalar verilir.

V.k. müvafiq dərəcədən olan nümayəndəliklərin başçılarının və diplomatik heyət üzvlərinin öncüllüyü məsələlərini (*Diplomatik öncüllük*) tənzimləyir, habelə nümayəndəliyin başçısı vəzifəsini müvəqqəti yerinə yetirən şəxsin təyin olunması qaydalarını nəzərdə tutur (*Müvəqqəti işlər vəkilləri*).

V.k-nın xeyli hissəsi diplomatik imtiyazlara və immunitetlərə (*Diplomatik imtiyazlar və toxunulmazlıq hüququ*) həsr olunub. Preambulada göstərilir ki, VK ilə bilavasitə nəzərdə tutulmayan məsələlər əvvəlkitək beynəlxalq adi hüquq normaları ilə tənzimlənməlidir.

V.k.-na 2 fakültətiv *protokol* əlavə olunub: a) *Beynəlxalq Məhkəmənin* icbari yurisdiksiyası; b) qəbul edən ölkənin *vətəndaşlığa* dair qanunvericiliyinin diplomatik nümayəndəliklərin üzvlərinə tətbiq edilməməsi.

**VYANA KONVENSİYASI** (1963). Nüvə ziyanı müqabilində mülki məsuliyyətə dair sənəd. 29.IV-19.V. Vyanada keçirilən *beynəlxalq konfransda* qəbul edilib. 12.XI.1977 ildən qüvvəyə minib; Argentina, Boliviya, Misir, Kamerun, Kuba, Niger, Peru, Trinidad və Tobaqo, Filippin, Yuqoslaviya barəsində tətbiqi nəzərdə tutulub.

V.k. atom enerjindən dinc məqsədlərlə istifadə olunması zamanı vurulan ziyanın ödənilməsi məsələlərini nizamlayır və bir sıra məfhumların, o cümlədən, nüvə materialı, nüvə yanacağı, nüvə qurğusu, nüvə insidenti, nüvə zərəri, qurğu operatoru və s. anlayışların təsfirini verir, ələlxüsus nüvə qurğusu operatorunu bu avadanlığa cavabdeh məsul şəxs kimi səciyyələndirir.

V.k. nüvə ziyanı müqabilində mütləq məsuliyyət nəzərdə tutur və bu məsuliyyət müvafiq qurğu operatorunun üzərinə düşür. Lakin zərər çəkən tərəf ziyanın nüvə qurğusu operatorunun səhvi, yaxud kobud səhlənkarlığı üzündən vurulduğunu sübuta yetirməlidir. Zərərçəkən tərəf ona vurulan zərərin baş verən hadisənin nəticəsi olduğunu sübuta yetirərsə, operator cavabdehlik daşıyır.

Hər dövlət insidentə görə öz operatorlarının məsuliyyətini 5 mln. dollardan az olmayan məbləğdə müəyyənləşdirməli və həmin məbləğ sığorta, yaxud digər maliyyə təminatları ilə ödənilməlidir.

**VYANA KONVENSİYASI** (1969). *Beynəlxalq müqavilələr hüququna* dair. 23.V. *BMT* konfransında (*Beynəlxalq konfranslar*) qəbul edilib; 27.I.1980 ildə qüvvəyə minib. V.k. müqavilələr hüququna dair *beynəlxalq-hüquq* normalarını ümumiləşdirir, habelə beynəlxalq həyatda mövcud olan praktika və ənənələrdən doğan bir sıra yeni normaları özündə ehtiva edir. V.k. müqavilə (*Beynəlxalq müqavilə*) hüququnun ən müxtəlif məsələlərini: müqavilələrin bağlanma qaydaları; beynəlxalq müqavilələrin 3-cü dövlətlər üçün əhəmiyyəti; ümumi beynəlxalq hüququn imperativ normasına zidd olan müqavilənin etibarsızlığı; müqavilə bağlanarkən mövcud olmuş şəraitin kökündən dəyişməsinin həmin müqavilənin etibarlılığına təsiri; çoxtərəfli müqavilələrə düzəliş etmə hüququ; müqavilələrin etibarsızlığını şərtləndirən şəraitlər:





iştirakçılardan biri tərəfindən müqavilənin pozulması zamanı yaranan mübahisələrin həlli qaydaları; çoxtərəfli müqavilənin *depozitar* funksiyaları və s. kimi məsələləri əhatə edir.

**VYANA KONVENSİYASI** (1978). Müqavilələrə (*Beynəlxalq müqavilə*) münasibətdə *dövlətlərin hüquqi varisliyinə* dair çoxtərəfli saziş; 23.VIII. Vyanada diplomatik konfransda (*Beynəlxalq konfranslar*) qəbul edilib. Hüquqi varisliyi (istər müstəmləkə asılılığından azad olmuş yeni müstəqil dövlətlərin, istərsə də dövlətlərin birləşməsi və ayrılması nəticəsində yaranan yeni dövlətlərin) tənzimləməyə, dövlətlərarası müqavilə əlaqələrinin, sərhədlərin (*Dövlət sərhədləri*) və sərhədlərə aid rejimlərin, habelə xüsusi ərazi rejimlərinin stabilliyinin təmin olunmasına xidmət edir.

V.k. *beynəlxalq hüququn* bir sıra mühüm prinsiplərini, o cümlədən **tabula rasa** (lat. hərfi mənası təmiz lövhə) prinsipini möhkəmləndirib inkişaf etdirir. Bu prinsip yeni yaranan müstəqil dövlətlərin keçmiş metropoliyalar tərəfindən bağlanmış əvvəlki müqavilələrdən azad olmasını nəzərdə tutur. Birləşmə, ayrılma hallarında, yaxud ərazinin bir hissəsinin bir dövlət tərəfindən başqasına verilməsi halında əvvəl mövcud olmuş dövlətlər tərəfindən qəbul olunmuş müqavilə öhdəliklərinin saxlanılması prinsipi nəzərdə tutulur. V.k. xalqların öz sərvətinə və təbii ehtiyatlarına suveren hüququnu, habelə özgə ərazilərdə hərbi bazalar yaradılmasının yolverilməzliyini və mövcud sərhədlərin pozulmazlığı prinsipini təsdiq edir.

**VYANA KONVENSİYASI** (1983). Dövlət mülkiyyətinə, dövlət arxivlərinə və dövlət borclarına münasibətdə dövlətlərin hüquqi varisliyinə dair; bu *Konvensiya* 1978 il Vyana konvensiyasını tamamlayır və yeni dövlətlər meydana gələrkən (mövcud dövlətlərin birləşməsi və ya ayrılması, yaxud keçmiş ərazilərdə yeni müstəqil dövlətlərin yaranması), həm də ərazinin bir hissəsi bir dövlət tərəfindən digərinə verilərkən dövlət mülkiyyətinə, dövlət arxivlərinə və dövlət borclarına münasibətdə *dövlətlərin hüquqi varisliyi* ilə bağlı məsələləri tənzimləyir.

**VYANA MÜQAVİLƏSİ** (1815) (məxfi). Fransa, İngiltərə və Avstriya arasında Rusiya və Prussiyaya qarşı ittifaq sənədi; 1814-1815 illərdə *Vyana konqresi* zamanı 03.I.1915 ildə imzalanıb. Saksoniyanın Prussiyaya, Polşanın isə Rusiyaya birləşdirilməsinə yol verməməyi qarşıya məqsəd qoydu. V.m. keçmiş müttəfiqləri parçalamağa can atan Fransanın xarici işlər naziri Ş.M.Taleyranın (*Taleyran Şarl Morris*) diplomatik nailiyyəti idi. V.m.-ə görə, onun iştirakçıları Vyana konqresində aparılacaq danışıqlar zamanı elə hərəkət etməli idilər ki, qəbul olunan qərar 1814 il Paris sülh müqaviləsini tamamlasın. Əgər razılığa gəlmiş tərəflərdən biri təhlükəyə məruz qalardısa, o zaman digər iki dövlət işə qarışmaqla təhlükənin qarşısını alacağını və əgər bu cəhd uğursuzluqla nəticələnərdisə, onlardan hər biri 150 minlik ordu ilə onun köməyinə gəlməyi öhdəyə götürürdü. V.m.-nin hər 3 üzvü *separat sülh* bağlamamaq barədə təəhhüd götürürdü.

V.m. onun iştirakçıları üçün Prussiyanın Saksoniya barəsində tələblərinə təsirli müqavimət göstərməyə imkan yaratdı.

**VYANA REQLAMENTİ.** 19.III.1815 ildə Avstriya, İngiltərə, İspaniya, Portuqaliya, Prussiya, Rusiya, Fransa və İsveç nümayəndələri tərəfindən imzalanmış *Vyana konqresinin* Yekun aktına 17 saylı əlavədir. V.r. diplomatik dərəcələrin (*Diplomatik dərəcələr və rütbələr*) vahid təsnifatını aparmışdır, bu da *Vyana konqresindən* əvvəlki dövrdə dövlətlər arasında çox vaxt ciddi fikir ayrılığına səbəb olan diplomatik nümayəndələrin üstünlüklərinə dair mübahisələrin kəsilməsinə kömək etmişdi. V.r. diplomatik nümayəndələrin aşağıdakı dərəcələrini müəyyən etmişdi: 1) *səfirlər*, leqatlar və *nunsilər*; 2) *elçilər* və ya monarx yanında *akkreditə edilən* şəxslər; 3) *işlər müvəkkili*. 21.XI.1818 il Aahen protokolu bu siyahıya nazir-rezident sinfini əlavə etmişdi. Nazir-rezident diplomatik nümayəndələrlə işlər müvəkkili arasında aralıq mövqe tuturdular. V.r.-nə görə birinci iki dərəcənin diplomatik nümayəndələri *dövlət başçısı* yanında akkreditə olunmuş hesab olunurdular. İşlər müvəkkilləri xarici işlər naziri yanında akkreditə olunurdu. Nazir-rezidentlərin təyinatı XIX əsrin sonunda və XX əsrin əvvəllərində azalmağa başladı və 1938 ildə bir nəfər də olsun rezident-nazir qalmadı. V.r.-nə görə hər bir dövlətdə hər bir dərəcəyə aid diplomatik nümayəndənin eyni qəbul olunma qaydası müəyyən edilməli idi. V.r.-nin dördüncü paraqrafında müəyyən olunmuşdu ki, diplomatik nümayəndələr konfransda (*Beynəlxalq konfranslar*) onların rəsmi nota (*Diplomatik nota*) ilə məlumatlandırılmış qaydaı üzrə yer tutmalı idilər. O da qərara alındı ki, səlahiyyətli şəxslər konfransda müqavilələri (*Beynəlxalq müqavilə*) əlifba qaydası ilə imzalamalıdırlar. Bütün bunlar diplomatik rütbəyə görə birinciliyə dair kəskin mübahisələrə son qoysa da, bəzi məsələlər həll edilməmiş qaldı.

V.r.-nə görə səfirlər diplomatik nümayəndələrlə müqayisədə müstəsna hüquqlardan istifadə edirdilər. Hesab edilirdi ki, ancaq böyük dövlətlər səfir təyin və qəbul edə bilər və səfir dövlət başçısının şəxsi nümayəndəsi kimi akkreditə olunduğu dövlətin başçısı ilə birbaşa danışıqlar aparmaq hüququna malikdir, halbuki elçi bu hüquqa iddia edə bilməzdi. Səfirlər və diplomatik nümayəndələr arasında bu və ya digər fərqlər dövlətlərə qeyri-bərabər münasibəti özündə əks etdirirdi.

Beynəlxalq hüquqda bütün böyük və kiçik dövlətlərin suveren (*Dövlətin suverenliyi*) bərabərliyi prinsipinin təsdiq olunması ilə səfirlər və diplomatik nümayəndələr arasındakı fərqlər aradan qalxırdı. Beynəlxalq hüquqda və diplomatik praktikada diplomatik nümayəndələr arasında heç bir fərq qoymamaq prinsipi geniş yayılmağa başladı.

V.r. 18.IV.1961 il *diplomatik münasibətlərə* dair Vyana Konvensiyasınadək (*Vyana konvensiyası 1961*) qüvvədə olmuşdur.

**VYANA SÜLH MÜQAVİLƏSİ** (1738). Polşa varisliyi üstündə gedən *müharibəni* başa çatdırdı; 18.XI. Avstriya ilə Fransa arasında bağlanıb və əsasən Avstriya, Fransa, İspaniya və Sardiniya arasında 03.X.1735 ildə Vyanada imzalanmış *preliminar sülh müqaviləsinin* (*Beynəlxalq müqavilə*) şərtlərini təkrarlayırdı. V.s.m.-nə görə, Fransa 1713 il Praqmatik sanksiyaya təminat verir, Saksoniya knyazı III Avqustu Polşa kralı kimi tanıyırdı. St.Leşşinskiyə ömürlük kral titulu verilir, Lotaringiya və Bar qraflığı onun ixtiyarına keçir, lakin o öləndən sonra qraflıq Fransaya qaytarılmalı idi. İmperator VI Kralın kürəkəni Lotaringiya hersoqu Frans Stefan Lotaringiyanın əvəzi olaraq Parmaya, Pyaçensuya və Toskaniyaya yiyələnirdi. Avstriya 1713 il Utrext sülh müqaviləsi ilə əldə etdiyi hər iki Sicilya krallığından imtina edirdi. Sardiniya Avstriyaya məxsus Milan hersoqluğunun bir hissəsinə (Navarra, Tortona) sahib olurdu.

V.s.m. Avstriyanın XVIII əsrin ortalarında hərbi və diplomatik məğlubiyyətlər silsiləsində ilk həlqələrdən biri oldu. Uğursuz türk müharibəsinə girişən Avstriya Fransa ilə ilkin müqavilənin ağır şərtlərilə razılaşmağa məcbur oldu.

**VYANA ULTİMATUMU** (1876) («Andraşi notası»). Bosniya və Hersoqovinada üsyanla əlaqədar Avstriya-Macarıstan, Rusiya və Almaniya, habelə onlara qoşulan Fransa, İngiltərə və İtaliya tərəfindən Osmanlı hökumətinə verilən tələbnamə.

VIII.1875 ildə bu ölkələr Türkiyə ilə üsyançılar arasında *vasitəçi* olmaq üçün öz *konsullarının* xidmətindən istifadə etməyi sultana təklif etdilər. Avstriya-Macarıstanın xarici işlər naziri D.Andraşi Bosniya və Hersoqovina üçün islahatları ehtiva edən nota (*Diplomatik nota*) yazılmasını öz üzərinə götürdü. Layihə əhaliyə tam din və məzhəb azadlığı verilməsini, vergi-iltizam sisteminin ləğv olunmasını, vilayətlərin gəlirlərinin yerli ehtiyaclar üçün xərclənməsini, islahatların keçirilməsinə nəzarət edəcək qarışıq xristian və müsəlman komissiyasının yaradılmasını və xristian əhalinin torpaqla təmin olunmasını nəzərdə tuturdu.

Osmanlı hökuməti həmin tələbləri rədd etmiş və bu, Rusiyadan savayı qalan dövlətlərdə hər hansı etiraz doğurmamışdı. V.u. nəticəsiz qalmışdı.

**VYETNAMA DAİR BEYNƏLXALQ KONFRANS** (1973). 26.II-2.III. ABŞ, Böyük Britaniya, ÇXR, Cənubi Vyetnam respublikası, Fransa, İndoneziya, Kanada, Macarastan Xalq Respublikası, Polşa Xalq Respublikası, Sayqon hökuməti, SSRİ xarici işlər nazirlərinin və *BMT-nin Baş katibinin* iştirakı ilə Parisdə keçirilmişdir. *Vyetnamda müharibənin dayandırılması və sülhün bərpa edilməsinə dair sazişin* və ona əlavə olunan 4 protokolun bəyənilməsi haqqında akt imzalandı.

**VYETNAM - ÇİN DANIŞIQLARI** (münasibətləri bərpa etməyə dair). Vyetnamın təşəbbüsü ilə danışıqların birinci mərhələsi 18.IV-18.V.1979 ildə Hanoyda keçirilib. Vyetnam Sosialist Respublikası (VSR) nümayəndə heyəti sərhəd rayonlarında sülh və sabitliyi təmin etmək və dövlətlərarası normal münasibətləri yoluna qoymaq naminə mübahisə doğuran ərazi iddiaları məsələlərini danışıqlar yolu ilə həll etməyi təklif edirdi. Çin tərəfi VSR-ə qarşı ərazi iddiaları tələbi ilə çıxış etməklə yanaşı, həm də ondan müstəqil xarici siyasət xətti yürütməkdən imtina etməyi tələb edirdi. Danışıqların birinci mərhələsi ikitərəfli münasibətlərdə müsbət nəticələrin əldə edilməsinə gətirib çıxarmadı.

Çin tərəfi sülh danışıqlarını bərpa etmək barədə VSR-in təklifini rədd etdi.

**VYETNAMDA MÜHARİBƏNİN DAYANDIRILMASI VƏ SÜLHÜN BƏRPA EDİLMƏSİNƏ DAİR SAZİŞ** (1973). 27.I. ABŞ, Cənubi Vyetnam milli azadlıq cəbhəsi, Vyetnam Demokratik respublikası və Vyetnam Respublikası (Cənubi Vyetnam) nümayəndələri tərəfindən Parisdə imzalanmışdı. Sazişin

şərtlərinə görə Vyetnamda hərbi əməliyyatlar dərhal dayandırılmalı, ABŞ qoşunları oradan çıxarılmalı idi. Cənubi Vyetnamın siyasi quruluşunu bu ölkənin xalqı müəyyən etməli, Vyetnamın birləşdirilməsi xarici müdaxilə olmadan, mərhələlərlə həyata keçirilməli idi. Vyetnamlılar arasında milli birliyi, sülhü və dialoqu təşkil etmək üçün barışıq komissiyası yaratmaq nəzərdə tutulmuşdu. ABŞ Vyetnamın və bütünlükdə Hind-Çinin bərpa edilməsinə yardım edəcəyini öhdəsinə götürdü. Saziş *Vyetnama dair beynəlxalq konfransda* təsdiq edilmişdir.

**VYETNAM-FRANSA MÜQAVİLƏLƏRİ.** 1) Hücum və müdafiə ittifaqı haqqında 1787 il müqaviləsi (*Beynəlxalq müqavilə*) - 28.XI Versalda imzalanıb; Fransa-Vyetnam münasibətləri tarixində ilk müqavilədir ki, onun vasitəsilə Fransa Vyetnamda öz nüfuzunu möhkəmləndirməyə cəhd göstərib. Kral XVI Lüdovik tayşonların üsyanı zamanı (1771-1802) ölkənin cənub hissəsindən – Koxinxindən qovulan şahzadə Nquen Anüyə öz hakimiyyətini bərpa etməkdə hərbi köməklik göstərməyi öhdəyə götürürdü. Öz növbəsində Nquen Anyü Pulo-Kondor adasını və Dananq limanını əmələ gətirən yarımadanı (limana müştərək sahib olmaq hüququ ilə) Fransanın tam mülkiyyətinə verirdi. Cənubi Vyetnamın bütün ərazisində Fransaya müstəsna ticarət və siyasi imtiyazlar verilirdi. 1789 ildə başlanan Fransa inqilabı Fransaya Vyetnamda öz niyyətlərini həyata keçirməyə mane oldu. 1857 ildə Fransa müqaviləni etibarsız saydı; 1858 ildə Vyetnam-Fransa *müharibəsi* başlandı.

2) Sülh və ittifaq haqqında 1874 il müqaviləsi – 15.III imzalanıb; 26.VIII.1875 ildə Xyuyedə *ratifikasiya* sənədlərinin mübadiləsi olub. M. 1862 il Vyetnam Fransa-İspaniya müqaviləsini rəsmi olaraq əvəz etmiş, Fransa müstəmləkəçilərinin bütün Vyetnam üzərində hökmranlığının bərqərar olmasında mühüm addım olub. M. Cənubi Vyetnamın bütün ərazisində, o cümlədən 1867 ildə anneksiya edilmiş 3 əyalətdə Fransa mülkiyyətini təsdiq edirdi. Vyetnam özünün xarici siyasətini Fransa siyasəti ilə uyğunlaşdırmağı öhdəyə götürür, Fransa hökumətinə qabaqcadan məlumat vermədən ticarət müqavilələri bağlamaq hüququndan məhrum olurdu. M. *konsulluq münasibətlərini*, Fransa təbəələrinin Vyetnamda hüquqlarını və s. tənzimləyirdi.

3) Protektorata dair 1884 il müqaviləsi – 06.VI Xyuyedə imzalanıb. 23.II.1886 ildə ratifikasiya sənədlərinin mübadiləsi olub. Bu müqavilə ilə 2-ci Fransa-Vyetnam müharibəsinə (1883-1884) son qoyulub və nəticədə Vyetnamın Fransa müstəmləkəçiləri tərəfindən işğalı başa çatdırılmışdı. Vyetnam Fransa protektoratını (*Qəyyumluq*) tanıdı.

**VYETNAM-FRANSA SAZİŞİ** (1946). Xalq Demokratik İnqilabının qələbəsilə 1945 ildə Vyetnam Demokratik Respublikası (VDR) elan olunandan sonra Vyetnam-fransız danışıqları başladı. 06.III.1946 ildə imzalanan ilkin sazişə görə, Fransa hökuməti VDR-i Hind-Çin Federasiyası və Fransa ittifaqı daxilində öz hökuməti, parlamenti, ordusu və maliyyəsi olan azad dövlət kimi tanıdı. Fransızlar tərəfindən qismən işğal olunmuş Cənubi Vyetnamın VDR-ə birləşdirilməsinə Fransa həmin ərazidə keçiriləcək ümumxalq rəy sorğusunun nəticələri nəzərə alınmaqla 14.IX.1946 ildə Parisdə müvəqqəti *Konvensiya* imzalandı və bu sənədə görə, hər iki tərəf hərbi əməliyyatları dayandırmaq barədə öhdəlik götürdülər. Fransa VDR-ə onunla qonşu ölkələrdə konsulluq nümayəndəliklərini (*Konsul idarəsi*) açama razılıq verirdi. XII.1946 ildə Fransa Vyetnam-Fransa sazişini gözlənilmədən pozaraq ABŞ və İngiltərənin köməyi ilə VDR-ə qarşı *müharibəyə* başladı. Sosialist dövlətlərinin yardımı ilə VDR uğrunda müharibədə bir sıra qələbələr qazandı (məs.: Denbenfu altında fransız qoşunlarının darmadağın edilməsi). Müharibə 1954 il Cenevrə müşavirəsinin qərarına müvafiq olaraq dayandırıldı.

**VYETNAM - KAMPUÇİYA MÜQAVİLƏLƏRİ VƏ SAZİŞİ.** 1) 1979 il sülh, dostluq və əməkdaşlığa dair müqavilə (*Beynəlxalq müqavilə*) - 18.II Pnompendə 25 il müddətinə imzalandı; tərəflər bir-birinə hərtərəfli kömək göstərmək, bir-birinin müstəqilliyinə, *suverenliyinə* və maraqlarına hörmət etmək, daxili işlərinə qarışmamaq, bərabərlik və qarşılıqlı fayda əsasında həmrəyliyi, dostluq və əməkdaşlığı möhkəmləndirmək barədə öhdəlik götürdülər. M.-də mümkün ola bilən hər cür fikir ayrılığını dinc danışıqlar yolu ilə həll etmək əzmi ifadə olundu. Vyetnam və Kampuçiya müştərək sərhədlərin müəyyən olunması barədə mövcud vəziyyətdən çıxış edərək danışıqlar aparmağı öhdəyə götürdülər.

2) 1983 il müqaviləsi - sərhəd (*Dövlət sərhədləri*) problemini nizama salmaq prinsiplərinə dair; 20.VII Pnompendə imzalanıb. Göstərildi ki, quru və dəniz sərhədlərinin *demarkasiyası* bərabərlik, qarqşılıqlı hörmət və iki ölkə arasında dostluq münasibətlərinin inkişafı naminə beynəlxalq qanunlara və praktikaya müvafiq şəkildə həyata keçiriləcəkdir.

3) Dövlət sərhədi barədə 1983 il saziş – 20.VII Pnompendə imzalanıb; Tərəflərin suverenliyini və ərazi bütövlüyünü, habelə sərhədyanı rayonların təhlükəsizliyini təmin etmək vasitələrini, sərhəddən keçmək qaydalarını tənzimləyir.

**VYETNAMLA BAĞLI PARİS DANIŞIQLARI** (1968-1973). 10.V.1968 ABŞ və Vyetnam Demokratik Respublikasının ikitərəfli görüşü kimi başlamış 18.I.1969 ildə tədbirə Cənubi Vyetnam Milli azadlıq cəbhəsi və Sayqon hökuməti nümayəndələri də qoşulmuşdular. 08.V.1969 ildə Cənubi Vyetnam Milli azadlıq cəbhəsi tərəfindən Vyetnamda tənzimlənmənin əsasını təşkil edən «10 bənd» planı irəli sürüldü. Plana görə ABŞ və müttəfiqləri Cənubi Vyetnamdan qoşunlarını çıxartmalı, oradakı hərbi bazalarını ləğv etməli; Cənubi Vyetnama aid məsələlər, kənar müdaxilə olmadan vyetnamlılar tərəfindən həll edilməli; Cənubi Vyetnamda müxtəlif siyasi qüvvələrin daxil olduğu müvəqqəti koalisiyalı (*Koalisiya*) hökumət yaradılmalı idi. Demokratik azadlıqları həyata keçirmək, Cənubi Vyetnamın siyasi quruluşunu müəyyənləşdirmək üçün ümumi azad və demokratik seçkilər keçirmək, müəssislər məclisi təsis etmək, konstitusiya hazırlamaq və geniş əsaslarla koalisiyalı hökumət təşkil etmək müvəqqəti koalisiyalı hökumətin vəzifələrinə daxil idi. Cənubi Vyetnamın sülh və neytrallığa əsaslanan xarici siyasət aparması, Vyetnamın birləşdirilməsinin tədricən və dinc yolla həyata keçirilməsi nəzərdə tutulurdu.

Danışıqlar Vyetnamda *müharibənin* dayandırılmasına dair sazişin imzalanması ilə sona çatdı.

# Y

**YADDAŞ KAĞIZI** (fr. *mymoire*). *Diplomatik yazışma* sənədinin növlərindən biridir. Diplomatik praktikada yaddaş kağızı söhbət zamanı edilmiş müraciəti təsdiq etmək üçün şəxsən təqdim olunur. Y.k.-nın təqdim olunmasında məqsəd edilmiş müraciətin və ya müzakirə olunan xahişin əhəmiyyətini artırmaqdan, şifahi deyilənələrin səhv *ifadə olunması* və ya səhv başa düşülməsinin qarşısını almaqdan ibarətdir.

Y.k. müəyyən bir forma olmadan, xüsusi ifadələr işlədilmədən tərtib olunur. Y.k.-da hər hansı müraciət və komplement olmur. Y.k. gerb olmayan sadə kağızda çap olunur, nömrə və möhür qoyulmur, ünvan göstərilmir Yer (şəhər) və təqdim olunma vaxtı çap olunur. Qeyd mətninin üstündə başlıq – Yaddaş kağızı – sözü çap olunur.

Bəzən elə hallar baş verir ki, *səfirlik* bu və ya digər məsələyə dair yaddaş qeydi təqdim etməyi nəzərdə tutmur, ancaq həmsöhbəti öz təşəbbüsü ilə Y.k. verməyi xahiş edir. Əgər taktiki mülahizər üzündən səfirliyin Y.k. təqdim etməyə etirazı olmazsa, Y.k. şəxsən və ya verbal nota (*Diplomatik nota*) ilə, ya da xahişə əsasən *vizit kartı* ilə göndərilir.

**YALTA (KRIM) KONFRANSI** (1945). 04-11.II. ABŞ, Böyük Britaniya və SSRİ *hökumət başçılarının* iştirakı ilə Yaltada keçirilmişdi. Müttəfiqlər nasist Almaniyasının tamamilə darmadağın edilməsi üçün hərbi əməliyyatların əlaqələndirilməsi barədə razılığa gəldilər. Almaniyanın təslim olmasından sonra onun ərazisini dörd işğal zonasına (amerikan, fransız, ingilis və sovet) bölmək, ali hakimiyyətin həyata keçirilməsini işğal qoşunlarının baş komandanlarına həvalə etmək qərara alındı. *Birləşmiş Millətlər Təşkilatının* yaradılması barədə razılıq əldə edildi. Avropanın azad olunmuş ölkələrində siyasi və iqtisadi problemləri demokratik prinsiplərə uyğun həll etmək barədə Azad Avropa haqqında *Bəyannamə* qəbul edildi. Polşanın müvəqqəti hökumətinin tərkibinə müxtəlif antifaşist qüvvələrin daxil edilməsinin zəruriliyi bildirildi. Polşa-Sovet sərhəddi Kerzon xətti boyu müəyyən edildi. Almaniyanın təslim olmasından 2-3 ay sonra SSRİ-nin Yaponiya ilə *müharibəyə* girməsi haqqında məxfi saziş imzalandı.

**YAPONİYADAN ÖTRÜ MÜTTƏFİQ ŞURASI.** SSRİ, ABŞ və Böyük Britaniya xarici işlər nazirlərinin 1945 il Moskva müşavirəsinin qərarına uyğun olaraq, Yaponiyanın təslim olması, işğal və nəzarətə götürülməsi şərtlərinə əməl olunması üzrə tövsiyələr işlənib hazırlanması üçün ABŞ-ın Yaponiyadakı qoşunlarının Baş komandanı ilə məsləhətləşmələr aparmaq məqsədilə yaradılmışdır. Şuranın tərkibinə ABŞ (sədr), SSRİ, Çin və Böyük Britaniya daxil idi. Qərargahı Tokioda yerləşirdi. İlk iclası 5.IV.1946 ildə keçirildi.

**YAPONİYADA UZAQ ŞƏRQ KOMİSSİYASI.** SSRİ, ABŞ və Böyük Britaniyanın xarici işlər nazirlərinin 1945 il Moskva müşavirəsinin qərarı ilə XII.1945 ildə təsis edildi. Qərargahı Vaşinqtonda yerləşməklə 11 dövlətin (SSRİ, ABŞ, İngiltərə, Çin, Fransa, Hollandiya, Kanada, Avstraliya, Yeni Zellandiya, Hindistan və Filippin) nümayəndələrindən təşkil edilmişdi. Uzaq Şərq komissiyasının əsas vəzifəsi – ümumi siyasi xətt işləyib hazırlamaq və ona əsasən Yaponiyanın təslim şərtlərinə müvafiq olaraq götürdüyü öhdəlikləri yerinə yetirməsini təmin etmək idi.

Komissiyanın qərarları səs çoxluğu ilə, həm də SSRİ, ABŞ, Böyük Britaniya və Çinin mövqelərinin üst-üstə düşməsi şərti ilə qəbul olunurdu.

«Təslimdən sonra Yaponiyaya dair əsas siyasət barədə», habelə Yeni Yaponiya konstitusiyasının əsas prinsipləri haqqında, hərbi-sənaye potensialının ixtisarına dair, aqrar islahatlar barədə və s. qərarlar komissiyanın fəaliyyətində əhəmiyyətli yer tutmuşdur.

1948 ildən başlayaraq ABŞ Komissiya ilə hesablaşmamaq yolunu tutdu. 1952 ildə San-Fransisko sülh müqaviləsinin qüvvəyə minməsilə komissiya öz işini dayandırdı.

**YAPONİYANIN «QEYRİ-NÜVƏ» PRİNSİPLƏRİ.** Nüvə silahlı istehsal etməmək, ona yiyələnməmək və kənardan gətirməmək barədə öhdəlik götürən Yaponiya siyasətinin 3 prinsipini nüvə silahı istehsal etməməyi, ona malik olmamağı və ölkəyə gətirməməyi nəzərdə tutur; qanun xarakteri daşımır.

1957 ildə Yaponiyanın Baş naziri N.Kisi bəyan etmişdir ki, onun hökuməti xalqın əhval-ruhiyyəsini nəzərə alaraq nüvə silahını kənardan gətirməkdən və onunla təchiz olunmaqdan imtina edir. 1967 ildə baş nazir E.Sato «qeyri-nüvə» prinsipini hazırda mövcud olan formada tərtib etdi. 1976 ildə Yaponiya nüvə silahını yaymamağa dair 1968 il müqaviləsini təsdiq etdi və bununla da 2 ilkin prinsipi (nüvə silahını istehsal etməmək və ona yiyələnməmək) pozmamaq barədə hüquqi qaydada təəhhüd götürdü. 3-cü prinsip isə əslində Yaponiya tərəfindən pozulur, belə ki, Yaponiya ərazisindəki ABŞ hərbi bazalarında nüvə silahı mövcuddur.

**YARLIQ.** Hökmdarın yazılı fərmanı. Belə sənədlər XIII-XV əsrlərdə Rusiyada «yarlık» adlandırılan sənəd rus knyazlarının səlahiyyətlərinin Qızıl Orda xanı tərəfindən tanındığını bildirirdi.

«Fateh Sultan Məhəmmədin yarlığı» adlı sənəd 30.VIII.1473 ildə Qarahasarda yazılmış, II Ağqoyunlu-Osmanlı döyüşünün nəticələrinə həsr edilmişdi.

Bu yarlıqda *Uzun Həsənlə* baş verən hər iki döyüşün (Malatya və Otluqbeli) başlanma səbəbi açıqlanmış, qarşı-qarşıya duran Ağqoyunlu və Osmanlı qoşunlarının hərbi düzümü əks etdirilmişdir.

Uzun Həsən üzərində qələbəyə böyük əhəmiyyət verən II Sultan Məhəmməd öz yarlığını başqa *dövlət başçılarına* da göndərmişdi.

**YAXIN ŞƏRQ MÜHARİBƏSİ** (ALTI GÜNLÜK MÜHARİBƏ) (1967). 05-XI.VI. İsrail və Ərəb ölkələri arasında baş vermişdi. İsrail İordaniya, Misir və Suriyaya məxsus 70 min kv.km ərazini (İordan çayının qərb sahilini, Şərqi Qüdsü, Qəzza sektorunu, Sinay yarımadasını və Colan təpələrini) ələ keçirdi.

**YARUZELSKİ VAYTSEK** (1923). Ordu generalı, 1989 ildə Polşa Respublikasının *prezidenti* seçilmişdi. 1939 ilə qədər Varşavada marinistlərin xüsusi keşiş gimnaziyasında oxumuşdu. *İkinci dünya müharibəsi* illərində SSRİ-də yaşamış, fəhlə işləmiş, 1943 ildə sovet

ərazisində yaradılan polyak ordusuna könüllü yazılmış, Ryazanda piyada zabitlər məktəbini bitirmişdi. Poruçik rütbəsində Henrix Dombrovski adına 2-ci piyada dviziyanın tərkibində döyüşmüş, alay kəşfiyyat dəstəsinin komandiri olmuşdu. Polşanın azad olunmasında bilavasitə iştirak etmiş, göstərdiyi şəxsi igidliyə görə bir sıra döyüş orden və medallara, eləcə də ən yüksək «Virtuti militari» ordeninə layiq görülmüşdür. 1945-1947 illərdə silahlı gizli təşkilatlarla mübarizədə iştirak etmişdi. 1947 ildə Polşa Fəhlə Partiyasının, 1948-1990 illərdə isə Polşa Birləşmiş Fəhlə Partiyasının üzvü olmuşdu. 1960-1965 illərdə Polşa ordusunun Baş siyasi idarəsinin müdiri, 1965-1968 illərdə Polşa ordusunun Baş qərargah rəisi işləmişdi. 1962-1968 illərdə milli müdafiə nazirinin müavini, 1968-1983 illərdə Polşa Xalq Respublikasının (PXR) milli müdafiə naziri, 1981-1983 illərdə Milli Qurtuluş Hərbi Şurasının sədri, 1983 ildən Polşa Müdafiə Komitəsinin sədri, Polşa hərbi qüvvələrinin baş komandanı vəzifəsində işləmişdi. 1981-1985 illərdə PXR Nazirlər Şurasının Sədri, 1985-1989 illərdə PXR Dövlət Şurasının sədri işləmişdi.

**YASİR ƏRƏFAT** (ƏBU ƏMMAR) (1929-2004). Fələstin Azadlıq Təşkilatının (FƏT) İcraiyyə komitəsinin sədri; Fələstin inqilabi qüvvələrinin baş komandanı. 1955 ildə Qahirə universitetinin mühəndislik fakültəsini bitirmişdi. 1952-1955 illərdə Misirdə Fələstin Tələbələri Birliyinin sədri olub. 1956 ildə Fələstin hərbi hissələri tərkibində Süveyş kanalı bölgəsində ingilis-fransız-israil hücumunun dəf olunmasında iştirak edib. 1957 ildə Küveytə köçmüş, burada 1960 ildə Fələstin Milli-Azadlıq Hərəkatının təsisçilərindən biri olmuşdu. 1969 ildə Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri; 1970 ildə Fələstin inqilabi qüvvələrinin baş komandanı təyin olunmuşdu. 2004 ildə vəfat etmişdi.

**YASSI SÜLH MÜQAVİLƏSİ** (1791). 29.XII. imzalanmış və 1787-1791 illərdə rus-türk *müharibəsinə* son qoymuşdur. Y.s.m.-nin şərtlərinə görə Buq və Dnestr çayları arasındakı ərazi Rusiyaya keçdi. 1774 ildə *Kiçik*-Qaynarça sülh müqaviləsinin şərtləri təsdiq edildi. Türkiyə Gürcüstana olan iddialarından əl çəkdi. Anapa Türkiyəyə verildi. Türkiyə Əlcəzairdə, Tripolidə və Tunisdə rus ticarətinin maraqlarını müdafiə etməyi öhdəsinə götürdü.

**YEKATERİNA II** (1729-1796). 1762 ildən rus imperatriçası. Yekaterinanın çarlığı zamanında rus xarici siyasətinin əsas hədəfi Rusiyanın Pribaltikada mövqelərini möhkəmləndirmək, Polşa hökmranlığı altında olan Ukrayna və Belorusiya torpaqlarını yenidən Rusiya ilə birləşdirmək, Rusiyanın Qara dənizə çıxışını təmin etmək idi. Rusiyanın Türkiyəyə qarşı 1768-1774 il *müharibəsində* qələbəsi və 1774 il Kiçik Qaynarça sülh müqaviləsinin (*Beynəlxalq müqavilə*) bağlanması İngiltərəni Rusiyaya münasibətdə düşmən mövqe tutmağa vadar etdi.

1780 ildə Y. silahlı *bitərəflik* deklarasiyası ilə İngiltərənin dənizdə hegemonluğuna qarşı çıxdı. 1787 ildə Türkiyə ilə başlanan ikinci müharibə rus ordusunun qələbəsilə başa çatdı. *Babi-Ali* rusların tələblərini qəbul etdi və *Yassı sülh müqaviləsini* imzaladı. 1789 il Böyük Fransa inqilabının ilk günlərindən Y. inqilabı ideyaların Rusiyaya keçməsindən qorxuya düşmüşdü. X.1791 ildə Rusiya ilə İsveç arasında Fransaya qarşı birgə əməliyyatlara dair müqavilə bağlandı. Sonradan antifransa *koalisiyasına* Prussiya da qoşuldu. Y. Peterburqda saysız-hesabsız xarici nümayəndəliklərin başçıları ilə bilavasitə şəxsi danışıqlar aparırdı.

**YEKDİL SƏS PRİNSİPİ** (BMT Təhlükəsizlik Şurasının daimi üzvlərindən ötrü). 1945 il *Yalta* (*Krım*) *Konfransında* razılaşdırılmış, 1945 il *San-Fransisko konfransında* işlənib hazırlanmış və *BMT Nizamnaməsinə* daxil edilmişdi.

Y.s.p.-nə uyğun olaraq, *BMT Təhlükəsizlik Şurasında* prosedur məsələlərdən başqa, istənilən məsələ, hətta *Beynəlxalq Məhkəmə* üzvlərinin seçilməsinə dair qərar o şərtlə qəbul oluna bilər ki, onun lehinə, Təhlükəsizlik Şurasının bütün beş daimi üzvünün - Rusiya Federasiyası, Çin, ABŞ, Böyük Britaniya və Fransanın üst-üstə düşən səsləri də daxil olmaqla, 9-dan az səs verilməsin.

BMT Nizamnaməsinin VI fəslinə müvafiq olaraq, mübahisənin dinc yolla nizama salınmasına dair Təhlükəsizlik Şurası tərəfindən qərar çıxarılarkən bu mübahisədə tərəflərdən biri kimi keçən şura üzvü (daimi, yaxud qeyri-daimi) səsvermədə bitərəf qalmalıdır. Lakin Təhlükəsizlik Şurasının daimi üzvü mübahisə xarakteri daşımayan situasiyada onun mənafelərinə toxunulduqda, səsvermədən kənarda qalmamalıdır. Təhlükəsizlik Şurasının baxdığı məsələnin mübahisə xarakterli olub-olmaması Y.s.p. əsasında müəyyən edilir. Beləliklə, əgər Təhlükəsizlik Şurasının daimi üzvlərindən biri «*veto* hüququ»ndan istifadə edirsə, Təhlükəsizlik Şurası qeyri-prosedur məsələlər üzrə, heç bir qərar çıxara bilməz. Y.s.p. BMT Nizamnaməsinin 108 və 109-cu maddələrində təsbit edilib. Bu maddələrdə göstərilir ki, Nizamnaməyə hər hansı düzəliş edilməsi, Şuranın daimi üzvlərini hamılıqla təsdiqi olmazsa, qüvvəyə minə bilməz.

**YEKUN AKTI** (fr. *Acte final*). İştirakçıların mövqeyini əks etdirməklə beynəlxalq toplantının (konfrans (*Beynəlxalq konfranslar*), konqres (*Beynəlxalq konqres*), müşavirə) işini yekunlaşdıran sənəd; Yekun aktı özünün məzmun və hüquqi mahiyyəti baxımından müxtəlif olur və bu müxtəliflik konfransın işinin xarakteri, məqsəd və qayəsi, habelə gedişi ilə müəyyən edilir.

Y.a. istilahından çox vaxt beynəlxalq müqavilələri adlandırmaqda istifadə olunur, məs. Tancerdə beynəlxalq rejimin bərpasına dair 1945 il Paris konfransının Yekun aktı; Radio verilişlərinə dair 1963 il beynəlxalq konfransın Yekun aktı və s.

Beynəlxalq müşavirələrin yekun sənədinə nümunə kimi *Avropada Təhlükəsizlik və Əməkdaşlığa dair Müşavirənin Yekun aktını* göstərmək olar.

**YEKUN PROTOKOLU** (1901). Bir tərəfdən Çin, digər tərəfdən antiimperialist İxetuan («boksçular») üsyanının yatırılmasında iştirak etmiş Almaniya, Avstriya-Macarıstan, Belçika, ABŞ, İspaniya, İtaliya, Yaponiya, Niderland və Rusiya arasında bağlanmış razılaşma; 07.IX. Pekində imzalanıb. Ona əsasən, Çin 450 mln. lyan (1,5 mlrd. qızıl pul) məbləğdə təzminat (*Reparasiya*) ödəməyi öhdəyə götürürdü. Bu məbləğdən 20% Almaniyaya, 16% Fransaya, 34% birlikdə İngiltərə, İtaliya, Yaponiya, ABŞ və Belçikaya, 29% Rusiyaya və 1% qalan dövlətlərə çatması nəzərdə tutulurdu.

Çin adları çəkilən dövlətlərə xüsusi bonlar (pul alınması üçün kredit vərəqi) verməyi öhdəyə götürürdü və dövlətlərdən hər biri təminatçısı özü olmaq şərti ilə Çinə borc vermək yolu ilə həmin bonları realizə edə bilərdi. Çinə gətirilən mallar üçün maksimum gömrük haqqı 5% müəyyən edilirdi (sonralar 1902 il Şanxay müqaviləsi ilə, tacirlər öz mallarını bir şəhərdən digərinə daşıyarkən gömrük rüsumlarından tam azad edilir və bununla da yerli çin tacirləri ilə müqayisədə daha çox imtiyazlara malik olurdular). Yekun aktının bəzi maddələri imperialist dövlətlərə ticarət və gəmiçiliyə dair bundan əvvəl bağlanmış müqavilələrə dəyişiklik və əlavələr etmək hüququ verirdi. Xarici dövlətlər Pekində və strateji əhəmiyyətli digər 12 məntəqədə hərbi hissə saxlaya bilərdilər. Ölkəyə silah gətirilməsinə iki il müddətinə qadağa qoyulur və bu müddət qurtardıqdan sonra yenidən uzadıla bilərdi.

**YEKUN PROTOKOLU.** Hər hansı sazişin iştirakçıları tərəfindən həmin sazişin bəzi maddələrinin mətnini aydınlaşdırmağa ehtiyac yaranarkən, ona bir sıra qeydlər, dəqiqləşdirmələr və s. düzəlişlər edilməsinə dair tərtib olunan xüsusi akt. Yekun *protokolu* onun mətnində göstərildiyi kimi, həmin sazişin tərkib hissəsi hesab edilir. Müqavilələr təcrübəsində çox vaxt yekun protokolu istər ikitərəfli, istərsə də çoxtərəfli sazişlərə qoşma edilir. Bu sənədin tərtibinə o zaman ehtiyac yaranır ki, razılaşan tərəflər əsas sazişin bütün detalları ehtiva etməsinə üstünlük verir, yaxud sazişin əsas mətni tamamilə razılaşdırıldıqdan sonra müvafiq zəruri dəqiqləşdirmələr və aydınlaşdırmalar ortaya çıxır və mətnin yenidən redaktəsi əlavə çətinliklər yaradır.

**YELİZAVETA II** (1926). İngiltərə Birləşmiş Krallığının və Şimali İrlandiyanın kraliçası. Vindzor sülaləsindədi. 1952 ildə taxta çıxıb. Ev şəraitində məşhur müəllimlərdən dərs alaraq konstitusiya hüquqlarını öyrənmişdi. *İkinci dünya müharibəsi* illərində hərbi xidmətə çağırılaraq köməkçi ordu hissələrində (rezerv) sürücü peşəsini öyrənmişdi. *Dövlət başçısı* kimi kraliça müxtəlif nümayəndəlik funksiyalarını yerinə yetirir, rəsmi dövlət səfərlərinə çıxır. II Y. müxtəlif ictimai və xeyriyyə cəmiyyətlərinin bir çoxunun prezidentidir, digərləri isə onun himayəsi altında fəaliyyət göstərirlər. Kraliçanın varisi onun böyük oğlu Çarlzdır (vəliəhd 1948 ildə doğulub).

**YENİ MÜSTƏMLƏKƏÇİLİK** (neokolonializm). Müstəmləkə sisteminin dağıldığı (*Müstəmləkə sistemi və onun dağılması*) şəraitdə azad olmuş ölkələrə münasibətdə iri dövlətlər tərəfindən formalaşdırılan qeyri-bərabər münasibətlər sistemi Y.M.-də başlıca məqsəd - keçmiş müstəmləkələri və yarımmüstəmləkələri dünya kapitalist təsərrüfatı orbitində saxlamaq, *inkişaf etməkdə olan dövlətlərin* hesabına Qərbin iqtisadi böhranını ləngitmək, bu dövlətlərin üzərində siyasi nəzarəti saxlamaq, habelə ərazilərindən hərbi-strateci məqsədlərə istifadə etməkdir. Y.m.-in ideoloji platformasını inkişaf etmiş kapitalist ölkələri ilə inkişaf etməkdə olan ölkələr arasında «qarşılıqlı asılılıq» və «tərəfdaşlıq» haqqında əsassız mülahizələr təşkil edir. Y.m.-in əsasında siyasi, ideoloji və hərbi təzyiq metodları ilə uzlaşan iqtisadi ekspansiya durur.

Y.m. siyasəti bu tendensiyanı ləğv etmək və beynəlxalq iqtisadi münasibətləri yenidən qurmaq uğrunda





fəal mübarizə aparan azad ölkələrin geriqalma səbəblərindən biridir.

1960-1970 illərdə azad olmuş ölkələrin qətiyyətli səyləri Y.m.-in böhranına gətirib çıxardı. Bu proses *beynəlxalq münasibətlərin* yenidən qurulması uğrunda başlanan hərəkatla üzvi surətdə bağlıdır.

**«YETMİŞ YEDDİLƏR QRUPU».** *BMT*-də və ona bağlı təşkilatlarda əsas beynəlxalq iqtisadi və bəzi digər məsələlər üzrə vahid mövqeli *inkişaf etməkdə olan dövlətlər* qrupu. Qrupun adı 1964 ildə BMT-nin Ticarət və İnkişaf üzrə konfransının (YUNKTAD) 1-ci sessiyasında yaranıb. Həmin sessiyada 77 inkişaf etməkdə olan dövlət bəyan etmişlər ki, onlar ən mühüm beynəlxalq iqtisadi problemlərin həlli yollarını birlikdə axtarmaq və bununla da öz diplomatik fəaliyyətlərində çoxtərəfli əsasda yeni mərhələ açmaq niyyətindədirlər.

Qrup Asiya, Afrika və Latın Amerikası üzrə 3 regional yarımqrupu ehtiva edir. Onların tövsiyələrinə əsasən, nazirlər səviyyəsində keçirilən ümumqrup müşavirəsində yeni üzvlərin qəbulu keçirilir.

Qrup üzvü ölkələrinin 1967 ildə Əlcəzairdə keçirilmiş 1-ci müşavirəsində qəbul edilən xartiyada müəyyən edildi ki, qrup zərurət yarandıqda, beynəlxalq iqtisadi problemlər üzrə ümumi mövqe işləyib hazırlamaqdan ötrü nazirlər səviyyəsində, mütləq qaydada YUNKTAD-ın hər sessiyasından əvvəl toplanacaqdır. Elə həmin vaxt *BMT Katibliyi* yanında və BMT-nin ixtisaslaşdırılmış təsisatlarının qərargahlarında 77-lərin əlaqələndirmə qrupları yaradıldı.

Qrupun nazirlər səviyyəsində müşavirələri 1971 ildə Limada, (Peru), 1976 ildə Manila (Filippin), 1979 ildə Aruşa (Tanzaniya), 1983 ildə Buenos-Ayresdə (Argentina) keçirilmişdir. Manilada keçirilən müşavirədə Qrupun daimi katibliyinin yaradılması məsələsi müzakirə edilsə də indiyədək bu sahədə konkret bir iş görülməmişdir.

**YƏHYA XAN AĞA MƏHƏMMƏD** (1917). 1939 ildə Pəncab universitetini və Dəhradun hərbi akademiyasını bitirdikdən sonra orduda xidmət etmişdi. *İkinci dünya müharibəsi* zamanı Britaniya qoşunları tərkibində Şimali Afrikada və İtaliyada hərbi əməliyyatlarda iştirak edib. 1951 ildə general rütbəsi almış, 3 il hərbi bölmələrə komandanlıq etmişdi. 1954 ildə Baş qərargahın operativ şöbəsinin rəisi, 1957 ildə baş qərargahın rəisi olub. III.1966 ildə Pakistan ordusu Baş komandanının müavini, IX.1966 ildə Baş komandan, 25III.1969 ildə ölkənin hərbi administrasiyasının başçısı təyin edilib; 31.III.1969 ildən yeni konstitusiyanın hazırlanmasınadək *prezident* səlahiyyətlərini həyata keçirib.

**YƏMƏNARASI MÜNASİBƏTLƏRƏ DAİR SƏNƏDLƏR.** Yəmən Ərəb Respublikası (YƏR) ilə Yəmən Xalq Demokratik Respublikası (YXDR) arasında yəmənarası münasibətləri normallaşdırmaq tədbirlərinə dair yüksək səviyyədə aparılan danışıqların gedişində imzalanmışdı.

1) 1972 il sazişi, 28.X Qahirədə imzalanıb. YƏR və YXDR Yəmən birliyinə nail olmaqdan ötrü qarşılıqlı cəhd göstərildiklərini bəyan etmiş, bu birliyə milli iqtisadiyyatı qurmağın və Yəmən müstəqiliyinə və *suverenliyinə* istənilən xarici müdaxilədən və təcavüzdən qorumağın həlledici amili kimi baxdıqlarını bəyan etmişlər.

2) 1972 il *Bəyannaməsi*; Tripolidə (Liviya) aparılmış danışıqların yekunu kimi 26-28.XI imzalanıb. YƏR və YXDR başçıları 1972 il sazişinin tezliklə yerinə yetirilməsinin zəruriliyini təsdiq etmişlər. Bəyannamədə paytaxt Sana olmaqla vahid Yəmən dövləti yaradılması barədə razılıq təsbit edilmişdi.

3) 1979 il bəyanatı; Ərəb Dövlətləri Birliyi Şurası sessiyasının tövsiyəsilə keçirilən yüksək səviyyəli yəmənarası görüşün yekunu kimi 03.III. Əl-Küveytdə imzalanıb. *Bəyanatda* vahid dövlətin konstitusiyasını işləyib hazırlamaq və Yəmənin hər iki hissəsində konstitusiya layihəsinə dair referendum keçirmək barədə razılıq ifadə olunmuşdu.

4) 1981 il bəyanatı; 15.IX. Taizdə (YƏR) imzalanıb. Bəyanatda qeyd edilir ki, tərəflər yəmən birliyini «dinc demokratik əsasda» həyata keçirmək üzrə əməli addımları müzakirə etmiş, ərəb yarımadasında, Fars körfəzində və Qırmızı dənizdə vəziyyətin gərginləşməsindən narahat olduqlarını bildirmişlər.

5) 1981 il sazişi; 03.XII Ədəndə imzalanıb. Sazişə uyğun olaraq, yəmənarası sazişlərin yerinə yetirilməsinə və birgə komissiyaların fəaliyyətinə nəzarət etmək məqsədilə YXDR və YƏR prezidentlərindən ibarət Yəmən *Prezident* Şurası yaradılmışdı. Şuranın qərarlarını həyata keçirmək üçün hökumət səviyyəsində müştərək komissiya təşkil olunmuşdu. Sazişdə xarici siyasət, iqtisadiyyat, mədəniyyət, təhsil, informasiya sahəsində əlaqələndirmə işləri aparmaqdan ötrü konkret vəzifələrə diqqət yetirilmişdi.

6) 1982 il bəyanatı; 07.V. dərc olunub. Fələstin ərəb xalqının mübarizəsini müdafiə etmək çağırışı ilə çıxış edən tərəflər İsrail təcavüzünə qarşı Livan xalqı ilə həmrəy olduqlarını bildirmişlər.

7) 1984 il Birgə bəyanatı; 18.II Ədəndə, Yəmən prezident şurasının 2-ci sessiyasının başa çatdığı zaman dərc edilib. YƏR və YXDR Qırmızı dəniz və Hind okeanı sahillərində yaşayan xalqların təhlükəsizliyini, bu rayonun sülh zonasına, xarici hərbi bazalardan kənar azad zonaya çevrilməsini təmin etmək yolunda tədbirlər görülməsinin əhəmiyyətini qeyd etmişlər.

8) 1984 il Birgə bəyanatı; Sanada, Yəmən Prezident Şurasının 3 sessiyasının başa çatması ilə bir vaxtda 07.XII dərc edilib. Tərəflər energetika, ticarət, sənaye və aqrar sahələr üzrə inteqrasiya gedişində tərəqqi əldə olunduğunu qeyd etmişlər.

**YƏMƏN – LİVİYA - HƏBƏŞİSTAN MÜQAVİLƏSİ** (1981). 19.VIII. Dostluq və əməkdaşlığa dair üç ölkə başçısı Əli Nasir Məhəmməd, Muamar Kəddafi və Mengistu Hayle Mariyamın görüşü zaman Ədəndə imzalanıb.

Müqavilə (*Beynəlxalq müqavilə*) üç dövlətin siyasi, iqtisadi, hərbi və digər sahələrdə əməkdaşlığının istiqamətlərini və formalarını müəyyənləşdirdi. Əməkdaşlığı əlaqələndirmək məsələlərinin həlli siyasi və iqtisadi komitələrə həvalə olunmuşdu. Bu komitələrə rəhbərlik iştirakçı dövlətlərin paytaxtlarında növbə ilə ildə bir dəfə çağırılan hər üç *dövlət başçısından* ibarət Ali Şura tərəfindən həyata keçirilir.

M.-yə görə, iştirakçı dövlətlərdən hər hansı biri təcavüzə məruz qaldıqda digər iki dövlət bu təcavüzü müqavilə iştirakçılarının hamısına qarşı yönələn qəsd kimi qiymətləndirməli, fərdi və kollektiv özünümüdafiə hüquqlarından istifadə edərək bütün lazımi vasitələrlə təcavüzə məruz qalan tərəfi müdafiə etməlidirlər.

M. onun məqsədlərini, habelə *BMT Nizamnaməsinin* prinsiplərini qəbul edən digər ölkələr üçün də açıqdır.





**YUNANISTAN - SERBİYA İTTİFAQ MÜQAVİLƏSİ** (1913). 01.VI. Salonikdə imzalanıb; 1913 il 2-ci Balkan müharibəsinə diplomatik hazırlığın əsas vəsitəsi olub.

M.-də Bolqarıstan tərəfindən hücum, yaxud hücum təhlükəsi yarandıqda həmin ölkəyə qarşı birgə *müharibə* aparmaq nəzərdə tutulurdu. Müharibə «Bolqarıstanın hərbi gücünü sarsıtmaq» və Makedoniyanın Serbiya ilə Yunanıstan arasında bölünməsini reallaşdırmaq məqsədi daşımalı idi. Bu isə 1912 il Bolqarıstan-Serbiya müqaviləsindən Serbiyanın imtina etməsi demək idi. Tərəflər bir-birinə hərtərəfli diplomatik dəstək verməyi öhdəyə götürürdülər. Yunanıstan serb ticarətinin ehtiyacları üçün Saloniki limanında 50 il müddətinə Serbiya üçün azad zona ayırmağı və Saloniki-Üsküb və Saloniki-Monastır dəmir yolları xətti ilə ona rüsumsuz mal daşımaq hüququ verməyi vəd edirdi.

M. əsasında Yunanıstan-Serbiya hərbi *Konvensiyası* bağlandı və ona müvafiq olaraq, Serbiya Bolqarıstanla müharibə olarsa, 150 minlik, Yunanıstan isə 90 minlik ordu çıxarmalı idi. Konvensiyada həmçinin deyilirdi ki, tərəflərdən biri digər tərəflə qabaqcadan məsləhətləşmədən Bolqarıstanla müharibəyə başlayarsa, digər tərəf həmin müharibədə iştirak etməyə bilər, lakin belə halda xoşməramlı bitərəf (*Bitərəflik*) mövqe tutmalıdır.

M. və hərbi konvensiya əməli olaraq 29VI.1913 il 2-ci Balkan müharibəsində öz tətbiqini tapdı. M.-ki ərazi şərtləri 1913 il Buxarest sülh konfransı ilə həll edildi.

**YUNANISTAN - YUQOSLAVİYA MÜQAVİLƏSİ** (1929). 27.III. Dostluq, razılaşma prosedurasına və mübahisələrin məhkəmə yolu ilə araşdırılmasına dair, Belqradda 5 il müddətinə bağlanıb.

Müqavilə tərəflərin üzərinə öhdəlik qoyur ki, *Versal sülh müqavilələri* sisteminin Balkanlarda müəyyən etdiyi qaydaları qoruyub saxlamaqda əməkdaşlıq etsinlər və onların ümumi mənafeləri üçün qorxu yarandıqda və ya yarana bilməsi mümkün olduqda biri birilə məşvərət keçirsinlər.

Eyni zamanda Saloniki məsələsinə dair, xüsusən də bu limanda sərbəst zona yaradılmasına dair həyata keçirilməmiş 1923 il *Konvensiyasına* uyğun olaraq Yuqoslaviyanın Saloniki limanından istifadə etməsinin qaydaları barədə bir sıra yunan-yuqoslav *protokolları* imzalanmışdı.

M. müəyyən dərəcədə Yunanıstan-Yuqoslaviya yaxınlaşmasına kömək etmiş, bununla da *Balkan Antantasının* yaradılması işini asanlaşdırmışdır.

**YUNESKO.** *Beynəlxalq hökumətlərarası təşkilat, BMT*-nin təhsil, elm və mədəniyyət məsələləri üzrə ixtisaslaşdırılmış təsisatı; 16.XI.1945 ildə Londonda 44 ölkənin nümayəndələrinin konfransında (*Beynəlxalq konfranslar*) təsis edilib. Həmin konfransda təsdiq edilən YUNESKO Nizamnaməsi 04.XI.1946 ildə qüvvəyə minib.

YUNESKO-nun əsas vəzifəsi təhsil, elm, mədəniyyət və informasiya sahələrində xalqların əməkdaşlığını genişləndirmək yolu ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə xidmət göstərməkdir. YUNESKO-nun ali orqa-

nı – Baş konfrans üzv ölkələrin nümayəndələrinin iştirakı ilə 2 ildə bir dəfə sessiyalar keçirir. Baş konfransın qəbul etdiyi proqramların və planların yerinə yetirilməsinə 4 il müddətinə seçilən İcra Şurası məsuliyyət daşıyır. YUNESKO-nun daimi işçi orqanı – Katiblik-baş direktordan və üzv ölkələrin vətəndaşlarından seçilən məmurlardan ibarətdir. Baş direktor İcra Şurasının təqdimatı ilə Baş konfrans tərəfindən 6 ilə təyin edilir. Baş qərargahı Parisdədir. YUNESKO öz işini 2 illik proqramlar və orta müddətli (6 illik) planlar əsasında qurur. Təhsil sahəsində ayrı-seçkiliklə mübarizəyə dair 1960 il *Konvensiyası*, Beynəlxalq qarşılıqlı anlaşma, əməkdaşlıq və sülh ruhunda tərbiyəyə, insan haqlarına və əsas azadlıqlara hörmət ruhunda tərbiyəyə dair 1974 il tövsiyəsi Kütləvi informasiya vasitələrinin sülh və beynəlxalq qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə, insan haqlarının qorunmasına, *irqçiliklə* mübarizəyə, *aparteidin* kökünü kəsməyə və *müharibəyə* təhrik etməyə yol verilməməsinə göstərə biləcəyi xidmətin əsas prinsiplərinə dair 1978 il *Bəyannaməsi* YUNESKO tərəfindən görülən ən mühüm tədbirlərdəndir.

**«YUNQ PLANI»** (1929). 07.VI. Almaniyadan təzminat alınması haqqında, Amerika maliyyəçisi D. Yunq tərəfindən hazırlanmış və *Daues planı* əvəz etmiş plan. Plana görə Almaniya 1988 ilə qədər 113,9 mlrd. alman markası təzminat (*Reparasiya*) ödəməli idi. Təzminatın illik ödəniş həcmi 1966 ilə qədər 2 mlrd. alman markası, sonrakı illərdə isə 1,6-1,7 mlrd. alman markası nəzərdə tutulmuşdu. Alman iqtisadiyyatı və maliyyəsi üzərindəki bütün beynəlxalq nəzarət formaları ləğv edildi.

«Y.p.» 1930 il Haaqa konfransında təsdiq edildi.

**YUSİFBƏYLİ NƏSİB BƏY YUSİF BƏY OĞLU** (1881-1920). Gəncə klassik gimnaziyasını bitirmiş, Gəncədə açılan mədrəseyi-ruhaniyyənin müəllimi işləmiş, kitab ticarəti və nəşri ilə məşğul olmuşdur.

1902-1907 illərdə Novorossisk Universitetinin hüquq fakültəsində dörd il oxumuş, çar hökuməti bir müddət universiteti bağladıqda Krıma – Bağçasaraya köçmüş və bir müddət «Tərcüman» qəzetini idarə etmişdir.

1908 ildə İstanbula getmiş və orada «Türk dərnəyi»nin yaradıcılarından olmuşdur. 1909 ildə Gəncəyə qayıtmış, bir sıra xeyriyyə və mədəni-maarif cəmiyyətlərinin fəaliyyətində iştirak etmişdir. III.1917 ildə Gəncədə Türk Ədəmi-mərkəziyyət Firqəsinin yaradılmasına rəhbərlik etmişdir. Zaqafqaziya Seyminin üzvü, 26.IV.1918 ildən Zaqafqaziya hökumətinin maarif naziri olmuşdur.

Azərbaycan Demokratik Respublikası hökumətinin I kabinəsində maliyyə və xalq maarif naziri, II və III kabinələrində isə xalq maarifi və dini etiqad naziri, IV və V kabinələrdə Nazirlər Şurasının sədri, VI kabinədə isə həm də Daxili İşlər Naziri vəzifələrində işləmişdir. 13.XI.1918 ildə Azərbaycanı Demokratik Respublikasının ingilis qüvvələrinin komandanı general Tomsonla danışıqlar aparmaq üçün Ənzəliyə göndərilmiş nümayəndə heyətinin tərkibində iştirak etmişdir.

23.XI.1919 ildə baş nazir kimi Müttəfiq qoşunları komissarlığı nümayəndəsinin iştirakı ilə Tiflisdə keçirilmiş Azərbaycan və Ermənistan danışıqlarında iştirak edərək saziş imzalamışdır. Sazişə görə, hər iki ölkənin hökuməti toqquşmaları dayandırmaq barədə öhdəlik götürmüşdülər.

V.1920 ildə qatarla Tiflisə gedərkən Kürdəmirdə quldurlar tərəfindən qətlə yetirilmişdir.

## Z

**ZAHİR ŞAH** (1914). Əfqanıstanın keçmiş kralı. Kral Məhəmməd Nadir şahın oğlu. Kabulda «Həbibiyyə» məktəbini və «İstiqlal» kollecini, Parisdə «Consen-de-Sayi» litseyini bitirərək, Parisin Paster Universitetində, sonra isə Monpelyedəki universiteti də oxumuşdu. 1930 ildə Əfqanıstana qayıdaraq, piyada zabitlər hərbi məktəbində təhsilini davam etdirmişdi. 1932-1933 illərdə milli müdafiə nazirinin müavini, 1933 ildə maarif naziri vəzifəsini icra etmiş, atası öldürüləndən sonra 08.XI.1933 ildə kral taxt-tacına sahib olmuşdu. Öz hakimiyyəti dövründə dövlətin müstəqilliyinin möhkəmlənməsinə xidmət edən Z.Ş. bitərəf (*Bitərəflik*), hərbi bloklara *qoşulmamaq siyasəti* yürütmüşdü. Milli iqtisadiyyatın, maarif və mədəniyyətin inkişafı istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirmişdir. Əmisi oğlu Məhəmməd Daud Xanın rəhbərlik etdiyi saray çevrilişi nəticəsində 17.VII.1973 ildə taxtdan salınmışdı. İtaliyaya mühacirət (*Mühacir*) etmişdi.

Talibançıların hakimiyyəti devrildikdən sonra Əfqanıstanda dünyəvi dövlətin qurulması prosesinə cəlb edilmişdir.

**ZİYADXAN ADİL XAN ƏBÜLFƏT XAN OĞLU** (1869-1954). Tiflis klassik gimnaziyasını və Moskva Universitetinin hüquq fakültəsini bitirmişdir.

1905-1907 illərdə jurnalistika və ictimai fəaliyyətlə məşğul olmuş, 1908 ildə Şərqi və Qərbi Avropa ölkələrinə səyahət etmiş, 1909 ildə «Avropada üç aylıq bir səyahətim» adlı əsər nəşr etdirmişdir. 30.X.1918 ildə Azərbaycan Demokratik Respublikası xarici işlər nazirinin müavini təyin edilmişdir. 04.X.1919 ildə Azərbaycanın Tehrandakı *diplomatik nümayəndəliyinin* başçısı təyin olunmuşdur.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra İranda və Türkiyədə yaşamışdır.

**ZİYADXAN İSMAYIL XAN ƏBÜLFƏT XAN OĞLU** (1807-1920). Moskva Universitetinin hüquq fakültəsini bitirmiş, Tiflis dairə məhkəməsində prokuror müavini işləmiş,1905 ildə «Difai» təşkilatının yaradılmasında iştirak etmişdir. Kadetlər partiyasının üzvü olmuşdur. 1906 ildə I Dövlət Dumasına Gəncə quberniyasından deputat seçilmişdir. I Duma buraxıldıqdan sonra çarizmə müxalif ruhda hazırlanmış «Vıborq bəyannaməsi»ni imzalayanlar sırasında olmuş, buna görə həbs olunmuşdur. Həbsdən sonra Gəncəyə qayıtmış, 1917 ildə Gəncə şəhər milisinin rəisi işləmişdir. 06.X-07.XII.1918 ildə Azərbaycan hökumətində hərbi işlər üzrə müvəkkil vəzifəsində çalışmışdır.

III.1919 ildə Azərbaycan hökumətinin qarşılıqlı münasibətlər yaratmaq üçün Tehrana göndərdiyi Fövqəladə *Diplomatik Missiyaya* başçılıq etmişdir.

V.1920 ildə Gəncədə antisovet qiyamı zamanı həlak olub.

**ZÜLFİQAROV TOFİQ NADİR OĞLU** (1959). Azərbaycan *diplomatı*. 1981 ildə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirmiş, əmək fəaliyyətinə müəllim kimi başlamış, 1985-1990 illərdə Elmlər Akademiyasının Şərqşünaslıq institutunda çalışmış, *Dağlıq Qarabağ problemi* ilə bağlı Azərbaycan KP MK-nin yaratdığı ekspert-analitik qrupun işinə cəlb edilmiş, təbliğat-təşviqat işini təşkil etmək üçün Xankəndi, Ağdam, Şuşa və Laçında uzunmüddətli ezamiyyətdə olmuş, 1992 ildə Xarici İşlər Nazirliyinə (*Xarici İşlər İdarəsi*) işə göndərilmiş, Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı danışıqlarda iştirak etmiş, 1994 ildə xarici işlər nazirinin müavini, 1998-1999 illərdə isə xarici işlər naziri işləmiş, Fövqəladə və Səlahiyyətli *səfir* ali diplomatik rütbəsi almışdı. Hazırda fəal ictimai-siyasi fəaliyyətlə məşğuldur.



# ƏLAVƏLƏR

*Əlavə 1*

## AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GERBİ HAQQINDA ƏSASNAMƏ

Azərbaycan Respublikasının 1993-cü il 23 fevral tarixli Qanunu ilə təsdiq edilmişdir.

1. Azərbaycan Respublikasının Dövlət gerbi Azərbaycan dövlətinin müstəqillik rəmzidir.

2. Azərbaycan Respublikasının Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikası Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır. Azərbaycan Respublikası Dövlət gerbinin rəngli təsvirində ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı rəngdədir. Qalxanın və ulduzun sağanaqları, habelə qalxanın düymələri və palıd qozaları qızıldır.

3. Azərbaycan Respublikası Dövlət gerbinin qabarıq təsviri vurulur:

a) Azərbaycan Respublikası parlamentinin binasına, iclas salonuna və parlament xidməti kabinetinə;

b) Azərbaycan Respublikasının bütün məhkəmələrinin, hərbi tribunallarının binalarına, məhkəmə iclaslarının salonlarına, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi, Ali Məhkəməsi və Ali Arbitraj Məhkəməsi sədrlərinin xidməti kabinetlərinə;

q) yerli nümayəndəli dövlət orqanlarının binalarına və iclas salonlarına;

ğ) Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş hallarda dövlət orqanlarının binalarına;

d) Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəliklərinin, konsulluq idarələrinin binalarına;

4. Azərbaycan Respublikası Dövlət gerbinin təsvirindən istifadə olunur.

a) Azərbaycan Respublikası Dövlət möhüründə, bütün dövlət orqanlarının möhürlərində;

b) Azərbaycan Respublikası qanunlarının, parlamentin qərarlarının, prezidentin fərman və sərəncamlarının blanklarında;

v) bu Əsasnamənin 3-cü maddəsində göstərilən dövlət orqanlarının sənədlərinin blanklarında (binaların lövhələrində);

q) Azərbaycan Respublikası Milli Bankının biletlərində və metal pul vahidlərində, Azərbaycan Respublikasının qiymətli kağızlarında, dövlət istiqraz vərəqlərində və lotareya biletlərində;



ğ) Azərbaycan Respublikası vətəndaşının pasportunda; Azərbaycan Respublikası vətəndaşına verilən diplomatik və başqa xarici pasportlarda;

d) Azərbaycan Respublikası parlamentinin rəsmi nəşrlərində;

e) Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş hallarda Dövlət sərhəd nişanlarında.

5. Bu Əsasnamədə göstərilən hallardan başqa Azərbaycan Respublikası Dövlət gerbinin təsvirindən istifadə etmək hüququ Azərbaycan Respublikasının parlamenti tərəfindən verilə bilər.

6. Azərbaycan Respublikası Dövlət gerbinin təsviri olan möhürlərin və sənəd blanklarının hazırlanması, istifadə olunması, saxlanılması və məhv edilməsi qaydası Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

7. Azərbaycan Respublikası Dövlət gerbinin verilən təsviri ölçüsündən asılı olmayaraq həmişə dəqiq surətdə bu Əsasnaməyə əlavə edilən rəngli və ya ağ-qara təsvirə uyğun gəlməlidir.

*Əlavə 2*

## AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT BAYRAĞI HAQQINDA ƏSASNAMƏ

1. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan dövlətinin suverenlik rəmzidir.

2. Azərbaycan Respublikasının Dövlət bayrağı eni bərabər olan rəngli üç üfiqi zolaqdan ibarət dördbucaqlı parça şəklindədir; üst zolaq mavi rəngdə, orta zolaq qırmızı rəngdə, aşağı zolaq yaşıl rəngdədir. Bayrağın hər iki üzündə qürmüzü zolağın ortasında ağ rəngli aypara və səkkizgüşəli ulduz vardır. Bayrağın eninin uzununa nisbəti 1:2-dir.

Ayparanın və səkkizgüşəli ulduzun təsvirləri tərəflərinin nisbəti 3:4 olan düzbucaqlının içərisində yerləşir: düzbucaqlının diaqonalı bayrağın eninin 1/2-nə bərabərdir.

Ayparanın təsviri konsentrik (eyni mərkəzli) olmayan iki dairənin hissələri şəklindədir: böyük dairənin diametri xarici düzbucaqlının eninə, kiçik dairənin daimetri isə bayrağın eninin 1/4-ə barbərdir, kiçik dairənin mərkəzi bayrağın həndəsi mərkəzindən sol tərəfdə, bayrağın eninin 1/60-nə bərabər olan məsafədə yerləşir.

Səkkizguşəli ulduzun təsviri ayparadan sağda yerləşir, ulduzun xarici dairəsinin diametri bayrağın eninin 1/6-ni, daxili dairəsinin diametri isə 1/12-ni təşkil edir.

3. Azərbaycan Respublikasının Dövlət bayrağı aşağıdakı yerlərdə qaldırılır:

a) Azərbaycan Respublikası Ali Sovetinin, Naxçıvan Muxtar Respublikası Ali Sovetinin, Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin, Azərbaycan Respublikası rayon, şəhər, şəhərdə rayon, qəsəbə və kənd xalq deputatları Sovetinin sessiyalarının keçirildiyi binaların üzərində – bütün sessiya dövründə;

b) Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Ali Sovetinin, Azərbaycan Respublikası Nazirlər Sovetinin, Naxçıvan Muxtar Respublikası Ali Sovetinin və Nazirlər Sovetinin, Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin və Azərbaycan Respublikası yerli xalq deputatları Sovetləri icraiyyə komitələrinin binaları üzərində daim;

v) dövlət orqanlarının və ictimai orqanların, müəssisələrin, idarələrin və təşkilatların binaları, habelə yaşayış evləri üzərində – yanvarın 1-də, matrın 8-də, martın 21-də, mayın 9-da, mayın 28-də, iyunun 26-da, oktyabrın 18-də, noyabrın 12-də, noyabrın 17-də və dekabrın 31-də.



Yuxarıda göstərilən binalar üzərində Azərbaycan Respublikasının Dövlət bayrağını başqa bayram və xatirə günlərində də qaldırmağa icazə verilir;

q) rəsmi şəxs sifəti ilə Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Soveti sədrinin və ya digər rəsmi (vəkil edilmiş) şəxslərin mindikləri hava gəmilərində (Dövlət bayrağının gəmidə təsvirləri), dəniz gəmilərində, daxili su yollarında üzən gəmilərdə və başqa nəqliyyat vasitələrində göstərilən şəxslərin razılığı ilə;

d) Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Ali Soveti sədrinin və Azərbaycan Respublikası Nazirlər Soveti sədrinin təqdimatı ilə Azərbaycan Respublikasının Dövlət bayrağı dövlət orqanlarının, ictimai və dini orqanların, müəssisələrin, idarələrin və təşkilatların keçirdikləri mərasimlər zamanı.

4. Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikasının Dövlət bayrağı ilə bir vaxtda qaldırılarkən Naxçıvan Muxtar Respublikasının bayrağının ölçüsü Azərbaycan Respublikasının bayrağından böyük ola bilməz.

5. Azərbaycan Respublikasının dövlət bayrağı və onun təsvir, ölcülərindən asılı olmayaraq bu Əsasnaməyə əlavə edilən rəngli və sxematik təsvirlərə həmişə dəqiq uyğun gəlməlidir.

6. Azərbaycan Respublikasıının gerbi və himni kimi, Azərbaycan dövlətinin suverenliyi rəmzi olan Azərbaycan Respublikasının Dövlət bayrağı da müqəddəs rəmzidir və onun hər cür təhqir edilməsi qanuna əsasən cəzalandırılır.

7. Bu Əsasnamənin tətbiqi qaydalarını Azərbaycan Respublikasının Nazirlər Soveti qəbul edir.

Azərbaycan Respublikası Milli Məclisin 1993-cü il 2 mart tarixli qərarı ilə təsdiq edilmişdir.

*Əlavə 3*

## AZƏRBAYCAN RESPUBLİKASININ RƏSMİ BAYRAMLARI

| | |
|---|---|
| 1 yanvar | Yeni il bayramı |
| 8 mart | Beynəlxalq qadınlar günü |
| 20-21 mart | Novruz bayramı |
| 9 may | Faşizm üzərində qələbə bayramı |
| 28 may | Respublika günü |
| 15 iyun | Milli qurtuluş günü |
| 26 iyun | Silahlı qüvvələr günü |
| 18 oktyabr | Dövlət müstəqilliyi günü |
| 12 noyabr | Konstitusiya günü |
| 17 noyabr | Milli dirçəliş günü |
| 31 dekabr | Dünya Azərbaycanlılarının həmrəyliyi günü |
| | Ramazan bayramı |
| | Qurban bayramı<br>(İslam təqviminə müvafiq olaraq bu bayramların günü hər il xüsusi qeyd olunur.) |



*Əlavə 4*

## "DİPLOMATİK ƏLAQƏLƏR HAQQINDA" VYANA KONVENSİYASINA QOŞULMAQ BARƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN

## QƏRARI

"Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktına əsaslanaraq, diplomatik əlaqələrin Azərbaycan dövlətinin BMT Nizamnaməsində nəzərdə tutulmuş suveren hüquqlarının həyata keçirilməsinə və qorunmasına xidmət edəcəyini nəzərə alaraq Konvensiyanın təsdiqlənməsinin Azərbaycan Respublikası ilə digər dövlətlər arasında dostluq əlaqələrinin möhkəmlənməsinə imkan yaradacağına əmin olaraq Azərbaycan Respublikası Milli Məclisi qərara alır:

1. "Azərbaycan Respublikası "Diplomatik əlaqələr haqqında" 1961-ci il aprelin 18-də Vyanada Birləşmiş Millətlər Təşkilatının konfransında qəbul edilmiş Vyana Konvensiyasına qoşulsun.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə və Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Konvensiyadan irəli gələn hüquqlarının həyata keçirilməsi üçün müvafiq tədbirlər görsünlər.

3. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının göstərilən Konvensiyaya qoşulması haqqında təsdiqnaməni Birləşmiş Millətlər Təşkilatının Baş katibinə göndərsin.

*Bakı şəhəri, 21 iyul 1992-ci il*

*Əlavə 5*

# DİPLOMATİK XİDMƏT HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

**Bu Qanun Azərbaycan Respublikası dövlət qulluğunun bir növü olan diplomatik xidmətdəki dövlət qulluqçularının hüquqi vəziyyətini müəyyən edir**

## Fəsil 1. Ümumi müddəalar

### Maddə 1. Diplomatik xidmət anlayışı

1.1. Diplomatik xidmət – Azərbaycan Respublikasının xarici siyasətini həyata keçirən müvafiq dövlət orqanlarında vətəndaşların peşəkar fəaliyyətidir.

1.2. Konsul xidməti, Azərbaycan Respublikasının Konsul Nizamnaməsin əsasında həyata keçirilən diplomatik xidmətin bir növüdür.

### Maddə 2. Diplomatik xidmət orqanlarının sistemi

2.1. Diplomatik xidmət orqanlarının vahid sistemini Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı, Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının fəaliyyətini təmin etmək üçün yaradılan yardımçı təşkilatlar, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının təhsil müəssisələri təşkil edir.

2.2. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının vahid sisteminə rəhbərlik edir.

### Maddə 3. Diplomatik xidmət orqanlarının vəzifələri

3.1. diplomatik xidmət orqanlarının əsas vəzifələri aşağıdakılardır:

3.1.1. Azərbaycan Respublikasının xarici siyasət konsepsiyası və əsas istiqamətləri üzrə təkliflərin hazırlanması və Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təqdim edilməsi;

3.1.2. Azərbaycan Respublikasının xarici siyasətinin həyata keçirilməsinin təmin edilməsi;

3.1.3. Azərbaycan Respublikasının digər dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətlərində vahid siyasət xəttinin həyata keçirilməsinin təmin edilməsi məqsədilə digər müvafiq icra hakimiyyəti orqanlarının fəaliyyətinin əlaqələndirilməsi;



3.1.4. Azərbaycan Respublikasının suverenliyinin, təhlükəsizliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının, onun siyasi, iqtisadi və digər sosial maraqlarının diplomatik üsul və vasitələrlə təmin olunması;

3.1.5. Beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasına diplomatik üsul və vasitələrlə kömək göstərilməsi;

3.1.6. Azərbaycan Respublikasının, onun vətəndaşlarının və hüquqi şəxslərinin xaricdə hüquq və maraqlarının müdafiə olunması;

3.1.7. Azərbaycan Respublikasının digər dövlətlərlə və beynəlxalq təşkilatlarla diplomatik və konsul əlaqələrinin həyata keçirilməsi;

3.1.8. Azərbaycan Respublikasının dövlət protokolunun təmin edilməsi;

3.1.9. Diplomatik xidmət orqanları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun olaraq digər vəzifələri də həyata keçirə bilər;

### Maddə 4. Diplomatik xidmət orqanlarının funksiyaları

4.1. Diplomatik xidmət orqanları aşağıdakı əsas funksiyaları həyata keçirir;

4.1.1. Azərbaycan Respublikasının digər dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətlərdə təmsil edilməsi;

4.1.2. Azərbaycan Respublikasının digər dövlətlərlə və beynəlxalq təşkilatlarla iqtisadi, sosial elmi-texniki, mədəni və başqa sahələrdə əməkdaşlığının inkişafına köməklik göstərilməsi;

4.1.3. Azərbaycan Respublikasının digər dövlətlərlə və beynəlxalq təşkilatlarla danışıqlar aparılmasının və beynəlxalq müqavilələrin imzalanmasının təşkili;

4.1.4. yüksək dövlət və hökumət səviyyələrində dövlətlərarası mübadilələrin protokol təminatı;

4.1.5. Xaricdə yaşayan həmvətənlərlə əlaqələrin inkişafına köməklik göstərilməsi;

4.1.6. Diplomatik və konsul imtiyaz və immunitetlərinin yerinə yetirilməsi üzərində nəzarətin həyata keçirilməsi;

4.1.7. Azərbaycan Respublikasının xarici və daxili siyasəti, ölkənin iqtisadi və mədəni həyatı haqqındakı informasiyanın Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri vasitəsilə xaricdə yayılmasının təmin edilməsi;

4.1.8. Azərbaycan Respublikasının dövlət orqanlarının və Azərbaycan Respublikasında mövcud olan kütləvi informasiya vasitələrinin Azərbaycan Respublikasının beynəlxalq vəziyyəti və xarici siyasəti haqqında məlumatlandırılması;

4.1.9. Azərbaycan Respublikasının ərazisindəki diplomatik nümayəndəliklərin konsulluqların fəaliyyətinə kömək göstərilməsi, öz səlahiyyətləri çərçivəsində onlara xidmət göstərən təşkilatların fəaliyyətinə nəzarət edilməsi;

4.1.10. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin qeydiyyatı, uçotu və saxlanması üzrə vahid dövlət sisteminin fəaliyyətinin təmin edilməsi;

4.1.11. Azərbaycan Respublikasının bağladığı beynəlxalq müqavilələrin depozitariya funksiyalarının həyata keçirilməsi;

4.1.12. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin icrası üzərində ümumi müşahidənin həyata keçirilməsi;

4.1.13. Xarici siyasət və beynəlxalq münasibətlər sahəsində Azərbaycan Respublikasının qanunvericiliyinin təkmilləşdirilməsinə və bu qanunvericiliyin Azərbaycan Respublikasının beynəlxalq hüquqi öhdəliklərinə uyğunlaşdırılmasına dair təkliflərin hazırlanması;

4.1.14. Diplomatik xidmət orqanları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun olaraq digər funksiyaları da həyata keçirə bilər.

**Maddə 5. Diplomatik xidmət orqanlarının rabitə, arxiv və təhlükəsizlik təminatı**

5.1. Diplomatik xidmət orqanlarının sərəncamında müstəqil rabitə sistemi və arxiv vardır;

5.2. Diplomatik xidmət orqanlarının arxivində beynəlxalq müqavilələrin əsli və təsdiq edilmiş surətləri, habelə həmin orqanlarının fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan digər materiallar saxlanılır;

5.3. Diplomatik xidmət orqanları xüsusi kuryer xidmətindən istifadə edir;

5.4. Diplomatik xidmət orqanları qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının ərazisində və xaricdə öz təhlükəsizlik sistemini təşkil edir.

## Fəsil 4. Diplomatik xidmət əməkdaşları

**Maddə 6. Diplomatik vəzifələr**

6.1. Diplomatik xidmət orqanlarında diplomatik vəzifə tutan şəxslər diplomatik xidmət əməkdaşlarıdırlar;

6.2. Diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslər diplomatik xidmət əməkdaşlarına aid deyildirlər. Həmin şəxslrin hüquqi statusu və ixtisas dərəcələri Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə tənzimlənir.



6.3. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında işləyən diplomatik xidmət əməkdaşları üçün aşağıdakı vəzifələr müəyyən edilir:

6.3.1. Fövqəladə və Səlahiyyətli səfir: Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarındakı daimi nümayəndəsi:

6.3.2. baş konsul;

6.3.3. müşavir-elçi: daimi nümayəndənin müavini;

6.3.4. müşavir;

6.3.5. konsul;

6.3.6. birinci katib;

6.3.7. vitse-konsul;

6.3.8. ikinci katib;

6.3.9. üçüncü katib;

6.3.10. attaşe.

6.4. Azərbaycan Respublikasının ərazisindəki diplomatik xidmət orqanlarında işləyən diplomatik xidmət əməkdaşlarının vəzifələri Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə müəyyən edilir.

6.5. Diplomatik xidmət əməkdaşları diplomatik xidmət orqanlarından Azərbaycan Respublikasının digər dövlət orqanlarına vəzifəyə keçirildikdə onlar müvafiq icra hakimiyyəti orqanın ehtiyatına daxil edilirlər. Ehtiyata daxiletmə ilə qaydalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 7. Diplomatik vəzifələrə təyin edilmə**

7.1. Diplomatik vəzifələrə ali təhsilli və xarici dil bilən Azərbaycan Respublikasının vətəndaşları təyin edilirlər ;

7.2. Diplomatik xidmət orqanlarında vəzifələrə təyin edilmə və vəzifələrdən azadedilmə qaydaları, habelə vəzifə tutan şəxslərə dair tələblər Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və digər normativ hüquqi aktları ilə, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilərə müəyyən edilir ;

7.3. Xaricdə işlədikdən sonra Azərbaycan Respublikasına qayıdan diplomatik xidmət əməkdaşı, xaricdə tutduğu vəzifə nəzərə alınmaqla diplomatik xidmət orqanlarında müvafiq vəzifəyə təyin edilir.

**Maddə 8. Diplomatik rütbələr**

8.1. *Diplomatik xidmət əməkdaşlarına, tutduqları vəzifə və ixtisasları* nəzərə alınmaqla aşağıdakı diplomatik rütbələr verilir :

8.1.1. Fövqəladə və Səlahiyyətli səfir ;

8.1.2. Birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi;

8.1.3. İkinci dərəcəli fövqəladə və səlahiyyətli elçi;

8.1.4. Birinci dərəcəli müşavir ;
8.1.5. İkinci dərəcəli müşavir ;
8.1.6. Birinci dərəcəli birinci katib;
8.1.7. İkinci dərəcəli birinci katib;
8.1.8. Birinci dərəcəli ikinci katib;
8.1.9. İkinci dərəcəli ikinci katib;
8.1.10. Üçüncü katib;
8.1.11. Attaşe.

8.2. Diplomatik rütbəyə görə vəzifə maaşına əlavələrin verilməsi qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 9. Diplomatik rütbələrin verilməsi qaydaları**

9.1. Fövqəladə və səlahiyyətli səfir, birinci və ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbələri Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndinə müvafiq olaraq verilir.

9.2. Digər diplomatik rütbələrin verilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

9.3. Diplomatik xidmət əməkdaşının diplomatik rütbəsi bir qayda olaraq, diplomatik xidmətdə tutduğu vəzifəyə uyğun olmalı, yaxud ondan bir pillə yuxarı və ya aşağı olmalıdır.

9.4. Diplomatik rütbələrin verilməsi barədə əmək kitabçasında (xidmət siyahısında) müvafiq qeyd aparılır. Diplomatik rütbələr ömürlük verilir.

**Maddə 10. Diplomatik rütbələrdə olmanın müddətləri**

10.1. Diplomatik xidmət əməkdaşları üçün diplomatik rütbələrdə olmanın aşağıdakı müddətləri müəyyən edilir;

10.1.1. Attaşe, üçüncü katib, ikinci və birinci dərəcəli katib üçün – 2 il;

10.1.2. İkinci və birinci dərəcəli birinci katib, ikinci dərəcəli müşavir üçün – 3 il;

10.2. Birinci dərəcəli müşavirdən başlayaraq yuxarı diplomatik rütbələrdə olma müddəti müəyyən edilmir;

10.3. Diplomatik xidmət əməkdaşlarının diplomatik rütbələrdə olma müddətlərinə aşağıdakılar daxildir:

10.3.1. Müvafiq icra hakimiyyəti orqanında və onun yardımçı təşkilatlarında iş;

10.3.2. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında iş;

10.3.3. Keçmiş SSRİ-nin və müttəfiq respublikaların xarici işlər orqanlarında iş;



10.3.4. Beynəlxalq təşkilatlarda iş;

10.3.5. Müvafiq icra hakimiyyəti orqanının ali təhsil və elmi müəssisələrində elmi və pedaqoji fəaliyyət müddəti əsasında keçirilən ixtisasartırma müddəti;

10.3.6. Ali təhsil müəssisələrinə, aspiranturaya (doktorantura) müvafiq icra hakimiyyəti orqanı tərəfindən göndərilənlərin təhsil müddəti.

**Maddə 11. Diplomatik rütbənin vaxtından əvvəl və növbədənkənar verilməsi, aşağı salınması, məhrum edilməsi və bərpa olunması.**

11.1. Diplomatik xidmət əməkdaşlarının rütbələri, işlərində mühüm nailiyyətlərin və ya xüsusi xidmətlərin olduğu hallarda, müəyyən edilmiş müddətin başa çatmasından əvvəl və ya növbədənkənar artırıla bilər ;

11.2. Azərbaycan Respublikasının və olduqları dövlətin qanunvericiliyinə görə məsuliyyət doğuran əməllər törətməkdə təqsirli bilindikdə;

11.3. Diplomatik xidmət əməkdaşının rütbədən məhrum edilməsi və ya onun rütbəsinin aşağı salınması, rütbənin verilməsi üçün müəyyən edilmiş qaydada həyata keçirilir ;

11.4. Diplomatik xidmət əməkdaşının əvvəlki rütbəsinin bərpa olunmasına yalnız həmin əməkdaş qanunvericiliklə müəyyən edilmiş, qaydada xidməti attestasiyadan keçdikdən sonra yol verilir.

**Fəsil 3. Diplomatik xidmətkeçmə**

**Maddə 12. Diplomatik xidmət əməkdaşlarının vəzifə yerdəyişmələri və vəzifələrinin əvəz edilməsi.**

12.1. Diplomatik xidmət əməkdaşlarının vəzifə yerdəyişmələri ixtisas, peşə hazırlığı və rotasiya prinsipləri nəzərə alınmaqla xidməti zərurətlə əlaqələr həyata keçirilir ;

12.2. Vakant vəzifələrin əvəz edilməsi Azərbaycan Respublikasının qanunvericildiyinə uyğun həyata keçirilir.

**Maddə 13. Diplomatik xidmət əməkdaşlarının rotasiyası**

13.1. Diplomatik xidmət orqanlarında əməkdaşların rotasiyası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

13.2. Rotasiya çərçivəsində diplomatik xidmət əməkdaşları, peşəkar hazırlıqları və ixtisasları nəzərə alınmaqla Azərbaycan Respublikasının diplomatik nümayəndəliyinə və ya konsulluğuna işə təyin oluna və ya öz fəaliyyətlərini müvafiq icra hakimiyyəti orqanında həyata keçirə bilərlər.

13.3. Azərbaycan Respublikasının diplomatik nümayəndəliyində və ya konsulluğunda fəaliyyəti başa çatmış diplomatik xidmət əməkdaşı yenidən diplomatik nümayəndəliyə və ya konsulluğa işə təyin olunmazdan əvvəl müvafiq icra hakimiyyəti orqanında bir qayda olaraq azı bir il işləməlidir.

13.4. Azərbaycan Respublikasının diplomatik nümayəndəliyinin başçısı təyin olunmuş şəxsin müvafiq dövlətdə və ya beynəlxalq təşkilatda fasiləsiz iş müddəti, bir qayda olaraq beş ildir. Bu müddət Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən uzadıla bilər.

13.5. Digər diplomatik xidmət əməkdaşlarının müvafiq diplomatik nümayəndəliklərdə və ya konsulluqlarda fasiləsiz iş müddəti üç ildən artıq olmamalıdır. Bu müddət xidməti zərurətlə əlaqələr və diplomatik xidmət əməkdaşının razılığı ilə icra hakimiyyəti orqanı tərəfindən bir ildən artıq olmayan müddətdə uzadıla bilər.

13.6. Diplomatik xidmət əməkdaşının Azərbaycan Respublikasının diplomatik nümayəndəliyinə və ya konsulluğuna işə getməkdən üzürlü səbəblər olmadan imtina etməsi intizam pozuntusu hesab edilir və intizam tənbeh təlbirinin tətbiqi üçün əsasdır.

**Maddə 14. Xidməti attestasiya**

14.1. Diplomatik xidmət əməkdaşları qanunvericiliklə müəyyən edilmiş qaydada üç ildə bir dəfədən çox olmayaraq xidməti attestasiya keçirlər.

14.2. Diplomatik nümayəndəliyə və ya konsulluğa işə təyin olunmuş diplomatik xidmət əməkdaşları xidməti attestasiyanı Azərbaycan Respublikasına qayıtdıqdan sonra keçirlər.

14.3. Xidməti attestasiyanın keçirilməsi qaydaları Azərbaycan Respublikasını müvafiq qanunvericilik aktları ilə müəyyən edilir.

**Maddə 15. Diplomatik xidmət əməkdaşlarının ali təhsil və elm müəssisələrinə göndərilməsi**

15.1. Diplomatik xidmət əməkdaşları öz razılıqları ilə peşəkar hazırlıq və ixtisasartırma və yaxud elmi-tədqiqat aparılması üçün Azərbaycan Respublikasında və ya digər ölkələrdə yerləşən ali təhsil və elmi müəssisələrə müvəqqəti olaraq göndərilə bilərlər.

15.2. İxtisasartırma və ya elmi ezamiyyət başa çatdıqdan sonra diplomatik xidmət əməkdaşı əvvəl tutduğu vəzifədən aşağ olmayan diplomatik vəzifəyə təyin edilir.



**Maddə 16. Diplomatik xidmət əməkdaşlarının imtiyaz və immunitetləri**

Azərbaycan Respublikasının diplomatik xidmət əməkdaşları xaricdə işlədikləri dövrdə beynəlxalq hüquq normalarına uyğun olaraq diplomatik heyətin üzvləri üçün müəyyən olunmuş imtiyaz və immunitetlərdən istifadə edirlər.

**Maddə 17. Diplomatik xidmət əməkdaşlarının vəzifələri**

Diplomatik xidmət əməkdaşları xaricdə işlədikləri dövrdə olduqları dövlətin qanun və qaydalarına hörmət bəsləməyə, üzərlərinə qoyulmuş vəzifələri yerinə yetirməyə, Azərbaycan Respublikasını layiqincə təmsil etməyə borcludurlar.

**Maddə 18. Diplomatik xidmət əməkdaşlarının geri çağırılması**

18.1. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında işləyən diplomatik xidmət əməkdaşları Azərbaycan Respublikasının və ya olduqları dövlətin qanunvericiliyinə görə məsuliyyət doğuran əməllər törətməkdə təqsirli bilindikdə, habelə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hallarda vaxtından əvvəl geri çağırıla bilərlər.

18.2. Diplomatik xidmət əməkdaşlarının vaxtından əvvəl geri çağırılmasına onlarla birlikdə yaşayan ailə üzvlərinin yuxarıda göstərilən əməllərin törədilməsində təqsirli bilinməsi də əsas ola bilər.

**Maddə 19. Diplomatik xidmət əməkdaşlarının məsuliyyəti**

Diplomatik xidmət əməkdaşları Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə müəyyən edilmiş hallarda və qaydada məsuliyyətə cəlb oluna bilərlər.

**Fəsil 4. Diplomatik xidmətin təchizatı, təminatlar və ödəmələr, diplomatik xidmət əməkdaşlarının maddi və sosial təminatı**

**Maddə 20. Diplomatik xidmətin maliyyə təminatı və maddi-təsərrüfat təchizatı**

20.1. Diplomatik xidmət orqanları sisteminin vahid maliyyə təminatı dövlət büdcəsinin vəsaitləri, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və qaydada digər mənbələr hesabına həyata keçirilir.

20.2. Diplomatik xidmət orqanlarının fəaliyyətinin maddi-təsərrüfat təchizatı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

20.3. Diplomatik xidmət orqanlarının Azərbaycan Respublikasının ərazisində və xaricdə dövlət mülkiyyətində olan əmlak üzərində sabitlik, istifadə və sərəncam hüququ Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

**Maddə 21. Diplomatik nümayəndəliklərdə işlədikləri dövrdə diplomatik xidmət əməkdaşlarına verilən təminatlar və kompensasiyalar**

21.1. Diplomatik xidmət əməkdaşlarına və onların ailələrinə təminatlar, xidmət şəraitinin mürəkkəbliyi, xidmət keçməklə bağlı risk, habelə müvafiq xarici dövlətin spesifik xüsusiyyətləri nəzərə alınmaqla verilir.

21.2. Diplomatik xidmət əməkdaşları və onların ailə üzvləri müvafiq tibbi xidmətlə təmin olunurlar.

21.3. Azərbaycan Respublikasının diplomatik nümayəndəliyinə və ya konsulluğuna işə təyin olunan, habelə Azərbaycan Respublikasının diplomatik nümayəndəliyində və ya konsulluğunda fəaliyyətini başa çatdırıb Azərbaycan Respublikasına qayıdan diplomatik xidmət əməkdaşının və onun ailə üzvlərinin müvafiq nəqliyyat xərcləri dövlət hesabına ödənilir.

21.4. Ödənilən illik məzuniyyət və ya ailə üzvlərindən birinin ölümü ilə əlaqədar Azərbaycan Respublikasının diplomatik nümayəndəliyində və ya konsulluğunda işləyən diplomatik xidmət əməkdaşının Azərbaycan Respublikasına gəlməsi və işlədiyi dövlətə qayıtması üçün nəqliyyat xərcləri müvafiq qaydada ödənilir.

21.5. Diplomatik xidmət əməkdaşı və onunla birlikdə yaşayan ailə üzvləri, onun tutduğu vəzifə və yerli şərait nəzərə alınmaqla, xaricdə yaşayış yeri ilə təmin olunmalıdırlar.

21.6. Diplomatik xidmət əməkdaşının ümumtəhsil məktəbində oxuyan ailə üzvlərinin təhsil haqqı dövlət tərəfindən ödənilir.

21.7. Hərbi və ya mülki münaqişələr və yaxud təbii fəlakətlər və digər fövqəladə hallar baş verdikdə Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və ya konsulluqların və onların heyətinin təhlükəsizliyi üçün qorxu yarandıqda, müvafiq icra hakimiyyəti orqanları diplomatik xidmət əməkdaşlarının və onların birlikdə yaşayan ailə üzvlərinin təhlükəsizliyinin təmin olunması və qorunması üçün zəruri tədbirlər görür.

21.8. Xaricdə işlədiyi dövrdə öz xidməti vəzifələrini yerinə yetirərkən diplomatik xidmət əməkdaşına və ya onun ailə üzvlərinə dəymiş zərər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ödənilir.

21.9. Diplomatik xidmət əməkdaşlarının xaricdə işlədikləri dövrdə əldə etdikləri vəsaitin və əmlakı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada Azərbaycan Respublikasına gətirilməsinə görə gömrük rüsumu tutulmur.



21.10. Bu maddənin müddəaları diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərə də şamil olunur.

21.11. Bu maddədə nəzərədə tutulmuş təminat və kompensasiyaların verilməsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunan qaydalarla tənzimlənir.

**Maddə 22. Diplomatik xidmət əməkdaşlarının əmək münasibətlərinin tənzimlənməsi**

Diplomatik xidmət əməkdaşlarının əmək münasibətləri «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Əmək Məsələsi, bu Qanun və Azərbaycan Respublikasının digər normativ-hüquqi aktları ilə tənzimlənir.

**Maddə 23. Diplomatik xidmət əməkdaşlarının əməyinin ödənilməsi**

23.1. Diplomatik xidmət əməkdaşlarının əməyinin ödənilməsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

23.2. Xaricdə işləyərkən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin əməyinin ödənilməsi, habelə maddi və maliyyə təminatı, olduqları dövlətin sosial-iqtisadi və maddi-məişət şəraiti nəzərə alınmaqla Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

23.3. Rotasiya qaydasında xaricdə ezamiyyətə göndərilən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanında aldıqları əmək haqqının 50 faizi saxlanılır.

**Maddə 24. Diplomatik xidmət əməkdaşlarının mükafatlandırılması**

Diplomatik xidmət əməkdaşlarının mükafatlandırılması Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları əsasında həyata keçirilir.

**Maddə 25. Diplomatik xidmət əməkdaşlarının məzuniyyəti**

25.1. Diplomatik xidmət əməkdaşları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş məzuniyyətlərdən istifadə etmək hüququna malikdirlər.

25.2. Xaricdə işləyən diplomatik xidmət əməkdaşlarına və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərə, əmək şəraiti və əmək funksiyalarının xüsusiyyətləri nəzərə alınmaqla əlavə məzuniyyət verilə bilər.

**Maddə 26. Diplomatik xidmət əməkdaşlarının pensiya təminatı və sosial müdafiəsi**

26.1. Diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin pensiya təminatı və sosial müdafiəsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

26.2. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında işləyən diplomatik xidmət əməkdaşlarının, diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərinin və onlara birlikdə yaşayan ailə üzvlərinin icbari tibbi sığortası dövlət hesabına həyata keçirilir.

26.3. Bu müddəalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən ali təhsil müəssisələrinə, aspiranturaya (doktoranturaya) və elmi müəssisələrə göndərilənlərə də şamil edilir.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 8 iyun 2001-ci il*



*Əlavə 6*

**AZƏRBAYCAN RESPUBLİKASININ DİPLOMATİK ƏLAQƏLƏR QURDUĞU DÖVLƏTLƏRİN SİYAHISI**

| | |
|---|---|
| Avstraliya | 16.06.92 |
| Avstriya Respublikası | 20.02.92 |
| Albaniya Respublikası | 23.03.93 |
| Almaniya Federativ Respublikası | 20.02.92 |
| Amerika Birləşmiş Ştatları | 28.02.92 |
| Anqola Respublikası | 01.12.94 |
| Andorra Knyazlığı | 30.04.96 |
| Antiqua və Barbuda | 05.04.94 |
| Argentina Respublikası | 08.11.93 |
| Banqladeş Xalq Respublikası | 26.02.92 |
| Belarus Respublikası | 10.06.93 |
| Belçika Krallığı | 17.06.92 |
| Benin Respublikası | 14.10.99 |
| Bəhreyn Dövləti | 06.11.96 |
| Birləşmiş Ərəb Əmirlikləri | 01.09.92 |
| Bolqarıstan Respublikası | 05.06.92 |
| Boliviya Respublikası | 08.07.96 |
| Bosniya və Hersoqovina | 09.02.95 |
| Böyük Britaniya və Şimali İrlandiya Krallığı | 11.03.92 |
| Braziliya Federativ Respublikası | 21.10.93 |
| Bruney Darüəssalam Dövləti | 24.11.95 |
| Burundi Respublikası | 02.03.95 |
| Vatikann | 09.01.94 |
| Venesuela Respublikası | 12.05.95 |
| Vyetnam Sosialist Respublikası | 23.09.92 |
| Qabon Respublikası | 11.10.96 |
| Qazaxıstan Respublikası | 30.08.92 |
| Qatar Dövləti | 14.04.94 |
| Qambiya Respublikası | 11.11.94 |
| Qana Respublikası | 11.09.92 |
| Qayana Kooperativ Respublikası | 09.01.95 |
| Qvatemala Respublikası | 01.11.94 |
| Qvineya Respublikası | 11.03.92 |
| Qvineya Bisau Respublikası | 27.08.92 |
| Qırğızıstan Respublikası | 19.01.93 |

| | |
|---|---|
| Danimarka Krallığı | 02.04.92 |
| Estoniya Respublikası | 20.04.92 |
| Efiopiya Federativ Demokratik Respublikası | 02.11.92 |
| Əlcəzair Xalq Demokratik Respublikası | 22.04.94 |
| Salvador Respublikası | 23.03.99 |
| Əmən Sultanlığı | 13.07.92 |
| Əfqanıstan İslam Dövləti | 16.11.94 |
| Zambiya Respublikası | 18.11.93 |
| İndoneziya Respublikası | 24.09.92 |
| İordaniya Haşimi Krallığı | 13.02.92 |
| İraq Respublikası | 30.03.92 |
| İran İslam Respublikası | 12.03.92 |
| İsveçrə Konfederasiyası | 21.02.92 |
| İsveç Krallığı | 08.05.92 |
| İrlandiya | 01.07.96 |
| İslandiya Respublikası | 27.02.98 |
| İspaniya Krallığı | 11.02.92 |
| İsrail | 07.04.92 |
| İtaliya Respublikası | 08.05.92 |
| YamaykA | 22.11.95 |
| Yaponiya | 07.09.92 |
| Yeni Zelandiya | 10.09.92 |
| Yəmən Respublikası | 25.02.92 |
| Yuqoslaviya İttifaqı Respublikası | 21.08.97 |
| Yunanıstan Respublikası | 02.04.92 |
| Kampuçiya Krallığı | 28.12.94 |
| Kamerun Respublikası | 24.02.95 |
| Kanada | 10.08.92 |
| Kolumbiya Respublikası | 13.12.92 |
| Komor adaları Federal İslam Respublikası | 06.09.94 |
| Koreya Xalq Demokratik Respublikası | 30.01.92 |
| Koreya Respublikası | 23.03.92 |
| Kosta Rika Respublikası | 15.01.97 |
| Kot divuar Respublikası | 19.11.96 |
| Kuba Respublikası | 27.03.92 |
| Küveyt Dövləti | 07.10.94 |
| Gürcüstan | 18.11.92 |
| Laos Xalq Demokratik Respublikası | 22.05.95 |
| Latviya Respublikası | 11.01.94 |
| Liberiya Respublikası | 22.05.96 |



| | |
|---|---|
| Livan Respublikası | 18.09.92 |
| Liviya Ərəb Sosialist Xalq Camahiriyyəsi | 16.03.92 |
| Litva Respublikası | 20.11.95 |
| Lixtenşteyn Knyazlığı | 21.01.92 |
| Lüksemburq Böyük Hersoqluğu | 01.06.92 |
| Mavrikiya Respublikası | 19.07.96 |
| Mavritaniya İslam Respublikası | 29.10.94 |
| Madaqaskar Respublikası | 26.05.93 |
| Makedoniya Respublikası | 28.06.95 |
| Malaziya | 05.04.94 |
| Mali Respublikası | 26.11.96 |
| Maldiv Respublikası | 20.12.94 |
| Malta | 09.01.95 |
| Macarıstan Respublikası | 27.11.92 |
| Meksika Birləşmiş Ştatları | 10.02.92 |
| Mərakeş Krallığı | 25.08.92 |
| Mozambik Respublikası | 20.06.95 |
| Moldova Respublikası | 18.05.92 |
| Monqolustan | 16.04.92 |
| Misir Ərəb Respublikası | 27.03.92 |
| Myanma Birliyi | 03.08.92 |
| Nepal Krallığı | 28.02.95 |
| Niger Respublikası | 10.11.95 |
| Niderland Krallığı | 11.04.92 |
| Nikaraqua Respublikası | 23.11.94 |
| Norveç Krallığı | 05.06.92 |
| Özbəkistan Respublikası | 12.10.95 |
| Oman | 13.07.92 |
| Pakistan İslam Respublikası | 09.06.92 |
| Panama Respublikası | 06.04.92 |
| Peru Respublikası | 25.06.92 |
| Portuqaliya Respublikası | 04.08.92 |
| Rusiya Federasiyası | 04.04.92 |
| Rumıniya Respublikası | 21.06.92 |
| Polşa Respublikası | 21.02.92 |
| Səudiyyə Ərəbistanı Krallığı | 24.02.92 |
| Seyşel Adaları | 02.11.94 |
| Seneqall | 14.03.96 |
| Sent Kits və Nevis | 22.03.95 |
| Sinqapur | 15.08.94 |

| | |
|---|---|
| Suriya Ərəb Respublikası | 28.03.92 |
| Sudan Respublikası | 25.07.92 |
| Slovakiya Respublikası | 23.11.93 |
| Sloveniya Respublikası | 20.06.92 |
| Syera Leone Respublikası | 13.03.95 |
| Surinam Respublikası | 11.02.00 |
| Tailand Krallığı | 07.05.92 |
| Tacikistan Respublikası | 29.05.92 |
| Tunis Respublikası | 01.07.98 |
| Türkiyə Respublikası | 14.01.92 |
| Türkmənistan | 09.06.92 |
| Uqanda Respublikası | 19.08.95 |
| Ukrayna | 06.02.92 |
| Uruqvay Şərqi Respublikası | 12.01.95 |
| Fələstin Dövləti | 15.04.92-09.06.92 |
| Filippin Respublikası | 27.03.92 |
| Finlandiya Respublikası | 24.03.92 |
| Fransa Respublikası | 21.02.92 |
| Xorvatiya Respublikası | 26.01.95 |
| Hindistan Respublikası | 28.02.92 |
| Honduras | 22.12.94 |
| Çexiya Respublikası | 29.01.93 |
| Çili Respublikası | 03.11.94 |
| Çin Xalq Respublikası | 02.04.92 |
| Cibuti | 22.10.96 |
| Cənubi Afrika Respublikası | 29.04.92 |
| Şri-Lanka Demokratik Sosialist Respublikası | 04.08.94 |



*Əlavə 7*

## AZƏRBAYCAN RESPUBLİKASININ DİPLOMATİK ƏLAQƏLƏRDƏ OLDUĞU DÖVLƏTLƏRİN MİLLİ BAYRAMLARI

### Yanvar

| | |
|---|---|
| 1 Kuba Respublikası | İstiqlaliyyət günü / 1959 |
| 1 Sudan Respublikası | Müstəqillik günü/1956 |
| 4 Myanma Birliyi | Müstəqillik günü/1948 |
| 26 Avstraliya | Avstraliya günü/1788 |
| 26 Hindistan Respublikası | Respublika günü/1950 |

### Fevral

| | |
|---|---|
| 4 Şri/Lanka Demokratik Sosialist Respublikası | Müstəqillik günü – 1948 |
| 6 Yeni Zellandiya | Vaytanqa günü – 1840 |
| 11 İran İslam Respublikası | İnqilab günü – 1979 |
| 14 Lixteynşteyn knyazlığı | Hakimiyyətdə olan şahzadənin ad günü 1945 |
| 16 Litva Respublikası | Litva dövlətinin qurulması günü – 1918 |
| 18 Qambiya Respublikası | Müstəqillik günü – 1956 |
| 23 Bruney-Daərusəlim dövləti | Milliyyət günü – 1984 |
| 23 Qayana Kooperativ Respublikası | Respublika günü – 1970 |
| 24 Estoniya Respublikası | Müstəqillik günü – 1918 |
| 25 Küveyt dövləti | Milli gün – 1961 |

### Mart

| | |
|---|---|
| 3 Bolqarıstan Respublikası | Osmanlı əsarətindən qurtuluş günü 1878 |
| 3 Mərakeş Krallığı | Tac günü – 1668 |
| 6 Qana Respublikası | Müstəqillik günü – 1957 |
| 12 Mavrikiya Respublikası | Respublika günü – 1992 |
| 17 İrlandiya | Müstəqillik günü – 1968 |
| 20 Tunis Respublikası | Müstəqillik günü – 1956 |
| 23 Pakistan İslam Respublikası | Pakistan milli günü – 1940 |
| 25 Yunanıstan Respublikası | Müstəqillik günü – 1821 |
| 26 Banqladeş Xalq Respublikası | Müstəqillik günü – 1971 |

## Aprel

| | |
|---|---|
| 4 Seneqal Respublikası | Müstəqillik günü – 1960 |
| 16 Danimarka Krallığı | Kraliçanın anadan olduğu gün – 1940 |
| 17 Suriya Ərəb Respublikası | Evanuasiya günü – 1946 |
| 25 Portuqaliya Respublikası | Azadlıq günü – 1974 |
| 27 Syero-Leone Respublikası | Müstəqillik günü – 1961 |
| 27 Cənubi Afrika Respublikası | Azadlıq günü – 1994 |
| 27 Yuqoslaviya İttifaqı Respublikası | Konstitusiya günü – 1992 |
| 30 Niderland krallığı | Milli bayram. Kraliça günü – 1909 |

## May

| | |
|---|---|
| 3 Polşa Respublikası | Milli bayram – 1990 |
| 15 İsrail dövləti | Müstəqillik günü – 1948 |
| 17 Norveç Krallığı | Konstitusiya günü – 1814 |
| 20 Kamerun Respublikası | Respublika elan olunması günü – 1972 |
| 22 Yəmən Respublikası | Birlik günü – 1990 |
| 25 Argentina Respublikası | May inqilabının ildönümü – 1810 |
| 25 İordaniya Haşimi Krallığı | Müstəqillik günü – 1946 |
| 26 Gürcüstan Respublikası | Dövlət müstəqilliyi günü – 1991 |
| 28 Həbəşistan Fedederativ Demokratik Respublikası | Sülh və demokratiyanın qurulması günü – 1991 |
| 30 Xorvatiya Respublikası | Dövlət elan olunması günü – 1990 |

## İyun

| | |
|---|---|
| 2 İtaliya Respublikası | Respublika elan olunması günü – 1946 (iyun ayının 1-ci bazar günü qeyd olunur) |
| 6 İsveç Krallığı | İsveç bayramı günü İsveçin milli günü – 1983 |
| 7 Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı | Kraliçanın anadan olması günü – 1926 |
| 12 Filippin Respublikası | Müstəqillik günü – 1898 |
| 17 İslandiya Respublikası | Respublika elan olunması günü – 1944 |
| 18 Seyşel adaları Respublikası | Konstitusiya günü – 1993 |
| 23 Lüksemburq Böyük Hersoqluğu | Böyük Hersoqun anadan olduğu gün–1921 |



| | |
|---|---|
| 25 Mozambik Respublikası | Müstəqillik günü – 1975 |
| 25 Slovakiya Respublikası | Dövlət günü – 1991 |
| 26 Madaqaskar Respublikası | Müstəqillik elan olunması günü – 1960 |
| 27 Cibuti Respublikası | Müstəqillik günü – 1977 |

## İyul

| | |
|---|---|
| 1 Brundi Respublikası | Müstəqillik günü – 1975 |
| 4 Kanada | Kanada günü – 1867 |
| 5 Amerika Birləşmiş Ştatları | Müstəqillik günü – 1776 |
| 6 Venesuela Respublikası | Müstəqillik günü – 1811 |
| 11 Komor adaları Fuerale İslam Respublikası | Müstəqillik elan olunması günü – 1975 |
| 14 Fransa Respublikası | Bastiliyanın alınması günü – 1789 |
| 17 İraq Respublikası | İnqilab günü – 1968 |
| 20 Kolumbiya Respublikası | Müstəqillik günü – 1810 |
| 21 Belçika Krallığı | Kralın anadan olduğu gün – 1831 |
| 23 Misir Ərəb Respublikası | İnqilab günü – 1952 |
| 26 Liberiya Respublikası | Müstəqillik günü – 1847 |
| 26 Maldiv Respublikası | Müstəqillik günü – 1965 |
| 27 Belarus Respublikası | Müstəqillik günü – 1990 |
| 28 Peru Respublikası | Müstəqillik günü – 1821 |

## Avqust

| | |
|---|---|
| 1 Benin Respublikası | Müstəqillik günü – 1960 |
| 1 İsveçrə Konfederasiyası | Konfederasiyanın yaranması günü – 291 |
| 5 Yamayka | Hər il avqust ayının 1-ci bazar günü milli bayram kimi qeyd olunur |
| 6 Boliviya Respublikası | Müstəqillik elan olunan gün – 825 |
| 7 Kotdivuar Respublikası | Müstəqillik günü – 1960 |
| 10 Sinqapur | Milli gün – 1965 |
| 15 Koreya Respublikası | Koreyanın azad olunması günü – 1945 |
| 17 Qabon Respublikası | Müstəqillik günü – 1960 |
| 17 İndoneziya Respublikası | Müstəqillik elan olunan gün – 1945 |
| 19 Əfqanıstan İslam Dövləti | Müstəqillik günü – 1919 |
| 20 Macarıstan Respublikası | Macarıstan dövlətinin qurucusu müqəddəs İştvan günü |
| 20 Ukrayna Respublikası | Müstəqillik günü – 1991 |

| | |
|---|---|
| 25 Şərqi Uruqvay Respublikası | Müstəqillik günü – 1825 |
| 27 Moldova Respublikası | Müstəqillik günü – 1991 |
| 31 Qırğızıstan Respublikası | Müstəqillik günü – 1991 |
| 31 Malayziya | Milli gün – 1957 |

**Sentyabr**

| | |
|---|---|
| 1 Liviya Xalq Sosialist Ərəb Camahiriyyəsi | Böyük İnqilab günü – 1969 |
| 1 Slovakiya Respublikası | Konstitusiya günü – 1993 |
| 1 Özbəkistan Respublikası | Müstəqillik günü – 1991 |
| 1 Vyetnam Sosialist Respublikası | Müstəqillik elan olunan gün – 1945 |
| 4 Qatar Respublikası | Müstəqillik günü – 1971 |
| 7 Braziliya Federativ Respublikası | Müstəqillik günü – 1982 |
| 9 Koreya Xalq Demokratik Respublikası | KXDR yaranması günü – 1948 |
| 9 Tacikistan Respublikası | Müstəqillik günü – 1991 |
| 15 Qvatemala Respublikası | Müstəqillik günü – 1821 |
| 15 Kosta-Rika Respublikası | Müstəqillik günü – 1821 |
| 15 Nikaraqua Respublikası | Müstəqillik günü – 1821 |
| 15 Honduras Respublikası | Müstəqillik günü – 1821 |
| 15 Salvador Respublikası | Müstəqillik günü – 1821 |
| 16 Meksika Birləşmiş Ştatları | Müstəqillik elan olunan günü – 1810 |
| 18 Çin Respublikası | Müstəqillik elan olunan gün – 1810 |
| 19 Sent-Kristofer və Nevis | Müstəqillik günü – 1983 |
| 21 Malta | Müstəqillik günü – 1964 |
| 22 Mali Respublikası | Müstəqillik günü – 1960 |
| 23 Səudiyyə Ərəbistanı Krallığı | Müstəqillik günü – 1927 |
| 24 Qvineya Bisau Respublikası | Müstəqillik elan olunan gün – 1973 |

**Oktyabr**

| | |
|---|---|
| 1 Çin Xalq Respublikası | Müstəqillik günü – 1949 |
| 2 Qvineya Respublikası | Müstəqillik elan olunan gün – 1958 |
| 3 Almaniya Federativ Respublikası | Vahid Almaniya günü – 1990 |
| 9 Uqanda Respublikası | Müstəqillik günü – 1962 |
| 12 İspaniya Krallığı | İspaniya Milləti günü – 1492 |



| | |
|---|---|
| 22 Vatikan | II İohan Pavelin Vatikana başçılığı günü – 1978 |
| 24 Zambiya Respublikası | Müstəqillik günü – 1964 |
| 25 Qazaxıstan Respublikası | Respublika günü – 1992 |
| 26 Avstriya Respublikası | Milli bayram – 1955 |
| 27 Türkmənistan Respublikası | Müstəqillik günü – 1991 |
| 28 Çexoslovakiya Respublikası | Çexoslovakiyanın Müstəqillik günü – 1918 |
| 29 Türkiyə Respublikası | Respublika elan olunması günü – 1923 |

**Noyabr**

| | |
|---|---|
| 1 Əlcəzair Xalq Demokratik Respublikası | Əlcəzair inqilabı Günü – 1954 |
| 1 Antiqua və Barbuda | Müstəqillik günü – 1981 |
| 3 Panama Respublikası | Kolumbiyadan azad olunması günü – 1903 |
| 9 Kamruçiya Respublikası | Müstəqilliyin bərpa olunması günü – 1958 |
| 11 Anqola Respublikası | Müstəqillik elan olunması günü – 1975 |
| 18 Latviya Respublikası | Latviya Respublikası elan olunduğu gün – 1918 |
| 22 Livan Respublikası | Milli bayram – 1943 |
| 25 Surinam Respublikası | Müstəqillik elan olunması günü – 1975 |
| 28 Marivtaniya İslam Respublikası | Müstəqillik günü – 1960 |
| 29 Fələstin Dövləti | Beynəlxalq Fələstin həmrəyliyi günü |

**Dekabr**

| | |
|---|---|
| 1 Rumıniya | Milli gün – 1918 |
| 2 Laos Xalq Demokratik Respublikası | Respublika elan olunması günü – 1975 |
| 2 Birləşmiş Ərəb Əmirliyi | Birləşmiş Ərəb Əmirliyi dövlətinin elan olunduğu gün – 1971 |
| 6 Finlandiya Respublikası | Müstəqillik günü – 963 |
| 16 Bəhreyn dövləti | Milli gün – 1971 |
| 18 Niger Respublikası | Respublika elan olunması günü – 1958 |
| 23 Yaponiya | İmperatorun ad günü – 1933 |
| 28 Nepal Krallığı | Kralın ad günü – 1945 |

## DİPLOMATİK HÜQUQİ VƏ İQTİSADİ TERMİNLƏR

**aksiz rüsumları** *(exice duties)* – ölkənin hüdudlarında istehsal olunan və yayılan mallara qoyulan rüsumlar və vergilər

**alıcılıq qabiliyyətinin nisbəti** *(purchasing power parity)* – iki ölkənin pul vahidlərinin valyuta zonasında eyni alıcılıq qabiliyyətinə səbəb olan valyuta kursu

**alıcı bazarı** *(buyers market)* – istehsalçıların, vasitəçilərin satışda olan malların satılmasında çətinliklərlə rastlaşdıqları bazar

**anneksiya** *(annexation)* – dövlət tərəfindən əlavə ərazinin əldə olunması

**amortizasiya (amortisation)** – borcun borc fondundan tədricən ödənilməsi

**ara vermək** *(defente)* – gərginliyin zəiflədilməsi

**arbitraj, münsiflər qərarı** *(arbiration)* – mübahisəli məsələ ilə bağlı üçüncü tərəfin işə baxması; beynəlxalq hüquq əsasında məsələnin həll olunması, bu məsələyə aidiyyatı olan tərəflər üçün məcburi qərar

**avtarkiya** *(autarky)* – özünütəminat (məsələn, milli iqtisadi özünütəminat)

**avtokratiya** *(autocracy)* – bir nəfər şəxs tərəfindən həyata keçirilən rəhbərlik, yaxud idarəetmə üsulu

**avro** *(euro)* – Avropa İttifaqında müvafiq valyutaların razılaşdırılmış dəyərinə əsaslanan pul vahidi.

**avrodollar** *(euro-dollar)* – Avropa kommersiya banklarında saxlanılan xüsusi dollar balansları

**assosasiya memorandumu** *(vevorandum of association)* – aksioner şirkətinin məqsədlərini və niyyətlərini müəyyən edən sənəd

**azad ticarət** *(free trade)* – ölkələr arasında malların və xidmətlərin azad yerdəyişməsinə mane olan tariflərlə, idxal və ixrac kvotaları ilə və *digər mexanizmlərlə çətinləşdirilməyən ticarət*

**Azad Ticarət Zonası** *(Free Trade Area)* – aralarında gömrük vergilərinin və digər ticarət məhdudiyyətlərinin olmadığı, lakin ümumi xarici tarifə malik olmayan dövlətlər və ya regionlar qrupu

**azad ticarət limanı** *(free port)* – aeroport, gəmi limanı və yaxud başqa bir yerin ərazisində polis tərəfindən mühafizə olunan zona. Bu zonaya zonanın yerləşdiyi ölkəyə gömrük rüsumu ödənilmədən mal idxal oluna, yenidən emal edilə və ya istehsal oluna bilər, bu şərtlə ki, bu mallar sonradan üçüncü ölkəyə yenidən ixrac olunsun.



**aşkara çıxarmaq** *(expose)* – əvvəllər gizli hesab olunan işlərin açıq aşkara çıxarılması, ifşa olunması

**bank tarifi** *(bank rate)* – mərkəzi bankın birinci dərəcəli veksellərı hesaba aldığı minimal tarif

**başa çatmış iş** *(fait accompli)* – başa çatıb qurtarmış və buna görə də müzakirəyə qoyula bilməyən hərəkət nəzərdə tutulur

**başlıca üstünlüklər sistemi** *(generalised system of preferences)* – inkişaf etməkdə olan ölkələrdən sənaye cəhətdən inkişaf etmiş ölkələrə malların idxalında müəyyən səviyyəyə qədər rüsumun alınmaması, yaxud vergilərin azaldılmasını nəzərdə tutan saziş

**bekkerel** *(becquerel)* – radioaktivliyin ölçü vahidi

**broker** *(broker)* – işgüzar əməliyyata cəlb olunan iki və ya daha çox şəxs arasında vasitəçi

**boykot** *(boycott)* – dövlətlə (və ya şəxslə) ticarətdən imtina

**bölünmə təklifi** *(motions for division)* – qətnamənin bölmələri üzrə ayrıca səs vermə imkanı

**bufer dövlət** *(buffer state)* – daha güclü dövlətlər arasında yerləşən, lakin onun ərazisini üçüncü dövlət tərəfindən işğal etməsinə qonşu dövlətlərdən heç birini imkan verməyəcəyinə və təhlükəsizliyinə əmin olan dövlət

**büdcə** *(budget)* – milli gəlirlərin və xərclərin növbəti maliyyə ilinə kalkuliyasiyası

**cari xərclər** *(current expenditure)* – aktivlərin əldə olunmsına səbəb olmayan xərclər

**çıxılmaz vəziyyət** *(impasse)* – cəlb olunmuş tərəflərin heç birinin gediş edə bilmədiyi çıxılmaz vəziyyət

**daha əlverişli şərait rejimi** *(most-favoured nation clause)* – iki ölkə arasında qarşılıqlı əlverişli rejim haqqında ticarət müqaviləsinə daxil edilə bilən –qeyd-şərtdir, dövlətlərdən hər-hansı biri tərəfindən üçüncü ölkəyə gömrük rüsumlarına münasibətdə təqdim edə bilər

**demarş** *(demarche)* – mövcud vəziyyətdən narazılığını nümayiş etdirən *hökumətin çox vaxt yeni siyasətə əsaslanan təşəbbüsü və ya* müraciəti

**demerc** *(demurrage)* – gəmilərin, malların və s. saxlanılması və komission vergilərin və ya boş dayandıqları üçün kompensasiyaların toplanılması

**demping** *(dumping)* – malların xarici bazarlarda öz ölkəsinin bazarlarındakı xalis dəyərindən aşağı qiymətə satılması. «Qeyri-kommersiya rəqabəti» termini bu şəkildə xidmətlər müqabilində, məsələn, yükdaşımalara münasibətdə tətbiq olunur

**deflyasiya** *(deflation)* – qiymətlərin və pul gəlirinin aşağı düşdüyü, pul vahidinin dəyərinin isə yüksəldiyi vəziyyət

**devalvasiya** *(devaluation)* – yeni, daha aşağı valyuta kursunun müəyyənləşdirilməsi (yəni yerli valyuta vahidi üçün daha az xarici valyutanın verilməsi)

**dəniz mili** *(nautical mile)* – 2,025 yard və ya 1,852 metr məsafə

**dəyişilə bilmək** *(convertibility)* – bir valyutanın mövcud olan valyuta kursuna əsasən digər valyutaya dəyişdirilməsi

**dinc keçid** *(innocent rassage)* – istənilən dövlətin istənilən gəmisinin digər dövlətin ərazi sularını keçmək hüququdur, yəni bu qanuna əsasən edilir və nəqliyyatın tələblərinə uyğun olaraq fövqəladə hallarda lövbər sala bilər

**diplomatik sığınacaq** *(diplomatic asylum)* – diplomatik missiyanın yerləşdiyi və ya toxunulmazlıq hüququna malik olan binalarda verilən siyasi sığınacaq

**dizinflasiya** *(disinflation)* – pul vahidinin dəyərini qoruyub saxlamaq məqsədilə inflasiyanın aradan qaldırılması

**domino nəzəriyyəsi** *(domino theory)* – bu nəzəriyyəyə görə müəyyən vəziyyətlərdə dövlətin və hökumətin süqutu qonşu dövlətin və hökumətin süqutuna səbəb olur, yəni birinin yıxılması digərinin yıxılmasına şərait yaradır

**dövlət sektoru** *(Public sektor)* – iqtisadiyyatın dövlət bölməsi, adətən mərkəzi hakimiyyəti, yerli orqanları, sənayenin milliləşdirilmiş sahələrini və digər dövlət korporasiyalarını birləşdirin

**eksterritoriallıq** (*extra-territorial*) – ərazi yurisdiksiyasından kənarda yerləşən, toxunulmazlıq

**əmtəə nişanı** *(trademark)* – malın müəyyən firma ilə əlaqəsi olduğunu, ona malik olduğunu, onu istehsal etdiyini və ya paylaşdırdığını bildirmək üçün istifadə olunan fabrik markası və ya digər emblemin adı

**ərazi sığınacağı** *(territorial asylum)* – xariciyə dövlət tərəfindən öz ərazisində verildiyi siyasi sığınacaq

**fas** *(free alongside ship, f,a,s)* – gəmi bortunadək sərbəst yüklənmiş malların dəyəri, bura malların gəmi bortunadək lövbərdə toplandığı yerə qədər bütün ödənişləri və xərcləri daxildir

**fiskal siyasəi** *(fiskal rolicy)* – iqtisadi fəaliyyətin səviyyəsinə təsir göstərmək üçün və məxaric xərclərinin ödənilməsi məqsədilə gəlirin artırılması üçün hökumət tərəfindən həyata keçirilən siyasət

**fob** *(f.o.b. – free on board)* – bortda azaddır

**fors-major** *(fr. force majeure)* – qaçılmaz, düzəldilməz və adətən qarşısıalınmaz vəziyyət



**gömrük anbarı** *(bonded warehouse)* – ambar binasıdır, burada onlar üçün vergi ödənilməli olan mallar rüsum ödənilmədən götürülənədək saxlanıla bilər

**gömrük ittifaqı** *(customs union)* – vahid gömrük ərazisi yaradan dövlətlər və ya regionlar qrupu: üzv dövlətlər arasında tariflər və digər ticarət məhdudiyyətləri ləğv olunur və ittifaq digər ölkələrə münasibətdə ümumi xarici tarifi saxlayır

**gəmiçilik üzrə konfrans** *(shipping conference)* – gəmi sahiblərinin birliyidir, başlıca məqsədi qiymətləri qeyd etmək və giriş limanlarını müəyyən etməkdir

**gömrük vergiləri** *(customs duties)* – bir dövlətdən və ya regiondan digərinə gedən mallara alınan vergi

**«görünməyən gəlir»** *(invisible earning)* – milli hesablarda göstərilən xidmətlərdən (məsələn, daşımalar, bank əməliyyatları, sığorta, turizm) gələn gəlir

**«görünən» ixrac** *(visible exports)* – avadanlıq və quraşdırma, istehlak malları və s. real səmərə verən əşyaların ölkədən aparılması gömrük vergiləri (customs duties) – bir dövlətdən və ya regiondan digərinə gedən mallara alınan rüsum

**hesab vahidi** *(unit of account)* – Avropa İttifaqında kənd təsərrüfatı məhsullarına və s. qiymətlərin müəyyən edilməsi üçün istifadə olunan pul vahididir

**xəbərdarlıq** *(caveat)* – hərəkətin yubadılması xahişi, qeyd-şərt

**xunta** *(junta)* – komitə və ya birgə işləyən adamlar qrupu; adətən qrup (məsələn, ordu) üzvlərindən ibarət olan inqilabi hökumətə münasibətdə işlədilir

**xüsusi iqtibas hüququ** *(special drawing rights)* – Beynəlxalq Valyuta Fondu tərəfindən yaradılmış beynəlxalq ehtiyat fondları sistemi

**xüsusi bölmə** *(private sector)* – iqtisadiyyatın xüsusi bölməsi, mərkəzi və yerli hakimiyyət orqanları olmayan elementlərin iqtisadiyyatda uyğunlaşmasını təmsil edir və buna görə də şirkətlər sektoru və şəxsi sektordan ibarətdir

**ikiqat vergi qoyma haqda saziş** *(double taxation agreement)* – ikiqat vergi qoymanın qarşısını almaq üçün saziş

**iqtisadi yüksəliş** *(economic growth)* – tələbatın ödənilməsi məqsədilə əhalinin hər bir nəfərinə düşən bütün növ məhsul və xidmət istahsalının yüksəlişi

**imzalama protokolu** *(protocol of signatuge)* – izahlarla və qeyd şərtlərlə müqaviləyə əlavə

**inkoqnito** *(incognito)* – şəxsiyyətini açıqlamadan

**inflyasiya** *(inflation)* – alıcılıq qabiliyyətinin artıq olduğu, gəlirlərin və qiymətlərinartmasna və eyni zamanda pulun dəyərinin azalmasına gətirib çıxaran vəziyyət

**infrastruktur** *(infrastucture)* – müasir iqtisadiyyatın məsələn, energetikanın, nəqliyyatın, təhsilin, səhiyyənin yaradılması üçün vacib olan xidmətlər

**«isti pul»** *(hot money)* – əlverişli faiz tariflərinin, yaxud valyuta kursunun dəyişməsinin irəlicədən proqnozlaşdırılması nəticəsində pul gəliri əldə etmək məqsədi ilə kapitalın bir ölkədən digər ölkəyə axını

**«isti təqib»** *(hot pursuit)* – hər hansı bir dövlətin ərazisində cinayət törətmiş, sonra isə açıq dənizdə gizlənmiş gəmiləri saxlamağa icazə verən, dənizdə təqib olunan hüquqi doktrina. Bu termin quru sərhədlərin qeyri-leqal şəkildə keçən şəxslərin də bu cür hərəkətlərini göstərmək üçün istifadə olunur.

**istehsal vasitəsi** *(producer goods)* – istehlak mallarının istehsalı üçün nəzərdə tutulmuş mallar, məsələn, bütün növlərin təchizi

**istehlak malları** *(conumer)* – yerli istehlakçılara çatdırılan faktiki mövcud olan məhsul

**iş adamı** *(fr. entepreneur)* – müstəqil şəkildə ticarət sövdələşmələri aparan şəxs

**iyirmilər qrupu** (*Group of twenty, G20)* –Beynəlxalq Valyuta Fondunun işinə əksəriyyətlə nəzarət edən on üzvündən və inkişaf etməkdə olan ölkələrin on nümayəndəsindən ibarət komissiya

**ixrac rüsumları** *(export duties)* – ölkədən ixrac olunan mallardan alınan rüsum və vergilər

**«jiro» sistem** *(giro system)* – ödənişlərin köçürülməsi mexanizmi

**kapital bazarı** *(capital market)* – qiymətli kağızların alınması və satılması ilə məşğul olan təşkilatları əhatə edən bazar

**kapital xərcləri** *(capital expenditure)* – aktivlərin əldə olunmasına səbəb olan cari olmayan xərclər

**kapitalhəcmli** *(capital intensive)* – bir işçiyə gördüyü işin müqabilində kapital qoyuluşundan istifadə etməklə yüksək səviyyədə istehsal formasıdır

**kartel** *(cartel)* – satışla məşğul olan başlıca təşkilat, ümumi əmtəə buraxılışında üzvlərindən hər biri üçün xüsusi payı müəyyən edir

**kəsirin maliyyələnməsi** *(deficit financing)* – hökumət tərəfindən birjadan və ya mərkəzi bankdan borc almaq yolu ilə büdcə kəsirinin maliyyələşməsi

**kompensasiya rüsumu** *(countervailing duty)* – xüsusilə dövlət subsidiyası və dempinq nəticəsində ədalətsiz üstünlüklərin qarşısını almaq məqsədilə və milli sənayeni müdafiə etmək üçün idxaldan alınan vergi



**konsul hesab-fakturası** *(consular invoice)* – xarici dövlətə konsul tərəfindən onun ölkəsinə göndərilən mallar üçün təminat verən hesab-faktura

**konkordat** *(concordat)* – dövlətlə Vatikan arasında imzalanmış saziş

**Kontador qrupu** *(Contadora Group)* – Venesueladan, Kolumbiyadan və Panamadan ibarət ölkələr qrupu. 1985-ci ildə Argentina, Braziliya, Paraqvay və Perudan ibarət Yardım qrupu da ona qoşulmuşdur. Məqsədi – danışıqlar vasitəsilə Mərkəzi Amerikada sülhə, silahların ixtisarına, sərhədlərə, demokratiyaya və insan hüquqlarına hörmət olunmasına nail olmaqdır.

**konfrantasiya** *(confrontation)* – heç bir tərəfin güzəştə getmək istəmədiyi və fiziki konfliktə çevrilmək təhlükəsi doğuran vəziyyət (adətən iki dövlətin münasibətində)

**konosament** *(bill lading)* – boşaldılmalı olan yüklərin adlarından ibarət sənəd

**konsalidasiya** *(funding)* – qısamüddətli təəhhüdlərin uzunmüddətli təəhhüdlərə çevrilməsi

**kontrakt** *(contract)* – iki və ya daha çox tərəfin müəyyən öhdəliklər götürdüyü yazılı və ya şifahi formada olan saziş

**köçürmə vekseli** *(bill of exchange)* – əsasən beynəlxalq ticarətdə istifadə olunan ödəmə aparma təlimatı. –Ödəmə vekseli müəyyən olunmuş müddətin sonunda alındıqdan sonra doxsan gün ərzində ödənilməyə bilər; adsız veksil alınana qədər ödənilir

**qanuni ödəniş vasitəsi** *(legal tender)* – qanuna görə borcun ödənilməsi üçün qəbul edilməli olan pullar

**qarışıq iqtisadiyyat** *(mixed economy)* – istehsal vasitələrinin xüsusi şəxslərə və xüsusi müəssisələrə, qismən də hökumətə və dövlət idarələrinə aid olduğu iqtisadiyyat

**qayıdan rüsum, güzəşt** *(drawack)* – idxala olan rüsumun ödənilməsi, hansı ki, ixrac edən idxal etdiyi materiallar üçün və ixrac etdiyi malların bir hissəsi üçün ödəməlidir

**qızıl standart** *(gold standard)* – hər bir valyuta vahidinə müəyyən olunmuş kəmiyyətdə qızılın uyğun gəldiyi pul sistemidir. Qızıl standart qaydası aşağıdakı kimidir:

a) bütün kağız pullar nominal dəyərinə görə qızıla konvertirə olunmalıdır; b) qızılın idxalına və ixracına məhdudiyyətlər olmamalıdır; c) qızıl ehtiyatı kifayət qədər olmalıdır

**qısamüddətli borc** *(floating debt)* – qısamüddətli ssudalardan ibarət milli borcun bir hissəsi

**qoşulmamaq hərəkatı** *(non-aligned movement)* – əvvəldən soyuq müharibədə iştirak etməmiş 177 dövlətdən ibarət qrup; hal-hazırda yer kürəsində yeni qaydanın bərqərar olmasına və iqtisadi inkişafa maraqlıdır

**ləğv etmək** *(abrogate)* – ləğv etmək (məsələn, müqaviləni)

**likvid aktivləri** *(liquid assets)* – ya pul formasında, ya da təcili pula çevrilə bilən formada olan aktivlər

**məhsuldarlıq** *(productivity)* – istehsal ehtiyatlarının istifadə etdiyi səmərəlilik, yəni əmək, fondlar və torpaq, adətən vahidə çəkilən xərcdə ifadə olunur

**mənşə sertifikatı** *(certificate of origin)* – boşaldılmış malların mənşəyini müəyyən edən ixrac edənin və ya ticarət palatasının sənədi

**Mərkəzi bank** *(Central Bank)* – hər bir ölkədə olan bank: a) hökumətin bank başçısı, b) kommersiya banklarının başçısı və c) ölkənin valyuta və kredit siyasətini həyata keçirən bank başçısı

**məruzəçi** *(rapporteur)* – məsələn, konfransın işi haqqında qısa xülasəni təqdim edən şəxs

**milli borc** *(national debt)* – hökumətin daxili və xarici borcları

**milli gəlir** *(national income)* – müəyyən olunmuş dövr, adətən il ərzində ölkədə iqtisadi fəaliyyət nəticəsində istehsal olunmuş malların və xidmətin ümumi pul dəyəri

**Müqəddəs Taxt** *(Holy See)* – Roma papasının başçılıq etdiyi Roma katolik kilsəsinin hüquqi və simvolik adı. Papa həmçinin şəhər-dövlət Vatikanın başçısıdır

**müharibə vəziyyəti** *(belligerency)* – xüsui təcavüz vəziyyətini bildirmək üçün istifadə olunan hüquqi termindir

**müvəqqəti işlər vəkili** *(charge d affaires ad interim)* – diplomatik missiya başçısı və ya digər səbəbə görə ölkəni tərk etməli olduqda və ya xəstələndikdə və ya onun təyinatlararası ilə bağlı müddətdə onun vəzifələrini yerinə yetirən diplomatik missiyanın diplomatik işçiləri və ya əməkdaşları (müstəsna hallar istisna olunmaqla) arasından olan şəxs

**mövcud əmtəə bazarı** *(spot market)* – əmtəənin təcili təchizatla satıldığı bazar

**notarius aktları** *(notarial acts)* – vəzifəli şəxsin (məsələn, konsul əməkdaşının) təsdiq etdiyi sənəd

**ümumi daxili məhsul** *(gross domestic product)* – dövlətdə istehsal olunan əmtəənin və xidmətin dəyəri

**ümumi milli məhsul** *(qross national product)* – ümumi daxili məhsul üstəgəl xarici ölkələrdəki aktivlərindən faizlər, gəlirlər və dividendlər şəklində alınan xalis gəlir

**on beşlər qrupu** *(Group of Fifteen, G15)* – səkkizlər qrupu müqabilində qarşılıqlı iqtisadi maraqları olan inkişaf etməkdə olan ölkələrin birliyi



**onlar qrupu** *(Group of Ten, G10)* – Beynəlxalq Valyuta Fondunda əksəriyyətlə nəzarət edən ölkələr (hal-hazırda onların sayı on birdir)

**oliqarxiya** *(oligarchy)* – dövlətin yaxud cəmiyyətin çox az bir hissəsinin hökmranlığı

**oliqopoliya** *(oligopoly)* – yalnız bir neçə firmanın rəqabət aparmasına imkan verən bazar strukturu

**ödəmə balansı** *(balance of payments)* – bu və ya digər ölkənin bütün dünyada həyata keçirdiyi bütün növ ödəmələr və başqa ölkədən daxil olan pul gəlirləri arasında nisbət

**ödənişlər və daxil olmalar xəttindən aşağı** *(below the line payments and receipts)* – hökumət büdcəsinin kapitalın hərəkəti ilə bağlı maddələrlə əlaqədar olan hissəsində toplanan ödənişlər və pul daxil olmaları

**ödənişlər və daxil olmalar xəttindən yuxarı** *(abave the line payments and receipts)* – hökumət büdcəsinin əsasən vergiqoymadan alınan gəlirin xərcləndiyi hissəsində toplanan ödənişlər və pul daxil olmaları

**Paris klubu** *(Paris club)* – rəsmi xarici borcların yenidən baxılması və lazım gələrsə bu borcların yeni siyahısının tərtib olunması ilə məşğul olan əsas kreditor dövlətlərin assosiasiyası

**Pressler düzəlişi** *(Pressler amendment)* – ABŞ-ın qeyri-nüvə dövlətlərinə yardımını məhdudlaşdıran siyasəti

**prosedur təklifi** *(procedural motion)* – iclasın aparılmasına aiddir və səsvermənin nəticələrinin hesablanmasının düzgünlüyünü müşahidə edən şəxs tərəfindən dərhal səsverməyə qoyulmalıdır

**protokol** *(protocol)* – rəsmi diplomatik davranışlar; adətən əsas müqaviləni tamamlayan beynəlxalq saziş

**«rahat bayraq»** *(flaq of convenience)* – gəmiçilik qanunları digər dövlətin gəmiçilik qanunları ilə müqayisədə o qədər də çətinlik törətməyən dövlətin bayrağı; bu dövlətdə qeydiyyatdan keçən gəmilər onun bayrağı altında üzürlər, onların heyəti isə onun qanunlarına tabe olurlar

**real şərtlər** *(real terms)* – «real şəraitlərdə» pulun dəyərinin dəyişməsini nəzərdə tutan pul məbləği; dəyişiklik adətən «hesablama və müqayisə aparılması üçün müəyyən baza ilinə aiddir»

**«səbət»** *(basket)* – jarqonizmdir, birinci dəfə geniş şəkildə Avropada təhlükəsizlik və əməkdaşlığa dair konfransın iclaslarında məsələlərin və mövzuların məcmusuna münasibətdə istifadə olunmuşdur. Maliyyə dairələrində – müxtəlif valyutaların yığımı kimi başa düşülür

**səkkizlər qrupu** *(Group of Eight, G8)* – aparıcı sənaye ölkələri – Almaniya, İtaliya, Kanada, Rusiya, Birləşmiş Krallıq, Amerika Birləşmiş Ştatları, Fransa, Yaponiya, eləcə də Avropa komissiyasının prezidenti

**səlahiyyətli konfrans** *(plenipotentiary conference)* – beynəlxalq sənədlərin tərtibi və yaxud ona yenidən baxılması məqsədilə keçirilən geniş səlahiyyətlərə malik nümayəndələrin iştirak etdiyi konfransın iclası

**səsvermənin izahı** *(explanations of vote)* – səsin nə üçün xüsusi formada verilməsini izah edən şifahi təsdiq

**sif** *(c.i.f.- cost – dəyər, insurance – sığorta, freight-fraxt )* – boşaldılmış sifin, malın dəyəri, malın gəminin bortuna (fob) keçməsinədən bütün xərclərindən, eləcə də sığorta və daşıma xərcindən ibarətdir

**soyuq müharibə** *(cold war)* – xarici siyasət sahəsində dövlətlər arasında maraqların toqquşması zamanı düşmənçilik səviyyəsini bildirmək üçün istifadə olunur, qeyri-hərbi təcavüzün son mərhələsi

**sövdələşmələr paketi** *(packege deal)* – çoxlu müxtəlif elementlərdən ibarət saziş

**super-301** *(super-301)* – ABŞ-ın ədalətsiz ticarətlə bağlı qanunları

**sosial demping** *(social dumping)* – azad ticarət zonasında və ya aşağı tarifli zonada sənayenin və digər məşğuliyyət mənbələrinin (iş yerlərinin) sosial xərcləri yüksək olan və yaxşı işlənib hazırlanmış əmək qanunvericiliyi olan ölkədən sosial xərclərin aşağı olduğu və yaxşı işlənməmiş əmək qanunvericiliyi olan ölkəyə köçürülməsi

**status-kvo** *(status-quo)* – mövcud vəziyyət

**spesifik tarif** *(specific tariff)* – hər bir əmtəə vahidinə görə müəyyən olunmuş pul əsasında hesablanan tarif (məsələn, kiloqrama 30 sent)

**tarif** *(tariff)* – ölkəyə gətirilən mallardan alınan rüsum və ya vergi; gömrük vergisi

**tranş** *(tranche)* – hərfən «hissə» və ya «pay» deməkdir: termin Beynəlxalq Valyuta Fondu tərəfindən üzv-dövlətə verilən kreditə munasibətdə istifadə olunur. O dörd hissəyə bölünür, onlardan hər biri üzv-dövlətdə maliyyə gərginliyinin artması səviyyəsindən asılıdır

**texniki-iqtisadi əsaslandırma** *(feasibility study)* – səmərəli şəkildə (rentabelli) tətbiq edilməsi imkanlarını araşdırmaq üçün təklif olunmuş layihənin texniki-iqtisadi aspektlərinin öyrənilməsi

**ticarətin yaradılması** *(trade creation)* – Ümumi bazar ölkələrində və ya azad ticarət zonasında idxal olunan bahalı malların zona ərazisində istehsal olunmuş aşağı qiymətli əşyalarla dəyişdirilməsi (məsələn, istehsalın miqyasının yüksəlişi ilə şərtlənən iqtisadiyyatdan səmərə əldə etmək üçün)

**ticarət fərqi** *(trade gap)* – sıf şəraitində idxal olunmuş malların dəyəri ilə fob şəraitində ixrac (yenidən ixrac olunmuş) olunmuş malların dəyəri arasında fərq



**ticarətdə müxtəliflik** *(trade diversion)* – Ümumi bazar ölkələrində və ya azad ticarət zonasında ucuz idxal mallarının zona ərazisində istehsal olunmuş daha qiymətli əşyalarla dəyişdirilməsi

**ticarət balansı** *(balance of trade)* – ölkənin mal idxalı («görünən idxal») və mal ixracı («görünən ixrac») arasında nisbət. Cari ödəmələr, xidmətlərdən əldə olunan gəlirlər və əsas kapital hesabının maddələri istisna olunur

**ticarət bankları** *(merchant banks)* – əsasən ticarət veksellərinin qəbulu və ticarətin maliyyələşdirilməsi ilə məşğul olan banklar

**ticarətdə sapma** *(trade deflection)* – azad iqtisadi zonada malların aşağı xarici tariflə yüksək xarici tarifi olan digər üzv dövlətə minimal rüsum ödəmək məqsədilə istehlak üçün idxal olunması

**titullu müvəqqəti işlər vəkili** *(charge d affaires ad interim en titre)* – xarici işlər nazirliyi yanında akreditə olunmuş diplomatik missiyanın başçısı

**toxuculuq məhsulu haqda saziş** *(multi-fibre arrangement)* – 41 inkişaf etmiş və inkişaf etməkdə olan ölkələri arasında birincilərin ikincilərdən idxalın məhdudlaşdırılması vasitəsilə toxuculuq sənayesinin qorunması haqda sazişdir

**«ucuz pullar»** *(cheap money)* – aşağı bank tarifində pullara verilən ad

**üçlər qrupu** *(Group of Three, G3)* – Azad ticarət zonası yaratmaq məqsədilə iqtisadi inteqrasiyaya yardım məsələləri üzrə siyasi müzakirələr forumu. Üzvləri – Kolumbiya, Meksika və Venesueladır, katiblik Boqotada yerləşir

**üzən kurs** *(floating exchange rate)* – tələb və təkliflə müəyyən oluna bilən, istənilən səviyyəyə qədər «üzə» bilən valyuta kursudur

**valyuta kurslarının nisbəti** *(exchange rate parity )* – iki valyutanın dəyişilmə kursunun müəyyən olunması

**valyuta demrinqi** *(currency dumping)* – rəqabət devalvasiyası üçün alçaldıcı şərait

**veto** *(veto)* – əleyhinə səs vermək

**yetmiş yeddilər qrupu** *(Group of 77)* – inkişaf etməkdə olan ölkələr qrupu (BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı tərəfindən yaradılmışdır)

**zəhmət tələb edən** *(labour-intensive)* – kapital təchizatının kəmiyyətinə münasibətdə məhsulun vahidinə böyük həcmdə əmək sərf olunduğu istehsal üsuludur

## LATIN VƏ FRANSIZ MƏNŞƏLİ TERMİNLƏR

***ad hominem*** **(lat. insanla bağlı)** – fərdi əsasda

***ad interum*** **(lat.)** – müvəqqəti, halbuki, bununla belə

***ad referendum*****(lat. məruzə ilə bağlı)** – təsdiq olunmalı

***ad valorem tax*** **(lat. dəyərə görə rüsum)** – malın dəyərinə proporsional şəkildə qoyulan rüsum, yəni məbləğlə deyil, faizlə ifadə olunan rüsum

***appelation d'origine*** **(fr. mənşəyinə görə verilən ad)** – malın mənşəyinə görə verilən ad

***Bourse*** – Parisdə fond birjası və pul bazarı; termin digər ölkələrdə də bu kimi müəssisələri bildirmək üçün geniş istifadə olunur

***bullion*** – qızıl, yaxud gümüş külçəsi

***casus belli*** **(lat. müharibə üçün səbəb)** – müharibənin elan olunmasına haqq qazandıran hərəkət

***commission*** **(fr.)** – vəzifəyə təyin olunma

***conveyance*** **(fr. təhvil)** – mülkiyyətin satıcı tərəfindən alıcıya təhvil verilməsini bildirən hüquqi termin

***coup d'etat*** **(fr.)** – dövlət strukturlarında yüksək vəzifədə olan şəxslərin (çox zaman hərbçilərin) qeyri-qanuni yolla ali hakimiyyəti ələ keçirməsi; dövlət çevrilişi

***customs cooperation concil nomenclature*** **(ing.)** – malların gömrük deklarasiyasının dünyada tanınmış standartlaşdırılmış sistemi

***de facto*** **(lat. faktiki)** – həqiqətən (tanınma)

***de jure*** **(lat. hüquqi)** – beynəlxalq hüquqa uyğun olaraq (tanınma)

***de rigeur*** **(fr.)** – məcburi

***derogation*** **(fr.)** – şərtlərin (müqavilə və s.) yerinə yetirilməsinin müvəqqəti dayandırılması

***dobson*** – ozonun səviyyəsini ölçmə vahididir

***en marge*** **(fr.)** – bununla əlaqədar; iclaslarda diskusiya mövzusu ilə mütləq şəkildə bağlı olmayan müzakirələr zamanı istifadə olunur

***en poste*** **(fr.)** – (diplomatik və ya konsul) səlahiyyətlərini qəbul etmiş

***en principe*** **(ing.)** – prinsiplə bağlı

***en principe*** **(fr.)** – prinsipcə, demək olar ki, bir qayda olaraq

***entrepot*** **(fr. ambar)** – sonradan bölüşdürülmən üçün malların yığıldığı və saxlandığı yer

***ex officio*** **(lat. rəsmi vəziyyətinə görə)** – müəyyən vəzifəyə və ya öhdəliyə görə. Komitələrə tyəinat *ex officio* ola bilər, yəni müəyyən vəzifəni tutan şəxs komitəyə müəyyən müddətə təyin olunur və vəzifədə olduğu müddətdə onun təyinatı şəxsi keyfiyyətləri ilə əlaqələndirilmir



***fait accompil*** **(fr.)** – həyata keçirilmiş, buna görə də müzakirə oluna bilməyən hərəkət

***faux pas*** **(fr.)** – kobud səhv (hərfən – səhv addım)

***fiduciary issue*** **(etibarlı buraxılış)** – qızıl təminatı olmayan pulların emissiyası

***inter alia*** **(lat.)** – başqa şeylərin arasında

***jus sanguinis*** **(lat. qan hüququ)** – qan qohumluğuna əsaslanan, (milliyət)

***jus soli*** **(lat. yer hüququ)** – doğum yerinə əsaslanan, (milliyət)

***laissez-faire*** **(fr.)** – dövlətin iqtisadi işlərə qarışmamaq siyasəti

***laissez-passnr*** **(fr.)** – müəyyən zonaya səyahətə və ya gəlməyə icazə

***lapsus linguae*** **(lat.)** – nitq səhvi

***modus vivendi*** **(lat. həyat tərzi, mövcudluq üsulu)** – fikir ayrılıqlarına baxmayaraq və yaxud mübahisə öz həllini tapana qədər bütün maraqlı tərəflərə fəaliyyətlərini davam etdirməyə imkan verən saziş

***orde du jour*** **(fr.)** – gündəlikdə duran məsələlər

***pacta sunt servanda*** **(lat. müqavilələrə əməl olunmalıdır)** – müqavilənin tərəflər arasında saziş olduğunu və onun şərtlərinə əməl olunmasının məcburi olduğunu göstərən hüquqi doktrinadır

***pari passu*** **(lat.)** – tədricən, müntəzəm şəkildə

***post mortem*** **(lat. ölümündən sonra)** – birinci növbədə gələcək üçün ibrət dərsi götürmək məqsədilə hadisənin analizi və ya öyrənilməsi

***prima facie*** **(lat. ilk baxışda, ilk görünüşdən)** – birbaşa mövcud olan sübutlar əsasında

***proces-verbale*** **(fr.)** – iclasın protokolu

***pronunciamieneto*** **(lat. tələffüz)** – adətən inqilabi çevrilişlələ əlaqədar olan bəyannamə və ya manifest

***proviso*** **(lat.)** – istisna

***quid pro quo*** **(lat.)** – digərinin yerinə verilən; kompensasiya

***quiproquo*** **(fr.)** – səhv başa düşmək; anlaşılmazlıq

*Əlavə 10*

## BMT-nin BAŞ KATİBLƏRİ

| Baş katib | Dövlət | Tarix |
|---|---|---|
| Türqve Li | Norveç | 1946-1953 |
| Daq Xammarşeld | İsveç | 1953-1961 |
| U Tan | Birma | 1961-1971 |
| Kurt Valdhaym | Avstriya | 1971-1981 |
| Xavyer Peres de Kuelyar | Peru | 1981-1991 |
| Butros Butros Qali | Misir | 1991-1997 |
| Kofi Annan | Qana | 1997 |



*Əlavə 11*

## BƏZİ DÜNYA ÖLKƏLƏRİNİN İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏN SONRAKI RƏHBƏRLƏRİ

**ABŞ: Prezidentlər**

| Hakimiyyətdə olduğu illər | Adı və soyadı | Partiyalılığı |
|---|---|---|
| 1945-1953 | Harri S.Trumen | Demokrat |
| 1953-1961 | Duayt D. Eyzenhauer | Respublikaçı |
| 1961-1963 | Con F.Kennedi | Demokrat |
| 1963-1969 | Lindon B. Conson | Demokrat |
| 1969-1974 | Riçard Nikson | Respublikaçı |
| 1974-1977 | Cerald Ford | Respublikaçı |
| 1977-1981 | Cimmi Karter | Demokrat |
| 1981-1989 | Ronald Reyqan | Respublikaçı |
| 1989-1993 | Corc Buş (ata) | Respublikaçı |
| 1993-2001 | Bill Klinton | Demokrat |
| 2001- | Corc Buş (oğul) | Respublikaçı |

**Almaniya Federativ Respublikası: Kanslerlər**

| Hakimiyyətdə olduğu illər | Adı və soyadı | Partiyalılığı |
|---|---|---|
| 1949-1963 | Konrad Adenauer | Xristian-demokrat |
| 1963-1966 | Lüdviq Erxard | Xristian-demokrat |
| 1966-1969 | Kurt Kizinger | Xristian-demokrat |
| 1969-1974 | Villi Brandt | Sosial-demokrat |
| 1974-1982 | Helmut Şmidt | Sosial-demokrat |
| 1982-1998 | Şhelmut Kol | Xristian-demokrat |
| 1998- | Herxard Şreder | Sosial-demokrat |

**Böyük Britaniya: Baş nazirlər**

| Hakimiyyətdə olduğu illər | Adı və soyadı | Partiyalılığı |
|---|---|---|
| 1945-1951 | Klement Etli | Leyborist |
| 1951-1955 | Uinston Çörçill | Konservator |
| 1955-1957 | Entoni İden | Konservator |

| | | |
|---|---|---|
| 1957-1963 | Harold Makmillan | Konservator |
| 1963-1964 | Alek Duqlas-Xaum | Konservator |
| 1964-1970 | Harold Uilson | Leyborist |
| 1970-1974 | Edvard Xit | Konservator |
| 1974-1976 | Harold Uilson | Leyborist |
| 1976-1979 | Ceyms Kallaqan | Leyborist |
| 1979-1990 | Marqaret Tetçer | Konservator |
| 1990-1997 | Con Meycor | Konservator |
| 1997- | Toni Bler | Leyborist |

**Çin: Kommunist partiyasının liderləri**

| Hakimiyyətdə olduğu illər | Adı və soyadı |
|---|---|
| 1935-1976 | Mao Tsedun |
| 1976-1981 | Xua Quofen |
| 1981-1987 | Xu Yaoban |
| 1987-1989 | Çjao Dziyanq |
| 1989- | Tszyan Tszemin |

**Fransa: Beşinci respublikanın prezidentləri və baş-nazirləri**

| Hakimiyyətdə olduğu illər | Adı və soyadı | Partiyalılığı |
|---|---|---|
| **Prezidentlər** | | |
| 1959-1969 | General Şarl de Qoll | Qollist |
| 1969-1974 | Jorj Pompidu | Qollist |
| 1974-1981 | Valeri Jiskar d'Eten | Respublikaçı/Fransa demokratiyasının İttifaqı |
| 1981-1995 | Fransua Mitteran | Sosialist |
| 1995- | Jak Şirak | Heoqollist |
| **Baş nazirlər** | | |
| 1959-1962 | Mişel Debre | Qollist |
| 1962-1968 | Joj Pompidu | Qollist |
| 1968-1969 | Moris Kuve de Murviy | Qollist |
| 1969-1972 | Jak Şaban Delma | Qollist |
| 1972-1974 | Pyer Messmer | Qollist |
| 1974-1976 | Jak Şirak | Qollist |
| 1976-1981 | Raymon Barre | Respublikaçı/Fransa demokratiyasının İttifaqı |



| | | |
|---|---|---|
| 1981-1984 | Pyer Marua | Sosialist |
| 1984-1986 | Loran Fabius | Sosialist |
| 1986-1988 | Jak Şirak | Neoqollist |
| 1988-1991 | Mişel Rokar | Sosialist |
| 1991-1992 | Edit Kresson | Sosialist |
| 1992-1993 | Pyer Bereqovoy | Sosialist |
| 1993-1995 | Eduard Bayadur | Neoqollist |
| 1995-1997 | Alen Yuppe | Neoqollist |
| 1997- | Lionel Jospen | Sosialist |

**Sovet İttifaqı/Rusiya: baş katibi/ Rusiya Federasiyasının prezidentləri**

| Hakimiyyətdə olduğu illər | Adı və soyadı |
|---|---|
| 1922-1953 | İosif Stalin |
| 1953-1964 | Nikita Xruşev |
| 1964-1982 | Leonid Brejnev |
| 1982-1984 | Yuriy Andropov |
| 1984-1985 | Konstantin Çernenko |
| 1985-1991 | Mixail Qorbaçev |
| 1990-2000 | Boris Yeltsin |
| 2000- | Vladimir Putin |

**Yaponiya: Baş nazirlər**

| Hakimiyyətdə olduğu illər | Adı və soyadı | Partiyalılığı |
|---|---|---|
| 1945-1946 | Kicuro Şidexara | Koalisiya |
| 1946-1947 | Şiqeru Yoşida | Liberal |
| 1947-1948 | Tetsu Katayama | Koalisiya |
| 1948 | Xitoşi Aşida | Demokrat |
| 1948-1954 | Şiqeru Yoşida | Liberal |
| 1954-1956 | İxiro Xatoyama | Liberal/liberal-demokrat |
| 1956-1957 | Tanzan İşibati | Liberal-demokrat |
| 1957-1960 | Nobusyuke Kisi | Liberal-demokrat |
| 1960-1964 | Xayata İkeda | Liberal-demokrat |
| 1964-1972 | Eisaku Sato | Liberal-demokrat |
| 1972-1974 | Kakuei Tanaka | Liberal-demokrat |
| 1974-1976 | Takeo Miki | Liberal-demokrat |
| 1976-1978 | Takeo Fukuda | Liberal-demokrat |

| | | |
|---|---|---|
| 1978-1980 | Masayosi Oxira | Liberal-demokrat |
| 1980-1982 | Zenko Suzuki | Liberal-demokrat |
| 1982-1987 | Yasuxiro Nakasone | Liberal-demokrat |
| 1987-1989 | Noboru Takesita | Liberal-demokrat |
| 1989- | Sosuke Uno | Liberal-demokrat |
| 1989-1991 | Toşiki Kayfu | Liberal-demokrat |
| 1991-1993 | Kiixi Miyadzava | Liberal-demokrat |
| 1993-1994 | Morixiro Xosokava | Yeni Yaponiya/koalisiya |
| 1994 | Tsutomi Xata | Sinseyto/koalisiya |
| 1994-1996 | Tomixi Muryama | Sosial-demokrat/koalisiya |
| 1996-1998 | Ryutaro Xasimoto | Liberal-demokrat |
| 1998 | Keydzo Obuşi | Liberal-demokrat |



*Əlavə 12*

## ÖLKƏLƏRİN MƏNSUBİYYƏTİNİ XARAKTERİZƏ EDƏN TANINMA İŞARƏLƏRİ

| № | Ölkənin adı | Tanınma işarəsi |
|---|---|---|
| 1 | 2 | 3 |
| 1 | Avstriya | A |
| 2 | Avstraliya | AUS |
| 3 | Almaniya | D |
| 4 | Amerika Birləşmiş Ştatları | USA |
| 5 | Argentina | RA |
| 6 | Azərbaycan | AZ |
| 7 | Belçika | B |
| 8 | Birma | BA |
| 9 | Bolqarıstan | BG |
| 10 | Braziliya | BR |
| 11 | Venesuela | YV |
| 12 | Vyetnam | VN |
| 13 | Qvatemala | G |
| 14 | Danimarka | DK |
| 15 | Ekvador | EQ |
| 16 | İndoneziya | Rİ |
| 17 | İngiltərə və İrlandiya krallığı | GB |
| 18 | İrak | İRQ |
| 19 | İran | İR |
| 20 | İrlandiya | EİR |
| 21 | İsveç | S |
| 22 | İsveçrə | CH |
| 23 | İslandiya | İS |
| 24 | İspaniya | E |
| 25 | İsrail | İL |
| 26 | Yamayka | YA |
| 27 | Yunanıstan | GR |
| 28 | Kanada | CDN |
| 29 | Kolumbiya | CO |
| 30 | Kuba | C |
| 31 | Liviya | RL |

| | | |
|---|---|---|
| 32 | Lixtenşteyn krallığı | FL |
| 33 | Lüksenburq | L |
| 34 | Malta | GBY |
| 35 | Macarıstan | H |
| 36 | Meksika | MEX |
| 37 | Misir | ET |
| 38 | Monako | MC |
| 39 | Nikaraqua | NİC |
| 40 | Norveç | N |
| 41 | Pakisitan | PAK |
| 42 | Panama | PA |
| 43 | Paraqvay | PY |
| 44 | Peru | PE |
| 45 | Polşa | PL |
| 46 | Portuqaliya | P |
| 47 | Suriya | SYR |
| 48 | Tailand | T |
| 49 | Türkiyə | TR |
| 50 | Uruqvay | U |
| 51 | Filippin | PL |
| 52 | Finlandiya | SF |
| 53 | Fransa | F |
| 54 | Haiti | RH |
| 55 | Hindistan | İND |
| 56 | Hollandiya | NL |
| 57 | Çili | RCH |
| 58 | Çin | RC |
| 59 | Cənubi Afrika ölkələri | ZA |



*Əlavə 13*

## DÜNYA ÖLKƏLƏRİNİN ƏRAZİSİ, ƏHALİSİ VƏ PAYTAXTLARI

| ÖLKƏLƏRİN ADI | ƏRAZİ (km$^2$) | ƏHALİ (Min nəfər) | PAYTAXT |
|---|---|---|---|
| | **AVROPA** | | |
| Albaniya | 28748 | 3 330 750 | Tirana |
| Almaniya | 356733 | 82 079 500 | Berlin |
| Andorra | 468 | 64 716 | Andorra-La-Vel |
| Avstriya | 83859 | 8 133 600 | Vyana |
| Azərbaycan | 86 600 | 7 855 600 | Bakı |
| Belarus | 207 600 | 10 409 050 | Minsk |
| Belçika | 30519 | 10 174 900 | Brüssel |
| Bolqarıstan | 110912 | 8 240 426 | Sofiya |
| Bosniya və Herseqo-vina | 51 129 | 3 365 700 | Sarayeva |
| Böyük Britaniya | 244111 | 58 970 100 | London |
| Çexiya | 78864 | 10 286 500 | Praqa |
| Danimarka | 43069 | 5 333 600 | Kopenhagen |
| Ermənistan | 29800 | 3 421 800 | Yerevan |
| Estoniya | 45 100 | 1 421 300 | Tallin |
| Farer adaları | 1 398,8 | 41 834 | Torsxvan |
| Finlandiya | 338 145 | 5 149 200 | Helsinki |
| Fransa | 543 965 | 58 805 000 | Paris |
| Gürcüstan | 69700 | 5 108 500 | Tibilisi |
| Xorvatiya | 56538 | 4 671 600 | Zaqreb |
| İrlandiya | 70283 | 3 619 500 | Dublin |
| İslandiya | 103 000 | 271 000 | Reykyavik |
| İspaniya | 504 750 | 39 134 000 | Madrid |
| İsveç | 449 964 | 8 886 700 | Stokholm |
| İsveçrə | 41290 | 7 260 300 | Bern |
| İtaliya | 301 302 | 56 782 750 | Roma |
| Hibraltar | 6,5 | 29 045 | Hibraltar |
| Latviya | 64500 | 2 385 400 | Riqa |
| Lixtenşteyn | 160 | 31 717 | Vaduts |
| Litva | 65200 | 3 600 100 | Vilnüs |
| Lükesemberq | 2586 | 425 000 | Lüksemburq |
| Macarıstan | 93030 | 10 208 100 | Budapeşt |
| Makedoniya | 25713 | 2 009 400 | Skopye |

| | | | |
|---|---|---|---|
| Malta | 316,3 | 379 500 | Valletta |
| Moldova | 33700 | 4 457 700 | Kişinyov |
| Monako | 1,95 | 32 035 | Monako |
| Niderland | 41526 | 15 731 100 | Amsterdam |
| Norveç | 323 877 | 4 420 000 | Oslo |
| Polşa | 312677 | 38 606 900 | Varşava |
| Portuqaliya | 92082 | 9 927 550 | Lissabon |
| Rumıniya | 237 500 | 22 395 800 | Buxarest |
| Rusiya | 17075200 | 146 861000 | Moskva |
| San-marino | 61 | 24 900 | San-Marino |
| Slovakiya | 49035 | 5 393 000 | Bratislava |
| Sloveniya | 20254 | 1 971 750 | Lyublyana |
| Ukrayna | 603 700 | 50 125 100 | Kiyev |
| Vatikan | 0,44 | 1 000 | Vatikan |
| Yuqoslaviya | 102 173 | 11 206 000 | Belqrad |
| Yunanıstan | 131 957 | 10 662 100 | Afina |
| **ASİYA** | | | |
| Banqladeş | 143 998 | 12 756700 | Dakka |
| Bəhreyn | 622 | 616 300 | Manama |
| Birləşmiş Ərəb Əmir-likləri | 77 700 | 2 303 000 | Əbu-Dabi |
| Bruney | 5 765 | 315 300 | Bandar-Seri-Beq |
| Butan | 47 000 | 1 908 300 | Tximpxu |
| Çin | 9 571 300 | 1236914600 | Pekin |
| Əfqanıstan | 647 600 | 24792 400 | Kabil |
| Filippin | 300 000 | 67114 000 | Manila |
| Hindistan | 3 165 596 | 984003700 | Dehli |
| İndoneziya | 1 919 443 | 212941800 | Cakarta |
| İordaniya | 86 556 | 4 435 000 | Amman |
| İraq | 434 924 | 21722 300 | Bağdad |
| İran | 1648 000 | 68960 000 | Tehran |
| İsrail | 21 596 | 5 643 400 | Qüds |
| Kampuçiya | 181 035 | 11339 500 | Pnompen |
| Kipr | 9 251 | 749 000 | Nikosiya |
| Koreya Respublikassı | 98 480 | 46416 800 | Seul |
| Küveyt | 17 818 | 1 913 300 | Küveyt |
| Qatar | 11 437 | 697 100 | Doxa |
| Qazaxıstan | 2717 300 | 16846 800 | Astana |
| Qırğızıstan | 198 500 | 4 522 300 | Bişkək |
| Laos | 236 800 | 5 260 800 | Vyentyan |



| | | | |
|---|---|---|---|
| Livan | 10 400 | 3 505 800 | Beyrut |
| Malayziya | 329 758 | 20932 900 | Kuala-Lumpur |
| Maldiv | 298 | 290 200 | Male |
| Monqolustan | 1 565 000 | 2 578 530 | Ulan-Bator |
| Myanma | 676 552 | 47 305 300 | Yanqon |
| Nepal | 140 797 | 23 698 400 | Katmandu |
| Oman | 212 457 | 2 363 600 | Maskat |
| Özbəkistan | 447 400 | 23 784 300 | Daşkənd |
| Pakistan | 796 095 | 135 135200 | İslamabad |
| Səudiyyə Ərəbistanı | 2 240 000 | 20 786 000 | Ər-Riyad |
| Sinqapur | 640 | 3 490 350 | Sinqapur |
| Suriya | 185 050 | 16 673 300 | Dəməşq |
| Şimali koreya | 120 538 | 21 234 400 | Pxenyan |
| Şri-lanka | 65 610 | 18 933 500 | Kolombo |
| Tacikistan | 143 100 | 6 020 000 | Düşənbə |
| Tailand | 513 115 | 60 037 300 | Banqkok |
| Tayvan | 36 000 | 21 908 000 | Taybey |
| Türkiyə | 779 452 | 64 566 500 | Ankara |
| Türkmənistan | 448 100 | 4 297 600 | Aşqabat |
| Vyetnam | 329 707 | 76 236 200 | Hanoy |
| Yaponiya | 377 688 | 125 931500 | Tokio |
| Yəmən | 527 970 | 16 388 000 | Sana |
| **AFRİKA** | | | |
| Anqola | 1 246 700 | 10 864 500 | Luanda |
| Benin | ? | 6 100 800 | Porto-Novo |
| Botsvana | 600 372 | 1 448 450 | Qaborone |
| Burkina-Faso | 274 200 | 11 266 400 | Uaqaduqu |
| Burundi | 27 834 | 5 537400 | Bujumbura |
| Cənubi Afrika Respub-likası | 1 223 201 | 42 834 500 | Pretoriya |
| Cibuti | 23 200 | 440 700 | Cibuti |
| Çad | 1 284 000 | 7 359 500 | Ncamena |
| Efiopiya | 1 130 000 | 58 390 350 | Addis-Abeba |
| Ekvatorial Qvineya | 28 051 | 454 000 | Malabo |
| Eritreya | 121 144 | 3 842 400 | Asmera |
| Əlcəzair | 2 381 741 | 30 480 800 | Əlcəzair |
| Kabo-verde | 4 033 | 399 850 | Praya |
| Kamerun | 475 442 | 15 029 400 | Yaunde |
| Keniya | 582 646 | 28 337 100 | Nayrobi |
| Komor adaları | 2 236 | 545 500 | Moroni |

| | | | |
|---|---|---|---|
| Konqo | 342 002 | 2 658 100 | Brazzavil |
| Konqo Demokratik Respublikası | 2 344 885 | 49 000 500 | Kinşasa |
| Kot-d İvuar | 322 462 | 15 446 200 | Yamusukro |
| Qabon | 267 667 | 1 207 800 | Librevil |
| Qambiya | 11 295 | 1 291 850 | Banjul |
| Qana | 238 537 | 18 497 200 | Akkra |
| Qvineya | 245 857 | 7 477 100 | Konakri |
| Qvineya-bisau | 36 125 | 1 206 300 | Bisau |
| Lesoto | 30 335 | 2 089 800 | Maseru |
| Liberiya | 99 067 | 2 771 900 | Monroviya |
| Liviya | 1 759 540 | 5 690 700 | Tripoli |
| Madaqaskar | 587 041 | 14 462 500 | Antananarivu |
| Malavi | 118 484 | 9 840 500 | Lilonqve |
| Mali | 1 240 192 | 10 108 600 | Bamako |
| Mavrikiy | 2 040 | 1 168 300 | Port-Lui |
| Mavritaniya | 1 030 700 | 2 511 500 | Nuakşot |
| Mərakeş | 446 550 | 29 114 500 | Rabat |
| Mərkəzi Afrika Respublikası | 622 436 | 3 375 800 | Banqi |
| Misir | 1 001 450 | 66 050 000 | Qahirə |
| Mozambik | 799 380 | 18 641 500 | Maputu |
| Namibiya | 824 268 | 1 622 300 | Vindxuk |
| Niqer | 1 267 000 | 9 671 800 | Niamey |
| Niqeriya | 923 768 | 110 532200 | Laqoc |
| Ruanda | 26 338 | 7 956 200 | Kiqali |
| San-tome və Prinsipi | 1 001 | 150 100 | San-Tome |
| Seneqal | 196 722 | 9 723 100 | Dakar |
| Seyşel adaları | 455 | 78 650 | Viktoriya |
| Somali | 637 657 | 6 841 700 | Moqadişo |
| Sudan | 2 505 813 | 33 550 500 | Xartum |
| Svazilend | 17 363 | 966 500 | Mbabane |
| Syerra-leone | 71 740 | 5 080 000 | Fritaun |
| Tanzaniya | 945 087 | 30 608 700 | Dar-es-Salam |
| Toqo | 56 785 | 4 905 900 | Lome |
| Tunis | 163 610 | 9 380 400 | Tunis |
| Uqanda | 241 139 | 22 167 200 | Kmpala |
| Zambiya | 752 614 | 9 460 700 | Lusaka |
| Zimbabve | 390 759 | 11 044 100 | Xarare |



| ŞİMALİ VƏ MƏRKƏZİ AMERİKA | | | |
|---|---|---|---|
| Amerika Birləşmiş Ştatları | 9 666 861 | 270312 000 | Vaşinqton |
| Anqilya | 91 | 11 147 | Valli |
| Antiqua və barbuda | 443 | 64 000 | Sent-Cons |
| Antil adaları | 800 | 205 693 | Villemstad |
| Aruba | 193 | 68 325 | Oranyestad |
| Baham adaları | 13 935 | 279 800 | Nassau |
| Barbaross | 431 | 259 025 | Brictaun |
| Beliz | 22 965 | 230 100 | Belmopan |
| Bermud adaları | 53 | 62 000 | Hamilton |
| Dominika | 751 | 65 800 | Rozo |
| Dominikan Respublikası | 48 734 | 7 998 800 | Santo-Dominqo |
| Haiti | 27 750 | 6 780 500 | Port-o-Prens |
| Kanada | 9 970 610 | 30 675 400 | Ottava |
| Kayman adaları | 259 | 37 716 | Corctaun |
| Kosta-rika | 51 060 | 3 604 600 | San-Xose |
| Kuba | 114 524 | 11 050 700 | Havana |
| Qonduras | 111 888 | 5 862 000 | Tequsiqalpa |
| Qrenada | 344 | 96 200 | Sent-Corces |
| Qrenlandiya | 2 175 600 | 59 300 | Nuuk |
| Qvatemala | 108 889 | 12 007 500 | Qvatemala |
| Meksika | 1 958 201 | 98 552 700 | Mexiko |
| Montserrat | 102 | 12 828 | Plimut |
| Nikaraqua | 130 000 | 4 583 400 | Manaqua |
| Panama | 77 082 | 2 735 900 | Panama |
| Salvador | 21 041 | 5 752 000 | San-Salvador |
| Sen-Pyer və Mikelon | 242 | 6 914 | Sen-Pyer |
| Sent-Kits və Nevis | 267 | 42 300 | Baster |
| Sent-Lüsiya | 616 | 152 300 | Kastri |
| Sent-Vinset və Qrenadina | 388 | 119 800 | Kinqstaun |
| Trinidad V Tobaqo | 5 130 | 1 116 600 | Port-of-Speyn |
| Virqin adaları (ABŞ) | 355 | 118 211 | Şarlotta-Amali |
| Virqin adaları (Britaniya) | 153 | 18 705 | Rod-Taun |
| Yamayka | 10 991 | 2 634 700 | Kinqston |
| CƏNUBİ AMERİKA | | | |
| Argentina | 2 766 889 | 36 265 500 | Buenos-Ayres |

| | | | |
|---|---|---|---|
| Boliviya | 1 098 581 | 7 826 300 | Sukre |
| Braziliya | 8 511 965 | 169 806500 | Brazilia |
| Çili | 756 945 | 14 787 800 | Santyaqo |
| Ekvador | 272 045 | 12 336 600 | Kito |
| Kolumbiya | 1 141 748 | 35 101 000 | Boqota |
| Qayana | 214 969 | 708 000 | Corctaun |
| Paraqvay | 406 752 | 5 291 000 | Asunsyon |
| Peru | 1 280 000 | 26 111 100 | Lima |
| Surinam | 163 265 | 428 000 | Paramaribo |
| Uruqvay | 176 215 | 3 284 800 | Montevideo |
| Venesuela | 912 050 | 22 803 400 | Karakas |
| **AVSTRALİYA VƏ OKEANİYA** | | | |
| Avstraliya | 7 682 292 | 18 613 000 | Kanberra |
| Fici | 18 274 | 802 600 | Suva |
| Kiribati | 730 | 83 976 | Bayriki |
| Kuk adaları | 240 | 19 989 | Avarua |
| Qərbi Samoa | 2 842 | 224 700 | Apia |
| Aquam | 549 | 148 060 | Aqanya |
| Marşal adaları | 181 | 63 000 | Macuro |
| Mikroneriya | 702 | 129 650 | Palikir |
| Nauru | 21 | 10 500 | Yaren |
| Palau | 458 | 18 100 | Koror |
| Papua-Yeni Qvineya | 462.840 | 4 599 800 | Port-Morsbi |
| Polineziya | 4 200 | 237 844 | Papeete |
| Solomon adaları | 27 556 | 441 000 | Xoniara |
| Şərqi Samoa | 195 | 62 093 | Paqo-Paqo |
| Şərqi Timor | 15 000 | 800 | Dili |
| Şimali Marian adaları | 475 | 66 561 | Saypan |
| Tonqa | 748 | 108 000 | Nukualofa |
| Tuvalu | 26 | 10 400 | Fonqafale |
| Vollis və Futuna adaları | 274 | 14 974 | Mata-Utu |
| Vanuatu | 14 763 | 185 200 | Port-Vila |
| Yeni zelandiya | 270 534 | 3 625 400 | Vellinqton |



*Əlavə 14*

## BİR SIRA ÖLKƏLƏRDƏ TƏTBİQ OLUNAN BƏZİ UZUNLUQ, SAHƏ, ÇƏKİ VƏ HƏCM VAHİDLƏRİ

| № | Ölçü vahidinin adı | Tətbiq olunan ölkə və obyektin adı | İfadə vasitəsi |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 1 | AKR | ABŞ, Böyük Britaniya | 0,404686 ha |
| 2 | Anker | AFR | 34-35 l. |
| | | Böyük Britaniya: | 45,44 l. |
| 3 | Barrel | Argentina | 76 l. |
| | | Böyük Britaniya: | 181,7 l. |
| | | adi ölçmələr üzrə: | |
| | | - inək yağı | 101,6 kq. |
| | | - un | 88,9 kq |
| | | - pivə | 163,6 l. |
| | | ABŞ: | |
| | | - mayelər | 158,98 l. |
| | | - səpələnə bilən | |
| | | toz, dənəvər və s. | |
| | | şəklində olan maddə. | 115,6 l. |
| | | - xam neft | 139,07 – 151,41 kq |
| | | - benzin | 116,2 kq. |
| | | - kerosin | 125,74 kq. |
| | | - şərab | 117,9 kq. |
| | | - qarğıdalı | 127 kq. |
| | | - ət | 90,72 kq. |
| 4 | Qalon | Argentina | 3,80 l. |
| | | Kuba, ABŞ: | |
| | | - bal | 5,443 kq. |
| | | - zeytun yağı | 3,447 kq. |
| | - pruf qalon | Böyük Britaniya: | |
| | | - spirt | 2,594 l. |
| 5 | Dirhəm | Misir, Sudan | 3,18 q. |
| 6 | Kvadrat yard | ABŞ, Böyük Britaniya | 0,836172 dm |
| 7 | Kvadrat dyüm | ABŞ, Böyük Britaniya | 6,4116 sm |
| 8 | Kvarta | Böyük Britaniya: | |
| | | - pivə | 0,946353 l. |

| | | | |
|---|---|---|---|
| | | AFR: | |
| | | - pivə | 2,198 l. |
| | | ABŞ: | |
| | | - şərab və neft | 0,946353 l. |
| 9 | KİP | Avstraliya: | |
| | | - yun | 149,7 kq. |
| | | Braziliya: | |
| | | - pambıq | 180 kq. |
| | | AFR: | |
| | | - kağız | 10000 vərəq |
| | | ABŞ: | |
| | | - pambıq | 226,8 kq. |
| | | - kağız | 136 kq. |
| 10 | Lot | AFR | 16,67 q. |
| 11 | Kisə | Braziliya: | |
| | | - kofe, kakao | 60 kq. |
| | | - qarğıdalı, düyü | 58 kq. |
| | | - şəkər | 50 kq. |
| | | - pambıq | 80 kq |
| | | ABŞ: | |
| | | - sement | 42,6 kq. |
| 12 | Yard | ABŞ, Kanada | |
| | | Böyük Britaniya | 91,44 sm. |
| 13 | Yeşik | Belçika, | |
| | | Böyük Britaniya: | |
| | | - kibrit | 1000 qutu |
| | | - çay | 38,1 kq. |
| | | - yumurta | 360 ədəd |



*Əlavə 15*

## VALYUTALARIN TƏSNİFATI

| Valyutanın kodu | | Valyutaların Adı | Ölkələrin adı |
|---|---|---|---|
| Rəqəmli | Hərfi | | |
| 1 | 2 | 3 | 4 |
| 004 | AFA | Əfqani | Əfqanıstan |
| 008 | ALL | Lek | Albaniya |
| 012 | DZD | Əlcəzair dinarı | Əlcəzair |
| 020 | ADP | Andorra peseti | Andorra |
| 024 | AON | Yeni Kvanza | Anqola |
| 031 | AZM | Azərbaycan manatı | Azərbaycan |
| 032 | ARS | Argentina pesosu | Argentina |
| 036 | AUD | Avstraliya dolları | Avstraliya, Kiribati, Kokos (Kilinq) adaları, Nauru, Norfolk, adası Milad adası, Tuvalu. Xerd və Madonald adaları |
| 040 | ATS | Şillinq | Avstriya |
| 044 | BSD | Baham dolları | Baham adaları |
| 048 | BHD | Bəhreyn dinarı | Bəhreyn |
| 050 | BDT | Taka | Banqladeş |
| 051 | AMD | Erməni qrammı | Ermənistan |
| 052 | BBD | Barbados dolları | Barbados |
| 056 | BEF | Belçika frankı | Belçika |
| 060 | BMD | Bermud dolları | Bermud adaları |
| 064 | BTN | Nqultrum | Butan |
| 068 | BOB | Boliviano | Boliviya |
| 072 | BWP | Pula | Bostvana |
| 084 | BZD | Beliz dolları | Beliz |
| 090 | SBD | Solomon adaları dolları | Solomon adaları |
| 096 | BND | Bruney dolları | Burney Darüssəlam |
| 100 | BGL | Lev | Bolqarıstan |
| 104 | MMK | Kyat | Myanma (Birma) |
| 108 | BİF | Burundi frankı | Burundu |
| 112 | BXB | Belarus rublı | Belarus |
| 116 | KHR | Riel | Kamboça |

| | | | |
|---|---|---|---|
| 124 | CAD | Kanada dolları | Kanada |
| 132 | CVE | Kabo-Verde eskudosu | Kabo-Verde |
| 136 | KYD | Kayman adaları dolları | Kaymvn adaları |
| 144 | LKR | Şri-Lanka rupisi | Şri-Lanka |
| 152 | CLD | Çili pesosu | Çili |
| 156 | CNY | Çin yuanı | Çin |
| 170 | COP | Kolumbiya pesosu | Kolumbiya |
| 174 | KMF | Komor adaları frankı | Komor adaları |
| 180 | ZRD | Yeni Zair | Zair |
| 188 | CRC | Kostarika kolonu | Kosta-Rika |
| 191 | HRD | Xorvat dinarı | Xorvatiya |
| 192 | CUP | Kuba pesosu | Kuba |
| 196 | CYP | Kipr funtu | Kipr |
| 200 | CZK | Çex kronu | Çexiya |
| 208 | DKK | Danimarka kronu | Qrenlandiya, Danimarka, Farer adaları |
| 214 | DOP | Dominikan pesosu | Dominikan Respublikası |
| 218 | ECS | Sukre | Ekvador |
| 222 | SVC | Salvador kolonu | Salvador |
| 230 | ETB | Efiopiya bırı | Efiopiya |
| 233 | EEK | Krona | Estoniya |
| 238 | FKR | Folklend adaları funtu | Folklend (Malvin) adaları |
| 242 | FJD | Fici dolları | Fidci |
| 246 | FİM | Marka | Finlandiya |
| 250 | FRF | Fransız frankı | Fndorra, Qvadelupa, Martinik, Monako, Reyunon, Sen-Pyer və Mikelon, Fransa Qvianası, Fransız Cənub Əraziləri |
| 262 | DJF | Cibuti frankı | Cibuti |
| 268 | GEK | Gürcü larisi | Gürcüstan |
| 270 | GMD | Dalasi | Qambiya |
| 276 | DEM | Alman markası | Almaniya |
| 288 | GHC | Sedi | Qana |
| 292 | GİP | Cəbəllüttariq funtu | Cəbəllüttariq |
| 300 | GRD | Draxma | Yunanıstan |
| 320 | GTQ | Ketsal | Qvatemala |
| 324 | GNF | Qvineya frankı | Qvineya |
| 328 | GYD | Qayana dolları | Qayana |
| 332 | HTG | Qurd | Haiti |



| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 340 | HNL | Lempira | Honduras |
| 344 | HKD | Honkonq dolları | Honkonq |
| 348 | HUF | Forint | Macarıstan |
| 352 | İSK | İsland kronu | İslandiya |
| 356 | İNR | Hindistan rupisi | Butan, Hindistan |
| 360 | İDR | Rupi | Şərqi Timor, İndoneziya |
| 364 | İRR | İran rialı | İran İslam respublikası |
| 368 | İQD | İraq dinarı | İraq, (Səudiyyə Ərəbistanı ilə İraq ar-da neytral zona) |
| 372 | İEP | İrland funtu | İrlandiya |
| 376 | İLS | Şekel | İsrail |
| 380 | İTL | İtaliya lirəsi | Vatikan, (dövlət-şəhərləri), İtaliya, San-Marino |
| 388 | JMD | Yamayka dolları | Yamayka |
| 392 | JPY | Yen | Yaponiya |
| 398 | KZT | Təngə (qazax) | Qazaxıstan |
| 400 | JOD | İordaniya dinarı | İordaniya |
| 404 | KES | Keniya şillinqi | Keniya |
| 408 | KPW | Şimali Koreya vonu | Koreya Xalqı Demokratik Respublikası |
| 410 | KRW | Von | Koreya respublikası |
| 414 | KWD | Küveyt dinarı | Küveyt, Neytral zona (Səudiyyə Ərəbistanı və İraq arasında) |
| 417 | KGS | Som (Qırğız) | Qırğızıstan |
| 418 | LAK | Kip | Laos Xalq Demokratik Respublikası |
| 422 | LBP | Livan funtu | Livan |
| 426 | LSL | Loti | Lesoto |
| 428 | LVL | Latviya latı | Latviya |
| 430 | LRD | Liberiya dolları | Liberiya |
| 7434 | LYD | Liviya dinarı | Liviya Ərəb Cəmahiriyyəsi |
| 440 | LTL | Litva liti | Litva |
| 442 | LUF | Lüksenburq frankı | Lüksenburq |
| 446 | MOP | Pataka | Makao |
| 450 | MGF | Malaqasiya frankı | Madaqaskar |
| 454 | MWK | Malavi kvaçası | Malavi |
| 458 | MYR | Malayziya rinqqiti | Malayziya |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 462 | MVR | Rufiya | Maldiv |
| 470 | MTL | Malta lirəsi | Malta |
| 478 | MRO | Uqiya | Mavritaniya |
| 480 | MUR | Mavriki rupisi | Mavriki |
| 484 | MXH | Meksika yeni pesosu | Meksika |
| 496 | MNT | Tuqrik | Monqolustan |
| 498 | MDL | Moldav leyi | Moldova |
| 504 | MAD | Mərakeş dirhəmi | Mərakeş, Qərbi Səhra |
| 508 | MZM | Metikal | Mozambik |
| 512 | OMR | Oman rialı | Oman |
| 516 | NAD | Nambiya dolları | Nambiya |
| 524 | NPR | Nepal rupisi | Nepal |
| 528 | NLG | Niderland quldeni | Niderland (Hollandiya) |
| 532 | ANG | Niderland antil quldeni | Niderland Antil adaları |
| 533 | AWG | Aruba quldeni | Aruba |
| 548 | VUV | Vatu | Vanuatu |
| 554 | NZD | Yeni Zelandiya dolları | Niue, Yeni Zelandiya, Kuk adaları, Pitkern adası, Tokelau |
| 558 | NİO | Qızıl kordoba | Nikaraqua |
| 566 | NGN | Nayra | Niqeriya |
| 578 | NOK | Norveç kronu | Buve Adası, Norveç, Svalbard (Şpitsbergen) və Yan Mayen adaları |
| 586 | PKR | Pakistan rupisi | Pakistan |
| 590 | PAB | Balboa | Panama |
| 598 | PGK | Kina | Papua-Yeni Qvineya |
| 600 | PVG | Quarani | Paraqvay |
| 604 | PEN | Yeni sol | Peru |
| 608 | PHP | Filippin pesosu | Filippin |
| 616 | PLZ | Zlotı | Polşa |
| 620 | PTE | Portuqal eskudosu | Portuqaliya |
| 624 | GWP | Qviney-Bisau pesosu | Qvineya-Bisau |
| 626 | TPE | Timor eskudosu | Şərqi Timor |
| 634 | QAR | Katar rialı | Katar |
| 642 | ROL | Ley | Rumıniya |
| 643 | RUR | Rusiya rublu | Rusiya Federasiyası |
| 646 | RWF | Ruanda frankı | Ruanda |



| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 654 | SHP | Müqəddəs Yelena Adası funtu | Müqəddəs Yelena Adası |
| 678 | STD | Dobra | San-Tome və Prinsipi |
| 682 | SAR | Səudiyyə rialı | Səudiyyə Ərəbistanı, Neytral zona (Səudiyyə Ərəbistanı və İraq arasında ərazi) |
| 690 | SCR | Seyşel rupisi | Seyşel adaları |
| 694 | SLL | Leone | Syerra Leone |
| 702 | SGD | Sinqapur dolları | Sinqapur |
| 703 | SKK | Slovak kronu | Slovakiya |
| 704 | VND | Donq | Vyetnam |
| 705 | SİT | Tolar | Sloveniya |
| 706 | SOS | Somali şillinqi | Somali |
| 710 | ZAR | Rend | Lesoto, Namibiya, Cənubi Afrika |
| 716 | ZWD | Zimbabve dolları | Zimbabve |
| 724 | ESP | İspan peseti | Andorra, İspaniya |
| 726 | SDD | Sudan dinarı | Sudan |
| 740 | SRG | Surinam quldeni | Surinam |
| 748 | SZL | Lilanqeni | Svazilend |
| 752 | SEK | İsveç kronu | İsveç |
| 756 | CHF | İsveçrə frankı | Lixtenşteyn, İsveçrə |
| 760 | SYP | Suriya funtu | Suriya Ərəb Respublikası |
| 762 | TJR | Tacik rublu | Tacikistan |
| 764 | THB | Bat | Tailand |
| 776 | TOP | Paanta | Tonqa |
| 780 | TTD | Trinidad və Tobaqo dolları | Trinidad və Tobaqo |
| 784 | AED | Dirhəm (BƏƏ) | Birləşmir Ərəb Əmirlikləri (BƏƏ) |
| 788 | TND | Tunis dinarı | Tunis |
| 792 | TRL | Türkiyə lirəsi | Türkiyə |
| 795 | TMM | Manat | Türkmənistan |
| 800 | UGS | Uqanda şillinqi | Uqanda |
| 807 | MKD | Dinar | Makedoniya |
| 810 | RUR | Rusiya rublu | Rusiya Federasiyası |
| 818 | EGP | Misir funtu | Misir |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 826 | GBP | Funt sterlinq | Birləşmiş Krallıq (Böyük Britaniya) |
| 834 | TZS | Tanzaniya şillinqi | Tanzaniya Respublikası |
| 840 | USD | ABŞ dolları | Amerika Samoası, Hind okeanında Britaniya ərazisi, Virgin Adaları, (Britaniya), Virgin Adaları (ABŞ), Haiti, Quam, Kiçik uzaq Sakit Okean Adaları (ABŞ), Marşal Adaları, Mikroneziya, Palau, Panama, Puerto-Riko, Şimali Marian adaları, Amerika Birləşmiş Ştatları (ABŞ), Terks və Kaykos adaları. |
| 858 | UYP | Uruqvay pesosu | Uruqvay |
| 860 | UZS | Özbək sumu | Özbəkistan |
| 862 | VEB | Bolivar | Venesuela |
| 882 | WST | Tala | Samoa |
| 886 | YER | Yəmən rialı | Yəmən |
| 890 | YUN | Yuqoslaviya dinarı | Yuqoslaviya |
| 894 | ZMK | Kvaça (Zambiya) | Zambiya |
| 901 | TWD | Yeni Tayvan dolları | Tayvan, Çinin Əyaləti |
| 950 | XAF | KFA VEAS frankı | Qabon, Kamerun, Konqo, Mərkəzi Afrika respublikası, Çad, Ekvatorial |
| 951 | XSD | Şərqi-Karib dolları | Qvineya, Cənubi Afrika Respubl. Antil, Antiqua və Barbuda, Qrenada, Dominika, Monqserrat, Sent-Kits və Nevis, Sent-Lyuis |
| 952 | XOF | KFA VSEAO frankı | Benin, Burkina-Faso, Kot divuar, Mali, Niger, Seneqal, Toqo |
| 953 | XPF | KFP frankı | Fransa Polineziyası, yeni Kalendoniya, Uollis və Futuna adaları |
| 954 | XEU | EKYU (Avropa valyutası vahidi) | Avropa maliyyə əməkdaşlığı fondu |



| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 960 | XDR | SDP (Xüsusi qarşılıqlı alınma hüquqları) | Beynəlxalq valyuta fondu |
| 980 | UAN | Qrivna | Ukrayna |
| 987 | BRL | Braziliya realı | Braziliya |

## BEYNƏLXALQ İXTİSARLAR

**ACP** African, Caribbean and Pacific Countries, European Union / Lome Convention
Afrika, Karib dənizi və Sakit Okean regionları ölkələri (Avropa İttifaqı, Lome konvensiyası)

**AFTA** ASEAN Free Trade Area
ASEAN-ın Azad Ticarət Zonası

**AID** Agency for International Development (US Government Agency)
Beynəlxalq İnkişaf üzrə Agentlik (ABŞ-ın hökumət agentliyi)

**ALADI** Latin American Inteqration Assocaiation
Latın Amerikası İnteqrasiya Assosiasiyası

**APEC** Asia-Pacific Economic Cooperation
Asiya-Sakit okean İqtisadi Əməkdaşlığı, APEK

**ARF** ASEAN Regional Forum
ASEAN-nın Regional Forumu

**ASAT** Anti-satellite systems
Peyk əleyhinə sistemlər

**ASEAN** Association of South-East Asian Nations
Cənub-Şərqi Asiya dövlətləri Assosiasiyası, ASEAN

**ASEM** Asia-Europe Meeting
Asiya-Avropa Görüşü

**BCEAO** Banque centrale des Etats de l'Afrique de l'Ouest
Qərbi Afrika dövlətlərinin Mərkəzi Bankı

**BENELUX** Customs Union of Belgium, the Netherlands and Luxembourq
Belçika, Niderland və Lüksenburq Gömrük İttifaqı



**BIS** Bank of International Settlements (q.v.)
Beynəlxalq Hesablar Bankı, BHB

**B-ISDN** Broadband intergrated servies digital network
Rəqəmli B.b. əlaqə xidmət şəbəkəsi

**BSEC** Black Sea Economic Cooperation
Qara Dəniz İqtisadi Əməkdaşlığı, QİƏ

**CABEI** Central American Bank for Economic Integration
Mərkəzi Amerika İqtisadi İnteqrasiya Bankı

**CARICOM** The Caribbean Community (q.v.)
Karib Birliyi, KARİKOM

**CBM** Confidence-building measures
Etibarı möhkəmləndirmə tədbirləri

**CCCN** Customs Cooperation Council Nomenclature
Gömrük Əməkdaşlığına dair məsləhət nomenklaturası

**CCD** Conference of the Communittee on Disarmament
Tərksilaha dair Komitə Konfransı

**CCEET** Centre for Cooperation with European Economics in Transition
Keçid İqtisadiyyatlı Avropa dövlətləri ilə Əməkdaşlıq Mərkəzi

**CD** Committee on Disarmament
Tərksilah Komitəsi

**CEEAC** Economic Community of Central African States
Mərkəzi Afrika dövlətlərinin İqtisadi Birliyi

**CEFTA** Central European Free Trade Area
Mərkəzi Avropa dövlətlərinin Azad Ticarət Zonası

**CEI** Central European Initiative
Mərkəzt Avropa dövlətlərinin təşəbbüsü

**CEPT** Common Effective Preferential Tariff
Ümumi fəaliyyət göstərən preferensial tarif

**CERN** European Council for Nuclear Research
Nüvə tədqiqatlarına dair Avropa Şurası

**CFCs** Cholorofluorocarbons
Xloroflürokarbonlar (ozon təbəqəsini dağıdan qazlar)

**CGCED** Caribbean Group for Cooperationin Economic Development
İqtisadi Əməkdaşlıq sahəsində Əməkdaşlığa dair Karib Qrupu

**CIPEC** Intergovemental Committee of Copper Exporting Countries
Mis İxrac edən Ölkənin Hökumətlərarası Komitəsi

**CIS** Commonwealth of independent States
Müstəqil Dövlətlər Birliyi, MDB

**CITES** Convention on International Trade in Endangered Srecies
Təhlükəli Mallarla Beynəlxalq Ticarət haqda Konvensiya

**CNAD** Conference of National Armaments Directors
Milli silah sahələri rəhbərlərinin konfransı

**COMESA** Common Market for Eastern and Southern Africa
Şərqi və Cənubi Afrika ölkələrinin Ümumi Bazarı

**CONDECA** Central American Defence Council
Mərkəzi Amerika Müdafiə Şurası, KONDEKA

**COREPER** Council of Permament Representatives (EU) (q.v.)
Daimi Nümayəndələr Komitəsi (AB)

**CPISA** Convention on the privileges and immunities of Specialized Agencies
İxtisaslaşdırılmış idarələrin imtiyaz və immunitetlərinə dair konvensiya



**CPIUN** Convention on the privileges and immunities of the UN
BMT-nin imtiyaz və immunitetlərinə dair konvensiya

**CPLP** Lusophone Community
Portuqaliya dili ölkələrin Birliy

**CRSIO** Convention on the representation of states in their relations with international organizations
Beynəlxalq təşkilatlarla münasibətlərində dövlətlərin sədrliklərinə dair Konvensiya

**CSM** Convention on Special Missions
Xüsusi Missiyalar haqqında Konvensiya

**CUSRPG** Canada-US Regional Planning Group
Planlaşdırma üzrə Kanada-Amerika Regional Qrupu

**DAC** Development Assistance Committee (OECD)
İnkişafa Yardım Komitəsi (YƏYT)

**DCM** Deputy Chief of Mission
Missiya rəhbərinin müavini

**EAEC** European Atomic Energy Community (EURATOM)
Avropa Atom Enerji Birliyi

**EACC** Euro-Atlantic Cooperation Council
Avropa Atlantik Əməkdaşlığı Şurası, AAƏŞ

**EBRD** European Bank for Reconstruction and Development
Avropa Yenidənqurma və İnkişaf Bankı, AYİB

**ECA** Economic Commission for Africa (UN)
Afrika üçün İqtisadi Komissiya (BMT)

**ECE** Economic Commission for Europe (UN)
Avropa üçün İqtisadi Komissiya (BMT)

**ECLAC** Economic Commission for Latin America and the Caribbean (UN)
Latın Amerikası dövlətləri və Karib dənizi hövzəsi ölkələri üçün İqtisadi Komissiya (BMT)

**ECOBANK** Economic Community Bank
Qərbi Afrika dövlətlərinin İqtisadi Birliyi Bankı

**ECOSOC** Economic and Social Council (UN)
BMT-nin İqtisadi və Sosial Şurası, EKOSOS

**ECOMOG** ECOWAS Monitoring Group
Qərbi Afrika dövlətlərinin İqtisadi Birliyi

**ECSC** European Coal and Steel Community
Daş kömür və Polad üzrə Avropa Birliyi

**EDF** European Development Fund
Avopa İnkişaf Fondu

**EEA** European Economic Area
Avropa İqtisadi Birliyi Məkanı, AİBM

**EEC** European Economic Community
Avropa İqtisadi Birliyi, AİB

**ECOWAS** Economic Community of West African States
Qərbi Afrika ölkələrinin İqtisadi Birliyi, EKOVAS

**EEZ** Exclusive Economic Zone
Müstəsna İqtisadi Zona

**EFTA** European Free Trade Association
Avropa Azad Ticarət Assosiasiyası, AATA

**EIB** European Investment Bank (EU)
Avropa İnvestiya Bankı, AB

**ELDO** European Launcher Development Organization
Daşıyıcı raketlərin inkişafı üzrə Avropa Təşkilatı



**EMI** European Monetary Institute
Avropa Valyuta İnstitutu

**EMS** European Monetary System
Avropa Valyuta Sistemi, AVS

**EMU** Economic and monetary union (EU)
İqtisadi və Valyuta İttifaqı, (AB)

**ENEA** European Nuclear Energy Agency (OECD)
Nüvə Enerjisi üzrə Avropa Agentliyi

**ERM** European Exchange Rate Mechanism (EU)
Valyuta Mübadiləsi üzrə Avropa Mexanizmi

**ESCAP** Economic and Social Commission for Asia and the Pacific (UN)
Asiya və Sakit Okean üçün İqtisadi və Sosial Komissiya, (BMT)

**ESCWA** Economic and Social Commission for Western Asia (UN)
Qərbi Asiya üçün İqtisadi Komissiya, (BMT)

**ESRO** European Space Research Organization
Kosmik Məkanın tədqiqi üzrə Avropa Təşkilatı

**FAO** Food and Agriculture Organization
Birləşmiş Millətlər Tşəkilatının ərzaq və kənd təsərrüfatı üzrə təşkilatı, FAO

**FCO** Foreign and Commonwealth Office (UK)
Xarici və Britaniya Birliyi İşləri üzrə Nazirlik, (Böyük Britaniya)

**GATT** General Agreement on Tariffs and Trade
Rüsum və Ticarət üzrə Baş Saziş, QATT

**CAB** General agreement to borrow
Borclar haqqında Ümumi Əsasnamə, (BUYB)

| | | |
|---|---|---|
| **GDP** | Gross Domestic Product<br>Ümumi Daxili Məhsul |
| **GEF** | Global Environment Facility (IBRD)<br>Qlobal Ekoloji Fond (BYİB) |
| **HABITAT** | United Nations Centre for Human Settlements (Nairobi)<br>BMT-nin Yaşayış məntəqələri üzrə mərkəzi (Nayrobi) |
| **HDTV** | High-definition television<br>Yüksək dəqiqliyə malik televiziya |
| **IADB** | Inter-American Development Bank<br>Amerika Ölkələrarası İnkişaf Bankı |
| **IAEA** | International Atomic Energy Agency<br>Atom Enerjisi üzrə Beynəlxalq Agentlik, MAQATE |
| **IATA** | International Air Transport Association<br>Beynəlxalq Avianəqliyyət Assosiasiyası |
| **IBRD** | International Bank for Reconstruction and Development<br>Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı, BYİB |
| **ICAO** | International Civil Aviation Organization<br>Beynəlxalq Mülki Aviasiya Təşkilatı, İKAO |
| **ICBM** | Inter-Continental Ballistic Missile<br>Qitələrarası ballistik raket |
| **ICFTU** | International Confederation of Free Trade Union (Brussels)<br>Beynəlxalq Azad Həmkarlar İttifaqları Konfederasiyası |
| **ICJ** | International Court of Justice<br>Beynəlxalq Məhkəmə (BMT) |
| **ICO** | Islamic Conference Organization<br>İslam Konfransı Təşkilatı, İKT |



| | |
|---|---|
| **ICSID** | The International Center for the Settlement of Investment Disputes<br>İnvestiya mübahisələrinin nizamlanması üzrə beynəlxalq mərkəz |
| **IDA** | International Development Association (IBRD)<br>Beynəlxalq İnkişaf Assosiasiyası (BYİB) |
| **IDB** | Inter-American Development Bank<br>Amerika ölkələrarası inkişaf bankı |
| **IEA** | International Energy Agency<br>Beynəlxalq Enerji Agentliyi |
| **IFAD** | International Fund of Agricultural Development<br>Beynəlxalq kənd təsərrüfatının inkişaf fondu |
| **IFC** | International Finance Corporation (IBRD)<br>Beynəlxalq Maliyyə Korporasiyası (BYİB), BMK |
| **ILC** | International Law Commission<br>Beynəlxalq Hüquq Komissiyası |
| **ILO** | International Labour Organization<br>Beynəlxalq Əmək Təşkilatı, BƏT |
| **IMF** | International Monetary Fund<br>Beynəlxalq Valyuta Fondu, BVF |
| **IMO** | International Maritime Organization<br>Beynəlxalq Dəniz Təşkilatı, İMO |
| **INF** | Intermediate Nuclear Force<br>Aralıq təsir radiuslu nüvə silahları |
| **INIS** | International Nuclear Information System<br>Nüvə enerjisi üzrə beynəlxalq informasiya sistemi |

**INSTRAW** International Research and Training Institute for the Advancement of women
Qadınların vəziyyətini yaxnılaşdırmaq üçün beynəlxalq elmi-tədqiqat mərkəzi

**INTERPOL** International Criminal Police Organization
Beynəlxalq cinayət axtarışları polisi, İNTERPOL

**IONARC** Indian Ocean Association for Regional Cooperation
Hind Okeanı üzrə Regional Əməkdaşlıq Təşkilatı

**ITU** International Telecommunications Union
Beynəlxalq telekommunikasiya üzrə təşkilat, BET

**LAFTA** Latin American Free Trade Area
Latın Amerikası Azad Ticarət Zonası

**LAIA** Latin American Integration Association
Latın Amerikası İnteqrasiya Assosiyasiyası

**LDC** Less-developed country
Daha az inkişaf etmiş ölkə (ən az inkişaf etmiş)

**LLDC** Least-developed country
Ən az inkişaf etmiş ölkə (inkişaf etməkdə olan)

**MBFR** Mutual and Balanced Force Reductions
Silahlı qüvvələrin qarşılıqlı tarazlaşdırılmış ixtisarı

**MCCA** Central American Common Market
Mərkəzi Amerika Ümumi Bazarı

**MERCOSUR** Southern common market
Ümumi Cənubi Amerika bazarı, MERKOSUR

**MFA** Multi-fibre arrangement
Toxuculuq məhsullarına dair saziş

**MFN** Most-favoured nation
Ən əlverişli rejim



**MIGA** Multilateral Investment Guarentee Agency (IBRD)
İnvestisiyalara təminat verilməsi ilə bağlı çoxtərəfli agentlik, BYİB

**MRU** Mano River Union
Mano çayı dövlətləri ittifaqı

**NAB** New Arrangement to Borrow
Borclar haqqında yeni saziş

**NACC** North Atlantic Cooperation Council
Şimali Atlantika Əməkdaşlıq Şurası, ŞAƏŞ

**NAFTA** North American Free Trade Agreement
Şimali Amerika Azad Ticarət Sazişi, NAFTA

**NATO** North Atlantic Treaty Organization
Şimali Atlantika Hərbi Bloku Təşkilatı, NATO

**NBC** Nuclear, Biological, Chemical
Nüvə, bioloji, kimyəvi

**NEA** Nuclear Energy Agency
Nüvə Enerjisi üzrə Agentlik

**NGO** Non-governmental Organization
Qeyri-hökumət Təşkilatı

**NIC** Newly industrializing country
Yenicə sənayeləşməkdə olan ölkələr

**NIEO** New International Economic Order
Yeni Beynəlxalq İqtisadi Qayda

**NORDEK** Nordic Union
Şimal İttifaqı

**NPT** Treaty on the Non-Proliferation of Nuclear Weapons
Nüvə silahının yayılmamasına dair müqavilə

**OAPEC** Organization of Arab Perloleum Exporting Countries
Neft İxrac edən Ərəb ölkələri Təşkilatı, OAPEK

**OAS** Organization of American States
Amerika Dövlətləri Təşkilatı, ADT

**OAU** Organization of African Unity, OAE
Afrika Birliyi Təşkilatı

**OCAS** Organization of Central American States
Mərkəzi Amerika Dövlətləri Təşkilatı

**ODA** Official Development Assistance (UNCTAD)
İnkişafa dair Rəsmi Yardım

**ODIHR** Office for Democratic Institutions and Human Rights (OSCE)
Demokratik İnstitutlar və İnsan Hüquqları Bürosu, DİİHB

**OECD** Organization of Economic Cooperation and Development
İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, İƏİT

**OECS** Organization of Eastern Caribbean States
Şərqi Qəraib Dövlətləri Təşkilatı

**OPEC** Organization of the Petroleum Exporting Countries
Neft ixrac edən ölkələrin təşkilatı, OPEK

**OSCE** Organization of Security and Cooperation in Europe
Avropada Təhlükəsizilk və Əməkdaşlıq Təşkilatı, ATƏT

**p.a.** per annum – latın dilində: ildə, illik

**PALOR** Organization of Lusophone African States
Afrikanın portuqaldilli dövlətlərinin təşkilatı

**p.c.** Per capita – latın dilində: adam başına

**PECC** Pacific Economic Cooperation Council
Sakit Okean İqtisadi Əməkdaşlıq Şurası

**PFP** Partnership for Peace (NATO)
Sülh Naminə Tərəfdaşlıq, SNT



**PLO** Palestine Liberation Organization
Fələstin Azadlıq Təşkilatı, FAT

**PPP** Purchasing power parite
Alıcılıq gücünün pariteti

**PTA** Preferential Trade Area
Üçtün Tutulan Ticarət Zonası

**RaD** Research and Development Elmi tədqiqatlar və konstruktor – təcrübə işləmələri, ETKTİ

**RCDC** Regional Cooperation among Developing Countries
İnkişaf etməkdə olan ölkələr arasında regional əməkdaşlıq

**RDF** Rapid Deployment Force
Çevik Əməliyyat Qüvvələri

**RNC** River Niger Commission or the River Niger Basin Authoruty
Nigeriya Çayı Dövlətlərinin Komissiyası və ya Nigeriya Çayı Hövzəsi Dövlətlərinin Şurası

**SAARC** South Asian Association for Regional Cooperation
Cənubi Asiya Regional Əməkdaşlıq Assosiasiyası

**SACLANT** Supreme Allied Commander Atlantic
Şimali Atlantika İttifaqı qoşunlarının ali baş komandanı

**SACEUR** Supreme Allied Commander Europe
Avropada NATO hərbi qüvvələrinin ali baş komandanı

**SACU** Southern African Custons Union
Cənubi Afrika Gömrük İttifaqı

**SADC** Southern African Development Community
Cənubi Afrika İnkişaf Birliyi

**SALT** Strategic Arms Limitation Talks
Strateji silahların məhdudlaşdırılması üzrə danışıqlar

**SAM** Surface-to-air missile
Yer-hava raketi

**SATCOM** Satellite Communication
Peyk rabitəsi

**SDI** Strategic Defence Initiative
Strateji Müdafiə Təşəbbüsü

**SDR** Special drawing rights (IMF)
Xüsusi borcalma hüququ (BVF), SDR

**SEANWFZ** South-East Asia Nuclear Weapon-Free Zone
Cənub Şərqi Asiyada nüvəsiz zona

**SELA** Latin American Economic System
Latın Amerikası İqtisadi Sistemi

**SPC** South Pacific Commission
Cənubi Sakit okean regionu komissyiası

**SPF** South Pacific Forum
Cənubi Sakit okean Regionu Forumu

**SPOCC** South Pacific Organizations Coordinating Committee
Cənubi Sakit okean Təşkilatlarının Koordinasiya Komitəsi

**STABEX** System of Stabilazation of Export Earning (Lome Convention)
İxrac gəlirinin sabitləşməsi sistemi (Lome Konvensiyası)

**START** Strategic Arms Reduction Talks
Strateji silahların ixtisarı ilə bağlı danışıqlar



**SYSMIN** System of Stabilization of Mining Exports (Lome Convention)
Dağ-mədən istehsalı məhsullarının ixracının sabitləşməsi sistemi (Lome Konvensiyası)

**TAC** Treaty of Amity and Cooperation
Dostluq və Əməkdaşlıq Müqaviləsi

**TNC** Transnational Corporation
Transmilli Korporasiya, TMK

**UAM** Union Africaine et Malagache
Afrika ölkələri və Madaqaskar İttifaqı

**UN** United Nations
Birləşmiş Millətlər Təşkilatı (BMT)

**UNAMIR** UN Assistance Mission to Rwanda
BMT-nin Ruandaya Yardım Missiyası

**UNCDF** United Nations Capital Development Fund
BMT-nin Əsaslı İnkişaf Fondu

**UNCITRAL** UN Commission on International Trade Law
BMT-nin Beynəlxlq Ticarət Hüququ üzrə Komissiyası

**UNCTAD** United Nations Conference on Trade and Development
BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı, YUNKTAD

**UNDC** UN Disarmanent Comission
BMT-nin Tərksilah üzrə Komissiyası

**UNDOF** UN Disengagement Observer Force
Qoşunların ayrılmasına nəzarət üzrə BMT qüvvələri

**UNDP** United Nations Development Programme
BMT-nin İnkişaf Proqramı

**UNDRO** United Nations Disaster Relief Office
BMT-nin fəlakətləri aradan qaldırılmaq üzrə bürosu

| | | |
|---|---|---|
| **UNEP** | United Nations Environment Programme<br>BMT-nin Ətraf mühitlə bağlı Proqramı, YUNEP |
| **UNESCO** | United Nations Educational Scientific and Cultural Organization<br>BMT-nin Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilatı, YUNESKO |
| **UNFPA** | United Nations Fund of Population Activities<br>Əhalinin məskunlaşmasına dair BMT Fondu, YUNFPA |
| **UNHCR** | United Nations High Commission for Refugees<br>Qaçqınların işi üzrə BMT-nin Ali Komissarının İdarəsi |
| **UNICEF** | United Nations Children's Fund<br>Uşaqlara Beynəlxalq Yardım Fondu (BMT), YUNİSEF |
| **UNIDO** | United Nations Industrial Development Organization<br>Sənaye İnkişafı üzrə BMT Təşkilatı, YUNİDO |
| **UNIFIL** | United Nations Interum Force in Lebanon<br>BMT-nin Livanda Müvəqqəti Silahlı Qüvvələri |
| **UNITAR** | United Nations Institute for Training and Research<br>BMT-nin Tədris vəElmi-Tədqiqat İnstitutu, YUNİTAR |
| **UMMOT** | UN Mission of Observers in Tajikistan<br>BMT-nin Tacikistanda Müşahidəçilər Missiyası |
| **UNRISD** | United Nations Research Institute for Social Development<br>BMT-nin Sosial İnkişaf Tədqiqatları İnstitutu |
| **UNRWA** | United Nations Relief and Works Agency for Palestine Refugees and the Near East<br>BMT-nin Fələstin qaçqınlarına yardım və işlərin təşkili üzrə Yaxın Şərq agentliyi |
| **UNSSD** | UN Special Session on Disarmament<br>BMT-nin Tərksilah üzrə Xüsusi Sessiyası |



| | |
|---|---|
| **UNTSO** | United Nations Truce Supervision Organization<br>BMT-nin Barışığa Nəzarət Təşkilatı |
| **UNU** | United Nations University<br>BMT Universiteti |
| **UPU** | Universal Postal Union<br>Ümumdünya Poçt İttifaqı, ÜPİ |
| **VER** | Voluntary Export Restriction (EU)<br>Könüllü İxrac Məhdudiyyəti (AB) |
| **VRA** | Voluntary Restraint Arrangement (GATT)<br>Könüllü Məhdudiyyət Haqqında Razılıq (QATT) |
| **VNR** | Video News Release<br>Video Yenilikləri Relizi (veriliş, yayım) |
| **WEU** | Western European Union<br>Qərbi Avropa İttifaqı |
| **WFC** | World Food Council<br>Ümumdünya Ərzaq Şurası |
| **WFP** | World Food Programme (UN/FAO)<br>Ümumdünya Ərzaq Proqramı (BMT/FA) |
| **WHO** | World Health Organization<br>Ümümdünya Səhiyyə Təşkilatı, ÜST |
| **WIPO** | World Intellectual Property Organization<br>Ümumdünya İntellektual Mülkiyyət Təşkilatı, ÜİMT |
| **WMO** | World Meteorological Organization<br>Ümumdünya Meteoroloji Təşkilatı, ÜMT |
| **WTO** | World Trade Organization<br>Ümumdünya Ticarət Təşkilatı, ÜTT |
| **ZOPFAN** | Zone of Peace, Freedom and Neutrality<br>Sülh, Azadlıq və Bitərəflilik Zonası |

## MÜƏLLİFLƏR

Allahverdiyev Ə.V., Cəfərov İ.M., Əlibəyli H.C., Əliyeva S.F.., Əliyev İ.M., Əmirov M.M., Əsgərova M.P., Əsgərov M.M., Hacıyev M.İ., Həmidov S.S., Həsənli Y.H., Həsənov E.A., Hüseynli N.Z., Hüseynli N.İ., Hüseynova A.N., Hüseynova N.N., İbrahimov M.A., Qaraməmmədli Y.A., Qasımov F.Z., Qasımlı M.C., Qəhrəmanova Ş.Ş., Qəribova J.Ə., Quliyev Q.H., Qurbanov Q.İ., Muradəliyeva E.B., Nərimanov N.M., Nəsirov E.X., Rəhimova S.H., Rüstəmova A.V., Rzaxanov R.N., Rzayev H.N., Rzazadə A.B., Şahmuradov A.Ş., Şükürov K.K., Tahirzadə Ə.Ş., Vəliyev Q.N., Yaşar Qurban, Zeynalova M.A., Zeynalov R.Y.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə, Bakı, 1976-1987., Дипломатический словарь в 3-х томах. Т.1. Москва., 1984., Дипломатический словарь в 3-х томах. Т.2. Москва., 1985., Дипломатический словарь в 3-х томах. Т.3. Москва., 1986., Большой юридический словарь. Москва, 2001, История дипломатии в 3-х томах. Т.1. Москва., 1941., История дипломатии в 3-х томах. Т.2. Москва-Ленинград., 1945., История дипломатии в 3-х томах. Т.3. Москва-Ленинград., 1945., Краткий дипломатический словарь. Баку., 1993., Советский энциклопедический словарь. Москва., 1985.



**Diplomatiya: ensiklopedik lüğət. «Diplomat»**, Bakı, 2005, 580 səh.

Kitabda beynəlxalq münasibətlər və diplomatiya sahəsində ən çox işlənən anlayış və terminlər, diplomatik protokol və fəaliyyət, diplomatik korpus, beynəlxalq hüququn mühüm problemləri, beynəlxalq təşkilatların fəaliyyəti, Azərbaycanın və dünyanın görkəmli diplomatlarının və siyasi xadimlərinin həyat və fəaliyyətləri haqqında məlumatlar verilmişdir. Kitab diplomatlar, siyasətçilər, hüquqşünaslar, iqtisadçılar, müəllimlər, tələbələr və maraqlananlar üçün nəzərdə tutulmuşdur.

© **«Diplomat»** **2005**
® **«Planet Press»**

*Bu kitabın çapı və yenidən nəşr etmək hüququ yalnız Bakı Diplomatiya Universitetinə məxsusdur. Müəlliflik hüququ Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə qorunur.*

**Elmi redaktorlar:** *prof. R.Zeynalov*
*prof.H.Əlibəyli*
**Texniki redaktor:** *R.Fərzəliyev*
**Korrektor:** *Ç.Təhməzov*
**Kompüter dizaynı:** *N.İsmayılov*

**Nəşriyyatın direktoru:** *Əli Həsən*
**Naşir:** *Təhməzov B.*
**Operator:** *Mirzəquliyeva S.*
**Korrektor:** *Məmmədova S.*

Yığılmağa verilmişdir 10.08.2005. Çapa imzalanmışdır 18.12.2005.
Kağız formatı 60x90 1/16 Ofset kağızı № 1. Çap v. 36.
Tirajı 2000. Sifariş № 12. Müqavilə qiyməti ilə.

BdipU-nun kompüter mərkəzində və «Diplomat» nəşriyyatının mətbəəsində yığılmış, səhifələnmiş və hazır diapozitivlərdən istifadə olunaraq «Planet Press» nəşriyyat-poliqrafiya mərkəzində ofset üsülu ilə çap edilmişdir.

**Ünvan:** *Bakı ş., Ə.Ələkbərov küçəsi, 522-ci məhəllə, ev «E»*
**Telefon:** *510-48-82; mob: (050)351-21-84., (055)795-44-46*





**BAKI DİPLOMATİYA UNİVERSİTETİ**

Bakı Diplomatiya Universiteti (BDipU) beynəlxalq iqtisadi münasibətlər, beynəlxalq hüquq, beynəlxalq jurnalistika, hüquqşünaslıq və s. istiqamətlərdə kadr hazırlığı sahəsində ixtisaslaşmış ali təhsil müəssisəsi kimi 1992-ci ildən fəaliyyət göstərir. Burada 3 pillədə: bakalavr, magistratura və doktorantura üzrə kadr hazırlığı həyata keçirilir. Təhsil Azərbaycan, rus, ingilis (və bir sıra digər xarici dillərdə) aparılır. BDipU dövlət qeydiyyatından keçmiş, dövlət statusuna malik təhsil müəssisəsidir. Hal-hazırda bir neçə beynəlxalq təşkilatın: Dünya Diplomatiya Akademiyaları və Beynəlxalq Münasibətlər Universitetləri Birliyinin; Mərkəzi və Şərqi Avropa Beynəlxalq Tədqiqatlar Birliyinin; MDB ölkələri Beynəlxalq Münasibətlər Universitetləri Assosiasiyasının və Qara dəniz hövzəsi Universitetləri Birliyinin üzvüdür. BDipU dünyanın 25-dən çox ölkəsinin qabaqcıl ali məktəbləri: Moskva Beynəlxalq Münasibətlər İnstitutu, Türkiyənin Süleyman Dəmirəl Universiteti, Kirne Amerikan Universiteti, Şərqi Aralıq Dənizi Universiteti, Rumıniyanın «Ovidius» Universiteti, Macarıstanın Budapeşt Korvinus Universiteti və s. ilə tələbə, müəllim və təcrübə mübadiləsi edir. Bağlanmış əməkdaşlıq müqavilələri çərçivəsində bu universitetin tələbələri II kursdan etibarən bakalavr təhsilini, bakalavr təhsilini başa vuranlar isə magistratura təhsilini həmin ali məktəblərdə davam etdirmək imkanı əldə edirlər.

Bakı Diplomatiya Universitetində təhsil həm maddi-texniki baza təchizatı, işin təşkili və həm də elmi-pedaqoji potensial baxımından müasir dünya standartlarına uyğun qurulmuşdur. Təhsil ödənişlidir. Buna baxmayaraq tələbələrə təhsil haqqı ödənişində müvəffəqiyyət göstəricilərinə, ailə vəziyyətinə və s. görə güzəşt və imtiyazlar verilir. O cümlədən, TQDK tərəfindən keçirilən test imtahanlarının nəticələrinə görə 550-600 bal toplayan abituriyentlər I kursun illik təhsil haqqından tam, 500-550 bal toplayanlar-70%, 450-500 bal toplayanlar-50% azad edilirlər. Sonrakı tədris illərində tələbələrin müvəffəqiyyət göstəricilərinə və s. görə müxtəlif güzəştlər tətbiq edilir.

Təhsil müddətini başa vuran məzunlara dövlət nümunəli ali təhsil sənədi – diplom verilir və onlar BDipU-da, həmçinin digər ali təhsil müəssisələrində magistratura və aspiranturada təhsillərini davam etdirmək və ya ali təhsilli mütəxəssis kimi əmək fəaliyyətinə başlamaq hüququ qazanırlar.

***Ünvan: akademik Həsən Əliyev küçəsi 135$^{A}$***
***Əlaqə telefonları: 465-67-15; 465-68-44; 465-68-43***